# HEYDƏR ƏLİYEV VƏ MƏTBUAT

*müsahibələr * bəyanatlar*
*müraciətlər * çıxışlar*
*təbriklər*



# HEYDƏR ƏLİYEV
# və
# MƏTBUAT

# HEYDƏR ƏLİYEV
# və
# MƏTBUAT

*müsahibələr*

*bəyanatlar*

*müraciətlər*

*çıxışlar*

NURLAR
Nəşriyyat-Poliqrafiya Mərkəzi

BAKI - 2003

Humanitar Elmlər

247394

Ф3(2А)
Ə65

# HEYDƏR ƏLİYEV
# və
# MƏTBUAT

*dörd cilddə*

*birinci cild*

*yanvar, 1990 – iyul, 1996*

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

NURLAR
Nəşriyyat-Poliqrafiya Mərkəzi

BAKI - 2003

Redaktoru və ön sözün müəllifi
**RAMİZ MEHDİYEV**

Tərtib edənlər
**ƏLİ ABBASOV, TEYMUR ƏHMƏDOV**

**HEYDƏR ƏLİYEV VƏ MƏTBUAT** I cild (dörd cilddə)
B.; «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2003, 640 səh.

Dördcildlik kitabda Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin çoxcəhətli ictimai-siyasi fəaliyyətinin bir cəhəti – 1990-2003-cü illər ərzində ölkə daxilində, eləcə də rəsmi səfərlər zamanı xaricdə kütləvi informasiya vasitələri nümayəndələri ilə görüşləri öz əksini tapmışdır.

Birinci cilddə zəmanəmizin böyük tarixi şəxsiyyəti və siyasi xadiminin kütləvi informasiya vasitələri nümayəndələrinə 1990 – 1996-cı illərdəki müsahibə, bəyanat və müraciətləri xronoloji ardıcıllıqla verilmişdir.

Bu materiallar müstəqil Azərbaycanda son illər baş vermiş mürəkkəb ictimai-siyasi proseslər, milli dövlət quruculuğu, demokratik islahatlar, beynəlxalq aləmdə ölkəmizin nüfuzunun artması və dünya birliyində sivil ölkə kimi tanınması şəraitində dahi siyasətçi, müdrik xalq rəhbəri Heydər Əliyevin müstəsna rolu, son dərəcə gərgin, qaynar, səmərəli və məhsuldar ictimai-siyasi fəaliyyəti haqqında dolğun təsəvvür yaradır.

Dünya səviyyəli siyasi xadim və müdrik dövlət başçısı Heydər Əliyevin mətbuatla sıx əlaqəsini işıqlandıran materiallar ictimai-siyasi fikir tariximizlə maraqlanan oxucular, politoloqlar və siyasətşünaslar üçün fundamental tədqiqat mənbəyidir.

ISBN - 9952 - 403 - 14 - 3

© «NURLAR» 2003



# BÖYÜK SİYASƏT VƏ DEMOKRATİK MƏTBUAT

## *Milli oyanış və müstəqillik*

*Oxucuların diqqətinə təqdim olunan bu kitab Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin müxtəlif vaxtlarda, müxtəlif ölkələrin radio, televiziya, qəzet və jurnal müxbirlərinə, digər kütləvi informasiya vasitələri nümayəndələrinə verdiyi müsahibələrin toplusudur. Bu müsahibələr bir çox cəhətləri ilə fərqlənir və diqqəti cəlb edir.*

*Ümumiyyətlə, müsahibə müasir jurnalistikanın ən çevik və mühüm janrı kimi inkişaf edir, informasiyanın daha operativ və kütləvi forması kimi ondan kifayət qədər geniş istifadə olunur. Siyasi və kütləvi tədbirlərin keçirilməsi də adətən mətbuat konfransları və müsahibələrlə tamamlanır. Ona görə də bu janra təkcə jurnalistlər deyil, siyasət xadimləri də öz fəaliyyətlərində getdikcə daha çox üstünlük verirlər. Lakin onu da qeyd etmək lazımdır ki, hər siyasətçi və dövlət adamı kütləvi informasiya vasitələrinə yetərincə müsahibə verə bilmir. Bunun özü ciddi siyasi yetkinlik və hazırlıq tələb edir. Elə hallar da olur ki, siyasət adamları jurnalistlərlə ünsiyyətdən çəkinir, mətbuat nümayəndələri ilə dil tapa, onlarla münasibət qura bilmirlər. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təcrübəsi və jurnalistlərlə əməkdaşlığı diqqətə layiqdir. Onun müsahibələri bir qayda olaraq həmişə hər iki tərəfi və geniş ictimaiyyəti razı salır.*

*Bu müsahibələrin ən vacib, önəmli cəhəti Prezidentin mövcud siyasi vəziyyəti çox aydın və ətraflı canlandırmasıdır. Müsahibələrdə mövcud siyasi vəziyyətə və hadisələrə isti-isti, düzgün və uzaqgörənliklə qiymət verilməsi geniş auditoriya üçün həmişə maraq doğurur. Kitaba daxil edilmiş müsahibələr Heydər Əliyevin yenidən siyasi fəaliyyətə qayıtması dövrü ilə bağlı olduğuna görə onlar çağdaş tarixi gerçəkliklərin yetərincə əhatəli əks etdirilməsi baxımından da çox əhəmiyyətlidir və yaxın tariximizə yenidən nəzər salmağa, hadisələri yenidən təhlil etməyə imkan yaradır.*

*Qeyd etmək lazımdır ki, Azərbaycan xalqı Sovet hakimiyyəti süqut etdikdən sonra və hətta Sovet hakimiyyətinin son illərində çox çətin vəziyyətə düşmüş, ciddi problemlərlə üzləşmişdi. O zaman bu problemlərin, taleyüklü məsələlərin həlli çox ciddi radikal addımlar atmağı tələb edirdi. Bu addımları atmaq üçün isə dövrün hadisələrinə, dünyada gedən siyasi proseslərə düzgün və obyektiv qiymət vermək lazım idi. Təəssüflər olsun ki, o dövrdə nə tarixi dərindən təhlil edən, nə də ciddi addımlar atan rəhbərlər, güclü siyasətçilər meydana gəlmədi. Ona görə də xalq daha böyük faciələrə düçar oldu.*

*Sovet hakimiyyətinin son dövrlərində «perestroyka» adı altında aparılan siyasət əslində dövlətin tənəzzülə uğramasına, Qarabağ və onun ətrafındakı xalqı aldatmağa, ölkəni və əhalini daha ciddi çətinliklərə salmağa xidmət edirdi. Qorbaçov siyasətinin zərərli, aldadıcı mahiyyəti barədə o dövrdə söz açmaq mümkün deyildi, çünki «perestroyka» adı altında xalqa Sovet hökumətinin yeniləşdiriləcəyi təlqin edilirdi. Həqiqətdə isə əsas məsələ kommunist rejimini və sovet sistemini təkmilləşdirmək, nə vasitə ilə olursa olsun, imperiya siyasətini həyata keçirmək, hansı yolla olursa olsun, «böyük dövləti» qorumaq idi.*

*Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra yaranmış şərait həmin tarixi hadisələri operativ və düzgün qiymətləndirməyi, çıxış yollarını müəyyənləşdirməyi tələb edirdi. Onu da qeyd etmək lazımdır ki, belə bir şəraitdə, Azərbaycanın tale məsələsinin həlli üçün həmin dövrlərdə Heydər Əliyev kimi siyasətçinin Azərbaycana qayıtması ən labüd, zəruri və gərəkli hadisə idi. Doğrudur, onun böyük siyasətə qayıdışı Moskvanı və Azərbaycanın düşmənlərini qorxuya salırdı. Ölkənin siyasi burulğana düşdüyünü, xalqın aldadıldığını o zaman hər adam deyə və əsaslandıra bilməzdi. Gerçəklik isə göz qabağında idi. Bütün sovet respublikaları kimi Azərbaycan da çökürdü. İqtisadi tənəzzül və sovet ideologiyasının iflasa uğraması ölkəni parçalanmağa doğru aparırdı. Kommunist Partiyası artıq gücdən düşdüyünə görə əvvəlki «rəhbər göstərişləri» ilə xalqı inandıra bilmirdi. Xalq iqtisadi sıxıntılardan xilas olmaq, buxovlardan yaxasını qurtarmaq istəyirdi. Artıq yeni düşüncəyə və ideologiyaya ehtiyac yaranmışdı. Qorbaçov isə yeniləşdirmə, yenidənqurma adı altında açıq-açığına ölkənin dağılmasının qarşısını almağı özünə məqsəd qoymuşdu. Xalq isə onun «yenidənqurma»sını ironiya ilə qarşılayırdı.*



*Heydər Əliyev o vaxtlar çətinliklərə baxmayaraq bu mürəkkəb məsələlərə öz fikrini, öz ciddi münasibətini bildirirdi. O, heç nədən çəkinmədən, cəsarətlə Qorbaçov siyasətinin xalqa zidd mahiyyətini açıb göstərirdi. Məsələn, həmin dövrdə Naxçıvana pənah gətirən, doğma xalqına arxalanan Heydər Əliyev «Sovet Gürcüstanı» qəzetinin müxbirinə müsahibə verərək öz fikirlərini xalqa çatdırmışdı. Bu müsahibədə dünyada və Sovet dövlətində gedən proseslərə ilkin və düzgün qiymət verilirdi. «Perestroyka» adı altında yeni imperiya siyasəti yeridildiyi və onun bütün xalqların mənafelərinə zidd xarakteri barədə fikirlər söylənilirdi. Müsahibədə deyilirdi: «... son illərdə dünyada, ölkədə gedən ictimai, siyasi proseslər keçmişimizə münasibəti, ümumi dünyagörüşünü dəyişdirmiş, Sovet İttifaqında mərkəzlə respublikalar arasında olan iqtisadi, siyasi əlaqələr açılmış, çılpaqlaşmış, hansı tərəfin daha çox xeyir götürdüyü, zərər çəkdiyi aydınlaşmışdır. Bir neçə respublikada baş vermiş milli demokratik hərəkatların İttifaq dövləti tərəfindən zorakılıqla, hərbi qoşun hissələri vasitəsilə boğulması tədbirləri İttifaqın imperiya siyasəti apardığını tam aşkar etmişdi. İttifaq dağılmağa başlamışdır.*

*Ölkənin rəhbərliyi 70 il mövcud olan İttifaqın yararsız olduğunu bəyan edərək, respublikaları yeni İttifaq yaratmağa dəvət edir. Qorbaçov bir neçə çıxışında hətta belə demişdi ki, guya ölkədə indiyə qədər həqiqi İttifaq olmayıb, respublikalar heç də İttifaqda yaşamayıb, əsl İttifaq bundan sonra yaranacaqdı. Həqiqəti isə desək, yeni İttifaq layihəsi əvvəlkindən də yararsızdır».*

*Bu fikirlər yeni bir tarixi dövrün başlanğıcından xəbər verirdi. Həm də Sovet siyasətinin imperialist mahiyyətini açıb göstərirdi. Bu gün bəlkə adi görünən həmin sözlər o dövr üçün olduqca ciddi, aktual və əhəmiyyətli idi. Çünki xalq burulğana salınmışdı və «yolumuz hayanadır» sualı hər kəsi düşündürsə də ona cavab verməyə kimsənin imkanı yox idi. Həmin dövrdə zəngin təcrübəsi ilə tanınan, həm də Sovet siyasətində bişmiş, onun bütün mexanizmlərinin necə işlədiyini dərindən bilən, siyasi müşahidələri ilə xalqın hara sürükləndiyini aydın görən Heydər Əliyevin fikri əsaslı və inandırıcı idi. O deyirdi:*

*«Respublikanın keçmiş rəhbəri kimi, mən də belə yararsız və naməlum İttifaqa xidmət etdiyimi, buraxdığım səhvləri etiraf edirəm və heyfsilənirəm. Nəzərə almaq lazımdır ki, hər dövrün öz hökmü var. Biz də, demək olar ki, bu salonda oturanların hamısı o hökmün təsiri altında olmuşuq. İndi isə hesab edirəm ki, bizim üçün 70 illik imtahan bəsdir. Yəni bu İttifaqa girməyi Azərbaycan xalqı üçün rəva bilmirəm».*

*Bu sözlər yalnız vəziyyətə aydınlıq gətirmək üçün deyilmirdi. Yerlərdə Qorbaçovun imperiya siyasətinə kor-korana qoşulan adamlar və onun vəzifəyə gətirdiyi «buyuruq qulları» öz vəzifələri naminə xalqı aldadır, onu yeni İttifaq müqaviləsinə şirnikdirir və geniş təbliğat aparırdılar.*

*O dövrdə, ayrı-ayrı bölgələrdə, o cümlədən də Azərbaycanda Sovet siyasətinin yeni müdafiəçilərini meydana gətirmişdilər. Bu adamlar müxtəlif məclislərdə, mətbuatda, radioda, televiziyada və hətta Ali Sovetdə İttifaq müqaviləsinin əhəmiyyətindən danışır, hər vəchlə xalqı yeni İttifaq müqaviləsinə inandırmağa çalışırdılar. Onlar cürbəcür kitablar nəşr etdirirdilər və hər vasitə ilə sübut etmək istəyirdilər ki, İttifaq dağılarsa Azərbaycan və digər respublikalar müstəqil yaşaya bilməyəcək, xalq daha böyük faciələrlə üzləşəcəkdir.*

*Heydər Əliyev həmin məsələyə də cəsarətlə öz münasibətini bildirir, yeni İttifaq müqaviləsinin əhəmiyyətsizliyini sübuta yetirirdi. Lakin bəziləri hətta xalqı qorxutmaqla bu müqaviləyə təhrik etməyə cəhd göstərirdilər. Onların dediyinə görə xalq bu müqaviləyə «hə» deməsə Azərbaycanda vətəndaş müharibəsi baş verəcək. Heydər Əliyev isə cəsarətlə bildirirdi ki, Azərbaycan onsuz da müharibəyə cəlb olunub, onun ərazi bütövlüyünə qəsd edilib, erməni separatçıları, erməni millətçiləri Sovet rəhbərliyi tərəfindən dəstəklənərək Qarabağ münaqişəsini törədiblər. Belə bir halda Azərbaycanın müstəqilliyindən danışmaq artıqdır, vətəndaş müharibəsinə cəlb edilməsi fikri ilə də razılaşmaq olmaz. Ona görə ki, artıq Azərbaycan ağır iqtisadi, siyasi vəziyyətlə üzləşdirilib. Azərbaycanın paytaxtı Bakı şəhərinə ordu yeridilib, şəhər güllələran edilib, xalqın qanı tökülüb.*

*Həmin dövrdə 1990-cı ilin 20 yanvar faciəsinin ört-basdır edilməsinə də ciddi-cəhdlə çalışanlar, öz günahlarını xalqın üstünə atmaq istəyənlər vardı. Heydər Əliyev bu məsələlərə də qətiyyətlə cavab verir və o zamankı rəhbərliyin xalqa zidd hərəkətlərini tənqid edirdi.*



*Uydurma İttifaq müqaviləsinin əleyhinə çıxan Heydər Əliyev onun əsassızlığını sübuta yetirməklə kifayətlənmirdi. Yeni dövrdə yeni istiqamətin, müstəqilliyə nail olmağın əhəmiyyətindən danışır, indiki mürəkkəb tarixi məqamda xalqın birləşməsinin vacib olduğunu əsaslandırırdı. O həmin müsahibəsində deyirdi:*

*«Azərbaycan xalqının birliyi yeni, demokratik, heç kəsdən asılı olmayan dövlət qurulması yolu ilə təmin oluna bilər. Doğrudur, bu yolda çətinliklər də az olmayacaqdır. Fəqət, nəyin bahasına olursa-olsun, biz buna nail olmalıyıq. Biz bu yola düşməsək, bunu gələcək nəsillər edəcək. Və onlar, tarix boyu bizi bağışlamayacaq. İndi hər bir namuslu, qeyrətli azərbaycanlı gərək öz şəxsi mənafelərini, imtiyazlarını unutsun, xalqın aqibəti, bu günü və azad gələcəyi haqqında düşünsün. Xalqın müqəddəratı hər şeydən üstün olmalıdır.*

*Azərbaycan xalqı birləşməli, öz müqəddəs doğma torpağını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır.*

*Xalq deputatlarını, bütün Azərbaycan xalqını bu yola dəvət edirəm və əmin edirəm ki, mən bu yoldan dönməyəcəyəm».*

*Bu qətiyyətli fikirlər dönüş nöqtəsində həlledici mahiyyət daşıyırdı.*

*O zaman «Ana torpaq» qəzetinin müxbirinə verdiyi müsahibədə də Heydər Əliyev Qarabağda baş verən hadisələri təhlil edir, bir çox qaranlıq məsələlərə aydınlıq gətirirdi.*

*«Ana torpaq» qəzetinə müsahibəsində Heydər Əliyev Azərbaycanda gedən dağıdıcı proseslərdən narahat olaraq onlara öz münasibətini bildirirdi. Həmin dövrdə xalqı müdafiə etmək, xalqın mövqeyini müəyyənləşdirmək vacib idi. Qarabağ problemi, xalqı parçalayan imperiya siyasətinin təzahürü idi. Qarabağ probleminin yaradılması eyni vaxtda qeyrətli və səriştəli adamların rəhbərlikdən uzaqlaşdırılması ilə müşayiət olunurdu. İdarəçilik sisteminə qəsdən səriştəsiz, təcrübəsiz adamlar işə gətirilirdi. Mafioz qruplaşmaların nümayəndələrinin hakimiyyətə gətirilməsi və on-*

*lara vəzifə verilməsi Heydər Əliyev tərəfindən ciddi tənqid olunurdu.*

*Mətbuata verdiyi müsahibələrdə Heydər Əliyev belə rəhbərlərin xalqı çətin vəziyyətə salacağını göstərir, cəmiyyətin demokratikləşməsini, xalqı birləşdirməyin vacibliyini önə çəkirdi: «Mənə elə gəlir ki, Azərbaycan xalqı ilk milli oyanış, milli dirçəliş, milli özünüdərketmə dövründə gərək müstəqil demokratik yolla inkişaf etsin. Daha dəqiq desək, gərək cəmiyyətimizdə demokratik proseslər daha da sürətlə inkişaf etdirilsin. Bizim başqa yolumuz yoxdur. Əgər bundan sonra demokratik yolla getməsək, nə Azərbaycanın tam dövlət müstəqilliyinə nail ola bilərik, nə də xalqımızın tarixini, ənənələrini əsas götürməklə, özümüzü dünya millətləri səviyyəsində hiss edə bilərik».*

## Yeni tarixi dövr və yeni düşüncənin formalaşması

*1990-92-ci illər Azərbaycanda yeni tarixi düşüncənin formalaşdığı dövrdür. Bu dövrdə köhnə ideologiya süquta uğramışdı, yeni ideologiya isə yaranmamışdı, Sovet qanunları artıq işləmirdi, yeni qanunlar isə mövcud deyildi. Keçid dövrünün bu mürəkkəb mərhələsində artıq sonrakı inkişaf istiqaməti müəyyənləşdirilməli idi. Heydər Əliyev İttifaq müqaviləsinin əhəmiyyətsiz olduğunu sübuta yetirdi və tarixi faktlarla bunun gərəksizliyini aşkar göstərdi. Keçid dövrü getdikcə çətinləşir, mürəkkəbləşir, Azərbaycanın tarixi taleyi müharibə ilə daha da gərginləşir, xalqın və Azərbaycan dövlətinin tale məsələsi gündəmin ən vacib məsələsinə çevrilirdi. Bu mərhələdə qəti söz demək çətin idi. Tarixi prosesləri diqqətlə izləyən, tarixi siyasətə yaxşı bələd olan, zəngin təcrübəsi və siyasətçi nüfuzu ilə mürəkkəblikləri aradan qaldırmağa çalışan Heydər Əliyev keçid dövründəki mürəkkəb tarixi şəraitdə öz sözünü deməliydi.*

*Yeni düşüncənin, yeni təfəkkürün formalaşmasına böyük ehtiyac olduğu bir dövrdə bu məsələlərə mane olan amillər də az deyildi. Bir tərəfdən Azərbaycanın siyasi rəhbərliyində mövqe tutmuş adamlar vəziyyəti daha da mürəkkəbləşdirir, milli birliyə mane olur, milli düşüncənin formalaşmasını əngəlləyirdilər. Bir tərəfdən də Moskva ciddi-cəhdlə Azərbaycanda hadisələrin*



*mürəkkəbləşməsində öz mövqeyini gizli və açıq şəkildə həyata keçirməyə çalışırdı. Müharibə şəraiti isə əhalini sıxır, ona gözünü açmağa imkan vermir, vətəndaşların fikir və əqidə birliyinə mane olurdu.*

*Daxili ziddiyyətlərin gərginləşməsi düşmən mövqelərin Azərbaycanda möhkəmlənməsinə şərait yaradır, yeni tarixi mərhələdə birləşdirici mexanizmləri işləməyə qoymur, xalqı birləşdirən çağırışlara mənfi təsir göstərirdi. Buna baxmayaraq həmin çətin dövrdə ayıq siyasətçi təfəkkürü hər şeyi duyur və problemləri nizama salmaqda çətinliklə də olsa, öz işini görürdü. Bu baxımdan Heydər Əliyevin həmin dövrdə mətbuatla əlaqələri, ictimaiyyətlə görüşləri, eyni zamanda müsahibələri mürəkkəb vəziyyətə aydınlıq gətirir, yeni tarixi düşüncənin, yeni milli şüurun formalaşmasına zəmin yaradırdı. Heydər Əliyevin istiqamətverici çıxışları, yeni milli düşüncənin genişlənərək siyasi xarakter almasına kömək edirdi.*

*Heydər Əliyevin o dövrdə geniş fəaliyyətinin qarşısını almaq üçün bir tərəfdən erməni terrorçuları Naxçıvan sərhədləri boyunca hücuma keçir, digər tərəfdən Naxçıvanın blokadada qalması və Xalq Cəbhəsinin səriştəsiz rəhbərlərinin yarıtmaz fəaliyyəti Naxçıvandakı qüvvələri parçalayır, fikir və ideya birliyinə mane olurdu. Bunların nəticəsində də ümummilli mənafelərimizə ciddi ziyan dəyirdi.*

*1992-ci il mayın 22-də «Həyat» qəzetinin Naxçıvandakı bölgə müxbirinə verdiyi müsahibədə Heydər Əliyev yaranmış tarixi mürəkkəb vəziyyəti təhlil edir, dolaşıq məsələlərə aydınlıq gətirirdi. Bu elə bir dövr idi ki, Naxçıvandakı vəziyyət olduqca gərginləşmişdi, Azərbaycanda siyasi mübarizələr gərgin xarakter almışdı və mövqelər o qədər də aydın görünmürdü. Naxçıvana dəmir yolu işləmirdi, Ermənistan üzərindən təyyarələrin Naxçıvana uçuşu mümkün deyildi, çünki artıq May ayında Ermənistan xəbərdarlıq etmişdi ki, təyyarələrin Ermənistan ərazisi üzərindən təhlükəsiz uçuşuna zəmanət vermir.*

*Həmin dövrdə Rusiya Federasiyasının dövlət katibi Gennadi Burbulis, Rusiyanın müdafiə naziri P.Qraçov Ermənistana gəlib gizli söhbətlər aparmışdı, bu görüşlərin nəticəsi ciddi maraq doğursa da gizli saxlanılırdı. Belə mürəkkəb şəraitdə həm ictimai və-*

*ziyyəti sabitləşdirmək, xalqın düşünən adamlarını birləşdirmək, həm də ümumi fikri Azərbaycan problemlərinin həllinə yönəltmək olduqca çətin bir məsələ idi.*

*Naxçıvanın bu cür ağır vəziyyətində Türkiyə Respublikasının vəzifəli şəxsləri ilə əlaqə saxlamaq, Qars müqaviləsinin tələblərini gündəmə gətirmək, Naxçıvanla bağlı yeni siyasi təkliflər irəli sürmək vəziyyətdən çıxış yollarının müəyyənləşməsinə kömək edirdi.*

*Bu cür gərgin şəraitdə xalqın taleyi ilə bağlı məsələləri həll etmək, böyük təcrübə və biliklə yanaşı, həm də böyük insani keyfiyyətlər, səbr və dözüm tələb edirdi. Həmin dövrdə «Rossiyskiy fermer» qəzetinə müsahibəsində Heydər Əliyev təmkinlə deyirdi: «Mən həyatda çox böyük sarsıntılar keçirməli olmuşam. Onlara yalnız möhkəm əsəblər və güclü xarakter sayəsində dözmək mümkün idi. Yüksək vəzifələrə irəli çəkdiyim, inandığım adamlar mən istefa verdikdən sonra məndən üz döndərdilər, xəyanət etdilər... böhtanlara məruz qalmışam, mənə çox şər atıblar. Lakin hər şeyə dözmüşəm». Və bütün bu məsələlərdə Heydər Əliyevin ən böyük inamı xalqa idi. Onun xalqa inamı belə gərgin anlarda ona düzgün qərar çıxarmaq imkanı verirdi.*

*Həmin dövrdə Heydər Əliyev öz dərin biliyinə, böyük səbrinə, həm də zəngin təcrübəsinə söykənərək vəziyyətin sabitləşməsi üçün əlindən gələni etdi. Bir az əvvəl vəzifəyə gəlmiş, vəzifədə yer tutmuş, vəzifəsi üçün xalq marağını qurban verməyə hazır olan adamların yarıtmaz fəaliyyəti də Heydər Əliyevə müəyyən qədər mane olurdu.*

*«Sobesednik» qəzetinə verdiyi müsahibədə bu məsələlərə açıq və qəti münasibətini bildirən Heydər Əliyev xalqa olan inamından danışır, eyni zamanda hakimiyyətdə olan adamların xəyanətini kəskin tənqid edirdi. Bu çətin tarixi məqamda ən vacib, ən etibarlı iş xalqa inamla arxalanmaq, xalq maraqlarını müdafiə etmək, xalqın gələcəyini müəyyənləşdirmək idi.*

*Adətən belə anlarda hakimiyyətə can atan qüvvələr xalqa şirin vədlər verir, vədlərlə xalqın başını qatır və onu aldatmağa cəhd edirdilər ki, təki vəzifədə olsunlar. Heydər Əliyev müsahibədə deyirdi: «...mən o adamlardan deyiləm ki, deyəm siz məni seçin, dərhal müharibəni qurtarım və yarım ildən sonra yağ-bal içində yaşayacaqsınız... Ali Sovetin deputatları məndən soruşurlar ki, bizə nə vəd edirsiniz? Birmənalı cavab verdim: heç nə. Mən peyğəmbər deyiləm və sabah nə olacağını da bilmirəm. Bəlkə daha pis olacaq, amma bir şeyi bilirəm: bu dəhşətli anda hər şeyi atıb getmək adamlara xəyanət etmək deməkdir».*



*Xalqın arzu-istəyi və dəvəti ilə hakimiyyətə gələn Heydər Əliyevin beynəlxalq təşkilatlarla apardığı işlər və keçirdiyi uğurlu görüşlər tarixin çətin məqamında, mürəkkəb vəziyyətdə Azərbaycanın müstəqilliyini təsdiq etmək məqsədi daşıyırdı. Onun 1994-cü ilin may ayında Brüsselə səfəri NATO-nun «Sülh naminə tərəfdaşlıq» sənədinin imzalanması ilə bağlı idi. O zaman Brüsseldəki beynəlxalq mətbuat mərkəzində xarici ölkə jurnalistləri üçün mətbuat konfransı keçirildi. Mətbuat konfransında iştirak edən jurnalistlərin suallarına cavabında Heydər Əliyev müstəqil dövlət kimi Azərbaycanın yeni siyasətindən söhbət açır, ən başlıcası isə müharibə probleminin həllinə diqqət yetirirdi. Digər məsələlərə - Azərbaycanın müxtəlif vasitələrlə yenidən Rusiyanın siyasi asılılığına məruz qalması ehtimalı ilə bağlı jurnalist suallarına cavab olaraq qətiyyətlə bildirirdi ki, artıq geriyə yol yoxdur. Xalqın daha Sovet hökumətinə inamı qalmayıb və Azərbaycan Rusiyadan asılı vəziyyətə düşə bilməz. Həmin müsahibədə müharibənin ölkəni yenidən Rusiyadan asılı vəziyyətə sala biləcəyi də vurğulanırdı. Prezident bu suala cavabda bildirdi ki, müharibə indiki şəraitdə Azərbaycanın bütün sahələrdəki münasibətlərinə ziyan vurur, əhalinin sosial-iqtisadi vəziyyətini ağırlaşdırır, eyni zamanda iqtisadiyyatı iflic vəziyyətinə salır. Buna baxmayaraq «...Azərbaycan dövlət inkişafının müstəqil yoluna qədəm qoymuşdur. Ölkənin Prezidenti kimi bəyan edirəm ki, Azərbaycanın müstəqilliyi dönməz prosesdir. Respublika bundan sonra da özünün dövlət müstəqilliyini möhkəmləndirəcəkdir. Müstəqil dövlət olan Azərbaycan demokratik cəmiyyətin bütün atributları nəzərə alınmaqla uğurlu demokratik dövlət quruculuğu yolu ilə gedir və gedəcəkdir».*

*Heydər Əliyev həmin atributları sadalamaqla fikrini əsaslandırırdı: «Həmin atributları deyərkən mən şəxsiyyət azadlığını, vicdan azadlığını, insan hüquqlarının qorunmasını, çoxpartiyalı sistemi, siyasi plüralizmi, bazar iqtisadiyyatını, azad sahibkarlığı,*

*ümumbəşəri dünya dəyərlərinə qovuşmağı nəzərdə tuturam. Əminəm ki, Azərbaycan bu yolla gedəcəkdir. Hər halda Azərbaycan Prezidenti kimi mən buna çalışacağam. Ümidvaram ki, bütün Azərbaycan xalqı da bu fikirdədir».*

*1994-cü il sentyabrın 29-da Si-En-En televiziya şirkətinin müxbirinin suallarına cavabında Heydər Əliyev Bill Klintonla görüş ərəfəsində qarşıda duran məqsədlərdən söhbət açmış, müharibənin sülh yolu ilə həll olunmasının şərtlərini qeyd etmişdir. Bu şərtlər sadə və olduqca konstruktivdir: Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı.*

*Atəşkəsə nail olduqdan sonra müharibənin sülh yolu ilə həll edilməsinə üstünlük verən Prezident öz fikirlərini ictimaiyyətlə və eyni zamanda jurnalistlərlə bölüşdürərək mövcud vəziyyət, görüləcək işlər, beynəlxalq və yerli təşkilatların vəzifələri barədə fikirlərini də xalqın nəzərinə çatdırmışdır: «Azərbaycan Respublikasının ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin olunmalıdır. Eyni zamanda, biz Ermənistan tərəfinin bəzi şərtlərinin qəbul olunmasına - Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyini təmin etmək üçün lazımi tədbirlər görülməsinə razılıq verdik».*

*1994-cü il sentyabrın 20-də milli televiziya və radio ilə çıxışında mövcud vəziyyət, beynəlxalq təşkilatlarla əlaqələr, Minsk qrupunun fəaliyyəti, eyni zamanda müharibənin sülh yolu ilə həlli barədə problemlər haqqında Prezident xalqa məlumat verirdi: «Bizim nikbinliyimiz dünyada baş verən tarixi proseslərlə beynəlxalq münasibətlər sistemindəki ciddi dəyişikliklərlə də bağlıdır. Şübhəsiz ki, artıq hərbi cəbhələşməni və ideoloji qarşıdurmanı əvəz etməkdə olan bərabərhüquqlu dünya qaydası beynəlxalq münasibətlər sisteminin gələcək əsasını təşkil edəcəkdir. Beynəlxalq hüquqa, Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin prinsiplərinə və müddəalarına uyğun olaraq tərəfdaşlıq, möhkəm sülh və hamı üçün təhlükəsizlik yeni dünya qaydasının fundamental prinsiplərinə çevrilir. Biz zor işlədilməsinə əsaslanan düşmənçilik dünyasından əməkdaşlıq və tərəqqi dövrünə aparan tunelin axırında işıq görürük və bu yol ilə birlikdə, dünyanın bütün ölkələri və xalqları ilə əl-ələ verib getməyə hazırıq.»*



***«Müharibənin perspektivi yoxdur»***

*Respublika Prezidentinin mətbuat nümayəndələri ilə görüşlərində və müsahibələrində ən ciddi məsələlərdən biri müharibə problemidir. Müharibə ilə bağlı Prezidentin düşüncələri xüsusilə diqqəti cəlb edir. Müharibə təhlükəsi, onun doğurduğu fəlakətlər, yaratdığı dünyəvi problemlər barədə həmişə Prezident öz mülahizələrini açıq bildirmişdir. Beynəlxalq qurumların rəhbərləri ilə görüşlərində də o, bu müharibənin təkcə bizim region üçün deyil, qonşu dövlətlər və dünya ictimaiyyəti üçün təhlükəsini xüsusi qeyd edən Prezident müharibələrin qarşısının alınmasının, ümumiyyətlə, Qafqaz bölgəsində sülhə nail olunmasının əhəmiyyətini də xüsusi vurğulayır, eyni zamanda Azərbaycan itkilərini nəzərə çatdırırdı.*

*Prezident BMT-nin baş katibi Butros Qalidən misal gətirir və göstərirdi ki, «mən Butros Qalinin belə bir fikri ilə tam şərikəm ki, təşəkkül tapmış beynəlxalq sistem çərçivəsində xalqların öz müqəddəratını təyin etməsi və dövlətlərin suverenliyi, ərazi bütövlüyü və müstəqilliyi kimi eyni dərəcədə qiymətli və mühüm olan məsələlərin bir-birinə ziddiyyət təşkil etməsinə yol vermək olmaz».*

*Bununla bərabər, dövlət başçısı müharibənin törətdiyi faciələrdən söhbət açmaqla yanaşı Dağlıq Qarabağ Muxtar Vilayəti hüdudlarından kənardakı ərazilərin erməni təcavüzkarları tərəfindən işğal olunmasının törətdiyi faciələrdən danışırdı. O göstərirdi ki, təcavüz nəticəsində Azərbaycan ərazisinin 20%-dən çoxu Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən işğal edilmişdir, 20 mindən çox adam həlak olmuşdur, 100 minə yaxın adam yaralanmış və xəsarət almışdır, 6 min adam əsir düşmüşdür, 1 milyondan çox azərbaycanlı - ölkə əhalisinin təxminən 15%-i qaçqın vəziyyətinə salınmışdır və çadır şəhərciklərində yaşayır.*

*Müharibə və onun bəlaları barədə Respublika Prezidentinin fikirləri müasir dövrdə müharibələrin yaratdığı dünyəvi faciələrə ümumi fəlsəfi qiymət kimi səslənirdi. Bir xalqın düçar olduğu bəlalar hamı üçün ibrət dərsi olmalıdır. O göstərirdi: «Müharibə xalqımı dözülməz vəziyyətə salır, sosial gərginliyi gücləndirir, Azərbaycan cəmiyyətinin demokratikləşməsinə yönəldilmiş iqtisa-*

*di və siyasi islahatların həyata keçirilməsinə mane olur. Müharibə nəticəsində Azərbaycan xalqına milyardlarla Amerika dolları məbləğində çox böyük maddi ziyan vurulmuşdur. İnsan talelərinə vurulmuş mənəvi ziyan, xalqın dərd-bəlası isə heç nə ilə ölçülməzdir».*

*Təbii və danılmaz həqiqətlərdir ki, müharibənin harada baş verməsinə və kim tərəfindən aparılmasına baxmayaraq o dünyəvi bəladır. Bu gün təkcə Azərbaycanda deyil, dünyanın digər qaynar nöqtələrində də qan tökülür. Xalqlar müharibə gedən yerlərdə baş verən faciəli hadisələrə biganə qalmamalıdırlar. Silahlı münaqişələrin güclənməsinə yol verməmək, onların ədalətlə və qəti şəkildə aradan qaldırılmasına nail olmaq üçün kollektiv səylərlə hər şeyi etmək lazımdır.*

*Müharibə və sülh probleminin bugünkü dünya üçün aktual bir problem olduğunu xüsusi vurğulayan Prezident bu problemə təkcə Azərbaycanın düşdüyü çətinliklər gözü ilə baxmır, məsələyə qlobal şəkildə yanaşır, dünyada sülhün alternativsizliyini dərk etmək üçün ölkələrdə sülhə nail olmağın vacibliyini bir daha xatırladır. O göstərir: «Bizə vurulmuş bütün ziyanlara baxmayaraq, biz beynəlxalq hüquq, ədalət və humanizm əsasında erməni tərəfinə sülh təklif edirik».*

*Müharibələrin sülh yolu ilə həll olunması vacib məsələdir. Burada qarşılıqlı güzəştlərin mövcud olduğunu da inkar etmək olmaz. Lakin bu güzəştlər erməni tərəfinin iddia etdiyi kimi digər tərəfin bütün hüquqlarını kobudcasına pozmaqla əlaqələndirilməməlidir. Ona görə də respublika Prezidenti bu məsələlərə düşünülmüş şəkildə, konstruktiv yanaşır və məsələnin sülh yolu ilə həllinin hansı şərtlər əsasında mümkün olduğunu bir daha bildirir. O göstərir: «Azərbaycan Respublikası münaqişənin sülh yolu ilə, siyasi yolla aradan qaldırılmasına tərəfdar olaraq belə hesab edir ki, yalnız Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirmək yolu ilə təcavüzün nəticələrini aradan qaldıraraq uzunmüddətli, möhkəm sülhü bərqərar etmək və regionun bütün əhalisinin təhlükəsizliyini təmin etmək məqsədilə sabit və əməli danışıqlar prosesi aparmaq olar».*

*17 aprel 1995-ci ildə Belçika radio və televiziyasına müsahibəsində Prezident müharibə məsələlərinə bir də nəzər salır və o, çox maraqlı bir fikir söyləyir: «Biz belə hesab edirik ki, sülh müqaviləsi işğal olunmuş bütün ərazilərimizdən Ermənistan silahlı birləşmələrinin çıxarılmasını, ölkəmizin ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının təmin edilməsini və təbii ki, Azərbaycanın tərkibində Dağlıq Qarabağa müvafiq muxtariyyət statusu verilməsini nəzərdə tutmalıdır. Biz bu şərtlər daxilində böyük sülh müqaviləsinin imzalanması üçün danışıqlar aparırıq. Mən belə hesab edirəm ki, bu müharibənin perspektivi yoxdur. Azərbaycan bunu başa düşmüşdür və yəqin ki, Ermənistanda da başa düşmüşlər. Ona görə də məsələni sülh yolu ilə həll etmək lazımdır. Biz buna çalışırıq».*



*O, yeri gəldikcə müharibə və sülh məsələsi ilə bağlı Çeçenistanda gedən qanlı müharibəyə də diqqət yetirir. Eyni zamanda Gürcüstanda gedən mürəkkəb proseslərə münasibətini bildirir və Çeçenistanda baş verən hadisələrin təkcə Rusiyanı deyil, bütün region ölkələrini narahat etdiyini xüsusi qeyd edir: «Biz istəyirik ki, Qafqazda, Şimali Qafqazda və Azərbaycanın bilavasitə yaxınlığında yerləşən bu bölgədə sülh olsun, odur ki, biz bu münaqişənin aradan qaldırılmasını istəyirik, amma mən bu məsələlərin indi necə həll edilməli olduğunu söyləmək fikrində deyiləm. Mən əminəm ki, Rusiya rəhbərliyi bu problemi həll edəcəkdir».*

247394

*1996-cı il dekabrın 2-də Parisdə Fransanın «Mond diplomatik» qəzetinin müxbiri Jan Qeraya müsahibə verərkən Prezident yenə də müharibə və sülh məsələsinə diqqəti yönəltmişdir. Müxbir orada L.Ter-Petrosyanın bir fikrini - «sülh məsələsinin həlli üçün böyük dövlətlərin ümumi sülh layihəsi hələ hazır deyil» fikrini hallandırmışdır. Heydər Əliyev isə qətiyyətlə bildirmişdir: «Bizim məsələlərimizi böyük dövlətlər həll etməməlidir. Öz məsələlərimizi biz özümüz həll etməliyik. Ermənistanla Azərbaycan arasında 7 ildir ki, hərbi münaqişə gedir. Bir jurnalist, Fransanın vətəndaşı, kökünüzə görə erməni olduğunuz üçün siz özünüz fikirləşin, bu münaqişə nəyə lazımdır? Azərbaycanın bir parçası olan Dağlıq Qarabağı Ermənistan silah gücü ilə özünə bağlamaq istəyir. Bu, dünyada bütün hüquq normalarına zidd olan bir hərəkətdir. Siz bilirsiniz ki, bir ölkənin başqa bir ölkənin ərazisini zəbt etməsi üçün əsrlər boyu nə qədər müharibələr gedib. Ancaq bunlar heç vaxt yaxşı nəticələr verməyib. Eləcə də Ermənistan ilə Azərbaycan*

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

arasında gedən müharibə. Bu müharibəni Azərbaycan başlamayıb. Qeyd etdiyim kimi, Dağlıq Qarabağı öz ərazisinə bağlamaq üçün bu müharibəni Ermənistan başlayıb. 7 ildə nə qədər qan tökülüb. Nə qədər insanlar həlak olub. Ermənistanla Azərbaycan ərazisində olan o dostluq, iqtisadi, insani əlaqələr pozulub. Ermənistan ağır iqtisadi vəziyyətə düşüb. Azərbaycan da ağır iqtisadi vəziyyətə düşüb. Ermənistan da, Azərbaycan da blokada şəraitindədir».

Həmin müsahibədə Heydər Əliyevin qətiyyətli, prinsipial mövqeyi xüsusilə diqqəti cəlb edirdi. Bu müsahibə öz aktuallığını bu gün də saxlayır. O bütünlüklə müharibə və sülh məsələsinə, həmçinin yeni dövrün müharibə və sülh probleminə xüsusi mövqe kimi qiymətləndirilə bilər.

Prezident böyük diqqət və ustalıqla müxbirin nəzərinə çatdıraraq deyir ki, biz öz ərazimizin toxunulmazlığından danışarkən bildiririk ki, Ermənistanın da ərazisi toxunulmazdır. «Biz bu dəqiqə Ermənistanın hansısa bir hissəsini ələ keçirmək istəmirik. Amma tarixi araşdırsanız, ərazilərin bir çox hissəsi vaxtilə Azərbaycanın olub. Artıq sərhədlər yaranıb, Ermənistan da, Azərbaycan da müstəqil dövlətdir. Ermənistan da, Azərbaycan da Birləşmiş Millətlər Təşkilatının üzvüdür. Bizim sərhədlərimiz beynəlxalq hüquq normalarına görə BMT tərəfindən tanınıb, qəbul olunubdur. Bunları dəyişmək olmaz, ona görə də mən deyirəm ki, Ermənistanın mövqeyi qeyri-konstruktivdir».

Müharibənin sülh yolu ilə başa çatdırılmasının hər iki dövlət üçün labüd olduğunu Prezident öz müsahibəsində xüsusi qeyd etmişdir. O göstərirdi ki, bu müharibə həm Ermənistana, həm də Azərbaycana çox böyük zərərlər vurur, ancaq bunlara baxmayaraq biz məsələni sülh yolu ilə həll etmək istəyirik, biz hesab edirik ki, müharibə yolunun gələcəyi yoxdur, Ermənistanda və Azərbycandan kənarda yaşayan, Ermənistana tərəfdar olan adamlardan heç kəs düşünməsin ki, silah işlətmək yolu ilə Azərbaycanın ərazisini qoparıb ələ keçirmək olar. Buna görə də biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Biz istəyirik ki, müharibə qurtarsın. Şərtimiz nədir? İşğal olunmuş torpaqlardan erməni silahlı qüvvələri çıxsın. Azərbaycanlı vətəndaşlar öz yerlərinə qayıtsınlar. Azərbaycanın ərazi bütövlüyü təmin olunsun.



Qarabağ məsələsinin sülh yolu ilə həllində jurnalistlərin tez-tez vurğuladığı məsələ yüksək status məsələsidir. Bəzi hallarda onlar bu statusun nədən ibarət olduğunu birmənalı şəkildə anlamırlar. Ona görə Heydər Əliyev müsahibələrində bu məsələyə xüsusi diqqət verir və qətiyyətlə bildirir ki, biz ermənilərin təhlükəsizliyinə tamamilə zəmanət veririk. Belə olduğu halda Dağlıq Qarabağın Azərbaycan ərazisində qalması, məsələnin sülh yolu ilə həll olunması əhəmiyyətlidir, labüddür və qaçılmazdır.

Yüksək status dedikdə erməni tərəfi elə başa düşür ki, Dağlıq Qarabağ müstəqilliyə nail olmalı və eyni zamanda yüksək statusa malik olan ərazi kimi özünün silahlı qüvvələri olmalıdır. Müsahibədə Heydər Əliyev bu məsələyə birmənalı şəkildə cavab vermişdir: «Yenidən müharibə etmək istəyirlər? Silahlı qüvvələri nədən ötrü saxlamaq istəyirlər?»

Sülh sazişinin necə olması məsələsinə jurnalistlər xüsusi diqqət yetirir. Və suallarında təkrar-təkrar bu məsələni hallandırırlar. Prezident müsahibəsində bu məsələni qətiyyətlə və açıqlıqla bildirir: «Ermənistan işğal etdiyi Azərbaycan ərazisinin hamısından öz silahlı qüvvələrini çıxarmalıdır. Azərbaycan Dağlıq Qarabağa yüksək səviyyəli status verə bilər, işğal olunmuş torpaqlardan Ermənistan silahlı qüvvələri çıxandan sonra bir milyondan artıq Azərbaycan vətəndaşı öz yerlərinə qayıtmalıdır. Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır. Azərbaycanın sərhədləri bərpa olunmalı və sərhədlərimizin toxunulmazlığı təmin edilməlidir... O cümlədən Laçın və Şuşa rayonlarından Ermənistan silahlı qüvvələri çıxmalıdır».

Silahlı qüvvələrdən söhbət gedərkən Prezident ona da diqqəti yönəldirdi ki, bugünkü Dağlıq Qarabağda yalnız Ermənistan silahlı qüvvələri deyil, eyni zamanda başqa ölkələrin də silahlı qüvvələri iştirak edir. Və kənar silahlı qüvvələrin olduğu bir dövlətdə insanların bütün hüquqları tapdalanmış olur. Müharibə şəraitində yaşayan Qarabağda bu gün normal həyat yoxdur. İnsanlar əsir vəziyyətindədirlər və silah altındadırlar. O, xüsusi olaraq qeyd edirdi ki, hər iki tərəfin adi insanlarının ağır vəziyyəti nəzərə alınmaqla təcili, təxirə salınmadan sülh sazişi bağlanmalıdır, həmçinin nəzərə almaq lazımdır ki, Dağlıq Qarabağın bütün kişiləri ordudadır. Bu orduda silah altında nə qədər olmaq olar? Axı

*bu insanlar rahat həyat keçirmirlər. Buna görə də bu münaqişə qurtarmalıdır. Dağlıq Qarabağın ərazisində böyük inkişaf meydana gələ bilər. Müsahibədə o, haqlı olaraq göstərirdi ki, bu gün artıq bütün dünyada vəziyyət dəyişmişdir, daha silahla məsələləri həll etmək mümkün deyil. Ona görə də Prezident jurnalistə tövsiyəsində bildirirdi: «Fransada çoxlu ermənilər yaşayır. Siz onları başa salın ki, müharibə ilə heç bir şey etmək olmaz. Hamınız da çalışın ki, Ermənistanda olan davakar qüvvələrə də bunu başa salasınız».*

*Həmin müsahibəsində respublika Prezidenti nə müharibə, nə də indiki vəziyyətin məqbul olunmazlığı barədə fikrini söyləmişdir və qeyd etmişdir ki, bu məsələ heç kimi qane edə bilməz və bu məsələ həll olunmadan irəliyə doğru addımlar atmaq da mümkün deyil.*

*Ona görə dünya dövlətləri müharibə gedən münaqişə zonalarında sülhə nail olmağa mütləq kömək göstərməlidirlər.*

*Kifayət qədər hazırlıqlı olan Fransa jurnalisti müxtəlif, bəzən də dolaşıq suallar verməsinə baxmayaraq dəqiq və konstruktiv cavablar almış və söhbətin sonunda üzünü Heydər Əliyevə tutaraq «Siz nüfuzlu siyasətçisiniz» sözünü söyləməyə məcbur olmuşdur.*

### *Azad söz, azad fikir, demokratik düşüncə*

*Prezidentin 1998-ci il iyulun 21-də Böyük Britaniyanın «Forst» jurnalının beynəlxalq prezidenti Patrik Kormaka verdiyi müsahibəsi də olduqca maraqlıdır. Müxbir «Ölkənizdə bərqərar etdiyiniz sabitliyə necə nail oldunuz?» sualını verir və çox konkret cavab alır: «Ölkəmizdə sabitliyi cəmiyyətdə apardığımız ardıcıl tədbirlərin nəticəsində əldə etmişik. Bu, bizim apardığımız siyasətin nəticəsidir. Biz Azərbaycanda demokratik, hüquqi dövlət qururuq. Bu, dövlət quruculuğu prosesində qanunların və cəmiyyətdə insanların bu qanunlara riayət etməsi ilə əlaqədar apardığımız tədbirlərin nəticəsidir».*

*Prezident Heydər Əliyevin «Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında» verdiyi fərman bu cəhətdən xüsusilə qiymətlidir (6 avqust 1998-ci il). Fərmanda kütləvi informasiya vasitələrinin maddi-texniki vəziyyətlərinin yaxşılaşdırılmasını, onlara dövlət qayğısının artırılmasını nəzərdə tutan, söz, fikir, məlumat azadlığının qorunmasını, siyasi plüralizm prinsiplərinin dönmədən həyata keçirilməsini təmin edən tədbirlər proqramının hazırlanması, müvafiq qanun layihələri hazırlanarkən və qanunların qəbul edilməsi zamanı Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiya və sazişlərdə Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş insan və vətəndaşların fikir, söz və məlumat azadlığı müddəalarının əsas prinsiplər kimi rəhbər tutulması xüsusilə diqqəti cəlb edir.*



*Həyat göstərdi ki, həqiqətən də Azərbaycanda ciddi demokratik islahatlar aparılır. Bu fərman mətbuatın gələcək inkişafının istiqamət və perspektivlərini müəyyənləşdirdi, ölkədə çoxlu müstəqil mətbuat orqanlarının fəaliyyətə başlamasına təkan verdi. Görülən tədbirlər nəticəsində Azərbaycanda senzura ləğv edildi, yeni televiziya kanalları fəaliyyətə başladı. Sonralar Prezidentin mətbuata göstərdiyi qayğı, jurnalist təşkilatları ilə görüşləri də bunu sübuta yetirdi.*

*Azərbaycanda milli mətbuatın yaradılması günü münasibətilə Azərbaycan Prezidentinin 2000-ci il iyulun 21-də Bakıda - Respublika Sarayında jurnalistlərlə görüşündə söylənilən qiymətli fikirlər olduqca maraqlıdır. Bu fikirlər Azərbaycan Prezidentinin mətbuat nümayəndələrinə hörmət və ehtiramlı münasibətini əks etdirməklə yanaşı, həm də ağır və gərgin jurnalist əməyinə onun yüksək qiymət verməsi ilə səciyyələnir. Burası da maraqlıdır ki, görüşdə çıxış etmək üçün ilk söz Heydər Əliyevin təklifi ilə müxalifət orqanı olan «Azadlıq» qəzetinin redaktoru Gündüz Tahirliyə verilmişdir. Ölkə başçısı bu təklifi verərkən Gündüz Tahirlinin bu görüşün təşəbbüskarlarından olduğunu qeyd etməklə yanaşı, həm də belə bir faktı vurğulamağı unutmamışdır ki: «Azadlıq» qəzeti Azərbaycanda 1990-cı illərin əvvəllərində çıxmış ilk azad, sərbəst bir qəzetdir. O vaxt onun yaranması məni çox sevindirmişdi. Mən o vaxt qəzeti daim oxuyurdum. Düzdür, indi o qədər vaxtım yoxdur ki, çox oxuyum. Amma hər halda bəzi məlumatları alıram». Bu da ilk müxalifət qəzetlərindən olan «Azadlıq» qəzeti əməkdaşlarının əməyinə verilən yüksək qiymət sayılmalıdır.*

*Bu fikirlərin davamına və daha da inkişafına Azərbaycan Prezidentinin 2001-ci il dekabrın 18-də Prezident Sarayında kütləvi informasiya vasitələri rəhbərləri ilə görüşünün materiallarında rast gəlirik. Azərbaycan Prezidenti Heydər Əliyev bu görüşü keçirməkdə məqsədini giriş nitqində belə şərh edir: «Mənim məqsədim nədən ibarətdir? Birinci növbədə sizi dinləmək. Çünki mən görürəm ki, son zamanlar müstəqil mətbuat, müxalifət mətbuatı çox narahatlıq keçirir... belə bir əhval-ruhiyyə yaranır ki, guya Yeni Azərbaycan Partiyasının II qurultayından sonra müstəqil mətbuata qarşı hansısa təzyiqlər başlayıbdır, onları sıxışdırırlar, ya sıxışdırmaq istəyirlər».*

*Respublika Prezidenti və Yeni Azərbaycan Partiyasının sədri Heydər Əliyev öz nitqində həmin məsələdə müəyyən anlaşılmazlıqlara yol verildiyini, xüsusən də Yeni Azərbaycan Partiyası qurultayının sənədində üç qəzetin - «Yeni Musavat», «Azadlıq», «Hürriyyət» qəzetlərinin adlarının çəkilməsini səhv addım adlandıraraq, eyni zamanda bunu həddən artıq şişirtməyə də ehtiyac olmadığını qeyd etməklə müstəqil mətbuata olan loyal münasibətini bir daha bildirmişdir. O eyni zamanda hansısa bir səhvi faciəyə çevirməməyə çağırmışdır. Bununla əlaqədar respublika Prezidenti dekabrın 12-də Yeni Azərbaycan Partiyasının qərargahı qarşısında piket keçirilməsinə Bakı şəhər İcra Hakimiyyətinin icazə vermədiyinə və buna görə də polisin işə qarışmasına mənfi münasibətini bildirmiş və təklif etmişdir ki, bu anlaşılmazlıq artıq dərk edildiyinə görə bitmiş hesab edilsin.*

*Nitqinin sonunda mətbuat nümayəndələrinə müraciət edən Azərbaycan Prezidenti bir daha qeyd etmişdir: «... mətbuat Azərbaycan iqtidarı üçün çox önəmli bir sahədir, çox vacib bir sahədir. Biz demokratiya yolu ilə gedərək, söz azadlığını təmin edərək, mətbuat azadlığını təmin edərək, bu yolda nöqsanları ardıcıl surətdə aradan qaldırmalıyıq və qaldıracağıq».*

*Bəli, Azərbaycan Prezidenti həmişə olduğu kimi, yenə də öz sözünə sadiq qaldı. Cəmi 9 gün sonra «Kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin sərəncamı elan edildi. Sərəncamda kütləvi informasiya vasitələrinin maddi-texniki və maliyyə bazasının gücləndirilməsi, söz, mətbuat və fikir azadlığı*



*üçün geniş imkanlar yaradılması məqsədi güdən 5 maddədən ibarət fəaliyyət proqramı müəyyən edildi. Bu sahədə Nazirlər Kabineti, Prezidentin İcra Aparatı, Mədəniyyət Nazirliyi, Respublika Baş Prokurorluğu və digərləri qarşısında duran vəzifələr göstərildi. Bu tapşırıqlar və tövsiyələr sırasında kütləvi informasiya vasitələrinin rəhbərləri və jurnalist təşkilatları ilə birlikdə müstəqil mətbuatın formalaşdırılması və inkişafında xüsusi xidməti olan redaktorların, aparıcı qəzet redaksiyalarının mükafatlandırılması, istedadlı jurnalistlərə Prezident təqaüdləri verilməsi üçün təkliflər verilməsi, qəzetlərin «Azərbaycan» nəşriyyatına 2001-ci il üçün mövcud borclarının ödənilməsinin 2002-ci il dekabrın 31-nədək təxirə salınması və s. barədə mühüm göstərişlər var idi. Bu sərəncam kütləvi informasiya vasitələri ilə iqtidar arasında anlaşılmazlıq üzündən baş vermiş narahatlıqlara son qoymaqla yanaşı, müstəqil mətbuatın inkişafında da yeni mərhələ açdı, Azərbaycan Prezidentinə jürnalistlərin etimadını daha da artırdı. Bu da öz nəticəsini gözləməyə çox da vaxt tələb etmədi. Artıq 2002-ci ilin martında Azərbaycan Prezidenti «Ruh» Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin təsis etdiyi 2001-ci ildə «Jurnalistlərin dostu» mükafatı ilə mükafatlandırıldı. Martın 22-də isə mükafat və onun diplomu təntənəli şəkildə dövlət başçımıza təqdim edildi. Bu, təkcə Azərbaycanda deyil, həm də dünyada analoqu olmayan bir hadisə kimi Azərbaycan Prezidenti tərəfindən layiqincə qiymətləndirildi. Bu münasibətlə öz nitqində razılığını gizlətməyən Azərbaycan Prezidenti belə demişdi: «Mənə məlumat verəndə ki, jurnalistlər məni 2001-ci ildə «Jürnalistlərin dostu» kimi qiymətləndiriblər, buna inanmadım. Sonra araşdırmağa başladım ki, bu dost nə deməkdir? Dedilər ki, Siz indi dostsunuz. Dedim: Allaha şükürlər olsun ki, nəhayət, dost olduq». Bununla bağlı dövlət başçısının jurnalistlərə səmimi müraciəti böyük maraq doğurur. O demişdir: «Ancaq gəlin həqiqi dost olaq. Mən sizinlə, jurnalistlərlə dost olmaq istəyirəm. Amma dostluq şərəfli şeydir. Gərək iki tərəf də dost olmaq istəsin. İndi belə bir hadisə baş verib. İş belə gətirib ki, biz iki tərəf də dost olmaq istəmişik. Amma gəlin danışaq ki, bu daha pozulmasın. Biz dost olaq, axıra qədər dost olaq. Mən dost olmaq istəyirəm». Bəli, bu sözlər dövlət başçısından daha çox böyük bir ailə başçısının - el ağsaqqalının, millət rəhbərinin nəsihətləri, tövsiyələri kimi səslənir.*

### *Şərqlə Qərbin körpüsü*

*Azərbaycan Respublikası Prezidentinin müxbirlərlə görüşlərində ona verilən sualların bir qismi dünyəvi-iqtisadi problemlərin həlli ilə bağlıdır. Təbii ki, bu problemlərin həllində dünyanın güclü neft ehtiyatlarına malik olan ölkələrindən biri kimi Azərbaycanın nüfuzu və görülən tədbirlərin rolundan söhbət açılır. Bu müsahibələr onunla xarakterikdir ki, zahirən kiçik dövlət olan və müharibə ağuşunda çabalayan Azərbaycan bu gün dünyəvi problemlərin həllində aktual mövqe tutur. Verilən müsahibələrdə Azərbaycanın beynəlxalq aləmdəki nüfuzlu mövqeyindən söhbət açılır. Müsahibələrdə verilən suallara cavablar respublika Prezidentinin zəngin təcrübəsini və dünyəvi iqtisadi problemlərin həllindəki nüfuzlu rolunu xüsusilə göstərir.*

*Şərqlə Qərb sivilizasiyası arasında vahid körpü yaratmaq, Şərqin Qərbə, Qərbin Şərqə inteqrasiyasını gücləndirmək, qədim İpək Yolunu müasir səviyyədə inkişaf etdirmək, dünya xalqlarının bir-biri ilə iqtisadi və mədəni əlaqələrini artırmaq sahəsində görülən tədbirlər və bu tədbirlərin getdikcə güclənməsi sahəsində respublika Prezidentinin nüfuzlu mövqeyi, təklifləri və səmərəli təşəbbüsləri bu müsahibələrdə xüsusilə aydın görünür.*

*Əvvəlki sistemdən yeni iqtisadi sistemə keçilməsi, yeni iqtisadi düşüncənin formalaşdırılması, yeni iqtisadi ideologiyanın müəyyənləşdirilməsi və bazar iqtisadiyyatına keçid şəraitində əhalinin sosial problemlərinin həlli çox ciddi məsələlərdəndir. Bunları bir gündə, bir neçə ayda, bir neçə ildə həll etmək mümkün deyil. Lakin düşünülmüş, dərin təhlillər əsasında həlledici addımlar atılmalıdır.*

*Yeni neft müqavilələrinin imzalanması Azərbaycanın iqtisadi dirçəlişinə şərait yaratmaqla yanaşı, onun dünya birliyində nüfuzunun bərqərar olmasına kömək edir. ABŞ-ın, Rusiyanın, Böyük Britaniya Birləşmiş Krallığının, Türkiyənin, Norveçin, Səudiyyə Ərəbistanı ilə Azərbaycanın yaxınlaşmasında neft müqavilələrinin böyük rolu artıq inkar edilməzdir. Bu barədə danışarkən respublika Prezidenti qeyd edir ki, Azərbaycan Respublikası dünya birliyi ilə tamhüquqlu inteqrasiyaya istiqamət götürmüşdür və bunun üçün bütün imkanlara malikdir. Ona görə də onun siyasəti sülhə əsaslanır və biz buna nail olmaq üçün Birləşmiş Millətlər Təşkilatına böyük ümidlər bəsləyirik.*

*1995-ci il martın 11-də yapon jurnalistinə verdiyi müsahibədə respublika Prezidenti Azərbaycanın yeni iqtisadi siyasətinin istiqamətləri və təbliği ilə bağlı öz təkliflərini şərh etmişdir.*

*Respublika Prezidentinin vurğuladığı bir fikir də xüsusi əhəmiyyətə malikdir. O, haqlı olaraq göstərir ki, Şərq və Qərb problemində Xəzər məsələsi ciddi yer tutur. Xəzər həm İpək Yolu sistemində, həm ayrıca öz sərvətləri və imkanları ilə Şərqlə Qərb arasında yaradılmış iqtisadi körpünün daha da inkişafında mühüm əhəmiyyətə malikdir. Bütün görüşlərində, siyasi söhbətlərində respublika Prezidenti Xəzərlə bağlı Azərbaycanın mövqeyini birmənalı və qəti şəkildə bildirmiş, Xəzərin ədalətli bölgüsünün təkcə Xəzəryanı ölkələr üçün deyil, bütün dünya üçün çox mühüm olması fikrini irəli sürmüşdür.*

*Hələ 1995-ci il noyabrın 29-da respublika Prezidenti Londonda «Azərbaycanda investisiya imkanları» beynəlxalq konfransına həsr olunmuş mətbuat konfransında Xəzərlə bağlı öz fikrini belə söyləmişdir: «...Xəzər dənizi bir dövlətə deyil, Xəzəryanı dövlətlərin hamısına məxsusdur və hər bir dövlətin, o cümlədən də Azərbaycanın ona eyni dərəcədə, bərabər hüququ var. Mənəvi hüquq baxımından yanaşdıqda Azərbaycan artıq çoxdandır ki, Xəzər dənizindən neft çıxarır, digərləri isə bu işə təzəcə hazırlaşır. Əgər sənaye miqyasında neft hasilatından danışsaq demək lazımdır ki, biz 45 il bundan öncə Azərbaycanda dənizdən neft çıxarılmasına başlamışıq. Bu, bütün dünyaya məlum olan Neft Daşlarıdır. Ona görə də əslində bu məsələdə bizim narahatçılığımız yoxdur. Xəzər dənizi haqqında danışmaq, bu problemi müzakirə etmək olar, ancaq bununla yanaşı, hər kəs öz işini görməlidir və biz də öz işimizi görürük».*

*Neft kəmərlərinin çəkilməsi ilə bağlı Azərbaycan Prezidentinin təklifləri dünyada Şərqlə Qərb arasında canlı iqtisadi körpü yaradılması işində çox mühüm rol oynayır. Bu məsələyə bir zamanlar şübhə ilə yanaşanlar artıq qəti şəkildə inanmışlar ki, bu sahədə Heydər Əliyevin apardığı siyasət ən düzgün, səmərəli və uğurlu siyasətdir. Prezident müsahibələrində haqlı olaraq göstərirdi ki, dünyanın müxtəlif neft şirkətlərinin daxil olduğu böyük neft müqa-*

*vilələri yeni dünya iqtisadi sistemində xüsusi nüfuza malikdir. Ona görə də haqlı olaraq bu neft kəmərlərini dostluq kəməri hesab edirlər.*

*Prezident jurnalistlərlə hər görüşündə əsaslandırılmış şəkildə göstərir ki, dünya dövlətləri ilə iqtisadi əlaqələr quran Azərbaycanda ciddi iqtisadi islahatlar aparılmışdır. Və bu iqtisadi islahatlar bütövlükdə demokratik islahatlardır.*

*1995-ci il dekabrın 1-də Londonda RİTA-SÖTA-nın müxbiri ilə müsahibəsində Prezident öz fikrini belə ifadə etmişdir: «...biz yeni Konstitusiya qəbul etmişik və burada milli dövlət quruculuğu ilə, insan hüquqları və ümumən, demokratikləşdirmə ilə bağlı olduqca çox müddəalar var. Konstitusiya bütövlükdə və tamamilə Azərbaycanda demokratik hüquqi dövlət qurulmasına, onun həyatının bütün sahələrində, o cümlədən də iqtisadiyyat sahəsində də demokratikləşdirməyə həsr olunmuşdur. Konstitusiyadakı müddəalar, maddələr Azərbaycanın dünya iqtisadiyyatına qovuşması, xüsusi sahibkarlığın inkişaf etdirilməsi üçün maksimum əlverişli şərait yaradır».*

*Elə həmin gün Londonda Böyük Britaniyanın «Ekonomist» jurnalının müxbiri Daniel Litvin ilə müsahibəsində də Heydər Əliyev bu məsələyə münasibətini bildirib və qeyd edib ki, indi Azərbaycan müstəqil dövlətdir, özü öz sərvətlərinin sahibidir, Azərbaycan yeni bir iqtisadi sistem əsasında özünün neft yataqlarında xarici neft şirkətləri ilə müştərək işlər aparır.*

*Heydər Əliyev bütün çıxışlarında Azərbaycanda xarici sərmayədarların işləməsi üçün münbit şərait olduğunu xatırladır və investorların Azərbaycana gəlişini asanlaşdırmaq üçün mövcud olan bütün imkanları göstərir.*

*Respublika Prezidenti Parisdə «Middl İst Megezin» jurnalının müxbiri ilə müsahibəsində 1995-ci il dekabrın 4-də xarici sərmayədarlarla əlaqədar verilən suala belə cavab vermişdir: «Çıxarılacaq neft təxminən 150 milyon tondur. Şübhəsiz ki, onun bir hissəsi qoyulan xərclərə gedəcək, bir hissəsi isə şirkətlərin və Azərbaycanın payına düşəcəkdir... Azərbaycanın nə qədər neft əldə edəcəyini mən indi demək istəmirəm. Ancaq bundan hər kəs öz gəlirini götürəcəkdir, özü də yaxşı götürəcəkdir».*

*Həmin müsahibədə neft strategiyası barədə, eyni zamanda xarici investorların Azərbaycanda gördüyü işlər, neftdən alınacaq gəlirin bölünməsi, neft kəmərlərinin çəkilməsi və bütün başqa problemlərlə əlaqədar çoxlu suallar verilmiş, onlara konstruktiv, əsaslı cavablar alınmışdır. Respublika Prezidentinin müxbirlərlə görüşləri, mətbuat konfransları onun jurnalistlərlə əlaqələrinin çox geniş olduğunu sübut etmişdir. Təsadüfi deyil ki, müsahibənin sonunda müxbir Prezident Heydər Əliyevin mətbuatla işindən çox razı qaldığını bildirərək söyləmişdir: «Diplomatiya sahəsində istedadınız barəsində mətbuatda çox oxumuşdum, amma indi Sizin mətbuatla işinizdən də çox gözəl diplomat olmağınızın şahidi oldum».*



*Bu sözlər təsadüfi sözlər deyil, bütövlükdə Azərbaycan Prezidentinin mətbuatla geniş əlaqələrinə, jurnalistlərə verdiyi geniş imkanlara əyani sübut idi.*

*Jurnalistlərlə görüşlərində iqtisadi-siyasi problemlərə geniş yer verən və eyni zamanda jurnalistlərin suallarından doğan fikirlərlə bağlı öz düşüncələrini bölüşdürən respublika Prezidenti bütünlükdə dünya iqtisadi sisteminin əlaqəli inkişafında müharibələrin mənfi roluna öz münasibətini bildirir, təkcə Azərbaycanın deyil, qonşu ölkələrin də müharibədən, terrordan, separatizmdən azad olmasının vacibliyini həmişə nəzərə çarpdırır. Ermənistanın yeni silahla təchiz olunması, Qafqazda gedən müharibə, Gürcüstandakı münaqişələr, terrorizmin Şərq ölkələrində inkişafı, o cümlədən Yaxın Şərq problemləri respublika Prezidentinin müsahibələrində daim diqqət mərkəzində olan məsələlərdəndir.*

*Azərbaycan Prezidenti Heydər Əliyevin dünyanın böyük və iqtisadi cəhətdən qüdrətli dövlətlərindən biri olan Yaponiyaya rəsmi səfər zamanı bu ölkə ilə Azərbaycan arasında hərtərəfli əməkdaşlığın gücləndirilməsi sahəsində mühüm razılaşmalar əldə edildi. Bu barədə dövlət başçımızın Yaponiyanın «Asaxi Simbun» qəzetinin müxbirinə verdiyi müsahibədə çox maraqlı məqamlara toxunulur. Məsələn, müxbirin: - «xahiş edirəm deyəsiniz, Yaponiyaya səfəriniz uğurludurmu?» - sualına cavabında Heydər Əliyev Yaponiyaya ilk səfərini çox uğurlu səfər adlandırmış və bu ölkədə olduğu üç gün müddətində 30-dan çox, o cümlədən Yaponiya imperatoru, baş nazir və hökumətin digər üzvləri, işgüzar dairələrin nümayəndələri ilə səmərəli görüşlər keçirdiyini vurğuladıqdan*

*sonra demişdir: «Başlıcası budur ki, biz çox mühüm hökumətlərarası, dövlətlərarası sənədlər imzaladıq». Bu sənədlər arasında Yaponiyanın baş naziri ilə Azərbaycan Prezidentinin imzaladıqları birgə bəyanat, heç şübhəsiz, başlıca yer tutur. Birgə bəyanat iki ölkə arasında iqtisadi və mədəni əməkdaşlığı yüksək səviyyəyə qaldırmağı nəzərdə tutan müddəalarla yanaşı, Yaponiyanın Azərbaycanın ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını dəstəkləməsi barədə də maddə daxil edilmişdir ki, bu da Azərbaycan dövlətinin xarici siyasətində növbəti uğurlu addım sayıla bilər. İstər rəsmi səfər zamanı imzalanmış sənədlərin Azərbaycan üçün böyük əhəmiyyət kəsb etməsində, istərsə də onların həyata keçirilməsi üçün görülmüş tədbirlərdə Azərbaycan Prezidenti Heydər Əliyevin əvəzsiz xidmətləri olduğu yapon müxbirinin də nəzərindən qaçmamışdır və onun Heydər Əliyevə müraciətlə dediyi: «Biz hesab edirik ki, xalqınız belə Prezidentə malik olduğuna görə çox xoşbəxtdir» - sözləri bu həqiqətin təsdiqi kimi də qəbul edilə bilər.*

*Yaxud əvvəlki səfərlərində olduğu kimi, 2000-ci ilin fevralında ABŞ-da işgüzar səfərdə olarkən Azərbaycan Prezidenti Heydər Əliyevin necə gərgin iş qrafiki ilə çalışdığına yalnız qibtə etmək olar. Bütün bunlarla yanaşı, onun keçirdiyi görüşlər, apardığı danışıqlar diplomatik fəaliyyətin zirvəsi sayıla bilər. Bu deyilənlər eynilə onun mətbuat konfranslarında verdiyi bəyanatlara, müxbirlərin suallarına cavablara da aiddir. Məsələn, ABŞ-a adı çəkilən işgüzar səfəri zamanı dövlət başçımızın Vaşinqtonda öz iqamətgahında nüfuzlu «Nyu-York Tayms» qəzetinin müxbirləri ilə görüşərkən söylədiyi fikir Amerika ictimai və siyasi fikrində baş verməkdə olan yeniliklərə necə çevik, yüksək səviyyəli diplomat məharəti ilə reaksiya verilməsi baxımından olduqca səciyyəvi sayıla bilər. Maraqlıdır ki, müxbirlərin bu görüşdə Azərbaycan Prezidentini salamladıqdan sonra verdikləri ilk sual çox gözlənilməz olmuşdur: «... Bilmək istərdik ki, Siz Azərbaycan neftinin İran ərazisindən ixrac olunması variantına necə baxırsınız? Mümkündürmü ki, Azərbaycan nefti Bakı - Ceyhana paralel surətdə, həm də İran vasitəsilə ixrac edilsin?»*

*ABŞ-ın rəsmi dairələrinin İrana münasibətdə tutduqları mövqeyi yaxşı bilən dövlət başçımız sualdakı incəliyi məharətlə tutaraq ona elə sualla da cavab verir: «Mən belə başa düşürəm ki, Amerikada fikir dəyişilir? Çünki indiyə qədər - mən beş ildir bu işlə məşğul oluram, Amerika Birləşmiş Ştatlarında mənə belə sual vermirdilər, həmişə deyirdilər ki, Qərb istiqamətində, Bakı-Ceyhan boru xətti ilə neftin ixracı nə cür olacaq? Amma indi siz başqa sual verirsiniz?» Bundan sonra isə Azərbaycan Prezidentinin çox ətraflı, anlaşıqlı cavabları səslənir ki, daha bu barədə müxbirlərə xas olan əlavə suala ehtiyac qalmır.*



*Bunun ardınca Dağlıq Qarabağ münaqişəsinə dair sual verilir və cavab o qədər dolğun, müfəssəl səslənir ki, burada həm də Azərbaycana ədalətsiz münasibət göstərərək, ABŞ Konqresinin tətbiq etdiyi 907-ci düzəlişin də ləğv edilməsinin zəruriliyini bir daha əsaslandırmaq mümkün olur. Beləliklə, əzəli Azərbaycan torpağı Dağlıq Qarabağ ətrafında erməni lobbisinin köməyi ilə qızışdırılan uydurma ittihamlara daha ağır bir zərbə endirilmiş və bu məsələnin həllində Azərbaycanın tutduğu ədalətli mövqe bir daha dünya ictimaiyyətinə çatdırılmış olur.*

*Azərbaycan Prezidenti Heydər Əliyevin müsahibələri yalnız qəzetçilər, mətbuat adamları üçün deyil, həmçinin siyasətçilər, iqtisadçılar və diplomatlar üçün də olduqca əhəmiyyətli olan tarixi sənədlərdir. Bu müsahibələr məzmununa, siyasi zənginliyinə, əhatəliliyinə, bir qayda olaraq faktlara söykəndiyinə görə bütün dövrlərdə aktualdır və çağdaş tariximizin canlı salnaməsi sayıla bilər.*

**RAMİZ MEHDİYEV**
*fəlsəfə elmləri doktoru.*

## 1990-cı İL 20 YANVAR FACİƏSİ İLƏ ƏLAQƏDAR AZƏRBAYCANIN MOSKVADAKI DAİMİ NÜMAYƏNDƏLİYİNDƏ KEÇİRİLMİŞ YIĞINCAQDA HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

*Moskva*
*21 yanvar 1990-cı il*

Əziz həmvətənlərim, xanımlar və cənablar!

Bildiyiniz kimi, uzun illər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində işləmiş, Sov.İKP MK Siyasi Bürosunun üzvü olmuşam. Geniş infarkt keçirmişəm. Xəstəliyimlə əlaqədar iki ildən artıqdır ki, pensiyadayam. Azərbaycanı tərk etdiyim 1982-ci ilin dekabrından keçən müddətdə bu gün ilk dəfədir ki, Azərbaycan SSR-in Moskvadakı daimi nümayəndəliyinin astanasına qədəm qoyuram. Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, bu hadisəyə laqeyd qala bilməzdim. Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı daimi nümayəndəsi Zöhrab İbrahimovdan xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm.

Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm. Azərbaycanda yaranmış mürəkkəb vəziyyətin bir sıra səbəbləri vardır. Vaxtımızın məhdudluğundan bu məsələlərin üzərində ətraflı dayanmaq istəmirəm.

Artıq iki ildir ki, Azərbaycan və Ermənistan arasında millətlərarası münaqişə gedir. Həmin münaqişəni Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr törətmişdir. Azərbaycan və Ermənistan, eləcə də ölkənin ali siyasi, partiya rəhbərliyinə bu məsələni tənzimləmək, daxili müharibəyə, millətlərarası münaqişəyə son qoymaq və milli mənsubiyyətindən asılı olmayaraq, hər bir adamın ümumi Federativ İttifaq



olan SSRİ-də azad yaşamasına şərait yaratmaq üçün ikiillik müddət kifayət idi.

Hesab edirəm ki, ötən iki ildə bu istiqamətdə lazımi səviyyədə iş aparılmamışdır. Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya, siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı.

Bunlar üçün ilk növbədə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin artıq sabiq birinci katibi Vəzirov müqəssirdir. Bu yüksək vəzifədə olduğu müddətdə o, Azərbaycandakı vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, özünün səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla özü arasında uçurum yaratmışdır. Xalq isə hiddətlənmişdir. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərliyinin istefası tələbi irəli sürülmüşdür. Söhbət əslində Vəzirovun istefasından gedirdi. Bəs bu məsələ indiyə kimi niyə həll olunmamışdır? Yalnız dünən Bakı şəhərinə ordu yeridildikdən, qırğın və dağıntılar baş verdikdən sonra, Vəzirov Azərbaycandan əslində qaçmışdır. Bu, böyük səhvdir.

Ən böyük səhv isə sözsüz ki, qeyri-ciddi, bu yüksək vəzifəyə əsla yaramayan adamın bir vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə birinci katib təyin edilməsi idi. Ancaq iş təkcə bununla bitmir.

İndi yanvarın 19-dan 20-nə keçən gecə baş vermiş və bu gün də davam edən faciənin üstündə dayanmaq istəyirəm. Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi, həmçinin ölkənin ali siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir. Sərhədlərə edilən təcavüzü vaxtında aradan qaldırmaq mümkün idi. Axı üç ay əvvəl sərhəd zolağı ilə bağlı camaat öz tələblərini irəli sürmüşdü. Fəqət heç kəs onlarla görüşmək, izahat işi aparmaq və lazımi ölçü götürmək istəməmişdir.

Təkrar edirəm: camaatı sakitləşdirmək üçün də imkanlar tükənməmişdir. İki-üç ay əvvəl Azərbaycan partiya rəhbərliyinin möhkəmləndirilməsi məsələsi həll edilsə idi, vəziyyət gərginləşməz, ordu yeridilməsinə zərurət yaranmazdı. Bütün vəziyyətlərdə hesab edirəm ki, mə-

sələni siyasi cəhətdən tənzimləmək, xalqla mükaliməyə girmək üçün əlverişli imkanlar olmuşdur. Lakin onlardan səmərəli istifadə edilməmişdir. Nəticədə isə 19-dan 20-nə keçən gecə Bakı şəhərinə sovet ordusunun, SSRİ DİN-in böyük kontingenti yeridilmişdir. Nəticəsi isə göz qabağındadır. Bunun törətdiyi faciələr hamımıza məlumdur.

Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Bəli, kobud siyasi səhv buraxılmışdır. Onlar, sadəcə olaraq, respublikadakı əsl vəziyyəti qiymətləndirə bilməmiş, Azərbaycan xalqının psixologiyasını anlamamış, əhalinin müxtəlif təbəqələri ilə əlaqələri zəiflətmişlər. Onlar, görünür, bu işlərin belə ağır faciəyə çevriləcəyini əvvəlcədən düşünməmişdilər. Bütün bunlar qabaqcadan nəzərə alınmalı, vacib zəruri tədbirlər qəbul edilməli idi. Ordu yeridilmiş, günahsız adamlar həlak olmuşdur. Yeri gəlmişkən, deyim ki, ölənlər arasında hərbi qulluqçuların olması haqqında da məlumatlar daxil olur. Sual olunur: ölkənin ali dövlət, partiya rəhbərliyinin səhv qərarı ucundan, olmayan qiyamı yatırtmaq adı ilə Azərbaycana göndərilmiş rus gənclərinin günahı nədir?

Azərbaycana kənardan böyük ordu kontingenti yeridilmişdir. Respublikada neçə ordu birləşməsinin olduğu mənə yaxşı bəllidir. Azərbaycanda kifayət qədər – 4-cü ordu, Xəzər Hərbi Dəniz Donanması, desant qoşunlarının diviziyası, hava hücumundan müdafiə qoşunları, DİN-in daxili qoşun birləşmələri vardır. Oraya əlavə qoşun yeritmək nəyə lazım idi? Əgər belə zərurət var idisə, orada yerləşən hərbi hissələrdən də istifadə etmək olardı. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk ayaqda Azərbaycanı qoyub qaçmış Vəzirov öz xalqı qarşısında məsuliyyət daşımalıdır. Ölkənin ali siyasi rəhbərliyinə yanlış məlumat verənlər də məsuliyyət daşımalıdır.

Zənnimcə, ölkənin ali siyasi rəhbərliyinə vəziyyət barədə vaxtında kifayət qədər düzgün, dəqiq, obyektiv informasiyalar çatdırılmamışdır. Rəhbərlik çaşqınlığa salındığından belə qərar qəbul etmişdir. Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır.



## «VAŞİNQTON POST»un MÜXBİRİ DAVİD REMNİKLƏ MÜSAHİBƏ

Uspenskoye, SSRİ. Heydər Əliyev qara «Volqa»nın arxa oturacağında beli bükülü əyləşib şüşədən mübhəm gələcəyə baxır: Puşkin bağçasında yeni «McDonald's» görünür. DTK zabiti Əliyev Azərbaycan Respublikasını inzibati-amirlik sisteminə xas üslubda idarə etmiş və bir neçə il bundan əvvələdək rəhbər Siyasi Büroda qərar tutub hakimiyyətdə yüksək vəzifə-mənsəb sahibi olduğu zaman yuxarının göstərişi ilə «səhhətinə görə» istefaya çıxmışdır.

O, Kremldən cəmi bir neçə məhəllə aralıda qamburgerlərin bərq vuran qırmızı-sarı reklamlarını görüb gülümsünür. Çox vaxt «ən böyük kommunist dinozavrlarından biri» adlandırılan bu insan «McDonald's»a tərəf köks ötürüb par-par yanan gözlərini maşındakı amerikalı qonağına dikib deyir: «Sizin ağız dolusu təriflədiyiniz yenidənqurma bax budur».

Altmış altı yaşlı Əliyev iki il bundan əvvələdək partiya intizamına dönmədən əməl etmişdir. Danışırdı ki, günlərin bir günü Mixail Qorbaçov ona müraciətlə deyəndə ki, – Heydər Əliyev, istefaya getməyin vaxtı çatıb – o, sadəcə olaraq, belə cavab verib: «Baş katib deyirsə ki, istefa vaxtı gəlib çatıb, mən gedərəm». O vaxtdan bəri sakit həyat sürən Əliyev bağa da gedir, Moskvadakı mənzilinə də qayıdır. Ürəyi sözünə qulaq asmayanda isə məxsusi Kreml elitası üçün tikilmiş istirahət evinə və xəstəxanaya üz tutur.

Bu gün Əliyevi sovet deqradasiya dövrü ilə bağlayır, brejnevçilərə aid edirlər.

... O, qarşısına gündəlik «Kommunist» qəzetini, «Pravda»nın 4 fevral tarixli nömrəsini qoymuş, bərk qəzəblənmişdi. Ovqatını təlx edən, az qala bir səhifəlik məqalə idi. Yazının bar-bar bağıran başlığı da vardı: «Əliyevçilik: Yaxud köhnə, xoş əyyamlar üçün göz yaşları». Məqalə Əliyevi 70-ci illərdə Azərbaycanda partiya lideri olduğu zaman qohumlarını himayə etmək və digər nöqsanlar üstündə, xüsusilə Leonid Brejnev üçün qonaq evi tikdirmək üstündə ittiham edirdi. Yazının tən ortasında verilmiş şəkildə hansısa partiya yığıncağının rəyasət heyətində əyləşmiş Brejnevlə Əliyev əl çalırlar. Əliyev barmaqları ilə «Pravda»nın həmin səhifəsini sıxıb dedi: «Bütün bunlar böhtandır, başdan-ayağadək uydurmadır».

On il bundan əvvəl çəkilmiş şəkildə Əliyev qədd-qamətli, qıvraq, yaraşıqlıdır. Bugünsə o, arıqlamış və sarsılmışdır. Lakin bunlar onun mübarizlik əzmini qırmamışdır. Onda döyüşkənlik əmələ gəlmişdir. O, kənarda qalmışdır. Heç bir imkanı yoxdur və «Pravda»ya cavab vermək yollarını da görmür...

Köhnə həmkarları bütün dünyada islahatçı qəhrəmanlar kimi alqışlandığı zaman bəs necə olur ki, onu mühafizəkar, dəyişikliklərin düşməni sayırlar? Əliyev sözünə davam edib deyir: «Brejnevin dövrü ərzində Qorbaçov onun bütün tələblərini sözsüz yerinə yetirirdi. O dövrdə Qorbaçov nə şücaət göstərib ki, bizdən fərqlənmiş olsun? Brejnevlə Qorbaçov arasında heç bir fərq yox idi. Qorbaçov da bizlərdən hər birimiz kimi Brejnevi tərifləyirdi».

Son iki ildə mətbuatda bir neçə ittihamedici məqalə dərc edilmişdir. Əliyev bunlara «Literaturnaya qazeta»da cavab verməyə cəhd göstərmiş, hətta bu barədə Qorbaçova müraciət etmişdir. Lakin onun cavabları heç bir zaman dərc olunmamışdı, odur ki, susmağı qərara almışdır.

Bu ayın sonlarında, Əliyev Barvixdə istirahət etdiyi zaman Bakıdakı faciədən xəbər tutur. Moskvada Azərbaycanın daimi nümayəndəliyində keçirilən mətbuat konfransında Əliyev Bakıda silahlı qüvvələrdən istifadə etməyin yolverilməz olduğunu bildirir və bu məsələ ilə bağlı Kremli kəskin tənqid edir. Əliyevin çıxışından götürülmüş parçalar Qərbdə dərc olunur və ən mühüm cəhət də odur ki, bunlar Sovet dinləyicilərinə qısadalğalı radiolar vasitəsilə çatdırılır. «Bu mənim aparat əleyhinə ömrümdə camaat qarşısında etdiyim ilk çıxışım idi» – deyə əmək fəaliyyətinə DTK-nın operativ işçisi kimi başlayan zabit Əliyev bildirir. Bu mənada onun mərdliyi mərhum Andrey Saxarovun mərdliyinə bərabərdir. Onun daimi nümayəndəlikdəki çıxışından düz bir həftə sonra «Pravda»da məqalə dərc olunur. «Bax, aşkarlığımız da bundan ibarətdir – deyə Əliyev bildirir – gördüyünüz kimi, bu aşkarlıq tam birtərəflidir. Əgər liderləri tənqid etmək qərarına gəlsəniz, sizi dərhal «Pravda» qəzetində rüsvay edərlər».

Əliyev səkkiz il Azərbaycanda olmayıb. «Azərbaycanlılar – deyə «Pravda»nın müxbiri bildirir – hesab edirlər ki, o «özü barədə pis xatirə qoyub» və buna görə də onu xeyirxahcasına qarşılamayacaqlar». Əliyev bu məsələni başqa cür izah edir.

Ötən apreldə MK-dan çıxanadək Əliyev Kremlin məsləhətçisi olub.

Yayılan şayiələrə görə, 1985-ci il başlanandan, yəni Konstantin Çernenko Kreml xəstəxanasında yatandan bəri bütün il boyu partiyada ikinci adam olan Qorbaçovla Siyasi Büroda iki ortodoksal siyasətçi – Viktor Qrişin və Qriqori Romanov arasında hakimiyyət uğrunda mübarizə gedib. Sonra belə nəql edirlər ki, qüvvələri Qorbaçov tərəfə dəyişən adam mərhum xarici işlər naziri Andrey Qromıko olub.



«Qorbaçov deyir ki, sosializmin yeniləşdirilməsi tərəfdarıdır və kapitalizmin əleyhinədir. Çox gözəl, lakin bu nə yeniləşmədir? Bu nə deməkdir? Bu, sosial demokratiyadırmı? Bu, sosializm deyildir. Bəs, onun əslində sosializm variantı nədən ibarətdir? Heç kəs bilmir. Onlar indi bilmirlər ki, hansı sosializmi qurmağa hazırlaşırlar. Bu gün hamı anlaşılmazlıq içində yaşayır».Əliyev sözünə davam edərək deyir: «Siz, amerikalılar Qorbaçov nə deyirsə, ona inanırsınız. İstəyirsiniz ki, hamı sizin sözünüzlə oturub-dursun və Corc Buşun nə ürəyincədirsə, deməli, hamı üçün yaxşıdır.

Olmaya Buş İsa Məsihdir, yaxud ona bənzər xilqətdir? Belə görünür. Hər gün qəzetlərdən oxuya bilərsiniz ki, Buşun fikrincə, Qorbaçov düzgün yolla irəliləyir. Lakin nəyə görə biz öz fəaliyyətimizi Corc Buşun fikrinə əsasən qiymətləndirməliyik?»

Əliyev nəql edir ki, Siyasi Büroda və sonra MK-da seçkilər gizli keçirilib. «Siz təəccüb edirsiniz, deyilmi? Müxalifət barədə nə deyirlərsə, hamısı yalandır. Qorbaçov ənənəyə sadiq idi. Hətta, 1 May şərəfinə paradda, şəxsən hər bir Siyasi Büro üzvünün Lenin Mavzoleyi tribunasındakı yeri dəqiq müəyyən olunurdu». Əliyev danışır ki, Qorbaçov hakimiyyətinin birinci iki ilini normal, birgə işləyiblər, lakin 1987-ci ilin oktyabrında Siyasi Bürodan çıxmazdan bir neçə ay əvvəl hiss edib ki, ona münasibət dəyişib. Sonra Qorbaçov günlərin birində Əliyevi çağırıb deyir: «Siz getməlisiniz». Səsvermə olmayıb. Əliyev 1989-cu ilin aprelinədək MK üzvlüyündə qalıb. Apreldə Qorbaçov təqribən 10 partiya liderini bir qəbulda pensiyaya göndərib. Plenumdan bir gün əvvəl Əliyevi və başqalarını MK-ya çağırıb deyiblər ki, əgər onların hamısı pensiyaya çıxmaq qərarına gəlsələr,«bu, hamı üçün yaxşı olar».

«Kollektiv qərar hamı üçün hazır idi. Biz hamımız yaxınlaşıb, sənədə qolumuzu çəkdik. Bilmirəm həmin insanlar qəlblərində nə kimi hiss keçirirdilər, amma onlar qərara imzalarını atdılar».

Pensiyada olan Əliyev qəzetləri oxuyur, lakin keçmiş həmkarları ilə əlaqəsi yoxdur. «Bu cəmiyyətdə siyasi vəzifənizi tərk edərkən, sizin daha heç bir vaxt eşidilmək imkanınız olmur».

«Heç kəs təsəvvür etmirdi ki, Qorbaçov belə islahatçı olacaq... Mən ona tamamilə inanır, hesab edirdim ki, partiyamız üçün faydalı lider olar. Buna görə də ona səs verdim. Heç birimiz bilmirdik ki, belə yenidənqurma və aşkarlıq olacaq».

Əliyev müxtəlif müşavirələrdəki çıxışları, keçirilən MK plenumlarını izləyir və yenidənqurmanı obyektivcəsinə təhlil edən çıxışları müsbət qiymətləndirir.

«Qorbaçov və digər liderlər baş verən bütün hadisələrin məsuliyyətini partiyamızın, Stalinin, durğunluq dövrünün, «Brejnev əyyamının» üstünə atmaq istəyirlər», – deyə Əliyev sözünə davam edir. «Lakin onlardan heç biri indiki dövrdə baş verən nöqsanlardan danışmır. Keçmişdəkinə nisbətən indi nöqsanlar daha çoxdur». «Mən Stalini təhlil etmək fikrində deyiləm. Bu barədə kifayət qədər deyiblər. Mən həmin dövrdə yetişmişəm».

«Əgər Qorbaçov ölkənin etnik problemini bir neçə il bundan öncə yaxşı təhlil etsəydi, qırğın düşməz, qan tökülməzdi». Ölkədəki vəziyyət isə Əliyevi bərk kədərləndirir.

***Müsahibə rus dilində «Vətən səsi» qəzetinin 20 iyun 1990-cı il tarixli nömrəsində ixtisarla dərc olunmuşdur***



## DAHA SUSA BİLMƏZDİM

*«Şərq Qapısı»nın müxbiri ilə müsahibə*

*Naxçıvan*
*26 iyul 1990-cı il*

Heydər Əliyev bir neçə gündür ki, doğma vətəni Naxçıvan torpağındadır. O, Naxçıvan şəhər zəhmətkeşləri ilə görüşmüş, rayon və kəndlərdə olmuş, adamlarla söhbət etmiş, onları maraqlandıran suallara cavab vermişdir.

Heydər Əliyevin Naxçıvana gəlməsini eşidən oxucular tez-tez redaksiyamıza zəng vurur, onun səhhəti, işi, fəaliyyəti ilə maraqlanırlar. Oxucuların arzusunu nəzərə alaraq xüsusi müxbirimiz Heydər Əliyevlə görüşüb söhbət etmişdir.

Söhbətə başlamazdan əvvəl bildirmək istəyirəm ki, Heydər Əliyev doğma Naxçıvan torpağında bacısının mənzilində yaşayır. Gözəl, səliqəli həyətdə Heydər Əliyevlə görüşə onun dostları, qohumları, pərəstişkarları gəlirlər. O bizimlə çox səmimi və mehriban görüşdü. Onu da deyim ki, gəldiyi günə nisbətən özünü daha gümrah hiss edir. Çöhrəsində bir nikbinlik, xoş əhval-ruhiyyə var. Sadə yarımqol köynək geymişdi. Naxçıvanla bağlı əhvalatları şirin yumorla söyləyir. O danışdıqca bu böyük insanın dərin, möhkəm hafizəsinə həsəd aparmalı olursan. Özümü təqdim etdim, yarızarafat, yarıgerçək dedi: «Bir şərtlə müsahibə verərəm ki, olduğu kimi dərc edəsiniz». Mən razılaşdım. Bir qədər söhbət etdikdən sonra günün ikinci yarısında görüşməyi məsləhət bildi. Həmin vaxt gəldim. Litvada çıxan «Respublika» qəzetinin müxbiri Ritas Siyatalis də burada idi. O, Heydər Əliyevin gəlməsini eşidib onunla müsahibə aparmağı qərara almışdı. Belə şərtləşdik ki, lazım gəlsə, bir-birimizin suallarından istifadə edək.

**– Yoldaş Əliyev, hər şeydən əvvəl, icazə verin qəzetimizin minlərlə oxucusu adından Sizi salamlayım və Sizə möhkəm cansağlığı arzulayım.**

– Çox sağ olun.

**– Siyasi Bürodan çıxdıqdan sonra Sizin həyatınız necə keçir?**

– Nə deyə bilərəm, təxminən üç il əvvəl mən Siyasi Büronu tərk etmişəm. Əsas səbəb xəstəliyim olub. İnfarkt keçirdim. Həkimlər fəal həyat tərzindən əl çəkməyi məsləhət gördülər. Artıq üç ildir ki, siyasi həyatdan kənardayam. Lakin 1989-cu ilin aprelinədək Sov.İKP Mərkəzi Komitəsinin üzvü, həmçinin SSRİ və bu ilin ortalarınadək RSFSR Ali sovetlərinin deputatı olmuşam. Amma fəaliyyət göstərməmişəm. Bununla bərabər mən bir sıra qüvvələrin, xüsusilə bəzi kütləvi informasiya vasitələrinin ədalətsizliyini, özümə qarşı qərəzkarlığını üzərimdə hiss etmişəm. Mənə elə gəlir ki, bu işdə müəyyən dərəcədə partiya orqanlarının müvafiq dairələrinin əli vardır. Azərbaycanda bu, şübhəsiz belə idi. Lakin Moskvada da bu cür «hücumlar» təşkil olunurdu. Cəmi il yarım Azərbaycan KP MK-nın birinci katibi işləyən və fəaliyyəti biabırçı uğursuzluqla başa çatan Ə.Vəzirov bu işin şübhəsiz, təşkilatçısı idi. O mənim haqqımda istər respublika, istərsə də Moskva mətbuatında böhtanlı məqalələr çap olunmasını təşkil edirdi. Mən dözməyə çalışırdım. Əlbəttə, bir insan kimi qəlbim inciyirdi, axı, özümə qarşı belə münasibətlər haqsız idi. Buna görə də 1989-cu ilin aprelində təəccüblü bir hadisə – Mərkəzi Komitənin 110 üzvünün və üzvlüyə namizədinin öz arzusu ilə Mərkəzi Komitədən çıxdığı bir zamanda, axırıncı imkan olduğunu nəzərə alıb MK-nın plenumunda çıxış etdim və dedim ki, mənə qarşı böhtançılıq kampaniyası təşkil edilibdir. Bu, başdan-ayağa haqsızlıqdır. Mən belə hesab edirəm ki, ləyaqətlə işləmişəm. Əlbəttə, səhv və nöqsanım da olub. Bunsuz mümkün deyil. Lakin mənim ünvanıma deyilən böhtanlar heç bir həqiqətlə uyuşmur. Bu dediklərim uzun müddət üzvü olduğum Siyasi Büronun üzvlərinə və çiyin-çiyinə işlədiyim yoldaşlara təsir etmədi. Onlar dediklərimə əhəmiyyət vermədilər.

Sonra mənə bir sıra müxbirlər müraciət etdilər. Mən xeyli müddət müsahibə vermədim. Keçən ilin noyabr ayında «Teatralnaya jizn» jurnalının müxbiri Andrey Karaulov mənə müraciət etdi. Mən ona müsahibə verdim. Daha sonra Azərbaycanda bu il yanvarın 19-20-də törədilən cinayət, buraya böyük miqdarda hərbi qüvvə yeridilməsi və bunun da öz növbəsində xeyli insan tələfatına səbəb olması mənə çox pis təsir etdi. Mən daha susa bilməzdim. Buna görə də Azərbaycan Respublikasının Moskvadakı daimi nümayəndəliyinə gəldim. Burada mətbuat konfransında müxbirlərin suallarına cavab verərək, bu hərəkətin antihumanist, konstitusiyaya zidd hərəkət olduğunu bildirdim. Mən ölkənin siyasi rəhbərliyinin, şəxsən Qorbaçovun hərəkətini pislədim. Bildirdim ki, Azərbaycanda yaranmış ağır vəziyyəti belə bir tədbirə əl atmadan da nizama salmaq olardı. Lakin mərkəz qanundan kənar yolla getdi. Həmin gündən sonra mənə qarşı hücumlar daha da güçləndi. Düz on gün sonra «Pravda» qəzetində mənə qarşı vicdan və insan ləyaqətindən uzaq, cəfəngiyyat və hər cür uydurmalarla dolu məqalə çap olundu. Bu vaxt mən başa düşdüm ki, bir halda ki, mübarizə lazımdır, deməli, mübarizə aparmalıyam. Bax, beləliklə mən bu günə, indiki vəziyyətə gəlib çıxdım.



**– Mümkünsə deyin, Siz öz əvvəlki – həm Azərbaycan KP MK-da birinci katib, həm də Siyasi Büroda – işinizi necə qiymətləndirirsiniz? Olub keçənləri yada salandan sonra özünüzü mühakimə etmirsinizmi?**

– Mən uzun illər Bakıda və Moskvada respublika və ittifaq miqyaslı rəhbər vəzifələrdə işləmişəm. Onu da deyə bilərəm ki, öz xalqıma, Sovet İttifaqına, mənsub olduğum Kommunist Partiyasına namus və vicdanla xidmət etmişəm. Mən belə hesab edirəm ki, indi bütün ölkənin, hər bir xalqın, hər bir respublikanın həyatında yeni mərhələ başlanıb. Hər bir xalq öz taleyini özü bildiyi kimi müəyyənləşdirməlidir. Həyatımın ötən günlərinə gəldikdə isə deməliyəm ki, keçmiş keçmişdə qalıb. Ümumiyyətlə, bu gün bütün işləri başlı-başına buraxıb keçmişi həddən artıq ələk-vələk etmək mənim xoşuma gəlmir. Bir baxın, artıq altıncı ildir ki, keçmişi amansız surətdə söyürük. Altıncı ildir ki, ölkəmiz iqtisadi və siyasi cəhətdən dağılır. Bütün bu dövrlərdə bizə vədlər «yedirdirlər», nə bilim bu yeni mərhələdir, bu dönüş mərhələsidir, bu kəskin dönüşdür və i.a. Axı, nə qədər mərhələ ola bilər. Buna görə də belə hesab edirəm ki, indi hər bir adama, hər bir xalqa, hər bir siyasi təşkilata və siyasi qüvvəyə öz taleyini müstəqil müəyyən etmək imkanı verilməlidir. Bugünkü fikrim budur.

**– Kommunist Partiyası haqqında Sizin təsəvvürünüz dəyişibmi?**

– Bu çox maraqlı sualdır. Bu məsələyə dialektik nöqteyi-nəzərdən yanaşmaq lazımdır. Amma bir şey aydındır ki, bu gün partiya çox ağır vəziyyətdədir. Əgər sırasında olduğun partiya dağılıbsa, təbii ki, bu hal səni də düşünməyə vadar edir, həm də geniş mənada düşünməyə vadar edir. Deməli, mən də düşünməyə məcburam.

**– Altıncı ildir ki, ölkədə yenidənqurma gedir. Bir təcrübəli siyasi xadim kimi Siz bunu necə qiymətləndirirsiniz?**

– Bilirsiniz, «yenidənqurma» sözü hamını təngə gətirib. Hər bir anlayışın nüfuzunu qoruyub saxlamaq lazımdır. Nüfuz itəndən sonra ona inam da itir. Sovetlər ölkəsinin həyatında gedən dəyişikliklər və bu dəyişikliklərin partiya tərəfindən həyata keçirilməsinə gəldikdə isə deməliyəm ki, mühafizəkar qüvvələr bu işə əngəl törədir, bu işi pozur. Ölkədə siyasi və iqtisadi böhran hökm sürür. İndi adamların rifah halı ildən-ilə pisləşir. Ərzaq və xalq istehlakı mallarının qıtlığı artır. Bir sözlə, ölkədə həyat get-gedə ağırlaşır. Belə isə nə üçün siyasi qüvvələr və bütün dövlət aparatı yaşayır. Sovet adamının yaşayışı get-gedə pisləşir. Buna görə də mənə elə gəlir ki, nəticə neqativ nəticədir. Əlbəttə, bununla yanaşı indi öz fikrini sərbəst söyləmək, respublikaların öz suverenliyi və müstəqilliyi uğrunda mübarizə aparmaq imkanı vardır.

**– Yeltsinin, sonra isə Sobçakın, Popovun siyasi meydana atılmasına necə baxırsınız? Siz onlarla şəxsən tanışsınızmı?**

– Mən ayrı-ayrı adamlar haqqında yox, problemlər haqqında danışmaq istərdim. Şəxsiyyət özünü bu gün bir, o biri gün isə başqa bir cəhətdən göstərə bilər. Ona görə də gəlin bu sualdan yan keçək.

**– Bu ilin sentyabrında Azərbaycanda respublika vətəndaşları xalq elçilərinə səs verəcəklər. Güman etmək olar ki, bu dəfə deputatlar həqiqi xalq elçiləri olacaqlar. Siz bir siyasi xadim kimi, Azərbaycanın yeni Ali Sovetinin başlıca vəzifəsini nədə görürsünüz? Ali Sovet nəyi həll etməlidir?**

– Əgər həqiqətən əsl xalq deputatları seçiləcəksə (bunu həyat göstərər, gəlin irəli qaçmayaq), onda müəyyən söz demək olar. İndi isə qısaca deyim ki, mən Azərbaycanın iqtisadi və siyasi suverenliyinin, tam müstəqilliyinin tərəfdarıyam.

**– Bu ilin 19-20 yanvarında Bakı hadisələrinin əsas təqsirkarı kimlərdir?**

– Azərbaycanın keçmiş rəhbərliyi və ölkənin siyasi rəhbərliyi.

**– Vaxtınızı necə keçirirsiniz? Əvvəllər az qala bütün sutkanı işləyirdiniz. İndi necə?**

– Bilirsiniz, son iki ildə mənim haqqımda o qədər ədalətsizliklər edilib ki, bunlar mənim həyatımı zəhərləyib. Belə bir əhval-ruhiyyədə olan adam isə özünü toplayıb sistemli bir iş aparmaqda çətinlik çəkir. Bəzən çox mütaliə edirəm, bəzən yazıram.

**– Memuar yazırsınızmı?**

– Hələ konkret heç nə demək olmaz, amma bəzi qeydlər edirəm. Sinəm doludur. Onlar gərək yazıla və xalqa çatdırıla. Əgər bu borcumu yerinə yetirmədən dünyadan köçsəm, çox pis olar. Mənim bildiklərimi demək olar ki, Azərbaycanda heç kim bilmir.



**– Sizə hal-hazırda nə kimi imtiyazlar verilib?**

– Heç bir imtiyaz verilməyib.

**– Nə kimi məhdudiyyətlər var?**

– Məhdudiyyət ondan ibarətdir ki, evində yaşayırsan, heç bir imtiyazın da yoxdur. Pensiyanı alırsan, yaşayırsan.

**– Belə çıxır ki, mağazaya da, dükana da, bazara da özünüz gedirsiniz?**

– Bəli, bəli.

**– Fərdi maşınınız da yoxdur?**

– Xeyr, yoxdur. Biz azərbaycanlıyıq. Yay vaxtı mənim və uşaqlarımın Azərbaycana gəlməsi üçün imkan yoxdur. Bakıda nə evim var, nə bağım. Gəlib düşmüşəm qardaşım Cəlalın evinə, onun da balaca-balaca otaqları var. İki gecə divanda yatmışam. İndi də bacımın evindəyəm.

**– Naxçıvanda belə qarşılanma gözləyirdiniz?**

– Meydanı nəzərdə tutursunuz?

**– Bəli.**

– Mənə elə gəlirdi ki, belə də olmalıdır.

**– Gəlişinizin əsas məqsədi?**

– Əvvələn, mən beş ildir ki, Azərbaycanda olmamışam. Axı, vətən çəkir, get-gedə daha çox çəkir. İkinci, mənim evində oturduğum böyük bacım bir neçə il əvvəl vəfat edib. O vaxt mən xəstəxanada olduğumdan bunu mənə bildirməyiblər. Son vaxtlarda bildiriblər. Mən onun xatirəsini yad etməliydim. Atamın qəbri burada, anamın qəbri Bakıdadır. Onları da ziyarət etməliydim, ya yox?

**– Siz üç-dörd il əvvəl Naxçıvana gələ bilərdinizmi?**

– Dörd il əvvəl mən vəzifədəydim.

**– Vəzifədən çıxandan sonra necə?**

– Vəzifədən çıxandan sonra Naxçıvana gələ bilərdim, amma gələ bilmədim. Bir il sonra şərait olmadı, Azərbaycanda vəziyyət qarışdı, Qarabağ hadisələri qalxdı, mərkəzi mətbuat orqanları da yazdı ki, bu hadisələrdə Əliyev günahkardır. Ona görə də Qarabağda ermənilər ayağa qalxıb Ermənistana köçmək istəyirlər. Çünki Əliyev vaxtı ilə Qarabağa pis baxıbdır. Hörmətli yazıçımız Mirzə İbrahimov kimi adam da

«Sovetskaya kultura» qəzetinə belə bir məqalə yazdı.

**– Burada da gəlib camaat qarşısında dedi ki, yazını o yazmayıb, redaksiyada dəyişiblər.**

– Bəli, mənə heç bir yerdə imkan vermədilər ki, çıxış edib bu barədə sözümü deyim. Nəhayət, 1989-cu ilin aprel ayında MK-nın tərkibindən çıxanda öz fikrimi dedim. Bildirdim ki, bu, yalandır. Qorbaçov deyirdi ki, guya Qarabağda ermənilərin bu məsələni qaldırmağa haqqı vardır. Çünki onlar guya uzun illər ehtiyac içərisində olublar. Onlar əzab çəkmiş, güzəranları pis keçmiş, onlara yaxşı baxmamışlar. Bu da tam yalandır. Bunu isə görün kim deyir? Bu böyüklükdə ölkənin rəhbəri. Orada da deyir, burada da deyir, Vəzirov da bunu təkrar edirdi, Mirzə İbrahimov da təkrar edirdi, mənimlə Azərbaycanda rəhbərlik edən adamlar isə ağızlarına su alıb dururdular. Belə vəziyyətdə mən necə gələydim. İstəyirdim Bakıya gələm. Camaatı yığıb deyəm ki, bunlar yalandır, ancaq mənə imkan vermirdilər.

**– Deməli, məhdudiyyət var idi?**

– Əlbəttə, var idi.

**– Siz üç gündür burdasınız. Nə qədər qalacaqsınız? Həmişəlik qalmaq istərdinizmi?**

– Nə qədər qalacağam? Görək də, necə olur. Başqa yerdə ev verməsələr, elə gəlib burda qalacağam.

**– Dünən Nehrəm kəndinin camaatı Sizi Azərbaycan SSR Ali Sovetinə deputatlığa namizəd irəli sürdü. Mən inanıram ki, Siz deputat seçiləcəksiniz. Belə olan təqdirdə nə kimi platforma irəli sürmək istərdiniz?**

– Platformamı yuxarıda dedim. Siyasi və iqtisadi cəhətdən suveren, müstəqil Azərbaycan uğrunda mübarizə aparmaq.

**– Yoldaş Əliyev, Siz bir anlığa mənim yerimə olsaydınız, Heydər Əliyevə ən başlıca sualınız nə olardı?**

– (Xeyli gülür) Hansı sualı verərdim? Çox sual verərdim (yenə gülür).

**– Başlıca sual?**

– Başlıca sual? Soruşardım ki, ay Əliyev, bəzi adamları niyə yaxşı tanımamısan?

**– Gözəl cavabdır. Qarabağ hadisələri Sizin vaxtınızda baş verə bilərdimi?**

– Xeyr, mənim vaxtımda başlaya bilməzdi.



**– Niyə?**

– Mən buna yol verməzdim.

**– Necə?**

– Əlimdə olan bütün imkanlardan tam istifadə edərdim.

**– Qarabağın aqibəti necə olacaq?**

– Çox çətindir. Gərək Azərbaycan öz torpağının tam sahibi olsun. Bir qarış torpağı da vermək olmaz. Mən 14 il Azərbaycana rəhbərlik eləmişəm, bir ovuc torpaq verməmişəm, amma məndən əvvəlki və sonrakı dövrlərdə Azərbaycandan xeyli torpaq veriblər. Mənə belə gəlir ki, mübarizə aparmaq lazımdır. İndiki mübarizə yaramaz. Burda bir kəlmə de, orda bir kəlmə de. Bu, mübarizə deyil, bu, camaata göstərməkdir ki, guya mən mübarizə aparıram.

**– Mən Qarabağı dedim, amma Naxçıvanda da vəziyyət çoxdandır ki, gərgindir. Bu vəziyyətdən çıxış yolu nədədir? Dediyiniz mübarizənin üsulu necə olmalıdır?**

– Rəhbərliyin gərək iradəsi olsun, İRADƏSİ! Gərək hər bir rəhbər adam belə hesab etsin ki, onun borcu öz xalqının, öz torpağının, rəhbərlik etdiyi vilayətin, respublikanın müqəddəsliyinin keşiyində durmaqdır. Deməli özünü bir kənara qoymalısan, öz şəxsi arzularından əl çəkməlisən, özünü ancaq bu işə sərf etməlisən. Mən 14 il respublikaya, xalqa xidmət etdim. Ona görə də indi, necə deyərlər, çılpaq qalmışam. Ancaq mən heyfslənmirəm. Bir də siyasi fəaliyyətə başlasaydım, elə bu yolla da gedərdim, başqa yolla gedə bilməzdim.

**– Bu yaxınlarda Sov.İKP-nin XXVIII qurultayı öz işini qurtardı. Həm də Siz Naxçıvan partiya təşkilatı tərəfindən Azərbaycan kommunistlərinin Ali Məclisinə nümayəndə seçilmisiniz. Mümkünsə deyin, Sov.İKP-nin XXVIII qurultayı Sizə necə təsir etdi? Bir də Azərbaycan kommunistlərinin Ali Məclisinin birinci hissəsində iştirak etmədiniz, ikinci hissəsində iştirak etmək fikriniz varmı?**

– Sov.İKP XXVIII qurultayı həqiqi partiyaçıların ümidlərini doğrultmadı. Qaldı ikinci məsələyə, mən Naxçıvan kommunistlərinə minnətdaram ki, Moskvada ola-ola, məni qurultaya nümayəndə seçdilər, amma gedib-getməməyimi deyə bilmərəm. Çox qurultayların nümayəndəsi olmuşam, lakin Azərbaycan Kommunist Partiyasının XXXII qurultayına nümayəndə seçilməyim mənim üçün böyük şərəfdir. Fəqət mənim bu qurultayın açılışında iştirak etməyimə imkan vermədilər, qarşımı kəsdilər. Ona görə də bilmirəm qurultayın ikinci hissəsinə get-

məyimə lüzum varmı? Güman ki, getməyəcəyəm.

**– Müxtəlif mətbuat dairələrində Sizi «islam fundamentalizmi»nin tərəfdarı kimi təqsirləndirirlər...**

– Bilirsiniz, yalan, böhtan indi elə geniş miqyas alıb ki, mənə desələr, sən Roma Papasının təbliğatçısısan, yenə təəccüblənmərəm. Çünki o qədər yalan şeylər yazılır ki, artıq adamın qulağı öyrəşib. O ki qaldı mənim islam fundamentalizminin təşkilatçılarından olmağıma, deməliyəm ki, mən belə bir arzuda da olmamışam. İslam dininə gəldikdə isə deməliyəm ki, mənim ona hörmətim var. Ümumiyyətlə, bütün dinlərə hörmətim var. Düzdür, indi islam dini də inkişaf edir. Başqa dinlərə nisbətən zəif inkişaf edir. İslam dininin respublikada inkişaf etməsini müsbət qiymətləndirirəm.

**– Allaha inanırsınız?**

– İlahi qüvvəyə inanıram.

**– Sizin Moskvada oğlunuz və qızınız var. Onlar nə ilə məşğuldurlar, harada yaşayırlar?**

– İndi hamımız bir yerdə yaşayırıq. Həyat yoldaşım beş il qabaq vəfat etmişdir. Ondan sonra mənim istinad nöqtəm ailəmdir. Qızım, oğlum, nəvələrimlə bir yerdə yaşayıram. Oğlum İlham Moskvada Beynəlxalq Münasibətlər İnstitutunu bitirib. İngilis, fransız dillərini bilir. Həmin institutun aspiranturasını qurtarıb, namizədlik dissertasiyası müdafiə edib. Amma mən işdən çıxandan sonra onun da həyatında çətinliklər baş verib. İxtisasına görə iş vermirlər. Deyirlər ki, sən Əliyevin oğlusan, yazdığı əsərlər bir tərəfdə qalıb. Bu da ona əzab verir. Qızım Sevil də Şərqşünaslıq İnstitutunun aspiranturasını bitirib, elmlər namizədidir, ərəbşünasdır. Həmin institutda işləyirdi. Son vaxtlar işləmir. Beş nəvəm var.

**– Deməli, evlənməyiniz haqda dedi-qodu boş şeydir.**

– Dedi-qodu deyil, ağ yalandır. Mən həyat yoldaşım Zərifə xanıma çox sadiq olmuşam. Onun xatirəsi mənim üçün müqəddəsdir. Hərənin bir xasiyyəti var. Ailə münasibətlərində mən ehkamçıyam.

**– Sevimli məşğuliyyətiniz?**

– Kitabı daha çox sevirəm. Çoxlu kitablarım var. Təəssüf ki, arxivimin bir hissəsi Vəzirovun təqsiri üzündən məhv oldu. Mədəniyyəti çox sevirəm. Musiqini başa düşürəm, rəssamlığı xoşlayıram. Vaxtı ilə memar olmaq istəmişəm. Hətta iki kurs memarlıq fakültəsində oxumuşam. Mədəniyyət adamları ilə həmişə yaxın olmuşam. Başqa məşğuliyyətim



olmayıb, balıqçılıq, ovçuluq etməmişəm.

**– Kimi daha çox oxuyursunuz?**

– Azərbaycanın həm keçmiş, həm də müasir yazıçılarının əsərlərini, Qərbi Avropa və rus klassiklərini oxumağı çox sevirəm. Son dörd-beş ildə yaranan əsərləri oxumaq həvəsim yoxdur. Konyukturaçı ədəbiyyatdır.

**– «Şərq qapısı» qəzetinin oxucularına sözünüz?**

– Mən «Şərq qapısı» qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən, burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün «Şərq qapısı»ndan çox istifadə etmişəm. Qəzetiniz o vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb. Oxuculara daha fəal olmağı arzulayıram.

**– Müsahibə üçün çox sağ olun.**

***Müsahibəni apardı: M.MÖHSÜN***

## «NAÇALO»nun MÜXBİRLƏRİ ALEKSANDR ŞUMSKİ VƏ ALEKSEY MİTROFANOVLA MÜSAHİBƏ

Lap bu yaxınlarda o, Siyasi Büronun üzvü idi. Adamların taleyi onun qərarlarından asılı idi. Bu gün isə o, təqaüdçüdür. Lakin ölkəmizi kəməndləmiş prosesləri çox ciddi qiymətləndirməyi bacaran bir təqaüdçüdür. Heyf ki, aşkarlıq Sov.İKP-nin keçmiş liderlərini hələ öz qoynuna almayıb. Onları sükuta düçar edib. «Naçalo» bu ənənəni pozur. Beləliklə, həmsöhbətimiz Heydər Əliyevdir.

**– Heydər Əliyeviç, Siz uzun müddət Azərbaycanda işləmisiniz, ona görə də söhbətimizi məhz millətlərarası ziddiyyətlərdən başlamaq istəyirik. Doğrudanmı, on il əvvəl indi milli ədavət adlanan və son 2-3 ildə bütün ölkəyə zərbə endirən bir xəstəliyin heç bir əlaməti yox idi?**

– Azərbaycan KP MK-nın birinci katibi işlədiyim 14 il ərzində respublikada nə millətlərarası zəmində, o cümlədən nə də ermənilərlə azərbaycanlılar arasında heç bir münaqişə, toqquşma baş verməmişdir. Lakin bəzən mənə belə xəbərlər çatırdı ki, Yerevanda yaşayan bəzi ziyalılar millətçilik əhval-ruhiyyəsini qızışdırır. Dağlıq Qarabağ ətrafında təhrikçilik işi aparırlar. Bir hadisəni danışmaq istəyirəm. 1975-ci ildə biz böyük bir tədbir – Azərbaycanda sovet ədəbiyyatı günləri keçirirdik. O vaxt məşhur yazıçı və şairlərin böyük bir qrupu ilə Marietta Sergeyevna Şaginyan da gəlmişdi. O, milliyyətcə ermənidir. Lakin bütün həyatı Moskvada keçib. Mən ondan xahiş elədim ki, qonaq sifəti ilə Azərbaycanda qalsın və ermənilərin ən çox yaşadığı yerləri gəzsin. Marietta Sergeyevna bu təklifi məmnuniyyətlə qəbul etdi və Dağlıq Qarabağda, Kirovabadda, Bakıda... oldu.

Sonra istirahət günü onu evimə dəvət elədim. O öz təəssüratlarından, ermənilərlə görüşlərindən danışdı və açıq dedi ki, ermənilər Azərbaycanda yağ-bal içində üzürlər. Getmək ərəfəsində Marietta Sergeyevna birdən ağzından qaçırdı ki, Yerevanda olarkən erməni ziyalılarının bəzi nümayəndələri onun yanına gəlmişdilər. Onlar Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilməsi haqqında Moskvaya məktub yazmışdılar. Onlar istəyirdilər ki, Şaginyanı bu məktuba qol çəkməyə təhrik etsinlər. Yazıçı imtina etmişdir.



**– Bu 1975-ci ildə olub. Lakin yəqin ki, münaqişə haradasa 80-ci illərin ortalarında aşkar olub?**

– Mənə danışdıqlarına görə 1986 və ya 1987-ci ildə Ermənistanda «Ocaq» adlı bir kitab çıxıb. Ocaq – Azərbaycan sözüdür. Ocaq – tonqal deməkdir. Kitabda açıq-aşkar təsdiq olunurdu ki, az qala Azərbaycanın ərazisinin böyük bir hissəsi Ermənistanın tarixi torpaqlarıdır. Bu və bir sıra digər hərəkətlər erməni ictimaiyyətinin bir hissəsi tərəfindən Azərbaycana qarşı ərazi iddiası əhval-ruhiyyəsi qaldırdı.

**– Sizin fikrinizcə belə halda hansı tədbirləri görmək lazım idi?**

– Qanunlarımıza, əxlaqımızın, partiya intizamının normalarına uyğun olaraq saxtakarları və təhrikçiləri qayda-qanuna çağırmaq lazım idi. Hansı yaxşıdır. Münaqişənin baş verməsinin qarşısını vaxtında, bəlkə də hətta müəyyən xərclərin hesabına almaq, yoxsa iki il qan tökülməsi və iki xalqın bir-birinə düşmən kəsilməsini müşahidə etmək?

Bir dəfə MK plenumunda Azərbaycan KP MK-nın o vaxtkı birinci katibi, məndən sonra işləyən Bağırovla görüşdüm. Ondan soruşdum:

**– «Siz buna necə yol vermişsiniz?» Bağırov dedi ki, onlar mərkəzə məlumat veriblər. Lakin mərkəz heç bir reaksiya verməyib.**

– O vaxt Ermənistandan 2-3 gün ərzində bütün azərbaycanlıları çıxartdılar, özü də bu zaman adamlara qarşı güc işlədildi, ölüm, əlillik halları da müşahidə olundu, onlar öz doğma ocaqlarından məhrum edildilər. Sonra Sumqayıt hadisəsi baş verdi. Azərbaycanlılar DQMV-dən çıxarıldılar. Elə o vaxt qəti tədbirlər görmək lazım idi. Bəs nə baş verdi? Sov.İKP MK-nın bir katibi Yerevana, o biri isə Sumqayıta getdi. İki-üç gün orada olandan sonra geri qayıtdılar. Guya ki, bununla hər şey sakitləşdi...

Bəs sonra nə oldu? Partiyamızın rəhbərləri, o cümlədən Qorbaçov bunu belə izah etdilər ki, Dağlıq Qarabağda DQMV-ni Ermənistana vermək haqqında çağırışlar əmələ gəlib, günahkar isə Azərbaycanın keçmiş rəhbərləri və uzun müddət yığılıb qalmış problemlərdir. Belə hesab edirəm ki, bu, əsassız iddiadır.

Bir tərəfdən vilayətin kifayət qədər yaxşı sürətlə inkişaf etdirilməsi haqqında qərarlar imzalanırdı. 3 beşillik ərzində sənaye istehsalının həcmi 3 dəfə, kənd təsərrüfatı məhsulu 1 dəfə yarım artmış, sosial sahə, inteqrasiya prosesləri olduqca inkişaf etmişdir. Digər tərəfdən deyilirdi ki, Dağlıq Qarabağın sosial-itisadi inkişafı geri qalıb, buna görə də əhali sıxışdırılıb. Bu, heç də məntiqə uyğun deyil.

**– Deməli, xalqların böyük dostluğundan danışmaq əvəzinə DQMV-nin problemini real şəkildə həll etmək lazım idi?**

– Şübhəsiz! Dağlıq Qarabağ məsələsini SSRİ Konstitusiyası əsasında, orada deyildiyi kimi, «hər bir müttəfiq respublikanın suverenliyi toxunulmazdır»—prinsipi ilə həll etmək əvəzinə mərkəz anlaşılmaz mövqe tutdu. Qoy Azərbaycanın və Ermənistanın rəhbərləri öz aralarında danışsınlar. Axı onlar necə danışa bilərlər? Buna hansı hüquqi əsas var? Halbuki, Ermənistan rəhbərləri tribunadan çıxışlar edərək deyirdilər ki, DQMV-ni Ermənistana vermək lazımdır. Daha doğrusu, artıq açıq-açığına başqa bir müttəfiq respublikaya qarşı ərazi iddiası meydana çıxırdı... Belə vəziyyətdə DQMV-də bütünlükdə Moskvaya tabe olan xüsusi idarəetmə komitəsi yaradılır. Daha bir səhv. Bu, eyni zamanda hüquq normalarına və konstitusiyaya ziddir.

**– Xatırımızdadır ki, Dağlıq Qarabağda vəziyyət haqqında məsələ ilk dəfə 1988-ci ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin iclasında müzakirə edilib...**

– Mən təəccüb edirəm, niyə yubadıldı? Hadisələr 1987-ci ilin axırlarında baş vermişdi. Azərbaycanlıları Ermənistandan 1988-ci ilin əvvəllərində cıxartdılar. Həmin ilin fevral ayında Sumqayıt hadisəsi baş verdi. SSRİ Ali Sovetinin Rəyasət Heyəti isə bu məsələnin müzakirəsinə yalnız iyul ayında başladı... Çox uzatdılar, bu iclası keçirtdilər və... əslində heç bir şeyi həll etmədilər.

DQMV haqqında məsələ Moskvada müxtəlif səviyyələrdə çoxlu müzakirə olunub, lakin heç bir nəticəsi olmayıb, vəziyyət isə orada getdikcə kəskinləşib. Əlbəttə, günahın çox hissəsi Azərbaycan və Ermənistanın rəhbərlərinin üzərinə düşür.

Azərbaycan KP MK-nın birinci katibi Vəzirov mürəkkəb vəziyyətdə özünü çox zəif göstərdi. Onun bu vəzifəyə təyin olunması ən böyük səhvdir. Onun partiya işi sahəsində lazımi təcrübəsi və siyasi hazırlığı yox idi. Uzun illər xaricdə işlədiyi üçün respublikadakı vəziyyətdən xəbərsiz idi.

Vəzirovu Azərbaycana gecə Liqaçov apardı. Səhərisi isə təqdim etdi və o, Azərbaycan KP MK-nın birinci katibi «seçildi». Respublikada heç kim onun namizədliyini irəli sürməmişdi. Büro üzvləri, partiya fəalları ilə əvvəlcədən məsləhətləşmə olmamışdı. Halbuki respublikada bu vəzifəyə layiq adamlar var idi. Sov.İKP-nin həmin kadr səhvi nəticəsində Azərbaycanın və DQMV-nin bütün iqtisadiyyatı dağıldı, vəziyyət dözülməz oldu.



Ermənistan Ali Sovetinin sessiyasının DQMV-nin plan və büdcəsini Ermənistanın 1990-cı il planına daxil etmək qərarı görünməmiş bir fakt idi. Məgər bu, Sov.İKP MK-nın, SSRİ Ali Soveti Rəyasət Heyətinin həmin işə ciddi surətdə qarışmasına əsas vermirdimi? Bəs nə oldu? Qərar qəbul olundu ki, Ermənistanın qərarı SSRİ Konstitusiyasına ziddir. Ermənistan isə öz qərarını ləğv etmədi. Bu isə Azərbaycanda yeni narazılıq dalğası oyatdı, vəziyyət kəskinləşdi, dəmiryolunun dayanmasına səbəb oldu...

**– Yəqin ki, Azərbaycanda işlər əsasən 1989-cu ilin sonunda pisləşdi. Bir çox rayonlarda Sovet hakimiyyəti Xalq Cəbhəsi nümayəndələrinin əlinə keçdi. Sonra Naxçıvanda sərhədləri sökməyə başladılar. Sizcə, onları buna nə vadar etdi?**

– Mən sərhəddə yaşamışam, oraya yaxşı bələdəm, ona görə ki, əvvəllər dövlət təhlükəsizliyi orqanlarında işləmişəm. Mənim ağlıma da gəlməzdi ki, sərhədyanı kəndlərin əhalisi sərhəd çəpərlərinə qəsd edə bilərlər. Birdən görün nələr baş verir! Bu ona qarşı etiraz idi ki, onların səsini heç kəs eşitmək istəmir. Mərkəzi mətbuatdan məlumdur ki, sərhədyanı kəndlərin sakinləri, onlar hələ son addım atmazdan əvvəl, sərhədi pozmaqdan iki ay qabaq hakimiyyət qarşısında öz tələblərini qoymuşdular.

Yanvar ayında Bakıda və Azərbaycanda vəziyyət olduqca kəskinləşdi. Bakıda erməni qırğını başladı. Lakin yenidən lazımi tədbir görülmədi.

Sonra Azərbaycandan gedən qaçqınlara kömək göstərmək haqqında SSRİ Nazirlər Sovetinin qərarı çıxdı. Bu, yaxşıdır, düzgündür. Lakin nəyə görə iki il əvvəl Ermənistandan qovulmuş qaçqınlara kömək göstərmək haqqında qərar verilmədi? Nəyə görə bu iki il ərzində həmin məsələ həll olunmadı?

Adamlar isə hiddətləndilər. Onlar görürdülər ki, ermənilərin çoxu Bakıdan getdikləri üçün onların mənzilləri boşdur və yaşamaq üçün oraya girirlər. Onlara mane olanları isə ya qovurlar, yaxud da öldürürlər. Mən bu hərəkətləri mühakimə edirəm. Belə hesab edirəm ki, respublikanın rəhbərlərinin bu biabırçılığa yol verməmək üçün hər cür imkanları var idi. Yeri gəlmişkən, o zaman ölkənin yüksək siyasi rəhbərliyinin nümayəndələri Bakıda idilər. Bəs niyə onlar lazımi tədbirlər görmədilər? Əgər bütün bu hadisələri diqqətlə və ardıcıllıqla təhlil etsək, görərik ki, bu problem yaranan gündən və iş son dərəcə dəhşətli vəziyyətə çatana qədər çoxlu səhvlərə yol verilmişdi...

**– Heydər Əliyeviç, fikrimizcə çoxlarını maraqlandıran və Sizin üçün o qədər də xoşa gəlməyən bir mövzuya toxunmaq istərdik. Siz təqaüdə çıxandan sonra Sizi onda günahlandırırdılar ki, Azərbaycandakı fəaliyyətinizdə çoxlu əyintilər, səhvlər buraxmısınız.**

– Məni nədə günahlandırırdılar? Nə olar, danışaram...

Biz rəhbər işçilərə dissertasiya müdafiə etməyi qadağan etmişdik. Bizdə – Azərbaycanda belə bir xəstəlik var idi. Raykom katibləri, nazirlər, MK katibləri, MK və Nazirlər Sovetinin məsul işçiləri öz işləri ilə məşğul olmaq əvəzinə, bütün qüvvələrini elmi dissertasiyaların hazırlanmasına və müdafiəsinə sərf edirdilər. Müəyyən edildiyinə görə əksər hallarda bununla özləri məşğul olmur, həmin işi elmi müəssisələrə, ali məktəblərə, öz əlləri altında olan adamlara, özü də dövlət hesabına tapşırırdılar. Xidməti vəzifədən bu cür sui-istifadə hallan ilə necə barışmaq olardı?

Buna görə də plenumlardan birində mən belə də dedim: yoldaşlar, kim partiya və dövlət işində çalışırsa, o, bilavasitə öz işi ilə məşğul olmalıdır, elmi dissertasiyaların tərtibinə vaxt itirməməlidir. Əgər kim elmi işə can atırsa, ərizə verib elmi işə keçə bilər, sonra dissertasiyalar yazın, elmimizi zənginləşdirin. İkisindən birini seçin, MK plenumu bu təklifi bəyəndi. Lakin sizə deyim ki, bir nəfər də olsun getmədi.

**– Sizi bir də onda ittiham edirlər ki, neqativ hallara qarşı düzgün mübarizə aparmırdınız, günahsız adamları təqib edirdiniz, öz qohumlarınıza yüksək vəzifələr verirdiniz...**

– Mənim işlədiyim dövrdə Azərbaycanda neqativ hallara qarşı mübarizə aparılırdı. 1969-cu ilin axırlarından başlayaraq, Azərbaycan partiya təşkilatı rüşvətxorluğa, qohumbazlığa, himayəçiliyə, xidməti vəzifədən tamah məqsədi ilə istifadə edənlərə, oğurluq hallarına qarşı özünün mübariz səsini qaldırdı. Bunu tələb etdiyim üçün, ayrı-ayrı adamlar mənəviyyata zidd hərəkətlərinə görə çəzalandırıldıqları üçün indi məni günahlandırırlar. Və məni ittiham etmək üçün göstərmək istəyirlər ki, mən öz qohumlarımı müxtəlif vəzifələrə qoymuşam.

Hansı vəzifələrə qoymuşam?! Əgər mən onları nazir və ya deyək ki, raykom katibi, MK-da, Nazirlər Sovetində, Ali Sovetin Rəyasət Heyətində... vəzifələrə təyin etsəydim, bu başqa iş. Lakin mənim bütün qohumlarım elmi işçidirlər. Özü də onlar mən Azərbaycan KP MK-nın birinci katibi olmamışdan xeyli əvvəl bu yolu seçmişdilər. Mən onları elmi işdən uzaqlaşdırmalıydımmı?



Qardaşım Həsən Əliyevin 83 yaşı var. O, 1937-ci ildən Elmlər Akademiyasında işləyir. 1952-ci ildə onu akademik seçiblər. O zaman mənim 29 yaşım var idi və ən sıravi işdə idim. 17 il keçəndən sonra Azərbaycan KP MK-nın katibi oldum. Yeri gəlmişkən, mən birinci katib olanda, o, Elmi-Tədqiqat Coğrafiya İnstitutunun direktoru idi və təqaüdə çıxana qədər həmin vəzifədə qaldı.

Beş il bundan qabaq həyatdan köçən arvadım 1947-ci ildə Azərbaycan Tibb İnstitutunu bitirəndə biz hələ ailə qurmamışdıq. Moskvada göz həkimi üzrə ixtisaslaşıb, sonra aspiranturanı bitirib, elmlər namizədi olub. Biz 1954-cü ildə evlənmişik. O, təbii ki, tədricən elmin yolu ilə gedib, böyük mütəxəssis olub, cərrahi əməliyyatlar aparıb, müalicə edib, baş elmi əməkdaş, dosent, professor olub. 130 elmi əsərin müəllifidir. Özü də Moskvada çap olunan elmi işləri olub. İndi yeri gəlmişkən, mənə deyirlər ki, onun iri diaqnostika üzrə elmi işlərindən biri (iki nəfər moskvalı həkim-oftalmoloqla birgə) nadir əsər sayılır.

Bizim ailədə elə alınıb ki, həm arvadım, həm də mənim qohumlarım elmi işçilərdir. Təkcə mənim elmi dərəcəm yoxdur. Bu da mənim günahımdır.

Məni daha nə üstündə ittiham etməyə çalışırlar? Guya mən Brejnevi tərifləyirdim, onu Bakıda təntənəli surətdə qəbul edirdim. Bunu kim belə eləmirdi? Onun 75 illiyini yaxşı xatırlayıram. O vaxtın qəzetlərində siz Brejnevin fotoportretlərinə, Sov.İKP MK-nın, SSRİ Ali Soveti Rəyasət Heyətinin, SSRİ Nazirlər Sovetinin təbriklərinə rast gəlirsiz. Bu işdə təşkilatçı rolunu kim oynayırdı? Bunun formasını kim təklif edirdi? Sov.İKP MK Siyasi Bürosu! Bunu ki, onlar edirdi. Onlardan bəziləri elə indi də ölkənin siyasi rəhbərliyindədirlər. Biz isə yerlərdə təkrar edirdik. Yeri gəlmişkən, mən Brejnevlə Moskvada işləməmişəm. Məni Moskvaya Andropov aparıb.

Daha bir ittiham: Leonid İliçi Azərbaycanda təntənə ilə qarşılayırdılar. Axı onu harada təntənə ilə qəbul etmirdilər? İstər ölkədə, istərsə də xaricdə onu təntənəli şəkildə qəbul edirdilər. Bütün respublikalarda, şəhərlərdə. Bizə gəlməmişdən əvvəl, o, Gürcüstanda oldu. Mən Tbilisidə oldum və bunu gördüm. Bu təcrübədən çox şey «öyrəndim», axı müəyyən etiket götürülürdü.

60-cı illərdə mən hələ dövlət təhlükəsizliyi orqanlarında işləyərkən, Xruşşov Bakıya gəlmişdi. O vaxt onu Brejnevdən artıq təmtəraqla qarşıladılar. Nələr baş verdi, küçələrə nə qədər adam çıxarmışdılar. İndi

Brejnevi tərifládiyi üçün təkcə Əliyevi ittiham edirlər. Bəs, başqaları onu tərifləmirdimi? Hamı tərifləyirdi, o cümlədən o adamlar ki, indi də ölkənin siyasi rəhbərliyindədirlər.

**– Bir vaxt çoxlu söz-söhbət gəzirdi ki, Bakıda Brejnev üçün xüsusi ev tikilib...**

– Ağılsızlıqdır! Brejnev Bakıda yaşamırdı və yaşamaq fikrində də deyildi. Onun üçün xüsusi ev tikdirmək nəyə lazım idi? Biz qonaq evi tikdirmişdik. Bakı şəhərində münasib qonaq iqamətgahı yox idi. Bir çox xarici və sovet qonaqları, o cümlədən Brejnev də orada yaşayıblar.

Vəzirov isə sensasiya üçün bunun mehmanxana-nikah sarayına çevrildiyini elan etdi. Həmin bina isə bu işə yaramırdı. Sonra mən öyrəndim ki, bu, yalandır. Onlar yuxarı mərtəbəni, bütün yataq otaqlarını, apartamentləri bağladılar. Birinci mərtəbədəki salonlardan birində isə nikah qeydə alırdılar. Birdən İranın prezidenti Rəfsəncani qəfildən onlarla görüşə gəldi. Onlar nikah sarayının binası üzərindən lövhəni götürdülər və qonağı bu iqamətgahda yerləşdirdilər. Onun üzərində İranın bayrağını qaldırdılar. Bakıda hamı gülürdü. Bir baxın, İranın prezidentini nikah sarayında qəbul edirlər.

**– Heydər Əliyeviç, lap bu yaxınlarda Sizi ittiham edirdilər ki, siz xoşunuza gəlməyən adamlar üzərində məhkəmə prosesi təşkil edirdiniz. Bu həqiqətə uyğundurmu?**

– Mən heç bir məhkəmə prosesi təşkil etməmişəm. Biz yalnız əsas xətti müəyyənləşdirirdik, vəzifəsindən asılı olmayaraq rüşvət alanlar, xidməti vəzifəsindən sui-istifadə edənlər cəzalandırılmalıdırlar. Əyinti üstündə naziri də, raykomun birinci katibini də, təsərrüfat rəhbərlərini də, MK işçisini də işdən və partiya sıralarından xaric edirdik.

Məsələn, İncəsənət İnstitutunda yoxlama zamanı böyük biabırçılıq aşkara çıxdı. Özü də bu işlə Xalq Nəzarəti Komitəsi və rayon Partiya Komitəsinin birinci katibi məşğul olurdu. MK-ya institutun rektoru tərəfindən plan-maliyyə işində, abituriyentlərin qəbulunda buraxılan sui-istifadə halları haqqında ciddi arayış təqdim edilmişdi. Biz bu məsələni büroda müzakirə etdik, həmin rektoru partiyadan xaric etdik, bütün məlumatları mətbuatda dərc etdirdik. Bir neçə aydan sonra istintaq orqanları bu işlə məşğul olmağa başladılar və belə məlum oldu ki, bu əhvalat məhkəməlikdir. Bəzi adamlar cinayət məsuliyyətinə cəlb olundular və müxtəlif cəza tədbirlərinə məruz qaldılar.



**– Sizin fikrinizcə, SSRİ-də iqtisadiyyatın süqutu nə vaxt başlandı? Bu gün biz bu sahədə işlərin vəziyyətini düzəldirik, yoxsa dərinləşdiririk?**

– Əlbəttə, iqtisadiyyatda neqativ meyllər, inkişaf sürətinin aşağı düşməsi artıq 70-ci illərin axırlarında, 80-ci illərin əvvəllərində hiss olunurdu. Biz görürdük ki, iqtisadiyyatın inkişaf sürəti ildən-ilə aşağı düşür. Mənim fikrimcə, bunun qarşısını almaq, bu meyli dayandırmaq və iqtisadiyyatı bu vəziyyətə düşməyə qoymamaq mümkün idi.

İqtisadiyyatın xüsusilə pisləşməsi son iki ildə baş verdi. Bu məlumdur... Bu haqda ölkənin rəhbərləri, tanınmış iqtisadçılar da deyir.

**– Bəs bunun səbəbi nədir, bu niyə baş verdi?**

– Hər şey onunla əlaqələndirilir ki, biz keçid dövründəyik. Artıq rəhbərliyin köhnə metodları fəaliyyət göstərmir. Halbuki iqtisadiyyat ildən-ilə zəifləyir. Açığını deyim ki, müharibədən sonrakı dövrlərdə belə vəziyyəti xatırlamıram. Xüsusilə, ərzaq məhsulları, xalq istehlakı mallarının çatışmazlığı narahatlıq doğurur. Bu niyə baş verir? Ona görə ki, son illər işin gedişində səhvlər buraxılır.

Məsələn, götürək elə antialkoqol siyasəti haqqında qanunu. Mən belə hesab edirəm ki, burada böyük əyintiyə yol verilib. Sərxoşluğa qarşı mübarizə aparmağın vacibliyi heç kimdə şübhə doğurmur. Lakin hansı üsullarla? Axı hər şeyi ətraflı fikirləşmək lazım idi. Yoxsa ki, bir tərəfdən biz demokratikləşmədən, iqtisadi metodlarla fəaliyyət göstərməkdən danışır, digər tərəfdən isə inzibati-amirlik sisteminin ən pis formasını tətbiq edirik. Qadağan, təzyiq yolu ilə spirtli içkilərdən istifadə olunmağın qarşısını almaq istəyirik. Hətta pivə zavodlarını da bağladıq. Azərbaycanda bir dəfəyə 70 min hektar üzümlüyü məhv etdik. Keçən il orada cəmi 800 min tona yaxın üzüm yığıldı. Halbuki əvvəllər iki milyon tona qədər üzüm toplanırdı. Bu, böyük ziyan vurdu.

Ərzaq məsələsi daha ağır vəziyyətə düşdü. 1982-ci ildə, Brejnevin vaxtında Ərzaq proqramı qəbul olundu. Həmin proqram Qorbaçovun rəhbərliyi altında işlənildi. O, kənd təsərrüfatı üzrə MK katibi, Siyasi Büronun üzvü idi. Ona görə də bu proqram heç bir yerdə tətbiq olunmur. Biz bir neçə il bu proqramla yaşadıq. O bizə heç nə vermədi. Sonra Estoniya, Gürcüstan və bəzi vilayətlərdə aqrar sənayenin yaradılması üzrə bir neçə eksperiment keçirdilər. Sov.İKP MK-nın 1985-ci ilin aprel plenumundan sonra böyük təmtəraqla, heyranlıqla ən yüksək səviyyəyə əsaslanan dövlət aqrar sənayesini yaratdılar. Neçə də aparat

düzəltdilər. 3 ildən sonra onu da məhv etdilər. Məgər bu düzgün siyasətdir?

Mən keçmişdə buraxılan səhvləri inkar etmirəm. Mən bugünkü nəslə ağır miras qaldığını inkar etmirəm. Lakin son 5 ildə iqtisadiyyatın, sosial həyatın inkişafında azmı səhvlər buraxılıb? Bunlar vəziyyəti yüngülləşdirməyib, əksinə, ağırlaşdırıb. Təəssüf ki, bu haqda danışmaq qəbul olunmayıb. Təkcə onu deyirlər ki, ölkənin bugünkü ağır vəziyyəti keçmişin çoxlu səhvləri ilə bağlıdır.

**– Siz əvvəlki kimi, SSRİ Nazirlər Sovetində dövlət məsləhətçisi vəzifəsini tutursunuz?**

– Xeyr, mən təqaüdçüyəm. Mən SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən, Sov.İKP MK Siyasi Bürosunun üzvlüyündən təqaüdə çıxanda məni elə o dəqiqə SSRİ Nazirlər Sovetində məsləhətçi təsdiq etdilər. Bir il bu vəzifədə işlədim. Sonra çıxdım. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində apardığım məsələlərə baxırdım. O vaxt əvvəlcə nəqliyyata baxırdım. Sonra isə səhiyyə, maarif, ali məktəb, mətbuat, mədəniyyət, ticarət və başqa bütün sosial məsələləri də əlavə etdilər... Bu vəzifədə, təvazökarsızlıq olmasın, böyük həvəslə və faydalı işlədim. Lakin təəssüf olsun ki, bu işi də mənim üçün həddindən artıq məsuliyyətli saydılar.

*«Şərq qapısı» qəzetinin 2 sentyabr 1990-cı il tarixli nömrəsindən götürülmüşdür.*



## «NƏ HƏDƏLƏRDƏN, NƏ RƏZİL NİYYƏTLƏRDƏN QORXURAM»

*«Nezavisimaya qazeta»nın müxbiri ilə müsahibə*

**– Heydər bəy, Yeni Azərbaycan Partiyasının yaranması və Sizin bu partiyaya rəhbər seçilməyiniz nəinki respublikanın kütləvi məlumat vasitələrində, habelə xaricdə böyük maraq oyadıb: müşahidəçilərin əksəriyyəti Sizin partiyanızda AXC-yə qarşı ciddi müxalifət görür. Bununla əlaqədar YAP-ın məqsədi və rolu haqqında nə deyə bilərsiniz?**

– YAP parlament tipli partiyadır. Və qəbul etdiyi proqrama uyğun olaraq Azərbaycanın dövlət müstəqilliyini möhkəmlətməyi, sivilizasiyalı, demokratik və bütün vətəndaşların milli, dini və dil mənsubiyyətindən asılı olmayaraq, bərabərhüquqlu dövlət qurmağı öz qarşısına məqsəd qoyur. Lakin Azərbaycanın qarşısında duran ən mühüm və təxirəsalınmaz problemlərin həlli, yəni birinci növbədə, respublikanın artıq geniş miqyaslı xarakter almış müharibədən çıxması, Qarabağ probleminin həlli və çox ağır sosial-iqtisadi böhranın aradan götürülməsi ön plana çıxır.

Konstruktivlik, səriştəlilik, professionallıq və qanunçuluq partiyanın əsas prinsipləridir. Partiyanın Siyasi Şurasına Azərbaycanda yaşayan bütün millətlərin və etnik qrupların nümayəndələri – rus, yəhudi, talış, ləzgi, kürd, avar və başqaları daxil olmuşdur. Partiyanın roluna gəldikdə isə onun əzəldən müxalifət partiyası kimi yaradılması haqqında fikir yanlışdır, partiyanın əhəmiyyətinin həddindən artıq dar dərk edilməsidir. Partiya öz xalqının və dövlətinin rifahı naminə qarşısına daha böyük miqyaslı məqsəd və vəzifələr qoyur.

**– Heydər bəy, Siz Azərbaycandakı indiki siyasi vəziyyəti necə təhlil və xarakterizə edirsiniz?**

– Müsahibədə Azərbaycanın siyasi həyatında baş verən proseslərin dərin təhlilini əhatə etmək mümkün deyil. Lakin mən çalışaram ki, əsas tendensiyaları qısa da olsa şərh edim.

Artıq 5 ildir ki, Ermənistanla Azərbaycan arasında müharibə gedir. Azərbaycan ərazisinin bir hissəsini itirib. Ermənistanla həmsərhəd olan bir çox kəndlər və şəhərlər dağıdılıb, minlərlə həmvətənlərimiz həlak

olub, şikəst edilib, işgəncələrə məruz qalıblar. 100 minlərlə insan ağır güzəran keçirir. Ölkə həddən artıq maddi və mənəvi zərər çəkib. Ən dəhşətlisi də budur ki, bu faciənin sonu görünmür. Bir il bundan əvvəlki kimi, bu gün də Azərbaycan rəhbərliyinin Qarabağ problemi haqqında konkret və dəqiq konsepsiyası və lazımi hərbi-siyasi strategiyası yoxdur. Belə təsəvvür yaranır ki, Qarabağ zonasında və başqa sərhəd rayonlarında hərbi əməliyyatlar başlı-başına buraxılıb. Onu da deyim ki, Qarabağ probleminin siyasi həllinin bütün imkanları tam tükənməyib. Onlardan təcili istifadə edib üzücü və qanlı müharibəyə son qoyulmalıdır.

Ölkənin siyasi həyatında isə bütün dövlət strukturlarında faktiki iqtidarda olan AXC-nin monopoliyası hökm sürür. Halbuki xalq ona bu səlahiyyəti həvalə etməyib. Bütün vəzifələr yeganə prinsip – AXC-yə mənsubiyyət əsasında bölüşdürülür. Özü də nə səriştəyə, nə də professionallığa, hətta adi savada belə heç bir əhəmiyyət verilmir. Bu nəinki səhv, eyni zamanda xalqımızın gələcəyi üçün böyük təhlükəyə aparan yoldur. Mən bizim indiki siyasətçilərin çoxlarının savadsızlığına təəccüb qalıram. Bəzən onların danışıq tərzi və fikirləri cəfəng səslənir. Hərf tanımayanlar əlifba öyrədirlər. Əfsus ki, alimlər və mütəxəssislərdə olduğu kimi siyasətçilər arasında da attestasiya keçirilmir. Sizi inandırım ki, özlərini siyasətçi adlandıran hakimiyyətə yiyələnmişlərin çoxu bu attestasiyadan keçməzdilər. Ən xoşagəlməzi budur ki, öz fəaliyyətlərində antidemokratik, bəzən isə terror üsulundan istifadə edənlər özlərini demokrat adlandırırlar. Bu isə demokratiya ideyasının özünü dəyərsizləşdirir və buna görə də xalq arasında demokrat sözünün təhqiramiz səslənməsi təəccüb doğurmur.

**– Sizin rəqibləriniz irad tuturlar ki, keçmiş kommunist partiyasının rəhbəri kimi, Siz demokrat ola bilməzsiniz.**

– Bu geri qalmış təfəkkürün əlamətidir. Məgər sosialist partiyasının lideri olduğuna görə Fransanın prezidenti Mitteranın demokratlığına şübhə etmək olarmı? Öz dövlətlərində demokrat prinsipləri həyata keçirən Yeltsin, Kravçuk, Nazarbayev və Brazauskas haqqında da eyni sözləri demək olar. Ümumiyyətlə, cəmiyyəti bu prinsiplə bölmək, yaxşı nəticəyə gətirməyəcək. Tarixin dərslərini, cəmiyyətin qırmızı və ağlara bölünməsinin nəyə gətirdiyini unutmaq olmaz. Keçmişə irad insanların bölgüsündə əsas tutulmağa layiq olan meyar deyil. Demokratiyaya gəldikdə isə mən öz müxaliflərimə tez-tez tarixə və fəlsəfəyə



müraciət etməyi, demokratiyanın mənasını və incəliklərini dərk etməyi məsləhət görərdim. Demokratiyanın bir əlaməti—xalqın hakimiyyəti ilə məhdudlaşmaq demək deyil. O, 20-ci əsr ərzində öz təşəkkülünü tapmış, sınaqdan keçmişdir. Demokratiya dövlət prinsipləri və etika qaydaları kompleksindən ibarətdir. Bu təcrübəyə məhəl qoymamaq olmaz. Onu da deyim ki, yüksək mənəviyyat, siyasi mədəniyyət və məsuliyyət olmayan yerdə əsl demokratiya qeyri-mümkündür.

**– İndi Milli Məclisdə müstəqil Azərbaycan Konstitusiyasının qəbulu haqqında müzakirələr gedir. Sizin fikrinizcə, indiki Parlamentin yeni Konstitusiya qəbul etməyə səlahiyyəti varmı?**

– Müstəqil Azərbaycanın yeni Konstitusiyasının qəbul olunması dövlət hakimiyyətinin demokratik institutlarının formalaşmasında çox mühüm hadisədir. Yeni Konstitusiya qəbul olunmamış hüquqi dövlətin bünövrəsi qoyula bilməz. İndi qüvvədə olan Konstitusiya keçmiş ittifaqın konstitusiyasının əksi olaraq və son zaman qəbul olunmuş əlavə dəyişikliklərə baxmayaraq, müstəqil ölkənin qarşısında duran müasir tələblərə cavab vermir. Lakin yeni Konstitusiyanın qəbul olunması fövqəladə mühüm aktdır. Bunu qəbul etməyə Milli Məclisin ixtiyarı yoxdur. Onun hətta indi qüvvədə olan Konstitusiyaya hər hansı dəyişiklik və əlavə etməyə səlahiyyəti yoxdur. Milli Məclisin Azərbaycanın ən ali orqanı kimi fəaliyyət göstərməsi demokratik prinsiplərin kobudcasına pozulması deməkdir. 350 deputat olduğu halda, 50 deputatdan ibarət Milli Məclis əslində bütün qalan deputatları öz hüquqlarından məhrum edir. O, antikonstitusion orqandır və Azərbaycan seçicilərinin cəmi yeddidə birini təmsil edir. Buna görə mən Ali Sovetin çağırılmasını, deputatlara öz vəzifələrini yerinə yetirməyə imkan yaradılmasını, Ali Sovetin, o cümlədən Milli Məclisin buraxılması məsələsinə baxılmasını və yeni növbədənkənar parlament seçkilərinin keçirilməsini zəruri hesab edirəm. Bu təkcə mənim yox, Naxçıvan MR Ali Məclisinin fikridir. Ali Məclis 25 oktyabrda belə qərar qəbul edib və qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Ali Sovetinə və prezidentinə müraciət edib. Yalnız Ali Sovet kimi ölkənin bütün əhalisini təmsil edən qanunverici orqanın yeni Konstitusiya layihəsinə baxmağa və ümumxalq müzakirəsindən sonra qəbul etməyə səlahiyyəti var. Bu gün isə respublika faktiki olaraq Ali Qanunverici orqandan məhrum edilir.

**– Bu ilin oktyabrında Naxçıvanda baş vermiş ciddi siyasi böhran hamının yadındadır. Siz bu hadisəni necə şərh edərsiniz?**

– Həqiqətən, bu il oktyabrın 24-də Naxçıvanda demokratiyaya və konstitusiyaya tam zidd hadisələr baş vermişdir.

Naxçıvan ölkənin qanunları çərçivəsində öz konstitusiyasına və hüquqlarına malik olan muxtar respublika kimi Azərbaycanın ayrılmaz hissəsidir. Bunun tam aydın olmasına baxmayaraq, AXC-nin Naxçıvan şöbəsinin rəhbərliyi öz qeyri-qanuni silahlı dəstələrinin gücü ilə oktyabrın 24-də Naxçıvan DİN-in və Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binalarını zəbt etmişdilər. Onlar şənbə günündən və işdə növbətçidən başqa digər əməkdaşların olmamasından istifadə etmişdilər. Naxçıvanın Xalq Cəbhəsi yeganə məqsəd güdürdü—dövlət çevrilişi etmək və hakimiyyəti ələ keçirmək. Vəziyyət çox gərgin idi. Naxçıvan hakimiyyətinin Xalq Cəbhəsinin qeyri-hüquqi hərəkətlərinə son qoymaq haqqında dəfələrlə xəbərdarlığı müsbət nəticəyə gətirmədi. Prezident Ə.Elçibəylə mənim telefon danışıqlarım da təsiredici nəticə vermədi. Bunlar təbii olaraq xalqın etirazına səbəb oldu.

Naxçıvan Ali Məclisinin binasının müdafiəsinə meydana 30 mindən çox əhali toplanmışdı. Onlar Xalq Cəbhəsinin qeyri-qanuni hərəkətlərini müsbət qarşılamadılar. Elə şərait yaranmışdı ki, qan töküləə, vətəndaş müharibəsi başlana bilərdi. Biz öz tərəfimizdən hadisələrin bu cür cərəyan etməməsi üçün lazımi tədbirlər gördük. Bir neçə saatdan sonra Xalq Cəbhəsinin silahlı dəstələri xalqın təzyiqi altında DİN və Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binalarını tərk etməyə məcbur oldular. Bu hadisələr Naxçıvanda vəziyyəti gərginləşdirdi. Xalq Cəbhəsi onsuz da son zamanlar aşağı olan nüfuzunu tamamilə itirdi.

İndi əhali arasında Xalq Cəbhəsinə qarşı hədsiz mənfi münasibət yaranır. Biz bu hadisəni Naxçıvan Ali Məclisində müzakirə etdik. Deputatlar onu dövlət çevrilişinə cəhd kimi qiymətləndirdilər. Bizim qərarımız mətbuatda dərc olunub. Respublikanın Prezidentinə, Ali Sovetinə və Nazirlər Kabinetinə göndərilib. Amma bir aydan çox vaxt keçməsinə baxmayaraq, Azərbaycan rəhbərliyi indiyədək öz münasibətini bildirməyib.

Azərbaycan Konstitusiyasına və Qanununa hökmən əməl etməyinə and içməyinə baxmayaraq, Ali rəhbərliyin nəinki Naxçıvan Ali Məclisinin qərarına və hətta qanuni seçilmiş hakimiyyəti antikonstitusion silahlı yolla devirmək cəhdinə biganəliyi haqlı təəccüb doğurur.



**– Heydər bəy, AXC-nin Bakıda keçirilmiş növbədənkənar ikinci qurultayının qətnaməsində Naxçıvan rəhbərliyinin separatizminin qarşısını alması haqqında və Naxçıvan MR-in Konstitusiyasının Əsas Qanununa uyğunlaşdırılması haqqında ölkə rəhbərliyi qarşısında tələb qoyulub. Bu barədə nə deyə bilərsiniz?**

– Təəssüf ki, yanlış ehtimallar əsasında tamamilə düşünülməmiş qərar qəbul olunub. Birincisi, Naxçıvan rəhbərliyinin və hakimiyyət orqanlarının fəaliyyətində heç bir separatizm yoxdur. Bundan başqa bizim fəaliyyətimizdə separatizm olduğunu sübut edən konkret dəlillər gətirməsini rəqiblərimdən tələb edirəm. Birtərəfli ittiham şəraitində siyasi damğa vurmaq köhnə və xoşagəlməz fənddir.

Mən öz siyasi rəqiblərimi televiziya ilə bütün xalq qarşısında açıq və mərdanə dialoqa çağırıram. Onda kimin kim olduğunu xalq özü görər.

İkincisi, Azərbaycanın və Naxçıvan MR-in Konstitusiyaları arasında heç bir ziddiyyət yoxdur və Naxçıvan Ali Məclisi bütün bu suallara tam məsuliyyətlə cavab verməyə hazırdır. Mənə belə gəlir ki, qətnamədəki bu müddəaların müəllifləri subyektiv fikirlərinə əsaslanaraq, ədalətdən və demokratiyadan uzaq öz şəxsi məsələlərini görürlər. Həmin qurultayda Naxçıvan MR-da xalq tərəfindən qanuni seçilmiş hakimiyyətə qarşı vandalizmə, terrora, onun zorla devrilməsinə çağırışlar da səslənmişdir. 24 oktyabrda baş tutmayan qiyamdan başlayaraq, qurultayda davam edən terrora çağırışlar bir ssenarinin davamıdır.

Olduqca xoşagəlməz bütün bu faktlar AXC-nin demokratik hüquqi dövlət qurmaq niyyətinin səmimiyyətinə, yumşaq desək, şübhə yaradır və belə bir siyasi istiqamət xalqımızı uçuruma gətirə bilər.

**– Naxçıvan Ali Məclisinin bu yaxınlarda qəbul etdiyi qərarına görə şəxsən Sizə qarşı terrorçuluq və həyatınıza sui-qəsd cəhdləri olmuşdur.**

– Bəli, bu haqda MR Ali Məclisinin qərarı var. Bu aksiyalara görə bütün məsuliyyət Naxçıvan Xalq Cəbhəsinin və Azərbaycan rəhbərliyinin üzərinə qoyulub.

**– Heydər bəy, bir insan kimi, həyatınız üçün yaranmış təhlükədən qorxmursunuzmu?**

– Xeyr, sizə bunu tam səmimiyyətlə deyirəm. Mən nə hədələrdən, nə də rəzil niyyətlərdən qorxmuram. Mən çoxdan siyasətçiyəm. Siyasi həyatda belə hallar da olur. Ümidvaram ki, bu niyyət sahibləri haqq

yoluna qayıdacaqlar. Tarixin bizə demokratik və əsl hüquqi bir cəmiyyət qurmağa imkan verdiyi bir dövrdə siyasi mübarizənin yalnız mədəni üsullarından istifadə edilməlidir. Ağlın və zehnin gücü, professionallıq və nəhayət, müdriklik siyasi mübarizənin əsas vasitələri olmalıdır.

**– Prezident Ə.Elçibəy açıq çıxışlarında İranın daxili və xarici siyasətini tənqid etmişdir. Eyni zamanda Naxçıvan rəhbərliyi İranla fəal əməkdaşlıq edir. Bakının və Naxçıvanın xarici siyasətə müxtəlif mövqelərdən yanaşmasından nə danışmaq olar?**

– Mən bu sualın məzmunu ilə tam razı deyiləm. Naxçıvanın heç bir müstəqil xarici siyasəti ola bilməz. Bu, Azərbaycanın yeritdiyi xarici siyasət haqqında öz mövqeyini və ona münasibətini bildirmək hüququna malikdir. Bizim fikrimizcə, Azərbaycan öz geopolitik vəziyyətini nəzərə alaraq, dərin düşünülmüş və ehtiyatlı siyasət yeritməlidir. Azərbaycan qonşu ölkələrlə yalnız xoş münasibət yaratmağa çalışmalıdır. Bu hər bir dövlətin xarici siyasətinin əsas qanunudur.

Naxçıvana gəldikdə isə, biz 6 aydır ki, blokadadayıq. Dəmiryol əlaqələri, enerji, yanacaq və respublikanın başqa həyat təminatı ehtiyacının Azərbaycandan göndərilməsi kəsilmişdir. Belə ağır şəraitdə biz böhran vəziyyətindən həmsərhəd İran və Türkiyə ilə iqtisadi əlaqələr hesabına çıxırıq. İrandan bu yaxınlarda enerji və başqa yanacaq ehtiyatlarının təchizi başlanıb. Artıq 4 aydır ki, Naxçıvan ərzağa öz minimal tələbatını, demək olar ki, Türkiyənin muxtar respublikaya ayırdığı kredit, ondan aldığı mallar hesabına ödəyir.

Zənnimcə, bizim bu əlaqələrimiz Azərbaycanın xarici siyasətinə zərrə qədər də zidd deyil. İran və Türkiyə ilə səmimi qonşuluq münasibəti Azərbaycana yalnız xeyir gətirə bilər.

***«Şərq qapısı» qəzetinin 27 yanvar 1993-cü il tarixli nömrəsindən götürülmüşdür***



## «ALLAH ƏLİYEVİ XALQI XİLAS ETMƏK ÜÇÜN GÖNDƏRİB»

*«Moskovskiye Novosti»nin icmalçısı Vladimir Yemelyanenko ilə müsahibə («MN»in dosyesi)*

*Moskva*
*2 may 1993-cü il*

Heydər Əliyev – 69 yaşı var. Azərbaycan Universitetini və Leninqrad DTK Ali Məktəbini bitirdikdən sonra Dövlət Təhlükəsizliyi orqanlarında xidmət edib. 1966-cı ildən 1969-cu ilədək – Azərbaycan DTK-nın sədri, 1969-cu ildən 1983-cü ilədək Azərbaycan KP MK-nın birinci katibi, 1983-1987-ci illərdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, 1982-ci ildən Sov.İKP MK Siyasi Bürosunun üzvü olub. Həyat yoldaşı vəfat edib. Oğlu İlham Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunudur, qızı Sevil ərəb filologiyası üzrə mütəxəssisdir. Hər ikisi Moskvada yaşayır. Heydər Əliyevin sözlərinə görə «bu həyatda onun xoşbəxtliyi olan» beş nəvəsi var...

«MN»-in icmalçısı Vladimir Yemelyanenko Naxçıvan Ali Məclisinin sədri ilə söhbət edir.

**– Heydər Əliyeviç, Sizə ağır gəlmirmi ki, SSRİ-nin birinci şəxslərindən olduğunuz halda Moskva Sizdən imtina etdi, Bakıda qəbul etmədilər və Siz siyasətə sıfırdan qayıtmağa başladınız?**

– Mən, əlbəttə incimişəm. Axı məni ortodoksal kommunist kimi təqib edənlər mənim şagirdlərim, irəli çəkdiyim adamlar idi. Bütün bunlara tab gətirmək üçün mənə yeganə dayaq, ibarəyə görə bağışlayın, xalq oldu. Mənim Azərbaycanda birinci şəxs olduğum o 14 il artıq arxada qalmışdır. Həmin dövrdən uzaqlaşmaq çoxlarına mənim 70-ci illərdəki fəaliyyətimə yenidən baxmağa imkan vermişdir. Onlar başa düşmüşlər ki, vəziyyət bugünkündən heç də pis deyildi.

O vaxt sabit Azərbaycan qurulurdu, indi isə o, müharibə aparır və dağılır. Bunun dərk edilməsi ilə adamların mütləq əksəriyyətinin mənə olan inamı da bərpa olundu. Bu hadisəyə tarixi baxımdan nəzər salsaq, görərik ki, xalq həmişə qurucalara üstünlük vermişdir.

**– «Yerli miqyaslı» siyasətlə məşğul olduğunuz Naxçıvana qayıtmağa Sizi nə məcbur etdi?**

– Mən ona görə qayıtdım ki, ətrafımızda baş verən intəhasız özbaşınalığa dözə bilmirdim. 1990-cı il 20 Yanvar faciəsindən sonra, Bakıya qoşun yeridilən günün sabahı mən Moskvada mitinqdə və mətbuat konfransında çıxış edərək dedim ki, bu, Azərbaycan xalqına qarşı törədilən cinayətdir. Bu hadisələrdən sonra mən Moskvada qala bilməzdim. Mən öz xalqımla olmalı idim.

**– Məntiqə görə Siz Bakıda layiqli yer tutacağınıza ümid edə bilərdiniz.**

– Bakıya məni buraxmadılar. Evə qayıtmaq üçün bütün cəhdlərimin qarşısı SSRİ-nin və Azərbaycanın rəhbərliyi, şəxsən Mixail Qorbaçov tərəfindən alınırdı. Nəhayət, qayıtmağa imkan yaranarkən, uçuşa lap az qalmış məni qarşılayacaq adam – böyük bir nəşriyyatın direktoru Əjdər Xanbabayev öldürüldü. Başa düşürdüm ki, bu mənim üçün xəbərdarlıqdır. Ona görə də məcbur qalıb, nəzərə çarpmadan Bakıdan Naxçıvana uçdum. Sonra Ayaz Mütəllibov mənimlə hətta telefon danışığından belə imtina etdi. Naxçıvanda isə, gizlətməyəcəyəm, çox mütəəssir oldum. Səksən minlik mitinq mənə «hə» dedi. Sonra mən bir il müddətində Bakıdakı hadisələrə təsir etmək cəhdindən əl çəkmədim, bunun üçün Parlamentdə çıxışlar etdim. Lakin hər şey mənim təcrid edilməyimə yönəldilirdi. Azərbaycandakı siyasi vəziyyətin təhlili ilə əlaqədar Parlamentdəki çıxışımdan sonra elə həmin gün xəbər çatdı ki, mənə qarşı terror aktı hazırlanır. Mən yenə Naxçıvana qayıtdım. Uzun müddət imtina etdiyim təklifə – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsini tutmaq təklifinə razılıq verdim.

**– Özümü Sizin tərəfdarlarınızdan hesab etməsəm də, etiraf etməliyəm ki, lazımi nəticələrə nail olmusunuz. Üç il ərzində Siz Naxçıvanı Ermənistanla müharibədə iştirak etməkdən çəkindirə bilmisiniz və blokada şəraitində olan adamların aclıqdan və soyuqdan ölməsinə imkan verməmisiniz. Necə?**

– Əlbəttə, mən bunu deməzəm, çünki bu mənim siyasətimdir. Sizin üçün isə nəticəsini bilmək kifayətdir.

**– Buraya «Moskvanın adamı» kimi gəldiyiniz barədə ittihamları heç vaxt eşitməmisinizmi? Bu barədə Bakıda rəsmi şəxslər də dəfələrlə deyiblər. Məsələn, keçmiş daxili işlər naziri İsgəndər Həmidov. Üstəlik belə bir fərziyyə də var ki, Kəlbəcərin və Füzulinin faciəsində Əliyevin əli var. O, fəlakəti Naxçıvandan sovuşduraraq, Azərbaycanın başqa rayonlarını buna düçar etmişdir.**



– Bu barədə eşitmişəm. Gəlin hər şeyi öz adı ilə çağıraq. Həqiqətən, bizi Ermənistanın ərazisi Azərbaycandan ayrı salıb. Bu da bizə həm Yerevan, həm də Bakı ilə xüsusi münasibətlər saxlamağı diktə edir. Məqsəd isə muxtar respublikada sabitliyi qoruyub saxlamaq və onun müharibəyə cəlb olunmasına yol verməməkdir. Buna necə nail oluram – bu mənim işimdir. Yalnız onu deyə bilərəm ki, Naxçıvan Azərbaycanın yurisdiksiyasında olsa da, həmişə Bakının birbaşa göstərişlərinə praqmatik yanaşıb. Məsələn, biz Mütəllibovun da, Elçibəyin də vaxtında FV-dən imtina etdik. Çünki bu, qanun-qaydanı möhkəmlətməyə deyil, hakim qruplaşmaların intəhasızlığına aparır.

Ermənistanla isə əlaqələrimiz Levon Ter-Petrosyanla telefon danışığından sonra yarandı. Sonra Ermənistanın digər rəhbərləri ilə də danışdım və onlarla sərhəddə görüşdüm. Bakının xəbəri olmadan danışıqlar aparmaqda və guya bundan sonra qoşunların Naxçıvan yaxınlığından Qarabağa göndərilməsində məni günahlandırmağa gəldikdə isə, mən bunları Azərbaycan daxili işlər naziri İsgəndər Həmidovun sərsəm uydurması hesab edirəm. Bu adam siyasətdə bir təsadüfdür, anlaşılmazlıqdır. Kəlbəcərin verilməsindən sonra isə o və onun kimiləri nəinki mənim ünvanıma nəsə söyləmək, hətta öz vəzifələrində qalmaq üçün mənəvi hüquqlarını itiriblər. Bu birinci. İkincisi, «Moskvanın əli» barədə. Mənim Ermənistanla sövdələşməyim haqqında miflə yanaşı, bu, Qarabağdakı uğursuzluqlara bəraət qazandırmaq və düşmən obrazı yaradaraq, hakimiyyəti əldə saxlamaq üçün növbəti iftiradır. Bizim işimizə yaxşı bələd olanlara bir şey aydındır: mən çox sınaqlardan çıxmış adamam və kiminsə əlaltısı ola bilmərəm. Moskva ilə əlaqəm yoxdur. Təəssüflər olsun. Çünki Rusiyaya düşmən qüvvə kimi baxmamışam və baxmıram. Belə düşünürəm ki, əgər zəruriyyət yaranarsa, Türkiyə, İran və ABŞ-la olduqu kimi, yeni Rusiya ilə də ümumi dil tapa bilərəm. Bu ölkələrin köməyi və xüsusən Türkiyənin investisiyası hesabına Ermənistan və Rusiya tərəfindən fasiləsiz iqtisadi, doğma Azərbaycan tərəfindən isə, çox təəssüf, siyasi blokada şəraitində saxlanmağımıza baxmayaraq, vəziyyətdən çıxa bilərik.

**– Qarabağda tezliklə sülh yaranması ümidini Sizin adınızla bağlayırlar. Sizə elə gəlmirmi ki, Azərbaycanda da, Ermənistanda da hakimiyyətə kim gəlirsə-gəlsin, onlar bu hakimiyyəti saysız-he-**

**sabsız pullar və fövqəladə səlahiyyətlər verən müharibə vasitəsilə saxlamağa çalışacaqlar?**

– Bu nöqteyi-nəzərlə qətiyyən razı deyiləm. Doğrudan da, müharibə hər iki tərəfdən onu biznesə çevirib, öz xalqlarının qanı bahasına əldə etdikləri pulları işə keçirənlər üçün xeyirlidir. Əminəm ki, Qarabağda sülhə nail olmaq mümkündür – başqa yol yoxdur. Bunun üçün imkanlar hələ tükənməyib.

**– Sov.İKP-dən çıxarkən Siz demişdiniz ki, daha heç vaxt heç bir partiyaya daxil olmayacaqsınız. Lakin özünüz Yeni Azərbaycan Partiyası yaratdınız, ora da keçmiş nomenklaturanın qaymağı – təsərrüfatçılar və alimlər daxil olublar. Opponentlərinizin dedikləri kimi, «hakimiyyətə can atırsınız?»**

– Mən ki Sov.İKP-dən çıxdım, amma indi Azərbaycanın rəhbərləri olan və özlərini demokrat hesab edənlərin bir çoxu hətta formal olsa belə, Kommunist Partiyasını tərk etməyi lazım bilməmişlər. Məlumdur ki, siyasətdə ziddiyyətli hərəkətlər həmişə olur. Fikrimizcə, bu ümumi meylin inikasıdır. Rusiyanı da müxtəlif demokratik təşkilatlara daxil olmuş keçmiş kommunistlər idarə edirlər. Bəs, onda nə üçün Yeni Azərbaycan Partiyasında olan kommunistlərin də və mənim də yeni siyasətçilər nəslinə mənsub olmağımıza hüququmuz olmasın? Halbuki hazırda hakimiyyətdə olanlar, keçmiş kommunist Elçibəy də daxil olmaqla, belə bir hüquqa malikdirlər. Nə qədər təzadlı olsa da, keçmiş kommunistlər keçmiş SSRİ-də yeganə peşəkar siyasətçilərdir. «Keçmişlərin» böyük siyasətə qayıtması bütün dünyada normal hal sayılır. Yadınızdadır, Çörçill nə demişdir: «Əgər İngiltərənin mənafeyi tələb edərsə, mən öz dünya baxışlarımı üç dəfə dəyişməyə hazıram». Dövlət xadimləri təkcə bu adı daşımaq yox, həqiqətən dövlət xadimi olmaq istəyirlərsə, bunu rəhbər tutmalıdırlar. Bizim Yeni Azərbaycan Partiyasına gəldikdə isə deməliyəm ki, onun barəsində sizin təsəvvürünüz çox yanlışdır. Bu təəccüblü deyil. Bu fikir AXC nümayəndələri tərəfindən canfəşanlıqla yayılır. Bu partiyaya elmi və yaradıcı ziyalıların nümayəndələri daxil olmuşlar. Qəribə burasıdır ki, onların bəziləri 70-ci illərdə məndən «incimişlər» hesab edilən adamlardır. Gördüyünüz kimi, burada da ziddiyyətlər var. İrəli çəkdiyim adamların bəziləri satdılar, «incimişlər» isə müdafiə etdilər.

**– Bu doğrudurmu ki, prezident Elçibəy Sizi qəbul edərkən Sizə baş nazir vəzifəsini təklif edib? Siz isə imtina edərək təklif etmisiniz ki, Sizin başçılığınızla Dövlət Şurası yaradılsın?**



– Gəlin belə şərtləşək: siz bu sualı mənə verməmisiniz. Prezident isə məni Naxçıvan Muxtar Respublikasının başçısı kimi qəbul etmişdir.

**– «Allah Əliyevi xalqı xilas etmək üçün göndərib» şüarına və Azərbaycanın şəhərlərində hərəkət edən avtomaşınların şüşələrinin altında Sizin portretlərinizin olmasına necə baxırsınız?**

– Bu barədə birinci dəfədir ki, sizdən eşidirəm. Mənim evimdə də heç öz fotoşəkillərim yoxdur. Yeganə bir şəkil var, o da mərhum arvadımın şəklidir. Yeri gəlmişkən deyim ki, onunla biz uzun müddət evlənə bilmədik. DTK-nın əməkdaşı kimi, mənə rəhbərliyin qəzəbinə düçar olmuş partiya işçisinin qızı ilə evlənməyə icazə vermirdilər. Yalnız 1953-cü ildə Stalin öləndən sonra biz ailə qura bildik. Mən ailəmlə – uşaqlarımla da, nəvələrimlə də fəxr edirəm.

**– Siz son sözünüzü deməmiş siyasətçi kimi tanınırsınız. Amma Sizə elə gəlmir ki, düşündüklərinizi həyata keçirmək üçün tarix Sizə minimum müddət ayırıb. Bağışlayın, mən o cümlədən Sizin yaşınızı nəzərdə tuturam.**

– Mən heç bir şey düşünməmişəm. Məndən dəfələrlə soruşublar ki, hakimiyyətə gələ bilərəmmi? Demişəm və deyirəm: «Mən bu iddiada deyiləm». Mən öz borcumu bacardığım qədər yerinə yetirmişəm. Kimin və necə öz xalqına xidmət etdiyini isə tarix aydınlaşdırıb qiymət verəcək. Yenidən qayıtmağın isə mənası yoxdur. Bacarırlarsa, qoy başqaları rəhbərlik etsinlər. Lakin xalq iradəsini bildirib məni çağırsa, mən onun iradəsinə tabe olacağam. Mənim yaşıma gəldikdə isə, Allah-taalanın kimə nə qədər ömür payı ayırdığı heç kəsə bəlli deyil.

*«Moskovskiye novosti», №18*
*2 may 1993-cü il*

## «OSTANKİNO» DÖVLƏTLƏRARASI TELEVİZİYA ŞİRKƏTİNƏ MÜSAHİBƏ

**– Heydər Əliyeviç, gün aydın. Sizi salamlamağımıza şadıq və icazənizlə birbaşa suallara keçək, suallar isə televiziya tamaşaçılarından kifayət qədər alınmışdır. Telefon zənglərinin xeylisində əsasən bir məsələyə toxunulur: bu gün Azərbaycandakı ictimai-siyasi vəziyyəti necə qiymətləndirirsiniz və Sizcə, ən yaxın zamanda nə etmək lazımdır?**

– İndi Azərbaycanda ictimai-siyasi vəziyyət son dərəcə mürəkkəbdir. O, həmişə mürəkkəb olmuşdur, lakin bu il iyunun 4-dən sonra, Gəncə şəhərindəki məlum qanlı hadisələrdən sonra xüsusilə kəskinləşmişdir və o vaxtdan gərgin olaraq qalır. Baxmayaraq ki, sonralar görülmüş tədbirlər və bəzi təşkilati tədbirlər, yəni respublika rəhbərliyindəki dəyişikliklər bu gərginliyi müəyyən dərəcədə aradan qaldırmışdır. Ən başlıcası isə, zənnimcə, respublikamızı ciddi şəkildə hədələyən vətəndaş müharibəsinin qarşısını ala bilmişik, qarşıdurma müəyyən qədər zəifləmişdir. Bununla belə, vəziyyət hələ də mürəkkəb olaraq qalır, lakin Ermənistan silahlı qüvvələrinin son üç gündə Azərbaycan ərazisinə başladıqları hücum bu çətinlikləri artırır.

**– Heydər Əliyeviç, Siz necə təsəvvür edirsiniz, vəziyyəti müəyyən dərəcədə sabitləşdirmək üçün bu gün Azərbaycanda hansı tədbirləri görmək lazımdır?**

– Başlıcası budur ki, biz gərək milli barışığa, bütün siyasi qüvvələrin sıx birliyinə nail olaq. Biz gərək qarşıdurma amilini, vətəndaş müharibəsinin baş verməsi imkanını tamamilə aradan qaldıraq. Əlbəttə, respublikanın özündə ictimai-siyasi vəziyyəti sabitləşdirmək üçün səylərimizi də birləşdirməliyik. Təbiidir ki, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazisinə müdaxilə ilə bağlı məsələləri də həll etmək gərəkdir.

**– Cənab Əliyev, bir çox müşahidəçilər Sizin hakimiyyətə gəlməyinizi «Konstitusiyaya zidd» hal kimi qiymətləndirmişlər. Xahiş edirik, deyəsiniz, Sizcə, siyasətdə elə məqsədlər varmı ki, onların naminə qanunu pozmaq olar? Bununla bağlı ikinci sual: prezident Əbülfəz Elçibəyin taleyi necədir, bu gün onun vəziyyəti və perspektivləri necədir, o öz istefası ilə razılaşıbmı?**



– Əvvəla, deməliyəm ki, daşıdığım vəzifəyə gəlişimi Konstitusiyaya zidd hesab etmirəm. İyunun 15-də Parlamentin bir çox deputatlarının, habelə prezident Əbülfəz Elçibəyin özünün tövsiyələri ilə mən Azərbaycan Ali Sovetinin sədri seçilmişəm. Bu, Konstitusiyaya tam uyğun olan qərardır. Bildiyiniz kimi, bundan bir neçə gün əvvəl Ali Sovetin sədri İsa Qəmbərov istefa vermişdir. Buna görə də mən Azərbaycan Ali Sovetinin sədriyəm. İkincisi, mən hakimiyyətə özüm gəlməmişəm, məni dəvət etmişlər. Məni təkidlə dilə tutmuşlar. Gəncə hadisələrindən sonra bir neçə gün ərzində Azərbaycan əhalisinin müxtəlif qruplarının, ziyalıların nümayəndələri, nüfuzlu ağsaqqallar mənə müraciət etmişlər. Azərbaycan prezidenti Əbülfəz Elçibəy də mənə təkidlə müraciət etmişdir. O, üç dəfə – ayın 7-də, 8-də, 9-da Naxçıvana xüsusi təyyarə göndərmişdi və telefon söhbətlərində israrla xahiş edirdi ki, mən Bakıya gəlim. Mən 7-də də, 8-də də imtina etdim. Nəhayət, vəziyyətin getdikcə kəskinləşdiyini duyaraq, iyunun 9-da bu dəvəti qəbul etdim və Bakıya gəldim.

Vəziyyətin gərginliyini zəiflətmək üçün burada mən Əbülfəz Elçibəylə, digər siyasi xadimlərlə birlikdə çalışırdım, iyunun 15-də, təkrar edirəm, Parlamentin sədri seçildim. Burada Konstitusiyaya zidd, hüquqa zidd heç nə yoxdur. İyunun 24-dən başlayaraq, prezidentin vəzifələrinin yerinə yetirilməsinin mənə həvalə edilməsinə gəldikdə isə, bunu izah etmək olar.

Prezident Əbülfəz Elçibəy iyunun 17-dən 18-nə keçən gecə xəlvəti, heç kəsə, o cümlədən də mənə xəbər vermədən təyyarə ilə Bakıdan çıxıb getmişdir. Halbuki təyyarə Bakıdan uçmazdan bir saat əvvəl biz bir yerdə idik. Yalnız səhər bizə məlum oldu ki, onun təyyarəsi Naxçıvana enmişdir, buradan prezidenti Xalq Cəbhəsinin üzvləri dağ kəndi Kələkiyə aparmışlar. O, indiyədək oradadır. Mən iyunun 18-dən 24-dək Əbülfəz Elçibəylə telefonla daim danışıqlar aparmışam, Azərbaycan Elmlər Akademiyasının prezidenti başda olmaqla ziyalıların nümayəndələrinin böyük bir qrupu –akademiklər, professorlar, yazıçılar, ağsaqqallar mənim təşəbbüsümlə oraya getmişlər. Onlar prezidentlə görüşmüşlər, onu onlar da dilə tutmuşlar ki, o, Bakıya qayıtsın. Mən onu israrla dəvət edirdim. O, dəvətimizi qəbul etmədi, onunla razılaşmadı və indiyədək Kələki kəndində qalır. Prezidentin demək olar ki, bütün vəzifələrinin Ali Sovetin sədrinə həvalə edilməsi haqqında fərmanı da elə onun özü imzalamış, öz fərmanında yalnız vətəndaşlığa qə-

bul və qanunların imzalanması hüquqlarını özündə saxlamışdır. Qalan hər şeyi o, Azərbaycan Ali Sovetinin sədrinə həvalə etmişdir.

Eyni zamanda bu vəziyyət Azərbaycan parlamentinin iclasında dalbadal bir neçə gün müzakirə olunmuşdur, elə parlamentin üzvləri də təkidlə təklif edirdilər ki, mən bu vəzifələri öz üzərimə götürüm. Mən razılaşmırdım, yalnız Əbülfəz Elçibəyin özü belə fərman verdikdən sonra razılaşdım. Açığını desək, respublika, demək olar, idarəedilməz olmuşdu, çünki prezident yoxdu, baş nazir yox idi – o, artıq çoxdan istefa vermişdi, tək mən qalmışdım, bir çox məsələlər isə prezidentin səlahiyyətindən istifadə edərək həll olunmalı idi. Bax, belə bir vəziyyətdə mən həmin vəzifələri öz üzərimə götürdüm. Təkrar edirəm, mən buna can atmırdım, mən bunu istəmirəm. Əgər günü bu gün Əbülfəz Elçibəy buraya qayıdarsa, o öz prezident vəzifələrini yerinə yetirə bilər.

O ki qaldı Əbülfəz Elçibəyin taleyi barədə ikinci suala, o, Kələki kəndində yaşamaqda davam edir, onu Xalq Cəbhəsindən olan bir dəstə silahlı adam qoruyur. O, indi də oradadır, məncə, heç nə ilə məşğul olmur. Bəlkə istirahət edir, bəlkə də bir iş görür. Bu mənə məlum deyildir.

**– Heydər Əliyeviç, xahiş edirəm, belə bir suala cavab verəsiniz. Siz həm Elçibəyin komandasına qarşı, həm də onun özünə və onun xəttinə qarşı sərt müxalifətdə olmusunuz. Elçibəy Sizi respublika Ali Sovetinin sədri olmağa dəvət edərkən nəyə ümid bəsləyirdi və Sizi bu dəvətə razılıq verməyə sövq edən nə idi?**

– Siz sualı o qədər də düz qoymursunuz. Mən Əbülfəz Elçibəyə qarşı sərt müxalifətdə olmamışam, ümumiyyətlə, müxalifətdə deyildim. Mən sadəcə olaraq Naxçıvanda yaşayır, Ali Məclisin sədri vəzifəsini yerinə yetirirdim. Mənim Əbülfəz Elçibəylə nadir hallarda telefon söhbətlərim olurdu. Əlbəttə, prezident kimi, Əbülfəz Elçibəy Naxçıvan Muxtar Respublikasına da lazımınca diqqət yetirmirdi, halbuki Naxçıvan blokada ilə əlaqədar ağır vəziyyətdə idi və bu gün də ağır vəziyyətdədir. Əlbəttə, o, Ali Məclisin sədri kimi, mənə lazımi diqqət yetirmirdi. Odur ki, münasibətlərimiz, əslinə qalsa, hansısa sərt qarşıdurma ilə deyil, məhz bu cür xarakterizə edilirdi.

Mənim Əbülfəz Elçibəylə ilk görüşüm bu ilin fevralında olmuşdur, bunadək onunla heç vaxt görüşməmişdim və şəxsən tanış deyildim. Mən Bakıya böyük qardaşımın vəfatı ilə əlaqədar gəlmişdim, biz prezidentlə görüşdük, olduqca çoxlu məsələ müzakirə etdik, bir çox məsələlərdə sanki bir-birimizi başa düşdük. Mən ona öz məsləhətlərimi də, arzularımı da, tövsiyələrimi də dedim. Bunlardan onun istifadə edib-etməməsi öz işidir. Bizim münasibətlərimiz bundan sonra da normal olmuşdur. Əbülfəz Elçibəy məni dəvət edərkən nəyə ümid bəsləyirdi? Sualın birinci hissəsi ilə əlaqədar, yəni guya aramızda kəskin qarşıdurma olması ilə əlaqədar onu deməliyəm ki, belə şey olmamışdır. Azərbaycanda vəziyyət son dərəcə kəskinləşdikdə, bayaq dediyim kimi, bir çox bölgələrdə və əhalinin bir çox təbəqələrinin nümayəndələri arasında səslər eşidilirdi ki, Əliyevi dəvət etmək lazımdır, Əbülfəz Elçibəy, görünür, bu fikrə gəlmişdi ki, burada belə çətin şəraitdə mənim köməyim gərəkdir. O, telefonla mənə zəng vurduqda belə də izah etdi: «Vəziyyət mürəkkəbdir, xahiş edirəm, Bakıya gələsiniz, vəziyyəti, gəlin, birlikdə müzakirə edək və bu vəziyyətdən çıxış yolu tapaq». Bax, onun dəvəti əslinə qalsa, məhz bununla izah edilir.



**– Heydər Əliyeviç, mənim, daha doğrusu, mənim yox, bizim televiziya tamaşaçılarının Sizə belə bir sualı var. Son vaxtlar mətbuatda, xüsusən xarici mətbuatda, belə ifadə edək, kifayət qədər çoxlu fərziyyə irəli sürülmüşdür ki, Sizinlə Surət Hüseynov arasındakı qarşılıqlı münasibətlər sistemi, necə deyərlər, dostluq xarakteri, müəyyən saziş xarakteri daşıyır. Azərbaycanda baş vermiş bütün bu hadisələr barəsində Sizinlə Azərbaycanın baş naziri arasında qabaqcadan hansısa sazişin olması fikrinə necə baxırsınız?**

–Mən bu məsələni aydınlaşdıra bilərəm, özü də bu vacibdir. Əvvəla, mən Surət Hüseynovu tanımırdım, heç vaxt onun hətta üzünü də görməmişdim. Yeri gəlmişkən, baxmayaraq ki, mənə indi məlum olduğu kimi, Surət Hüseynov Azərbaycanın Milli Qəhrəmanıdır, respublika baş nazirinin müavini, Azərbaycan prezidentinin Qarabaq üzrə səlahiyyətli nümayəndəsi idi. O, mən bilən, televiziya ilə, demək olar, heç vaxt çıxış etməmişdi. Mən Naxçıvanda yaşayırdım və həmin dövr ərzində onu hətta televiziya ekranında bir dəfə də olsun görməmişdim. Mənim onunla heç vaxt heç bir əlaqəm olmayıb. İyunun 4-də bu hadisələr baş verdikdə mənə yenə də aydın deyildi və bilmirdim ki, orada nə olmuşdu. İyunun 9-da Bakıya gəldikdə mənə onun haqqında danışmağa başladılar. Mən onu yenə də tanımırdım. Sonra, iyunun 13-də Gəncəyə getməzdən əvvəl mən ona zəng vurdum, biz söhbət etdik. İyunun 13-də Gəncəyə gəldim və onunla ilk dəfə olaraq görüşdüm. De-

məli, aramızda hansısa bir sazişin və ya hansısa dostluq münasibətlərinin olmasından söhbət belə gedə bilməz. Bütün gecə mən onunla danışıqlar apardım və iyunun 14-də Bakıya qayıtdım. Bundan sonra isə o, ta Bakıya gələnə qədər onunla telefon əlaqəsi saxladım. Aramızda heç bir sazış, heç bir dostluq əlaqəsi olmamışdır.

**– Əgər olarsa, mən Sizin Hüseynovla qarşılıqlı münasibətlərinizə aid mövzunu davam etdirərdim. Surət Hüseynov müəyyən ultimativ tələblər irəli sürürdü və əslində, Bakı ilə güc mövqeyindən danışırdı. Siz onun tələbini yerinə yetirdiniz, o, baş nazir vəzifəsi aldı və qüvvə nazirlikləri üzərində kuratorluq aldı. Xahiş edirəm, deyəsiniz, Sizə elə gəlmirmi ki, bu nümunə Azərbaycanın gələcək siyasəti üçün təhlükəlidir. Hər halda güc mövqeyindən danışmaq, görünür, siyasi qarşılıqlı münasibətlərin heç də ən konstruktiv metodu deyildir, heç də ən təhlükəsiz metod deyildir?**

–Bəli, əlbəttə , Surət Hüseynov müəyyən dərəcədə güc mövqeyindən çıxış edirdi. Lakin bu onun prezident Əbülfəz Elçibəylə və onun komandası ilə qarşılıqlı münasibətləri ilə bağlı idi. Surət Hüseynov hesab edirdi ki, iyunun 4-də hərbi hissəyə qarşı və onun özünə qarşı təcavüzkar əməllər törədilmişdir və buna görə də o, həmin vaxtdan təkid edirdi və indi də təkid edir ki, prezident Elçibəy və onun bütün komandası istefa verməlidir. Yeri gəlmişkən, Azərbaycan prezidenti onun bəzi tələblərini, əslində, yerinə yetirmişdir: baş nazir istefa vermiş, Parlamentin sədri istefa vermiş, üç nazir – müdafiə, daxili işlər və milli təhlükəsizlik nazirləri istefa vermişlər. Bir sözlə, Surət Hüseynovun bu tələbləri Əbülfəz Elçibəy tərəfindən yerinə yetirilmişdir. Əgər o, hesab etsəydi ki, bu tələblər hüquqa ziddir, qanuna ziddir, onda gərək bunu etməyəydi, amma etmişdir. Buna görə də iyunun 15-də, mən Azərbaycan parlamentinin sədri seçilən günü bu istefaların hamısı Əbülfəz Elçibəy tərəfindən qəbul olunmuşdu.

Qaldı Surət Hüseynovun iddialarına, əlbəttə, belə iddialar var idi. Lakin baş nazir vəzifəsinə təyin edilməsi onun tələbləri və ya iddiaları ilə bağlı deyildir. Mən artıq dedim və xatırlatmaq istəyirəm ki, Surət Hüseynov hələ bir il bundan əvvəl prezident Əbülfəz Elçibəyin özü tərəfindən Azərbaycan baş nazirinin müavini təyin edilmişdi. Bir daha təkrar edirəm. O, Azərbaycan prezidentinin bütün Qarabağda səlahiyyətli nümayəndəsi təyin olunmuşdu. Belə ki, Surət Hüseynovun çoxlu vəzifəsi var idi və bütün bu vəzifələri ona Azərbaycan prezidenti Elçibəy vermişdi. O ki, qaldı indi onun baş nazir olmasına, burada nə var ki, o, sadəcə olaraq daha bir pillə yuxarı qalxmışdır.



**– Heydər Əliyeviç, Siz Surət Hüseynovla görüşübsünüz, bir insan kimi və bir siyasətçi kimi onun haqqında nə deyə bilərsiniz?**

–Surət Hüseynov, əlbəttə, olduqca cavandır və özünün dediyinə görə, onu yaxından tanıyan adamların dediklərinə görə, Qarabağ zonasında müharibədə Azərbaycan torpaqlarının müdafiəsi üçün müəyyən iş görmüşdür, onu tanıyır və ona hörmət edirlər. Bundan əvvəl, o, Yevlax rayonunda iri sənaye müəssisəsinin direktoru olmuşdur.

**– Sağ olun. Bu gün biz Azərbaycan Xalq Cəbhəsi haqqında çox danışırıq və il ərzində də danışmışıq. Sizcə, bu gün Azərbaycanda Xalq Cəbhəsinin rolu necədir, o, nə kimi siyasi və sosial bazaya malikdir?**

– Bilirsinizmi, Xalq Cəbhəsinin sosial bazası heç vaxt geniş olmamışdır. Milli azadlıq uğrunda, Azərbaycanın milli istiqlaliyyəti uğrunda mübarizə aparan xalq hərəkatı kimi, AXC 1988-ci ildə meydana gəlmişdir. Bu müddət ərzində o, əlbəttə, qüvvə toplamış və həmin illərdə, kommunist hakimiyyəti illərində Xalq Cəbhəsi kommunist rejiminə qarşı fəal çıxış edirdi və əlbəttə, respublika rəhbərliyinin Qarabağ problemini həll etməyə qadir olmaması ilə əlaqədar rəhbərliyə qarşı xüsusilə fəal çıxış edirdi. Əslinə qalsa, Xalq Cəbhəsinin özü ən əvvəl Qarabağ problemi ilə və orada başlanmış hərbi əməliyyatlarla əlaqədar yaranmışdır. 92-ci ilin mayında, yaxud bundan bir qədər əvvəl, Xalq Cəbhəsindən ayrı-ayrı şəxslər rəhbər vəzifələr tutmağa başladıqda AXC-nin çoxlu tərəfdarı var idi, bu ona görə deyildi ki, onların hamısı Xalq Cəbhəsinin üzvü idi, məhz ona görə idi ki, o vaxtlar rejimdən, Azərbaycan rəhbərliyindən ümumi narazılıq vardı. Xalq Cəbhəsi isə mənafelərin fəal ifadəçisi kimi çıxış edir, bu narazılığı nümayiş etdirirdi. Buna görə də AXC ətrafına olduqca çoxlu adam toplaşmışdı və onlar xalq tərəfindən geniş müdafiə edilirdilər.

Məhz bununla əlaqədar ötən ilin may ayında, daha doğrusu, martında hadisələr baş verdi, prezident Mütəllibov istefaya çıxdı. Sonra üç ay, demək olar, hakimiyyətsizlik oldu, may ayında Mütəllibov bir daha prezident vəzifəsinə qayıtmağa cəhd göstərdi, lakin bu cəhd uğursuz oldu. Bax, onda həmin rejimdən və Mütəllibovun atdığı düşünülməmiş həmin addımdan narazılıq dalğası xalqı, əslində, Xalq Cəbhəsi ətrafında birləşdirdi. AXC-nin bəzi liderləri məsul vəzifələr tutdular, ötən ilin

iyununda prezident seçkilərində isə Əbülfəz Elçibəy Azərbaycanın prezidenti seçildi.

Yeri gəlmişkən, deməliyəm ki, Xalq Cəbhəsi hakimiyyətə siyasi partiya kimi normal demokratik mübarizədə gəlməmişdir. Sonra isə rəhbər vəzifələrə bütün təyinatlar Əbülfəz Elçibəy tərəfindən həyata keçirilirdi. O hesab edirdi ki, Xalq Cəbhəsinin sədridirsə, prezident seçilmişdirsə, deməli, bütün rəhbər vəzifələrə AXC üzvlərini təyin edə bilər. Onunla Naxçıvandan telefon söhbətləri zamanı və fevralda mən onunla görüşərkən və sonralar, artıq iyun ayında, bizim yeni görüşümüz zamanı, mən ona demişdim ki, o, çox böyük siyasi səhvə yol verir. O, gərək prezident seçilən kimi Xalq Cəbhəsinin sədri vəzifəsindən gedəydi, çünki onu Xalq Cəbhəsi deyil, məhz Azərbaycan xalqı prezident seçmişdir. Lakin, təəssüflər olsun, o, AXC-yə nəinki üstünlük verir, həm də büsbütün və tamamilə yalnız AXC-yə arxalanırdı. Halbuki AXC öz sosial bazasını gündən-günə itirirdi.

4 iyun hadisələrinin səbəbi və Surət Hüseynov fenomeni təkcə bunda deyildir ki, Gəncəyə qoşun göndərilmişdi, Surət Hüseynovun komandanlığı altında olan hissəni mühasirəyə almaq və ona nə isə etmək istəyirdilər. Səbəb bu idi ki, xalqın narazılığı artıq neçə aydı getdikcə güclənirdi. Əbülfəz Elçibəy və Xalq Cəbhəsinin rəhbər vəzifələr tutan digər liderləri bunu iyun hadisələrindən xeyli əvvəl başa düşmüşdülər. Hiss edirdilər ki, onların nüfuzu gündən-günə aşağı düşür, xalq onlara olan etibarı itirir və onlar respublikanı idarə edə bilmirlər. İndi mən müəyyən qiymət vermək istəməzdim. Əvvəla, mən bunu etmək arzusunda deyiləm. İkincisi isə, sadəcə olaraq vaxt yoxdur – axı bu bir ildə Azərbaycanın həyatında müsbət dəyişikliklər baş verməmişdir, əksinə, bütün sahələrdə vəziyyət olduqca ciddi şəkildə pisləşmişdir. Xalq bunu görürdü və Xalq Cəbhəsinə olan əvvəlki hörmət indi yoxdur, eləcə də Xalq Cəbhəsinin sosial bazası yoxdur. AXC Azərbaycanın keçmiş rəhbərliyinə qarşı çıxış etdiyi vaxtlarda Azadlıq meydanında mitinqlərə 200-300-400 min adam toplayırdı. İndi isə, Azərbaycan prezidenti Elçibəyin özünün tətbiq etdiyi fövqəladə vəziyyət şəraitində Xalq Cəbhəsinin fəal köməyilə yenə də mitinqlər keçirilir. Amma bu mitinqlərə min beş yüz, iki min adam gəlir, qoy lap üç min olsun, bu da sizə AXC-nin sosial bazasının xarakteristikası.

**– Cavab üçün təşəkkür edirəm. İcazə versəniz, bir neçə sual oxuyardım. Onlar bu gün bizim televiziya suallarının, necə deyərlər, leytmotividir. Çelyabinskdən Cəfərov Zakir: Siz Qarabağ müharibəsinə necə baxırsınız və bu müharibə nə vaxt qurtaracaq? Tambovdan keçmiş bakılı Melkumyan Boris: Bir rəhbər kimi, Siz Qarabağ məsələsinin həllini nədə görürsünüz? Movsesyan, Peterburq: İki il bundan əvvəl Əliyev müsahibəsində demişdi ki, o, Qarabağ məsələsini ikicə günün içində həll edər. Soruşmaq istərdim. Siz bunu necə etmək fikrindəsiz? Qarabağ münaqişəsinin həllinin nə kimi yolları var və nə kimi variantlar ola bilər? – və Qarabağla bağlı digər suallar.**



– Cavab verim. Əvvəla, mən heç vaxt deməmişəm ki, Qarabağ məsələsini ikicə günün içində həll etmək olar. Görünür, bu, nə isə bir səhvdir. Qarabağ məsələsi mürəkkəb məsələdir, lakin bu məsələ məhz ona görə mürəkkəbləşmişdir ki, vaxtında lazımınca həll edilməmişdir. Mən tarixə qayıtmaq istəmirəm, bu artıq beşillik bir tarixdir. İndi məsələ son dərəcə kəskinləşmişdir, buna görə də bu qarşıdurmanı heç olmasa dayandırmaq, atəşi dayandırmaq cəhdləri baş tutmur.

Sizə məlumdur ki, son aylarda silahlı erməni birləşmələri olduqca çoxlu yaşayış məntəqəsini, Azərbaycanın Kəlbəcər rayonunu bütövlükdə ələ keçirmişlər, bir çox yaşayış məntəqələri nəinki keçmiş Dağlıq Qarabağ vilayətinin ərazisindədir, həm də bu, keçmiş muxtar vilayətin hüdudlarından kənardadır. Güclü hücum isə davam edir.

Mən srağagün xarici dövlətlərin Azərbaycandakı səfirlərini dəvət etməli və bəyanat verməli oldum, ona görə ki, iyunun 12-dən 28-dək fəal döyüş əməliyyatları gedirdi. Bu əməliyyatlar nəticəsində erməni silahlı birləşmələri Azərbaycanın bir sıra kəndlərini qəsb etmişlər, bəzi kəndlərə od vurulub yandırılmışdır, olduqca çoxlu adam qırılmışdır. Ayın 28-də həm bizim, həm Ermənistan rəhbərliyinin, həm də digər qüvvələrin səyləri ilə bir növ razılıq əldə edilmişdi ki, atəş dayandırılsın. Lakin, təəssüflər olsun, iyulun 2-də Füzuli, Cəbrayıl rayonlarına hücuma başlanmışdır. Mən iyulun 3-də bəyanat verməli oldum, dünən isə Yerevanla, Ermənistan rəhbərləri ilə də danışıqlar apardım, çox xahiş etdim ki, atəşi dayandırsınlar. Axı, məlum olduğu kimi, Amerika Birləşmiş Ştatları, Rusiya və Türkiyə Qarabağ problemini bütünlüklə olmasa da, heç olmasa bəzi problemləri BMT Təhlükəsizlik Şurasının 822 nömrəli qətnaməsi əsasında müəyyən dərəcədə dincliklə həll etmək təşəbbüsünü irəli sürmüşlər. Bu məsələ ilə ATƏM də fəal məşğul olur, cənab Rafaelli başda olmaqla da ATƏM-in Minsk konfransı prob-

lemin tənzimlənməsi planını müəyyənləşdirmişdi və bu planın, nəzərdə tutulmuş təqvimin həyata keçirilməsinə başlamaq lazım idi. Lakin hərbi əməliyyatlar buna imkan vermir.

Bir neçə gün bundan əvvəl cənab Rafaelli bu bölgəyə öz səfərinin proqramını Azərbaycan və Ermənistan rəhbərliyinə göndərmişdir. O, sabah 14 diplomatla Bakıya gəlməli, buradan Yerevana getməli, sonra Ağdamda, Xankəndində olmalı və ATƏM çərçivəsində müəyyən edilmiş planın yerinə yetirilməsinə başlamalıdır. Lakin cənab Rafaelli həm bizim tərəfimizdən, həm Ermənistan Respublikası tərəfindən, həm də Dağlıq Qarabağda olan silahlı qüvvələr tərəfindən təminatlar tələb etmişdir ki, bu danışıqları aparsın və öz vəzifəsini həyata keçirsin. Biz cənab Rafaellinin yolunu səbirsizliklə gözləyirik. O, sabah Bakıya gəlməlidir.

Mən dünən də, bu gün də Yerevanla, rəhbərlərlə intensiv danışıqlar aparmışam, vəziyyəti onlara izah etmişəm və atəşi dayandırmağı, hərənin öz əvvəlki mövqeyində qalmasını təklif etmişəm, hərçənd ki, son günlər Ermənistan silahlı birləşmələri Azərbaycanın yaşayış məntəqələrini ələ keçirmişlər, bu gün səhərdən isə onların Ağdam istiqamətində fəal hücumu başlanmışdır. Studiyaya gəlməzdən əvvəl mənə dedilər ki, Ağdam rayonundakı Boyəhmədli kəndi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Vəziyyət indi bax, belədir. Yaxşı, atəş dayandırılmadığı halda, ATƏM-in missiyası BMT Təhlükəsizlik Şurasının 822-ci qətnaməsinə müvafiq surətdə həyata keçirilmədiyi halda, Qarabağ problemini necə həll etmək olar?!

Hesab edirəm ki, biz bu yolla addım-addım irəliləməliyik. Birinci şərt atəşi dayandırmaq, bundan sonra qarşıdurmaya yol verməməkdir. Problemi tədricən həll etmək lazımdır. Beş il ərzində yığılıb qalmış olan bu problemi bir günün içində həll edə bilməzsən. Lakin ümid bəsləyirəm ki, həm Ermənistan Respublikasının rəhbərliyi və əlbəttə, Dağlıq Qarabağdakı silahlı birləşmələr, həm də öz üzərlərinə bu cür təşəbbüs və bununla yanaşı, mən bəyan edirəm, çox böyük məsuliyyət götürmüş olan böyük ölkələr – Amerika Birləşmiş Ştatları, Rusiya və Türkiyə bu məsələlərlə fəal məşğul olacaqlar. Biz bu problemi ümumi səylərlə həll etməliyik.

**– Heydər Əliyeviç, məlum olduğu kimi, Rusiya rəhbərliyi Sizin Bakıya qayıtmağınızı alqışlamışdır. Xahiş edirəm deyəsiniz, son vaxtlar Siz Rusiya prezidenti Boris Yeltsinlə heç olmasa telefonla danışmısınızmı? Başqa bir sual. Necə bilirsiniz, Zaqafqaziyadakı vəziyyəti bu gün Rusiya siyasətçilərindən kim daha realistcəsinə qiymətləndirir?**



– Rusiya prezidenti Boris Nikolayeviç Yeltsinlə mən telefonla danışmamışam. Parlamentin sədri seçilərkən Rusiya Federasiyası parlamentinin sədri Ruslan Xasbulatovdan rəsmi təbrik almışam. Başa düşürəm ki, bu rəsmi təbrikdir, bir çox ölkələrin parlamentlərinin sədrlərindən də belə təbriklər almışam. Mənim Qarabağ problemi ilə məşğul olan xüsusi tapşırıqlar üzrə səfir Vladimir Nikolayeviç Kazimirovla telefon əlaqəm olmuşdur. Dünən mən bir neçə dəfə onunla telefonla danışmışam. Mənim başqa əlaqələrim olmamışdır. Əlbəttə, belə əlaqələr olmalıdır. Lakin zənnimcə, Rusiya Federasiyasının rəhbərliyi bu cəhətdən Azərbaycana müvafiq maraq göstərməlidir.

Siz bilirsiniz, indi Azərbaycanın mürəkkəb problemləri ilə başım o qədər qarışmışdır ki, Rusiyanın siyasi həyatını təhlil etməyə imkanım yoxdur. Orada da vəziyyət son dərəcə mürəkkəbdir. Rusiya Federasiyasının bəzi regionlarında da silahlı münaqişələr gedir, Rusiyada ictimai-siyasi, iqtisadi vəziyyət də olduqca mürəkkəbdir. Lakin mən Rusiyanın xalq tərəfindən seçilmiş prezidenti Boris Yeltsinə böyük hörmət bəsləyirəm və hesab edirəm ki, Rusiya prezidenti Boris Yeltsin Rusiyanın bütün qüvvələrini, bütün siyasi qüvvələrini birləşdirə, Rusiya dövlətinin qarşısında duran çətinlikləri aradan qaldıra biləcəkdir.

**– Heydər Əliyeviç, Siz Rusiya-Azərbaycan münasibətlərinin indiki vəziyyətindən razısınızmı, iqtisadi və siyasi baxımdan bu əlaqələrin gələcəyini necə görürsünüz?**

– Azərbaycan parlamentinin sədri seçilərkən mən parlamentin iclasında çıxış etdim və bəyanat verdim. Sizin sualınızın cavabında da deyə bilərəm: mən belə hesab edirəm ki, Azərbaycan müstəqil dövlətdir və indən belə heç vaxt hər hansı başqa dövlətin tərkibinə daxil olmamalı, kiminsə vassalı, yaxud müstəmləkəsi olmamalıdır. İndi başqa zəmanədir. Mən Azərbaycanı gələcəkdə azad, müstəqil dövlət kimi görürəm.

Lakin demokratikləşdirmə, siyasi plüralizm yolu ilə, bazar iqtisadiyyatı yolu ilə, bütün ölkələr – həm Qərb, həm də Şərq ölkələri açıq olmaq yolu ilə getməli olan azad müstəqil dövlət kimi, Azərbaycan, şübhəsiz, bütün ölkələrlə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı münasibətlər saxlamalıdır. O cümlədən də, əlbəttə, qonşularla. Təbii ki, Rusiya böyük ölkədir. Azərbaycanın şimal qonşusudur. Üstəlik onu da yaddan çıxarmaq olmaz ki, Rusiya və Azərbaycanı bir-biri ilə az qa-

la iki yüz illik tarix bağlayır. Bütün bu dövr ərzində həm mədəniyyətdə, həm elmdə, həm təhsildə, həm iqtisadiyyatda, həm də adamların şəxsi həyatında mövcud olan qarşılıqlı münasibətlər mühitini, əslində, elə bu əlaqələr yaratmışdır. Belə hesab edirəm ki, Azərbaycan ilə Rusiya arasında münasibətlərin indiyədək mövcud olan səviyyəsi qənaətbəxş deyildir. Tarixi əlaqələri, qarşılıqlı iqtisadi mənafeləri, hamımızın birlikdə yaşadığı regionun mənafelərini əsas tutaraq bu səviyyəni qaldırmaq lazımdır. Mən əməli fəaliyyətimdə bu yolla gedəcəyəm.

**– Heydər Əliyeviç, ənənəyə uyğun olaraq, bugünkü proqramda Sizin yekun sözü söyləməyiniz üçün bizim bir dəqiqə vaxtımız var.**

– Əvvəla, mən bugünkü televiziya görüşü üçün sizə təşəkkürümü bildirirəm, ikincisi isə, bu imkandan istifadə edərək, bütün teteviziya tamaşaçılarını Azərbaycanın vəziyyətini başa düşməyə çağırıram. Əlbəttə, Rusiyada, keçmiş Sovet İttifaqının digər respublikalarında, uzaq xarici ölkələrdə yaşayan bütün azərbaycanlılara, təkcə azərbaycanlılara deyil, Azərbaycanın bütün sabiq vətəndaşlarına üz tutaraq, onları qayıtmağa, bu çətin dövrdə Azərbaycanın həyatına fəal qoşulmağa çağırıram.

Bir vaxtlar ali təhsil almaq üçün Azərbaycandan Rusiyaya, Ukraynaya, Belarusa, başqa respublikalara olduqca çoxlu adam göndərilmişdi, onların bir çoxu böyük alim, mütəxəssis, biznesmen olmuş və indi hər biri öz bölgəsində layiqli yer tutur. Mən istərdim ki, onlar – istər azərbaycanlılar, istərsə də Azərbaycanın sabiq və ya indiki vətəndaşları onun həyatına böyük maraq göstərsinlər. Mən hazırda Rusiya ordusunda, Ukrayna ordusunda, Belarus ordusunda xidmət edən hərbi qulluqçulara da müraciət edirəm. Bir vaxtlar biz ali hərbi məktəblərə oxumağa xeyli azərbaycanlı göndərmişdik, onların bir çoxu həmin ordularda xidmət edir. İndi onların Azərbaycana qayıtmasına lüzum, böyük tələbat var, biz gərək bu ağır vəziyyətdən birlikdə çıxaq. Mən bütün televiziya tamaşaçılarına və bu çıxışın təşkili üçün «Ostankino» şirkətinə öz dərin minnətdarlığımı bildirirəm və bütün xeyirxah adamların bu ağır vaxtda Azərbaycan xalqına mənəvi kömək edəcəklərinə ümid bəsləyirəm.

***«Azərbaycan» qəzetinin 6 iyul 1993-cü il tarixli nömrəsindən götürülmüşdür***



## «MƏN XALQA MİNNƏTDARAM»

*«Rossiyski fermer» qəzetinin müxbiri ilə söhbət*

*3 avqust 1993-cü il*

**– Heydər Əliyeviç, güman ki, Siz hələ bizim qəzeti görməmisiniz?**

– Xeyr, təəssüflər olsun, «Rossiyski fermer» qəzetini ilk dəfə görürəm. Sağ olun, asudə vaxtımda oxuyaram.

**– Görüşümüzün vaxt-vədəsindən belə başa düşürük ki, Sizin üçün asudə vaxt olduqca şərti anlayışdır...**

– Həqiqətən belədir. Gördüyünüz kimi, indi gecədən xeyli keçib, saat ikinin yarısıdır. Biz isə işləyirik. Özü də təkcə bu gün yox, hər gün belədir, gecəni gündüzə qatıb çalışırıq. İşə səhər tezdən başlayıram, onu, bir qayda olaraq, gecə saat dörd radələrində qurtarıram. Əlbəttə, ölkədə vəziyyət elədir ki, gərək istirahət barəsində düşünməyəsən. Bir də ki, mən həmişə bu qayda ilə işləməyə öyrəşmişəm. Bu iş rejimi mənim üçün adi bir rejimdir.

**– Sirr deyilsə, Siz bu qüvvəni haradan alırsınız, axı bu yaxınlarda yetmiş yaşınız tamam oldu, yoxsa Sizə yoq kömək edir? Hər halda belə şayiələr gəzir.**

– Xeyr, mən yoqla məşğul olmamışam və məşğul olmuram. Görünür, təbiətin özü mənə hansısa bir qüvvə verib. Xarakterim isə qüvvə və bacarığımı səfərbərliyə almağa vadar edir. Daha nə deyim? Ömrümdə heç vaxt siqaret çəkməmişəm. İçkini də rəmzi olaraq dilimə vurmuşam – sağlıq deyiləndə badəni ancaq qaldırmaqla kifayətlənmişəm.

**– Azərbaycanın axırıncı prezidenti bu məsələdə, deyəsən, başqa yolla gedir...**

– Deyəsən, elə belədir. O, yəni Elçibəy iş-güclə məşğul olmaqdansa, indi öz kəndində, deyilənlərə görə, oturub araq-çaxır içir. Nəticə etibarilə əsas məsələ heç də bunda deyildir. Ölkə üçün, belə rəhbərliyin ucbatından zillət-zülm çəkən xalq üçün, inanın, adamın ürəyi ağrıyır.

**– Sizin gəlişinizdən sonra vəziyyət dəyişirmi?**

– Bu qədər dağıntı, viranəlik olduğu bir şəraitdə işə başlamaq, iş görmək çox çətindir.

**– İşin öhdəsindən gələcəksinizmi?**

– Əlimdən gələni edəcəyəm. Mən heç kəsə söz verməmişəm və vəd etmək fikrində də deyiləm. Parlamentdə söhbət mənim seçilməyimdən gedərkən mənə belə bir sual verdilər: mən nə vaxt və nə etmək niyyətindəyəm? Cavab verib dedim: heç nə vəd edən deyiləm. Bu hakimiyyət mənə gərək deyil, mən ona can atmamışam, elə bu dəqiqəcə çıxıb gedə bilərəm. Getdim də. Amma məni saxladılar və yekdilliklə seçdilər.

**– Yəqin, hər halda ürəklərinə dammışdı ki, qələbə Sizinlədir. Amma aralarında elələri də vardı ki, Sizin gözdən salındığınız illərdə dalınızca danışır, ayağınızın altını qazır, Sizi ləkələməyə çalışırdı.**

– Əlbəttə, belələri az deyildir. Mən həyatda çox böyük sarsıntılar keçirməli oldum. Onlara yalnız möhkəm əsəblər və güclü xarakter sayəsində dözmək mümkün idi. Yüksək vəzifələrə irəli çəkdiyim, təyin etdiyim, inandığım adamlar mən istefa verdikdən sonra birdən məndən üz döndərdilər, mənə xəyanət etdilər.

**– Belələri çoxmu idi?**

– Əksəriyyəti belə idi. Onlar öz yerlərində qalmağa, vəzifələrindən bərk-bərk yapışıb onu əldən verməməyə və öz ailələrinin yağ-bal içində üzməsini təmin etməyə var qüvvələri ilə çalışırdılar.

**– Vəzifələrinin itirilməsi təqdirində ailələri, qohum-əqrəbaları üçün narahat olmağa onların əsasları var idimi?**

– Başıma gələnlərin, praktikamın göstərdiyi kimi, əfsuslar olsun, var idi. Əvvəlki sistem bu mənada yaman amansız və qəddar idi. Eybi yoxdur, mən özüm çox təqiblərə, böhtanlara məruz qalmışam, mənə çox şər atıblar. Lakin hər şeyə dözmüşəm. Bəs qohum-əqrəbamın nə günahı? Təəssüflər olsun ki, onlar da az əziyyət çəkməmişlər. Oğlum İngiltərə üzrə mütəxəssisdir. Oraya işləməyə getməli idi, özü də bütün rəylərə və obyektiv göstəricilərə görə buna tamamilə layiq idi. Halbuki o, İngiltərəyə getsəydi, bunun işə xeyri olardı. Amma mən istefaya çıxan kimi, onun karyerasının üstündən çalın-çarpaz xətt çəkdilər. Gözəl bir mütəxəssis olan oğlum öz çörək pulunu kommersiya strukturlarında qazanmaq məcburiyyətində qaldı. Kürəkənim əks-kəşfiyyatda xidmət edirdi, o da ələ perspektivli mütəxəssis idi. Amma mənim gözdən salınıb qəzəbə düçar olmağım onun da karyerasının üstündən xətt çəkdi.



**– Necə bilirsiniz, Sizə xain çıxan adamları başa düşmək olarmı?**

– Bilirsinizmi, həyatda şərəflə şərəfsizliyi, şəxsi rifahla ictimai borcu, tamahkarlıqla vicdanlılığı hər bir kəs özü seçir. Mənim üçün burada suallar yoxdur. O ki qaldı bu adamlara–Allah özü hər şeyi görür. Mən kinli adam deyiləm, heç kəsi də gözümçıxdıya salmaq, təqib etmək fikrim yoxdur.

**– Deyəsən, Siz artıq ateist deyilsiniz, dindarsınız?**

– Bəli, mən Allaha inanmağa başlamışam. Məni bu inama həyatda qarşılaşdığım sınaqlar, ictimai şüurda baş vermiş köklü və böyük dəyişikliklər, digər sırf şəxsi səbəblər gətirib çıxarmışdır.

**– Yəni bu illər ərzində inanıb etibar etdiyiniz adamların hamısımı Sizi məyus edib?**

– Yox, nə deyirsiniz? Əksinə, bu illər ərzində neçə-neçə gözəl, cəsarətli, prinsipial adamlar gördüm, onlarla tanış oldum. Başqa məsələdir ki, əvvəllər onlar mənə tanış deyildilər. Bu adamlar məni axtarıb tapır, mənə ürək-dirək verir, gözdən salınmış xadimlə ünsiyyət üstündə özlərinin də rüsvay ediləcəyindən qorxmurdular. Bu, adamın qəlbini riqqətə gətirir və unudulmazdır. Xalqa isə elə minnətdaram ki, bunu ifadə etməyə söz tapmıram! Axı mən Naxçıvana gəldikdə on minlərlə adam meydana axışdı və bütün günü bir ağızdan mənim familiyamı ucadan çəkib tələb edirdilər ki, mən əməli dövlət fəaliyyətinə qayıdım. Məgər mən imtina edə bilərdimmi? Əlbəttə, mən çox böyük bir ölkənin – SSRİ-nin rəhbərlərindən biri olduqdan sonra Naxçıvanın rəhbəri olmaq sanki elə bir iş deyildi... Amma məsələ əsla miqyasda deyildi. Əgər mən insanlara lazımamsa, əgər onlar mənə ümid edirlərsə, deməli, mənim borcum sırada durmaqdır, fəaliyyət göstərməkdir.

**– Lakin hər halda, rəhbər vəzifə...**

– Bu illər ərzində Naxçıvana rəhbərlik etməyin nə demək olduğunu yalnız o kəslər qiymətləndirə bilərlər ki, bunu özləri görmüş olsun. Biz blokada şəraitində yaşayırdıq. Digər tərəfdən, Xalq Cəbhəsi hökuməti bu blokadanın aradan götürülməsi üçün tamamilə mümkün olan tədbirləri qəsdən görmürdü. Onlar məndən qorxur və riyakarlığa bax ki, ümid edirdilər – Naxçıvanın müsibəti məni hörmətdən salacaq və yenə də hakimiyyətdən uzaqlaşdıracaqdır. Halbuki, Elçibəyin özü əslən Naxçıvandandır. Görün, siyasət nə olan şeydir! Amma əllərindən bir iş

gəlmədi. İstədiklərinə nail olmadılar. Hərçənd dolanmaq, özü də şaxtalı-boranlı qışda dolanmaq bizim üçün asan olmadı. Ev-eşikləri isitmək üçün meşələrin 70 faizə qədərinə balta çalındı –yenə də kifayət etmədi. Hamı kimi, mən də soyuqdan, suyun yoxluğundan əzab-əziyyət çəkdim. Amma nə edəsən? Mən həmyerlilərimə elə bəri başdan dedim: Əgər soyuqdan və ya aclıqdan ölmək lazım gəlsə, onda hamımız birlikdə öləcəyik. Lakin əminəm ki, bu faciə baş verməyəcəkdir. Belə də oldu. Mən öz köhnə şəxsi əlaqələrimdən istifadə edərək, Türkiyə və İran rəhbərliyi ilə yardım haqqında, kredit, humanitar kömək, elektrik enerjisi ilə təchizat və digər məsələlər haqqında razılığa gəlməyə müvəffəq oldum... Sülh rejimi haqqında Ermənistan rəhbərləri ilə də razılığa gələ bildim. Öz adıma artıq heç bir şey çıxmayaraq, deyə bilərəm və həyatda fəxr etməyə həqiqətən dəyər ki, mən həmin müddət ərzində Naxçıvanı müharibədən qorudum.

**– Bəlkə, indi sülhü Azərbaycana qaytara biləcəksiniz?**

– Təkrar edirəm, mən heç nə boyun olmuram. Lakin münaqişəni aradan qaldırmaq üçün imkanlar var.

**– Bəs iqtisadiyyatı sağlamlaşdırmaq üçün necə?**

– Daha doğrusu, iqtisadiyyatı dirçəltmək üçün. Axı o qədər dağıtmış, o qədər soyub-talamışlar ki, heç deyiləsi deyildir. Sənayedə də, kənd təsərrüfatında da vəziyyət son dərəcə bərbaddır. Camaat özünə bir tikə çörək pulu qazana bilmir, cəmiyyətə lazım olan məhsulu istehsal edə bilmir. Başlıca səbəblərdən biri budur ki, bütün səviyyələrdə rəhbər vəzifələrdə peşəkarlar naşılarla ucdantutma əvəz edilmişdi. Əgər kənd müəllimi, deyək ki, iri bir üzümçülük təsərrüfatına rəhbərlik edirsə (nə var ki, o, Xalq Cəbhəsinin üzvüdür), dünənki bazar alverçisi isə bütöv bir sahənin başında durursa, buna nə ad verəsən, burada nədən danışasan?

**– Deməli, kadrlar kütləvi surətdə təzələnəcəklər?**

– Bu, çox mürəkkəb və kifayət qədər ağrılı sualdır. Çünki elə köhnə kadrlar arasında da hamı öz yerində deyildir. Bəlkə də, yeni kadrlar arasında da öz vəzifələrinə layiq olanlar var. Yaxşı məlum olan bir meyar var – praktika. Yeri gəlmişkən, mənim bu barədə ayrı heç bir fikrim yoxdur. Söz düşmüşkən, onu da deyim ki, mən Naxçıvanın rəhbəri olarkən xalq cəbhəçilərini rəhbər vəzifələrə respublikada birinci olaraq təyin etmişdim. Başqa məsələdir ki, bir müddətdən sonra onların paxırı, fırıldaqçı olduqları üzə çıxdı və buna görə də belələrini və-



zifədən uzaqlaşdırmaq lazım gəldi. Məhz bundan sonra Xalq Cəbhəsi mənim əleyhimə qalxdı. Onlar elə düşünürdülər ki, əgər kimsə onların adamıdırsa, deməli, o hər şey edə bilər.

**– Problemləriniz, doğrudan da, başdan aşır. Hər şeydən göründüyü kimi, Siz asudə vaxtı ancaq arzulaya bilərsiniz. Əgər asudə vaxtınız olsa, Siz onu necə keçirərdiniz? Nə kimi məşğuliyyətiniz var?**

– Məşğuliyyət barəsində yalnız keçmiş zamanda danışmaq olar. Həyat sevimli əyləncə və qalan məşğuliyyət üçün imkan vermirdi. Halbuki mən uşaqlıq illərində şer də yazır, şəkil də çəkirdim. Başlıca arzum arxitektor olmaq idi. Həmin ixtisas üzrə hətta bir az oxumuşdum da, lakin sonra bu arzumdan əl çəkməli oldum. Hərçənd o, qəlbimdə qalır. Yeri gəlmişkən, Azərbaycanın rəhbəri olarkən şəhərsalma sahəsində az iş görmədim. Ümumiyyətlə, geridə qalmamağa, arxitekturada baş verən hadisələri izləməyə çalışırdım.

Qoy sizə həyatımdan maraqlı bir əhvalatı danışım. Bir dəfə ölkənin görkəmli ustaları Moskvaya, Arxitektor evinə toplaşmışdılar. Mənə söz verdilər. Sonra da başıma toplaşıb təəccüblə soruşdular: Siz arxitekturanı haradan belə dərindən bilirsiniz? Özünü tərifləmək olmasın, arxitekturadan, gözümdə qalan arzumdan söhbət getdikdə, belə hallar mənim üçün son dərəcə xoşdur.

**– Bəs indi başlıca arzunuz hansıdır?**

– Xalqım üçün firavanlıq və əmin-amanlıqdan başqa ayrı bir arzum yoxdur. Bütün varlığımı, bütün qüvvə və bacarığımı mən bu amala həsr etmişəm.

**– Allah eləsin ki, bu arzunuz tez bir zamanda həyata keçsin.**

***Müsahibəni apardı: Vasif Səmədov***

# «MƏN SİZƏ HEÇ NƏ VƏD ETMİRƏM»

*«Sobesednik»in müxbiri Mixail Serdyukovla müsahibə*

**– Heydər Əliyeviç, doğru deyirlərmi ki, Siz yoqa ilə məşğul olursunuz? Ona görə də bu qədər işləyirsiniz?**

– Mənim haqqımda çox şey deyirlər. Lakin hamısına inanmaq lazım deyil... O ki, qaldı gündə 14-16 saat işləməyimə, gənclik illərindən özümü buna alışdırmışam. İndi yaşımın o vaxtı deyil ki, vərdişlərimi dəyişim.

**– Belə işləmək üçün necə də sağlam olmaq lazımdır! Üstündən iki ay keçsə də, hər halda yetmiş illiyiniz münasibətilə Sizi təbrik edirik. Yəqin heç vaxt papiros çəkməmisiniz, içkiyə meyl etməmisiniz?**

– Təbrik üçün sağ olun. Papirosa gəldikdə, çəkməmişəm. Spirtli içkilərə də meylim olmayıb.

**– İsteriya vəziyyətində olan dövləti necə idarə etmək olar?**

– İndi Azərbaycanda vəziyyət belədir: iqtisadiyyat büsbütün dağılmışdır. O ki qaldı ictimai-siyasi vəziyyətə, bundan pisini ağla gətirmək olmaz. Suveren dövlətin ərazisinin 17 faizi işğal olunmuşdur. Yarım milyondan çox qaçqın var... Sənaye və kənd təsərrüfatı istehsalı, tikinti sıfır həddindədir. Adamlar harada işləsin, nə ilə dolansın, ailələrini necə saxlasınlar? Axı keçmiş SSRİ-nin heç bir respublikasında belə vəziyyət yoxdur. Əlbəttə, Elçibəyin başçılıq etdiyi əvvəlki rəhbərlik də öz işini görmüşdür. Onların bir «müqəddəs» prinsipləri vardı: rəhbər vəzifəni yalnız Xalq Cəbhəsindən olan tuta bilərdi; dövlət işi səriştəsiz adamlara, adi aşpaza belə etibar olunurdu. Bunun tək bircə nəticəsini deyim: 35 nəfərin ölümü ilə qurtaran Gəncədəki iyun hadisələri zamanı şəhərə 23 milyard rubl zərər dəymişdir. Bütün bunlar üçün keçmiş rəhbərlik ciddi cavab verməli olacaq.

**– Çoxları artıq həbs olunmuşdur. Ali Sovetin keçmiş sədri İsa Qəmbər, keçmiş baş nazir Pənah Hüseynov, Əbülfəz Əliyev isə doğma Kələki kəndində məskən salmışdır. Yeri gəlmişkən, bu kənd Naxçıvandadır. Sizin vətəninizdə...**



– Beş barmağın beşi də bir olmur.

**– Onun sonuncu bəyanatından xəbəriniz varmı? Azərbaycan ərazilərini, o cümlədən də Laçını qaytarmaq təklifi ilə Ermənistana müraciət etmiş və bildirmişdir ki, təklif qəbul olunarsa, o zaman Dağlıq Qarabağ Respublikasını tanıyar.**

– Mən bunu birinci dəfədir eşidirəm. Amma belə demək istərdim: indən belə onun hansısa sərxoş hərəkətlərinə fikir vermək istəmirəm. Mən bir neçə dəfə onunla telefonla danışmış və Bakıya qayıtmasına çalışmışam. Şəxsi təhlükəsizliyinə təminat vermişəm. Ancaq...

**– Kişiyə yaraşan sifət deyil. Bir də ki, sərxoşluq etmək məgər kişilikdəndir?**

– Doğma kəndində indi də içməyinə ara vermir.

**– İndi prezidentin səlahiyyəti Sizin əlinizdədir. Yeni komandanı necə təşkil edəcəksiniz?**

– İndiyədək bir neçə təyinat olmuşdur. Yüksək vəzifəli şəxslərdən yeni komanda yaratmaq indi xüsusilə çətindir: hər şey, o cümlədən adamların özləri də o dərəcədə dəyişilmişdir ki... Bir də ki, Ali Sovetin sədri vəzifəsinə təyin edilməyim məndən ötrü gözlənilməz oldu. Mən heç öz komandamı da hazırlamağa macal tapmadım.

**– Heydər Əliyeviç, Siz son illər necə yaşamısınız? Biz ucundan-qulağından eşidirik. Dedi-qodu çoxdur, həqiqəti isə bilmirik...**

– 87-ci ildə, məni Sov.İKP MK Siyasi Bürosundan istefaya «göndərəndə», özümə söz verdim ki, dövlət fəaliyyətinə bir daha qayıtmayacağam. Uzun müddət buna əməl etdim, hətta siyasətlə də məşğul olmadım. 1990-cı il yanvarın 19-da gözlənilmədən Qorbaçov zəng etdi. Məni qəbul etmək, dinləmək barədə təkidlə etdiyim xahişlərə üç il məhəl qoymamışdı. Xahişlərim isə şəxsi məsələlərlə bağlı deyildi–məni Qarabağdakı hadisələr narahat edirdi... Yox, keçmiş «yoldaş» məni qəbul etmirdi ki, etmirdi. İndi isə, budur... deyir: Bakıda vəziyyət pisdir, Azərbaycana nə isə bir əlac tapmaq lazımdır. Axı siz onun həyəcanlı-hamar nitqini eşitmisiniz. Buna görə də başa düşə bilmədim: ona görə pisdir ki, mən günahkaram, yaxud məndən kömək istəyir? Sonra söhbət kəskin şəkil aldı, mən təfərrüata varmaq istəmirəm, lakin biz yenə acılı-ağrılı fikirlərlə ayrıldıq. Ən başlıcası isə, heç cür təsəvvürümə gətirə bilmirdim ki, o, Bakıya qoşun yeritmək və oradakı iğtişaşları güc işlətməklə yatırtmaq barədə artıq qərar qəbul etdikdən sonra mənə zəng etmişdir. Faciə baş verdi. Bundan sonra bütün gecəni ya-

ta bilmədim. Hey fikirləşirdim. Nəhayət, başa düşdüm ki, adamlar fəlakətə düçar olanda kənarda qala bilmərəm.

**– Partiyadan da buna görəmi çıxdınız?**

– Bir il sonra Azərbaycan Kommunist Partiyası MK-sının birinci katibi Mütəllibov... partiyadan çıxmağımla əlaqədar dərhal mənim fəaliyyətimi yoxlamaq üçün komissiya təşkil etmişdi. Mənim isə bundan xəbərim yox idi. Bu əsnada xarici jurnalistlərdən biri zəng edib həmin məsələni şərh etməyimi xahiş edir. Mən də cavab verdim: axmaq adamdan nə gözləyirsiniz? Mən bəziləri kimi, qorxaq deyiləm, həm də yenidən Azərbaycanın xalq deputatı idim. Məsələnin nə yerdə olduğunu öyrənmək üçün Bakıya gəldim. Bir neçə gün sonra isə Moskvada qiyam baş verdi. Mütəllibov da onu dərhal müdafiə etdi. Ali Sovetin sessiyası toplandı. Mən orada çıxış edərək qiyamçıları, ən başlıcası, onların Azərbaycandakı əlaltılarını ittiham etdim. Mütəllibovun bəzi çirkin əməllərindən xəbər tutdum və onu prezident seçilməkdən qəti şəkildə çəkindirdim. Məni iclası qəsdən pozmaqda təqsirləndirdilər. Amma sessiyanın ikinci günü yenə çıxış etdim. Gecə isə...

Qardaşımın evində qalırdım. Gecənin bir vədəsi xeyirxah bir adam qapını döydü və mənə dedi ki, ciddi tədbir hazırlanmışdır, evə atəş aça bilərlər. Buradan gedin. Səhər saat beşdə qardaşımla aeroporta yollandıq. Hara getməli? Moskvaya qayıtmaq istəmirdim. Buna görə də Naxçıvana uçdum. Hər halda Vətənimdir... Orada isə mitinq gedirdi. Nə qədər boyun qaçırdım olmadı, adamlar məni Naxçıvan Ali Sovetinin sədri vəzifəsini tutmağa razı sala bildilər. Adamlar isə az deyildi – 60 min nəfər idi. Qışqırırdılar «Ə-li-yev!» Bütün günü, mən razılıq verənə qədər dağılışmadılar.

**– Beləliklə də, özünüzə verdiyiniz sözdən geri çəkildiniz...**

– İnanın, bu, müstəsna haldır. Mən özüm-özümə söz vermişdim... Bilirdim ki, Naxçıvanda vəziyyət mürəkkəbdir. Muxtar Respublika Azərbaycanın əsas ərazisindən aralı düşmüşdür. Ermənistanla böyük bir ərazidə sərhədi var. Əvvəllər Mütəllibov təzyiq edirdi: Bizim parlament prezident seçkilərində iştirak etməməyi qərara almışdı. Sonra Elçibəy müxalifət bloku yaratdı. Axı ilk vaxtlar mənim müavinlərim Xalq Cəbhəsinin adamları idi. Baş nazir də həmçinin. Günlərin birində məlum oldu ki, onlar ən adi fırıldaqçılar imiş. Qovmaqdan başqa çarəsi yox idi. Onlar güman edirdilər ki, cəbhəçilərin nümayəndələridirlərsə, deməli, istədiklərini edə bilərlər. Lakin mən tələbkar adamam. Boyunlarının ardından vurub yola saldım.



**– Rüşvətxorlardan yaxanız qurtardı, amma yanacaqsız və çörəksiz qaldınız...**

– Lakin əvəzində Türkiyə və İran rəhbərləri ilə olan köhnə şəxsi əlaqələr kara gəldi. Axı biz onlarla qonşuyuq.

Türkiyədən elektrik xətti çəkdik. Ərzaq üçün 10 milyon dollar kredit, cürbəcür humanitar yardım da aldıq. Qışda şaxta otuz dərəcəni keçirdi. Ağacların 70 faizi kəsilib yandırıldı. Yada salmalı deyil, səhərlər əl-üz yumaq olmurdu, üz qırxmaq üçün su qızdırmağa belə bir şey tapılmırdı...

**– Mən Sizi saqqallı təsəvvür edə bilmirəm.**

– Nə deyirsiniz, belə hallar olmuşdur. Xalq Cəbhəsi həmyerlilərimi diz çökdürmək istəyirdi: fikirləşirdi ki, xalq boğaza yığılacaq və özü Əliyevi kənar edəcək. Adamlara dedim: Mən sizinləyəm, acından ölsək də, birlikdə öləcəyik. Lakin inanırdım ki, qışdan çıxacağıq.

**– Bəs necə oldu ki, Ermənistanla silahlı münaqişədən yaxa qurtara bildiniz?**

– Bizim ümumi sərhədimizin uzunluğu 300 kilometrə çatır. Mən Ermənistan rəhbərliyi ilə müntəzəm əlaqə saxlayırdım. Onlarla dil tapa bildim. Naxçıvanlılar elə belə də deyirdilər: hər cür şaxtaya-aclığa dözərik, təki vuruşmayaq.

**– Bu gün bütün Azərbaycanın taleyi Sizin əlinizdədir. Çox ağır yük deyilmi?**

– Bir daha demək istəyirəm ki, bugünkü vəzifəni tutmaq arzusunda deyildim. Hakimiyyətin ləzzətini görmüşəm–düşünüldüyü qədər şirin deyil. Bəzilərinə elə gəlir ki, yenidən bu ləzzəti dadmaq istəmişəm. İstəmirəm. Hakimiyyətdən çəkilməyə də hazıram.

Lakin bu gün adamlar mənə baxırlar. Özü də ümidlə baxırlar. Hərçənd mən o adamlardan deyiləm ki, deyəm: Siz məni seçin, dərhal müharibəni qurtarım və yarım ildən sonra yağ-bal içində yaşayacaqsınız, – yox! Mən Elçibəy deyiləm. Milli Məclisin – bizim Ali Sovetin deputatları məndən soruşurlar ki, bizə nə vəd edirsiniz? Birmənalı cavab verdim: Heç nə! Mən peyğəmbər deyiləm və sabah nə olacağını da bilmirəm. Bəlkə daha da pis olacaq. Lakin bir şeyi bilirəm: bu dəhşətli anda hər şeyi atıb getmək – adamlara xəyanət etmək deməkdir.

**– Sizin ən ağır yükünüz müharibədir. Necə bilirsiniz, onu tezliklə qurtarmaq üçün real imkan varmı?**

– Burada olduğum ilk dəqiqələrdən başlayaraq ancaq münaqişənin dinc yolla aradan qaldırılması barədə düşünürəm. İndi qarabağlılar strateji baxımdan əhəmiyyətli bir sıra yüksəklikləri ələ keçirmişlər və danışıqlar sanki onlara lazım deyildir. Ermənistan rəhbərliyi isə özünü elə aparır ki, guya Dağlıq Qarabağ xadimlərinə təsir göstərə bilmir. Lakin nə qədər müharibə aparmaq olar? Adamlar mənasız yerə həlak olurlar. Bu barədə daha danışa bilmirəm...

**– Deyəsən, Azərbaycanın əvvəlki rəhbərliyi Türkiyədən başqa heç kimi sevmirdi. Hər halda Türkiyədə istehsal edilən məhsulların, açıq deyim ki, heç də yüksək keyfiyyətli olmayan məhsulların axını məhz bunu təsdiq edir. Bəs lap deyək ki, keçmiş SSRİ-nin «qardaş» respublikalarının dostluğu necə oldu?**

– Mən bu barədə demişəm, özü də tamamilə rəsmi şəkildə: Azərbaycan keçmiş SSRİ-nin istisnasız olaraq bütün respublikaları ilə yaxşı münasibətlər saxlamalıdır.

**– Ermənistanla da?**

– Hamı ilə.

**– Rusiya prezidenti ilə şəxsi münasibətləriniz necədir?**

– Hələlik şəxsi əlaqəmiz olmayıb. Boris Nikolayeviç həmişə səfərlərdə olur. Lakin hesab edirəm ki, hər şey normal olacaqdır. Yeltsinə böyük hörmətim var. Onun da problemləri başından aşır. Özü də çox ağır problemlərdir. Lakin deməliyəm ki, o, zəif adam deyil. Siyasətçi üçün isə bu, mühüm keyfiyyətdir.

**– Heydər Əliyeviç, haradasa on il əvvəl Siz bazar münasibətləri haqqında bəlkə də eşitmək belə istəməzdiniz. Əslində, hamımıza ağlasığmaz görünürdü – bu faktdır. «Qərbin bu törəməsinə» Sizin münasibətinizi bilmək maraqlı olardı.**

– Prinsip etibarilə hesab edirəm ki, iqtisadiyyatın başqa yolu yoxdur. İndiyədək mövcud olan və bizim yeganə düzgün sistem hesab etdiyimiz sistem özünü doğrultmadı. Əlbəttə, biz bazarı qaydaya salmalıyıq. Lakin bunu ağılla və ... ehtiyatla etmək lazımdır.

**– Tabeliyindəkilərin rüşvətxorluğa qurşanmaları barədə verilən məlumatlara Elçibəyin necə yanaşdığını mənə danışıblar, deyirmiş ki, qorxmaq lazım deyil. Doyandan sonra dayanacaqlar. Bu da reallıqdır. Belə məlumatlara Siz necə yanaşmaq niyyətindəsiniz?**

– Onu deyim ki, keçmiş prezidentin baş prokuroru həbsxanada oturur. İndi həmin vəzifəyə təyin etdiyimiz adama bu barədə ən ciddi göstərişlər verilmişdir.



**– Sizinlə Bakıda söhbət edib, neft barədə soruşmamaq mümkün deyil. Küveytin şöhrətini kölgədə qoyacağınız gün nə vaxt gələcək?**

– Bu sual çoxlarını maraqlandırır.

İyun ayında keçmiş baş nazirin səyləri sayəsində bir çox xarici şirkətlərlə respublikamız arasında neftə dair bəyannamə hazırlanıb imzalanmışdı. Mən Ali Sovetin sədri seçildikdən sonra Nazirlər Kabinetindən bir neçə nəfər yanıma gələrək dedilər ki, bu məsələdə qaranlıq qalan çox şey var. Xaricdə hay-küy qaldırdılar, guya əsrin sövdələşməsi pozulur. Biz izah etdik ki, heç nəyi pozmaq niyyətində deyilik, sadəcə olaraq məsələni araşdırmaq istəyirik. Axı bəyannamədən sonra növbə müqavilələrindir və əgər hər şey qaydasındadırsa, onda həmin müqavilələr imzalanacaqdır. Lakin məni şübhəyə salan o idi ki, bütün bunlar, necə deyərlər, üstüörtülü, tələm-tələsik edilmişdi. Axı neft Azərbaycanın sərvətidir, təkcə bizim deyil, həm də nəvələrimizin və onlardan sonra gələnlərin sərvətidir. Gələcək nəsillərimiz barədə düşünməmək olarmı?

**– Sizə kələk gəlmək olmaz?**

– Heç cəhd göstərmək də lazım deyil.

**– Sizin barənizdə çox şey məlumdur. Həm də heç nə məlum deyil. Siz kommunist ideallarına inanırdınız. Bu gün nəyə inanırsınız?**

– Haqq-ədalətə. Mən ki, qayıtmışam, deməli, təcrübəm, zəkam, biliyim adamlara lazım olmuşdur. Deməli, dünya xali deyil, haqq və ədalət var. Axı məni istefaya göndərməklə insafsızlıq etmişdilər. Sevdiyim, inandığım adamların 95 faizi birdən-birə mənə arxa çevirdi. Çünki başqa adam gəlmişdi və fərdi maşının, bağın əldən çıxmamasının, uşaqların yerbəyer edilməsinin və i.a. qayğısına qalmaq lazım idi. Onlar vicdanlarını bu şeylərə satdılar.

**– Belə şeyi bağışlamaq olar?**

– Mən onların hamısının günahından keçmişəm.

**– Bəs Siz adamlara hansı keyfiyyətlərinə görə hörmət edirsiniz?**

– Ağlına, elminə, ziyalılığına görə.

**– Bəs uşaqlıqda kim olmağı arzulayırdınız?**

– Şer yazırdım. Şəkil çəkirdim. Rəssam olmaq arzusunda idim, lakin sonra fikrimdən daşındım və memarlıq fakültəsinə daxil oldum. Müharibə başlandı, dərslər kəsildi. Halbuki mən tikmək istəyirdim. Özü də gözəl binalar tikmək istəyirdim!

**– Deməli, Siz xarakter etibarilə yaradıcı adamsınız? Həyatınız**

**boyu heç nə dağıtmamısınız?**

– Bakıdakı uçuq-sökük daxmaları dağıtmışam. Adamlar həmin daxmalarda yaşamır – zillət çəkirdilər. Biz həmin adamları abad mənzillərə köçürdük. Həyatım boyu yaxşı çox şey tikmişəm. Uçurduqlarım isə adamlara mane olanlar idi... Adamlar bunu unutmamışlar.

**– Əgər belədirsə, əvəzini görəcəksiniz. Yeri gəlmişkən, yəqin Siz Allaha inanmırsınız...**

– Əvvəllər bu barədə sadəcə olaraq düşünmürdüm. İndi inanıram.

**– Nə vadar etmişdir?**

– Yəqin ki, yaş. Bundan əlavə, son vaxtlar mənə əziz olan çox adamı itirmişəm. Həyat yoldaşım Zərifə Əzizovna 85-ci ildə vəfat etmişdir. Moskvada Novodeviçye qəbiristanında dəfn olunmuşdur. Tanınmış oftalmoloq idi. Üstəlik, musiqi də bəstələyir, gözəl piano çalır, oxuyurdu. Biz otuz il birlikdə ömür sürmüşdük... Bu yaxınlarda böyük qardaşlarım və bacım dünyalarını dəyişmişlər. Ailədə səkkiz uşaq idik. Atam dəmir yolunda fəhlə idi, gecə-gündüz işləyirdi. Bizi anamız boya-başa çatdırmışdır. Məndən böyük qardaşlarımdan biri akademik idi. Azərbaycan Elmlər Akademiyasını yaratmışdı, o biri rəssam idi. Məni də ki, tanıyırsınız. Kiçik qardaşlarım və bacılarım sağdırlar. İndi Bakıda onlardan birinin mənzilində yaşayıram. Uşaqlarından birinin çox da böyük olmayan otağını məndən ötrü ayırmışlar. Orada taxt var. Mənə bəs edir.

**– Bəs uşaqlarınız nə ilə məşğuldurlar?**

– İki uşağım var. Qızım Sevil Şərqşünaslıq institutunun aspiranturasını bitirmişdir. Oğlum İlham isə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu qurtarmışdır. İki dil bilir. İngiltərəyə getməyə hazırlaşırdı, lakin buraxmadılar. Bax, budur, bizim keçmiş sistemin yaramazlığı: atasını vəzifədən götürdülər, oğluna da mane oldular. İndi hansısa bir şirkətdə məsləhətçi işləyir. Kürəkənim əks-kəşfiyyatda işləyirdi. Polkovnik idi, adı da yaxşılığa çəkilirdi. Məni vəzifədən çıxaran kimi, onu da işdən uzaqlaşdırdılar.

**– Sizin ailə həyatınızın sevinc içində keçdiyini demək çətindir. Bütün müdrikliyinizi səfərbər edib məsləhət verin: bu çətin dövrdən necə salamat çıxaq?**

– Düşünəcəyəm.

***«Azərbaycan» qəzetinin 10 avqust 1993-cü il tarixli nömrəsindən götürülmüşdür***



## YAZIÇI ALEKSANDR PROXANOVLA MÜSAHİBƏ

**– Heydər Əliyeviç, indi aydındır ki, Azərbaycanın ən yeni tarixində daha bir dövr başa çatır. Xalq Cəbhəsinin il yarımlıq «hökmranlığı» sanki bir saatın içində qurtardı. Bu «hökmranlıq» elə bil tüstü kimi çəkilib getdi. Siz bunu nə ilə izah edirsiniz? Bu dövr Azərbaycan üçün nə demək idi?**

– Bu, respublikanın qara günə qoyulması, dağıdılması demək idi. Onlar hər şeyi–təsərrüfatı da, mənəviyyatı da, psixologiyanı da viran qoymuşlar. Ən dəhşətlisi bu idi ki, adamlar daha əlini ağdan qaraya vurmur, işləmirdilər. Elə işləmək imkanının özü də yox olub getmişdi. Bilirsinizmi, biz Lənkəranda boş yerlərdə, çöllü-biyabanlıqda misilsiz, barlı-bərəkətli tərəvəz plantasiyaları yaratmışdıq. O yerləri «Ümumittifaq bostanı» adlandırırdılar. Orada əla faraş pomidor, xiyar, digər bostan məhsulları əkilib-becərilir və bütün bu nemətin hamısı Norilskə, Urala, Moskvaya göndərilirdi. Respublika olduqca böyük məbləğdə gəlir götürür, Rusiyanın sənaye mərkəzləri isə dadlı-ləzzətli tərəvəz alırdılar. Yadımdadır, Finlandiya prezidenti Urxo Kekkonen bu yerlərə istirahətə gəlmişdi və plantasiyalara heyran qalmışdı. Bəs hanı indi bu plantasiyalar? Hər şey başlı-başına buraxılmış, bərbad hala salınmışdır – yenə əvvəlki düzəngahlığa, çöllü-biyabanlığa çevrilmişdir. Camaat işsizdir.

Yaxud götürək üzümü, Aleksey Nikolayeviç Kosıgin üzümçülərə çox kömək edirdi. Biz üzüm istehsalını ildə 2 milyon tona çatdırmışdıq. Abşeron üzümü mənim görüb daddığım bütün sortlar içərisində ən dadlı üzümdür. Abşeron torpaqları quru, isti, qumsal torpaqlardır, üzüm bu isti torpaqlara uzanaraq onların hərarətini, şirəsini-şəkərini canına çəkir. Hər şey məhv olub getdi! Bu il biz olsa-olsa 400 min ton üzüm yığa biləcəyik...

Camaat daha işləmir, dolanmaq üçün xırda ticarətə girişmişdir. İran qulaqlarının dibində, Türkiyə də lap yaxındır. Vecsiz malları qalaq-qalaq alıb alverlə dolanırlar. Amma di gəl ki, bir şey istehsal etmirlər! Sumqayıtın kimya müəssisələrinin yarısı dayanmışdır! Neft hasilatı kəskin şəkildə azalmışdır!.. Hakimiyyətə gələnlərin nə təsərrüfat, nə idarəetmə işlərindən, nə də siyasətdən başları çıxırdı! Kiçik elmi işçi,

yazıçı olan bu adamlar dövlətin nə demək olduğunu başa düşmürlər. Halbuki özləri azadlıqdan, hürriyyətdən və haqq-ədalətdən dəm vurur, bunlardan ağızdolusu danışırlar, axırı nə oldu –hamılıqla oğurluğa qurşandılar! Xalq bütün bunları görürdü və buna görə də çox məyus olmuşdu! İş-gücləri küçələrə düşüb «Mersedes»lərdə ora-bura çapmaq və boşboğazlıq etmək idi. Elə hey danışır, dil boğaza qoymurdular! Mənəviyyatsızlar, əxlaqsızlar, açıq-aşkar oğrular çox idi, lap çox!

Bəs Qarabağ? Onlar bu müharibədə qalib gəlmədilər, munaqişəni siyasi yollarla söndürmədilər! Çox kəndlərimizi, çox torpaqlarımızı itirdik! Dünən yanıma bir kolxoz sədri gəlmişdi. Deyirdi: «Əlbəttə, dəhşətdir ki, orada minlərlə baş mal-qara, minlərlə hektar torpaq itirdik, amma ən böyük rüsvayçılıq budur ki, biz ata-babalarımızın müqəddəs saydığımız məzarlarını itirdik! İndi düşmən bü məzarları murdarlayır, onların üstündə öz qələbələrini bayram edir!»

Fevral ayında mən Elçibəylə görüşdüm. Səkkiz saat danışdıq. Mən ona dedim: «Belə siyasət uğursuzluğa məhkumdur!» O çox düşüncəsiz cavab verdi: «Biz idarə etməyi öyrənirik. Qoy təcrübəsizlər təcrübə toplasınlar. Toplamazlar, biz onları işdən çıxarar və yerlərinə başqalarını qoyarıq». Dedim: «Harda görünüb ki, xalqın başında dəlləklik öyrənəsiniz. Onun üzərində eksperimentlər aparırsınız?» Bu, Gəncədə birbaşa cinayətlə nəticələndi, qanla qurtardı. Buna görə də xalq onları rədd etdi!..

**– Bilirəm ki, Naxçıvanda balaca bir respublikada Siz qayda-qanun yaratmağa, layiqli həyat səviyyəsini qoruyub saxlamağa müvəffəq oldunuz. Sizin üçün, əgər belə demək caizsə, «Naxçıvana sürgünlük» nə demək idi?**

– Xalq Cəbhəsinin yeni peyda olmuş başçılarından biri televiziyaya çıxıb, lovğa-lovğa bildirmişdi: «Əgər lazım gələrsə, mən Naxçıvana gedib Əliyevin başına güllə çaxaram!» Mənə qarşı iki dəfə qəsd təşkil etdilər, iki dəfə məni öldürmək istədilər. Amma oxları daşa dəydi, niyyətləri baş tutmadı. Onlar Əliyevə divan tutmaq üçün Naxçıvanı blokadaya aldırdılar. Bizi ərzaqdan, neftdən məhrum etdilər. Elektrik enerjisini büsbütün kəsdilər. Bizdə soyuqlar və aclıq başlandı. Südəmər körpələr xəstəxanalarda soyuqdan donub ölürdülər. Camaat bağ-bağatı qırıb od qalayırdı. Ev-eşiyi isitmək üçün meyvə ağaclarının 70 faizini kəsib doğradılar. Nə qədər meşə qırıldı. Lakin mən də sağ qaldım, xalq da.



İran və Türkiyə rəhbərləri ilə aramızda şəxsi dostluq münasibətləri yarandı. İran prezidenti öz təyyarəsini Naxçıvana göndərdi. Mən onunla Tehrana gedib, yardım barəsində razılığa gəldim. Biz elektrik xətti çəkdik və İrandan enerji almağa başladıq. Eləcə də yanacaq və ərzaq... Türkiyə prezidenti Dəmirəlin özü mənə 100 milyon dollar kredit təklif etdi. O da öz prezident təyyarəsini göndərdi və mən onun yanına, Ankaraya uçdum. Mən Türkiyəyə yol çəkdirdim, Araz çayı üstündən körpü saldırdım və mal təchizatını təşkil etdim. Lakin başlıca nailiyyətim budur ki, mən Ermənistanla silahlı münaqişəyə yol vermədim. Vəziyyət çox gərgin idi, ciddi hadisələr baş verirdi, lakin mən çıxış yolu tapdım, nəticədə torpağımız al-qana boyanmadı. Mən çox sadə yaşayır, aza qane olurdum, məişət şəraitimiz ağır idi. Bu sözlərim xalqıma da aiddir. Lakin biz sağ qaldıq və əmin-amanlığımızı qoruyub saxladıq. Bakıdan yanıma tez-tez adamlar gəlir, dilə tuturdular ki, siyasətə qayıdım. Lakin mən istəmirdim, Xalq Cəbhəsinin siyasətinə qoşulmaq istəmirdim. Çünki bu siyasət fəlakətə doğru aparırdı.

**– Siz indi Yeni Azərbaycan Partiyasının liderisiniz. Mən bilən, onun artıq 100 min nəfər üzvü var. Siz hər halda Bakıya qayıtmısınız, siyasətə qoşulmusunuz, Sizinlə birlikdə partiyanız da siyasət meydanına atılıbmı?**

– Mən buraya heç də partiyanın lideri kimi gəlməmişəm. Mən buraya tamam könülsüz, tez-tələsik yox, adamların təzyiqindən çox, yaranmış vəziyyətə görə gəldim. Başa düşəndə ki, xalqım vətəndaş müharibəsi həddindədir, onda mən buraya gəldim. Vətəndaş müharibəsi isə xalqın məhv olması, dövlətin sonu deməkdir! Odur ki, gəlməyə bilməzdim. Təkrar edirəm: Mən buraya partiya ilə birlikdə yox, tək ürəyimin hökmü ilə gəldim ki, xalqıma ən dəhşətli fəlakətdən yaxa qurtarmaqda kömək edim.

**– Mən bilirəm, Sizi şəxsən Elçibəy çağırıb, Sizi Xalq Cəbhəsi dəvət edib. İndi isə, Siz onu siyasətdən uzaqlaşdırmısınız. Burada ziddiyyət yoxdurmu?**

– ...Xalq Cəbhəsi gördü ki, işlər fənadır, sonları çatmaqdadır və xalq onları sadəcə olaraq didib-dağıdacaqdır. Buna görə də Elçibəy məni çağırmağı qərara aldı ki, vəziyyəti xilas edim. O, Naxçıvana mənə zəng vururdu, lakin mən dəstəyi götürmürdüm. O, yenə zəng vurdu. Mən dəstəyi yenə də götürmədim. İyunun 7-də onlar Bakıdan mənə təyyarə göndərdilər. Mən təyyarəni geri qaytartdırdım. İyunun 8-də onlar tə-

zədən təyyarə göndərdilər. Mən Elçibəylə telefonda danışdım və Bakıya getməkdən imtina etdim. İyunun 9-da Surətin qoşunları Bakının 100 kilometrliyində idi. Elçibəy yenidən mənə təyyarə göndərdi. Yalvarıb-yaxardı ki, Bakıya gəlim, mən razılaşdım.

Nə gizlədim, oraya gedib fəlakətli vəziyyəti görməyə qorxurdum, buna baxmayaraq, başa düşürdüm ki, hökmən getməliyəm, çünki xalqın taleyi həll olunurdu. Xülasə, mən Bakıya gəldim və biz Elçibəylə bir neçə saat danışdıq. O mənə baş nazir vəzifəsini təklif etdi. Onun silahdaşları Pənah Hüseynov hələ də həmin vəzifədə qalmaqda idi. Mən imtina etdim. Onların hamısı Elçibəyin yanına toplaşdılar və məni dinlədilər. Mən onların cinayətkar idarəetmə üsulu barəsində nə düşünürdümsə, hamısını üzlərinə dedim. İsa Qəmbərov dözməyib dilləndi: «Biz elə düşünürdük ki, siz bizə məsləhət verəcəksiniz, siz isə bizə ittihamnamə oxuyursunuz!» Bəli, məhz belə idi.

İyunun 11-də İsa Qəmbərov Ali Sovetin sədri vəzifəsindən istefa verdi, deputatlar mənə bu vəzifəni tutmağı təklif etdilər. Mən boyun qaçırdım. Onlar məni dilə tutmaqda davam etdilər.

Mən dedim: «Gəlin sessiyanı bir neçə günlüyə təxirə salaq. Mən Surət Hüseynovla görüşmək istəyirəm». Mən onunla tanış deyildim və təyyarə ilə Gəncəyə, onun yanına getdim. Biz Surətlə, yalan olmasın, bütün gecəni danışdıq. Səhərisi o məni şəhərə apardı. Mən döyüşlərin izlərini, dağılmış tikililəri, yanıb külə dönmüş mənzilləri gördüm, cinayətin izlərini gördüm. Bakıya qayıdıb Ali Sovetin təklifini qəbul etdim və iyunun 15-də sədr vəzifəsinə seçildim. Mən bunu yalnız bir məqsədlə – vətəndaş müharibəsi təhlükəsini sovuşdurmaq məqsədi ilə etdim.

İyunun 16-da Surətin qoşunları Xalq Cəbhəsinin hərbi birləşmələri ilə qarşılaşdı. Döyüş getdi, ölənlər oldu. Təbii ki, mən qardaş qırğınına yol verə bilməzdim. Axı onsuz da bu illər ərzində xalqın qanı çox tökülmüşdü. Mən Surətlə razılığa gəldim ki, onun qoşunları Bakıya girməyəcək, paytaxtda döyüş-qırğın olmayacaqdır. Sonrasını özünüz bilirsiniz. Gəncə hadisələrini təhqiq etmək üçün komissiya yaradıldı və komissiya belə bir qənaətə gəldi: Xalq Cəbhəsi özünün liderləri simasında cinayət törətmişdir. Sonra Milli Məclisin sessiyası çağırıldı. Əsas müqəssirlər deputat toxunulmazlığından məhrum edildi və həbsə alındılar. Mən Bakıya bax, belə qayıtmışam.

**– Bəs bundan sonra nə etməli? Ölkə çapılıb-talanmış, cəmiyyət parçalanmış, ona təfriqə salınmış, o, ruhdan düşmüşdür. İndi xalqı hansı ideya birləşdirəcək? Əzab verilmiş, haldan düşmüş cəmiyyəti hansı fəlsəfə, hansı ideologiya birləşdirəcək? Siz özünüz yaxın keçmişdə kommunist ideyasının təbliğçisi olmuşsunuz, lakin indi bu ideya daha yoxdur. Xalq Cəbhəsinin ikiəlli yapışdığı liberal ideya bir az əvvəl puça çıxmışdır. Adamlar hansı ideyanı qəbul edəcəklər?**



– Yalnız milli barışıq ideyasını, ayrı heç bir ideyanı yox! Bunun daha mənası yoxdur – sən hansı partiyaya mənsubsan, neçə yaşın var, hal-əhvalın necədir. Bizi dəhşətli həddən yalnız ümummilli barışıq uzaqlaşdıra bilər. Bunu xalq başa düşür, hərbçilər, kommersantlar, müəssisə direktorları başa düşürlər. Biz heç kəsi təqib etməyəcək, gözümçıxdıya salmayacağıq. Əgər sən liberalsansa, əgər sən Xalq Cəbhəsinin üzvüsənsə, səni heç kəs təqib etməyəcək, sənə gözün üstə qaşın var, deməyəcəklər. Xalqa xidmət elə, xalqın yolunda özünü fəda elə. Bax, budur ideya, budur fəlsəfə! Belə düşünürəm ki, bu ideologiyanı ədəbiyyat və incəsənət xadimləri, din xadimləri formalaşdıracaqlar!

**– Bəs rəsmi Rusiya Bakıda baş vermiş hadisələrə, Sizin siyasətə qayıtmağınıza necə münasibət göstərdi?**

– Hələlik heç cür. Təkcə Ruslan Xasbulatov məni Ali Sovetin sədri vəzifəsinə seçilməyim münasibətilə təbrik edib. Rəsmi Moskva susur. Xalq Cəbhəsi Rusiya əleyhinə siyasət aparır, hər şey edirdi ki, Rusiya ilə Azərbaycan yaxınlaşmasınlar. Deyəsən, bu, Moskvanı da qane edirdi. Siz Rusiyaya olan münasibətimi bilirsiniz. Azərbaycan Rusiya ilə iqtisadi, mədəni, coğrafi-siyasi cəhətdən bağlıdır. Biz sadəcə qonşu deyilik, bizim bir tariximiz var. Təkrar edirəm: Rusiya ilə bugünkü münasibətlər məni razı salmır, lakin mən qəti əminəm ki, münasibətlərimiz hökmən inkişaf etdiriləcəkdir.

**– Dağıdılmış xalq təsərrüfatı necə olacaq? Siz hansı iqtisadi modeli irəli sürmək niyyətindəsiniz? Məsələ burasındadır ki, Azərbaycanın tərəqqisini məhz sosialist modeli təmin edirdi.**

– Bizim xalq təsərrüfatının dirçəlişini mən bazar münasibətlərində görürəm. Sivilizasiyalı bazarın bütün formalarında, sahibkarlıqda, kommersiya banklarında, xarici kapitalın cəlb edilməsində, o cümlədən MDB ölkələrində toplanmış müsbət cəhətlərdə görürəm. Azərbaycan bazarının qapıları bizimlə qarşılıqlı surətdə faydalı əməkdaşlıq etmək istəyənlərin hamısının üzünə açıqdır. Xalq Cəbhəsi Azərbaycanın sər-

vətlərini –qızılını, neftini, var-yoxunu xalq üçün qətiyyən sərfəli olmayan şərtlərlə, dəyər-dəyməzinə satırdı. Görünür, yaxşı rüşvət almışdılar.

Mən əmr verdim ki, dünyanın ən iri neft şirkətləri ilə bağlaşmalar dayandırılsın, çünki onlar mənə şübhəli görünürdü. Bununla əlaqədar, dünya mətbuatında böyük hay-küy qopdu. Mən şirkətlərin nümayəndələrini qəbul edib bildirdim: «Bu, bağlaşmaların kəsilməsi demək deyil. Biz ekspertiza keçirəcəyik, əgər ekspertiza bağlaşmaların qarşılıqlı surətdə faydalı olduğunu aşkara çıxararsa, onda bağlaşmalar inkişaf etdiriləcəkdir».

**– Heydər Əliyeviç, Sizin 70 yaşınız var. Siz həyat məktəbi keçmiş siyasətçisiniz, zəngin təcrübəyə maliksiniz. Həyatın hər üzünü görmüsünüz. Surət Hüseynov 34 yaşındadır. O, siyasətdə təzədir. Onu ölkədə yüksək vəzifələrə milli facio, müharibə gətirib çıxarmışdır. Siz necə birgə fəaliyyət göstərirsiniz? Sizin psixoloji qarşılıqlı fəaliyyətiniz, birgə siyasi praktikanız necə təşəkkül tapmışdır?**

– Surət Hüseynov Yevlaxda iri bir zavod direktoru olub, deməli, istehsalatçıdır. İqtisadiyyatın problemlərini bilir. Mən ona baş nazir vəzifəsini təklif etdim və əminəm ki, əl-ələ verib işləyəcəyik. Mən bütün təcrübəmi onunla bölüşəcəyəm. Əlbəttə ki, bizim üçün başlıca problem təcrübəli işçilər, ağıllı və vicdanlı mütəxəssislər yığmaqdır.

***«Azərbaycan» qəzetinin 12 avqust 1993-cü il tarixli nömrəsindən götürülmüşdür***



## «NEZAVİSİMAYA QAZETA»nın MÜXBİRİ VİTALİ TRETYAKOVLA MÜSAHİBƏ

*Bakı*

*24 avqust 1993-cü il*

**– Heydər Əliyeviç, prezident Elçibəyə etimad haqqında referendum keçirilməsinə dair qərar qəbul edilib. Görünür, hadisələrin inkişafının iki variantı mümkündür. Ona etimad göstərilməsə, üç aydan sonra yeni prezident seçkiləri keçiriləcək. Bəs cənab Elçibəy referendumda qalib gəlsə, onda bu nəyə gətirib çıxaracaq?**

– Bildiyiniz kimi, mən Bakıya onunla əlaqədar qayıtmışam ki, Gəncədə törədilmiş qanlı hadisələrdən sonra Azərbaycanın o vaxtkı rəhbərlərinin hamısı, Elçibəyin özü də mənə müraciət etdilər. Mən bir neçə gün razılıq vermədim, lakin nəhayət, qərara aldım ki, respublika olduqca ağır vəziyyətdədir, artıq söhbət vətəndaş müharibəsindən gedir. Əbülfəz Elçibəyin son vaxtlar tutduğu əməllər nəticəsində Ali Sovetin iclaslarında dəfələrlə məsələ qaldırıldı ki, prezident Konstitusiyanı pozmuşdur, parlamentin onu hakimiyyətdən uzaqlaşdırmaq hüququ var. O, səlahiyyətə malik deyildir, amma öz prezident vəzifəsindən istifadə edir. Mən bu məsələnin səsə qoyulmasından hər dəfə yayınmışam. Məni düz başa düşün, axı prezident Elçibəy xalq tərəfindən seçilib. Hərçənd indi daha sübuta yetirilib ki, seçkilər saxtalaşdırılmışdı... Daha olan olub, keçən keçib. Buna görə də real vəziyyəti nəzərə alaraq və demokratik prinsipləri əsas tutaraq, onun taleyini xalq özü həll etməlidir. Mən məsələ qaldırdım ki, referendum keçirilsin. Çünki əgər o, xalq tərəfindən seçilibsə, onda qoy xalq da ona öz münasibətini bildirsin. Bəs bu münasibət necə ola bilər? Son vaxtlar Azərbaycanda nələr baş verdiyini nəzərə alsaq, onda görərik ki, bu münasibətin necə olacağı bəri başdan məlumdur.

**– Deməli, yaxın vaxtlarda Azərbaycanda yeni prezident seçkiləri keçiriləcək?**

– Konstitusiyaya görə, əgər Azərbaycan prezidentinin səlahiyyətləri Ali Sovetin sədrinə verilibsə, bu halda o, həmin səlahiyyətləri üç aydan artıq icra edə bilməz. Deməli, seçkilər keçirilə bilər.

**– Amma Azərbaycan prezidenti vəzifəsini tamam ləğv etmək təklifi də var?**

– Bəli, belə əhval-ruhiyyə var. Mən hesab edirəm ki, bu, qeyri-məqbuldur. Azərbaycanda prezident də olmalıdır, prezident idarə formaları da. Bu fikri söyləyənlərin özləri prezident vəzifəsinin ləğv edilməsinin bütün nəticələrini başa düşmürlər. Biz parlament idarə formasına hələlik hazır deyilik.

Parlament idarə forması üçün gərək sabit ənənələr olsun. Bu ənənələr isə öz-özünə meydana gəlmir. Dəqiq fəaliyyət proqramları olan güclü, qanuniləşdirilmiş partiyalar gərəkdir, onların proqramlarında zamanın şərtləri ilə səsləşən konkret məqsəd və vəzifələr nəzərdə tutulmalıdır.

Keçmişə, parlamentli respublikaların tarixinə ötəri nəzər salsaq, onda yəqin edərik ki, bu proses bir neçə onillik ərzində yol keçmişdir. Siyasi mübarizənin keşməkeşlərində, qaynaqlarında müxtəlif qüvvələr peyda olmuş, nurlu şəxsiyyətlər, zəkalı siyasi istedadlar meydana çıxmışlar... Lakin tam dəyərli siyasi partiyaların təşəkkül tapması üçün xeyli vaxt gərək idi. Biz isə çoxpartiyalılıq mərhələsinə yenicə yaxınlaşmışıq, madam ki, söhbət siyasi mənzərədən gedir, onda kəmiyyət göstəriciləri yalnız kənar, qeyri-peşəkar müşahidəçiləri razı sala bilər. Qeyd edim ki, indi bizdə onlarca partiya var. Onların proqramları oxşardır, bu partiyaların başında elə adamlar dururlar ki, onlar öz əqidə və baxışlarına görə bir-birindən çox az fərqlənirlər. Parlaq liderlər yoxdur. Hər halda, hələlik yoxdur. Bu partiyalar lazımi sosial bazaya malik deyildirlər və əslində, hamısı da ibtidai siyasi modelə yaxındır. Buna görə də bu gün bizim şəraitdə əsl parlament idarə forması barədə düşünmək özünü aldatmağa bərabərdir. Bu, siyasətin ən adi əsaslarını faktik olaraq bilməmək deməkdir.

Nəzərdən keçirdiyimiz məsələyə dair öz axırıncı dəlilimi gətirim: siyasi partiyalar geniş təbəqələrin mənafelərini əks etdirməli, onların fəaliyyətinin strategiya və taktikasının mahiyyətini, heç olmasa, yaxın perspektivi təmin etməlidir. Bunu isə bizim partiyaların timsalında, təəssüflər olsun, müşahidə etmirik...

**– Siz son dövrün Azərbaycan rəhbərlərindən birinci olaraq təhlükəli siyasi addım ataraq, «Dağlıq Qarabağ Respublikası»nın hakimiyyət orqanları ilə birbaşa dialoqa başladınız. Hesab edirsinizmi ki, bu, erməni-azərbaycanlı münaqişəsini dinclikla aradan qaldırmaq üçün son imkandır?**



– Mən Bakıya qayıdan kimi, hərbi əməliyyatların real vəziyyətini obyektiv şəkildə araşdıraraq, bu məsələnin həllinin dinc yollarını axtarıb tapmağa çalışdım. ABŞ, Rusiya və Türkiyə sülh təşəbbüsü irəli sürmüşdülər, işğal edilmiş Azərbaycan ərazilərindən erməni silahlı birləşmələrinin çıxarılması haqqında BMT Təhlükəsizlik Şurasının 822 nömrəli qətnaməsi qəbul olunmuşdu. 1992-ci ilin martından ATƏM-in Dağlıq Qarabağ münaqişəsinə dair Minsk konfransı fəaliyyət göstərir, lakin bu təşkilatın imkanlarından istifadə etmək məsələsi ilə Azərbaycanda heç vaxt indiki kimi belə fəal məşğul olmamışlar. Mən Minsk konfransının sədri cənab Mario Rafaelli ilə görüşdüm. O, Azərbaycanda olmuş və konkret surətdə yəqin etmişdir ki, indiki Azərbaycan rəhbərliyi bu məsələnin dinclikla həllinə dair planı qətiyyətlə həyata keçirir. Qoşunların münaqişə zonasından çıxarılması üçün ATƏM-in nümayəndə heyətinin nəzərdə tutduğu plan və təqvimi həm Azərbaycan, həm də Ermənistan rəhbərliyi bəyənmişdir. Amma bilirsinizmi, Dağlıq Qarabağdakı qüvvələr bu plan və təqvimin əleyhinə çıxdılar və Mario Rafaelli də kimlərin əngəl törətdiyini, əslində aydınlaşdırdı. ATƏM nümayəndələri qayıtdıqdan sonra nəticə çıxarıb, məsələyə yekun vurdular. Mən bu nümayəndə heyətinin obyektivliyindən razıyam. O, BMT-yə geniş məruzə təqdim etmişdir.

Erməni birləşmələri tərəfindən işğal olunmuş Ağdamdan erməni qoşunlarının təxirə salınmadan çıxarılması haqqında Təhlükəsizlik Şurasının qəbul etdiyi qərar ağıllı qərar idi. Lakin sonradan məlum oldu ki, Dağlıq Qarabağdakı qüvvələr idarəedilməzdir və Ermənistan rəhbərliyinə tabe olmurlar. Bunu bizə Yerevandan dedilər. Əlbəttə, mən belə uydurmalarla razılaşa bilmərəm. Dağlıq Qarabağ kiçicik bir vilayətdir. Təbiidir ki, o, kənardan kömək edilməsəydi, 7 milyonluq respublikaya müqavimət göstərmək iqtidarında olmazdı. Lakin bütün dünya bilməlidir ki, biz bundan sonra müharibə etmək istəmirik, buna görə də Azərbaycan tərəfindən hərbi rəhbərlik erməni birləşmələrinin komandanlığı ilə əlaqə yaratdı. Üç gün müddətinə barışıq haqqında razılığa gəldik. Sonra təkrarən danışıqlar apardıq və barışığı daha 7 gün uzatmağı qərara aldıq. Biz bəlkə bundan sonra da bu yolla gedək.

**– Siz inanırsınızmı ki, bu problemi yaxın gələcəkdə, ümumiyyətlə, həll etmək olar? Bunu ona görə soruşuram ki, təxminən bir il əvvəl prezident Elçibəylə görüş zamanı mən bu sözləri ondan da**

**eşitmişdim. Demişdi ki, uzağı bir ildən sonra münaqişə aradan qaldırılacaq...**

– Əbülfəz Elçibəyin hansı mülahizələri əsas tutduğunu söyləmək mənim üçün çətindir. O, belə bəyanatları bir neçə dəfə vermiş və hər dəfə də qəti surətdə əmin edirdi ki, üçcə ayın içində qələbə qazanılacaq. Mən onu qınamıram. Çünki onun nə dövlət fəaliyyəti, nə də siyasi fəaliyyət sahəsində azca belə təcrübəsi yox idi. Odur ki, özünün ölçülüb-biçilməmiş, götür-qoy edilməmiş əməllərinin bəhrəsini görməli olur.

Parlamentin iclasında mənim seçilməyim məsələsi həll edilərkən soruşurdular ki, mən Qarabağ münaqişəsinin aradan qaldırılmasına nə kimi təminat verə bilərəm? Aydın cavab verib dedim: mən peyğəmbər deyiləm, heç bir təminat vermirəm və heç nə vəd etmirəm. Məsələ olduqca mürəkkəbdir və əgər onu beş il ərzində nəinki həll edə bilməmiş, əksinə, son həddədək ağırlaşdırmışlarsa, indi onun həllinin qeyri-adi yollarından danışmaq ən azı sadəlövhlükdür. Bununla yanaşı qeyd edim ki, hərbi əməliyyatların bundan sonra da aparılması münaqişədə iştirak edən tərəflərin hamısı üçün daha dəhşətli faciəyə gətirib çıxaracaqdır. Buna görə də inanıram ki, xalqların müdrikliyi, nəhayət, öz bəhrəsini verəcəkdir.

**– Belə düşünürəm ki, hətta Naxçıvanda olduqda da, Siz bu münaqişədə Rusiyanın rolunu izləyirdiniz. Rusiyanın hərəkətləri Sizi qane edirmi?**

– Mən Naxçıvanda da heç bir konkret bəyanat vermirdim. Demişəm və deyirəm ki, bu strateji məsələdir: Azərbaycanın Rusiya ilə normal, dostluq əlaqələri olmalıdır. Amma son vaxtlar bu münasibətlər şəxsən məni razı salmır. Bu böyük bir siyasi səhvdir ki, hər şeydə günahı Rusiyanın, əvvəlcə sovet Rusiyasının, sonra da indiki Rusiyanın üstünə yıxırdılar. Heç də həmişə hər şey normal olmamışdı, eləcə də Dağlıq Qarabağ ətrafında baş verən hadisələrdə Rusiyanın tutduğu mövqe də. Lakin mən bunu bütünlüklə Rusiyaya aid etməzdim. Zənnimcə, burada ayrı-ayrı adamların və ya müəyyən strukturların münasibətindən danışmaq olar. Buna görə də, əlbəttə, problemlər var, ola bilsin, iddialar da var. Buna baxmayaraq, ümidvaram ki, Rusiya indi ABŞ və Türkiyə ilə birlikdə Qarabağ probleminin dincliklə həllinə ürəkdən çalışır. Burada, Azərbaycanda belə bir fikir yayılıb ki, Rusiya birtərəfli mövqe tutur. Mən isə, dövlət məsuliyyəti daşıyan bir şəxs kimi deyirəm: biz köhnə



anlaşılmazlıqları xatırlayıb üzə vurmaqdansa, mehriban qarşılıqlı münasibətlər üçün imkanlar aramalıyıq.

**– Siz artıq neçə dəfə təəssüflə söyləmisiniz ki, Azərbaycandan çoxlu rus gedib və gedir...**

– Ömrümün əsas hissəsi Azərbaycanda keçib, Azərbaycan öz çoxmillətliliyi ilə səciyyəvidir. Bugünkü Azərbaycan isə XIX əsrdə təşəkkül tapmış Azərbaycana oxşayır, yəni, son illərdə milli tərkibdə güclü dəyişikliklər baş vermişdir. Xüsusən 1990-cı ilin yanvar hadisələrindən sonra. Rusdilli əhalinin köçhaköçü də məhz onda başladı. Mən bunu normal hal saymıram. Bütün sivilizasiyalı ölkələr çoxmillətlidir. Rusdilli əhalinin olması Azərbaycan üçün və onun gələcəyi üçün olduqca mühüm amildir. Bir çox azərbaycanlılar rus dilində təhsil almış, öz övladlarına bu dildə oxumağa imkan yaratmışlar. Mən öz millətimi və öz xalqımı sevirəm, amma bir çox xalqların nümayəndələri ilə ünsiyyət zamanı rus dilindən istifadə etmişəm. Bu isə mənə yalnız fayda gətirmişdir.

Mən çalışacağam ki, ruslar, ukraynalılar, yəhudilər və başqa millətlərin nümayəndələri buradan köçüb getməsinlər, adamlar özlərini azad və rahat hiss etsinlər. Azərbaycanın bütün vətəndaşları bərabər hüquqlara malik olmalıdır. Yoxsa, elə düşünürsünüz ki, son illərin hadisələri ilə əlaqədar köçüb getməyə məcbur olmuş şəxslərin Azərbaycana qayıtması problemi məni narahat etmir? Biz bunun üzərində fikirləşirik. Çətinlik ondadır ki, bizdə çoxlu qaçqın var – ermənilər Ağdamı işğal etdikdən sonra qaçqınların sayı daha 200 min nəfər artmışdır. Lakin mənə elə gəlir ki, əgər biz müharibəni qurtarsaq, əgər adamlar daimi yaşayış yerlərinə qayıtmağa başlasalar, onda rahat nəfəs alarıq və çox dərd-sərimizi, vaxtı çatmış problemlərimizi həll edə bilərik. Çoxları öz torpağına qayıtmaq həsrətindədir, niskillidir, adamlar qurub-yaratmaq eşqiylə yanırlar.

**– Rusiyada, Ukraynada, Qazaxıstanda çoxları indiki dövlətlər birliyinə nisbətən daha möhkəm ittifaq yaradılmasına tərəfdardırlar. Siz bu problemə necə baxırsınız?**

– Suveren respublikaların yaranması obyektiv tarixi prosesdir. Yalnız Xalq Cəbhəsi adamların beyninə yeritməyə çalışırdı ki, Azərbaycanın müstəqilliyinə məhz o, nail olmuşdur. Bu, doğru deyildir. Bu prosesi dayandırmaq çətin ki mümkün idi. Lakin bunların hamısını, əlbəttə, ağrısız-acısız, sivilizasiyalı yolla – münaqişələrsiz, qan tökülmədən

həyata keçirmək olardı. Hər hansı yeni ittifaq haqqında ideya həmçinin köhnəlməyibdir. Biz, məsələn, əgər keçmiş Sovet İttifaqından danışırıqsa, o, bolşeviklərin iradəsi ilə yaranmışdı. Həmin ittifaqın əsas təşəbbüsçüsü Rusiya olmuşdur. Amma Ukrayna, Belorusiya və tərkibində üç respublika, o cümlədən də Azərbaycan olan Zaqafqaziya fəal rol oynamışdılar. Bununla əlaqədar mən belə bir nöqteyi-nəzərə tərəfdaram: hər cür ittifaqlar, bloklar barəsində az düşünmək, az danışmaq lazımdır. Gərək bacardığın qədər çalışıb qonşularla itirilmiş əlaqələrin bərpa edilməsinə nail olasan. Tam müstəqillik, əsl suverenlik barədə heç bir şüar, bəyannamə istər böyük, istərsə də kiçik xalqların real tələbatını əvəz edə bilməz. Harada ki, tamhüquqlu, qarşılıqlı münasibətlər yaradılmasına cəhd göstərilir, orada hər şey çox sadə bir model – mehriban qonşuluq münasibətləri əsasında həll edilir.

– **Rusiyada, elə burada, Bakıda da eşitdim ki, son vaxtlar Azərbaycan İrana və Türkiyəyə güclü meyl göstərir, din birliyi amili, az qala, milli birlik amili kimi qəbul edilmişdir...**

– Hər dövlətin öz xarici siyasəti var. Milli xüsusiyyətlər, din –bunlar da əhəmiyyətli amillərdir. Şəxsən mən milli hisslərlə dini hissləri qarışdırmazdım. Bu kateqoriyalar heç də hər cəhətdən oxşar deyildir, hərçənd əksər hallarda onları bəziləri, az qala, eyniləşdirməyə çalışırlar.

Bir vaxtlar bütün Qərb, elə Şərq də sovet xalqlarının hamısına ən böyük şər kimi baxırdılar, səbəb də onların, Allaha «inanmaması» idi. Bəs indi, adamlar, xalqlar Allaha, dinə üz tutduqları vaxtda necə, onlar yenə də günahkardırlar?.. Sonra, təməlçilik niyyətləri və sair təhlükəli meyllər barəsində söhbətlərin əksəriyyəti mənə uydurma kimi görünür... O ki qaldı milli xüsusiyyətlərə, burada hətta səthi etnoqrafik bilik, zənnimcə, hər şeyi ətraflı şəkildə izah edir. Türk və Azərbaycan dilləri qohum dillərdir, elə bunun özü də yaxınlığın labüdlüyünü qabaqcadan müəyyənləşdirir. İranda on milyonlarla azərbaycanlı yaşayır. Məgər bu amillər iki böyük ölkə ilə yaxınlığın olmasını zərurətə çevirmirmi?

Daha bir məsələ barəsində... Yetmiş ildən artıq bir müddətdə biz öz cənub qonşularımızdan, demək olar, tamamilə ayrı düşmüşdük, indi birləşmə, inteqrasiya əhval-ruhiyyəsi bütün dünyaya hakim kəsildiyi bir vaxtda nəyə görə də bizim qonşularla normal münasibətlərimiz olmasın? (Axı bu münasibətlər başqa dövlətlərə heç bir ziyan gətirə bilməz). Mən bizim münasibətlərimizi nəzərdə tuturam... Azərbaycanı Türkiyə və İranla qədim tarix birləşdirir. Lakin təxminən 200 il Azərbaycan Rusiyanın tərkibində olmuşdur. Bu isə dərin iz buraxmışdır. Azərbaycanın həm Rusiya, həm Türkiyə, həm də digər dövlətlərlə yaxşı dostluq münasibətləri olmalıdır. Misal üçün, Qazaxıstanda, Özbəkistanda, Türkmənistanda çoxlu azərbaycanlı yaşayır. Rusiyada onlar təqribən 2 milyon nəfərdir. Onların sayı Şimali Qafqazda xüsusilə daha çoxdur. Bütün bunlar ona dəlalət edir ki, son dərəcədə ağıllı xarici siyasət yeritmək lazımdır. Rusiyanın Qafqaz bölgəsində həmişə mənafeyi olmuşdur. Azərbaycan Rusiya ilə sıx əlaqələr saxladığı dövrlərdə çox şey qazanmışdır. Rusiyanın mədəni təsiri ilə milli mədəniyyətimizin vəhdəti Azərbaycanda çox maraqlı sintez əmələ gətirmişdir. Rusiya ilə normal münasibətlər bərpa edilməlidir. Əlbəttə, bütün dünyaya olduqca güclü təsir göstərən ABŞ və digər böyük ölkələrlə də normal münasibətlər yaradılmalıdır. Əgər Rusiya kimi böyük bir dövlət ABŞ-ın mənafeləri ilə hesablaşırsa, onda Azərbaycan kimi kiçik ölkələr bu mənafeləri, sözsüz, nəzərə almalıdırlar. Dünya siyasəti sadə bir iş deyildir...



– **Müsahibəni qurtararaq, bir daha Azərbaycanın daxili siyasətinə qayıdıram. Müxalifət, Xalq Cəbhəsi hadisələrin inkişafından razı deyildirlər. Bəs təyin edilmiş referendum nəticəsində və ya referendumdan sonra onlar Konstitusiyaya zidd hər hansı tədbirlərə əl atsalar, onda necə?**

– Mən bunu istisna etmirəm.

– **Belə isə, onda necə hərəkət edəcəksiniz?**

– Yeri gəlmişkən, onlar artıq buna əl atmışlar. Əbülfəz Elçibəy apreldə fövqəladə vəziyyət elan etmişdir. Sonra onu yenidən iki ay müddətinə uzatmışdır. Bu cəbhədə şəraitlə və daxili siyasi vəziyyətlə bağlı idi. Lakin Gəncə hadisələri başladıqda, Xalq Cəbhəsinin özü qanunu pozmağa və mitinqlər toplamağa başladı, doğrudur, mitinqlərə az adam gəlirdi–onlara bir qayda olaraq, ən çoxu iki-üç min adam toplaşırdı. Elçibəy qaçıb aradan çıxdıqdan sonra Xalq Cəbhəsi, tərəfdarlarını öz iqaçıbəy qaçıb aradan çıxdıqdan sonra Xalq Cəbhəsi, tərəfdarlarını öz iqamətgahının qarşısına toplayaraq mitinq keçirdi. Hüquq-mühafizə orqanlarımız fövqəladə vəziyyət haqqında qanunu əsas tutaraq asayişi pozanlara qarşı sərt tədbirlər görülməsinə təkidlə çalışırdılar. Amma mən buna mane oldum. Hətta televiziya icazəsiz keçirilən mitinqdən reportaj göstərdi. AXC əvvəlki şöhrətə malik deyil və məsələ də əsla

mitinqlərdə deyildir. Onun üzvlərində çoxlu silah var. Onlar bax, bununla vəziyyəti mürəkkəbləşdirə bilərlər.

**– Yaxın vaxtlarda Azərbaycanda iqtisadi vəziyyət necə olacaq, daha doğrusu, hökumət necə hərəkət edəcək?**

– İqtisadiyyat son dərəcə bərbad vəziyyətdədir. Zavod və fabriklərin əksəriyyəti boş dayanır. Bütöv sahələr böhran içərisindədir, idarəetmə kadrlarının, texniki kadrların kəskin şəkildə çatışmadığı aydın nəzərə çarpır. Halbuki vaxt var idi, respublikanın yüksəlişini məhz onlar təmin etmişdilər. İqtisadi əlaqələr qırılmışdır. Biz, əslində, bütün istiqamətlərdə iş görməliyik. İqtisadi islahatlar mümkün olan yerlərdə həyata keçirilməlidir, onlar lap köklü olsa da. Lakin sağlam haqq-hesab əsasında əvvəlki iqtisadi potensialdan da istifadə etmək vacibdir. Bəd əməllər az tutulubmuş kimi, hələ bəziləri müxtəlif sıçrayış və sürətli irəliləyişdən dəm vurur. Mən bunun əleyhinəyəm: böhranın kor düyününü yavaş-yavaş açmaq, inkişafın inqilabi yoluna deyil, təkamül yoluna, transformasiya metodikasına keçmək lazımdır... Biz çox tez-tez belə çağırışlar eşidirik ki, bazar yaradılması sahəsində fəaliyyəti gücləndirmək gərəkdir. Çoxları isə bizim artıq bazar şəraitində olduğumuzdan danışaraq özlərini də, ətrafdakıları da çaşbaş salırlar. Mən belə hesab edirəm ki, biz iqtisadi mənada bazara deyil, olsa-olsa, adi bazara malikik, o da ki, çox bəsitdir. Bəs bu adi bazarı iqtisadi bazara necə çevirməli? Bax, məsələ də bundadır. Bax, burada yada salmaq lazımdır ki, bazar iqtisadiyyatının və əmək bazarlarının infrastrukturlarını, texnologiyaları, vergi sistemlərini ardıcıl surətdə yaratmaq və bir çox digər məsələləri yoluna qoymaq lazımdır. Biz intellektual ehtiyatlar olmadığı təqdirdə də işin öhdəsindən gələ bilməyəcəyik.

**– Sizin bu vəzifədə hər hansı səfəriniz nəzərdə tutulurmu?**

– Mən hələ heç nəyi nəzərdə tutmamışam. Yalnız daxili problemlərlə məşğulam. Bir tərəfdən, müharibə davam edir, təxminən bir milyon adam öz torpağında qaçqına çevrilmişdir, digər tərəfdən, hüquqi özbaşınalıq baş alıb gedir, qanunsuz yaradılmış silahlı dəstələr var. Bu problemlərin hamısı ilə hesablaşmaq və onların üzərində işləmək gərəkdir. Lakin xalq mənə inanır. Bu isə ən başlıca məsələdir. Buna görə də belə düşünürəm ki, həmvətənlərimin etimadını doğruldacaq və ölkəni sabitliyə gətirib çıxaracağam.

***«Nezavisimaya qazeta», 24 avqust 1993-cü il***



## MARQARET AF UQLAS İLƏ DANIŞIQLAR BAŞA ÇATDIQDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*26 oktyabr 1993-cü il*

Biz ATƏM-in indiki sədri xanım Uqlas başda olmaqla bu təşkilatın nüfuzlu nümayəndə heyətinin respublikamıza gəlişini böyük razılıqla qarşılamışıq. ATƏM-in fəaliyyəti baxımından Azərbaycan Respublikasını maraqlandıran bütün məsələlər barədə bu gün bizim kifayət qədər səmərəli danışıqlarımız olmuşdur. Biz keçmiş Sovet İttifaqı ərazisində yaranmış müstəqil dövlətlərin taleyi və fəaliyyəti ilə bağlı ATƏM-in mövqeyi ilə tamamilə razıyıq, xüsusən də ona görə ki, bu beynəlxalq təşkilat planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçilməsi, demokratiyanın inkişafı, insan hüquqlarının müdafiəsi problemlərinə, həmin dövlətlərin inkişafı üçün daha sivilizasiyalı şərait yaradılmasına böyük maraq göstərir. Bugünkü danışıqlar zamanı biz bəyan etdik ki, mən bunu bir daha təkrar etmək istəyirəm, Azərbaycanın bu problemlərlə əlaqədar heç bir çətinliyi olmayacaqdır. Azərbaycan Respublikası demokratik inkişaf, sərbəst bazar iqtisadiyyatına keçmək yolu tutmuşdur, insan hüquqlarına və insan azadlıqlarına əməl olunması prinsiplərinə daim tərəfdardır. Bununla belə, biz, əlbəttə, həmin islahatların həyata keçirilməsini dəstəklədiyinə və bu sahədə köməyinə görə ATƏM-ə minnətdar olacağıq.

Respublikamız üçün ən mürəkkəb, ən vacib problem onun ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını, suverenliyini və bununla əlaqədar olaraq ölkənin ərazisində gedən müharibənin dayandırılmasını, işğal edilmiş Azərbaycan torpaqlarından erməni silahlı birləşmələrinin çıxarılmasını təmin etməkdir.

Azərbaycanın Füzuli və Cəbrayıl rayonlarında yeni zonalar işğal edən Ermənistan silahlı birləşmələrinin sonuncu təcavüzkar hücumları ilə əlaqədar xanım Uqlasın bu gün səhər verdiyi bəyanata görə mən ona minnətdaram. Ermənistan silahlı birləşmələrinin yeni zonalar işğal etməsi faciəli nəticələrə gətirib çıxarmışdır. Ümidvaram ki, ATƏM-in sədrinin bu siyasi bəyanatı işğalçı qoşunların son vaxtlar tutduqları əraziləri dərhal tərk etməsində öz rolunu oynayacaqdır.

Mən bir daha təsdiq edirəm ki, Azərbaycanla Ermənistan silahlı birləşmələri arasında müharibə ilə bağlı məsələni biz dinc yolla aradan qaldırmağa çalışırıq. Biz sülh prosesinə, dialoqa, atəşin dayandırılmasına tərəfdar olaraq qalır və ATƏM-in fəal havadarlığına və köməyinə ümid bəsləyirik.

Biz həmçinin ümidvarıq ki, ATƏM və xanım Uqlas başda olmaqla bu təşkilatın mötəbər nümayəndə heyəti dinclik̇lə nizamasalma prosesinin normal məcraya düşməsi üçün əlavə tədbirlər görəcəklər. Bununla bərabər, biz işğalçı qoşunların son vaxtlar tutduqları ərazilərdən dərhal çıxarılmasını və Azərbaycan torpaqlarının işğalçılardan təmizlənməsi üçün ardıcıl tədbirlər görülməsini tələb etmişik və edirik. Ümidvarıq ki, bugünkü danışıqlarımız həmin problemin həlli məqsədilə ATƏM-in yorulmaz fəaliyyətinin yeni mərhələsi üçün başlanğıc nöqtəsi olacaqdır.

**S u a l:** İstər Birləşmiş Millətlər Təşkilatı, istərsə də ATƏM dəfələrlə qətnamələr qəbul etmiş və bu qətnamələrdə Ermənistan silahlı qüvvələrindən tələb olunmuşdur ki, ələ keçirdikləri Azərbaycan ərazilərindən çıxsınlar. Lakin qəribə bir vəziyyət yaranır: nə qədər çox bəyanatlar verilirsə, bir o qədər çox Azərbaycan torpaqları ilhaq edilir. Təcavüzkara təsir göstərmək üçün ATƏM-in hər hansı vasitələri –siyasi, iqtisadi vasitələri varmı?

**M a r q a r e t a f U q l a s:** Zənnimcə, biz hamımız başa düşürük ki, beynəlxalq təşkilatların imkanları barədə təsəvvürümüz olmalıdır. Yeri gəlmişkən, bu, təkcə həmin münaqişəyə aid deyildir, bir çox digər elə misallar, münaqişələr var ki, burada bu hal rol oynayır. Lakin buna baxmayaraq, bu əsla o demək deyildir ki, biz ATƏM çərçivəsində, xüsusən də Minsk qrupu çərçivəsində səylərimizi davam etdirməməliyik. Əksinə, Minsk qrupu siyasi dialoqu gücləndirmək üçün çox mühüm məclisdir. Mən əminəm ki, bu sahədə fəaliyyətimizi davam etdirmək və gücləndirmək lazımdır. Ümidvaram ki, mənim səfərim nəticəsində bu istiqamətdə səylər davam etdiriləcəkdir. Siz çox yaxşı başa düşürsünüz ki, ATƏM-in öz silahlı qüvvələri yoxdur. ATƏM siyasi dialoqun gücləndirilməsinə kömək edə biləcək siyasi təşkilatdır.

Bizim beynəlxalq təşkilat onun üzvlərinin istədikləri dərəcədə güclüdür. Buna görə də ATƏM-in sədri kimi, mən ürəkdən istərdim ki, ATƏM-in üzvü olan ölkələr Minsk prosesinin və Minsk qrupunun dialoq üçün səmərəli məclisə çevrilməsinə çalışsınlar.



**S u a l:** Hazırda Azərbaycanda bir milyon qaçqın var. Onlara yardım göstərilməsi məsələsi ATƏM çərçivəsində müzakirə edilibmi?

**M a r q a r e t a f U q l a s:** Mən qaçqınların nümayəndələri ilə görüşəcəyəm. Onlarla rəhbərlik etdiyim nümayəndə heyətinin üzvləri də görüşürlər. Nümayəndə heyətinin tərkibinə İsveçin yardım agentliyinin nümayəndəsi də daxildir.

**S u a l:** ATƏM-in üzvü kimi, Ermənistan bu təşkilatın üzvü olan dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət etməlidir. Lakin məlumdur ki, Ermənistan parlamenti Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında, habelə Qarabağa hərbi yardım göstərilməsi haqqında qərarlar və dövlətlərin ərazi bütövlüyünün Helsinki aktında qeydə alınmış prinsipini pozan bir sıra digər sənədlər qəbul etmişdir. Bu prinsipə əməl edilməsi barədə ATƏM-in müəyyən öhdəlikləri var. Bununla əlaqədar olaraq Siz ATƏM-in tərkibində Azərbaycanın gələcəyini necə görürsünüz?

**M a r q a r e t a f U q l a s:** Deməliyəm ki, tarix problemlərinə hörmətim olmaqla bərabər, mən ATƏM-in sədri kimi bu günün və gələcəyin məsələləri ilə məşğulam. Odur ki, bu problemə Ermənistanın münasibətilə bağlı məsələlərə sabah Yerevanda olanda da toxunacağam.

**S u a l:** Xanım Uqlas, azərbaycanlıları bir məsələ maraqlandırır – nə üçün dünya birliyi bu qədər vaxtda Qarabağ problemini tənzimləyə bilmir? Bu nə deməkdir – güclü dövlətlər balaca Ermənistan qarşısında acizdir, yoxsa Ermənistan Respublikası tərəfindən Azərbaycana qarşı təcavüz faktının təsdiq edilməsini istəmirlər?

**M a r q a r e t a f U q l a s:** Belə düşünürəm ki, başlıca problem hər iki tərəfin bu müharibəyə son qoymaq üçün kifayət qədər iradəsinin olmamasındadır. Məncə, nəticə etibarilə ən başlıca məsuliyyət o kəslərin üzərinə düşür ki, onlar bilavasitə müharibə aparır, onlar silaha sarılıblar.

**S u a l:** Xanım Uqlas, Siz ATƏM-in ilk nümayəndəsi deyilsiniz ki, münaqişə zonasına gedir, bu problemin tənzimlənməsi üçün zəmanət verirsiniz, lakin nəticədə bunun üçün konkret olaraq heç nə edilmir. Bu gün Siz bəyanat verərək, zorakılığı pislədiniz. Necə bilirsiniz, gələcəkdə zorakılığa yol vermədən vəziyyəti sabitləşdirmək və münaqişəni nizama salmaq üçün hər hansı əməli tədbirlər görmək mümkündürmü? Axı insanlar, əsasən də uşaqlar və qadınlar əzab-əziyyət çəkirlər. Bu isə, gərək ki, Sizi daha çox narahat edir və Sizə daha aydındır...

**Marqaret af Uqlas:** Mən sizin hisslərinizi, Azərbaycan xalqının keçirdiyi hissləri başa düşürəm və dinc əhalinin halına yanıram. Siz Minsk prosesi çərçivəsində ATƏM-in göstərdiyi səylərin hələlik heç bir nəticəsini görmürsünüz, buna baxmayaraq, mən belə düşünürəm ki, əgər dünya birliyi münaqişəyə arxasını çevirsəydi və onu tamamilə qulaqardına vursaydı, onda bu, vəziyyəti yaxşılığa doğru dəyişdirməzdi. Zənnimcə, ATƏM bundan sonra da bu məsələ ilə məşğul olmalı və hətta imkanlarımız məhdud olsa da, öz üzərinə müəyyən məsuliyyət götürməlidir. Lakin mən bir daha nəzərə çarpdırıram: bundan ötrü hər iki tərəf siyasi danışıqlar prosesində itştirak etmək niyyətində olduğunu göstərməlidir.

**Sual:** Xanım Uqlas, hərbi əməliyyatlar yenidən gücləndirildikdən sonra yaxın vaxtlarda Minsk konfransının keçirilməsini mümkün hesab edirsinizmi və şəxsən siz cənab Rafaelli tərəfindən təklif olunan təzələnmiş cədvələ necə baxırsınız? Bildiyiniz kimi, həmin cədvəldə BMT Təhlükəsizlik Şurasının 822 və 853 nömrəli qətnamələrinin ziddinə olaraq, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş ərazilərdən çıxarılması dəmir yollarının blokadasının götürülməsi ilə əlaqələndirilir.

**Marqaret af Uqlas:** Demək istəyirəm ki, mənim nümayəndə heyətimə səfirlər Seka, Mozberq və Kazimirov, yəni elə şəxslər daxildirlər ki, onlar Minsk prosesinin məsələləri ilə bilavasitə məşğul olurlar. Mən əminəm ki, onlar əvvəl-axır konkret nəticələrə gəlmək üçün öz səylərindən əl çəkmək niyyətində deyildirlər.

O ki qaldı sualın ikinci hissəsinə, sözü ATƏM-in baş katibi səfir Xolka vermək istərdim.

**Səfir Xolk:** Bildiyiniz kimi, bu cədvəl danışıqların çox mürəkkəb prosesindən sonra meydana gəlmişdir. Bu cədvəl çərçivəsində olduqca çox mühüm və mürəkkəb məsələləri nəzərə almaq lazım gəlmişdir. Məhz buna görə də cədvəlin yalnız bir tərkib hissəsini götürmək olmaz, onları vahid bir paket kimi, əlaqəli şəkildə nəzərdən keçirmək gərəkdir. Təəssüflər olsun ki, indi təfsilata varmağa vaxtımız yoxdur.

**Sual:** Heydər Əliyeviç, necə bilirsiniz, hərbi əməliyyatların yenidən gücləndirilməsi Azərbaycanı Minsk qrupunun onun tərəfindən rədd olunan təzələnmiş cədvəlini qəbul etmək və Azərbaycan rəhbərliyini Azərbaycan-İran sərhədində Rusiyanın hərbi qüvvələr saxlanması ilə razılaşmaq məcburiyyətində qoymaq məqsədilə ətraflı düşünülmüş və planlaşdırılmış tədbir deyilmi?



**Heydər Əliyev:** Mən bu variantı istisna etmirəm, çünki Rusiya Federasiyasının vasitəçiliyi ilə Azərbaycanla Dağlıq Qarabağ arasında əldə olunmuş saziş əsasında atəşin dayandırılmasına çox sabit surətdə əməl edildiyi bir vaxtda hərbi əməliyyatların gücləndirilməsini başqa heç nə ilə izah etmək olmaz.

**Sual:** Heydər Əliyeviç, Azərbaycan hökuməti Qarabağ münaqişəsinin nizama salınması məsələsində İran İslam Respublikasının hər hansı təşəbbüsünü qəbul etməyə hazırdırmı?

**Heydər Əliyev:** Biz İran İslam Respublikası tərəfindən hələlik heç bir təşəbbüs almamışıq. İran prezidenti cənab Haşimi-Rəfsəncani bu gün Bakıya gəlir. Baxaq, görək, o nə kimi təkliflər irəli sürəcəkdir. İndi bu suala cavab vermək mümkün deyildir.

**Sual:** Xanım Uqlas, münaqişənin nizama salınmasında Rusiya Federasiyasının rolu sizcə, necədir?

**Marqaret af Uqlas:** Mən Rusiya Federasiyasına ATƏM-in çox mühüm üzvü kimi baxıram. Buna görə də ümidvaram, hətta bilirəm ki, Rusiya Federasiyası bu münaqişənin aradan qaldırılması üçün ATƏM çərçivəsində səmərəli və əməli işləməyi çox istəyir.

**Sual:** Xanım Uqlas, BMT Təhlükəsizlik Şurası tərəfindən 874 nömrəli qətnamə qəbul olunmasını Mario Rafaellinin Azərbaycan üçün bir çox cəhətdən məqbul olmayan təkliflərini Azərbaycana qəbul etdirmək məqsədilə ona təzyiq vasitəsi saymaq olarmı?

**Marqaret af Uqlas:** Xeyr.

**Sual:** Cənab Əliyev, bunu mümkun hesab edirsinizmi ki, öz ərazilərinizi qorumaq, ölkənin birliyini saxlamaq üçün nə vaxtsa hərbi yardım üçün Rusiya və İran kimi xarici ölkələrə müraciət etmək lazım gələcəkdir?

**Heydər Əliyev:** Hələlik ki, bu gün biz beynəlxalq təşkilatlara – BMT-yə, Təhlükəsizlik Şurasına, ATƏM-ə, Minsk qrupuna böyük ümidlər bəsləyirik və əlbəttə, öz respublikamızın qüvvələrinə və imkanlarına bel bağlayırıq. Əgər bütün bunlar heç bir nəticə verməsə, bu halda Azərbaycan Respublikası öz ərazi bütövlüyünü qorumaq və öz vətəndaşlarının təhlükəsizliyini təmin etmək üçün lazımi qərarlar qəbul etmək hüququnu özündə saxlayır.

## TÜRKİYƏYƏ RƏSMİ SƏFƏRƏ YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*8 fevral 1994-cü il*

**– Cənab Prezident, Sizə uğurlu yol arzulayırıq. Siz hakimiyyətdə olduğunuz müddətdə üçüncü dəfədir ki, xarici ölkələrə rəsmi görüşə gedirsiniz. Azərbaycan xalqı Sizin hər bir səfərinizə böyük ümidlər bəsləyir. Qarşıdakı səfər barəsində nə deyə bilərsiniz?**

– Mən Türkiyəyə bu qardaş dövlətin prezidenti hörmətli Süleyman Dəmirəlin, Türkiyə hökumətinin dəvəti ilə gedirəm. Türkiyə Azərbaycan üçün ən yaxın, qardaş və dost ölkədir. Xalqlarımız arasında böyük tarixə malik dostluq, qardaşlıq əlaqələri var. Son illər Azərbaycan müstəqillik əldə etdikdən sonra bu əlaqələr daha da möhkəmlənmişdir. Lakin görüləsi işlər də çoxdur. Güman edirəm ki, Türkiyədə olduğumuz zaman Azərbaycan ilə Türkiyə arasındakı əlaqələrin genişlənməsi, inkişaf etməsi üçün yeni işlər görüləcəkdir. Bu isə həm Azərbaycan Respublikası üçün, həm də Türkiyə Cümhuriyyəti üçün faydalı olacaqdır. Mən Türkiyəyə çox böyük məmnunluq hissi ilə yola düşürəm. Ümidvaram ki, danışıqlarımız uğurlu olacaqdır.

**– Möhtərəm Prezident, Siz Ermənistanla Azərbaycan arasında münaqişənin sülh yolu ilə aradan qaldırılmasına həmişə tərəfdar olmusunuz. Üstəlik, istər Rusiyanın, istərsə də Türkiyənin vasitəçiliyinin heç vaxt əleyhinə çıxmamısınız, əksinə, buna tərəfdar olmusunuz. Qarşıdakı səfəriniz zamanı Türkiyənin vasitəçiliyi məsələsi qaldırılacaqmı? Bu məsələ yüksək səviyyədə həll ediləcəkmi?**

– Şübhəsiz ki, mən bu məsələnin sülh yolu ilə, barışıq yolu ilə həll edilməsinin tərəfdarıyam. Mən bu mövqeyi indi də müdafiə edirəm. Vaxtilə ABŞ, Rusiya ilə birlikdə Türkiyə də bu məsələyə dair dəyərli bir təşəbbüs irəli sürmüşdür. Amma, təəssüflər olsun ki, indiyədək bu təşəbbüs həyata keçirilməmişdir. Odur ki, qarşıdakı görüşlər, danışıqlar zamanı həmin təşəbbüsün həyata keçirilməsinə imkan düşərsə, bu, Azərbaycan üçün çox faydalı olacaqdır.



## AZƏRBAYCAN TELEQRAF AGENTLİYİNİN – AzərTAc-ın KOLLEKTİVİNƏ

Müstəqil Azərbaycan Respublikasının milli informasiya mərkəzinin – AzərTAc-ın kollektivini agentliyin yaradılmasının 75 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirəm.

AzərTAc suveren Azərbaycanın daxili və xarici siyasətinin həm ölkəmizdə, həm də dünya miqyasında təbliğində, Ermənistanın torpaqlarımıza təcavüzünün və xalqımıza qarşı törətdiyi vəhşiliklərin ifşasında, məruz qaldığımız informasiya blokadasının yarılmasında, Azərbaycan həqiqətlərinin geniş yayılmasında müəyyən rol oynayır. Respublikamızda demokratik hüquqi dövlət quruculuğu barədə beynəlxalq miqyasda doğru-düzgün təsəvvür yaratmaq, xalqımıza qarşı aparılan düşmənçilik təbliğatını dəf etmək işində də kollektivinizin xidmətləri qeyd olunmalıdır.

Azərbaycan Teleqraf Agentliyinin 75 illiyi mətbuatımız üçün əlamətdar hadisədir. Kollektivinizə, bütün Azərbaycan jurnalistlərinə xalqımızın və dövlətimizin mənafeyini daha əzmlə qorumaqda, haqq işimizi əsl vətəndaş qeyrəti ilə müdafiə etməkdə, həyatımızın reallıqlarını obyektiv və operativliklə işıqlandırmaqda nailiyyətlər arzulayıram. Hamınıza yeni yaradıcılıq uğurları, xoşbəxtlik, cansağlığı diləyirəm.

***HEYDƏR ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***
***3 mart 1994-cü il***

# ÇİN XALQ RESPUBLİKASINA RƏSMİ SƏFƏR ZAMANI PEKİNDƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Pekin*
*8 mart 1994-cü il*

Hörmətli xanımlar və cənablar! İkinci gündür ki, biz Pekindəyik. Mən buraya dövlət səviyyəsində rəsmi görüşə Çin Xalq Respublikası sədrinin dəvəti ilə gəlmişəm. Mənimlə birlikdə Azərbaycan nümayəndələrinin böyük bir qrupu da gəlmişdir. Çin rəhbərliyi ilə kifayət qədər səmərəli görüşlərimiz olmuşdur. Dünən rəsmi qarşılanma mərasimi oldu və ÇXR sədri cənab Tszyan Tszeminlə danışıqlar aparıldı. Bu danışıqlar bir sıra sənədlərin imzalanması ilə başa çatdı. İkitərəfli münasibətlərə dair məsələlər barəsində biz Çin Xalq Respublikasının sədri ilə ətraflı fikir mübadiləsi etdik. Belə bir yekdil qənaətə gəldik ki, Çin ilə Azərbaycan arasında münasibətlər hərtərəfli şəkildə və daha müvəffəqiyyətlə inkişaf etdirilməlidir. Ticarət, iqtisadiyyat, elm, mədəniyyət, turizm sahəsində əməkdaşlığın inkişaf etdirilməsi imkanları əldə olunmuş razılaşma nəticəsində imzaladığımız sənədlərdə əksini tapmışdır. Biz beynəlxalq vəziyyətin aktual məsələləri barəsində də fikir mübadiləsi etdik. Çin Xalq Respublikasının öz beynəlxalq siyasətində tutduğu mövqeyinin, xüsusən istiqlaliyyət qazanmış və müstəqil inkişaf yoluna qədəm qoymuş ölkələrin müqəddəratı ilə bağlı mövqeyinin bizim üçün çox böyük əhəmiyyəti var.

Biz bu məsələdə və dövlətlərin ərazi bütövlüyü, sərhədlərin pozulmazlığı, suverenlik, istiqlaliyyət məsələlərində mövqe və baxışlarımızın tamamilə uyğun gəldiyini aşkara çıxardıq. Mən Azərbaycanın həyatı və indiki vəziyyəti haqqında ÇXR sədrinə müfəssəl məlumat vermək imkanına malik oldum. Mən təxminən altı ildən bəri Azərbaycanla Ermənistan arasında gedən müharibə barəsində, uydurma Qarabağ münaqişəsi barəsində və hərbi əməliyyatları dayandırmaq, müharibəyə son qoymaq və məsələni danışıqlar yolu ilə, sülh və razılıq əldə olunması yolu ilə həll etmək cəhdlərimiz barədə ətraflı məlumat verdim.



Bu gün Dövlət Şurasının baş naziri cənab Li Penlə görüşdük. ÇXR sədri ilə fikir mübadiləsi etdiyimiz bütün məsələlər cənab Li Penlə söhbətimizin mövzusuna çevrildi. Biz bir daha yəqin etdik ki, beynəlxalq və ümumən daxili siyasətdə Çin Xalq Respublikası rəhbərliyinin mövqeyi yekdil, sabitdir. Söhbətlərimizdə biz Çin Xalq Respublikasında uzun illər ərzində həyata keçirilmiş iqtisadi islahatlara maraq göstərdik, bu gün bizdə buna maraq var. İstər Çin Xalq Respublikasının sədri ilə, istərsə də ÇXR-in baş naziri ilə söhbətlərimizdə həmin məsələlərə böyük diqqət yetirildi. Bu gün isə islahatlar üzrə nazirlə görüşdük. Biz onunla iqtisadi islahatların həyata keçirilməsi məsələləri barəsində ətraflı fikir mübadiləsi apardıq.

Bildiyiniz kimi, səfərimiz davam edir. Hələ sabah Pekində görüşlər olacaq, sonra isə biz Şanxaya gedəcəyik. Yeri gəlmişkən deyim ki, Şanxay şəhərinə getmək təklifini dünən bizimlə görüş zamanı ÇXR sədri irəli sürmüşdür.

Səfərimizin ilkin yekunları haqqında demək olar ki, biz razıyıq. Qeyd etdiyim kimi, çox faydalı, maraqlı söhbət və danışıqlarımız oldu. Biz – Çin Xalq Respublikasının sədri və mən ölkələrimiz arasında əməkdaşlığın prinsipləri haqqında bəyannamə imzaladıq. Dövlətlərarası əlaqələrə dair daha yeddi sənəd imzalandı. Bu sənədlər Çin ilə Azərbaycan arasında münasibətlərin gələcək inkişafını müəyyənləşdirir. Bu da əhəmiyyətlidir ki, biz ölkəmizdə, bütövlükdə bölgəmizdə vəziyyət barəsində respublikamıza qarşı erməni təcavüzü nəticəsində Ermənistanla Azərbaycan arasında gedən müharibə barəsində və bölgəmizə aid bir çox digər məsələlər barəsində Çin Xalq Respublikasının rəhbərliyinə məlumat verə bildik.

Bu, mühüm yekundur ki, müstəqil Azərbaycan Respublikası prezidentinin Çin Xalq Respublikasına ilk səfəri baş tutmuş, iki ölkənin ali rəhbərliyi səviyyəsində səmimi münasibətlər bərpa edilmiş və bölgədə vəziyyət barədə Çin rəhbərliyinə məlumat vermək mümkün olmuşdur. Nəzərə almaq lazımdır ki, ÇXR-in bölgəmizdən çox uzaqda yerləşməsi informasiyanın dolğun və hərtərəfli olmasını tələb edir.

Azərbaycan gənc müstəqil dövlətdir, öz tarixinin çətin mərhələsini yaşayır. Buna görə də çox vacibdir ki, Azərbaycanla Çin kimi böyük dövlət arasında yüksək səviyyədə əlaqələr yaradılmış və münasibətlərimizin daha da müvəffəqiyyətlə inkişaf etməsi üçün perspektiv açılmışdır. Biz buna böyük əhəmiyyət veririk, çünki Çin Xalq Respublika-

sı dünya iqtisadi sistemində mühüm yer tutur, beynəlxalq həyatda və dünya siyasətində böyük nüfuza malikdir, BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür.

Sizə Azərbaycanda vəziyyət barəsində, ölkəmizdə görülən tədbirlər, respublikanın qarşısında duran problemlərin həlli barəsində, o cümlədən Ermənistanın Azərbaycana qarşı təcavüzü və uydurma Qarabağ problemi barəsində qısaca məlumat vermək istərdim.

Azərbaycan öz istiqlaliyyətini Sovet İttifaqı dağıldıqdan sonra əldə etmişdir. Müstəqil dövlət olmaq arzusu təxminən 200 il çar Rusiyası imperiyası tərkibində, sonra da Sovet İttifaqının tərkibində olmuş xalqımızda həmişə yaşamışdır. Hər hansı bir xalq kimi, Azərbaycan xalqı da həmişə azadlığa və istiqlaliyyətə can atmışdır. Odur ki, istiqlaliyyətin əldə edilməsi onun üçün çox mühüm tarixi hadisəyə çevrilmişdir. Bununla bərabər, müstəqil Azərbaycanın qarşısına, təbii olaraq, sosial-iqtisadi inkişafla, tam suverenliyin, müstəqilliyin, dövlətçiliyin bərqərar edilməsi ilə, dünya birliyində bərqərar olmaqla bağlı çox mürəkkəb problemlər çıxmışdır. Bütün bu məsələlər ötən iki il ərzində Azərbaycanda mürəkkəb daxili siyasi vəziyyətlə və Ermənistan tərəfindən hərbi təcavüzlə əlaqədar, təbii olaraq, mürəkkəb şəraitdə həll edilmişdir.

Azərbaycan iqtisadiyyatı dərin böhran keçirir. Əlbəttə, bu böhran xalqın həyat səviyyəsinə, rifahına çox mənfi təsir göstərir. Böhran keçmiş Sovet İttifaqında son illər ərzində getmiş proseslərdən yaranmış və təbii olaraq, təkcə Azərbaycan üçün deyil, keçmiş Sovet İttifaqının indi müstəqil dövlətlərə çevrilən, demək olar, bütün respublikaları üçün səciyyəvidir. Dediyim kimi, bu böhran Azərbaycanda bir də ona görə dərinləşir ki, Azərbaycan Ermənistan Respublikası tərəfindən təcavüz nəticəsində müharibə vəziyyətindədir. Uydurma Dağlıq Qarabağ problemi ilə əlaqədar təxminən altı il bundan əvvəl yaranmış hərbi münaqişə çox geniş miqyas almış və ona gətirib çıxarmışdır ki, erməni silahlı birləşmələri hazırda Azərbaycan ərazisinin, demək olar, 20 faizini işğal etmişdir. İşğal edilmiş rayonların bir milyon nəfərdən çox sakini qaçqına çevrilmiş, öz ev-eşiyindən, var-dövlətindən məhrum olmuş, indi Azərbaycanın digər bölgələrində yerləşdirilmişdir. Onlar ağır vəziyyətdədirlər.

Təəssüf ki, son illər Azərbaycanda daxili siyasi vəziyyət də sabit olmamışdır. Ermənistanla müharibə və müxtəlif siyasi qrupların hakimiyyət uğrunda mübarizəsi respublikada hakimiyyətin dəyişməsinə



gətirib çıxarmışdır. Belə mürəkkəb vəziyyət axırıncı dəfə ötən ilin yayında yaranmış və onda Azərbaycan vətəndaş müharibəsi həddində olmuşdur. Lakin bu prosesləri zənnimizcə, dəf etmək mümkündür. İndi ölkədə daxili siyasi və ictimai-siyasi vəziyyət sabit, normaldır. Lakin bütün bunlar Azərbaycanın sosial-iqtisadi vəziyyətinə öz mənfi təsirini göstərməyə bilməzdi və əlavə çətinliklər yaratmaya bilməzdi.

Azərbaycanda daxili siyasət sahəsində hazırda demokratik-hüquqi dövlət quruculuğu prosesi gedir. Azərbaycanda bütövlükdə demokratiyanın, siyasi plüralizmin, çoxpartiyalı sistemin inkişafı üçün, insan hüquqlarının müdafiəsi, şəxsiyyət azadlıqlarının – vicdan, dini etiqad azadlığının, sahibkarlıq, təşəbbüskarlıq azadlığının təmin edilməsi üçün əlverişli şərait yaranmışdır. Müstəqil Azərbaycan dövləti, sözün tam mənasında, azadlıq və demokratiya prinsipləri əsasında demokratik cəmiyyət qurur.

Hazırda respublikada 40-dək siyasi partiya – onlar sərbəst fəaliyyət göstərirlər – 600-dən çox qəzet qeydə alınmışdır. Yeddi milyon nəfər əhalisi olan Azərbaycan kimi kiçik bir ölkə üçün bu, kifayət qədər böyük rəqəmdir. Əlbəttə, partiyalar da, mətbuat da öz fikirlərini azad ifadə etmək hüququna malikdirlər. Bəzi partiyalar və mətbu orqanları müxalifətdədir və bu mövqelərdən çıxış edirlər. Bütün bunlar respublikamızın demokratik inkişafı üçün tam sərbəstlik və azadlıq olduğuna dəlalətdir.

Azərbaycan çoxmillətli dövlətdir. Onun bütün vətəndaşları milli mənsubiyyətindən, dini etiqadından və siyasi əqidələrindən asılı olmayaraq, bərabər hüquqlara malikdirlər. Hər bir Azərbaycan vətəndaşının özünü azad və bərabərhüquqlu hiss etməsi üçün ən əlverişli şərait yaradılır.

Öz xarici siyasətində Azərbaycan dünyanın bütün ölkələri ilə bərabərhüquqlu münasibətlərin inkişaf etdirilməsi prinsiplərini əsas tutur. Biz artıq bir sıra dövlətlərlə diplomatik münasibətlərə malikik. Respublika Birləşmiş Millətlər Təşkilatının üzvüdür, bir çox beynəlxalq təşkilatlara daxildir, beynəlxalq həyatda yaxından iştirak etmək və dünya birliyində layiqli yer tutmaq niyyətindədir. Bizim buraya, Çinə gəlməyimiz, ölkələrimiz arasında imzalanmış sənədlər Azərbaycanın bütün dünya ölkələri ilə əlaqələr yaratmağa çalışdığına konkret sübutdur; bu prinsip ÇXR ilə Azərbaycan arasında münasibətlərin gələcək inkişafının əsasını təşkil etmişdir.

Ermənistanın respublikamıza hərbi təcavüzü ilə bağlı müharibə Azərbaycan üçün ağır problemdir. Ermənistan bu müharibəyə Azərbaycan ərazisinin bir hissəsini – Dağlıq Qarabağı qoparmaq və onu Ermənistana birləşdirmək məqsədilə başlamışdır. Müharibə bütövlükdə bölgəmizdə vəziyyəti mürəkkəbləşdirmiş, Azərbaycan və Ermənistan xalqlarını böyük müsibətlərə düçar etmişdir. Təəssüf ki, hərbi əməliyyatlar indi də davam edir, adamlar həlak olur, qan tökülür. Bu, təkrar edirəm, Azərbaycan Respublikası üçün ən ağır amildir.

Azərbaycan müharibə istəmir və hərbi əməliyyatların dayandırılmasına, məsələnin ancaq sülh yolu ilə həll edilməsinə çalışır. Azərbaycanın işğal edilmiş ərazilərindən erməni silahlı birləşmələrinin qeyd-şərtsiz çıxarılması, respublikamızın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının təmin olunması ən mühüm, daha doğrusu, labüd şərtdir.

Təəssüflər olsun ki, bəzi dairələrdə, dünyanın bəzi ölkələrində bu münaqişəni Dağlıq Qarabağda yaşayan erməni əhalisinin guya muxtariyyət almaq cəhdi ilə bağlayırlar. Bu, həqiqətə uyğun deyildir və belə fikir, görünür, bəzi yerlərdə fəal erməni təbliğatı və dünya ictimaiyyətinə yalan məlumat verilməsi nəticəsində yaranmışdır. Erməni əhalisi Dağlıq Qarabağda muxtariyyətə malik idi, yəni bu bölgə Azərbaycanın tərkibində təxminən 70 il muxtar vilayət kimi mövcud olmuşdur. Orada əhalinin təqribən 70 faizini ermənilərin, 30 faizini isə azərbaycanlıların təşkil etdiklərini nəzərə alaraq, Dağlıq Qarabağa muxtar vilayət statusu verilmişdir. Bu münaqişə ona görə yaranmamışdır ki, muxtariyyət yoxdur, əksinə, ona görə yaranmışdır ki, Ermənistan Respublikasında və Dağlıq Qarabağda müəyyən dairələr Dağlıq Qarabağı Ermənistana birləşdirməyə can atırdılar. Təbii ki, Azərbaycan öz ərazisinin bir hissəsinin qoparılıb digər respublikaya birləşdirilməsi ilə razılaşa bilməzdi. Münaqişənin yaranmasına səbəb də məhz bu olmuşdur.

Biz onu əsas tuturuq ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü tamamilə təmin edilməlidir. Özgə ərazisi barəsində iddiamız yoxdur, hərçənd tarixən bunun üçün əsas var. Lakin öz torpağımızı heç vaxt heç kəsə verməyəcəyik. Biz hərbi əməliyyatların dayandırılmasına və Ermənistanla Azərbaycan arasında qarşılıqlı münasibətlərin dinc yolla, danışıqlar yolu ilə nizama salınmasına çalışırıq və əlbəttə, əmin edirik ki, Dağlıq Qarabağın erməni əhalisinin təhlükəsizliyinə və hüquqlarına Azərbaycan Konstitusiyası ilə və respublikanın dövlət orqanları tərəfindən təminat verilir. İşğal edilmiş ərazilərdən erməni silahlı birləşmələrinin qeyd-şərtsiz çıxarılması təklifi qəbul olunarsa, Azərbaycan tərəfi Dağlıq Qarabağın statusu məsələsinə də baxa bilər.



Biz bütün məsələləri beynəlxalq təşkilatların –Birləşmiş Millətlər Təşkilatının, BMT Təhlükəsizlik Şurasının, ATƏM-in, bu problemin həlli üçün ATƏM-in tərkibində xüsusi olaraq yaradılmış Minsk qrupunun köməyi ilə həll etməyə çalışırıq. Məlumdur ki, BMT-nin Təhlükəsizlik Şurası bu məsələyə dəfələrlə baxmış və Azərbaycanın işğal olunmuş rayonlarından erməni silahlı birləşmələrinin qeyd-şərtsiz çıxarılması haqqında dörd qətnamə qəbul etmişdir. Lakin erməni tərəfi bu qətnamələrə tam etinasızlıq göstərir.

ATƏM-in və xüsusən onun Minsk qrupunun bu istiqamətdə fəaliyyti də indiyədək heç bir nəticə verməmişdir. Halbuki istər ATƏM, istərsə də Minsk qrupu dəfələrlə qərarlar qəbul etmiş, Azərbaycanın işğal olunmuş rayonlarından erməni qoşunlarının çıxarılmasına dair hətta xüsusi cədvəllər tərtib etmişdir. Lakin onlar da nəticəsiz qalmışdır. Beləliklə, Ermənistanın Azərbaycana qarşı təcavüzkar hərəkətləri və beynəlxalq təşkilatların qərarlarını yerinə yetirmək istəməməsi aşkar şəkildə sübut edir ki, erməni tərəfi öz məqsədinə nail olmağa, yəni Azərbaycanın ərazi bütövlüyünü pozmağa, respublikamızın sərhədlərini dəyişdirməyə can atmaqdadır. Biz bununla, əlbəttə, heç vaxt razılaşa bilmərik. Qeyd etmək lazımdır ki, Ermənistanın bu cür mövqeyi əsasən bununla bağlıdır ki, o, bəzi xarici dairələrin, bəzi ölkələrin köməyindən istifadə edir və buna görə də BMT Təhlükəsizlik Şurasının, ATƏM-in və digər beynəlxalq təşkilatların qərarlarını qulaqardına vurur.

Bax, bu xəritə Ermənistanın təcavüzünün miqyasını çox aydın göstərir. Bu, Azərbaycandır, bu, həmçinin Azərbaycanın tərkibinə daxil olan Naxçıvan Muxtar Respublikasıdır, bu isə Ermənistandır. Qırmızı rənglə qeyd edilmiş bu ərazi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətidir. O, indi tamamilə erməni silahlı birləşmələrinin nəzarəti altındadır. Dediyim kimi, burada əhalinin 30 faizi azərbaycanlılardır və onlar oradan çoxdan qovulmuşlar. Onlar təxminən 50 min nəfərdir. Hazırda Dağlıq Qarabağın ərazisində bir nəfər də azərbaycanlı yoxdur, erməni əhalisi isə burada qalmaqdadır.

Erməni silahlı qüvvələri təcavüzün miqyasını genişləndirərək, Azərbaycanın Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və

Qubadlı rayonlarını işğal etmişlər. Bu isə, dediyim kimi, respublikanın ərazisinin təxminən 20 faizinə bərabərdir. Həmin zonanın bir milyon nəfərdən çox azərbaycanlı sakini qaçqına çevrilmişdir. Onlar respublikanın digər rayonlarında, xeyli hissəsi isə Bakıda yerləşdirilmişdir. Təhlükəsizlik Şurasının xatırlatdığım dörd qətnaməsi məhz Kəlbəcər, Ağdam, Füzuli, Zəngilan, Qubadlı rayonlarına aiddir.

Bu rayonları işğal etməklə erməni silahlı birləşmələri bir tərəfdən, birbaşa əlaqəni, həmin ərazinin Ermənistana birləşdirilməsini əslində təmin etmiş, digər tərəfdən isə, Azərbaycanın İranda təqribən 140 kilometr uzunluğunda dövlət sərhədini nəzarət altına almışlar. Baxın, bura İrandır. Zənnimcə, ayrıca sübut etməyə lüzum yoxdur ki, bu, hərbi təcavüzdür, bir ölkə tərəfindən digər ölkə ərazisi zor gücünə qəsb olunmuşdur. Görünür, dünya birliyinə sübut etməyə lüzum yoxdur ki, bu hərbi təcavüzə son qoymaq gərəkdir.

Təkrar edirəm: biz bu problemin dinc yolla həll edilməsinə çalışırıq, öz sülhsevər təşəbbüslərimizi və tədbirlərimizi davam etdirəcəyik. Amma yaranmış vəziyyətlə razılaşa bilmərik. Dinc vasitələr bir nəticə vermədiyinə görə, hazırda Azərbaycan ordusunun hissələri ərazilərimizi hərbi yolla azad etmək üçün kifayət qədər uğurlu əməliyyatlar aparırlar.

Bu yaxınlarda Rusiya Federasiyası Müdafiə Nazirliyinin vasitəçiliyi ilə martın 1-dən atəşi dayandırmaq və qəsb edilmiş ərazilərdən Ermənistanın işğalçı qoşunlarının çıxarılmasına dair sülh danışıqları aparmaq haqqında razılaşma əldə olunmuşdur. Biz sazişin prinsiplərinə ciddi əməl edirdik, lakin martın 3 və 5-də erməni silahlı birləşmələri Azərbaycan hərbi hissələrinin mövqeləri üzərinə güclü hücuma keçmişlər. Hərbi hissələrimiz onları layiqincə dəf etmişlər. Bütün bunlar istər erməni tərəfindən, istərsə də biz tərəfdən yeni itkilərə, qan tökülməsinə gətirib çıxarmışdır.

Hər bir ölkənin ərazi bütövlüyü, sərhədlərinin pozulmazlığı Birləşmiş Millətlər Təşkilatının sənədlərində təsbit edilmiş beynəlxalq hüququn sarsılmaz prinsipidir. Çin rəhbərləri – ÇXR sədri, Dövlət Şurasının baş naziri ilə danışıqlarımız zamanı Çin tərəfi belə bir mövqeyi bir daha təsdiqləmişdir ki, sərhədlərin zor gücünə dəyişdirilməsinə və hər hansı ölkənin ərazi bütövlüyünə qəsd edilməsinə yol vermək olmaz. Biz BMT-nin sənədlərində, beynəlxalq hüquqla təsbit olunmuş və dünyanın bütün ölkələri tərəfindən təsdiqlənmiş bu prinsiplərə əsasla-



naraq, respublikamızın ərazi bütövlüyünə və sərhədlərinin pozulmazlığına nail olacağıq. Əlbəttə, burada biz dünya birliyinin, beynəlxalq təşkilatların, dünya ölkələrinin, o cümlədən də Çin Xalq Respublikasının köməyinə möhtacıq. Deməliyəm ki, ÇXR-in BMT-dəki, xüsusən, onun daimi üzv olduğu Təhlükəsizlik Şurasındakı nümayəndə heyəti Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə bağlı məsələlərə baxılarkən həmişə ədalətli mövqe tutur. Odur ki, mən burada olmağımdan istifadə edərək, bu ədalətli mövqeyə görə Çin rəhbərliyinə minnətdarlığımızı bildirdim.

Mən bu salona toplaşan jurnalistlərə Azərbaycanın daxili vəziyyəti barədə, respublikanın həll etdiyi problemlər barədə, Azərbaycanın xarici siyasəti barədə, burada, Pekində keçirdiyimiz görüşlərin yekunları barədə kifayət qədər məlumat vermişəm. Buna görə də, daha vaxtınızı almayacağam. Əgər suallar varsa, mən onlara cavab verməyə hazıram.

**S u a l :** Münaqişənin nizama salınmasında Rusiyanın rolu, Rusiya-Azərbaycan münasibətlərinin inkişaf etdirilməsi perspektivləri necədir?

**C a v a b :** Mən sualınızın ikinci hissəsindən başlayacağam. Hazırda Azərbaycan-Rusiya münasibətləri normaldır, yaxşıdır. Bu yaxın vaxtlaradək çətinliklər olmuşdur. O da Azərbaycanın keçmiş rəhbərliyinin mövqeyi üzündən idi. Ötən ilin ikinci yarısından bəri bu münasibətlər qaydaya salınmağa başlanmışdır. Mən Moskvaya getmiş, Rusiya prezidenti Boris Nikolayeviç Yeltsinlə, baş nazir Viktor Stepanoviç Çernomırdinlə, ölkənin digər rəhbərləri ilə görüşmüşəm. Biz həmin vaxtadək Azərbaycanla Rusiya arasında qarşılıqlı münasibətlərdə mövcud olmuş maneələri aradan qaldırmaq tədbirləri barədə razılığa gəlmişik. Təkrar edirəm, indi bu münasibətlər normal xarakter, dostluq xarakteri daşıyır.

O ki qaldı münaqişənin nizama salınmasında Rusiyanın roluna, Rusiya bu prosesdə daim iştirak edir. Bildiyiniz kimi, bu münaqişə 1988-ci ilin əvvəlində yaranmışdır və onu aradan qaldırmaq üçün Sovet İttifaqı çərçivəsində cəhdlər edilirdi. Lakin münaqişəni aradan qaldıra bilmədilər. Daha doğrusu, mənə elə gəlir ki, aradan qaldırmaq istəmədilər, halbuki bunu Sovet İttifaqı çərçivəçində etmək mümkün idi. Bundan ötrü real imkanlar vardı. Bir sözlə, Rusiyanın keçmiş Sovet İttifaqının hüquqi varisi olduğunu nəzərə alsaq, Rusiya həmin vaxtdan bu prosesə qoşulmuşdur.

Rusiya həm ATƏM-in, həm də Minsk qrupunun üzvüdür. Minsk qrupu isə, dediyim kimi, bu problemlə xüsusi məşğul olur. Bundan əlavə, Rusiya öz təşəbbüsü ilə də çıxış edir. Məsələn, fevralın 18-də Moskvada Azərbaycan, Ermənistan və Rusiyanın müdafiə nazirləri protokol imzalamışlar. Protokolda Azərbaycanın işğal edilmiş ərazilərindən erməni qoşunlarının çıxarılması nəzərdə tutulur. Martın 1-dən atəşin dayandırılması haqqında razılaşma əldə edilmiş, həm də nəzərdə tutulmuşdur ki, üç gündən sonra qoşunların çıxarılmasına başlanacaqdır. Lakin belə şey olmadı. Nə deyə bilərəm? Rusiya bu prosesdə iştirak edir, amma nəticə hələlik yoxdur.

**S u a l:** Cənab Prezident, iki sualım var. Son vaxtlar Çin dəfələrlə bildirmişdir ki, o, Dağlıq Qarabağ ətrafında münaqişənin həllində çox fəal iştirak etməyə hazırdır. Ola bilsin, hətta güman ki, Sizin bu məsələ barəsində danışıqlarınız olmuşdur. Soruşmaq istərdim, bu hazırlıq nəinki Təhlükəsizlik Şurasında və digər təşkilatlarda fəal mövqe, həm də hər hansı digər formalar – bilavasitə münaqişə zonasında sülhyaratma, vasitəçilik formaları deməkdirmi? Bu mənim birinci sualımdır. İkinci sual: danışıqlarınız zamanı Çin tərəfindən Azərbaycan üçün iqtisadi yardımdan, konkret kreditlərdən söhbət getmişdirmi? Sağ olun.

**C a v a b:** Birinci sual barəsində bayaq dedim ki, Çin BMT Təhlükəsizlik Şurası çərçivəsində çox prinsipial və ədalətli mövqe tutur. Bu münaqişənin nizama salınması üçün ATƏM çərçivəsində xüsusi proseslər həyata keçirilir. Çin isə Avropa birliyinə daxil deyildir. Burada hər hansı konkret vasitəçilik barədə məsələ qaldırılmadı. O ki qaldı Çinin Azərbaycana yardımına, inkişaf etdirdiyimiz əməkdaşlıq, şübhəsiz, qarşılıqlı fayda xarakteri daşıyacaqdır. Bununla bərabər, Çin Azərbaycana kredit formasında da yardım göstərmək imkanına malikdir.

**S u a l:** Çindən hər hansı silah, hərbi yardım alınması barədə söhbət getmişdirmi? İkinci sual, bizə indicə «Erməni nasizmi» adlı kitabça payladılar. Siz burada dediniz ki, regionumuzdakı hadisələr haqqında dünya ictimaiyyətinə dolğun, hərtərəfli informasiya çatdırmaq yaxşı olardı. Belə nəşrləri siz informasiya hesab edirsiniz, yoxsa, bu, daha çox təbliğatdır?

**C a v a b :** Birinci sualınızla əlaqədar bildirirəm ki, Çin tərəfindən hərbi yardım göstərilməsi barədə heç bir söhbət olmamışdır. Buna zərurət də yoxdur. Nə qədər çətin olsa da, Azərbaycan bu məsələnin öhdəsindən gəlir və zənnimcə, gələcəkdir.



O ki qaldı kitabça barədə dediyinizə, əgər siz erməni tərəfinin, demək olar, bütün ölkələrdə, beynəlxalq təşkilatlarda apardığı təbliğatla yaxşı tanış olsaydınız, yəqin ki, həmin kitabçanı belə qarşılamazdınız. Erməni tərəfi beynəlxalq təşkilatlarda, dünyanın bütün ölkələrində belə kitabçaları, materialları yüz qat artıq yayır. İndiki münaqişədə Azərbaycanın və Ermənistanın qeyri-bərabər vəziyyətdə olması da məhz ondan irəli gəlir ki, erməni tərəfinin başqa ölkələrdə ictimai rəyə təsir göstərmək üçün çox böyük imkanları var. Azərbaycanın isə belə imkanları əslində yoxdur. Siz Avropada, ABŞ-da, Rusiyada, o cümlədən Moskvada necə güclü erməni diasporu olduğunu yaxşı bilirsiniz. Onun hətta Rusiya mətbuat orqanları vasitəsilə ictimai rəyi çaşdırmaq üçün necə səy göstərdiyi də sizə məlumdur. Ona görə də qoy bu kitabça sizi o qədər də karıxdırmasın. O, həqiqətən çox obyektiv yazılmışdır, təbliğat xarakteri deyil, məhz informasiya xarakteri daşıyır.

Diqqətinizə görə sağ olun, görüşənədək.

# ÇİN XALQ RESPUBLİKASINDAN BAKIYA QAYIDARKƏN ALMATIDA SƏFƏRİN YEKUNLARI BARƏDƏ JURNALİSTLƏR QARŞISINDA ÇIXIŞ

*Almatı*
*10 mart 1994-cü il*

Çin dünyanın ən böyük dövlətlərindən biridir. Müstəqil dövlət olan Azərbaycan dünyanın bütün ölkələri ilə qarşılıqlı surətdə faydalı əməkdaşlıq yaratmaq prinsiplərini rəhbər tutaraq, Çinlə də bütün istiqamətlərdə sıx əlaqələrə malik olmalıdır. Mənim bu səfərim də həmin zərurətdən irəli gəlmişdir. Çinin özü də Azərbaycanla münasibətlərə böyük maraq göstərir. Çin Xalq Respublikası sədrinin məni rəsmi səfərə dəvət etməsi buna sübutdur.

Bilirsiniz ki, Azərbaycanda xarici ölkələrin səfirlikləri o qədər də çox deyildir. Lakin Çin Azərbaycanda öz səfirliyini açmışdır. Deməli, Çinin Azərbaycana marağı böyükdür. Bu bizim üçün faydalıdır. Çünki dünyanın siyasi və iqtisadi həyatında çox mühüm rol oynayan belə bir böyük dövlətlə mehriban münasibətlərimizin olmasının əhəmiyyəti var. Həm də ona görə ki, Çin BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biridir.

Çində, xüsusən onun iqtisadiyyatında çox maraqlı proseslər gedir. Bir tərəfdən bu proseslərin, islahatların ölkəmizdən ötrü nə dərəcədə məqbul olduğunu bilməyimiz, digər tərəfdən isə müəssisələr, konsernlər, assosiasiyalar və sair arasında birbaşa əlaqələr yaratmağımız vacibdir. Bu mənada da Çinə səfərimizin böyük əhəmiyyəti var. Mən səfərdən ümumən tamamilə razı qayıdıram. Nəzərdə tutulmuş proqram bütünlüklə yerinə yetirilmişdir. Çində bizi yüksək səviyyədə, son dərəcə mehribanlıqla qarşıladılar. Biz hər yerdə Azərbaycana, Azərbaycan xalqına səmimi münasibət gördük. O cümlədən bizi narahat edən problemin – Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü probleminin başa düşüldüyünün şahidi olduq. Səfərimiz qısa olsa da, zənnimcə, ondan istifadə edərək bütün sahələrdə konkret, praktiki fayda əldə edə bildik.



Çin Xalq Respublikası sədrinin təklifi ilə Şanxayda olmağımız da bizdən ötrü çox maraqlı keçdi. Sərbəst iqtisadi zona bizdə böyük maraq doğurur. Bütünlükdə Çinin özü, həm də onun Şanxay kimi böyük bir şəhəri dünyanın bütün ölkələri ilə fəal əməkdaşlıq edir. Çinə böyük investisiyalar qoyulur, çoxlu birgə müəssisə var. Bizə bildirdilər ki, təkcə bu ilin iki ayı ərzində Şanxayda 200 birgə müəssisə yaradılmışdır. Bütün bunlar onu göstərir ki, Çin öz iqtisadiyyatında, xüsusən də qarşılıqlı iqtisadi əlaqələri genişləndirmək sahəsində müvəffəqiyyətlə iş aparır və bundan kifayət qədər sanballı nəticələr əldə edir. Bu təcrübə ilə tanışlıq bizdən ötrü də əhəmiyyətlidir. Belə hesab edirəm ki, həmin təcrübə ilə daha yaxından tanış olmaq üçün Çinə öz nümayəndələrimizi göndərəcəyik. Özümüzlə materiallar da götürmüşük və bizdən ötrü məqbul olan şeylərdən istifadə edəcəyik. Ümumən isə belə hesab edirəm ki, Çin Xalq Respublikasına səfərimiz böyük tarixi hadisədir. Çünki Çin ilə Azərbaycan arasında heç vaxt bu səviyyədə əlaqələr olmamışdır. Doğrudur, tarixən müəyyən əlaqələr, «Böyük İpək Yolu» və s. olduğunu xatırlayırıq. İndi isə, təkrar edirəm, dövlətlərarası sıx münasibətlərin yaranması böyük siyasi hadisədir. İlk növbədə, Azərbaycan Respublikası üçün böyük hadisədir.

Azərbaycanda da sərbəst iqtisadi zona barədə çox söhbətlər gedir. Lakin mən əmin oldum ki, bunu həyata kesirməyin prinsiplərini, əslində bilən yoxdur. Çində isə iqtisadi sahədə belə bir siyasəti həyata keçirirlər. Çində, başqa ölkələrdə həyata keçirilən və praktiki nəticələr verən müxtəlif iqtisadi tədbirləri ölkəmizdə tətbiq etmək üçün geniş imkanlarımız və ehtiyatlarımız var.

Çinin iqtisadi modelindən Azərbaycanın nə götürə biləcəyinə gəldikdə, hələlik qəti bir söz deyə bilmərəm. Çünki onu təhlil etmək lazımdır. Hər halda, dünyanın harasında bizdən ötrü faydalı bir şey varsa, ondan istifadə etməliyik. O ki qaldı Çinə səfərimizin siyasi nəticələrinə, Çin Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını müdafiə edir. Bunlar həm imzaladığımız bəyannamədə, həm də Çin Xalq Respublikası rəhbərlərinin bəyanatlarında öz əksini tapmışdır. Deməli, Çinin nümayəndələri beynəlxalq təşkilatlarda da öz fəaliyyətlərində bunu əsas tutacaqlar. Bunun özü, beynəlxalq aləmdə bizim nailiyyətimiz deməkdir.

## AĞCABƏDİ RAYONUNDA JURNALİSTİN SUALINA CAVAB VƏ DÖYÜŞÇÜLƏR QARŞISINDA ÇIXIŞ

**– Hörmətli Prezident, cəbhə bölgələrinə səfərinizin məqsədi nədir?**

– Məqsəd odur ki, yerlərdəki vəziyyəti özüm şəxsən görüb öyrənmək istəyirəm. Ali Baş Komandan kimi Müdafiə Nazirliyindən məlumat alıram, briqada komandirləri ilə bilavasitə əlaqə saxlayıram. Eyni zamanda vəziyyəti özüm şəxsən görüb, tanış olub, aydınlaşdırmaq istəyirəm. Əsgərlərlə, zabitlərlə görüşərək onların əhval-ruhiyyəsini öyrənirəm. Çalışıram öyrənim ki, onların döyüş ruhu nə səviyyədədir. Bunların hamısı, mənim üçün həm orduya rəhbərlik etmək, müdafiəni etibarlı təşkil etmək, həm də torpaqlarımızın azad olunması planlarını hazırlamaq üçün çox lazımdır. Ona görə də buradayam və bundan sonra da gələcəyəm.

Əvvəlki səfərimdən sonrakı dəyişikliklərə gəldikdə isə, mən əsgərlərlə, zabitlərlə görüşüb danışdığım zaman görürəm ki, onların əhval-ruhiyyəsi daha yüksəkdir, səriştələri də artıb. Bunların hamısı göstərir ki, addımlarımız xırda olsa da, biz irəliyə gedirik və gedəcəyik. Siz burada, ön mövqedə torpaqlarımızın müdafiəsində dayanmısınız. Azərbaycan Respublikasının indiki vaxtında orduda xidmət etməkdən, Vətənin müdafiəsində durmaqdan şərəfli peşə yoxdur. Siz bu sənətin sahibisiniz, bu yolu tutmusunuz. Bütün Azərbaycan xalqı bu yolu tutan övladlarına minnətdar olacaqdır.

Torpaqlarımız altı ildir ki, Ermənistan silahlı qüvvələrinin təcavüzünə məruz qalıb, xeyli insan öz evindən-eşiyindən didərgin düşüb. Elə burada, Ağcabədi rayonunda 60 minə qədər qaçqın var. Başqa rayonlarda da vəziyyət belədir. Burada biz erməni işğalçıları ilə qarşı-qarşıya durmuşuq. Görünən o kəndlər, habelə Azərbaycan ərazisinin böyük bir qismi erməni silahlı qüvvələrinin əlindədir. Onlar kəndləri dağıdırlar, yandırırlar, qalmış əmlakı qarət edirlər. Bunlar hamısı Azərbaycan xalqının başına gəlmiş bəlalardır. Ancaq biz təkcə kədərimizi bildirməklə kifayətlənməməliyik. Bütün Azərbaycan xalqının borcu ondan ibarətdir ki, belə ağır vəziyyətdə dönüş yaradaq və həm ərazilərimiz bundan sonra etibarlı müdafiə olunsun, həm də qüvvəmizi toplayıb işğal olunmuş torpaqlarımızı geri alaq.



Biz düşmənlərə sübut etməliyik ki, əgər onlar ərazimizdən çəkilib getməsələr ordumuz, xalqımız öz torpaqlarını öz gücü ilə azad etməyə qadirdir. Əsgər və zabitlərimizin işini yüksək qiymətləndirirəm və əmin olduğumu bildirirəm ki, düşmənin hər bir hücumunun qarşısı alınacaq və işğalçılara zərbələr vurmaq üçün ordumuzun lazımi imkanları vardır.

Biz ordunun qurulması, təşkil olunması, hərbi hissələrin yerləşdirilməsi, əsgərlərimizin, zabitlərimizin hərbi işin incəliklərinə dərindən yiyələnməsi üçün yaxşı əsas yaratmalıyıq.

Azərbaycan xalqı öz ordusuna böyük hörmət və ehtiramla yanaşır. Mən də Ali Baş Komandan kimi orduya daim qayğı və diqqət göstərmək tələbini irəli sürürəm. Bundan sonra da belə edəcəyəm. Ancaq siz, orduda xidmət edən əsgər və zabitlər xalqımızın diqqətinə, qayğısına layiq olmalısınız. Bu o deməkdir ki, siz gərək sədaqətlə xidmət edəsiniz, hərbi peşənin bütün sirlərini mənimsəyəsiniz, hər bir döyüşdə qalib gələ biləsiniz–cəsarətinizlə, iradənizlə, həm də hərbi biliyinizlə. Bunun üçün sizə tapşırılan yerlərin müdafiəsində möhkəm dayanmalı, həm də vaxtı itirmədən təlim, hazırlıq işləri aparmalı, silahı öyrənməli, peşənizin bütün incəliklərinə yiyələnməlisiniz ki, döyüşlərdə qalib gələsiniz.

İndi, siz buraya yaxınlaşarkən gözəl bir mahnı oxuyurdunuz. Qoy o mahnı da sizi ruhlandırsın. Xalqımızın zəngin adət-ənənələri, qədim tarixi, mədəniyyəti, böyük keçmişi və ondan da gözəl gələcəyi sizi ruhlandırsın, vətənpərvərliyinizi, döyüş ruhunuzu daha da artırsın. Siz böyük məsuliyyət daşıyırsınız. Mən istərdim ki, həmişə bu məsuliyyətin yüksək zirvəsində olasınız. Bir daha sizə cansağlığı arzu edirəm, döyüşlərdə qəhrəmanlıq, uğurlar diləyirəm və hər birinizi Azərbaycanın Milli Qəhrəmanı kimi görmək istəyirəm.

## ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI TƏCAVÜZÜNÜN GÜCLƏNMƏSİ İLƏ ƏLAQƏDAR RESPUBLİKA MİLLİ TELEVİZİYA VƏ RADİOSU İLƏ XALQA MÜRACİƏT

*12 aprel 1994-cü il*

Əziz həmvətənlər, bacılar, qardaşlar, Azərbaycan Respublikasının vətəndaşları! Son günlər Ermənistanın Azərbaycana qarşı təcavüzünün güclənməsi, erməni silahlı qüvvələrinin Azərbaycan ərazisinə hücumlarının şiddətlənməsi ilə əlaqədar yaranmış vəziyyət məni bu gün axşam Azərbaycan televiziya studiyasına gəlməyə məcbur edibdir. Məqsədim yaranmış vəziyyət haqqında məlumat vermək və bu barədə bəzi fikirlərimi bəyan etməkdən ibarətdir.

Bildiyiniz kimi, Azərbaycan dövləti, onun rəhbərliyi Ermənistan ilə Azərbaycan arasında gedən müharibəyə son qoymağa və bunun üçün sülh danışıqları apararaq müəyyən saziş əldə etməyə çalışır. Bu sahədə biz böyük dövlətlərin təşəbbüslərini qəbul edir, beynəlxalq təşkilatların imkanlarından daim istifadə etməyə çalışırıq. Biz Ermənistan Respublikası ilə bilavasitə əlaqələr yaradıb, danışıqlar aparırıq. Son vaxtlarda Rusiya dövlətinin vasitəçilik təşəbbüsünü qəbul edib, Rusiya xarici işlər və müdafiə nazirliklərinin vasitəsilə Ermənistanla Azərbaycan arasında müəyyən saziş əldə olunmasına razılıq vermişik.

Mən son aylarda gedən proseslərin hamısını sizin yadınıza salıb, onları təhlil etmək fikrində deyiləm. Ancaq bəzi məqamları qeyd etmək istəyirəm. Məlumdur ki, hələ keçən il dekabr ayının 24-də Aşqabadda Müstəqil Dövlətlər Birliyinin toplantısında mən Ermənistan prezidenti Levon Ter-Petrosyanla görüşüb ətraflı söhbət apardım və Azərbaycanla Ermənistan arasında gedən müharibəyə son qoyulması haqqında təkliflər irəli sürdüm. Bizim aramızda geniş fikir mübadiləsi oldu. O vaxt, yəni Müstəqil Dövlətlər Birliyinin toplantısında mən son illər Ermənistanın Azərbaycana qarşı təcavüzü haqqında geniş bəyanat verdim, müstəqil dövlətlərin başçılarını bu məsələyə müdaxilə etməyə çağırdım və bəyan etdim ki, Müstəqil Dövlətlər Birliyinə daxil olan dövlətlər arasında müharibə qeyri-normal bir haldır. Ona görə də hər bir dövlət, onun başçısı bu məsələyə öz münasibətini bildirməlidir.



Sonra Rusiyanın Xarici İşlər Nazirliyi bu istiqamətdə fəaliyyətə başladı. Biz onların nümayəndəsini bir neçə dəfə qəbul etdik, ayrı-ayrı saziş layihələrinə baxdıq, öz ilk təkliflərimizi verdik və bəzi kompromislərə gedərək saziş əldə olunmasına çalışdıq. Ancaq bunlar da nəticə vermədi. Nəhayət, fevralın 18-də Moskvada Azərbaycanın, Ermənistanın və Rusiyanın müdafiə nazirləri görüşdülər, atəşin dayandırılması barədə, Ermənistanla Azərbaycan arasında sülh danışıqları aparılması haqqında protokol imzalandı. Bu addımı biz ona görə etdik ki, məsələnin məhz sülh yolu ilə həll olunmasına çalışmışıq və bu gün də çalışırıq. Həmin protokol əsasında martın 1-dən Qarabağ bölgəsində, bütün cəbhə bölgələrində Azərbaycanla Ermənistan arasında atəş dayandırılmalı, bundan sonra danışıqlar getməli, Ermənistanın silahlı qüvvələri Azərbaycanın işğal olunmuş torpaqlarını tərk etməli idi. Danışıqlar nəticəsində biz sonra yeni böyük müqaviləyə yaxınlaşmalı idik.

Lakin Ermənistan tərəfi bu sazişi də pozdu, martın 2-dən başlayaraq bizim mövqelərə müntəzəm hücumlar etdi. Beləliklə, bu saziş də heç bir nəticə vermədi.

Martın 12-də Qazaxda Azərbaycan və Ermənistan respublikaları parlamentlərinin sədrləri görüşərək danışıqlar apardılar. Biz ümid edirdik ki, bu danışıqlar nəticə verəcəkdir. Ancaq Ermənistan tərəfi sonra bu danışıqlara riayət etmədi, Azərbaycanın ərazisinə, ordumuzun mövqelərinə hücumları yenə də davam etdirdi. Ermənistan silahlı qüvvələrinin bu hücumları demək olar ki, mart ayının axırlarınadək davam etmişdir.

Ancaq mən böyük bir məmnuniyyətlə, qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan ordusunun hissələri, bizim hərbi bölmələrimiz, döyüşçülərimiz bütün bu hücumların qarşısını almışlar. Ermənistan silahlı qüvvələri böyük itkilər vermiş və xüsusən ən çox hücum etdikləri Füzuli rayonunun ərazisində heç nəyə nail olmadan geri çəkilməyə məcbur olmuşlar. Bütün bunlara baxmayaraq, biz yenə də sülh danışıqları aparılmasının tərəfdarı olmuşuq. Təxminən bir həftə bundan öncə Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi, səlahiyyətli səfir, Rusiya prezidentinin nümayəndəsi Vladimir Kazimirov Bakıda olmuş, bizimlə danışıqlar aparmış, bizə yeni bir saziş layihəsi təqdim etmişdir. Biz bu layihəyə baxıb birgə müzakirə edəndən sonra ona müəyyən təkliflərimizi verib, prinsip etibarilə belə bir sazişə imza atmağa meylli olduğumuzu bildirmişik – şübhəsiz ki, bizim təkliflərimiz, şərtlərimiz qəbul

olunmaqla. Bundan sonra Vladimir Kazimirov Yerevanda olmalı, orada danışıqlar aparmalı idi. Biz də bunun nəticələrini gözləyirdik.

Ancaq bunların hamısına baxmayaraq, son günlər Ermənistan silahlı qüvvələri yenidən, bizim mövqelərə, Azərbaycanın ərazisinə hücumlara başlamışlar. Aprelin 10-da səhər tezdən Ermənistan silahlı birləşmələri böyük qüvvə ilə Goranboy və Tərtər rayonlarının ərazilərində güclü hücumlar etmiş, orada Gülüstan və Talış məntəqələrini ələ keçirməyə cəhd göstərmişlər. Qanlı döyüşlər getmiş, Azərbaycan ordusunun hissələri onlara layiqli cavab vermişlər.

Hər iki tərəfdən itkilər olmuşdur. Erməni silahlı qüvvələri orada bir-iki yüksəkliyi ələ keçirsələr də, öz məqsədlərinə nail ola bilməmişlər. Dünən də, bu gün də həmin bölgədə döyüşlər gedir.

Dünən səhər tezdən Ermənistan hərbi hissələri Ağdərə və Ağdam istiqamətlərində güclü hücuma keçmişlər. Onlar Ağdərə bölgəsində Madagiz, Akop Kamari məntəqələrini ələ keçirməyə çalışmışlar. Dünən ermənilər Ağdam rayonunun ərazisində üç dəfə güclü hücum etmişlər. Hərbi hissələrimiz həmin istiqamətdə də erməni silahlı qüvvələrinə layiqli cavab vermişlər. Gözlədiyimiz kimi, döyüşlər bu gün də davam etmiş, ermənilər yeni qüvvə ilə həmin istiqamətlərdə, həmçinin Goranboy rayonu istiqamətində hücumları davam etdirmişlər.

Beləliklə, Ermənistanın təcavüzü yeni mərhələyə keçmişdir. Görünür, erməni silahlı qüvvələri atəşin dayandırılmasından istifadə edərək, öz güclərini toplamış, Ermənistanın hər tərəfindən (mən bunu qətiyyətlə deyə bilərəm) bu bölgəyə qüvvələr gətirmişlər. Bu, bir daha göstərir ki, Ermənistan öz təcavüzkar siyasətindən əl çəkmir, qəsbkarlıq niyyətlərini həyata keçirməyə, Azərbaycanın yeni ərazilərini zəbt etməyə çalışır.

Azərbaycan vətəndaşlarına bildirmək istəyirəm ki, Milli Ordumuzun hissələri bütün bu bölgələrdə qanlı döyüşlər apararaq, düşmənə güclü müqavimət göstərir, ona ağır zərbələr vurur, öz mövqelərini etibarlı müdafiə edirlər. Məsələn, dünən Ağdam istiqamətində güclü hücumların qarşısı alınmışdır. Orada 21 döyüşçümüz şəhid olmuş, 46 nəfər yaralanmışdır. Şəhid olanların 12 nəfəri Sumqayıt batalyonunun şəxsi heyətindəndir. Batalyon komandiri, iki il cəbhədə vuruşan, Ağdam rayonunun sakini Elmar Edilov dünən qəhrəmanlıqla həlak olmuşdur. Batalyon komandirinin müavini ağır yaralanmışdır. Lakin bütün bunlar ordu hissələrimizin iradəsini qırmamışdır və onlar bu gün də səhər tezdən Ermənistan silahlı qüvvələrinin hücumlarına cavab verirlər. Ağdərə bölgəsində təxminən 23-24 nəfər həlak olmuşdur. Goranboy bölgəsində də həlak olanlar, yaralananlar var. Mən bu gün Azərbaycan vətəndaşları qarşısında çıxış edərkən son günlərdə Vətəni qoruyaraq, torpaqlarımızın keşiyində dayanaraq, düşmənə layiqli cavab verərək qəhrəmanlıqla həlak olmuş övladlarımızın igidliyi önündə baş əyir, onların – Vətən yolunda şəhid olmuş Azərbaycan övladlarının hamısının ailələrinə başsağlığı verirəm. Allah onlara rəhmət eləsin!



Son üç gün ərzində ordumuzun hərbi hissələri, qəhrəman döyüşçüləri torpaqlarımıza qarşı yenidən hücuma başlamış Ermənistan silahlı qüvvələrinə böyük zərbələr vurmuşlar. Azərbaycan vətəndaşları bilməlidirlər ki, həmin bölgələrdə Ermənistan silahlı qüvvələrinin itkiləri bizimkindən bir neçə dəfə artıq olmuşdur. Bu, həm canlı qüvvəyə, həm də texnikaya aiddir. Məsələn, dünən Ağdam istiqamətində gedən döyüşlərdə ermənilərin 4 tankı, bir neçə piyada maşını, çoxlu canlı qüvvəsi məhv edilmişdir. Düşmən başqa bölgələrdə də çoxlu itkilərə məruz qalmışdır. Düşmənin canlı qüvvə sarıdan verdiyi itkilər arasında yüksək rütbəli zabitlər də vardır. Bu, bir daha göstərir ki, əsgər və zabitlərimiz Vətən yolunda şəhid olsalar da, düşmənə güclü zərbələr vurmuşlar.

Televiziya studiyasına gələrkən cəbhə bölgələri ilə yenə də əlaqə saxlamışam. Əsgərlərimiz, komandirlərimiz məni əmin etmişlər ki, mövqelərimizin müdafiəsində möhkəm dayanmışlar, düşməni geri oturdurlar və torpaqlarımızı əldən verməyəcəklər. Lakin görünür, bütün Ermənistan ərazisindən toplanmış və ciddi hazırlıq keçmiş erməni silahlı birləşmələri ilə döyüşlər hələ də davam edəcəkdir.

Biz belə ağır günlər keçiririk. Bu, indiki şəraitimiz üçün artıq təbii hal olmuşdur. Altı ildir ki, Azərbaycan Respublikası, torpaqlarımız Ermənistan tərəfindən silahlı təcavüzə məruz qalmışdır. Mən çıxışımın əvvəlində də dedim ki, bizim əsas məqsədimiz müharibəyə son qoymaq və müharibədən sülh yolu ilə çıxmaqdır. Ancaq erməni silahlı qüvvələri, Ermənistanda olan təcavüzkar dairələr təəssüf ki, yola gəlmək istəmirlər. Onlar guya sülh danışıqlarının tərəfdarı olduqlarını bildirirlər. Ancaq əməli işə gələndə isə bu son üç gündə öz iç üzlərini bir daha açıb göstərdilər.

Mən torpaqlarımızı müdafiə edən döyüşçülərimizə, bütün cəbhə bölgələrində olan vətəndaşlarımızın hamısına səmimi salamlarımı göndərirəm. Torpaqlarımızın müdafiəsində möhkəm durduqlarına görə on-

lara minnətdarlığımı yetirirəm. Əmin olduğumu bildirirəm ki, onlar bundan sonra da torpaqlarımızı etibarlı müdafiə edəcək, erməni silahlı qüvvələrinə layiqli cavab verəcək, zərbələr endirəcək, düşmənin irəliləməsinə yol verməyəcəklər.

Eyni zamanda bu günlərin hadisələrinin təhlili bir daha göstərir ki, biz erməni təcavüzünə qarşı gücümüzü daha da möhkəmləndirməliyik. Ordu hissələri daha yaxşı təşkil olunmalıdır. Bildiyiniz kimi, aprel ayının 9-u və 10-da cəbhə bölgələrində, hərbi hissələrimizdə oldum, əsgərlərimiz, zabitlərimiz, komandirlərimizlə görüşdüm. Onların hamısı yaxşı əhval-ruhiyyə ilə torpaqlarımızın müdafiəsində durubdur. Ancaq eyni zamanda hiss etdim ki, ordumuzun çatışmayan cəhətləri də var. Ordumuz daha da möhkəmləndirilməli, daha yaxşı təşkil olunmalıdır. İndi gərək bütün əhali, Azərbaycanın bütün vətəndaşları, hər bir kəs ordunun möhkəmləndirilməsinə, onun daha da qüdrətli olmasına çalışsın. Son üç gündə baş vermiş hadisələr bir daha göstərir ki, bizim başqa yolumuz yoxdur.

Bu gün mən bütün Azərbaycan xalqına müraciət edirəm. Hamıya bildirmək istəyirəm ki, ölkəmizin təhlükə altında olduğunu gərək hamı dərk etsin. Gərək hər kəs ordumuzun, müdafiəmizin möhkəmlənməsi üçün öz payını versin. Bu baxımdan son vaxtlar orduya səfərbərliyin zəif getməsi məni çox narahat edir. Güman edirəm ki, bu, hər bir Azərbaycan vətəndaşını da narahat etməlidir. Son vaxtlar orduda fərarilərin sayı artmışdır. Fərarilik etmək, səfərbərlikdən yayınmaq xalqa, Vətənə xəyanət etmək deməkdir. Ona görə də fərarilik yoluna düşənlərə, səfərbərlikdən yayınanlara xəbərdarlıq edirəm, onları bir daha düz yola dəvət edirəm. Fərarilik edən, səfərbərlikdən yayınan gənclərin valideynlərinə, qohum-əhrəbasına müraciət edirəm. Bildirmək istəyirəm ki, onlar da öz övladlarının, qohum-əqrəbalarının fərariliyinə görə, səfərbərlikdən boyun qaçırdıqlarına görə məsuliyyət daşıyırlar.

Azərbaycan hər birimizin vətənidir. Hər kəs, hər bir vətəndaş öz Vətəninin keşiyində durmalıdır. Əgər əsgər, zabit Vətənin keşiyində durursa, döyüşdə həlak olursa, cəbhə bölgəsinə gedə bilməyən vətəndaş öz iş yerində çalışmalı və döyüşməyə qadir olan övladını, qohum-qardaşını mütləq cəbhə bölgəsinə, orduda xidmətə göndərməlidir. Başqa yol ola bilməz! Mən bir daha Azərbaycan vətəndaşlarına, xalqıma müraciət edərək deyirəm ki, gəlin hamımız əl-ələ verib Vətənin, ana torpağın müdafiəsinə qalxaq. Heç kəs güman etməsin ki, əgər erməni



silahlı qüvvələri yenə də bir bölgədə irəliləyəcəksə, bu, kiməsə xeyir gətirəcək. Bu, heç kəsə xeyir gətirməyəcək! Bu, Azərbaycan xalqına, respublikamıza, onun müstəqilliyinə bir zərbə olacaqdır. Heç kəs güman etməsin ki, o, bu məsuliyyətdən kənarda qalacaq, yaxud da ki, belə bir məğlubiyyətin sayəsində öz şəxsi məqsədlərinə nail olacaqdır. Yox, Allah onlara qənim olacaqdır.

Mən xalqımızın müdrikliyinə inanıram. Güman edirəm ki, haqq işimizin yolunda hər bir azərbaycanlı, hər bir vətəndaş ayağa qalxacaq, xalqa xəyanət edənlər isə bu yoldan çəkinəcəklər. Azərbaycan xalqı Vətənin müdafiəsinə qalxıb və ümidvaram ki, bundan sonra da bu müqəddəs işə xidmət edəcəkdir. Xalqımızı əmin edirəm ki, ordumuz, cəbhədə döyüşən əsgərlərimiz, zabitlərimiz torpaqlarımızı etibarlı müdafiə edir, erməni silahlı qüvvələrinin bu hücumları da dəf olunacaqdır.

Bununla əlaqədar olaraq, mən son günlər yayılmış bəzi şayiələr haqqında da danışmaq istəyirəm. Bilirsiniz, bunlar şayiə olduğu üçün bəlkə də heç diqqətə layiq deyildir. Ancaq bəzən səfeh bir adam tərəfindən uydurulan şayiə təəssüf ki, cəmiyyətdə çaşqınlıq yaradır, adamları azdırır, ümumi işimizə zərər gətirir. Bu şayiələrin hamısı düşmənçilik məqsədi daşıyır və bunları yayanlar xalqımıza xəyanət edənlərdir. Qoy onlar bilsinlər ki, bu şayiələr heç bir nəticə verməyəcəkdir. Təəssüf ki, belə şayiələri yayanların arasında vəzifəli şəxslər də var. Mən onlara öz nifrətimi bildirirəm və güman edirəm ki, cəmiyyətimizin, xalqımızın əksəriyyəti də onlara nifrət edəcəkdir. Vətəndaşlarımızın hamısına çatdırmaq istəyirəm ki, heç kəs narahat olmasın. Torpaqlarımız etibarlı müdafiə edilir. Erməni silahlı qüvvələrinin hücumları dəf olunur və dəf olunacaqdır.

Son günlərdə baş vermiş hadisələrlə əlaqədar mən Dağlıq Qarabağda yaşayan, erməni millətindən olan Azərbaycan vətəndaşlarına da müraciət edirəm. Onlar Azərbaycan ərazisində yaşayırlar, Azərbaycan Respublikasının vətəndaşlarıdırlar. Belə hesab edirəm ki, onların əksəriyyəti çox əziyyət çəkir. Son günlər, eləcə də bundan qabaqkı döyüşlərdə əsir götürülmüş erməni hərbçiləri ifadə verirlər ki, onları cəbhə bölgələrinə zorla gətirirlər, məcbur edirlər ki, döyüşə girsinlər. Bizə dəqiq məlumdur ki, hətta onlar döyüşlərdə məğlub olaraq geri çəkilərkən onları arxadan atəşə tutur, silah gücünə döyüş meydanında saxlamağa çalışırlar. Əsirlərin verdikləri məlumatlardan görünür ki, həm Dağlıq Qarabağın əhalisindən olan, həm də Ermənistanın bölgələrin-

dən gələn əsgərlərin əksəriyyətini buraya məcburi gətirirlər. Məsələn, bu günlərdə Goranboy rayonunda əsir düşmüş erməni döyüşçü ifadə vermişdir ki, orada əsgərlərin əksəriyyəti həbsxanadan azad olmuş adamlardır. Bu məhbuslara orda deyiblər ki, gedin, əgər qarşınızda duran vəzifələri yerinə yetirsəniz, sizin cinayətləriniz bağışlanacaqdır.

Yerevandan, Leninakandan, Eçmiədzindən, Ermənistanın başqa bölgələrindən gələn şəxslər də onların buraya məcburi olaraq göndərildiklərini bildirirlər.

Ancaq indi mən Dağlıq Qarabağda yaşayan ermənilərə – Azərbaycan vətəndaşlarına xüsusi olaraq müraciət edirəm. Altı ildir ki, siz də bəla içərisindəsiniz, əzab-əziyyətdəsiniz, nə qədər itkilər vermisiniz. Sizin də evləriniz, kəndləriniz dağılıb, yaşayışınız həddindən artıq çətinləşibdir. Sizə nə lazımdır? Bu döyüşlərdə siz də tələf olursunuz, itkilər verirsiniz. Nəyə nail olmusunuz? Altı ildir ki, təcavüzkar, millətçi dairələr sizi – Azərbaycan vətəndaşlarını, Dağlıq Qarabağ sakinlərini mənasız müharibəyə cəlb ediblər. Siz də, Dağlıq Qarabağda yaşamış azərbaycanlılar da, ətraf rayonlarda yaşamış və bu gün də yaşayan azərbaycanlılar da on illərlə dostluq, mehribanlıq şəraitində yaşamısınız. Siz, Dağlıq Qarabağda məskunlaşmış ermənilər 160 ildən artıqdır ki, orada yaşayırsınız. Bu müddətdə baş vermiş bəzi iğtişaşları kənara qoysaq, siz azərbaycanlılarla daim dostluq, mehribanlıq şəraitində yaşamısınız. Nə üçün belə yaşayış sizin üçün münasib olmadı? Siz nə üçün bu müharibəyə, qan tökülməsinə, bu tələfatlara, dağıntılara üstünlük verdiniz? Nə üçün? Ayılın, bilin ki, bu müharibənin mənası yoxdur. Təcavüzkar dairələr öz niyyətlərinə, məqsədlərinə nail ola bilməyəcəklər. Azərbaycan Respublikası öz torpaqlarını heç vəchlə əldən verməyəcəkdir. Hələ ki, gec deyil, ziyanın yarısından da qayıtmaq xeyirdir. Bu müharibədən əl çəkin. Bilin ki, biz sizi Azərbaycan vətəndaşları kimi gələcəkdə də qoruyacağıq. Sizin hüquqlarınız qorunacaqdır. Sizə əmin-amanlıq vəziyyətində yaşamaq üçün lazımi şəraiti yaradacağıq.

Mən eyni zamanda Ermənistan Respublikasının vətəndaşlarına, erməni xalqına, Ermənistanın rəhbərlərinə, prezident Levon Ter-Petrosyana, Ermənistanda fəaliyyət göstərən siyasi partiyalara, onların başçılarına müraciət edirəm və bildirmək istəyirəm ki, bu təcavüzkar siyasətin mənası yoxdur! Siz bundan əl çəkin! Sübut etməyə ehtiyac yoxdur ki, bu müharibə Ermənistanın təcavüzkar, millətçi dairələri tərəfindən başlanıbdır və Ermənistan xalqına heç bir xeyir gətirməyibdir. Ermənistan xalqı da, Ermənistan Respublikasının vətəndaşları da altı ildir ki, əzab-əziyyət içərisindədirlər. Bunlar nəyə lazımdır? Mən Ermənistan Respublikasının prezidenti Levon Ter-Petrosyanla dünən də, bu gün də telefonla danışmağa cəhd göstərdim. Ancaq danışmaq mümkün olmadı. Ona görə də televiziya vasitəsilə müraciət edirəm. Mən onu və Ermənistanın bütün rəhbərlərini öz xalqları qarşısında məsuliyyətə dəvət edirəm. Elə son döyüşlərdə Ermənistan silahlı qüvvələrinin bir neçə yüz əsgəri həlak olub, yaralanıb. Ermənistanın təcavüzkar dairələri, bu müharibəni davam etdirən dairələr həlak olmuş vətəndaşları qarşısında cavabdehdirlər. Onlar bu qanı tökürlər, ancaq bunun sonu yoxdur.



Mən tam səmimiyyətlə deyirəm ki, biz müharibəyə son qoymaq, bütün imkanlardan istifadə edib danışıqlar aparmaq istəyirik. Ancaq bir şərtlə – erməni təcavüzkarları, silahlı qüvvələri Azərbaycan torpaqlarını tərk etməlidirlər, respublikamızın ərazi bütövlüyü, sərhədlərimizin toxunulmazlığı təmin olunmalıdır. Mən bu son üç günün nəticələrini təhlil edərək bir daha bəyan edirəm ki, biz sülh mövqeyində dururuq. Ona görə yox ki, bu təcavüzlər, bu hücumlar bizi qorxudur, yox. Ona görə ki, biz qan tökülməsinin tərəfdarı deyilik.

Dünyaya məlumdur ki, Azərbaycan Respublikası Ermənistan tərəfindən təcavüzə məruz qalmışdır. Dünyaya məlumdur ki, torpaqlarımızın yüzdə iyirmi faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Ona görə də biz ədalətli döyüşlər aparırıq, öz torpaqlarımızı, öz vətəndaşlarımızı, öz Vətənimizi qoruyuruq. Mən dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, Birləşmiş Millətlər Təşkilatına, BMT Təhlükəsizlik Şurasına müraciət edirəm. Təhlükəsizlik Şurasının daimi üzvləri – Amerika Birləşmiş Ştatlarının, İngiltərənin, Fransanın, Rusiyanın, Çinin rəhbərlərinə müraciət edirəm və bəyan edirəm ki, onlar Ermənistan Respublikasının təcavüzkarlığının qarşısını almaq üçün təsirli tədbirlər görməlidirlər. Biz Rusiyanın vasitəçilik təşəbbüsünü qəbul etmişik, bu təşəbbüsdən faydalanmağa çalışmışıq. Ancaq neçə aydır danışıqlar getsə də, təəssüf ki, bir nəticə əldə olunmayıb.

Güman edirəm ki, Rusiya kimi böyük bir dövlət – həm Azərbaycanla, həm də Ermənistanla yaxın dostluq əlaqələri olan, dünya miqyasında böyük təsirə malik, Təhlükəsizlik Şurasının daimi üzvü olan bir dövlət bu bölgədə öz rolunu oynamalıdır.

Mən ATƏM təşkilatına, Minsk qrupunun üzvlərinə müraciət edirəm, onları daha çox fəallıq göstərməyə dəvət edirəm. Azərbaycanla

qonşu olan dövlətlərə – Türkiyə Cümhuriyyətinə, İran İslam Respublikasına, Gürcüstan Respublikasına müraciət edirəm. Hesab edirəm ki, onlar həm Azərbaycan ilə, həm də Ermənistan ilə qonşu olduqlarına görə bu münaqişədən kənarda qalmamalıdırlar, bu müharibəyə son qoymaq üçün öz imkanlarından daha yaxşı istifadə etməlidirlər.

Bir məsələni də nəzərə çatdırmaq istəyirəm ki, erməni silahlı qüvvələrinin son üç gündə Azərbaycan torpağına, hərbi hissələrimizin mövqelərinə hücumları heç də təsadüfi baş verməmişdir. Təxminən bir ay bundan öncə ATƏM-in Minsk qrupunun yeni başçısı Yan Eliasson böyük bir heyətlə Azərbaycanda, Ermənistanda olmuş, danışıqlar aparmış, Minsk qrupunun fəaliyyətinin daha da güclənməsi haqqında bizə məlumatlar vermişdir.

Aprelin 11-də, yəni dünən Praqa şəhərində Minsk qrupunun Dağlıq Qarabağ problemi ilə əlaqədar iclası başlanmışdır. Məhz bu günlərdə, həmin iclasda Azərbaycan və Ermənistan nümayəndələrinin iştirak etdiyi bir vaxtda Ermənistan silahlı qüvvələri belə güclü hücumlara keçmişlər. Bildiyiniz kimi, aprelin 14-15-də Moskva şəhərində Müstəqil Dövlətlər Birliyi dövlət başçılarının görüşü keçiriləcək, mühüm məsələlər müzakirə olunacaqdır. Bu ərəfədə Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı hücumları da yəqin ki, bir məqsəd daşıyır: ola bilər ki, bu hücumlarla Azərbaycana və onun rəhbərliyinə təsir göstərmək istəyirlər. Ancaq böyük səhv edirlər. Heç kəs bizə təsir edə bilməz! Biz Azərbaycan Respublikasının müstəqilliyini qorumuşuq və bundan sonra da qoruyacağıq. Biz müstəqilliyimizin keşiyində nəyin bahasına olursa-olsun durmuşuq.

Mən eyni zamanda MDB-nin üzvü olan dövlətin rəhbəri kimi, həmin birliyə daxil olan müstəqil dövlətlərin başçılarına müraciət edirəm. Bir daha bəyan edirəm ki, Müstəqil Dövlətlər Birliyinin tərkibində olan dövlətlər arasında müharibənin getməsi qeyri-normal bir haldır. Müstəqil Dövlətlər Birliyində böyük xüsusi çəkisi olan Rusiya dövlətinə, onun başçılarına müraciət edirəm. Bu hadisələrə son qoymaq lazımdır. Rusiyanın bu məsələləri sülh yolu ilə həll etmək imkanları vardır. Zənn edirəm ki, onlar bu imkanlardan istifadə edəcəklər və etməlidirlər.

Güman edirəm ki, mənim bu müraciətlərim diqqətsiz qalmayacaq, dünya ictimaiyyəti tərəfindən düzgün qarşılanacaq, qəbul olunacaqdır. Dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, beynəlxalq normalara güvənərək, bu gün televiziya və radio vasitəsilə öz fikirlərimi onlara çatdırıram.



Eyni zamanda respublikamızın daxili həyatına nəzər salaraq bir daha bütün Azərbaycan vətəndaşlarına, respublikamızda olan siyasi qüvvələrə müraciət edirəm. Bəyan etmək istəyirəm ki, respublikamızın bu ağır dövründə, çətin günündə hamı bir məqsədə qulluq etməlidir. Bu məqsəd Azərbaycan Respublikasının təhlükəsizliyini təmin etmək, onu ağır müharibə şəraitindən çıxarmaq və ölkəmizin ərazi bütövlüyünü təmin etməkdən ibarətdir. Bu yolda hamı birləşməli, hamı bu yolla getməlidir. Əgər kimlərsə belə ağır şəraitdə fürsətdən istifadə edib öz mənfur niyyətlərinə çatmaq istəyirsə, qoy bilsinlər ki, buna nail ola bilməyəcəklər.

Mən Azərbaycan xalqının dəyanətinə, dözümünə, qəhrəmanlığına güvənirəm və əminəm ki, biz bütün bu sınaqlardan müvəffəqiyyətlə çıxacaq, torpaqlarımızı müdafiə edəcək və təcavüzkar qüvvələrin hamısına layiqli cavab verəcəyik. Döyüş bölgələrində olan əsgərlərimizə, zabitlərimizə bir daha müraciət edib deyirəm: Bilin ki, siz ana Vətəninizi, torpağınızı müdafiə edirsiniz, müqəddəs amallara xidmət göstərirsiniz. Sizin xidmətiniz xalq, cəmiyyət və dövlət tərəfindən daim qiymətləndiriləcəkdir.

Bu bəyanatlarımın bir hissəsi başqa dövlətlərə yönəldiyinə görə müraciətimin məzmununu qısaca rus dilində təkrar etmək istəyirəm. İstəyirəm ki, müraciət etdiyim dövlət nümayəndələri, dövlət başçıları mənim fikirlərimi öz dilimdən eşitsinlər...

Əziz və hörmətli həmvətənlər! Bu gün həm böyük həyəcanla, həm də böyük ümidlə sizə müraciət edirəm. Ümidvaram ki, Azərbaycan xalqı bu ağır sınaqlardan çıxacaq, öz gücünü toplayacaqdır. Azərbaycan Respublikasının vətəndaşları milli həmrəylik, vətəndaş həmrəyliyi əsasında bütün bu çətinlikləri dəf edəcəklər. Əminəm ki, respublikamızın müdafiəsində, keşiyində dayanan Azərbaycan ordusu, qəhrəman əsgərlərimiz verdikləri sözə əməl edəcək, torpaqlarımızı etibarlı qoruyacaqlar. Sizə bugünkü müraciətim yalnız və yalnız Azərbaycan xalqını, respublikamızın vətəndaşlarını bir daha ayağa qaldırmaq məqsədi daşıyır. Başqa məqsəd yoxdur və heç bir narahatlıq üçün də əsas yoxdur. Mən Azərbaycan vətəndaşlarına güvənirəm və əminəm ki, hamımız birlikdə bu çətinliklərdən çıxacağıq.

Diqqətinizə görə sağ olun. Hamınıza yaxşı gələcək, xoş günlər diləyirəm.

## BRÜSSELƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ BƏYANAT

*3 may 1994-cü il*

Brüsseldə dövlət başçıları ilə görüşlərim olacaqdır. Eyni zamanda həmin ölkənin işgüzar dairələrinin nümayəndələri mənimlə görüşmək istədiklərini bildiriblər. İş adamları ilə görüşlərimiz olacaqdır. Bilirsiniz ki, Avropa İqtisadi Birliyinin iqamətgahı Belçikadadır. Orada bu birliyin Azərbaycana yardım göstərməsi barədə məsələləri müzakirə edəcəyik. Səfərimin əsas məqsədi bundan ibarətdir. Şübhəsiz ki, orada Azərbaycandakı indiki vəziyyət, Azərbaycanla Ermənistan arasında gedən müharibə, Ermənistanın Azərbaycana qarşı təcavüzünün bu gün də davam etməsi məsələləri də müzakirə olunacaqdır. Həm NATO-nun qərargahında, həm də başqa görüşlərimdə bu barədə söhbətlər aparacağam və Azərbaycanın mövqeyini bildirəcəyəm.

Erməni silahlı qüvvələri aprelin 10-dan indiyə qədər Azərbaycan torpaqlarına müntəzəm olaraq hücum edirlər. Onlar Azərbaycanın silahlı qüvvələri tərəfindən zərbələr alırlar, ancaq hücumları davam etdirirlər. Bu hücumlarda da onlar tək deyillər, təcavüzkarlara kömək edən qüvvələr vardır. Biz atəşin dayandırılmasının tərəfdarıyıq, bu barədə bəyanatlar vermişik.

Aprelin 28-də Rusiyanın Xarici İşlər Nazirliyinin və Müdafiə Nazirliyinin vasitəçiliyi ilə, onların təklifi ilə biz atəşin dayandırılması barədə saziş imzalanmasına razılıq vermişik, ancaq Ermənistan tərəfi buna razılıq verməyib. Bu müddətdə cənab Mosberqin başçılığı ilə ATƏM-in Minsk qrupunun böyük bir heyəti Azərbaycana gəlmişdi. Bu heyətin tərkibində Amerika generalları da olmuşdur, Rusiyanın, İtaliyanın və Minsk qrupuna daxil olan dövlətlərin nümayəndələri də var idi. Bu heyət, cənab Mosberq mənimlə çox geniş söhbətlər apardı. Sonra onlar Xankəndidə və Yerevanda oldu və yenə də Bakıya qayıdaraq mənimlə görüşdülər, atəşin dayandırılması barədə bizə bir saziş layihəsi təqdim etdilər. Mən bu layihə ilə də razı oldum. Onlar buradan Yerevana getdilər, Ermənistan prezidenti Levon Ter-Petrosyanla görüşdülər. Ermənistan tərəfi bu sazişin imzalanmasına razılıq vermədi, bəyan etdi ki,



onlar atəşin dayandırılmasına hazır deyillər. Guya atəşin dayandırılması üçün xüsusi mexanizm hazırlanmalıdır. Biz də bilirik ki, atəşin dayandırılmasına, ona nəzarət edilməsinə xüsusi mexanizm lazımdır. Ancaq atəş dayandırıldıqdan sonra bu mexanizm hazırlana bilər. Əgər indi biz oturub mexanizm üzərində işləsək və eyni zamanda hər gün atəş davam etsə, o tərəfdən də, bu tərəfdən də insanlar qırılsalar bu, şübhəsiz ki, nə Ermənistan tərəfi üçün, nə də bizim üçün faydalı olmayacaqdır.

Cənab Mosberq Yerevandan bizə zəng etdi ki, Ermənistan tərəfi bu sazişə razı olmadı. Onlar Vyanaya getdilər. İndi vəziyyət belədir. Ermənilər hücumlarını davam etdirirlər, Azərbaycanın Silahlı Qüvvələri onlara cavab verirlər. Bir neçə mövqedə ermənilərin hücumları dəf olunmuşdur, onlar geriyə çəkilirlər, tələfat verirlər. Ancaq müharibə davam edir. Biz müharibənin tərəfdarı deyilik. Bu gün yenə də bəyan edirəm ki, biz atəşin dayandırılmasının tərəfdarıyıq. Ancaq Ermənistan tərəfi bununla razı deyil. Biz öz sülhsevər siyasətimizi davam etdirəcəyik.

## BRÜSSELDƏKİ BEYNƏLXALQ MƏTBUAT MƏRKƏZİNDƏ XARİCİ ÖLKƏ JURNALİSTLƏRİ ÜÇÜN MƏTBUAT KONFRANSI

*Brüssel*
*4 may 1994-cü il*

– Hörmətli xanımlar və cənablar! Bu gün səhər mən Belçikanın baş naziri ilə görüşdüm. Biz Azərbaycanla Belçika arasında əməkdaşlığın daha da inkişaf etdirilməsinə dair problemlər haqqında danışıqlar apardıq. Bir müddət bundan öncə biz Belçika hökumətinə bir sıra sazişlərin layihələrini təqdim etmişik. İndi Belçika tərəfi həmin layihələri öyrənir. Belçikanın baş naziri bildirdi ki, onlar bu ölkənin müvafiq bölgələri ilə razılaşdırıldıqdan sonra, hökumət ölkələrimiz arasında əməkdaşlıq haqqında memorandumu, ticarət-iqtisadi əməkdaşlıq haqqında, turizm sahəsində əməkdaşlıq haqqında və bəzi sazişlər imzalamağa hazır olacaqdır. Bu gün işimin əsas hissəsi NATO-nun iqamətgahına getməklə bağlı olmuşdur. Sizə məlumdur ki, hələ 1992-ci ildə NATO Şimali Atlantika Əməkdaşlığı Şurası yaradılması haqqında qərar qəbul etmişdir. Digər ölkələrlə yanaşı, keçmiş Sovet İttifaqının respublikaları, o cümlədən Azərbaycan da bu Şuraya daxil olmuşlar.

Cari ilin yanvarında NATO-nun üzvü olan dövlətlərin başçıları «Sülh naminə tərəfdaşlıq» proqramı haqqında qərar çıxarmış və onu elan edərək Şərqi Avropa ölkələrini və keçmiş Sovet İttifaqının ərazisində yaranmış yeni müstəqil dövlətləri bu proqrama qoşulmağa çağırmışlar. Biz Azərbaycanda bu sənədi ətraflı öyrəndik, orada Azərbaycan Respublikası üçün maraqlı, cəlbedici müddəalar tapdıq. Odur ki, ən iri beynəlxalq təşkilatlardan biri kimi, NATO-ya prinsipial münasibətimizi, öz mövcudluğu ərzində Avropada və bütün dünyada vəziyyətin sabitləşməsi üçün çox iş görmüş olan NATO-ya hörmətimizi əsas tutaraq, biz «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmağı mümkün və vacib bildik.

Bu gün mən NATO baş katibinin müavini ilə görüşdüm. Baş katibin özü cənab Manfred Verner iş başında deyildi. Aramızda çox maraqlı söhbət oldu. Sonra mən NATO Şurasının iclasında iştirak etdim və «Sülh naminə tərəfdaşlıq» proqramının çərçivə sənədini imzaladım.



Biz bu sənədi imzalayarkən onu əsas tuturuq ki, gənc müstəqil Azərbaycan dövləti öz istiqlaliyyətini möhkəmlətmək yolu ilə, demokratiya, bazar iqtisadiyyatı yolu ilə, dünya birliyi, xüsusən Avropa, Qərb ilə inteqrasiyanı daha da genişləndirmək yolu ilə gedərək «Sülh naminə tərəfdaşlıq» sənədi əsasında NATO ilə əməkdaşlıq şəraitində öz qarşısında duran vəzifələri yerinə yetirmək üçün daha geniş imkanlara malik olacaqdır. Bildiyiniz kimi, Azərbaycan Ermənistanla müharibə vəziyyətindədir, demək olar ki, altı ildir Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalır. Bu müharibə Azərbaycanın iqtisadiyyatına da, ərazi bütövlüyünə də çox böyük ziyan vurmuş, çoxlu insan qırılmışdır. 20 min nəfərdən artıq adam həlak olmuş, hazırda Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı birləşmələrinin işğalı altındadır. Sülhsevər təşəbbüslərimizə baxmayaraq, bu münaqişənin aradan qaldırılmasında beynəlxalq təşkilatların, o cümlədən BMT Təhlükəsizlik Şurasının, ATƏM-in və onun Minsk qrupunun iştirakına baxmayaraq, müharibə dayanmaq bilmir, buna görə də biz NATO ilə əməkdaşlığa başlayarkən, «Sülh naminə tərəfdaşlıq» sənədini imzalayarkən bunu əsas tuturuq ki, öz məqsədlərimizi həyata keçirmək üçün yeni imkanlarımız yaranacaqdır. Məqsədlərimiz isə münaqişənin dincliklə aradan qaldırılmasından, işğal olunmuş Azərbaycan ərazilərindən Ermənistan silahlı birləşmələrinin çıxarılmasından, Azərbaycanın ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının təmin edilməsindən ibarətdir. Əlbəttə, bu prosesdə Dağlıq Qarabağın azlıq təşkil edən erməni əhalisinin müdafiəsi və təhlükəsizliyinə təminat və Dağlıq Qarabağ üçün muxtariyyət statusuna baxılmasının mümkünlüyü də nəzərdə tutulur.

Biz bütün bu mülahizələri əsas tutaraq qərar qəbul etdik və bu gün Azərbaycan Respublikası adından «Sülh naminə tərəfdaşlıq» sənədini imzaladıq. Mən NATO-nun iqamətgahında aparılmış danışıqlar və söhbətlərdən, burada əhatə olunduğumuz dostluq şəraitindən, görüş və söhbətlərimiz zamanı aşkara çıxardığımız qarşılıqlı anlaşmadan məmnunam. Mən ondan məmnunam ki, Azərbaycan bu sənədi imzalamışdır. Baş katibin müavini bildirmişdir ki, Azərbaycan bu proqrama qoşulan 15-ci ölkə olmuşdur. Sovet İttifaqının keçmiş respublikaları arasında isə sənədi imzalayan 4-cü ölkədir.

Biz NATO ilə əməkdaşlığa böyük ümidlər bəsləyirik. Mən də əminəm ki, ümidlərimiz özünü doğruldacaqdır.

İndi isə suallarınıza cavab verməyə hazıram.

**S u a l :** Cənab Prezident, Sizə iki sualım var. Birincisi, mən o qədər də təsəvvür edə bilmir və başa düşmürəm ki, Dağlıq Qarabağda münaqişənin həlli üçün NATO tərəfindən hansı xüsusi təşəbbüslər gözləmək olar. Bununla əlaqədar Sizdən soruşmaq istərdim: NATO-da görüşlərinizdə bu problemin nizama salınması üçün NATO-nun göstərə biləcəyi diplomatik və ya hər hansı digər səylər müzakirə edildimi?

**İ k i n c i s u a l :** Bir neçə ay bundan əvvəl mətbuatda xəbər verildi ki, Rusiya Federasiyası Sizə təzyiq göstərmək üçün, sizin ölkənizi bəzi məsələlərdə, xüsusən neftlə bağlı məsələlərdə Rusiya Federasiyası ilə ittifaqı bərpa etmək məcburiyyətində qoymaq üçün Ermənistan Respublikasının sizin ölkənizlə münaqişəsində ona qeyri-rəsmi yardım göstərir və arxa durur. Bu informasiya nə dərəcədə doğrudur?

**C a v a b :** Əvvəla, Ermənistanla Azərbaycan arasında münaqişənin həllində NATO ilə əməkdaşlığımızın nə kimi imkanlar açdığını təsəvvürünüzdə canlandırmağınız üçün mən sizdən xahiş edərdim ki, NATO blokuna daxil olan dövlətlərin başçıları tərəfindən yanvarın 10-da qəbul edilmiş sənədin özü ilə tanış olasınız. Orada çox dəqiq müddəalar var və onlar ümid etməyə imkan verir ki, «Sülh naminə tərəfdaşlıq» proqramında bizim iştirakımız Ermənistanla Azərbaycan arasında münaqişə ilə bağlı məsələlərin müzakirəsində NATO-nun iştirakına şərait yaradır. Mən bu mövzuda uzun-uzadı danışmaq istəməzdim. Sizdən sadəcə olaraq xahişim budur ki, bu sənədi oxuyun, bütün bunlar orada çox dəqiq şərh edilmişdir.

Yeri gəlmişkən, təxminən yarım saat bundan əvvəl NATO baş katibinin müavini ilə mən NATO iqamətgahında müxbirlərin suallarına cavab verərkən baş katibin müavini həmin suala aydın cavab verərək dedi ki, Ermənistan ilə Azərbaycan arasında Dağlıq Qarabağ üstündə münaqişə ilə əlaqədar Azərbaycanla məsləhətləşmələrə NATO elə indinin özündə də başlaya bilər.

O ki qaldı Ermənistanın Azərbaycanla münaqişəsində Rusiyanın Ermənistana köməyi, Azərbaycana təzyiq göstərmək, o cümlədən də neftlə bağlı problemlərə görə təzyiq göstərmək istəməsi barədə ikinci suala, bir şey deyə bilərəm: Ermənistan ərazisində Rusiyanın qoşunları, hərbi bazaları var. Azərbaycan ərazisində Rusiya qoşunları yoxdur. Ermənistan ilə Azərbaycan arasında müharibə gedir. Döyüşlər bir gün belə ara vermir. Ermənistan ərazisi isə, hər halda çox da geniş deyil, Azərbaycan ərazisindən üç dəfə kiçikdir. Odur ki, özünüz nəticə çıxarın.



**S u a l :** Cənab Prezident, Siz öz çıxışınızda qeyd etdiniz ki, müharibə ölkənizə, o cümlədən də onun iqtisadiyyatına olduqca böyük ziyan vurmuşdur. Bununla əlaqədar maraqlanmaq istərdim, bu müharibə sizin neft məhsullarının ixracına necə və nə dərəcədə təsir göstərmişdir? Bu sahədə vəziyyəti əks etdirən hər hansı rəqəmləri misal gətirsəniz, minnətdar olarıq. Bir də, müharibə Qərbin neft şirkətləri ilə hər hansı bağlaşmalar imzalanmasına nə dərəcədə təsir göstərmişdir?

**C a v a b :** Həqiqətən, müharibə Azərbaycan iqtisadiyyatına böyük ziyan vurmuşdur və ziyan vurmaqdadır. Bir təsəvvür edin ki, ölkə ərazisinin 20 faizi işğal altındadır, bu torpaqlar isə bərəkətli torpaqlardır. Azərbaycanın həmin bölgələrinin ərazisində iri sənaye və kənd təsərrüfatı müəssisələri yaradılmışdı, həmin rayonlardan olan bir milyon qaçqın respublikanın digər bölgələrində yerləşdirilmiş və olduqca ağır sosial-iqtisadi vəziyyətdədir. Siz bu ziyanın miqyasını təsəvvürünüzdə canlandıra bilərsiniz – milyardlarla dollar məbləğində ziyan vurulmuşdur. O ki qaldı müharibənin neft sənayesinə ziyan vurması barədə suala, deməliyəm ki, bizim neft sənayesinin müəssisələri döyüş əməliyyatları zonasında deyildir, buna baxmayaraq, əgər ölkə müharibə vəziyyətindədirsə, müharibə Azərbaycanda olduğu üçün, iqtisadiyyatın bütün sahələrinə, əlbəttə, təsir göstərir.

Qərbin neft şirkətləri ilə imzalamağa hazılaşdığımız bağlaşmalara gəldikdə, bu mövzu ətrafında olduqca çoxlu söz-söhbət gedir, mühakimələr yürüdülür. Təbiidir ki, Azərbaycanın neft sərvətləri dünyanın bir çox ölkələrinin, habelə Qərbin iri neft şirkətlərinin marağını cəlb edir. Ümumiyyətlə, Azərbaycan öz coğrafi-siyasi mövqeyinə görə, bir çox Qərb ölkələrinin böyük iqtisadi marağını cəlb edir. Neft şirkətləri ilə bağlaşmalar imzalanması haqqında danışıqlar aparılır. Danışıqların yeni dövrəsi mayın 2-də İstanbulda başlanmışdır. Qərb firmalarının və Azərbaycan Dövlət Neft Şirkətinin nümayəndələri hazırda orada danışıqlar aparırlar. Mən belə düşünürəm ki, biz yavaş-yavaş bağlaşmaların imzalanmasına yaxınlaşırıq. Görünür, neft bağlaşmalarının imzalanmasına başlaya biləcəyimiz gün uzaqda deyildir.

**S u a l :** Cənab Prezident, Siz istər Azərbaycanın, istərsə də SSRİ-nin dövlət strukturlarında zəngin iş təcrübəsinə maliksiniz, bir vaxtlar Azərbaycan Kommunist Partiyasının, ondan əvvəl isə Azərbaycan

Dövlət Təhlükəsizliyi Komitəsinin rəhbəri, sonralar isə keçmiş SSRİ-də Sov.İKP MK Siyasi Bürosunun üzvü olmuşsunuz. Siz Azərbaycan-da dövlət quruculuğunun indiki səviyyəsini necə səciyyələndirərdiniz?

**İkinci sual:** Bu yaxınlarda mətbuatda xəbər verilmişdir ki, Rusiya Federasiyasının prezidenti cənab Yeltsinin dediyinə görə, Rusiya öz hüdudlarından kənarda, MDB-yə daxil olan ölkələrin ərazisində təxminən 30 hərbi baza yerləşdirmək niyyətindədir. Bununla əlaqədar olaraq fikrinizi öyrənmək istərdim, hadisələrin Azərbaycanla bağlı bu cür inkişafı Sizin üçün məqbuldurmu?

**Cavab:** Keçmiş işimdən məni xatırladığınıza və unutmadığınıza görə minnətdaram. Mən, həqiqətən, Azərbaycan Kommunist Partiyasının rəhbəri, həm də Siyasi Büronun üzvü və keçmiş Sovet İttifaqı baş nazirinin birinci müavini kimi, SSRİ-nin rəhbərlərindən biri olmuşam.

Lakin sizin sualınız Azərbaycanda indiki dövlət quruluşu ilə bağlıdır. Azərbaycan dövlət inkişafının müstəqil yoluna qədəm qoymuşdur. Ölkənin prezidenti kimi, bəyan edirəm ki, Azərbaycanın müstəqilliyi dönməz prosesdir. Respublika bundan sonra da özünün dövlət müstəqilliyini möhkəmləndirəcəkdir. Müstəqil dövlət olan Azərbaycan, demokratik cəmiyyətin bütün atributları nəzərə alınmaqla, hüquqi demokratik dövlət quruculuğu yolu ilə gedir və gedəcəkdir. Həmin atributları deyərkən mən şəxsiyyət azadlığını, vicdan azadlığını, insan hüquqlarının qorunmasını, çoxpartiyalı sistemi, siyasi plüralizmi, bazar iqtisadiyyatını, azad sahibkarlığı, ümumbəşəri dünya dəyərlərinə qovuşmağı nəzərdə tuturam. Əminəm ki, Azərbaycan bu yolla gedəcəkdir. Hər halda, Azərbaycan prezidenti kimi, mən buna çalışacağam. Ümidvaram ki, bütün Azərbaycan xalqı da bu fikirdədir.

İndi müstəqil dövlətlər olan keçmiş Sovet İttifaqı respublikalarının ərazisində Rusiyanın 30 hərbi baza yerləşdirməyə hazırlaşması barədə xəbərlərə gəldikdə, deyə bilərəm ki, bu bazalar respublikaların bir çoxunda yerləşdirilmişdir. Əgər bizim regiondan – Zaqafqaziyadan, Gürcüstan, Ermənistan və Azərbaycanın daxil olduğu və sizlərdə deyildiyi kimi, Cənubi Qafqazdan söhbət salsaq, deməliyəm ki, həm Gürcüstanda, həm də Ermənistanda Rusiyanın hərbi bazaları və qoşunu var. Gürcüstanın Türkiyə ilə sərhədini, Ermənistanın Türkiyə və İranla sərhədini Rusiyanın sərhəd qoşunları mühafizə edirlər. Azərbaycanda Rusiyanın qoşunu yoxdur. Mən Rusiyanın planlarından xəbərdar deyiləm.



Əlbəttə, hər bir dövlətin öz planları ola bilər. Lakin Azərbaycan da müstəqil dövlətdir və onun da öz planları var.

**Sual:** Cənab Prezident, Azərbaycan OPEK-də müşahidəçi statusu almağa hazırlaşırmı? Bu barədə Sizin fikrinizi bilmək istərdim. Siz bu beynəlxalq təşkilatın tam hüquqlu üzvü statusu almağınızı mümkün sayırsınızmı?

**Cavab:** Biz bu məsələni öyrənirik. Bayaq dediyim kimi, Qərbin neft şirkətləri konsorsiumu ilə böyük saziş bağlamaq haqqında danışıqlar aparılır. Bu danışıqların nəticələri, şübhəsiz ki, Azərbaycanda neft sənayesinin gələcək inkişaf yolunu müəyyənləşdirəcəkdir. Nəticələrdən asılı olaraq, biz gələcək addımlarımızı müəyyən edəcəyik.

**Sual:** Cənab Prezident, Ermənistanın «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmağa hazırlaşması indi ATƏM-in, onun Minsk qrupunun, Kollektiv Təhlükəsizlik haqqında müqavilənin, Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılmasına dair vasitəçilik səylərinin düşdüyü aciz vəziyyətə gətirib çıxarmayacaqmı? İkinci sual: «Sülh naminə tərəfdaşlıq» proqramı məsləhətləşmələrdən, o cümlədən siyasi məsləhətləşmələrdən əlavə, daha bir neçə bənd, yəni birgə təlimlər keçirilməsini, hərbi planlaşdırma və hərbi quruculuğu da nəzərdə tutur. Əgər MDB-nin Kollektiv Təhlükəsizliyi haqqında müqaviləni imzalamış ölkələrin və Azərbaycanın da qoşulduğu «Sülh naminə tərəfdaşlıq» proqramını imzalamış dövlətlərin mənafelərinin uyğun gəlmədiyi vəziyyət yaranarsa, bu halda Azərbaycan Prezidenti necə hərəkət edəcək?

**Cavab:** Ermənistanın «Sülh naminə tərəfdaşlıq» proqramını imzalamağa hazırlaşması barədə bizdə məlumat yoxdur. Əgər imzalasa belə, zənnimcə, NATO ilə əməkdaşlığımıza bundan xələl gəlməyəcək. Bundan əlavə, mənə belə gəlir ki, NATO-nu MDB ilə eyniləşdirmək lazım deyil. Bu birincisi. İkincisi isə, mən hesab etmirəm ki, Ermənistan ilə Azərbaycan arasında münaqişəni Kollektiv Təhlükəsizlik haqqında müqavilə çərçivəsində aradan qaldırmaq üçün MDB-nin imkanları tükənmişdir. Azərbaycan ilə NATO arasında konkret əməkdaşlığa gəldikdə isə, bu əməkdaşlığın prinsipləri və istiqamətləri «Sülh naminə tərəfdaşlıq» proqramının imzalanmasından sonra bizim imzalayacağımız sənəddə müəyyən ediləcəkdir. Həmin sənəddə hər şey nəzərdə tutulacaqdır. Məsələn, bizim NATO ilə əməkdaşlığımızın hansısa mənfi nəticələrinin ola biləcəyi mümkünlüyü məni narahat etmir. Əksinə, əminəm ki, bu əməkdaşlıq çox müsbət olacaqdır.

**S u a l :** «Sülh naminə tərəfdaşlıq» proqramında sazişi imzalamış ölkənin ərazi bütövlüyünə təhlükə yaranarsa, həmin ölkəyə NATO çərçivəsində siyasi məsləhətləşmələr keçirilməsini tələb etmək hüququ verən bənd nəzərdə tutulmuşdur. Siz yaxın vaxtlarda bu hüquqdan istifadə etmək niyyətindəsinizmi? İcazənizlə, ikinci sual. İqtisadi baxımdan Rusiya-Azərbaycan münasibətlərinin gələcəyini necə görürsünüz?

**C a v a b :** Birinci sualınızın cavabında deyim ki, «Sülh naminə tərəfdaşlıq» çərçivə sənədini imzalamaqla biz yarı yolda dayanmaq fikrində deyilik. Əksinə, bu əməkdaşlığın imkanlarından, o cümlədən, təbii ki, məsləhətləşmələrdən də maksimum istifadə etmək əzmindəyik. O ki qaldı Azərbaycan ilə Rusiya arasındakı münasibətlərə, deməliyəm ki, mehriban qonşuluq münasibətlərini yaxşılaşdırmaq üçün son vaxtlar çox fəal addımlar atılmışdır, yaxın keçmişlə müqayisədə münasibətlərimiz indi həqiqətən xeyli yaxşılaşmışdır. Rusiya rəhbərləri –prezident Boris Yeltsinlə, baş nazir Viktor Çernomırdinlə, xarici işlər, müdafiə nazirləri ilə, başqa vəzifəli şəxslərlə görüşlərimiz aydın surətdə göstərir ki, biz Rusiya ilə iqtisadi, mədəni, texniki və başqa əlaqələri daha da inkişaf etdirmək yolu ilə gedirik. Bundan əlavə, bildiyiniz kimi, keçən ilin sentyabrında biz MDB-yə daxil olmuşuq və birlik çərçivəsində Rusiya ilə əməkdaşlıq edirik. Əməkdaşlığımızın perspektivləri olduqca əlverişlidir.

**S u a l :** Məlum olduğu kimi, Azərbaycan Mərkəzi Asiya respublikaları barəsində lider rolunu oynayır. Sizin indiki səfəriniz, NATO-nun iqamətgahında sənədlərin imzalanması həmin regiondakı respublikaların bu sənədlərə qoşulmasına hazırlıqdırmı? Mərkəzi Asiya respublikalarının rəhbərləri ilə məsləhətləşmələriniz olubmu?

**C a v a b :** Mən heç vaxt hansısa regionda liderlik roluna iddia etməmişəm və bu gün də belə bir iddiada deyiləm. Orta Asiya respublikaları ilə, Qazaxıstanla bizim çox yaxşı, mehriban, dostcasına münasibətlərimiz var. «Sülh naminə tərəfdaşlıq» proqramını imzalamaq qərarına gələrkən, biz heç kimlə, o cümlədən də bu ölkələrlə məsləhətləşməmişik. Biz bu qərarı tamamilə müstəqil şəkildə qəbul etmişik və kiminləsə məsləhətləşməyi lazım bilməmişik. Bu ölkələrin «Sülh naminə tərəfdaşlıq» proqramı barəsindəki mövqeyi mənə məlum deyil.

**S u a l :** İş belə gətirmişdir ki, Azərbaycanın üç böyük qonşusu var–Rusiya, Türkiyə və İran. Azərbaycan Rusiya ilə birlikdə Kollektiv Təhlükəsizlik haqqında müqaviləyə daxildir. Bu gündən etibarən,



«Sülh naminə tərəfdaşlıq» çərçivə sənədini imzaladıqdan sonra Türkiyə ilə müəyyən dərəcədə ümumi ittifaqa daxil olur. Yerdə qalır İran. Bilirik ki, İran Azərbaycana kömək göstərir, qaçqınlara yardım edir. Qarşılıqlı təhlükəsizlik haqqında hansısa müqavilənin imzalanması nəzərdə tutulurmu? Çünki bu baxımdan İran kənarda qalmışdır.

**C a v a b :** Azərbaycan üçün İran böyük qonşu ölkədir. Bizim çox mehriban, dostcasına münasibətlərimiz var. Keçən ilin oktyabrında İran prezidenti cənab Haşimi Rəfsəncani Azərbaycanda rəsmi səfərdə olmuşdur. O zaman biz dövlətlərarası münasibətlərin inkişafı üçün perspektivlər açan bir sıra sənəd imzalamışıq. Azərbaycanın İranla iqtisadiyyat sahəsində, bütün başqa sahələrdə əməkdaşlığının böyük perspektivi var. Əgər hansısa yeni sənədlər imzalamaq tələb olunarsa, o zaman, görünür, bu məsələnin hər biri ayrıca halda nəzərdən keçiriləcəkdir. İran, həqiqətən Azərbaycan qaçqınlarına böyük humanitar yardım göstərir. Bu yardıma görə biz İran hökumətinə minnətdarıq və əminik ki, Azərbaycan ilə İran hökuməti arasında dostluq və əməkdaşlığın inkişaf perspektivləri əlverişli olacaqdır.

## TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ QISAMÜDDƏTLİ İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*9 iyun 1994-cü il*

**– Hörmətli Prezident, Türkiyə Cümhuriyyətinə qısamüddətli işgüzar səfərinizin məqsədi barədə nə deyə bilərsiniz?**

– Türkiyə ilə Azərbaycan bir-birinə çox yaxın, dost ölkələrdir. Azərbaycanın Türkiyə ilə dostluq və əməkdaşlıq haqqında müqaviləsi vardır və biz bu ölkə ilə müntəzəm əlaqə saxlayırıq. 1994-cü ilin fevralında mən Türkiyədə rəsmi səfərdə olarkən bir çox mühüm müqavilələr, sazişlər imzalamışıq və bunların həyata keçirilməsi ilə hər iki tərəf məşğul olur. Bu yaxınlarda mən Belçikaya səfərdən Bakıya dönərkən də bir neçə saat Ankarada oldum. Türkiyənin rəhbərləri ilə görüşdüm, söhbətlər etdik, məsləhətləşmələr apardıq.

Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinin inkişaf etdiyi indiki şəraitdə, bizim vaxtaşırı görüşməyə, danışıqlar, məsləhətləşmələr aparmağa ehtiyacımız var. Ona görə də dostum, qardaşım Süleyman Dəmirəl məni Türkiyəyə dəvət edib. O, İstanbulda olduğu üçün rica edib ki, İstanbula gəlim, orada görüşərək əməkdaşlığımızın davam etməsi ilə əlaqədar bir sıra məsələləri müzakirə edək. Mən bu dəvəti məmnuniyyətlə qəbul etmişəm.

**– Hörmətli Prezident, hazırda İstanbulda Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici ölkələrin neft şirkətləri arasında dəniz neft yataqlarının birgə işlənməsinə dair müqavilə bağlanması barədə danışıqlar gedir. Orada Şimali Atlantika Əməkdaşlıq Şurasının iclası da keçiriləcəkdir. Səfərinizin bu iki mühüm hadisə ilə əlaqəsi varmı?**

– Xeyr, mənim səfərim həmin hadisələrlə əlaqədar deyil. Bu, sadəcə olaraq təsadüfdür. Əgər Türkiyə prezidenti Süleyman Dəmirəl bu gün Ankarada olsaydı, mən Ankaraya gedəcəkdim. Ancaq o, indi İstanbuldadır, ona görə də məni İstanbula dəvət etdi.



Qərb ölkələrinin neft şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında danışıqlar üç gündür ki, yenidən başlanıb. Bu danışıqlar lazımi səviyyədə davam edir. Hazırda bu işlərə mənim müdaxilə etməyimə ehtiyac yoxdur. Çünki respublika Dövlət Neft Şirkətinin nümayəndə heyəti İstanbula yola düşərkən mən onları qəbul etdim, ətraflı söhbət apardıq. Bu barədə Azərbaycanın prinsipial mövqeyi müəyyənləşib və nümayəndələrimiz də danışıqları bunun əsasında aparırlar.

Şimali Atlantika Əməkdaşlıq Şurasına daxil olan ölkələrin xarici işlər nazirlərinin iclasına isə Həsən Həsənov dəvət olunub. O, orada çıxış edəcək və bütün fikirlərimizi ŞAƏŞ-in iclasının iştirakçılarına çatdıracaqdır.

**– Rusiya müdafiə nazirinin Bakıya səfərinin məqsədi barədə nə deyə bilərsiniz?**

– Pavel Qracovun Bakıya səfəri Qəbələdəki böyük əhəmiyyət kəsb edən hava hücumundan müdafiə qurğusu ilə əlaqədardır. Bu barədə bizim müəyyən danışıqlarımız olub. Mən Rusiyanın prezidenti Boris Yeltsinlə telefonla danışıq aparmışam. Həmin obyekt vaxtı ilə Sovet İttifaqının strateji raketlərdən mühafizə olunması üçün qurulmuşdur. Bunun indi Rusiya üçün böyük əhəmiyyəti var. Həmin qurğu hazırda istismar olunur, ancaq onun Azərbaycandakı statusu müəyyən deyil. Bir halda ki, həmin qurğu Azərbaycanın ərazisində yerləşir, deməli, Azərbaycana məxsusdur. Sovet İttifaqı iki il yarımdır dağılıb. Təəssüf ki, bu müddətdə məsələ həll olunmayıb. Yəni iki il yarımdır ki, qurğudan Rusiya yenə də istifadə edir, ancaq Azərbaycanın hüquqları müəyyən deyil. Ona görə də mən Rusiyanın prezidenti Boris Yeltsinin, müdafiə naziri Pavel Qraçovun qarşısında bu məsələni qaldırmışam. Pavel Qraçov da həmin məsələni müzakirə etmək üçün Bakıya gəlir.

# İSTANBULUN ATATÜRK HAVA LİMANINDA RƏSMİ QARŞILANMA MƏRASİMİNDƏN SONRA JURNALİSTLƏR QARŞISINDA BƏYANAT

*9 iyun 1994-cü il*

Əziz Süleyman bəy! Sizinlə bir daha görüşmək, bir çox məsələlər haqqında fikir mübadiləsi aparmaq, məsləhətləşmək bizim üçün çox vacibdir və bu imkana görə Sizə təşəkkür edirəm. Türkiyənin böyük və gözəl şəhəri İstanbula gəlməyimdən çox məmnunam. İstanbullulara, Türkiyədəki bütün qardaşlarımıza öz salamımı yetirir, hörmətimi bildirirəm.

Türkiyə və Azərbaycan dost, qardaş, qonşu dövlətlərdir. Ölkələrimiz arasında əlaqələr son vaxtlar çox sürətlə inkişaf edir. Bu ilin fevralında mən Türkiyədə rəsmi səfərdə olarkən bir çox mühüm müqavilələr, sazişlər imzalamışıq və bunların həyata keçirilməsi ilə hər iki tərəf məşğul olur. Bu yaxınlarda mən Belçikaya səfərdən Bakıya dönərkən də bir neçə saat Ankarada oldum. Türkiyənin rəhbəri ilə görüşdük, söhbətlər etdik, məsləhətləşmələr apardıq. Əmin olduğumu bildirmək istəyirəm ki, indiki qısamüddətli işgüzar səfər zamanı keçiriləcək görüşlər, danışıqlar iki ölkə arasında əlaqələrin daha da inkişafına kömək edəcəkdir.

Altı ildən bəri davam edən müharibə Azərbaycan üçün ən böyük problem olaraq qalır. Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizdən çoxu işğal olunmuşdur, 1 milyon 200 mindən artıq insan qaçqın, köçkün vəziyyətində yaşayır. Bütün bunlara baxmayaraq, biz müharibəyə son qoymaq istəyirik, onun gələcəyinin olmadığını yaxşı bilirik.

Problemin sülh yolu ilə həll edilməsi istiqamətində Azərbaycanın təşəbbüslərindən danışarkən ölkəmizin mövqeyini bir daha vurğulayaraq bildirirəm ki, respublikamızın işğal edilmiş torpaqları azad olunmalı, Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin edilməlidir. Biz bu sahədə beynəlxalq təşkilatların, BMT Təhlükəsizlik Şurasının, ATƏM-in Minsk qrupunun, dünyanın nüfuzlu dövlətlərinin, habelə Türkiyə kimi böyük və bizə dost ölkənin imkanlarından hərtərəfli istifadə etməyə çalışırıq. 1994-cü il martın 4-də Azərbaycanın NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulması da müharibəyə son qoyulması istiqamətində yaranmış imkanlardan biridir.



Ermənistanla Azərbaycan arasında müharibə, Ermənistanın Azərbaycana təcavüz etməsi Qafqaz bölgəsində vəziyyəti daha çox gərginləşdirir və bu ağır vəziyyət qonşu dövlətlərə də təsir edir. Şübhəsiz ki, bizim yaxın qonşumuz Türkiyə buna biganə qala bilməz. Çünki bir tərəfdən onun qardaşları təhlükə içərisindədir. İkinci tərəfdən isə, həm Azərbaycan, həm də Ermənistan Türkiyə ilə sərhəd qonşularıdır. Ona görə də bu məsələnin beynəlxalq təşkilatlarda ədalətli həllinə Türkiyənin sözü, mövqeyi çox kömək edəcək və biz buna böyük ümid bəsləyirik.

Mən əminəm ki, bugünkü danışıqlarda da həmin məsələlər və iki qardaş ölkə arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi ilə əlaqədar digər məsələlər hərtərəfli müzakirə olunacaqdır. Mən dəvəti məhz bunun üçün qəbul edib İstanbula gəlmişəm. İnanıram ki, görüşlərimiz xalqlarımız üçün çox faydalı olacaqdır.

# TÜRKİYƏDƏN VƏTƏNƏ QAYIDARKƏN İSTANBULUN ATATÜRK HAVA LİMANINDA JURNALİSTLƏR ÜÇÜN BRİFİNQDƏ BƏYANAT

*10 iyun 1994-cü il*

Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Süleyman Dəmirəlin dəvəti ilə mən dünən buraya qısamüddətli işgüzar səfərə gəldim. İndi də geriyə dönürəm, Azərbaycana yola düşürəm. Bu müddətdə burada Azərbaycan üçün çox əhəmiyyətli görüşlər oldu. Hörmətli dostumuz, qardaşımız Süleyman Dəmirəlin dəvəti ilə mənim buraya gəlməyimin məqsədi Türkiyə ilə Azərbaycan arasında əlaqələrin sürətlə inkişaf etməsi barədə bəzi danışıqlar aparmaq, məsləhətləşmələr etmək idi.

Dünən Türkiyə prezidenti Süleyman Dəmirəllə çox ətraflı söhbətimiz oldu, ölkələrimiz üçün maraqlı olan məsələlərin hamısını müzakirə etdik. Bu gün Türkiyənin baş naziri hörmətli Tansu Çillərlə, baş nazirin birinci müavini hörmətli Murad Qarayalçınla görüşlərim oldu. Bu görüşlərdə də Azərbaycanla Türkiyə arasında dostluq, qardaşlıq əlaqələrinin inkişaf etdirilməsi və bəzi məsələlərin həllinin sürətləndirilməsi üçün danışıqlar, söhbətlər apardıq, çox məsələlərdə razılığa gəldik. Mənim səfərimin əsas məqsədi bundan ibarət idi və bu baxımdan mən səfərimdən çox razıyam.

Hörmətli Süleyman Dəmirəllə, hörmətli Tansu Çillərlə, Murad Qarayalçınla, Hikmət Çətinlə danışıqlarda Azərbaycanın indiki vəziyyəti, Ermənistanın Azərbaycana təcavüzü və bu məsələlərin həll olunması yolları müzakirə edildi. Artıq dünya ictimaiyyəti bilir ki, Azərbaycan tərəfi, şəxsən mən bir prezident kimi, bu məsələnin sülh yolu ilə həll olunmasının – müharibəyə son qoyulmasının, döyüşlərin dayandırılmasının tərəfdarıyam. Bu barədə biz bir neçə dəfə təkliflərimizi vermişik. Amma təəssüf ki, indiyədək buna nail ola bilməmişik.

Məsələnin sülh yolu ilə həll olunması üçün Azərbaycanın çox qəti şərtləri var. Bu şərtlər ondan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyü, onun sərhədlərinin toxunulmazlığı təmin olunmalı, Azərbaycan ərazilərini işğal etmiş Ermənistan silahlı qüvvələri bu torpaqlardan çıxmalı və Azərbaycan vətəndaşları həmin işğal olunmuş torpaqlara, öz yerlərinə qayıtmalıdırlar. Biz bu şərtlər əsasında məsələnin sülh yolu ilə həll olunmasına tərəfdarıq və bu barədə ATƏM-in və onun Minsk qrupunun imkanlarından geniş istifadə etməyə çalışırıq. Biz dünyanın böyük dövlətlərinin (bunların böyük əksəriyyəti ATƏM təşkilatının, Birləşmiş Millətlər Təşkilatının, BMT Təhlükəsizlik Şurasının üzvüdür) imkanlarından istifadə etməyə çalışırıq. Bu barədə bizim bir çox tədbirlərimiz olub. Rusiya dövləti də bu məsələlərdə çox fəal iştirak edir, bu məsələnin həll olunmasında vasitəçilik etməyə çalışır. Son vaxtlar ATƏM təşkilatının Minsk qrupu və onun başçısı Yan Eliasson bu məsələdə Rusiya dövlətinin xüsusi bir yer tutmasına da razılıq vermişdir. Minsk qrupu Müstəqil Dövlətlər Birliyinin də bu işə qoşulmasını lüzumlu bilmişdir.



Biz öz işlərimizi bu prinsiplər əsasında aparırıq. Dünyanın bir çox ölkələrinin xarici işlər nazirlərinin İstanbulda olması ilə əlaqədar dünən və bu gün mən bir neçə Qərb ölkəsinin xarici işlər nazirləri ilə də görüşdüm. ABŞ-ın dövlət katibi cənab Uorren Kristoferlə, Böyük Britaniyanın xarici işlər naziri Duqlas Herdlə, İsveçin xarici işlər naziri xanım Marqaret af Uqlasla (bilirsiniz ki, İsveç hazırda Minsk qrupuna rəhbərlik edən bir ölkədir, həmin qrupa İsveçin nümayəndəsi başçılıq edir. Xanım Uqlas da son vaxtlaradək ATƏM təşkilatının sədri olmuşdur. O bu problemlərlə məşğul olub, bu problemləri yaxşı bilir. Marqaret af Uqlas Bakıya da gəlmişdi, bizim onunla görüşümüz olub), Avropa İqtisadi Birliyinin sədri, Yunanıstanın xarici işlər naziri Karolos Papuliasla görüşdüm.

Bu görüşlərdə Azərbaycanın hazırkı ağır vəziyyətdən çıxması, yəni müharibəyə son qoyulması, məsələnin sülh yolu ilə həll olunması barəsində fikir mübadiləsi, müzakirələr apardıq. Mən belə hesab edirəm ki, görüşlərimiz çox faydalı, əhəmiyyətli oldu. Bu görüşlərdə Azərbaycan bir daha öz mövqeyini elan etdi, böyük dövlətlərin, Avropa dövlətlərinin bu prosesdə iştirak etməsi üçün öz arzularını bildirdi. Həmin dövlətlərin xarici işlər nazirləri də bu məsələnin yalnız ATƏM təşkilatı çərçivəsində, Minsk qrupu vasitəsilə həll edilməsinə tərəfdar olduqlarını bildirdilər və bu istiqamətdə gələcəkdə də fəaliyyət göstərəcəkləri haqqında mənə məlumatlar verdilər.

Ona görə də belə hesab edirəm ki, mənim Türkiyəyə səfərim Türkiyə ilə Azərbaycan arasında əlaqələrin genişləndirilməsi ilə birbaşa bağlı olduğu halda, bu müddətdə Azərbaycanla əlaqədar bir çox

mühüm məsələləri burada müzakirə etmək üçün mənə bir fürsət yarandı.

Mənim sizə deyəcəyim bu qədər. İstanbula qısamüddətli ziyarətimdən çox məmnunam. Türkiyə Cümhuriyyətinin prezidenti, hörmətli dostum, qardaşım Süleyman Dəmirələ bu dəvət üçün təşəkkürümü bildirirəm. Türkiyənin baş naziri hörmətli Tansu Çillərə, baş nazirin müavini hörmətli Murad Qarayalçına, xarici işlər naziri hörmətli Hikmət Çətinə və burada olan başqa dostlarımıza, qardaşlarımıza bizə göstərilən qonaqpərvərliyə, hörmətə, dostluq, qardaşlıq əlaqələrinə görə minnətdarlığımı bildirirəm. Türkiyənin xalqına öz hörmətimi və məhəbbətimi bir daha bildirirəm, bundan sonra da xoşbəxt, bəxtiyar yaşamağı arzu edirəm.

Sağ olun.



## «ROSSİYSKAYA QAZETA»nın MÜXBİRİNƏ MÜSAHİBƏ

**– Tezliklə Sizin Azərbaycan prezidenti seçilməyinizin bir ili tamam olacaq. Bir neçə il bundan əvvəl əksəriyyət əmin idi ki, Heydər Əliyevin siyasi karyerası başa çatmışdır...**

– Mən buraya, demək olar ki, öz iradəmlə gəlməmişəm. 1987-ci ildə SSRİ rəhbərliyi ilə, o cümlədən şəxsən Qorbaçovla ciddi ixtilaflar ucbatından Siyasi Büronun tərkibindən çıxanda siyasi fəaliyyətlə məşğul olmurdum. 1990-cı ilin axırlarında mənə, Bakıda yaşamaq üçün imkan verilməyəndə Naxçıvanda sığınacaq tapdım, yenə də siyasi həyata qoşulmaq istəmədim. Amma 1991-ci ildə çox mürəkkəb vəziyyət yarandı. Azərbaycanın tərkibində olan bu muxtar respublika dövlətin əsas ərazisindən ayrı düşmüş, İran, Türkiyə və Ermənistanla həmsərhəddir, buna görə də müharibə nəticəsində blokadaya məruz qaldı. Xalq bir neçə gün meydanlarda mitinq keçirdi, tələb etdi ki, mən respublika Ali Sovetinə rəhbərlik edim və beləliklə də, bunu etməyə məcbur oldum. İşləməyə başladım. Bu çox mürəkkəb regiondur. Biz çətinliklə yaşayırdıq, amma hər halda xırda sərhəd toqquşmaları istisna olmaqla sakit həyat keçirirdik.

Orada indi də nə müharibə, nə də əvvəlki kimi, kriminogen vəziyyət var. Türkiyə Naxçıvana 100 milyon dollar məbləğində kredit verdi, onun 20 milyonunu dərhal ərzaq alınmasına sərf etdik, bu da vəziyyəti yüngülləşdirdi. Fikirləşirdim ki, bu muxtar respublika mənim üçün son dayanacaqdır.

Amma keçən ilin iyununda Azərbaycanda hakimiyyət uğrunda mübarizə kəskinləşdi, respublika vətəndaş müharibəsi həddinə çatdı. Onda prezident Əbülfəz Elçibəyin şəxsində Azərbaycan rəhbərliyi mənə Bakıya gəlib respublikanı böhrandan çıxarmağa kömək göstərmək barədə müraciət etdi. Mən qayıtmaq istəmirdim, amma sonra qərarlaşdım ki, xalq bədbəxtliyə düçar olubsa, kənarda qalmaq doğru deyil. Təəssüf ki, Azərbaycan Ali Soveti sədri vəzifəsinin icrasına başlamağımdan iki gün sonra prezident Elçibəy gizli şəkildə Bakını tərk etdi və o vaxtdan bəri Naxçıvanda bir dağ kəndindədir. Mən tək qaldım. Budur, 11 aydan bəridir ki, respublikada vəziyyəti düzəltməklə məşğulam.

**– Azərbaycanın qarşısında indi hansı əsas problemlər durur?**

– Biz çox mürəkkəb dövr keçiririk. Vahid sovet dövlətinin tərkibində olduğumuz vəziyyətdən müstəqilliyin təşəkkülünə, suverenliyin möhkəmləndirilməsinə keçid öz-özlüyündə sadə iş deyil. Vəziyyəti mürəkkəbləşdirən bir də odur ki, bütün keçmiş sovet respublikaları, xüsusilə iqtisadiyyat sahəsində bir-biri ilə çox sıx bağlı idi və əlaqələrin qırılması Azərbaycan iqtisadiyyatına güclü təsir göstərdi. Digər tərəfdən, respublika bir iqtisadi sistemdən digərinə, öz qanunları və prinsipləri olan sosial-iqtisadi sistemdən azad bazar iqtisadiyyatına keçir. Nəhayət, Azərbaycanda ictimai-iqtisadi vəziyyəti mürəkkəbləşdirən üçüncü məsələ müharibədir. Bu müharibə altı ildir davam edir, respublika ərazisinin təxminən 20 faizi işğal edilmişdir. 1 milyondan artıq adam qaçqın vəziyyətindədir.

**– Münaqişənin səbəbləri haqqında nə deyə bilərsiniz və onu dayandırmaq üçün nə etmək lazımdır?**

– Bu müharibəni Azərbaycan tərəfi başlamamışdır. İndi nə baş verdiyini təhlil etməyə lüzum yoxdur, amma mən bütün bunların nə vaxt baş verdiyi barədə bir şey demək istəyirəm. Azərbaycan vahid, mərkəzləşdirilmiş dövlətin – SSRİ-nin tərkibində idi və buna görə də ittifaq rəhbərliyi münaqişə yaranmasına imkan verməyə bilərdi. Yaxud da bu münaqişə başlasaydı, onun inkişafının qarşısını ala bilərdi. Təəssüf ki, belə olmadı. Qarabağ münaqişəsi SSRİ ərazisində ilk münaqişə idi, indi isə, baxın, nə qədər qaynar nöqtə yaranmışdır.

Hazırda Azərbaycan öz ərazi bütövlüyünü qoruyub saxlamaq uğrunda müharibə aparır. Amma bütün bu dövr ərzində mən müharibəyə danışıqlar yolu ilə son qoymaqla məşğul olmuşam. Mayın 10-da atəş kəsilmişdir. Hazırda ATƏM-in Minsk qrupunun və Rusiyanın iştirakı ilə danışıqlar gedir. Güman ki, münaqişəni aradan qaldırmaq üçün, nəhayət, razılaşma əldə etmək mümkün olacaq. Amma bir şərtlə: erməni hərbi birləşmələri Dağlıq Qarabağdan başqa, Azərbaycanın bütün işğal edilmiş ərazilərini boşaltmalıdırlar. Sonra Dağlıq Qarabağın statusu haqqında danışıqlar aparmaq olar.

**– Bişkekdə danışıqlar zamanı ayrıca qüvvələr haqqında söhbət gedirdi...**

– Baxarıq. Hər halda, müharibəni dayandırmaq və atəşkəs barədə razılaşmaya riayət olunmasına nəzarət etmək, erməni hərbi birləşmələrinin çıxarılmasını təmin etmək üçün, şübhəsiz, hansısa qüvvələr lazımdır. ATƏM-in Minsk qrupu bu qüvvələri müşahidəçilərdə görür. Rusiya isə buraya MDB-nin sülhməramlı ayırıcı qüvvələri adlanan qüvvələri yeritmək istəyir, amma bu məsələ hələ danışıq mərhələsindədir.



**– Qafqazda vəziyyəti necə qiymətləndirərdiniz? Son vaxtlar tez-tez deyirlər ki, Rusiya hələ də bu regiona münasibətdə dəqiq siyasi konsepsiya işləyib hazırlamamışdır.**

– Rüsiyanın hansısa dəqiq mövqeyinin olub-olmamasını demək mənə çətindir. Amma fakt odur ki, Qafqaz çox mürəkkəb regiondur, daha düşünülmüş, ölçülüb-biçilmiş, çox müdrik mövqe tələb edir, Rusiya isə böyük ölkədir. Qafqaz 200 ildən artıqdır, onun tərkibindədir – istər çar Rusiyası olsun, istərsə də Rusiyanın hakim olduğu SSRİ. Rusiya da bütün Qafqaz respublikalarına eyni münasibət bəsləməlidir. Əgər bu və ya digər tərəfə meyl olsa, bu, vəziyyətin mürəkkəbləşməsinə və nəticə etibarilə onun regionda nüfuzunu itirməsinə gətirib çıxaracaq. Təkrar edirəm, Rusiyanın hansı xalqla tarixən daha çox bağlı olduğundan, dini mənsubiyyətdən asılı olmayaraq ölçülüb-biçilmiş mövqeyi olmalıdır. Mənə elə gəlir ki, məhz bu halda həm Rusiyanın Qafqazda daha böyük nüfuzu olacaq, həm də Qafqazda daha çox sakitlik təmin ediləcək. Qafqazda daha çox sakitlik isə Rusiyada daha çox sakitlik deməkdir.

**– Postsovet məkanında əlaqələrin qırılması problemini keçmiş respublikalar artıq iki ildir, MDB çərçivəsində həll etməyə çalışırlar. Siz bu təşkilatın fəaliyyətini və perspektivlərini necə qiymətləndirirsiniz?**

– Məncə, bu təşkilatın perspektivləri var. O, hər bir respublikanın daha müvəffəqiyyətlə inkişafı üçün lazımdır. Buna görə də mən Azərbaycanın rəhbəri olanda MDB-yə etimad ab-havası və birliyə daxil olmaqdan ötrü şərait yaratmaq üçün çox səy göstərdim.

Doğrusu, bu o qədər də asan deyildi. Müxtəlif səbəblər ucbatından Azərbaycanda Müstəqil Dövlətlər Birliyinə qarşı çox mənfi münasibət yaranmışdı. Demirəm ki, hamıda, amma mütləq əksəriyyətin münasibəti belə idi. Hər şeydən əvvəl, 20 yanvar 1990-cı il hadisələri xalqa çox ciddi mənəvi zərbə vurmuşdu. Digər tərəfdən, hakimiyyətdə olarkən Xalq Cəbhəsi çox fəal şəkildə antirus əhval-ruhiyyəsi yaratmışdı. Ona görə də ictimai şüurda bu əhval-ruhiyyəni aradan götürmək üçün bir neçə ay vaxt tələb olunurdu. Sentyabrın 24-də biz MDB-yə daxil ol-

duq. Hesab edirəm ki, bu, lazımlı, mühüm addım idi və gələcəkdə Azərbaycan MDB-nin tərkibində olmalıdır. Birliyin praktik fəaliyyətinə gəlincə, deməzdim ki, bu təşkilat artıq təşəkkül tapmışdır və həqiqətən işləyir. Elə təsəvvür yaranır ki, dövlət başçılarının 1,5-2 gün davam edən görüşündə MDB, deyəsən, mövcuddur, amma bu görüşlər arasındakı dövrdə, deyəsən, yoxdur. Buna görə də, mənim fikrimcə, fəal tədbirlər görmək lazımdır ki, MDB daha müvəffəqiyyətlə fəaliyyət göstərsin.

**– Bəs bunun üçün nə lazımdır? Bəlkə, hansısa dövlətüstü strukturlara ehtiyac var?**

– Bunu məqsədəuyğun hesab etmirəm. Bunun arxasında vahid dövlətin bərpası, milli mənafeyə toxunmaq ehtimalı durur. Hazırda keçmiş respublikalar müstəqil dövlətlərdir və bununla razılaşmaya bilərlər. Ancaq daha sıx inteqrasiya zəruridir.

**– Əvvəllər SSRİ-də tez-tez xalqlar dostluğu haqqında danışırdılar. MDB-də, bundan başqa, hansı məsələni istəyirlərsə, müzakirə edirlər. Sizə elə gəlmirmi ki, indi məhz bu lazımdır?**

– Həqiqətən, bu məsələ çox mühümdür. Aşqabad görüşündə mən rəsmi bəyanat verdim və bildirdim ki, eyni ittifaqın üzvü olan iki dövlətin öz aralarında müharibə aparmasını qeyri-normal hal hesab edirəm. Amma cavab reaksiyası almadım. İkinci dəfə aprelin 15-də Moskvada yenidən belə bir məsələ qaldırdım ki, MDB birləşmək və ittifaqımızın mənafeyini müdafiə etmək üçün yaradılmışdır, buna görə də ittifaqın iki üzvünün öz aralarında müharibə aparması yolverilməzdir, dünya praktikasında belə şey heç vaxt olmamışdır. Yenə də bu məsələni müzakirə etmədilər. Halbuki hərbi və iqtisadi amillərlə yanaşı, MDB-yə mənəvi-əxlaqi iqlim lazımdır, gələcək münaqişələrdən, bir-birinə ədavətdən qurtulmaq vasitəsi kimi xalqlar dostluğunun möhkəmləndirilməsi lazımdır. MDB-nin funksiyaları humanitar sahəni də, millətlər və xalqlar arasında qarşılıqlı münasibətlərin möhkəmləndirilməsini də əhatə etməlidir, amma bunun üçün MDB-nin özünün daxilində qarşılıqlı münasibətlər hərarətli və mehriban olmalıdır.

**– Prezident olduğunuz qısa müddət ərzində Siz qeyri-adi diplomatik fəallıq göstərmisiniz. Beynəlxalq aləmdə Azərbaycanın yönümünü necə səciyyələndirmək olar?**

– Belə bir faktı uğur hesab edirəm ki, Rusiya ilə Azərbaycanın qarşılıqlı münasibətlərinin tənqidini müsbət tərəfə döndərmək mənə



müyəssər oldu. Mən B.Yeltsin və V.Çernomırdinlə, digər rəsmi şəxslərlə görüşmüşəm, biz bir sıra mühüm sənədlər imzalamışıq, MDB-yə daxil olmuşuq. Yəni mənim ilk addımlarım Rusiya ilə xeyirxah münasibətlərin bərpasına yönəlmişdir. Bu xətt davam etdiriləcəkdir: Rusiya Azərbaycan üçün həm yaxın qonşu, həm də istər Azərbaycanda, istərsə də Rusiyada yaşayan respublika vətəndaşlarının bir çoxunun taleyinin bağlı olduğu böyük ölkədir.

Təbii ki, biz bütün qonşu ölkələrlə, məsələn, Türkiyə ilə dostluq münasibətlərinin yaradılmasına tərəfdarıq. Bu münasibətlər əvvəl də yaxşı idi, mənim Türkiyəyə səfərim və imzaladığım müqavilə isə münasibətlərimizi daha da möhkəmlətdi.

Başqa bir qonşumuz İrandır. Bizim böyük ümumi sərhədlərimiz, ənənəvi əlaqələrimiz var. Doğrudur, əvvəlki rəhbərlik İranla əlaqələrə lazımi əhəmiyyət vermirdi və münasibətlərimizdə bir qədər gərginlik yaranmışdı. Amma oktyabrda prezident Rəfsəncaninin Bakıya səfəri zamanı biz bir sıra sənədlər imzaladıq.

Gürcüstan da bizim qonşumuzdur, orada 600 min azərbaycanlı yaşayır, prezident Şevardnadze də ölkəmizə səfər etmişdir.

Digər ölkələrə gəlincə, demokratik, hüquqi dövlət quruculuğu yolu ilə getdiyimizə görə demokratiya, bazar iqtisadiyyatı sahəsində ənənələri, təcrübəsi olan Qərb ölkələri ilə münasibətləri inkişaf etdirməyə böyük ehtiyacımız var. Ona görə də mən Böyük Britaniyanın və Fransanın rəhbərləri Con Meycorun və Fransua Mitteranın dəvətini qəbul edərək bu dövlətlərə səfər etdim, aramızda kifayət qədər səmərəli danışıqlar oldu.

**– Siz xarici siyasətə, respublikanın daxilindəki problemlərə, Qarabağ münaqişəsinə çoxlu vaxt ayırırsınız... Bu zaman kimə arxalanırsınız? Kənardan Azərbaycanın bütün siyasi üfüqündə bir fiqur – Prezident Heydər Əliyev görünür...**

– Artıq dedim ki, Bakıya öz iradəmlə qayıtmamışam və siyasətlə məşğul olmağı planlaşdırmamışdım. Bir qədər dəbdəbəli səslənsə də, məni xalq çağırdı. Buna görə də heç bir komandamı gətirmədim və hazırlamadım. Doğrudur, Azərbaycanı yaxşı tanıyıram. Amma buradan 1982-ci ildə getmişəm; bu dövr ərzində rəhbərlərin bütöv bir nəsli dəyişmişdir. Özümün heç bir partiyam yoxdur, indi olan adamlarla işləyirəm.

**– «Rossiyskaya qazeta»nın oxucularına nə demək istərdiniz?**

– İstəyirəm ki, onlar bir şeyi bilsinlər: mən prezident kimi, Rusiya ilə dostluq əlaqələri yaratmağa çalışacaq, bunun üçün bütün səyləri göstərəcəyəm.

***Söhbəti Pavel Alekseyev aparmışdır***
***Bakı–Moskva***

***«Azərbaycan» qəzetinin 18 iyun 1994-cü il tarixli nömrəsindən götürülmüşdür***



## TEHRANDA MƏTBUAT KONFRANSINDA BƏYANAT

*2 iyul 1994-cü il*

Hörmətli xanımlar, cənablar, hörmətli mətbuat nümayəndələri. Dördüncü gündür ki, mən İran İslam Cümhuriyyətinin prezidenti hörmətli ağayi Haşimi-Rəfsəncaninin dəvəti ilə bu ölkədəyəm. Səfər başa çatır və bir neçə saatdan sonra mən Tehranı tərk edəcəyəm. Deyə bilərəm ki, bu səfər İran ilə Azərbaycan arasındakı dostluq və qardaşlıq əlaqələrinin gələcək inkişafında yeni bir mərhələdir.

Səfər haqqında danışarkən onu qeyd etmək istəyirəm ki, İran İslam Cümhuriyyəti, İran xalqı Azərbaycan Respublikası üçün, Azərbaycan xalqı üçün qonşu, dost, qardaş ölkə və xalqdır. Ona görə də biz belə hesab edirik ki, bu ölkə ilə Azərbaycan arasındakı münasibətlər daim səmimi və mehriban olmalıdır. Elə olmalıdır ki, bütün sahələrdə əməkdaşlıq yüksək sürətlə inkişaf etsin. Mən bu məqsədlə buraya gəlmişəm və qeyd edə bilərəm ki, səfərdə olduğum günlərdə İran İslam Cumhuriyyətinin rəhbərləri – cənab Ayətullah Seyid Əli Xamnei, hörmətli prezident ağayi Haşimi-Rəfsəncani, İran Məclisinin başçısı ağayi Natiq Nuri ilə, xarici işlər naziri Əli Əkbər Vilayəti, kooperasiya naziri Quam Rza Şafeyi ilə və başqa dövlət adamları ilə səmərəli görüşlərim olmuşdur. Bu görüşlərdə iki ölkə arasında, xalqlarımız arasında iqtisadiyyat, ticarət, mədəniyyət, elm, texnika sahəsində və başqa sahələrdə əməkdaşlığın inkişafı haqqında danışıqlar aparılmış və yaxşı nəticələr əldə edilmişdir. Həmin danışıqların nəticəsində razılaşdırılmış sənədlər bu gün imzalanacaqdır. Güman edirəm ki, məsələ təkcə bu sənədlərdə deyildir, münasibətlərimizin hüdudları həmin sənədlərdən xeyli genişdir.

Şübhəsiz ki, bütün danışıqlarda son illərdə Azərbaycanın ağır müharibə şəraitində yaşaması haqqında, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və bunun nəticəsində ərazimizin 20 faizinin işğal edilməsi haqqında, zəbt olunmuş torpaqlarımızdan bir milyondan artıq azərbaycanlının didərgin düşməsi barədə və bununla bağlı bütün problemlər haqqında fikir mübadiləsi aparılmışdır.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticəsi olan müharibə dövründə Azərbaycanın düşdüyü ağır sosial-iqtisadi böhran şəraitində biz İran İslam Cümhuriyyətinin yardımını daim hiss etmişik. İndiki danışıqlarımızda da bu barədə söhbət getmişdir. Bu yardıma görə, bizimlə həmrəy olduqlarına, bizi beynəlxalq aləmdə müdafiə etdiklərinə görə İranın rəhbərlərinə təşəkkürümü bildirmişəm.

Bir daha qeyd edirəm ki, bu görüşlərimiz Azərbaycan ilə İran arasında dostluq, qardaşlıq əlaqələrinin həm yeni bir mərhələsidir, həm də bu əlaqələrin sürətlə inkişaf etməsi üçün yaxşı şərait yaradır və Azərbaycan tərəfi gələcəkdə bu şəraitdən səmərəli istifadə etməyə çalışacaqdır. Vaxt az olduğuna görə mən çıxışımı bu qısa məlumatla tamamlayıram.

**S u a l :** İsrail də Ermənistan kimi, müsəlman torpaqlarını işğal edib. Necə ola bilər ki, Siz İsrail ilə əlaqələr yaratmaq fikrinə düşmüsünüz?

**C a v a b :** Əvvəla, demək istəyirəm ki, Azərbaycan beynəlxalq prinsiplərə, müqəddəs beynəlxalq normalara daim riayət edir və edəcəkdir. Həmin prinsiplərin ən mühümlərindən biri ölkələrin, dövlətlərin ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığı, bir ölkənin başqa ölkənin ərazisini zorla ələ keçirməsinin yolverilməzliyidir. Bu prinsiplərə riayət edərək biz bütün ölkələri, o cümlədən İran İslam Cumhuriyyətinin ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını müdafiə edirik. Azərbaycan heç bir ölkənin torpağına göz dikməmişdir, heç vaxt qəsbkarlıq yoluna düşməyəcəkdir, işğalçılığı, qəsbkarlığı həmişə pisləmişdir və bundan sonra da pisləyəcəkdir. Ermənistan həm İranın, həm də Azərbaycanın qonşusudur. Ermənistanın Azərbaycana qarşı altı ildən artıq davam edən təcavüzü həm Azərbaycan üçün, həm də İran üçün böyük bir bəladır. Erməni silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərində müsəlman abidələrini, tarix və mədəniyyət abidələrini dağıdırlar. Ona görə də buna yol verməmək təkcə bizim işimiz deyil, bütün müsəlman xalqlarının işidir.

Azərbaycan müstəqil dövlətdir, xarici siyasətini demokratik prinsiplər əsasında qurur, dünyanın bütün dövlətləri ilə qarşılıqlı əlaqələr yaradaraq öz müstəqilliyini möhkəmləndirməyə çalışır.

**S u a l :** Siz çıxışlarınızın birində dediniz ki, Azərbaycan Respublikası dünyanın böyük dövlətlərinin himayəsindən bəhrələnmək istəyir. Deyə bilərsinizmi, böyük dövlətlər adı altında Siz hansıları nəzərdə tutursunuz? Rusiya ilə əlaqələrdə də eyni prinsipləri gözləyirsinizmi?



**C a v a b :** Mən qeyd etdim ki, biz bütün dövlətlərlə qarşılıqlı əlaqələr yaratmaq istəyirik. Rusiya Azərbaycanın şimalında olan böyük dövlətdir. Azərbaycan iki yüz ilə yaxın müddətdə Rusiyanın tərkibində olmuşdur. Son 70 ildə Sovetlər İttifaqının tərkibində olarkən Azərbaycanın inkişaf etmiş böyük iqtisadi potensialı Rusiya ilə çox bağlıdır. Azərbaycanın bütün dövlətlərlə qarşılıqlı əlaqələr yaratmasından danışarkən mən ilk növbədə qonşu dövlətləri nəzərdə tuturam. Şübhəsiz ki, Azərbaycan bundan sonra da Rusiya ilə yaxşı əlaqələr saxlamalıdır və biz bu istiqamətdə xarici siyasətimizi aparırıq. Gürcüstanda və Ermənistanda Rusiya qoşunları yerləşdirilmişdir. Azərbaycanda Rusiyanın qoşunu yoxdur. Orta Asiyanın müsəlman respublikalarının da hamısında Rusiyanın qoşunu var. Həmin respublikaların, həmçinin Gürcüstanın və Ermənistanın xarici ölkələrlə, yəni İran, Türkiyə və Əfqanıstanla sərhədlərini Rusiya qoşunları qoruyurlar. Respublikamızın isə İran və Türkiyə ilə sərhədlərini Azərbaycanın öz qoşunu qoruyur. Əgər Ermənistanda Rusiyanın böyük qoşun hissələri varsa, siz gərək bunun mənası barədə özünüz düşünəsiniz. Rusiya Ermənistan ilə Azərbaycan arasında müharibənin dayandırılmasında vasitəçilik etməyə çalışır. Beynəlxalq təşkilatlar, xüsusən ATƏM, onun tərkibində olan Minsk qrupu da belə bir vasitəçilik fəaliyyəti göstərir. Biz müharibəyə son qoymaq, xalqımızı bu bəladan qurtarmaq, işğal olunmuş torpaqlarımızı azad etmək istəyirik. Ona görə də, şübhəsiz ki, bütün bu vasitəçilik imkanlarından imtina edə bilmərik.

**S u a l :** Cənab Prezident, İranda yüksək səviyyədə keçirilən görüşlərdə Xəzər dənizinin statusu məsələsinə rəsmi şəkildə toxunuldumu?

**C a v a b :** Mənim İrana səfərimdən bir neçə gün əvvəl Rusiya prezidentinin Dağlıq Qarabağ üzrə xüsusi numayəndəsi Vladimir Kazimirov Tehranda olmuşdur. O, Tehrandan qayıdarkən Bakıya gəlib mənimlə görüşmüş və məlumat vermişdir ki, Dağlıq Qarabağ məsələsi və bəzi başqa məsələlər barədə İranla məsləhətləşmək üçün İrana getmişdi. Sizin sualınızla əlaqədar bunu deyə bilərəm ki, toxunduğunuz məsələ mən burada səfərdə olarkən müzakirə edilməmişdir. Ona görə də bu barədə bir şey deyə bilmərəm.

**S u a l :** Azərbaycan Respublikası Tehran, Ankara və Moskva ilə öz əlaqələrini hansı prinsiplər əsasında qurur və hansı meyarları əsas götürür?

**C a v a b :** Bir daha təkrar edirəm ki, biz qonşu dövlətlərlə dostluq əlaqələri yaratmaq istəyirik. Deməli, İran da, Türkiyə də bizim üçün dost və qardaş ölkələrdir. Moskva, yəni Rusiya ilə əlaqələr barədə geniş məlumat verdim, ona görə də təkrar etməyə ehtiyac duymuram.

Səfər proqramımda mətbuat konfransına çox az vaxt ayrılmışdır. Xahiş edirəm, Bakıya gəlin, suallarınıza cavab vermək üçün orada vaxtım çox olacaq. Sağ olun.



## İRAN İSLAM RESPUBLİKASINDAN VƏTƏNƏ YOLA DÜŞƏRKƏN «MEHRABAD» HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*2 iyul 1994-cü il*

Mən dörd gündür, İran İslam Respublikasında rəsmi səfərdəyəm. Həmin günlərdə İranın rəhbərləri ilə çox səmərəli, mənalı danışıqlarımız oldu. İran İslam Respublikasının prezidenti Haşimi-Rəfsəncani ilə mən, habelə hər iki ölkənin bir sıra nazirləri yekun sənədlərini imzaladıq.

Görüşlərimizin, danışıqlarımızın hamısı dostluq və qarşılıqlı anlaşma şəraitində keçdi. İranlı dostlarımız mənə və məni müşayiət edən Azərbaycan nümayəndə heyətinə çox böyük qonaqpərvərlik göstərdilər. Bu günlər ərzində biz mehribanlıq və qayğıkeşliklə əhatə olunmuşduq. Hesab edirəm ki, görüşlərimiz, danışıqlarımız, imza etdiyimiz sənədlər Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında olan dostluq və qardaşlıq əlaqələrinin gələcəkdə də inkişafına kömək edəcəkdir.

Mən Tehranı tərk edərkən əziz dostumuz Haşimi-Rəfsəncaniyə, İran İslam Respublikası dövlətinin başqa rəhbərlərinə öz təşəkkürümü və minnətdarlığımı bildirirəm. İran İslam Respublikasının bütün vətəndaşlarına xoş arzularımı söyləyirəm və onların hamısına həyatda xoşbəxtlik, səadət arzulayıram.

## «UTRO ROSSİİ» QƏZETİNƏ MÜSAHİBƏ

**– Heydər Əliyeviç, bir il əvvəl Azərbaycan rəhbərliyinə qayıdarkən Siz yəqin ki, üzləşəcəyiniz çətinlikləri qiymətləndirmişdiniz. Bir il ötdükdən sonra Sizin şəxsi proqnozunuz təsdiq olunmuşdurmu?**

– Bilirsinizmi, mən gənc deyiləm, kifayət qədər həyat təcrübəm var. Ona görə də hakimiyyət naminə hakimiyyət mənə gərək deyil. Yeni dövr siyasətçiləri üçün çox cəlbedici olan hakimiyyətin bütün xarici atributlarından mən, necə deyərlər, hələ 20 il öncə boğaza qədər «doymuşam». Yeri gəlmişkən, iyulun 14-ü mənim «Bastiliyanın alınması günü»mdür – Azərbaycana başçılıq etdiyimdən düz 25 il keçir. Düzdür, on illik fasilə olmuşdur, mən Moskvada işləmişəm. Lakin bütün bunlar hamıya məlumdur, bu barədə indi danışmağa ehtiyac yoxdur. Düzünü deyim ki, 1987-ci ildən sonra fəal siyasi həyata qayıtmaq fikrində deyildim. Adətən öz qərarlarımı dəyişmirəm, ona görə də məni bu mövqeyimi dəyişməyə məcbur edən çox ciddi səbəblər ortalığa çıxmalı idi.

**– Onlar ortalığa çıxdılarmı?**

– Əlbəttə. Hər şeydən öncə, Azərbaycana qayıdaraq vəzirovların və mütəllibovların Vətənimlə, xalqımla nə etdiklərini öz gözlərimlə görəndə dəhşətə gəldim. 1982-ci ildə Moskvaya Azərbaycanın xalq təsərrüfatını çox yaxşı vəziyyətdə qoyub getmişdim. Gələndə gördüm ki, hamının gözü qarşısındaca zəngin respublikanın açıq-aşkar və məqsədyönlü şəkildə dağılması prosesi gedir. Yəqin ki, mən elə o zaman müdaxilə etməli, səsimi ucaltmalı idim. Lakin şərait mənim üçün çox mürəkkəb şəkil almışdı. Məsələ ondadır ki, Moskva və Bakının o zamankı rəhbərləri mənim qayıtmağımdan çox qorxurdular və qayıtmamağım üçün əllərindən gələni edirdilər. Moskvada istefa verdikdən sonra ilk dəfə Bakıya gələrkən aydın oldu ki, bu şəhərdə yaşamaq üçün heç bir yerim yoxdur (nəzərə alın ki, müasir Bakının ən azı yarısı onun rəhbərliyi altında inşa edilmişdir! – red.).Kütləvi çıxışlara da icazə vermirdilər. Mütəllibovsa hətta mənə Bakıya gəlməyi də qadağan etmişdi. Lakin mən, hər halda, paytaxta uçmağı qərara alanda aeroportda məni qarşılamağa gələn



adamı öldürdülər. Başqa sözlə, xalqıma qarşı böyük cinayətlərdən başqa, şəxsən mənim ünvanıma da çoxlu iyrənc əməllərə əl atılırdı. Mən hələ kütləvi informasiya vasitələrində mənə qarşı yönələn antiəliyev kampaniyasından danışmıram. Yalan və böhtanlar axınına hazır idim. Lakin hər bir xırda bəd əməl mənə qəribə görünürdü. Çünki bu respublika rəhbərliyinin nə ilə və necə məşhur olması haqqında təsəvvürlərimlə heç cür uyuşmurdu. Özü də bütün bunlar mənim himayəm sayəsində böyük siyasətə gələnlər tərəfindən baş verirdi...

**– Yəqin ki, Siz əvvəllər də onların qiymətini bilirdiniz?**

– Xeyr. Yeri gəlmişkən, bu mənim siyasətə qayıtmağıma səbəb olan amillərdən biridir (ən başlıcası olmasa da). Bu cür adamların yaranmış şəraitdən istifadə edərək hakimiyyətə gəlməklərində günahımın olması hissi məni tərk etmirdi. İndi də onların Azərbaycana vurduqları ziyanı aradan qaldırmaq üçün bütün qüvvəmi sərf edirəm.

**– Bütün bunlar Vəzirova və Mütəllibova aiddir. Lakin Elçibəy, mənə məlum olduğuna görə, sovet nomenklaturası ilə əlaqəyə heç vaxt malik olmayıb...**

– Əlbəttə. O tamam başqa adamdır. Şərəfli, intizamlı və əgər bilmək istəsəniz, bədbəxt. O hansısa məqamda ətrafında olanların girovuna çevrildi və bəlkə də öz iradəsinin əleyhinə olaraq üzərinə ağır bir yük götürdü. Respubikanı idarə etməyə hazır olmadığından bunun nədən ibarət olduğunu aydın təsəvvür etmirdi. Onun bədbəxtliyini mən bunda görürəm. Səmimiyyətinə və abırlı-həyalı olmasına isə heç bir şübhə yoxdur. Əvvəllər taleyimiz yalnız bircə dəfə kəsişib. O, bəlkə də bu barədə indiyə qədər bilmir. 1975-ci ildə mənə məlumat verdilər ki, Bakıda bir neçə nəfər, necə deyərlər, antisovet ünsürlər həbs edilib. Onların arasında Əbülfəz Elçibəy də var idi. Mən xahiş etdim ki, bu iş barədə ətraflı informasiya versinlər. Onların heç bir cinayət etmədiyinə əmin olduqdan sonra respublikanın o zamankı DTK rəhbərliyinə məsləhət gördüm ki, məsələni şişirtməsinlər. DTK başçısı məsləhətimə qulaq asdı və bütün bunlar Elçibəy və onun yoldaşları üçün yaxşı nəticələndi. Mən elə indi də Elçibəyə – keçmiş prezidentə hörmət bəsləyirəm. Onun yaşadığı Naxçıvandakı kəndi (Kələki–tərc.) toxunulmaz zona hesab edirəm. Bir müddət bundan əvvəl Bakıda mənə qarşı sui-qəsd hazırlanmışdı. Təhqiqat zamanı aydınlaşmışdı ki, bu hadisəylə Elçibəyin əmisi oğlu da bağlıdır. Bu adam Elçibəyin Naxçıvanda yaşadığı

kəndə qaçmışdı. Mən onu həmin kənddə zorla tutmamağı xahiş etmişdim. İstəmirdim ki, Əbülfəz Elçibəyə rahatsızlıq gətirim, o buna layiq deyil.

**– Hər halda, Azərbaycanda hakimiyyətə qayıtmaq qərarınızın başlıca səbəbi nə olub?**

– Ötən ilin bahar-yay mövsümündəki hadisələr. Əsl vətəndaş müharibəsinin başlamasını görəndə, növbəti avantüristin heç kimə məlum olmayan Talış Respublikasını yaratdığını elan etdiyini eşidəndə, Vətənimin tikə-tikə parçalanacağına qəti əmin olanda anladım ki, qayda-qanun yaratmaq vaxtı gəlib çatıb. Bunu xalq tələb edirdi. Bunu mənim ölkə qarşısında olan şəxsi borcumu anlamağım tələb edirdi. Həmin dövrdə daima, gündə bir neçə dəfə prezident Elçibəy, parlamentin sədri İsa Qəmbərov mənə zəng edirdilər. Onlar hadisələrin gedişindən çox narahat olmuşdular və Bakıya gəlməyimi qətiyyətlə xahiş edirdilər. Axır ki gəldim və başlıcası da ən qorxulu şeydən – vətəndaş müharibəsindən və respublikanın dağılmasından yaxa qurtarmaq mümkün oldu. Əhvalat qısaca belədir. Söhbətimizin əvvəlinə qayıdarkən demək istərdim ki, bu il güman etdiyimdən də ağır il oldu.

**– Bu, konkret olaraq özünü nədə büruzə verdi?**

– Hər şeydən öncə, onda ki, gün ərzində 18 saat işləsəm də, iqtisadiyyatla hələ də ciddi şəkildə məşğul olmağa vaxt tapmıram. Müharibə və onunla bağlı olan hər bir şey bütün vaxtımı və qüvvəmi alır. İqtisadiyyatla isə məşğul olmaq lazımdır. Köhnə əlaqələr dağıdılıb, yeniləri isə yaranmayıb. Azərbaycanın, xalq təsərrüfatında bu cür yüksək potensialı olan ölkənin dünya iqtisadi prosesində iştirak etməməyə, sadəcə, haqqı yoxdur. Həm də ki, ənənəvi və bizim üçün çox sərfəli dünya bazarı məntəqəsi–Rusiya və MDB ölkələri vardır. Təcili olaraq istiqaməti dəyişməyə çalışaraq, bu imkanı əldən çıxarmaq ağılsızlıq olar. Əlaqələrin bərabər və qarşılıqlı surətdə sərfəli olmasından ötrü iqtisadi islahatlar prosesindən geri qalmaq yaramaz. Bərabərhüquqlu partnyorlar eyni iqtisadi dildə danışmalıdırlar. İqtisadi qanunlar paketi artıq Azərbaycan parlamentinə təqdim edilmişdir. Lakin mən bu islahatları gerçəkləşdirə biləcək gənc və yüksək dərəcəli təsərrüfat kadrlarına kəskin ehtiyac hiss edirəm.

**– Deməli, Azərbaycana öz Qaydarı lazımdır?**

– İqtisadiyyatı lazımi istiqamətə yönəltmək üçün, zənnimcə, Azərbaycana dörd Qaydar lazımdır.



**– Hazırda keçmiş SSRİ-nin müsəlman respublikalarının əksəriyyətində iqtisadiyyatın türk inkişaf modeli böyük maraq oyadır. Bu barədə Sizin fikriniz necədir?**

– Bizim türk xalqı ilə də, Türkiyə Respublikasının rəhbərliyi ilə də ənənəvi dost münasibətlərimiz var. Əlbəttə, çiçəklənməkdə olan dünyəvi dövlətin nümunəsi çox cəlbedicidir, lakin mənə elə gəlir ki, biz inkişafın türk modelini bütünlüklə təkrar edə bilmərik və etməməliyik də. Azərbaycan milli-tarixi təcrübəsi olan özgə ölkədir. Nə qədər çətin və birmənalı olsa da, Rusiyanın iqtisadi islahatlar təcrübəsinin daha çox gərəkli olacağı istisna deyil.

**– Yeri gəlmişkən, kadrlar haqqında. Haçansa, elan olunmuşdur ki, onlar «hər şeyi həll edirlər». Əvvəldən, hələ sovet dövründən Sizin haqqınızda köklü kadr dəyişikliklərinə qadir, «sərt rəhbər» obrazı qalmaqdadır. Lakin bu il Siz nəinki heç bir repressiyaya əl atmamısınız, hətta respublika rəhbərliyində də əsaslı dəyişikliklər etməmisiniz. Bu nə ilə izah olunur?**

– Doğrudan da, çoxları qorxurdular ki, Əliyev gələcək və qisas almağa başlayacaq, «başlar kəsiləcək», kadrlar dəyişiləcək. Rəsmi olaraq deyə bilərəm: qisas hissi öz tarixində ən ağır dövrlərdən birini yaşayan ölkənin rəhbərinə aid deyil. Bundan başqa, bu cür tarixi məqamlarda vətənini sevən hər bir adam ölkənin rifahı naminə birləşmək üçün şəxsi rəğbət və nifrətini unutmalıdır. Mən demokratik inkişaf prinsiplərinə sadiqliyimi qətiyyətlə bildirmişəm və bu prinsipləri tapdalamağa hazırlaşmıram.

**– Bəs müxalifətlə münasibətləriniz nə cürdür?**

– Müxtəlifdir. Azərbaycan demokratik ölkədir və müxalifətin öz fikrini söyləməyə hüququ var. Bunun ölkəyə və xalqa ziyan vurmadan qüvvədə olan qanunvericilik çərçivəsi daxilində həyata keçirilməsi isə başqa məsələdir. Müxalifətdə olanlarımız üçün milli-dövlət mənafeyinin kifayət qədər qiymətli olmasına səmimiyyətlə ümid bəsləyirəm və hesab edirəm ki, onlar bu mənafeləri şəxsi ambisiyalardan üstün tuta biləcəklər. Əgər belədirsə, onda hər şey qaydasında olacaq.

**– Altı ildir ki, müharibə gedir. Respublikanızın ərazisinin təxminən 20 faizini qarşı tərəf işğal edib. On minlərlə adam həlak olub, milyondan çox adam doğma ocağından məhrum olub, qaçqına çevrilib. Bəs, sonra?**

– Müharibəni biz başlamamışıq. Əminəm ki, onun qarşısını vaxtında almaq olardı. Lakin bu barədə indi nə demək olar? Azərbaycan hazırda özünün ərazi bütövlüyü uğrunda mübarizə aparır. Milli Ordu strukturlaşdırılıb, potensial kifayət qədərdir. Lakin mən bu bir il ərzində hərbi əməliyyatların siyasi yolla dayandırılması axtarışı ilə məşğul olmuşam və yenə də oluram. Müharibə şübhəsiz ki, çıxış yolu deyil. Bunun təkcə bizə yox, həm də rəqiblərimizə ziyanlı olmasına inanmaq istərdim. Biz ədalətli sülh istəyirik. Erməni qoşunları Dağlıq Qarabağdan başqa, bütün Azərbaycan ərazilərini azad etməlidirlər. Yalnız bundan sonra Qarabağın statusu haqqında normal danışıqlar prosesi mümkündür. Zənnimcə, bu şərtlər tamamilə qəbul edilə bilər. Bəzi irəliləyişlər var. Mayın 10-dan bəri atəş dayandırılıb. ATƏM-in Minsk qrupu və Rusiyanın iştirakı ilə fəal danışıqlar gedir.

**– Ayrıca qüvvələr ideyasına necə yanaşırsınız?**

– Hələ ki, danışıqlar gedir və bu barədə, ümumi mövqe yoxdur. ATƏM müşahidəçilər barədə, Rusiya isə MDB-nin sülhməramlı qüvvələri barədə danışır. Əlbəttə, kimsə razılaşmaya riayət olunmasında təminatçı kimi lazımdır. Zənnimcə, bunlar hər halda beynəlxalq təşkilatların himayəsi altında olan hərbi qulluqçular olmalıdırlar. Qarabağ müharibəsi keçmiş Sovet İttifaqı ərazisində baş verən ən birinci və ən uzun sürən millətlərarası münaqişədir. Bu münaqişə təəssüf ki, özündən sonra gələn əksər münaqişələrin prototipinə çevrilib. Deməli, Qarabağ müharibəsindən yaxa qurtarmaq da beynəlxalq təcrübənin işlədiyi klassik sxem üzrə həyata keçirilməlidir.

**– Moskva qəzetlərindən birində bu yaxınlarda belə bir məlumat oxudum: Əliyev Rusiyanın sülhməramlı bölmələrinin yeridilməsi əleyhinədir. Çünki o, hələ Qorbaçovun Siyasi Bürosu dövründən bəri münasibətləri sahmana sala bilmədiyi Yeltsinə etibar etmir. Bu iddianın əsası vardımı?**

– Bu, sadəcə olaraq, cəfəngiyyatdır. Qeyd etməliyəm ki, kütləvi informasiya vasitələrində Azərbaycanla bağlı çoxlu, yumşaq desəm, yoxlanılmamış, bəzən isə açıq-aşkar yalan informasiya oxuyur və eşidirəm. Kiminsə məqsədyönlü şəkildə Azərbaycan xalqı və respublikamız barədə mənfi obraz yaratmağa cəhd göstərdiyi hiss olunur. Halbuki, Azərbaycan çoxmillətli ölkə olaraq qalır. Respublikamızda yaşayan ruslara münasibətdə heç bir zorakılıq halları yoxdur və əminəm ki, gələcəkdə də olmayacaq. Yeri gəlmişkən, deməliyəm ki, prezident seçkiləri zamanı namizədliyim respublikada fəaliyyət göstərən üç dini icma: müsəlman, xristian və yəhudi konfessiyaları tərəfindən irəli sürülmüşdür.



Boris Nikolayeviç Yeltsinlə münasibətlərimə gəlincə, bunlar çox xoş və məhsuldardır. Qorbaçovun Siyasi Bürosu məsələsi haqqında... Yeltsinin partiya taleyinin həll olunduğu Mərkəzi Komitənin məşhur oktyabr (1987-ci il) plenumunda Siyasi Büronun o zamankı üzvlərinin hamısı onun əleyhinə fikir söyləmişdilər, yalnız Əliyevdən başqa. Məhz həmin plenumda mənim Siyasi Bürodan istefa məsələm qəbul edilmişdi. Sov.İKP-dən isə 1991-ci ilin yayında, avqust qiyamından ay yarım əvvəl çıxmışdım.

**– Qorbaçovun yenidənqurması dalğasında hakimiyyətə gələn indiki üç Zaqafqaziya liderindən yalnız biri qalır – Levon Ter-Petrosyan. Sizə elə gəlirmi ki, Ermənistanın siyasi rəhbərliyinin dəyişilməsi Qarabağ münaqişəsinin nizama salınmasının daha uğurlu həllinə imkan verər?**

– Xeyr, mənə elə gəlmir. Mənim Levon Ter-Petrosyanla şəxsi əlaqələr təcrübəm var. O, tamamilə real, praqmatik siyasətçidir. Onunla danışıqlar aparmaq və razılaşmaq olar. Əgər mənim arzularımdan söhbət açılarsa, məhz bu adamla sülh müqaviləsi imzalamaq istərdim.

**– Heydər Əliyeviç, Siz uzun, gərgin və maraqlı ömür sürmüsünüz. Elədikləriniz içərisində ən mühüm nəyi hesab edirsiniz?**

– Bilirsiniz, vəziyyət elədir ki, əvvəlki günlər haqqında düşünməyə, sadəcə olaraq, vaxt qalmır. Həyatımın başlıca vəzifəsini Azərbaycan xalqına onun layiq olduğu ədalətli sülhü gətirməkdə görürəm. Əminəm ki, buna nail olacağam.

***Müsahibəni apardı: «UTRO ROSSİİ» qəzetinin baş redaktoru YURİ BELYAVSKİ***

***«Azərbaycan» qəzetinin 6 iyul 1994-cü il tarixli nömrəsindən götürülmüşdür***

## SƏUDİYYƏ ƏRƏBİSTANINA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA MÜXBİRİN SUALINA CAVAB

*9 iyul 1994-cü il*

Dünya dövlətləri birliyində Səudiyyə Ərəbistanının özünə layiq yeri var. O, ərəb dünyasının inkişaf etmiş zəngin bir ölkəsidir. Eyni zamanda, bu dövlət dünya müsəlmanlarının müqəddəs yerlərinin mühafizidir. Ona görə də bu ölkə ilə Azərbaycan arasında əlaqələr yaradılmalıdır. İndiyədək Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında, demək olar, heç bir əlaqə olmamışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra bu sahədə müəyyən cəhdlər olsa da, bunlar bir nəticə verməmişdir. Ancaq bu ölkə dünya birliyində böyük nüfuza malik olduğuna görə, dini birliyimizi, tarixi ənənələrimizin oxşarlığını nəzərə alaraq, mən Səudiyyə Ərəbistanı məlikinin rəsmi dəvətini qəbul etmişəm və indi səfərə gedirəm. Güman edirəm ki, bu səfər yaxşı nəticələr verəcəkdir. Ən böyük nəticə kimi, onu gözləyirəm ki, bizim müntəzəm əməkdaşlığımız üçün imkanlar yaranacaqdır. Səudiyyə Ərəbistanında bizim səfirliyimiz fəaliyyət göstərir. Bu günlərdə Səudiyyə Ərəbistanının səfiri də Azərbaycana gələrək öz etimadnaməsini təqdim edəcəkdir. Ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələri, turist mübadiləsi, mənəvi əlaqələr genişlənəcəkdir.

Hər il müsəlmanlar Səudiyyə Ərəbistanına ziyarətə gedirlər. Onların arasında Azərbaycandan gedənlər də olur. Ola bilər, bu barədə də danışıqlarımız olsun ki, Azərbaycandan ziyarətə gedənlərə orada necə kömək göstərə bilərlər.

Mən bu səfərə böyük məmnuniyyətlə gedirəm. Səudiyyə Ərəbistanı məni həm bir ölkə kimi maraqlandırır, həm də müsəlmanların müqəddəs yeri kimi, oraya ziyarət edəcəyimi çox böyük həyəcanla gözləyirəm.



## SƏUDİYYƏ ƏRƏBİSTANININ CİDDƏ ŞƏHƏRİNDƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*11 iyul 1994-cü il*

Mən Səudiyyə Ərəbistanında iki müqəddəs şəhərin xadimi, əziz dostum və qardaşım, məlik Fəhd ibn Əbdül Əziz əl-Səudun dəvəti ilə rəsmi səfərdəyəm. Bu səfər müstəqil Azərbaycan Respublikası üçün çox mənalı və əhəmiyyətlidir. Ona görə əhəmiyyətlidir ki, biz müqəddəs torpağa – Səudiyyə Ərəbistanına gəlmişik və buradakı iki müqəddəs şəhəri ziyarət etməyimiz üçün imkan yaranmışdır. Səfərin əhəmiyyəti bir də ondan ibarətdir ki, müstəqil Azərbaycan Respublikasının prezidenti kimi, mən ərəb ölkələrindən ilk dəfə Səudiyyə Ərəbistanına gəlmişəm. Səudiyyə Ərəbistanı ərəb dünyasında, islam aləmində çox görkəmli yer tutur. Ona görə də mənim ilk səfərimin buraya olması təsadüfi deyildir. Səudiyyə Ərəbistanı məlikinin, iki müqəddəs şəhərin xadiminin məni buraya rəsmi səfərə dəvət etməsi mənim üçün çox əziz və qiymətlidir.

Biz bu müqəddəs torpağa qədəm qoyduğumuz andan buradakı qardaşlarımızın, dostlarımızın mehribanlığını hər dəqiqə hiss edirik. Səfərim lap başlanğıcdan indiyədək dostluq, mehribanlıq və qardaşlıq şəraitində keçir. Mənim üçün və nümayəndə heyətimizin üzvləri üçün ən qiymətli cəhət ondan ibarətdir ki, biz bu ölkəyə gəlişimizin ilk günü müqəddəs Kəbəni ziyarət etdik və müsəlmanlıq borcumuzu yerinə yetirmək, nəhayət, bizə qismət oldu. Müqəddəs Məkkə şəhərində olmaq, müqəddəs Kəbə daşına toxunmaq və Kəbədə namaz qılmaq bizim üçün böyük şərəfdir. Bu şərəfə nail olduğuma görə, bu niyyət və arzularıma çatdığıma görə Allah-Təalaya minnətdarlığımı bildirirəm, taleyimə şükür edirəm və iki müqəddəs şəhərin xadiminə, əziz dostuma minnətdarlığımı bildirirəm. Biz bu ziyarətdən çox məmnunuq və bu ziyarət Səudiyyə Ərəbistanına səfərimizin ilk gününü tamamlamışdır.

Səudiyyə Ərəbistanına səfərimin bir məqsədi də bu ölkə ilə müstəqil Azərbaycan Respublikası arasında əlaqələr yaratmaq və bu əlaqələrin gələcək inkişaf yollarını müəyyənləşdirməkdir. İki müqəddəs şəhərin xadimi, Səudiyyə Ərəbistanının məliki əziz dostum və qardaşım

Fəhd ibn Əbdül Əziz əl-Səudla görüşümüz və çoxsaatlıq danışıqlarımız buna yaxşı zəmin yaratdı. Danışıqlarımız dostluq və mehribanlıq şəraitində keçmiş, mənə ən yüksək səviyyədə qonaqpərvərlik göstərilmişdir. Ən başlıcası isə, danışıqlarımız çox məzmunlu və mənalı, müstəqil Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında əlaqələrin yaranması üçün çox əhəmiyyətli olmuşdur. Biz bütün məsələlər barədə geniş fikir mübadiləsi etdik. Ölkələrimiz arasında əlaqələrin perspektivləri haqqında ümumi fikrə gəldik və hər ikimiz bu əlaqələrin yaranmasına, inkişafına xeyir-dua verdik. Biz həmçinin islam aləmində olan vəziyyət, beynəlxalq vəziyyət haqqında geniş fikir mübadiləsi etdik.

İki müqəddəs şəhərin xadimi, məlik Fəhd ibn Əbdül Əziz əl-Səud müstəqil Azərbaycan Respublikasının keçmişinə və bugünkü vəziyyətinə çox böyük maraq göstərdi. Biz keçmiş Sovetlər İttifaqına daxil olmuş indiki müstəqil respublikalardakı vəziyyət barədə də ətraflı söhbət etdik. Xüsusən, Qafqaz regionundakı vəziyyət və Azərbaycan ilə Ermənistan arasında gedən müharibə, Ermənistanın Azərbaycana qarşı təcavüzü haqqında ətraflı məlumat verdim və biz bu barədə geniş müzakirə apardıq. İki müqəddəs şəhərin xadimi və Səudiyyə Ərəbistanının yüksək vəzifəli digər şəxsləri ilə görüşlərim və danışıqlarım Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında dostluq, qardaşlıq əlaqələrinin yaranması və inkişafı üçün çox əhəmiyyətli oldu.

Səfər zamanı mən Səudiyyə Ərəbistanının Sənaye-Ticarət Palatasında oldum, Palatanın üzvləri, ölkənin iş adamları ilə görüşdüm. Güman edirəm ki, bu görüş və Səudiyyə Ərəbistanının iş adamlarını Azərbaycana dəvət etməyim, Azərbaycanda iş aparmaq üçün geniş imkanlar yaradılacağını bildirməyim onları Azərbaycanda işləməyə sövq edəcəkdir və bütün bunlar ölkələrimiz arasında iqtisadi əlaqələrin yaranmasına kömək göstərəcəkdir.

Ciddədə yerləşən və islam dünyasını təmsil edən beynəlxalq təşkilatların–İslam Konfransı Təşkilatının, İslam Birliyi Təşkilatının, Beynəlxalq İslam «Nicat» Təşkilatının, İslam İnkişaf Bankının, İslam Rabitə Təşkilatının rəhbərləri ilə də görüşlərim oldu. Danışıqlar zamanı həmin təşkilatların Azərbaycanla əlaqələri haqqında fikir mübadiləsi apardıq və onlara müraciət edərək Azərbaycana daha diqqətlə yanaşmağa çağırdım.

Səfər müddətində Azərbaycan Respublikasının xarici işlər naziri Həsən Həsənov Səudiyyə Ərəbistanının xarici işlər naziri ilə danışıqlar aparmışdır. Bu ölkənin qanunlarına uyğun olaraq, xarici işlər nazirləri Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında baş saziş imzalamışlar. Həmin saziş ölkələrimiz arasında iqtisadi, elmi-texniki, mədəni, turizm və başqa sahələrdə əməkdaşlığın inkişafı ilə bağlı olan mühüm sənəddir. Mən burada rəsmi səfərdəyəm, ölkənin qanunlarına, adət-ənənələrinə hörmət edirəm və həmin sənədi dövlətlərarası mühüm bir saziş kimi qəbul edirəm.



Səfərimin yekunları ilə əlaqədar Səudiyyə Ərəbistanı məmləkətinin və Azərbaycan Respublikasının birgə bəyanatı olacaq və şübhəsiz, bu sənəddə ölkələrimiz arasındakı əlaqələr və həmin əlaqələrin perspektivləri öz əksini tapacaqdır.

Bir daha deyirəm ki, mənim Səudiyə Ərəbistanına səfərim Azərbaycan Respublikası üçün həddən artıq əhəmiyyətlidir. Bu səfərlə biz Azərbaycan Respublikasının islam dünyasına aid olduğunu bir daha nümayiş etdiririk və mən çox məmnunam ki, islam aləmində görkəmli yer tutan Səudiyyə Ərəbistanı kimi bir dövlətlə bizim dostluq və qardaşlıq əlaqələrimiz yaranır.

Güman edirəm ki, həm Azərbaycanın, həm də Səudiyyə Ərəbistanının ictimaiyyəti danışıqlarımızın və mənim buraya səfərimin yekunlarını bəyənəcəklər. Qətiyyətlə deyə bilərəm ki, bu səfər və onun yekunları Azərbaycan Respublikasında böyük ehtiramla qəbul ediləcəkdir.

Buradakı danışıqlarımızın və görüşlərimizin ən böyük əhəmiyyəti bir də ondan ibarətdir ki, Səudiyyə Ərəbistanına müstəqil Azərbaycan Respublikası haqqında, onun bugünkü ağır vəziyyəti barədə geniş məlumat vermək imkanı qazandıq. Bilirsiniz ki, Azərbaycan iki il bundan əvvəl müstəqillik əldə etmiş və xalqımız milli azadlığa qovuşmuşdur. Ondan əvvəl Azərbaycan, təxminən 200 il ərzində Rusiyanın, sonra isə Sovetlər İttifaqının tərkibində olmuşdur. İndi Azərbaycan xalqının istiqlaliyyət qazanması, milli azadlığa nail olması ölkəmiz üçün böyük tarixi hadisədir. Hazırda Azərbaycan müstəqil dövlət kimi dünya birliyinə daxildir. Beynəlxalq təşkilatların üzvüdür. Xalqımız özü öz taleyinin sahibidir.

Ancaq bu müstəqillik yolunda Azərbaycanın qarşısında çox mürəkkəb, çətin problemlər durur. Problemlərdən biri ondan ibarətdir ki, müstəqil Azərbaycan Respublikası keçmiş ictimai-siyasi və iqtisadi quruluşdan dünyanın bütün ölkələrinin mənsub olduğu bir quruluşa keçid mərhələsindədir. Şübhəsiz ki, 70 il kommunist ideologiyası ilə, so-

sialist sistemində yaşamış Azərbaycan xalqı tamamilə yeni bir quruluşa keçərkən çətin problemlərlə rastlaşır. Bu isə Azərbaycan Respublikasını dərin sosial-iqtisadi böhran vəziyyətinə gətirib çıxarmışdır. Bu, təbii haldı, biz həmin mərhələni keçməliyik. Çünki bunsuz yeni sistemə keçmək mümkün deyildir. Bu, keçmiş Sovet İttifaqına daxil olan indiki müstəqil respublikaların hamısına aiddir.

Azərbaycanın vəziyyətini daha da ağırlaşdıran bir səbəb də qonşu Ermənistan Respublikasının ölkəmizə qarşı altı ildən artıq davam edən hərbi təcavüzüdür. Bu təcavüz Azərbaycana çox böyük bəlalar gətirmişdir. Altı ildir ki, Azərbaycan öz torpaqlarını qorumaq, ərazisinin bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin etmək üçün qanlı döyüşlər aparır. Müstəqil Azərbaycan dövləti məhz belə bir şəraitdə yaranmışdır və istiqlaliyyət yolunda ilk addımlarını atır.

Mən burada səfərdə olarkən bir daha hiss etdim ki, Azərbaycanın indiki vəziyyəti, ümumiyyətlə, ölkəmiz haqqında və Azərbaycanın Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalması haqqında Səudiyyə Ərəbistanında, Azərbaycandan uzaqda yerləşən bütün ölkələrdə çox az məlumat var, bəzi məlumatlar isə ayrı-ayrı dövlətlərin informasiya kanallarından alındığına görə, obyektiv xarakter daşımır. Ona görə də Səudiyyə Ərəbistanının informasiya vasitələri üçün Azərbaycan haqqında qısaca məlumat vermək istəyirəm.

Bildiyiniz kimi, Azərbaycan Qafqazda yerləşir, əhalisi 7 milyon nəfərdir, müsəlman ölkəsidir. Sovetlər İttifaqının tərkibində olduğu 70 il ərzində müsəlman ölkəsi kimi, onun dini qadağan edilmişdi. Ancaq buna baxmayaraq, azərbaycanlılar öz dinini qoruyaraq nəsildən-nəslə qəlblərində saxlamışlar. Azərbaycan istiqlaliyyət qazandıqdan sonra milli adət-ənənələrimizi bərpa edərkən İslam dini də öz yerini tutmuşdur.

Azərbaycanın böyük iqtisadi, elmi, mədəni potensialı var.

Xalqımız öz tarixi keçmişi, kökləri ilə müsəlman ölkələri, o cümlədən Səudiyyə Ərəbistanı ilə çox möhkəm tellərlə bağlıdır. Bildiyiniz kimi, Azərbaycan islam dinini VII əsrdə qəbul etmişdir. Məni müşayiət edən Səudiyyə Ərəbistanının Həcc naziri belə məlumat verdi ki, onun tədqiqatları islam dininin yayıldığı ilk ölkələrdən birinin Azərbaycan olduğunu göstərir. Bizim adət-ənənələrimiz bir-birinə çox oxşayır və ola bilər, eynidir. Bizə məlumdur ki, Səudiyyə Ərəbistanında – müqəddəs Məkkə və Mədinə şəhərlərində əsrlər boyu azərbaycanlılar da yaşamışlar və bu kökdən olan adamlar indi də yaşayırlar. Bütün bunlar bir daha sübut edir ki, bizim mədəniyyətimizin, mənəviyyatımızın mənbəyi eynidir.



Azərbaycan Respublikası yeraltı və yerüstü sərvətlərlə zəngindir. Başlıca sərvətimiz neftdir. Azərbaycanda neft sənayesinin 150 illik tarixi var. Buna baxmayaraq, onun gələcəyi böyükdür. Azərbaycanın inkişaf etmiş sənayesi, kənd təsərrüfatı məhsulları istehsalı üçün geniş imkanları, böyük elmi mərkəzləri, tanınmış alimləri var. Bizdə çoxlu universitet fəaliyyət göstərir. Ölkədə, demək olar, savadsız adam yoxdur. Belə bir potensialı olan respublika, təəssüf ki, Ermənistanın təcavüzü nəticəsində bu potensialdan istifadə edərək öz həyatını istədiyi kimi qurmaq imkanından məhrumdur.

Ermənistan Azərbaycanla qonşu olan kiçik dövlətdir. Bildiyiniz kimi, ermənilər başqa dinə mənsubdurlar. Onların Azərbaycana təcavüzünün məqsədi torpaqlarımızın bir qismini zəbt edərək öz ərazilərinə birləşdirməkdir. Ayrı-ayrı böyük dövlətlərin informasiya vasitələri bəzən qeyri-obyektiv məlumat verərək, Azərbaycana qarşı bu hərbi təcavüzü iki ölkə arasında sərhəd mübahisəsi kimi izah edirlər, yaxud da hər iki dövlətin eyni dərəcədə günahkar olduğunu göstərməyə çalışırlar. Belə məlumatları ayrı-ayrı böyük dövlətlərdə, əsasən Ermənistana kömək edən, bu təcavüzdə onu dəstəkləyən informasiya vasitələri Azərbaycan haqqında qeyri-obyektiv fikir yaratmaq üçün qəsdən yayırlar. Bu vəziyyətin yaranmasının bir səbəbi də Azərbaycan haqqında həqiqətin başqa ölkələrdə, o cümlədən müsəlman ölkələrində yayılması sahəsində imkanlarımızın zəif olmasıdır.

Əsl vəziyyət bundan ibarətdir ki, 29 min kvadrat kilometr ərazisi və 3,5-4 milyon əhalisi olan Ermənistan Respublikası kimi kiçik bir dövlət 86 min kvadrat kilometr ərazisi və bayaq dediyim kimi, 7 milyon əhalisi olan Azərbaycana hücum edərək onun ərazisinin bir qismini zəbt etmişdir.

Azərbaycan ərazisinin 20 faizi indi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır, 1 milyonadək azərbaycanlı, müsəlman yurd-yuvasını itirərək qaçqın vəziyyətində Azərbaycanın başqa bölgələrində yaşamağa məcbur olmuşdur. Ermənistan silahlı qüvvələri ilə Azərbaycan ordusu arasındakı döyüşlər respublikamızın ərazisində gedir. Ermənistan Azərbaycanın ərazisində mövcud olan, keçmişdə Dağlıq Qarabağ Vilayəti adlanan əraziyə iddia edir və orada yaşayan əhalinin çox his-

səsi erməni olduğuna görə həmin ərazini Ermənistana birləşdirmək istəyir. Həmin Dağlıq Qarabağda yaşayan 50 min nəfər azərbaycanlı da ermənilər tərəfindən oradan zorla çıxarılmışdır və indi qaçqın vəziyyətindədir. Azərbaycanın bir sıra başqa məntəqələri kimi, Dağlıq Qarabağ da erməni silahlı qüvvələrinin işğalı altındadır.

Azərbaycan xalqı öz torpağını müdafiə edərək çox şəhidlər vermişdir. Xalqımız bu gün də öz ərazisini müdafiə etmək əzmindədir. Hazırda yaranmış vəziyyət heç də Ermənistanın Azərbaycandan güclü olduğunu göstərmir. Dünyanın bir neçə böyük dövləti Ermənistana himayədarlıq edir, bu müharibədə ona kömək göstərir. Məhz buna görə də Ermənistan silahlı qüvvələri müharibədə müəyyən qədər üstünlük əldə edə bilmişlər. Lakin biz bunu müvəqqəti hal sayırıq. Müstəqil dövlət kimi, Azərbaycan öz sərhədləri daxilindəki ərazisinin sahibi olmalıdır. Beynəlxalq prinsiplərə, normalara riayət edən dünya birliyi tələb edir ki, Azərbaycanın ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının təmin edilməsi üçün lazımi və təsirli qərarlar çıxarsın.

Müharibəni Azərbaycan yox, Ermənistan başlamışdır. Biz yalnız öz torpaqlarımızı qoruyuruq və bu müharibəyə sülh yolu ilə son qoymaq istəyirik. Ona görə də beynəlxalq təşkilatların fəaliyyətinə, onların qərarlarına çox ümid bəsləyirik. Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsi ilə əlaqədar BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir. Həmin qətnamələrdə erməni işğalçılarının Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxması tələbi qəti şəkildə irəli sürülmüşdür. Ancaq Ermənistan bu qətnamələri yerinə yetirmək istəmir.

Məsələnin sülh yolu ilə həll olunması üçün ATƏM və onun tərkibində yaradılmış Minsk qrupu da böyük fəaliyyət göstərir. Biz ATƏM-lə yaxından əməkdaşlıq edir və ona böyük ümid bəsləyirik. Eyni zamanda böyük dövlətlər, o cümlədən Rusiya Ermənistan-Azərbaycan müharibəsinə son qoymaq üçün vasitəçilik səyləri göstərirlər.

İslam Konfransı Təşkilatının da bu məsələyə qarışması çox əhəmiyyətli olardı. Həmin təşkilatın rəhbərləri ilə görüşdə mən bu fikrimi onlara bildirdim. Zənnimcə, İslam Konfransı Təşkilatı bu sahədə ATƏM-lə birlikdə fəaliyyət göstərə bilər.

Regionda sülh yaranması, Azərbaycanın müharibədən xilas olması üçün biz ABŞ-in fəaliyyətinə də çox ümid bəsləyirik. Mənim ABŞ prezidenti cənab Bill Klintona məktublarımda və onun göndərdiyi cavablarda bu məsələ müzakirə olunur. Mən iyunun 9-da Birləşmiş Ştatların dövlət katibi cənab Kristoferlə İstanbulda görüşəndə də bu məsələni onunla geniş müzakirə etdim. Güman edirik ki, ABŞ, Avropanın böyük dövlətləri bizim vəziyyətimizə biganə qalmayacaqlar və regionda sülhün bərqərar olması, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlarımızdan çıxarılması, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması üçün səylərini əsirgəməyəcəklər.



Dediyim kimi, müharibə ilə əlaqədar biz ağır sosial-iqtisadi vəziyyətdə yaşayırıq. Təsəvvür edin, ölkənin 7 milyonluq əhalisinin 1 milyonu qaçqın vəziyyətindədir. Bununla əlaqədar, dünyanın bir çox ölkəsi Azərbaycana humanitar yardım göstərir. Buraya səfərim ərəfəsində Səudiyyə Ərəbistanı rəhbərinin, iki müqəddəs məscidin xadiminin göstərişinə əsasən Azərbaycan qaçqınlarına iki böyük təyyarə ilə humanitar yardım göndərilmişdir. Beynəlxalq İslam «Nicat» Təşkilatı Bərdə rayonunda yerləşdirilmiş 10 min nəfər, Sumqayıtda sığınacaq tapan 3 min nəfər qaçqını himayəyə götürmüşdür. İran İslam Cümhuriyyəti 100 min qaçqına himayədarlıq edir. Türkiyə Cümhuriyyətinin «Qızıl Ay» Təşkilatı 15-20 min qaçqının təminatını öz üzərinə götürmüşdür. Bütün bunlar bizim vəziyyətimizi xeli yüngülləşdirir və mən buna görə həmin ölkələrə, təşkilatlara minnətdarlığımı bildirirəm. Lakin bu yardımlar yaralarımızı tamamilə sağalda bilmir. Belə bir vəziyyətdə Azərbaycanın böyük dövlətlərin, xüsusən müsəlman ölkələrinin, o cümlədən Səudiyyə Ərəbistanı kimi zəngin ölkənin yardımına ehtiyacı var və ümidvar olduğumu bildirmək istəyirəm ki, bizə kömək göstəriləcəkdir.

Müstəqil Azərbaycan dövlətinin rəhbər tutduğu prinsipləri bir daha xatırlatmaq istəyirəm. Azərbaycan müstəqil dövlətdir, öz milli azadlığını daim qoruyacaq və bir daha başqa dövlətin əsarəti altına düşməsinə yol verməyəcəkdir. Azərbaycan keçmiş kommunist ideologiyasından, sosializm quruluşundan imtina etmişdir və bir daha bu yola dönməyəcəkdir. Azərbaycan bir dövlət kimi, müsəlman dünyasına mənsubdur və islam aləmində öz görkəmli yerini tutmağa çalışacaqdır. Ölkəmizdə demokratik prinsiplər–insan azadlığı, söz və xüsusən din, vicdan azadlığı təmin edilir və bundan sonra da təmin ediləcəkdir. İqtisadiyyatımız gələcəkdə də bazar münasibətləri yolu ilə gedəcək, sahibkarlığa, xüsusi mülkiyyətə, təşəbbüskarlığa geniş meydan açmaq prinsipləri əsas götürüləcəkdir. Beləliklə də, Azərbaycanın iqtisadiyyatı in-

kişaf etmiş ölkələrin iqtisadiyyatı ilə yaxından təmasda olacaqdır.

Bütün bu prinsipləri həyata keçirmək, tutduğumuz yolla irəliləmək, məqsədlərimizə çatmaq üçün Azərbaycanın daxili imkanları var və bunlardan səmərəli istifadə etməyə çalışacağıq. Ancaq Azərbaycanın indi müharibə şəraitində olması, torpaqlarının bir hissəsinin işğal altında qalması, ölkənin sosial-iqtisadi böhran keçirməsi onun vəziyyətini çox ağırlaşdırmışdır. Bu vəziyyətdən çıxmaq üçün biz dost və qardaş ölkələrin köməyinə ümid bəsləyirik.

Azərbaycanın indiki vəziyyəti haqqında ərəb ölkələrində, xüsusən də Səudiyyə Ərəbistanında geniş məlumat yaymaq üçün biz burada Azərbaycanın informasiya mərkəzinin, mədəniyyət mərkəzinin yaradılmasını, eyni zamanda Səudiyyə Ərəbistanının Azərbaycanda mətbuat nümayəndəliyinin və ya bu ölkənin istəyinə uyğun olaraq başqa təşkilatların yaranmasını alqışlayar və minnətdarlıq hissi ilə qəbul edərdik.

Guman edirəm ki, mənim səfərim, buradakı görüşlər və bugünkü mətbuat konfransı ölkələrimiz arasında möhkəm körpü yaradır və hər iki tərəf bundan səmərəli istifadə etməyə çalışmalıdır.

Məni və nümayəndə heyətimizin üzvlərini daha bir müqəddəs ziyarət gözləyir. Sabah biz müqəddəs Mədinə şəhərini ziyarət edəcəyik. Güman edirəm ki, Azərbaycana qayıdandan sonra bu müqəddəs yerlər haqqında daha geniş məlumat verəcəyik və eyni zamanda müstəqil dövlətimizin inkişaf etməsi üçün yeni qüvvə ilə çalışacağıq.

Çıxışımı tamamlayarkən səfərimiz zamanı bizə yaradılan hər cür imkan üçün iki müqəddəs məscidin xadimi, Səudiyə Ərəbistanının məliki, əziz dostum və qardaşım Fəhd ibn Əbdül Əziz əl-Səuda bir daha minnətdarlığımı bildirirəm. Səudiyyə Ərəbistanının vətəndaşlarına, qardaşlarımıza səadət və xoşbəxtlik arzulayıram.

Biz bu gün iki böyük müəssisədə – neftayırma zavodunda və bitki yağları istehsalı zavodunda olduq. Həmin müəssisələrlə tanışlıq göstərdi ki, Səudiyyə Ərəbistanında əhalinin elmi və texniki səviyyəsi çox yüksəkdir. Əminəm ki, bütün bu imkanlar Səudiyyə Ərəbistanının daha müvəffəqiyyətlə inkişafı üçün əsas yaradır.

**S u a l:** Əvvəlcə icazə verin, bizə ətraflı məlumat verdiyinizə görə təşəkkürümü bildirim. Sizin bu geniş məlumatınız verəcəyimiz sualların çoxuna cavab oldu. Sizə verəcəyim sual Səudiyyə Ərəbistanının iş adamları ilə görüşdən sonra doğmuşdur. Siz dediniz ki, Azərbaycanın çox zəngin təbii sərvətləri və böyük iqtisadi potensialı var. Bizim iş adamlarımızın sizinlə əməkdaşlıq etməsi üçün hansı şərait yaradıla bilər?



**C a v a b:** Səudiyyə Ərəbistanının iş adamları üçün Azərbaycanda hər cür şərait yaradılacaqdır. Götürək neft yataqlarının istismarını. Bəzi yataqların birgə istismar olunması barədə Qərb şirkətləri ilə danışıqlar aparırıq. Lakin Azərbaycanda hələ istifadəyə verilməmiş neft yataqları da var. Onların birgə işlənilməsi üçün Səudiyyə Ərəbistanının şirkətlərini Azərbaycana dəvət edirəm. Bunu ona görə deyirəm ki, neft-qaz hasilatı, neft emalı sahəsində sizin ölkənin çox böyük təcrübəsi var. Sənayenin başqa sahələrində, kənd təsərrüfatında, ticarətdə də iş adamları üçün bütün şərait yaradılacaqdır. Bir halda ki, biz bazar iqtisadiyyatı yolu ilə gedirik, xüsusi mülkiyyəti geniş yaymaq, sahibkarlıq, səhmdarlıq prinsiplərini tətbiq etmək istəyirik, deməli, iş adamları Azərbaycana kapital qoysalar, çox böyük mənfəət götürə bilərlər. Xahiş edirəm, bunu qəzetinizdə geniş təbliğ edəsiniz.

**S u a l:** Siz Ermənistanla gedən müharibə, onun aradan qaldırılması sahəsində Rusiyanın vasitəçiliyi haqqında danışdınız. Ermənistan-Rusiya münasibətləri barədə nə deyə bilərsiniz?

**C a v a b:** Ermənistanın Rusiya ilə əlaqələri çox sıxdır, onun ərazisində Rusiyanın qoşunları yerləşir. Bildiyiniz kimi, keçmiş Sovet İttifaqının ərazisində, xüsusən sərhəd boyunda yerləşən respublikalarda sovet ordusunun böyük qoşun hissələri var idi. SSRİ dağıldıqdan sonra bu qoşun hissələri Rusiyanın tabeliyinə keçdi. Həmin respublikalar müstəqillik qazandıqdan sonra öz ordularını yaratdılar. Bəzi respublikalardan, o cümlədən Azərbaycandan keçmiş sovet, indiki Rusiya qoşunları çıxarıldı. İndi Azərbaycanda bir nəfər də olsun, rus əskəri yoxdur. Ancaq Rusiya qoşunları Ermənistandan çıxarılmadı, əksinə, bəlkə bir az da artırıldı. İndi orada Rusiyanın çox güclü qoşunları var və onlar hərbi baza statusu almışdır. Mənə belə gəlir ki, bu faktın özü Ermənistanla Rusiya arasında olan əlaqələri çox əyanı surətdə göstərir.

**S u a l:** Siz Səudiyyə Ərəbistanı və Azərbaycan xarici işlər nazirlərinin ümumi bir sənəd imzalamaları barədə məlumat verdiniz. Həmin sənəddə səfirliklərin açılması nəzərdə tutulurmu?

**C a v a b:** Keçmiş Sovet İttifaqının indi müstəqillik qazanmış müsəlman respublikalarından Səudiyyə Ərəbistanında öz səfirliyini ilk dəfə Azərbaycan açmışdır. Azərbaycanın səfiri Elman Araslı indi burada

əyləşmişdir və üç aydan çoxdur ki, ölkənizdə fəaliyyət göstərir. Səfirdən xahiş edirəm ki, ayağa qalxsın, onu görsünlər. Fəxr edirəm ki, keçmiş SSRİ-yə daxil olan ölkələrdən Səudiyyə Ərəbistanında səfirliyi ilk dəfə Azərbaycan açmışdır. Ümidvaram ki, müstəqillik qazanmış digər müsəlman respublikaları da burada öz səfirliklərini açacaqlar.

Səudiyyə Ərəbistanının Azərbaycandakı səfiri də təyin olunmuşdur. Mən Bakıya qayıdan kimi, o öz etimadnaməsini təqdim edəcəkdir. Təəssüf ki, Səudiyyə Ərəbistanının Türkiyədəki səfiri, eyni zamanda, Azərbaycanda səfir vəzifəsini yerinə yetirəcəkdir. Mən isə istərdim ki, Azərbaycanda Səudiyyə Ərəbistanının müstəqil səfiri olsun. Səudiyyə Ərəbistanı səfirliyinin Azərbaycanda fəaliyyət göstərməsi üçün prezident kimi, mən hər cür şərait yaradacağam.

**S u a l:** Hörmətli Prezident, mənim bildiyimə görə, Dağlıq Qarabağ məsələsi Kəraçidə ilk dəfə olaraq İslam Konfransı Təşkilatının gündəliyinə daxil edilmişdir. Bu yaxınlarda Tunisdə İslam dövlətləri xarici işlər nazirlərinin növbəti görüşü olacaqdır. Azərbaycan həmin görüşdə iştirak edəcəkmi və əgər edəcəksə, həmin məsələ ilə bağlı həqiqəti bildirəcəkmi və müəyyən bir qərar layihəsi təqdim edəcəkmi?

**C a v a b:** İslam dövlətlərinin keçirdikləri hər bir tədbirdə Azərbaycanın nümayəndələri iştirak edəcəklər, buna heç kəsin şübhəsi olmasın. Xarici işlər nazirlərinin Tunisdə keçiriləcək görüşündə Azərbaycan xarici siyasət idarəsinin başçısı Həsən Həsənov iştirak edəcəkdir. O, indi burada əyləşmişdir. Ancaq sizdən xahiş edərdim ki, sizin qəzetiniz və başqa qəzetlər Tunisdə olacaq həmin görüşdə bu məsələnin müzakirə edilməsinə və qəti qərar qəbul olunmasına kömək etsinlər. Biz öz təkliflərimizi, layihəmizi təqdim edəcəyik. Ancaq arzu edərdim ki, islam dövlətlərinin hamısı həmin təkliflərin həyata keçirilməsi üçün səy göstərsin.

**S u a l :** Ermənistan ilə Azərbaycan arasındakı müharibə neçə ildir davam edir. Bu müddətdə islam dünyasından nə kimi kömək görmüsünüz?

**C a v a b:** Az-çox kömək görmüşük. Ancaq qeyri-islam dövlətlərinin Ermənistana etdikləri yardım qədər islam dövlətləri Azərbaycana kömək göstərsəydilər, biz erməni silahlı qüvvələrini ərazimizdən çoxdan qovaraq torpaqlarımızı azad etmişdik.

**S u a l:** Səudiyyə Ərəbistanından hər hansı şirkət və ya biznesmen Azərbaycana kapital qoymuşdurmu və ya belə qərara gəlmişdirmi?



**C a v a b:** Mənə məlumat verdilər ki, beləleri yoxdur. Səudiyyə Ərəbistanına səfərimin bir məqsədi də odur ki, müstəqil Azərbaycan Respublikasının qapıları bu ölkə üçün açıq olsun. Hamını Azərbaycana dəvət edirəm.

Hamınıza təşəkkürümü bildirirəm. Siz, mətbuat nümayəndələrini də Azərbaycana dəvət edirəm ki, gəlib ölkəmizlə bilavasitə tanış olasınız və Azərbaycan haqqında həqiqəti ərəb ölkələrində, bütün müsəlman dünyasında yayasınız.

## MƏSCİDLƏ TANIŞLIQDAN SONRA JURNALİSTLƏRLƏ GÖRÜŞDƏ BƏYANAT

*12 iyul 1994-cü il*

Müqəddəs İslam abidələrini ziyarət edərkən dinimizin elmi, fəlsəfi dərinliyini hiss edirsən və bu dini yaradanlara, əsrlər boyu belə abidələr yaradıb bugünkü nəsillərə çatdıranlara səcdə edirsən. Çox əzəmətlidir, hər bir müsəlmanda, o cümlədən məndə də böyük iftixar hissi oyadır. Demək, bizim mənsub olduğumuz din qüdrətlidir, böyükdür, dünyada öz yerini tutub. Burada yaradılmış abidələr islam dininin bütün digər vasitələri, yəni müqəddəs kitabımız Qurani-Şərif, Həzrəti Məhəmməd peyğəmbərin qoyduğu yol ilə bərabər dinimizi yaşadacaqdır. Bu müqəddəs yerləri – Məkkəni, Mədinəni, Kəbəni və Həzrəti Məhəmməd peyğəmbərin məqbərəsini ziyarət edərkən indiki nəslin və peyğəmbərin qoyduğu yolla gedən şəxslərin fəaliyyətinə yüksək qiymət verirəm.

Bu gün məscidlə tanışlıqdan sonra iki müqəddəs məscidin xadiminin, Səudiyyə Ərəbistanının bugünkü rəhbərinin, bizim əziz dostumuz və qardaşımızın nə qədər böyük xidmətləri olduğunu bir daha görürəm, hiss edirəm və bir müsəlman kimi, bunlara görə qəlbimdən gələn təşəkkürümü və minnətdarlığımı bildirirəm.



## SƏUDİYYƏ ƏRƏBİSTANINDAN VƏTƏNƏ YOLA DÜŞƏRKƏN MƏDİNƏ HAVA LİMANINDA ÇIXIŞ

*13 iyul 1994-cü il*

Mən beşinci gündür, Səudiyyə Ərəbistanındayam. Buraya iki müqəddəs məscidin xadimi, Səudiyyə Ərəbistanının məliki Fəhd ibn Əbdül Əziz əl-Səud cənablarının dəvəti ilə gəlmişəm. Bir neçə dəqiqədən sonra ölkənizi tərk edəcəyəm. Mən bu səfəri, bu ziyarəti çox uğurlu hesab edirəm və burada olduğum bütün günlərdən çox razıyam. Səfər günlərində mən iki müqəddəs məscidin xadiminin qayğı və diqqətini hər dəqiqə hiss etmişəm. Bunun nəticəsində bir müsəlman kimi, mənə İslam aləminin ən müqəddəs yerlərini ziyarət etmək imkanı yaradılıbdır. Buna görə özümü xoşbəxt hesab edirəm.

Eyni zamanda son illərdə həm Ciddədə, həm də Məkkədə və Mədinədə iki müqəddəs şəhərin xadiminin bu müqəddəs yerləri abadlaşdırmaq, genişləndirmək və dünya müsəlmanlarının ibadətinə şərait yaratmaq üçün nə qədər böyük işlər gördüyünün şahidi oldum. Burada tikilmiş, yaradılmış məscidlər, məbədlər, ziyarət yerləri məni heyran etdi və bir müsəlman kimi, məndə böyük hörmət və ehtiram hissi doğurdu. Dost və qardaş ölkəni tərk edərkən iki müqəddəs məscidin xadimi, Səudiyyə Ərəbistanının məliki, mənim dostum və qardaşım Fəhd ibn Əbdül Əziz əl-Səud cənablarına xüsusi təşəkkürümü və minnətdarlığımı bildirirəm. İslam aləmi üçün gördüyü işlərə görə ona təşəkkür edirəm. Bu fürsətdən istifadə edib Səudiyyə Ərəbistanının xalqına, bütün əhalisinə sevgi və məhəbbətimi bildirirəm. Onları bir daha ürəkdən salamlayıram və bu qardaş xalqa səadət və xoşbəxtlik arzulayıram. Cənab əmir, Mədinədə olduğum vaxt mənə göstərdiyiniz diqqətə görə şəxsən Sizə təşəkkür edirəm.

## SƏUDİYYƏ ƏRƏBİSTANINDAN VƏTƏNƏ YOLA DÜŞƏRKƏN JURNALİSTLƏRLƏ GÖRÜŞDƏ BƏYANAT

Bu səfəri ölkəmizin xarici siyasətində böyük nailiyyət kimi qiymətləndirmək olar. Səudiyyə Ərəbistanı dünyanın görkəmli ölkələrindən biridir, həm islam dünyasında, həm də ümumdünya birliyində layiqli yer tutur, iqtisadi cəhətdən inkişaf etmiş bir ölkədir. Səudiyyə Ərəbistanı tarixi ənənələri və islam dini ilə əlaqədar Azərbaycanla bağlı bir ölkədir. Ona görə də belə bir ölkə ilə əlaqə yaratmaq və gələcəkdə əməkdaşlığı daha da inkişaf etdirmək gənc, müstəqil Azərbaycan Respublikası üçün çox gərəklidir.

Qeyd etmək lazımdır ki, indiyədək Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında heç bir əlaqə olmamışdır. Biz cəmi üç ay qabaq bu ölkəyə öz səfirimizi təyin etmişik. İndi, səfər günlərində gördüm ki, Səudiyyə Ərəbistanında Azərbaycan haqqında çox az məlumat var. Bir çox məlumatlar böyük ölkələrin informasiya orqanlarının mənbələrindən gəlir ki, onların da çoxu qeyri-obyektiv xarakter daşıyır. Ona görə də Səudiyyə Ərəbistanına gəlmək, burada Azərbaycanı tanıtmaq, ölkəmizin həqiqi vəziyyətini təbliğ etmək özü bir nailiyyətdir.

Mən Səudiyyə Ərəbistanının dövlət başçısı ilə və digər rəhbər şəxslərlə görüşlərimi və söhbətlərimi çox yüksək qiymətləndirirəm və hesab edirəm ki, onların hamısı Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında gələcək əlaqələrin inkişaf etməsi üçün yaxşı əsasdır.

... Dini mərasimlərdə iştirakımız və rəsmi görüşlərimiz bir-biri ilə bağlıdır. Bura islam ölkəsidir. İslamın müqəddəs abidələri burada yerləşir. Ona görə də Səudiyyə Ərəbistanının həm daxili, həm də xarici siyasətində islamı, müqəddəs Məkkə və Mədinəni təbliğ etmək və onlarla bağlı söhbətlər aparmaq bu ölkə üçün səciyyəvi cəhətdir. Ziyarətdən başqa, bizim çox səmərəli, əhəmiyyətli danışıqlarımız olub. Bu, xüsusilə, Səudiyyə Ərəbistanının məliki Fəhd ibn Əbdül Əziz əl-Səudla danışıqlara aiddir.

... Səudiyyə Ərəbistanı Nazirlər Kabinetinin iclasında Azərbaycanın iqtisadi problemləri ilə bağlı məsələ müzakirə edilmiş və cənab məlik Fəhd ibn Əbdül Əziz əl-Səudla görüşdə də bu haqda geniş söhbət olmuşdur. Onun tapşırığı ilə Həcc naziri Nazirlər Kabinetinin həmin iclası barədə mənə məlumat verdi, orada Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən təcavüzə məruz qalması, torpaqlarımızın işğal edilməsi və bununla əlaqədar olaraq Səudiyyə Ərəbistanının beynəlxalq təşkilatlarda, beynəlxalq aləmdə mövqeyinin müəyyən edilməsi məsələsinin müzakirə olunduğunu bildirdi. Mövqe də ondan ibarətdir ki, Səudiyyə Ərəbistanı dövləti və məlik Fəhd ibn Əbdül Əziz əl-Səud Ermənistanın Azərbaycana təcavüzünü qəti pisləyir və hesab edir ki, təcavüzkar məhkum edilməli, işğal olunmuş torpaqlardan çıxmalı və Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır. İclasda Azərbaycanla iqtisadi əlaqələr yaradılması barədə də məsələ müzakirə olunmuş və qərara alınmışdır ki, – həm də dövlət başçısının belə bir əmri var – yaxın günlərdə Azərbaycana böyük bir nümayəndə heyəti göndəriləcək, respublikanın bügünkü ictimai-siyasi, habelə iqtisadi vəziyyəti haqqında məlumatlar toplanılacaqdır. Nümayəndə heyəti bizim təkliflərimizə yerindəcə baxacaqdır. Məlikə bu barədə məlumat veriləcək və bundan sonra Fəhd ibn Əbdül Əziz əl-Səud öz ölkəsinin Azərbaycanla iqtisadi əlaqələri barədə qərarlar qəbul edəcəkdir.

## 22 İYUL – MİLLİ MƏTBUAT GÜNÜ MÜNASİBƏTİLƏ TƏBRİK

Əsası Həsən bəy Zərdabinin «Əkinçi» qəzeti ilə qoyulmuş, şərəfli tarixə və zəngin ənənələrə malik milli mətbuatımız Azərbaycan ictimai fikrinin inkişafında, xalqımızın mədəni-mənəvi təkamülündə mühüm rol oynamışdır. Milli azadlıq hərəkatının daim ön sıralarında getmiş Azərbaycan jurnalistikası cəmiyyət qarşısında duran vəzifələrin müəyyənləşdirilməsi və həlli işinə əhəmiyyətli töhfələr vermişdir. Müstəqil Azərbaycanın iqtisadi, siyasi və sosial problemləri, sərhədlərimizin toxunulmazlığı, respublikamızın ərazi bütövlüyü uğrunda gedən qanlı müharibə bu gün də qələm sahiblərimizi qayğılandıran başlıca mövzulardandır. Mətbuat və söz azadlığı şəraitində fəaliyyət göstərən Azərbaycan jurnalistləri bu çətin və şərəfli vəzifələri ləyaqətlə yerinə yetirməklə yanaşı, beynəlxalq aləmdə dövlətimizin demokratik imicinin formalaşdırılmasına da xidmət edirlər.

Milli Mətbuat günü münasibətilə jurnalistləri və bu sahədə çalışan bütün işçiləri ürəkdən təbrik edir, onlara Vətənimizin daha işıqlı gələcəyi naminə ağır və şərəfli fəaliyyətlərində uğurlar diləyirəm.

***HEYDƏR ƏLİYEV,***
***21 iyul 1994-cü il***



## «NEDELYA»nın XÜSUSİ MÜXBİRİNƏ MÜSAHİBƏ

**– Heydər Əliyeviç, Azərbaycanın hüdudlarından kənarda mətbuat iqtisadiyyatın dağılması və ölkə rəhbərliyinin hərbi siyasəti ucbatından Azərbaycan xalqının narazılığı barədə tez-tez xəbərlər yayır. Respublikada indiki vəziyyəti Siz necə şərh edərdiniz?**

– Haqqında danışdığınız yazılar açıq-aydın fitnəkar xarakter daşıyır. İndi respublikada ictimai-siyasi vəziyyət sabitdir. Əlbəttə, keçid dövrü ilə əlaqədar bizim öz çətinliklərimiz də mövcuddur. Üstəlik, ölkə Ermənistanla müharibə vəziyyətindədir. Torpaqlarımızın az qala 20 faizə qədəri işğal altındadır, 1 milyonadək qaçqın ağır vəziyyətdə yaşayır.

**– Ünvanınıza söylənilən digər tənqidlərlə yanaşı, Sizi müxalifəti zor gücünə dağıtmaqda, dövlətin həyatında demokratik prinsiplərin ləğv edilməsində, yüksək ixtisaslı kadrları müasiriniz olan dostlarla və Naxçıvandan olan qohumlarınızla əvəz etməkdə təqsirləndirirlər...**

– Əgər Azərbaycanda 40 siyasi partiyanın mövcudluğunu (onların demək olar ki, hamısı müxalifətdədir), habelə 600 müxtəlif istiqamətli qəzet çıxmasını demokratiyanı boğmaq kimi qiymətləndirsək, onda bu ittiham ədalətlidir. Kadrların yerdəyişməsinə gəldikdə isə, məndən əvvəl məsul dövlət vəzifələrinə təyin edilmiş adamların hamısı yenə öz yerindədir. Yalnız öz vəzifələrini dondurduğunu elan edərək, işdən könüllü çıxanlar istisnalıq təşkil edirlər. Başqa sözlə, onlar könüllü getdiklərini dolayısı yolla təsdiq edirlər. Belə ki, heç bir Naxçıvan klanı yoxdur və ola da bilməz.

Azərbaycan Ali Sovetinin sədri, sonra isə prezident vəzifəsini tutandan sonra mən bildirdim ki, respublikamızda demokratiya bərqərar olacaq, insan hüquqlarına hörmət ediləcək və ölkənin vətəndaşları burada yaşayan adamlardır. Milliyyətindən, dini əqidəsindən, siyasi baxışından və s. asılı olmayaraq. Misal üçün, Azərbaycanda yarım milyon nəfərədək rus yaşayır, onlar heç nə ilə sıxışdırılmır, onlara hörmət edilir. Azərbaycan dilini bilməmək onların xidməti vəzifələrinin böyüməsi üçün maneçilik törətmir. Bu sözlər yüksək dövlət vəzifələri tutanlara da aiddir. Respublikada rusların çıxıb getməsi dayanmışdır. Bu isə

mənim deklarasiyamın ciddi şəkildə yerinə yetirilməsinə dəlalət edir.

**– Ermənistan-Azərbaycan müharibəsini söndürmək üçün real perspektivlər varmı? Axı Siz Naxçıvan Muxtar Respublikasında məclisə başçılıq edərkən sülh yarada və Ermənistan tərəfi ilə nə isə bir razılığa gələ bilmişdiniz.**

– Müharibə artıq altı ildir davam edir. Kədər də çox olmuşdur, itkilər də. Ermənistan, əslində, Dağlıq Qarabağ vilayətini Azərbaycandan qoparmaq istəyir. Dünyanın bir çox iri dövlətlərinin köməyi ilə onlar vilayətin əirafındakı 7 rayonu işğal edə bilmişlər. İndi hərbi əməliyyatlar dayandırılmışdır və mayın 12-dən müvəqqəti dinclik yaranmışdır. Çox mürəkkəb danışıqlar aparılır.

**– Sizin Boris Yeltsinlə münasibətləriniz necədir?**

– Biz sıx əlaqə saxlayırıq. Dəfələrlə görüşmüşük və telefonla söhbət etmişik. Bütövlükdə isə bizim dövlətlər arasında həll edilməsi qeyri-mümkün olan problem yoxdur. Məndən əvvəl Azərbaycan rəhbərliyi Rusiyaya qarşı başqa siyasət yeridirdi, münasibətlər soyuq, bəzən isə ağır idi. Təkcə o faktı demək kifayətdir ki, respublikamız MDB-yə daxil deyildi.

Azərbaycanın taleyi Rusiya ilə artıq 200 ildir bağlıdır. Bu ölkə ilə biz gərgin şəraitdə necə yaşaya bilərik? Özü də qonşu ölkə ilə, dünyanın ən nəhəng dövləti ilə. Bu məsələdə çətinliklər yaratmaq Azərbaycan xalqının mənafeyinə uyğun deyildir. Biz dostluq edəcəyik, lakin bu o demək deyildir ki, müstəqilliyimizə xələl gələcək.

**– Bildiyimə görə, Sizin respublikada bir neçə kommunist partiyası mövcuddur və onlar əsl partiya adı uğrunda bir-biri ilə mübahisə aparırlar. Onlardan hansına hüsn-rəğbətiniz daha çoxdur?**

– Azərbaycanda ən iri kommunist mən idim. Axı hər halda 14 il Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi işləmişəm. Lakin mən hələ partiya hakimiyyətdə olarkən, 1991-ci ildə onun sıralarından çıxmışam. Heç bir kommunist partiyasının Azərbaycanda perspektivi yoxdur. Prezident seçilənədək mən bir müddət Yeni Azərbaycan Partiyasının üzvü idim, lakin onun sıralarını tərk etdim. Doğrudur, səbəb başqa idi. Elə hesab edirəm ki, prezident heç bir partiyaya üzgörənlik etməməlidir.

***Söhbəti Aleksandr Çijeveki aparmışdır***
***Bakı – Moskva***



## «XALQ QƏZETİ» REDAKSİYASININ KOLLEKTİVİNƏ

«Xalq qəzeti» mənalı yaradıcılıq yolu keçmiş, özünəməxsus üslub və sənətkarlıq xüsusiyyətləri olan nəşrlərimizdəndir. Uzun müddət «Kommunist» adı ilə nəşr edilən bu qəzet bütün sovet dövrü ərzində Azərbaycanın ictimai, iqtisadi və mədəni həyatının güzgüsü olmuşdur.

Respublikada qəzetçilik ənənələrinin formalaşmasında, jurnalistikamızın inkişafında «Xalq qəzeti»nin xidmətləri xüsusi qeyd olunmalıdır. Bugünkü çoxsəsli, rəngarəng Azərbaycan mətbuatının bir çox görkəmli nümayəndələri bu qəzetin yaradıcılıq məktəbini keçmişlər. Müstəqilliyimizin qazanılmasından sonra da «Xalq qəzeti» respublikanın ictimai həyatında baş verən hadisələrə cəsarətlə müdaxilə etmiş, bir çox problemlərin aşkarlanmasında mühüm rol oynamışdır. Amansız təcavüzkara qarşı apardığımız ədalətli müharibə qəzetin daimi mövzusuna çevrilmişdir. Bu gün qəzet müstəqil Azərbaycanda hüquqi və demokratik dövlət quruculuğu işində güclü səfərbəredici rol oynayır.

İlk nömrəsinin çapdan çıxmasının 75 illiyi münasibətilə «Xalq qəzeti»nin yaradıcı heyətini, bütün redaksiya kollektivini ürəkdən təbrik edir, onlara cansağlığı və işlərində yeni-yeni nailiyyətlər arzulayıram.

***HEYDƏR ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***
***25 avqust 1994-cü il***

## QAHİRƏDƏ «DÜNYA ƏHALİSİ VƏ İNKİŞAF» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK ETMƏK ÜÇÜN MİSİR ƏRƏB RESPUBLİKASINA YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA MÜXBİRİN SUALINA CAVAB

*4 sentyabr 1994-cü il*

**– Azərbaycan Prezidentinin belə mötəbər beynəlxalq məclisdə iştirak etməsi, şübhəsiz, mühüm hadisədir və yəqin ki, Sizin yüksək səviyyədə görüşləriniz də gözlənilir?**

– Hər bir beynəlxalq toplantı, beynəlxalq konqres, sübhəsiz ki, dünyada gedən proseslərin müəyyən cəhətini müzakirə, təhlil edir və müəyyən qərarlar çıxarır. Müstəqil dövlət kimi, Azərbaycan dünya birliyinə daxildir. Ona görə də belə böyük beynəlxalq məclislərdə Azərbaycan Respublikası numayəndələrinin iştirak etməsi zəruridir. İndiki beynəlxalq konfransı BMT təşkil edir, oraya bir çox dövlətlərin başçıları gələcəkdir. Toplantının özünün əhəmiyyəti var, eyni zamanda, şübhəsiz ki, konfransda bir çox görüşlər də olacaq. Güman edirəm ki, bunlar hamısı beynəlxalq aləmdə Azərbaycanın mövqelərinin möhkəmlənməsinə kömək edəcəkdir və mən də bunu nəzərə alaraq bu səfərə gedirəm.



## QAHİRƏDƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*6 sentyabr 1994-cü il*

Hörmətli jurnalistlər, mətbuat işçiləri!

Bildiyiniz kimi, mən sentyabrın 5-dən burada, Qahirədəyəm. Qısamüddətli işgüzar səfər başa çatır. Buraya gələrkən nəzərdə tutulan işlərin hamısı həyata keçirilib. Sabah mən Azərbaycana qayıdıram. Eşitdim ki, burada jurnalistlər mənim səfərimlə maraqlanırlar. Ona görə də sizinlə görüşmək və burada olan görüşlərimiz haqqında məlumatları sizə çatdırmaq istədim.

Əvvəla, onu demək istəyirəm ki, mənim buraya gəlişimin əsas məqsədi BMT tərəfindən Qahirədə keçirilən «Əhali və inkişaf» mövzusunda beynəlxalq konfransda iştirak etməkdir. Hesab edirəm ki, bu konfrans çox böyük və qlobal məsələyə həsr olunan bir tədbirdir. Dünya xalqlarının bu günü və gələcəyinə aid olan mühüm məsələləri müzakirə edir.

Konfransın birinci günündə edilən məruzə və çıxışlar mənə çox böyük təsir bağışladı. Hesab edirəm ki, həmin məsələlər müzakirə və həll olunmalıdır. Bu konfransda iştirak etməyimdən çox məmnunam və güman edirəm ki, orada söylənilən fikirlər bizim Azərbaycan Respublikası üçün də əhəmiyyətlidir.

Buraya səfərim zamanı respublikamızın həyatı, beynəlxalq əlaqələri ilə bağlı bir çox əhəmiyyətli görüşlərim olub.

Misir Ərəb Respublikasının prezidenti cənab Hüsni Mübarəklə dünən konfrans vaxtı və konfransdan sonra onun axşam verdiyi qəbulda görüşlərimdən əlavə, bu gün xüsusi görüşümüz oldu. Cənab Hüsni Mübarəklə biz Misir Ərəb Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin bundan sonra daha da genişləndirilməsi və inkişaf etdirilməsi məsələlərini müzakirə etmişik. Bir neçə beynəlxalq məsələyə də toxunmuşuq. Azərbaycan Respublikasının müstəqilliyini daha da möhkəmləndirmək, inkişaf etdirmək üçün həyata keçirdiyimiz tədbirlər haqqında mən ona məlumat vermişəm. Tarixən bir-birinə yaxın olan, islam aləminə mənsub olan bu iki dövlət –Misir Ərəb Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin bundan sonra da-

ha da genişləndirilməsinə dair bir neçə fikir barədə razılığa gəlmişik. Bildiyiniz kimi, cənab Hüsni Mübarək məni Misirə rəsmi səfərə dəvət etmişdir. Mən də cənab Hüsni Mübarəki Azərbaycana rəsmi səfərə dəvət etdim. Güman edirəm ki, bu səfərlər həyata keçiriləcək, iki ölkə arasında əlaqələrin genişlənməsi, inkişaf etməsi üçün müəyyən dövlətlərarası sənədlər imzalanacaqdır. Bu gün səhər Misir Ərəb Respublikasının xarici işlər naziri cənab Əmir Musa ilə görüşümüzdə də bu məsələlər müzakirə edilmişdir.

Sentyabrın 5-də mən Qahirəyə gələn kimi Birləşmiş Millətlər Təşkilatının baş katibi cənab Butros Qali ilə görüşümüz və geniş söhbətimiz olmuşdur. Bu söhbətdə Azərbaycanın beynəlxalq aləmdə vəziyyəti haqqında bəhs etmişik. Xüsusən, Azərbaycan ilə Ermənistan arasında gedən müharibə, Ermənistanın Azərbaycana etdiyi təcavüz və bu təcavüzün nəticəsində Azərbaycan torpaqlarının bir qisminin işğal olunması ilə əlaqədar məsələlərə dair danışıqlar aparmışam. Bildiyiniz kimi, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi ilə əlaqədar olaraq BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi olmuşdur.

Bu qətnamələrdə Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlarımızdan heç bir şərt qoymadan çıxması tələb olunmuşdur. Ancaq təəssüf ki, bu qətnamələr hələ də yerinə yetirilməyib. Bu məsələlər, ümumiyyətlə, Azərbaycan-Ermənistan münaqişəsinin BMT vasitəsilə, digər beynəlxalq təşkilatlar vasitəsilə sülh yolu ilə aradan qaldırılması imkanları cənab Butros Qali ilə müzakirə olunmuşdur. Bu məsələlərin müzakirəsi BMT Baş Məclisinin sentyabrın sonunda keçiriləcək sessiyası zamanı da cənab Butros Qali ilə müzakirə ediləcəkdir.

Bu gün Pakistanın baş naziri xanım Bənəzir Bhutto ilə mənim çox əhəmiyyətli görüşüm və söhbətim olubdur. Biz ölkələrimiz arasındakı dostluq əlaqələrinin inkişaf etdirilməsi yollarını müzakirə etmişik, bu barədə həmfikir olmuşuq. Pakistan bir ölkə kimi, bir dövlət kimi Azərbaycan müstəqillik əldə edəndən indiyə qədər ölkəmizə həmişə müsbət münasibət göstərmişdir. Ona görə də Pakistan ilə əlaqələrimizin bundan sonra daha da inkişaf etməsi üçün yaxşı əsas yaranmışdır.

Bu gün ABŞ-ın vitse-prezidenti cənab Albert Qor ilə mənim görüşüm olmuşdur. Bu görüş çox əhəmiyyətli, məzmunlu olmuşdur. Mən bu görüşdən çox məmnunam. Biz Azərbaycan ilə ABŞ arasında əlaqələrin daha da genişləndirilməsi məsələsini müzakirə etmişik. Azərbaycan ilə Ermənistan arasında gedən müharibəyə son qoyulması, bu



məsələnin sülh yolu ilə həll olunması barəsində fikir mübadiləsi aparmışıq. ABŞ-ın bu məsələdə mühüm rol oynaması hər iki tərəfdən bildirilmişdir. Bu görüşdə ABŞ ilə Azərbaycan arasında iqtisadi əlaqələrin inkişaf etdirilməsi məsələsinə də toxunulmuşdur. Xüsusən, Azərbaycan Dövlət Neft Şirkətinin Qərb ölkələri neft şirkətlərinin konsorsiumu ilə apardığı danışıqlar haqqında məlumat verilmişdir. Hər iki tərəf eyni fikirdə olmuşdur ki, bu danışıqlar sona çatdırılmalı, nəzərdə tutulan müqavilələr imzalanmalıdır.

Bu gün mən bu salonda Amerikanın Misirdə olan Ticarət Palatasının nümayəndələri ilə görüşmüşəm. Bu görüşdə Azərbaycanın xarici ölkələrlə iqtisadi əlaqələri haqqında məlumat vermişəm və Ticarət Palatasına mənsub olan biznesmenləri, iş adamlarını Azərbaycana gəlib respublikamızla əməkdaşlıq etməyə dəvət etmişəm.

Burada başqa dövlət xadimləri ilə də görüşlərim olub. Hesab edirəm ki, qısa müddətdə keçirilən bu görüşlərin hamısı Azərbaycanın beynəlxalq mövqelərini möhkəmləndirmək, beynəlxalq əlaqələrini inkişaf etdirmək üçün səmərəlidir. Bu görüşlərin hamısında mən demişəm və sizə də bildirmək istəyirəm ki, Azərbaycan bir müstəqil dövlət kimi öz müstəqilliyini tarixi nailiyyət hesab edir. Bu müstəqilliyi saxlamaq, möhkəmləndirmək əsas vəzifəmizdir və biz çalışacağıq ki, bu vəzifəni axıradək layiqincə yerinə yetirək.

Azərbaycanda demokratik hüquqi dövlət qurulur, demokratik cəmiyyət yaranır. Bu sahədə bir çox addımlar atmışıq, bundan sonra da demokratiya yolu ilə getmək əzmindəyik. Demokratiyanın əsas prinsiplərindən olan insan azadlığı, söz azadlığı, insan haqlarının qorunması, siyasi plüralizm, siyasi fikir müxtəlifliyi və başqa bu kimi amillər Azərbaycanın həyatında get-gedə öz yerini tutmaqda, bərqərar olmaqdadır. Biz bu istiqamətdə işləri davam etdirəcəyik.

Azərbaycanın iqtisadiyyatı indi böhran keçirir. Bu, bir tərəfdən Azərbaycanın keçmiş Sovet İttifaqı tərkibindən çıxması və bir iqtisadi-ictimai quruluşdan başqa bir quruluşa keçməsi ilə, digər tərəfdən respublikamızın müharibə şəraitində olması, Azərbaycanın torpaqlarının 20 faizinin işğal edilməsi və həmin ərazilərdən bir milyondan artıq Azərbaycan vətəndaşının didərgin, qaçqın düşməsi ilə əlaqədardır. İqtisadiyyatın böhran vəziyyətindən çıxması üçün lazımi tədbirlər görürük. Bu sahədə bizim siyasətimiz Azərbaycan iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə aparmaq, özəl bölmənin fəaliyyətini genişləndir-

mək və özəlləşdirməni gücləndirmək, sahibkarlığa, təşəbbüskarlığa geniş imkanlar yaratmaq, Azərbaycan iqtisadiyyatını dünyanın inkişaf etmiş ölkələrinin iqtisadi sistemi əsasında qurmaq və dünya iqtisadiyyatına bağlamaqdan ibarətdir.

Biz məhz bu yolla gedirik və bu yolla gedəcəyik. Ümidvaram ki, biz bu yolda uğurlar qazanacağıq. Bütün bunlar üçün başqa ölkələrlə iqtisadi əlaqələrin genişlənməsinə, respublikamıza investisiya qoyulmasına, iş adamlarının gəlib Azərbaycanda müştərək iş aparmasına çox böyük ehtiyac var. Mən bu görüşlərdə bəyan etmişəm və sizə də bildirmək istəyirəm ki, Azərbaycan açıq ölkədir, onun qapıları bütün xarici dövlətlər üçün açıqdır. İş adamları bundan istifadə edərək gəlib Azərbaycana investisiya qoymaqla, həm özləri mənfəət götürə bilər, həm də biz bunun sayəsində Azərbaycanın iqtisadiyyatını inkişaf etdirə bilərik.

Bütün bunlarla yanaşı, indi Azərbaycanın ən böyk problemi – müharibə vəziyyətindən çıxmaq, erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş torpaqlarımızın geriyə qaytarılmasını təmin etmək, qaçqın düşmüş , doğma yerlərini itirmiş bir milyondan artıq Azərbaycan vətəndaşlarını öz evlərinə, öz yaşayış yerlərinə qaytarmaqdan ibarətdir. İndiki görüşlər, bundan əvvəl mənim bir neçə ölkəyə səfərlərim zamanı olmuş görüşlər bir daha sübut edir ki, Azərbaycan haqqında bu ölkələrdə az məlumat var və bəzən də olan məlumatlar obyektiv xarakter daşımır. Ona görə də bizim əsas vəzifəmiz Azərbaycanın vəziyyəti haqqında dünya ölkələrinə doğru-düzgün və ardıcıl məlumat verməkdir. Eyni zamanda biz arzu edirik ki, xarici ölkələrdə olan jurnalistlər, mətbuat işçiləri, informasiya orqanları, Azərbaycan haqqında doğru-düzgün, obyektiv məlumat verməyə çalışsınlar.

Müharibə şəraitində iqtisadiyyatda böhran vəziyyəti olmasına baxmayaraq, Azərbaycanın daxilində ictimai-siyasi vəziyyət sabitdir. Biz bu sabitliyi təmin edirik və bundan sonra da təmin edəcəyik.

Mən bu salona toplaşan jurnalistləri, mətbuat işçilərini bir daha salamlayıram və hamınızı, hər birinizi Azərbaycana dəvət edirəm. Diqqətinizə görə minnətdaram. Əgər suallarınız varsa, cavab verməyə hazıram.

**S u a l :** ABŞ-in vitse-prezidenti cənab Albert Qor ilə görüşünüzdə Azərbaycan Dövlət Neft Şirkəti ilə Qərb neft şirkətləri konsorsiumu arasında danışıqlara Rusiyanın təsirindən də söhbət getdimi? Sizcə, bunun üçün Amerika Rusiyaya müəyyən təsir edəcəkmi?



**C a v a b :** ABŞ-in vitse-prezidenti cənab Albert Qor ilə danışıqlarımızda Qərb ölkələrinin neft şirkətləri konsorsiumu ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında gedən danışıqlar haqqında bizim fikrimiz eyni olmuşdur. Yəni onlar da, biz də belə fikirdəyik ki, bu müqavilələr artıq imzalanmalıdır. Onlar tərəfindən bizə heç bir təzyiq yoxdur və güman edirəm ki, heç bir təzyiq də ola bilməz. Onlar da, biz də maraqlıyıq ki, bu müqavilələr imzalansın. Ancaq bir şərt var, mən bunu həmişə demişəm, cənab Albert Qor ilə görüşəndə də dedim ki, bu müqavilə Azərbaycanın milli mənafelərini təmin edən bir müqavilə olmalıdır. Çünki neft yataqları Azərbaycan xalqının ən böyük sərvətidir. Bu sərvətdən biz həm bu gün üçün, həm də gələcək nəsillər üçün, gərək səmərəli istifadə edək. Ona görə də hazırlanan və imzalanmalı olan müqavilə, gərək Azərbaycanın milli mənafelərini təmsil etsin. Güman edirəm ki, belə də olacaqdır.

Amerikanın Rusiyaya təsir etməsinə heç bir ehtiyac yoxdur. Mətbuatda belə bir fikir yaranıb ki, Rusiya bu müqavilələrin bağlanmasına mane olmaq istəyir. Amma Rusiya tərəfindən belə konkret addımlar atılmayıb. Ona görə də Amerikanın bu barədə Rusiyaya təsir etməsinə ehtiyac yoxdur. Neft yataqları Azərbaycana məxsusdur. Biz Qərb neft şirkətlərini neft yataqlarından istifadə olunması işinə cəlb etməyə çalışmışıq və çalışırıq.

**S u a l :** Aldığım məlumata görə, BMT-nin baş katibi Butros Qali ilə görüşdə Siz BMT qoşunlarının Azərbaycana gəlməsini xahiş etmisiniz, lakin bu, qəbul olunmayıb. Bu təklifin həyata keçirilməsi üçün Siz gələcəkdə daha hansı addımlar atacaqsınız?

**C a v a b :** Bu belə deyil. Mən cənab Butros Qalidən BMT qoşunlarının Azərbaycana gəlməsini xahiş etməmişəm və belə dəvət olmayıb. Qarabağ məsələsini həll etməkdən ötrü Azərbaycan ilə Ermənistan arasındakı müharibəyə son qoyulması, sülh yaranması üçün beynəlxalq təşkilatların fəaliyyətini gücləndirmək haqqında mənim təkliflərim olub. BMT-nin fəaliyyətinin gücləndirilməsi haqqında təkliflər vermişəm. O cümlədən BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin həyata keçirilməsi barədə təkliflər olubdur. Ancaq xüsusi qüvvələrin oraya gətirilməsi haqqında təkliflər olmayıbdır. Bu barədə verilən məlumatlar yanlışdır.

**S u a l :** Azərbaycanda neft sənayesindən əlavə, daha hansı sahələr inkişaf etmişdir?

**C a v a b :** Bizdə sənaye çox böyük potensiala malikdir. Neft-qazçıxarma sənayesindən əlavə, Azərbaycanın böyük sənaye potensialı var. Neft ilə əlaqədar olaraq kimya sənayesi də var. Maşınqayırma sənayesi var. Bizdə maşınqayırma çoxsahəlidir. Burada həm neft avadanlığı və cihazları istehsalı, həm də neft maşınqayırması, kimya maşınqayırması, elektrotexnika, radiotexnika, elektronika, mikroelektronika, cihazqayırma və maşınqayırmanın başqa sahələri var.

Azərbaycanda metallurgiya sənayesi çox inkişaf etmişdir. Həm qara metallurgiya, həm də əlvan metallurgiya sənayesi vardır. Azərbaycanda kənd təsərrüfatının potensialı geniş olduğuna görə, kənd təsərrüfatı məhsullarının emalı, bununla bağlı toxuculuq sənayesi, xalq istehlakı malları istehsal edən sənaye sahələri də çox geniş potensiala malikdir.

Neft-qaz yataqlarından savayı, Azərbaycan başqa yeraltı sərvətlərlə də zəngindir. Respublikamızın yataqlarında qara metal, yəni dəmir, əlvan metal ehtiyatları da çoxdur.

**S u a l :** Siz dediniz ki, iştirak etdiyiniz indiki konfransdakı çıxışlar əməli xarakter daşıyırdı və bu ideyalardan Azərbaycanda da istifadə edirsiniz. Bunu deyərkən nəyi nəzərdə tutursunuz?

**C a v a b :** Şübhəsiz ki, çıxışlarda səslənən fikirlərin hamısı ilə razılaşmaq olmaz. Ancaq çox əhəmiyyətli fikirlər, təkliflər də vardır. Mən belə hesab edirəm ki, konfrans öz işini, yəqin konsensusla qurtaracaqdır. Hər halda konfransın qətnamələrini biz də nəzərdən keçirəcəyik. Bu sənədlər heç də hər bir ölkə üçün məcburi deyildir. Həmin qətnamələrdə Azərbaycan üçün nə xeyirlidirsə, biz onlardan istifadə edəcəyik. Konfransın əsas məqsədlərindən biri əhali artımının, ailənin planlaşdırılmasıdır. Hesab edirəm ki, bu məsələlərdə inzibati yolla getmək olmaz, lakin hər bir ölkə bu gününü və gələcəyini düşünərək lazımi tədbirlər görməlidir. Bunların sırasında əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması, adamların mədəni səviyyəsinin (o cümlədən ailə daxilində) yüksəldilməsi və başqa tədbirlər var. Biz milli və dini ənənələrimizə uyğun olaraq, bu konfransda irəli sürülən fikirlərdən, bayaq dediyim kimi, Azərbaycan üçün faydalı olanları götürəcəyik.

**S u a l :** Cənab Prezident, Sizin dövlətiniz MDB-nin üzvüdür. Azərbaycanın başqa dövlətlərlə, o cümlədən Qərb dövlətləri ilə münasibətlərinin inkişafına Moskvanın maneçiliyi hələ də varmı? Ümumiyyətlə, Ermənistanın Azərbaycana qarşı təcavüzünə MDB üzvlərinin münasibəti necədir? Məsələn, bizi Moskvanın mövqeyi maraqlandırır: o, bitərəfliyi gözləyirmi, yoxsa erməniləri fəal müdafiə edir?



**İ k i n c i  s u a l :** Prezident Hüsni Mübarəklə danışıqlarınız barədə məlumat verərkən dediniz ki, ikitərəfli münasibətlərin inkişaf etdirilməsindən söhbət getmişdir. Sizcə, ölkələriniz arasında münasibətlərin yüksələn xətlə inkişafı üçün hansı tədbirlər görülməlidir?

**C a v a b :** Əvvələn, MDB üzvü olan ölkələrin başqa ölkələrlə münasibətlərinə heç bir məhdudiyyət qoyulmamışdır. Biz başqa ölkələrlə əlaqələr yaratmağımızda məhdudiyyət hiss etmirik. İqtisadiyyat sahəsində Müstəqil Dövlətlər Birliyinin çox böyük ehtiyat imkanları var və bunlardan istifadə etmək lazımdır. Çünki indi MDB-yə daxil olan on iki dövlət keçmişdə bir dövlətin tərkibində idi. Onların bütünlükdə iqtisadiyyatı bir-biri ilə çox bağlı olmuşdur. İndi, hər bir respublika müstəqil olan bir vaxtda həmin əlaqələr qırılmışdır. Bu əlaqələrin bərpa olunması və inkişafı üçün mövcud imkanlardan istifadə edilməlidir.

O ki qaldı sualınızın ikinci hissəsinə, çox təəssüf hissi ilə deyə bilərəm ki, Müstəqil Dövlətlər Birliyi bu birliyə daxil olan iki ölkə – Ermənistan ilə Azərbaycan arasında gedən müharibəyə, demək olar, biganədir. Mən Müstəqil Dövlətlər Birliyi rəhbərlərinin toplantısında bu məsələnin müzakirə olunmasını iki dəfə təklif etmişəm. Ancaq həmin məsələ müzakirə olunmamışdır. Eyni zamanda deməliyəm ki, Rusiya bu münaqişənin sülh yolu ilə aradan qaldırılmasına çalışır. Ermənistan ilə Azərbaycan arasında vasitəçi rolu oynayır və onun bu sahədəki fəaliyyəti müəyyən müsbət nəticələr verir. Ancaq biz istəyirik ki, bu məsələ böyük dövlətlərin, o cümlədən Rusiyanın vasitəçiliyi ilə, lakin beynəlxalq təşkilatlar səviyyəsində həll edilsin.

**S u a l :** Siz Qərb şirkətləri ilə neft müqaviləsi bağlamaq barədə çoxdan danışıqlar aparırsınız. Necə bilirsiniz, müqavilənin imzalanması vaxtı çatmışdırmı?

**C a v a b :** Bəli, biz artıq son mərhələdəyik. Güman edirəm ki, müqavilənin imzalanmasına lap az qalmışdır.

**S u a l :** Hörmətli Prezident, bilirsiniz ki, dünyada 20 milyon qaçqın var və onların 1 milyonu Azərbaycandadır. Qahirə konfransında qaçqınlara yardım məsələsi də müzakirə olunmalıdır. Azərbaycan qaçqınlarına yardım məsələsi barədə konfransda söhbət getmişdirmi?

**C a v a b :** Hələlik bu barədə söhbət getməmişdir. Lakin konfransda bizim nümayəndələrimiz iştirak edir və onlar bu məsələni qaldıracaqlar.

**S u a l :** Azərbaycanda yeni, demokratik parlament seçkiləri nə vaxt keçiriləcək?

**C a v a b :** İndiki parlamentin səlahiyyət müddəti 1995-ci ilin payızında qurtarır və həmin vaxtadək bütün demokratik prinsiplərə əməl edilməklə seçkilər keçiriləcək.

**S u a l :** Hazırda Misir və Azərbaycan arasında iqtisadi əlaqələr necə inkişaf edir? Azərbaycanda özəlləşdirmə prosesi necə gedir?

**C a v a b :** Misir Ərəb Respublikası ilə iqtisadi əlaqələrimizdə hələlik ilk addımlar atılır. Bir neçə iş adamı Azərbaycana gəlmiş, müəyyən sazişlər bağlanmışdır. Lakin biz bu əlaqələri inkişaf etdirməyə çalışacağıq. Cənab prezident Hüsni Mübarəklə də bu barədə danışıqlarımız olmuşdur.

Azərbaycanda, bir qədər ləng olsa da, özəlləşdirmə prosesi gedir. Özəl bölmə artıq öz yerini tutmuşdur. Özəlləşdirməyə dair proqramımız var və o, yaxın aylarda sürətlə həyata keçiriləcəkdir.

**S u a l :** Azərbaycan öz ərazisində hər hansı dövlətin təhlükəsizlik qüvvələrini qəbul etməyə hazırdırmı?

**C a v a b :** Biz müştərək beynəlxalq təhlükəsizlik qüvvələrini Azərbaycanda qəbul etməyə hazırıq. Çünki Ermənistanla Azərbaycan arasında gedən müharibəyə son qoyulması üçün, şübhəsiz ki, beynəlxalq qüvvələr olmalıdır. Belə qüvvələri, yəni bir neçə dövlətin hərbi kontingentindən ibarət olan qüvvələri qəbul etməyə hazırıq.

**S u a l :** İstiqlaliyyət qazanılmasının Azərbaycan üçün nə kimi əhəmiyyəti var və Siz fəaliyyətinizi MDB-nin başqa dövlətləri ilə əlaqələndirirsinizmi?

**C a v a b :** Zənnimcə, istiqlaliyyətin Azərbaycan üçün əhəmiyyətini izah etməyə ehtiyac yoxdur. Siz cavansınız. Misirin müstəmləkə vəziyyətindən çıxaraq istiqlaliyyət əldə etməsi Misir üçün nə qədər əhəmiyyətli idisə, Azərbaycanın istiqlaliyyət qazanması da ondan ötrü bu dərəcədə əhəmiyyətlidir. İstiqlaliyyətimizi qorumaq və möhkəmləndirmək üçün bütün dövlətlərlə ikitərəfli, qarşılıqlı surətdə faydalı əlaqələr yaradırıq. Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrlə də belə əlaqələr yaradırıq. Ancaq həmin respublikaların hər biri müstəqil dövlətdir və onlarla ikitərəfli əlaqələr saxlamaqla yanaşı, eyni zamanda MDB çərçivəsində əlaqələrimizi sahmana salırıq. Lakin MDB üzvü olan dövlətlərlə münasibətlərimizi əlaqələndirməyə ehtiyac yoxdur.



**S u a l :** Cənab Prezident, bizim əlaqələrimizin kökləri qədimdir. Sizin dediyiniz kimi, 1200 illik tarixi var. Bu gün Misir ilə Azərbaycan arasında mədəni əlaqələr barəsində nə deyə bilərsiniz?

**C a v a b :** Azərbaycanla Misir arasında tarixi, mədəni əlaqələrin olması məlumdur. Bizim mədəniyyətimiz ərəb mədəniyyəti, ümumən Şərq mədəniyyəti ilə sıx bağlıdır. Azərbaycan dilindəki «mədəniyyət» sözü də, gərək ki, ərəb sözüdür, siz «mədəniyyə» deyirsiniz. Mənə məlumdur ki, son 20-30 ildə Azərbaycanın nümayəndələri, xüsusən incəsənət xadimləri Misir Ərəb Respublikasında –Qahirədə operada, konservatoriyada, incəsənət mərkəzində və başqa sahələrdə fəaliyyət göstərmiş, kadrlar hazırlamışlar. Misir Ərəb Respublikasının mədəniyyət xadimləri də dəfələrlə Azərbaycanda olmuşlar. Bu əlaqələr indi də davam edir.

Dünən axşam Misir prezidenti cənab Hüsni Mübarəkin təşkil etdiyi qəbulda və ondan sonra konfrans iştirakçıları üçün verilən konsertdə oldum. Biz prezidentlə yanaşı oturmuşduq və sizin ölkənizin incəsənət ustalarının çıxışlarına qulaq asırdıq. Mən bir daha özüm üçün müəyyən etdim ki, bizim musiqimizdə, rəqslərimizdə çox bənzərlik və yaxınlıq var. Hətta cənab Hüsni Mübarəkə dedim ki, siz Azərbaycana gələndə bizim incəsənət ustalarının konsertində eyni şeyi görəcəksiniz. Ancaq bu o demək deyil ki, əlaqələrimizi inkişaf etdirməməliyik – əlaqələrimizi bundan sonra da genişləndirəcəyik.

Sizi bir daha salamlayır və diqqətinizə görə minnətdarlığımı bildirirəm, sağ olun!

## MOSKVAYA MDB ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ GÖRÜŞÜNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*8 sentyabr 1994-cü il*

Əlbəttə ki, indi hər bir toplantıdan respublikamızın problemlərinin həll olunması, Azərbaycanın başqa ölkələrlə əlaqələrinin möhkəmlənməsi üçün, o cümlədən Müstəqil Dövlətlər Birliyində aparacağımız işlər və əlaqələrimizin inkişaf etdirilməsi üçün çox şey gözləyirik. Nəyə nail olacağıq – onu gələcək göstərəcək.

**Sual:** Azərbaycanın qarşıdakı görüşlər üçün konkret təklifləri varmı?

**Cavab:** Bizim təkliflərimiz həmişə var. Bu gün də var, sabah da var. Bunları indi istədiyimiz səviyyədə həyata keçirməyə nə qədər imkanımızın olması tək bizdən asılı deyil. Bilirsiniz ki, indi dövlətlərarası, yaxud dövlətlər birliyində olan işlər ümumi razılıq əsasında gedir. Ona görə də biz həmişə çalışırıq ki, respublikamızın mənafeyini təmin edən qərarlar qəbul olunsun və buna da nail olmağa çalışacağam.

**Sual:** Moskvada yəqin ki, Ermənistan prezidenti ilə görüşmək fikriniz var?

**Cavab:** Bəli, şübhəsiz ki, görüşəcəyəm, onunla da danışıqlarımız olacaq. Mən belə görüşləri həmişə səmərəli hesab edirəm və bu dəfə də görüşəcəyəm.



## MOSKVAYA UÇARKƏN TƏYYARƏDƏ «DELOVOY MİR» QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ

**– Mən Bakıya Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidenti İlham Əliyevin dəvəti ilə müqavilənin imzalanmasına gəlmişdim, həmin tədbir avqustun ikinci yarısı üçün nəzərdə tutulmuşdu. Lakin bu iş gecikdirilir. Heydər Əliyeviç, bu nə ilə əlaqədardır?**

– Çox iri bir müqavilə hazırlanır. Azərbaycan belə müqaviləni ilk dəfə bağlayır. Mən Azərbaycan iqtisadiyyatını və onun sənaye potensialını, xüsusilə neft və qaz sənayesini yaxşı bilən adam kimi, bu hazırlığın necə getməsi ilə maraqlanmaya bilməzdim. Mən danışıqları dayandırmaq, onların gedişini təhlil etmək, öz mövqeyimi müəyyənləşdirmək və müqavilə konsepsiyamızı təklif etmək qərarına gəldim. Müəyyən vaxtdan sonra Azərbaycanın neft şirkəti onu mənə təqdim etdi. Ona təkcə mən yox, bütün instansiyalar baxdı və biz belə bir ümumi qərara gəldik ki, bu konsepsiya ilə danışıqlara getmək olar.

Qərb şirkətləri konsorsiumu onlarla danışıqlara Bakıda başlamağı, sonra İstanbulda davam etdirməyi təklif etdi. Danışıqlar bir dəfə Bakıda, üç dəfə Türkiyədə keçirildi. Sonuncu danışıqlar, əslində, əlverişli keçdi. Bütün prinsipial məsələlər üzrə razılığa gəlindi, bu həm Qərb neft şirkətlərinin, həm də Azərbaycan Respublikasının mənafeyinə uyğun olmalı idi. Danışıqların iştirakçıları xahiş etdilər ki, mən onları birlikdə – həm Azərbaycan Neft Şirkətinin rəhbərliyini, həm də konsorsiumun nümayəndələrini qəbul edim. Bu görüşdə «Bi-Pi»-nin («Britiş Petroleum» – A.Q.) vitse-prezidenti və «AMOKO» iştirak edirdi. Həm onlar, həm də başqaları məlumat verdilər ki, onlar ümumi rəyə gəlmişlər və müqavilənin mətnini praktik şəkildə tərtib etmək vaxtı gəlib çatmışdır. Onların fikrincə, bu işi Hyustonda görmək daha yaxşıdır, çünki orada həm texniki, həm də digər şərait Bakıda olduğundan yaxşıdır. Mən razılaşdım və onlar iyulun 20-də oraya yollandılar. Nəzərdə tutulurdu ki, onlar 20-25 gün müqavilənin mətni üzərində işləyəcək, qəti razılığa gələcək, bundan sonra müqavilənin imzalanacağı günü müəyyənləşdirəcəyik.

Lakin nə isə gözlənilməz hadisələr baş verdi. Əvvəla, bu vaxtlar müxtəlif mətbuat orqanlarında, o cümlədən Moskva və Qərb mətbuatında müqavilə ilə bağlı müxtəlif rəylər, hər cür fitnəkar yazılar meydana gəldi. Onlar, əlbəttə, əsl həqiqətə uyğun gəlmirdi və ictimaiyyəti müəyyən dərəcədə çaşdırırdı. Hyustonda danışıqlar isə başlanmışdı və müvəffəqiyyətlə davam etdirilirdi. Lakin Qərb neft şirkətləri İstanbulda artıq razılaşdırılmış bəzi bəndləri yenidən nəzərdən keçirməyə başladılar. İstanbuldan sonra onların nümayəndələri mənim yanımda olmuş, onların istəyi ilə mən də razılaşmışdım ki, müqavilə ilə əlaqədar bütün prinsipial məsələlər həll edilmişdir və bu əsasla imzalamaq üçün onun mətnini hazırlamağa başlamaq olar.

Lakin Hyustonda hansı səbəbdənsə onlar müqaviləyə yenidən baxmağa, onun bəzi çox mühüm müddəalarına və bəndlərinə dəyişikliklər etməyə başladılar ki, bu da Azərbaycanın iqtisadi və əlbəttə, milli mənafeyinə toxunurdu, lakin o biri tərəfə böyük xeyir verirdi. Ona görə də danışıqlar uzandı. Əvəzində böyük işlər görüldü. İki gün əvvəl mənə məlumat verdilər ki, müqavilənin mətni artıq hazırdır, lakin bəzi mövqelər üzrə razılıq əldə edilməyib. Ona görə də biz belə düşündük ki, avqustda və ya sentyabrın əvvəllərində müqavilənin imzalanması baş tutmayacaq. Deməli, nümayəndə heyətimiz Bakıya qayıtmalı, biz mübahisəli məsələləri nəzərdən keçirməli, onlara öz münasibətimizi bildirməli və görünür, sonra yeni görüş keçirməli olacağıq. Doğrudur, Qərb şirkətləri çox israr edirdi ki, müqavilə, heç olmasa, sentyabrın 10-15-də imzalansın. Biz də bunu istəyirdik. Sonra mən Amerika Birləşmiş Ştatlarının rəhbərliyi ilə görüşdüm. Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klintonun rəsmi nümayəndəsi madam Olbrayt Bakıda oldu. O deyirdi: biz çox istəyirik ki, müqavilə yaxın vaxtlarda imzalansın. Elə həmin tarixi – sentyabrın 10-15-ni göstərirdi. İki gün əvvəl mən Qahirədə Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti cənab Albert Qorla görüşdüm. O da dedi ki, müqavilənin imzalanmasında maraqları var. Mən orada da bildirdim ki, bu işdə bizim marağımız onlarınkından az deyil, çünki bizim iqtisadi vəziyyətimiz işə tezliklə başlamağı tələb edir, bu işin isə yaxşı perspektivi var. Lakin müqavilə qarşılıqlı surətdə sərfəli olmalıdır. Həm Qərb neft şirkətləri üçün, həm də Azərbaycan üçün. Biz müqavilənin nə təkcə özümüz üçün, nə də təkcə o biri tərəf üçün birtərəfli qaydada xeyirli olmasına yol verə bilmərik. Bax, işlər buna görə uzanırdı. Yaxın günlərdə nümayəndə heyətimiz



Bakıya qayıdacaq, biz mübahisəli məsələləri nəzərdən keçirəcəyik və öz mövqeyimizi müəyyən edəcəyik.

**– Sizin fikrinizcə, Heydər Əliyeviç, indi kütləvi informasiya vasitələrində, o cümlədən Rusiyanın mətbuat orqanlarında şişirdilən Xəzər dənizinin statusu məsələsi necə həll edilməlidir?**

– Rusiya tərəfindən bu məsələyə, əslində, toxunulmamışdır. Xəzərin Azərbaycan sektorunun birgə istismarı barədə Azərbaycanla Böyük Britaniya arasında saziş imzalanması haqqında Rusiya XİN-in Böyük Britaniya Krallığına kiçik notası var idi. Doğrudan da, bu ilin fevral ayında mənim rəsmi səfərim zamanı belə bir sazişi biz baş nazir cənab Meycorla Londonda imzalamışdıq. Bundan başqa heç nə olmamışdı. Deyəsən, bunun üçün Xəzər dənizinin statusunun müəyyən edilməsinin zəruriliyi barədə orada işarə vurulmuşdu. Həmin notaya Böyük Britaniya XİN müvafiq tərzdə cavab vermişdi. Bundan sonra mən Böyük Britaniyanın xarici işlər naziri cənab Duqlas Herdlə görüşdüm. O mənə dedi ki, onlar cavab vermişlər və bu notanın heç bir əhəmiyyəti yoxdur.

Rusiya bizim qarşımızda heç bir məsələ qaldırmamışdır. Üstəlik, konsorsiumda bizim tərəfdən Rusiyanın nəhəng «LUKoyl» neft şirkəti iştirak edirdi. Müqavilə payının on faizi ona məxsusdur. Yəni Rusiya burada kənarda qalmayıb. Onun da marağı var. Bu birincisi. İkincisi, Xəzər dənizinin statusu hələ 10-20 ildən sonra müəyyən edilə bilər. Bu məsələ dəfələrlə müzakirə edilməlidir və həm Rusiyanın, həm Qazaxıstanın, həm Türkmənistanın, həm İranın, həm də Azərbaycanın müstəsna hüququdur. Daha vacib bir cəhət: Azərbaycan neftçiləri qırx beş ildir ki, Xəzərdə neft və qaz yataqlarının kəşfiyyatı, çıxarılması, işlənməsi ilə məşğuldurlar. Onlar bu işi Xəzərin bütün akvatoriyasında aparırdılar. Əsasən isə, Azərbaycan bölməsinə daxil olan akvatoriyada işləmişlər. Sovet İttifaqı dağıdıldıqdan, respublikalar müstəqil olandan sonra biz Xəzər dənizinin ortasından sərhəd çəkdik. Türkmənistan sahillərində də neftin işlənməsi və çıxarılması ilə Azərbaycanın neft şirkəti məşğul olurdu, lakin biz oradan çıxıb getdik. Orada türkmən neftçiləri işləyirlər. Başqa sözlə, burada bizim heç bir mübahisəli məsələmiz yoxdur. Xəzərin cənubunda İran neft yataqlarının kəşfiyyatına başlayır. Özü də müstəqil, heç kəsdən heç nə soruşmadan. Yeri gəlmişkən, o, Azərbaycanın neft şirkəti ilə müqavilə bağlamışdır və bizim neftçilər orada quyu qazırlar. Rusiya da, Qazaxıstan da öz bölmələrində belə işlər görə bilər. Burada heç kəs digərinə mane olmur. Bölmə məsələsi

hansı qüvvələr tərəfindənsə süni surətdə yaradılıb və bizim işlərə, xüsusilə müqavilə bağlamağa mane olmaq məqsədi güdür. Lakin mən belə hesab edirəm ki, bunun üçün heç kimin heç bir əsası yoxdur. Özü də təkrar edirəm: Rusiya tərəfindən bu məsələ Azərbaycan qarşısında bir dəfə də qaldırılmamışdır.

**– Bizim qəzet işgüzar qəzetdir, bunu onun adından da görmək olar, mən də siyasətsiz keçinmək istərdim. Lakin Qarabağ probleminin nizama salınmadığı bir ölkə haqqında danışarkən, yəqin ki, bunsuz ötüşmək olmaz. Görünür, Allah özü Sizi göndərib ki, heç kəsə lazım olmayan müharibəyə son qoyasınız. Hamı da görür ki, Siz buna necə də çalışırsınız. Çoxdan gözlənilən bu hadisə baş verəndə – hamı buna çox ümid bəsləyir – təbiətən yaradıcı olan Siz iqtisadiyyatın bərpası ilə daha yaxından məşğul olacaqsınız. Hansı iqtisadi modelə üstünlük verəcəksiniz? Siz özəlləşdirmə və dövlətin tabeçiliyindən çıxarmaq yolu ilə gedən Rusiyadan nümunə götürəcəksiniz, yoxsa hansısa başqa yol seçəcəksiniz?**

– Əvvəlcə, sualınızın birinci hissəsinə cavab verirəm. Azərbaycana yenidən rəhbərlik etməyə başladığım andan – bu, təqribən bir il əvvəl baş verib – mən doğrudan da, müharibəyə son qoymağa çalışıram. Müharibə altı ildir davam edir. Onun Azərbaycan tərəfindən başlanmadığını hamı bilir. Azərbaycan bu müharibəyə cəlb edilmişdir, böyük itkilər verib, onun ərazisinin iyirmi faizi işğal olunub, bir milyon nəfərdən artıq sakini qaçqına çevrilmişdir. Adamlar əziyyət çəkir, hələ həlak olanları, yaralananları və əlil olanları demirik. Erməni silahlı birləşmələri tərəfindən işğal olunan ərazilərdə isə hər şey məhv edilmişdir. Onilliklər, yüzilliklər ərzində yaradılan hər şey. Azərbaycan Respublikasına külli miqdarda ziyan vurulmuşdur. Müharibənin heç bir gələcəyi yoxdur. Şəxsən mən belə hesab edirəm. Sağlam düşüncəli hər bir adam belə hesab etməlidir. Elə bilirəm ki, erməni tərəfi də bunu başa düşür. Çünki dünyada sonsuz müharibə heç vaxt olmamışdır. Çox uzun sürən müharibələr olmuşdur, lakin onların hamısı sülhlə qurtarmışdır. Bu müharibə nə qədər davam etsə də, hər halda, onun perspektivi yoxdur, o nə bu, nə də digər tərəfə üstünlük verə bilməz.

Ona görə də mən qarşıma məqsəd qoymuşam ki, bu məsələnin sülh yolu ilə həllinə nail olum, müharibə qurtarsın. Əlbəttə, Azərbaycanın milli mənafeyini təmin etmək şərti ilə. Bu şərtlər Azərbaycanın ərazi bütövlüyü, müstəqil Azərbaycan dövlətinin sərhədlərinin toxunulmazlığı, erməni silahlı birləşmələri tərəfindən işğal olunmuş bütün ərazilərin azad edilməsi, qaçqınların öz yaşayış yerlərinə qaytarılmasından ibarətdir. Erməni tərəfinin də öz şərtləri var. Onlardan hansını qəbul etmək mümkündürsə, biz qəbul edirik. Təbii ki, bu, Dağlıq Qarabağda erməni əhalisinin təhlükəsizliyinin təmin edilməsi, Dağlıq Qarabağa müvafiq status verilməsi, beynəlxalq nəzarət altında (bu bizim rəyimizdir) Dağlıq Qarabağla Ermənistan arasında Laçın rayonu vasitəsilə humanitar dəhlizin təmin edilməsindən ibarətdir. Əgər bu şərtlər ermənilər tərəfindən qəbul olunarsa, onda sülh təmin oluna bilər. Mən sülh üçün çalışıram, ona nail oluram və istəyirəm sülh olsun. Mən elə hesab etmirəm ki, hərbi yolla tərəflərdən hansısa biri müvəffəqiyyət qazana bilər. Mən nikbinəm və ümid edirəm ki, sülh olacaqdır.



Sualınızın ikinci hissəsi: biz hansı modeli seçirik – Rusiya modelini, yaxud hansısa başqasını? Mən artıq çoxdan, Azərbaycana gələn kimi elan etmişəm ki, respublikamız demokratikləşmə, demokratik hüquqi dövlət quruculuğu yolu ilə dünya demokratiyasının təcrübəsindən istifadə etməklə, demokratiyanın bütün atributları ilə, demokratik cəmiyyət quruculuğu yolu ilə getməlidir. Əlbəttə, yerli şərait, milli xüsusiyyətlər, milli ənənələr nəzərə alınmaqla.

İqtisadiyyata gəldikdə isə, o, şübhəsiz ki, bazar iqtisadiyyatı olmalıdır. Təşəbbüs, azad sahibkarlıq üçün şərait yaradılmalıdır. Köhnə iqtisadi prinsiplərə, köhnə sistemə qayıdış ola bilməz. Eləcə də, köhnə ictimai-siyasi sistemə. Bu mənim əqidəmdir. Belə hesab edirəm ki, bütün bunlar Azərbaycanı iqtisadi və sosial böhrandan çıxara bilər. Əlbəttə, müəyyən çətinliklər olacaq, lakin elə düşünürəm ki, azad cəmiyyətə, azad həyata və azad iqtisadiyyata qovuşmaq üçün xalq onlara dözməlidir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə sınaqdan çıxarılmış model budur. Azərbaycan şəraitində mən bunları respublikamızda tətbiq etmək və təsdiqləmək niyyətindəyəm.

**– Bu yaxınlarda Azərbaycan mətbuatında baş nazir Surət Hüseynovun proqram çıxışı dərc edilmişdi. Orada o, həm də islahatların və cari işlərin həyata keçirilməsi üçün Nazirlər Kabinetinin səlahiyyətlərinin azlıq etməsindən narazılığını bildirir. Siz buna necə münasibət bəsləyirsiniz?**

– Nazirlər Kabinetinin səlahiyyətləri lazım olduğundan da çoxdur. Lakin məsələ burasındadır ki, o, islahatların keçirilməsi mövqeyində dayanmır. Bundan əlavə o, daha çox komanda-inzibatçılıq sisteminin

təsdiqi mövqeyində durur. Əslində o, islahatların həyata keçirilməsinin əleyhinədir. Yeri gəlmişkən, baş nazir bunu biz məsələləri müzakirə edərkən açıq deməmişdir. Sonralar isə qəzetlərdə onun adından materiallar yazırlar. Mənə belə gəlir ki, Azərbaycan ictimaiyyəti kimin nəyə tərəfdar olduğunu yaxşı bilir.

**– Hamının bütün səviyyələrdə müzakirə etdiyi məsələ: Heydər Əliyeviç, MDB çərçivəsində iqtisadi məkanın bərpası barədə Sizin fikriniz? Siz onu necə təsəvvür edir, görürsünüz? Misal üçün, mən eşitmişəm ki, sabah-birisigün Dövlətlərarası İqtisadi Komitə yaradılması barədə məsələ həll ediləcəkdir. O necə olacaqdır? Siz Avroasiya dövlətləri ittifaqı təşkil edilməsi haqqında Nazarbayevin ideyası ilə razılaşırsınızmı?**

– Azərbaycan MDB-yə daxil olmamışdı, siz bunu bilirsiniz. Respublikamız onun tərkibinə ötən ilin sentyabrında daxil olmuşdur. İyun ayında mən Azərbaycan Respublikasına başçılıq etməyə başladım və respublikada MDB-yə daxil olmaq üçün psixoloji mühit yaratmaq məqsədi ilə bir neçə ay işləməli oldum. Ölkəmizdə MDB-yə qarşı münasibət çox mənfi idi. Bilirsinizmi, insanların psixologiyasında dönüş yaratmaq asan olmadı. Həm Azərbaycan parlamentində, həm də ictimai rəydə. Bunun xalqın iradəsinə uyğun olması üçün birləşmək barədə mən dəfələrlə parlamentdə məsələ qaldırdım. O, ictimaiyyət, əmək kollektivləri arasında, politoloqlar, ziyalılar tərəfindən müzakirə edildi. Nəticədə adamlarımızı inandıra bildik ki, Azərbaycanın MDB tərkibində olması zərurətdir. Mən belə bir mandat aldım və sentyabrın 24-də Moskvada respublikanın MDB-yə birləşdirilməsi barədə sənədləri imzaladım. Lakin bununla belə, mən MDB-nin fəaliyyəti ilə yaxından tanış olanda hiss etdim ki, çox təəssüf, orada heç də hər şey nizama salınmamışdır. MDB-nin adı var, lakin yaxşı fəaliyyət mexanizmi, qarşılıqlı əlaqə yoxdur. Müxtəlif ideyalar, müxtəlif fikirlər, o cümlədən Nursultan Nazarbayevin təklifləri meydana gəlmişdir. Bu ideya diqqətəlayiqdir. Lakin daha diqqətlə öyrənilməlidir. Təəssüf ki, mənim hələ buna imkanım olmamışdır. Lakin oktyabrda dövlət başçılarının görüşü olacaqdır. Görünür, o vaxtadək bu məsələ ilə əlaqədar biz öz mövqeyimizi işləyib hazırlaya biləcəyik. Ona görə MDB çərçivəsində iqtisadi inteqrasiya olmalıdır. Xüsusilə, MDB tərkibinə daxil olan dövlətlər arasında ikitərəfli sıx əlaqələr yaradılmalıdır. MDB də, şübhəsiz, bu iqtisadi inteqrasiyanı təmin etməyə borcludur. Bununla belə, bu işi mərkəzləşdirmək olmaz, yenidən hansısa mərkəz, hansısa tənzimləyici yaratmağa cəhd göstərmək yaramaz. Bunu həyata keçirmək qeyri-mümkündür. Ona görə də indi haradasa haqqında müzakirə gedən iqtisadi komitə barədə heç nə deyə bilmərəm.



**– Siz bunu mərkəz kimi qəbul edirsiniz?**

– O, elə mərkəz təsiri bağışlayır. Ona görə də bu işi diqqətlə öyrənmək lazımdır. Başqa sözlə, mənim mövqeyim belədir: iqtisadi inteqrasiya daha səmərəli olmalıdır. O, indi aşağı səviyyədədir. Lakin o, dövlətlərin suverenliyinə və iqtisadi müstəqilliyinə xələl gətirməməlidir. Burada bacarıqlı əlaqə, tarazlıq yaradılmalıdır.

**– Siz öz planlarınızda hansı istiqamətə üstünlük verirsiniz: Cənuba, Qərbə, yaxud Şimala?**

– Mən dəfələrlə bəyan etmişəm: Azərbaycan müstəqil dövlətdir və bütün dünya üçün qapıları açıqdır. Rusiya bizim şimal qonşumuzdur, bizi iki yüz illik birgə həyat, çoxlu cəhətlər birləşdirir, Rusiya ilə dostluq münasibətləri, iqtisadi əlaqələr olmalıdır. Kim desə ki, bunsuz keçinmək olar, onda o, səhv edər. Lakin bununla birlikdə Azərbaycan müstəqil dövlət kimi, öz qonşuları Türkiyə, İran, Gürcüstan, habelə MDB-yə daxil olan digər dövlətlərlə ikitərəfli münasibətlər saxlayır və saxlayacaqdır. Təəssüf ki, Ermənistanla bizim aramızda müharibə gedir, lakin mənə elə gəlir ki, sülh yaranacaqdır. Əlbəttə, Şimal ölkələri ilə – Amerika Birləşmiş Ştatları, Avropa ilə əlaqələrimiz möhkəmlənməlidir. Müstəqil dövlət hansısa bir tərəfə meyllənməməlidir, mən də çoxtərəfli əlaqələr tərəfdarıyam.

**– Bakılılar danışırlar ki, Siz 70-ci illərdə nadir elmi-texniki kadrlar potensialı və çoxmillətli ziyalılar ordusu yaratmısınız. İndi isə, biz böyük təəssüf hissi və kədərlə müşahidə edirik ki, istedadlı adamlar ölkəni tərk edir, özü də bu axın heç də azalmır. Əksinə, daha da güclənir. O cümlədən sizin ölkənizdən də. Mən də biliərəm ki, ölkəniz necə-necə gözəl alimdən, rəssamdan, bəstəkardan məhrum olmuşdur.Burada qalan adamlar acı-acı şikayətlənirlər ki, ziyalılığın səviyyəsi kəskin surətdə aşağı düşmüşdür, təmasda olmağa adam tapılmır, rus və xarici elmi nəşrlər hətta Elmlər Akademiyasının kitabxanasına da gətirilmir, yaranmış intellektual vakuumda nəfəs almaq olmur... Nəhayət, çoxdan gözlənilən dinclik, sakitlik nə vaxt bərqərar olacaq, ölkənizdə vəziyyət nə vaxt sabitləşəcək, rahatlıq yaranacaq? Siz, əvvəla, bu axının**

**qarşısını almaq üçün, ikincisi, hazırladığınız kadrların Azərbaycana qayıtması üçün hansı tədbirləri görürsünüz? Gəlin bir daha xatırlayaq ki, bəşəriyyət tərəfindən informasiya əsri kimi qiymətləndirilən XXI əsrin astanasındayıq.**

– Bu məsələ mənim üçün çox ağırdır, mənə mənəvi zərbə vurur. Bəli, yəqin ki, adamlar xatırlayırlar. Azərbaycanda intellektual potensialın yaradılması üçün mən az iş görməmişəm. Həm elmdə, həm mədəniyyətdə, həm sənayedə, həm də kənd təsərrüfatında. Hər yerdə, hər sahədə. Mən buna bütün həyatımı həsr etmişəm. Bu mənim həyatımın bir hissəsidir, özü də əsas hissəsi. Bəlkə ona görə daha ağırdır ki, yaratdıqlarım müəyyən dərəcədə məhv olmuş, dağılmışdır. Lakin bu, daha məndən asılı deyildir. Bu vəziyyətə səbəb, son altı-yeddi il ərzində baş verən proseslərdir. Mənə elə gəlir ki, Azərbaycanın elmi, iqtisadi, intellektual potensialı həm Azərbaycanın özündə, həm də onun hüdudlarından kənarda yaşayır. Lap Rusiyanın özündə də. Vaxtilə mən xüsusi olaraq Rusiyanın ali məktəblərinə oxumağa çoxlu adam göndərmişdim, onlar orada təhsil almış, elmlər doktoru, professor olmuş, yaşamaq üçün də orada qalmışlar. Qərb ölkələrində də bizim çoxlu mütəxəssisimiz var. Elə bilirəm ki, bizdə iqtisadi şərait yaxşılaşanda, iqtisadiyyat inkişaf edəndə, biz cəmiyyətə böyük zərbə vuran mənfi hallardan qismən də olsa, yaxa qurtaranda, həmin potensial yenidən qayıdacaqdır. Mən nikbinəm, mən buna inanıram.

**– Ona görə ki, sizin gözəl torpağınız və zəngin imkanlarınız var...**

– Həm torpağımız gözəldir, həm də elə bilirəm ki, özüm də buna kömək edəcəyəm.

**– Xammal ehtiyatlarının zənginliyinə görə, Azərbaycanı tez-tez gah Küveytlə, gah da Klondayklə müqayisə edirlər. Lakin respublikanın əhalisi kasıb yaşayır. Dilənçi vəziyyətinə düşmüşdür. Xüsusilə ziyalılar həm mənəvi, həm də fiziki cəhətdən əzab çəkir, həyat və yaradıcılıq üçün vəsait qazanmaq yollarını tapa bilmir. Bu onun xüsusiyyətidir. Bu sosial problemi siz necə həll edəcəksiniz?**

– Sosial problemlər, əsasən, iqtisadi islahatların həyata keçirilməsi yolu ilə həll ediləcəkdir. Onun həyata keçirilməsi istehsalın həcmini qaldırmağa imkan verəcək, bu isə respublikanın iqtisadi və maliyyə vəziyyətini yaxşılaşdıracaqdır. Bütün bunlar tədricən həyat səviyyəsinin yaxşılaşmasına gətirib çıxaracaqdır.



**– Siz həyatda çox şey görmüsünüz, Heydər Əliyeviç, başınız bəlalar çəkib. Gərək ki, 80-ci ildə «Literaturnaya qazeta»ya verdiyiniz müsahibəni xatırlayıram. O, ölkəmizdə böyük əks-səda doğurdu, bildiyimə görə, xarici ölkələrdə də buna diqqət yetirdilər. Misal üçün, onda biz öyrəndik ki, Sizin təşəbbüsünüzlə ittifaqda ilk dəfə olaraq ictimai rəyi öyrənən Mərkəz yaradılmışdır. O, həm də proqnozlaşdırma ilə məşğul olurdu. Onda bunu qeyri-mümkün, təəccüblü hal kimi qiymətləndirirdilər – gələcəklə bağlı olan fikirlər...**

– Gördüyünüz kimi, gələcək təsdiq edir ki, onlar doğru imiş.

**– Budur, Siz yenə də ən məsul vəzifədəsiniz və mənə elə gəlir ki, bir dəqiqə də boş vaxtınız yoxdur. Lakin əgər belə bir dəqiqə tapılsa, nəyi arzu edərdiniz, nə barədə düşünərdiniz? Yaxın gələcəyi, deyək ki, ikimininci ilə qədərki dövrü, sonrakı illəri necə təsəvvür edirsiniz? Xahiş edirəm, fikrinizi bildirin.**

– Doğrudan da, çox şeylər görmüşəm. Lakin elə indi, yenidən ikinci dəfə Azərbaycana – bu dəfə müstəqil dövlət kimi –başçılıq etməyə başlayanda bircə məqsədim olub: öz doğma xalqımı, öz doğma respublikamı ağır vəziyyətdən çıxarmaq. Mən təkcə bunu arzu edirəm, mənim həyatda başqa heç bir planım, heç bir arzum yoxdur. Boş dəqiqələrim yox dərəcəsindədir. Görürsünüzmü, hətta burada, təyyarədə biz həmkarlırımızla məsələləri müzakirə edirdik, onlarla söhbəti qurtaran kimi sizi dəvət etdim. 10 dəqiqədən sonra isə biz artıq Moskvada yerə enəcəyik. Ona görə də boş vaxtım, əslində, yoxdur. Mən həmişə fikirləşirəm, beynim fikirlərdən demək olar ki, heç vaxt ayrılmır...

**– Yeri gəlmişkən, əhatənizdə olan işgüzar adamlar, elə xalq özü də Sizi super-kompüter adlandırırlar. Deyirlər, Sizin gözəl hafizəniz var.**

– Lakin başlıca fikrim Azərbaycanı ağır vəziyyətdən xilas etməkdir. Əgər biz müharibəyə son qoya bilsək, əgər möhkəm, uzunmüddətli sülh yarada bilsək, elə bilirəm ki, Azərbaycan ikimininci ilə tamamilə başqa görkəmdə qədəm qoyacaqdır. Mən buna inanıram. İnşallah, belə də olacaqdır.

**– Söhbətə görə çox sağ olun.**

***Müsahibəni apardı: Antonina Qalayeva***
***«Delovoy mir» qəzeti, 20 sentyabr 1994-cü il***

# MÜQAVİLƏNİN İMZALANMASİ MƏRASİMİ BAŞA ÇATDIQDAN SONRA MƏTBUAT KONFRANSINDA BƏYANAT *

Hörmətli qonaqlar, mətbuat işçiləri!

Bu gün biz sizinlə birlikdə tarixi bir hadisənin şahidiyik. Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici ölkələrin neft şirkətlərinin uzun müddət birlikdə hazırladıqları müqavilə imzalandı. Bu müqavilənin məzmunu, mahiyyəti və onun imzalanması üçün əsaslar haqqında bir neçə gün öncə mən mətbuat nümayəndələri qarşısında məlumat verdim və bu barədə ətraflı danışdım. Müqavilənin imzalanması üçün sentyabrın 14-də fərman vermişəm. Bu fərmanda da müqavilənin əsas məzmun və mənasını, istər Azərbaycan üçün, istərsə də xarici neft şirkətləri üçün əhəmiyyətini qeyd etmişəm. Fərman qəzetdə dərc olunmuş və onun rus və ingilis dillərində mətni bu gün burada paylanmışdır. Mən bu barədə bu gün müqavilənin imzalanması mərasimində də müəyyən fikirlər söylədim. Buna görə də təkrar etməyə ehtiyac yoxdur.

Xarici ölkələrin nümayəndə heyətlərinin başçıları da buradadırlar. Onlar da mərasimdə çıxış edərək öz fikirlərini söyləmişlər. Zənnimcə, bütün bunları nəzərə alaraq, yenidən məlumat verməyə ehtiyac yoxdur.

Mətbuat konfransı üçün yarım saat vaxt ayrılmışdır. Bu müddət ərzində mən və mənim qonaqlarım sizin suallarınıza cavab verməyə hazırıq.

**S u a l :** Bu müqavilənin imzalanması Azərbaycana nə kimi siyasi fayda verəcək?

**H e y d ə r  Ə l i y e v :** Bilirsinizmi, müqavilə iqtisadi xarakter daşıyır. Mən onun iqtisadi cəhətdən səmərəliliyi barədə bir neçə dəfə danışmışam. Bunu 14 sentyabr tarixli fərmanımda da qeyd etmişəm. Müqavilədə nəzərdə tutulan iqtisadi göstəricilər də məlumdur. Mən bugünkü çıxışımda da qeyd etdim ki, müqavilə Azərbaycan Respublikası ilə xarici şirkətlərin mənsub olduqları dövlətlər arasında əlaqələrin inkişafına, şübhəsiz, xeyli təkan verəcəkdir. Elə bunun özü böyük bir nailiyyətdir. Lakin bir halda ki, 30 il müddətində müştərək fəaliyyət göstəriləcək, ölkələrimiz inkişaf edəcəksə, şübhəsiz, bunun siyasi nəticələri də olacaqdır. Hər bir iqtisadi müqavilə eyni zamanda siyasi nəticələr verir.

**S u a l :** Məlum olduğu kimi Rusiyanın istər xarici işlər naziri, istərsə də yanacaq və energetika naziri dəfələrlə bildirmişlər ki, Xəzərin statusu müəyyənləşdirilməyincə, buradakı neft yataqlarının birgə işlənməsi sahəsində xarici şirkətlərin fəaliyyətini Rusiya tanımayacaqdır. Lakin bu gün müqavilə artıq imzalanmışdır. İndi Rusiyanın müqavilə ilə əlaqədar mövqeyi necə olacaq?

**H e y d ə r  Ə l i y e v :** Əvvəla, Rusiyanın «LUKoyl» şirkəti konsorsiumun iştirakçısıdır. İkincisi, Rusiya Yanacaq və Energetika Nazirliyinin nümayəndəsi, bu nazirliyin Baş İdarəsinin rəisi Stanislav Puqaç bizim mərasimdə iştirak edir. O, sənədin imzalanması mərasimində çıxış etmişdir. Əgər siz cənab Stanislav Puqaçın çıxışına diqqətlə qulaq assaydınız, öz sualınıza cavab almış olardınız. O bildirdi ki, keçən ilin oktyabrında Azərbaycan ilə Rusiya arasında bu barədə müqavilə imzalanmışdır.

**S u a l :** Hörmətli Prezident, bir neçə gündən sonra Sizin ABŞ-a səfəriniz gözlənilir. Siz bugünkü tarixi müqavilənin imzalanmasından sonra Ermənistan–Azərbaycan münaqişəsinin aradan qaldırılması məsələsində Qərb ölkələrinin, ən əvvəl, ABŞ və İngiltərənin daha fəal mövqe tutacağına ümid bəsləyirsinizmi? Ümumiyyətlə, Amerikaya sizin səfərinizdən nə gözləmək olar?

**H e y d ə r  Ə l i y e v :** Azərbaycanla Ermənistan arasında münaqişənin, Ermənistanın Azərbaycana etdiyi təcavüzün qarşısının alınmasında Qərb dövlətlərinin, ən əvvəl beynəlxalq təşkilatlarda böyük nüfuzu olan ölkələrin səy göstərəcəklərinə mən həmişə ümid bəsləyirəm. Mən indi də bu ümidlə yaşayıram. Bu ümidlər məndə qarşıdakı səfər ərəfəsində də qalır.

**S u a l :** Heydər bəy, Siz sentyabrın 16-da keçirdiyiniz brifinqdə verdiyiniz bəyanatda bildirdiniz ki, bağlanan müqavilə Azərbaycanı heç də tam qane edən şəkildə deyildir. Buna baxmayaraq, Siz bu addımı atır və müqaviləni imzalayırsınız. Lütfən, bu fikrinizi açıqlayın və yeni mü-

* Mətbuat konfransında ABŞ energetika nazirinin müavini Uilyam Uayt, Böyük Britaniyanın energetika naziri Timoti Eqqar, Türkiyənin dövlət naziri Nəcməddin Cövhəri, İslam İnkişaf Bankının prezidenti Osam Cəfər Fakih də iştirak etmişlər. Burada onların da jurnalistlərin suallarına cavabları dərc edilir.

qavilənin Elçibəy dövründə hazırlanmış müqavilədən nə kimi üstün cəhətləri olduğunu göstərin. Heydər bəy, ikinci sualım belədir: Müxalif qüvvələr bu müqavilənin imzalanmasını prinsipcə müsbət qiymətləndirirlər. Sizin bu xəbərlərə münasibətiniz necədir?

**H e y d ə r Ə l i y e v :** Əvvəla, deməliyəm ki, hər bir müqavilə, saziş bağlandıqda tərəflərdən hər biri çalışır ki, daha çox mənfəət götürsün. Dəfələrlə demişəm ki, neft Azərbaycanın ən böyük milli sərvətidir. Mən də, Azərbaycanın Prezidenti kimi, bu sərvətdən istifadə edərək, daha çox mənfəət götürülməsinə çalışmışam. Danışıqların İstanbulda və Hyustonda aparılmış son mərhələlərində bunun üçün göstərdiyimiz səylər müsbət nəticə vermişdir. Amma müqavilə hər iki tərəfin razılığı əsasında olmalıdır. Odur ki, hər bir şərtimizi əks tərəf qəbul etməsə, onda müqavilə də baş tutmaz. Hər halda istədiklərimizin çoxuna nail olmuşuq. Amma hər iki tərəf üçün bunun da bir həddi var. O həddi keçdikdə müqavilə də pozula bilər. Buna görə də biz bu həddə razılığa gəlmişik.

O ki qaldı ikinci sualınıza, əvvəlki layihə ilə indiki layihənin fərqi çoxdur. Mənim bu il 4 fevral tarixli fərmanımdan sonra Bakıda, İstanbulda və Hyustonda aparılan danışıqlar nəticəsində əvvəlki layihədən fərqli olaraq Azərbaycan üçün çox mənfəətli göstəricilər əldə edilmişdir. Keçən il müqaviləyə dair danışıqlar dayandırıldıqdan sonra aparılan danışıqlar, zənnimcə, çox uğurlu olmuşdur. Bunu xarici ölkələrin neft şirkətlərinin nümayəndələri də etiraf edirlər. Əgər konkret məlumat almaq istəyirsinizsə, layihəni götürüb nəzərdən keçirə bilərsiniz.

Mən belə başa düşdüm ki, siz müxalifətin adından çıxış edir və deyirsiniz ki, müxalifət müqaviləni bəyənir. Mən Azərbaycan xalqının milli mənafeləri mövqeyində duran adamam. Buna görə də Azərbaycan Respublikası vətəndaşlarının hər bir qrupu, hər bir təbəqəsi mənim üçün Azərbaycan vətəndaşları kimi qiymətlidir. Əgər sizin dediyiniz müxalifət bunu bəyənirsə, bu, şübhəsiz, onu göstərir ki, bu məsələlərə onlar da dövlətçilik mövqeyindən yanaşırlar. Bu, müsbət haldır.

**S u a l :** Cənab Prezident, çıxışınızda qeyd etdiniz ki, neft müqaviləsinin imzalanması xarici dövlətlərə Azərbaycanda ictimai-siyasi vəziyyətin sabit olduğunu nümayiş etdirir. Bilmək istərdim, bu gün cəbhədə atəşin dayandırılması ilə neft müqaviləsinin imzalanması arasında nə kimi bağlılıq var? İkinci sualım xarici şirkətlərin nümayəndələrinədir. Əgər gələcəkdə bu müqavilənin taleyi üçün hər hansı təhlükə



yaranarsa, onların mənsub olduqları dövlətlər buna necə münasibət göstərəcəklər?

**H e y d ə r Ə l i y e v :** Atəşin dayandırılması ilə bu müqavilənin imzalanması arasında elə bir əlaqə yoxdur. Atəş bundan dörd ay əvvəl dayandırılmışdır. Atəşkəs indi də davam edir. Bu, Ermənistanla Azərbaycan arasında gedən müharibəyə son qoymaq, münaqişəni sülh yolu ilə aradan qaldırmaq üçün atdığımız addımdır.

Bildiyiniz kimi, müqavilə ilə əlaqədar üç ildir danışıqlar aparılır. Qeyd etdim ki, mən bu işin daha da sürətləndirilməsi üçün fevralın 4-də fərman vermişəm. Son 45 gündə Hyustonda danışıqlar getmişdir. Hər iki tərəfi qane edən bu razılaşma sadəcə olaraq indi əldə edilmişdir və buna görə də müqavilə indi bağlanır. Əgər razılıq altı ay bundan əvvəl əldə edilsəydi, müqavilə də onda imzalanardı.

İkinci sualınıza qonaqlardan birisi cavab verəcəkdir.

**U i l y a m U a y t** *(ABŞ energetika nazirinin müavini)*: Bu müqavilənin həyata keçirilməsini təmin etmək üçün ABŞ hökuməti ilə Azərbaycan hökuməti birgə çalışacaqlar. Müqavilənin həyata keçirilməsi sayəsində neft hasilatının artırılması hər iki tərəfin mənafeyinə uyğundur. Təhlükəsizlik və ətraf mühitin çirklənməsi məsələlərinə də xüsusi diqqət yetiriləcəkdir.

**S u a l :** Müqavilə artıq imzalandı, çox güman ki, hasil ediləcək neftin xarici bazara çıxarılması məsələsi də tezliklə qarşıda duracaqdır. Bununla əlaqədar olaraq təklif edilən marşrutlardan hansına üstünlük veriləcəkdir?

**H e y d ə r Ə l i y e v :** Bilirsinizmi, müqavilədə üç məsələ qeyd edilmişdir. İlk 18 ayda neft hasilatına başlanacaq. 48 ay müddətində neftin çıxarılması tam şəkildə təmin ediləcək. Çıxarılan neftin xarici şirkətlər tərəfindən ixrac edilməsi üçün boru kəməri 54 aydan gec olmayaraq çəkiləcəkdir. Boru kəmərinin çəkilişi haqqında əlavə danışıqlar aparılacaq. Şübhəsiz ki, bütün mövcud variantlar təhlil ediləcək və hansı daha əlverişli olsa, biz də onun barəsində razılığa gələcəyik. Nəcməddin bəy, siz nə deyə bilərsiniz?

**N ə c m ə d d i n C ö v h ə r i** *(Türkiyənin dövlət naziri)* : Mən onu əlavə edə bilərəm ki, Anadoludan keçəcək boru kəməri yalnız Azərbaycan nefti üçün deyildir. Bu kəmər Qazaxıstan neftinin də Aralıq dənizi sahilinə, Qərbə nəql edilməsi üçün nəzərdə tutulmuşdur. Çünki 1936-cı il Montrö müqaviləsinə görə boğazlardan (Türkiyənin Bosfor

və Dardanel boğazları nəzərdə tutulur – AzərTAc) keçmək hüququna malik gəmilər boğazların mənsub olduğu ölkənin təhlükəsizlik və gömrük qaydalarına riayət etməlidir. Montrö müqaviləsinin imzalandığı dövrdə dünyanın ən böyük tankerlərinin subasımı 20-30 min ton idi. Bu gün 200-300 min tonluq tankerlərin İstanbuldan keçməsi mümkün deyildir. Çünki boğazların sahilində 12 milyon əhalisi olan bir şəhər yerləşir. Buna görə də Anadoludan keçəcək neft kəmərlərinə ehtiyac var. İstər Azərbaycandan olsun, istərsə də Qazaxıstandan – fərqi yoxdur. Hörmətli cümhur başkanının bəyanatına əlavə olaraq demək istədiklərim bunlardır.

**Sual:** Cənab Prezident, çıxışlarda bildirildi ki, həll edilməli olan hələ bir sıra məsələlər, problemlər, bəzi maneələr aradan qaldırılmalıdır. Xahiş edirəm, bu fikri açıqlayasınız. Maneələri hansı müddətlərdə aradan qaldırmaq niyyətindəsiniz?

**Heydər Əliyev:** Zənnimcə, müqavilənin həyata keçirilməsi üçün elə bir maneə yoxdur. Qarşıya çıxan xırda və cari məsələləri həll edəcəyik. Qoy heç kəs elə güman etməsin ki, Azərbaycan parlamenti müqavilənin nəzərdən keçirilməsini uzadacaqdır. Ümidvaram ki, parlament onu təsdiqləyəcək və burada göstərildiyi kimi, müqavilə elə həmin gündən də qüvvəyə minəcəkdir.

**Timoti Eqqar** *(Böyük Britaniyanın energetika naziri)*: Mənə elə gəlir ki, neft şirkətləri nümayəndələrinin də çıxışlarında qeyd edildiyi kimi, ən mühüm məsələ odur ki, bu müqavilə Azərbaycanın neft yataqlarının birgə işlənməsinə, Azərbaycanda neft hasilatının daha da artırılmasına doğru aparan yolun başlanğıcıdır. İngiltərənin Şimal dənizindəki təcrübəsinə əsaslanaraq deyə bilərəm ki, burada qarşıya çıxacaq bir sıra problemləri aradan qaldırmaq mümkün olacaqdır. Azərbaycan Respublikası ilə konsorsiumdakı neft şirkətlərinin mənsub olduqları ölkələr arasında yüksək səviyyəli əlaqələr, habelə Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici neft şirkətlərinin konsorsiumu arasında yaranmış qarşılıqlı anlaşma məndə heç bir şübhə yeri qoymur ki, ortaya çıxan bütün problemlər tezliklə və asanlıqla həll ediləcəkdir.

**Heydər Əliyev:** Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun.



## AZƏRBAYCAN MİLLİ TELEVİZİYASI VƏ RADİOSU İLƏ ÇIXIŞ

*22 sentyabr 1994-cü il*

Mən Azərbaycanda son vaxtlarda baş vermiş bəzi hadisələrlə əlaqədar öz fikirlərimi, mülahizələrimi sizə çatdırmaq üçün bu axşam televiziya studiyasına gəlmişəm.

Azərbaycan Respublikasının həyatında ən mürəkkəb, ən çətin məsələ onun müharibə şəraitində olmasıdır. Bildiyiniz kimi, aparılan danışıqlar nəticəsində dörd aydan çoxdur ki, Ermənistanla Azərbaycan arasındakı müharibədə atəşin dayandırılmasına nail olmuşuq. Bu müddətdə atəşkəs davam edir. Altı illik müharibə dövründə ilk dəfədir ki, belə uzunmüddətli sülh, atəşkəs əldə olunmuşdur. Biz bunun üçün Ermənistanla bilavasitə danışıqlar aparmışıq, beynəlxalq təşkilatların imkanlarından istifadə etmişik. Rusiyanın vasitəçiliyi bu məsələdə bizə kömək etmişdir. Nəhayət, bu razılığı əldə etmişik.

Bəli, dörd aydan artıqdır ki, cəbhələrdə dava yoxdur, müharibə yoxdur. Ancaq şübhəsiz ki, Azərbaycan Ordusu tutduğu mövqeləri müdafiə etmək, torpaqlarımızın keşiyində durmaq üçün fəaliyyət göstərir, öz xidməti borcunu yerinə yetirir.

Atəşin dayandırılması və bu müddətdə davam etməsi ümumiyyətlə, müharibəyə son qoyulması üçün bir imkandır, bir vasitədir. Atəş dayandırılan gündən indiyədək biz bir çox addımlar atmışıq ki, məsələnin sülh yolu ilə həllinə nail olaq, müharibəyə son qoyulsun. Azərbaycanın bu təklifləri respublikamızın müəyyən məlum şərtləri ilə bağlıdır.

Bu dörd ayda çox işlər görülüb. Bunları bir daha qeyd etməyə ehtiyac yoxdur. Sadəcə olaraq, son bir ay içərisində görülmüş bir neçə mühüm tədbir haqqında məlumatı sizə çatdırmaq istəyirəm. Bəlkə də düzgün olar desəm ki, bunları sizin xatirinizə salmaq istəyirəm.

Bir ay bundan əvvəl, keçən ayın sonunda biz ATƏM təşkilatının Minsk qrupunun başçısı Yan Eliassonla çox intensiv danışıqlar apardıq. O bizim regionda oldu, həm bizimlə görüşdü, həm Ermənistanda bu ölkənin rəhbərləri ilə görüşdü. Nəhayət, onun iştirakı ilə və eyni zamanda Rusiyanın vasitəçiliyi ilə birgə bəyanat verdik ki, atəşkəsi bundan sonra da təmin edəcəyik. Bunu biz də bəyan etdik. Ermənistan tərəfi də

bəyan etdi. Minsk qrupunun başçısı cənab Yan Eliasson da, Rusiyanın Xarici İşlər Nazirliyi də bu barədə bəyanat verdi. Biz bəyan etdik ki, Böyük Sülh Müqaviləsi hazır olanadək atəşkəs rejiminin saxlanmasını təmin edəcəyik. Biz buna riayət edirik, eyni zamanda bu müddətdə yeni addımlar atırıq ki, həqiqətən Böyük Sülh Müqaviləsi əldə olunsun, müharibəyə tamamilə son qoya bilək.

Cənab Yan Eliasson ilə aparılan danışıqlar səmərəli, əhəmiyyətli oldu. Bildiyiniz kimi, bundan sonra, sentyabrın əvvəlində Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klintonun xüsusi nümayəndəsi, kabinetin üzvü, ABŞ Milli Təhlükəsizlik Şurasının üzvü və bu dövlətin Birləşmiş Millətlər Təşkilatındakı nümayəndəsi xanım Olbrayt Azərbaycana gəldi. Xanım Olbrayt prezident Bill Klintondan mənə məktub gətirdi, onunla bizim səmərəli danışıqlarımız oldu. Bu danışıqlar da Böyük Sülh Müqaviləsinin bağlanması, müharibəyə son qoyulması ilə əlaqədar idi.

Bundan az müddət sonra, sentyabrın 5-də mən Misir Ərəb Respublikasında, Qahirədə oldum. Orada beynəlxalq konfransın işində iki gün iştirak etdim, bir neçə ölkənin rəhbərləri ilə görüşdüm, Azərbaycanın vəziyyəti barədə məlumatı onlara çatdırdım və bu vəziyyətdən çıxmaq yollarına dair müzakirələr apardım.

Orada Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti cənab Albert Qor ilə də görüşdüm. Bu görüşümüz əvvəldən planlaşdırılmışdı və böyük əhəmiyyət kəsb edirdi. O, çox səmərəli, əhəmiyyətli oldu. Mən cənab Albert Qora Azərbaycan Respublikasının bu məsələlər barədə mövqeyini, bizim prinsipial münasibətimizi açıqladım. Bir daha bildirdim ki, Azərbaycan müharibə etmək istəmir, məsələnin sülh yolu ilə həll olunmasına çalışır və beynəlxalq təşkilatlar, böyük dövlətlər, o cümlədən Amerika Birləşmiş Ştatları burada özünəməxsus rol oynamalıdır.

Oradan qayıdan kimi Moskva görüşləri oldu. Moskvada Ermənistanın prezidenti cənab Levon Ter-Petrosyanla, Dağlıq Qarabağın erməni icmasının nümayəndəsi cənab Robert Koçaryanla, Rusiyanın xarici işlər naziri cənab Andrey Kozırevlə mənim ayrı-ayrılıqda görüşlərim oldu. Sonra bir yerdə görüşlərimiz oldu. Həmin görüşlər iki gün davam etdi. Bu görüşlərdə mən həm Ermənistan Respublikasının rəhbərlərinə, həm də Rusiyanın xarici işlər nazirinə bir daha bildirdim ki, biz atəşkəsə sadiq qalacağıq, atəşkəs rejimini saxlayacağıq. Ancaq bu, müvəqqəti bir haldır, Böyük Sülh Müqaviləsini hazırlayıb başa çatdırmaq lazımdır.



Orada Azərbaycanın şərtlərini bildirdim. Bunları mən dəfələrlə demişəm. Həmin şərtlər ondan ibarətdir ki, Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş rayonlarından çıxmalıdır, qaçqınlar öz yerlərinə, öz evlərinə qayıtmalıdırlar. Azərbaycan Respublikasının ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin olunmalıdır. Eyni zamanda biz Ermənistan tərəfinin bəzi şərtlərinin qəbul olunmasına–Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyini təmin etmək üçün lazımi tədbirlər görülməsinə razılıq verdik. Bu məsələlər həll olunandan sonra Dağlıq Qarabağın statusu məsələsini müzakirə edəcəyimizi bildirdik.

Bu prinsiplər arasında bizim üçün ən mühümü işğal olunmuş ərazilərimizdən, o cümlədən Laçın rayonundan erməni silahlı qüvvələrinin çıxması, eyni zamanda Şuşa rayonunun azad edilməsi və Şuşaya azərbaycanlı qaçqınların qayıtmasıdır. Bu şərtlər barəsində çox böyük mübahisələr getdi və indi də gedir. Mən bu şərtləri bizim prinsipial mövqeyimiz kimi bir daha bildirdim və vasitəçilik edənlərdən xahiş etdim ki, bizim tələblərimizin həyata keçirilməsinə səy göstərsinlər, iş görsünlər və bu şərtlərin əsasında biz Böyük Sülh Müqaviləsinin bağlanmasına razıyıq.

Biz həmin danışıqlardan sonra da bu sahədə fəaliyyətimizi davam etdiririk. Moskvada hər iki tərəf–Ermənistan tərəfi də, Azərbaycan tərəfi də Rusiyanın iştirakı ilə bir daha bəyan etdi ki, atəşkəs rejiminin saxlanmasını təmin edəcəyik və danışıqlar davam edəcəkdir. Sentyabrın 20-də Rusiya prezidenti Boris Yeltsinin xüsusi nümayəndəsi Vladimir Kazimirov Bakıya gəldi, mən onu qəbul etdim. O, Rusiya prezidenti Boris Yeltsindən mənə məktub gətirmişdi. Bu məktub əsasında danışıqlarımız oldu. Sonra Kazimirov Ermənistana getdi, bu gün yenə Bakıya qayıdıb. Mən sabah onunla görüşəcəyəm.

Eyni zamanda bilirsiniz ki, biz başqa vasitələrdən, o cümlədən ABŞ-ın bu barədə imkanlarından istifadə etməyə çalışırıq və Minsk qrupunun da fəaliyyətini çox əhəmiyyətli hesab edirik.

Moskva görüşlərindən sonra Minsk qrupunun üzvləri Vyanada toplaşdılar. Azərbaycanın nümayəndəsi, dövlət müşaviri Vəfa Quluzadə bu toplantıda iştirak etdi, ölkəmizin mövqeyini orada bir daha açıqladı və bildirdi ki, Azərbaycan məhz bu şərtlər əsasında, Minsk qrupu çərçivəsində, böyük dövlətlərin vasitəçiliyi ilə böyük sülhün yaranmasına razıdır və buna gedə bilər.

Bütün bunlar, demək olar ki, son iyirmi gündə görülən işlərdir. İnformasiya orqanlarımız bu tədbirləri vaxtaşırı sizə çatdırıb. Ancaq mən bunları yığcam şəkildə bir daha sizə bildirmək istəyirəm ki, biz Azərbaycanın mövqelərini möhkəmləndirmək üçün, ölkəmizi müharibədən çıxartmaq üçün, xalqımızı bu müharibə bəlasından xilas etmək üçün daim fəaliyyət göstəririk və bundan sonra da göstərəcəyik.

Sentyabrın 20-də Azərbaycanda böyük bir tarixi hadisə baş verdi. Respublika Dövlət Neft Şirkətinin xarici ölkələrin böyük neft şirkətləri ilə üç ildən artıq davam edən danışıqları sona çatdı. Nəhayət, bu danışıqlar əsasında biz Azərbaycan Respublikası üçün münasib olan müqavilənin layihəsini əldə etdik. Sentyabrın 20-də bu müqavilə Azərbaycanın paytaxtı Bakıda təntənəli şəkildə imzalandı.

Mən imzalanma mərasimindəki çıxışımda müqavilənin əhəmiyyətindən danışmışam, bu gün bir daha qeyd etmək istəyirəm ki, bu müqavilə tarixi əhəmiyyətə malikdir. O, ötən 150 ildə Azərbaycan neft sənayesinin tarixində ilk belə böyük müqavilədir. Xarici neft şirkətləri rəhbərlərinin fikrincə, ümumiyyətlə, öz xüsusiyyətinə görə bu, nadir bir müqavilədir, dünyada oxşarı olmayan bir müqavilədir. Bu da ondan ibarətdir ki, Azərbaycan Dövlət Neft Şirkəti dünyanın yeddi böyük neft şirkətinin daxil olduğu konsorsium ilə müqavilə bağlayıb. Həmin şirkətlər ABŞ, Böyük Britaniya, Rusiya, Norveç və Türkiyəyə mənsubdur, sonradan Səudiyyə Ərəbistanının «Delta» neft şirkəti də onlara qoşulub. Yeddi neft şirkəti bir konsorsiuma daxil olub, Azərbaycan Dövlət Neft Şirkəti ilə 30 il müddətinə müqavilə imzalayıb.

Demək, bu konsorsium həm yeddi neft şirkətini, həm də Amerika Birləşmiş Ştatları, Rusiya, Böyük Britaniya, Türkiyə, Norveç və Səudiyyə Ərəbistanı kimi ölkələri təmsil edir. Biz həm neft şirkətləri ilə müqavilə bağlamışıq, həm də bu şirkətlər bizim həmin dövlətlərlə iqtisadi və digər əlaqələrimizin gələcək inkişafı üçün əsas yaratmışlar.

Bu müqaviləni Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klinton təbrik etmişdir. O, sentyabrın 20-də mənə göndərdiyi məktubda bu müqaviləni yüksək qiymətləndirmiş və Azərbaycan ilə ABŞ arasında əlaqələrin gələcək inkişafı üçün onun çox əhəmiyyətli olduğunu bildirmişdir. O, eyni zamanda qeyd etmişdir ki, bu müqavilənin imzalanması nəticəsində Azərbaycanın probleminin–Dağlıq Qarabağ münaqişəsinin həll olunması üçün də lazımi səylər göstəriləcəkdir.

Böyük Britaniyanın baş naziri cənab Con Meycor bu müqavilə ilə



əlaqədar mənə təbrik məktubu göndərib və o da həm müqavilənin əhəmiyyəti haqqında fikirlərini bildirib, həm də müqavilənin Böyük Britaniya ilə Azərbaycan arasındakı əlaqələrin gələcək inkişafı üçün əsas yaratdığını qeyd edib. Eyni zamanda Dağlıq Qarabağ məsələsinin həlli üçün bu müqavilənin əhəmiyyətli olduğunu bildirib.

Başqa təbriklər də olub. ABŞ-ın prezidenti cənab Bill Klinton əvvəlcə də xəbər vermişdi və məktubunda da bildirir ki, yaxın vaxtlarda onun mənimlə görüşü olacaqdır. Bilirsiniz ki, yaxın günlərdə Amerika Birləşmiş Ştatlarında, Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin sessiyası başlanacaqdır. Mən bu məclisdə iştirak etmək fikrindəyəm. ABŞ-da bir çox görüşlərim olacaqdır. O cümlədən Amerikanın prezidenti Bill Klinton ilə görüşəcəyəm.

Bunlar hamısı Azərbaycan Respublikasının beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsini nümayiş etdirir. Dövlətimizin xarici siyasət, xarici ölkələrlə iqtisadi əlaqələr sahəsində atdığı addımları əks etdirir.

Mən dəfələrlə demişəm,–Azərbaycan Respublikası öz müstəqilliyini möhkəmləndirib inkişaf etdirərək, eyni zamanda bütün dünya ölkələri, dövlətləri ilə qarşılıqlı surətdə faydalı, ikitərəfli əlaqələr qurmaq əzmindədir və biz öz tərəfimizdən bu addımları atırıq, bu əlaqələri qururuq.

Mənim son vaxtlar xarici ölkələrə səfərlərim, müxtəlif dövlətlərin Azərbaycanda olan nümayəndələri ilə görüşlərimiz, həyata keçirdiyimiz tədbirlər, o cümlədən şirkətləri neft müqaviləsinin iştirakçısı olan ölkələrin nümayəndə heyətlərinin Bakıda bu müqavilənin imzalanması mərasimində iştirak etməsi onu göstərir ki, xarici siyasətimiz öz nəticələrini verir, uğurludur, müvəffəqiyyətlidir və biz indən sonra da bu yolla gedəcəyik.

Sentyabrın 20-də xarici ölkələrdən Azərbaycana çoxlu qonaq gəlmişdi. Onlar hamısı Azərbaycana, xalqımıza, müstəqil respublikamıza öz hörmət və ehtiramını bildirdi. Müqavilənin imzalanma mərasimində iştirak və çıxış edən dövlət nümayəndə heyətlərinin başçıları Azərbaycanla öz ölkələri arasında əlaqələrin bundan sonra da inkişaf etməsinə səy göstərəcəklərini bir daha bildirdilər. Bütün bunlar Azərbaycan Respublikasının bu günü və gələcək həyatı üçün çox əhəmiyyətlidir.

Respublikamız müharibə şəraitində olduğuna görə və son illər gedən proseslər nəticəsində iqtisadi-sosial böhran içərisindədir. Böhrandan

çıxmaq üçün biz lazımi tədbirlər görürük. Xarici ölkələrlə qarşılıqlı surətdə faydalı iqtisadi əlaqələr yaratmaq və o cümlədən Azərbaycanın neft yataqlarından səmərəli istifadə olunması üçün əməkdaşlıq etmək respublikamızın iqtisadiyyatının inkişaf etməsi üçün, sosial-iqtisadi böhrandan çıxmağımız üçün çox yararlı yoldur və biz bu yolla gedəcəyik.

Eyni zamanda bunlar hamısı Azərbaycan Respublikasının müstəqil dövlət olduğunu bütün dünyada bir daha sübuta yetirir. Nümayiş etdirir ki, Azərbaycan müstəqil dövlət kimi özü öz taleyinin sahibidir, xalqımız öz sərvətlərindən özü müstəqil surətdə istifadə etməyə qadirdir və bu məqsədlə istədiyi dövlətlə, xarici şirkətlə müştərək fəaliyyət göstərmək imkanına malikdir. Bir daha qeyd edirəm ki, bunlar hamısı müstəqilliyimizin möhkəmlənməsinin və eyni zamanda Azərbaycan Respublikasının beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinin rəmzidir. Biz bu yolla gedəcəyik və bu tədbirləri ardıcıl surətdə həyata keçirəcəyik.

Dediyim kimi, bir neçə gündən sonra mən Amerika Birləşmiş Ştatlarına gedəcəyəm. Qarşıda çox əhəmiyyətli görüşlər var. Ümidvaram ki, bu görüşlərdə də Azərbaycan Respublikasının mənafelərini müdafiə etmək imkanım olacaq və mən bunu edəcəyəm. Bu görüşlər də Azərbaycan Respublikasını indiki ağır vəziyyətdən çıxarmaq, xüsusən müharibəyə son qoymaq və böyük sülh əldə etmək üçün çox əhəmiyyətli olacaqdır.

Eyni zamanda bunlar hamısı Azərbaycanda, cəmiyyətimizdə, respublikamızda ictimai-siyasi sabitliyin rəmzidir. Bəli, iri neft şirkətləri, böyük dövlətlər Azərbaycanda ictimai-siyasi sabitliyə arxayın olmasaydılar və ölkəmizin sabit, müstəqil gələcəyinə inanmasaydılar, belə böyük bir müqaviləyə imza atmazdılar.

Bizim də borcumuz bu ictimai-siyasi sabitliyi, cəmiyyətimizdə yaranmış normal vəziyyəti qoruyub saxlamaqdan ibarətdir. Mən dəfələrlə demişəm və sentyabrın 20-də–müqavilənin imzalanma mərasimində də qeyd etdim ki, Azərbaycan öz müstəqilliyini daim müdafiə edəcəkdir. Azərbaycanda hüquqi demokratik dövlət qurulur və dövlət quruculuğu bundan sonra da həmin istiqamətdə davam etdiriləcəkdir. Azərbaycanda siyasi plüralizm mühiti yaranıb və bu mühit bundan sonra da möhkəmlənəcəkdir. Çoxpartiyalı sistem bundan sonra da bərqərar olacaqdır. İnsan azadlığı, insan hüquqlarının qorunması prinsipləri bizim üçün əsas vəzifələrdəndir və biz bu vəzifələrimizi daim yerinə yetirməyə çalışacağıq.



Bunların nəticəsində Azərbaycan dünya miqyasında demokratik hüquqi dövlət kimi, bazar iqtisadiyyatına qoşulmuş bir dövlət kimi, sərbəst iqtisadiyyat yolu ilə inkişaf edən bir ölkə kimi tanınacaq və Dünya Birliyində öz layiqli yerini tutacaqdır. Bunun üçün də biz cəmiyyətimizdə, ölkəmizin daxilində ictimai-siyasi sabitliyi qoruyub saxlamalıyıq. Bu, bizim borcumuzdur, dövlətin borcudur. Eyni zamanda bu, hər bir vətəndaşın, hər bir vətənpərvər azərbaycanlının borcudur. Mən güman edirəm ki, vətənini sevən, vətəni haqqında düşünən adamlar ictimai-siyasi sabitliyi qoruyub saxlamağa çalışmalı və bu yolda Azərbaycan dövlətinə kömək etməlidirlər, dövlətimizlə birgə olmalıdırlar.

Ancaq təəssüf ki, Azərbaycanda bəzi qüvvələr bu daxili sabitliyi pozmağa çalışırlar. Onlar qruplaşaraq,–öz mənafelərinə əsaslanaraq, şəxsi məqsədlər güdərək ayrı-ayrı qeyri-qanuni hərəkətlər edirlər, bəzən təxribat yoluna düşürlər və öz vətəninə, öz xalqına xəyanət edirlər.

Şübhəsiz ki, biz həm vətəndaşların hüquqlarını, həm də dövlətin hüquqlarını, müstəqil Azərbaycan dövlətini qoruyacağıq. Hamı bunu bilməlidir və hamı Azərbaycanın Konstitusiyasına, qanunlarına, dövlətimizə hörmət və itaət etməlidir. Vətəninə sadiq olan hər bir vətəndaş ancaq bu yolla gedəcək və bu yolla da getməlidir.

Ona görə də həmin o qruplar bilməlidirlər ki, onların cəhdləri heç vaxt nəticə verməyəcəkdir. Belə qruplar bilməlidirlər ki, onlar öz şəxsi mənafelərini güdərək xalqa, müstəqil Azərbaycan Respublikasına zərər verirlər, hətta bəzən zərbələr də vururlar. Düzdür, xalqımız son illərdə böyük sınaqlardan çıxmışdır, əminəm ki, bundan sonra da sınaqlardan, imtahanlardan keçəcəkdir. Ancaq yaxşı olardı ki, hamımız öz məsuliyyətimizi anlayaq, başa düşək ki, hər bir azərbaycanlı üçün, hər bir Azərbaycan vətəndaşı üçün müstəqil dövlətimizin mənafeyi, xalqımızın ümumi mənafeyi, Azərbaycanın müharibə şəraitindən çıxması, respublikamızın ərazi bütövlüyünün təmin edilməsi hər şeydən üstün olmalıdır.

Qeyd etdiyim kimi, təəssüf ki, bəzi adamlar, siyasətə qoşulmuş bəzi şəxslər, bəzi qruplar bunları anlamırlar, yaxud da anlamaq istəmirlər. Biz dözümlüyük, özümüzə inanırıq və bundan sonra da bu yolla gedəcəyik.Azərbaycanın Prezidenti kimi mən bunu öz həmvətənlərimə bir daha çatdırıram.

Keçən gecə bir cinayət hadisəsi baş vermişdir. Bu barədə televiziya ilə məlumat oxunub. Hüquq-mühafizə orqanlarının rəhbərləri televizi-

ya ilə çıxış edərək bu cinayətin baş verməsi və onun məzmunu haqqında məlumat veriblər. Dəhşətli hadisədir. Ola bilər ki, tarixdə görünməmiş bir hadisədir. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasından gecə və yaxud da axşamdan xeyli keçmiş dörd nəfər məhbus–Rəhim Qazıyev, Əlikram Hümbətov, Baba Nəzərli, Arif Paşayev əvvəlcədən hazırlanmış, planlaşdırılmış aksiya nəticəsində çıxarılıb naməlum istiqamətə aparılmışlar.

Bu, Azərbaycanın müstəqilliyinə xəyanətdir, təcavüzdür, bugünkü həyatımızda olan ictimai-siyasi sabitliyi pozmağa yönəldilmiş təxribat hərəkətidir. Aydındır ki, bu, sadə bir hal deyil. Belə bir əməliyyatı həyata keçirmək üçün şübhəsiz ki, çox hazırlıq aparılıb, işlər görülüb. Ayrı-ayrı satqınlar, xalqımıza xəyanət edən adamlar bu işə qoşulublar və nəhayət, bu hadisə baş veribdir.

İstintaq öz sözünü deyəcək, qiymətini verəcəkdir. Ancaq mən buna ictimai-siyasi nöqteyi-nəzərdən Azərbaycan xalqına, respublikamıza, müstəqil Azərbaycan dövlətinə qarşı yönəldilmiş təxribat, təcavüz əməliyyatı kimi qiymət verirəm. Hesab edirəm ki, bu işi görən adamlar cinayətkardırlar. Azərbaycan xalqına xəyanət ediblər.

Mən belə fikirdəyəm ki, bu işi görənlər ölkəmizin daxilində olan, dövlətimizə düşmən qruplardır, eyni zamanda Azərbaycanın xaricində olan düşmən qruplardır. Təəssüf ki, Ermənistanın Azərbaycana qarşı təcavüzünü dəstəkləyən qüvvələr, bu təcavüzü ardıcıl surətdə aparmaqda ona kömək edən qüvvələr və eyni zamanda Azərbaycanın müstəqil mövqe tutduğuna görə və beynəlxalq aləmdə öz sözünü prinsipial şəkildə dediyinə görə bizə düşmən mövqeyində duran qüvvələr var. Azərbaycanın müstəqilliyini pozmaq və onu dağıtmaq istəyən qruplar sizə məlumdur. Bunlar ayrı-ayrı qruplar, ayrı-ayrı dövlət dairələridir. Bütün bunlar sizə məlumdur. Bununla yanaşı, Azərbaycandan qaçmış, cinayət törətmiş, xalqımıza xəyanət etmiş, indi başqa ölkələrdə özünə yuva tapmış, öz şəxsi məqsədlərini həyata keçirmək üçün Azərbaycanı dağıtmağa cəhd edən qüvvələr də var. Güman edirəm ki, keçən gecə baş vermiş hadisə Azərbaycanın daxilində və ya xaricində olan cürbəcür qüvvələrin birgə fəaliyyəti, təxribatı nəticəsində baş vermişdir.

Bu hadisə bizim üçün nə qədər ağır olsa da, mən istəyirəm ki, xalqımız bilsin. Heç kəs sarsılmamalıdır, heç kəs sınmamalıdır, heç kəs narahat olmamalıdır. Dediyim kimi, Azərbaycan xalqı, müstəqil respublikamız çox sınaqlardan çıxmışdır, bu sınaqdan da keçəcəkdir. Əminəm ki, bu təxribatı törədən qüvvələr öz payını alacaqlar. Onlar istədiklərinə nail ola bilməyəcəklər. Biz öz mövqeyimizdən dönməyəcəyik, Azərbaycanın müstəqilliyini qoruyub saxlayacağıq. Cinayətkarlar tapılacaq, cəzalandırılacaq və o qaçmış adamlar da Azərbaycan xalqının əlindən canlarını qurtara bilməyəcəklər.



Siz o adamları tanıyırsınız. Rəhim Qazıyevin Azərbaycan xalqına vurduğu zərbələr hamıya məlumdur. Mən tarixi vərəqləmək istəmirəm, ancaq 1990-cı ildən indiyə qədər Rəhim Qazıyevin cinayətkar fəaliyyəti göz qabağındadır. O, daim öz şəxsi məqsədlərinə nail olmaq üçün Azərbaycanda sabitliyi pozub, insanları bir-birinə qarşı qoymağa çalışıbdır. Ancaq bir şey üçün – hakimiyyət, vəzifə, mənsəb əldə etmək üçün.

Əlbəttə ki, Rəhim Qazıyevi vaxtilə Azərbaycanın müdafiə naziri təyin edən adamlar böyük səhv buraxıblar, bəlkə də cinayət ediblər. Çünki müharibə vəziyyətində olan, Ermənistan tərəfindən təcavüzə məruz qalan Azərbaycanın silahlı qüvvələrinə belə bir səriştəsiz, eyni zamanda avantürist adamın rəhbərlik etməsi ölkəmizə heç vaxt xeyir gətirə bilməzdi və xeyir də gətirmədi. Bunu bilirsiniz.

Əgər Azərbaycan ordusu vaxtında yaransaydı və ordunun başında layiqli bir adam olsaydı, Azərbaycan belə bir vəziyyətə düşməzdi. İndi sayırlar ki, nə vaxt hansı rayonlar əldən gedibdir. Hamısı onların günahı üzündən gedibdir. Hamısı! Başqa adamların günahı yoxdur və cinayətkarlar öz günahlarından yaxa qurtarmaq üçün cürbəcür qüvvələrin köməyi ilə Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasından qaçıblar.

1993-cü ilin iyun ayında Azərbaycanda vətəndaş müharibəsi baş verdi. Azərbaycanı bu vəziyyətə gətirib çıxaranlardan biri və vətəndaş müharibəsini ən fəal qızışdıran da məhz Rəhim Qazıyev idi. O vaxt o, böyük iddialarla yaşayırdı.

Mən xalqın dəvəti və iradəsi ilə o vaxt Bakıya gəldim, Azərbaycandakı bu ağır vəziyyəti aradan qaldırmaq üçün fəaliyyətə başladım. Bilirsiniz ki, vətəndaş müharibəsinin davam etməsinə imkan verilmədi, qardaş qırğınının qarşısı alındı. Ancaq bu, Rəhim Qazıyevi rahat buraxmadı. O, gərginliyi davam etdirmək istəyirdi. Gördü ki, burda bir şey çıxmadı, cənub bölgəsində, Lənkəranda Əlikram Hümbətov kimi bir quldulu ayağa qaldırdı, onunla daim əməkdaşlıq etdi.

Azərbaycanın cənubundakı yeddi rayonun əhalisi bu quldur dəstəsinin əlində, demək olar ki, əsir olmuşdu. Azərbaycan Silahlı Qüvvələri-

nin bir hissəsi, üç mindən artıq hərbçi, xeyli tank, piyada döyüş maşını, toplar, digər silahlar və döyüş ləvazimatı cəbhədən ayrıldı. Orada Əlikram Hümbətovun rəhbərliyi altında quldurluqla məşğul oldular. Rəhim Qazıyev buna rəhbərlik edirdi. Mən dəfələrlə bunu onun üzünə dedim. Rəhim Qazıyev Hümbətovla əlaqədə idi, ona rəhbərlik edirdi. Nə üçün? Azərbaycanı parçalamaq üçünmü?

Bəli, qüvvələrin bir hissəsinin cəbhədən ayrılıb o tərəfə keçirilməsi, bir hissəsinin bir dəstəyə – Xalq Cəbhəsinin dəstəsinə qoşulması, bir hissəsinin başqa adamın dəstəsinə qoşulması, şübhəsiz ki, cəbhədə vəziyyəti gərginləşdirdi, erməni silahlı qüvvələri də bundan istifadə etdilər. Çox gülünc olardı ki, onlar bundan istifadə etməsinlər. Bunlar hamısı Azərbaycan xalqına xəyanət edən Rəhim Qazıyev kimi adamların gördükləri çirkin işlərin nəticəsində oldu. O, nə iddialarda idi o vaxt – vəzifə iddiasında, hakimiyyət iddiasında. Bir daha Müdafiə Nazirliyinə gəlmək iddiasında.

Bir şeyi də xatırlatmaq istəyirəm. Ədalət naminə demək lazımdır ki, 1993-cü ilin hələ fevral ayında Azərbaycanda dövlət böhranı yaranmışdı. Rəhim Qazıyev bu böhranın da fəal iştirakçısı idi. Düzdür, onda bu vətəndaş müharibəsinə gəlib çıxmadı. Amma iyun ayında hadisələr vətəndaş müharibəsi ilə nəticələndi. Rəhim Qazıyev bunların hamısının müəlliflərindən biridir. Sonra o, cənubda Əlikram Hümbətovu Azərbaycan dövlətinə qarşı qaldırmaq istədi. Lakin bundan da bir şey çıxmadı. Çünki xalq buna yol vermədi, sıx birləşdi. Əlikram Hümbətov qaçıb aradan çıxdı. Bu hadisə nəticəsində bir neçə adam həlak oldu. Hümbətov daha bir cinayət törətdi. Nəhayət, o, uzun axtarışdan sonra tapıldı və ələ keçdi.

Hələ o vaxtlar Rəhim Qazıyev çox böyük cinayətlər etdi. Bir tərəfdən, vəzifə iddiasında oldu. Ona elə gəldi ki, müdafiə naziri vəzifəsi də onun üçün azdır. O, bütün güc nazirliklərinin birləşdirilib onun tabeliyinə verilməsi iddiasına düşmüşdü. Şübhəsiz ki, mən dövlət başçısı kimi, buna yol verə bilməzdim. Çünki yaxşı görürdüm ki, Rəhim Qazıyev əvvəlki illərdə Azərbaycana necə böyük ziyan vurmuşdur, nə qədər xəyanət etmişdir. Təəssüflər olsun, vaxtilə Azərbaycan rəhbərlərindən bəzilərinin iradəsi və cürəti çatmadı ki, Rəhim Qazıyevin barəsində lazımi tədbirlər görsünlər. Ona görə ki, bəziləri onunla əməkdaşlıq etmişdilər, bəziləri də bu əməkdaşlığı hələ davam etdirirdilər. Onunla əlaqələri kəsdikdən sonra bu adamların iradəsi və cürəti çatmadı ki, onu yerinə oturtsunlar, cəzasını versinlər. Azərbaycanı belə bir cinayətkardan xilas etsinlər.



Amma mən bunu etdim. Bəli, məhz Azərbaycanın qanunları əsasında Rəhim Qazıyev məsuliyyətə cəlb olundu, istintaq aparıldı və nəhayət, bir müddət bundan öncə məhkəmə prosesi başlandı.

Bütün bu tədbirlər məhz Azərbaycanın müstəqilliyini qorumaq üçün, ölkəmizi belə ünsürlərdən xilas etmək üçün həyata keçirildi. Onların hansı məqsədlərə, hansı qüvvələrə xidmət etdiklərini gələcək, istintaq göstərəcəkdir. Onlar kimlərə – o tərəfə də, bu tərəfə də, bu ölkəyə də, o ölkəyə də xidmət etmirdilər?!

Odur ki, Rəhim Qazıyev bir cinayətkar kimi məsuliyyət daşımalıdır. Elə bu gün hüquq-mühafizə orqanlarının rəhbərləri də bildirdilər ki, o, ittiham olunduğu cinayətlərdən canını qurtara bilməyəcəyini başa düşmüşdü. Həm də istər Azərbaycanda, istərsə də respublikanın hüdudlarından kənarda onun arxasında duran, onunla əlaqəyə girən adamlar dərk edirdilər ki, Rəhim Qazıyev bir cinayətkar kimi cəzalansa, onların hamısının da cinayətləri üzə çıxacaqdır. Bəli, onlar məsuliyyəti başa düşürdülər.

Əlikram Hümbətovun da kimlərə, hansı qüvvələrə xidmət etdiyi məlumdur. O, simasız bir adamdır, cəmiyyətə zidd ünsürdür. Lakin son illərdə Azərbaycan Respublikasının ən böyük bəlası bundan ibarətdir ki, yeddi milyon əhali sırasından bu cür adamlar ortaya çıxdılar. Özü də beləl追 öz cinayətkar fəaliyyəti ilə bəzilərini qorxutduqlarına, bir paraları da onlardan istifadə edərək, öz məqsədlərinə nail olmaq üçün bunlara kömək etdiklərinə görə onlar əl-qol açmışlar. Əlikram Hümbətov və onun kimiləri nəkarədirlər, nəçidirlər? O, hansı savad, hansı mənsəb sahibidir, səviyyəsi nədir, xalq qarşısında nə kimi xidmətləri var ki, Azərbaycanın cənub bölgəsini əlinə keçirsin və orada hökmranlıq etməyə başlasın? Beləlləri ancaq ayrı-ayrı qüvvələrin, Azərbaycanı parçalamağa can atan qüvvələrin köməyi ilə bu cür niyyətə düşə, belə iddiada ola bilərdilər. Şübhəsiz ki, Əlikram Hümbətovla əlaqəyə girmiş adamlar vardı – Azərbaycanın daxilində də, xaricində də.

Bu gün məlumat verdilər, televiziya ilə də eşitdik ki, artıq məhkəmə prosesi başlanmalı idi. Özü də tək Əlikram Hümbətov deyil, onunla birlikdə bu cinayəti törətmiş olan şəxslər də məsuliyyət daşımalı idilər.

Deməli, onlar həm Rəhim Qazıyevi, həm özlərini, həm də Əlikram Hümbətovu xilas etmək üçün bu cinayətə əl atdılar. Baba Nəzərli, Arif

Paşayev də onlarla əlbir oldular, bu cinayətkarlığa qoşuldular. Onların cinayəti göz qabağındadır. Amma əlaqədar orqanlar Azərbaycanın dövlətçiliyinin qorunması işində çox böyük səhvlər etdilər, sayıqsızlığa, səhlənkarlığa yol verdilər. İndi istintaq göstərəcəkdir–necə oldu ki, Milli Təhlükəsizlik Nazirliyi kimi güclü bir nazirliyin təcridxanasından bu adamları çox asanlıqla çıxara bildilər?

Müstəqil Azərbaycanda Milli Təhlükəsizlik Nazirliyi üç ildir ki, fəaliyyət göstərir. Lakin o keçmiş Sovet İttifaqındakı müvafiq orqanın davamçısıdır, əməkdaşların çoxu da o vaxtdan işləyən adamlardır. Diqqət yetirsək, görərik ki, bu orqanın tarixi 20-ci ildən başlanır. Deyə bilərəm ki, həmin ildən bəri bu orqanların tarixində, belə əcaib, belə dəhşətli hadisə heç vaxt olmayıb. Milli Təhlükəsizlik Nazirliyinin rəhbərləri məsuliyyətsizlik göstərib, bu ciddi məsələyə nəzarət etməyib, böyük səhvlər buraxıblar. Odur ki, bu cinayətin törədilməsində onlar günahkardırlar.

Ona görə də mən bu gün qəti tədbirlər görməliyəm. Tədbirlərdən biri budur ki, milli təhlükəsizlik naziri Nəriman İmranov işdən azad olunmalıdır. Mən bu qərarı qəbul etmişəm. Əlbəttə, başqa tədbirlər də görülməlidir və yalnız bundan ibarət ola bilməz. Əsas tədbir ondan ibarətdir ki, cinayətkarlar axtarılıb tapılmalı, cəzalandırılmalıdır. Onları qaçıran cinayətkarlar da, onlarla əlaqəyə girənlər də tapılmalı və cəzalarını almalıdırlar.

Ola bilsin ki, bu hadisə bəzi adamlarda təlaş, qorxu, bəzilərində də narahatlıq hissi doğurur. Bunlar müəyyən qədər təbii hallardır. Lakin bu gün mən sizin qarşınızda çıxış edərək bildirirəm ki, qoy heç kəs narahat olmasın. Müstəqil Azərbaycanın qarşıdakı yolunda hələ çox çətinliklər olacaqdır. Azərbaycanın prezidenti kimi, mən bunları qabaqcadan görürəm, dərk edirəm. Həm də belə halları görərək, dərk edərək, xalqın iradəsinə tabe olaraq, Azərbaycanın prezidenti olmağa razılıq vermişəm. Bilin və yəqin edin ki, mən heç vaxt belə vəzifəni tutmaq arzusunda və iddasında olmamışam, – bunu dəfələrlə demişəm. Amma bu ağır dövrdə xalqın mənə müraciətini qəbul edərək və eyni zamanda qarşımda duran çətinlikləri, böyük problemləri dərk edərək mən bu ağır yükü boynuma götürmüşəm. Ona görə də əmin ola bilərsiniz, heç bir şeydən qorxmuram, çəkinmirəm. Belə hadisələr gələcəkdə də ola bilər. Qoy bunlar heç kəsi narahat etməsin, qorxutmasın. Cinayətkarlarla mübarizə aparmışıq, aparacağıq da.



Rəhim Qazıyev, Əlikram Hümbətov kimiləri xalq tərəfindən ittiham olunacaq, cəzalanacaqlar. İstər Azərbaycanda, istərsə də ölkəmizin hüdudlarından kənarda olanlar, fərqi yoxdur,–Azərbaycana xəyanət etmiş, xalqımıza qarşı təxribat törətmiş adamlar öz layiqli cəzalarını alacaqlar. Odur ki, qoy heç kəs narahat olmasın.

Amma bununla yanaşı, bu hadisə bizi bir daha sayıqlığa çağırır, bir daha göstərir ki, bəli, Azərbaycanda daxili ictimai-siyasi sabitliyi pozmaq, ölkəmizi beynəlxalq aləmdə nüfuzdan salmaq istəyən belə cinayətkar qüvvələr hələ var. Heç də təsadüfi deyildir ki, bu hadisə Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici neft şirkətləri konsorsiumu arasında müqavilə bağlandıqdan bir gün sonra baş vermişdir. İndi gördüyünüz kimi, bu müqavilə nə qədər dairələri narahat edir. Görürsünüz ki, Azərbaycanın belə müstəqil addım atması nə qədər qrupları təşvişə salmışdır–həm Azərbaycanın daxilində, həm də xaricində.

Buna görə də ola bilsin ki, biz müstəqilliyimiz yolunda belə çətinliklərlə yenə də qarşılaşacağıq. Lakin onların hamısının qarşısını alacağıq. Qoy hamı əmin olsun ki, Azərbaycan öz müstəqilliyini qoruyub saxlayacaqdır və biz respublikamızı, cəmiyyətimizi belə düşmən ünsürlərdən təmizləyəcəyik.

Bununla belə, yenə də deyirəm ki, bu hal, bu hadisə bizi sayıqlığa, düşünüb-daşınmağa dəvət edir. Bu əhvalat bizi fikirləşməyə məcbur edir ki, Azərbaycanın sabitliyini pozmaq üçün respublikamızın istər daxilində, istərsə də xaricində bəzi qüvvələr güclü fəaliyyət göstərirlər. Onları dəf etmək üçün biz hamımız birləşməli, əlbir olmalıyıq.

Ola bilsin ki, bu əməliyyatın təşkilatçıları ondan istifadə etməyə, əhalinin ayrı-ayrı təbəqələrinə təsir göstərməyə can atır, ayrı-ayrı qrupları ayağa qaldırmağa çalışırlar. Ola bilər, amma mən belə hesab edirəm ki, Azərbaycan dövləti də, Azərbaycan xalqı da belə hallara layiqli cavab verməyə qadirdirlər və biz hər bir belə hadisəyə lazımınca cavab verəcəyik. Yəni qoy heç kəs düşünməsin, heç kəs də sevinməsin ki, bu hadisə Azərbaycanda qarmaqarışıqlıq yaradacaqdır. Yox, biz buna yol verməyəcəyik. Qarışıqlıq yaratmaq istəyənlər var, amma biz onlara imkan verməyəcəyik, onların cəhdlərinin qarşısını alacağıq. Biz buna qadirik. Çünki biz Azərbaycan dövlətinin Konstitusiyasını, Azərbaycanın dövlətçiliyini, ölkəmizin vətəndaşlarının hüquqlarını qoruyuruq. Biz bütün bunların keşiyində ayıq-sayıq duracağıq və belə hadisələrin qarşısını almaq üçün imkanlarımızın hamısından istifadə edəcəyik.

Mən tam əminəm ki, vətənini sevən, xalqına sadiq olan Azərbaycan sakinləri, bütün vətəndaşlarımız bu gün hiddətlənmişlər, onların hər biri bu cinayətkarlara nifrət edir. Mən həm də əminəm ki, bütün ictimaiyyətimiz bu cinayətkarlara lənət yağdıracaqdır, bu hadisə xalqımızı bir daha oyadacaq və birləşməyə dəvət edəcəkdir. Xalqımız daha sıx birləşəcəkdir ki, həm respublikamızın ərazi bütövlüyünü qoruyaq, həm də Azərbaycanda ictimai-siyasi sabitliyi təmin edək.

Ola bilər ki, bu cinayətkar qüvvələr ordu sıralarında da təxribat törətməyə çalışsınlar. Ancaq mən bilirəm ki, ordumuz artıq nizami ordudur, onun sıralarında Azərbaycan xalqına sadiq, vətənpərvər zabitlərimiz, döyüşçülərimiz respublika ərazisinin keşiyində sayıq durmuşlar, onlar belə qüvvələrin fəaliyyət göstərməsinə heç vaxt yol verməzlər. Mən ordumuza, silahlı qüvvələrimizə, hüquq-mühafizə orqanlarımıza inanıram və xalqımıza arxalanaraq, respublikanın Prezidenti kimi hamını əmin edirəm ki, biz hər hansı bir hadisənin qarşısını almağa qadirik və bunun üçün də bütün səlahiyyətlərimizdən istifadə edəcəyik.

Bir sözlə, həyatımız çətin şəraitdə keçir, yaşayış ağırdır, insanların iqtisadi vəziyyəti məşəqqətlidir. Gecə-gündüz fikirləşir, çalışırıq ki, Azərbaycan Respublikasının vətəndaşlarını ərzaqla necə təmin edək, başqa problemləri necə aradan qaldıraq. Bildiyiniz kimi, bir aydan çoxdur ki, Azərbaycandan gedən dəmir yolu Şimali Qafqazda bağlanmışdır. Deməli, biz dəmir yolunda tamamilə blokadaya alınmışıq. Bu isə iqtisadiyyatımız üçün də, taxıl məhsullarının gətirilməsi üçün də böyük çətinliklər yaradır. Lakin biz bu çətin vəziyyətdən də çıxacağıq. Əhalinin ağır şəraitdə yaşadığı məlumdur. Biz bu vəziyyətdən çıxmaq üçün lazımi tədbirlər görürük. Buna görə də ictimaiyyət arasında, respublikamızın həyatında sabitlik lazımdır, xalqın birliyi gərəkdir. Partiya mənsubiyyətindən asılı olmayaraq bütün qüvvələr bir şeyi anlamalıdırlar: Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün qorunması və respublikamızda sülhün qorunub saxlanması hər şeydən üstün olmalıdır. Bu məqsədlərə nail olmaq üçün hər bir namuslu, qeyrətli vətəndaş, vətənini sevən hər bir azərbaycanlı səy göstərməlidir.

Mən əminəm ki, xalqımızın əksəriyyəti məhz belə düşünür. Ona görə də xalqımıza arxayın olaraq sizi əmin edirəm ki, biz bu çətinliklərdən çıxacağıq. Sizin hamınıza bu ağır vəziyyətimizdə uğurlar diləyirəm. Azərbaycan xalqına xoşbəxt həyat, səadət arzulayıram.

Gecəniz xeyrə qalsın. Gələn görüşlərədək.



## BMT BAŞ MƏCLİSİNİN 49-cu SESSİYASINDA MİLLƏTLƏR BİRLİYİNİN XÜSUSİ SALONUNDA MƏTBUAT KONFRANSINDA BƏYANAT

*29 sentyabr 1994-cü il*

Hörmətli xanımlar, cənablar!

Mən bir neçə dəqiqə bundan öncə BMT-nin Baş Məclisində Azərbaycan Respublikasının prezidenti kimi çıxış etdim. Bu nitqimdə mən Azərbaycan Respublikasının beynəlxalq aləmdə, beynəlxalq miqyasda əsas prinsiplərini bildirdim. Buna görə də təkrarən geniş bir bəyanat verməyə ehtiyac yoxdur. Belə düşünürəm ki, siz mənim həmin çıxışımla tanışsınız. Lakin qısaca bir neçə kəlmə demək istərdim.

Azərbaycan üç ildir ki, müstəqil bir dövlət kimi yaşayır. Azərbaycan Respublikasının başçısı, prezidenti ilk dəfədir ki, Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin işində iştirak edir və Azərbaycanın adından bu məclisə müraciət edir. Xalqımız milli azadlıq əldə etdikdən sonra Azərbaycan Respublikasının daxili və xarici siyasəti xalqın tarixi, milli, mənəvi ənənələri əsasında qurulur. Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət yaradılır. Respublikamızın cəmiyyəti demokratik prinsiplər əsasında formalaşır və bu prinsipləri Azərbaycanda bərqərar etmək üçün ölkəmizdə qanunlar qəbul olunmuşdur. Bu qanunlar demokratik prinsiplərin mövcudluğu və onlardan əhalinin istifadə etməsi üçün şərait yaradır. Biz bu sahədə də öz işimizi Azərbaycan xalqının tarixi, milli, mənəvi ənənələri, milli dəyərləri əsasında qururuq. Eyni zamanda dünyanın inkişaf etmiş, çox yüksək səviyyələrə qalxmış dövlətlərinin demokratik prinsiplərindən bəhrələnirik.

Azərbaycan iqtisadi sahədə böyük potensiala malikdir. Biz bu sahədə bazar iqtisadiyyatı yolu ilə, sərbəst iqtisadiyyat yolu ilə gedirik və bunun üçün lazımi tədbirlər görürük. Yəni 70 il sosialist quruluşunda sosialist iqtisadi, siyasi prinsipləri əsasında yaşayan bir respublika indi müstəqil dövlət kimi, dünyanın inkişaf etmiş ölkələrinin həm ictimai-siyasi prinsiplərindən, həm də iqtisadi-sosial prinsiplərindən istifadə edərək öz həyatını özü qurur.

Respublikamız üçün ən ağır problem ölkənin altı ildən bəri müharibə vəziyyətində olması ilə bağlıdır. Müharibəyə Azərbaycan başlamayıbdır. Azərbaycan müharibəyə cəlb edilibdir. Ermənistan Respublikasının təcavüzü nəticəsində hərbi münaqişə yaranıb və indi müharibə gedir. Azərbaycan ərazisinin bir qismi erməni silahlı qüvvələri tərəfindən işğal olunubdur, torpaqlarımızın 20 faizi erməni silahlı qüvvələrinin işğalı altındadır. İşğal edilmiş torpaqlardan bir milyon nəfərdən artıq Azərbaycan vətəndaşı qaçqın düşüb, öz doğma yerlərindən baş götürüb qaçmışdır, indi onlar qaçqın vəziyyətində çadırlarda ağır şəraitdə yaşayırlar.

Bu çətinliklərə baxmayaraq, biz sülh təklif edirik və buna görə də dörd ay əvvəl Ermənistan ilə Azərbaycan arasında atəşin kəsilməsinə nail ola bilmişik. Biz atəşkəsin saxlanmasına çalışırıq və bundan sonra da çalışacağıq. Lakin atəşkəs dövründə Böyük Sülh Müqaviləsi əldə etmək istəyirik. Sülh müqaviləsi yalnız bəzi şərtlərlə ola bilər. Yəni işğal edilmiş Azərbaycan torpaqlarından erməni silahlı qüvvələri çıxmalı, həmin torpaqlarımız azad edilməli və qaçqınlar öz yerlərinə qayıtmalıdırlar. Beynəlxalq hüquq normalarına əsasən, Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin edilməlidir. Biz məhz bu şərtlər əsasında sülhə nail olmaq istəyirik və bunun üçün də çalışırıq. Bu gün mən Birləşmiş Millətlər Təşkilatının tribunasından bütün dünya ictimaiyyətinə, böyük dövlətlərə, beynəlxalq təşkilatlara bu sülhün əldə olunmasında bizə kömək göstərmək barədə müraciət etdim.

Mənim sizə deyəcəyim bu qədərdir, vaxtınızı çox almaq istəmirəm. Odur ki, vaxtımı sizin suallarınıza cavab vermək üçün saxlamaq fikrindəyəm.

**S u a l :** Cənab Prezident, Birləşmiş Millətlər Təşkilatı adından Sizi burada salamlamağa çox şadam. Sizin ölkəniz neft şirkətlərinin konsorsiumu ilə müqavilə bağlamışdır. İndi gündəlikdə neftin nəql edilməsi üçün boru kəmərinin çəkilməsi məsələsi durur. Sizcə, bu boru kəməri haradan keçəcək?

**C a v a b:** Bilirsinizmi, indiyədək, yəni, üç il idi ki, söhbət bu neft müqaviləsinin bağlanmasından gedirdi və hər dəfə də ortaya müxtəlif məsələlər çıxırdı. Artıq müqavilə imzalanmışdır, buna görə də indi bütün suallar neft kəmərinin haradan keçməsi barədədir. Həmin suallara hazırda heç kəs cavab verə bilməz. Elə mən özüm də. Çünki bu neft kəməri marşrutunun bir neçə variantı var. Biz gərək onu konsorsiumla,



yəni bizimlə müqavilə imzalamış olan neft şirkətləri ilə birlikdə həll edək. Mən onu deyə bilərəm ki, boru kəmərinin marşrutu birinci növbədə Azərbaycanın milli mənafelərinə uyğun olmalıdır. Əlbəttə, bu məsələ müqaviləni imzalamış və böyük işlərə girişmiş neft şirkətlərinin fikrindən, iradəsindən də asılı olacaqdır. Eyni zamanda, bu neft kəmərinin marşrutu gərək iqtisadi baxımdan da səmərəli olsun. Zənnimcə, biz əgər üç il ərzində aparılan danışıqlardan sonra bu müqaviləni imzalaya bildiksə, deməli, neft kəmərinin haradan keçəcəyini də müəyyənləşdirəcəyik.

**S u a l:** Cənab Prezident, dünən «Vaşinqton post» qəzetində dərc edilmiş bir məqalədə deyilir ki, Azərbaycan Dağlıq Qarabağı əldən vermək istəyir. Bunu necə başa düşmək olar?

**C a v a b:** Güman edirəm ki, o məqaləni yazan adam çox böyük səhv buraxıb. Necə ola bilər ki, biz öz ərazimizi əldən verək? Belə olsaydı, onda heç altı ildən bəri müharibə aparmaq lazım gəlməzdi. Bu altı ildə Azərbaycan tərəfi 20 min adam itirib. Yüz min nəfərdən çox adam yaralanıb. İşğal edilmiş ərazilərimizdə 700-dən çox şəhər, kənd və qəsəbə dağıdılıb. Belə böyük müharibədən sonra Dağlıq Qarabağı necə əldən vermək olar? Bu birincisi, ikincisi də, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Siz dünyada elə bir ölkə tapa bilərsinizmi ki, o öz torpağının bir hissəsini başqasına versin? Odur ki, bu, yanlış məlumatdır.

**S u a l:** Cənab Prezident, dörd aydan çoxdur ki, atəşkəsə əməl edilir. Amma bununla yanaşı, bəzi məlumatlar gəlir ki, Azərbaycan Dağlıq Qarabağın şərq hissəsinə ordu toplayır. Bu barədə nə deyə bilərsiniz?

**C a v a b :** Bu məlumatı sizə kim verib?

**S u a l :** Bu məlumatlar Qarabağ tərəfdən gəlir.

**C a v a b:** Bunlar yanlış məlumatlardır. Əvvəla, atəşin kəsilməsinin təşəbbüskarı məhz biz olmuşuq. Həm də dəfələrlə bildirmişik ki, atəşkəsin davam etməsinin tərəfdarıyıq. Mən bunu bu gün BMT-nin tribunasından bir daha bəyan etdim və bildirdim ki, biz bu müddətdə böyük sülhə nail olmaq istəyirik. Biz müharibənin yenidən başlanmasına tərəfdar deyilik və bu istiqamətdə heç bir iş görmürük. Sizdə olan məlumatlar əsassızdır.

**S u a l:** Belə məlum olur ki, heç bir ordu toplanmır?

**C a v a b:** Qətiyyən belə şey yoxdur.

**S u a l:** Cənab Prezident, Siz burada – Nyu-Yorkda, BMT-də Ermənistan prezidenti ilə görüşdünüzmü? Əgər görüşdünüzsə, onunla dialoq faydalımı oldu? Siz Dağlıq Qarabağ ilə Azərbaycan arasında yaxın aylarda dialoqu necə təsəvvür edirsiniz?

**C a v a b:** Mən Ermənistan prezidenti cənab Ter-Petrosyanla burada görüşdüm. Bu, srağagün səhər oldu. Söhbətimiz uzun çəkdi. Biz əvvəlcə nümayəndə heyətlərinin iştirakı ilə, sonra isə təkbətək söhbət etdik. Biz məhz sülh haqqında böyük sazişin hazırlanması məsələlərini müzakirə etdik. Ən çox da, bu sazişin əldə olunmasında bizə maneçilik törədən problemlərdən danışdıq. Məsələn, söhbət ondan gedir ki, Azərbaycanın işğal olunmuş ərazilərindən erməni silahlı qüvvələrinin çıxarılmasının zəruriliyindən danışarkən biz bunu həm Laçın rayonuna, həm də Şuşa şəhərinə aid edirik. Bu məsələlərdə Azərbaycan və Ermənistan tərəfləri arasında sazişə hələlik nail ola bilməmişik. Biz burada, Nyu-Yorkda görüşərkən diqqəti məhz həmin məsələlərə yönəltdik. Həm də razılığa gəldik ki, bu məsələ barəsində danışıqlarımızı davam etdirəcəyik. Cənab Ter-Petrosyan da, mən də belə bir yekdil fikirdə olduq ki, atəşkəs rejimini saxlamaq və Böyük Sülh Sazişinin imzalanmasına nail olmaq üçün razılığa gəlmək lazımdır. Mən sizə yalnız bunu deyə bilərəm.

**S u a l :** Cənab Prezident, Siz dediniz ki, Azərbaycan neft kəmərinin marşrutu barədə qərarı o vaxt qəbul edər ki, bu, Azərbaycanın milli mənafelərinə uyğun və eyni zamanda iqtisadi cəhətdən Azərbaycan üçün sərfəli olsun. Sizcə, neft kəməri Türkiyədən keçərsə, bu, Azərbaycan üçün iqtisadi cəhətdən faydalı ola bilərmi?

**C a v a b :** Mən dedim ki, neft kəməri gərək həm Azərbaycanın milli mənafeyinə uyğun olsun, həm konsorsiumda iştirak edən şirkətlərin iqtisadi mənafelərinə cavab versin, həm də iqtisadi cəhətdən səmərəli olsun. Əgər neft kəmərinin Türkiyə ərazisindən keçməsi bu tələblərə uyğun olsa, onda mən bunu alqışlayaram.

**S u a l :** Cənab Prezident, Sizin fikrinizcə, burada, Nyu-Yorkdakı görüşləriniz, danışıqlarınız və çıxışlarınız, Azərbaycanın gələcəyi üçün nə kimi əhəmiyyətə malikdir?

**C a v a b :** Belə düşünürəm ki, bunların böyük əhəmiyyəti olacaq. Ən əvvəl, Azərbaycan dövlətinin başçısı, prezidenti BMT Baş Məclisinin sessiyasında ilk dəfədir çıxış edir. Bu, gənc və müstəqil dövlət üçün mühüm hadisədir. Mən Baş Məclisin tribunasından çıxış edərək, Azərbaycanın bügünkü vəziyyəti ilə, ölkəmizin dövlət və siyasi quruluşunun prinsipləri ilə bağlı fikir və mülahizələrimi, Ermənistanla Azərbaycan arasında hərbi münaqişə barəsində mövqeyimizi Dünya Birliyinə çatdırmaq imkanına malik oldum. Zənnimcə, elə bunun özü müstəqil Azərbaycan Respublikasını Dünya Birliyinə təqdim etmək üçün kiçik məsələ deyildir. Bundan əlavə, Nyu-Yorkda olarkən mən bir çox görüşlər keçirdim və onlar da Azərbaycanın mövqeyini dünya miqyasında möhkəmlətmək üçün çox böyük əhəmiyyətə malikdir.



Bu baxımdan mən ABŞ prezidenti cənab Bill Klintonla görüşə olduqca böyük əhəmiyyət verirəm. Bizim çox ətraflı və səmərəli söhbətimiz oldu. Bu, Azərbaycan prezidentinin ABŞ prezidenti ilə ilk görüşü idi. Mən cənab prezident Bill Klinton tərəfindən Azərbaycanın və bütün bölgəmizin problemlərinə böyük maraq göstərildiyini hiss etdim. Ermənistan ilə Azərbaycan arasında münaqişənin aradan qaldırılması və Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaranmış vəziyyətdən çıxmaq yolları barədə prinsiplərimizi, mülahizələrimizi və fikirlərimizi ona izah etmək imkanı tapdım.

Mən artıq dedim ki, Ermənistan prezidenti Levon Ter-Petrosyanla görüşdüm. Burada bir sıra dövlətlərin xarici işlər nazirləri ilə, beynəlxalq təşkilatların rəhbərləri, bəzi maliyyə dairələrinin nümayəndələri ilə də görüşlərim oldu. Bütün bunlar Azərbaycanın bu günü və gələcəyi üçün kifayət qədər böyük əhəmiyyətə malikdir.

**S u a l :** Cənab Prezident, mən Sizin Amerika prezidenti ilə görüşünüz mövzusuna qayıdıram. Siz Amerika prezidentindən nə xahiş etdiniz, bu münaqişədə Amerikanın vasitəçi olmağını istədiyinizi bildirdinizmi? Müsaidənizlə, daha bir sual vermək istərdim: Elan edilmişdir ki, prezident Yeltsin ilə prezident Klinton öz aralarında görüşdə «Yaxın xaric» deyilən ölkələrdə Rusiyanın fəaliyyəti barədə razılığa gəlməmişlər. Bu fakt Sizi məyus edirmi?

**C a v a b :** Mən cənab prezident Bill Klintona dedim ki, bütün münaqişələrin, eləcə də Qafqazda gedən münaqişələrin aradan qaldırılmasında ABŞ beynəlxalq təşkilatların, o cümlədən ATƏM-in və Minsk qrupunun fəaliyyətində daha yaxından iştirak etməlidir. Belə hesab edirəm ki, bu proseslərdə ABŞ-ın iştirakı fayda gətirəcəkdir. O ki qaldı cənab Bill Klinton ilə cənab Boris Yeltsin arasında fikir ayrılıqları barədə sizin məlumatınıza, mənim bundan xəbərim yoxdur və mən sizin bu məlumatınız əsasında bir nəticə çıxarmaq istəməzdim.

Diqqətinizə görə təşəkkür edirəm.

## ABŞ-ın Sİ-EN-EN TELEVİZİYA ŞİRKƏTİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ

*29 sentyabr 1994-cü il*

**S u a l :** Cənab Prezident, Siz ABŞ prezidenti Bill Klintonla görüşdən nə gözləyirsiniz? Rusiyanın mövqeyini yumşaltmaqmı istəyirsiniz?

**C a v a b :** Mən Amerikanın prezidenti cənab Bill Klintonla görüşümdən çox şey gözləyirəm. İlk növbədə, Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında dövlətlərarası əlaqələrin inkişaf etdirilməsi məsələsinin müzakirə olunmasını, o cümlədən Azərbaycan Dövlət Neft Şirkəti ilə Qərbin Neft Şirkətləri Konsorsiumu arasında bu yaxınlarda Bakıda imzalanmış müqavilənin həyata keçirilməsində onun bizi dəstəkləməsini, eyni zamanda Azərbaycanın düşdüyü ağır bəladan çıxması üçün, Ermənistanın təcavüzündən xilas olması üçün beynəlxalq təşkilatların fəaliyyətinin artırılmasını, o cümlədən bu məsələdə Amerika Birləşmiş Ştatlarının da daha fəal iştirakını gözləyirəm.

**S u a l :** Dünən prezident Bill Klintonla prezident Boris Yeltsin görüşərkən belə bir bəyanat vermişlər ki, Dağlıq Qarabağda gedən münaqişə ilə bağlı məsələdə müəyyən bir razılığa gəlmişlər. Siz razı olarsınızmı ki, Dağlıq Qarabağ Ermənistana verilsin və bununla da sülh əldə edilsin?

**C a v a b :** Yox, mən Dağlıq Qarabağın Ermənistana verilməsinə heç vaxt razı ola bilmərəm. Lakin mənə məlum olduğuna görə, dünən mətbuat konfransında cənab Bill Klinton və cənab Boris Yeltsin çıxış edərək belə bir fikrə gəlmişlər ki, Dağlıq Qarabağ məsələsi, yəni Ermənistanla Azərbaycan arasında münaqişə məsələsi sülh yolu ilə, beynəlxalq təşkilatlar çərçivəsində həll edilsin və Birləşmiş Millətlər Təşkilatının bu barədə xüsusi qərarı olsun. Biz Azərbaycanla Ermənistan arasında münaqişənin həllinə yalnız bu şərtlərlə, habelə belə bir şərtlə razı ola bilərik ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı təmin edilsin. Eşitdiyimə görə, cənab Bill Klinton bu fikirləri orada söyləyib.

**S u a l :** Sizin dediyinizə görə, Siz gözləyirsiniz ki, prezident Bill Klinton Dağlıq Qarabağın Ermənistana verilməyəcəyini daha açıq şəkildə bildirsin. Mən Sizi düzmü başa düşdüm?



**C a v a b:** Mən təəccüb edirəm ki, mənə belə bir sual verilir: Dağlıq Qarabağ Ermənistana veriləcək, ya yox? Altı ildir gedən və çox böyük bəlalar gətirən müharibə Ermənistanın yalnız Dağlıq Qarabağı ələ keçirməsi üçün aparılır. Bu müddətdə Azərbaycan öz torpaqlarını, öz ərazi bütövlüyünü, öz suverenliyini qoruyubdur. İndi necə ola bilər ki, Dağlıq Qarabağın Ermənistana verilməsi haqqında danışıqlar aparılsın? Mən sualın bu cür qoyuluşuna təəccüb edirəm. Axı altı ildə bu məsələ heç bir beynəlxalq təşkilatda, heç bir dövlət başçısı tərəfindən belə qoyulmamışdır.

**S u a l :** Lakin altı ildə 20 mindən çox adam həlak olub. Ermənistan hər cəhətdən üstünlüyə malikdir və ölkənizdə xeyli qaçqın var. Bəs Siz müəyyən bir güzəştə getmək istəmirsinizmi?

**C a v a b :** Bəli, altı ildə Azərbaycan tərəfindən 20 minə qədər adam həlak olub, təxminən 100 min adam yaralanıb, Azərbaycan ərazisinin 20 faizi erməni işğalçı qüvvələri tərəfindən zəbt edilib. İşğal olunmuş bu torpaqlardan bir milyon nəfərdən artıq Azərbaycan vətəndaşı, azərbaycanlı öz ev-eşiyindən didərgin düşüb, qaçqın vəziyyətindədir. Bütün bunlar Ermənistanın Azərbaycana qarşı etdiyi hərbi təcavüzün nəticələridir. Həm də heç bir beynəlxalq təşkilat, heç bir ədalətli dövlət hərbi təcavüzü bəyənə bilməz və ona bəraət qazandıra bilməz. Bəzi obyektiv səbəblərə görə və ayrı-ayrı dövlətlərin, dairələrin Ermənistana göstərdikləri kömək sayəsində Ermənistan silahlı qüvvələri bu üstünlüyü əldə edirlər. Ancaq beynəlxalq hüquq normalarında göstərildiyi kimi, bir dövlətin başqa bir dövlətin torpaqlarını zorla ələ keçirməyə ixtiyarı yoxdur, eləcə də bir dövlətin başqa bir dövlətin sərhədlərini zorla pozmağa ixtiyarı yoxdur. Mən sadəcə olaraq onu istəyirəm ki, Ermənistan bu beynəlxalq hüquq normalarına riayət etsin. Cənab Bill Klintonla apardığım danışıqlarda mən belə qənaətə gəldim ki, Amerika prezidenti bu prinsiplərə müvafiq surətdə hərəkət edilməsinə tərəfdardır və bizim vəziyyətimizi başa düşür, bu məsələnin beynəlxalq təşkilatlar tərəfindən ədalətlə həll olunmasını istəyir, o cümlədən Azərbaycan Respublikasının ərazi bütövlüyünün, suverenliyinin, sərhədlərinin toxunulmazlığının təmin olunmasına tərəfdardır.

**S u a l :** Mən Sizin mövqeyinizi tamamilə başa düşürəm və daha bir sual vermək istəyirəm: Qafqazda, o cümlədən də Gürcüstanda, habelə Tacikistanda çox böyük münaqişələr gedir. Sizin fikrinizcə, bu müna-

qişələrə səbəb nədir, Rusiya həmin münaqişələri bölgədə öz mövqelərini bərpa etmək üçünmü yaradır?

**C a v a b :** Bilirsinizmi, öz münaqişəmiz özümüzə elə böyük dərddir və bu, başımızı elə qatıb ki, o münaqişələrin anatomiyasını müəyyənləşdirməyə mənim sadəcə olaraq vaxtım yoxdur və bəzən də bunu çox da lüzumlu hesab etmirəm. Amma şübhəsiz ki, hər bir münaqişənin səbəbi var. Əgər indiyədək bu münaqişələrə son qoyulmayıbsa, deməli, bunda hansısa kənar dairələrin marağı var.

**S u a l :** Xüsusi olaraq qeyd edə bilərsinizmi ki, Rusiya həmin dairələrdən biridir?

**C a v a b:** Mən indi heç bir dövləti günahlandırmaq fikrində deyiləm. Çünki bunun üçün çox böyük əsaslar lazımdır.

**S u a l :** Siz artıq böyük neft müqaviləsini imzalamısınız. Bu müqavilədə Qərb şirkətləri, o cümlədən də Rusiyanın bir şirkəti iştirak edir. Sizcə, bu müqavilə bölgədə sabitlik yaranmasına kömək edəcəkmi?

**C a v a b :** Bəli sentyabrın 20-də Bakıda imzalanmış neft müqaviləsinə mən çox böyük ümidlər bəsləyirəm. Bu müqavilə Azərbaycan Respublikası ilə Qərbin 10 neft şirkəti, o cümlədən də Rusiya şirkəti arasında əlaqə yaradır və onların 30 il müddətində müştərək işləməsinin bünövrəsini qoyur. Eyni zamanda həmin şirkətlər Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Səudiyyə Ərəbistanı kimi böyük ölkələrə mənsub olduğuna görə, bu ölkələrlə Azərbaycan arasında iqtisadi əlaqələrin inkişafı üçün geniş şərait yaradır. Mən bu müqaviləyə ümidlər bəsləyirəm və hesab edirəm ki, o, hər iki tərəf üçün faydalı olacaq. Azərbaycan Respublikasının dünya iqtisadiyyatına qoşulması üçün yaxşı şərait yaradacaqdır.

**A p a r ı c ı :** Azərbaycan Respublikasının Prezidenti, cənab Prezident, Sizə təşəkkür edirəm.

**C a v a b :** Sizin televiziya vasitəsilə çıxış etməyimə imkan yaratdığınıza görə, mən də sizə təşəkkür edirəm.

**A p a r ı c ı :** Cənab Prezident, Nyu-York studiyası Sizə öz təşəkkürünü bildirir.

**C a v a b:** Mən də Nyu-York studiyasına təşəkkür edirəm, öz məmnunluğumu bildirirəm.



## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN BƏYANATI

Əziz həmvətənlər!

Doğma respublikamızın müstəqillik yolundakı uğurlu addımları daxildən və xaricdən olan bəzi düşmənlərimizin açıq təxribatlarına səbəb olmuşdur. Sentyabrın 29-da görkəmli dövlət xadimləri – Ali Sovetin sədr müavini Afiyəddin Cəlilov və respublika xüsusi idarəsinin rəisi Şəmsi Rəhimov vəhşicəsinə qətlə yetirilmişlər. Həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verirəm. Allah onlara rəhmət eləsin!

Şübhəsiz ki, bu terrorçuluq aktları son vaxtlar Azərbaycanın müstəqilliyi əleyhinə yönəldilmiş cinayətlərin yeni bir həlqəsidir. Son vaxtlar bir sıra ağır cinayətlər törətmiş, bu yaxınlarda isə dövlət əleyhinə xəyanətdə ittiham edilən dörd düstağın təcridxanadan qaçırılmasına nail olmuş bu qüvvələr respublikada ictimai-siyasi sabitliyi pozmaq, süni qarşıdurma və vahimə əhval-ruhiyyəsi yaratmaq, son nəticədə ölkəni siyasi və iqtisadi müstəqillik yolundan döndərmək üçün ən çirkin üsullara əl atırlar. Bu, həm də Azərbaycan Respublikasının hərbi təcavüzə qarşı apardığı mübarizəni zəiflətməyə yönəldilmişdir.

Öz suverenliyini qorumaq üçün kifayət qədər gücə və hər cür imkanlara malik olan Azərbaycan dövləti bu cür satqın və xəyanətkar hərəkətlərin qarşısını almaq üçün lazım olan ən qəti tədbirlər görəcəkdir.

Əziz həmvətənlər! Bu çətin sınaq günlərində hər birinizə möhkəm dəyanət, vətəndaşlıq qeyrəti, sarsılmaz iradə arzulayır və sizi əmin edirəm ki, tutduğumuz haqq yolundan bizi heç bir qüvvə döndərə bilməyəcəkdir.

***HEYDƏR ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***
***ABŞ, Nyu-York şəhəri, 30 sentyabr 1994-cü il***

## ABŞ-a SƏFƏRDƏN VƏTƏNƏ QAYIDARKƏN İSTANBULDA TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLLƏ GÖRÜŞDƏN SONRA JURNALİSTLƏRƏ BƏYANAT

*1 oktyabr 1994-cü il*

Əziz qardaşım, dostum, Türkiyə Cümhuriyyətinin hörmətli prezidenti Süleyman Dəmirəl! Mən Amerikadan Azərbaycana dönərkən Sizinlə görüşmək üçün bir-iki saatlıq burada dayandım. Bildiyiniz kimi, mən Azərbaycandan Amerikaya gedəndə də, Vətənə qayıdanda da «Türk Hava Yolları» şirkətinin təyyarəsindən istifadə etmişəm. Bu təyyarə çox rahatdır.

Bu fürsətdən istifadə edərək, sizinlə görüşməyimdən çox məmnunam. Mənimlə görüşərək bir çox məsələ barəsində fikir mübadiləsi etmək üçün vaxt ayırdığınıza görə təşəkkürümü bildirirəm. Hesab edirəm ki, sizinlə danışıqlarımız çox əhəmiyyətli və səmərəlidir. Siz danışıqlarımızın məzmununu mətbuat nümayəndələrinə çatdırdınız. Amerika Birləşmiş Ştatlarına səfərim zamanı gördüyüm işlərə verdiyiniz qiymət üçün təşəkkür edirəm, çox məmnunam. Doğrudan da, Amerika Birləşmiş Ştatlarında Azərbaycanın indiki vəziyyətini anlatmaq və Ermənistanın Azərbaycana təcavüzünün qarşısını almaqdan ötrü tədbirlər həyata keçirilməsi üçün bəzi işlər görə bildim. Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klintonla, digər ölkələrin dövlət başçıları, dövlət adamları ilə danışıqlar apardım və hesab edirəm ki, bu, çox faydalı oldu. Bütün bu görüşlərimiz, danışıqlarımız barədə əziz dostum, qardaşım Süleyman bəylə bizim ətraflı söhbətimiz oldu. Məmnunam ki, Süleyman bəy bu barədə fikirlərini sizə çatdırdı.

Azərbaycanda baş verən son hadisələr, şübhəsiz ki, xalqımızı narahat etmişdir. Ancaq bilməlisiniz ki, bunlar bizim iradəmizi qıra bilməz. Biz Azərbaycanın müstəqilliyini qoruyub saxlamışıq və bundan sonra da qoruyacağıq. Azərbaycanda baş verən son hadisələr böyük, ağır cinayətlərdir. Bu, ayrıca bir şəxsin öldürülməsi, yaxud cinayətkarların təcridxanadan qaçması demək deyildir. Bu cinayətlər Azərbaycan Respublikasının müstəqilliyinə qarşı təcavüzdür, ölkənin daxilində sabitliyi pozmağa



yönəldilmiş əməllərdir. Bütün bunlar həm Azərbaycanın daxilində, həm də onun hüdudlarından kənarda ölkəmizə düşmən olan qüvvələrin birgə fəaliyyətinin nəticəsidir. Bir daha qeyd edirəm ki, onların məqsədi Azərbaycanın müstəqilliyinə son qoymaqdır. Çünki Azərbaycanın müstəqilliyi çox ölkələri narahat edir. Biz öz müstəqilliyimizi nə qədər çox müdafiə ediriksə, buna qarşı təxribatlar bir o qədər güclənir.

Lakin bunlar bizi qorxutmur, sarsıtmır. Azərbaycan xalqı bizim tutduğumuz yolu daim müdafiə edir, dəstəkləyir və əminəm ki, bundan sonra da dəstəkləyəcəkdir. Azərbaycan tutduğu müstəqillik yolu ilə gedir və gedəcəkdir, istiqlaliyyətini heç vaxt əldən verməyəcəkdir. Bunu mən dəfələrlə Azərbaycanda da demişəm, Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatı Baş Məclisi sessiyasının yüksək tribunasından da dedim və Süleyman bəy, Sizin hüzurunuzda da deyirəm. Qoy Türkiyədəki qardaşlarımızın hamısı da bilsin ki, Azərbaycan öz müstəqilliyi uğrunda indiyədək nə qədər mübarizə aparmışdırsa, bundan sonra daha çox mübarizə aparacaqdır. Çünki müstəqilliyi qazanmaq nə qədər çətin idisə, onu qoruyub saxlamaq daha çətindir. Biz bunu başa düşürük və işimizi də bu baxımdan qururuq .

Azərbaycanda baş verən son hadisələrlə əlaqədar müxtəlif şayiələr yayılır. Bunlar heç kimi narahat etməsin. Biz Azərbaycanın daxilində sabitliyi qorumağa qadirik, mətinliyimiz, dəyanətimiz var. Buna əmin ola bilərsiniz.

Mənim Amerikaya səfərimdən öncə, sentyabrın 20-də Bakıda böyük bir tarixi hadisə baş verdi: Azərbaycandakı neft yataqlarının işlənməsi barədə xarici ölkələrin iri neft şirkətləri ilə 30 il müddətinə müqavilə imzalandı. Bu, tarixi müqavilədir və onu haqlı olaraq «Əsrin müqaviləsi» adlandırırlar. Müqaviləni altı ölkənin şirkətləri imzalamışdır. Bu sənəd tərəflər üçün qarşılıqlı surətdə faydalı olmaqla yanaşı, Azərbaycanın istiqlaliyyətinin qorunub saxlanmasına da kömək edən amildir. Hesab edirəm ki, müqaviləni həyata keçirərkən Azərbaycanın müstəqilliyini daha da təmin edəcəyik.

Müqavilənin imzalanması barədə üç ildən çox idi ki, danışıqlar gedirdi. Ona mançılik törədən adamlar, qüvvələr, hətta ölkələr də var idi. Lakin onların cəhdləri baş tutmadı. Bu müqavilənin imzalanması bir daha göstərdi ki, Azərbaycan xalqı öz taleyinin sahibidir, ölkənin işlərini özü həll edir və kənar qüvvələrin təzyiqinə baxmayaraq, müstəqil şəkildə belə böyük bir müqaviləni imzalayır.

Müqavilənin önəmli bir cəhəti də neft şirkətləri konsorsiumunda Türkiyənin iştirak etməsidir. Bu bizim üçün çox əhəmiyyətlidir və güman edirəm ki, bunun sayəsində əməkdaşlığımız daha sürətlə inkişaf edəcəkdir.

Müqavilənin əsas cəhətlərindən biri gələcək neft kəmərinin marşrutu ilə bağlıdır. Şübhəsiz ki, biz neft kəmərinin Türkiyə ərazisindən keçməsini istəyirik. Biz bu istiqamətdə birgə səy göstərəcəyik. Süleyman bəy ilə də bunu müzakirə etmişik. Biz neft kəmərinin Türkiyə ərazisindən keçməsini önəmli sayırıq. Çünki bu, həm kəmərin təhlükəsizliyini təmin edəcək, həm də ölkələrimiz arasındakı əlaqələri daha da möhkəmləndirəcəkdir. Türkiyənin Azərbaycanı daim müdafiə etməsi, ona diqqət yetirməsi təbiidir. Çünki Azərbaycan üçün Türkiyə ən yaxın dost və qardaş ölkədir. Türkiyə də Azərbaycanı belə bir ölkə və xalq kimi qəbul edir. Dostluğumuz və qardaşlığımız daimi, əbədidir və biz bunun belə olması üçün əlimizdən gələni əsirgəməyəcəyik.

Süleyman bəy, mənə göstərdiyiniz ehtirama görə Sizə təşəkkür edir, Azərbaycanın bu ağır günündə, cinayətlər baş verən bir vaxtda ölkəmizə yaxından diqqət yetirməyinizdən məmnun qaldığımı bildirirəm.



## RESPUBLİKA MİLLİ TELEVİZİYASI VƏ RADİOSU İLƏ ÇIXIŞ

*3 oktyabr 1994-cü il*

Hörmətli həmvətənlər, bacılar və qardaşlar!

Bildiyiniz kimi, sentyabrın 25-dən 30-dək mən Amerika Birləşmiş Ştatlarında – Nyu-Yorkda işgüzar səfərdə olmuşam. Bu müddətdə Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 49-cu sessiyasının işində iştirak etmiş, sessiyada çıxış edərək, Azərbaycan Respublikasının daxili və xarici siyasəti, beynəlxalq aləmdə tutduğu mövqe barədə məlumat vermişəm. Onu da deyim ki, bu, üç ildən bəri müstəqil dövlət kimi yaşayan Azərbaycan Respublikasının rəhbərinin BMT Baş Məclisində ilk çıxışı idi. Hesab edirəm ki, həmin çıxış və ümumiyyətlə, BMT Baş Məclisinin sessiyasında iştirak etmək, bu nüfuzlu beynəlxalq təşkilatın baş katibi Butros Qali ilə aparılan söhbətlər Azərbaycan Respublikasının beynəlxalq aləmdə mövqelərini daha da açıqlamışdır. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, bunun nəticəsində Azərbaycanın düşdüyü vəziyyət, həm də respublikamızın xarici siyasəti ilə bağlı fikirləri BMT Baş Məclisinin sessiyasında çıxış etməklə dünya ictimaiyyətinə, dünya dövlətlərinə çatdırmaq Azərbaycan üçün çox gərəkli bir hadisə idi.

Bununla yanaşı, Nyu-Yorkda olarkən Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klintonla görüşərək ətraflı söhbət etmişəm. Bildirmək istəyirəm ki, bu, əvvəlcədən təyin edilmiş görüş idi. Bunu Amerika tərəfi qabaqcadan elan etmişdi və biz də bu barədə məlumat vermişdik. Həm Amerika tərəfi, həm də biz bu görüşü yüksək qiymətləndiririk. Zənnimcə, görüş ümidlərimizi doğrultdu. Bu da müstəqil respublikamızın dövlət başçısının Amerika Birləşmiş Ştatlarının prezidenti ilə ilk görüşü idi.

Bildiyiniz kimi, son vaxtlar Azərbaycan ilə ABŞ arasında əlaqələri genişləndirmək, inkişaf etdirmək üçün bir neçə addım atmışıq. Həm Bakıda, həm də başqa ölkələrdə Birləşmiş Ştatların yüksək vəzifəli rəsmi şəxsləri ilə görüşlər olmuşdur. Mən Qahirədə ABŞ-ın vitse-prezidenti Albert Qor ilə, İstanbulda ABŞ-ın Dövlət katibi cənab Kristoferlə, Bakıda cənab Klintonun xüsusi nümayəndəsi, onun kabinetinin

üzvü xanım Olbraytla, dövlət departamenti rəhbərinin müavini cənab Talbott ilə, həmin departamentin yüksək vəzifəli işçisi cənab Kollinzlə görüşmüşəm. Bütün bunlar iki ölkə arasında əlaqələri inkişaf etdirmək üçün qarşılıqlı surətdə atılan addımlardır.

Lakin Amerika Birləşmiş Ştatlarının prezidenti ilə görüş bu prosesin zirvəsini təşkil edir. Bu mənalı və məzmunlu görüşün bizim üçün əhəmiyyəti odur ki, mən ABŞ prezidentinə Azerbaycanın həm daxili, həm də xarici siyasəti haqqında geniş məlumat verdim, respublikamızın Birləşmiş Ştatlarla münasibətlərinin, xüsusən iqtisadi əlaqələrimizin gələcəkdə daha sürətlə inkişaf etdirilməsi barədə fikirlərimi, mülahizələrimi söylədim. Eyni zamanda, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, onun ağır nəticələri və bununla əlaqədar Azərbaycanın düşdüyü çətin vəziyyət haqqında ətraflı məlumat verdim. Bundan əlavə, Amerika prezidentinə bildirdim ki, bu çətinliklərə, bizə vurulan ağır zərbələrə baxmayaraq, sülhsevər siyasət yürüdürük, əməli mövqedən çıxış edirik və Ermənistan Respublikasının hərbi təcavüzünə qarşı sülh təklif edir, bu sülhə nail olmağa çalışırıq.

Münaqişə zonasında atəşin dayandırılması və onun dörd aydan artıq davam etməsi haqqında məlumatı cənab Bill Klinton çox razılıqla qarşıladı və yüksək qiymətləndirdı. Mən isə bildirdim ki, biz bu atəşkəsi, sadəcə olaraq, gələcək işlərimiz üçün bir şərait kimi qiymətləndirir və hesab edirik ki, bu imkandan istifadə etmək lazımdır. İstəyirik ki, Azərbaycan ilə Ermənistan arasında uzunmüddətli sülh yaransın və bu sülhə Azərbaycan Respublikasının mənafeyinin qorunması şərti ilə nail olunsun. Yəni Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin edilsin, işğal olunmuş ərazilərimizdən Ermənistan silahlı qüvvələri çıxarılsın, bir milyondan artıq azərbaycanlı qaçqın öz yurdlarına qaytarılsın, ölkəmizin sərhədlərinin toxunulmazlığı təmin edilsin. Əvvəllər bəyan etdiyimiz kimi, mən Amerika prezidentinə də bildirdim ki, biz bütün bu şərtlər əsasında sülhə nail olmaq istəyirik. Bütün dövlətlərə, o cümlədən dünyada böyük nüfuzu olan Birləşmiş Ştatlara və onun prezidentinə müraciət edirik ki, bizim bu təklifimizin həyata keçirilməsi üçün lazımi təşəbbüslər göstərilsin və tədbirlər görülsün.

ABŞ prezidenti bu məsələlərə çox diqqətlə yanaşdı. Mən başa düşdüm ki, Birləşmiş Ştatların dövlət başçısı bu məsələ ilə artıq ciddi məşğul olur. O bu barədə öz fikirlərini, mülahizələrini bildirdi və qeyd etdi ki, bütün bunlar beynəlxalq təşkilatların vasitəsilə həll edilməlidir.



Mən bildirdim ki, biz də bu fikirdəyik. Azərbaycan bu sahədə Rusiyanın vasitəçiliyini qiymətləndirir. Eyni zamanda istəyirik ki, bu vasitəçilik beynəlxalq təşkilatlarla birlikdə həyata keçirilsin. Biz ATƏM-in Minsk qrupunun rəhbəri Yan Eliassonla dəfələrlə görüşərək öz fikirlərimizi bildirmişik. Mən BMT Baş Məclisinin sessiyasındakı çıxışımda da dedim ki, biz beynəlxalq təşkilatların, xüsusən ATƏM-in Minsk qrupunun Rusiya ilə əməkdaşlıq etməsinə, Rusiyanın bu məsələlərin birlikdə həllinə qoşulmasına tərəfdarıq. Bu fikrimi cənab Bill Klintona da çatdırdım. O da bu fikirdədir və söhbət zamanı bunu qeyd etdi.

Cənab Bill Klintonla danışıqlarımız zamanı aydın oldu ki, Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında əlaqələrin inkişaf etdirilməsi barədə rəylərimiz üst-üstə düşür. Cənab Bill Klinton sentyabrın 20-də Bakıda xarici ölkələrin iri neft şirkətləri ilə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti arasında imzalanmış müqaviləni xüsusilə yüksək qiymətləndirdi. O bildirdi ki, bu, çox böyük tarixi əhəmiyyəti olan müqavilədir. Həmin müqavilədə ABŞ şirkətləri də iştirak edir, ona görə də Amerika dövlətinin buna marağı var. Təsadüfi deyildir ki, Birləşmiş Ştatların dövlət nümayəndəsi müqavilənin imzalanmasında iştirak etmiş və həmin sənədi imzalamışdır. ABŞ prezidenti bu müqavilənin həyata keçirilməsinin zəruri olduğunu bildirdi və onun dövləti tərəfindən bunun himayə ediləcəyini söylədi.

Biz başqa məsələləri, o cümlədən Azərbaycanın blokada vəziyyətində olmasını, ABŞ konqresinin ədalətsiz olaraq 907-ci maddəyə düzəlişi Azərbaycana qarşı tətbiq etməsi məsələsini də müzakirə etdik. Cənab Bill Klinton bildirdi ki, Ermənistan – Azərbaycan münaqişəsinin aradan qaldırılması və regionda sülh yaradılması ilə bağlı onun müəyyən fikirləri var və bu barədə Rusiya prezidenti Boris Yeltsinlə görüşündə də danışacaqdır (səhəri gün o, Vaşinqtonda Rusiya prezidenti ilə görüşməli idi). Cənab Klinton qeyd etdi ki, Amerika Birləşmiş Ştatları bu məsələyə ciddi qoşulmuşdur və beləcə də məşğul olacaqdır.

Biz başqa məsələlər barəsində də danışdıq. Mən bunları ətraflı şərh etməyə ehtiyac duymuram. Söhbətlərimizin əsas məqamlarını xatırlatdım. Bununla demək istəyirəm ki, cənab Bill Klintonla görüşümüz Azərbaycan Respublikasının beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsində və Azərbaycanla bağlı məsələlərin həllində, xüsusən respublikamızda sülh yaranmasında beynəlxalq təşkilatların iştirakından ötrü çox əhəmiyyətli və faydalıdır. Güman edirəm ki, biz bu görüş-

də yaranmış əhval-ruhiyyəni, əlaqələri davam etdirəcəyik. Bu gün bir daha bildirmək istəyirəm ki, biz bütün dövlətlərlə, o cümlədən Amerika Birləşmiş Ştatları ilə ikitərəfli, çoxsahəli əlaqələrin inkişaf etdirilməsinə tərəfdarıq.

Nyu-Yorka səfərim zamanı bir çox başqa görüşlərim də olmuşdur. Orada bir sıra ölkələrin xarici işlər nazirləri ilə görüşmüşəm. Bunları sadalamağa ehtiyac yoxdur, informasiya orqanları bu barədə məlumat verəcəkdir. Ancaq bildirmək istəyirəm ki, Böyük Britaniyanın xarici işlər naziri cənab Duqlas Hörd, Fransanın xarici işlər naziri cənab Alen Jüppe, Almaniyanın xarici siyasət idarəsinin başçısı Klaus Kinkel, Türkiyənin xarici işlər naziri cənab Mümtaz Soysal, İran İslam Respublikasının xarici işlər naziri Ağayi Əli Əkbər Vilayəti və bir sıra başqa ölkələrin xarici işlər nazirləri ilə görüşdüm. Bu görüşlərin hamısında Azərbaycanın düşdüyü vəziyyət, xüsusən Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və bu münaqişənin aradan qaldırılmasında həmin dövlətlərin iştirakı barədə danışıqlar apardım.

Səfər zamanı bir çox beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlərim oldu. O cümlədən ATƏM-in Minsk qrupunun başçısı Yan Eliasson ilə görüşüb söhbət etdik. ABŞ-ın dövlət kabinetinin üzvü xanım Olbraytın vasitəçiliyi ilə Nyu-Yorkda Ermənistan prezidenti Levon Ter-Petrosyanla görüşdüm. Görüşdə hər iki tərəfdən nümayəndə heyətləri də iştirak edirdi. Biz fikir mübadiləsi etdik. Bu il sentyabrın 8-9-da Moskvada apardığımız danışıqların davamı kimi mən Azərbaycanın mövqeyini Ermənistan prezidentinə yenə də açıq şəkildə bildirdim. Dedim ki, bu prinsipial mövqe əsasında, o cümlədən Laçın rayonunun, Şuşanın azad edilməsi şərtləri daxilində biz geniş sülh müqaviləsinin hazırlanıb imzalanmasına tərəfdarıq. Bildirdim ki, bundan ötrü biz müvafiq addımlar atırıq. Ermənistan tərəfi də belə addımlar atmalıdır ki, nəhayət, razılığa gələk. Mən bu görüşü də əhəmiyyətli sayıram. Söhbət zamanı hər iki tərəf öz mövqeyini açıqladı. Bu mövqelərin yaxınlaşması üçün müəyyən addımlar atdıq. Belə qərara gəldik ki, hər iki tərəfin nümayəndələri əldə edilmiş müəyyən razılıqlar əsasında təkliflər hazırlayaraq bizə təqdim edəcəklər.

Mən Amerika Birləşmiş Ştatlarının bir çox təşkilatında, habelə orada yerləşən beynəlxalq təşkilatlarda, məsələn, YUNİSEF təşkilatında oldum, onun sənədini imzaladım. Bu, Azərbaycan üçün çox əhəmiyyətli addım idi. ABŞ-ın Kolumbiya Universiteti nəzdindəki Harriman



İnstitutunun kollektivi ilə görüşdüm. Bu institut uzun illər keçmiş Sovet İttifaqını öyrənməklə məşğul olmuşdur. Burada çox yüksək səviyyəli mütəxəssislər, keçmişdə Sovetlər İttifaqında işləmiş səfirlər və diplomatlar fəaliyyət göstərirlər. Onlar məni dəvət eləmişdilər. Mən Azərbaycanın mövqeyi, indiki vəziyyəti, xüsusən Ermənistanın hərbi təcavüzü və bunun acı nəticələri barədə məlumat verdim. Eyni zamanda, yaranmış vəziyyətdən çıxmağa dair respublikamızın mövqeyini açıqladım. Hesab edirəm ki, bu görüş də çox səmərəli oldu.

Səfər zamanı bir qrup iş adamı, Dünya Bankının rəhbərləri, Nyu-Yorkdakı Federal Dövlət Ehtiyat Bankının başçıları ilə görüşdüm. Başqa görüşlərim də oldu. Bu görüşlər beynəlxalq maliyyə təşkilatları ilə Azərbaycanın əməkdaşlığına, ABŞ-dakı iş adamları ilə respublikamızın müştərək fəaliyyət göstərməsinə həsr edilmişdir. Zənnimcə, bu görüşlər də faydalı idi.

Daha sonra Amerika neft şirkətlərinin rəhbərləri ilə görüşdüm. Biz çox faydalı danışıqlar apardıq. Hər iki tərəf bəyan etdi ki, neft müqaviləsi imzalanmışdır və həyata keçirilməlidir. Azərbaycanda bu sənədi Parlament təsdiq etməlidir. Mən həmin müqaviləni Milli Məclisə təqdim etmişəm. Parlament müqaviləni təsdiq edən kimi neft şirkətləri işə başlamağa hazırdırlar. Danışıqlar zamanı neft müqaviləsi ilə bağlı konkret işlər barədə söhbət getdi.

Nyu-Yorkda mənim başqa görüşlərim də oldu və bunların hamısı bir məqsəd daşıyır. Demək istəyirəm ki, səfər günlərinin proqramı çox gərgin idi və mən dövlət başçısı kimi bunu öz borcum sayıram. Güman edirəm ki, bu borcu imkanım daxilində yerinə yetirməyə çalışmışam.

Bildiyiniz kimi, mən İstanbula qədər bizim xüsusi təyyarə ilə, oradan Amerikaya isə «Türk Hava Yolları» şirkətinin adi sərnişin təyyarəsi ilə getdim. Biz həmin təyyarə ilə də İstanbula qayıtdıq. Qayıdanbaş, əvvəlcədən razılaşdığımız kimi, İstanbulda Türkiyə prezidenti cənab Süleyman Dəmirəl ilə görüşdüm. Ətraflı söhbət zamanı mən Amerika Birləşmiş Ştatlarındakı danışıqlarım barədə ona məlumat verdim. Müəyyən məsələlər barədə fikir mübadiləsi etdik. Türkiyə ilə Azərbaycan arasında əməkdaşlığın genişləndirilməsi və inkişaf etdirilməsi məsələlərinə toxunduq. Şübhəsiz ki, danışıqlarımızın əsas mövzusu Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və bunun qarşısının alınması ilə bağlı idi. Süleyman Dəmirəl bizim sülh təkliflərimizi bəyəndiyini bir daha bildirdi. Sonra biz mətbuat nümayəndələri qarşısında çıxış et-

dik. Türkiyə prezidenti danışıqlarımız barədə öz fikrini söylədi. Güman edirəm ki, Azərbaycan televiziyası bu çıxışları verəcək, cənab Süleyman Dəmirəlin fikirləri sizə məlum olacaqdır. Ona görə də bu barədə geniş danışmağa lüzum görmürəm.

Beləliklə, hesab edirəm ki, mənim bu səfərim Azərbaycanın xarici siyasətində yeni bir addımdır və zənnimcə, qarşıya qoyduğumuz vəzifələr layiqincə yerinə yetirilmişdir. İndi biz görülmüş bu işlərin Azərbaycanda əməli surətdə həyata keçirilməsi ilə məşğul olmalıyıq. Mən Prezident Aparatına, Nazirlər Kabinetinə, Xarici İşlər Nazirliyinə və başqa nazirliklərə bu barədə lazımi göstərişlər vermişəm.

Ümumiyyətlə, hesab edirəm ki, bu bir il ərzində bizim xarici siyasətimiz çox əhəmiyyətli, uğurlu olmuşdur və onu bu şəkildə davam etdirəcəyik. Dediklərimi yekunlaşdıraraq qeyd etmək istəyirəm ki, məhz bu müddətdə apardığımız ardıcıl və fəal xarici siyasət nəticəsində dünyanın ən böyük dövlətləri ilə bilavasitə əlaqə yaratmışıq, dövlət başçıları ilə görüşmüşük və beynəlxalq aləmdə, beynəlxalq təşkilatlarda, xüsusən bu səfər zamanı Birləşmiş Millətlər Təşkilatında Azərbaycan dövlətinin səsi eşidilmiş, onun mövqeyi bildirilərək dünya ictimaiyyətinə çatdırılmışdır. Bir daha deyirəm ki, bütün bunlar apardığımız işlərin müsbət nəticəsidir. Bu istiqamətdə də işimizi davam etdirəcəyik.

Bildiyimiz kimi, son günlər Azərbaycanın həyatında bəzi narahatedici, hətta faciəli hadisələr baş vermişdir. Azərbaycan dövlətinə qarşı cinayət törətmiş dörd nəfər sentyabrın 22-də Respublika Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasından qaçırılmışdır və onlar indiyədək tapılmamışdır. Şübhəsiz ki, bu, Azərbaycanda sabitliyi pozmaq, dövlətimizə zərbə vurmaq məqsədi ilə keçirilən əməliyyatdır və mən bunu televiziya ilə ötən çıxışımda demişəm. Bir daha qeyd etmək istəyirəm ki, bu, həm xarici qüvvələrin, həm də daxildə olan, respublikamızın müstəqilliyinə düşmən olan çirkin qüvvələrin birgə fəaliyyətinin nəticəsidir. Bundan məqsəd Azərbaycanda qarışıqlıq yaratmaq, ölkəmizin müstəqilliyinə təcavüz etməkdir. Biz bu hadisəyə öz qiymətimizi verdik və hüquq-mühafizə orqanlarına tapşırdıq ki, lazımi tədbirlər görsünlər.

Mən sentyabrın 29-da Amerika Birləşmiş Ştatlarında olarkən çox ağır xəbər aldım. Həmin gün axşam Azərbaycan Respublikasının iki dövlət xadimi – Ali Sovetin sədr müavini Afiyəddin Cəlilov və Xüsusi İdarənin rəisi Şəmsi Rəhimov qəddarcasına, vəhşicəsinə qətlə yetirilmişlər. Mən bu xəbəri BMT Baş Məclisinin sessiyasında çıxış etməyə gedərkən eşitdim. Bu acı xəbər məni çox üzdü, sıxdı, eyni zamanda, məni səfərbər etdi və bildirdi ki, bəli, respublikamızda sabitliyi pozmaq, Azərbaycan dövlətinə, ölkəmizin müstəqilliyinə təcavüz etmək istəyən qüvvələr var. Onlar həm Azərbaycanın daxilində, həm də onun xaricindədir. Bu hadisə ilə bağlı mən Nyu-Yorkda bəyanat verdim, onun mətni Azərbaycanda, mətbuatda dərc olunmuş, əhaliyə çatdırılmışdır. Ona görə də bir daha təkrar etmək istəmirəm, sadəcə olaraq demək istəyirəm ki, bu, adi bir terror hadisəsi, iki nəfər dövlət xadiminin qətlə yetirilməsi deyil, müstəqil Azərbaycan dövlətinə qarşı yönəldilmiş siyasi terrordur. Şübhəsiz ki, Azərbaycan xalqı buna qarşı öz cavabını, sözünü deməlidir.



Əlbəttə, bu hadisələr bizi üzür, sıxır, kədərləndirir. Ancaq eyni zamanda, mən bunu Nyu-Yorkda və İstanbulda da dedim, bu gün sizə də deyirəm, – bütün bunlar heç vaxt bizim iradəmizi, Azərbaycan xalqının iradəsini, Azərbaycan dövlətinin iradəsini, mətanətini qıra bilməz. Biz bütün bu çətinliklərə sinə gərəcək, onların qarşısını alacaq və bu vəziyyətdən çıxacağıq. Mən bunu sizə bir daha bildirmək istəyirəm.

Ancaq təəssüflər olsun ki, dövlətçiliyimizə qəsd edən qüvvələr yenə də öz əməllərindən əl çəkmirlər. Dünən də belə bir cinayət hadisəsi baş vermişdir. Dünən təxminən axşam saat 8 radələrində Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstəsinin bir qrup üzvü qanunsuz olaraq silahlı halda, qəflətən Azərbaycan Respublikası Prokurorluğunun binasına daxil olmuş, orada atəş açaraq bir çox yerləri dağıtmışdır. Nəhayət, onlar baş prokurorun iş otağına girərək ona ağır fiziki xəsarət yetirmişlər. Silahlı dəstənin bir hissəsi prokurorluğun binasını ələ keçirmiş, bir hissəsi onu bayırdan mühasirə etmiş və hətta binanın damınçirmiş, bir hissəsi onu bayırdan mühasirə etmiş və hətta binanın damında, həmçinin ətraf binaların damlarında iriçaplı silahlar qoyaraq əməliyyat keçirməyə hazırlaşmışdır.

Onların məqsədinin nədən ibarət olması məlum deyildir. Aldığımız məlumatlardan və həmin dəstəyə başçılıq edən Xətai rayon prokuroru Mahir Cavadovun baş prokurorun birbaşa telefonu ilə mənə verdiyi məlumatdan, daxili işlər nazirinin müavini Rövşən Cavadov oraya gəldikdən sonra onun mənimlə danışığından belə məlum olur ki, guya son vaxtlar inzibati orqanlar, xüsusən prokurorluq Rövşən Cavadovu və Mahir Cavadovu təqib etməyə başlamışdır və ona görə də onlar bu cinayətkar hərəkətə əl atmışlar.

Əslində isə, baş prokurorun verdiyi məlumatdan aydın olur ki, bu iki terror hadisəsi–yəni Afiyəddin Cəlilovun və Şəmsi Rəhimovun qətlə yetirilməsi ilə əlaqədar prokurorluq təhqiqat aparır, bir çox şübhəli adamları saxlayır. Xüsusi Təyinatlı Polis Dəstəsindən olan üç nəfər də şübhəli şəxs kimi saxlanmışdır və onların barəsində müəyyən təhqiqat, araşdırma aparılır. Bu, təbii haldır. Əgər kim isə bundan narazıdırsa, bunu ədalətli şəkildə, qanun yolu ilə bildirməlidir. Ancaq bu narazılığı belə cinayət hərəkəti ilə ifadə etmək, şübhəsiz ki, ağlasığan iş deyil. Yəni sadəcə olaraq prokurorluğun həmin tədbirinə cavab deyil, əvvəlcədən hazırlanmış hərəkətdir.

Doğrudur, bu çox ağır cinayətdir, Azərbaycan dövlətçiliyinə qarşı cinayətdir. Çünki Respublika Prokurorluğu və baş prokuroru Azərbaycan dövlətçiliyinin əsas sütunlarından biridir. Əgər bu orqana və onun başında duran adama qarşı təcavüz edilirsə, deməli, Azərbaycan dövlətinə qarşı təcavüz olunur. Biz bunu belə qiymətləndiririk. Şübhəsiz ki, Azərbaycan dövləti bunun qarşısını almağa qadirdir və lazımi tədbirlər görə bilərdi. Lakin bu dəstə çox güclü silahlandığına görə, qəti tədbirlər görülərsə, qan töküləbiləcəyini nəzərə alaraq biz məsələnin dinc yolla, danışıqlar vasitəsilə həllinə çalışdıq. Axşam saat 8-dən, yəni bu hadisə başlanandan səhər saat 7-dək bütün gecəni müəyyən tədbirlər gördük, danışıqlar apardıq, Rövşən Cavadov bir neçə dəfə telefonla zəng etdi. Mən izah etdim ki, onun bu hərəkəti yaramaz hərəkətdir. O, daxili işlər nazirinin müavinidir və mən Azərbaycanın Prezidenti kimi ona bu işdən əl çəkməyi əmr edirəm. Bildirdim ki, bu hərəkətlərin onlardan ötrü heç vaxt müsbət nəticəsi ola bilməz, onlar ağılsızlıq edirlər, bunu bəlkə də təcrübəsizlikdən, yaxud başqa təsirlər altında edirlər.

Mən çalışdım ki, bunu ona izah edim və o, hərəkətindən əl çəksin. Vasitəçilik etmək üçün onların yanına adamlar göndərdik, danışıqlar apardıq və təklif etdik ki, silahları təhvil versinlər. Bildirdik ki, onların binadan salamat çıxmaları üçün şərait yaradılır. Ancaq onlar cinayət törətmişlər və gələcəkdə bunun üçün cavab verəcəklər. Bu, qanuni yolla olacaqdır. Lakin bu gecə heç bir tədbir görülməməli, heç bir toqquşma olmamalıdır.

Biz bu mövqeni axıradək həyata keçirməyə çalışdıq. Baxmayaraq ki, dövlətçiliyimizə qarşı, Azərbaycan Respublikasının müstəqilliyinə qarşı cinayət törədilmişdi, mən hesab edirəm ki, biz doğru addım atdıq.



Çünki Azərbaycanın hər bir vətəndaşı mənim üçün, Azərbaycanın Prezidenti üçün əzizdir. Mən hər bir vətəndaşı qorumalıyam. Əgər kim isə cinayət etmişdirsə, onu bu əməldən çəkindirməliyəm və o, belə hərəkəti üçün qanun çərçivəsində cavab verməlidir. Mən hər bir məsələnin dinc yolla, qarşılıqlı anlaşma və danışıqlar vasitəsilə həllinə tərəfdar olduğumu bildirmişəm ve indi də bu mövqedən çıxış etdim.

Bütün bunların nəticəsində həmin silahlı qüvvələr, nəhayət, heç bir maneçilik olmadan oradan çıxaraq öz nəqliyyat vasitələri ilə bazalarına getdilər. Danışıqlardan belə başa düşdüm ki, Rövşən Cavadov mənim yanıma gəlmək istəyir. Mənə bir neçə dəfə xəbər göndərdi ki, gəlib izahat vermək istəyir. Mən dedim ki, qanunsuz hərəkət etməyinizə, cinayət törətməyinizə baxmayaraq sizi qəbul etməyə və sizinlə danışmağa, məlumatınızı dinləməyə, eyni zamanda, bu cinayətkar yoldan çəkinməyin zəruriliyini sizə izah etməyə hazıram. Bunu bir neçə dəfə bildirdim və nəhayət, dedilər ki, səhər silahlı dəstələr oradan çıxanda o, mənim yanıma gələcəkdir. Lakin o gəlib çıxmadı. Bu gün də onun yanıma gəlmək təşəbbüsü barədə mənə xəbər çatmamışdır. Mən bununla maraqlanmışam və belə bir təşəbbüs barədə məlumat verən olmamışdır.

Onlar bu cinayəti etmişlər. Ancaq Azərbaycanın Prezidenti kimi mən hər bir vətəndaşın, o cümlədən həmin Xüsusi Təyinatlı Polis Dəstəsindən bu cinayəti edən adamların, onlara başçılıq edən Mahir Cavadovun, Rövşən Cavadovun da qayğısına qalıram. Bu baxımdan mən məsələnin qanun çərçivəsində, Azərbaycan dövlətçiliyinin qorunması şərtləri daxilində ağılla həllinin tərəfdarıyam və bunu istəyirəm. Ona görə də bu təklifləri onlara verdim. Zənnimcə, biz məsələnin bir hissəsini düzgün həll etməyə, yəni onların oradan hadisəsiz, toqquşmasız çıxıb getməsinə, prokurorluğun binasının azad edilməsinə nail olduq.

Ancaq cinayət cinayətliyində qalır. Respublika prokuroru ağır fiziki xəsarət almışdır. O, indi müalicə edilir. Binaya böyük zərər dəymişdir. Respublika Prokurorluğunun rəhbər işçiləri, 30-40 nəfərə qədər adam səhərədək orada həbs vəziyyətində qalmışdır. Şübhəsiz ki, onlar da təhqir olunmuşlar. Bütün bu hərəkətlər cinayətdir. Respublika prokuroru xəstə olduğuna görə onun vəzifəsini icra edən Eldar Həsənov məlumat verdi ki, bu hadisə barədə cinayət işi qaldırılmışdır. İstintaq gedir və qanun çərçivəsində məsələni araşdıracaqdır. Hesab edirəm ki, belə də olmalıdır.

Məsələ bununla qurtarmır. Odur ki, biz şərt qoymuşduq, təklif etmişdik: onlar silahlarını təhvil verməli, təslim olmalıdırlar. Lakin onlar çıxıb getmişlər və bundan sonra qanun qarşısında cavab verməlidirlər. Halbuki, silahları təhvil vermək üçün onlara şərait yaradılmışdır. Budur, indi onlar 8-ci kilometr qəsəbəsində Xüsusi Təyinatlı Polis Dəstəsinin – XTPD-nin bazasında qərar tutmuş, silahları, o cümlədən ağır silahları hazır vəziyyətə gətirmiş və yenə də öz cinayətlərini davam etdirirlər.

İnzibati orqanlarımızın nümayəndələri onlarla əlaqəyə girmiş və danışıqlar aparırlar, izah etmişlər ki, bu hərəkətlərdən əl çəksinlər. Amma onlar öz əməllərindən əl çəkmirlər. Buna görə də bu gün mən səfərimlə bağlı məsələləri, habelə Azərbaycanda baş vermiş terrora dair fikir və mülahizələrimi sizə çatdırmaqla yanaşı, bu məsələ barəsində də geniş məlumat vermək istəyirəm. Eyni zamanda, Azərbaycan Prezidenti kimi, öz mövqeyimi bildirmək istəyirəm.

Onların dünənki hərəkəti, o hərəkətin bugünkü davamı göstərir ki, burada dövlət çevrilişinə cəhd edilir. Çünki onlar oradan ultimatumlar, o cümlədən də dövlətin rəhbərliyinə qarşı ultimatum verir, dövlət başçılarından bəzilərinin istefasını tələb edirlər. Halbuki, bunun üçün heç bir əsas yoxdur. Əgər bu ultimatumlar yerinə yetirilməsə, onlar yenə də cinayət edəcəklər. Bilirsinizmi, respublikamız belə ağır vəziyyətdə olduğu halda, Ermənistanın təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal edildiyi halda, ölkəmiz ağır böhran keçirdiyi dövrdə, işğal olunmuş torpaqlardan bir milyon nəfərdən artıq qaçqının ağır şəraitdə yaşadığı bir dövrdə, son aylarda beynəlxalq aləmdə Azərbaycan haqqında obyektiv fikir yaratdığımız bir dövrdə, Azərbaycanın düşdüyü vəziyyət böyük dövlətlərdə, onların ictimaiyyətində, beynəlxalq təşkilatlarda daha obyektiv şəkildə dərk edildiyi bir vaxtda, Azərbaycan Respublikasının mövqeləri beynəlxalq meydanda möhkəmləndiyi vaxtda, böyük bir neft müqaviləsi imzalandığı bir dövrdə Azərbaycanda dalbadal bu cür faciəli hadisələrin baş verməsi onu göstərir ki, ölkəmizə təcavüz edən qüvvələr fəaliyyətindən qalmır, istər xaricdə, istərsə də daxildə Azərbaycanı dağıtmağa, parçalamağa, məhv etməyə can atan qüvvələr var. Bunlar öz şəxsi mənafelərinə çatmaq, şəxsi hikkələrini həyata keçirmək üçün, çirkin məqsədlərinə nail olmaq üçün bu yollara gedir, imzalanmış müqavilənin əleyhinə çıxırlar. Ona görə də bu cür əməllərə əl atırlar.



Məhbuslar təcridxanadan qaçırılır, adamlar vəhşicəsinə qətlə yetirilir. Bu qədər vəhşilik azərbaycanlılarda heç vaxt olmayıbdır. Heç bir günahı olmayan, dövlətin idarə edilməsi sahəsində böyük fəaliyyət göstərən adamları qəflətən, vəhşicəsinə öldürmək–inanın ki, bu, bizim xalqımıza yaraşmayan və xas olmayan vəhşilik nümunəsidir, xalqımızın müsbət keyfiyyətlərini, heç bilirsinizmi, nə qədər ləkələyir. Biz çalışırıq ki, xalqımızın bütün gözəl ənənələrini, gözəl keyfiyyətlərini, çox yüksək mədəniyyətə malik olduğunu bütün dünyada təbliğ edək, yayaq, müstəqil Azərbaycanı hər yerdə tanıdaq, Azərbaycan xalqının nail olduğu milli azadlığın qorunmasını təmin edək.

Belə olduğu halda bu hərəkət arxadan endirilmiş zərbədir. Təəssüf ki, içərimizdəki bəzi adamlar xarici qüvvələrin əlində bir alətə çevrilərək, belə əməllər tuturlar. Bunlar həm də hakimiyyət uğrunda mübarizəni dayandırmırlar. Əziz qardaşlar, əziz bacılar, əziz həmvətənlər, bir deyin görək, Azərbaycanda hakimiyyət uğrunda nə qədər mübarizə gedə bilər? Nə qədər, nə vaxtadək? Heç bir il keçməyibdir ki, biz vətəndaş müharibəsinin qarşısını almışıq. Ötən ilin iyununda Gəncədə baş vermiş qardaş qırğınının qarşısını aldıq. Biz Azərbaycanı parçalamaq istəyən qüvvələri təkləyib təcrid etdik. Halbuki, Azərbaycan artıq parçalanmışdı–cənubda da, başqa yerlərdə də. Bəzi cinayətkar qüvvələr Azərbaycanın ayrı-ayrı yaşayış məntəqələrini əllərinə keçirmişdilər. Biz bunların qarşısını aldıq, cinayətkarları təcrid etdik, onları qanun qarşısında cavab verməyə gətirdik. Budur, yeni hadisələr baş verir. Azərbaycanı yenə də sarsıtmaq, dağıtmaq, onun müstəqilliyinə qəsd etmək istəyirlər–bütün bunları ayrı cür qiymətləndirmək olmaz.

Ayın 22-də məhbusların qaçırılması, sonra dövlət xadimlərinə qarşı sui-qəsd və nəhayət, dünən axşam saat 8-dən başlanmış və indi davam edən cinayət əməliyyatı bir-biri ilə bağlı olan, bir-birini tamamlayan hərəkətlərdir – Azərbaycanın müstəqilliyinə qarşı qəsd, təcavüz hərəkətləridir. Odur ki, biz bu hərəkətlərin qarşısını almalıyıq. Bu, bizim borcumuzdur. Biz belə də edirik və edəcəyik.

Zənnimcə, indi Azərbaycan xalqı ayağa qalxmalıdır. Hər bir vətəndaş, vətəninə sadiq olan hər bir qeyrətli, vətənpərvər insan bu məsələləri özü götür-qoy etməli, öz mövqeyini bildirməli, Vətənimizdə, ictimai-siyasi həyatımızda öz yerini tutmalıdır. Biz hamımız əl-ələ verməliyik, bu ağır vəziyyətdən çıxmaq üçün birləşməliyik. Buna görə də mən xalqı milli həmrəyliyə, milli birliyə dəvət edirəm. Xalqı dəvət

edirəm ki, bu ağır günlərdə bütün dedi-qodular bir kənara atılsın, bütün umu-küsülərə son qoyulsun, xalq birləşsin. Çünki respublikanın, müstəqil Azərbaycanın dövlətçiliyi təhlükə qarşısındadır. Bəzi qüvvələr hərəsi bir tərəfdən hərəkət edərək Azərbaycanı dağıtmağa can atırlar. Buna görə də kim Azərbaycanı sevirsə, kim onun müstəqilliyini istəyirsə, kim Azərbaycan vətəndaşı kimi öz vətənpərvərlik hisslərini və duyğularını bildirmək istəyirsə, hamı ayağa qalxmalı, səsini ucaltmalı, münasibətini göstərməlidir.

Əvvəlki hadisələr kimi, bu son hadisə də Azərbaycanda daxili sabitliyi pozmaq, dövlət çevrilişi etmək cəhdidir. Mən bunu məhz belə qiymətləndirirəm. Bildiyimiz kimi, son aylar ərzində ictimaiyyət arasında da, cəmiyyətdə də çox danışıqlar, söz-söhbətlər gedir, mətbuatda da yazılır, ayrı-ayrı ölkələrin kütləvi informasiya vasitələrində qızışdırıcı məqalələr verilirdi ki, dövlət çevrilişi hazırlanır, dövlət çevrilişi olacaqdır və s. və i.a. Mən bütün bu söz-söhbətləri, məqalələri həmişə çox soyuqqanlılıqla qarşılayırdım. Elə bu gün də sizinlə çox soyuqqanlı, təmkinlə danışıram. Çünki mən Azərbaycan xalqının iradəsinə arxayınam. Çünki mən müstəqil Azərbaycan dövlətinin qüdrətinə arxayınam.

Ona görə də bunların hamısını soyuqqanlılıqla qarşılayır və hesab edirəm ki, Azərbaycanda sabitliyi pozmağa, yaxud yenə də çevriliş etməyə çalışan qüvvələr anlamalıdırlar: Azərbaycan Respublikasının müstəqilliyi, mənafeyi hər şeydən üstün olmalıdır. Azərbaycanın müstəqil dövlət kimi mənafeyi dünyada hər şeydən uca olmalıdır. Mən həmişə belə düşünmüşəm və bu gün də belə düşünürəm. Ona görə də belə hesab edirəm ki, o cinayəti törədənlər tutduqları yoldan, nəhayət qayıtmalıdırlar.

Onlar, bir qrup adam cinayət törədirsə, bu cinayəti Azərbaycan dövləti əleyhinə, milli azadlığımız əleyhinə törədirlər. Beləliklə də bunlar Azərbaycanı dağıtmaq məqsədinə xidmət edirlər. Bunu onlar, o cümlədən dünən bu cinayəti edənlər də, o dəstəyə girən adamlar da bilməlidirlər. Bunu hamı bilməlidir.

XTPD Azərbaycanda neçə illərdir fəaliyyət göstərir. Azərbaycan torpaqlarının qorunmasında onun xidmətləri olmuşdur. Bu dəstənin üzvləri arasında çox namuslu, qeyrətli, cəsarətli Azərbaycan oğulları var. Onlar döyüşmüş, torpaqlarımızın müdafiəsi uğrunda qanlarını axıtmış, bəziləri bu yolda canından keçərək şəhid olmuşlar. Bu vətənpərvər oğullar torpaqlarımızın müdafiəsi naminə hünər göstərmişlər. Bax, buna görə də Xüsusi Təyinatlı Polis Dəstəsinin tarixi, fəaliyyəti, göstərdiyi xidmətlər qiymətləndirilməlidir. Bunları Azərbaycan xalqı, eləcə də Azərbaycan dövləti lazımınca qiymətləndirir və qiymətləndirməlidir. Şəhid olanlara mən həmişə «Allah rəhmət eləsin» demişəm.



Bu yaxınlarda mən XTPD-nin üzvü – torpaq uğrunda, Vətən yolunda vuruşmuş Tahir Həsənovun xatirə günündə iştirak etdim, Bakıda, şəhərin mərkəzində məktəblərdən birinə onun adı verilmişdir. Həmin məktəbin binası qarşısında onun xatirə lövhəsinin açılış mərasimində çıxış etdim. Mərasimdə həm Tahir Həsənov haqqında, həm də ümumiyyətlə, XTPD-nin xidmətləri barədə, şəhidlər haqqında öz fikirlərimi söylədim, o şəhidlərin ruhu qarşısında baş əydim, bu gün də baş əyirəm. Amma təəssüflər olsun ki, ayrı-ayrı cinayətkar adamlar Xüsusi Təyinatlı Polis Dəstəsinin bəzi üzvlərini ələ keçirmiş, onları yoldan çıxarmış, cinayətə cəlb etmişlər. Çox təəssüflənirəm ki, son vaxtlar onların bir qismi cinayətlər törətdiyinə görə inzibati orqanlar tərəfindən həbs olunmuş, cinayət məsuliyyətinə cəlb edilmiş, cəza almışdır, yaxud da onların barəsində təhqiqat aparılır. Bu, olduqca təəssüflü haldır.

Dünən mən Xüsusi Təyinatlı Polis Dəstəsinin nümayəndələrindən biri ilə danışdım, O, çox yaxşı fikirli adamdır. Mən rəisin birinci müavinini nəzərdə tuturam. Gərək ki, familiyası Cəfərovdur. Yenə deyirəm, o, yaxşı fikirli, sağlam düşüncəli adamdır. Onu Tahir Həsənovun xatirə günündə də görmüşdüm, – mərasimdə çıxış etmişdi. Mən onu da başa salmağa çalışaraq dedim ki, sizin xidmətləriniz böyükdür, biz bunu qiymətləndiririk. Amma bu xidmətləriniz heç vaxt heç kəsə əsas verməz ki, siz gəlib qanunu pozasınız, qanun çərçivəsindən kənara çıxasınız, hətta cinayətə əl atasınız. Əgər kiməsə qarşı ədalətsizlik edilibsə, bu ədalətsizliyi qanun yolu ilə, haqq-ədalətlə aradan qaldırmaq lazımdır. Amma ədalətsizliyə qarşı böyük bir cinayət törətmək ədalətsizlikdən də betərdir, ondan qat-qat artıqdır. Bunun özü də böyük cinayətdir. Dünən mən bunu Rövşən Cavadova da, görüşdüyüm digər adamlara da başa salmağa çalışdım.

Odur ki, bu gün mən çıxış edərkən Xüsusi Təyinatlı Polis Dəstəsinin istər keçmiş, istərsə də indiki üzvlərinə, döyüşçülərinə üz tuturam, bir prezident kimi, Azərbaycanın həyatında zəngin təcrübə toplamış, zəngin həyat təcrübəsi olan bir adam kimi müraciət edir və deyirəm ki, bu cinayəti törədənlər cinayət yolundan çəkilsinlər. Bilsinlər ki, onların xidmətləri yüksək qiymətləndirilir və bundan sonra da yüksək qiymətləndiriləcəkdir.

Lakin hər bir xidmət nə qədər yüksək olsa da, heç vaxt heç kəsə bəraət qazandıra bilməz ki, kimsə belə xidməti olduğuna görə gedib qanunsuz əməl tutsun, yaxud cinayət törətsin. Vəzifəsindən, xidmətindən, ad-sanından asılı olmayaraq, heç kəs qanunsuz hərəkət etməməlidir. Hər bir şəxs qanun çərçivəsində yaşamalı, qanun çərçivəsində işləməlidir.

Ona görə də bu gün mən Xüsusi Təyinatlı Polis Dəstəsinə, onun nümayəndələrinə, rəhbərlərinə ürək ağrısı ilə müraciət edirəm: bilin ki, mən sizin hər birinizi Azərbaycan vətəndaşı kimi qiymətləndirirəm, hətta günahı olan adamların da qayğısına qalmağa hazıram. Amma bu cinayət yolundan əl çəkmək lazımdır. Bu yol heç bir nəticə verə bilməz, heç bir! Siz artıq qan tökmüsünüz. Mən bunu hamıya şamil etmirəm,–ayrı-ayrı adamlar qan tökmüşlər. Dünən XTPD-nin bəzi üzvləri prokurorluğun binasını zəbt edərkən çoxlu atəş açmışlar. Lakin mən qoymadım ki, dövlət orqanları, hüquq-mühafizə orqanları tərəfindən lazımi addım atılsın. Amma XTPD üzvləri atəş açdılar, iki polis nəfərini yaraladılar.

Bu gün onlar dediyim həmin bazaya yığışıblar. Bazanın ətrafındakı binaların üstünə silah, hətta ağır silahlar qoyublar, yəni müharibəyə başlayıblar. Hələ bir ultimatum da veriblər. Bu gün baş nazir Surət Hüseynov mənə məlumat verdi ki, Rövşən Cavadov ona zəng vurub, böyük bir ultimatum göndərib ki, Ali Sovetin sədri, daxili işlər naziri, baş prokuror istefaya getməlidirlər. Nə üçün, nə səbəbə görə? Kimin nə sözü varsa, qoy gəlsin, danışaq. Heç belə məsələləri güc ilə, zor ilə həyata keçirmək olar? Özü də kim həyata keçirməyə çalışır? XTPD-nin öz yeri, öz vəzifələri var. Əvvəla, o, siyasətə qarışmamalıdır. O, Daxili İşlər Nazirliyinin bir hissəsidir. Daxili İşlər Nazirliyi də artıq məlumat vermişdir ki, həmin dəstədə olan polislər nazirliyin tabeliyindən çıxmışlar. Deməli, burada qanun pozulmuşdur. Onlar siyasətə qarışmamalıdırlar. Ancaq dövlət haqqında, dövlətin siyasəti haqqında, rəhbər işçiləri haqqında kimin nə sözü var, nə təklifi varsa, gəlib deyə bilər, yaza da bilər. Axı, aşkarlıqdır, söz azadlığıdır. Amma ağır silahdan, özü də dövlətdən götürülən silahdan, dövlətin bu dəstəyə verdiyi silahdan istifadə edib zor işlətmək, öz iddialarını yeritmək, həyata keçirməyə çalışmaq böyük bir cinayətdir. Şübhəsiz ki, buna yol vermək olmaz.

Hüquq-mühafizə orqanlarımızın nümayəndələri mənə məlumat verdilər ki, həmin yaşayış məntəqəsində asayişi qorumaq və bu dəstənin



yenidən cinayət törətməsinin qarşısını almaq üçün oraya müəyyən qüvvələr gətirilmişdir. Bu da təbiidir. Bəs, necə ola bilər ki, dövlətin Xüsusi Təyinatlı Polis Dəstəsi onun tabeliyindən çıxsın, dövlət orqanlarına qarşı cinayət törətsin və dövlət orqanları da durub buna tamaşa etsinlər? Bu, əsla ola bilməz və mümkün deyildir. Onda dövlət daha dövlət olmaz. Buna görə də şübhə yoxdur ki, hüquq-mühafizə orqanlarının müəyyən qüvvələri oraya toplaşmışdır. Ancaq sadəcə olaraq müşahidə etmək üçün toplaşmışlar, başqa bir məqsəd üçün yox.

Lakin bir neçə saat bundan qabaq mənə məlumat verdilər ki, XTPD-nin üzvləri atəş açmışlar. Ordunun dörd nəfər gənc üzvü yaralanıb. Onlar 18-19 yaşlı cavanlardır. Bu döyüşçülərdən biri–Bayramov ağır yaralıdır.

İki saat bundan öncə mənə xəbər verdilər ki, indi cərrahlar onun həyatı uğrunda mübarizə aparır, xilas etməyə çalışırlar. Qan tökülüb. Nəyə görə, nəyin naminə? Bu adamlar–cinayətə cəlb edilənlər qardaş qanını nə səbəbə görə tökürlər? Mahir Cavadov, Rövşən Cavadov nə üçün bu qanı tökürlər? Öz iddialarını yerinə yetirmək üçün? Əgər onların bir iddiası varsa, məgər bunu qanuni yolla həyata keçirmək olmazmı? Axı, respublikamızda demokratik, hüquqi dövlət qurulur. Demokratiya hamıya şərait yaradıb ki, sözünü desin, qəzetdə çıxış etsin. Öz təkliflərini versin. Amma Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstəsi, yenə deyirəm, siyasətə qarışa bilməz. Rayon prokuroru siyasətə qarışa bilməz. Daxili işlər nazirinin müavini siyasətə qarışa bilməz. Bütün bunlar qanun-qaydadan, ümumi təcrübədən kənar hallardır. Onlar anlamalı, dərk etməlidirlər ki, çox səhv yola düşmüşlər, kiminsə əlində alətə çevrilmişlər. Onların hansı qüvvələrin əlində alətə çevrildiyi aydındır. Buna görə də mən belə hesab edirəm ki, dünəndən bəri aparılan müşahidələr də onu göstərir ki, hansı qüvvələrsə onları bu əmələ vadar edib və söz veriblər ki, onları müdafiə edəcəklər. Bununla da dövlət çevrilişi ediləcəkdir. Lakin onlar buna nail ola bilmədilər. Bu gün də nail ola bilməyəcəklər, sabah da.

Mən yenə də istəmirəm ki, Azərbaycanda qan tökülsün. İnanın, mən bunu istəmirəm. XTPD-nin ayrı-ayrı üzvləri tərəfindən artıq altı adam yaralanmışdır, bir nəfər ölümcül vəziyyətdədir. Onlar qan tökmüşlər, törətdikləri cinayətin üstünə daha bir cinayət də gəlmişdir. Bütün bu cinayətləri törətmələrinə baxmayaraq, mən onları yenə də haqqa, ədalətə dəvət edirəm. Mən bir dövlət başçısı kimi onların hamısına müraci-

ət edirəm: ayılın, bir fikirləşin, düşünüb-daşının, bilin ki, həyat bununla bitmir. Əgər siz, doğrudan da, torpaqlarımızın müdafiəsi üçün döyüşmüşsünüzsə, qanınız tökülübsə və xalq bunu qiymətləndirirsə, elə isə nə üçün bu gün, hələ möhkəmlənməmiş olan müstəqil Azərbaycan dövlətinin dağılmasına cəhd göstərilsin? Nə üçün? Sizə nə lazımdır?

Mən müraciət edirəm Rövşən Cavadova, – baxmayaraq ki, o, böyük cinayət törətmişdir, – onun rəhbərliyi altında olan polislərin hər birinə müraciət edirəm: düz yola gəlin, ayılın, hələ gec deyildir. Siz özünüzü də, bu xalqı da uçuruma aparırsınız. Bunu bilməlisiniz. Mən sizə bəyan edirəm ki, tutduğunuz bu yoldan dönüb çəkilmək hələ gec deyildir. Əgər indi bu yoldan çəkilsəniz, bu, lazımınca qiymətləndiriləcək və sizə müəyyən güzəştlər edilə bilər. Amma bu yoldan çəkilməsəniz, onda bilin ki, siz Azərbaycanı dağıtmaq istəyirsinizsə, buna nail ola bilməyəcəksiniz. Əvvəla, buna Azərbaycan xalqı heç vaxt yol verməz, – mən hesab edirəm ki, bu gün Azərbaycan xalqı bir nəfər tək ayağa qalxmalıdır. İkincisi, əgər sizin kimi cinayətkar adamlar Azərbaycanı doğrudan da dağıda bilərlərsə, onda bu, tarixi bir cinayət olacaqdır.

Mən Xüsusi Təyinatlı Polis Dəstəsinin ayrı-ayrı üzvlərinə müraciət edirəm, cavan olduqlarına görə onların ailələrinə, atalarına, analarına müraciət edirəm: əziz bacılar və qardaşlar, bilin və agah olun ki, sizin övladlarınız göstərdikləri böyük xidmətləri indi necə də ləkələyirlər.

Mən atalara, analara, o polislərin həyat yoldaşlarına müraciət edirəm: siz öz oğullarınızı, qohum-əqrəbanızı, ərlərinizi başa salın ki, bu cinayətdən çəkinmək lazımdır.

Bu gün mən Azərbaycanda böyük hörmət sahibi olan Bəxtiyar kişiyə – Bəxtiyar Cavadova müraciət edirəm. Mən onu tanıyıram, Azərbaycanın hörmətli adamlarındandır, uzun müddət hüquq-mühafizə orqanlarında işləyib, özü də çox sədaqətlə işləyib, hörmət qazanıbdır. Xatirimdədir, təxminən iki ay bundan öncə televiziya ilə çıxış edirdi. Onun çıxışını mən də gördüm. Azərbaycan haqqında, ölkəmizin müstəqilliyinin qorunması haqqında çox ürək ağrısı ilə danışırdı. Bu hörmətli Bəxtiyar kişi Rövşən və Mahir Cavadovların atasıdır. Bəxtiyar kişi, mənim səsimi eşidirsiniz, mən sizə müraciət edirəm. Siz dünyagörmüş adamsınız. Amma biganə qala bilməzsiniz ki, övladlarınız, iki oğlunuz bu gün çox qanunsuz bir yola düşmüşdur. Yox, siz buna biganə qala bilməzsiniz. Əvvəla, onlar sizin övladlarınızdır, onların həyatları sizin üçün əzizdir. İkincisi isə, siz Azərbaycanın müstəqilliyi yolunda



xidmətləri olan adamsınız, ağsaqqal, hörmətli adamsınız. Bilin ki, bu hərəkətlər sizi və bütün nəslinizi ləkələyir. Düşünürəm ki, siz bunu dərk edirsiniz. Sizin kimi, mən də təcrübəli adamam, sizin təki təcrübəli adam, həyat görmüş adam kimi sizə müraciət edirəm: bunun qarşısını alın, oğullarınızı bu yoldan çəkindirin. Belə əməllərin axırı yoxdur, qətiyyən yoxdur. Mən sizə müraciət və sizi əmin edirəm ki, bu sahədə xidmətlərinizi Azərbaycan xalqı heç vaxt unutmayacaq və lazımınca qiymətləndirəcəkdir. Sizin xidmət göstərməyə, öz sözünüzü deməyə imkanınız var. Mən sizi buna dəvət edirəm.

Mən bütün Azərbaycan xalqına müraciət edirəm, Azərbaycanın hörmətli şəxslərinə – ziyalılara, alimlərə, mədəniyyət xadimlərinə, yazıçılara, xalqımızın və cəmiyyətimizin önündə gedənlərə müraciət edirəm: indi Azərbaycanın bu vəziyyətinə biganə qalmaq olmaz. Təəssüflər olsun ki, son illər bu biganəlik bir çox adamlara sirayət etmişdir. Ola bilsin ki, bunun obyektiv səbəbləri var. Çünki Azərbaycanda həyat o qədər qarışıq, o qədər çətindir ki, bax, bu cür cinayət halları adamları elə qorxudub, elə həyəcanlandırıb ki, bəziləri bir kənara çəkilir, bəziləri də hər şeyə biganə qalırlar.

Əziz bacılar və qardaşlar, belə olmaz, əsla olmaz. Xalqın taleyinə, müqəddəratına biganə qalmaq olmaz. Xüsusən də xalq içərisində tanınmış adamlar, xalq arasında barmaqla göstərilən, həmişə xalqın hörmətini görmüş, həmişə dövlətin qayğısı ilə yaşamış adamların biganə qalmağa mənəvi haqqı yoxdur. Bir daha deyirəm, yoxdur! Ona görə də mən sizə müraciət edirəm. Axı sizin çoxunuz dünyagörmüş adamlardır. Siz–ziyalılarımız, hörmətli adamlarımız, ictimai-siyasi xadimlərimiz Azərbaycanın keçmişini də görmüsünüz, bu gününü də görürsünüz, gələcəyini də düşünürsünüz. Ona görə də səsinizi qaldırın, ayağa qalxın. Mən sizə deyirəm: bu gün Azərbaycanın dövlətçiliyi təhlükə qarşısındadır. Çünki cürbəcür düşmən qüvvələri birləşirlər.

Bizim bir hədəfimiz,bir məqsədimiz var – Azərbaycanı erməni təcavüzündən qurtarmaq. Mən bunu hamıya müraciətlə deyirəm. Azərbaycanın işğal olunmuş torpaqlarını azad etmək, bir milyon nəfərdən çox qaçqını öz yurd-yuvasına, doğma yerlərinə qaytarmaq, dağılmış evləri, binaları, yaşayış məntəqələrini bərpa etmək,Azərbaycanın ərazi bütövlüyünü təmin etmək–bax, budur bizim məqsədimiz. Azərbaycan Respublikasını, müstəqilliyimizi qorumaq bax, budur bizim məqsədimiz. Hamımız bu hədəfi vurmalı, bu məqsəd uğrunda çalışmalıyıq. Bu,

hamı üçün hər şeydən üstün olmalıdır. Bu amal naminə başqa şeyləri bir kənara atmaq lazımdır. Kimin kimdən xoşu gəlir, kimin kimdən xoşu gəlmir, kimsə hakimiyyətə gəlmək istəyir, – qoy oturub fikirləşsin, görsün ki, o, hakimiyyəti idarə etmək iqtidarındadırmı, bunun üçün imkanı, bacarığı, təcrübəsi var, ya yox? Əgər varsa, onda qoy hakimiyyətə qanuni yolla gəlsin. Heç bir cəmiyyətdə zorla iqtidara gəlmək mümkün deyildir. İqtidara zorla gələn iqtidarı saxlaya bilməz. Bunu tarix göstəribdir. Bunu bütün ölkələrin təcrübəsi, o cümlədən bizim müstəqil Azərbaycanın son illərdəki təcrübəsi də göstərib.

Odur ki, ümumi məqsədlərimiz uğrunda mübarizə aparmaq lazımdır. Bunun üçün hamı ayağa qalxmalıdır. Mən yenə də ziyalılarımıza, hörmətli adamlarımıza, ictimai-siyasi xadimlərimizə müraciət edirəm ki, bu gün ayağa qalxsınlar, bu cinayətin qarşısını alsınlar. Mən bu cinayətin qarşısını silah gücünə almaq istəmirəm, bunu istəmirəm. Mən istəmirəm ki, qan tökülsün. Lakin qoy hörmətli adamlar ayağa qalxsınlar, gedib onlarla danışsınlar, o gəncləri başa salsınlar, düz yola çağırsınlar. Biz bu cinayətin qarşısını ancaq belə yolla ala bilərik. Mən bu yolu təklif edirəm.

Məlumdur ki, dövlətin gücü var, ordusu var, hüquq-mühafizə orqanları var. Dövlət özünü müdafiə etməyə qadirdir. Dediyim kimi, o cinayətkar ünsürlər artıq qan töküblər, bunu dayandırmaq lazımdır. Qoymaq olmaz ki, qan tökülməsi davam etdirilsin. Qan onsuz da tökülür, torpaqlarımız qana batıbdır. Ermənistan silahlı qüvvələrinin işğal etdiyi ərazilərdə torpaqlarımız qana bulaşıbdır. Məgər o qanlar bəs deyilmi? İndi niyə biz burada, öz aramızda qan tökməliyik?

Buna görə də ziyalılarımıza, hörmətli adamlarımıza, ictimai-siyasi xadimlərimizə, ağsaqqallarımıza üz tutub deyirəm ki, onlar ayağa qalxsınlar, bir kənara çəkilib durmasınlar, gedib evlərində oturmasınlar, gəlib meydana çıxsınlar və bu cinayətin qarşısını almaq üçün xalqı birləşdirsinlər. Mən xalqı birləşdirmək istəyirəm. Ancaq onu da istəyirəm ki, xalqın önündə gedən adamlar bu işdə iştirak etsinlər.

Mən bütün hakimiyyət orqanlarına, hüquq-mühafizə orqanlarına, yerli hakimiyyət orqanlarının rəhbərlərinə, rayon və şəhərlərin, Bakının və digər yaşayış məntəqələrinin bütün hakimiyyət orqanlarının rəhbərlərinə, nazirlərə, dövlət işçilərinə, idarə və müəssisə rəhbərlərinə, zavod və fabrik direktorlarına müraciət edirəm: gücünüzü toplayın. Bu gün Azərbaycan dövlətçiliyini qorumaq üçün gərək hərə öz köməyini və



xidmətini göstərsin. Hərəniz bir vəzifə tutursunuz, hər birinizə etimad göstərilib. Siz, bu vəzifələrə dövlətin siyasətini, tədbirlərini həyata keçirmək üçün təyin edilmisiniz. Buna görə də fəaliyyət göstərməlisiniz.

Mən siyasi partiyalarımıza müraciət edirəm. Onların arasında hakimiyyətə qarşı müxalifətdə duran qüvvələr var. Bu, təbiidir. Demokratik cəmiyyətdə müxalifət olmalıdır. Müxalifətin olması da məhz demokratiya deməkdir. Söz azadlığı, siyasi plüralizm, insan hüquqlarının qorunması – bunların hamısı respublikamızda bərqərar edilmişdir. Bizdə siyasi partiyalar da, ictimai təşkilatlar da, o cümlədən Xalq Cəbhəsi də fəaliyyət göstərir. Lakin mən hesab edirəm ki, bu gün, Azərbaycanın müstəqilliyini qorumaq, Azərbaycanı indiki təhlükədən xilas etmək zərurəti meydana çıxdığı bir vaxtda müxalifət prinsipləri ikinci sıraya keçməlidir. Bu gün biz hamımız birləşib Azərbaycanın müstəqilliyini qoruyub saxlamalıyıq və qoymamalıyıq ki, bəzi qüvvələr Azərbaycan Respublikasını dağıtsınlar. Ona görə də mən bütün ictimai-siyasi xadimlərə, siyasi partiyalara, ictimai təşkilatlara, Xalq Cəbhəsinə və onların rəhbərlərinə müraciət edirəm: hər bir təşkilat, hər bir partiya öz vətənpərvərlik, vətəndaşlıq borcunu yerinə yetirməlidir, respublikanın bu ağır günündə öz sözünü deməli, öz xidmətini göstərməlidir, xalqı birləşdirmək üçün fəaliyyətdə olmalıdır.

Şübhəsiz ki, cəmiyyətimizdə bu cinayəti törədən qüvvələr var. Ancaq onlar azlıq təşkil edirlər. Cəmiyyətimizin böyük əksəriyyəti sağlam qüvvələrdən ibarətdir. Müxalifətdə olan partiyaların əksəriyyəti sağlam fikirlərlə, amallarla yaşayan partiyalardır. Əlbəttə, bəzi prinsiplərdə fikir ayrılığı var. Bu, tamamilə təbii haldır. Lakin Azərbaycanın müstəqilliyini qorumaq, Azərbaycanı daha ağır vəziyyətə salmamaq üçün indi hamı birləşməlidir. Təsəvvür edin ki, dünən bu hadisə baş verən kimi Goranboy tərəfdə ermənilərin iri silahlı dəstələri hücuma keçmişlər. Düzdür, hücumun qarşısı alındı, danışıqlar aparıldı, atəş dayandırıldı. Amma təsəvvür edin ki, daxilimizdə bütün qayda-qanunları pozurlarsa, deməli, bu, xarici düşmənlərimizə, torpaqlarımızı zəbt edənlərə daha əlverişli şərait yaradır. Biz bunu ötən illərdə də görmüşük. Həmin illərdə bunların hamısı olmuşdur. İndi kimsə bunları bir daha təkrar etmək istəyir. Belə şeylərə yol vermək olmaz.

Güman edirəm ki, siyasi partiyaların, ictimai-siyasi təşkilatların hər biri öz mövqelərini müəyyənləşdirəcək, Azərbaycanın müstəqilliyini və dövlətçiliyini qorumaq üçün xalqın ümumi işinə qoşulacaq və bu ci-

nayətkar ünsürlərin qarşısını almaq üçün lazımi tədbirlər görəcəkdir. Mən buna ümid bəsləyirəm və arzu edərdim ki, bu ümidlər doğrulsun.

Mən ordumuza müraciət edirəm. Azərbaycanın Milli Ordusu artıq formalaşmışdır. O, son döyüşlərdə – bu ilin əvvəlindən indiyədək gedən döyüşlərdə özünü cəsarətli bir ordu kimi göstərmişdir. Məhz Milli Ordumuzun qətiyyətli müqaviməti nəticəsində erməni silahlı qüvvələrinin hücumları dayandırıldı və mayın 12-də atəşkəs haqqında saziş əldə olundu. Beş aya yaxındır ki, atəşkəs davam edir. Biz bildirmişik, mən Amerika Birləşmiş Ştatlarında olarkən cənab Bill Klintonla görüşümdə də demişəm, Ermənistan prezidenti Ter-Petrosyanla görüşümüzdə də hər ikimiz bəyan etdik ki, biz bu atəşkəsin pozulmamasını təmin edəcəyik. Mən Minsk qrupunun başçısı cənab Yan Eliassonla görüşümdə də dedim, Nyu-Yorkda Rusiya prezidenti cənab Boris Yeltsin ilə qısa görüşüm zamanı ona da bildirdim ki, biz atəşkəsin saxlanmasını təmin edəcəyik. Bunu o da çox böyük məmnuniyyətlə təqdir etdi.

Bir daha deyirəm ki, ordumuzun cəsarəti nəticəsində təcavüzkarın hücumlarının qarşısı alındı, ordumuzun göstərdiyi müqavimət atəşkəs üçün şərait yaratdı. Mən, bütün əsgər və zabitlərimizə müraciət edir və bildirmək istəyirəm ki, bu gün onlar Azərbaycan torpaqlarının müdafiəsində ayıq-sayıq durmalıdırlar. Öz xidməti vəzifələrini daha cəsarətlə və daha böyük ağıl-kamalla həyata keçirməlidirlər. Bilməlidirlər ki, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü onların hərbi xidmətindən çox asılıdır. Əminəm ki, Azərbaycan Ordusunun əsgərləri, zabitləri mənim bu çağırışıma cavab olaraq öz hərbi hazırlıq səviyyələrini daha yüksəyə qaldıracaq, hərbi peşəyə daha dərindən yiyələnəcək, Azərbaycan torpaqlarının keşiyində daha qətiyyətlə və cəsarətlə duracaqlar.

Yenə deyirəm: biz müharibə etmək istəmirik. Mən bunu Amerika Birləşmiş Ştatlarında da bəyan etmişəm. Biz öz tərəfimizdən heç bir hücuma yol verməyəcəyik. Lakin eyni zamanda, mövqelərimizi, torpaqlarımızın etibarlı müafiəsini təmin etməliyik. Ona görə də bu gün mən ordumuzun döyüşçülərinə müraciət edirəm ki, Azərbaycanın bu ağır vəziyyətdən çıxması üçün, bu cinayətkar ünsürlərin zərərsizləşdirilməsi üçün, Azərbaycanın müstəqilliyini qorumaq üçün onlar öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirsinlər. Mən onlara ümid bəsləyir və güvənirəm.

Əminəm ki, zabit və əsgərlərimiz bu çox məsuliyyətli məqamda Azərbaycanın müstəqilliyi keşiyində möhkəm duracaqlar.



Mən hüquq-mühafizə orqanlarının işçilərinə müraciət edirəm. Onlar çətin peşə sahibidirlər, çox əziyyətli bir sahədə çalışırlar, Azərbaycanın daxilində sabitliyi saxlamaq, cinayətkarlığa qarşı mübarizə aparmaq, ictimai asayişi qorumaq üçün, qanunçuluğun tətbiqini təmin etmək, konstitusiyanı qorumaq üçün çox işlər görürlər. İnanıram ki, bu ağır günlərdə, belə bir mütəşəkkil cinayətin baş verdiyi vaxtda hüquq-mühafizə orqanlarımız, xüsusən Azərbaycan polisi öz qüdrətini, cəsarətini, xalqa, millətə, Azərbaycan dövlətinə sədaqətini nümayiş etdirəcəkdir.

Mən heç kəsi toqquşmaya dəvət etmək istəmirəm. Fikirlərimi çatdırdım və müraciətlərim də açıq-aydındır. Hesab edirəm ki, bu cinayətin də qarşısı danışıqlar yolu ilə, sülh yolu ilə alınacaqdır.

Xüsusi Təyinatlı Polis Dəstəsinə, bu dəstənin 8-ci kilometr qəsəbəsində toplaşmış üzvlərinə bir daha müraciət edərək deyirəm ki, silahı yerə qoysunlar, təslim olsunlar, vuruşmaqdan imtina etsinlər, qan tökməsinlər, cinayət törətməsinlər və bizə də ultimatum verməsinlər. Heç bir ultimatum qəbul olunmayacaqdır. Azərbaycanın dövləti var, qanunları var. Hər bir kəs – mən də, hər bir vətəndaş da, o cümlədən polis işçisi də Azərbaycanın qanunlarına tabe olmalıdır. Mən Azərbaycanın Konstitusiyasına, qanunlarına uyğun olaraq onlardan tələb edirəm: bu cinayətkar əməllərdən əl çəksinlər, silahları yerə qoysunlar, təslim olsunlar. Onlara zəmanət verirəm ki, bu işə hər bir cəhətdən ədalətlə baxılmasına təminat yaradacaq və nəzarət edəcəyəm. Mən Azərbaycan dövlətçiliyinin təminatçısıyam.

Bu gün oktyabrın 3-dür. Sizə xatırladıram, bəlkə də yaddan çıxıb, elə mənim özümün da yadımdan çıxıb. Keçən il məhz bu gün, yəni oktyabrın 3-də mən xalq tərəfindən Azərbaycanın dövlət başçısı, Prezidenti seçilmişəm. Bu hadisələr olmasaydı, bu gün mən başqa əhval-ruhiyyə ilə, xoş arzularla sizə müraciət etmək fikrindəydim. Ancaq son on gün ərzində gedən proseslərin yekunu olaraq bu gün sizin qarşınızda çıxış edir, sizə müraciət edirəm, yaranmış vəziyyətdən çıxış yollarını sizinlə birlikdə arayıb axtarıram.

Lakin bu o demək deyil ki, bu hadisə, yaxud da bundan əvvəl baş vermiş hadisələr iradəmizi qırır, bizi sarsıdır, təhlükə qarşısında qoyur. Yox, belə deyildir. Mən keçən il oktyabrın 3-də Azərbaycan Prezidenti seçiləndə də, oktyabrın 10-da Qurana və Azərbaycan Konstitusiyasına əl basaraq xalqımıza and içəndə də demişəm ki, mənim indi bir və-

zifəm var: xalqa xidmət etmək, ömrümün bundan sonrakı hissəsini ancaq və ancaq xalqın bu vəziyyətdən çıxmasına həsr etmək, özüm üçün bundan şərəfli bir vəzifə bilmirəm. Mən verdiyim bu sözə də sadiqəm və bunu axıradək həyata keçirəcəyəm. Odur ki, heç kəs bu andımı həyata keçirməyə mane ola bilməyəcəkdir.

Ancaq mən insanları yenə də qarşıdurmaya yox, milli həmrəyliyə, vətəndaş həmrəyliyinə çağırıram, insanları toqquşmaya yox, bir-birinə silah qaldırmağa, güllə atmağa yox, bir-birinə əl verməyə, bir-birinə yaxınlaşmağa dəvət edirəm, qan tökülməsinə yox, meydana çıxan problemlərin danışıqlar vasitəsilə, sülh yolu ilə həll olunmasına dəvət edirəm.

Kiməsə ədalətsizlik edilibsə, bu ədalətsizliyin qarşısını ədalətlə almaq lazımdır. Azərbaycan Prezidenti kimi bunu da təmin etməyə hazıram və təmin edə bilərəm. Lakin mən bu cür cinayətkar hərəkətlərə dözməyəcəyəm. Ona görə də mən hamıya xəbərdarlıq edirəm. Bu cinayətkarlıqdan çəkinmək, silahları təhvil vermək lazımdır. Mən Xüsusi Təyinatlı Polis Dəstəsi ilə görüşüb, danışıq aparmağa hazıram. Amma güclə, zor ilə yox. Heç kəs Azərbaycan dövlətinə qarşı zor işlədə bilməz. Azərbaycan dövlətinin zora zorla cavab verməyə gücü var. Bu məsələləri zorla yox, yalnız qarşılıqlı anlaşma vasitəsilə həll etmək lazımdır.

Mən hesab edirəm ki, bu sözlərimi indi hamı eşidir, bu gün eşitməsə, sabah, axşam eşidəcəkdir.

Mən gözləyirəm ki, müraciətimə hamı səs verməlidir, hamı! Mən bunu gözləyirəm. Əziz qardaşlar və bacılar, əziz həmvətənlər, əziz dostlar, mən sizdən bunu gözləyirəm.

Mən, yaranmış vəziyyətdə Bakıda qanunu tətbiq etmək üçün fərman imzalamışam. Bu gündən Bakıda fövqəladə vəziyyət elan edilir. Həmin fərman bu gün televiziya vasitəsilə sizə çatdırılacaqdır. Bu fərmanı imzalamağıma səbəb sentyabrın 22-dən indiyədək–oktyabrın 3-dək baş vermiş faciəli hadisələr, bunların ağır nəticələri, cəmiyyətdə yaranmış gərginlik, o cümlədən dünən törədilmiş mütəşəkkil cinayətdir. Ona görə də mən Bakıda fövqəladə vəziyyət elan etməyi qərara almışam. Bakı əhalisindən və paytaxta gələn bütün vətəndaşlardan rica edirəm ki, fövqəladə vəziyyət rejiminə hörmət etsinlər. Bu, ancaq və ancaq bütün Azərbaycan vətəndaşlarının hüquqlarını, ictimai asayişi qorumaq, cinayətkar ünsürlərin qarşısını almaq üçün həyata keçirilən



tədbirdir. Mən bunu tətbiq etməyə məcburam, bunun zəruriliyi gəlib çatmışdır.

Mən, öz fikirlərimi, sözlərimi sizə çatdırdım. Bir daha bütün Azərbaycan xalqına müraciət edirəm. Bu günlər hər kəs öz mövqeyini bildirməlidir. Hesab edirəm ki, Azərbaycan vətəndaşlarının əksəriyyəti dövlətçiliyimizi, Azərbaycanın müstəqilliyini müdafiə edəcək və ölkəmizin müstəqilliyinə təcavüz edənlərin qarşısını alacaqdır.

Bu vəziyyətlə əlaqədar bəziləri ayrı-ayrı rayonlarda aranı qarışdırmaq istəyirlər. Bəzi qrupları qaldıraraq bu cinayətkar dəstələrlə birləşdirməyə cəhd göstərirlər. Şəhərlərdə, rayonlarda yaşayan bütün əhalidən, vətəndaşlardan, həmin yerlərin rəhbərlərindən tələb edirəm ki, bunların hamısının qarşısı alınmalıdır və biz Azərbaycanın müstəqilliyini qorumalıyıq.

Əminəm ki, mənim səsimə səs veriləcək, bu günlər xalqımız sıx birləşəcək, onun tam əksəriyyəti Azərbaycanın müstəqilliyinin, dövlətçiliyimizin qorunmasının keşiyində dayanacaqdır. Əminəm ki, hamımız əl-ələ verərək bu ağır vəziyyətdən çıxacağıq. Diqqətinizə görə təşəkkür edir və bir daha sizi milli həmrəyliyə, vətəndaş həmrəyliyinə dəvət edirəm. Sağ olun.

## RESPUBLİKA MİLLİ TELEVİZİYASI VƏ RADİOSU İLƏ XALQA MÜRACİƏT

*4 oktyabr 1994-cü il*

Hörmətli həmvətənlər, əziz bacılar, qardaşlar!

Azərbaycan vətəndaşları!

Bu axşam vaxtı mən yaranmış vəziyyətlə əlaqədar olaraq, televiziya vasitəsilə sizə birbaşa müraciət etmək məcburiyyətindəyəm. Dünən televiziya ilə xalqa müraciət edərək son günlər Azərbaycanda yaranmış gərgin vəziyyət haqqında məlumat verdim, öz mülahizələrimi bildirdim və Azərbaycan xalqını bu vəziyyətdən çıxmaq üçün fəaliyyət göstərməyə dəvət etdim.

Televiziya ilə dünənki çıxışımda mən yaranmış vəziyyət, Azərbaycanda gərginlik törədən son hadisə haqqında, Xüsusi Təyinatlı Polis Dəstəsinin bir qrupunun Rövşən və Mahir Cavadovların rəhbərliyi altında Prokurorluğun binasında törətdiyi cinayətlər haqqında danışdım. Bundan sonra həmin məsələnin sülh yolu ilə həll olunması üçün görülən tədbirlər barədə sizə məlumat verdim. Bildirdim ki, törədilən hərəkətlər qanuna nə qədər zidd olsa da, biz yaranmış vəziyyəti sülh yolu ilə, danışıqlar yolu ilə aradan qaldırmaq istəyirik. Buna görə də mən Xüsusi Təyinatlı Polis Dəstəsindən olan vətəndaşlarımıza, Rövşən Cavadova müraciət etdim və bildirdim ki, bu yoldan çəkinmək lazımdır. Danışdığımız kimi, silahları təhvil verib kənara çəkilmək lazımdır və Azərbaycanda vəziyyəti gərginləşdirmək lazım deyil. Mən Rövşən Cavadovun atasına–Bəxtiyar kişiyə müraciət etdim və ondan xahiş etdim ki, bu məsələnin həll olunmasında öz xidmətini göstərsin.

Mən Azərbaycanın hörmətli adamlarına, partiyalara, ictimai təşkilatlara, bütün Azərbaycan xalqına müraciət etdim. Mənim dünənki müraciətimdən sonra minlərlə teleqram gəlib, telefon zəngləri olub. Mənim müraciətim əhali tərəfindən hörmət və ehtiramla qəbul olunub. Teleqramlarda, telefon zənglərində bildirilir ki, vətəndaşlar Azərbaycanın bu vəziyyətdən çıxması üçün öz xidmətlərini göstərməyə hazırdırlar.

Dünən Rövşən Cavadovun atası Bəxtiyar kişi gedib oğlanları ilə görüşmüş, sonra mənim yanıma gəlmişdi. O, xalq şairi Bəxtiyar Vahabzadə ilə bərabər apardığı danışıqlar haqqında mənə məlumat verdi. Mənə dedilər, Rövşən Cavadovun xahişi bundan ibarətdir ki, onların 8-ci kilometr qəsəbəsində Xüsusi Təyinatlı Polis Dəstəsinin bazasından sərbəst getmələrinə şərait yaradılsın, həmin dəstənin üzvləri oradan çıxıb getsinlər, silahları təhvil versinlər.

Mən bu təklifləri qəbul etdim, bu işləri təmin etmək üçün müdafiə nazirinin birinci müavini general Nəcməddin Sadıqovu onlara qoşdum və həmin bazaya göndərdim. Bildirdim ki, orada onların təhlükəsizliyi təmin ediləcək, xüsusi təyinatlı polisin üzvlərinin hamısı sərbəst surətdə öz evlərinə gedə bilərlər. Bu məsələlər sonra araşdırılacaqdır. Yaranmış ağır vəziyyəti bununla da tamamilə həll etməyə nail olmağa çalışdım.

Güman etdim ki, ağsaqqal, hörmətli bir adam olan Bəxtiyar Cavadovun bu təşəbbüsü öz nəticəsini verəcəkdir. Təəssüflər olsun ki, gecədən xeyli keçmiş mənə məlumat gəldi ki, bu danışıqlar bir nəticə verməmişdir, onlar atalarının təklifinə də, xalq şairi Bəxtiyar Vahabzadənin təklifinə də qulaq asmamışlar, demişlər ki, sabah, yəni bu gün Rövşən Cavadov mənimlə–Azərbaycan Prezidenti ilə görüşmək istəyir. Görüşüb danışdıqdan sonra bu məsələləri həll edəcəklər.

Mən dünən axşam Bəxtiyar Cavadova da bildirdim ki, televiziya ilə elan etmişəm, Rövşən Cavadovu qəbul etməyə, danışıqlar aparmağa hazıram. Bu gün onunla görüş təyin etdim. Mən onunla telefon əlaqəsinə girdim. Rövşən Cavadova bildirdim ki, bu məsələləri həll etmək üçün o, görüş istəyirsə, mən də görüşməyə hazıram. Gəlsin, görüşək, danışaq, məsələlər həll olunsun və gərginlik aradan götürülsün.

Mənə bildirdi ki, ola bilər ki, gəlməsi onun üçün müəyyən qədər təhlükəli olsun, yoldaşları təhlükəsizlik baxımından onun gəlməsini məsləhət görmürlər. Özü xahiş etdi ki, Prezident Aparatının İşlər İdarəsinin müdiri Akif Muradverdiyev onun yanına göndərilsin və onu müşayiət etsin. Mən Akif Muradverdiyevi oraya göndərdim və tapşırıq verdim ki, onun buraya gəlməsi üçün bütün şərait yaradılsın.

Bir müddətdən sonra Akif Muradverdiyev mənə telefonla zəng edərək bildirdi ki, guya bazanın ətrafında bəzi hərbi qüvvələr olduğuna görə Rövşən Cavadov narahatdır. Mən yenə də dedim ki, onun sərbəst, təhlükəsiz gəlməsi təmin olunur, əgər bir narahatçılıq varsa, mən müdafiə nazirinin birinci müavini general Sadıqovu əlavə ora göndərirəm.

General Sadıqov mənim əmrimlə ora getdi. Danışıqlar aparıldı. Təəssüflər olsun ki, axşam saat 7-dək mən gözlədim. Saat 7-də general

Nəcməddin Sadıqov və Akif Muradverdiyev mənim yanıma gələrək bildirdilər ki, Rövşən Cavadov yenə də görüşmək istədiyini bildirir. Ancaq deyir ki, o, bu gün artıq yorulub, Prezidentlə görüşmək üçün çətinlik çəkir. Ona görə də sabah saat 12-də görüşə gələcəkdir. Mən də buna inandım və dedim ki, ola bilər, sabah görüşək. Çünki mən təmkinlilik göstərirəm, bu işə səbrlə yanaşıram və çalışıram ki, bu iş barışıq yolu ilə, danışıqlar yolu ilə həll olunsun və heç bir xəta çıxmasın.

Sonrakı saatlarda gələn məlumatlar onu göstərdi ki, bu, belə deyil. Çünki iki gün bundan qabaq baş vermiş hadisə ilə əlaqədar Bakı şəhərində və Azərbaycanın bir neçə məntəqəsində ayrı-ayrı qüvvələr baş qaldıraraq sabitliyi pozmağa çalışırlar. Mən Rövşən Cavadovun atası ilə danışanda da dedim ki, bu vəziyyətdən ayrı-ayrı qüvvələr istifadə edə bilərlər, ona görə də bu məsələni tez qurtarmaq lazımdır.

Bu gün bizə məlumatlar gəlir ki, 8-ci kilometrdəki həmin baza-ya–Xüsusi Təyinatlı Polis Dəstəsinin yerləşdiyi bazaya çoxlu kənar adamlar gəlirlər, orada qızışdırıcı danışıqlar aparırlar. Ayrı-ayrı adamlar bundan sui-istifadə etməyə, onları qızışdırıb pis yollara salmağa çalışırlar. Ona görə də bunların hamısını müşahidə edərək mən tez danışıqlar aparıb, bu məsələnin qurtarmasına çalışıram.

Ancaq yenə də deyirəm, son saatlarda alınan məlumatlar onu göstərir ki, həm o bazada olan bəzi qüvvələr sabitliyi pozmağa çalışır, həm də bu şəraitdən istifadə edib bəzi məntəqələrdə bizim daxili ictimai siyasətimizi pozmağa cəhd göstərən ayrı-ayrı qüvvələr fəaliyyətə başlayıblar.

İki saat bundan öncə xəbər gəldi ki, Gəncədə hərbi geyimli bir dəstə adam şəhər İcra hakimiyyətini, oradakı bəzi dövlət orqanlarını, hava limanını zəbt ediblər və öz hakimiyyətlərini qurmağa çalışırlar. Bu dəstələrin kimə mənsub olduğu hələ məlum deyil. Mən Baş nazir Surət Hüseynovla əlaqə saxladım, dedim ki, Gəncə şəhərində şəxsən ona mənsub olan bəzi hərbi qüvvələr var. Bu nə məsələdir? Çünki oradan gələn məlumatlarda bildirilir ki, bu işləri törədənlərin içərisində Surət Hüseynova mənsub olan qüvvələrdən də var. Ona görə də mən ondan xahiş etdim ki, məsələni araşdırsın və lazımi tədbir görsün. Bir azdan sonra o, mənə telefonla zəng etdi və bildirdi ki, guya orada doğrudan da bəzi qüvvələr var, onlar Xüsusi Təyinatlı Polis Dəstəsinə mənsub olan adamlardır. Onlar orada doğrudan da qanunsuz hərəkətlər ediblər. O, mənə bildirdi ki, öz adamlarına göstəriş verib, onlarla əlaqəyə girib ki,



bu məsələni həll etsinlər və bu vəziyyəti aradan qaldırsınlar. Ancaq Gəncə ilə əlaqəyə girəndən sonra məlum oldu ki, o qüvvələrin hamısı birləşib. Gəncə polisinin də, hərbi polisin də bir hissəsi o qüvvələrlə birləşib. Onlar orada qeyri-qanuni hərəkətlər edirlər, dövlət orqanlarını zəbt etməyə başlayıblar. Beləliklə də, Bakıda yaranmış dövlət çevrilişi cəhdi artıq Gəncədə özünü büruzə verir.

Mən yenə də Surət Hüseynovu axtardım. Ancaq bundan sonra onu tapa bilmədim. İndi onun yeri də mənə məlum deyil. Burada, Bakıda bizə daxil olan bir neçə siqnallar onu göstərir ki, ayrı-ayrı təxribatçı qüvvələr Bakıda və Azərbaycanın bəzi şəhərlərində, rayonlarında sabitliyi pozmaq istəyirlər. Deməli, əvvəlcədən hazırlanmış, qurulmuş, dövlət çevrilişinə yönəldilmiş hərəkətlər artıq sürətlə həyata keçirilir.

Ona görə də mən bu gün, bu dəqiqə, gecənin bu vaxtında birinci növbədə Rövşən Cavadova və onun ətrafında olan xüsusi təyinatlı polislərə bir daha müraciət edirəm. Müraciət edirəm ki, onlar ağıllarını başlarına yığsınlar, hərəkətlərindən əl çəksinlər. Bilsinlər ki, Azərbaycan xalqı qarşısında nə qədər tarixi məsuliyyət daşıyırlar. Onların bu hərəkətləri birbaşa Azərbaycan dövlətçiliyinin əleyhinədir. Eyni zamanda bu hərəkətlər Azərbaycanın ayrı-ayrı məntəqələrində, o cümlədən Bakı şəhərində sabitliyi pozmağa çalışan təxribatçı qüvvələrin fəallaşmasına kömək edir və beləliklə, onlar özləri istəsə də, istəməsə də bu hərəkətlərin baş verməsində günahkar olacaqlar.

Ona görə də onlara təklif edirəm ki, bu hərəkətlərindən əl çəksinlər, qısa müddətdə silahlarını təhvil verib yerləşdikləri bazadan çıxsınlar. Onların oradan sərbəst, təhlükəsiz çıxması üçün bütün şərait var. Onsuz da bu gün şəhərə çıxmış, sərbəst gedib-gəlmişlər. Onlara heç kim mane olmamışdır. Ancaq əgər oradan çıxıb getmələri üçün xüsusi şərait lazımdırsa, o da yaradılmışdır və bu şəraitdən istifadə edərək öz əməllərindən əl çəkməlidirlər. Əgər əməllərindən əl çəkməsələr, bundan sonra Bakıda, bütün Azərbaycanda yarana biləcək cinayət hərəkətlərini, təxribatları, dövlət çevrilişinə yönəldilmiş hərəkətləri istiqamətləndirmələri kimi qiymətləndiriləcək və onlar bunun üçün günahkar olacaqlar.

Ona görə də, onlara bir daha sülh yolu, doğru yol göstərirəm, məsləhət verir və tələb edirəm ki, yaranmış bu ağır vəziyyətdə özlərinin vətənpərvərliyini, vətəndaşlığını başa düşsünlər. Əgər onlar, doğrudan da, müstəqil Azərbaycanın dövlətçiliyinə sadiqdirlərsə, müstəqil Azər-

baycan uğrunda çalışmaq istəyirlərsə, düz yola gəlsinlər. Mən bunu təklif edirəm və onlardan bunu tələb edirəm. Çünki indi yaranmış vəziyyət məni, Azərbaycan dövlətinin başçısını buna vadar edir.

Mən eyni zamanda Bakının sakinlərinə müraciət edirəm. İndi bizə gəlib çatan siqnallar göstərir ki, Bakı şəhərində Azərbaycanın dövlətçiliyi artıq təhlükə altındadır. Ayrı-ayrı düşmən qüvvələr, silahlı qüvvələr dövlət çevrilişinə başlamışlar. Ona görə də, nə qədər gec olsa da, nə qədər çətin olsa da mən sizi ayağa qalxmağa dəvət edirəm. Əziz bakılılar, əziz Bakı sakinləri! Sizin hamınızı bizim bu gərəkli işimizə qoşulmağa çağırıram. Xahiş edirəm, zəhmət çəkəsiniz, nə qədər çətin olsa da Prezident Aparatının qarşısına toplaşasınız. Bu gün kim Azərbaycanın müstəqilliyini, dövlətçiliyini qorumaq istəyirsə, mən onu Azərbaycan Respublikası Prezidenti Aparatının önünə dəvət edirəm.

İndi bizim üçün çox həlledici məqamdır, həlledici dəqiqələrdir. Kim Azərbaycana doğrudan da ürək yandırırsa, bu həlledici dəqiqələrdə bizimlə olmalıdır, Azərbaycanın müstəqil dövləti ilə birlikdə olmalıdır. Bunun üçün Azərbaycan Prezidentinin ətrafında toplaşmalıdır. Mən sizi buraya, Prezident Aparatının qarşısına dəvət edirəm. Sizinlə görüşmək istəyirəm, sizdən kömək gözləyirəm. Sizdən xahiş edirəm ki, Azərbaycan dövlətçiliyinin başı üstünü almış qara buludları dağıtmaq üçün birləşəsiniz, əlbir olasınız, buraya gələsiniz.

Mən bütün Azərbaycan xalqına müraciət edirəm. İndi, bu dəqiqələrdə sizi buraya gəlməyə dəvət edirəm, sizi gözləyirəm. Azərbaycanın müstəqilliyini qorumaq üçün hərə öz evində-eşiyində, öz şəhərində, qəsəbəsində, kəndində ayağa qalxsın, fəaliyyət göstərsin. Yaşadığınız yerlərdə Azərbaycanın dövlət orqanlarını qoruyun, onları saxlayın, təxribatçı qüvvələrin qarşısını alın. Eyni zamanda Azərbaycanın şəhərlərindən, rayonlarından Bakıya gəlib bizimlə birlikdə olmaq istəyən vətənpərvər adamların buraya gəlməsini razılıqla qarşılayardım. Kimin buna imkanı varsa, gəlin, sizi Bakıya dəvət edirəm.

Gəncə şəhərinin sakinlərinə müraciət edirəm. Keçən ilin iyununda Gəncə şəhəri bir dəfə ağır vəziyyətə düşdü. Orada qan töküldü, çox dəhşətli hadisələr baş verdi. Gəncə şəhərinin sakinləri həmin günləri görmüşlər və bilirlər ki, bu hadisələr təkcə gəncəlilər üçün yox, bütün Azərbaycan üçün necə baha başa gəldi. İndi təxribatçı qüvvələr yenə də Gəncədə aranı qarışdırmışlar, dövlət orqanlarının binalarını zəbt etmişlər. Ona görə də gəncəlilərin hamısını ayağa qalxmağa, küçəyə çıxmağa, təxribatçı qrupları dəf etməyə, onların qarşısını almağa, Azərbaycanın ikinci böyük şəhəri, tarixi şəhəri olan Gəncədə Azərbaycanın dövlətçiliyini qorumağa çağırıram. Mən gəncəlilərə ümid bəsləyirəm, onlara inanıram və güman edirəm ki, gəncəlilər özlərinin namusunu, qeyrətini göstərəcəklər, mənliklərini qoruyacaqlar və baş vermiş bu hadisənin öhdəsindən gələcəklər.



Əziz həmvətənlər, Azərbaycanın vətəndaşları! Bu ağır dəqiqələrdə bir daha sizə müraciət edirəm. Sizi əmin edirəm ki, Azərbaycanın dövlətçiliyini qorumaq üçün son nəfəsimə qədər, son damla qanıma qədər öz yerimdəyəm. Xalqla birlikdəyəm. Xalqın təhlükəsizliyini qorumağa çalışacağam. Bundan ötrü lazımi imkanlardan istifadə edəcəyəm. Eyni zamanda, əziz həmvətənlər, mən sizə güvənirəm, sizə arxalanıram. İstəmirəm ki, indi, bu günlər qan tökülsün. Mən bunu istəmirəm. Ona görə də sizi sülh məramı ilə küçələrə çıxmağa, mənim ətrafımda toplaşmağa dəvət edirəm.

Bakının 8-ci kilometr qəsəbəsində çoxlu adam yaşayır. Əziz həmvətənlərimiz, sizdən rica edirəm, evlərinizdən çıxın, Xüsusi Təyinatlı Polis Dəstəsinin bazasının ətrafında toplaşın, onları başa salın, onlara təsir edin. Onlara anladın ki, ata-analarına, bacı-qardaşlarına atəş açmamalıdırlar, güllə atmamalıdırlar, cinayət etməməlidirlər. Mən hesab edirəm ki, 8-ci kilometr qəsəbəsinin əhalisi, sakinləri özlərini müdafiə etməyə qadirdirlər və onlar həmrəy olub Xüsusi Təyinatlı Polis Dəstəsinin bazasının ətrafına toplaşaraq oradakı polisləri başa sala biləcəklər.

Mən üzümü Azərbaycanın ağsaqqallarına tuturam. Bu gün hörmətli adamların, ağsaqqalların sözünə böyük ehtiyac var. Mən sizə müraciət edirəm, öz müdrikliyinizi, cəsarətinizi, vətənpərvərliyinizi göstərin.

Mən Azərbaycanın qadınlarına müraciət edirəm. Analar, bacılar cəmiyyətdə sülh yaranması üçün həmişə böyük vasitəçi olmuşlar. Ağbirçək analar həmişə öz övladlarına öyüd-nəsihət verməklə onları düz yola dəvət etmiş, bu yolla getmələrinə çalışmışlar. Hörmətli analar, bacılar, hörmətli gəlinlər, qızlar! Mən sizə müraciət edirəm. Bu ağır dəqiqələrdə ayağa qalxın, fəaliyyət göstərin, küçələrə çıxın, Prezident Aparatının qarşısına gəlin. Öz cəsarətinizlə, qadınlıq qeyrətinizlə bu vəziyyətdən çıxmağa kömək edin.

Mən Azərbaycanın gənclərinə müraciət edirəm. Azərbaycanın ağır anlarında gənclər həmişə özlərinin qəhrəmanlığını, cəsarətini göstər-

mişlər, bu gün də göstərməlidirlər. Əziz övladlarımız, sizə müraciət edirəm, güman edirəm ki, mənim səsimə səs verərək ayağa qalxacaqsınız, Azərbaycanın dövlətçiliyini, müstəqilliyini qorumaq üçün fəaliyyət göstərəcəksiniz. Əminəm ki, bu yolla gedəcək, düzgün mövqe tutacaqsınız.

Mən bu müraciəti edərək, eyni zamanda Azərbaycan dövlətinin qüdrətli olduğunu bildirmək istəyirəm. Mən Azərbaycan dövlətinin qüdrətinə güvənirəm və bu vəziyyətdən çıxmaq üçün onun bütün imkanlarından istifadə etməyə çalışacağam. Ancaq yenə də deyirəm: mənim yolum sülh yoludur, əmin-amanlıq yoludur. Bunun naminə sizə müraciət edərək ayağa qalxmağa dəvət edirəm. Əmin ola bilərsiniz ki, Azərbaycan Respublikasının müstəqilliyini qorumaq üçün özümdə həmişə qüdrət hiss etmişəm və bu gün də hiss edirəm. Bilin ki, indi Azərbaycanın sərhədlərində bizim qəhrəman ordumuz, cəsur oğlanlarımız, övladlarımız torpaqlarımızın keşiyində durduğu bir vaxtda, Azərbaycan torpaqlarını təcavüzdən qoruduğu bir vaxtda ölkəmizin daxilində belə bir vəziyyətin yaranması Azərbaycanın torpaqlarına olan təcavüzə köməkdir, respublikamızın ərazi bütövlüyünə, müstəqilliyinə xəyanətdir. Ona görə də ordumuza müraciət edərək bir daha bildirirəm ki, əsgər və zabitlərimiz öz səngərlərində, öz postlarında cəsarətlə dayanmalı, torpaqlarımızı müdafiə etməlidirlər, bu ağır dəqiqələrdə, ağır saatlarda Azərbaycanın torpaqlarına qarşı təcavüz olunmasına yol verməməlidirlər. Eyni zamanda, onlar da öz qeyrətləri, namusları, cəsarətləri ilə bu ağır dəqiqələrdə həmrəyliklərini bildirməlidirlər.

Mən Azərbaycanın bütün siyasi partiyalarına müraciət edirəm. Dünən onların bir qrupunun nümayəndələri ilə görüşdüm, danışdım. Onlar dövlətimizlə, dövlətçiliyimizlə həmrəy olduqlarını bildirdilər. Onlar bu gün ayağa qalxaraq küçəyə çıxmalıdırlar. Mən onları Prezident Aparatının qarşısına dəvət edirəm. Bütün ictimai-siyasi təşkilatlara, cəmiyyətlərə müraciət edirəm, onların üzvlərini buraya dəvət edirəm.

Bir sözlə, hamıya müraciət edirəm və bu ağır gündə hamıdan mətanət, dəyanət, cəsarət, qəhrəmanlıq, namus, qeyrət gözləyirəm. Azərbaycan xalqı qeyrətli xalqdır, mətin xalqdır. Əminəm ki, bu ağır sınaqlardan çıxacağıq. Mən sizə inanıram və siz də əmin ola bilərsiniz ki, Azərbaycanın dövlətçiliyinin keşiyində daim dayanmışam və dayanacağam. Sağ olun.



# TÜRK DÖVLƏTLƏRİ BAŞÇILARININ 2-ci ZİRVƏ TOPLANTISINDA İŞTİRAK ETMƏK ÜÇÜN İSTANBULA YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*18 oktyabr 1994-cü il*

Zirvə toplantısı türkdilli, türk mənşəli respublikaların ümumi toplantısıdır. Onun əsası iki il bundan əvvəl Ankarada qoyulmuşdur. Mən belə hesab edirəm ki, bu, əhəmiyyətli bir addım və təşəbbüsdür, davam və inkişaf etməlidir. Türkiyənin prezidenti hörmətli Süleyman Dəmirəl Zirvə toplantısının növbəti yığıncağını bu gün İstanbulda keçirmək təşəbbüsünü qaldırmışdır. Türkdilli respublikaların prezidentləri, o cümlədən də mən bu toplantının keçirilməsinə və orada iştirak etməyə razılıq vermişik. Şübhəsiz ki, Zirvə toplantısı bizim xalqlarımızın, müstəqil ölkələrimizin bu günü və gələcəyi üçün əhəmiyyətli yoldur. Yəni bizim türk mənşəli, türkdilli xalqlarımızın, tarixi, milli, mənəvi ənənələri eyni və yaxud bənzər olan xalqlarımızın hər birinin müstəqil dövlət kimi mövcud olması, onların həm dövlətlərarası əlaqələrinin inkişaf etdirilməsi, möhkəmləndirilməsi, həm də bu əlaqələrdən istifadə edərək tarixi irsimizi, keçmişimizi canlandırmaq və onun əsasında, xalqlarımızı daha da yaxınlaşdırmaq dünyanın indi mürəkkəb proseslər gedən bir dövründə çox mühümdür. Ona görə də mən bu görüşə böyük əhəmiyyət verirəm. Orada hansı sənədin imzalanıb-imzalanmamasından asılı olmayaraq, elə bu görüşlərin özü, fikir mübadiləsi, həmin ölkələrin prezidentlərinin ünsiyyəti – bunlar hamısı respublikamızın həm iqtisadi, həm mədəni, elmi, həm də bütün başqa sahələrdə bundan sonra da bir-biri ilə sıx əlaqələr yaratması üçün imkanlar açacaqdır. Ona görə də mən çox böyük məmnuniyyət hissi ilə dəvəti qəbul etmişəm və bu duyğularla, bu fikirlərlə oraya yola düşürəm.

## İSTANBULDA TÜRK DÖVLƏTLƏRİ BAŞÇILARININ 2-ci ZİRVƏ TOPLANTISININ İŞİ BAŞA ÇATDIQDAN SONRA MƏTBUAT KONFRANSI

*19 oktyabr 1994-cü il*

**S u a l :** Keçmiş SSRİ dağıldıqdan sonra yaranmış müstəqil dövlətlərin qarşısında hazırda hansı problemlər durur?

**N u r s u l t a n  N a z a r b a y e v :** Bəzən deyirlər ki, bütün dövlətlərdə bizi – prezidentləri, hökumətləri tənqid edirlər. Məsələn, mən belə hesab edirəm ki, bu hərcmərclik şəraitində, idarəetmənin pozulduğu, iqtisadiyyatın dağıldığı şəraitdə son dörd-beş ildə yalnız biz nisbi sakitliyi qoruyub saxlamış və hər halda, adamların yaşayışını təmin etmişik. Bu dövlətlərin əksəriyyətində və Allaha şükür ki, Mərkəzi Asiyada biz adamlar arasında, millətlər arasında mehriban münasibətləri qoruyub saxlayırıq. Bu, həmin ölkələrin indiki rəhbərlərinin gördükləri böyük işdir.

Bir vaxtlar vahid Sovet İttifaqında xalqlar, adamlar qarışıq halda yaşayırdılar. İndi bu adamlar 15 dövlətdə yaşayırlar, onları 16 sərhəd ayırır. Onlar tarixi vətənlərinin harada olduğunu axtarır, harada məskən salmaq, uşaqlarının harada yaşayacağı barədə düşünürlər. Bu, məsələnin birinci, ən başlıca–humanitar, insani tərəfidir. Məsələnin digər tərəfi – bir-biri ilə bağlı olan iqtisadiyyatın dağılması da əsas cəhətdir. İnteqrasiya 60-70 faiz olarkən iqtisadiyyatlar arasında üfüqi əlaqələrin yeni səviyyədə – bazar iqtisadiyyatı səviyyəsində saxlanması bizi böyük işsizlikdən, adamları hədsiz məşəqqətlərdən xilas edə bilərdi. Biz XXI əsrin astanasındayıq, əgər biz sivilizasiyalı adamlarıqsa, bu dövlətlər arasında həqiqətən bərabərhüquqlu, işgüzar, etibarlı iqtisadi münasibətlər yaratmalıyıq. Bu etimad vasitəsilə, gömrük manеələrini və sərhədləri ləğv etmək vasitəsilə adamlara sərbəst yerdəyişmə imkanı, istədikləri yerdə məskunlaşmağa vaxt verməliyik. Başqa sözlə, Qərbi Avropanın 12 dövləti arasında adamlar necə gedib-gəlirlərsə, elə bir şərait yaratmalıyıq. Bu, gələcəkdə millətlərarası münaqişələrin, dövlətlərarası münaqişələrin qarşısının alınmasına xidmət edərdi. Belə etimadın olması bütün qonşularda bir-birinə etimad doğurar, son nəticədə keçmiş Sovet İttifaqı kimi çoxmillətli dövlətdə olmuş əmin-amanlıq, firavanlıq yaradardı. Bizə isə müstəqilliyin, suverenliyin bərqərar olmasının daha əlverişli şəraitdə davam etməsi üçün vaxt qazanmağa imkan verərdi.



Əgər keçmiş Sovet İttifaqındakı vəziyyət davam edərsə, separat millətçilik bundan sonra da genişlənərsə, yeni müharibə və qırğın ocaqları yaranarsa, zənnimcə, dünyada – istər Asiyada, istərsə də Avropada bunun heç kimə xeyri olmayacaq. Əminəm ki, mütərəqqi qüvvələrin heç biri belə vəziyyət yaranmasını istəmir.

Lakin keçmiş SSRİ-nin müxtəlif regionlarının sərhədləri təkcə keçmiş Sovet İttifaqının sərhədləri deyildir. Buraya başqa dövlətlər də qoşula bilərdi. Məsələn, bəzi Şərqi Avropa ölkələri, Baltikyanı ölkələr, Çin və başqaları buna böyük maraq göstərirlər. Əgər bu, bərabərhüquqlu, müstəqil, suveren, bazar iqtisadiyyatı quran dövlətlərin ittifaqı olsaydı, bizim bugünkü toplantının iştirakçıları da ona qoşula bilərdilər.

**S u a l :** Son hadisələr zamanı Orta Asiya dövlətləri Azərbaycanı dəstəkləyirdilərmi?

**H e y d ə r  Ə l i y e v :** Orta Asiya, Mərkəzi Asiya dövlətləri ilə Azərbaycan arasında dostluq, qardaşlıq əlaqələri var. Mən dünənki iclasda qeyd etdim ki, iki il bundan öncə keçirilən Ankara görüşündən sonra bu əlaqələr müəyyən qədər zəifləmişdir. Bu da Azərbaycan tərəfinin ucbatından olmuşdur. Yəni Azərbaycanın o vaxtkı rəhbərliyi qardaş Orta Asiya, Qazaxıstan respublikaları ilə dostluq əlaqələrini davam etdirməmişdi. Mən bunu dünənki qapalı iclasda dedim, amma bu gün tam aydın olmaq üçün bildirmək istəyirəm ki, Qazaxıstan, Orta Asiya, Mərkəzi Asiya dövlətləri ilə Azərbaycan arasında daim dostluq, qardaşlıq əlaqələri olmuşdur. Bu əlaqələr əsrlər boyu davam etmiş, o cümlədən bizim xalqlarımız, cümhuriyyətlərimiz 70 il ərzində Sovetlər İttifaqının tərkibində olanda da əlaqələrimiz çox sıx və yaxın idi, biz həmişə bir-birimizə yardım etmişik, bir-birimizin təcrübəsini öyrənmişik. Ancaq müstəqillik qazandıqdan sonra bu əlaqələr daha da güclənməli idi. Mən etiraf edirəm ki, Azərbaycan tərəfinin buraxdığı bəzi səhvlər nəticəsində bu əlaqələr istənilən səviyyədə olmamışdır. Bəlkə də keçmiş Sovetlər İttifaqının tərkibində olanda bu əlaqələr daha güclü idi.

Hesab edirəm ki, bu əlaqələrin inkişaf etməsi, genişlənməsi üçün bizim tərəfimizdən, həmçinin Orta Asiya respublikaları və Qazaxıstan tərəfindən böyük addımlar atılır. Azərbaycanda dövlət çevrilişinə cəhd göstərən qüvvələrin qarşısını almaq üçün mən Azərbaycan prezidenti kimi fəaliyyət göstərərkən dünya ictimaiyyətinin əksəriyyəti, ən böyük dövlətlər Azərbaycanın xalq tərəfindən seçilmiş prezidentini, Azərbaycanın dövlətçiliyini dəstəklədilər. Orta Asiya, Mərkəzi Asiya ölkələri də məni dəstəklədilər və ona görə də bu gün onlara təşəkkürümü bildirirəm.

**S u a l :** Cənab Prezident, sentyabrın 20-də Azərbaycan xarici neft şirkətləri konsorsiumu ilə müqavilə imzalamışdır. Qazaxıstanın neft yataqlarının işlənməsi ilə bağlı Sizin də müqaviləniz var. Bu müqavilələrin həyata keçirilməsini, Azərbaycanın imzaladığı «Əsrin müqaviləsi»nə mane olan qüvvələrin hərəkətini hüquqi baxımdan necə qiymətləndirirsiniz?

**N u r s u l t a n  N a z a r b a y e v :** Yadımdadır, Xəzər şelfindəki neft yataqlarının işlənməsinə dair Azərbaycanın xarici şirkətlərlə imzaladığı müqavilə barədə bəzi bəyanatlar olmuşdur. Xəzəryanı dövlətlərin hamısı, o cümlədən Rusiya da, Qazaxıstan da, Türkmənistan da, Azərbaycan da və İran da dənizdə mineral ehtiyatlar hasilatı ilə məşğul olur. Xəzər hamımız üçün çox mühüm su hövzəsidir. Məlum olduğu kimi, dənizin sualtı sərvətlərindən əlavə, çox böyük bioloji ehtiyatları da var və indiki halda bunları hər kəs istədiyi kimi talayır. Xəzər dünyada nərə balığı yetişdirilən ən böyük su hövzəsi idi. Bunun hesabına da külli miqdarda kürü istehsal olunurdu. Buna görə də, həqiqətən, Xəzər dənizi barədə ümumi sazişə gəlmək lazımdır.

Qazaxıstana gəldikdə isə, o, özünün dövlət sərhədləri hüdudunda iş görür və bununla bağlı heç bir məsələ ortaya çıxmamışdır. İndi yeddi şirkətdən ibarət böyük konsorsium işləyir. Ona görə də indi bütün dövlətlər Xəzər dənizinin statusunu müəyyənləşdirmək barədə ekspertlər səviyyəsində danışıqlar aparırlar. Belə hesab edirəm ki, bu iş əvvəl-axır başa çatdırılmalıdır. Bu məsələni çəkişmə mövzusuna çevirmək lazım deyildir. Xüsusən,ona görə ki, bu dövlətlərin hamısı Müstəqil Dövlətlər Birliyinə daxildir. Bunun özü birlik üçün daha bir sınaqdır. Ümidvaram ki, biz bu məsələ barəsində birlik çərçivəsində ortaq fikrə gələcəyik. Bir cəhəti nəzərə almalıyıq ki, Xəzər dənizində marağı olan dövlətlərin heç birinin mənafeyinə zərər toxunmamalıdır. Mənim mövqeyim belədir.



**S u a l :** Cənab prezident Kərimov dedi ki, bəzi qüvvələr bizim sazişimizi üçüncü dövlətlərə, üçüncü qüvvələrə qarşı qoymağa çalışaraq ona hansısa başqa bir məna verməyə cəhd göstərirlər. Lakin nə bir dövlətin, nə də bir üçüncü qüvvənin adı çəkildi. Halbuki hamıya məlumdur ki, söhbət Rusiyadan gedir. Əlalxüsus da, bu gün Türkiyənin bütün qəzetləri belə başlıqlarla çıxmışdır: «Türk-Rusiya dueli». Siz bu barədə nə deyə bilərdiniz? Sualım Özbəkistan prezidenti cənab Kərimovadır. Digər prezidentlər də öz fikirlərini söyləmək istəsəydilər, buna şad olardım.

**İ s l a m  K ə r i m o v :** Biz İstanbulda toplaşmazdan əvvəl mən mətbuatdakı, o cümlədən Türkiyə mətbuatındakı bəzi yazılarla tanış olmuşam. Məni həmin yazıların tərcüməsi ilə tanış etmişlər. Bunları oxuduqdan sonra əmin oldum ki, Türkiyənin özündə də bizim bu görüşümüzdən müxtəlif dövlətlər arasında, o cümlədən MDB-yə daxil olan dövlətlər arasında nifaq salmaq üçün istifadə etmək istəyən müəyyən qüvvələr var. Mən məhz bu məlumatlara əsaslanaraq xəbərdar etmək istəyirəm ki, belə uydurmalar, hər şeydən əvvəl, məhdud siyasi məqsədlər daşıyır. Bu uydurmaların ünvanlandığı dövlətlərə xəbərdarlıq etmək istərdim ki, belə uydurmaları, belə fitnələri ciddi qarşılamasınlar.

**S u a l :** Mənim sualım Qazaxıstan prezidenti cənab Nazarbayevə və Türkmənistan prezidenti cənab Niyazovadır. Yenidən Xəzər məsələsinə qayıtmaq istəyirəm. Bakıda imzalanmış neft müqaviləsinə Xəzəryanı dövlətlərin başçıları kimi, hər iki prezidentin konkret münasibətini bilmək maraqlı olardı. Çünki Rusiyanın bəzi dairələri belə hesab edir ki, bu müqavilə Xəzəryanı dövlətlərin mənafeyinə toxunur. Bu, həqiqətən də belədirmi?

İkincisi, Rusiya belə bir fikir irəli sürür ki, Xəzər sektorlara bölünməməlidir. İstərdim ki, hər iki dövlət başçısı bu barədə öz mövqelərini bildirsin. Nəhayət, Azərbaycanın müstəqilliyinə düşmən olan bəzi xarici dövlətlər Azərbaycanda dövlət çevrilişi baş tutmadıqdan sonra ona qarşı ciddi iqtisadi sanksiyalar tətbiq etmək niyyətindədirlər. Əgər belə olarsa, türk dövlətləri Azərbaycana iqtisadi kömək göstərələcəyinə zəmanət verə bilərlərmi?

**N u r s u l t a n  N a z a r b a y e v :** Mən bu məsələ barədə öz mövqeyimi bildirdim. Deyiləsi başqa sözüm yoxdur. Hamımız danışıqlar apararaq mehriban qonşular kimi, bütün bu məsələləri həll etməliyik. Yalnız onu əlavə edə bilərəm ki, nəqliyyat kommunikasiyalarımız

ümumi olduğuna görə Rusiyanın iştirakı və Rusiya ilə birgə iş görmək Qazaxıstan üçün çox mühüm cəhətdir. Biz Rusiya şirkətlərini çox böyük Qaracaqnaq qaz-kondensat yatağının işlənməsində hüquq bərabərliyi əsasında iştirak etməyə cəlb edirik. Biz Rusiya şirkətlərini bütün bu məsələlərdə öz vəsaitləri ilə iştirak etməyə dəvət edirik. Ona görə də mən belə hesab edirəm ki, bütün bu məsələləri danışıqlar yolu ilə həll etmək lazımdır. Suverenliyə gəldikdə isə, ümumiyyətlə, hər bir müstəqil dövlət öz mallarını beynəlxalq bazara müxtəlif yollarla çıxarmaq imkanına malik olmalıdır. Bu, birtərəfli xarakter daşımamalıdır. Bu gün hər bir dövlətə onun ərazisindən neft, qaz kəmərləri çəkilməsi faydalıdır. Həmin dövlətlər bundan çoxlu vəsait götürürlər. Ona görə də Mərkəzi Asiyanın zəngin regionlarından neft-qaz kəmərləri çəkilməsinə dünyada çox böyük maraq var. Bu işi görmək üçün investisiyalar da, istək də kifayət qədərdir. Biz burada həmin məsələləri də həll edirik.

**Süleyman Dəmirəl:** Hazırda Azərbaycana qarşı yönəldilmiş iqtisadi qadağan barədə təklif yoxdur. Belə bir təklifin nəyə görə olacağını da bilmirəm. Çünki əgər bu, Ermənistanla Azərbaycan arasındakı münaqişə ilə əlaqədar olacaqsa, bunun əsası yoxdur. Torpaqları işğal edilən Azərbaycandır. Onun ərazisinin 20 faizi işğal edilmişdir. 1 milyon 200 min qaçqını olan Azərbaycandır. Deməli, Azərbaycanın həm torpaqları işğal edilir, həm əhalisi qaçqın düşür, ölkəyə bu qədər haqsız zərər dəyir və üstəlik, ona qarşı iqtisadi qadağanlar tətbiq olunsun? – Bunu təsəvvür etmək mümkün deyildir. İşdir, belə bir şey olarsa, Türkiyə bu haqsızlığa qarşı lazımi mübarizə aparar. Mən bunu hamıya bildirirəm ki, Azərbaycan bizim üçün, türk xalqı üçün çox önəmlidir. Azərbaycana qarşı yönəldiləcək hər cür haqsızlığa qarşı Türkiyədə hamı bir nəfər kimi ayağa qalxar. Nəhayət, Türkiyə Azərbaycana maddi və mənəvi baxımdan hər zaman yardım göstərməkdə davam edəcəkdir.

**Saparmurat Niyazov:** Biz Azərbaycanın Qərb neft şirkətləri ilə imzaladığı müqaviləni diqqətlə nəzərdən keçirmişik. Müqavilədən məqsəd odur ki, ölkənin ağır vəziyyətində, heç olmasa, minimum iqtisadi məsələlər həll edilsin, çətinlikləri aradan qaldırmaq mümkün olsun. Ona görə də müqavilənin necə imzalanması, kimlə razılaşdırılması barədə biz o zaman Heydər Əliyeviçlə telefonla fikir mübadiləsi etmişik. Heydər Əliyeviç bu fikirlə tamamilə razıdır ki, o bu



müqaviləni çətinliklər olduğuna, bunları tezliklə aradan qaldırmaq zərurətinə görə imzalamışdır. Eyni zamanda o, Xəzər dənizinin statusunun tezliklə müəyyənləşdirilməsi ilə də razıdır və bununla əlaqədar istənilən vaxt danışıqlara başlamağa hazırdır. Heydər Əliyeviç oktyabrın 27-də Türkmənistan Respublikasının üçüncü ildönümü bayramında iştirak etmək üçün Aşqabada gələcək. İran prezidenti hörmətli Haşimi-Rəfsəncani, Rusiyanın nümayəndə heyəti də gələcəkdir. Biz bu məsələlər barədə Nursultan Nazarbayevlə də danışmış, məsləhətləşmişik. O da öz rəyini bildirmişdir. Oktyabrın 25-də Qazaxıstan, Respublika gününü qeyd etdiyinə görə o, Aşqabada gələ bilməyəcək, lakin neft və qaz nazirini göndərəcək. Biz bu məsələləri sürətlə işləyib hazırlayacağıq ki, Xəzər dənizi dünyada yeni mübahisə, münaqişə zonasına çevrilməsin.

Azərbaycan uzun illərdir ki, Xəzər şelfində neft çıxarır və onun bu gün hasilatı artırmaq arzusunu başa düşürəm. Bu, təbii arzudur. Həmin məsələdə Rusiya da qəti mövqe tutmur. Mən Viktor Stepanoviç Çernomırdin ilə fikir mübadiləsi etmişəm, razılaşmışıq ki, ilk növbədə Xəzərin statusu müəyyənləşdirilməlidir, sonra isə Xəzərin ekologiyasına zərər vurmadan məsələlər həll olunmalıdır. Biz bu barədə Heydər Əliyeviçlə əvvəllər də, bu gün də danışmışıq. Zənnimcə, yaxın vaxtlarda məsələni həll edəcəyik. Bundan əlavə, biz Xəzər dənizindən təbiəti mühafizə tədbirləri, beynəlxalq hüquq çərçivəsində istifadə olunması üçün konsorsium yaradılmasına dair Rusiya ilə, İranla danışıqlar aparırıq. Mən bu barədə Nursultan Nazarbayevə də məlumat vermişəm. Bu sahədə iş görüldüyünü bu gün səhər Heydər Əliyeviçə də demişəm. Əgər biz indi Xəzər dənizinin statusunu müəyyənləşdirə bilmiriksə, onda iri layihələri hər bir ölkənin mənafeyi nəzərə alınmaqla razılaşdıra biləcək konsorsium yaratmaq lazımdır.

Prinsip etibarilə, biz Azərbaycanın Qərb konsorsiumu ilə imzaladığı müqavilənin əleyhinə deyilik. Yeganə məqsəd bu olmalıdır ki, heç kim bir-birindən şübhələnməsin, heç kim fikirləşməsin ki, biri digərinin hesabına fayda götürməyə çalışır və Xəzər dənizi hansısa çəkişmə, mübahisə, qeyri-sabitlik obyektinə çevrilməsin. Heydər Əliyeviç də, Nursultan Nazarbayev də məsələnin bu yerə gəlib çıxmasının əleyhinədirlər. Mən Boris Nikolayeviçlə də danışmışam. O da bu məsələnin həllini sürətləndirməyə tamamilə tərəfdardır. Biz bu fikirdəyik ki, həmin məsələ yaxın vaxtlarda həll olunmalıdır. Lakin Azərbaycanın Qərb şirkət-

ləri ilə müqavilə imzalaması çəkişmə mövzusu olmamalıdır. Xəzərlə bağlı məsələlərdə müvafiq dövlətlərin ehtiyat etməsini başa düşmək mümkündür. Bu gün bizlərdən kimsə bir iş görərkən qonşular buna həmişə şübhə ilə yanaşırlar. Bizim də Hollandiya və Argentina firmaları ilə sazişlərimiz var, onlar Xəzər dənizinin sahilində işləyirlər. Lakin biz mövcud neft mədənlərində hasilatın artırılması barədə saziş bağlamışıq və gəliri yarı böləcəyik. Xəzərin Türkmənistan sahillərindəki şelfində iş görmək barədə də danışıqlar aparacağıq. Əgər Rusiya ilə saziş bağlamaq sərfəli olarsa, – onunla, İranla sərfəli olarsa, – onunla saziş bağlayacağıq. Zənnimcə, yalnız ümumi statusu müəyyənləşdirmək və etimad yaratmaq lazımdır.

**Sual:** Dünən Azərbaycanın istiqlaliyyətinin ildönümü idi. Oktyabrın 27-si Türkmənistanın istiqlaliyyət günüdür. Orta Asiyanın digər dövlətlərinin istiqlaliyyət günləri barədə məlumat ala bilərəmmi?

**Süleyman Dəmirəl:** İstiqlaliyyət günü çox önəmlidir. İstiqlaliyyət gününü qeyd edən qardaş xalqlara ən səmimi təbriklərimizi yetiririk. Oktyabrın 18-də Azərbaycan, 27-də Türkmənistan, 29-da Türkiyə, daha sonra Qazaxıstan bu ildönümlərini keçirirlər. Qırqızıstan və Özbəkistan öz istiqlaliyyət günlərini daha öncə qeyd etmişlər. Bizim üçün – Türkiyə üçün və şəxsən mənim üçün son dərəcə sevindirici haldır ki, vaxtilə dünya dövlətləri içərisində tək bir bayraqla təmsil olunmuş böyük türk xalqları indi altı bayraqla təmsil edilir. Bu, qürur hissi doğurur. Bu dövlətlərə əbədi istiqlaliyyət, qardaş xalqlara isə uğurlar və tərəqqi diləyirik.

**Sual:** Rusiya Xarici İşlər Nazirliyinin bügünkü bəyanatında Zirvə toplantısının onları narahat etdiyi bildirilir. Türk dövlətlərinin başçıları bu bəyanatla bağlı nə fikirdədirlər?

**Süleyman Dəmirəl:** Zirvə toplantısı Türkiyədə keçirildiyinə görə suala mən cavab verirəm. Nəzakət qaydalarından kənara çıxmaq istəmirəm. Türkiyə müstəqil ölkədir və Orta Asiya dövlətlərinin, Azərbaycanın buraya gəlmiş hörmətli prezidentləri də müstəqil dövlətləri təmsil edirlər. Əgər Rusiya Xarici İşlər Nazirliyinin bəyanatında İstanbulda keçirilən və birlik, bərabərlik, sülh, istiqlal və ölkələrimizin xalqlarının, bölgə xalqlarının birliyinə yardımçı olmaq məqsədi daşıyan bir toplantı özlərinə qarşı düşmənçilik kimi başa düşülürsə, bu səhvdir. Bu toplantı hamının gözü qarşısında keçir. Burada 24 maddədən ibarət bəyannamə qəbul edilmişdir. Müstəqil dövlətlərin sülh, istiqlal, ölkələrinin tərəqqisi üçün keçirdikləri tədbiri başqa bir ölkənin ona qarşı təzyiq kimi başa düşməsini heç cür anlamaq mümkün deyildir. Toplantının qəbul etdiyi bəyannamə çox diqqətlə işlənib hazırlanmışdır. Orada pantürkizmdən əsər-əlamət yoxdur. Burada əyləşən hörmətli dövlət başçılarının hamısı bir daha söylədilər ki, biz müştərək mədəniyyətə, müştərək taleyə, keçmişə, müştərək dinə malik olan xalqlarıq. Müştərək dildən, dindən, mədəniyyətdən vazmı keçək? Bunu tarix belə yetirmişdir. Ona görə də lüzumsuz işlərə yer yoxdur. Biz ayrı-ayrılıqda, yaxud birlikdə kimisə təkləmək fikrində deyilik. Zirvə toplantısı keçirdik və hər birimizin tam razılığı ilə sənəd imzaladıq. Axırda da mətbuat konfransı təşkil etdik ki, heç kim bizim sülh və rifah tərəfdarı olmağımıza şübhə etməsin.

## TÜRKMƏNİSTANIN MÜSTƏQİLLİK QAZANMASININ 3-cü İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ ŞƏNLİKLƏRDƏ İŞTİRAK ETMƏK ÜÇÜN AŞQABADA YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ QISA MÜSAHİBƏ

*26 oktyabr 1994-cü il*

Tarixən Azərbaycan ilə Türkmənistan arasında çox sıx əlaqələr olmuşdur. İndi müstəqil dövlət kimi, bu əlaqələri daha da möhkəmləndirməyimizə ehtiyac var. Coğrafi baxımdan yaxınlığımız, milli keçmişimiz və s. bunu tələb edir. Eyni zamanda bu səfər yaxşı bir imkandır. Bayram təntənələrində iştirak etmək üçün digər ölkələrin dövlət başçıları da gələcəkdir. Ümumi işlərimizlə, coğrafi-siyasi məsələlərlə bağlı onlarla görüşüb, söhbət etməyə ehtiyac var. Bu məqsədlə də mən Türkmənistan prezidenti Saparmurat Niyazovun dəvətini qəbul etmişəm və indi oraya səfərə gedirəm.



## AŞQABADDA PAKİSTANIN BAŞ NAZİRİ BƏNƏZİR BHUTTO İLƏ GÖRÜŞDƏN SONRA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*26 oktyabr 1994-cü il*

Pakistan Asiyanın çox böyük müsəlman ölkələrindən biridir. Hazırda bu ölkə ilə Azərbaycan arasında yaxşı münasibətlər vardır. Pakistanın nümayəndələri beynəlxalq təşkilatlarda, xüsusən Birləşmiş Millətlər Təşkilatında və onun Təhlükəsizlik Şurasında Ermənistanla Azərbaycan arasındakı problemlərin müzakirəsində həmişə respublikamızın mövqeyini müdafiə etmiş, dəstəkləmişlər. Bundan əlavə, Pakistanla Azərbaycan arasında tarixi köklərimizə görə də bağlılıq olmuşdur və indi də ticarət-iqtisadi əlaqələrin inkişaf etdirilməsinə ehtiyac vardır.

Ona görə də mən sentyabrın 5-də Qahirədə Pakistanın baş naziri Bənəzir Bhutto ilə görüşdüm, ətraflı söhbət etdik. Bu gün də görüşdük. Görüşümüzün əsas məqsədi dövlətlərimiz arasındakı əlaqələrin inkişafı yollarını müzakirə etmək idi. Mən Bənəzir Bhuttonu Azərbaycana dəvət etmişəm. O da məni Pakistana rəsmi səfərə dəvət edib. Belə razılığa gəldik ki, Pakistan Azərbaycana iqtisadi və ticarət sahələri üzrə böyük bir nümayəndə heyəti göndərəcək və biz respublikamızda onlarla birgə işləyəcəyik. Bundan sonra Bənəzir Bhuttonun ölkəmizə gəlməsi gözlənilir. Daha sonra mənim Pakistana səfərim olacaq. Yəni Asiyanın böyük, dünyada nüfuzu olan ölkəsi, bizə çox yaxşı münasibəti olan Pakistanla əlaqələrimizi inkişaf etdirmək istəyirik. Ona görə də mən Qahirədə də, burada da Bənəzir Bhutto ilə görüşdüm və bu görüşlərdən çox məmnunam.

Bənəzir Bhutto çox yaxşı bir insandır, yaxşı bir rəhbərdir. Mən vaxtilə onun atası ilə də, anası ilə də tanış idim. İndi özü ilə də görüşüb tanış olduq və bu görüşlərdən çox razıyam.

Görüşümüzdə Bənəzir Bhutto mənim bioqrafiyamla maraqlandı. Çünki o bilmirdi ki, tarixdə ilk dəfə müsəlman bir şəxs Sovetlər İttifaqı kimi, Rusiya kimi böyük bir ölkənin başçılarından biri olub və bu necə olub. O dedi ki, onlar Sizi bu yüksək vəzifəyə şəxsi keyfiyyətlərinizə görə, yoxsa nəyə görə aparmışdı? Mən bunların hamısını izah et-

dim. Bu məsələləri siz bilirsiniz, ona görə mən bir daha təkrar etməyəcəyəm. Mənim Siyası Büronun tərkibində necə olmağım sizə yaxşı məlumdur. Onun bilmədiklərini mən dedim.

Pakistanın xarici işlər naziri baş nazir Bənəzir Bhuttoya demişdi ki, Sovet İttifaqı Əfqanıstana qoşun yeridəndə mən bunun əleyhinə çıxmışam. Xarici işlər naziri bunu düzgün bilir. Dedim ki, həqiqətən o vaxt mən Əfqanıstana Sovet qoşunları yeridilməsinin əleyhinə çıxmışam. 1990-ci il yanvarın 20-də Sovet qoşunlarının Azərbaycana yeridilməsinin də əleyhinə çıxmağımı, etiraz etməyimi Bənəzir Bhutto bilir. O bunu da soruşdu və mən ona izah etdim. Yəni mənim müsəlman kimi Sovet İttifaqının rəhbərlərindən biri olmağım onun üçün maraqlı idi və bunların hamısı haqqında ona danışdım.

**S u a l :** Bənəzir Bhutto ilə görüşdə Xəzərin statusu məsələsinə toxunuldumu?

– Yox, İran İslam Respublikasının prezidenti Haşimi-Rəfsəncani və Türkmənistanın prezidenti Saparmurad Niyazovla sabahkı görüşlərimdə, ola bilər ki, Xəzərin statusu məsələsinə toxunulsun. Ancaq Bənəzir Bhutto bu məsələyə toxunmadı. Süleyman Dəmirəlin isə bu məsələdə mövqeyi aydındır.

**S u a l :** Bu səfərinizdə Azərbaycan üçün mühüm olan hansı məsələni müzakirə etmək niyyətindəsiniz?

– Süleyman Dəmirəllə biz altı gün bundan qabaq İstanbulda görüşmüşdük. Bu gün də görüşdük. Bu görüşlər daimi xarakter daşıyır. Türkiyə bizim üçün ən yaxın bir ölkədir. Şəxsən Süleyman Dəmirəl bir siyasi xadim kimi, Azərbaycana çox böyük qayğı göstərir. Ona görə də hər dəfə görüşərkən biz bütün məsələlər haqqında söhbət aparırıq – həm Ermənistanla Azərbaycan arasında indiki münasibətlər, hazırkı vəziyyət, həm ATƏM təşkilatı Minsk qrupunun fəaliyyəti, həm də müharibəyə sülh yolu ilə son qoyulması yolları haqqında.

Süleyman Dəmirəl Azərbaycandakı vəziyyətlə çox maraqlanır və son vaxtlar respublikamızda baş vermiş dövlət çevrilişi cəhdi ilə əlaqədar narahatlığını bildirir. O, respublikamızın daxilində sabitliyin daha möhkəm təmin olunması barədə öz tövsiyələrini verir, fikirlərini deyir. Bilirsiniz ki, indi respublikamızda un, taxıl çatışmazlığı var. Süleyman Dəmirəl iki gün bundan qabaq mənə telefonla zəng etmişdi, bu gün də dedi ki, onlar Azərbaycana bu günlərdə yüz min ton taxıl göndərməyə başlayacaqlar. O, bunu görüşdə bir daha təsdiq etdi, bilirsiniz ki, bu günlərdə yenə də Ankaraya gedəcəyik, orada da görüşlərimiz olacaq.



Mən sabah Türkmənistanın prezidenti Saparmurat Niyazovla görüşəcəyəm. Türkmənistan bizim üçün yaxın bir ölkədir. Bizim əlaqələrimiz keçmişdə də çox güclü olubdur – Sovet İttifaqı vaxtında da, əsrin lap əvvəlində də. Vaxtilə burada çoxlu azərbaycanlı yaşamış, indi də yaşayanlar çoxdur. Hazırda Türkmənistanın iqtisadi imkanları böyükdür. Çeçenistanda dəmir yolu bağlı olduğu üçün indi artıq Krasnovodsk-Bakı dəniz yolundan istifadə etməyə məcburuq. Ona görə də mən sabah Saparmurat Niyazovla bir neçə məsələni müzakirə edəcəyəm.

**S u a l :** Bu yaxınlarda Moskvada Azərbaycan və Türkmənistanın hər iki ölkənin müstəqilliyi məsələsində eyni mövqe tutması doğrudurmu və Sizin Aşqabada indiki səfərinizin bununla əlaqəsi varmı?

– Xeyr, bu heç nə ilə bağlı deyil, bu mənim mövqeyim, Azərbaycanın mövqeyidir. Əgər kim isə buna şərikdirsə, bu onun öz mövqeyidir. Burada irəlicədən heç bir razılaşma yoxdur. Mən kimin necə mövqe tutduğunu bilmirəm, öz mövqeyimi bundan asılı olmayaraq bildirirəm. Konkret olaraq indiki halda mən buraya ona görə gəlməmişəm ki, Azərbaycan ilə Türkmənistan Moskvada eyni mövqe tutmuşlar. Ona görə gəlmişəm ki, ölkələrimiz arasında sıx münasibətlər olmasını istəyirəm. Keçmişdə belə münasibətlər olmuşdur. Burada – Türkmənistanda xeyli azərbaycanlı yaşayır. Türkmənistan bizə qonşu, dilimizə və keçmişimizə görə yaxın bir ölkədir. Ona görə də mən istəyirəm ki, ölkələrimiz arasındakı əlaqələrimizi möhkəmləndirək. Vaxtilə böyük səhvlər buraxılıb, Azərbaycanı Orta Asiya, ümumiyyətlə, mərkəzi Asiya ölkələrindən uzaqlaşdırıblar. Mən istəyirəm ki, bu, aradan götürülsün. Ona görə də buraya gəlmişəm. Güman edirəm ki, belə tədbirlər gələcəkdə keçmiş İpək Yolunun canlandırılmasına kömək edəcəkdir.

## «AZƏRBAYCAN GƏNCLƏRİ» QƏZETİNİN KOLLEKTİVİNƏ

«Azərbaycan gəncləri» respublikamızın mətbuat aləmində şərəfli yaradıcılıq yolu keçmiş, qəzetçilik ənənələrimizin inkişafında silinməz izlər buraxmış, özünəməxsus sənətkarlıq xüsusiyyətləri ilə seçilən nəşrlərdəndir. Bu qəzet qəhrəman Azərbaycan gəncliyinin onlarla nəslinin ayrılmaz yol yoldaşı olmuş, bu nəsillərin rəşadətli həyatının mətbuat salnaməsinə çevrilmişdir.

Respublikamızda jurnalistika sənətinin inkişafında da «Azərbaycan gəncləri» qəzeti mühüm rol oynamışdır. Sonradan ölkə mətbuatının tanınmış nümayəndələrinə çevrilmiş bir çox gənc, ədəbi-publisistik qüvvələr ilk sənət addımlarını «Azərbaycan gəncləri» qəzetində atmışlar.

Qəzet bu gün də öz ənənələrinə sadiq qalaraq, gənc nəslin tərbiyəsi işində fəaliyyətini davam etdirir. Müstəqil Azərbaycanın ictimai-siyasi həyatının bir çox sahələri qəzetin səhifələrində öz əksini tapır. Amansız təcavüzkara qarşı apardığımız ölüm-dirim müharibəsində Azərbaycan gənclərinin göstərdikləri mərdlik və qəhrəmanlıq, vətənə alovlu məhəbbət və təmənnasız xidmət hissinin aşılanması qəzetin başlıca mövzularındandır.

İlk nömrəsinin çapdan çıxmasının 75 illiyi münasibətilə «Azərbaycan gəncləri» qəzetinin bütün əməkdaşlarını ürəkdən təbrik edir, sizə cansağlığı, müstəqil Azərbaycanın daha xoş gələcəyi naminə fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

***HEYDƏR ƏLİYEV***
***27 oktyabr 1994-cü il***



## AŞQABADDAN BAKIYA YOLA DÜŞƏRKƏN TƏYYARƏDƏ İRAN İSLAM RESPUBLİKASI VƏ TÜRKMƏNİSTAN PREZİDENTLƏRİ İLƏ GÖRÜŞLƏR BARƏDƏ JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*27 oktyabr 1994-cü il*

Bilirsiniz ki, İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və qardaşlıq əlaqələri var. Mənim son dəfə Tehrana rəsmi səfərim vaxtı orada bir çox sənədlər imzalanmışdır. Biz onların həyata keçirilməsi ilə məşğul oluruq. Ancaq eyni zamanda bəzi məsələlər də vardır ki, biz onlar barədə danışmalı və məsləhətləşməli idik. Bugünkü görüşlərimizdə belə danışıqlar, məsləhətləşmələr oldu. İranın neft və qaz sənayesi naziri cənab Ağazadə bir neçə gündən sonra Azərbaycana gələcək, ölkələrimizin neft sahəsində əməkdaşlığı ilə əlaqədar bəzi məsələləri müzakirə edəcəkdir. Biz digər məsələlərə də toxunduq. Ancaq mən bir məsələ üzərində dayanmaq istəyirəm.

Son vaxtlar bəzi qüvvələr Azərbaycan ilə İran arasında münasibətlərə ləkə salmaq, onları pozmaq istəyirlər. Mən hesab edirəm ki, bütün bunlar təxribatçı qüvvələrdir. İran bizim yaxın qonşumuzdur, dost ölkədir, münasibətlərimiz çox yaxşıdır və bundan sonra da yaxşı olmalıdır. Şəxsən mən, bir prezident kimi, bu vəzifəyə gələndən İran ilə Azərbaycan arasında əvvəllər olan soyuqluğu aradan götürməyə, münasibətlərin inkişaf etdirilməsinə çalışmışam.

Təəssüf ki, Azərbaycanda bəzi qüvvələr, dairələr var, onlar əks istiqamətdə hərəkət edirlər. Bu, Azərbaycan xalqının xeyrinə deyil, zərərinədir. Ədalətli olaraq da bunlar İran ictimaiyyətində, o cümlədən İranın rəhbərliyində narazılıqlar yaradır. Bu barədə bizim bir-iki dəfə söhbətimiz olub. Mən müəyyən göstərişlər vermişəm, ancaq təəssüf ki, riayət etmirlər. Mən bu günlərdə Bakıda İran İslam Respublikasının səfirini qəbul edəndə o, bu barədə bəzi narazılıqlarını mənə bildirdi. Dedi ki, guya bu yaxınlarda Azərbaycan televiziyası ilə bir veriliş olub və orada İranla Azərbaycanın əlaqələrinə toxunan, zərər gətirən fikirlər, sözlər söylənilib. Mən bildirmək istəyirəm və güman edi-

rəm ki, bunu televiziya bütün əhaliyə çatdırar, mətbuatda da verərlər. Mən bunları təxribat xarakteri daşıyan hərəkətlər kimi qiymətləndirirəm, bunların tamamilə əleyhinəyəm. Dövlət Teleradio Şirkətinə də bu barədə əlavə göstərişlər verəcəyəm ki, belə hərəkətləri dayandırsınlar.

İndiki görüşdə Haşimi-Rəfsəncanı dedi ki, oktyabrın 4-də Azərbaycanda dövlət çevrilişi cəhdinin əleyhinə keçirilən mitinqlərdə bu hadisələrin guya İran tərəfindən təşkil edilməsi barədə bəzi sözlər deyilmişdir. Bilmirəm, bu olub, ya olmayıb, ancaq əgər belə danışıqlar olubsa, bunların heç bir əsası yoxdur. Hesab edirəm ki, son vaxtlar respublikamızın daxilində baş verən qarışıqlığın və ayrı-ayrı cinayətkar qüvvələrin dövlət çevrilişi etmək cəhdinin İran İslam Respublikası ilə heç bir əlaqəsi yoxdur və ola bilməz. Ona görə də kim belə bir söz deyibsə, mən bunu təkzib edirəm. Ola bilər ki, deyiblər, deməsələr, bu, İran ictimaiyyətinə çata bilməz.

Haşimi-Rəfsəncani ilə görüşdə bu barədə söhbətimiz oldu. Mən ona bir daha bildirdim ki, bizim dostluq və qardaşlıq əlaqələrimiz bundan sonra da davam edəcəkdir. Həm İranda, həm də Azərbaycanda bizim bu əlaqələrə mane olmaq istəyənlərin qarşısı alınmalıdır və biz öz tərəfimizdən bunun qarşısını almalıyıq. Mən bu sözləri sizin hamınıza çatdırıram. Güman edirəm ki, sizin də hər biriniz təmsil etdiyiniz kütləvi informasiya vasitələri xətti ilə dinləyicilərə, oxuculara, tamaşaçılara çatdıracaqsınız.

İran İslam Respublikasının prezidenti ilə görüşdə iqtisadi əlaqələrimizlə bağlı başqa danışıqlarımız da oldu. Danışıqlarımız dostluq, mehribanlıq və səmimilik şəraitində keçdi. Mən bu görüşdən və danışıqlardan razıyam.

Türkiyənin prezidenti hörmətli Süleyman Dəmirəllə biz son vaxtlar İstanbulda görüşmüşdük. Orada bizim danışıqlarımız olmuşdur. Amma burada yenə də söhbət apardıq, bəzi məsələləri müzakirə etdik. Süleyman Dəmirəl Azərbaycanın hazırki daxili vəziyyəti ilə maraqlandı. Haşimi-Rəfsəncani də çox narahatlığını bildirdi. Mənə dedi ki, oktyabrın 4-də gecə onlar da çox narahatlıq çəkiblər. O, indiki vəziyyətlə də maraqlandı. Mən bildirdim ki, indi sakitlikdir. Bu məsələyə Süleyman Dəmirəl də çox maraq göstərdi. Mən ona da bildirdim ki, indi sakitlikdir. Biz cinayətkar qrupların hərəkətinin qarşısını almışıq. Ancaq onların bəziləri indi qaçıblar, gizləniblər, ya respublikanın ərazisindədirlər, ya da ərazimizdən kənardadırlar. Ola bilər ki, müəyyən bir fəaliyyət göstərmək istəyirlər. Doğrudur, bunu çox da dramatikləşdirmək lazım deyil ki, guya onlar birləşib Azərbaycanda nə isə edə bilərlər, çevriliş edə bilərlər. Yox, bunu edə bilməzlər.



Oktyabrın 4-də xalqın həmrəyliyi göstərdi ki, heç bir qüvvə Azərbaycanda indiki dövlət quruluşunu dağıda bilməz, poza bilməz. Mən buna əminəm. Ancaq cürbəcür məlumatlar xaricə, o cümlədən İrana da gedir, Türkiyəyə də gedir. Ona görə də həm Haşimi-Rəfsəncani, həm də Süleyman Dəmirəl bu məsələlərlə maraqlanırdılar, mən də onlara bu barədə məlumatlar verdim. Süleyman Dəmirəl respublikamıza əsl dost, qardaş münasibəti göstərərək yenə də bildirdi ki, sayıq olmaq lazımdır, daxili sabitliyi qorumaq lazımdır. Mən ona dedim ki, sabitliyi saxlayırıq və bundan sonra da saxlayacağıq. Kim də bu sabitliyi pozmaq istəsə, biz onun qarşısını alacağıq.

Süleyman Dəmirəllə iqtisadi əlaqələr barədə də danışıqlarımız, söhbətlərimiz oldu. Həmişəki kimi, indi də söhbətlərimiz dostluq, mehribanlıq, səmimilik şəraitində keçdi. Bu yaxın vaxtlarda, Füzulinin 500 illiyi ilə əlaqədar bizim ora səfərimiz olacaqdır. Danışıqlarımız yenə davam edəcəkdir.

Pakistanın baş naziri Bənəzir Bhutto ilə mənim ikinci görüşüm oldu. Birinci görüşüm sentyabrın əvvəlində Qahirədə olmuşdur. Ölkələrimiz arasındakı əlaqələri inkişaf etdirmək üçün böyük imkanlar var. Bu imkanlardan hər iki tərəf istifadə etmək istəyir. Bənəzir Bhuttoya da Azərbaycandakı vəziyyət barədə məlumat verdim. O da vəziyyətlə çox maraqlanırdı. Mən Pakistanla Azərbaycan arasında müqavilələrin layihəsinin olduğunu bildirdim. Dedim ki, biz bu layihələri hazırlamışıq. Əgər Bənəzir Bhuttonun Azərbaycana rəsmi səfəri olarsa, biz onları imzalaya bilərik. Ümumiyyətlə, bizim Pakistanla münasibətlərimiz çox yaxşıdır. Onlar beynəlxalq təşkilatlarda bizi müdafiə edirlər. Biz də Pakistanı müdafiə edirik. Onların da Kəşmirlə əlaqədar problemləri var. Belə sözləşdik ki, o, iqtisadi-ticarət əlaqələri ilə bağlı yaxın vaxtlarda Azərbaycana böyük bir nümayəndə heyəti göndərəcək. Nümayəndə heyəti həmin məsələlərə Azərbaycanda bizimlə birlikdə baxacaq, araşdıracaq. Bundan sonra Bənəzir Bhuttonun Azərbaycana rəsmi səfəri barədə danışıqlar aparılacaqdır.

Mən hesab edirəm ki, bizim bu görüşümüz də çox səmərəli oldu, dostluq, mehribanlıq, səmimilik şəraitində keçdi. Bu da əlaqələrimizin inkişafına kömək edəcəkdir.

Biz Türkmənistanın müstəqilliyinin üç illiyi bayramında iştirak etdik. Mən Türkmənistanın əldə etdiyi nailiyyətləri dostluq və məmnuniyyət hissi ilə gördüm, onların şahidi oldum. Türkmənistanın prezidenti Saparmurad Niyazov– Türkmənbaşı ilə, Ali məclisin sədri ilə (o məni daim müşayiət edirdi) söhbətlərimdə də mən hiss etdim ki, Türkmənistan iqtisadiyyat sahəsində yaxşı nailiyyətlər əldə edib. Ölkənin iqtisadiyyatı yaxşı səviyyədədir. Onlar xarici ölkələrin investisiyalarından, kreditlərindən çox səmərəli istifadə ediblər, ölkədə sabitlikdir. Özəlləşdirmə məsələsi ilə, xüsusən torpaqların şəxsi mülkiyyətə verilməsi ilə məşğuldurlar. Məsələn, prezidentin özü 50 hektar torpaq götürüb və ondan şəxsi mülkiyyət kimi istifadə edir. Məclisin sədri də 50 hektar torpaq sahəsi götürüb və hamıya da torpaq sahəsi verirlər. Bu, çox yaxşı haldır. Ancaq onların iqtisadi nailiyyətləri yalnız bundan ibarət deyil. Başqa sahələrdə də çox işlər görürlər. Mən hesab edirəm ki, onlarda ümumi daxili, ictimai-siyasi vəziyyət yaxşıdır, sabitdir.

Bizimlə əlaqələri inkişaf etdirmək barədə Saparmurad Niyazovla geniş söhbətlər apardıq. Respublikamıza münasibətləri çox müsbətdir, mehriban əlaqələrimiz var və bunları inkişaf etdirəcəyik. Mən şəxsən bu bayram mərasiminə gəlməyimdən çox məmnunam. Bir dost, qardaş ölkə kimi, Türkmənistanın əldə etdiyi nailiyyətlərə mən də sevinirəm.

Guman edirəm ki, gələcəkdə əməkdaşlığımız üçün çox böyük imkanlar var və Saparmurad Niyazovla danışdıq ki, bu imkanlardan hər iki tərəf istifadə etməyə çalışacaqdır. Saparmurad Niyazov Azərbaycana taxıl verilməsi məsələsinə də kömək göstərəcəyinə söz verdi.

Guya həm Rusiyanın, həm də İranın Azərbaycan Dövlət Neft Şirkətinin xarici neft şirkətləri konsorsiumu ilə bağladığı müqavilənin əleyhinə olması barədə Rusiya mətbuatında dərc edilən yazılarla əlaqədar jurnalistlərin sualına cavab verən Azərbaycan Prezidenti bildirdi ki, Haşimi-Rəfsəncani bu fikirləri təkzib edir və deyir ki, biz Rusiya ilə belə söhbətlər aparmamışıq. Biz sadəcə olaraq (bu, bir il bundan əvvəl başlanmış prosesdir) Xəzər dənizində əməkdaşlıq etmək üçün görüşlərin lüzumluluğunun tərəfdarı olmuşuq və ona görə də belə bir görüşün keçirilməsini istəmişik. Ancaq bu sizin müqavilənin bağlanmasından sonrakı vaxta düşüb. Rusiya mətbuatı da belə məlumatlar verib. Onlar doğru məlumat verməyiblər. Haşimi-Rəfsəncani bu məlumatları təkzib edir və İran bağladığımız müqavilənin qətiyyən əleyhinə deyildir.



## BMT-nin BAŞ KATİBİ BUTROS BUTROS-QALİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ ZAMANI BAKIDA BİNƏ HAVA LİMANINDA QARŞILANMASI MƏRASİMİNDƏ ÇIXIŞ

*29 oktyabr 1994-cü il*

Birləşmiş Millətlər Təşkilatının Baş katibi doktor Butros Butros-Qali cənablarını Azərbaycan torpağında səmimi-qəlbdən salamlayıram. Bir neçə gün bundan öncə Azərbaycan Respublikası öz dövlət müstəqilliyinin üçüncü ildönümünü qeyd etdi. Üç il ərzində Azerbaycan Respublikası Dünya Birliyinə daxil olmuşdur, Birləşmiş Millətlər Təşkilatının üzvüdür və BMT-nin Baş katibi cənab Butros Butros-Qali ilk dəfədir Azərbaycan torpağına səfər edir. Biz cənab Butros Butros-Qalinin Azərbaycana səfərini yüksək qiymətləndiririk və bu səfərə çox ümidlər bəsləyirik.

Azərbaycan Respublikasının indiki ağır vəziyyəti, müharibə şəraitində olması, respublikada bir milyondan çox qaçqının olması, başqa problemlər dünyanın nəzər-diqqətini Azərbaycana cəlb edir. Biz Birləşmiş Millətlər Təşkilatının və onun Baş katibi Butros Butros-Qalinin bu məsələlərə diqqət yetirdiklərini həmişə hiss edirik. Ümidvaram ki, burada keçiriləcək görüşlərdə və aparılacaq danışıqlarda Azərbaycanın müstəqilliyini möhkəmlətmək, onun qarşısında duran məsələlər barəsində ətraflı söhbətlər gedəcəkdir və Birləşmiş Millətlər Təşkilatının Baş katibi cənab Butros Butros-Qali bu məsələlərə böyük diqqət yetirəcəkdir.

Hörmətli dostumuz cənab Butros Butros-Qali, Azərbaycan torpağına, Azərbaycan Respublikasına xoş gəlmisiniz. Bura sizin üçün doğma torpaq, doğma bir yerdir və burada hər bir vətəndaş, hər bir ailə sizin bu gəlişinizi alqışlayır, sizə mehribanlıq və qonaqpərvərlik hissləri göstərməyə hazırdır.

## BMT-nin BAŞ KATİBİ BUTROS BUTROS-QALİ İLƏ DANIŞIQLAR BAŞA ÇATDIQDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*30 oktyabr 1994-cü il*

Birləşmiş Millətlər Təşkilatının Baş katibi cənab Butros Butros-Qali ilə çox səmərəli danışıqlar apardıq. İndi isə sizinlə görüşə gəlmişik.

Mən görüşümüz və apardığımız danışıqlar barədə cənab doktor Butros Butros-Qalinin verdiyi məlumatla tamamilə razıyam. Bir daha bildirmək istəyirəm ki, danışıqlarımız çox mehribanlıq və səmimilik şəraitində keçmişdir.

Danışıqlarımızın əsas mövzusu Azərbaycanın müharibə vəziyyətindən çıxması və Ermənistanın təcavüzündən xilas olması məsələsi idi. Mən bu barədə cənab Butros Butros-Qaliyə ətraflı məlumat verdim, bizim mövqeyimizi bir daha bəyan etdim.

Mən çox məmnunam ki, cənab Butros Butros-Qali Ermənistanın Azərbaycana qarşı təcavüzünün qarşısının alınması üçün dörd əsas prinsipi* bu gün bir daha bəyan etdi. Biz məhz bu dörd prinsip əsasında Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsini tələb edirik. Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan silahlı qüvvələrinin qeyd-şərtsiz çıxmasını, qaçqın vəziyyətində yaşayan bir milyondan artıq vətəndaşımızın həmin torpaqlar azad edilən kimi öz yurd-yuvalarına qayıtmasını tələb edirik. Cənab doktor Butros Butros-Qali bizim bu problemlərimizə çox böyük diqqət və maraq göstərdi. Bizim danışıqlarımız, apardığımız fikir mübadiləsi mənə belə deməyə əsas verir ki, cənab doktor Butros Butros-Qali Ermənistanda olarkən bu məsələlərin həllinə səy göstərəcəkdir.

---

* Butros Butros-Qalinin irəli sürdüyü prinsiplər aşağıdakılardır:
1) Azərbaycan Respublikasının ərazi bütövlüyü;
2) beynəlxalq sərhədlərin toxunulmazlığı
3) zor işlətməklə ərazi işğal etməyin yolverilməzliyi;
4) xarici qoşunların işğal olunmuş bütün ərazilərdən heç bir qeyd-şərt irəli sürmədən dərhal çıxarılması.



Mən Birləşmiş Millətlər Təşkilatına və onun Baş katibinə Azərbaycan xalqı, Azərbaycan Respublikası adından bir daha hörmət və ehtiramımı bildirirəm: bir daha qeyd edirəm ki, Azərbaycan xalqı, respublikamızın vətəndaşları bu ağır vəziyyətdən çıxmaq üçün Birləşmiş Millətlər Təşkilatına, onun Təhlükəsizlik Şurasına və BMT-nin Baş katibi cənab doktor Butros Butros-Qaliyə çox böyük ümid bəsləyirlər. Azərbaycan Respublikasına göstərilən bu qayğıya görə təşəkkürümü bildirirəm və ümidvaram ki, respublikamızın bu ağır iqtisadi vəziyyətdən çıxması üçün, cənab Butros Butros-Qalinin qeyd etdiyi kimi, Birləşmiş Millətlər Təşkilatının imkanlarından istifadə olunacaq və Azərbaycana, xüsusən, qaçqınlara maddi yardım göstəriləcəkdir. Cənab Butros Butros-Qali, sizə bir daha təşəkkür edirəm.

**Sual:** Danışıqlar zamanı Azərbaycanın ağır iqtisadi vəziyyətdən çıxmasına yardım göstərilməsi barədə də fikir mübadiləsi olmuşdur. Mənim sualım cənab Butros Butros-Qaliyədir. Dünyanın hər hansı bir ölkəsində Azərbaycan Dövlət Teleradio Şirkətinin nümayəndəliyinin ofisinin açılmasına kömək edə bilərsinizmi?

**B. Butros-Qali:** Mən Nyu-Yorka qayıtdıqdan sonra bu məsələni Birləşmiş Millətlər Təşkilatının rabitə və kommunikasiya məsələləri şöbəsinin direktoru ilə müzakirə edəcəyəm. Hələlik, sizə hər hansı vəd vermək istəməzdim. Çünki bu, büdcə və maliyyə çətinlikləri kimi məsələlərdən çox asılıdır. Amma söz verirəm ki, səfərim başa çatdıqdan sonra bu məsələni adını çəkdiyim şöbənin direktoru qarşısında qaldıracağam. Ondan sonra sizə məlumat verə bilərəm.

**Sual:** Cənab Prezident, Azərbaycanda Sizi haqlı olaraq general de Qoll ilə müqayisə edirlər. Siz sübut edə bildiniz ki, böyük siyasi xadim, böyük rəhbər heç də diktator olmamalıdır. Respublikadakı bütün siyasi hadisələri qan tökülmədən aradan qaldıra bildiniz. Siz hesab edirsinizmi ki, neft müqaviləsinin imzalanması ilə iqtisadi irəliləyiş başlanır?

İkinci sualım cənab Butros Butros-Qaliyədir. Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında Ermənistan parlamentinin qəbul etdiyi qərar hələ də qüvvədədir. Uydurma «Dağlıq Qarabağ Respublikası»nın deputatları Ermənistan parlamentinin işində iştirak edirlər. Ermənistan Respublikasını işğalçı kimi tanımaq üçün daha nə lazımdır?

**Heydər Əliyev:** Azərbaycan Respublikasında sosial-iqtisadi vəziyyət həddindən artıq ağırdır. Bunun səbəbləri bizim ictimaiyyə-

tə məlumdur. Siz də bunu yaxşı bilirsiniz, ona görə də əlavə izahata ehtiyac yoxdur. Son illər Azərbaycanın iqtisadiyyatında dağıdıcı proseslər davam etmiş, quruculuq işləri isə getməmişdir. Oktyabrın əvvəlində Azərbaycanda dövlət çevrilişinə cəhd göstərən qüvvələr də son illərdə onun iqtisadiyyatını dağıdanlardandır. Təəssüf ki, Azərbaycanın müharibə şəraitində olduğu, ağır dövrdə yaşadığı bir vaxtda respublikada belə qüvvələr mövcuddur və onlar Azərbaycanın həm iqtisadi-sosial, həm də ictimai-siyasi vəziyyətini gərginləşdirirlər. Ancaq onlar böyük səhvə yol vermişlər, bu da ondan ibarətdir ki, xalqın iradəsini, xalqın gücünü indiyədək dərk edə bilməmişlər. Oktyabrın 4-də dövlət çevrilişi cəhdinin qarşısının alınması Azərbaycan xalqının müdrikliyini, birliyini, onun möhkəm iradəsini bir daha nümayiş etdirdi.

Bu eyni zamanda onu göstərdi ki, xalqımız nə qədər ağır vəziyyətdə olsa da, Azərbaycanın dövlətçiliyini, ölkənin qanuni yolla seçilmiş prezidentini qorumağa qadirdir. Güman edirəm ki, əgər dağıdıcı qüvvələrin qarşısını ala bilsək, – əminəm ki, biz bunu edə biləcəyik – Azərbaycanda sosial-iqtisadi vəziyyət, yavaş-yavaş olsa da, yaxşılaşacaqdır.

Sentyabrın 20-də xarici ölkələrin neft şirkətləri ilə imzalanmış müqavilə Azərbaycanın iqtisadi inkişafı yolunda böyük bir mərhələdir. Ancaq heç də belə düşünmək lazım deyil ki, bu müqavilə iqtisadiyyatımızın, həyatımızın bütün məsələlərini həll edəcəkdir. Bu, iqtisadiyyatımızı inkişaf etdirmək üçün atdığımız ilk, ancaq böyük addımlardan biridir. Güman edirəm ki, bu ilk addım gələcəkdə görəcəyimiz işlər üçün yaxşı bünövrə yaradacaqdır.

İmzalanmış müqavilədən istifadə edilməsi də Azərbaycan Respublikasının özündən asılı olan məsələdir. Əgər biz səmərəli işləsək, həmin müqavilədən də səmərəli istifadə edə bilərik. Əminəm ki, biz bunlara nail ola biləcəyik.

**B. Butros-Qali:** Mənə verilən suala gəldikdə isə, zənnimcə, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının bu məsələ barədə mövqeyi tam aydındır. Bu mövqe işğalçı qoşunların Dağlıq Qarabağdan təcili olaraq və qeyd-şərtsiz çıxarılmasından ibarətdir.

**Sual:** Mənim sualım cənab Butros Butros-Qaliyədir. Hörmətli Baş katib, bu gün Xarici İşlər Nazirliyində verdiyiniz bəyanatda da, indiki görüşün əvvəlindəki çıxışınızda da belə bir fikir söylədiniz ki, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması mütləqdir, əcnəbi



qoşunlar işğal edilmiş ərazilərdən çıxmalıdır. Bundan başqa, Ermənistanı təcavüzkar adlandırdınız. Qarşıda sizi Ermənistan Respublikasına səfər gözləyir. Eyni mövqeyi orada da eyni tərzdə ifadə edəcəksinizmi?

**B. Butros-Qali:** Mənə belə gəlir ki, bu gün burada dediklərim radio vasitəsilə bir saatdan sonra Ermənistana çatır. Burada verdiyim bəyanatlar və söylədiyim fikirlər «Röyter»dən tutmuş bir sıra agentliklər vasitəsilə bütün dünyaya yayılır və xüsusi bülleten şəklində dərc olunur, mənim mətbuat katibim vasitəsilə Nyu-Yorkda da geniş yayılır. Başqa sözlə desək, mənim burada dediklərim bütün dünyaya açıq-aydın bəyan olur. İkincisi, mən burada nə isə yeni bir şey demirəm. Mənim dediklərimin hamısı Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələrində öz əksini tapmışdır.

**Sual:** Cənab Baş katib, Siz qətnamələri sadaladınız. Mənim sualım birinci, yəni 822 nömrəli qətnamə ilə bağlıdır. Onun 4-cü maddəsi vaxtilə Kəlbəcərin Dağlıq Qarabağın etnik erməniləri tərəfindən deyil, Ermənistan Respublikası tərəfindən işğal edilməsini dəqiqləşdirmək üçün oraya öz nümayəndələrinizi göndərməyi tələb edirdi. Lakin vaxt ötdü, bu nümayəndələr göndərilmədi və cəzasız qaldığını görən təcavüzkar öz əməllərini davam etdirdi, Azərbaycanın yeni-yeni torpaqları işğal olundu, yüz minlərlə insan faciəyə düçar oldu. Siz bu gün verdiyiniz bəyanatlarda da ATƏM-i dəstəklədiyinizi, BMT-nin sülhməramlı qüvvələrin fəaliyyətini əlaqələndirməyə hazır olduğunu deyirsiniz. Adları çəkilən qətnamələrin yerinə yetirilməsi yolunda konkret addımlar atmaq sahəsində BMT nə kimi tədbirlər görür?

**B. Butros-Qali:** Məlum qətnamənin 4-cü maddəsinə gəldikdə, onu qeyd etmək istəyirəm ki, həmin maddəyə əsasən BMT-nin Baş katibi ATƏM-in sədri ilə əməkdaşlıq çərçivəsində onunla əlaqə saxlayaraq, Kəlbəcər rayonunun işğalı məsələsinin tam, düzgün qiymətləndirilməsi üçün oraya nümayəndə göndərməli idi. Bundan sonra Təhlükəsizlik Şurası bir sıra başqa qətnamələr də qəbul etmişdir. Həmin qətnamələr qəbul ediləndə də regiondakı vəziyyət barədə məlumat Təhlukəsizlik Şurasına çatdırılmışdır.

**Sual:** Siz dediniz ki, bütün qətnamələr işğalçı qüvvələrin Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmasını tələb edir. Lakin qeyd etdiniz ki, hələlik buna əməl olunmamışdır. Belə olan halda, BMT rəhbərliyinin sərəncamında Təhlükəsizlik Şurasının qətnamələrini yerinə

yetirməyən ölkəyə qarşı iqtisadi və hətta hərbi təsir göstərmək üçün tədbirlər imkanı var. Siz İraqda, keçmiş Yuqoslaviyada və başqa yerlərdə bunu tətbiq etmisiniz. Nə üçün indiki halda BMT heç bir tədbir görmür ki, Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirilsin?

**B. Butros-Qali:** Bildiyiniz kimi, qərarları Təhlükəsizlik Şurası qəbul edir. Baş katibin rolu və vəzifəsi isə həmin qərarları həyata keçirməkdən ibarətdir. Təhlükəsizlik Şurası siyasi təşkilatdır. O bu qərarların həyata keçirilməsində maraqlı ola bilər, onların istər iqtisadi, istərsə də hərbi cəhətdən yerinə yetirilməsində təkid edə bilər.

**Sual:** Əgər Ermənistan BMT Təhlükəsizlik Şurasının qərarlarını yerinə yetirməməkdə davam edərsə, İraqda, keçmiş Yuqoslaviyada olduğu kimi, ona qarşı hər hansı sanksiyalar tətbiq ediləcəkmi?

**B. Butros-Qali:** Mənim dediyim odur ki, belə bir qərarı məhz Təhlükəsizlik Şurası çıxarmalıdır. Ona görə də sizin sualınıza cavab verə bilmərəm.

**Sual:** Rusiya prezidenti Boris Yeltsin Birləşmiş Ştatlara rəsmi səfərindən sonra bildirmişdir ki, onlar BMT-nin himayəsi altında regiona göndəriləcək qüvvələrin sırf Rusiya hərbçilərindən ibarət olacağı barədə razılığa gəlmişlər. Siz isə ATƏM-in beynəlxalq sülhyaratma qüvvələri barədə danışır və deyirsiniz ki, bu qüvvələrin formalaşdırılmasında ATƏM-ə hər cür kömək göstərməyə hazırsınız. Necə bilirsiniz, bu məsələdə Rusiyanın mövqeyi ilə BMT-nin mövqeyi arasında ziddiyyət yaranmırmı? Əgər Rusiya regiona beynəlxalq qüvvələrin göndərilməsinə etiraz edərsə, bu məsələni necə həll edəcəksiniz?

**B. Butros-Qali:** Bu məsələnin həllinin üç variantı mövcuddur. Birincisi, tamamilə BMT-nin qoşunlarından ibarət qüvvələrin regiona göndərilməsi. Əgər belə olarsa, bu qüvvələr bilavasitə BMT-nin təyin etdiyi komandanın nəzarəti altında olacaqdır. İkinci mümkün variant, regiona MDB qoşunlarının göndərilməsidir. Üçüncüsü, Gürcüstanda tətbiq edilən variantdır, yəni MDB qoşunlarının və BMT müşahidəçilərinin birgə səyləri. Bu məsələyə bir sıra başqa yönümlərdən də yanaşmaq mümkündür. Lakin bir daha qeyd etmək istərdim ki, bunlar bilavasitə BMT Təhlükəsizlik Şurasının səlahiyyətinə daxildir və o, indiyədək bu barədə heç bir qərar qəbul etməyib.

**Sual:** Cənab Butros Butros-Qali, Siz Rusiya Federasiyasının Ermənistan-Azərbaycan münaqişəsinə münasibəti barədə nə fikirdəsiniz?



**B. Butros-Qali:** Mənə belə gəlir ki, Rusiya Federasiyası BMT ilə tam əməkdaşlıq çərçivəsində fəaliyyət göstərir. Bildiyiniz kimi, Rusiya Federasiyası BMT Təhlükəsizlik Şurasının 822, 853 nömrəli və digər qətnamələrinin qəbul olunmasını bəyənmiş və bunlara səs vermişdir. Bu dediklərim BMT səviyyəsindədir. ATƏM səviyyəsinə gəldikdə isə, Rusiya Federasiyası ilə ATƏM və onun Minsk qrupu arasında çox yaxşı əməkdaşlıq mövcuddur. Bundan əlavə, Rusiya Federasiyası Ermənistan ilə Azərbaycan arasındakı münaqişəyə sülh yolu ilə son qoyulması üçün öz tərəfindən bir sıra təşəbbüslər də göstərmişdir. Biz regionda sülhün və təhlükəsizliyin bərqərar olması, bunlardan ötrü mövcud olan təhlükənin aradan qaldırılması üçün Rusiya Federasiyasının istər Birləşmiş Millətlər Təşkilatı, ATƏM çərçivəsində, istərsə də ikitərəfli münasibətlər çərçivəsində göstərdiyi təşəbbüsləri alqışlayırıq.

## DAHİ AZƏRBAYCAN ŞAİRİ MƏHƏMMƏD FÜZULİNİN ANADAN OLMASININ 500 İLLİYİ MÜNASİBƏTİLƏ TÜRKİYƏDƏ KEÇİRİLƏN YUBİLEY TƏDBİRLƏRİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ QISA MÜSAHİBƏ

*1 noyabr 1994-cü il*

Mənim bu səfərim Füzulinin 500 illiyi ilə əlaqədardır. Məhz yubileylə. Lakin Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasındakı dostluq əlaqələri elə sıxdır ki, səfərimiz Füzulinin yubiley şənlikləri ilə məhdudlaşmayacaq. Orada dövlət, hökumət başçıları ilə, ictimaiyyətlə görüşlərim olacaqdır. Ona görə də bu imkan, eyni zamanda Azərbaycanla Türkiyə Cümhuriyyəti arasında əlaqələrin daha da inkişaf etməsi üçün yeni bir addım olacaqdır. Mən bunu çox əhəmiyyətli, səmərəli sayıram və belə düşünürəm ki, bu səfərdən həm Türkiyə Cümhuriyyəti, həm də Azərbaycan Respublikası tərəfindən istifadə ediləcəkdir.



## ANKARADA «HİLTON» MEHMANXANASINDAKI İQAMƏTGAHDA TÜRKİYƏ VƏ AZƏRBAYCANDAKI XARİCİ ÖLKƏ SƏFİRLƏRİNİN QƏBULU ZAMANI ÇIXIŞ

*1 noyabr 1994-cü il*

Azərbaycan Respublikası cəmisi üç ildir ki, müstəqil bir dövlət kimi fəaliyyət göstərir, ona görə də xarici ölkələrin respublikamız üzrə səfirlərinin bir çoxu hələlik Azərbaycanın ərazisində yerləşmir. Siz öz ölkələrinizin Ankarada səfirisiniz, eyni zamanda Azərbaycan Respublikasında səfir vəzifəsini ifa edirsiniz. Sizin çoxunuz artıq Azərbaycanda olub, mənimlə görüşüb və bizim bilavasitə əlaqələrimiz yaranıb. Doğrudur, bəziləriniz hələ vaxt tapıb Azərbaycana gələ bilməmisiniz. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz–öz ölkələrinizin Ankaradakı səfirləri Azərbaycana təşrif gətirəcəksiniz və biz sizinlə Azərbaycanda görüşə biləcəyik.

Türkiyə Respublikası Azərbaycan üçün dost və qardaş bir ölkədir. Biz Türkiyə ilə çox yaxın əlaqədəyik. Bunu bütün dünya ictimaiyyəti də bilir. Bu, sizin ölkələrinizə də məlumdur. Ölkələrinizin məhz Ankarada səfiri vəzifəsini aparanların çoxu eyni zamanda, Azərbaycan Respublikasına səfir təyin olunmuşdur. Biz bunu çox məmnuniyyətlə qəbul edirik, çünki bu, bizim üçün hər cəhətdən əlverişlidir. Türkiyə ilə Azərbaycan arasındakı dostluq və qardaşlıq əlaqələri o qədər sıxdır ki, siz elə Ankarada oturanda hesab edin ki, Bakıdasınız.

Ancaq bununla bərabər, mən istərdim ki, siz Bakıya tez-tez gələsiniz. Azərbaycanın vəziyyəti ilə daha yaxından tanış olasınız və Azərbaycan ilə sizin təmsil etdiyiniz ölkələr arasında əlaqələrin inkişaf etməsinə daha ciddi səy göstərəsiniz. Güman edirəm ki, siz mənim bu arzu və istəklərimi yerinə yetirəcəksiniz.

Güman edirəm ki, respublikamızdakı vəziyyət mətbuat, informasiya orqanları vasitəsilə sizə məlumdur. Respublikamızın vəziyyətini ən çox xarakterizə edən cəhət ondan ibarətdir ki, Azərbaycan hələ indiyədək qonşu Ermənistan Respublikası ilə müharibə vəziyyətindədir. Doğrudur, son dövrdə aparılan böyük işlər nəticəsində, Ermənistanla

Azərbaycan arasında bilavasitə əlaqələr nəticəsində biz cəbhədə atəşin kəsilməsinə nail olmuşuq. Beş aydan artıqdır ki, atəşkəs rejimi davam edir. Ancaq biz bunu böyük sülh yaradılması üçün sadəcə bir mərhələ, vasitə hesab edirik, danışıqlar aparıb beynəlxalq təşkilatların, böyük dövlətlərin vasitəçiliyi ilə Ermənistanla Azərbaycan arasında Böyük Sülh Müqaviləsi əldə etmək istəyirik.

Belə bir müqavilənin bizim tərəfdən əsas şərtləri ondan ibarətdir ki, işğal olunmuş Azərbaycan torpaqlarından Ermənistan silahlı qüvvələri qeyd-şərtsiz çıxmalıdır, Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olunmalı, təmin edilməlidir, Azərbaycan Respublikasının sərhədlərinin toxunulmazlığı təmin olunmalıdır və Ermənistan silahlı qüvvələrinin hücumu nəticəsində öz yaşayış yerlərindən didərgin düşmüş, hazırda qaçqın vəziyyətində olan bir milyondan çox Azərbaycan vətəndaşı öz yerlərinə, yəni indi işğal altında olan şəhərlərə, qəsəbələrə, kəndlərə qayıtmalıdır. Biz Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılması məsələsini qaldıranda Azərbaycanın rayonlarının, o cümlədən Şuşa və Laçın rayonlarının da işğalçılardan mütləq azad olunmasını nəzərdə tuturuq.

Azərbaycanın ərazisi, onun ayrılmaz hissəsi olan Dağlıq Qarabağda məsələlərin həll olunmasını isə biz ikinci mərhələdə nəzərdə tuturuq. Bu məsələlərə Dağlıq Qarabağın statusunun müəyyən edilməsi və erməni millətindən olan əhalinin təhlükəsizliyinin təmin olunması daxildir. Əgər bizim şərtlərimiz qəbul olunarsa, şübhəsiz ki, bu məsələləri həll etmək üçün müəyyən qüvvələr Ermənistanla Azərbaycan arasındakı əraziyə daxil olmalıdır. Burada da biz beynəlxalq qüvvələrə üstünlük veririk.

Bütün bu məsələlər barədə biz Ermənistanın rəhbərliyi, şəxsən bu ölkənin prezidenti Levon Ter-Petrosyan ilə, beynəlxalq təşkilatlarla danışıqlar aparmışıq. Bu günlərdə Bakıda səfərdə olan BMT-nin Baş katibi Butros Butros-Qali ilə görüşlərimizdə, danışıqlarımızda da bu problemləri müzakirə etmişik. Bir sözlə, biz altı il davam edən bu müharibəni sülh yolu ilə həll etmək istəyirik.

Respublikanın daxilində bir çox çətinliklər, gərginliklər vardır. Bildiyiniz kimi, Azərbaycanda son illər yaranmış iqtisadi, sosial böhran indi də davam edir və dərinləşmişdir. Bunun səbəbləri aydındır. Həmin səbəblərdən biri də ondan ibarətdir ki, Azərbaycan, demək olar, blokada şəraitindədir. Azərbaycanı şimal ölkələri ilə, yəni Rusiya və başqa



ölkələrlə bağlayan dəmir yolu Çeçenistanda baş verən hadisələr nəticəsində üç aydan çoxdur ki, qapanıbdır. Biz əsas dəmir yol magistralından məhrum olmuşuq. Başqa ölkələrlə əlaqələrimiz də məhdudlaşıb. Çünki dəniz nəqliyyatı vasitələrimizdə də çətinliklərimiz çoxdur. Türkiyə ilə əlaqələrimiz dəniz vasitəsilədir və Gürcüstan ərazisindən keçir. Burada da çətinliklərimiz vardır. Bunların hamısı isə Azərbaycanın iqtisadiyyatında gərginliyi daha da artırır.

Respublikamızda hüquqi dövlət qurulması, demokratik, sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlığının, söz, vicdan azadlığının, siyasi plüralizmin təmin edilməsi, çoxpartiyali sistemin bərqərar olunması bizim əvvəldən qəbul etdiyimiz prinsiplərdir və biz bu prinsipləri ardıcıl surətdə həyata keçiririk. İqtisadiyyat sahəsində seçdiyimiz strateji yol indi də dəyişməzdir, yəni biz iqtisadiyyatımızı bazar iqtisadiyyatı yolu ilə aparmaq əzmindəyik. İqtisadi islahatlar aparmağa başlamışıq və bunları sürətlə həyata keçirəcəyik. Azərbaycanda sahibkarlığa, iqtisadiyyatda təşəbbüskarlığa geniş imkanlar yaranır və beləliklə də biz ölkəmizi sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə dünya iqtisadiyyatına daha sıx bağlamağa çalışırıq.

Azərbaycanın daxilindəki ictimai-siyasi vəziyyət, gərginlik də sizə məlumdur. Ölkəmizin daxilində və xaricində olan bəzi qüvvələr–cinayətkar, mafioz, respublikamızın müstəqilliyinə qəsd edən qüvvələr oktyabrın əvvəllərində ictimai-siyasi sabitliyi pozmağa çalışdılar və Azərbaycanda dövlət çevrilişinə cəhd etdilər. Dövlət çevrilişinə bu cəhd bir neçə qüvvə tərəfindən hazırlanmışdı. Lakin bunun iştirakçılarından biri keçmiş baş nazir Surət Hüseynov oldu. Onun ətrafına toplaşan bir qrup hərbi rütbəli adam – polisdə, Müdafiə Nazirliyində olan adamlar Gəncə şəhərində dövlət orqanlarını gecə ələ keçirdilər. Bakıda və Azərbaycanın digər bölgələrində də belə hərəkətlər etmək istəyirdilər.

1993-cü ilin iyun ayında olduğu kimi, Azərbaycan yenə də vətəndaş müharibəsi həddinə gəlib çatmışdı. Bu cinayətkar qüvvələrin, dövlət çevrilişinə cəhd edən qüvvələrin qarşısını almaq üçün şübhəsiz ki, güc işlədilməli, qan tökülməli idi. Ancaq mənim bütün Azərbaycan xalqına, vətəndaşlarına gecə yarısı müraciətim, onların dövlətçiliyimizi, Azərbaycanın müstəqilliyini qorumaq əzmində olması, milli həmrəylik, vətəndaş həmrəyliyi göstərməsi, Azərbaycanın qanuni seçilmiş prezidentini müdafiə etmək əzmi – bunlar hamısı birlikdə dövlət çevrilişinin də, vətəndaş müharibəsinin də qarşısını aldı.

O günlər cinayət etmiş adamların bir çoxu yaxalanmışdır. Amma onların bəziləri, xüsusən təşkilatçıları, o cümlədən keçmiş baş nazir Surət Hüseynov qaçıb gizlənmişdir. Doğrudur, Surət Hüseynovun həmin günlərdə həbs olunması mümkün idi. Ancaq mən prezident kimi rəhm göstərdim və gücdən istifadə olunmasını istəmədim. O gəlib mənimlə bir neçə dəfə danışıqlar apardı, sonra isə öz cinayətkar qüvvələri ilə birlikdə qaçıb aradan çıxdı və gizləndi.

Azərbaycan xalqı respublikamızın müstəqilliyinə qəsd edən bu adamları lənətləyir və onlara nifrət edir. Biz həmin günlərdə Azərbaycan xalqının, vətəndaşlarının tam əksəriyyətinin milli həmrəyliyinin şahidi olduq. Bütün bunlar, şübhəsiz ki, bizim ümumi vəziyyətimizi gərginləşdirmişdir. Amma sizə bildirmək istəyirəm ki, mən çox nikbinəm, hesab edirəm ki, bütün bu çətinliklərin qarşısı alınacaq, respublikamız bu çətin mərhələlərdən keçəcək, Azərbaycan öz müstəqilliyini qoruyub saxlayacaq və möhkəmləndirəcəkdir.

Biz ağır günlərdə dünya ictimaiyyətinin dəstəyini hiss etdik. Bir çox ölkələrdən Azərbaycanın dövlətçiliyini qorumaq, dəstəkləmək haqqında bəyanatlar aldıq. Ona görə də mən bütün bu dövlətlərə, bizimlə həmrəy olan dövlətlərin hamısına minnətdarlığımı bildirirəm.

Siz ölkəmizdə baş verən hadisələrlə maraqlanırsınız. Bir daha ümidvar olduğumu bildirmək isləyirəm ki, sizin təmsil etdiyiniz ölkələrlə Azərbaycan Respublikası arasında əlaqələr bundan sonra daha da inkişaf edəcəkdir.

**S u a l :** Hörmətli prezident, MDB ölkələri dövlət başçılarının bu yaxınlarda Moskvada keçirilmiş görüşü barədə bizə məlumat verə bilərsinizmi?

**H e y d ə r Ə l i y e v :** MDB ölkələri dövlət başçılarının bu görüşü növbəti bir görüş idi. Orada bir çox məsələlər müzakirə olundu. Əsas məsələlərdən biri MDB-yə daxil olan ölkələrin inteqrasiyasının inkişafı haqqında memorandum idi. Şübhə yoxdur ki, MDB-nin üzvü olan ölkələr inteqrasiyanı inkişaf etdirməlidirlər. Ancaq bu əlaqələr, inteqrasiya hər bir dövlətin müstəqilliyinin qorunması və saxlanılması əsasında olmalıdır. İkinci məsələ isə MDB ölkələrinin vahid iqtisadi komitəsinin yaradılması idi. Belə bir orqanın yaradılması zərurəti meydana çıxır, ancaq bu komitə də gərək hər bir ölkənin müstəqilliyinə zərər gətirməsin. Təqdim olunmuş layihələrdə bəzi müddəalar bizdə müəyyən qədər narazılıq doğurdu. Çünki nəzərdə tutulurdu ki, yaradılacaq



iqtisadi komitə dövlətlərüstü bir təşkilat olsun. Ona görə də biz bu layihələrin qəbul edilməsində öz xüsusi fikrimizi bildirdik və onların bəzi müddəalarına razı olmadıq. Başqa məsələlər də müzakirə edildi. Biz MDB-ni sadəcə olaraq dövlətlər birliyi kimi qəbul edirik və onun yeni bir fövqəldövlətə çevrilməsi təhlükəsinə qarşı çıxırıq.

**S u a l :** Hörmətli prezident, Siz dediniz ki, atəşkəsdən sonra ikinci mərhələdə Ermənistanla Azərbaycan arasında beynəlxalq qüvvələr yerləşdirilməsi mümkündür. Bu barədə Minsk qrupunun rolu haqqında nə deyərdiniz?

**H e y d ə r Ə l i y e v :** Biz Minsk qrupunun roluna böyük əhəmiyyət veririk və onunla mütəmadi əlaqədəyik. Minsk qrupunun fəaliyyətinin gücləndirilməsinə çalışmışıq və indi də çalışırıq. Bu məsələ Butros-Qali ilə son günlərdə Bakıda apardığımız danışıqların da mərkəzində dururdu. Güman edirəm ki, Minsk qrupu daha yaxşı fəaliyyət göstərsə, təkcə Minsk qrupu yox, 50-dən artıq ölkəni birləşdirən ATƏM təşkilatı bu məsələlərlə daha ciddi məşğul olsa, bizim regionda etibarlı və uzunmüddətli sülhün yaradılmasına nail olmaq mümkündür.

**S u a l :** Bu yaxınlarda Azərbaycan xarici neft şirkətləri konsorsiumu ilə müqavilə bağladı. Həmin müqavilənin təsdiq olunması barədə nə deyə bilərsiniz?

**H e y d ə r Ə l i y e v :** Bilirsiniz ki, bu müqavilənin bağlanması tarixi bir hadisədir və bizim tərəfimizdən atılmış çox cəsarətli bir addımdır. Müqavilənin bağlanması ərəfəsində də, müqavilə imzalandıqdan sonra da onun əleyhinə çıxanlar oldu. Ancaq bu müqavimətlərə baxmayaraq, biz müqaviləni imzaladıq. Azərbaycanın parlamenti hazırda bu müqaviləni müzakirə edir. Güman edirəm ki, yaxın vaxtlarda müqavilə təsdiq olunacaq.

Sizin hamınızı Azərbaycana dəvət edirəm.

# ANKARADA TÜRKİYƏ, AZƏRBAYCAN VƏ XARİCİ ÖLKƏ JURNALİSTLƏRİ ÜÇÜN MƏTBUAT KONFRANSINDA BƏYANAT

*1 noyabr 1994-cü il*

Hörmətli mətbuat nümayəndələri, mən sizi salamlayıram və Azərbaycana böyük maraq göstərdiyinizə görə məmnun olduğumu bildirirəm. Azərbaycan Respublikasında gedən proseslər, oradakı vəziyyət Türkiyə mətbuatında geniş işıqlandırılır. Türkiyə Respublikasının kütləvi informasiya vasitələrinin Azərbaycan Respublikasına göstərdiyi marağa görə mən Türkiyənin bütün mətbuat orqanlarına, radio və televiziyasına təşəkkürümü bildirirəm. Bəzən obyektiv, doğru-düzgün yazmasalar da, hər halda, Azərbaycanı yada saldıqlarına, Azərbaycan haqqında yazdıqlarına görə sağ olsunlar. Odur ki, sizə ətraflı məlumat verməyə ehtiyac duymuram və vaxt az olduğuna görə, – mənə dedilər ki, yarım saat vaxt var – sizin mənə sual verməyinizə imkan yaradacağam.

**S u a l :** Xəzər dənizi və bununla əlaqədar Rusiyanın mövqeyi barədə müxtəlif söz-söhbəi yayılmışdır. Siz bu barədə və Azərbaycanda daxili vəziyyət barədə nə deyə bilərsiniz?

**C a v a b :** Çox təşəkkür edirəm, çox yaxşı suallardır. Çalışın, yaxşı sual verin. Xəzər dənizi haqqında. Bildiyiniz kimi, Xəzərdə neft yataqları var və bu dənizin Azərbaycana aid sektorundakı neft yataqları respublikamızın neft sənayesi tərəfindən 45 ildir istismar edilir. Xəzərin Azərbaycana aid sektorundakı neft yataqlarından müştərək istifadə edilməsi üçün bir çox xarici şirkətlərlə, xüsusən Qərb ölkələrinin şirkətləri ilə, o cümlədən Türkiyənin neft şirkəti ilə son üç il ərzində danışıqlar aparılmışdır. Neft yataqlarının 30 il müddətinə müştərək istismarı haqqında konsorsiuma daxil olan xarici ölkə şirkətləri ilə Azərbaycan arasında sentyabrın 20-də müqavilə imzalanmışdır. Bu yataqlar Azərbaycana mənsub olduğuna görə, biz üç il ərzində danışıqlar apararkən və son mərhələdə, yəni müqavilə imzalanmağa hazırlanarkən Azərbaycana başqa dövlətlər tərəfindən heç bir müraciət edilməmişdir.

Lakin sentyabrın 20-də neft müqaviləsi imzalandıqdan sonra Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibliyi bu müqaviləni tanımadığı barədə bəyanat vermişdir. Biz bu bəyanatı əsassız hesab etmişik və ona heç fikir verməmişik. Sonra mən bu barədə Rusiyanın baş naziri Viktor Çernomırdinlə həm telefonla danışmışam, həm də oktyabrın 21-də Moskvada olarkən onunla görüşüb danışıqlar aparmışam. Mən bu barədə Rusiyanın xarici işlər naziri Andrey Kozırevlə də telefonla danışmışam. Bir daha bildirmişəm ki, o neft yataqları Azərbaycana mənsubdur, Azərbaycan da onlardan istifadə etməkdə tamamilə sərbəstdir. Oktyabrın 21-də mən Rusiyanın baş naziri Viktor Çernomırdinlə görüşərkən, o mənə bildirdi ki, bu məsələdə Rusiya tərəfindən heç bir problem yoxdur.

Eyni zamanda Xəzəryanı dövlətlər, yəni Rusiya, Qazaxıstan, Türkmənistan və İran təklif irəli sürmüşlər ki, Xəzər dənizində ekologiya, balıqçılıq və gəmiçilik məsələləri haqqında bir razılığa gəlmək, müqavilə bağlamaq lazımdır. Biz buna etiraz etmirik. Amma burada heç bir ölkənin üstünlüyünü də qəbul etmirik.

Xəzər dənizinin statusu haqqında mətbuatda çox yazılar verilir. Biz Xəzərin statusunun müzakirə olunmasına etiraz etmirik. Ancaq bunun imzaladığımız neft müqaviləsi ilə heç bir əlaqəsi ola bilməz. Xəzər dənizinin statusunun müzakirəsi çox vaxt aparacaqdır. Biz bu müzakirələrdə iştirak edib öz mövqeyimizi bildirməyə hazırıq.

İkinci sualınıza cavab verirəm. Azərbaycanda iqtisadi vəziyyət çox ağırdır. Son aylar Azərbaycan Nazirlər Kabinetinin buraxdığı səhvlər nəticəsində respublika əhalisinin çörəklə təminatında çox böyük çətinliklər meydana çıxıb. Şimali Qafqazda, Çeçenistanda üç aydan artıqdır ki, vəziyyət gərgin olduğuna görə, Azərbaycandan şimala gedən dəmir yolu tamamilə qapanıb. Ona görə də Azərbaycan əhalisini çörəklə təmin etmək, buğda, un almaq üçün yeganə yerimiz Türkiyədir. Burada biz Türkiyənin köməyinə çox möhtacıq. Mən bu barədə Türkiyə rəhbərlərinə müraciət etmişəm. Həmin məsələni bu gün və sabah görüşlərimizdə qaldıracağam. Çünki bu bizim üçün çox mühüm məsələdir. Ümidvaram ki, Türkiyə hökuməti və dövləti Azərbaycanı belə ağır vəziyyətdə qoymaz və bizə kömək edəcəkdir.

**S u a l :** Azərbaycanın xaricdə təbliğ edilməsini, Azərbaycan dövlətçiliyinin indiyədək dünya miqyasında apardığı təbliğatı necə qiymətləndirirsiniz və erməni təcavüzkarlığına son qoyulmasında hansı yolları daha əlverişli bilirsiniz?

**C a v a b :** Sualınızı bir az dəqiqləşdirin. Çünki təbliğat məsələsi ilə Ermənistanın təcavüzü məsələsi ayrı-ayrı məsələlərdir. Bu sualın hansı hissəsi sizə lazımdırsa, mən ona cavab verim.

**S u a l :** Azərbaycanın xaricdə təbliği məsələsinə necə baxırsınız?

**C a v a b :** Necə baxacağam ki? Mən istəyirəm ki, Azərbaycan xaricdə daha yaxşı təbliğ olunsun.Özü də bütün ölkələrdə – həm Avropada, həm də Asiyada, o cümlədən Türkiyədə də, bir sözlə, bütün dünyada. Axı Ermənistanın təbliğat imkanları Azərbaycanın imkanlarından çox üstündür. Bildiyiniz kimi, Ermənistanın Avropa, Amerika ölkələrində çox güclü lobbiləri var. Onlar Ermənistanı təbliğ edir. Ermənistanla Azərbaycan arasında gedən müharibə haqqında yanlış məlumatlar verirlər. Mən çox istərdim ki, bu barədə Azərbaycanın təbliği daha da güclənsin.

**S u a l :** Cənab Prezident, Türkiyədən nə kimi xahişlər edəcəyinizi söyləməzsinizmi?

**C a v a b:** Birinci növbədə, bəlkə də xahiş etdim ki, Türkiyə Azərbaycana təcili olaraq buğda, un göndərsin. Bildiyiniz kimi, 1992-ci ildə Türkiyə Azərbaycana 250 milyon dollar məbləğində kredit ayırıb. Bu kreditin az bir qismindən istifadə edilib. Əksər hissəsi indiyədək istifadə edilməmiş qalır. Azərbaycan iqtisadiyyatının ağır vəziyyətə düşdüyünü nəzərə alaraq, Türkiyə rəhbərlərindən bu kreditdən istifadə olunmasını xahiş edəcəyəm.

**S u a l :** Cənab Prezident, dediniz ki, Azərbaycan ərazisinin 20 faizi Ermənistanın işğalı altındadır. Ermənistan bu silahlı qüvvələri haradan alır? Hansı ölkələrin Ermənistana silahlı qüvvələr və silah göndərdikləri barədə məlumatınız varmı?

**C a v a b :** Bilməlisiniz ki, əgər Ermənistana başqa ölkələrdən həm silah, həm də digər ləvazimat sarıdan kömək olmasaydı, Ermənistan öz gücü ilə Azərbaycan ərazisinin böyük bir hissəsini, 20 faizini işğal edə bilməzdi. Ermənistana kömək edən ölkələr çoxdur. Siz bunu bilirsiniz. Haradan silah gəldiyini, haradan əskəri yardım gəldiyini, haradan başqa vəsait gəldiyini dəqiq deyə bilmərəm. Amma siz onu bilirsiniz.

**S u a l :** Ermənistana kredit verilir, silah göndərilir. Bununla əlaqədar Birləşmiş Millətlər Təşkilatının mövqeyi barədə nə deyə bilərsiniz?

**C a v a b :** Birləşmiş Millətlər Təşkilatının baş katibi cənab Butros Qali ilə Bakıda görüşlərimiz, danışıqlarımız çox səmərəli oldu. Mən Butros Qali ilə çox açıq danışdım, ona bildirdim ki, BMT Təhlükəsizlik Şurasının erməni işğalçı qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılmasını tələb edən dörd qətnaməsi indiyədək yerinə yetirilməyib. Eyni zamanda, cənab Butros Qali ilə danışıqlarımızda mən ona bildirdim ki, Birləşmiş Millətlər Təşkilatı, ATƏM, ümumiyyətlə, beynəlxalq təşkilatlar Azərbaycanla Ermənistan arasında gedən müharibəyə son qoymaq üçün və etibarlı, uzunmüddətli sülh yaratmaq üçün bundan



sonra daha güclü fəaliyyət göstərməlidirlər. Butros Qali mənim bu təkliflərimi qəbul etdi, fikirlərimlə razılaşdı və bildirdi ki, bu sahədə lazımi tədbirlər görəcəkdir.

**S u a l :** Bu günlərdə Afinadan belə bir xəbər alınmışdır ki, Azərbaycan nefti borularla Qara dənizə, oradan isə Bolqarıstan və Yunanıstan vasitəsilə Aralıq dənizinə nəql ediləcəkdir. Beləliklə, Azərbaycan nefti Qərbə Türkiyə və İstanbuldan yan keçərək nəql olunacaqdır. Siz buna necə baxırsınız?

**C a v a b :** Biz xarici ölkələrin neft şirkətləri konsorsiumu ilə müqavilə imzaladıqdan sonra qarşımızda duran əsas məsələ boru xəttinin marşrutunun müəyyən edilməsidir. Lakin bu məsələni konsorsium Azərbaycanla birlikdə həll etməlidir. Biz isə hələlik bir qərara gəlməmişik. Məsələ heç müzakirə də olunmayıb. Ona görə də qəzetlərdə bu barədə yazılanlara fikir verməyin.

**S u a l :** Biz Azərbaycanda olarkən bir çox adamlarla görüşdük və hər bir adamın Sizi sevdiyini, Sizə hətta dua etdiyini gördük. Siz oktyabrın 4-də saat 24-də xalqa müraciət edərkən minlərlə insan Sizin yanınıza gəldi. Xalq tərəfindən bu qədər sevilməyinizə baxmayaraq, bəzi neqativ şəxslər tərəfindən sevilməməyinizi nə ilə izah edərdiniz?

**C a v a b :** Neqativ adamlar, neqativ fikirli qüvvələr bunu anlamırlar. Əgər onlar bunu anlaya bilsəydilər, bu cür neqativ hərəkətlər etməzdilər. Oktyabrın əvvəlindən başlanmış proseslər və oktyabrın 4-də baş vermiş hadisə bir daha göstərdi ki, belə neqativ qüvvələr Azərbaycanda, doğrudur, müəyyən cinayət törədə bilərlər, amma Azərbaycan dövlətinə heç bir ziyan vura bilməzlər.

**S u a l :** Sentyabrın 20-də Bakıda neft müqaviləsi imzalandı. Bundan sonra nə kimi işlər görüləcək?

**C a v a b :** Biz o müqaviləni imzaladıq və indi Azərbaycan Parlamentində onun müzakirəsi gedir. Müqavilə Parlamentdə təsdiqləndikdən sonra onun icrasına başlanacaqdır. Məndə olan məlumata görə, konsorsiumun üzvləri yaxın günlərdə Azərbaycana gələcək və konkret işlərə başlayacaqlar.

**S u a l :** Bəs müzakirələr nə vaxt başlanacaq?

**C a v a b:** Bu yaxın günlərdə olacaq.

Mən sizin hamınıza öz ehtiramımı bildirirəm və hamınızı Azərbaycana dəvət edirəm. Gəlin və Azərbaycan haqqında həqiqətləri yazın. Sağ olun.

## MOSKVAYA İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*17 noyabr 1994-cü il*

**S u a l :** Möhtərəm Prezident, Moskvaya səfərinizin əsas məqsədi nədir?

**C a v a b :** Bu mənim Moskvaya qısamüddətli işgüzar səfərimdir. Rusiyanın prezidenti Boris Yeltsin ilə mənim danışıqlarım olub, biz razılığa gəlmişik ki, görüşüb söhbət edək. Oktyabrın 21-də Moskvada MDB ölkələri dövlət başçılarının görüşündə Boris Yeltsin ilə danışıqlarımız olmuşdu, biz belə qərara gəlmişdik ki, müəyyən bir vaxtdan sonra xüsusi görüşüb, Azərbaycan-Rusiya münasibətləri haqqında, şübhəsiz ki, o cümlədən Dağlıq Qarabağ məsələsi, yəni Ermənistanın Azərbaycana təcavüzü, müharibəyə son qoyulması barədə müəyyən fikir mübadiləsi, müzakirələr aparaq. Altı aydır ki, atəşkəs davam edir. Biz bu fürsətdən istifadə edib, Böyük Sazişin əldə olunması haqqında danışıqlar aparacağıq.

Bilirsiniz ki, bu danışıqları bir neçə istiqamətdə aparırıq. Burada Rusiya fəal iştirak edir, onun vasitəçiliyi daim mövcuddur. Ona görə də Rusiya ilə, xüsusən Rusiyanın prezidenti Boris Yeltsin ilə bu barədə danışıqlar çox əhəmiyyətlidir. Mənim səfərimin əsas məqsədi bundan ibarətdir.

Eyni zamanda bu səfərim böyük şairimiz Məhəmməd Füzulinin 500 illiyinin Moskvada qeyd olunduğu vaxta təsadüf edir. Bu səbəblər bir-biri ilə bağlı deyil, ancaq eyni vaxta düşübdür. Ona görə də mən həm Rusiyanın rəhbərləri ilə görüşəcəyəm, həm də fürsət tapsam, Məhəmməd Füzulinin 500 illik yubileyində iştirak edəcəyəm. Oraya böyük nümayəndə heyətimiz gedib, Moskvada Füzulinin yubileyi böyük təntənə ilə qeyd olunacaqdır. Yenə də deyirəm, imkanım olsa, orada iştirak edəcəyəm. Məqsədim bundan ibarətdir.

Bu gün Azərbaycanda Milli Dirçəliş günüdür. Bununla əlaqədar mən xalqımıza təbrik müraciəti göndərmişəm. Bu fürsətdən istifadə edib, Azərbaycan xalqını Milli Dirçəliş günü münasibətilə bir daha təb-









rik edirəm. Bu gün əlamətdar bir gündür. Ola bilər ki, bu gün haqqında, ona hazırlıq barədə müxtəlif təbəqələrin ayrı-ayrı fikirləri olsun. Şübhəsiz ki, buna birmənalı qiymət də vermək olmaz. Gələcəkdə tarix hər şeyə lazımi qiymət verəcəkdir.

Ancaq indi bu günün mənasını həqiqi, eyni zamanda obyektiv qiymətləndirmək lazımdır. Bunun mənası ondan ibarətdir ki, həmin gün Azərbaycan xalqının milli azadlıq duyğularını, hisslərini əks etdirir. Bu, Dağlıq Qarabağ məsələsinin həll olunması ilə əlaqədar o vaxtkı Sovet hökumətinin rəhbərliyi, Sovet hakimiyyəti Azərbaycana qarşı ədalətsiz münasibət bəslədiyinə görə, eyni zamanda o dövrdə, Azərbaycanda ictimai-siyasi vəziyyətin gərgin bir dövründə respublikanın kommunist rəhbərliyi, kommunist rejimi xalqımızın milli azadlıq duyğularını, milli azadlıq arzularını başa düşmədiyinə görə xalqın içindən, daxilindən doğan və bir gün ərzində yox, uzun illər boyu milli azadlıq ruhunu yaşadan duyğuların məhz həmin gün meydana çıxmasıdır.

Şübhəsiz ki, bu ümumi, dərin bir prosesin təzahürü günüdür. Ona görə də biz bu günü qiymətləndirməliyik. Yəni o gün və bundan sonra gedən proseslər onu göstərir ki, Azərbaycan xalqı öz milli mənliyini nümayiş etdirə bilər. Xalq milli azadlıq ruhunu artıq gizli yox, açıq bəyan edə bilər. Bunun da çox böyük əhəmiyyəti oldu. Bu, ümumiyyətlə, Azərbaycanın ictimai-siyasi həyatının dəyişilməsinə gətirib çıxardı. O dövrdə Azərbaycanın ictimai-siyasi həyatında həmin proseslərin o gündə aşkara çıxması, şübhəsiz ki, böyük dəyişikliklər əmələ gətirdi. Bu dəyişikliklər də o vaxt Sovetlər İttifaqında, ümumiyyətlə, dünyada gedən obyektiv ictimai-siyasi, tarixi proseslərin bir hissəsi idi. Bu, lokal bir hal deyildi. Bu, dünya prosesi ilə bağlı idi.

Xalqımızın bu coşğunluğunun, hissiyyatlarının, ağrılarının, milli azadlıq arzularının aşkara çıxması, bəyan edilməsi və xalqın buna dərhal qoşulması onu göstərdi ki, bu hisslər əksəriyyətin qəlbində yaşayırmış. Bunun aşkara çıxması üçün, sadəcə, bir qığılcım lazım imiş. Ona görə də bu hadisəni qiymətləndirmək lazımdır. Mən bunu qiymətləndirirəm və bu bayram münasibətilə xalqımızı, millətimizi bir daha təbrik edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, milli azadlıq, müstəqillik hissi bundan sonra daha heç vaxt boğula bilməyəcəkdir.

**S u a l :** Danışıqlarda iqtisadi sahədə çətinliklərlə əlaqədar Rusiyanın imkanlarından istifadə edilməsi məsələsinə toxunulacaqmı?

**C a v a b :** Bu barədə söhbət aparmaq çətindir. Hər halda, biz qarşılıqlı əlaqələr vasitəsilə Rusiyanın müəyyən imkanlarından istifadə etməyə çalışırıq. Məsələn, indi taxıl çatışmazlığı var. Biz bir çox mənbələrə müraciət etmişik. Biz lap dost olan mənbələrdən də indiyədək lazımi köməklər ala bilməmişik. Biz bu və başqa məsələləri də müzakirə edəcəyik. Ola bilər, orada çox məsələlər olsun. Əvvəldən nə deyim, səfər başa çatandan sonra danışarıq.



## «AZƏRBAYCAN MÜƏLLİMİ» QƏZETİNİN KOLLEKTİVİNƏ TƏBRİK

«Azərbaycan müəllimi» qəzeti respublikamızın mətbuat tarixinə şərəfli yaradıcılıq yolu keçmiş, pedaqoji ənənələrin inkişafında silinməz izlər buraxmış, özünəməxsus dəst-xətti ilə seçilən nəşrlərdən biri kimi daxil olmuşdur. Azərbaycanda pedaqoji mühitin formalaşmasında, müəllim kadrların elmi-metodiki səviyyəsinin yüksəldilməsində bu qəzetin mühüm xidmətləri vardır.

«Azərbaycan müəllimi» yalnız sahə qəzeti olmaqla kifayətlənməmiş, respublika həyatında baş verən ictimai-siyasi hadisələrə də nüfuz etmişdir. Qəzet respublikamızda jurnalistika sənətinin inkişafı işində əhəmiyyətli rol oynamışdır.

«Azərbaycan müəllimi» qəzeti bu gün də öz ənənələrinə sadiq qalaraq, pedaqoji maarif istiqamətində fəaliyyətini davam etdirir. Müstəqilliyinə qovuşmuş respublikamızın elm və təhsil sisteminin yeni əsaslar üzərində qurulduğu bir dövrdə, xalq maarifinin qarşısında duran başlıca vəzifələr qəzetin səhifələrində öz əksini tapır. Pedaqoji aləmdə qazanılmış qabaqcıl təcrübə, görkəmli maarif və elm xadimlərinin həyatı qəzetdə mütəmadi işıqlandırılan məsələlərdəndir.

İlk nömrəsinin çapdan çıxmasının 60 illiyi münasibətilə «Azərbaycan müəllimi» qəzetinin bütün əməkdaşlarını ürəkdən təbrik edir, sizə cansağlığı, dəyərli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

***HEYDƏR ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***
***18 noyabr 1994-cü il***

## «AZƏRBAYCAN» QƏZETİNİN KOLLEKTİVİNƏ

Əsası 1918-ci ildə qoyulmuş «Azərbaycan» qəzeti müstəqil dövlətçilik tariximizdə öz yeri olan nəşrlərdəndir. Vaxtilə Azərbaycan Demokratik Respublikasının rəsmi qəzeti kimi nəşr olunmuş «Azərbaycan», xalqımızın istiqlal mübarizəsində mühüm xidmətlər göstərmişdir.

Məlum tarixi səbəblər üzündən ADR kimi, «Azərbaycan» qəzetinin də ömrü uzun olmamışdır. Xalqımız əsrin əvvəllərində itirdiyi müstəqilliyini əsrin axırlarında bərpa etdiyi zaman «Azərbaycan» qəzeti də yenidən fəaliyyətə başladı və müstəqil Azərbaycan Respublikasının rəsmi dövlət qəzeti kimi, ictimai həyatda layiqlı yerini tutdu.

Müstəqilliyimizə düşmən kəsilmiş daxili və xarici qüvvələr öz çirkin məqsədlərinə nail olmaq üçün bu gün də azğın niyyətlərindən əl çəkmirlər. Məlum oktyabr hadisələri onların mürtəce təbiətini bir daha aşkarladı. Amma Azərbaycan xalqı yekdilliklə ayağa qalxaraq, öz qanuni prezidentini, müstəqil dövlətçiliyini müdafiə etdi. Fərəhli haldır ki, həmin həlledici məqamda «Azərbaycan» qəzeti öz sayıqlığını bir an belə itirmədi.

«Azərbaycan» qəzetinin 1000-ci sayının çapdan çıxdığı bu əlamətdar gündə sizi təbrik edir, müstəqil dövlətimizin həyatının işıqlandırılmasında yaradıcı heyətə uğurlar diləyirəm.

***HEYDƏR ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***
***4 dekabr 1994-cü il***



## ATƏM-in ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ TOPLANTISINDA İŞTİRAK ETMƏK ÜÇÜN BUDAPEŞT ŞƏHƏRİNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*4 dekabr 1994-cü il*

Səfərin xüsusi əhəmiyyəti var. Çünki 1975-ci ildə Finlandiyada Helsinki Yekun Aktının imzalandığı, yəni Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin yarandığı dövrdən bu, dövlət rəhbərlərinin dördüncü görüşüdür. ATƏM-ə daxil olan dövlətlərin başçıları bu görüşdə iştirak edəcəklər və Avropa Təhlükəsizliyi, Avropa Birliyinin möhkəmləndirilməsi barədə mühüm məsələlər müzakirə olunacaqdır. Əsas məsələlər bu təşkilatın, Avropada Təhlukəsizlik və Əməkdaşlıq Müşavirəsinin işini gücləndirmək və fəallaşdırmaqdan ibarətdir. Biz buna tərəfdarıq. Amerikanın prezidenti cənab Bill Klinton mənə məktubunda da bu məsələlər barəsində öz fikirlərini yazmışdır. Mən ona göndərdiyim məktubda – dekabrın 2-də ona cavab məktubu göndərmişəm – Azərbaycanın mövqeyini bildirmişəm. Bizim mövqeyimiz belədir ki, ATƏM təşkilatı güclənməlidir, daha böyük fəaliyyət göstərməlidir, yeni Avropanın yaranması üçün, yeni Avropanın inkişafı üçün bu təşkilatın fəaliyyəti bundan sonra daha da artıq olmalıdır. Biz bir Avropa dövləti kimi və Avropa Birliyinə daxil olan bir dövlət kimi, ATƏM təşkilatının güclənməsinin tərəfdarıyıq. Bu mövqelərimizi orada bildirəcəyik.

Eyni zamanda, Budapeşt Zirvə görüşündə Ermənistanla Azərbaycan arasında gedən hərbi münaqişə, müharibə ilə əlaqədar məsələ də müzakirə olunacaq, xüsusən, ATƏM-in sülhməramlı qüvvələrinin yaradılması və bizim bölgəyə göndərilməsi məsələləri müzakirə ediləcəkdir. Bu da bizim üçün çox əhəmiyyətlidir. Çünki demək olar, ilk dəfədir ki, belə Zirvə görüşündə bu məsələ xüsusi bir məsələ kimi gündəliyə salınıbdır və müzakirə olunacaqdır, ona görə də biz bu görüşdən çox şey gözləyirik.

## BUDAPEŞTDƏN VƏTƏNƏ QAYIDARKƏN ZİRVƏ TOPLANTISININ YEKUNLARI BARƏDƏ TƏYYARƏDƏ JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*7 dekabr 1994-cü il*

**S u a l :** Cənab Prezident, «Soyuq müharibə»nin başa çatması, böyük regional müharibələrin məhəlli müharibələrlə əvəz olunması və yeni beynəlxalq təşkilatların meydana çıxması ilə əlaqədar ATƏM-in yarandığı tarixdən başlayaraq və Budapeşt Zirvə toplantısı ilə bağlı rolunu nədə görürsünüz?

**C a v a b :** ATƏM-in yarandığı vaxtdan iyirmi il keçir. Bu müddət ərzində onun fəaliyyətinin cürbəcür mərhələləri olmuşdur. Mən dünən Budapeşt görüşündəki çıxışımda ATƏM-in yarandıqdan sonra dünyanın siyasi iqliminin, siyasi xəritəsinin dəyişilməsində göstərdiyi xidmətləri, rolu və fəaliyyəti qeyd etdim. Məhz ATƏM yarandıqdan sonra dünyada demokratik proseslər inkişaf etməyə başladı. Həm ölkələrin daxilində gedən demokratik proseslər, həm də dövlətlər arasında olan münasibətlər «Soyuq müharibə»nin sona çatmasına gətirib çıxardı, dünyanın siyasi xəritəsini dəyişdirdi. Yeni müstəqil dövlətlər meydana gəldi, o cümlədən müstəqil Azərbaycan dövləti də yarandı.

İndi isə yeni bir mərhələ başlamışdır. ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının toplantısında mən birinci dəfədir ki, iştirak edirəm. Bu, ATƏM yaranandan bəri dördüncü görüşdür. Bütün bunlara görə də mən, yarandığı dövrdən bəri ATƏM-in fəaliyyətinə yüksək qiymət verirəm.

Hesab edirəm ki, Budapeşt görüşündə ATƏM yeni bir qüvvə aldı. Yeni bir mərhələyə çatdı. Şübhəsiz ki, hər bir görüşün tarixdə öz yeri var. Zənnimcə, bu dördüncü görüş ATƏM-in tarixində xüsusi yer tutacaqdır. Çünki bu görüşdə çox böyük məsələlər müzakirə olundu və Avropanın təhlükəsizliyi, qitədə ATƏM-in fəaliyyətinin bundan sonra genişləndirilməsi haqqında Avropanın təsir bölgələrinə bölünməməsi haqqında, bölgə xətlərinin yaranmaması şərti ilə, qitənin vahid Avropa kimi inkişaf etməsi haqqında çox fəal iş görüldü. Ona görə də mən Budapeşt görüşünü ümumbəşəri, dünya nöqteyi-nəzərindən çox yüksək qiymətləndirirəm.



**S u a l :** Cənab Prezident, Zirvə toplantısında ATƏM-in sülhməramlı qüvvələrinin yaradılmasına razılıq verildi. Bu, bir tərəfdən, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması perspektivi ilə, digər tərəfdən, Qərb ekspertlərinin və diplomatlarının da dediyi kimi, Sizin fəaliyyətinizlə bağlıdır. Türkiyənin baş naziri Tansu Çillər isə belə bir qənaətə gəldi ki, ATƏM-in sülhməramlı qüvvələri və onun taleyi bu qüvvələrin Dağlıq Qarabağ münaqişəsinə son qoyulmasında imtahandan necə çıxacağından asılıdır. O, həmçinin dedi ki, ATƏM-in fəaliyyəti bu məsələnin həllindən asılıdır. Siz buna necə qiymət verirsiniz?

**C a v a b :** Mən qeyd etdim ki, ATƏM-in Budapeşt görüşünün çox böyük əhəmiyyəti var. Ancaq bizim region, Qafqaz regionu üçün, o cümlədən Azərbaycan üçün bu toplantının əhəmiyyəti əvəzsizdir. Mən bunu xüsusi qeyd edirəm. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində altı ildir ki, müharibə gedir. 1992-ci ilin martından etibarən ATƏM bu işə bilavasitə qarışıb və Ermənistan-Azərbaycan münaqişəsini aradan qaldırmaq üçün, Qarabağ məsələsini həll etməkdən ötrü Minsk konfransı, Minsk qrupu yaratmışdır. Az sonra üç il olacaqdır ki, Minsk qrupu fəaliyyət göstərir. Minsk qrupu ilə bizim fəaliyyətimiz Azərbaycan ictimaiyyətinə də, sizə – mətbuatımıza da məlumdur. Mən Azərbaycanın dövlət başçısı kimi fəaliyyətə başladığım vaxtdan, Ali Sovetin sədri seçilən gündən ATƏM-lə və onun Minsk qrupu ilə sıx əməkdaşlıq edirəm. Siz bunların hamısının şahidisiniz. Bütün bu əməkdaşlıq dövründə mən daim çalışmışam ki, ATƏM-in əvvəldən nəzərdə tutulmuş fəaliyyətinə – xüsusən Minsk qrupu vasitəsilə bu münaqişənin aradan qaldırılmasına – üstünlük şəraiti yaradılsın. Çünki bu, münaqişəyə son qoyulması üçün ən etibarlı yoldur, ola bilər ki, əlimizdə olan imkanların ən etibarlısıdır. Ona görə də mən buna çox fikir vermişəm.

Bilirsiniz ki, ATƏM-in nümayəndələri, Minsk qrupunun başçıları ilə dəfələrlə uzun-uzadı söhbətlər aparmışam, buna çox vaxt sərf etmişəm və ATƏM-in bu məsələyə nəinki bilavasitə qarışmasını, həm də təşəbbüsü öz əlinə almasını istəmişəm. İndiyədək bu, sizə məlum olan səbəblər üzündən baş tutmurdu. Mən çalışmışam ki, ATƏM-in Minsk qrupunun fəaliyyətini və Rusiyanın vasitəçilik səylərini bir-birinə yaxınlaşdırım, hətta bunları birləşdirim. Bu tövsiyələri mən ATƏM-in Minsk qrupunun başçısı Yan Eliassona da, Rusiyanın vasitəçilik mis-

siyasının rəhbəri Vladimir Kazimirova da etmişəm. Onların həm Bakıda, həm də Moskvada görüşlərinin təşkil olunmasına çalışmışam. Biz bu işdə də müəyyən nailiyyətlər əldə etmişik. Ancaq istədiyimiz nailiyyətə çata bilməmişik. Çünki bu müddətdə Minsk qrupunun fəaliyyəti ilə Rusiyanın vasitəçilik səylərini birləşdirməyə nail olmamışıq.

Biz, şəxsən mən Rusiyanın vasitəçilik fəaliyyətini yüksək qiymətləndirirəm. Məsələn, Rusiyanın vasitəçiliyi sayəsində biz mayın 12-də atəşin kəsilməsi haqqında qərar qəbul etdik. Sonra Minsk qrupu da bu işə qoşuldu. Rusiya və Minsk qrupunun başçısı Böyük Sülh Müqaviləsi əldə olunana qədər atəşkəsin davam etməsi haqqında birgə bəyanat verdilər.

Ancaq bunların hamısı onların səylərinin birləşdirilməsinə gətirib çıxarmadı. Ona görə də biz fəaliyytimizi davam etdirdik. Həm Rusiya ilə, həm Amerika Birləşmiş Ştatları ilə, həm də ATƏM-in üzvü olan başqa ölkələrlə əməkdaşlıq etdik və nəticədə Budapeşt görüşünə yeni bir qətnamə hazırlandı. Bu qətnamənin hazırlanması yolu da çox enişli-yoxuşlu, əzab-əziyyətli, çətin olmuşdur. Çünki bəzi qüvvələr bu işə mane olurdular. Həmin sənəd bir neçə mərhələdən keçdi. Hətta biz Budapeştə gələndə də bu qətnamənin qəbul ediləcəyinə ümid çox az idi.

Mən Amerika Birləşmiş Ştatlarının nümayəndələri ilə, o cümlədən ABŞ prezidenti cənab Bill Klintonla görüşdüm, Türkiyənin baş naziri Tansu Çillərlə, Rusiyanın, digər ölkələrin nümayəndələri ilə söhbətlər apardım. Bizim həm Vyanaya, həm də Budapeştə göndərdiyimiz işçi qruplarımız da çox çalışdı. Xüsusən də həm Qərbin, həm bizim, həm də Minsk qrupuna daxil olan başqa dövlətlərin bu işə birgə razılığı nəticəsində, həmçinin Amerika Birləşmiş Ştatları ilə Rusiya arasında aparılan danışıqlar nəticəsində qətnamənin müzakirəyə çıxarılması məsələsi həll olundu və müzakirələr zamanı qarşıya çıxan maneələr aradan qaldırıldı. Nəhayət, qətnamə qəbul edildi. Bu, altı il gedən müharibə ərzində bizim üçün çox böyük əhəmiyyətli ilk beynəlxalq sənəddir.

Şübhəsiz ki, Azərbaycan torpaqlarının işğal olunması ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamə bizdən ötrü qiymətlidir. Ancaq həmin qətnamələr həyata keçirilmədi. Nə üçün? Çünki qətnamələr qəbul edildi, lakin həyata keçirilmə mexanizmi olmadı və onlar havada asılı qaldı. Ancaq Ermənistanla Azərbaycan arasındakı münaqişəyə son qoyulması üçün Budapeştdə çoxmillətli sülhü mühafizə qüvvələri yaradılması haqqında qərar qəbul edildi.



Son illər, xüsusən mən bu işlə məşğul olduğum vaxt çoxları dəfələrlə mənə demişdilər ki, ATƏM heç zaman sülhməramlı qüvvələr yarada bilməz və bu, mümkün deyil. Belə fikirlər hətta Birləşmiş Millətlər Təşkilatında, digər ölkələrin başçılarında, nümayəndələrində də vardı. Ancaq mən daim inanırdım ki, ATƏM-in sülhü mühafizə qüvvələrini yaratmaq olar. Mən bundan ötrü çalışırdım, bütün səylərimi də buna yönəltmişdim. İndi burada, qısa söhbətdə nə vaxt, hansı addımlar atıldığını deməyi lazım bilmirəm. Ola bilər, bu işin pillələri, mərhələləri gələcəkdə açılıb yazılsın. Ancaq ötən müddət ərzində mən böyük inamla bu işə yanaşırdım və bilirdim ki, ATƏM-in sülhü mühafizə qüvvələri yarana bilər.

Nəhayət, son ay ərzində böyük ölkələrin paytaxtlarında belə bir fikir, demək olar, formalaşdı. Düzdür, ziddiyyətlər də meydana çıxdı. ATƏM-in sülhü mühafizə qüvvələrinin yaranması reallaşdığı zaman bəzi paytaxtlarda bunun əleyhinə çıxanlar da oldu. Ancaq sülhü mühafizə qüvvələrinin yaranması o qədər zəruri idi ki, bunun qarşısını ala bilmədilər. Bu maneələr Vyanada, Budapeşt görüşünün hazırlanması dövründə, görüş zamanı da özünü büruzə verdi. Son mərhələdə Amerika Birləşmiş Ştatları ilə Rusiya arasında bu barədə danışıqlar nəticəsində qətnamənin əldə olunması artıq reallaşdı və nəhayət, dekabrın 6-da həmin sənəd qəbul edildi.

Mən bunu, Azərbaycan Respublikası üçün, xüsusən Ermənistanın Azərbaycana qarşı təcavüzünün aradan qaldırılması üçün çox böyük tarixi hadisə, tarixi bir nailiyyət, bizim nailiyyətimiz hesab edirəm. Ümidvaram ki, onun əsasında biz bundan sonra atəşkəsin möhkəmləndirilməsinə, xüsusən çoxmillətli qüvvələrin yaranmasına nail olacağıq. Həmin qüvvələrin yaranması ilə indi böyük sazişin hazırlanması da asanlaşır. Çünki bu qətnaməyə görə, indi Minsk qrupunun iki sədri var: onların biri İsveçdən, digəri Rusiyadandır. Bu bizdən ötrü məsələni yüngülləşdirəcəkdir. İndiyədək bir sədrin olması çətinlik yaradırdı. Mən hesab edirəm ki, biz bu imkanlardan istifadə edə biləcəyik. Yəni ATƏM-in sülhməramlı qüvvələrinin yaranması məsələsi artıq reallaşmışdır və biz həm bu qüvvələrin toplanması, həm də Böyük Siyasi Sazişin hazırlanması ilə məşğul olacağıq, sazişin hazırlanması daha da asanlaşacaqdır.

Mən Budapeştdə bir çox dövlətlərin, xüsusən Avropa dövlətlərinin başçıları ilə görüşdüm. Onların hamısı bu qətnaməni dəstəklədi

və əksəriyyəti ATƏM-in sülhməramlı qüvvələrinin yaranmasında öz ölkələrinin iştirak edəcəyi barədə mənə bəyanatlar verdi. Bütün bunlar məndə belə bir inam yaradır ki, biz artıq yeni mərhələdəyik və bundan sonra həmin məsələləri daha da müvəffəqiyyətlə həll edə bilərik.

**S u a l :** Cənab Prezident, çox böyük iş görülüb, qətnamə qəbul olunub. Lakin bu hələ problemin həll edilməsi demək deyil. Artıq indidən belə səslər eşidilir ki, daha bir qətnamə qəbul olunsun. Yəni görülən işi nüfuzdan salmağa çalışanlar da var. Siz buna necə baxırsınız?

**C a v a b :** Mən sizə dedim: Budapeşt görüşünə qədər bizim yolumuz çox ağır, əzablı yol olmuşdur. Hesab etməyin ki, bundan sonra biz böyük bir asfalt yola çıxırıq. Yolumuz yenə çətin olacaq, ancaq bir halda ki, biz prinsipiallıq, dəyanət göstərdik, öz mövqeyimizi daim müdafiə etdik, mövqeyimizdən çəkilmədik, buna nail olduq, deməli, bundan sonra da istədiklərimizə nail ola biləcəyik.

**S u a l :** Bəzi dövlət başçıları deyirlər ki, ATƏM indi böhran keçirir. Məsələn, Eduard Şevardnadze də bu fikirdədir. Digər tərəfdən, indiki Zirvə toplantısında qlobal məsələlər həll olundu. Siz buna necə baxırsınız?

**C a v a b :** Bilirsiniz, indi Eduard Şevardnadzenin ölkəsinin vəziyyəti çox ağırdır. Vaxtilə Birləşmiş Millətlər Təşkilatı da, ATƏM də orada məsələni həll etmək barədə müəyyən vədlər vermiş, lakin bunları yerinə yetirməmişlər. Buna görə də onun belə söz deməyə haqqı var. Ancaq mən bu fikirlə heç də razı deyiləm ki, ATƏM böhran dövrü keçirir. Mən hesab edirəm ki, Budapeşt toplantısında ATƏM özünün gücünü nümayiş etdirdi və göstərdi ki, bu, güclü, böyük bir beynəlxalq təşkilatdır. ABŞ prezidenti cənab Bill Klintonun çıxışında da bu fikirlər səsləndi. Belə fikirlər başqa çıxışlarda da oldu. Ona görə də mən hesab etmirəm ki, ATƏM böhran dövrü keçirir. Mənim fikrimcə, ATƏM yeni bir pilləyə qalxmışdır.

**S u a l :** Nəhayət ki, ATƏM-in silahlı qüvvələri yaradılır və onların Ermənistan-Azərbaycan münaqişəsi zonasında yerləşdirilməsi ilk imtahan olacaqdır. Sizcə, bu, Böyük Siyasi Sazişin imzalanmasını sürətləndirməyə imkan verəcəkmi? Budapeşt görüşü ərəfəsində Rusiyanın bir çox kütləvi informasiya vasitələri belə xəbərlər yayırdı ki, ATƏM və Azərbaycan Rusiyanı Qarabağ probleminin həllindən kənarlaşdırmaq istəyirlər. Bu barədə nə deyərdiniz?



**C a v a b :** Əvvəla, mənim fikrimcə, ATƏM-in çoxmilli qüvvələri tərkibində Rusiya qüvvələrinin də olması nəzərdə tutulur. MDB qüvvələrinin daxil edilməsindən söhbət getmir. Rusiya çoxmillətli qüvvələrdə kifayət qədər təmsil olunacaqdır. Deməli, burada heç bir problem yoxdur. Əlbəttə, ATƏM-in qüvvələrində hansı ölkəyə nə qədər yer veriləcəyini ATƏM-in sədri müəyyən edəcəkdir. Bu aydındır və biz də bilirik ki, yenə deyirəm, Rusiya orada kifayət qədər təmsil olunacaqdır.

O ki qaldı siyasi saziş barədə sualınıza, mən əvvəl də dedim. Böyük Siyasi Saziş hazırlamaq üçün indi daha əlverişli şərait yaranır. Çünki indiyədək Minsk qrupunun və Rusiyanın səylərini birləşdirməyə imkan yox idi. Belə ziddiyyət vardı. Mən görüşdəki çıxışımda dedim ki, Minsk qrupuna daxil olan ölkələrin səylərinin birləşdirilməsindən çox şey asılıdır. Mən BMT-də də demişdim ki, Rusiya və Minsk qrupu öz səylərini birləşdirməli, fəal əməkdaşlıq etməlidirlər. Budapeşt qətnaməsi buna imkan yaradır və zənnimcə, indi Böyük Siyasi Saziş hazırlamaq bizə asan olacaqdır.

İkinci sualınıza gəldikdə isə, belə məlumatların heç bir əsası yoxdur. Çünki Rusiya ATƏM-in üzvüdür. ATƏM isə Avropanın beynəlxalq təşkilatıdır. Ona daxil olan hər bir ölkə istəyir ki, bu təşkilatın fəaliyyətində yaxından iştirak etsin. O cümlədən Rusiya da, Azərbaycan da, başqa ölkələr də. Bir də ki, biz Rusiya ilə fəal əməkdaşlıq edirik. Mən bayaq dedim ki, Budapeştdə qəbul olunmuş qətnamə məhz ümumi əməkdaşlığın, o cümlədən Amerika Birləşmiş Ştatları ilə Rusiya arasında əməkdaşlığın nəticəsidir.

## MƏRAKEŞƏ – İSLAM KONFRANSI TƏŞKİLATININ KASABLANKA ZİRVƏ TOPLANTISINA YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*12 dekabr 1994-cü il*

Şübhəsiz ki, hər bir Zirvə toplantısı böyük əhəmiyyətə malikdir. Əlbəttə, ATƏM-in Budapeşt Zirvə toplantısının başqa bir istiqaməti, başqa bir məqsədi vardı. Mən oradakı çıxışlarımda da qeyd etdim, sonra müsahibələrimdə də dedim ki, təkcə Avropada yox, ümumiyyətlə, bütün dünyada sülhün, əmin-amanlığın, təhlükəsizliyin möhkəmlənməsi üçün ATƏM böyük bir təşkilatdır. Ona görə də Budapeşt Zirvə toplantısının ümumdünya əhəmiyyəti var. ATƏM-in bu Zirvə toplantısı xüsusən Azərbaycan üçün çox əhəmiyyətli oldu. Orada respublikamızın vəziyyəti və Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar qətnamə qəbul edildi və mən əminəm ki, bu qətnamə yaxın vaxtlarda ardıcıl surətdə həyata keçiriləcəkdir.

İndi isə Mərakeşdə İslam Konfransı Təşkilatının Zirvə toplantısı olacaqdır. Bu toplantı da çox böyük əhəmiyyət kəsb edir. Çünki İslam Konfransı Təşkilatının 25 illiyi qeyd ediləcəkdir. Şübhəsiz ki, bu təşkilat yaradılarkən, onun üzvləri indiki qədər olmayıbdır. Ancaq bu təşəbbüs İslam ölkələrinin, İslam dünyasının həmrəyliyini və dünyada gedən proseslərin inkişafını təmin etmək üçün çox mühüm bir addım idi. 25 il müddətində İslam Konfransı Təşkilatı böyük bir yol keçibdir, şübhəsiz ki, onun böyük xidmətləri olubdur. O, dünyada sülhün, əmin-amanlığın və təhlükəsizliyin təmin edilməsi üçün öz töhfələrini verib, öz səylərini göstərib. Bu təşkilata da bizim çox böyük hörmətimiz var.

Mən Mərakeş məliki II Həsən cənablarının dəvətini çox böyük məmnuniyyət hissi ilə qəbul edərək, bu Zirvə toplantısına gedirəm. İslam ölkələri dünyanın böyük bir hissəsini təşkil edir. Onların bir milyard nəfərdən artıq əhalisi var. İslam Konfransı Təşkilati bu ölkələrin ümumi potensialından istifadə edərək həm ümumbəşəri proseslərdə iştirak edir, həm də islam ölkələrinə məxsus spesifik problemlərin həll olunmasına çalışır.



Mən şəxsən hesab edirəm ki, hər bir belə regional təşkilat əhəmiyyətlidir və bu kimi təşkilatların hamısı öz səylərini, nəhayət, birləşdirə bilsələr, dünyada sülh daimi olar, əmin-amanlıq, təhlükəsizlik təmin edilə bilər. Ona görə də mən bu Zirvə toplantısına həvəslə gedirəm və şübhəsiz ki, bu toplantıdan çox şey gözləyirəm. Bir də ona görə ki, İslam Konfransı Təşkilati öz əvvəlki toplantısında da qətnamə qəbul edərək, Ermənistanın Azərbaycana təcavüzünü pisləyib, bu barədə beynəlxalq təşkilatlara müraciətlər edibdir. Biz indi də belə bir qətnamənin qəbul olunmasını gözləyirik.

Bildiyiniz kimi, İslam Konfransı Təşkilatına 52 dövlət daxildir. Bu dövlətlərin başçıları ilə müstəqil Azərbaycanın bilavasitə əlaqələr yaratması baxımından qarşıdakı konfrans əlverişli fürsətdir. Bizim belə əlaqələrə ehtiyacımız var. Çünki Azərbaycanı bütün dünyada tanıtmaq üçün və Azərbaycanın indiki vəziyyətini bütün dünyaya aşkar etmək üçün hələ çox işlər görmək lazımdır. Daxilimizdə bəziləri belə hesab edirlər ki, həyatımızı, Ermənistanın Azərbaycana təcavüzü məsələsini çoxları elə bizim kimi bilir. Amma, əslində, belə deyildir. Mənə məlumdur və mən bir çox ölkələrdə olarkən, siz də müşahidə etmisiniz ki, respublikamızın başına gələn bəlaları çox yerlərdə, ya bilmirlər, ya da onun nə qədər dərin, ümumdünya təhlükəsizliyi üçün, xüsusən Azərbaycanın bu günü və gələcəyi üçün təhlükəli olduğunu dərk edə bilmirlər. Ona görə də qarşıdakı toplantıda biz bu məsələləri açıqlayacağıq və eyni zamanda, İslam ölkələrinin başçıları ilə ikitərəfli görüşlərdə də mən bu barədə geniş söhbətlər aparacağam. Bu ikitərəfli görüşlərin Azərbaycan Respublikasının həmin ölkələrlə iqtisadi əlaqələrinin də yaranması və inkişaf etməsi üçün əhəmiyyəti var. Məhz bunlara görə mən bu səfəri çox mühüm bir səfər hesab edirəm. Görək, səfərimiz nə kimi nəticələr verəcəkdir.

# İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ KASABLANKA ZİRVƏ TOPLANTISINA GEDƏRKƏN İSTANBULUN ATATÜRK HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*12 dekabr 1994-cü il*

Mən Mərakeşin Kasablanka şəhərinə gedirəm. Bildiyiniz kimi, orada İKT-nin üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Zirvə toplantısı keçiriləcəkdir. İKT 25 ildir ki, fəaliyyət göstərir. Təşkilatın yubileyinə təsadüf edən bu toplantı çox faydalı olacaq, orada islam aləmindən 52 dövlətin başçıları iştirak edəcəklər, onlardan biri də Azərbaycandır. Azərbaycan bu təşkilata müstəqillik qazanandan sonra daxil olmuşdur. İlk dəfədir ki, Azərbaycanın dövlət başçısı İKT-nin Zirvə toplantısında iştirak edir. Ona görə də mən bu toplantını Azərbaycan üçün çox əhəmiyyətli hesab edirəm.

ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Budapeşt Zirvə toplantısında Avropada və dünyada təhlükəsizliyi təmin etmək üçün Avropanın gələcək taleyində mühüm rol oynayacaq məsələlər müzakirə olundu. Mən Budapeşt Zirvə toplantısından çox məmnunam. Orada Ermənistanın Azərbaycana təcavüzünün qarşısının alınması üçün bir qətnamə qəbul edildi. Bildiyiniz kimi, bu gün düz yeddi aydır ki, Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında razılaşma əldə olunub. Həmin müddətdə atəşkəs davam edir. Doğrudur, atəşkəs bizim üçün faydalıdır. Ancaq bu, problemin həll olunması demək deyildir. Biz atəşkəsdən Böyük Sülh Sazişinin əldə olunması üçün istifadə etmək istəyirik. Sülh sazişinin əldə edilməsi üçün isə bizim bir sıra şərtlərimiz vardır: Ermənistan silahlı qüvvələri işğal olunmuş ərazilərimizdən çıxarılmalı, Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin olunmalı, bir milyondan çox azərbaycanlı qaçqın öz yerlərinə qaytarılmalıdır.

Budapeşt Zirvə toplantısı bizim üçün ona görə faydalıdır ki, orada ilk dəfə ATƏM çərçivəsində çoxmillətli sülhü mühafizə qüvvələrinin



yaradılması barədə mühüm qətnamə qəbul edildi. Doğrudur, bu heç də asanlıqla başa gəlmədi. Çünki Ermənistan Respublikası belə bir qətnamənin qəbul olunmasını istəmirdi. Bilirsiniz ki, Ermənistan münaqişə zonasına yalnız rus əsgərlərinin gəlməsini iştəyir. Lakin biz çox çalışdıq, burada sizin qarşınızda bir daha deyə bilərəm ki, bu qətnamənin qəbul olunmasında Türkiyə Respublikası rəhbərlərinin də çox böyük xidmətləri oldu. Biz çox ciddi əməkdaşlıq etdik, bərabər çalışdıq.

... Mən Budapeştdə Türkiyənin baş naziri xanım Tansu Çillərlə və Türkiyənin digər yüksək vəzifəli şəxsləri ilə görüşdüm. Sonra xanım Tansu Çillərlə bərabər ABŞ prezidenti Bill Klintonla görüşdük. Beləliklə, Budapeştdə bizim üçün çox mühüm olan bir qətnamə qəbul edildi. Hazırda bizim əsas işimiz bu qətnamənin həyata keçirilməsinə nail olmaqdır. İndi bizim bölgəyə artıq heç kəs tək bir ölkənin əsgərlərini gətirə bilməz. Qəbul olunmuş qətnaməyə əsasən, bu bölgəyə çoxmillətli sülhməramlı qüvvələr gələcək. Siz yəqin ki, bütün bunları bilirsiniz. Türk mətbuatı, sözsüz ki, bu barədə geniş materiallar dərc edib, televiziya verilişlər verib. Belə hesab edirəm ki, bütün bunları mənim dilimdən eşitməyiniz də lazımdır.

... Bayaq dediyim kimi, mən indi Kasablankaya, İKT-nin Zirvə toplantısına gedirəm. Biz bütün dünyada sülhün, təhlükəsizliyin təmin olunmasında İKT-nin üzvü olan dövlətlərin rolunun artırılmasına tərəfdarıq. Bildiyimə görə, Türkiyənin prezidenti hörmətli Süleyman Dəmirəl də bu Zirvə toplantısında iştirak edəcək. Biz orada da bir sıra işlər görəcəyik.

**S u a l :** Çeçenistandakı vəziyyət Azərbaycan üçün təhlükə yaratmaz ki?

**C a v a b :** Mən sizə dedim ki, Budapeştdə Azərbaycana çoxmillətli sülhməramlı qüvvələrin gəlməsi barədə qətnamə qəbul olunmuşdur. İndi bir ölkənin silahlı qüvvələri Azərbaycana gələ bilməz. Ona görə də mən Azərbaycana hansısa tək bir ölkənin silahlı qüvvələrinin gəlməsindən heç də narahat deyiləm. İkincisi də ki, Azərbaycan müstəqil bir dövlətdir. Çeçenistan isə müstəqil dövlət deyil, Rusiyanın tərkibində olan bir respublikadır. Burada çox böyük fərq var. Digər tərəfdən, Çeçenistan hələlik dünyanın heç bir dövləti tərəfindən müstəqil dövlət kimi tanınmayıb. Rusiyada belə muxtar respublikalar çoxdur. Tatarıstan, Başqırdıstan, Şimali Osetiya və digərləri. Bunlar hamısı Rusiyanın tərkibindədir.

## KASABLANKA ZİRVƏ TOPLANTISI BAŞA ÇATDIQDAN SONRA MƏTBUAT ÜÇÜN BƏYANAT

*15 dekabr 1994-cü il*

Mən Asiya dövlətləri adından Zirvə toplantısının yekunu münasibətilə sözlərimi dedim. Hesab edirəm ki, bu, Azərbaycan Respublikasına, xalqımıza göstərilən diqqət və hörmətdir. Mən bunu belə qəbul edirəm. Çox məmnunam ki, belə bir imkan yarandı və mən Asiya dövlətləri adından burada çıxış etdim...

Burada çox böyük, ciddi qətnamələr qəbul olundu. O cümlədən Azərbaycan ilə əlaqədar üç qətnamə qəbul edildi: birincisi, Ermənistanın Azərbaycana təcavüzünün pislənməsi, ikincisi, Azərbaycanın düşdüyü ağır vəziyyətlə əlaqədar İKT-nin və onun üzvü olan dövlətlərin respublikamıza iqtisadi və humanitar yardımı haqqındadır, üçüncüsü isə yekun bəyannaməsində Ermənistanın Azərbaycana təcavüzü haqqında geniş bir bölmə var. Həmin bölmədə bu təcavüzün Azərbaycana nə qədər zərər vurduğu, insanları həyatından məhrum etdiyi, ərazimizin dağıldığı geniş əks olunmuşdur. Burada eyni zamanda tələb olunur ki, Ermənistan silahlı qüvvələri Azərbaycan torpağını qeyd-şərtsiz tərk etsin. O cümlədən Şuşa və Laçın rayonlarının azad olunması məsələsi də oraya salınıbdır. Bunlar hamısı bizim üçün çox əhəmiyyətlidir...

Bu toplantıda bütün islam aləminə aid olan, qaynar nöqtələrlə əlaqədar bir çox qətnamələr qəbul edildi. Yekun bəyannaməsi də çox böyükdür, çoxbölməlidir. Orada bütün məsələlər öz əksini tapmışdır. Ona görə də mən şübhə etmirəm ki, bu, bütün dünyada böyük əks-səda doğuracaq. Dünya siyasətinə bunun müəyyən təsiri olacaqdır...

Zirvə toplantısı başa çatdıqdan sonra Mərakeş kralı II Həsənlə görüşüm oldu. Biz toplantının yekunları, eyni zamanda Mərakeşlə Azərbaycan arasında ikitərəfli əlaqələr barədə söhbət etdik. Kral II Həsən məni Mərakeşə rəsmi səfərə dəvət etdi. Qeyd etdi ki, bu səfərin ramazan ayı başa çatandan sonra həyata keçirilməsini çox arzu edərdi. O bildirdi ki, bu səfər Azərbaycanla Mərakeşin əlaqələrinin inkişaf etdirilməsi üçün çox lazımdır. Bir çox problemlər var və onları müzakirə



etmək vacibdir. Mən bu təklifi məmnuniyyətlə qəbul etdim və dedim ki, bu dəvətdən mütləq istifadə edəcəyəm.

Eyni zamanda mən Mərakeş kralını Azərbaycana rəsmi səfərə dəvət etdim. Bildirdim ki, Azərbaycan ilə onun tanışlığı bizim islam aləmində problemlərin həll olunmasına çox kömək edəcəkdir. O da mənim təklifimi məmnuniyyətlə qəbul etdi və dedi ki, çalışacaq, dəvətimi mütləq qəbul edərək, Azərbaycana səfər etsin.

# KASABLANKADAN VƏTƏNƏ QAYIDARKƏN İSTANBULUN ATATÜRK HAVA LİMANINDA MƏTBUAT ÜÇÜN BƏYANAT

*16 dekabr 1994-cü il*

Mən Mərakeşin Kasablanka şəhərindən, İslam Konfransı Təşkilatının Zirvə toplantısından qayıdaraq Bakıya gedirəm. Təyyarəmiz birbaşa Bakıya gedə bilmədiyinə görə yolüstü İstanbula enmək məcburiyyətindəyik. Bildiyiniz kimi, mən oraya gedəndə də buradan, İstanbuldan keçmişdim.

Siz İslam Konfransı Təşkilatının Kasablankadakı işi ilə artıq tanışsınız. Sizə məlumdur ki, Kasablanka görüşü İKT-nin üzvü olan 52 ölkənin Yeddinci Zirvə toplantısıdır. Həm də İKT-nin yaranmasının 25-ci ildönümü ilə əlamətdar olan Kasablanka görüşü çox önəmli bir toplantı oldu. O, Azərbaycan üçün də çox faydalı oldu, böyük qərarlar qəbul etdi. Yüksək səviyyədə Kasablanka görüşü bu təşkilatın gələcəyi və daha da güclənməsi üçün, onun fəaliyyətinin, işinin daha da genişlənməsi üçün çox önəmli bir toplantıdır.

Orada bir çox məsələlər müzakirə edildi. Xüsusən də islam ölkələrinin birliyi, bərabərliyi, həmrəyliyi əsas məsələlərdən biri idi. Bu barədə çox qərar qəbul olundu. Eyni zamanda İslam ölkələrində və dünyada gedən münaqişələr, yəni dövlətlərarası və etnik, millətlərarası münaqişələr haqqında çox danışıqlar aparıldı. Bu məsələlər barəsində bəyanatlar verildi, qərarlar qəbul edildi.

Bu toplantının Azərbaycan üçün önəmli cəhəti ondan ibarətdir ki, Azərbaycanın indiki durumu haqqında orada iki qərar çıxarıldı. Qərarın biri Ermənistanın Azərbaycana təcavüzü, Ermənistanın bu təcavüzünün 52 dövlət tərəfindən pislənməsi haqqındadır. Bu qərarda tələb olunur ki, Ermənistanın Azərbaycan ərazilərini işğal etmiş qoşunları ölkəmizdən, o cümlədən də Laçın və Şuşa rayonlarından qeyd-şərtsiz çıxmalıdırlar, Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin edilməlidir, ikinci qərar da Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Altı ildən bəri müharibə şəraitində olan Azərbaycanın iqtisadi-siyasi böhran keçirdiyini, iqtisadiyyatının çox çətin bir dövr



yaşadığını, ermənilərin işğal etdikləri bölgələrdən olan bir milyon nəfərdən artıq qaçqının çadır şəhərciklərində qaldığını nəzərə alaraq, bu Yeddinci Zirvə toplantısı qərar çıxardı ki, İKT Azərbaycana yardım göstərməlidir. Həm də bu yardımı təşkilata daxil olan hər bir ölkə etməlidir. Belə ki, Azərbaycan ağır vəziyyətdədir. Bu da Azərbaycan üçün çox önəmli bir qərardır, çünki indi bizim yardıma böyük ehtiyacımız var.

Bütün bu qərarların xülasəsi İslam Konfransı Təşkilatının yekun sənədində yazılmışdır. Sənədin bəndlərindən birində Ermənistanın Azərbaycana təcavüzü barədə İKT-nin mövqeyi öz əksini tapmışdır. Deyə bilərəm ki, bu məsələlərdə İKT-nin bütün üzvləri həmrəy oldular və buna görə də həmin qərarlar qəbul edildi. Orada eyni zamanda Bosniya və Herseqovina, Fələstin, Kəşmir, Əfqanıstan, ümumiyyətlə, qırğınlar gedən, insanlar həlak olan, qan tökülən, xüsusən müsəlmanlar qırılan yerlərlə bağlı problemlər haqqında ətraflı söhbətlər, geniş müzakirələr aparıldı və bu barədə də qərarlar çıxarıldı.

Türkiyə təmsilçiləri Azərbaycan haqqında çıxarılan bu qərarların hazırlanmasında və qəbul edilməsində çox önəmli işlər gördülər, bu məsələlərdə təşəbbüskar və yardımçı oldular. Mən bunu xüsusilə və məmnuniyyətlə qeyd edirəm. Kasablankada Türkiyənin hörmətli prezidenti, əziz dostum və qardaşım Süleyman Dəmirəllə bizim ayrıca görüşümüz oldu. Bu görüşdə də biz Azərbaycanın durumu haqqında, dünya problemləri, islam dünyasının problemləri haqqında fikir mübadiləsi apardıq və həmfikir olduğumuzu bildirdik. Söhbətimiz çox yaxşı keçdi.

Mən İKT-nin bu Zirvə toplantısından evə çox məmnunluqla dönürəm. Çünki Azərbaycan bu təşkilata üç il bundan əvvəl daxil olsa da, ölkəmizin problemləri orada indiyədək geniş işıqlandırılmayıb, yəni tam aydın olmayıb. Ona görə də Azərbaycanın indi bu Zirvə toplantısında iştirak etməsi və öz sözünü deməsi, eyni zamanda Azərbaycan haqqında xüsusi qətnamə və qərarların qəbul olunması ölkəmiz üçün önəmlidir və Azərbaycanın indiki durumu, vəziyyəti barədə beynəlxalq ictimaiyyətə həm məlumat verir, həm də onun diqqətini ölkəmizə, Ermənistanın Azərbaycana təcavüzünə cəlb edir. Odur ki, mən çox məmnunam.

Mənim deyəcəyim bu qədər. Diqqətinizə görə sağ olun. Təşəkkür edirəm.

# KASABLANKA ZİRVƏ TOPLANTISINDAN BAKIYA QAYIDARKƏN TƏYYARƏDƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*16 dekabr 1994-cü il*

**– Cənab Prezident, müstəqil Azərbaycan dövləti İslam Konfransı Təşkilatının Zirvə toplantısında ilk dəfə olaraq, dövlət başçısı, prezident səviyyəsində təmsil edildi. Kasablanka toplantısının yekunları və onun Azərbaycan üçün əhəmiyyəti barədə nə deyə bilərsiniz?**

– Əvvəla, mən İKT-nin Kasablankada keçirilmiş Yeddinci Zirvə toplantısının ümumi əhəmiyyətindən danışmaq istəyirəm. Hesab edirəm ki, bu, beynəlxalq aləmdə böyük bir hadisədir. Bu, islam dünyasına mənsub olan 52 ölkənin dövlət başçılarının Yeddinci Zirvə toplantısı idi. Eyni zamanda, indiki Zirvə toplantısı bu təşkilatın yaranmasının 25-ci ildönümünü qeyd edirdi. İKT 25 il bundan öncə yaranmışdır. Əlbəttə, yarandığı vaxt onun üzvləri indikindən xeyli az olub. Hətta keçən Zirvə toplantısı ilə indiki toplantı arasındakı dövrdə İKT-yə yeddi dövlət daxil olub və onların ümumi sayı 52-yə çatıb. Onlar bir milyarddan çox adam yaşayan ölkələri – 52 dövləti təmsil edirlər. Bu 25 il müddətində İKT yaşamağa, beynəlxalq aləmdə özünəməxsus rol oynamağa qadir olduğunu sübut edib. Mən hesab edirəm ki, bu yeddinci toplantı təşkilatın 25 illik fəaliyyətinə yekun vurmaqla bərabər, həm də onun zirvəsidir. Odur ki, bu Zirvə toplantısı dünya siyasətinə, beynəlxalq həyata, şübhəsiz, öz təsirini göstərəcəkdir.

Ötən üç ildə Azərbaycan İKT ilə müəyyən əməkdaşlıq etsə də, bu, çox da səmərəli olmayıb. Ona görə də Yeddinci Zirvə toplantısında Azərbaycanın dövlət başçısı səviyyəsində iştirak etməsi, şübhəsiz, Azərbaycan Respublikasının beynəlxalq aləmdəki vəziyyəti və xarici siyasəti ilə əlaqədar böyük hadisədir. Mən bunu belə qiymətləndirirəm. Bu Zirvə toplantısında iştirakı özüm üçün zəruri hesab edirəm.

Şübhə yoxdur ki, başqa beynəlxalq təşkilatların toplantıları kimi, bu Zirvə toplantısı da müəyyən hazırlıq dövrü keçmişdir. Hazırlıq dövründə biz çalışdıq ki, bu Yeddinci Zirvə toplantısında Azərbaycan üçün



müəyyən nailiyyətlər əldə edək. Biz buna nail ola bildik. Niyyətlərimiz də ondan ibarət idi ki, birinci növbədə Azərbaycanın bir müstəqil dövlət kimi, indiki vəziyyətini islam ölkələrinə, İKT-nin üzvlərinə çatdıraq, onları bundan hali edək, eyni zamanda bu toplantının imkanlarından istifadə edərək, Azərbaycanın vəziyyəti ilə əlaqədar müəyyən qərarlar qəbul edilməsinə nail olaq.

Şübhəsiz ki, bizim üçün beynəlxalq aləmdə ən mühüm məsələ Azərbaycana Ermənistan tərəfindən təcavüz edilməsi məsələsi idi, ötən altı ildən çox müddətdə bu təcavüzün Azərbaycan Respublikasına, Azərbaycan xalqına nə qədər böyük zərər vurduğunu, ölkəmizin nə qədər itkilər verdiyini, onun başına nə kimi bəlalar gəldiyini, Azərbaycan sakinlərinin necə böyük çətinliklərlə qarşılaşdığını dünyaya bildirmək idi. Ona görə də məqsədimiz bu idi ki, Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar bir qətnamə qəbul edilsin. Azərbaycan belə ağır vəziyyətdə olduğuna görə İKT və ona daxil olan dövlətlər ölkəmizə yardım göstərilməsi məsələsinə də baxsınlar.

Hazırlıq zamanı bu qətnamələrin başa gəlməsi asan olmamışdır. Maneçilik törədən amillər də, hətta maneçilik göstərən dövlət də olmuşdur. Bildiyiniz kimi, belə beynəlxalq toplantılarda qərar konsensus əsasında qəbul edilir. Konsensus olmadıqda, yəni dövlətlərdən birinin razılığı olmasa, qərar qəbul edilməyə bilər. Belə bir dövlət vardı və o, Ermənistanın Azərbaycana qarşı təcavüzkar olması fikri ilə razılaşmırdı. Ona görə də biz hazırlıq vaxtı xeyli iş apardıq. Biz Kasablankaya gəldikdə, bu qərarın müəyyən qədər təhlükə altında olduğunu gördükdə fəaliyyətimizi daha da artırdıq. Xarici işlər nazirlərinin görüşündə bu məsələ müzakirə edildi və həmin maneələrin aradan qaldırılmasına nail ola bildik.

Bilirsiniz ki, Zirvə toplantısı ayın 13-də axşam saat 7-də başlandı. Odur ki, bütün gün ərzində dövlət başçıları ilə görüşməyi qərara aldıq. Mən bir çox dövlət başçıları ilə görüşdüm. Biz həmin məsələni bu görüşlərdə də qaldırdıq. Mən dövlət başçılarına bildirdim ki, belə bir qətnamə var və onun qəbul edilməsinə maneələr ola bilər. Onların qarşısını almaq lazımdır. Biz bu işləri də gördük.

Nəhayət, toplantı öz işinə başladıqda, bizdə belə bir inam yarandı ki, qətnaməmiz qəbul ediləcəkdir. Amma toplantı qurtaranadək yenə də intizarda idik. Şükürlər olsun ki, gördüyümüz işlər hədər getmədi, öz nəticələrini verdi və İKT-nin Yeddinci Zirvə toplantısı Ermənistanın

Azərbaycana təcavüzü ilə əlaqədar çox ciddi, müfəssəl bir qətnamə qəbul etdi. Bu qətnamədə Ermənistanın təcavüzü hərtərəfli əks etdirilib və Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxması, qaçqınların öz ev-eşiklərinə qayıtması məsələsi qoyulub. Ermənistanla danışıqlarda çətin problemlərdən biri – Şuşa və Laçın rayonlarının azad edilməsi problemi də orada konkret surətdə göstərilib. Ona görə də Budapeştdə yüksək səviyyədə görüşdən qısa bir müddət, 10-15 gün keçdikdən sonra ikinci belə yüksək səviyyəli toplantıda – İKT-nin Yeddinci Zirvə toplantısında bu qətnamənin qəbul olunması bizim üçün, şübhəsiz, böyük hadisədir, hesab edirəm ki, tarixi hadisədir və bunun böyük əhəmiyyəti olacaqdır.

İkinci qətnamə – indiki vəziyyətlə, yenə də Ermənistanın təcavüzü ilə, bir milyon nəfərdən artıq qaçqının olması ilə əlaqədar islam dövlətlərinin Azərbaycana yardım göstərməsi haqqında qətnamə də bizim üçün çox əhəmiyyətlidir. Belə düşünürəm ki, bu dövlətlər həmin qətnaməyə əməl edərək bizə kömək göstərəcəklər. Kimin nə qədər kömək edəcəyini demək çətindir, hər halda bunun mənəvi cəhəti maddi cəhətindən daha üstündür. Deməli, bu dövlətlər Azərbaycanın ağır vəziyyətə düşdüyünü dərk edir və bunu nümayiş etdirir, eyni zamanda kömək göstərməyə hazır olduqlarını bildirirlər.

Yeddinci Zirvə toplantısının böyük yekun qətnaməsi, qərarı da oldu. Bu qərarda da bir çox məsələlər, yəni müzakirə olunmuş əsas məsələlər öz əksini tapdı. Bununla bərabər, Azərbaycana aid məsələ, Dağlıq Qarabağ, yəni Ermənistanın Azərbaycana təcavüzü məsələsi də yekun sənədində öz əksini tapdı. Ona görə də biz bu toplantıdan gözlədiyimiz sənədlərin qəbul edilməsinə nail olduq. Bu böyük nailiyyətdir. Mən bundan çox məmnunam.

Bu toplantının bizim üçün əhəmiyyəti bir də ondan ibarətdir ki, 52 ölkənin dövlət başçısının toplaşdığı böyük bir məclisdə mən öz çıxışımda Azərbaycanın vəziyyətini şərh etdim, Ermənistanın təcavüzündən, İKT-də Azərbaycanın yerindən, ölkəmizin islam dünyasına münasibətindən, islam dövlətləri ilə əlaqələrindən, Ermənistanın təcavüzü ilə bağlı olaraq respublikamızın düşdüyü vəziyyətdən və eyni zamanda bizim konkret təkliflərimizdən danışdım. Onu da qeyd etmək istəyirəm ki, respublikamız artıq dünya miqyasında tanınmışdır, özünə layiq yerini tutmaqdadır və Budapeşt görüşündə olduğu kimi, Kasablanka Zirvə toplantısında da Azərbaycana lazımi hörmət və ehtiramı



daim hiss etdik. Eləcə də bu toplantının birinci hissəsində mənə söz verilməsi və çıxışımın böyük diqqətlə dinlənilməsi, bir çox dövlət başçılarının bu çıxış barədə müsbət rəyi, çıxışımın doğurduğu əks-səda onu göstərir ki, artıq Azərbaycan Respublikası özünə layiq olan yeri tutubdur.

Biz İKT-nin bu toplantısında Azərbaycanı təşkilatın üzvü olan dövlətlərə bir daha tanıtdıq. Etiraf etməliyəm ki, bu dövlətlərin başçılarının, yaxud nümayəndə heyətləri rəhbərlərinin bəzilərinin çıxışlarında dünyadakı bir çox münaqişələrdən danışılarkən Ermənistanın Azərbaycana təcavüzündən, təəssüflər olsun, söhbət getmirdi. Bu da ondan irəli gəlirdi ki, görünür, indiyədək həmin dövlətlərlə lazımi işlər aparılmayıb, o dövlətlərin başçıları vəziyyətin nə qədər dərin olduğunu dərk etməyiblər. Ona görə də bu toplantıda həm gördüyümüz iş, həm mənim çıxışım, həm qətnamələr, həm də dövlət başçıları ilə ikitərəfli görüşlərimiz, toplantının fasilələrində keçirdiyimiz görüşlər və apardığımız söhbətlər Azərbaycanı islam dövlətlərinin, demək olar, hamısına tanıtdı.

Hətta deyə bilərəm ki, Hind okeanında, Hindistana yaxın bir ərazidə yerləşən Maldiv dövlətinin nümayəndələri çox təkidlə müraciət etdilər ki, onun prezidenti bizimlə görüşsün. Mən fasilədə vaxt tapıb onunla görüşüb söhbət etdim. Maldiv adaları kiçik, lakin müstəqil bir dövlətdir. Onun başçısı orada 16 ildir prezidentlik edir və Azərbaycanın vəziyyətinə çox yaxşı bələddir. Mən çox məmnun oldum ki, o, həm Azərbaycanın tarixi keçmişini, həm bugününü, həm düşdüyü vəziyyəti, həm də Ermənistanın təcavüzünü bilir, elə məni də keçmiş vaxtlardan tanıdığını qeyd etdi. Demək istəyirəm ki, beləlari də var. Bununla yanaşı, eləlari də var ki, onlar məsələdən xəbərdardır, amma vəziyyətin bu qədər kəskin olduğunu dərk edə bilmədiklərinə görə, öz çıxışlarında bunu qeyd edə bilmədilər. Lakin Azərbaycanın vəziyyətindən hali olan böyük dövlətlərin başçıları öz çıxışlarında Ermənistanın Azərbaycana təcavüzü haqqında sözlərini dedilər və bu təcavüzü pislədilər. Bu toplantının bizim üçün əhəmiyyəti bir də ondan ibarətdir ki, biz Azərbaycanı bu dövlətlərə daha yaxından tanıtdıq, onlara ölkəmizin vəziyyəti barədə məlumat verdik və onlarla əlaqələr də yaratdıq.

Zirvə toplantısı zamanı mənim bir çox dövlət başçıları ilə ikitərəfli görüşlərim oldu. Yəqin ki, siz bunları müşahidə etdiniz. Bir neçə görüşümüz də toplantının gedişində oldu. Lakin siz içəridə olmadığını-

za görə onları əks etdirə bilmədiniz. Onların lent yazıları var və bu lentləri sizə verəcəklər. Bu görüşlərin hamısı çox səmərəli oldu. Məsələn, bizdən çox uzaqda yerləşən Bruney dövlətinin sultanı ilə görüşü, yaxud Malayziyanın baş naziri ilə görüşü qeyd edə bilərəm. Dediyim kimi, onlar bizdən uzaqda yerləşirlər. Bəlkə də bizdə bu ölkələri o qədər də yaxından tanımırlar. Mən Malayziyanın baş naziri ilə görüşərkən soruşdum ki, o, Azərbaycanı necə tanıyır. Dedi ki, biz Azərbaycanı Qərb mətbuatında dərc edilən bəzi məqalələrdən tanıyırıq. Halbuki Malayziya Asiyada böyük və əhəmiyyətli dövlətlərdən biridir, müsəlman ölkəsidir, biz onunla iqtisadi əlaqələr yaratmalıyıq. Amma görürsünüzmü, orada Azərbaycanı hələ yaxşı tanımırlar.

İndi burada mən bütün görüşlərimi bir-bir sadalayıb, vaxt almaq istəmirəm. Qısaca onu deyə bilərəm ki, görüşlərim lap çox oldu, orada çox gərgin işlədik. Keçirdiyimiz görüşlər həm ikitərəfli əlaqələr yaratdı, həm də o ölkələrdə Azərbaycana maraq oyatdı. Bu görüşlərdə mən bir çox dövlət başçılarını Azərbaycana dəvət etdim. Onlar da məni öz ölkələrinə dəvət etdilər. Şübhəsiz ki, biz gələcəkdə bu dəvətlərdən istifadə edəcəyik və onlarla Azərbaycanın beynəlxalq əlaqələrini bütün sahələrdə genişləndirəcəyik. Ona görə də mən bu fikirdəyəm ki, Kasablanka Zirvə toplantısında Azərbaycanın iştirakı bizim üçün olduqca əhəmiyyətlidir.

Mərakeş kralı əlahəzrət II Həsən Azərbaycana çox böyük maraq göstərir. Toplantı qurtardıqdan sonra mənim onunla görüşüm və söhbətim oldu. O məni ramazan ayı çıxandan sonra Mərakeşə rəsmi səfərə dəvət etdi. Mən də onu Azərbaycana dəvət etdim. Danışığımızdan bu qənaətə gəldik ki, ölkələrimiz arasında yaxşı əlaqələr qurmağa imkan var və biz onları qurmalıyıq.

Ümumiyyətlə, belə düşünürəm ki, Azərbaycan islam ölkələrinin imkanlarından daha səmərəli istifadə etməlidir. Biz artıq bir çox ölkələrlə əlaqələr yaratmışıq və mən həmin dövlətlərin başçıları ilə Kasablankada təkrarən görüşdüm. Lakin bir sıra dövlətlərlə əlaqələrimiz yoxdur və biz onlarla da əlaqələr quracağıq.

Mən bu səfərimizi çox uğurlu hesab edirəm. İndi vəzifəmiz ondan ibarət olacaq ki, bu qətnamələrdən istifadə edək. Azərbaycanın mövqelərini dünya miqyasında möhkəmləndirək.

**– Cənab Prezident, ən qatı opponentləriniz belə Sizin şəxsinizdə Azərbaycan Prezidentinin qazandığı uğurları etiraf etmək məcburiyyətindədirlər. Belə bir qanunauyğunluq var və bu da, əslində, Budapeşt Zirvə toplantısında Azərbaycan Prezidentinin uğurları, yəni ATƏM-in sülhyaratma qüvvələrinin yaradılması barədə qərar qəbul edilməsi, sonra isə İKT-nin Yeddinci Zirvə toplantısında təcavüzkarın tanınması ilə əlaqədardır. Təbii ki, Azərbaycana düşmən qüvvələr bununla bağlı müəyyən fəaliyyət göstərəcəklər. Bundan sonra Azərbaycana qarşı təzyiqlər güclənə bilərmi?**

– Açığını deyim, indi Azərbaycan elə bir vəziyyətdədir ki, onu hər şey gözləyə bilər. Ancaq müşahidəçilər bunu yəqin aşkar görürlər ki, mən Azərbaycana başçılıq etdiyim vaxtdan indiyə qədər Azərbaycanın müstəqilliyini, dövlətçiliyini qorumaq üçün prinsipial siyasət aparmışam və aparıram. Allaha şükürlər olsun ki, indiyə qədər bu siyasət öz müsbət nəticələrini verir və ümidvaram ki, bundan sonra da verəcəkdir. Amma heç kəs güman etməməlidir ki, gələcəkdə Azərbaycanın beynəlxalq aləmdə vəziyyəti asan olacaqdır. Yox, belə deyildir. Ölkəmizin vəziyyəti, Ermənistanla müharibə, dünyanın bir çox dövlətləri tərəfindən Ermənistanın ciddi dəstəklənməsi – bütün bunlar Azərbaycan üçün çox mürəkkəb şərait yaradır. Üstəlik, Azərbaycan müstəqillik əldə edən vaxtdan bəri çox itiribdir. Təsəvvür edin, üç ildir Azərbaycan müstəqil yaşayır, əgər bu müddət ərzində intensiv işlər görülsəydi, ölkəmizin beynəlxalq aləmdə mövqeyi daha möhkəm olardı, öz müstəqil siyasətini yeritmək üçün o, daha böyük imkanlara malik olardı. Bildiyiniz kimi, bunların hamısı yalnız son vaxtlarda həyata keçirilir. Amma güman edirəm ki, biz gələcəkdə də bu istiqamətdə işləyəcək və nə qədər çətinliklər olsa da, onların qarşısını alacağıq.

Bilirsinizmi, çətinliklər, bizi heç vaxt qorxutmamalıdır və biz heç vaxt da düşünməməliyik ki, bu Zirvə toplantılarından sonra çox hamar yolla gedəcəyik. Yox, çətinliklər olacaqdır. Ancaq nailiyyət üçün qətiyyət lazımdır. Nailiyyət üçün sərbəst fikir lazımdır. Nailiyyət üçün müstəqillik lazımdır. Müstəqil siyasət lazımdır. Siz də görürsünüz ki, mən müstəqil siyasət aparıram.

**– Sizə bu müstəqil siyasətdə, Azərbaycanın gələcəyi yolunda uğurlar, cansağlığı, Azərbaycanı xoş günlərə çatdırmağınızı arzulayırıq.**

– Sağ olun!

**– Kacablanka Zirvə toplantısında Sizə bu məclisin bağlanması münasibətilə Asiyanın müsəlman ölkələri adından təbrik nitqi ilə**

**çıxış etmək üçün söz verildi. Bu, Azərbaycan liderinin düzgün siyasi xətt seçdiyinə, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artdığına dəlalətdirmi?**

– Bilirsinizmi, bizim düzgün xətt seçdiyimiz heç də təkcə bununla səciyyələnmir. Biz təkcə islam dünyasına arxalanmırıq, bütün dünya birliyinə güvənirik. Götürək Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 49-cu sessiyasında mənim çıxışımı, yaxud ATƏM-in üzvü olan ölkələrin dövlət başçılarının Budapeştdə Dördüncü Zirvə toplantısında bizim iştirakımızı və mənim çıxışımı. İndi isə İslam Konfransı Təşkilatının Kasablanka görüşündə bizim iştirakımızı və mənim çıxışımı. Deyirsiniz ki, Zirvə toplantısının bağlanışı münasibətilə Asiyanın müsəlman ölkələri adından təbrik nitqi söyləmək və Yeddinci Zirvə toplantısının müvəffəqiyyətlə başa çatması münasibətilə minnətdarlıq etmək üçün mənə imkan verilmiş, daha doğrusu, böyük ehtiram göstərilmişdir. Bütün bunları birlikdə götürdükdə görürük ki, biz düzgün xətt seçmişik. Özü də təkcə İslam Konfransı Təşkilatının fəaliyyətində yox...

**– Mən kompleks şəkildə nəzərdə tuturam.**

– Bəli, kompleks şəkildə götürüldükdə. Bəli, mən belə hesab edirəm və əminəm ki, Azərbaycan çox məqsədyönlü, düzgün, müstəqil, asılı olmayan, Azərbaycanın milli mənafelərinə cavab verən xarici siyasət yeridir.

**– Kasablankada Asiya dövlətləri adından Azərbaycan prezidentinin danışması irəlicədən məlum idi, yoxsa, görüşün gedişində məlum oldu?**

– Xeyr, irəlicədən məlum deyildi. Toplantının gedişi vaxtı dedilər, belə bir fikir var ki, üç regiondan çıxış olsun: ərəb ölkələri adından Yasir Ərəfat, Afrika ölkələri adından Burkina – Fasonun prezidenti, Asiya ölkələri adından isə Azərbaycan prezidenti çıxış etsin. Bu məsələ katiblikdə müzakirə olunmuşdu və belə fikrə gəlmişdilər. Yəqin ki, belə bir fikrin olması da Azərbaycana göstərilən diqqət və münasibətin nəticəsidir.

**– Qəbul olunmuş qətnamədə onun həyata keçirilməsi üçün mexanizm nəzərdə tutulurmu?**

– Şübhəsiz ki, onun nəzarət mexanizmi də var. Biz bundan sonra işləməliyik və bu qətnamənin həyata keçirilməsi üçün lazımi tədbirlər görməliyik.



**– Müsaidənizlə, daha bir sual. Məlum bir həqiqətdir ki, islam dövlətləri böyük məclislərə toplaşanda, orada qərarlar qəbul edilən-də onlar çox vaxt yekdil olurlar. Amma onların bəziləri–mən ad çəkməyəcəyəm – həmin xətti axıradək yürütmürlər. İndi burada ikitərəfli əlaqələrin, yeni tanışlıqların , yeni münasibətlərin yaranması bu xoşagəlməz halın aradan qaldırılmasına təsir göstərəcəkmi?**

– Buna şübhə ola bilməz. Mən hesab edirəm ki, İslam Konfransı Təşkilatına daxil olan dövlətlərin tam əksəriyyəti Azərbaycanın bu ağır vəziyyətini başa düşür və ona kömək göstərmək əzmindədir. Şübhəsiz ki, indi bu Zirvə toplantısında iştirak etməyimiz, mənim bir çox ikitərəfli görüşlərim olduqca əhəmiyyətlidir. Görüşdüyüm adamların bir çoxu ilə keçmişdən tanışam, çoxları ilə bir vaxtlar görüşlərim olub. Məsələn, Yasir Ərəfatla biz qardaş kimi görüşdük. O məni görəndə sevindiyindən bilmədi ki, nə etsin. Çünki mən onu vaxtilə, daha doğrusu, 70-ci illərin sonunda Bakıda bir neçə dəfə qəbul etmişəm, ondan sonra Moskvada da qəbul etmişəm. Görən kimi dedi: mən çox sevinirəm ki, siz yenidən hakimiyyətə gəlmisiniz. Mənim Yəmən prezidenti ilə çox görüşlərim olmuşdu – Yəməndə də, Moskvada da. Yaxud başqaları ilə görüşəndə deyirdilər ki, biz sizin haqqınızda oxumuşuq, çox eşitmişik. Bunlar əvvəllər görüşmədiyim adamlar idi.

Əlbəttə, bütün bunlar əhəmiyyətlidir. Çünki islam dünyası mənim şəxsiyyətimlə vaxtilə, şübhəsiz, çox maraqlanıb. Xüsusən mən Sovetlər İttifaqının rəhbərlərindən biri olduğum dövrdə hər bir müsəlman maraqlanırdı ki, indi Sovetlər dövlətinin rəhbərliyində bir müsəlman da var. Ona görə də onların mənim haqqımda qiyabi məlumatları tanış olmadığım adamların məlumatlarından çox idi. Məsələn, Suriyanın vitse-prezidenti Xəddamla biz qardaş kimi görüşdük. Çünki mən onunla bir neçə dəfə görüşmüşdüm. O bizim yenidən görüşməyimizə çox sevindi. Mən onun vasitəsilə prezident Hafiz Əsədə salam göndərdim.

Şübhəsiz ki, bunlar Azərbaycan üçün çox əhəmiyyətlidir.

**– İslam Konfransı Təşkilatının bu qətnaməsi, dünyanın bu qədər dövlətinin Azərbaycana dəstək verməsi ATƏM-in qərarının daha səmərəli şəkildə həyata keçirilməsinə əlavə bir təsir ola bilərmi?**

– Şübhəsiz, çünki ATƏM özünün 20 illik tarixi və altı il gedən Ermənistan- Azərbaycan müharibəsi ərzində ilk dəfə belə bir qərar qəbul

etdi. Çoxları belə hesab edirdi ki, ATƏM heç vaxt belə qərar qəbul etməyəcəkdir. Lakin o, belə bir qərarı qəbul etdi. Budapeştdə 52 dövlət təmsil olunmuşdu. Burada, Kasablankada da 52 dövlət təmsil edilmişdi. Biz bu bir ay ərzində 104 dövlətlə təmasda olduq. Orada da, burada da Azərbaycan üçün çox əhəmiyyətli qətnamələr qəbul edildi. Mən hesab edirəm ki, bunlar 1994-cü ilin sonu üçün çox yaxşı töhfədir.

**– Ermənistanın təcavüzkar kimi tanınması barədə böyük bir addım atıldı və qətnamə qəbul olundu. Orada belə bir maddə var ki, BMT qarşısında məsələ qaldırılsın. Ümid varmı ki, ümumiyyətlə, BMT miqyasında Ermənistan təcavüzkar kimi tanınsın?**

– Bilirsinizmi, biz həmişə ümidlə yaşamalıyıq. Ümidlə yaşamasaq, bir şeyə nail ola bilmərik. Həmişə ümidlə yaşamalıyıq. Əgər bir məqsəd varsa, demək, onu həyata keçirmək də mümkündür. Bir addım ata bildiksə, irəliyə getdiksə, ikinci addımı da ata bilərik.



## «REKLAMNIY VESTNİK»in MÜXBİRİNƏ MÜSAHİBƏ

**– Artıq bir ildən çoxdur ki, bu vəzifədəsiniz. Amma bir neçə il əvvəl çoxları əmin idi ki, Heydər Əliyevin siyasi karyerası bitmişdir...**

– 1987-ci ildə SSRİ rəhbərliyi ilə, o cümlədən şəxsən Qorbaçovla kəskin fikir ayrılığına görə, Siyasi Büro tərkibindən çıxarkən mən heç güman etməzdim ki, böyük siyasətə qayıdacağam. 1990-cı ilin sonunda mənə Bakıda yaşamağa icazə vermədilər və onda Naxçıvanda sığınacaq tapdım. 1991-ci ildə orada mürəkkəb vəziyyət yaranmışdı, muxtar respublika blokadaya alınmışdı. Xalq bir neçə gün meydanlarda mitinq keçirir, tələb edirdi ki, mən Ali Sovetə başçılıq edim. Mən də məcbur olub bu işi görməli oldum. Çətin şəraitdə yaşayırdıq, lakin hər halda nisbətən sakitlik idi. Elə düşünürdüm ki, Naxçıvan mənim son dayanacağımdır. Lakin 1993-cü ilin iyununda Bakıda hakimiyyət uğrunda mübarizə kəskinləşdi, respublika vətəndaş müharibəsi həddinə gəlib çatdı. Onda prezident Əbülfəz Elçibəy mənə müraciət etdi. Onun özü dövləti böhrandan çıxara bilmirdi. Mən qayıtmaq istəmirdim. Lakin qərara aldım ki, kənarda qalmaq düzgün olmaz. Təyyarə ilə uçub Bakıya gəldim. Elə hesab edirəm ki, vəziyyəti sabitləşdirə bildim. Vətəndaş müharibəsinin qarşısı alındı. Təəssüf ki, mən Azərbaycan Ali Sovetinin sədri vəzifəsini ifa etməyə başlayandan iki gün sonra Elçibəy Bakını tərk etdi. Və o vaxtdan Naxçıvanın Kələki kəndindədir. Mən tək qaldım.

**– Azərbaycan Prezidenti indiyədək «döyüş meydanında tək qalan döyüşçü»dür?**

– Mən özümlə heç bir komanda gətirməmişəm və hazırlamamışam. Özümün siyasi strukturum da yoxdur, hərçənd prezident seçilənə qədər Yeni Azərbaycan Partiyasına başçılıq edirdim. Hələ 1982-ci ildə buradan getsəm də, öz respublikamı yaxşı tanıyıram, o vaxtdan bir neçə rəhbərlik dəyişmişdir. Ümumiyyətlə, necə deyərlər, əlimin altında olan səlahiyyətli adamlarla işləyirəm.

**– Bununla belə, bəzi müxalif əhval-ruhiyyəli siyasətçilər yüksək ixtisaslı kadr işçilərini öz müasirlərinizlə, dostlarınız, hətta qohumlarınızla əvəz etdiyinizi söyləyirlər.**

– Məndən qabaq məsul vəzifələrə təyin olunan adamların hamısı öz yerində işləyir. Təbiidir ki, Surət Hüseynovu və onunla birlikdə oktyabrın əvvəllərində dövlət çevrilişi etmək istəyənləri, habelə həmin vəzifələrdən könüllü çıxanları istisna edirəm. Belə ki, respublikanın indiki rəhbərliyində heç bir «Naxçıvan klanı» yoxdur. Bir halda ki, siz müxalifətdən söz açdınız, onda icazə verin, bir şeyi xatırladım: Azərbaycanda indinin özündə də 40-dan çox siyasi partiya mövcuddur ki, onların da əksəriyyəti müxalifət partiyalarıdır. Müxtəlif əqidəli 600-dən çox qəzet nəşr olunur. Əgər bütün bunları «demokratiyanın ləğvi» kimi qəbul edirlərsə, – müxalifətdə olanların bəziləri mənim tutduğum islahat yoluna məhz belə münasibət bəsləyirlər – onda onlar məni günahlandırmaqda haqlıdırlar.

**– Sizin və köməkçilərinizin işləyib hazırladığınız siyasətə təsir göstərən başlıca amillər hansılardır?**

– Biz müstəqilliyin bərqərar olması yolunda çox mürəkkəb yol keçirik. Məlum olduğu kimi, keçmiş SSRİ-nin bütün respublikaları hər bir sahədə, xüsusilə iqtisadi sahədə bir-biri ilə sıx bağlı olmuşdur. Respublikalar ayrıldıqdan sonra əlaqələrin kəsilməsi Azərbaycan üçün ən xoşagəlməz nəticələr vermişdir. Azərbaycanın sosial-iqtisadi vəziyyətini mürəkkəbləşdirən daha bir səbəb isə müharibədir. Bu müharibə altı ildir davam edir, respublika ərazisinin 20 faizindən çoxu işğal olunmuşdur və indiyədək bir milyondan artıq adam qaçqın halında yaşayır. Bu adamlar hər şeylərini itirmişlər.

Azərbaycan böyük iqtisadi potensiala malikdir. Bu yeraltı sərvətlər, hər şeydən əvvəl, neft, habelə sənaye, kənd təsərrüfatı və əmək ehtiyatlarıdır. Lakin yuxarıda göstərilən proseslər onlardan səmərəli istifadə etməyə mane olur. Bütün qüvvələr ölkəni ağır iqtisadi vəziyyətdən çıxarmağa, həmçinin müdafiə ehtiyaclarına yönəldilir.

**– Əlaqələrin pozulması. Bu problemi 2 ildir ki, MDB yaratmaqla həll etməyə cəhd göstərirlər. Sizcə bu struktur həyat qabiliyyətlidirmi?**

– Mən deyə bilmərəm ki, MDB artıq təşəkkül tapmışdır və səmərəli fəaliyyət göstərir. Məncə, vəziyyət belədir: dövlət başçılarının bir-iki gün davam edən görüşü zamanı adama elə gəlir ki, ittifaq var, amma qalan vaxtlarda sanki bu ittifaq yoxdur. Məncə, MDB-nin müvafiq beynəlxalq təşkilatlar kimi fəaliyyət göstərməsi üçün çox ciddi tədbirlər görülməlidir.



**– Bəlkə bunun üçün dövlətlərarası hakimiyyət institutu lazımdır?**

– Mən bunu məqsədəuyğun saymıram. Belə münasibət vahid dövlətin dirçəldilməsinə səbəb olar və nəticədə milli mənafelərə zərər toxunar.

**– Qarabağ münaqişəsinin səbəbləri və nəticələri haqqında nə deyə bilərsiniz?**

– Bütün hadisələr başlanarkən Azərbaycan ittifaqın tərkibində idi. Fikrimcə, ittifaq rəhbərliyi münaqişənin genişlənməsinin qarşısını ala bilərdi. Lakin bunu etmədi.

İndi Azərbaycan öz ərazi bütövlüyünü qorumaq üçün müharibə aparır. Lakin bu vaxt ərzində biz münaqişəni sülh yolu ilə həll etməyə cəhd göstərmişik. Hər halda, nə isə edə bilmişik – necə olsa da, mayın 10-dan atəş dayandırılmışdır. İndi danışıqlar gedir. Danışıqların gedişində bəlkə də, nəhayət, hansısa razılığa gələ biləcəyik. Lakin bir şərtlə. Erməni silahlı birləşmələri işğal olunmuş bütün torpaqlarımızdan çıxarılmalıdır.

**– Bütövlükdə Qafqazda hökm sürən vəziyyət haqqında Sizin rəyinizi bilmək istərdik. Rusiyanın indiyədək bu regionda vahid siyasi konsepsiya işləyib hazırlamaması barədə deyilən ziddiyyətli fikirlərlə Siz razısınızmı?**

– Rusiyanın hansısa aydın mövqeyinin olub-olmadığını söyləməkdə çətinlik çəkirəm. Digər dövlətin hakimiyyət strukturları içərisində nə baş verdiyini heç kəs dəqiq deyə bilməz. Lakin elə bilirəm ki, Qafqaz çox mürəkkəb regiondur: Rusiya Federasiyasının burada fəaliyyəti ölçülüb-biçilmiş olmalıdır. Məncə, Rusiya Zaqafqaziya ölkələrinin hər birinə eyni münasibət bəsləməlidir. Onlardan hər hansı birinə üzgörənlik etmək – nəticə etibarı ilə Rusiya rəhbərliyinin bu regiondakı əhali arasında nüfuzdan düşməsinə səbəb olardı. Təkrar edirəm, bu gün dini və ya hər hansı digər amillərdən asılı olmayaraq, bütün münasibətlər diqqətlə ölçülüb-biçilməlidir.

**– Üzgörənlikdən söhbət getdisə, onda Azərbaycana münasibətdə bunun dərəcəsi necədir? Belə çıxır ki, Moskva ilə Bakı arasındakı münasibətlər yalnız dostluq münasibətləridir.**

– Bütövlükdə götürdükdə bizim aramızda həll olunması qeyri-mümkün olan problem yoxdur. Axı, başqa cür ola bilərmi? Bizim xalq bu məsələdə sadəcə olaraq çətinlik yaratmaq istəmir. Hərçənd hakimiyyət strukturlarında çox şey ola bilər. Mən Bakıya qayıtmazdan əv-

vəl başqa siyasət yeridirdilər və Rusiya ilə münasibətlər soyuq, bəzən hətta ağır xarakter almışdı. Lakin bu münasibətlər dəyişmişdir. İndi təkcə sizin XİN-lə deyil, həm də prezident Yeltsinlə münasibətlərimiz yaxşıdır. Biz onunla sıx əlaqə saxlayırıq, görüşürük, hər ikimizin qarışmalı olduğumuz məsələlərlə bağlı telefon söhbətləri edirik.

**– Dediklərinizdən belə çıxır ki, müdaxilə etməli olduğunuz məsələlər o qədər çoxdur ki, Sizin istirahət üçün vaxtınız qalmır.**

–Vətənə qayıtdığım vaxtdan bəri istirahət üçün, sadəcə olaraq, vaxtım qalmır. Vəziyyət elə gətirmişdir ki, gündəlik iş vaxtım 15-18 saat çəkir. Şəxsən müdaxilə etməyim lazım gələn dövlət işləri həddindən artıq çoxdur. Elə indi də sizdən üzr istəməliyəm – görüş saat 18-ə təyin olunsa da, indi gecə yarıdır. Bərk məşğul idim.

**– «Reklamnıy vestnik» oxucularına nə demək istərdiniz?**

– Çox şadam ki, bizim və sizin işgüzar adamlar əl-ələ verib işləmək imkanına malikdirlər. Mən bütün qüvvəmi sərf edəcəyəm ki, xalqlarımız dost olaraq qalsınlar, iki respublika arasındakı münasibətlər isə əsl dostluq münasibətləri olsun. Axı biz 200 ildir ki, birgə yaşayırıq.

***Müsahibəni apardı: Andrey Vasilyev***
***«Reklamnıy vestnik», № 48, 1994-cü il***



## QANLI YANVAR FACİƏSİNİN 5-ci İLDÖNÜMÜ İLƏ BAĞLI ŞƏHİDLƏR XİYABANINDA JURNALİSTLƏRİN SUALINA CAVAB

*20 yanvar 1995-ci il*

**S u a l :** Cənab Prezident, məhz milli hiss 20 Yanvarda xalqı tankların qabağına əliyalın çıxartdı. Beş il ötəndən sonra – keçən ilin oktyabr gecəsində ölümdən, qandan qorxmadan, Sizin bir çağırışınızla xalqın ayağa qalxması, bu, milli şüurun inkişafı deyilmi?

**C a v a b :** Əlbəttə, şübhəsiz. Bu insanlarda milli hisslər – mən bunu iki gün bundan qabaq ziyalılar qarşısında çıxış edəndə dedim – 80-ci illərdə daha da inkişaf edib, oyanıb, baş verən proseslər nəticəsində get-gedə aşkara, zahirə çıxıbdır. Milli hisslərin, milli azadlıq arzularının, niyyətlərinin inkişafı Yanvar hadisələri ilə bağlıdır. Bu hisslər insanları oyatdı, adamlar öz milli haqlarını, öz respublikasının, torpağının haqlarını müdafiə etmək üçün ayağa qalxdılar və bunları təmin edə bilməyən o vaxtkı Azərbaycan rəhbərliyinin – respublikanı idarə edən dairələrin, şəxslərin, orqanların xalqın bu milli hisslərini anlamadıqlarını gördükdə üsyan etdilər, mitinqlərə çıxdılar.

Bu mitinqləri boğmaq üçün də hərbi təcavüzə, siyasi təcavüzə əl atıldı və xalqımız qurbanlar verdi. Bu qurbanlar, şübhəsiz ki, bizim üçün böyük dərddir, ağrıdır. Amma eyni zamanda bu qurbanlar xalqımızın milli ruhunun, milli hisslərinin oyanmasının böyük bir rəmzidir, nümayişidir. Ondan sonrakı dövrdə proseslər nə qədər mürəkkəb, ziddiyyətli olsa da, bir tərəfdən bu milli hisslər inkişaf edirdi, ikinci tərəfdən isə onu boğmağa çalışırdılar. Ancaq boğanlar gücsüz oldu, milli hisslər güclü oldu və bunun nəticəsidir ki, keçən il 4 oktyabrda mənim çağırışımla xalq çox qısa müddətdə ayağa qalxdı.

Siz yəqin bir şeyi də müşahidə edirsiniz ki, əgər 88-ci ildən başlayan proseslər –xalqın mütəşəkkil, ya qeyri-mütəşəkkil, kortəbii, yaxud da ki, hər bir insanın öz hisslərini bütün cəmiyyətin hisslərinə qovuşdurması nəticəsində mitinqlər, nümayişlər, etiraz tədbirləri dövlətin rəhbərlərinə qarşı olmuşdursa, 4 oktyabrda isə xalqın bu milli hissləri dövlətin siyasəti ilə o qədər bağlı idi ki, dövlətin çağırışı ilə xalq ayağa

qalxdı. 20 Yanvar gecəsi, yaxud da ki, 20 Yanvar ərəfəsində prezident sarayı qarşısında dövlətə, idarəetmə orqanlarına, rəhbərlərə nifrət hissi ilə toplaşmış adamlar əvəzinə, 4 oktyabr 1994-cü ildə həmin adamlar dövləti müdafiə etmək üçün gəldilər. Bax, çox prinsipial fərq bundan ibarətdir.



## «AZƏRBAYCAN QADINI» JURNALININ BAŞ REDAKTORU XALİDƏ XANIM HASİLOVAYA

Hörmətli Xalidə xanım!

Sizi – Azərbaycan xalqının sevimli yazıçısını 75 illik yubileyiniz münasibətilə təbrik edirəm.

Şərəfli ömür yolu keçmiş görkəmli nasir kimi yaratdığınız əsərləriniz oxucuların mənəvi dünyasına işıq salmış, Azərbaycan övladlarının vətənpərvərlik ruhunda tərbiyəsində az rol oynamamışdır.

«Azərbaycan qadını» kimi, yeganə qadın jurnalımızın özünəməxsus yaradıcılıq yolu ilə inamla addımlaması da sizin fədakar əməyinizin bəhrəsidir.

İnanıram ki, Siz bundan sonra da ədəbiyyat və mədəniyyətimizin inkişafı naminə əlinizdən gələni əsirgəməyəcəksiniz. Bu yolda Sizə möhkəm cansağlığı və uzun ömür arzulayıram.

*HEYDƏR ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*
*18 aprel 1995-ci il*

## YAPON JURNALİSTİ İLƏ MÜSAHİBƏ

*11 mart 1995-ci il*

Yaponiyanın nüfuzlu mətbuat orqanlarından biri olan «Mayniti» qəzetinin müxbiri Heydər Əliyevdən qısa müsahibə almışdır.

**S u a l :** Cənab Prezident, Eduard Şevardnadze ilə görüşünüzün nəticəsi barədə nə deyə bilərsiniz?

**C a v a b:** Cənab Şevardnadze də, mən də belə fikirdəyik ki, Zaqafqaziya regionunda sülhü, əmin-amanlığı bərpa etmək lazımdır.

**S u a l :** Xahiş edirəm, Çeçenistan hadisələri barədə fikirlərinizi söyləyəsiniz və Dağlıq Qarabağ münaqişəsinin həlli üçün ATƏT-in sülhü mühafizə qüvvələrinin göndərilməsi imkanları haqqında mövqeyinizi bildirəsiniz.

**C a v a b:** Ermənistanla Azərbaycan arasında hərbi münaqişənin aradan qaldırılması bizim üçün əsas məsələdir. Bu münaqişə Dağlıq Qarabağla əlaqədardır. Bilirsiniz ki, keçən ilin dekabrında Budapeştdə ATƏT-in Zirvə toplantısında bu məsələ ilə bağlı qətnamə qəbul olunub. Həmin qətnamənin əsas məqsədi ondan ibarətdir ki, Böyük Sülh Sazişi hazırlanmalıdır. Bu işlə ATƏT-in Minsk qrupu məşğul olur. Minsk qrupunun hazırda iki sədri var ki, bu da yeni hadisədir. Sazişin hazırlanması ilə yanaşı olaraq, onun həyata keçirilməsi üçün regiona ATƏT-in çoxmillətli sülhü mühafizə qüvvələri gəlməlidir.

**S u a l :** Bu qüvvələr regiona nə vaxt göndərilə bilər və həmin qüvvələrin göndərilməsi üçün maneələr nədən ibarət ola bilər?

**C a v a b:** Biz həmin qüvvələrin nə qədər mümkünsə, tez göndərilməsini istəyirik. Ancaq bu qüvvələrin regiona gəlməsindən əvvəl, böyük sülh sazişi imzalanması ilə eyni vaxtda sülhü mühafizə qüvvələrinin bölgəyə gəlməsi haqqında qərar qəbul edilməlidir. Azərbaycan tərəfdən heç bir maneçilik yoxdur, əksinə, biz bunu istəyirik, hərbi münaqişədə artıq on aydır ki, atəşkəs yaranıb. Hesab edirik ki, on ay bəsdir, indi böyük sülh olmalıdır.

**S u a l :** Çeçenistan hadisələrini də buraya əlavə etsək, Siz ümumən Qafqazda sülhün bərqərar olması barədə sənədlər toplusunun imzalanmasına necə baxırsınız?



**C a v a b:** Bilirsiniz, bunlar ayrı-ayrı məsələlərdir və onların hamısını bir sənəddə əhatə etmək olmaz. Qafqaz böyük regiondur və müxtəlif xalqlardan, etnik qruplardan ibarətdir. Bu regionun hər bir məntəqəsinin özünəməxsus xüsusiyyəti olduğu kimi, həmin problemlərin hər birinin həllinin də öz yönümü var.

**S u a l :** Azərbaycanla Yaponiya arasında iqtisadi sahədə, xüsusən enerji bölməsində əməkdaşlıq barədə nə demək istərdiniz?

**C a v a b:** Çox istərdim ki, Yaponiya ilə Azərbaycan arasında geniş əməkdaşlıq olsun. Mən sizin vasitənizlə Yaponiyanın iş adamlarını Azərbaycana dəvət edirəm. Hesab edirəm ki, Yaponiya indiyədək Azərbaycanın bu barədə imkanlarına lazımınca qiymət verə bilməyib. Ölkəmizdə potensial imkanlar çoxdur. Əgər Yaponiya Azərbaycana doğru addımlar atsa, bu, çox yaxşı nəticələr verər. Yeri gəlmişkən, onu da deyim ki, Azərbaycanda energetika və neft sahəsində böyük imkanlar vardır.

# AVROPA BİRLİYİ RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞMƏK ÜÇÜN BELÇİKAYA YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*17 aprel 1995-ci il*

Azərbaycanın Avropa Birliyinə qoşulması respublikamız üçün çox böyük imkanlar verir. Ümumiyyətlə, indi qitədə və dünyada Avropa Birliyinin fəaliyyəti bütün sahələrdə–həm iqtisadi, həm də siyasi sahədə çox genişdir. Ona görə də indi Avropa Birliyi ilə əlaqələrimizin inkişaf etməsi respublikamız üçün hərtərəfli mənfəətlidir. Bu birlik və onun iqtisadi komissiyası Azərbaycana xeyli kömək–humanitar yardım edib, respublikamıza, xüsusən taxıl məhsulları və başqa ərzaq malları göndəribdir. Onlar ölkəmizin böhran vəziyyətindən çıxmasına kömək edirlər. Bu yardımın indən sonra da davam etdirilməsi üçün onların geniş bir proqramı var. Ona görə də Azərbaycan Respublikasının beynəlxalq aləmdə mövqelərinin daha da möhkəmləndirilməsi və qarşımızda duran bütün məsələlərin, siyasi məsələlərin, o cümlədən Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması və Avropa Birliyinin, onun iqtisadi komissiyasının ölkəmizə köməyinin daha da artırılması üçün bu səfər çox əhəmiyyətlidir.



# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BELÇİKA RADİO VƏ TELEVİZİYASINA MÜSAHİBƏSİ

*17 aprel 1995-ci il*

Brüsseldə Avropa Birliyi komissiyasının iqamətgahında Belçika radio və televiziyasının müxbiri də Heydər Əliyevdən müsahibə aldı.

Dövlətimizin başçısı Azərbaycanın Avropa Birliyi komissiyası ilə əlaqələrinin perspektivləri barədə müxbirin sualına cavabında dedi:

– Avropa Birliyi çox nüfuzlu beynəlxalq təşkilatdır və dünyanın həyatında getdikcə daha böyük rol oynayır. Gənc müstəqil dövlət olan Azərbaycan Respublikasının Avropa Birliyi ilə daha sıx əlaqələr yaratmağa, təbii ki, ehtiyacı var. Bundan əlavə, Avropa komissiyasının inkişaf etməkdə olan ölkələrə, o cümlədən də sosial-iqtisadi böhranla qarşılaşmış, Ermənistan silahlı qüvvələrinin işğal etdikləri ərazilərimizdən didərgin düşmüş bir milyondan çox qaçqını olan, şimal sərhədlərinin bağlanması nəticəsində blokada vəziyyətinə düşmüş Azərbaycan Respublikasına yardım göstərməyə imkanı var. Avropa komissiyası indinin özündə bizə yardım göstərir. Lakin biz belə hesab edirik ki, bu yardım daha genişmiqyaslı olmalıdır. Bütün bu məsələlər barədə biz bu gün çox əhəmiyyətli söhbət etmişik.

**S u a l :** Siz Azərbaycandakı vəziyyəti sabit hesab edirsiniz?

**C a v a b:** Bəli, vəziyyət sabitdir. Doğrudur, qiyam cəhdləri, Azərbaycanda müxtəlif qruplaşmalar, hətta qanunsuz silahlı qruplaşmalar meydana gəlmişdi və onlar müxtəlif vaxtlarda silah gücünə hakimiyyəti ələ keçirməyə, öz mövqelərini möhkəmləndirməyə cəhd göstərmişdilər. 1993-cü ilin iyununda belə bir vəziyyətin qarşısını almalı olduq və geniş vətəndaş müharibəsinin başlanmasına yol vermədik. O zaman mən Bakıya dəvət edilərək parlamentin sədri vəzifəsində işə başladım, sonra isə prezident seçildim. Ötən ilin oktyabrında dövlət orqanlarında rəhbər vəzifə tutan bəzi şəxslər, məsələn, baş nazir, milli təhlükəsizlik naziri və başqaları dövlət çevrilişinə cəhd göstərdilər. Bunun da qarşısı alındı. Bu yaxınlarda, mart ayında daha bir dövlət çevrilişi cəhdi oldu. Onu Xüsusi Təyinatlı Polis Dəstəsi deyilən strukturun ətrafında bir-

ləşmiş mafioz şəxslərdən ibarət qrup təşkil etmişdi. Kifayət qədər silahı və qüvvəsi olan həmin polis dəstəsi, əslində, dövlətin nəzarəti altından çıxmışdı. Müxtəlif siyasi qruplaşmalar, mafioz qruplar dövlət çevrilişinə nail olmaq üçün ondan istifadə etməyə çalışırdılar. Mən bunun qarşısını almaq üçün tədbirlər gördüm. Lakin bir nəticəsi olmadı. Onlar silaha əl ataraq bilavasitə çevriliş cəhdinə başladıqda isə, darmadağın edildilər və həbs olundular. Bəziləri isə qaçıb gizləndi.

Belə hesab edirəm ki, indi respublikada vəziyyət sabitdir. Dövlət bölgələrin hamısına nəzarət edir. Zənnimcə, qiyamçılara verdiyimiz bu son dərs silah gücünə hakimiyyəti ələ keçirmək istəyənlərdən ötrü ibrət olacaqdır.

**S u a l :** Bəzi tənqidçilərimiz deyirlər ki, Azərbaycanda kifayət qədər demokratiya yoxdur...

**C a v a b:** Niyə ki, Azərbaycanda demokratiya kifayət qədərdir. Onlarca siyasi partiya fəaliyyət göstərir. Qərb ölkələrinin hər hansından daha çox qəzet çıxır. Yəni mətbuat, söz, vicdan azadlığı, insan hüquqlarının qorunması təmin olunmuşdur. İqtisadi islahatların fəal həyata keçirilməsinə başlanmışdır. Bu ilin oktyabrında parlament seçkiləri olacaq, indi ona hazırlıq gedir. Seçkilər çoxpartiyalı əsasda keçiriləcəkdir. Azərbaycanın yeni, demokratik konstitusiyası hazırlanır və bu il qəbul ediləcəkdir. Bir də deyirəm ki, Azərbaycanda demokratiya kifayət qədərdir. Elə buna görədir ki, bayaq xatırladığım qanunsuz silahlı birləşmələr cəzasız qalmışdılar. Biz onlara qarşı güc tətbiq etmir, adamları sözlə inandırmağa çalışırdıq. Azərbaycanda demokratiyanın olmaması barədə deyilənlər uydurmadır.

**S u a l :** Siz dediniz ki, iqtisadiyyatda vəziyyət ağırdır. Bu mənada beynəlxalq neft müqaviləsinin Azərbaycan üçün əhəmiyyəti varmı?

**C a v a b:** Çox böyük əhəmiyyəti var, elə buna görə də onu imzalamışıq. Müqavilə 30 il müddətinə bağlanmışdır və şübhəsiz, ondan dərhal böyük nəticələr gözləmirik. Lakin bu, çox mühüm sənəddir. Əvvəla, siyasi əhəmiyyəti çox böyükdür, belə ki, Azərbaycanın açıq ölkə olduğunu bütün dünyaya nümayiş etdirir. Xəzərin Azərbaycana aid hissəsindəki üç yatağın birgə işlənməsinə dair bu müqaviləyə respublika Dövlət Neft Şirkəti və ondan artıq xarici şirkət daxildir. Bunlardan beşi Amerika şirkətləridir. Təbii ki, neft müqaviləsinin həyata keçirilməsi ölkəmizin, xalqımızın daha da yaxınlaşmasına, başqa sahələrdə də iqtisadi əlaqələrin yaranmasına kömək edəcəkdir və ümumən Azərbaycana xarici investisiyalar qoyulması üçün böyük yol açır. İkincisi, bu müqavilənin imzalanması göstərir ki, biz həqiqətən bazar iqtisadiyyatı yolu tutmuşuq və ölkəmizi dünya iqtisadiyyatına qovuşdururuq. Əlbəttə ki, bütün bunlar son nəticədə ölkəmizə iqtisadi fayda verəcək, əhalinin yaşayışının yaxşılaşmasına kömək edəcəkdir.



**S u a l :** Lakin Rusiya bu müqavilədən narazıdır.

**C a v a b:** Bilirsiniz, bu məsələ, əslində, olduğundan daha çox şişirdilir. Zənnimizcə, belə söz-söhbət əsasən mətbuat səhifələrində gedir. Müqavilənin imzalandığı ilk vaxtlar Rusiya Xarici İşlər Nazirliyinin bu barədə mənfi bəyanatı olmuşdu. Lakin ondan sonra biz Rusiyanın elə bir təzyiqini hiss etmirik. Təbii ki, Qərb şirkətlərinin Azərbaycanda, Xəzər dənizindəki neft yataqlarının işlənməsində bizimlə əməkdaşlıq etməsi kiminsə xoşuna gəlmir. Amma nə etməli?

**S u a l :** Dağlıq Qarabağda gedən müharibə bütün dünyaya məlumdur. Buna son qoymaq mümkündürmü?

**C a v a b:** Şübhəsiz. On bir aydan artıqdır ki, atəşkəs rejimi davam edir. Bunun özü böyük nailiyyətdir. Çünki 1988-ci ildən etibarən fasiləsiz müharibə gedir. Hər gün qan tökülür, adamlar həlak olurdu. İndi bu, yoxdur. Biz də, Ermənistan tərəfi də barışığa əməl edirik. Lakin bu barışıq ona görədir ki, ümumən məsələni sülh yolu ilə həll edək, yəni böyük sülh müqaviləsi imzalanmasına nail olaq. Biz belə hesab edirik ki, sülh müqaviləsi işğal olunmuş bütün ərazilərimizdən Ermənistan silahlı birləşmələrinin çıxarılmasını, ölkəmizin ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının təmin edilməsini və təbii ki, Azərbaycanın tərkibində Dağlıq Qarabağa müvafiq muxtariyyət statusu verilməsini nəzərdə tutmalıdır. Biz bu şərtlər daxilində böyük sülh müqaviləsinin imzalanması üçün danışıqlar aparırıq. Mən belə hesab edirəm ki, Azərbaycan bunu başa düşmüşdür bu müharibənin perspektivi yoxdur. Azərbaycan bunu başa düşmüşdür və yəqin ki, Ermənistanda da başa düşmüşlər. Ona görə də məsələni sülh yolu ilə həll etmək lazımdır. Biz buna çalışırıq.

## BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ JELYU JELEVLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA ÇIXIŞ

*Sofiya*
*29 iyun 1995-ci il*

Hörmətli prezident, hörmətli xanımlar və cənablar.

Hörmətli mətbuat, informasiya orqanlarının nümayəndələri.

Təəssüf ki, mən sizin qarşınızda Azərbaycanın dövlət dilində çıxış etmək imkanına malik deyiləm. Ona görə ki, bizim kifayət qədər hazırlıqlı, peşəkar tərcüməçimiz yoxdur. Doğrudur, aramızda, bizim nümayəndə heyətində bir şair var. O, artıq uzun illərdən bəri bolqar şairlərinin şerlərini Azərbaycan dilinə çevirir və bolqar ədəbiyyatı ilə müvəffəqiyyətlə əməkdaşlıq edir. O, indi tərcümə edə bilərdi. Lakin mən parlamentdə çıxışım zamanı onun çətinlik çəkdiyini duydum, buna görə də öz fikirlərimi daha aydın və anlaşıqlı şəkildə çatdırmaq üçün rusca danışacağam. Üstəlik, sizin yaxşı tərcüməçiniz var. Bu xanım rus dilindən bolqar dilinə, bolqar dilindən rus dilinə tərcümə edir.

Yəqin ki, siz məni başa düşərsiniz, axı Azərbaycan öz dövlət müstəqilliyinə üç il yarım əvvəl nail olmuşdur. Biz başqa ölkələrlə ünsiyyət zamanı əsasən rus dilindən istifadə edirdik. Lakin indi müstəqil respublikamız öz ana dilini, dövlət dili olan Azərbaycan dilini işlədir. Biz bütün dillərdə kifayət qədər tərcüməçilər hələ hazırlaya bilməmişik. Əlbəttə, ingilis, fransız, alman dillərini bilən çoxlu tərcüməçimiz var. İnanıram ki, gələn dəfəyədək bolqar-Azərbaycan mətnləri üzrə də yaxşı tərcüməçi olacaqdır.

Mən, ən əvvəl, Bolqarıstan Respublikasının prezidenti, hörmətli cənab Jelyu Jeleva dəvətə görə və Azərbaycan Respublikası prezidentinin Bolqarıstana səfəri kimi, hazırda başa çatmaqda olan rəsmi səfərə görə təşəkkürümü bildirmək istəyirəm. Mən bizim bugünkü günümüzdən, birgə işimizdən, söhbət və danışıqlarımızdan, ən əvvəl, cənab prezident Jelyu Jelevlə danışıqlarımızdan, mənə Bolqarıstan parlamenti qarşısında çıxış etmək imkanı verilməsindən məmnunam. Mən Bolqarıstanın baş naziri ilə görüşdüm. Başlıcası isə, cənab Jelevin dediyi kimi, bu gün biz çox mühüm sənəd imzaladıq, ən əvvəl, iki prezident Bolqarıstan ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında sənədlər imzaladıq. Bu, əsas sənəddir və gələcək əməkdaşlığımız üçün yaxşı bünövrə qoyur. Mən cənab prezident Jelevin belə bir rəyi ilə tamam razıyam ki, Bolqarıstan tərəfindən Azərbaycan tərəfə ilk addım 1992-ci ildə, yəni Bolqarıstan Azərbaycanın dövlət müstəqilliyini və Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıyan vaxt atılmışdır. Bilirsiniz ki, keçmiş Sovet İttifaqı respublikaları kimi, Azərbaycan da öz dövlət müstəqilliyini Sovet İttifaqının süqutu nəticəsində əldə etmişdir, hərçənd Azərbaycan hələ 1918-ci ildə öz dövlət müstəqilliyinə malik idi, Şərqdə ilk Azərbaycan Demokratik Respublikası idi, 23 ay mövcud olmuşdur. Lakin sonra bu respublika ölkəmizdə, Azərbaycanda Sovet hakimiyyəti qurulması ilə əlaqədar devrildi. Budur, 77 ildən sonra biz öz müstəqilliyimizi bərpa etmişik və təbii idi ki, digər ölkələr tərəfindən tanınmağa ehtiyac duyurduq. Bolqarıstan Azərbaycanın dövlət müstəqilliyini birincilər sırasında tanımışdır ki, bu da xüsusilə vacibdir. Biz öz dövlət müstəqilliyimizi əldə etdiyimiz dövrdə, təəssüflər olsun, Ermənistan Respublikası ilə müharibə vəziyyətində idik və bu gün də müharibə vəziyyətindəyik. Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur. Odur ki, Azərbaycan Respublikasının milli istiqlaliyyətinin, dövlət müstəqilliyinin, suverenliyinin, Azərbaycan Respublikasının ərazi bütövlüyünün respublikamız üçün məhz belə mürəkkəb dövrdə Bolqarıstan tərəfindən tanınması bizə, şübhəsiz, böyük kömək idi.

Budur, indi biz həmin əsasda işi davam etdiririk və imzaladığımız müqavilə, zənnimcə, gələcək əməkdaşlıq üçün etibarlı zəmindir. İmzalanmış digər sənədlər barəsində cənab Jelev danışdı və mən onun dediklərini təkrarlayaraq vaxtınızı almayacağam. Yalnız onu deyəcəyəm ki, bu sənədlər də çox böyük əhəmiyyətə malikdir, əməkdaşlığımıza konkret istiqamətlər verir. Buna görə də əminəm ki, onların əməli surətdə həyata keçirilməsi ölkələrimiz və xalqlarımız arasında əməkdaşlığın inkişaf etdirilməsi və dostluğun möhkəmləndirilməsi üçün konkret nəticələrə gətirəcəkdir. Əməkdaşlıq haqqında artıq razılığa gəldiyimiz və ya razılıq əldə edilməkdə olan bəzi sahələr barəsində cənab Jelevin söylədiyi fikirlərlə razıyam. Həqiqətən, bu sahələr olduqca vacibdir, onlar istər Bolqarıstan üçün, istərsə də Azərbaycan üçün böyük iqtisadi əhəmiyyətə malikdir. Cənab Jelevin göstərdiyi konkret məsələ-

lər üzrə aramızda əməli əməkdaşlıq olması üçün biz hər şey edəcəyik. Azərbaycan demokratik hüquqi dövlət qurur, iqtisadiyyat sahəsində islahatlar həyata keçirir, bazar iqtisadiyyatı yolu ilə gedir. Bu il noyabrın 12-də biz müstəqil respublikanın parlamentinə tam demokratik əsasda ilk seçkilər keçirəcəyik. Biz ümumxalq referendumu vasitəsilə müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasını qəbul edəcəyik. Cari il bizim üçün çox mühüm ildir və şübhəsiz ki, respublikamızın demokratik prinsiplərinin daha da möhkəmlənməsi və inkişaf etməsi ilə əlamətdar olacaqdır.

Respublikamızda siyasi plüralizm mühiti hökm sürür. Biz insan hüquqlarının qorunmasını təmin etmək məsələlərinə böyük əhəmiyyət veririk. Respublikamız çoxmillətli respublikadır. Milliyyətindən, dilindən, dini etiqadından, siyasi əqidələrindən asılı olmayaraq, bütün Azərbaycan vətəndaşları bərabər hüquqlara malikdir, ölkəmizin dövlət və ictimai həyatında fəal iştirak edirlər.

Ermənistan ilə Azərbaycan arasında münaqişəli vəziyyət bizim üçün çox ağır problemdir. Bu münaqişə – Azərbaycan ərazisinin tərkib hissəsi olan Dağlıq Qarabağı ilhaq etmək məqsədi ilə Ermənistan Respublikasının Azərbaycana qarşı təcavüzü – 1988-ci ildə başlanmışdır. Yeddi ildir ki, müharibə gedir, qan tökülür, torpaqlarımızın təxminən 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Bu işğal olunmuş torpaqlardan bir milyon nəfərdən çox Azərbaycan vətəndaşı didərgin salınmışdır. Onlar çadır düşərgələrində yaşayırlar, olduqca ağır vəziyyətdədirlər. Təbii ki, bunların hamısı Azərbaycanda sosial-iqtisadi və siyasi vəziyyəti çətinləşdirir.

Ötən ilin may ayında biz Ermənistan ilə Azərbaycan arasında atəşkəs haqqında saziş əldə etdik ki, bu da çox əhəmiyyətlidir. Bütün bunlar ATƏT çərçivəsində, ATƏT-in Minsk qrupu çərçivəsində, dünyanın iri dövlətlərinin vasitəçiliyi ilə baş verir. Bu danışıqlar nəticəsində keçən il mayın 12-də biz atəşkəs haqqında saziş imzaladıq. On üç aydır ki, biz atəşkəs rejimini gözləyirik və bu rejimin pozulmaması üçün bundan sonra da öz tərəfimizdən hər şeyi edəcəyik. Onu nəzərdə tuturuq ki, həmin dövrdə biz Ermənistan ilə Azərbaycan arasında möhkəm, uzunmüddətli sülhə nail olmağa çalışmalıyıq. Biz qonşuların hamısı ilə, o cümlədən də qonşu Ermənistanla sülh şəraitində yaşamaq istəyirik. Qonşularımıza qarşı heç bir iddia-tələbimiz yoxdur, hansısa qonşu respublikanın torpaqlarının bir hissəsini qəsb etməyi qarşımıza məqsəd



qoymuruq. Bununla yanaşı, biz, şübhəsiz, razılaşa bilmərik ki, ərazimizin bir hissəsi ilhaq edilsin.

Buna görə də biz ATƏT-in Minsk qrupunun köməyi ilə sülhə, lakin ədalətli sülhə nail olmağa çalışırıq. Elə sülhə ki, Azərbaycanın ərazi bütövlüyünü, respublikamızın sərhədlərinin toxunulmazlığını tamamilə təmin etsin. Biz, əlbəttə, onu əsas tuturuq ki, Dağlıq Qarabağın erməni əhalisi Azərbaycanın tərkibində tam təhlükəsizliyə, müxtariyyətə, müvafiq statusa malik olacaqdır. Həm də bu status həmin regionun əvvəllər aldığı statusdan, şübhəsiz, daha böyük olacaqdır. Lakin bütün bunlar Azərbaycan Respublikasının tərkibində olmalıdır. Bu, həm ədalətlidir, həm də beynəlxalq hüquq normalarına uyğundur. Separatçılığa heç cür haqq qazandırmaq olmaz. Biz separatçılığa qarşı, müharibələrə və təcavüzə qarşı həmişə çıxış edəcəyik.

Biz sülhsevər ölkəyik və öz qonşularımızla aramızda sülh olmasını istəyirik, bizim Qafqaz bölgəsində sülh olmasını istəyirik, Balkanlarda sülh olmasını istəyirik, hazırda hərbi münaqişələr gedən Yer kürəsinin hər yerində sülh olmasını istəyirik. Bununla əlaqədar mən cənab Jelevin dediyi bu sözlərə görə ona minnətdaram ki, ATƏT-in üzvü kimi, Bolqarıstan bölgəmizdə sülhün bərqərar olması məsələsinin və sülhün qorunmasını və təbii olaraq, Azərbaycan Respublikasının ərazi bütövlüyünü təmin etmək üçün sülhyaratma qüvvələrinin təşkili məsələsinin müzakirəsində fəal iştirak edəcəkdir. Bu, bizim üçün çox mühüm məsələdir və buna görə də biz bütün dünya birliyinə, bütün xoş məramlı adamlara bu vəziyyətdən çıxmaq üçün bizə kömək göstərmək, bizi dəstəkləmək xahişi ilə müraciət edirik.

Təkrar edirəm, biz hərbi əməliyyatların davam etməsini istəmirik, biz bu məsələnin sülh yolu ilə həll olunmasını istəyirik. Mən şadam ki, ATƏT-in fəal üzvü olan Bolqarıstan tərəfindən biz bu məsələlərdə dəstəklənirik.

Mən səhərdən bəri gün ərzində birlikdə gördüyümüz işlərdən və xüsusən, imzalanmış sənədlərdən və fikir mübadiləsindən, əldə edilmiş razılaşmalardan son dərəcə məmnunam və əmin edirəm ki, əməkdaşlığımızın inkişafı üçün bizim tərəfimizdən, Azərbaycan tərəfindən hər şey ediləcəkdir. Mən konkretləşdirmək istəmirəm, çünki cənab Jelev konkret məsələlərdən danışdı. Bütün bu konkret problemlərlə mən də razıyam, çünki o, məhz bizim birgə mövqeyimizi şərh etdi.

Diqqətinizə görə təşəkkür edirəm.

Mən suallar üçün sözü sizə verirəm.

**S u a l :** Birincisi – siz 77 il Sovet Rusiyasının hakimiyyəti altında yaşamısınız. Siz ölkənizlə əlaqədar bu dovrü necə qiymətləndirirsiniz və belə bir fikri qəbul edirsinizmi ki, şər imperiyasında yaşamısınız? İkincisi – bütün postsosialist ölkələrin demokratikləşdirilməsinin təminatçısı kimi, NATO-nun strukturlarına münasibətiniz necədir?

**H e y d ə r Ə l i y e v:** Bəli, biz 77 il Sovet İttifaqının tərkibində yaşamışıq, daha sizin dediyiniz kimi, Rusiyanın hakimiyyəti altında yox, çünki Sovet İttifaqı var idi və bu Sovet İttifaqına bərabər hüquq əsasında 15 respublika daxil idi. Təbii ki, bu ittifaqda üstün rol Rusiyaya məxsus idi. Bu, hamıya məlumdur. Lakin biz məhz Sovet İttifaqının tərkibində yaşayırdıq, bəli, yaşayırdıq. Nə etmək olar, biz xalqımızın tarixinin, həyatımızın həmin mərhələsinin üstündən heç cür qələm çəkə bilmərik. Həmin illər ərzində xalqımız iqtisadiyyatın, elmin, mədəniyyətin inkişafında böyük müvəffəqiyyətlər qazanmış, bir çox məsələlərdə irəliləmişdir. Amma bununla bərabər, biz ən başlıca hüquqa – müstəqillik hüququna malik deyildik, milli azadlığımız yox idi. Təbii ki, bu, potensial imkanlarımızdan istifadəni məhdudlaşdırırdı. Azərbaycanı malik olduğu öz daxili potensialı tamamilə üzə çıxarmağa, öz təbii vasitələrindən, öz təbii ehtiyatlarından, öz intellektual potensialından və bütün digər imkanlarından istifadə etməyə qoymurdu.

Biz son dərəcə məmnunuq ki, Sovet İttifaqı dağıldı və müstəqil dövlətlər meydana gəldi. Mən o kəslərdən biriyəm ki, 91-ci ildə Sovet İttifaqının dağılmasına tərəfdar çıxdım. Onda Sovet İttifaqını hələ saxlamağa cəhd göstərildi və Sovet İttifaqının saxlanması xeyrinə ölkədə referendum keçirilmişdi. Lakin bu referendum Sovet İttifaqının saxlanmasının mümkünlüyü barədə qərar çıxarsa da, ictimai-tarixi inkişafın gedişi sübuta yetirdi ki, Sovet İttifaqı öz imkanlarını tükəndirmişdir. Buna görə də o, süquta uğradı.

Mən hesab edirəm ki, belə də olmalı idi və bu, Azərbaycan xalqına öz milli azadlığını və dövlət müstəqilliyini əldə etməyə imkan verdi. Dövlət müstəqilliyinin əldə olunması Azərbaycan üçün, Azərbaycan xalqı üçün çox böyük tarixi nailiyyətdir. Mən əminəm, biz bir daha yol verməyəcəyik ki, müstəqilliyimiz itirilsin. Hər halda, 20-ci ildə ilk demokratik müstəqil dövlətimizin başına gələnlər, daha bu Azərbaycanın başına gəlməyəcəkdir. Hərçənd müstəqilliyi qoruyub saxlamaq o qədər də asan deyildir, xüsusən də Azərbaycan üçün. Dediyim kimi, Azərbaycan yeddi ildir, Ermənistan tərəfindən təcavüzə məruz qalır.



Bir çox digər çətinliklər də var. Lakin biz öz müstəqilliyimizin qədrini bilirik və onu göz bəbəyi kimi qoruyacağıq.

O ki qaldı NATO-ya münasibətimizə, Azərbaycan «Sülh naminə tərəfdaşlıq» haqqında NATO proqramını keçmiş Sovet İttifaqı respublikaları – indiki müstəqil dövlətlər arasında birincilər sırasında imzalamışdır. Mən bu məsələ ilə əlaqədar xüsusi olaraq Brüsselə getdim, NATO-nun iqamətgahında oldum və Azərbaycan Respublikası adından həmin proqramı imzaladım. Biz bunu Avropada sabitlik üçün, bütün dünyada təhlükəsizlik üçün mühüm amil sayırıq.

**S u a l:** Cənab Prezident, öyrənmək çox maraqlı olardı, Siz Bolqarıstan kommunistlərinin Bolqarıstanı 16-cı respublikaya çevirmək arzusuna necə baxırdınız? Bu, cox maraqlıdır.

**H e y d ə r Ə l i y e v :** Mən indi görürəm ki, sualları təkcə müxbirlərdən deyil, prezidentdən, dostumdan da alıram. Mən çox şadam.

Sovet İttifaqında əyintilər çox olmuşdur. Yəqin ki, bioqrafiyamdan bilirsiniz, mən keçmiş Sovet İttifaqının rəhbərlərindən biriyəm. Lakin bununla bərabər sizə yəqin bu da məlumdur ki, 87-ci ildə, daha doğrusu, ilin axırlarında istefa verdim və bundan sonra bir çox təqiblərə və demək olar, repressiyalara və digər belə hallara məruz qaldım. Amma 93-cü ildə Azərbaycan xalqı uzun sürən sürgündən sonra mənim Azərbaycana qayıtmağımı yenidən tələb etdi. Odur ki, mən 1993-cü ilin oktyabrından bəri Azərbaycan Respublikasının bütün xalq tərəfindən seçilmiş prezidentiyəm. Sovet İttifaqının siyasətində, xüsusən də o vaxtlar sosializm düşərgəsi ölkələri adlandırdığımız sosialist düşərgəsi barəsində siyasətində əyintilər, təhriflər çox olmuşdur. Bunları sadalamaq çox vaxt aparardı. Sağlıq olsun, nə vaxtsa əlimə öz xatirələrimi yazmaq imkanı düşər, onda çox şey barəsində yazacağam. Çünki milli məsələlərə, milli qarşılıqlı münasibətlərə, Sovet İttifaqının rəhbər dairələrinin siyasətinə mən, bəlkə də, başqalarına nisbətən daha həssas idim. Odur ki, bunu Sovet İttifaqının məhz rəhbər dairələrində, bəlkə də, başqalarına nisbətən daha həssas duyurdum. Lakin mən, əlbəttə, bolqar xalqının və ya Bolqarıstanın hər hansı rəhbərlərinin iradəsinə qarşı çıxa bilməzdim. Amma keçmiş Bolqarıstanın bəzi rəhbərləri Sovet İttifaqının 16-cı respublikası olmaq istədiklərini dəfələrlə bildirdikdə, mən onlara açıqca heç nə demirdim, yalnız qulaqlarına sakitcə deyirdim ki, lazım deyildir, yaxşısı budur, müstəqil, azad olun. Mən Bolqarıstandan olan adamlara ancaq bu məsələdə kömək edə bildim.

Lakin zənnimcə, yaxşı ki, onların dediyi kimi olmadı. Bəlkə də, bunlar konyunktura xarakterli şüarlar idi. Mən bunu bilmirəm. Lakin hər halda, belə bəyanatlar dəfələrlə verilmişdi.

Mən xalqların müstəqil, respublikaların müstəqil olmasını istəyən bir şəxs kimi və bu prosesin içində olan bir şəxs kimi, əlbəttə, açıqca deyə bilərdim ki, bu, səhvdir və bolqar xalqına baha başa gələ bilər. Yaxşı ki, Bolqarıstan Sovet İttifaqının 16-cı respublikası olmadı, yaxşı ki, nəinki Sovet İttifaqı, həm də Varşava Müqaviləsi dağıldı və beləliklə, Şərqi Avropa ölkələri də azadlığa çıxdılar. Çünki digər Şərqi Avropa ölkələri kimi, Bolqarıstan da müstəqil dövlət idi, onlar Sovet İttifaqına daxil olmasalar da, sosialist düşərgəsinə, Qarşılıqlı İqtisadi Yardım Şurasına, Varşava Müqaviləsinə daxil idilər. Mənə məlumdur ki, bu, həmin ölkələri müstəqillikdən məhrum edir, buxovlayırdı. Odur ki, siz də indi müəyyən dərəcədə müstəqilliyə nail olmusunuz. Mən sizi də təbrik edirəm.

**S u a l :** Cənab prezident Jelyu Jelev, Siz dediniz ki, Bolqarıstan bölgəyə müşahidəçilər göndərməyə hazırdır. Lakin Budapeşt Zirvə toplantısında ATƏT-in sülhyaratma qüvvələrinin təşkili haqqında qərar qəbul edilmişdir. Belə isə, Bolqarıstan bölgəyə müşahidəçilər deyil, hərbi kontingent göndərməyə hazırdırmı? İkinci sual: xalqların öz müqəddəratını təyin etmək prinsipi dövlətin ərazi bütövlüyü prinsipi ilə, Sizcə, necə əlaqələndirilməlidir?

**J e l y u J e l e v:** Bolqarıstan Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının üzvü kimi iştirak etməyə hazır olduğunu, Dağlıq Qarabağda sülhyaratma prosesində öz imkanları daxilində iştirak etməyə hazır olduğunu bildirmişdir. Biz bunu bildirmişik və adətən söhbət həmin təşkilat adından mülki müşahidəçilər göndərilməsindən getmişdir. Lakin biz məsələnin ədalətli həllinə kömək göstərmək üçün bu səylərdə başqa formalarda da iştirak etməyə hazırıq. Əlbəttə, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının himayəsi altında.

Dövlətin, xalqın öz müqəddəratını təyin etməsi ilə dövlət müstəqilliyi necə əlaqələndirilir? Şəxsən mən bu anlayışlar arasında ziddiyyət görmürəm.

**S u a l :** Xalqların öz müqəddəratını təyin etmək hüququ və ərazi bütövlüyü prinsipi... Erməni tərəfi həmişə deyir: onlar bunu əsas tuturlar ki, xalqlar öz müqəddəratını təyin etməlidirlər. Bu, ali prinsipdir, yoxsa ərazi bütövlüyü prinsipi başlıca prinsipdir?



**J e l y u J e l e v :** Bu, postkommunist dövrdə qarşılaşdığımız ən mürəkkəb məsələlərdən biridir. Sualınızın birinci hissəsi ilə ikinci hissəsi arasındakı ziddiyyəti biz müəyyən dərəcədə keçmiş Yuqoslaviyada müşahidə edirik. Əlbəttə, xalqın öz müqəddəratını təyin etməsi prinsipi həmişə ali prinsipdir. Lakin məsələ bundadır ki, Yuqoslaviya kimi bir federasiyada xalq bir və eyni ərazidə yaşamır. Sərhədləri müəyyənləşdirmək məqamı çatdıqda isə, xalqın öz müqəddəratını təyin etməsi ilə dövlətin ərazi bütövlüyü arasında real ziddiyyətlər meydana çıxdı. Prinsipcə, elə bir dövlət yoxdur ki, orada ancaq bir millət yaşasın. Məsələn, mən Balkan bölgəsini nəzərdə tuturam. Bütün Balkan ölkələrində müxtəlif millətlər, digər xalqların nümayəndələri yaşayırlar. Mən bunu normal hal sayıram. Buna görə də insan hüquqlarına hörmət, bu hüquqlara əməl edilməsi məsələsi ortaya çıxmışdır. Bu isə Avropa Şurasının məşğul olduğu ən ağır problemlərdən biridir. Şəxsən mən də belə bir fikrə şərik deyiləm ki, xalq, dövlət öz problemlərini həll edərkən məsələni belə qoymalıdırlar: zorakılıq yolu ilə etnik təmizlik uğrunda, milli təmizlik uğrunda azlıqları qovub dağıtmalı, onlara divan tutmalı. Biz, məsələn, Bosniyada məhz bunları müşahidə edirik. Halbuki Bosniyada əhali qarışıqdır, şəhərlərdə nikahların təxminən 60 faizi qarışıq nikahlardır. Özü də bu məsələ heç də həmin ölkənin ərazisinə aid deyildir, bu məsələ ailələrdən keçir. Bax, buna görə də bu, çox ağır məsələdir. Buna görə də məsələnin demokratik həlli yollarını axtarıb tapmaq lazımdır. Bu barədə qərarlarda həmin ölkədə yaşayan azlıqların hüquqlarına hörmət bəslənməsi, insan hüquqlarına hörmət edilməsi hökmən nəzərdə tutulmalıdır.

## RUMINİYA PREZİDENTİ İON İLİYESKU İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Buxarest*
*2 iyul 1995-ci il*

Hörmətli xanımlar və cənablar!

Mən Rumıniya prezidenti cənab İliyeskuya Rumıniyaya rəsmi görüşə gəlmək dəvətinə görə ürəkdən minnətdaram. Çox məmnunam ki, bu səfər baş tutmuşdur və bu gün müvəffəqiyyətlə başa çatır. Bizə səmimi qonaqpərvərlik göstərmiş və dostluq, hörmət hissləri ilə yanaşmış olan cənab İliyeskuya və bütün dostlarımıza, rumıniyalı həmkarlarımıza təşəkkürümü bildirirəm. Biz Rumıniyada olduğumuz dövrdə – istər Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin yüksək səviyyədə görüşündə, istərsə də mənim dünən və bu gün rəsmi səfərim zamanı böyük qayğı ilə əhatə edilmişik. Bütün bunlar işgüzar görüşlərimiz üçün və qarşıya qoyulmuş məqsədə çatmaq üçün olduqca əlverişli şərait yaradırdı. Rumıniya Avropa ölkəsidir, çoxəsrlik, qədim tarixə, gözəl ənənələrə malikdir. Lakin son illər Rumıniyada böyük siyasi dəyişikliklər baş verir. Bütün bunlar bizim üçün böyük maraq doğurur. Buna görə də gələcək əməkdaşlıq üçün daha sıx münasibətlər yaradılmasının müstəqil Azərbaycandan ötrü xüsusi əhəmiyyəti var.

Öz müstəqilliyini üç il yarım bundan əvvəl əldə edən Azərbaycan Respublikası Avropa ilə Asiyanın qovuşuğunda yerləşir və Avropa ölkələri ilə sıx münasibətlər yaratmağa meyl göstərir. O öz coğrafi mövqeyinə və bir çox digər amillərə görə, gələcək əməkdaşlıq baxımından Rumıniya üçün yaxşı tərəfdaş ola bilər. Yüksək səviyyədə görüşümüzü səciyyələndirən cəhət də məhz budur.

Mən məmnunam ki, rəsmi səfər baş tutmuşdur. Mən keçirdiyimiz görüşlərdən və söhbətlərdən, cənab prezident İliyesku ilə, Rumıniyanın dövlət orqanlarının digər rəhbərləri ilə çox səmərəli söhbətlərdən də məmnunam. Mən bundan xüsusilə məmnunam ki, biz gələcək əməkdaşlığımız üçün bünövrə qoyan mühüm sənədlər imzaladıq.

Rumıniya ilə Azərbaycan arasında dostluq və gələcək əməkdaşlıq haqqında hər iki prezident tərəfindən imzalanmış bəyannamə xüsusi



əhəmiyyətə malikdir. Zənnimcə, bu bəyannamə əsas sənəddir və ona uyğun olaraq, biz gələcək əməkdaşlığımızın konkret istiqamətlərini müəyyənləşdirən konkret sənədlər hazırlamalı və imzalamalıyıq.

Azərbaycan öz tarixinin mürəkkəb və ağır dövrünü yaşayır. Bununla bərabər bu, çox şanlı dövrdür və onunla bağlıdır ki, Azərbaycan dövlət müstəqilliyinə nail olmuşdur və öz məsələlərini özü müstəqil həll edir, hərçənd bu yolda daxili və xarici xarakterli olduqca çox çətinliklər var. Azərbaycan üçün ən ağır problem respublikamıza, xalqımıza yeddi il bundan əvvəl Ermənistan tərəfindən zorla qəbul etdirilmiş müharibədir. Bu müharibədən məqsəd Azərbaycan ərazisinin bir hissəsini ilhaq etməkdir. Bu müharibə olduqca ağır nəticələrə, konkret desək, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazisinin 20 faizinin işğalına gətirib çıxarmışdır. Həmin ərazidən bir milyon nəfərdən çox Azərbaycan vətəndaşı qovulmuşdur. İndi onlar Azərbaycanın digər bölgələrində olduqca ağır şəraitdədir və çadır şəhərciklərində yaşayırlar.

Biz Ermənistan ilə Azərbaycan arasında bu münaqişənin dincliklə aradan qaldırılmasına çalışırıq, bundan ötrü tədbirlər görürük. Biz ATƏT-ə və onun tərkibindəki Minsk qrupuna xüsusi ümidlər bəsləyirik. Minsk qrupu bu məsələ ilə məşğul olmaq üçün xüsusi olaraq yaradılmışdır. Təbii ki, ATƏT-in tərkibinə daxil olan hər bir ölkəyə, o cümlədən də Rumıniyaya müraciət edirik ki, bu ağır vəziyyətdən çıxmaq üçün bizə kömək göstərsinlər, dəstək versinlər.

Biz özgələrin ərazisinə göz dikməmişik, lakin bölgəmizdə sülh və sakitlik olmasına, Azərbaycan xalqının taleyinə dünya birliyinin ədalətli münasibət göstərməsinə çalışırıq. Azərbaycanın ərazi bütövlüyünün, onun sərhədlərinin toxunulmazlığının, müstəqil Azərbaycan Respublikasının suverenliyinin tamamilə təmin olunması bölgədə möhkəm və uzunmuddətli sülhü təmin edə biləcək mühüm şərtdir.

Yeddi ildir ara verməyən Ermənistan-Azərbaycan münaqişəsi və bu münaqişənin əsasını təşkil edən separatçılıq inandırıcı surətdə təsdiqləyir ki, harada olmasından, kim tərəfindən törədilməsindən asılı olmayaraq, separatçılığın hər hansı forması pislənilir, belə ki, indi ayrı-ayrı etnik qrupların, ayrı-ayrı qüvvələrin məhz separatçılıq niyyətləri nəticəsində Yer kürəsinin müxtəlif bölgələrində saysız-hesabsız münaqişələr, qaynar nöqtələr meydana gəlmişdir. Təbiidir ki, bunlar bütün dünyanı narahat edir və böyük təşviş doğurur. Azərbaycan hər hansı

formada separatçılığın, hər hansı formada terrorçuluğun əleyhinədir və hesab edir ki, dünya birliyi indi Yer kürəsinin bir çox bölgələrində yaranmış bu ağır vəziyyəti aradan qaldırmaq üçün öz səylərini səfərbərliyə almalıdır. Bu məsələlər Buxarestdə dünən və bu gün söhbətlərdə və danışıqlarda mühüm yer tutmuşdur. Mən şadam ki, baxışlarımız tamamilə üst-üstə düşür.

Artıq sona yetməkdə olan bu səfər sübut edir ki, Rumıniya ilə Azərbaycan arasında əməkdaşlığın inkişafı üçün böyük imkanlar var. Buna görə də Azərbaycanda biz bu əməkdaşlığın uğurlu olması üçün hər şeyi edəcəyik. Biz dostluq və əməkdaşlıq haqqında bəyannamə imzaladıq və arxayın ola bilərsiniz, sizi və bütün Rumıniya ictimaiyyətini əmin edirəm ki, Azərbaycan, müstəqil Azərbaycan Respublikası Rumıniya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə və inkişafına çalışacaq, hər şeyi edəcəkdir ki, Rumıniya ilə Azərbaycan Respublikası arasında sıx qarşılıqlı münasibətlər, dostluq münasibətləri olsun.

Mən burada keçirilmiş görüşlərə böyük əhəmiyyət verirəm və onları Rumıniya ilə Azərbaycan arasında yaradılmalı olan dialoqun başlanğıcı sayıram. Belə düşünürəm ki, bu, bütün səviyyələrdə, xüsusən Azərbaycanda bundan sonra davam etdiriləcəkdir. Ona görə ki, mən Rumıniya prezidenti cənab İliyeskunu Azərbaycana rəsmi səfərə gəlməyə rəsmən dəvət etdim və mənim dəvətim qəbul olundu.

Bu fürsətdən istifadə edərək, Azərbaycan xalqının Rumıniya xalqına dərin ehtiram və qardaşlıq münasibətləri hisslərini və ən xoş arzularını bir daha çatdırır, müstəqil Rumıniyaya, Rumıniya xalqına xoşbəxtlik, uğurlar, tərəqqi arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sual:** Rumıniya prezidentinə verilir: Siz Azərbaycan nümayəndə heyəti ilə danışıqlar zamanı hər hansı konkret iqtisadi layihələr üzərində işə başlamaq barədə razılığa gəldinizmi? Əgər gəldinizsə, bunlar nə kimi layihələrdir?

**İkinci sual:** Rumıniya, Ermənistan-Azərbaycan münaqişəsi bölgəsinə göndərilmək üçün ATƏT-in sülhyaratma qüvvələrindən ibarət beynəlxalq kontingentin təşkilinə əməli kömək etməyə hazırdırmı?

**İon İliyesku:** İqtisadi münasibətlərə gəldikdə, bu, söhbətlərimizin mühüm mövzularından biridir, Qara Dəniz İqtisadi Əməkdaşlığında iştirak edən ölkələrin yüksək səviyyədə görüşündə əsas mövzudur. Bir tərəfdən, biz ənənəvi iqtisadi münasibətlərin bərpa edilməsinin mümkün yollarını tapmağın zəruriliyini nəzərə çarpdırdıq. Lakin bu dəfə yeni şəraitdə, müstəqil Azərbaycanın mövcudluğu şəraitində. Bilavasitə əlaqə ənənələri var. Bu, ən əvvəl, neft sənayesi, neft-kimya sənayesi, neft avadanlığı istehsalı kimi sahələrə, bundan başqa digər sənaye sahələrinə, sənaye sektorlarına aiddir.



Söhbətlərimiz əsnasında biz yeni şəraitdə ölkələrimizin iqtisadiyyatlarında struktur dəyişikliklərinə bilavasitə başlamağın zəruriliyini nəzərə çarpdırdıq. Biz zonalarla, regionlarla bağlı məsələləri də müzakirə etdik. İndiki halda, gələcəkdə kooperativləşdirmənin, Xəzər dənizi ilə Qara dəniz arasında birbaşa xətlər, Azərbaycandan Rumıniyaya birbaşa xətlər yaradılmasının mümkünlüyündən, Rusiya və Ukrayna ərazilərindən keçən marşrutları qısaltmaq üçün qaz və neft kəmərləri çəkilməsindən danışdıq. Bütün bunlar yüksək səviyyədə görüş çərçivəsində müzakirə edildi.

O ki qaldı sülhün qorunması üçün kontingent yaradılmasına, belə birləşmələrlə qonşu ölkələrdə, habelə keçmiş Sovet İttifaqı məkanında iştirak etməmək barədə siyasi qərar qəbul olunmuşdur və bu qərar BMT-nin qətnamə və qərarlarına uyğun gəlir.

**Sual:** Heydər Əliyevə verilir: Cənab Prezident, Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə mənsubiyyəti respublikanızın müdafiə etdiyiniz müstəqilliyinə nə dərəcədə toxuna bilər?

**Heydər Əliyev:** Müstəqil Dövlətlər Birliyinə mənsubiyyətimiz məhz ona əsaslanır ki, Azərbaycan Respublikasının müstəqilliyinə heç bir ziyan dəyməsin, Müstəqil Dövlətlər Birliyini Azərbaycan, ən əvvəl, iqtisadi inteqrasiya baxımından zəruri hesab edir və bunu əsas tutur ki, keçmişdə Sovet İttifaqı tərkibində olarkən ölkəmizin iqtisadiyyatı hazırda Müstəqil Dövlətlər Birliyinə daxil olan digər respublikaların iqtisadiyyatı ilə çox sıx şəkildə inteqrasiya edilmişdi. Biz Müstəqil Dövlətlər Birliyində iştirakımıza Azərbaycanın məhz tam müstəqilliyi mövqeyindən yanaşırıq.

# TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ XANIM TANSU ÇİLLƏRLƏ BİRGƏ MƏTBUAT KONFRANSI

*Prezident Sarayı*
*11 iyul 1995-ci il*

Hörmətli xanımlar və cənablar!

Türkiyənin baş naziri, hörmətli xanım Tansu Çillər Azərbaycana rəsmi səfərə gəlib. İki gündür ki, Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında çox səmərəli, məzmunlu, əhəmiyyətli danışıqlar gedir. Biz Türkiyənin baş naziri hörmətli xanım Tansu Çillərin Azərbaycana gəlməsini əlamətdar hadisə hesab edirik və dünən, bu gün apardığımız danışıqlar, görüşlər Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi üçün böyük bir mərhələdir.

Biz Azərbaycan ilə Türkiyə arasında iqtisadi əlaqələrin genişlənməsi, inkişaf etməsi ilə bağlı bir çox məsələlər barəsində fikir mübadiləsi apardıq. Eyni zamanda Türkiyənin, Azərbaycanın dünya miqyasında siyasəti, o cümlədən xüsusən Azərbaycan üçün ən ağır problem olan Dağlıq Qarabağ məsələsi, yəni Ermənistanın Azərbaycana təcavüzü, Azərbaycan ilə Ermənistan arasında olan münaqişə haqqında da çox geniş fikir mübadiləsi apardıq və eyni fikirdə olduğumuzu bildirdik. Fikir ondan ibarətdir ki, Ermənistan Azərbaycana hərbi təcavüz edibdir. Bu təcavüz nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal olunub, işğal edilmiş ərazimizdən bir milyondan artıq Azərbaycan vətəndaşı qaçqın düşüb və onlar ağır vəziyyətdə yaşayırlar.

13 aydır ki, atəşkəs rejimi əldə olunub və davam edir. Bu müddətdə biz çalışmışıq və indən sonra da çalışırıq ki, bu problem sülh yolu ilə həll olunsun. Münaqişənin sülh yolu ilə həlli üçün də yeni, əlavə tədbirlər görülməlidir. Beynəlxalq təşkilatlar, dünyanın nüfuzlu ölkələri – dünya siyasətində mühüm rol oynayan ölkələr, o cümlədən Türkiyə Cümhuriyyəti yeni-yeni tədbirlər görməlidir ki, bu məsələlər sülh yolu ilə həll olunsun. Münaqişənin həlli üçün ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar aparılır. Lakin bu danışıqlar hələlik istənilən nəticəni vermir.



Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan çıxması şərti ilə biz Böyük Sülh Müqaviləsi bağlamaq istəyirik. Biz Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarının hamısından, o cümlədən Laçın və Şuşa rayonlarından çıxması, ölkəmizin ərazi bütövlüyünün təmin olunması şərtini irəli sürürük. Biz bu məsələlər barəsində hörmətli baş nazir xanım Tansu Çillərlə geniş fikir mübadiləsi apardıq. Mən bu fikir mübadiləsindən çox razıyam. Türkiyə Cümhuriyyəti bu məsələlər barəsində Azərbaycanın haqq və ədalət naminə apardığı işi indiyədək müdafiə etmişdir, hesab edirəm ki, ölkəmizin mövqeyini bundan sonra da dəstəkləyəcəkdir. Mən danışıqlardan bu nəticəni çıxardım.

Bu gün hörmətli baş nazir xanım Tansu Çillərlə biz Ermənistan işğalçıları tərəfindən Zəngilan rayonundan qovulmuş qaçqınlarla görüşdük. Görüş çox həyəcanlı, çox təsirli idi. Qaçqın vəziyyətində, ağır şəraitdə yaşayan insanlar Türkiyənin baş naziri xanım Tansu Çilləri böyük hörmət, sevgi ilə qarşıladılar, qucaqladılar, öpdülər. Bunlar hamısı onu göstərir ki, Azərbaycan xalqının ürəyi genişdir, bu ağır vəziyyətdə də hörmətli qonağını gözünün üstündə qarşılayır.

Xanım Tansu Çillər qaçqınların ağır vəziyyətini, eyni zamanda onların Türkiyə Cümhuriyyətinə, xalqına və Türkiyənin baş nazirinə olan hörmət və ehtiramını da gördü. Bunlar hamısı bizi bir daha eyni fikrə gətirir ki, biz mütləq və mütləq, tezliklə Ermənistan işğalçılarının Azərbaycan torpaqlarından çıxarılmasına nail olmalıyıq, qaçqınları öz yerlərinə qaytarmalıyıq.

Azərbaycanın iqtisadi vəziyyəti çox ağırdır. Bu ağır vəziyyətdən çıxmaq üçün biz, şübhəsiz ki, bütün ölkələrlə, xüsusən Türkiyə ilə iqtisadi əlaqələrimizi genişləndirmək və inkişaf etdirmək məqsədi daşıyırıq. İndiyədək bu sahədə bir çox işlər görülübdür, ancaq bir çox işlər də görüləcəkdir. Bizim bu barədə də fikir mübadiləmiz olub və bir çox məsələlərin həll edilməsi üçün razılığa gəlmişik.

Bilirsiniz ki, 1992-ci ildə Türkiyə Cümhuriyyəti Azərbaycanın iqtisadiyyatını canlandırmaq üçün 250 milyon dollar məbləğində kredit ayırıb. Həmin məbləğin cəmi 60 milyon dollarlıq bir hissəsindən istifadə olunub. Kreditin şərtlərinə görə vaxtı çatsa da, biz indiyədək onu geri qaytara bilməmişik. Onun bir hissəsini 1994-cü ildə, bir hissəsini isə 1995-ci ildə geri qaytarmaq lazım idi. Lakin bizim buna imkanımız

yoxdur. Ona görə də biz Türkiyənin baş naziri hörmətli xanım Tansu Çillərə müraciət etdik. O, qərar qəbul etdi və kreditin ödəniş vaxtının iki il uzadılması haqqında razılığa gəldik. Bu barədə sənəd də hazırlanıb və burada imzalanacaqdır. Şübhəsiz ki, biz bunu Türkiyə Cümhuriyyəti, baş nazir xanım Tansu Çillər tərəfindən Azərbaycana olan diqqət və mərhəmət kimi qəbul edirik. Çalışmalıyıq ki, bu kreditin geri qaytarılması üçün lazımi tədbirlər görək. Türkiyənin baş naziri və onunla gələn şəxslər dünən də və bu gün də bu barədə danışıqlar aparıblar, müəyyən anlaşmalar əldə ediblər. Güman edirəm ki, biz onları həyata keçirdiyimiz halda, 1992-ci ildə ayrılmış kreditin bir hissəsindən bu il də istifadə edə bilərik. Bu barədə də müəyyən razılıq əldə olunub və protokollar imzalanacaqdır.

Azərbaycanın sənaye potensialı çox böyükdür. Respublikamızda çox iri sənaye müəssisələri – fabriklər, zavodlar var. İndi onlar çox çətin bir şəraitdədir. Yəni onların çoxu əvvəllər keçmiş Sovetlər İttifaqının ayrı-ayrı respublikaları ilə iqtisadi inteqrasiya şəraitində işləyib. Bizim əlaqələr qırıldığına görə, ümumiyyətlə, respublikamızın şimal tərəfdən sərhədləri bağlandığına görə bu sənaye müəssisələrinin işləməsi çox çətinləşibdir. Biz bu məsələni də müzakirə etdik və belə razılıq əldə olundu ki, baş nazir xanım Tansu Çillər Azərbaycandakı bu müəssisələrin bəzilərinin müştərək işləməsi üçün buraya müəyyən nümayəndə heyəti göndərəcəkdir. Onlar burada bəzi müəssisələrin vəziyyətini öyrənib proqramlar hazırlayacaqlar və həmin müəssisələrin müştərək işləməsi üçün lazımi tədbirlər görüləcəkdir. Biz buna böyük ümid bəsləyirik və cüman edirəm ki, bu sahədə də lazımi nəticələr əldə edə bilərik.

Vaxtınızı çox almaq istəmirəm. Güman edirəm ki, hörmətli qonağımız görüşlərimiz və xüsusən, öz təəssüratları barəsində məndən də çox şey deyə bilər. Ona görə də mən bununla kifayətlənirəm. Xahiş edək, hörmətli xanım Tansu Çillərə söz verilsin.

Mən çıxışımda bəzi məsələlərə toxunmadım. İstəyirdim bunları hörmətli qonağımız söyləsin. Ancaq bir mühüm məsələni qeyd etmək istəyirəm. Danışıqlarımız zamanı Türkiyənin Naxçıvana xüsusi yardımı haqqında çox əhəmiyyətli nəticələr əldə olundu. Bilirsiniz ki, Naxçıvan blokada şəraitindədir. Türkiyə bu bölgəyə daim kömək etmişdir. 1992-ci ildə «Ümid körpüsü», «Həsrət körpüsü» adlandırılan körpü tikilib qurtardı. O vaxtdan Azərbaycan Naxçıvan vasitəsilə Türkiyə ilə



birbaşa əlaqə saxlayır. Amma Naxçıvan blokada vəziyyətində olduğuna və biz oranın bəzi problemlərini həll edə bilmədiyimizə görə bu məsələni hörmətli baş nazirlə ayrıca müzakirə etdik, Türkiyənin Naxçıvana hər dürlü kömək etməsi barədə razılıq əldə olundu.

**S u a l :** Hazırda Türkiyədə xarici iş adamlarının fəaliyyəti sərt qanunlarla tənzimlənir. Belə bir halda Türkiyə dövləti Azərbaycanın iş adamları üçün güzəştli bir vəziyyət yaratmaq iştəmirmi?

**T a n s u  Ç i l l ə r :** Azərbaycanın iş adamları qardaş iş adamları kimi, Türkiyəyə daim dəvət edilir. Əgər onların Türkiyədə bir iş görmələrində çətinlik varsa, bunu bilməyimiz gərəkdir. Onların kredit almalarında, öz vətəndaşlarımızdan heç ayırd etmədən yatırım qoymalarında maneə yoxdur. Biz qardaş Azərbaycandan Türkiyəyə gələnlərin hamısını məmnuniyyətlə qarşılayırıq və dövlət də onları dəstəkləyir.

**S u a l :** Möhtərəm Prezident, Azərbaycanda özəl bölmənin inkişafı üçün əlinizdən gələni etdiyinizin, çox işlər gördüyünüzün şahidiyik. Özəl bölmənin gələcək inkişafı üçün və yaranmaqda olan milli burjuaziyanın fəaliyyətini tənzimləmək üçün hansı qanunlar qəbul olunacaq və daha səmərəli işləmək üçün onlara hansı güzəştlər ediləcəkdir?

**H e y d ə r  Ə l i y e v :** Bu barədə bizim bir çox qanunlarımız var. Ancaq sizə məlumdur ki, biz özəlləşdirmə proqramı hazırlamışıq. Bu iş bir neçə ay vaxt tələb etdi. Proqramın bir az gecikməsinin səbəbləri də məlumdur. Çünki bir tərəfdən Azərbaycan müharibə şəraitində idi, digər tərəfdən də 1992-1993-cü illərdən indiyədək Azərbaycanın daxilində ictimai-siyasi vəziyyətin nə qədər gərgin olduğu bəllidir. Bunların hamısı iqtisadi sahədə bəzi islahatlarımızın keçirilməsini gecikdirmişdir. Yaxın vaxtlarda özəlləşdirmə proqramının həyata keçirilməsinə başlanacaqdır. Həmin proqram üç il üçün nəzərdə tutulmuşdur. Şübhəsiz ki, özəlləşdirmə proqramı həyata keçirilərkən iş adamlarının fəaliyyətinin səmərəli olması üçün əlavə qanunlar da qəbul olunacaqdır. İndi vaxtınızı alıb hansı qanunların qəbul ediləcəyini demək istəmirəm. Bilirsiniz ki, bunlar çoxdur və qəbul olunacaqdır. Ancaq onu da bilməlisiniz ki, indiyədək mövcud olan qanunlarımız da Azərbaycanda özəl bölmənin fəaliyyət göstərməsi üçün çox yaxşı şərait yaratmışdır.

**S u a l :** Mənim sualım cənab Prezidentədir. Son vaxtlarda Türkiyənin Ermənistan barəsində siyasətində bir dəyişiklik görürsünüzmü?

**H e y d ə r  Ə l i y e v :** Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı məsələdə Türkiyənin mövqeyində heç bir dəyişiklik yoxdur. Bu

məsələ bu gün bir daha geniş müzakirə olundu, bizim fikirlərimiz eynidir. Türkiyənin baş naziri hörmətli xanım Tansu Çillər Ermənistanın Azərbaycana təcavüz etdiyini çıxışlarında bir daha bəyan etdi və bu təcavüzün qarşısının alınması üçün lazımi tədbirlərin görülməsində Azərbaycanı dəstəkləyir, yəni Türkiyənin siyasətində heç bir dəyişiklik yoxdur.

**S u a l :** Hörmətli baş nazir, Sizə iki sualım var. Birincisi, aprel ayında Bakıya gələrkən demişdiniz ki, buraya böyük bir proqramla dönəcəksiniz. Bu proqramın böyüklüyünü rəqəmlərin dili ilə izah edə bilərsinizmi? İkincisi, bugünkü görüşdə neft kəmərinin Türkiyədən keçməsi məsələsi danışıqların mövzusu olmuşdurmu?

**T a n s u Ç i l l ə r :** Aprel ayında Azərbaycana yenidən, özü də iş adamlarımızla birlikdə gələcəyimə söz vermişdim. Bu səfərim zamanı nəzərdə tutduğumuz məsələlərin, demək olar, hamısını müzakirə edə bildik. Azərbaycanın ödənilməmiş kreditləri vardır. Bunu həll etmək lazımdır. Bizim tələblərimiz vardı, bu gündən etibarən bunları əfv etdik və sənəd imzalayacağıq. Yeni kredit açılması üçün tələb var idi. Bunu da bu gün sənəd şəklində imzalanacaq vəziyyətə çatdırırıq. Banklarımızın burada iş almaları məsələsi də nəzərdə tutulmuşdur. Bu da həll olundu, «Ziraət bankası» fəaliyyətə başlayır, yaxın vaxtlarda isə «Vakfbank» işə başlayacaqdır. Universitetlərimiz arasında əməkdaşlığın genişləndirilməsi məsələsi var idi. Bakı Dövlət Universitetində ilahiyyat fakültəsi artıq fəaliyyət göstərir.

Neft kəmərinin çəkilməsi ilə bağlı Azərbaycanla əvvəllər də danışıqlarımız olmuşdur. Biz bu kəmərin Türkiyə ərazisindən keçməsini istəyirik. Mən Özbəkistanda səfərdə olarkən Avrasiya avtomobil yolunun Özbəkistana qədər gələrək Azərbaycan ərazisi ilə Türkiyəyə keçməsi fikrini razılaşdırdıq. Bu məqsədlə Amerikanın bizə verəcəyi kreditdən istifadə edilə biləcəyini düşünürük. Neft kəmərinin Türkiyədən keçməsini Amerika özünün xarici siyasəti kimi qəbul etmişdir. Azərbaycan da bunu bütünlüklə dəstəkləmişdir. Bunun həyata keçirilməsi üçün digər ölkələrlə də bu cür danışıqlar aparmaq lazımdır. Özbəkistana və Azərbaycana səfərim zamanı hər iki dövlətin dəstəyini almışıq. Yaxın vaxtlarda başqa ölkələrə də səfər etməyi düşünürəm.

Daha sonra bu səfərlərin zirvəsini, bəlkə də Türkiyədə təşkil etmək mümkün olacaqdır.



**S u a l :** Hörmətli Prezident Heydər Əliyev, Türkiyə vətəndaşlarının Azərbaycana vizasız gəliş-gedişinə icazə veriləcəkmi? Azərbaycanda fəaliyyət göstərən Türkiyə iş adamlarına bu məsələdə şərait yaradılması barədə düşünürsünüzmü?

**H e y d ə r Ə l i y e v :** Bizim ən böyük arzumuz ondan ibarətdir ki, Azərbaycana daha çox iş adamı gəlsin, buraya sərmayə qoysunlar. Bu arzunu həyata keçirmək üçün lazımi tədbirlər görmüşük və bundan sonra da görəcəyik. Ola bilər, bəzi bürokratlar ayrı-ayrı yerlərdə bu işin həyata keçirilməsinə mane olurlar. Bu, təbiidir, mən belə halları istisna etmirəm. Ancaq bizim siyasətimiz bundan ibarətdir ki, Azərbaycan dünya birliyinə açıqdır. Türkiyə isə bu sırada bizim üçün ən önəmli ölkədir. Mən bunu bir daha bəyan edirəm və bu sahədə gələcəkdə də lazımi tədbirləri görəcəyik. Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələri inkişaf etdirmək üçün hörmətli baş nazirlə razılığa gəldik ki, müştərək iş birliyi komissiyası yaradaq. Azərbaycan tərəfi böyük bir komissiya yaradır. Türkiyə də belə bir komissiya yaradacaqdır. Bu komissiyalar iqtisadi əməkdaşlığa dair məsələlərin dəqiqləşdirilməsi ilə məşğul olacaqlar.

**S u a l :** Birinci sualım xanım Tansu Çillərədir. Siz beynəlxalq konsorsiumun üzvləri ilə qarşıdakı görüş zamanı hansı məsələləri müzakirə edəcəksiniz? İkinci sualım həm cənab Prezidentə, həm də xanım baş nazirədir. Azərbaycan neftinin Türkiyə ərazisi vasitəsilə ixrac olunmasının perspektivi barədə nə deyərdiniz?

**T a n s u Ç i l l ə r :** Bu suala bir az öncə cavab vermişdim. Neft kəmərinin Türkiyə ərazisindən keçməsi barədə Azərbaycanla baxış birliyimiz vardır.

**H e y d ə r Ə l i y e v :** Mən xanım Tansu Çillərin dedikləri ilə razıyam.

## 22 İYUL – MİLLİ MƏTBUAT GÜNÜ MÜNASİBƏTİLƏ TƏBRİK

Əsası 120 il bundan öncə böyük alim, pedaqoq, jurnalist, ictimai xadim Həsən bəy Zərdabinin «Əkinçi» qəzeti ilə qoyulmuş milli mətbuatımız Azərbaycan xalqının mənəvi mədəniyyəti tarixinə şərəfli səhifələr yazmış, milli mənliyimizin formalaşmasında, mənəvi dəyərlərin qorunub saxlanmasında misilsiz rol oynamışdır. Milli mətbuatımızın inkişaf mərhələləri Azərbaycan xalqının azadlıq, müstəqillik uğrunda mübarizə tarixinin tərkib hissəsidir. «Əkinçi»dən üzü bəri azadlıq, demokratiya, müstəqillik uğrunda mücadilə dərslərini biz milli mətbuatımızın səhifələrindən öyrənmişik.

Özünün azad, müstəqil, demokratik dövlətini qurmuş Azərbaycan xalqı bu yolda olmazın məşəqqətlərlə üzləşmiş və üzləşməkdədir. Daxili və xarici düşmənlərin hördüyü hiylə torları, hətta dövlət çevrilişləri həddinə gəlib çıxmış məkrli niyyətlər xalqımızın və dövlətimizin iradəsini dönə-dönə sınağa çəkmişdir. Bu problemlərin həll edilməsində, baş verən hadisələrə obyektiv qiymət verilməsində mətbuat və söz azadlığı şəraitində fəaliyyət göstərən, demokratik dəyərlərlə bəhrələnən Azərbaycan jurnalistlərinin böyük xidməti vardır.

Jurnalistləri, nəşriyyat-poliqrafiya işçilərini, ümumiyyətlə, bu sahədə çalışanların hamısını Milli Mətbuat Günü münasibətilə təbrik edir, Vətənimizin daha işıqlı gələcəyi, sülh, azadlıq ideallarının, demokratik prinsiplərin bərqərar edilməsi naminə uğurlar arzulayıram.

***HEYDƏR ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***
***21 iyul 1995-ci il***



## UKRAYNA PREZİDENTİ LEONİD KUÇMA İLƏ BİRGƏ MƏTBUAT KONFRANSI

*Prezident Sarayı*
*28 iyul 1995-ci il*

Mətbuat nümayəndələri üçün verilməli olan bəyanat, əslinə qalsa, bizim əvvəlki çıxışlarımızda səslənmişdir. Buna baxmayaraq, bir neçə kəlmə deyəcəyəm, sonra isə bizim hörmətli qonağımız Leonid Daniloviç Kuçmaya söz verəcəyəm.

Ukrayna prezidenti hörmətli Leonid Daniloviç Kuçmanın Azərbaycana rəsmi səfəri başa çatır. Doğrudur, biz hələ kondisioner zavoduna da gedəcəyik. Çox məmnun olduğumu bildirmək istəyirəm ki, Leonid Daniloviç bizim dəvətimizi qəbul etdi, Azərbaycana rəsmi səfərə gəldi. Biz çox səmərəli iş apardıq. Başlıcası budur ki, biz bir çox məsələlər barəsində, əlbəttə, ən əvvəl, ikitərəfli münasibətlərimizlə bağlı məsələlər barəsində sərbəst şəraitdə fikir mübadiləsi etmək imkanına malik olduq. Ukraynanın və Azərbaycanın öz müstəqilliyini bərpa etməsindən sonra xeyli vaxt keçmişdir. Bu müddət ərzində istər Ukraynada, istərsə də Azərbaycanda çox ciddi ictimai-siyasi və sosial-iqtisadi proseslər baş vermişdir və baş verir. Bu proseslər sabiq Sovet İttifaqının bütün məkanında, bizim dövlətlərimizin də daxil olduğu MDB ölkələrində də gedir. Buna görə də Ukrayna müstəqil olduqdan sonra orada nə kimi işlər görüldüyü barədə, bu iri Avropa ölkəsinin hansı yolla getdiyi barədə fikir mübadiləsi etmək bizim üçün böyük maraq doğurur.

Bu da böyük maraq doğurur ki, Ukrayna kimi belə böyük Avropa dövlətinin, bizə dost dövlətin prezidenti respublikamızın, xalqımızın həyatı ilə tanış ola bilmişdir. Bir də ona görə ki, Leonid Kuçma Azərbaycana ilk dəfə gəlmişdir, bu baxımdan onun respublikamıza səfəri mühüm hadisədir. Bu gün cəsarətlə demək olar ki, səfər uğurla, səmərəli nəticələrlə başa çatır.

Təbiidir ki, ikitərəfli münasibətlərimiz diqqət mərkəzində olmuşdur. Danışıqlarda Azərbaycanda və Ukraynada gedən proseslər barədə, xüsusən ölkələrimiz arasında bütün sahələrdə münasibətlərin daha da

inkişaf etdirilməsi yollarının axtarışı barədə fikir mübadiləsinə böyük diqqət yetirilmişdir. Biz bir çox müsbət nəticələrə nail olduq. Buna imzaladığımız sənədlər sübutdur. Bununla bərabər, görüşlərimiz və danışıqlarımız zamanı biz bir çox digər məsələlər barəsində də razılığa gəldik və müvafiq idarələrimizə bu barədə Kiyevdə, Ukraynada imzalamaq üçün sənədlər hazırlamağı tapşırdıq. Yeri gəlmişkən, Leonid Daniloviç Küçma məni Ukraynaya səfərə dəvət etmişdir. Belə düşünürəm ki, mən bu dəvətdən istifadə edəcəyəm. Ölkələrimiz arasında münasibətləri inkişaf etdirmək, genişləndirmək və dərinləşdirmək üçün bundan sonra hüquqi sənədlər hazırlanmasına imkan var. Bu münasibətlər gələcək görüşlərimiz zamanı da davam etdiriləcəkdir.

Bizim üçün çox əhəmiyyətlidir ki, biz Ukraynada həyata keçirilən dəyişikliklər təcrübəsi barədə məlumat aldıq. Leonid Daniloviç Kuçmanın söhbətlərimiz və danışıqlarımız zamanı söylədikləri də bizim üçün çox əhəmiyyətlidir. Belə düşünürəm ki, biz respublikamızın qarşısında duran problemlərin həlli üçün Ukraynanın təcrübəsindən istifadə etməyə çalışacağıq. Bu da əhəmiyyətlidir ki, biz dünyadakı vəziyyətlə, beynəlxalq münasibətlərlə, ölkələrimizin daxil olduğu beynəlxalq təşkilatların fəaliyyətində vəziyyətlə, habelə Azərbaycanın və Ukraynanın daxil olduqları MDB-nin fəaliyyəti ilə bağlı bir çox məsələlər barəsində baxışların tam uyğun gəldiyini aşkara çıxartdıq. Həm də çox mühümdür ki, Ukrayna qəti şəkildə bildirmişdir: müstəqillik onun dövlət quruluşunun və dövlət siyasətinin sarsılmaz prinsipidir.

Hər bir dövlətin ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı beynəlxalq hüququn sarsılmaz prinsipləridir. Bizim ölkələrimiz bu prinsiplərə dönmədən əməl edirlər. Bu başlıca prinsiplərə münasibətdə baxışlarımızın tamamilə uyğun gəlməsi bizdən ötrü çox mühüm hadisədir.

Danışıqlar zamanı biz separatçılığın hər hansı formasını eyni şəkildə pislədik. O zaman ki, dövlətlərimiz öz ölkələrində və başqa ölkələrdə bunun təzahürləri ilə qarşılaşır, onda bu mövqenin bizim üçün əhəmiyyəti də eynidir. Biz separatçılığı pisləmişik və pisləyirik. Mən bu məsələ ilə əlaqədar Leonid Daniloviçin bəyanatını razılıqla qəbul etdim.

Biz yekdil fikrə gəldik ki, iqtisadi əlaqələrimizi daha da genişləndirmək, mövcud kommunikasiyaların bazasında yenilərini yaratmaq, habelə alternativ kommunikasiya əlaqələri yaratmaq üçün imkanlarımız



böyükdür. Bundan ötrü imkan var. Ümidvaram ki, bu problemə bizim prinsipial münasibətimiz ölkələrimizin müvafiq idarələrinin fəaliyyətində əksini tapacaq. Biz bu məsələlər barəsində razılığa gələ, birgə işi təşkil edə bilərik.

Elm, təhsil, mədəniyyət sahəsində əlaqələri daha da inkişaf etdirmək üçün böyük imkanlar var. Bu əlaqələr xalqlarımıza həmişə fayda gətirmişdir. Ayrıca qeyd etmək istəyirəm ki, Ukraynanın elmi idarələrindən və ali məktəblərindən Azərbaycan həmişə istifadə etmişdir. Azərbaycanda çoxlu alim, güclü mütəxəssislər var ki, onlar Ukraynada təhsil almışlar, onun elmi-tədqiqat institutlarında hazırlıq keçmişlər. Onlar öz həmkarları ilə əlaqə saxlayırlar. Bu əlaqələri yeni prinsiplər əsasında qaydaya salmağa, daha da inkişaf etməsinə təkan verməyə imkanımız var. Bizim mədəniyyətlərimiz Ukrayna və Azərbaycan xalqları arasında dostluğu möhkəmləndirmək üçün həmişə körpü olmuşdur.

Biz ölkələrimizin mədəniyyətlərini birləşdirən konkret misalları, faktları bu günlər ərzində çox xatırlamışıq. Zənnimcə, indi, bu məsələ barədə fikir mübadiləsi apararkən, həmin münasibətləri inkişaf etdirmək əzmində olduğumuzu bir daha bildirdik. Bizim yaradıcılıq təşkilatlarımız, ədəbiyyat, mədəniyyət xadimlərimiz bu şəraitdən istifadə etmək imkanı qazandılar.

Avropanın böyük ölkələrindən biri kimi Ukrayna bazar münasibətləri əsasında ciddi iqtisadi dəyişikliklər yolu ilə gedir, öz dövlətini, müstəqilliyini möhkəmləndirmək üçün çox mühüm tədbirlər görür. Ukrayna bizdən ötrü çox gərəkli tərəfdaşdır. Biz bunu qiymətləndiririk və münasibətlərimizin dərinləşməsi və inkişafı üçün hər şeyi edəcəyik.

Sözün qısası, Leonid Daniloviç Kuçmanın Azərbaycana ikigünlük səfəri mühüm hadisədir və səmərəli nəticələrlə başa çatır. Leonid Daniloviç, səfərinizə görə, birgə işimizə görə sizə təşəkkürümü bildirirəm və ümidvaram ki, müstəqil dövlətlərimiz, xalqlarımız arasında münasibətlərin daha da dərinləşməsi və inkişafı naminə bizim şəxsi əlaqələrimiz davam və inkişaf edəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sual:** Mənim iki sualım var. Birinci sual regional münaqişələrin aradan qaldırılmasında MDB-nin və ona daxil olan ölkələrin imkanları barədədir. İkinci sual: MDB ərazisində ən qanlı münaqişə olan Dağlıq Qarabağ münaqişəsinin ləğv edilməsinə Ukrayna real kömək göstərməyə nə dərəcədə qadirdir?

**L e o n i d K u ç m a:** Mən bunu danışıqlarda da demişəm. Belə hesab edirəm ki, MDB-nin, hər halda, gələcəyi var. Amma bir labüd şərtlə ki, tərəflərdən hər birinin rəyi nəzərə alınsın. Əgər hər bir tərəfin rəyi nəzərə alınsaydı, onda belə münaqişələr də olmazdı. Təəssüf ki, bu münaqişə hələ Sovet İttifaqının dövründə yaranmışdı. Lakin mən birmənalı şəkildə deyirəm ki, münaqişənin səviyyəsi və bütün MDB üzvlərinin, o cümlədən də Rusiyanın fəaliyyət dərəcəsi yaranmış vəziyyətə uyğun deyildir. Buna görə də vəzifə, o cümlədən də Ukraynanın vəzifəsi bu mövqeyi MDB üzvlərinə çatdırmaqdır.

Bu münaqişənin həllində Ukraynanın roluna gəldikdə, o, imkanlarımıza müvafiq deyildir. Yaxın günlərdə biz Minsk qrupunun qərarları əsasında bu prosesi müsbət istiqamətə yönəltməyə təşəbbüs göstərmək təklifi ilə ATƏT-ə müraciət edəcəyik. Biz ATƏT-in himayəsi altında bölgəyə hərbi müşahidəçilər və sülhyaratma qüvvələri göndərilməsində daha fəal iştirak etməyə hazırıq.

**S u a l :** Mənim sualım hər iki prezidentədir. Bu danışıqlarda iqtisadi sahədə nə – neft, yoxsa başqa hansısa bir məsələ, hər halda, başlıca məsələ olmuşdur?

**L e o n i d K u ç m a :** Əlbəttə, enerji daşıyıcıları problemi Ukrayna üçün bir nömrəli problemdir. Siz gözəl başa düsürsünüz ki, bu məsələ təkcə Ukraynanın deyil, istənilən ölkənin müstəqilliyi məsələsidir. Ukrayna və Azərbaycanın neft-qaz kompleksləri, xüsusən neft kompleksləri, çox qədim tarixə malikdir və onlar istehsal əlaqələri ilə o dərəcədə bağlıdır ki, bu komplekslərin gələcək normal mövcudluğu, dünən neftçilərlə görüşdə başa düşdüyüm kimi, həm Ukraynanın, həm də Azərbaycanın xeyrinədir. Ukrayna bu problemin qarşılıqlı surətdə faydalı əsasda həllində özünün bütün imkanları ilə iştirak etməyə hazırdır.

**H e y d ə r Ə l i y e v :** Mən Leonid Daniloviçin dedikləri ilə tam razıyam. Lakin ən başlıca problem kimi, hansısa bir problemi seçib göstərmək çətindir. O qədər problem var ki, onların hamısı böyük əhəmiyyətə malikdir. Lakin Leonid Daniloviçin qeyd etdiyi problem, şübhəsiz, ən mühüm problemdir. Bundan başqa olduqca çox digər məsələlər var. Biz onları iqtisadi münasibətlərimizi genişləndirmək üçün müzakirə etdik. Artıq bu barədə danışılmışdır. Əslinə qalsa, imzaladığımız sənədlər də bundan bəhs edir.

**L e o n i d K u ç m a :** Mən yalnız onu əlavə edə bilərəm ki, neft və neft məhsulları Ukrayna üçün çörək, Ukrayna buğdası isə Azərbaycan üçün çörək deməkdir. Biz burada da qarşılıqlı anlaşmaya nail olduq.



**S u a l :** Mənim sualım cənab Kuçmayadır. Siz Bakıda tez-tez deyirdiniz ki, Ukrayna ilə Azərbaycan MDB üzrə tərəfdaşdır. Sizin danışıqlarınızdan sonra MDB-nin siyasəti barədə hansı məsələlərdə Azərbaycanın və Ukraynanın vahid mövqe tutduğunu gözləmək olar?

**L e o n i d K u ç m a :** Cavab çox sadədir. MDB-nin, əslində, bütün məsələlərində biz vahid mövqedən çıxış edirik.

**H e y d ə r Ə l i y e v :** Mən bu cavabla tam razıyam.

**S u a l :** Hörmətli prezidentlər, mən yenə də iqtisadi məsələlərə qayıtmaq istəyirəm. Siz mövcud problemlərin aradan qaldırılması üçün konkret olaraq hansı məsələləri qaldırdınız və onların həlli üçün nə qədər vaxt lazımdır?

**H e y d ə r Ə l i y e v :** Biz problemlərlə bağlı bir çox təklifləri nəzərdən keçirdik. Lakin bizim üçün ən əvvəl vacib olan budur ki, Azərbaycan ilə Rusiyanın Dağıstan ərazisindən keçən sərhədi açılsın. Məlum olduğu kimi, bu sərhəd Çeçenistanda hadisələr başlandığı vaxtdan bağlanmışdır. Əslinə qalsa, sərhəd nəqliyyat kommunikasiyası kimi hələ xeyli əvvəl bağlanmışdı. Ona görə ki, Çeçenistanda vəziyyət orada hərbi əməliyyatlar başlanmazdan hələ xeyli əvvəl çox mürəkkəb idi. Dəmiryol qatarları ya keçmirdi, ya da böyük çətinliklə keçirdi. Bizim üçün, Azərbaycan ilə Ukrayna arasında əlaqələr üçün, ümumiyyətlə, qitəmizin Şimal hissəsi ilə əlaqələr üçün, o cümlədən də Avropaya çıxmaq üçün əsas nəqliyyat növü dəmiryol magistralıdır.

Buna görə də biz, ən əvvəl, sərhədin açılması və dəmiryol xəttinin normal işləməsi sahəsində tədbirlərə dair məsələləri nəzərdən keçirdik. Doğrudur, bu, ən çox Rusiyadan asılıdır. Sizə məlumdur ki, bu məsələ barəsində mən Rusiya rəhbərləri, o cümlədən prezident Boris Yeltsin, baş nazir Viktor Çernomırdin və Rusiyanın digər rəhbərləri ilə dəfələrlə danışıqlar aparmışam. Mənim axırıncı görüşlərim, söhbətlərim mayın 26-da Minskdə MDB-nin iclası zamanı olmuşdur. Lakin vədlər hələlik həyata keçirilməmişdir. Biz dəmiryol magistralının sərbəst işləməsi üçün imkanlara malik deyilik.

Lakin biz digər variantları da nəzərdən keçirdik. Məsələn, yükləri Gürcüstan ərazisi ilə aparıb, oradan Qara dənizə, sonra isə Ukraynaya çıxmaq üçün Azərbaycan, Ukrayna və Gürcüstanın müştərək Holdinq nəqliyyat şirkətini yaratmaq barədə təklif var. Bu xətti Xəzər dənizin-

dən keçərək, Şərqə tərəf – Türkmənistana və təbii olaraq, oradan da Özbəkistana, Qazaxıstana, digər Şərq ölkərinə tərəf çəkməyə dair digər çox cəlbedici layihə də var. Doğrudur, başqa variantlar da mövcuddur. Lakin onların hamısı iqtisadi səmərəlilik, təhlükəsizlik, bütün ölkələrlə razılığın mümkünlüyü baxımından diqqətlə işlənməlidir. Təbiidir ki, həmin layihələrin həyata keçirilməsində iştirak edəcək hər bir ölkənin razılığı da gərəkdir. İndi biz onları öyrənir, hazırlayırıq. İnanıram ki, biz bu çətin nəqliyyat blokadasından çıxış yolları tapacağıq.

**Leonid Kuçma:** Mən Heydər Əliyeviçin rəyi ilə razıyam. Bəli, həqiqətən bugünkü, sabahkı strateji məsələlər var. Buna görə də biz uzaq perspektivləri, neft-qaz kəməri problemini də nəzərdən keçirdik. Bunlar strateji məsələlərdir və onları bu gün müzakirə etmək lazımdır.

**Sual:** Leonid Daniloviç, Siz dediniz ki, Bakıdan Ermənistana gedəcəksiniz. Siz onlarla da Azərbaycanla olduğu kimi, eyni dərəcədə əməkdaşlıq etmək niyyətindəsinizmi?

**Leonid Kuçma:** Ukrayna bütün ölkələrlə ancaq bərabərhüquqlu əsasda və qarşılıqlı mənafelər baxımından əməkdaşlıq etməyə hazırdır.

**Sual:** Leonid Daniloviç, Siz Krım tatarlarının problemini necə həll edəcəksiniz?

**Leonid Kuçma:** Biz bu problemi dünən Heydər Əliyeviçlə müzakirə etdik. Ukrayna MDB-yə müraciət etmişdir. Mən Boris Nikolayeviç Yeltsinə şəxsi məktubla müraciət etmişəm ki, bu məsələni MDB səviyyəsində nəzərdən keçirmək lazımdır. Çünki bu problem təkcə Ukraynanın problemi deyildir. Təəssüf ki, bir dövlət kimi, Ukraynanın buna birbaşa dəxli yoxdur. Lakin bu gün Ukrayna 270 min Krım tatarı ilə təkbətək qalmışdır. Onlar Azərbaycan qaçqınlarına nisbətən bəlkə də bir qədər yaxşı vəziyyətdə yaşayırlar. Ukrayna əlindən gələn hər şeyi edir. Lakin mən birmənalı şəkildə bu fikirdəyəm ki, ən əvvəl, özünü Sovet İttifaqının hüquqi varisi elan edən Rusiya, habelə Özbəkistan və Qazaxıstan da bu problemin həllinə sırf mənəvi baxımdan azçox öz töhfəsini verməlidir.

**Sual:** Leonid Daniloviç, Azərbaycanın yeni neft yataqlarının işlənməsində Ukrayna iştirak edəcəkmi?

**Leonid Kuçma:** Biz bu problemi müzakirə etdik və Ukraynada olan bütün mümkün üsul və metodlarla bacardığımız qədər iştirak



etməyə hazırıq. Digər tərəfdən, biz Azərbaycan tərəfinə təklif etdik ki, Ukraynanın neft yataqlarının, xüsusən Qara dəniz şelfindəki yataqların işlənməsində iştirak etsin.

**Heydər Əliyev:** Bizim marağımız var ki, Ukrayna həm quruda, həm də dənizdə Azərbaycan yataqlarının, o cümlədən Xəzər dənizinin Azərbaycan sektorundakı yataqların işlənməsində iştirak etsin. Dünyanın bir çox neft şirkətləri bizə müraciət edirlər. Bizdə bir sıra olduqca perspektivli yataqlar var. Enerji daşıyıcılarına ehtiyac duyan Ukrayna, təbii olaraq, bu daşıyıcıları almaq üçün mənbələrə malik olmaq istəyir. Biz Ukraynaya belə imkan təklif etdik.

**Leonid Kuçma:** Sovet İttifaqının dövründə Ukraynada borulardan başlayaraq ən nadir avadanlıq – kompressor stansiyaları, nasoslar və digər qurğular buraxılmasınadək neft-qaz sənayesində çox böyük potensial yaradılmışdı.

**Sual:** Hörmətli Heydər Əliyeviç, mən bu suala cavab eşitmək istərdim: məlum olduğu kimi, Rusiya Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçidir. Siz bu məsələdə onun rolunu necə qiymətləndirirsiniz? Sual Prezident Leonid Kuçmayadır: Siz belə bir faktı necə qiymətləndirirsiniz ki, bu qədər vaxt itirilmiş, amma Ukrayna indiyədək Azərbaycanda səfirliyə malik deyildir?

**Heydər Əliyev:** Rusiya artıq neçə illərdir ki, Ermənistan-Azərbaycan münaqişəsinin həllində vasitəçilik fəaliyyəti göstərir. Əgər bu münaqişənin tarixindən danışmalı olsaq, onda görərik ki, o, hələ Sovet İttifaqı dövründə, 1988-ci ildə yaranmışdır. Bu gün bunu bildirməyi bir daha lazım hesab edirəm ki, həmin dövrdə Sovet İttifaqının rəhbərliyi bu münaqişənin meydana çıxmasına, Ermənistan və Azərbaycan xalqları arasında qarşıdurmanın belə vəziyyətə gəlib çıxmasına yol verməmək üçün hər cür imkanlara malik idi. Xalqlarımız əsrlər boyu bir coğrafi məkanda, bir-biri ilə qonşuluqda yaşamışlar. Bütün tarix ərzində tamam əksər dövrlərdə xalqlarımız dostluq, əmin-amanlıq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Doğrudur, keçmiş zamanlarda münaqişələr baş verirdi. Lakin onların bütün tarixi ərzində heç vaxt belə qanlı və uzunsürən münaqişə olmamışdır. Bu münaqişə Sovet İttifaqının dövründə baş vermişdir və bu gün mən demək istəyirəm ki, Sovet İttifaqının ərazisində yaranmış, digər ölkələrə də, habelə Yer kürəsinin başqa guşələrinə də yayılmış separatçılığın inkişafında məhz SSRİ rəhbərləri günahkardırlar.

Buna görə də, əgər vasitəçilikdən danışmalı olsaq, vasitəçilik onda da olmuşdur, lakin bu vasitəçilik son dərəcə uğursuz və birtərəfli idi. Son illər Rusiya vasitəçilik işi aparır. Biz bir sıra hallarda onun müsbət rol oynadığını hiss edirik. Biz Rusiyaya ümid bəsləyirik. Mən dəfələrlə bildirmişəm və bu gün də bildirirəm ki, bu məsələnin həllinin açarı əsasən Rusiyadadır. Onu həll etməyə Rusiya qadirdir. Rusiyanın Sovet İttifaqının hüquqi varisi olduğunu nəzərə alaraq, o, Qarabağ münaqişəsinin aradan qaldırılması üçün, bu qanlı müharibəyə son qoyulması üçün daha səmərəli tədbirlər görməyə borcludur. Buna görə də biz Rusiyanın rolunu qiymətləndiririk.

Son vaxtlar Rusiya ATƏT-in Minsk qrupu çərçivəsində vasitəçilik rolunda çıxış edir. Siz bilirsiniz ki, 1994-cü ilin dekabrında dövlət başçılarının Budapeşt Zirvə toplantısından sonra Minsk qrupu yenidən qurulmuşdur və indi iki həmsədrə malikdir. İndiki halda həmsədrlər Finlandiya və Rusiyadır. Onlar tədbirləri birlikdə görürlər. Ona baxmayaraq, mən belə hesab edirəm ki, Rusiya burada çox mühüm rol oynayır. Mən ümidvaram və ümid edəcəyəm ki, Rusiya bu münaqişənin həllində, bölgəmizdə sülhün bərqərar olmasında öz tarixi rolunu hər halda oynayacaqdır.

**Leonid Kuçma:** Nə üçün Ukrayna Bakıda səfirliyini açmamışdır? Bu, bir-sıfır Ukraynanın xeyrinə deyildir. Buna görə də bu gün biz bunu düzəltdik. Hesab bir-bir olacaq.

**Heydər Əliyev:** Xeyr, sıfır-sıfır olacaq. Çünki bu, Azərbaycana da aiddir. Görünür ki, biz eyni dərəcədə gecikmişik. Bu gün prezidentlər sənəd imzalamış və bununla da ölkələrimizdə səfirliklər açılması barədə öz üzərlərinə öhdəlik götürmüşlər.



# BOLQARISTANA VƏ RUMINİYAYA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA MƏTBUAT ÜÇÜN BƏYANAT

*29 iyul 1995-ci il*

Bolqarıstan və Rumıniya Şərqi Avropa, Balkan ölkələridir və dünyada gedən proseslərdə onların özünəməxsus yeri var. Həmin dövlətlərdə ictimai-siyasi proseslər, dəyişikliklər gedir. Keçmiş Varşava Müqaviləsinin üzvü olmuş bu ölkələrdə də indi sosialist quruluşundan və iqtisadi modelindən yeni formalara keçid dövrüdür. Ona görə də bu ölkələrdə gedən dəyişikliklər və onların təcrübəsi bizim üçün əhəmiyyətlidir.

Bolqarıstan prezidenti cənab Jelyu Jelev və Rumıniya prezidenti cənab İon İliyesku çoxdandır ki, məni öz ölkələrinə rəsmi səfərə dəvət ediblər. İndi imkan tapdığıma görə onların dəvətini yerinə yetirirəm, həm Bolqarıstana, həm də Rumıniyaya rəsmi səfərə gedirəm. Eyni zamanda Buxarestdə Qara Dəniz Hövzəsi Ölkələrinin İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin rəhbərlərinin görüşü olacaqdır. Bu da çox əhəmiyyətli toplantıdır, həmin təşkilatın üzvü olan ölkələrin dövlət və hökumət başçılarının İkinci Zirvə toplantısıdır. Birinci Zirvə toplantısı iki il bundan əvvəl İstanbulda keçirilmişdir. Fikrimcə, Azərbaycanın iqtisadi problemlərini həll etmək üçün Qara dəniz hövzəsində olan ölkələrlə əməkdaşlıq böyük imkanlar verir.

Şübhəsiz ki, Azərbaycanın həm Bolqarıstan, həm də Rumıniya ilə keçmişdə geniş iqtisadi əlaqələri olubdur. Həmin əlaqələri bərpa etmək, inkişaf etdirmək, möhkəmləndirmək bizim üçün əlverişlidir. Hesab edirəm ki, bu səfərlər Azərbaycan üçün çox əhəmiyyətli olacaqdır.

Buxarest Zirvə toplantısında Qara dəniz hövzəsi ölkələrinin dövlət başçıları ilə ümumi görüşdən əlavə, ikitərəfli görüşlər də olacaqdır. Artıq bir neçə belə görüş planlaşdırılmışdır. Bunlardan Azərbaycanın həmin ölkələrlə əlaqələrinin gələcəkdə daha da inkişaf etdirilməsi üçün istifadə ediləcəkdir. Bir daha qeyd edirəm ki, bu səfər əhəmiyyətlidir və mən onu böyük məmnuniyyətlə həyata keçirirəm.

**Sual:** Rumıniya ilə Azərbaycan arasında neft sahəsində əməkdaşlıq mümkündürmü?

**Cavab:** Rumıniya və Azərbaycan neft ölkələridir. Vaxtilə 50-ci illərdə Azərbaycan neftçiləri Rumıniyanın neft sənayesinin inkişafına kömək etmişlər. Bu əlaqələri də bərpa etmək lazımdır.

# TÜRKDİLLİ DÖVLƏT BAŞÇILARININ ZİRVƏ TOPLANTISINDA MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Bişkek*
*28 avqust 1995-ci il*

Mən Mərkəzi Asiyada gedən inteqrasiya proseslərini müsbət qiymətləndirirəm. Belə hesab edirəm ki, təkcə bu ölkələr deyil, ümumiyyətlə, bütün ölkələr bundan sonra daha dərin inteqrasiya yolu ilə getməlidirlər. Çünki bu yol həmişə iqtisadiyyatın inkişafına, dövlətlər arasında daha sıx münasibətlər yaranmasına kömək edəcəkdir. Mənə verilən sualdan istifadə edərək demək istəyirəm ki, Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında iqtisadi əlaqələrin lazımi səviyyədə olmamasından təəssüflənirəm.

Bizim respublikalarımız keçmişdə Sovet İttifaqına daxil olarkən həm iqtisadi baxımdan, həm də mədəni dəyərlərlə mübadilə baxımından görüşlər keçirilməsi, bir-birinə nümayəndə heyətləri göndərilməsi baxımından daha sıx bağlı idilər. İndi bu əlaqələr zəifləmişdir. Amma biz istəyirik, Azərbaycan istəyir ki, bu əlaqələr geniş olsun. Tarixi keçmişimizi, ümumi köklərimizi, bizi bu görüşə toplayan zəmini əsas tutaraq Azərbaycan istəyir ki, Mərkəzi Asiyanın bütün ölkələri ilə daha sıx iqtisadi, mədəni, elmi-texniki əməkdaşlıq yaratsın və bu inteqrasiyaya daxil olsun.



# BİŞKEKDƏN ZİRVƏ TOPLANTISINDAN BAKIYA QAYIDARKƏN TƏYYARƏDƏ JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*29 avqust 1995-ci il*

Bişkek Zirvə toplantısı, altı dövlət başçısının görüşü üçüncü belə görüşdür. Bu dəfəki toplantı göstərdi ki, bu görüşlər artıq ənənəyə çevrilir, yeni yaranmış türkdilli dövlətlərin həyatında öz yerini tutur və davam edəcəkdir.

Bu görüşlər çox əhəmiyyətlidir. Doğrudur, bu Zirvə toplantılarının nə qədər davam edəcəyi müəyyən qədər məlum deyil. Mən bu toplantıdan sonra belə qənaətə, fikrə gəldim ki, belə görüşlər davam edəcək və biz Bişkek bəyannaməsində nəzərdə tutduq ki, növbəti görüş Daşkənd şəhərində keçirilsin.

Bişkek bəyannaməsini siz yəqin oxumusunuz, məlumatınız var. Bu bəyannamə bizim ölkələrimiz arasında iqtisadiyyat, elm, mədəniyyət, texnika və digər sahələrdəki əlaqələrin inkişaf etdirilməsinə yönəldilmişdir və bu da bizim üçün əhəmiyyətlidir. «Manas»ın min illik yubileyinin bu vaxt keçirilməsi və bütün türkdilli dövlətlərin başçılarının yubileyin əsas mərasimlərində iştirak etməsi onu göstərir ki, birlik daha da möhkəmlənir və bundan sonra da möhkəmlənəcəkdir. Mən bu görüşlərdən çox razıyam.

Bu Zirvə toplantısının işi təkcə türkdilli ölkələrin dövlət başçılarının görüşündən və imzalanmış Bişkek bəyannaməsində əks olunan məsələlərdən ibarət deyil. Biz dövlət başçıları bir çox məsələlər, dünyada gedən proseslər, ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi barədə qeyri-rəsmi çox söhbətlər, müzakirələr apardıq ki, bu da çox əhəmiyyətlidir. Zirvə toplantısındakı çıxışımda mən qeyd etdim ki, Xəzəryanı ölkələrin əməkdaşlıq etməsi çox gərəklidir və bu əməkdaşlıq üçün çox böyük əsaslar var. Bu fikri başqa dövlət başçıları da qeyd etdilər. Doğrudur, Özbəkistan Xəzəryanı dövlət deyil, amma onun da, Qırğızıstanın da bu məsələdə çox marağı var. Biz Xəzərin təbii sərvətlərindən, onun kommunikasiya, nəqliyyat imkanlarından istifadə olunması məsələləri barədə qeyri-rəsmi fikir mübadilələri apardıq və bu

məsələlərin həll edilməsi barədə fikirlərimizi söylədik. Hesab edirəm ki, bu da çox faydalıdır.

Bəyannamə barədə bizim təkliflərimiz, məsələn, münaqişə ilə bağlı təklifimiz sənəddə öz əksini tapdı. Əlbəttə, biz istərdik ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü konkret olaraq göstəriləydi. Lakin mən çıxışımda bu barədə danışdım. Separatçılığa, terrorizmə qarşı mübarizə aparmağın, hərbi münaqişələrin qarşısının alınmasının zəruriliyi kimi məsələlər bəyannamədə öz əksini tapdı.

Azərbaycanın Mərkəzi Asiyada iqtisadi inteqrasiyaya qoşulmasının mümkünlüyü barədə suala gəlincə onu demək olar ki, mən bizim buna prinsipcə hazır olduğumuzu dedim. Belə hesab edirəm ki, – bunu dövlət başçıları ilə söhbətimdə də bildirdim – Mərkəzi Asiya ölkələri ilə iqtisadi əlaqələrimiz çox zəifdir. Məsələn, Sovet İttifaqının tərkibində olduğumuz vaxtdakına nisbətən bu əlaqələr çox zəifdir. Mən dəfələrlə təşəbbüs qaldırmışam ki, əlaqələri inkişaf etdirmək və genişləndirmək lazımdır. Hələlik bu fikrə münasibət yaxşıdır. Bu barədə Qırğızıstanla, başqa ölkələrlə də danışmışıq. Bir sözlə, bu, faydalı olacaqdır.

Qırğızıstanda olan görüşlərimiz mənim üçün çox əhəmiyyətlidir. Əvvəla, «Manas»ın 1000 illik yubileyi mərasimləri çox yaxşı təşkil olunmuşdu, mənə çox böyük təsir bağışladı. Eyni zamanda mən Qırğızıstanın prezidenti Əskər Akayevlə ölkələrimiz arasındakı əlaqələrin, xüsusən iqtisadi əlaqələrin inkişaf etdirilməsi barədə çox ətraflı danışıqlar apardım.

Qırğızıstanda 18 min azərbaycanlı yaşayır. Mən orada yaşayan azərbaycanlıların vəziyyəti ilə maraqlandım. Doğrudur, çox imkan olmadı, amma Qırğızıstandakı bir sıra Azərbaycan cəmiyyətlərinin başçıları ilə görüşdüm. Bişkekdə axşam qəzetinin redaktoru azərbaycanlıdır. O, gəlib mənimlə görüşdü, biz söhbət etdik. Əsgər Akayevin dediyinə görə, Qırğızıstanda çoxluq təşkil etməyən millətlərə müəyyən imkanlar yaradıblar. Hətta bu cəmiyyətlərin fəaliyyət göstərməsi üçün sarayların birində onlara yerlər də ayırıblar. O cümlədən Azərbaycan cəmiyyətinə də yer ayrılıb.

Qırğızıstanda yaşayan azərbaycanlıların çoxu orada elm, səhiyyə, iqtisadiyyat sahələrində işləyirlər. Mənə dediklərinə görə, orada onların vəziyyəti pis deyil, yaxşıdır. Onlar Qırğızıstanın ictimai-siyasi həyatında da iştirak edirlər.



Ancaq məni ən çox maraqlandıran Qırğızıstan ilə Azərbaycan arasındakı əlaqələrdir. Çünki bu əlaqələr indiyədək zəifdir. Biz Əskər Akayevlə bu barədə söhbət apardıq və belə qərara gəldik ki, bu əlaqələri gücləndirmək üçün hər iki tərəfdən lazımi əlavə tədbirlər görüləcəkdir. Burada böyük imkanlar var və bu imkanlardan istifadə etmək lazımdır.

Bir daha qeyd edirəm ki, «Manas»ın 1000 illiyi yüksək səviyyədə keçdi. Mən bunu təkcə «Manas»ın yubileyi kimi yox, ümumiyyətlə, bir kökdən olan xalqlarımızın keçmişinə, bu gününə və gələcəyinə baxış kimi qiymətləndirirəm və bu da bizim üçün çox əhəmiyyətlidir.

# AVROPA BİRLİYİ KOMİSSİYASININ KOMİSSARI HANS VAN DEN BRUKLA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*4 oktyabr 1995-ci il*

Hörmətli xanımlar və cənablar!

Siz – mətbuat nümayəndələri Avropa Birliyinin nümayəndə heyətinin başçısı cənab Hans Van Den Brukla və nümayəndə heyətinin üzvləri ilə danışıqlarımızda iştirak etmisiniz, onların məzmunu ilə tanışsınız. Ona görə də bu barədə geniş məlumat verməyə ehtiyac yoxdur. Mən yalnız onu demək istəyirəm ki, Azərbaycan ilə Avropa Birliyi arasında əməkdaşlıq sürətlə inkişaf edir. Brüsseldə, Avropa Birliyinin baş qərargahında olarkən mən bu birliyin rəhbərləri cənab Jak Santerlə və cənab Hans Van Den Brukla, habelə başqaları ilə ətraflı söhbətlər aparmışdım. Bundan sonra bizim əməkdaşlığımızda böyük dəyişikliklər əmələ gəlir. Azərbaycanın iqtisadi vəziyyəti ağır olduğuna görə, Avropa Birliyi ölkəmizə ərzaqla və digər yardımlarla kömək edir. Bütün sahələrdə bizim əməkdaşlığımız mütəşəkkil surətdə həyata keçir.

Ancaq qeyd etmək istəyirəm ki, əməkdaşlığımızın bundan sonra da inkişaf etməsinə böyük ehtiyac vardır. Bunu nəzərə alaraq, mən cənab Van Den Bruku Azərbaycana rəsmi səfərə dəvət etmişəm. O mənim dəvətimi qəbul edərək böyük bir nümayəndə heyəti ilə respublikamıza gəlib. Hesab edirəm ki, burada apardığımız danışıqlar səmərəli oldu. Nəticədə Azərbaycan ilə Avropa Birliyi arasında yeni memorandumu indicə imzaladıq. Memorandumu Azərbaycan Respublikası tərəfindən baş nazir Fuad Quliyev, Avropa Birliyi tərəfindən isə təşkilatın komissiyasının komissarı cənab Hans Van Den Bruk imzaladı.

Bizim əməkdaşlığımız təkcə bu memorandumla bitmir. Bu, sadəcə olaraq, hazırkı vaxta dair olan sənəddir. Biz Avropa Birliyi ilə daha sıx əməkdaşlıq etmək üçün, onun tərəfdaşı olmaq üçün öz təkliflərimizi vermişik. Həmin təkliflər qəbul olunubdur. Bu günlərdə danışıqlar aparmaq üçün biz xüsusi nümayəndə heyətini təyin edəcəyik. Danışıqlar nəticəsində belə razılığa gəlmişik ki, bu nümayəndə heyəti bu ayın sonunda və ya noyabrın əvvəlində Brüsselə gedəcək. Avropa Birliyi ilə tərəfdaşlıq səviyyəsində əməkdaşlıq etmək üçün danışıqlar aparacaqdır. Həmin danışıqlar nəticəsində böyük bir saziş imzalanacaqdır. Biz bunu istəyirik və bu sahədə lazımi işləri görəcəyik. Biz Avropa Birliyi ilə əməkdaşlığın genişləndirilməsinə tərəfdarıq. Hesab edirəm ki, cənab Van Den Brukun Azərbaycana səfəri bu işə müsbət təsirini göstərəcəkdir.



Cənab Van Den Bruk respublikamızda qaçqınların məskunlaşdığı bölgəyə səfər edib və orada qaçqınlarla görüşüb, Azərbaycanın işğal olunmuş ərazilərindən zorla qovulmuş vətəndaşlarımızın həyat şəraitinin ağırlığını öz gözləri ilə görübdür. Onu müşayiət edən nümayəndə heyəti də həmin yerlərdə olubdur. Bunların hamısı Avropa Birliyində Azərbaycan barəsində daha dəqiq, ətraflı və obyektiv məlumat əldə etmək üçün yaxşı bir vasitədir. Mən buna görə – Azərbaycana gəldiyinə və burada bu işləri gördüyünə görə, cənab Van Den Bruka və onunla gələn nümayəndə heyətinə təşəkkürümü bildirirəm. Hesab edirəm ki, cənab Van Den Bruk da öz bəyanatını verəcəkdir.

# AZƏRBAYCAN RESPUBLİKASI İLƏ PAKİSTAN İSLAM RESPUBLİKASI ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏ MƏTBUAT ÜÇÜN BƏYANAT

*9 oktyabr 1995-ci il*

Pakistanın prezidenti bu gün Azərbaycana rəsmi səfərə gəlmişdir. Bu, Pakistan dövlət başçısının Azərbaycana ilk səfəridir. Cənab prezident Azərbaycana gələn dəqiqələrdən indiyədək biz çox səmərəli çalışmışıq. Bunların və əvvəlcədən görülmüş işlərin nəticəsində Azərbaycan ilə Pakistan arasında əlaqələri inkişaf etdirmək üçün çox mühüm sənədlər imzalanmışdır.

Pakistan ilə Azərbaycan arasında diplomatik əlaqələr respublikamız öz müstəqilliyini əldə etdikdən sonra yaranmışdır. Təxminən üç ildən artıq bir vaxtda Azərbaycan ilə Pakistan arasında dostluq əlaqələri müntəzəm mövcuddur və ardıcıl surətdə inkişaf etmişdir. Hər iki tərəfdən – Pakistan və Azərbaycan tərəfindən bu əlaqələrin bütün sahələrdə inkişaf etdirilməsi üçün səylər göstərilmiş, bunlar öz nəticəsini vermişdir. Əldə olunan əsas nailiyyət bundan ibarətdir ki, iki ölkə arasında – Pakistan ilə Azərbaycan arasında dostluq əlaqələri artıq çox möhkəm təməl əsasında qurulmuşdur və bu əlaqələrin inkişaf etməsi üçün yaxşı şərait yaranmışdır.

Pakistanın hörmətli prezidenti ilə mənim bugünkü söhbətlərim, danışıqlarım və iki ölkənin nümayəndə heyətləri arasında aparılan danışıqlar əlaqələrimizin inkişaf etdirilməsi üçün çox böyük imkanlar olduğunu bir daha aşkar etdi. Bugünkü danışıqların əsas nəticəsi ondan ibarətdir ki, həm Pakistan prezidenti, həm də mən bəyan etdik ki, Azərbaycan ilə Pakistan arasındakı əlaqələr dostluq xarakteri daşıyır və bu əlaqələr bundan sonra daha da möhkəm olacaqdır. İqtisadi, ticarət əlaqələrinin inkişaf etdirilməsi üçün geniş imkanlar var və bu məqsədlə lazımi tədbirlər görüləcəkdir.

Bu gün imzaladığımız sənədlər bu əlaqələr üçün yaxşı qanuni əsaslar yaradır. Həmin sənədlər əsasında əməli iş görmək üçün hər iki prezident lazımi göstərişlər veribdir.



Beynəlxalq aləmdə, təşkilatlarda Pakistan ilə Azərbaycan arasındakı əməkdaşlıq həmişə hər iki ölkənin mənafeyinə uyğun olub, eyni zamanda beynəlxalq aləmdə hər iki ölkənin mövqeyinin müdafiə olunmasına, qorunmasına yönəldilibdir. Bu gün bəyan etdik və mən bunu bir daha ictimaiyyətə çatdırıram ki, biz beynəlxalq aləmdə, təşkilatlarda gələcəkdə də bu mövqelərdən çıxış edəcək və sıx əməkdaşlıq edəcəyik.

Mən Pakistan prezidentinin Azərbaycana səfərindən məmnun olduğumu bir daha bildirmək istəyirəm. Bu gün imzaladığımız sənədlərin Pakistan ilə Azərbaycan arasında dövlətlərarası ilk sənədlər olduğunu bir daha qeyd etmək istəyirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu sənədlər əməli surətdə həyata keçiriləcəkdir və gələcəkdə dövlətlərimiz, hökumətlərimiz arasında yeni-yeni sənədlər imzalamağa nail olacağıq.

Bu gün cənab prezident ilə mənim və nümayəndə heyətlərimizin arasındakı danışıqlarda mətbuat nümayəndələri iştirak ediblər. Onlar danışıqlarımızın məzmunundan halidirlər və buna görə də mən vaxt alıb bu barədə geniş məlumat verməyə ehtiyac duymuram. Diqqətinizə görə təşəkkür edirəm.

# BMT-nin 50 İLLİK YUBİLEYİ İLƏ ƏLAQƏDAR BMT BAŞ MƏCLİSİNİN XÜSUSİ TƏNTƏNƏLİ İCLASINDA İŞTİRAK ETMƏK ÜÇÜN ABŞ-a YOLA DÜŞƏRKƏN İSTANBULUN ATATÜRK HAVA LİMANINDA MƏTBUAT KONFRANSINDA BƏYANAT

*20 oktyabr 1995-ci il*

Hörmətli mətbuat nümayəndələri!

Bilirsiniz ki, mən Nyu-Yorka Birləşmiş Millətlər Təşkilatının yaranmasının 50 illik yubileyi münasibətilə keçirilən təntənəli mərasimdə iştirak etməyə gedirəm. Ancaq yolumuz İstanbuldan keçir. Şəxsən mən həmişə Qərb ölkələrinə gedərkən Türkiyəni ziyarət etmək istəyirəm. Ona görə də yolumu buradan salmışam. Bir saatdan sonra buradan təyyarə ilə yola düşəcəyik. Doğrusu, mənim burada qısamüddətli olmağıma sizin bu qədər böyük maraq göstərdiyinizi təsəvvür etmirdim. Düşünmürdüm ki, siz mənimlə görüşmək üçün gələcəksiniz. Mənim görüşümə gəldiyinizə və səfərimə maraq göstərdiyinizə görə sizə təşəkkür edirəm. Bir halda ki, gəlmisiniz, mən sizi bir daha salamlayıram, hörmət və ehtiramımı bildirirəm. İstanbula, Türkiyə torpağına qardaşlıq salamımı, hörmət və ehtiramımı yetirirəm. Əgər mənə sözünüz, sualınız və ya sorğunuz varsa, cavab verməyə hazıram.

**S u a l :** Azərbaycanın Milli Məclisinə ilk demokratik seçkilərin keçirilməsi barədə nə deyə bilərsiniz?

**C a v a b :** Bilirsiniz ki, bu, Azərbaycanın indiki həyatında, ümumiyyətlə, tarixində çox önəmli və əhəmiyyətli hadisədir. Çünki respublikamız dörd il bundan öncə öz istiqlaliyyətini əldə edib və müstəqil dövlət olubdur. Lakin indiyədək onun müstəqil dövlət kimi yeni seçilmiş parlamenti olmayıbdır. Ona görə də biz noyabrın 12-nə Azərbaycanın Milli Məclisinə seçkiləri təyin etmişik. Şübhəsiz ki, bu bizim üçün o qədər də asan iş deyildir. Çünki bilirsiniz ki, Azərbaycan öz həyatının keçid dövrünü yaşayır. Respublikamız Ermənistanın təcavüzü nəticəsində müharibə şəraitindədir. Torpaqlarımızın 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. İşğal olunmuş ərazilərimizdən bir milyondan artıq vətəndaşımız öz yerindən-yurdundan, el-obasından didərgin düşübdür. Qaçqınlar Azərbaycanın digər bölgələrində, məntəqələrində çox ağır şəraitdə, əksəriyyəti çadırlarda yaşayır. İqtisadi-sosial problemlər çox ağırdır, biz demək olar ki, böhran içərisindəyik. Belə bir şəraitdə parlament seçkiləri keçirmək, yəni yeni bir parlament yaratmaq böyük bir cəsarət, bu böyük işdə xalqa inamın olmasını tələb edir. Biz belə bir cəsarətli addım atmışıq və bu seçkiləri təyin etmişik.



Biz parlament seçkilərini keçirmək üçün bir neçə ay ərzində seçkilər haqqında qanun hazırladıq. Çünki müstəqil Azərbaycan dövlətində ilk dəfədir ki, parlament seçkiləri keçirilir. Biz istəyirik ki, bu seçkiləri tam demokratik prinsiplər əsasında keçirək. Bilirsiniz ki, biz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı bir dövlət qurmaq prosesindəyik. Bu proses içərisində olduğumuz zaman şübhəsiz ki, bizim hər addımımız, hər işimiz demokratiyaya söykənməli, demokratiyaya əsaslanmalıdır. Bu səbəbdən də biz çalışırdıq ki, bu seçkiləri sadəcə elan edərək, keçmişdə olduğu kimi keçirməyək, yeni bir qanun əsasında keçirək. Yeni qanun da, şübhəsiz ki, konstitusiya əsasında olmalıdır. Bizim yeni, müstəqil dövlətimizin isə indiyə qədər konstitusiyası yox idi. Dörd ildir ki, müstəqil dövlət olmağımıza baxmayaraq, biz indiyə qədər keçmiş Sovetlər İttifaqı zamanı – 1978-ci ildə qəbul olunmuş konstitusiya ilə işləyirik. Onu da qeyd etmək istəyirəm ki, 1978-ci il konstitusiyası da mənim Azərbaycana rəhbərlik etdiyim dövrdə qəbul olunub və mən hətta həmin konstitusiyanı hazırlayan komissiyanın sədri olmuşam. O konstitusiyanı da yazanlardan, onun müəlliflərindən biri, ola bilsin ki, əsası mənəm.

Ancaq o, sovet respublikasının konstitusiyası idi. Bizə şübhəsiz ki, yeni konstitusiya lazımdır. Biz yeni konstitusiyanı hazırlayırıq. Ancaq istəyirik ki, bu konstitusiyanı parlamentdə yox, ümumxalq səsverməsində, referendumda qəbul edək. Çünki bizim seçkilərimiz xalqın səsinə söykənməlidir.

Bizdə respublika prezidentini də xalq seçir. İndi Milli Məclisi, yəni parlamentin üzvlərini də xalq seçəcəkdir. Ona görə də bizim konstitusiyamız da parlamentdə yox, xalqın bəyəndiyi və referendum vasitəsilə qəbul etdiyi konstitusiya olmalıdır. Belə bir konstitusiyanın layihəsini hazırlamışıq. Ancaq biz əvvəlcə istədik ki, seçkilər haqqında qanun hazırlayaq. Həmin qanunu hazırladıq, elan etdik və o, qəbul edildi. Mən sizə deyə bilərəm ki, Azərbaycanda parlament seçkiləri haqqında qə-

bul etdiyimiz qanun ictimaiyyət tərəfindən demokratik qanun kimi qəbul olunubdur. Bu barədə başqa bir söz deyən, yəni ona müxalif çıxan yoxdur.

Biz indi bu qanunun həyata keçirilməsinə başlamışıq. Çalışırıq ki, qanunun özü demokratik olduğu kimi, onun əsasında keçirilən seçkilər də tam demokratik olsun. Yəni insanların, dövlətin hüquqları qorunsun. Biz çalışırıq ki, xalqımızın içərisində ən dəyərli adamlar, xalqın istədiyi və seçdiyi adamlar parlamentdə olsun. İndi bu iş gedir. Seçkilərin birinci mərhələsi başa çatıbdır. Yəni seçilmək istəyən insanlar, vətəndaşlar öz namizədliklərini irəli sürüblər.

Bizim parlamentdə 125 millət vəkili olacaqdır. Bu 125 deputat yerindən 25-i partiyaların siyahıları üzrə, proporsional seçki sistemi əsasında seçiləcəkdir. Yəni bu partiyalar seçkilərdə iştirak edir və deputatlar da onların verdiyi siyahılar əsasında seçilir. Ancaq 100 mandat üzrə namizədlər, yəni 100 deputat majoritar sistem əsasında seçiləcəkdir. Yəni ayrı-ayrı birmandatlı dairələrdən hər bir kəs parlanmentə seçilə bilər.

Seçilmək istəyən partiyalar və vətəndaşlar artıq öz namizədliklərini bəyan ediblər. Birmandatlı dairələrdən 1070 şəxs, vətəndaş parlamentə seçilmək üçün müraciət edib, yəni ərizə verib.

Azərbaycanda Ədliyyə Nazirliyinin qeydə aldığı 31 siyasi partiya var. Bu partiyalardan 18-i seçkilərə hazırlıq başlayan vaxt seçkilərdə iştirak edəcəyini bəyan etmişdi. Ancaq son olaraq bu 18 partiyadan – hər bir partiya Mərkəzi Seçki Komissiyasından imza vərəqələri almalıdır. 50 min vətəndaşın imzasını toplamalıdır və Mərkəzi Seçki Komissiyası bu imzaların doğruluğunu təsdiqləyəndən sonra həmin partiyalara seçkidə iştirak etmək hüququ verir – 12-si gəlib seçkidə iştirak etmək üçün müraciət etmişdir. Yəni əvvəlcə 18 partiya seçkidə iştirak edəcəyi barədə bəyanat vermiş, lakin 12 partiya Mərkəzi Seçki Komissiyasından lazımi vərəqələri götürmüşdür.

İndi bu 12 partiya Mərkəzi Seçki Komissiyasına imza vərəqələrini təqdim edibdir. Vətəndaşlardan isə, dediyim kimi, 1070 nəfər öz sənədlərini veribdir. Son günlər Mərkəzi Seçki Komissiyası çox gərgin işləyir. Verilmiş sənədlərdən hansı doğru-düzgün tərtib olunubsa, onlar seçkilərə buraxılır. Beləliklə, biz çoxpartiyalı sistem üzrə seçkilərə gedirik. Çoxpartiyalı sistem təkcə partiyaların verdiyi siyahıdan ibarət deyil. Birmandatlı 100 dairədə hər deputat yerinə istənilən partiyanın



nümayəndəsi öz namizədliyini verir. Mənə dedilər ki, Mərkəzi Seçki Komissiyasından alınan məlumata görə, bütün partiyalara mənsub olan adamlar öz namizədliklərini irəli sürüblər. İndi seçki bu mərhələdədir. Bu işlər bitəndən sonra, təxminən sabah təbliğat işi başlayacaqdır. Yəni seçilmək istəyən adamlar özlərini təbliğ edəcəklər.

Mərkəzi Seçki Komissiyasında kimin xahişi ödənilməyibsə, onlar şikayət edə bilərlər. Həmin şikayətə Mərkəzi Seçki Komissiyası baxıb, bu ayın 25-nə qədər onların yenidən qeydiyyata alınmasına imkan yaradır. Əgər Mərkəzi Seçki Komissiyası onlar barəsində müsbət qərar qəbul etməsə, onlar məhkəməyə müraciət edə bilərlər. Məhkəmə qərar verə bilər və onlar yenidən seçkiyə girə bilərlər.

Azərbaycanda ilk dəfədir ki, belə sərbəst, azad, tam hürriyyət içində seçkilər keçirilir. Bizim məqsədimiz, Azərbaycanın prezidenti kimi, mənim ən əsas məqsədim ondan ibarətdir ki, demokratik bir parlament seçilsin və həmin parlamentdə Azərbaycanın hər bir siyasi qüvvəsi təmsil olunsun. Bununla da biz demokratik addım ataq.

Mən eyni zamanda sizə bildirdim ki, biz konstitusiya layihəsi hazırlamışıq. Bizdə Konstitusiya Komissiyası yaranıbdır. Bu komissiya çox hörmətli adamlardan – hüquqşünaslardan, alimlərdən, dövlət adamlarından ibarətdir. Mən bir prezident kimi, bu komissiyaya başçılıq edirəm. Bu komissiya 3-4 aydır ki, konstitusiya layihəsi üzərində işləyibdir. Nəhayət, biz bu işi bitirmişik və konstitusiya layihəsini mətbuata vermişik. Bu layihə qəzetlərdə dərc olunubdur, yayılıbdır. Oktyabr ayının sonuna qədər vətəndaşlar, siyasi partiyalar, elmi təşkilatlar, ictimai təşkilatlar, birliklər, hər bir kəs konstitusiya layihəsi haqqında öz fikirlərini deyə bilər – yəni hansı maddə ilə razıdır və ya razı deyil, nəyi əlavə etmək istəyir, nəyi çıxarmaq istəyir. Təkliflərin hamısı toplandıqdan sonra Konstitusiya Komissiyası bu ayın sonunda bir daha toplaşacaq və bunları təhlil edəcəkdir. Yararlı təklifləri, əlavələri, dəyişiklikləri edəcək və konstitusiya layihəsinin son variantını bir daha mətbuata verəcəkdir.

Bu, noyabrın 12-də olacaqdır. Yəni noyabrın 12-də seçki günü, eyni zamanda konstitusiyanın qəbul edilməsi, ümumxalq səsverməsi, referendumu günüdür. Ondan 10 gün öncə son layihə yenə də mətbuata veriləcəkdir. İnsanlar bu 10 gün içərisində həmin layihəni yenə də oxuyacaq və noyabrın 12-də ona kim istəsə səs verəcək, kim istəsə səs verməyəcəkdir. Bu layihəyə xalqımız səs versə, konstitusiyamız qəbul

olunacaqdır. Ona görə də noyabrın 12-si bizim üçün çox önəmli gündür. Həm yeni parlament seçiləcəkdir, həm də yeni konstitusiya qəbul olunacaqdır. Müstəqil – Azərbaycan Respublikasının hüquqi, demokratik bir dövlət yaratması üçün bunlar çox önəmli işlərdir. Biz bu işləri görürük.

**S u a l :** ABŞ prezidenti Bill Klinton ilə qarşıdakı görüşün əsas mövzusu barədə nə deyə bilərsiniz?

**C a v a b :** Bilirsiniz ki, Amerika Birləşmiş Ştatlarının prezidenti Bill Klinton ilə aramızda çox yaxşı əlaqələr yaranıbdır. Biz bir-birimizə məktublar yazıb göndəririk, onun təmsilçiləri mənim yanıma gəlir, mənim təmsilçilərimi o qəbul edir. Keçən il mən Nyu-Yorkda olarkən Bill Klintonla görüşdüm. Bizim çox maraqlı və çox əhəmiyyətli danışıqlarımız oldu. Biz indi Bill Klinton ilə yenə də görüşəcəyik. Bundan bir neçə gün öncə cənab Bill Klinton mənə bir məktub göndərmişdir. Bu məktubda Amerika-Azərbaycan əlaqələri haqqında geniş söhbət gedir, eyni zamanda Xəzər dənizinin Azərbaycan sektorundakı neft ehtiyatlarının müştərək istifadə olunması barədə və həmin neftin ixracı, yəni onun Qərbə aparılması haqqında bəhs olunur. Məktubda Azərbaycanda demokratiyanın inkişafı barədə də söhbət gedir. Mən həmin məktuba cavab verdim. Sonra cənab Bill Klintonun təmsilçisi cənab Bjezinski də Bakıya gəlmişdi. Mənim onunla da görüşlərim və danışıqlarım oldu. Cənab Bill Klintonun məktubunda əsas məsələlərdən biri də Ermənistan-Azərbaycan münaqişəsi barədə, yəni Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və Dağlıq Qarabağ problemi haqqında təkliflər, fikirlərdir.

Güman edirəm ki, bizim görüşümüzdə də bu məsələlər danışıqlarımızın əsas mövzusu olacaqdır.

**S u a l :** Azərbaycan neftinin Qərbə ixracında ABŞ-ın hər hansı bir mövqeyi varmı?

**C a v a b :** Mən bu gün sizə bildirmək istəyirəm ki, Azərbaycan neftinin ixracı haqqında oktyabrın 9-da çox əhəmiyyətli qərar qəbul etmişik. Siz bunu bilirsiniz. Bakıda xarici neft şirkətləri və Azərbaycan Dövlət Neft Şirkəti birgə konsorsium yaradıblar. Bilirsiniz ki, bir il bundan əvvəl, sentyabrın 20-də Azərbaycanda bu konsorsiumla böyük bir neft müqaviləsi imzaladıq. Bir ildir ki, konsorsium işləyir və bu konsorsiumun, bu müqavilənin fəaliyyəti nəticəsində artıq 1996-cı ilin sonunda ilkin neft çıxarılacaqdır. Neçə vaxtdır biz bu neftin ixracı yollarını araşdırırıq. Bunun bir çox variantları var idi. Ayrı-ayrı ölkələr öz maraqlarını göstərirdilər. Ancaq biz çox düşündük. Türkiyənin prezidenti, mənim əziz dostum, qardaşım, hörmətli Süleyman Dəmirəl və Türkiyənin baş naziri hörmətli xanım Tansu Çillər də bu barədə mənimlə danışıqlar aparmışlar. Mən bunları da nəzərə aldım. Cənab Bill Klinton da bu barədə öz fikirlərini demişdir. Mən onları da nəzərə aldım. Rusiyanın başçıları, xüsusən baş nazir cənab Çernomırdin də mənə bu barədə məktublar yazmışdır. Bunların hamısına baxıldı. Biz çox əhəmiyyətli bir qərar qəbul etdik. İki boru xətti barədə qərar qəbul olundu – biri Gürcüstandan Qara dənizə, o birisi Rusiyadan Qara dənizə. Bu qərarı Türkiyə də çox bəyənibdir. Bu, Türkiyənin də maraqlarını təmin edir. Bu qərar Qərbdə də çox bəyənilibdir. Biz də bunu çox əhəmiyyətli qərar hesab edirik.

Bu qərarın qəbul edilməsi asan iş deyildi. Onun qəbul edilməsi yolları çox çətin idi. Ancaq biz bu yolları keçdik və belə bir qərarı qəbul etdik.

**S u a l :** Bu sahədəki çətinliklər nədən ibarət idi?

**C a v a b :** Bunları biz özümüz bilirik. Bunları siz də bilirsiniz. Bu barədə siz bizdən çox yazırsınız, qəzetlərinizdə bəzən olan şeyləri, bəzən də olmayan şeyləri yazırsınız.

**S u a l :** İlkin neftin ixrac marşrutunun Türkiyə ərazisindən keçəcəyi yer barədə nə deyə bilərsiniz?

**C a v a b :** Bilirsiniz ki, boru xətti Ceyhana getməlidir. Bu, böyük boru xətti olacaqdır. İstanbul boğazından nəyi keçirəcəksiniz, nəyi keçirməyəcəksiniz – bu sizin öz işinizdir. Ancaq bizim məqsədimiz boru xəttini Türkiyədən Ceyhana keçirməkdir. Sizin də istəyiniz budur. Mən sizin arzunuza görə bunu dedim.

**S u a l :** Çeçenistan hadisələri barədə fikriniz necədir?

**C a v a b :** Bilirsiniz ki, Çeçenistanda çox ağır savaş gedir. Bu işə bütün dünya ictimaiyyəti, dünya dövlətləri qoşulubdur. Bu işlə ATƏT çox ciddi məşğuldur. Onlar bu problemləri həll edirlər. Bizim ora qatılmağımıza ehtiyac yoxdur. Bizim özümüzün elə problemlərimiz var ki... Əsas problemimiz Dağlıq Qarabağ problemi, Ermənistanın Azərbaycana qarşı təcavüzü və torpaqlarımızın işğal altında olmasıdır. Sizin bir milyondan artıq qardaşlarınız, bacılarınız qaçqın düşübdür. Azərbaycan torpaqlarının 20 faizi işğal olunubdur. Ermənistan təcavüzkardır. Bu bizim üçün əsas məsələdir. Bilirəm ki, Türkiyə də bu məsələdə Azər-

baycan kimi üzülür, bu işlə məşğul olur və biz sizinlə birlikdə, Türkiyə ilə birlikdə, digər dövlətlərlə birlikdə ATƏT-in Minsk qrupu çərçivəsində bu məsələni sülh yolu ilə həll etmək istəyirik.

Bilirsiniz ki, yeddi ildən artıqdır Ermənistanla Azərbaycan arasında müharibə gedir. Ancaq keçən il mayın 12-də Ermənistanla Azərbaycan arasında atəşkəs barədə saziş imzalanıb. İndi on yeddi aydır atəş yoxdur. Yəni qan tökülmür, vuruş yoxdur, savaş yoxdur. Bu, yeddi illik müharibədə, Ermənistan-Azərbaycan münaqişəsində ilk belə hadisədir.

Ancaq biz bu atəşkəsi məsələnin sülh yolu ilə həlli üçün əldə etmişik. Biz barış istəyirik. Müharibə aparmaq istəmirik. Lakin biz eyni zamanda, işğal olunmuş torpaqlarımızın tamamilə azad edilməsini istəyirik. Azərbaycanın ərazi bütövlüyünün, dövlət sərhədlərinin toxunulmazlığının təmin olunması, işğal edilmiş torpaqlarımızın qeyd-şərtsiz azad olunması və Azərbaycan vətəndaşlarının öz doğma yurdlarına qayıtması şərti ilə danışıqlar aparırıq və buna nail olmaq istəyirik.

Sağ olun, təşəkkür edirəm.



## BMT-nin 50 İLLİYİ İLƏ ƏLAQƏDAR YUBİLEY TƏNTƏNƏLƏRİ ZAMANI ABŞ-ın NÜFUZLU MƏTBUAT ORQANLARI VƏ İNFORMASİYA AGENTLİKLƏRİNİN MÜXBİRLƏRİNƏ MÜSAHİBƏ

*Nyu-York*
*24 oktyabr 1995-ci il*

**S u a l :** Prezident Klintonla görüşünüz necə keçdi? Azərbaycan öz müstəqilliyinin qorunub saxlanmasında, habelə neft məsələlərinin həllində ABŞ tərəfindən ehtiyac hiss etdiyi dəstəyi ala bildimi?

**C a v a b :** ABŞ prezidenti cənab Bill Klintonla mənim görüşüm və söhbətlərim, hesab edirəm ki, çox yaxşı keçdi. Mən bu görüşdən məmnunam. Söhbətlərimiz çox mehriban, qarşılıqli anlaşma və hörmət şəraitində keçdi. Həm Amerikanı, həm də Azərbaycanı maraqlandıran əsas məsələlər ətrafında fikir mübadiləsi apardıq.

Əsas mövzulardan biri Azərbaycana məxsus neft yataqlarının işlənilməsində ABŞ şirkətlərinin iştirakı, bir il bundan öncə imzalanmış neft müqaviləsinin əməli surətdə həyata keçirilməsi və ilkin neftin ixracı üçün boru kəmərlərinin marşrutu barədə qəbul edilmiş qərar idi. Cənab Bill Klinton bu sahədə Azərbaycanla olan əməkdaşlığa yüksək qiymət verdi. Xüsusən, ilkin neftin ixracı üçün, eyni zamanda iki marşrutun seçilməsi və həmin kəmərlərin istifadəyə verilməsi haqqında oktyabrın 9-da qəbul olunmuş qərarı çox yüksək qiymətləndirdi.

Bilirsiniz ki, bu ayın əvvəlində cənab Bill Klintonla bizim telefon danışığımız olmuşdur. Həmin söhbətimizdə də bu məsələlərə başlıca diqqət yetirmişdik. İndi artıq deyə bilərəm ki, bu sahədə qarşımızda duran məsələlər həll olunmuşdur.

Cənab Bill Klintonla danışıqlarımızın çox hissəsi Ermənistanla Azərbaycan arasındakı hərbi münaqişəyə son qoyulması və sülh yaranması ilə əlaqədar idi. Hesab edirəm ki, Amerika Birləşmiş Ştatları və ələlxüsus, şəxsən prezident cənab Bill Klinton bu məsələlərlə daha ciddi və daha yaxından məşğul olmağa başlayıblar. Danışıqlar zamanı bu barədə də fikir mübadiləsi aparıldı və sülhə doğru irəliləyiş üçün məsələnin mərhələlərlə həlli haqqında tam fikir eyniliyi oldu.

Mən bu gün səhər Ermənistan prezidenti cənab Levon Ter-Petrosyanla da görüşüb söhbət etmişəm. Bu görüş təkbətək oldu. Biz vəziyyətdən çıxmağın yolları barədə ikilikdə, şahidsiz, vasitəçisiz müzakirələr apardıq. Mən bu barədə cənab Bill Klintona ətraflı məlumat verdim. Cənab Bill Klintonla danışığımız və gəldiyimiz nəticə ondan ibarətdir ki, artıq müharibəyə son qoyulmalıdır.

Bilirsiniz ki, Ermənistan ilə Azərbaycan arasındakı münaqişə yeddi ildən çoxdur davam edir. Yeddi il gedən müharibədə biz ilk dəfə uzunmüddətli atəşkəs rejimi əldə etmişik. 1994-ci ilin mayında atəşkəs haqqında saziş imzalamışıq və on yeddi aydır ki, ona riayət edirik. Sizə bildirmək istəyirəm ki, dünya təcrübəsində və xüsusən silahlı münaqişələr tarixində, zənnimcə, ilk dəfədir ki, münaqişədə olan tərəflər heç bir vasitəçi, yəni xarici qüvvə, yaxud sülhyaratma qüvvələri olmadan atəşkəs rejimini qoruyub saxlayırlar.

Bu, nadir bir haldır və eyni zamanda onu göstərir ki, – mən bu barədə cənab Bill Klintona həm məlumat verdim, həm də fikrimi dedim – münaqişədə olan tərəflərin bir-birinə inamı hələ tam itməyibdir. Yəni hər iki tərəfi təmin edə biləcək şərtlər çərçivəsində böyük sülh əldə olunsa, onu qoruyub saxlamaq və uzunmüddətli etmək üçün çox yaxşı əsas var. Biz bu halı qiymətləndirməli və qorumalıyıq. Bu gün cənab Ter-Petrosyan da, mən də bizim mətbuat nümayəndələrinin qarşısında bəyan etdik ki, atəşkəs rejiminə bundan sonra da əməl edəcəyik.

Bir də qeyd edirəm, mən bu barədə cənab Bill Klintonla danışarkən biz bu məsələnin həll olunmasının yollarını araşdırdıq. Bu məsələnin həyata keçirilməsi üçün müəyyən təkliflər, yəni müəyyən prinsiplər hazırlanıbdır. Ancaq şübhəsiz ki, bunların üzərində hələ işləmək lazımdır. Biz, o cümlədən şəxsən mən, hesab edirik ki, – bu gün cənab Bill Klintona bunu bir daha dedim – böyük sülhə nail olmaq üçün birinci növbədə, işğal edilmiş torpaqların azad olunmasına başlanmalıdır.

Azərbaycan ərazisinin iyirmi faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş, bir milyondan artıq vətəndaşımız qaçqın düşmüşdür və onların əksəriyyəti çadırlarda yaşayır. Bu vəziyyətə son qoymaq lazımdır. Məsələni həll etmək üçün Ermənistan silahlı qüvvələri işğal olunmuş torpaqlardan çıxmalı və qaçqınlar öz yerlərinə qayıtmalıdırlar. Eyni zamanda nəqliyyat xətlərinin, başqa kommunikasiya vasitələrinin bərpasına başlanmalıdır. Nəhayət, Dağlıq Qarabağda olan ermənilərin təhlükəsizliyinin təmin edilməsi üçün şərait yaradılmalı,



Azərbaycan Respublikasının Konstitusiyası Dağlıq Qarabağa Azərbaycanın ərazisi çərçivəsində muxtariyyət statusu verməlidir.

Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı başlıca prinsipdir və mütləq bizim bütün işlərimizin əsasında dayanmalıdır. Bu məsələlərin hansı ardıcıllıqla və necə həll edilməsi barədə bundan sonra hələ iş gedəcəkdir. Ancaq danışıqlarımızın əsas məzmunu ondan ibarətdir ki, biz atəşin yenidən başlanmasına yol verməməliyik və mütləq böyük sülh əldə etməliyik. Amerika Birləşmiş Ştatları burada çox böyük və həlledici rol oynaya bilər.

Şübhəsiz ki, bunlar hamısı Azərbaycanın müstəqil dövlət kimi qorunub saxlanması üçün də böyük şərtdir. Azərbaycan iqtisadiyyat sahəsində Qərb şirkətləri, xüsusən ABŞ şirkətləri ilə artıq uzunmüddətli əməkdaşlığa başlayıbdır. Bizim imzaladığımız neft müqaviləsi otuz il müddətinə nəzərdə tutulmuşdur. Sizə məmnuniyyətlə deyə bilərəm ki, ötən bir il üçün müqavilədə nəzərdə tutulmuş plan tamamilə həyata keçirilib. 1996-cı ildə görüləcək işlər üçün neft şirkətləri 750 milyon dollar həcmində büdcə təsdiq ediblər. Nəzərdə tutulmuş iki neft kəməri gələn ilin sonunadək hazır olmalı, müqaviləyə əsasən ilkin neft hasil edilməlidir.

Ancaq bizim əməkdaşlığımızın hüdudları get-gedə genişlənir. Dünən mən Amerikanın «Mobil» şirkətinin prezidenti ilə görüşdüm. Bu şirkət neft konsorsiumuna daxil deyildir, lakin Azərbaycanın bir neçə neft yatağında iş görmək istəyir. Mən prinsip etibarilə buna razılıq verdim və onlar öz təkliflərini yaxın günlərdə mənə yazılı surətdə təqdim edəcəklər. Beləliklə, yenə də deyirəm, Amerika Birləşmiş Ştatlarının Azərbaycanla olan iqtisadi əlaqələri uzunmüddətlidir və hesab edirəm ki, bu əməkdaşlıq müvəffəqiyyətlə həyata keçirilərkən yeni-yeni imkanlar da yaranacaqdır. Mən bu əməkdaşlığın tərəfdarıyam, onu davam etdirmək üçün öz tərəfimdən bütün səyləri göstərəcəyəm.

**Sual:** Sizcə, Rusiya bu əməkdaşlığın davam etməsinə imkan verəcəkmi? Sizə elə gəlmirmi ki, ruslar elə vəziyyət yaradacaqlar ki, Şevardnadze kimi, Siz də ölkənizdən kənara çıxa bilməyəcəksiniz? Azərbaycan Rusiyanın təsirindən qoruna biləcəkmi?

**Cavab:** Bilirsiniz, vəziyyət elədir ki, mən də Azərbaycanda o qədər asan şəraitdə yaşamıram. Siz bilirsiniz ki, Azərbaycanda işlədiyim müddətdə orada iki dəfə dövlət çevrilişi üçün çox təhlükəli cəhd göstərilibdir. Onlardan biri elə keçən il mən Nyu-Yorkda olarkən hazırlan-

mışdı və mən Azərbaycana qayıtdıqdan iki gün sonra baş verdi. Yəqin eşitmişdiniz, mən Nyu-Yorkda olarkən, keçən il sentyabrın 30-da terrorçular Bakıda bizim iki nəfər çox görkəmli dövlət xadimimizi – Parlament sədrinin müavini Afiyəddin Cəlilovu və təhlükəsizlik üzrə Xüsusi İdarənin rəisi polkovnik Şəmsi Rəhimovu bir gündə qətlə yetirdilər. Mən o vaxt bu xəbəri Nyu-Yorkda olarkən aldım.

Bakıya gedərkən İstanbulda dayandım, çünki orada başqa təyyarəyə minirəm. Orada müxbirlərin bəziləri mənə hətta sual verirdilər, güman edirdilər ki, mən qorxacaq və artıq Azərbaycana qayıtmayacağam. Ancaq bu terrorlar, şübhəsiz ki, məni qorxuda bilməzdi. Mən Bakıya gəldim, lakin iki gün sonra dövlət çevrilişi cəhdi başlandı. Vəziyyət çox gərgin idi. Mən gecə televiziya ilə xalqa müraciət etməyə məcbur oldum. Yüz minlərlə adam ayağa qalxaraq məni, yəni dövləti qorudu. Çevriliş cəhdi edən cinayətkarların bir qismi həbs olunub, amma bir qismi qaçıbdır və indi Moskvada gizlənirlər.

Sonra, bu ilin martında mən Kopenhagenə getmişdim. Oradan qayıdarkən hava limanında məni terror vasitəsilə öldürüb yenə dövlət çevrilişi törətmək planları qurulmuşdu. Martın 12-də mən Kopenhagendən Bakıya qayıtdım. Doğrudur, hava limanında mənə qarşı terror edə bilmədilər, ancaq Azərbaycan bir həftə çox gərgin dövr yaşadı. Hətta bəzi xarici ölkələrin səfirlikləri öz əməkdaşlarını Bakıdan çıxarırdı. Çünki narahat idilər ki, burada dövlət çevrilişi, vətəndaş müharibəsi başlayar, öz əməkdaşlarının təhlükəsizliyini təmin edə bilməzlər. Mən çox çalışdım ki, bu çevriliş cəhdinin qarşısını sülh yolu ilə alım. O vaxt artıq bir çox qüvvələr, o cümlədən bir neçə xarici ölkədə yerləşən qüvvələr birləşmişdilər. Onlar prezidenti aradan götürüb Dövlət Şurası yaratmaq planı hazırlamışdılar.

Bunun da qarşısını aldıq. Düzdür, bu dəfə qan töküldü, ordumuzun bəzi əsgərləri həlak oldular, şəhid oldular, amma dövləti qoruyub saxladıq. Çevriliş cəhdi iştirakçılarından bəziləri həbs edildi, bəziləri isə qaçdılar. Onlar da xarici ölkələrdə, o cümlədən Moskvada yerləşirlər. Hələ də təminat yoxdur ki, mənə qarşı terror etməyəcəklər. Amma bu məni qorxutmur. Mən bunu Azərbaycanın bütün ictimaiyyətinə dəfələrlə demişəm. Ona görə də, siz dediyiniz kimi, Rusiya, yaxud başqası olsun, nə isə etmək istəsə, – ola bilər etsin – güman edirəm ki, biz dövlətimizi qoruyub saxlayacağıq, müstəqilliyimizi saxlayacağıq.



Mən bu gün Ukrayna prezidenti cənab Leonid Kuçma ilə görüşdüm. Cənab Leonid Kuçma Bakıda olarkən terrorçular körpünü partladıb həm məni, həm də Leonid Kuçmanı tələf etmək istəyirdilər. O vaxt bunun qarşısı alındı. Həmin körpünün altından 170 kiloqram partladıcı maddə çıxarıldı. Bunları oraya metal qutularda qoymuşdular və partlayış uzaqdan idarə olunmaqla törədilməli idi. Yenə deyirəm, bunun qarşısını aldıq. Cinayətkarların bir qismi həbs olunub. Dövlət çevrilişi etmək istəyənlərdən bir general indi Ukraynadadır. O, azərbaycanlıdır. Bu terror hərəkətı ilə onun əlaqəsi var. Ancaq sonra çıxıb Ukraynaya getmişdi. Biz onu orada həbs etmək istədik. Cənab Leonid Kuçma mənə dedi ki, o, bundan dərhal xəbər tutaraq qaçmışdır. İndi Moskvadadır. Amma onun arvadını həbs ediblər.

**S u a l :** Başqa sözlə desək, Moskva keçmişdə olduğu kimi, hələ də bu regiona təsir göstərməkdə davam etməkdədir və regionu öz təsir dairəsində saxlamaq niyyətindədir. Bu fikir doğrudurmu?

**C a v a b :** Bilirsinizmi, mən hər bir belə hadisəni Moskvanın ümumi siyasəti ilə bağlamaq istəmirəm. Belə cinayətkarların Moskvada sığınacaq tapmaları və rahat yaşayaraq Azərbaycana qarşı təxribat işləri görmələri, şübhəsiz ki, müəyyən fikirlər doğurur.

**S u a l :** Siz həmin adamların Moskvadan geri alınmasına, həbs olunmasına cəhd göstərmisinizmi?

**C a v a b :** Göstərmişik, ancaq bunlar bir nəticə verməmişdir. Bayaq dediyim kimi, hətta o generalı Ukraynada həbs etmək istədik, amma tez aradan çıxa bildi.

**S u a l :** Mən belə başa düşürəm ki, Azərbaycandan böyük neftin ixracı, Azərbaycan neftinin uzun müddət ərzində xarici bazarlara çatdırılması məsələsində Rusiya həlledici rol oynaya bilməyəcəkdir. Siz buna necə baxırsınız və bu məsələlər cari vəziyyətə necə təsir edir?

**C a v a b :** Bilirsiniz, heç bir şey demək olmaz ki, kim həlledici rol oynayacaq, kim oynamayacaq. Mən onu deyə bilərəm ki, biz öz siyasətimizdə sabitik. Sabit müstəqil siyasət aparırıq. Mən Azərbaycanı müstəqil dövlət kimi yaşatmağa çalışıram. Hesab edirəm ki, Azərbaycan xalqının tarixində müstəqillik qədər yüksək qiymətli heç bir şey yoxdur. Amma bu, asan deyil, çünki uzun illər başqa bir dövlətin tərkibində olmuş, yenidən müstəqillik qazanmışdır, eyni zamanda böyük təbii sərvətlərə malik olan Azərbaycanın müstəqil yaşamasına maneçilik törədən qüvvələr çoxdur. Amma bu maneələrə baxmayaraq, biz öz

müstəqilliyimizi qoruyacağıq. Ola bilər, başımıza yeni çətin hadisələr gəlsin, çünki bu yol çox çətin yoldur. Ancaq bizim iradəmiz dönməzdir. Güman edirəm ki, biz buna nail olacağıq.

**S u a l :** İlkin neftin ixracı üçün iki neft kəmərinin çəkilməsi haqqında qərara qayıdaraq, Sizə bir-iki sual vermək istəyirəm. Sizcə, Rusiya nefti Çeçenistandan necə apara biləcəkdir? İkincisi, Rusiya Şevardnadzeyə imkan verəcəkmi ki, o, Gürcüstandan bu kəməri çəkib qurtara bilsin? Nəhayət, Gürcüstandan keçəcək kəmərin maliyyələşdirilməsi məsələsi axıradək həll edilibmi?

**C a v a b :** Biz qərarımızı qəbul etmişik və onu yerinə yetirməyə çalışacağıq. Mən sizə dedim ki, bu asan olmayacaq. Ancaq mən belə fikirdəyəm ki, biz bunu həyata keçirəcəyik. Gürcüstandan keçəcək neft kəmərinin maliyyə məsələləri konsorsium tərəfindən həll olunacaqdır. Şevardnadze də çalışmalıdır, güman edirəm ki, birlikdə çalışacağıq.

**S u a l :** Əgər ona uzun ömür qismət olsa...

**C a v a b :** Bizim heç birimizin heç nəyə təminatımız yoxdur. Mənə qarşı olan terrorlar baş tutsaydı, çoxdan dünyadan getmişdim. Amma eyni zamanda bilmirəm ki, sabah nə olacaq. Bəlkə sabah bir terror aktı məni də dünyadan aparacaq. Amma bu, məni siyasi fəaliyyətimdən çəkindirmir.

**S u a l :** Sizcə, əgər Rusiya neft məsələsinin özü arzuladığı şəkildə həllinə tam nail ola bilməsə, münaqişə regionunda döyüşlərin yenidən başlanmasına çalışacaqmı? Onlar hərbi əməliyyatların yenidən başlanmasına nail ola bilərlərmi? Əgər belə cəhd olarsa, Sizcə, Amerika Birləşmiş Ştatları bunun qarşısını almaq üçün nə edə, hansı rol oynaya bilər? Çünki Qafqaz çox mürəkkəb regiondur.

**C a v a b :** Siz çox mürəkkəb suallar verirsiniz. Soruşursunuz ki, nə ola bilər və nə olarsa, onun qarşısı nə cür alına bilər. Çox şey ola bilər. Amma hər halda, hər dəfə baş verən təhlükənin, yaxud mənfi hadisənin qarşısının nə cür alınması bizim özümüzdən və bizə dost olan ölkələrin bizimlə əməkdaşlığından asılı olacaqdır.

**S u a l :** Cənab Prezident, mən Sizinlə prezident Bill Klinton arasında olan ikitərəfli görüşə qayıtmaq istəyirəm. Bildiyimizə görə, prezident Klinton ilkin neftin eyni zamanda iki kəmərlə ixrac olunması barədə Sizinlə müzakirələrə hələ əvvəlcədən başlamışdı və Siz indi bu haqda söhbətlərinizi davam etdirdiniz. Bəs Azərbaycanın qaçqınlarına yardım məsələsi ətrafında hansı söhbətləriniz oldu və Azərbaycana yardım göstərilməsini qadağan edən 907 nömrəli qərarın ləğvi barədə prezident Klinton Sizə bir şey təklif etdimi?



**C a v a b :** Çox yaxşı sual verdiniz, buna görə sizə təşəkkür edirəm. Biz bu məsələni cənab Bill Klintonla ətraflı müzakirə etdik. Onu demək istəyirəm ki, üç il bundan öncə Konqres Azərbaycana qarşı çox ədalətsiz bir qərar qəbul etmişdir. Mən hesab edirəm, Konqres indi artıq özü də başa düşür ki, bu, çox ədalətsiz qərardır. Birinci, onu bilmək lazımdır ki, bu qərar Azərbaycanı ağır vəziyyətə saldı, amma Azərbaycan diz çökmədi. Ona görə tarixi nöqteyi-nəzərdən bu qərar öz əhəmiyyətini itirib.

Mən bu gün cənab Bill Klintona dedim ki, siz bizim Qafqaz regionunda Gürcüstana, Ermənistana yardım edirsiniz, amma Azərbaycana etmirsiniz. Bu üç ölkədən Amerika ilə ən çox iqtisadi əməkdaşlıq edən Azərbaycandır. Belə olan halda, Azərbaycanın ərazisində bir milyondan artıq qaçqın olduğu halda böyük, ədalətli bir dövlət kimi, Amerika Gürcüstana, Ermənistana etdiyi yardım səviyyəsində, yaxud, heç olmasa, bunun yarısı həddində Azərbaycana da gərək yardım göstərəydi. Ancaq prezident Klintonun əlləri bağlıdır, Konqres onun qarşısında sədd qoyub və o bu səddi keçə bilmir. Mən hesab edirəm ki, cənab Bill Klinton da bu qərarın nə qədər ədalətsiz olduğunu hiss edir və etiraf edir. Amma ölkənizin qayda-qanunlarını siz məndən yaxşı bilirsiniz.

**S u a l :** Cənab Prezident, Klinton prezidentdir və bu qərar ədalətsizdirsə, onun aradan qaldırılması üçün mübarizə aparmalıdır.

**C a v a b :** Güman edirəm ki, mübarizə aparır, amma siz bilirsiniz ki, Konqreslə mübarizə aparmaq prezident üçün əsas məsələ deyildir. Bu sizin öz işlərinizdir. Ancaq mən hesab edirəm ki, cənab Bill Klinton belə bir vəziyyətin ədalətsiz olduğunu tamamilə etiraf edir. Cənab Klintonla biz həmin qərarın ləğvi üçün müəyyən əsaslar yaranması haqqında da fikir mübadiləsi apardıq. Arzu edərdim ki, siz mətbuat nümayəndələri də – Amerikada mətbuatın təsiri çox böyükdür – bizə bu işdə kömək edəsiniz. Sizə də müraciət edirəm: – Ədaləti müdafiə edin.

**S u a l :** Siz «Mobil» şirkətinin prezidenti ilə görüşdüyünüzü bildirdiniz. Bu şirkət konsorsiuma qoşulmağa maraq göstərdimi?

**C a v a b :** Yox, konsorsiumdan kənarda əməkdaşlıq etmək istəyir. Çünki konsorsium üç neft yatağının işlənməsi üçün yaradılıbdır. Bizim ayrı neft yataqlarımız da var. Məsələn, bu ayın axırında bir müqavilə

imzalayacağıq. Onu «Pennzoyl» şirkəti ilə imzalayacağıq. Ona görə «Mobil» də bizimlə müstəqil əməkdaşlıq etmək istəyir.

**S u a l :** Bir sıra mülahizələr də dolaşmaqdadır ki, «Tengiz» yatağından çıxarılacaq neftin Azərbaycandan çəkiləcək boru kəmərləri vasitəsilə ixrac olunması gözlənilir. Sizcə, bu variant hələ də qüvvədə qalırmı?

**C a v a b :** Bəli, orada «Şevron» şirkəti işləyir və o, «Tengiz» yatağından çıxarılacaq neftin bir hissəsini bizim neft kəməri ilə ixrac etmək barədə təşəbbüs göstərib.

**S u a l :** Sizcə, bu variant mümkün olacaqmı?

**C a v a b :** Olacaqdır, mən buna inanıram.

**S u a l :** İxrac olunacaq neftin həcmi barədə bir məlumat varmı?

**C a v a b :** Oradan nə qədər neft çıxarılması və bunun nə qədərinin bizim kəmərlə ixrac olunması onlardan asılıdır. Mən indi konkret rəqəm demək istəmirəm. Ancaq prinsip etibarilə biz buna razılıq vermişik.

**S u a l :** Cənab Prezident, bizi Azərbaycanda qarşıdakı parlament seçkiləri də maraqlandırır. Bu seçkilər ətrafında Siz prezident Bill Klintonla söhbət etdinizmi, söhbət zamanı bu məsələ qaldırıldımı? Azərbaycanda azad, ədalətli, demokratik parlament seçkiləri keçiriləcəkmi?

**C a v a b :** Bu barədə cənab Bill Klintonla bizim söhbətimiz olmadı. Mən belə başa düşdüm ki, cənab Bill Klintonun bu məsələyə dair bizə sualı yoxdur. Biz bu seçkiləri tam demokratik prinsiplər əsasında keçirməyə çalışırıq və buna çox səy göstəririk. Beynəlxalq təşkilatlardan, habelə Amerika Birləşmiş Ştatlarından seçkilərdə iştirak etmək üçün bir çox müşahidəçilər dəvət etmişik. Onların böyük bir qrupu uzun müddətdir ki, Azərbaycandadır. Amerika Birləşmiş Ştatlarının Milli Demokratiya İnstitutu, cənab Letskinin rəhbərlik etdiyi institut Bakıda artıq özünün ofisini açıbdır və onların nümayəndələri fəaliyyət göstərirlər. ATƏT-in numayəndəsi cənab Maykl Oks – o da Amerikadandır – öz qrupu ilə Bakıdadır. BMT-nin bir çox müşahidəçiləri də Bakıdadırlar.

Mən buraya gələndən iki gün öncə müşahidəçilərin hamısı ilə görüşdüm və dörd saat söhbət etdim. Onlar etiraf etdilər ki, heç vaxt belə hadisə ilə rastlaşmamışdılar ki, prezident müşahidəçilərlə bu qədər söhbət aparsın. Mən bəyan etdim ki, meydana çıxan mənfi halların hamısının qarşısı alınacaqdır. Seçkilərin demokratik keçirilməsi, hər bir



vətəndaşın, hər bir partiyanın öz hüquqları əsasında seçkilərdə iştirak etməsi üçün şərait yaradılıb və yaradılacaqdır. Müşahidəçilərlə görüşərkən həm Mərkəzi Seçki Komissiyasının sədrinə, həm də Ali Məhkəmənin sədrinə tövsiyələr verdim ki, bütün şikayətlərə çox ciddi baxsınlar. Dünən xanım Madlen Olbrayt ilə görüşərkən seçkilər barədə söhbətimiz oldu və mən bu məlumatı ona da verdim.

Sizinlə görüşməyimdən çox məmnunam, hər birinizi Azərbaycana dəvət edirəm. İstədiyiniz vaxt bizim qonağımız ola bilərsiniz. Sizə və ümumiyyətlə, jurnalistlərə, mətbuat işçilərinə hörmət və ehtiramımı bildirirəm. Buraya mənimlə də çoxlu mətbuat işçisi gəlmişdir. Onların əksəriyyəti müstəqil jurnalistlərdir, necə istəyirlərsə, o cür də yazırlar. Ancaq mən mətbuatı, jurnalistləri çox sevdiyimə görə həmişə səfərə gedəndə onları özümlə aparıram. Sağ olun.

## Sİ-EN-EN TELEŞİRKƏTİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ

*Nyu-York*
*25 oktyabr 1995-ci il*

**S u a l :** Cənab Prezident, Sizin həyatınız çox maraqlı olub. Siz Azərbaycanın tarixində müxtəlif hadisələrlə dolu olan və böyük dəyişikliklər gedən onilliklər dövrünü yaşamısınız. Azərbaycanın tam müstəqilliyinin və iqtisadiyyatının uğurla inkişaf etdirilməsi üçün daha hansı dəyişikliklərin həyata keçirilməsini arzu edərdiniz?

**C a v a b :** Birinci, onu demək istəyirəm ki, Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq mənim indi əsas vəzifəmdir. Bu sahədə çox iş görmək lazımdır. Çünki müstəqilliyi əldə etmək ola bilər çətindir, amma onu qoruyub saxlamaq və inkişaf etdirmək bundan da çətindir. Mən Azərbaycanın XX əsrdə keçdiyi tarixi yaxşı bildiyimə görə və onun bir çox hissəsində Azərbaycanda gedən proseslərin iştirakçısı olduğuma görə bunun nə qədər məsuliyyətli olduğunu dərk edirəm. Mənim məqsədim Azərbaycanı hüquqi, demokratik, sivilizasiyalı bir dövlətə çevirmək, Azərbaycanda bütün demokratik prinsiplərin inkişaf etməsi üçün imkanlar yaratmaqdır. Bunlar çoxsahəli işdir. Ancaq bünları etmək üçün Azərbaycan gərək öz müstəqilliyini qoruyub saxlasın.

Lakin bu məsələnin həll olunmasını mürəkkəbləşdirən ən böyük təsiredici cəhət Ermənistan tərəfindən Azərbaycana olan hərbi təcavüzdür. Bu təcavüz nəticəsində Azərbaycanın ərazisinin iyirmi faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. Həmin torpaqlardan bir milyon vətəndaşımız zorla çıxarılmışdır və onlar qaçqın vəziyyətində çadırlarda yaşayırlar. Biz indi hərbi əməliyyatları dayandırmışıq. Ermənistan ilə Azərbaycan arasında əldə olunmuş saziş əsasında on yeddi aydır ki, atəşkəs rejimində yaşayırıq. Ancaq mənim məqsədim böyük sülhə nail olmaqdan, Azərbaycanın ərazi bütövlüyünü təmin etməkdən ibarətdir. Məqsədimiz işğal olunmuş torpaqlarımızı azad etmək, oranın vətəndaşlarını öz yerlərinə-yurdlarına qaytarmaqdır.

Bununla yanaşı, Azərbaycanda iqtisadi islahatlar keçirmək ölkənin demokratiya yolu ilə getməsi üçün əsas şərtdir. Biz özəlləşdirmə proq-



ramı qəbul etmişik və onu həyata keçiririk, mülkiyyətin özəlləşdirilməsi ilə məşğuluq.

**S u a l :** Bazar iqtisadiyyatı münasibətlərinin qurulması çox çətindir. Ona görə ki, inzibati amirlik sistemindən bazar iqtisadiyyatına keçid dövrünü yaşayırsınız. Burada qarşıya çıxan ən böyük çətinliklər, ən böyük vəzifələr nədən ibarətdir?

**C a v a b :** Ən böyük çətinlik ondan ibarətdir ki, insanlar yetmiş il dövlət mülkiyyəti, inzibati amirlik üsul-idarəsi şəraitində yaşayıblar. İnsanların psixologiyasında dəyişiklik etmək lazımdır. Özəlləşdirmə aparmaq üçün gərək dövlət mülkiyyətində olan bütün müəssisələr özəlləşdirilsin. Amma bunu kim özəlləşdirəcək, kim öz vəsaiti ilə alacaq? Bu da böyük bir problemdir. Çünki qanun çərçivəsində vəsaiti olan insanlar indi azdır. Deməк, burada bəzi qanun pozuntuları da olacaqdır. Bunların qarşısını almaq lazımdır. Bir də sosial ədaləti təmin etmək lazımdır. Ona görə də özəlləşdirmə iqtisadi islahatların keçirilməsində bizim ən çətin problemimizdir.

**S u a l :** Ölkənizdə özəlləşdirmədə və digər dəyişikliklərin həyata keçirilməsində xarici dövlətlərin, Qərb dövlətləri və şirkətlərinin iştirakının təmin olunması nə qədər əhəmiyyət daşıyır?

**C a v a b :** Buna imkan veriləcəkdir. Amma xarici şirkətlər gəlib burada nə qədər iştirak edəcəklər – bunu hələ proqnozlaşdıra bilmərəm. Biz bu barədə böyük bir addım atmışıq. Bilirsiniz ki, Azərbaycanın neft yataqlarından müştərək istifadə olunması üçün Qərbin iri neft şirkətləri ilə böyük bir müqavilə imzalamışıq. Onlardan beşi – «AMOKO», «Eksson», «Pennzoyl», «YUNokal», «MakDermott» Amerikanın iri neft şirkətləridir. Başqa neft şirkətləri də var: «Bi-Pi», «Statoyl» «Delta», «LUKoyl», Türkiyə neft şirkəti. Azərbaycan iqtisadiyyatının əsasını neft təşkil edir. Biz otuz il müddətinə müqavilə imzalamışıq, müştərək iş görəcəyik. Bu, bazar iqtisadiyyatına, sərbəst iqtisadiyyata keçməyimiz üçün çox böyük bir addımdır. Siz eşitdiniz ki, biz bu günlərdə tarixi əhəmiyyət kəsb edən böyük bir qərar, yəni neftin ixracı ilə əlaqədar iki boru kəmərinin çəkilməsi haqqında qərar qəbul etdik. Qərb neft şirkətlərinin marağına tamamilə müvafiq olaraq bir neft kəmərini şimaldan – Rusiyadan, ikincisini isə Cürcüstandan keçirmək haqqında qərar qəbul etdik.

**S u a l :** Bildiyimə görə, prezident Klinton da Sizinlə əlaqə saxlayaraq iki kəmərin çəkilməsi ideyasını dəstəkləyibdir?

**C a v a b :** Bəli, o mənimlə telefonla danışmışdı. Bizim bir neçə məsələyə dair danışığımız oldu. O cümlədən, prezident cənab Bill Klinton iki neft kəmərinin çəkilməsinin məqsədə müvafiq olması haqqında öz fikrini bildirdi. Mən isə bu fikri həyata keçirdim. Yəni bu məsələdə bizim fikirlərimiz üst-üstə düşdü.

**S u a l :** Əgər bu kəmərlərdən biri müəyyən səbəblər üzündən dayandırılarsa, ikinci kəmərin olması Azərbaycanın müstəqilliyinin qorunub saxlanması üçün strateji əhəmiyyətə malik bir məsələdirmi?

**C a v a b :** Bəli, bu həm Azərbaycanın strateji maraqlarının qorunması üçün əhəmiyyətli bir məsələdir, eyni zamanda Qərb neft şirkətlərinin mənafeyinin təhlükəsizliyini təmin etməkdən ötrü əhəmiyyətli məsələdir.

**S u a l :** Xarici şirkətlər bu birgə neft layihəsindən nə zaman gəlir götürməyə başlayacaqlar? Yoxsa bu barədə danışmaq hələ tezdir?

**C a v a b :** Yox, tez deyil. İlkin neft 1996-cı ilin axırında hasil olunacaqdır. Bu iki neft kəməri də 1996-cı ilin sonunadək çəkilib qurtarmalıdır. 1996-cı ilin sonu – 1997-ci ildə neft artıq ixrac ediləcəkdir. Ancaq böyük neftin çıxarılması və ixracı təxminən dörd ildən sonra olacaqdır.

**S u a l :** Əsas neftin çıxarılması üçün əlavə investisiyalara ehtiyac duyulacaqmı, bu neftin hasil edilməsi çətin olacaqmı?

**C a v a b:** Yox, nə qədər vəsait sərf olunacağı müqavilədə göstərilmişdir. Oraya təqribən 8 milyard dollar vəsait qoyulmalıdır.

**S u a l :** Qərb şirkətləri bu nefti azad bazarda sata biləcəklərmi?

**C a v a b :** Bəli, bu neft onlarındır, harada istəsələr, orada da satacaqlar. Neft bölünəcəkdir, bir hissəsi Qərb şirkətlərinin, bir hissəsi isə Azərbaycanındır. Neft kəmərləri ona görə çəkilir ki, Qərb şirkətləri nefti ixrac edib istədikləri ölkəyə sata bilsinlər. Azərbaycan da öz payını ixrac edib satacaqdır.

**S u a l :** Cənab Prezident, Sizin regionda daha bir neft yatağı var ki, onun birgə istismarında Qərb şirkətləri iştirak edirlər. Mən «Tengiz» yatağını nəzərdə tuturam. Bu yataq ətrafında danışıqlar uzun müddət davam etməkdədir və hələlik nəzərəçarpacaq nəticələr əldə olunmayıb. Sizdə Azərbaycan neftinin çıxarılması və ixracında hər hansı problemlər gözlənilirmi? Yəni neftdən götürüləcək gəlirin bölüşdürülməsində, yaxud neftin ixracında hər hansı çətinliklər, problemlər ola bilərmi?



**C a v a b :** Elə bir problem yoxdur. Ancaq «Tengiz» yatağından çıxarılacaq neftin ixracı üçün Gürcüstandan keçəcək neft kəmərindən istifadə oluna bilər. Neft kəmərləri, xüsusən Gürcüstandan keçəcək neft kəməri haqqında qərarımız təkcə özümüz üçün yox, eyni zamanda Qazaxıstan neftinin – «Şevron» şirkətinin «Tengiz» yatağından çıxaracağı neftin ixracı üçün çox yararlı olacaqdır.

**M ü x b i r :** Cənab Prezident, biz Sizə bu neft işini uğurla başa çatdırmağı və ölkənizin müstəqilliyinin qorunub saxlanılmasında böyük müvəffəqiyyətlər arzulayırıq.

**C a v a b :** Təşəkkür edirəm. Ancaq sizinlə görüşümdən istifadə edib onu da demək istəyirəm ki, biz noyabrın 12-də müstəqil Azərbaycanın ilk Parlamentinə seçkilər keçirəcəyik. Sizin vasitənizlə dünyaya bildirmək istəyirəm ki, bu seçkilər tam demokratik şəraitdə keçiriləcəkdir. Bütün partiyaların, bütün vətəndaşların bu seçkilərdə iştirak etmələri üçün imkanlar yaradılıbdır, hər bir vətəndaşın, hər bir partiyanın hüququ qorunacaqdır. Bu da demokratiya yolunda bizim atdığımız böyük bir addımdır. Noyabrın 12-də biz ümumxalq referendumu vasitəsilə Azərbaycanın yeni, demokratik konstitusiyasını qəbul edəcəyik. Güman edirəm, bunlar hamısı Azərbaycan Respublikasında demokratiyanın nə cür inkişaf etməsi haqqında sizin dinləyicilərdə yaxşı təəssürat yarada bilər.

**M ü x b i r :** Cənab Prezident, mən əminəm ki, sizdə keçiriləcək parlament seçkilərini dünya çox maraqla, diqqətlə izləyir. Sizə bir daha müvəffəqiyyət arzulayıram. Sağ olun.

**H e y d ə r Ə l i y e v :** Təşəkkür edirəm.

## 28 SAYLI SƏBAİL SEÇKİ DAİRƏSİNİN 17 SAYLI SEÇKİ MƏNTƏQƏSİNDƏ SƏS VERDİKDƏN SONRA JURNALİSTLƏRLƏ GÖRÜŞDƏ BƏYANAT

*12 noyabr 1995-ci il*

Birincisi, mən sizi – Azərbaycanın böyük jurnalist ordusunu və respublikamıza gəlmiş bütün jurnalistləri təbrik edirəm. Azərbaycanın bu tarixi günündə fəaliyyətinizə görə sizə təşəkkür edirəm. Mən bilirəm ki, jurnalistlərin işi ağır və çətin işdir. Ona görə də sizə təşəkkürümü bildirirəm. İkincisi, onu bildirmək istəyirəm ki, bu gün xalqımızın, müstəqil Azərbaycan Respublikasının tarixində çox əlamətdar bir gündür və həqiqətən bayramdır. Çünki bu gün müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyası qəbul olunur və ümumxalq referendumu keçirilir.

Azərbaycan xalqı əsrlər boyu böyük mərhələlərdən keçib və nəhayət, öz dövlət müstəqilliyinə, milli azadlığına nail olub, ilk dəfədir ki, sərbəst, müstəqil surətdə, heç bir mərkəzdən, heç bir dairədən asılı olmayaraq, özü öz taleyinin sahibi olaraq öz konstitusiyasını yaradır. Həm dövlətinin təsisatlarını yaratmaq, həm vətəndaşlarının hüquqlarını, azadlıqlarını təmin etmək üçün, həm də müstəqil dövlətin dövlətçiliyinin qorunub saxlanması, möhkəmlənməsi, inkişaf etməsi üçün tarixi bir sənəd yaradır. Bu, böyük hadisədir. Ona görə mən bu gün böyük iftixar hissi keçirirəm ki, xalqımız, dövlətimiz, cəmiyyətimiz gəlib bu səviyyəyə çatıbdır. Mən çox məmnunam ki, bu konstitusiyanın layihəsinin hazırlanması üçün təşkil olunmuş komissiya çox çalışıb və mən də bu komissiyanın sədri kimi, bu barədə əlimdən gələni etmişəm, öz xidmətlərimi göstərmişəm.

Bu gün eyni zamanda, müstəqil Azərbaycan Respublikasının Parlamentinə – Milli Məclisinə ilk seçkilər keçirilir. Keçmişdə bizim konstitusiyamız da, parlamentimiz də olubdur. Bunların hamısına bu gün mən öz hörmət və ehtiramımı bildirirəm. Bu bizim tariximizin səhifələri, mərhələləridir və onların heç birisini gözdən salmaq, unutmaq lazım deyil. Tariximiz bizim tariximizdir, bizimkidir. Ancaq bu gün biz yeni mərhələdəyik, müstəqil dövlətik. Yenə də deyirəm, Azərbaycan xalqı



artıq özü öz taleyini həll etmək hüququna malik olubdur. Ona görə də Azərbaycanın yeni parlamentinin seçilməsi tarixi bir hadisədir. Müstəqil Azərbaycan özünün qanunvericilik orqanını – parlamentini seçir. Bu parlament seçkiləri tam demokratik prinsiplər əsasında keçirilir.

Mən hesab edirəm ki, biz konstitusiya layihəsini hazırlamamışdan əvvəl parlament seçkilərinin keçirilməsinə dair qanun hazırlayıb, vaxtında müzakirəyə verib, onun əsasında seçkilərin aparılması üçün addımlar atarkən çox düzgün iş gördük. Biz seçkilərin keçirilməsi üçün çox demokratik prinsiplərə söykənən bir qanun qəbul etdik və ondan sonra bu qanun əsasında seçkilərin hazırlanması ilə məşğul olduq. İndi nəhayət, bu seçkilər keçirilir.

Mən daim bu fikirləri söyləmişəm və bu gün də bu fikirlərlə yaşayıram ki, bu seçkilər demokratik prinsiplər əsasında olmalıdır, xalqın iradəsinin nəticəsi olmalıdır. Hər bir vətəndaş öz fikrini, rəyini, istəyini sərbəst bildirməlidir. Kimə səs vermək istəyir – bu vətəndaşın öz hüququdur, vətəndaş bunu özü müəyyən etməlidir. Mən bir prezident, dövlət başçısı kimi, bax bu şəraitin yaranması üçün çalışmışam, əlimdən gələni etmişəm və arzu edirəm ki, mənim bu səylərim öz nəticəsini versin, bugünkü seçkilər tam demokratik prinsiplər əsasında keçsin. Buna nə qədər nail olacağıq – bunu seçkilərin nəticəsi göstərəcəkdir. Mən heç bir şeyi ideallaşdırmaq istəmirəm. Dünyada ideal bir şeyə çatmaq çox çətindir. Ancaq biz bu seçkilərdə demokratiya yolunda, insan azadlığı, insanların sərbəstliyi yolunda böyük bir addım atmış olsaq, bu bizim tarixi nailiyyətimiz olacaqdır. Mən bu ümidlərlə, bu arzularla yaşayıram. Bu ümidlərlə, bu arzularla da buraya gəlmişəm və öz səsimi istədiyim adama vermişəm.

Buradakı jurnalistlərin arzusunu nəzərə alaraq, mən bəzi şeyləri rus dilində də demək istəyirəm. Mən bugünkü günü tarixi bir gün sayıram. Çünki Azərbaycan xalqının, Azərbaycan dövlətinin, Azərbaycan Respublikasının bütün tarixi ərzində ilk dəfə olaraq, öz məsələlərimizi müstəqil, suveren şəkildə həll etmək imkanına malikik və bu zəmin əsasında yeni konstitusiyanın – müstəqil, suveren Azərbaycanın Konstitusiyasının layihəsini hazırlaya bilmişik. Mənim fikrimcə, bu layihə demokratik prinsipləri əks etdirən sənəddir. Biz demokratiya, dövlətçilik istiqamətində, müstəqil dövlət qurmaq sahəsində böyük yol keçmiş ölkələrin konstitusiya yaratmaq, konstitusiya inkişafı təcrübəsindən istifadə etməyə çalışmışıq. Bir çox ölkələrin, o cümlədən Qərb ölkələri-

nin, MDB-yə daxil olan ölkələrin konstitusiyalarını çox diqqətlə öyrənmişik. Təbii ki, həm də tarixi, milli adət və ənənələri əsas tutaraq, milli və tarixi keçmişimizə dərin hörmətimizi ifadə edərək, öz konstitusiyamızın layihəsini hazırlamışıq. Bu bizim, müstəqil Azərbaycanın Konstitusiyasıdır və belə hesab edirəm ki, dünya təcrübəsində olan bir çox şeyləri əks etdirsə də, heç bir başqa konstitusiyaya bənzəmir. Bu bizim konstitusiyamız, Azərbaycanın Konstitusiyasıdır və mən bunu çox mühüm, tarixi nailiyyət hesab edirəm. Bu konstitusiyanın yaradılmasına öz töhfəmi verməyə imkanım olduğuna görə sevinir və özümü xoşbəxt sayıram. Ümidvaram ki, bu konstitusiya uzunömürlü olacaq və bir çox illər, onilliklər ərzində Azərbaycan Respublikasının, Azərbaycan xalqının demokratiya yolu ilə, hüquqi demokratik dövlət quruculuğu yolu ilə inamla irəliləyişini, inkişafını müəyyən edəcəkdir.

Parlament seçkilərinin keçirilməsi konstitusiyanın müddəalarının əməli surətdə reallaşdırılması deməkdir. Mühüm cəhət bundan ibarətdir ki, biz konstitusiya layihəsi ilə paralel olaraq, seçkilər haqqında qanunun layihəsini hazırlaya və onu qəbul edə bildik. Parlament seçkiləri haqqında qanun konstitusiyanın bir hissəsidir, lakin biz bunu vaxtında hazırlayıb, həyata keçirilməsinə başlaya bildik. Seçkiləri keçirmək üçün böyük hazırlıq işi görülmüşdür. Nəhayət, bu gün, noyabrın 12-də biz konstitusiya layihəsinə münasibətimizi bildirmək üçün referenduma gəlmişik və əminəm ki, xalqın böyük əksəriyyəti bu layihəni dəstəkləyəcək, konstitusiya bu gün qəbul olunacaqdır. Təbii ki, xalq həm də Azərbaycanın yeni parlamentində təmsil olunmaq hüququ qazanmaq üçün irəli sürülmüş namizədlərə öz münasibətini bildirəcəkdir.

Çalışmışıq, mümkün olan hər şeyi etmişik ki, seçkilərə hazırlıq işləri demokratiya prinsiplərinə tam uyğun gəlsin. Ürəkdən arzu edirik ki, seçkilər demokratik keçirilsin, bütün demokratik prinsiplərə əməl olunsun. Birmandatlı dairələrdə 100 yerə təqribən 400 namizədin olması, seçkilərdə 8 siyasi partiyanın iştirak etməsi və bunların hər birinin 25 namizəd, yəni bütövlükdə 200 namizəd irəli sürməsi, beləliklə də, indi ümumilikdə 600 nəfər namizədin səsə qoyulması faktının özü Azərbaycandan ötrü, zənnimcə, böyük nailiyyətdir. Mən çox istəyirəm ki, hər bir vətəndaş, səs verən hər bir seçici həm konstitusiya layihəsinə, həm də müvafiq dairələrdə səsə qoyulmuş namizədlərə öz münasibətlərini sərbəst, müstəqil surətdə ifadə edə bilsin. Mən bunu ürəkdən arzulayıram.



Mən – prezidentəm, müstəqil Azərbaycan dövlətinin, Azərbaycan Respublikasının prezidentiyəm, öz xalqımı demokratiya, azadlıq yolu ilə, bazar iqtisadiyyatı yolu ilə, sivilizasiyalı yolla inamla aparmaq istəyirəm. Bundan ötrü layiqli parlamentin, cəmiyyətimizin bütün çalarlarını əks etdirən, layiqli adamlardan ibarət parlamentin, respublikamızın qarşısında duran nəhəng vəzifələrin birlikdə həyata keçirilməsində bir prezident kimi, mənə layiqli tərəfdar olacaq ali qanunverici orqanın olması çox mühümdür. Ona görə mən ümidvaram, istəyirəm ki, bu gün Azərbaycanda demokratiya tam şəkildə özünü göstərsin. Buna nə dərəcədə nail ola biləcəyimiz seçicilərdən asılıdır. Mənə qaldıqda isə, mən öz işimi gördüm, səs verdim. Öz işimi həm də o mənada gördüm ki, konstitusiya komissiyasının sədri kimi, vəzifəmi yerinə yetirdim və komissiyanın bütün üzvləri ilə birlikdə konstitusiyamızın layihəsini hazırlayaraq xalqın müzakirəsinə verdik. Həm də konstitusiya komissiyasının sədri kimi, seçkilər haqqında qanunun layihəsinin hazırlanması prosesinə rəhbərlik etmişəm və bu qanun parlament seçkiləri haqqında dünyanın bütün demokratik prinsiplərinə tamamilə cavab verir. Bizim Mərkəzi Seçki Komissiyası seçki kampaniyasının keçirilməsi üçün mümkün olan hər şeyi etmişdir. Bu baxımdan mən öz işimi görmüşəm.

Qarşıda isə mənim işlərim çoxdur. Ümidvaram ki, bugünkü gün respublikanın, xalqın, o cümlədən bir prezident kimi, mənim qarşımda duran vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün böyük perspektivlər açır.

**S u a l :** Hörmətli Prezident, konstitusiya layihəsində dövlət dilinin Azərbaycan dili yazılması hansı siyasi məqsəddən irəli gəlir?

**C a v a b :** Bu, siyası məqsəd deyil. Bu, Azərbaycan dilinin keçdiyi tarixi yolun əsasında olan bir şeydir. Bizim dilimiz Azərbaycan dilidir, biz azərbaycanlıyıq, respublikamız Azərbaycandır. Ancaq tarix, dilçilik elmi nöqteyi-nəzərindən Azərbaycan dili dünyada mövcud olan türk dilləri qrupuna daxildir. Ona görə ki, Azərbaycan dilinin mənşəyi türk dilləri kökündən gəlir. Amma dünyada türk dilləri qrupu çox böyükdür. Keçmiş Sovetlər İttifaqının ərazisində bu qrupa daxil olan 23 dilin hərəsinin müstəqil adı var, amma hamısı türk dilləri qrupuna mənsubdur. Bunlardan biri də Azərbaycan dilidir. Mənşəyimiz, kökümüz də, şübhəsiz ki, türk kökündən gəlibdir. Dilimiz isə Azərbaycan dilidir.

**S u a l :** Cənab Prezident, müxalifətin seçkilərə münasibətini necə qiymətləndirirsiniz?

**C a v a b :** Necə qiymətləndirə bilərəm? Müxalifət, yəqin ki, seçkilərdə, səsvermədə öz münasibətini bildirəcəkdir. Kim nə münasibət istəyir bildirsin, hamı müstəqildir, sərbəstdir.

**S u a l :** Müxalifət qüvvələri hesab edirlər ki, seçkilər antidemokratik şəraitdə keçəcək...

**C a v a b :** Bilirsiniz, hər kəs öz sözünü, öz fikrini deməkdə sərbəstdir. Ancaq bu o demək deyil ki, hər kəsin dediyi söz qanundur, yaxud, necə deyərlər, mütləq həqiqətdir. Xeyr. O deyə bilər «antidemokratikdir», amma xalqın əksəriyyəti nə deyir? Əgər xalqın əksəriyyəti bununla razı deyilsə, demək, onun fikri düzgün deyil. Məsələn, mən srağagün Konstitusiya Komissiyasının iclasında da dedim. Srağagün səhər Müsavat Partiyasının qəzetini oxudum, orada yazırlar, xalqa müraciət edirlər ki, «siz konstitusiyanın ümumxalq referendumuna getməyin, səs verməyin». Bunun özü antidemokratik bir çağırışdır. Çünki əgər Müsavat Partiyası və onun qəzeti demokratik yolda durursa, o deməlidir ki, «sən get, amma istədiyin səsi ver» . Ancaq o deyir ki, «sən seçkiyə getmə və bu konstitusiyaya səs vermə».

İkincisi, mən bunu iki gün əvvəl də demişəm, bu gün də demək istəyirəm: əgər Müsavat Partiyası bu konstitusiyanı Azərbaycan üçün münasib, demokratik hesab etmirsə, – Konstitusiya Komissiyası altı aydır işləyir – bu altı ay müddətində özü hansı layihəni təqdim edibdir? Əgər o bundan fərqli, bundan demokratik, xalqımız üçün bundan yararlı bir layihə təqdim etsəydi və o rədd edilsəydi, yaxud onun müəyyən maddələri qəbul olunmasaydı, onda bəlkə də belə bir çağırışa müəyyən qədər əsas ola bilərdi. Ancaq mən güman edirəm ki, bu cür çağırışlar həm onların özlərinin antidemokratik olduğunu göstərir, həm də, mən tam əminəm ki, bu, xalq tərəfindən qəbul olunmayan bir şeydir.

**S u a l :** Hörmətli Prezident, Konstitusiya Komissiyasını konstitusiya layihəsinin bir çox müddəalarında respublika prezidentinə guya hədsiz səlahiyyətlər verməkdə ittiham edirlər. Bu məsələyə münasibətinizi bilmək istərdik.

**C a v a b :** Bilirsiniz, bizi heç kəs ittiham edə bilməz. Konstitusiya Komissiyasında prezidentə verilən səlahiyyətlər dünyanın inkişaf etmiş dövlətlərinin, böyük demokratiya yolu keçmiş dövlətlərin konstitusiyalarında əks olunanlardır. Bəlkə bəzilərində bundan da çoxdur. Mən sizə deyə bilərəm ki, məsələn, Müstəqil Dövlətlər Birliyinə daxil olan dövlətlərin –Rusiyanın, başqa dövlətlərin qəbul etdikləri konstitusiyalarda parlamenti buraxmaq barədə prezidentə səlahiyyət verilibdir. Ancaq Azərbaycan Konstitusiyasında prezidentə bu səlahiyyət verilməyibdir. Prezident parlamenti buraxa bilməz. Bəs bu, demokratiya deyilmi? Bu onu göstərmirmi ki, prezidentə həddindən artıq səlahiyyət verilməyibdir?



**S u a l :** Hörmətli Prezident, deyə bilərsinizmi ki, Siz kimə səs verdiniz?

**C a v a b :** Çox istəyirsiniz ki, deyim? Mən gizlətmirəm. Ömər Eldarova səs vermişəm. Çünki o, böyük heykəltəraşdır, Azərbaycanın böyük simasıdır. Mən istərdim ki, Azərbaycan parlamentində belə dəyərli insanlar olsun. Onun yaratdığı heykəlləri, abidələri Azərbaycanın çox yerində görə bilərsiniz. 500 illiyini bu il qeyd edəcəyimiz Füzulinin də heykəlini o, böyük ustalıqla, böyük sevgi ilə yaradıbdır. 1938-ci ildə repressiya qurbanı olmuş Hüseyn Cavidin də heykəlini yaradıbdır, bir çox başqa heykəllər də yaradıbdır. Böyük alimdir, böyük sənətkardır, böyük heykəltəraşdır, mən ona səs vermişəm.

**S u a l :** Cənab Prezident, yeni konstitusiya Sizə Dağlıq Qarabağ problemini həll etmək imkanı verəcəkmi?

**C a v a b :** Verəcək. Çünki yeni konstitusiyamız Azərbaycanda demokratik dövlətin yaranması üçün əsas olduğuna, demokratiya yolu ilə getdiyimizə görə, güman edirəm, dünya ictimaiyyəti də və dünyanın demokratiya yolu ilə gedən dövlətləri də, beynəlxalq təşkilatlar da demokratik əsaslarla, tam müstəqil, heç bir dövlətdən asılı olmayan dövlətimizi qurduğumuza görə və onun üçün əsas yaratdığımıza görə, şübhəsiz, inanacaqlar ki, biz Dağlıq Qarabağda olan ermənilərin hüquqlarını heç vaxt pozmayacağıq, onlar Azərbaycanın vətəndaşları kimi, respublikamızın tərkibində sərbəst yaşayacaqlar. Ancaq eyni zamanda, bu konstitusiya Azərbaycanın ərazi bütövlüyünün tam təmin olunmasına əsas verən bir sənəddir. Azərbaycan ərazisinin bölünməzliyini dünyada bir daha təsdiq edən, Azərbaycanda hakimiyyətin hansı bir qrup tərəfindən olursa-olsun, mənimsənilməsinin qarşısını alan bir sənəddir. Ona görə də bu bizim Qarabağ məsələsini, Ermənistanla Azərbaycan arasında olan münaqişə məsələsini də həll etməyə kömək edəcəkdir.

**S u a l :** Yeni seçkilərdən sonra Azərbaycanla Türkiyə arasındakı münasibətlərdə bir dəyişiklik olacaqdırmı?

**C a v a b :** Biz Türkiyə ilə qardaşlıq, dostluq əlaqələrini bundan sonra da davam etdirəcəyik. Mənim əziz dostum, qardaşım Süleyman

Dəmirəl ilə iki gün bundan əvvəl telefonla danışmışam. Mən onu Azərbaycana dəvət etmişəm. Bu seçkilərdən, konstitusiya qəbul edildikdən sonra Süleyman Dəmirəlin Azərbaycana rəsmi səfəri gözlənilir. Biz aramızda olan dostluq və qardaşlıq əlaqələrini bu və başqa addımlarla daha da möhkəmləndirəcəyik.

**M ü x b i r :** Cənab Prezident, «Çeşmə»çiləri bağışladığınıza görə təşəkkürümüzü bildiririk.

**H e y d ə r  Ə l i y e v :** Siz bunu niyə belə yavaş deyirsiniz? Bir az bərk deyin, qoy hamı eşitsin. Bəli, gizli bir «Çeşmə» qəzeti var, onun rəhbərləri, onu yaradanlar altı nəfərdir, onlar həbs olunmuşlar, məhkəmə onlara cəza vermişdi. Onların valideynləri, ailə üzvləri də, bəzi jurnalistlər də mənə müraciət etmişdilər. Doğrudur, başım çox qarışıq idi, işim çox idi. Amma işimin çox olmağına baxmayaraq, dünən mən bu məsələni araşdırdım. Məhkəmənin hökmünə də baxdım, prokuroru da çağırdım, başqa adamlarla da söhbət etdim.

Birincisi, gördüm ki, onlar ədalətli cəzalandırılıblar. Çünki, bilirsiniz, gəlin öyrənək. Tənqid lazımdır. Müxalifət hakimiyyəti tənqid edə bilər və etməlidir. Müxalifət olmalıdır. Biz tənqidsiz yaşaya bilmərik. Müxalifət qəzetlərində, yaxud dövlət qəzetlərində, başqa jurnalistlərin tənqidi fikirlərini mən çox hörmətlə qarşılayıram. Çünki hər bir tənqidi fikirdə müəyyən bir nöqsanın aşkara çıxmasına və onun düzəldilməsinə şərait yaranırsa, bu bizə köməkdir.

Ancaq tənqidin həddini keçib böhtanla məşğul olmaq və təhqirə keçmək heç bir kəsə yaramaz. Həqiqətən, jurnalistlər də gərək çalışsınlar ki, özləri özlərini hörmətdən salmasınlar. Gərək jurnalistlər tərbiyəli, ziyalı jurnalistlər olsun, hər şeyin həddini həqiqətən bilənlər olsun. Cılızlıqla, yaxud böhtanla hansısa bir sözün guya kəsərini artırmaq, yaxud hansı bir yalanla, təhqirlə dediyi sözün kəsərini artırmaq mümkün deyil. Bilin, inanın, mən dünya görmüş adamam – bunlar əhəmiyyətsiz şeydir.

İndi bunlar gəncdirlər, yəqin hesab ediblər ki, bu cür təhqir, böhtan sözləri ilə nəyəsə nail ola bilərlər. Gedib düşüblər cəzaya və cəzaları da ədalətlidir. Mən dunən bunu araşdırdım, məhkəməni də, prokuroru da çağırdım. Ancaq bunlara baxmayaraq, mən o gənclərin cavanlığını nəzərə alaraq onları bağışlamaq haqqında fərman verdim.

Məsələn, həmin adamlardan birinin atası Ağdamdan qaçqın düşmüş adamdır. Qaçqın vəziyyətində yaşayır. Mən baxıram – o, sadə bir kişidir, insandır. Özü də mənə deyir ki, bilirsiniz, mənim oğlum həbs olunmamışdan on gün qabaq bir türk jurnalistinin Sizin haqqınızda yazdığı kitabı gətirib qiymətli hədiyyə kimi, ad günümdə mənə verdi. Bir türk jurnalisti mənim haqqımda türk dilində xırda bir kitab yazıb, deyir ki, oğlum mənim ad günümdə gətirib dedi ki, mən Heydər Əliyev haqqında olan bu kitabı sənə hədiyyə verirəm. Amma bilmirəm, sonra necə olub ki, o gedib bu yola düşüb.



Mən gördüm ki, onun atası nə qədər sadə, nə qədər təmiz ürəkli bir adamdır. Dünən o birisilərin də ailə üzvləri ilə görüşdüm, danışdım. Doğrudan da yaxşı insanlardır və mənim onlara da, həbsxanada olanlara da rəhmim gəldi. Onları əfv etdim. Güman edirəm ki, məhkəmə də düz edib, mən də düz eləmişəm.

**S u a l :** Cənab Prezident, yeni parlamentdən nə gözləyirsiniz?

**C a v a b :** Mən yeni parlamentdən güclü fəaliyyət, yeni qanunların qəbul olunmasını gözləyirəm. Azərbaycanda qanunvericilik işlərinin güclənməsini gözləyirəm.

**S u a l :** Konstitusiyada Naxçıvana muxtar dövlət statusu verilməsi nə ilə əlaqədardır? Belə bir müxalif fikir var ki, bu Dağlıq Qarabağa analoji status vermək məqsədi güdür.

**C a v a b :** Elmira xanım, iki gün bundan əvvəl mən konstitusiya komissiyasındakı çıxışımda bu barədə dedim, bir də deyirəm: bu fikirlər araqarışdırıcı fikirlərdir. Naxçıvanın muxtar statusu beynəlxalq müqavilələr əsasında 20-ci illərin əvvəlində verilibdir və buna tam əsas var. Dünyanın ünitar dövlətlərinin çoxunun tərkibində muxtar qurumlar var. Onlardan biri də Azərbaycan dövlətidir, Azərbaycanın da içində Naxçıvan Muxtar Respublikasıdır.

**S u a l :** Yəni bu, Dağlıq Qarabağa hər hansı bir status vermək məqsədi güdmür?

**C a v a b :** Bilirsiniz, mən sizə açıq deyirəm. Nə cür fikirləşirsiniz ki, Dağlıq Qarabağa heç bir status verilə bilməz? Nə veriləcək – bu günün mövzusu deyil. Ancaq heç kəs – meydanda qışqıran ağılsız adamlar fikirləşməsin ki, «gəlin, Dağlıq Qarabağı da dağıdaq, bütün ermeniləri də qıraq». Bu, yaramaz bir fikirdir. Elə bu cılız fikirlərin nəticəsində də Azərbaycan belə vəziyyətə düşdü.

Azərbaycan milliyyətindən, dilindən, dinindən, irqindən asılı olmayaraq Azərbaycanda yaşayan bütün insanların vətənidir. O cümlədən Dağlıq Qarabağda yaşayan ermənilərin də vətənidir. Dağlıq Qara-

bağda yaşayan ermənilər əgər bu təcavüzkar, separatçı hərəkətlərindən əl çəksələr və Ermənistan Respublikası bu hərbi təcavüzdən əl çəksə, bizim şərtlərimiz qəbul olunsa, Azərbaycanın tərkibində Dağlıq Qarabağ yaşayacaq və Dağlıq Qarabağa müvafiq status veriləcək, Ermənistanla Azərbaycan arasında normal əlaqələr yaraqacaqdır.

Mən Avropadan gələn müşahidəçilər, o cümlədən Fransanın Milli Məclisi sədrinin müavini və başqaları ilə dünən danışırdım. Fransa Almaniya ilə neçə il müharibə elədi. Fransa Böyük Britaniya ilə neçə il müharibə elədi. İndi bir-biri ilə dost dövlətdirlər və bir ittifaqa daxildirlər. Bu tarix gözünüzün qabağındadır. Kim hesab edirsə ki, biz Ermənistanla əbədi düşmən olacağıq, yaxud əbədi olaraq dava edəcəyik – bu böyük səhvdir. Dünya tarixi bunu göstərir.

Rusiya ilə, yaxud Sovet İttifaqı ilə Almaniya arasında böyük müharibə oldu. 50 il keçəndən sonra Almaniyanın, Rusiyanın, Amerikanın, Fransanın başçıları Moskvada bir-biri ilə öpüşürdülər. Hitler – faşist Almaniyası Fransanı dörd il işğal etdi. Fransa Milli Məclisi sədrinin müavini dünən mənimlə danışarkən dedi ki, faşist Almaniyası gəlib Fransanı işğal etdiyinə görə, o da dörd il qaçqın vəziyyətində olubdur. Dedi ki, sizin qaçqınlardan fərqli olaraq mən çadırda yox, evdə yaşamışam. Bizimkilərin isə əksəriyyəti çadırlarda yaşayır. Amma indi Fransa ilə Almaniya bir-biri ilə dost ölkələrdir. Avropa İttifaqına birlikdə daxildirlər. Bu tarixi unutmaq lazım deyil və bu tarixdən kənara da çıxmaq lazım deyil. Ona görə də bu məsələlərə obyektiv, düzgün yanaşmaq lazımdır.

Sağ olun, sizin hamınıza dəyərli işlərinizdə uğurlar arzulayıram.



## LONDONDA ADAM SMİT ADINA İNSTİTUTUN VƏ AZƏRBAYCAN HÖKUMƏTİNİN BİRGƏ HAZIRLADIQLARI «AZƏRBAYCANDA İNVESTİSİYA İMKANLARI» BEYNƏLXALQ KONFRANSINA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA AZƏRBAYCAN TELEVİZİYASININ MÜXBİRİNƏ MÜSAHİBƏ

*28 noyabr 1995-ci il*

– **Cənab Prezident, Azərbaycan özünün investisiya üçün imkanlarını əslində ilk dəfə olaraq, belə geniş miqyasda bütün dünyaya tanıtdıracaq. Azərbaycanın dövlət başçısı kimi, Siz bu beynəlxalq tədbirin həm iqtisadiyyatımız, həm də müstəqilliyimiz üçün əhəmiyyətini nədə görürsünüz?**

– Bilirsiniz ki, mən Azərbaycanın dövlət başçısı olduğum gündən bəri xarici ölkələrə çox səfərlər etmişəm. Bu səfərlərin böyük əksəriyyəti getdiyim ölkələrin dövlət başçılarının dəvəti ilə həyata keçirilib və rəsmi xarakier daşıyıbdır. Eyni zamanda beynəlxalq təşkilatların yüksək səviyyəli toplantılarında Azərbaycanın nümayəndə heyətinə başçılıq edərək, ölkəmizi təmsil etmişəm. İndiki səfər isə başqa xarakter daşıyır. Bu, Azərbaycanın iqtisadiyyatı ilə bağlı olan bir səfərdir.

Çox yaxşı və təqdirəlayiq haldır ki, qarşıdakı beynəlxalq konfrans dünyanın böyük iqtisadi təsisatlarının və maliyyə mərkəzlərinin Azərbaycana göstərdikləri maraqdan irəli gələn tədbirdir. Məlum olduğu kimi, dünyada çox məşhur və çox böyük tarixi olan Adam Smit adına İqtisadiyyat İnstitutu var. Onun baş qərargahı Londonda yerləşir. Bu institutun əməkdaşları, ən əvvəl, məşhur iqtisadçı alim Adam Smitin ideyalarını həyata keçirərək dünyada iqtisadiyyatın, xüsusən bazar iqtisadiyyatının inkişafı məsələləri ilə məşğul olurlar. Onlar təşəbbüs irəli sürmüşlər. Bilirsiniz ki, onlar Azərbaycana çoxdan maraq göstərirlər. Ötən il Adam Smit İnstitutunun təşəbbüsü ilə Azərbaycanda da tədbir keçirilmişdir. Lakin bu dəfə onlar çox geniş miqyaslı tədbir hazırlayıblar. Həm də onu neçə ay idi ki, hazırlayırdılar. Onlar beynəlxalq iqtisadiyyat və maliyyə mərkəzlərinə məlumat vermişlər. Bu tədbir Azər-

baycanın dünya iqtisadiyyatı ilə inteqrasiyası üçün və dünya investorlarının ölkəmizə marağını araşdırmaq, onları bu işə cəlb etmək üçün keçirilir.

Məclisə çox adam, o cümlədən Azərbaycandan da bir çox sahələrimizin rəhbərləri dəvət olunublar. Onlar məni də dəvət ediblər və öz proqramlarında mənim çıxışımı nəzərdə tutublar. Mən bunu nəzərə alaraq oraya gedirəm. Güman edirəm ki, bu bizim üçün böyük hadisədir.

Biz ölkəmizin dünyada mövqelərini möhkəmləndirmək üçün çox siyasi tədbirlər görmüşük. Birləşmiş Millətlər Təşkilatında, ATƏT-də, İslam Konfransı Təşkilatında, böyük ölkələrin dövlət başçıları ilə görüşlərimdə çox işlər görmüşük və bu da, bir tərəfdən, Azərbaycanın müstəqilliyini möhkəmləndirməklə, digər tərəfdən isə Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ilə əlaqədardır.

Lakin eyni zamanda biz bütün bu müddətdə Azərbaycan iqtisadiyyatının bazar iqtisadiyyatı yolu ilə getməsi, dünya iqtisadiyyatına qoşulması işləri ilə də məşğul olmuşuq. Bilirsiniz ki, biz bir çox tədbirlər görmüşük, iqtisadi islahatlar sahəsində addımlar atmışıq, qanunlar, o cümlədən özəlləşdirmə haqqında qanun, proqramlar qəbul etmişik, aqrar sektorda islahatlar həyata keçirmişik, maliyyə sistemimizi dünya maliyyə sisteminə, bank sisteminə uyğunlaşdırmaq üçün işlər görmüşük. Bunlar da artıq öz nəticələrini vermişdir. İndi beynəlxalq maliyyə mərkəzləri bizə maraq göstərir, kreditlər ayırır. Ancaq bu məsələni daha yüksək pilləyə qaldırmaq üçün London konfransını yaxşı bir fürsət hesab edirəm. Ümidvaram ki, orada keçirəcəyimiz görüşlər bizim üçün bu baxımdan əhəmiyyətli olacaq və yaxşı nəticə verəcəkdir.

Şübhəsiz ki, mən Londonda bu konfrans çərçivəsindən kənarda bir çox başqa görüşlər də keçirəcəyəm, bir çox bankların rəhbərləri mənim oraya səfərimə maraq göstərir, mənimlə görüşmək istəyirlər. Bizimlə əməkdaşlıq edən «Britiş Petroleum» şirkəti də Londona səfərimizə çox maraq göstərir. Mənim Böyük Britaniyada dövlət və hökumət başçıları ilə də görüşlərim olacaqdır. Ümumiyyətlə, proqram çox genişdir.

**– Cənab Prezident, bu səfərin gedişində hansısa konkret layihənin və ya layihələrin müzakirəsi gözlənilirmi?**

– Heç bir layihə yoxdur. Biz Azərbaycana investisiya qoyulması üçün imkanların nə qədər geniş olduğunu bir daha bildirmək istəyirik.



Oraya çox qonaqlar, investorlar, bir sıra maliyyə mərkəzlərinin nümayəndələri gələcəklər. Onlar sadəcə olaraq görməlidirlər ki, biz nə kimi imkanlara malikik.

Azərbaycana investisiya qoyulması, ölkəmizin dünya iqtisadiyyatına bağlanması üçün yaratdığımız qanuni şərtlər, qanunlarımız, imkanlarımız nədən ibarətdir. Hər hansı bir ölkəyə gətirib investisiya qoymaq istəyən adam, şübhəsiz, öz mənfəətini axtarır. Bu mənfəəti də əldə etmək üçün o bilməlidir ki, qoyduğu kapitaldan nə götürəcək və onu götürmək nə dərəcədə əlverişlidir, münasibdir. Bunları sübut etməliyik. Bu, asan məsələ deyildir. Yəni təminat, hüquqi təminat olmalıdır.

Məsələn, indi respublikamızda yaranmış iqtisadi-siyasi sabitlik, müharibənin dayandırılması, yəni il yarımdan artıq müddətdə atəşkəs rejiminə əməl edilməsi – bütün bunlar dünya investorlarına Azərbaycanla doğrudan da uzunmüddətli əməkdaşlıq etmək üçün şərait yaratmışdır. Onlar bu şəraiti görürlər. Amma biz bunları izah edəcək, bildirəcəyik və danışıqlar aparacağıq.

Ola bilsin ki, müəyyən təkliflər, müəyyən layihələr var. Biz onlara baxacağıq. Əgər onlar əlverişli olsa, güman ki, orada qərar qəbul edə bilərik, yaxud investorları Azərbaycana dəvət edərik.

Londondan sonra mənim Parisə səfərim var. Orada Beynəlxalq Bank böyük bir toplantı, elə London konfransına bənzər toplantı keçirəcək. O da məhz Azərbaycana həsr olunubdur. Bunun çox böyük əhəmiyyəti var. Çünki Beynəlxalq Bankın öz təşəbbüsü ilə Azərbaycana, xüsusən özəl sektora investisiya qoyulması məsələsinə toxunulacaqdır. Paris toplantısının əsas xüsusiyyəti ondan ibarətdir ki, orada özəl sektora investisiya qoyulması məsələləri ön sıraya çəkiləcək, daha mühüm yer tutacaqdır. Oraya da bir çox beynəlxalq bankların, ayrı-ayrı böyük bankların nümayəndələri dəvət edilibdir. Mən orada da bu işlərlə məşğul olacağam. Şübhəsiz ki, orada da bir çox dövlət dairələrinin nümayəndələri ilə görüşəcəyəm.

# «AZƏRBAYCANDA İNVESTİSİYA İMKANLARI» BEYNƏLXALQ KONFRANSINA HƏSR OLUNMUŞ MƏTBUAT KONFRANSI

*London*
*29 noyabr 1995-ci il*

**S u a l :** Mən Londonda çıxan «Yurpien» qəzetinin müxbiriyəm. Sualım Sizə xeyli mürəkkəb görünəcəkdir. Avropada Əməkdaşlıq və Kooperasiya Təşkilatı Azərbaycanda seçkilərə dair özünün son hesabatını dərc etmiş və bu seçkiləri ədalətsiz elan etmişdir. Mən bilirəm ki, bu hesabat Xarici İşlər Nazirliyinə verilmişdir. Hesabatda deyilir ki, Azərbaycanla işgüzar əlaqələri inkişaf etdirmək qorxulu ola bilər, çünki seçkilərlə bağlı problemlər ortaya çıxır. Seçkilərin yalan elan edildiyini nəzərə alaraq, bu məsələ barədə Sizin fikrinizi bilmək istərdim.

**C a v a b :** Sizin sualınız təəccüb doğurur, çünki adını çəkdiyiniz bəyanat barədə bizə heç nə məlum deyildir. Azərbaycanda seçkilər baş tutub, parlament seçilib, öz fəaliyyətinə başlayıbdır. Noyabrın 24-də onun ilk iclası olubdur. Seçkilər zamanı bir çox ölkələrdən, o cümlədən beynəlxalq təşkilatlardan müşahidəçilər vardı. Bəzi müşahidəçilər ayrı-ayrı qüsurların, qanun pozuntularının olmasını qeyd ediblər, ayrı-ayrı şikayətlər də olubdur. Lakin sizin dediyiniz kimi, bəyanat olmayıbdır. Biz bu barədə heç nə bilmirik.

Bizdə Avropa parlamentinin, Fransanın parlament nümayəndə heyətinin bəyanatları var, ATƏT və Birləşmiş Millətlər Təşkilatı nümayəndələrinin də bəyanatı var. Bunların hamısında seçkilər zamanı olan qüsurlar qeyd edilibdir. Bir də ki, bu, müstəqil Azərbaycan Respublikasında çoxpartiyalılıq əsasında, demokratik prinsiplər üzrə keçirilən ilk seçkilər idi. Şübhəsiz ki, qanun pozuntuları da, nöqsanlar da olubdur. Ancaq bütün bəyanatlarda qeyd olunan bir müddəa bizim üçün çox mühümdür, yəni müşahidəçilər bu seçkiləri demokratiyaya doğru, demokratiya yolunda atılmış addım hesab edirlər. Biz bunu normal hesab edirik. Sizə deyə biləcəyim yalnız bunlardır.

**S u a l :** Mən başqa bir məsələyə – Azərbaycanın gələcək tərəqqisi məsələsinə toxunmaq istərdim. Necə bilirsiniz, əsas boru kəmərinin



marşrutu barədə qərar nə vaxt qəbul olunacaq. Siz hansı marşruta üstünlük verirsiniz və bu barədə qərar tezmi qəbul ediləcək ki, Siz özünüzün neft ehtiyatlarınızdan mənfəət götürəsiniz? Çox sağ olun.

**C a v a b :** Boru kəmərinin, yəni neftin ixracının marşrutları haqqında qərar oktyabrın 9-da Bakıda konsorsiumun rəhbər əməliyyat komitəsinin iclasında qəbul olunubdur. İlkin neftin ixracı üçün neft kəmərinin iki marşrutu seçilmişdir. Marşrutların biri Rusiya ərazisi ilə Qara dəniz sahilindəki Novorossiysk limanına, digər marşrut isə Gürcüstan ərazisi ilə yenə Qara dənizə çıxır. Bu marşrutların hər ikisi bizim üçün eyni dərəcədə əhəmiyyətlidir və əslində də bu barədə qərar qəbul olunubdur. Hesab edirəm ki, artıq bu qərar geniş məlumdur və mən bugünkü çıxışımda da bu barədə danışdım. Neft müqaviləsinin proqramına uyğun olaraq, Azərbaycanda ilkin neft 1996-cı ilin sonunda çıxarılacaq, 1997-ci, 1998-ci illərdə onun həcmi artacaqdır. Həmin iki neft kəməri o vaxtadək hazır olacaq və şübhəsiz ki, çıxarılan neft ixrac ediləcək və buna müvafiq olaraq biz mənfəət götürəcəyik.

Budur, baş nazir mənə deyir ki, konsorsiumun əməliyyat komitəsinin rəhbəri cənab Terri Adams sabah konfransda bu məsələ barədə çıxış edəcəkdir.

**S u a l :** «Plats» şirkəti İranla Sizin münasibətlərinizin vəziyyətini öyrənmək istərdi. Sizcə, İran «Şahdəniz» layihəsində iştirak etməyi qərara alacaqmı?

**C a v a b :** Azərbaycanın İranla mehriban qonşuluq, dostluq münasibətləri var, normal münasibətləri var. Azərbaycan ilə İran arasında uzun sərhəd var, bizim tarixi əlaqələrimiz var. Azərbaycanın keçmişi bir çox cəhətdən İranla bağlı olubdur. Bütün bunlar bizim bugünkü münasibətlərimizin əsasını təşkil edir. Şübhəsiz ki, bu münasibətlər iki müstəqil dövlət – İran ilə Azərbaycan Respublikası arasında olan münasibətlərdir. Biz iqtisadi əməkdaşlığı, ancaq qarşılıqlı surətdə faydalı, həm İranın, həm də Azərbaycanın mənafelərinə cavab verən əməkdaşlığı inkişaf etdirmək üçün tədbirlər görürük. O ki qaldı «Şahdəniz» yatağının neft və qaz ehtiyatlarından istifadə etmək üçün yaradılacaq konsorsiumda İranın iştirakı məsələsinə, bu, İranın özündən asılıdır. İrana belə bir təklif edilibdir.

**S u a l** *(«Azadlıq radiosu» – Axundova)* **:** Hörmətli cənab Prezident, Azərbaycanın iqtisadi inkişafı, geniş miqyasda özəlləşdirmə ərəfəsində Siz Qərbə – Böyük Britaniya və Fransaya səfər edirsiniz. Bu o de-

məkdirmi ki, Siz Azərbaycanda əsaslı bazar islahatları keçirilməsində məhz Qərbə üstün əhəmiyyət verirsiniz və bu konfransda iştirak etməkdən əlavə, Böyük Britaniya və Fransaya səfərinizdə Sizdən ötrü konkret olaraq üstün cəhət nədir? Sağ olun.

**C a v a b :** Bəli, mənim indiki səfərim əvvəlki bütün səfərlərimdən fərqlənir. Bu səfərlər məhz iqtisadi problemlərə həsr olunubdur və indiki halda Adam Smit İnstitutunun dəvəti ilə bağlıdır. Mən buna çox böyük əhəmiyyət verirəm. Mən konfrans iştirakçılarının siyahısı ilə, yəni onun işində iştirak etmək üçün buraya kimlərin gəlməsi ilə tanış oldum, görürəm ki, bu, çox mötəbər konfransdır. Burada dünyanın bir çox ölkəsinin nümayəndələri var, özü də təkcə Avropa və Asiya ölkələrindən yox. Doğrudur, mən bu konfransın belə nüfuzlu xarakter daşıyacağını hiss edirdim, ancaq açığını deyim ki, onun bu qədər mötəbər və maraqlı olacağını təsəvvür etmirdim.

Ona görə də, indiki halda mənim Londona səfərim məhz bununla bağlıdır. Sonra Parisə səfərim də iqtisadiyyat problemləri ilə bağlı olacaqdır, çünki Ümumdünya Bankı Parisdə işgüzar adamların, biznes adamlarının Azərbaycanda xüsusi biznesin inkişafı problemlərinə həsr edilmiş görüşünü keçirir. Biz bu məsələləri həqiqətən də indi özümüz üçün üstün məsələlər hesab edirik. Çünki biz dövlət mülkiyyətinin özəlləşdirilməsi probleminin geniş miqyasda həyata keçirilməsinə başlamaq üçün uzun müddətdir ki, işləyirik. Şübhəsiz ki, bundan ötrü də bizə, xarici şirkətlərlə, investorlarla, ölkəmizdə özəlləşdirmə prosesində iştirak etmək istəyənlərlə bilavasitə əlaqələr yaratmağımız gərəkdir. Onu da qeyd edim ki, qəbul olunmuş və mətbuatda çoxdan dərc edilmiş özəlləşdirmə haqqında qanun Azərbaycanda mülkiyyət əldə etməkdə xarici şirkətlərin iştirakının mümkünlüyünü, özü də kifayət qədər güzəştli şərtlərlə mümkünlüyünü nəzərdə tutur.

Deməli, bununla əlaqədar indiki konfrans da, Ümumdünya Bankı çərçivəsində Parisdə keçiriləcək görüş də bizim üçün üstün əhəmiyyət kəsb edir. Ancaq bunu Qərbə meyl adlandırmaq dəqiq olmazdı. Biz dünyanın bütün ölkələri ilə qarşılıqlı fayda əsasında əməkdaşlıq etmək istəyirik. Məsələn, konfrans iştirakçılarının siyahısında mən Yaponiyadan, Hindistandan olan şirkətləri də gördüm. Ona görə də, əgər nümayəndələri bu konfransa gələn Yaponiya şirkətləri Azərbaycanda da hansısa layihələrin həyata keçirilməsində iştirak etsələr, biz buna şad olarıq.



Mən bugünkü çıxışımda hamıya müraciət etdim. Bir halda ki, indi burada mətbuat, kütləvi informasiya orqanlarının nümayəndələri iştirak edirlər, sizə də müraciət edirəm. Öz imkanlarınızdan istifadə edin, xəbər verin ki, biz hamını dəvət edirik və iqtisadi islahatlar proqramımızı həyata keçirmək, bazar iqtisadiyyatına uyğun dəyişikliklər, özəlləşdirmə aparmaq üçün hamı ilə əməkdaşlıq etməyə hazırıq.

**S u a l** *(Bi-Bi-Si şirkətinin jurnalisti)*: Prezident Rusiyadan olan təhlükəni necə qiymətləndirir? Mən onu nəzərdə tuturam ki, Rusiya birdən təkid edər ki, Xəzər dənizinin bütün təbii ehtiyatları Xəzəryanı ölkələrin hamısının arasında bölüşdürülsün. Sizcə, Rusiyada seçkilərdən sonra bu problemə münasibət daha mühafizəkar, daha millətçi xarakter ala bilərmi?

**C a v a b :** Əvvəlcə Xəzər dənizi barəsindəki sualınıza cavab verim. Biz özümüz də Xəzər dənizinin bölüşdürülməsinin, sektorlara bölünməsinin tərəfdarıyıq. Əslində o, Xəzəryanı dövlətlərin sektorlarına bölünmüşdür. Bu bölgü çoxdan, hələ Sovetlər İttifaqı mövcud olan zaman aparılmışdır. Biz indi Xəzər dənizinin özümüzə, Azərbaycana aid olan sektorundan istifadə edirik.

O ki qaldı hansısa təhlükənin, yaxud daha nəyin isə ola biləcəyinə... Bilirsiniz, belə götürdükdə Xəzər dənizi bir dövlətə deyil, Xəzəryanı dövlətlərin hamısına məxsusdur və hər bir dövlətin, o cümlədən də Azərbaycanın ona eyni dərəcədə, bərabər hüququ var. Mənəvi hüquq baxımından yanaşdıqda isə, Azərbaycan artıq çoxdandır ki, Xəzər dənizindən neft çıxarır, digərləri bu işə təzəcə hazırlaşırlar. Əgər sənaye miqyasında neft hasilatından danışsaq, demək lazımdır ki, biz 45 il bundan öncə Azərbaycanda dənizdən neft çıxarılmasına başlamışıq. Bu, bütün dünyaya məlum olan məşhur «Neft Daşları»dır.

Ona görə də, əslində bu məsələdə bizim narahatçılığımız yoxdur. Xəzər dənizi haqqında danışmaq, bu problemi müzakirə etmək olar. Ancaq bununla yanaşı, hər kəs öz işini görməlidir və biz də öz işimizi görürük.

Sizin sualınızın ikinci hissəsi Rusiyadakı vəziyyətə aiddir, yəni seçkilərdən sonra nə olacaq? Bilirsiniz ki, mən ümumiyyətlə, proqnozlarla məşğul olmuram, münəccim deyiləm, seçkilərdən sonra Rusiyada nə olacağını bilmirəm. Lakin nə olur-olsun, bir siyasətçi kimi, mən hesab edirəm ki, Rusiya həm demokratik dəyişikliklər yolu ilə, həm də bazar iqtisadiyyatını inkişaf etdirmək yolu ilə gedəcəkdir. Bu isə bizdən ötrü çox mühümdür.

**Sual:** «Faynenşl tayms». İki ay bundan əvvəl azərbaycanlıların bir çoxu deyirdi ki, Çeçenistandakı hadisələrlə əlaqədar onların Rusiyaya gedib-gəlmələri çox çətinləşmişdir. Mən istərdim biləm, indi vəziyyət necədir, azərbaycanlıların Rusiyaya gediş-gəlişi asanlaşıbmı?

**Cavab:** Yox, deyə bilərəm ki, asanlaşmayıb. Bilirsiniz ki Çeçenistanda hərbi əməliyyatlar, döyüş əməliyyatları başlayandan bəri Azərbaycan ilə Rusiya arasındakı sərhəd – bu bizim şimal sərhədimizdir – əslində bağlanmışdır. Azərbaycan sakinlərinin sərhəddən Rusiyaya keçmələri son dərəcə çətinləşmişdi. Təəssüf ki, bu rejim indi də qalmaqdadır. Bu, təkcə adamların gediş-gəlişinə deyil, həm də yüklərin daşınmasına mane olur və bu bizdən ötrü böyük çətinliklər yaradır. Sərhəddəki rejimi müəyyən qədər asanlaşdırmaq üçün biz Rusiya Federasiyasının hökuməti ilə danışıqlar aparmışıq və aparırıq. Lakin vəziyyət hələ əvvəlki kimi qalmaqdadır.

**Sual:** Bağışlayın, mən verdiyim suala qayıtmaq istərdim. Mən Azərbaycandan neft ixrac edəcək iki boru kəməri haqqında soruşurdum. Azərbaycandan sonradan neftin ixrac ediləcəyi kəməri, əsas boru kəmərini nəzərdə tuturam. Haqqında danışdığınız iki boru kəmərinin yox, əsas neft kəmərinin marşrutu barədə hansısa bir ideyanız varmı?

**Cavab:** Neft müqaviləsinin proqramına və əslində elə müqavilənin özünə uyğun olaraq həmin boru kəməri, yəni sizin dediyiniz böyük, əsas kəmər müqavilə imzalandıqdan sonra 54 ay ərzində çəkilməlidir. İlkin neftin ixracı üçün nəzərdə tutulan kəmər isə müqavilə imzalandıqdan sonra 18 ay ərzində hazır olmalıdır. Deməli, əslində biz məsələni mərhələ-mərhələ həll edirik. Biz ilkin neftin ixracı üçün boru kəmərinin çəkilməsi haqqında qərar qəbul etmişik, lakin şübhəsiz ki, müəyyən olunmuş müddətdə, 54 ay ərzində əsas kəmərin çəkilməsi məsələsi üzərində də işləyirik. Boru kəmərini neftin əsas hissəsi çıxarılana qədər çəkməyin mənası yoxdur, bu iş ahəngdar getməlidir. Hesab edirəm ki, böyük neft kəməri o vaxtadək hazır olacaqdır.

Marşruta gəldikdə isə, variantlar çoxdur, onlar nəzərdən keçirilir. İqtisadi baxımdan, habelə başqa mülahizələrə görə hansı marşrut konsorsiumun bütün iştirakçıları üçün münasib olarsa, həmin marşrut da qəbul ediləcəkdir.

**Sual:** Biz bu gün konfransın keçirildiyi salonda deyil, kənarda gedən söhbətlərdən eşitdik ki, Neft Şirkətinin prezidenti cənab Əliyev Azərbaycan Prezidentinin oğludur. Siz bu şayiələri təsdiq edə bilərsinizmi, əgər təsdiq edərsinizsə, onda Qərbdə deyildiyi kimi, bu, naqolay vəziyyətdir. Bu barədə Sizin şərhiniz varmı?



**Cavab:** Neft şirkətinin prezidenti Əliyevlə mənim familiyam eynidir – yeri gəlmişkən deyim ki, Azərbaycanda Əliyev familiyası çox geniş yayılmışdır – onun mənə heç bir qohumluğu yoxdur. Ancaq oğlum Neft Şirkətinin xarici iqtisadi məsələlər üzrə vitse-prezidentidir. Hesab edirəm ki, burada qanuna, yaxud etikaya zidd heç nə yoxdur.

**Sual:** Oktyabrın 9-da bildirilmişdir ki, neft kəmərinin marşrutu məsələsi barədə noyabrın 1-dək Rusiya ilə saziş əldə olunacaqdır. Siz nə baş verdiyini aydınlaşdıra bilərsinizmi, saziş nə üçün noyabrın 1-dək imzalanmadı və nə vaxt imzalanacaq?

**Cavab:** Həqiqətən də nəzərdə tutulurdu ki, daha doğrusu, konsorsium istəyirdi ki, Rusiyanın ərazisindən keçəcək neft kəməri haqqında noyabrın 1-dək Rusiya ilə saziş imzalansın. Bu, oktyabrın 9-da qərara alınmışdı. Bununla əlaqədar əməliyyat komitəsinin rəhbəri cənab Terri Adams və Azərbaycan Dövlət Neft Şirkətinin nümayəndələri Rusiyanın rəhbərləri ilə, o cümlədən baş nazir cənab Çernomırdinlə, yanacaq-energetika sənayesi naziri cənab Şafraniklə və digər şəxslərlə görüşərək sazişin layihəsini müzakirə etmişlər.

Ancaq bilirsiniz ki, müvafiq qaydalarla, tərəflərin hər biri ekspertiza keçirməli, hüquqşünaslar, mütəxəssislər məsələni araşdırmalıdırlar, bu da vaxt apardı. Moskvada ikinci görüş keçirilibdir. Mənə məlum olduğuna görə, razılıq əldə edilibdir, yəni saziş tezliklə imzalanacaqdır.

Sağ olun. Yenə sualı olan varmı?

**Sual:** Hörmətli cənab Prezident, Sizə belə bir sual vermək istərdim. Birləşmiş Ştatların və digər Qərb dövlətlərinin hökumətləri əsas boru kəmərinin marşrutunun seçilməsinə necə təsir göstərmişlər və Sizcə, bu marşrutun seçilməsində Qərbin mövqeyi, Birləşmiş Ştatların və Qərbin təsiri nədən ibarət idi?

**Cavab:** Bilirsiniz ki, konsorsiuma 11 neft şirkəti daxildir və onlardan 5-i Amerika Birləşmiş Ştatlarının neft şirkətləridir. Ancaq konsorsiuma «Britiş Petroleum», «Statoyl» şirkətləri, Rusiya Federasiyasının «LUKoyl» şirkəti, Səudiyyə Ərəbistanının «Delta» şirkəti, Türkiyənin «Türk petrolları» şirkəti də daxildir. Ona görə də, şübhəsiz, belə vəziyyətdə, yəni konsorsiumdakı 11 şirkət 7 ölkəni, 7 dövləti təmsil edirsə, deməli, hər bir dövlət və ona məxsus olan şirkət öz mövqeyini bildirir və qərarların qəbul olunmasına müəyyən təsir göstərir. Son

nəticədə isə konsorsium bu qərarı yekdilliklə qəbul edibdir. Sağ olun. Yenə sual varmı?

**S u a l :** Cənab Prezident, Siz dediniz ki, konfrans iştirakçılarının siyahısından çox razısınız. Mən demək istəyirəm ki, bizim institut yalnız iştirakçıları cəlb edə, konfransı təşkil edə bilmişdir. Lakin məsələ, cənab Prezident, məhz Sizin iştirak etməyinizdə, sizin ölkənizin rolundadır, bu qədər iştirakçını cəlb edən də budur. Suallara cavab verdiyinizə görə Sizə təşəkkür etmək istəyirik. Bəlkə konfrans barədə Sizin hansısa qeydləriniz var?

**C a v a b :** Mənim heç bir qeydim yoxdur. Bu konfransı belə yaxşı səviyyədə təşkil etdiyinizə görə sizə təşəkkür etmək istəyirəm. Doğrudur, bu, Azərbaycana olan diqqətdir, ancaq bütün bu işi iqtisadiyyat, biznes aləmində yaxşı adı və böyük nüfuzu olan Adam Smit İnstitutu təşkil edibdir. Ona görə də mən konfransın belə yaxşı təşkili üçün son dərəcə minnətdaram. Ümidvaram ki, konfrans sabah da öz işini bu səviyyədə davam etdirəcəkdir. Mətbuat konfransının iştirakçılarına, buraya gəlmiş mətbuat orqanlarının, informasiya orqanlarının nümayəndələrinə çətin fəaliyyətlərində uğurlar diləmək istəyirəm. Bu bəyanatımı nəzərə alın ki, mən informasiya orqanlarına, mətbuata və özlərini bu çətin peşəyə həsr edən şəxslərə böyük hörmət və ehtiram bəsləyirəm. Diqqətinizə görə təşəkkür edirəm.



## Bİ-Bİ-Sİ KORPORASİYASINDAKI GÖRÜŞDƏ Bİ-Bİ-Sİ-nin MÜXBİRİ İLƏ MÜSAHİBƏ

*London*
*30 noyabr 1995-ci il*

**S u a l :** Neft müqaviləsi imzalanıb, respublikada seçkilər keçirilib. Hər iki tədbirdən əvvəl Azərbaycan xalqına xoş vədlər edilib. Sizcə, sadə camaat vəziyyətin müsbət istiqamətdə dəyişməsini nə zaman hiss edəcək?

**C a v a b :** Hiss edəcək. Vəziyyətin müsbət istiqamətdə dəyişməsi bir günlük, yaxud bir dəqiqəlik iş deyil.

**S u a l :** Nə qədər çəkəcək?

**C a v a b :** Nə qədər çəkəcəyini indi demək mümkün deyil. Amma vəziyyət günü-gündən müsbət istiqamətdə dəyişir. Bilirsiniz, insanları bir tərəfdən iqtisadi vəziyyət, onların maddi vəziyyəti maraqlandırır. Digər tərəfdən, insanları daxili sabitlik, rahatlıq, təhlükəsizlik də maraqlandırır. Ona görə də «dəyişiklik» deyəndə, sadəcə, insanların əmək haqqı çox olacaq, yağ, ət olacaq, malların qiyməti ucuz olacaq – tək bu deyil. İnsanları hər şey maraqlandırır. Azərbaycan vətəndaşları elə dözümlü insanlardır ki, onlar bəzən deyirlər ki, biz bu çətinliyə də dözərik, çadırda yaşayırıq – buna da dözərik, ancaq müharibə olmasın. İşğal olunmuş torpaqlarımız azad edilsin, qaçqınlar öz yerlərinə qayıtsınlar, ölkənin daxilində cinayətkarlıq olmasın. Siz bilirsiniz ki, son illərdə Azərbaycanda nə qədər cinayətkar qruplar yaranmışdı, onlar nə qədər cinayət etmişdilər – həm dövlətə qarşı, həm də ayrı-ayrı vətəndaşlara qarşı. İndi son iki ildə bu cinayətkarlar aradan götürülür, ifşa olunur – yaxalanır, bu böyük cinayətlərin üstü açılır. Bununla da təkcə dövlətin təhlükəsizliyi təmin olunmur, şübhəsiz, bu da olur, – amma ikinci tərəfdən, vətəndaşların təhlükəsizliyi təmin olunur, cəmiyyətdə əmin-amanlıq, sakitlik, rahatlıq yaranır. Ona görə də bütün bu tədbirlərin nəticəsi hər gün meydana çıxacaqdır. Amma belə bir gün olmayacaq ki, bu gün yatdın, sabah durub gördün ki, qiymətlər də ucuzdur, ət də, yağ da çoxdur və hər yerdə əmin-amanlıqdır, cinayətkar da yoxdur, torpaqlarımız da azad olunub. Bu, bir gündə olunası iş deyil.

**S u a l :** Siz müharibə haqqında danışdınız. Sizin rəyinizə görə, Azərbaycanın yeni konstitusiyasında Qarabağ münaqişəsinin həll olunması üçün əsas yaradılıb. Siz bunu deyəndə nəyi nəzərdə tutursunuz?

**C a v a b :** Birincisi, orada Azərbaycanın ərazi bütövlüyü haqqında maddələr var. İkincisi, Azərbaycanın ərazisi bölünməzdir.

**S u a l :** Sizcə, münaqişənin həllinə bu bir kömək edəcəkmi?

**C a v a b :** Şübhəsiz. Yəni biz xalqın iradəsini bildiririk ki, Azərbaycanın ərazisi bölünməzdir və Azərbaycanın sərhədləri yalnız ümumi səsvermə yolu ilə dəyişdirilə bilər. Yəni heç bir kəs, vəzifədə olan şəxs, o cümlədən Prezident də özbaşına, xalqın iradəsi olmadan Azərbaycanın sərhədlərini dəyişdirə bilməz, Azərbaycanın ərazisini dəyişdirə bilməz. Bu, xalqın iradəsinə bağlıdır. Bunlar hamısı çox böyük zəmanət verir.

**S u a l :** Bəs o biri tərəf?

**C a v a b :** Əlbəttə ki, o biri tərəf – işğalçı tərəf olan Ermənistan, Azərbaycanı işğal edənlər – onlar öz işğalçılıq niyyətlərini həyata keçirmək istəyirlər. Onların məqsədi Azərbaycanın işğal etdikləri bütün torpaqlarını əllərində saxlamaq deyil, onların məqsədi yalnız Qarabağı özlərinə bağlamaqdır.

**S u a l :** Deməк, söhbət məsələni güc ilə həll etməkdən gedir, yoxsa siyasi yolla?

**C a v a b :** Yox, biz söhbəti məsələnin siyasi yolla, sülh yolu ilə həll edilməsi barədə aparırıq.

**S u a l :** Cənab Prezident, seçkilər prosesi Qərb müşahidəçiləri tərəfindən tənqidə məruz qalmışdır. Siz də demişdiniz ki, seçkilər uğurla, demokratik yolla gedib. Siz bunu nə ilə əsaslandırırsınız? Ümumiyyətlə, xarici müşahidəçilərin rəyinə necə baxırsınız?

**C a v a b :** Bilirsiniz,bu, tamamilə təbii bir şeydir. Dünyada nə var ki, onu tənqid etmək olmasın? Elə bir şey varmı? Elə Bi-Bi-Si-ni də tənqid etmək olar. Elədirmi? Dünyada heç bir şey yoxdur ki, onu tənqid etmək olmasın. Dünyada heç bir hakimiyyət yoxdur ki, onu tənqid etmək mümkün olmasın. Heç bir tədbir yoxdur ki, onu tənqid etmək mümkün olmasın. Ona görə də seçkilərin aparılmasında buraxılan səhvlərin xarici müşahidəçilər tərəfindən göstərilməsi, ayrı-ayrı yerlərdə qanun pozuntularının göstərilməsi, yaxud da ki, tənqid o demək deyil ki, seçkilər normal keçməyib. Seçkilər normal keçib. Heç vaxt ola bilməzdi ki, bütün xarici müşahidəçilər gəlib desin ki, hamısına əla qiymət verirəm. Bu, qeyri-təbii bir şey ola bilərdi. Keçmiş Sovetlər İttifaqında belə bir vəziyyət var idi ki, deyirdilər ki, hər bir şey əladır. Ona görə də müşahidəçilərin tənqidlərini də təbii hesab edirəm, bəzi hallarda onların, bəlkə də qeyri-obyektiv fikirləri də var. Bunu da deməк istəyirəm. Onların dediyi də Allahın hökmü, Quran ayəsi deyil. Hərə öz müşahidəsini özü bildiyi kimi edir, öz fikrini özü bildiyi kimi deyir. Biz onları da qəbul edirik – obyektiv olsa da, obyektiv olmasa da. Amma eyni zamanda hesab edirik ki, bizim seçkilər əsasən demokratik gedibdir və deputatlar əsasən demokratik şəraitdə seçiliblər.



**S u a l :** Çox sağ olun, hörmətli Prezident, icazənizlə, mən bir neçə sualı rusca soruşum və cavabları da rus dilində verəsiniz. Cənab Prezident, belə bir fikirlə razısınızmı ki, sizin regionda hadisələrin gedişinə Rusiyanın təsiri var? Sizcə, bu təsir nədən ibarət ola bilər?

**C a v a b :** Şübhəsiz ki, regionda hadisələrin gedişinə Rusiyanın təsiri var. Region deyərkən biz Qafqazı, o cümlədən Zaqafqaziyanı nəzərdə tuturuq, hər iki halda Rusiyanın təsiri var. Bu da təbiidir. Çünki, necə deyərlər, Yer kürəsinin bu hissəsi – indi Zaqafqaziyada müstəqil dövlətlər var – bir çox illər, onilliklər ərzində, hətta əsrlərlə Rusiyanın, keçmiş Sovetlər İttifaqının tərkibində olmuşdur. Ona görə Rusiyanın burada təsirinin olması, yenə deyirəm, təbiidir, qoy bundan heç kim təəccüblənməsin.

**S u a l :** Xarici ekspertlərin fikrincə, Azərbaycan-İran arasındakı münasibətlərdə soyuqluq müşahidə olunur. Belə hesab edirlər ki, İran Zaqafqaziya regionunda Azərbaycanın Qərbin dayağına çevrilməsindən narahatdır. Siz bu cür mülahizələrlə razısınızmı?

**C a v a b :** Bilirsiniz, münasibətlərdə müəyyən bir sərinlik, narahatlıq var. Ancaq mənə belə gəlir ki, bu, Azərbaycan ilə İran arasında olan münasibətləri səciyyələndirmir. Azərbaycana münasibətdə İranın öz mülahizələri var, bu baxımdan bizim də öz mülahizələrimiz var. Məsələn, Qərbin neft şirkətləri, xüsusən İranın özünün münasibətlərinin çox mürəkkəb olduğu Amerika Birləşmiş Ştatlarının neft şirkətləri ilə bizim müqavilə imzalamağımızdan İran narazıdır. Lakin biz də ondan narazıyıq ki, İran Ermənistana fəal kömək göstərir, onu strateji mallarla, məhsullarla təchiz edir və Ermənistan İranın bu köməyindən, dəstəyindən istifadə edərək, bizimlə sülh danışıqlarında öz mövqeyini daha da sərtləşdirir. Yəni bizim İrana qarşı narazılığımız, İranın da bizə qarşı narazılığı var. Ancaq mən belə hesab edirəm ki, bu, İran və Azərbay-

can arasında qarşılıqlı münasibətlərin strateji istiqamətinin müəyyənləşdirilməsinə təsir göstərməməlidir. Biz İranla dostluq münasibətləri saxlamağa, bütün sahələrdə, xüsusən iqtisadiyyat, ticarət, elm, mədəniyyət, insani münasibətlər sahəsində əlaqələri möhkəmləndirməyə çalışırıq.

**S u a l :** Cənab Prezident, Orta Asiya respublikaları və Qazaxıstan ilə Azərbaycan arasında mədəniyyət, din, etnik və tarixi baxımdan yaxınlıq olmasına baxmayaraq, ümumən götürdükdə, bu ölkələr arasında pərakəndəlik müşahidə edilir. Azərbaycan da daxil olmaqla yaxın gələcəkdə bu ölkələr arasında hansısa bir siyasi qurumun yaradılmasını mümkün sayırsınızmı?

**C a v a b :** Bilirsiniz, şübhəsiz ki, yaxınlaşma olacağını mən görürəm, bu proses getməlidir. Bu ölkələr arasında müəyyən qədər sıx əlaqənin olmaması barədə fikrinizlə şərikəm. Görünür, bu, keçid dövrünün prosesləri ilə bağlıdır. İndi hər bir ölkəni daha çox öz problemləri, daxili işləri, iqtisadi vəziyyəti narahat edir və hər bir ölkə öz problemlərinin həlli üçün daha əlverişli yollar axtarır. Bu təbiidir. Lakin mən hesab edirəm ki, bunlar aradan qaldırılacaq. Tarixi əlaqələr, mədəni, dini yaxınlıq, dil yaxınlığı Azərbaycan da daxil olmaqla bu ölkələr arasında münasibətlərin daha fəal xarakter almasına kömək edəcəkdir. Hansısa bir regional qurum yaradılmasına gəldikdə isə, mən bunu zəruri, gərəkli saymıram.

**S u a l :** Nə üçün, axı bu, respublikaları siyasi cəhətdən yaxınlaşdıra bilər?

**C a v a b :** Bu nəyə lazımdır? İndi dünyada o qədər qurumlar yaranmışdır ki, daha birisinə də ehtiyac görmürəm. Sadəcə olaraq mehriban münasibətlər saxlamaq, hansısa məsələləri razılaşdırmaq lazımdır.

**S u a l :** Sizə elə gəlmirmi ki, belə bir qurumun yaradılması Orta Asiya və Qafqaz rayonunda strateji qüvvələri, strateji mənafeləri tarazlamağa kömək edərdi?

**C a v a b :** Bilirsiniz, dövlətlər arasında hər hansı belə regional qurumun yaradılması əks hərəkətlər doğurur. Mən hesab edirəm ki, belə bir qurumun yaradılmasına ehtiyac yoxdur.

**M ü x b i r :** Müsahibəyə görə təşəkkür edirəm.



## BÖYÜK BRİTANİYANIN «EKONOMİST» JURNALININ MÜXBİRİNƏ MÜSAHİBƏ

*London*
*1 dekabr 1995-ci il*

**S u a l :** Sizcə, neft ehtiyatlarını ixrac etməyə başladıqdan sonra Azərbaycan nə qədər zənginləşəcək? Deyirlər ki, Azərbaycan dönüb Küveyt olacaqdır.

**C a v a b :** Mən şübhə etmirəm ki, Azərbaycan öz neft yataqlarının hamısından səmərəli istifadə etsə və onların ixracını yaxşı təşkil edə bilsə, zəngin olacaqdır. Küveyt Küveytdir, Azərbaycan isə Azərbaycandır. Nə üçün hamı özünü Küveytə bənzətməyə çalışmalıdır? Bəlkə gələcəkdə elə bir şərait yaranacaqdır ki, başqa ölkələr özlərini Azərbaycana bənzətməyə çalışacaqlar.

**S u a l :** Razılaşıram ki, Azərbaycan öz neft ehtiyatlarından səmərəli istifadə edərsə və onu ixrac edərsə, doğrudan da zəngin bir dövlətə çevrilər. Amma bəs bu, indiyədək niyə baş verməyib?

**C a v a b :** Bilirsiniz, Azərbaycan indiyə qədər də çox neft istehsal edibdir. Azərbaycan dünyada sənaye üsulu ilə neft çıxaran, istehsal edən ilk ölkədir. Siz dediniz ki, bu sahə ilə məşğul olursunuz. Güman edirəm, sizin üçün maraqlı olar ki, Azərbaycanda ilk neft fontanı 1848-ci ildə olmuşdur.O vaxt dünyanın heç bir yerində neft çıxmırdı. Amerika Birləşmiş Ştatlarının Pensilvaniya ştatında neft 1858-ci ildə fontan vurubdur. XIX əsrin ikinci yarısında neft istehsalı o vaxtın ölçülərinə görə o qədər böyük olubdur ki, dünyanın çox böyük şirkətləri Azərbaycana gəliblər, işləyiblər. Nobel qardaşları 1870-ci illərdə Azərbaycanda öz fəaliyyətlərinə başlayıblar. Onların o vaxt tikdikləri binalar, yaratdıqları bəzi obyektlər indiyədək durur.

XX əsrin əvvəlində Azərbaycan neft istehsalını daha da çoxaldıbdır. Ancaq Sovet hakimiyyəti qurulandan sonra və Azərbaycan Sovetlər İttifaqının tərkibinə keçəndən sonra, şübhəsiz ki, Azərbaycanın bütün neft sənayesi Sovetlər İttifaqının iqtisadiyyatına, onun sənayesinə xidmət edibdir. Bu fakt da sizin üçün yəqin maraqlı olar ki, İkinci dünya müharibəsində Sovetlər İttifaqı Almaniya ilə müharibə edəndə, faşist

Almaniyası SSRİ-yə hücum edəndə və sonrakı dövrdə gedən müharibədə (bu müharibə isə motorlar – tanklar, təyyarələr müharibəsi idi) Sovetlər İttifaqının neftə və neft məhsullarına olan tələbatının 70-80 faizini Azərbaycan verirdi.

Çoxları belə fikirdədir ki, əgər Azərbaycan nefti olmasaydı, ikinci dünya müharibəsində bəlkə də Sovetlər İttifaqı alman faşizminə qalib gələ bilməzdi. Dənizdən, suyun altından da neftin çıxarılması ilk dəfə Azərbaycanda olmuşdur. 1949-cu ildə Xəzər dənizində ilk böyük neft fontanı olmuşdur. O vaxt indi Böyük Britaniyanın ətrafında dənizdən neft çıxarılan buruqların heç biri yox idi. Norveçin «Statoyl» şirkəti də indi dənizdən bu qədər ki, neft çıxarır, bunlar da o vaxt yox idi. Ancaq iş burasındadır ki, Azərbaycan SSRİ-nin tərkibində olanda bu neft bütün Sovetlər İttifaqına məxsus idi. O vaxt Azərbaycan müstəqil dövlət deyildi. Ona görə də respublikamızda istehsal olunan neft Sovetlər İttifaqının ehtiyaclarının ödənilməsinə sərf edilirdi.

İndi Azərbaycan müstəqil dövlətdir. Özü öz sərvətlərinin sahibidir. Azərbaycan yeni bir iqtisadi sistem əsasında özünün neft yataqlarında xarici neft şirkətləri ilə müştərək iş aparır, neft hasilatını artırmaq istəyir.

**S u a l :** Cənab Prezident, Qərb neft şirkətlərinin Azərbaycanda neft istehsal etməsi üçün ekoloji baxımdan texniki problemlər, çətinliklər yoxdur. Lakin Qərb şirkətlərində bir narahatlıq var. Bu narahatlıq isə siyasi risklə bağlıdır. Siyasi risk deyən zaman mən bir sıra dövlətlərin regiona, sizin bölgənizə, Azərbaycan neftinə olan marağını nəzərdə tuturam. Siz Qərb neft şirkətlərinin bu narahatlığına necə cavab verərdiniz?

**C a v a b :** Bilirsiniz, başqa ölkədə sərmayə qoymaq istəyən hər bir şirkət müəyyən qədər riskə gedir. Ancaq bu riskin həcmi, onun böyüklüyü-kiçikliyi əsas əhəmiyyət kəsb edir. Bu siyasi riskdən heç kəs azad deyil. Bəzən bir təbii fəlakət də hər bir şeyi dağıda bilir. Doğrudur, bu, siyasi risk məsələsi ilə əlaqədar deyil. Amma hər yerdə iş görülərkən bunun özü də nəzərə alınmalıdır. O ki qaldı xarici neft şirkətlərinin Azərbaycanda iş görməklə əlaqədar siyasi riskinə, bu çox minimaldır.

Birincisi, siyasi risk hər bir ölkənin daxili ictimai-siyasi vəziyyəti ilə əlaqədardır. Mən bunu deyə bilərəm, Adam Smit İnstitutunun keçirdiyi konfransda da bəyan etdim ki, indi Azərbaycanda daxili ictimai-siyasi vəziyyət sabitdir. Bu, bizim noyabrın 12-də ilk dəfə qəbul etdiyimiz konstitusiya ilə qorunur, qanunlarla, hüquq normaları ilə, demokratiya prinsiplərinin həyata keçirilməsi ilə qorunur. Bu ictimai-siyasi sabitlik eyni zamanda hakimiyyətin gücü, səlahiyyətləri ilə qorunur. Konfransda çıxış edərkən mən bir prezident kimi hamıya zəmanət vermişəm ki, gəlib Azərbaycanda rahat iş görmək olar. Biz bunun üçün bütün şəraiti yaradırıq.



Şübhəsiz, narahat edən cəhət bir də ondan ibarətdir ki, Ermənistan ilə Azərbaycan arasında yeddi ildir hərbi münaqişə mövcuddur. Biz bu hərbi münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Güman edirəm, artıq dünya ictimaiyyəti inanır ki, biz bu münaqişəni sülh yolu ilə həll edə bilərik. Çünki yeddi il davam edən bu müharibədə bir il yarım bundan öncə, 1994-cü il mayın 12-də atəşin dayandırılması haqqında, yəni müvəqqəti sülh yaranması barədə saziş əldə etmişik. Bu, bilavasitə Azərbaycan ilə Ermənistan arasında bağlanmış sazişdir. Bu sazişin bağlanmasında heç bir vasitəçi qüvvənin iştirakı olmayıb. Artıq 19 aydır ki, atəş yoxdur, qan tökülmür, insanlar rahat yaşayırlar. Bu, əsas verir ki, biz bundan sonra da məsələnin sülh yolu ilə həll olunması üçün səylərimizi artıraq.

Beləliklə, bu amilə görə də siyasi risk tamamilə minimal səviyyədədir. Azərbaycanda dövlət respublikamızın bütün sahələrinə çox etibarlı nəzarət edir. Bu da Azərbaycana sərmayə qoymaq istəyən hər bir şirkət üçün, mənə elə gəlir ki, böyük zəmanətdir.

**S u a l :** Cənab Prezident, xarici şirkətləri Azərbaycanda narahat edən məsələ heç də Azərbaycanda daxili sabitlik deyil. Onlar bu sabitliyin olduğuna əmindirlər. Xarici şirkətləri daha çox Azərbaycanın xarici ölkələrlə münasibətləri narahat edir. Başqa sözlə desək, bir çox Qərb şirkətləri bilmək istəyirlər ki, Azərbaycanın inkişafı yolunda Rusiyanın niyyətləri nədən ibarətdir, bu müqavilələrin həyata keçirilməsinə Rusiya imkan verəcəkdirmi? Bəziləri deyirlər ki, Rusiya bu imkanın qarşısını almağa, ona mane olmağa çalışır. Neft müqavilələrinin həyata keçirilməsinə mane olmağa çalışır. Digərləri isə deyirlər ki, Rusiya bu müqavilələrin irəli getməsini istəyir və bu işdə Azərbaycanı ruhlandırır. Siz bunlara bir şərh verərdinizmi?

**C a v a b :** Bilirsiniz, bu fikirlər qarmaqarışıqdır. Bunların bəzisi əsaslı, bəzisi əsassızdır. Ancaq dəqiq vəziyyət bundan ibarətdir. Şübhəsiz ki, indi ölkələr arasında rəqabət var. İqtisadi cəhətdən böyük,

güclü ölkələr istəyirlər ki, başqa ölkələri öz iqtisadi, bəzən isə siyasi təsir dairəsinə salsınlar. Bu, tək Rusiyaya aid deyil. Ancaq sizin sualınıza konkret cavab olaraq onu demək istəyirəm ki, birincisi, Rusiya bizim bu neft müqaviləsində iştirak edir. Yəni keçən ilin sentyabr ayında neft müqaviləsi imzalanarkən Rusiyanın energetika nazirinin müavini bu müqaviləyə imza atıbdır. Həmin o müqavilədə nəzərdə tutulan payın on faizi Rusiyanın «LUKoyl» şirkətinə məxsusdur.

Noyabrın 10-da biz Azərbaycanda yeni bir müqavilə imzaladıq, yeni bir konsorsium yaratdıq. Həmin konsorsiuma Rusiyanın «LUKoyl» şirkəti də daxil olub. Bu konsorsiuma həmçinin Amerikanın «Pennzoyl», İtaliyanın «ACİP» şirkətləri və Azərbaycan Dövlət Neft Şirkəti daxildirlər. Bu müqavilədə Rusiyanın payı daha da çoxdur. Müqavilənin imzalanmasında Rusiyanın yanacaq və energetika naziri Yuri Şafranik iştirak edib və bu müqaviləni imzalayıb.

Nəhayət, böyük neft müqaviləsi proqramını həyata keçirməkdən ötrü ilkin neftin ixracı üçün iki neft kəmərinin tikilməsi haqqında bu ilin oktyabr ayında qərar qəbul etmişik. Bu iki neft kəmərindən biri şimalda, Rusiyanın ərazisindən keçib Qara dənizə gedəcək. İkinci kəmər isə qərb istiqamətində, Gürcüstanın ərazisindən keçərək o da Qara dənizə çıxacaqdır. Şimaldan, Rusiyanın ərazisindən keçəcək neft kəmərinin tikilməsi haqqında yaxın günlərdə Moskvada lazımi sənədlər, müqavilələr imzalanacaqdır.

Beləliklə, siz görürsünüz ki, Rusiya artıq bizim müqavilələrin üzvüdür, onların iştirakçısıdır. Biz Rusiya ilə əməkdaşlıq edirik. Ona görə də güman etmirəm ki, Rusiya bu işlərin həyata keçməsinə maneçilik törətsin.

Qərb şirkətlərinin bundan narahat olmasına və Rusiyanı təhlükə kimi qəbul etməsinə heç bir əsas yoxdur. Ona görə də burada siyasi risk heç yoxdur.

**S u a l :** Moskvada baş verənləri diqqətlə izləyənlər indi Rusiyanın siyasətində iki elementin mövcud olduğunu bariz şəkildə görə bilərlər. Bu iki meyldən biri «LUKoyl»u dəstəkləyən qrupdur. Həmin qrupda olanlar düşünürlər ki, Azərbaycanın bağladığı neft müqavilələrinin həyata keçirilməsində, inkişaf etdirilməsində Rusiya iştirak etməli və buna yardımçı olmalıdır. Çünki bu müqavilələrdə «LUKoyl» şirkətinin də payı vardır. Digər bir siyasi qrup isə Rusiyanın xarici siyasət aləminə məxsusdur. Bu qrupu təmsil edənlər əsasən millətçilik mövqeyindən çıxış edərək, Azərbaycanın neft ehtiyatlarının birgə istismar olunmasını istəmirlər və bu işə mane olmaq istəyirlər. Sizcə, Rusiyanın regiona olan marağını birinci qrup, başqa sözlə desək, Rusiyanın enerji lobbisi müəyyənləşdirir, yoxsa ikinci qrup?



**C a v a b :** Birincisi, mənə elə gəlir ki, sizin təhliliniz ümumiyyətlə əsaslıdır. İkincisi, doğrudan da orada iki qrup, dəstə var. Mən bir daha demək istəyirəm ki, sizin təhliliniz və əldə etdiyiniz nəticələr əsaslıdır. Ancaq mən hesab edirəm ki, sağlam məntiq hər şeydən üstün olacaqdır. Rusiyanın iqtisadi mənfəətləri üstün gələcəkdir. Millətçi, imperiya əhval-ruhiyyəli qüvvələr güman edirəm ki, bizim bu işlərimizə mane ola bilməzlər. Doğrudur, onlar müəyyən bir zərər gətirə bilərlər. Ümumiyyətlə, bizim işlərimiz çətinliklərin aradan götürülməsi yolu ilə gedir. Bizim bu işlərimiz hamar yol ilə, yaxud tamamilə düz asfalt yolla getməyib. Eniş də, yoxuş da var, qarşımıza daş da, qaya da çıxır. Ancaq biz bunları yarıb keçirik. Güman edirəm ki, bu məsələdə olan maneələri də biz yarıb keçə biləcəyik.

**M ü x b i r :** Cənab Prezident, etiraz etməsəydiniz, ilkin neftin ixracı ilə bağlı daha konkret suallara keçərdim. Çünki bu məsələ neft sənayesi ilə məşğul olan hər bir şəxsdə böyük maraq doğurur.

**H e y d ə r Ə l i y e v :** Buyurun, mən sizi dinləyirəm.

**S u a l :** İlkin neftin ixracı ilə əlaqədar iki kəmər barədə çoxlu söz-söhbətlər var. Bəziləri belə bir iddia irəli sürürlər ki, neft kəmərinin Gürcüstandan keçməsi Gürcüstanın müstəqilliyinə kömək edir, yardımçı olur. Digər qüvvələr isə belə hesab edirlər ki, əslində, Gürcüstandan keçən kəməri də məhz Rusiya nəzarətdə saxlayır. Siz bu fikirlərin hansına üstünlük verirsiniz?

**C a v a b :** Bilirsiniz, ümumiyyətlə, bu tədqiqatçılar, iqtisadçılar, jurnalistlər ayrı-ayrı mülahizələr ortaya atırlar və bu mülahizələr də sonra bəzən çox böyük vətəndaşlıq hüququ alır, bunun ətrafında cürbəcür söhbətlər, müzakirələr getməyə başlayır. Belə mülahizələr ətrafında fikir mübadiləsi aparmaq istəməzdim. Şübhəsiz ki, hər bir iqtisadi addımın nəyəsə xeyri var, bu nə iləsə əlaqədardır və hansı məsələlərləsə bağlıdır. Qısaca olaraq, mən o cavabı verə bilərəm ki, iki neft kəmərinin eyni zamanda çəkilməsini biz düşünülmüş surətdə etmişik. Birincisi, bu, iqtisadi prinsiplərə, əsaslara uyğundur. İkincisi, bəzi siyasi məsələləri də həll edir.

**S u a l :** Sizcə, əsas neft kəməri haradan keçəcəkdir? Başqa sözlə desək, bir neçə ildən sonra qərar qəbul edilməli olan bu kəmərin haradan keçəcəyi barədə bir fikir varmı?

**C a v a b :** Bir neçə fikir var. Hətta beynəlxalq iqtisadi dairələr özlərinin bu barədə layihələrini də hazırlayıblar. Bu layihələrin həm üstünlüyü, həm də çatışmazlığı var. Biz bu məsələni ölçüb-biçəcəyik və bütün prinsipləri nəzərə alaraq qərar qəbul edəcəyik. Hələ vaxtımız var, düşünməliyik, yaşayarıq, görərik.

**S u a l :** İlkin neftin ixracı ilə əlaqədar Türkiyənin irəli sürdüyü bir iddia var. Türkiyə bəyan edir ki, əgər Qara dənizdən çoxlu neft ixrac olunarsa, o zaman ekoloji problemlərlə əlaqədar Bosfor boğazında təhlükə yarana bilər. Bu fikirlərə Siz necə baxırsınız?

**C a v a b :** Əgər Türkiyə bunu deyirsə, demək, Türkiyə doğru deyir. Bu boğazın hakimi onlardır. Mən onların fikri ilə razıyam.

**S u a l :** Əvvəllər biz deyirdik ki, Azərbaycanın zəngin potensialı, sərvətləri vardır. Sizcə, bu zəngin sərvətlərdən istifadə etməklə Azərbaycan nə vaxt zənginləşə bilər? Beş iləmi, on iləmi, on beş iləmi, yoxsa bu proses uzun çəkər?

**C a v a b :** Bilirsiniz, bir var istək, arzu, bir də var ki imkanlar. Mən istəyirəm ki, gələn ildən Azərbaycan zəngin olsun. Ancaq bu məsələyə real yanaşsaq, bizə bir neçə il lazımdır ki, bu iqtisadi islahatları, özəlləşdirməni həyata keçirək və xarici investisiyaların Azərbaycana gəlməsini gücləndirək. Bunlar hamısı Azərbaycanın iqtisadiyyatını qaldıracaq, bu da özü-özlüyündə insanların yaşayış tərzini yaxşılaşdıracaq, Azərbaycanı iqtisadi cəhətdən zənginləşdirəcəkdir.

Enerji sektorunda isə bizim bu müqavilənin konkret proqramı, yəni qrafiki var. Məsələn, ilkin neft 1996-cı ilin sonunda alınmalıdır. Ancaq ilkin neftin beş milyon ton həcminə çatması üçün iki il də lazım olacaqdır. Biz böyük nefti təxminən 2000-ci ildən sonra geniş miqyasda alacağıq. Böyük neftin ixracı üçün gərək böyük neft kəməri tikilsin. Bunların həyata keçirilməsi prosesində də Azərbaycanda iqtisadi vəziyyət tədricən yaxşılaşacaqdır. Ancaq real nəticə alınandan sonra, şübhəsiz ki, Azərbaycanın siz dediyiniz o zənginlik mərhələsi olacaqdır. Mən hesab edirəm ki, biz Azərbaycanın zənginliyini nəzərdə tutduğumuzdan da əvvəl görəcəyik.

**M ü x b i r :** Hörmətli Prezident, vaxtınızı çox aldım. Təşəkkür edirəm.

***Söhbəti Daniel Litvin aparmışdır***



## AZƏRBAYCAN JURNALİSTLƏRİNƏ MÜSAHİBƏ

*London*
*1 dekabr 1995-ci il*

Bildiyiniz kimi, son günlər Almaniyanın paytaxtı Bonnda Ermənistanla Azərbaycan arasında Minsk qrupu çərçivəsində danışıqların yeni mərhələsi olmuş və dünən sona çatmışdır. Hər bir mərhələ, hər bir danışıq prosesi bizim üçün əhəmiyyətlidir. Hər dəfə görüşümüz çərçivəsində nümayəndə heyətimiz danışıqlara gələrkən biz öz mövqelərimizi müəyyənləşdiririk və çalışırıq ki, əməli mövqedən çıxış edək, müəyyən bir razılıq əldə oluna bilsin.

Demək olmaz ki, danışıqlar prosesi nəticəsizdir. Bəzən mən eşidirəm, adətən bu danışıqlar bitəndən sonra bizim müxbirlər, yaxud da ki, televiziyada, radioda belə bəyanatlar verirlər ki, danışıqlar bitdi, yenə də bir nəticə olmadı. Bu, əsassızdır, mən bunlarla razı deyiləm. Çünki danışıqların hər bir mərhələsində müəyyən irəliləyiş müşahidə olunur, nəsə əldə edilir, hansısa bir nailiyyətə gəlib çata bilirik. Şübhəsiz ki, bəzən bizim ictimaiyyət, o cümlədən mətbuatda,digər informasiya orqanlarında çalışan jurnalistlər də təbii ki, gözləyirlər və belə güman edirlər ki, əgər danışıqlar başlanıbsa, bu, istənilən nəticəni verəcəkdir.

Bu, bir tərəfdən qeyri-təbiidir. İkinci tərəfdən, Ermənistanla Azərbaycan arasında yeddi il müddətində gedən hərbi münaqişə nəticəsində vəziyyət o qədər mürəkkəbləşib, o qədər çətinləşibdir ki, onu bir danışıqla, iki danışıqla həll etmək mümkün deyildir. Məsələn, bildiyiniz kimi, mən özüm bu barədə nə qədər danışıqlar aparıram. Bütün dövlət başçıları ilə mənim görüşlərimdə Ermənistan-Azərbaycan münaqişəsinin həlli yolları mütləq müzakirə edilir, biz öz mövqelərimizi bildiririk və hər bir ölkəni, hər bir dövlət başçısını bu məsələdə iştiraka, köməyə dəvət edirik və nəyə isə nail ola bilirik.

Bildiyiniz kimi, danışıqlar prosesində Minsk qrupunun nümayəndələri vaxtaşırı regiona gəlirlər. Azərbaycanda da, Ermənistanda da olurlar. Onlar hər dəfə gələrkən mütləq bizim görüşlərimiz olur. Bəzən hətta bir dəfə yox, iki-üç dəfə görüşlər keçirir və məsələləri müzakirə edirik. Eyni zamanda artıq mövcud olan təcrübəyə görə, bizim núma-

yəndə heyətləri cürbəcür yerlərdə görüşlər keçirirlər. Məlumdur ki, belə görüşlər Finlandiyada da, Moskvada da, Vyanada da olmuşdur. Son dəfə Bonnda danışıqlar gedib və dünən başa çatıbdır. Yenə də deyirəm, biz bu danışıqlara çox məsuliyyətlə yanaşırıq və hər dəfə nümayəndə heyətimizi danışıqlara göndərərkən ona lazımi təlimatlar veririk. Şəxsən mən özüm hər dəfə bizim nümayəndə heyətini qəbul edirəm, təlimatlar veriləndən sonra bunların həyata keçirilməsi haqqında da öz tövsiyələrimi bildirirəm və beləliklə, bu danışıq prosesi gedir.

İl yarımdan çoxdur ki, biz atəşkəs rejimindəyik. Bu müddətdə şübhəsiz, daim çalışmışıq ki, tez nəticə əldə edək. Atəşkəs haqqında saziş əldə olunan kimi biz hesab edirdik ki, qısa bir müddətdə nəyəsə nail ola biləcəyik. Ancaq indi işlərin gedişi onu göstərir ki, qısa müddətdə istənilən nailiyyəti əldə etmək mümkün deyildir. Lakin danışıqlarda Böyük Sülh Sazişi layihəsinin ayrı-ayrı maddələri müzakirə olunur, bəzi maddələri haqqında razılığa gəlinir, razılıq əldə edilir və beləliklə də Böyük Sülh Sazişi, xırda-xırda olsa da, hazırlanır.

Bunları deməklə mən istəyirəm ki, bu işlərə maraq göstərən mətbuat, informasiya orqanları, jurnalistlərimiz məsələlərə məhz bu prizmadan baxsınlar. Buna reallıqdan yanaşmaq lazımdır. Heç də elə düşünmək lazım deyil ki, biz hər şeyi tezliklə əldə edə bilərik.

Bonnda neçə gün davam etmiş danışıqların xüsusi əhəmiyyəti var. Çünki bu danışıqlar ATƏT-in üzvü olan ölkələrin xarici işlər nazirlərinin dekabrın 7-də Budapeştdə öz işinə başlayacaq görüşü ərəfəsində keçirilmişdir. Bildiyiniz kimi, keçən ilin dekabrında ATƏT-in üzvü olan ölkələrin dövlət başçılarının Budapeştdə görüşü olmuşdur. Bu, ümumdünya siyasəti nöqteyi-nəzərindən çox mühüm görüş idi. Ancaq Azərbaycan üçün bu görüş daha çox əhəmiyyətli idi. Xatirinizdədir ki, biz o vaxt bu görüşə çox ciddi hazırlaşırdıq və ondan istədiyimiz nəticə əldə etmək niyyətindəydik. ATƏT-in ötən ilin dekabrında keçirilən Zirvə görüşü bizim üçün, doğrudan da əhəmiyyətli bir qətnamənin qəbul olunması ilə nəticələndi. Yəni biz orada istədiyimizə nail olduq. İstədiyimiz də o idi ki, ATƏT Ermənistan -Azərbaycan münaqişəsinin həll olunması məsələsinə daha fəal girişsin və ATƏT-in Minsk qrupu bu işlə daha da ciddi, ardıcıl surətdə məşğul olsun.

Xatırlayın, o vaxt, ATƏT-in Zirvə görüşünün hazırlanması ərəfəsində bəzi dövlətlərdən, məsələn, belə xəbərlər gəlirdi ki, ATƏT-də bu məsələnin müzakirəsinə ehtiyac yoxdur. Yaxud, Rusiyanın bəzi dairələri belə hesab edirdi ki, ümumiyyətlə, ATƏT-in sülhü mühafizə qüvvələri yaratmağa belə hüququ yoxdur; o sülhü mühafizə qüvvələri yarada bilməz; demək əgər ATƏT-in Minsk qrupu bir saziş əldə etsə də, onu həyata keçirmək üçün sülhü mühafizə qüvvələri ATƏT-ə daxil olan ölkələrdən yox,hansısa bir-iki-üç ölkədən olmalıdır. ATƏT-in Zirvə görüşü bütün bu məsələləri öz yerinə qoydu. Birincisi, bizim üçün çox vacib idi ki, ATƏT qətnamə qəbul etdi ki, Dağlıq Qarabağ ilə əlaqədar Ermənistanla Azərbaycan arasında gedən münaqişə sülh yolu ilə həll edilməlidir və bu, indən belə də ATƏT çərçivəsində, onun Minsk qrupu çərçivəsində olmalıdır. Minsk qrupuna lazımi göstərişlər verildi və ATƏT-in sülhü mühafizə qüvvələrinin yaradılması haqqında qərar qəbul edildi. Bu, çox böyük hadisədir və bunu nəzərdən salmaq, yaddan çıxarmaq lazım deyildir. Orada həm də qərar qəbul olundu ki, Minsk qrupu bundan sonra iki həmsədrin rəhbərliyi altında fəaliyyət göstərsin. Rusiya həmsədrlik hüququ aldı. O biri həmsədrlik, əgər bundan öncə İsveç idisə – Yan Eliasson rəhbərlik edirdi – indi Finlandiyaya keçdi – cənab Talvitiye rəhbərlik edir.



O vaxtdan bir il keçibdir və bizim üçün vacibdir ki, ATƏT üzvü olan ölkələrin xarici işlər nazirlərinin Budapeşt görüşündə bu bir ildə görülmüş işə yekun vurularaq qəbul edilən sənəd bizdən ötrü əhəmiyyətli sənəd olsun. Ona görə də son günlər Bonnda Minsk qrupu çərçivəsində Ermənistan ilə Azərbaycan arasında aparılan danışıqlar bizim üçün çox əhəmiyyətli idi. Bu danışıqlar bir də ona görə əhəmiyyətli idi ki, orada Minsk qrupu üzvlərinin hamısı iştirak edirdi. Yəni, bəzən bu danışıqlar Ermənistan, Azərbaycan nümayəndə heyətlərinin və Minsk qrupu həmsədrlərinin, yaxud da ki, onların nümayəndələrinin iştirakı ilə keçirdi, amma bu dəfə danışıqlarda həm Minsk qrupunun həmsədrləri, həm də Minsk qrupuna daxil olan ölkələrin bu qrupdakı daimi nümayəndələri iştirak edirdilər. Bu görüşün bir cəhəti də ondan ibarətdir ki, biz nəzərdə tutmuşuq ki, orada mənim səlahiyyətli nümayəndəm, xüsusi nümayəndəm, müşavir Vəfa Quluzadə və Ermənistan prezidentinin xüsusi nümayəndəsi Liparidyan birbaşa, vasitəçi olmadan danışıqlar aparacaqlar və gələcəkdə birbaşa əlaqələrin yaranması və danışıqların aparılması üçün müəyyən razılığa gələcəklər. Ona görə də indiki danışıqlar çox mühümdür.

Bir məsələni də qeyd etmək istəyirəm. Bilirsiniz ki, həm Rusiya, həm də Amerika Birləşmiş Ştatları Ermənistan-Azərbaycan münaqişə-

sinin sülh yolu ilə həll olunması barədə daim təşəbbüslər göstərirlər. Məsələn, oktyabrın əvvəlində Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klintonun xüsusi nümayəndəsi doktor Bjezinski Bakıya gəlmişdi. O bu danışıqları müvəffəqiyyətlə irəliyə aparmaq üçün bir layihə də gətirmişdi. Biz bu layihəyə baxdıq. Orada bizim üçün, yəni məsələni ədalətlə həll etmək üçün dəyərli müddəalar vardı, ancaq bizim üçün məqbul olmayan müddəalar da vardı. Ona görə biz bu layihə ilə razı olmadıq.

Bilirsiniz ki, bundan sonra mənim Nyu-Yorka səfərim başladı. Bu səfər ərəfəsində Rusiya prezidenti cənab Boris Yeltsin mənə, yəni Azərbaycan prezidentinə, habelə Ermənistan prezidentinə bu barədə xüsusi bir məktub göndərmişdi. Həmin məktubda da hər iki tərəfə – həm Ermənistana, həm də Azərbaycana müraciət olunmuşdu ki, məsələlərin sülh yolu ilə həll edilməsi üçün görülən işlər daha da sürətləndirilsin ki, tezliklə nəticə əldə oluna bilsin.

Mən Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatının 50 illik yubileyinə həsr olunmuş mərasimlərdə iştirak edərkən əvvəlcədən nəzərdə tutulduğu kimi, ABŞ prezidenti cənab Bill Klinton ilə xüsusi görüşüm oldu və biz ətraflı danışıqlar apardıq. Biz bu danışıqlarda bir çox məsələləri müzakirə etdik, o cümlədən Ermənistan ilə Azərbaycan arasındakı münaqişəyə son qoyulması, sülh yaranması üçün Amerika Birləşmiş Ştatlarının təklifləri də oldu. Bu təkliflərlə əlaqədar mənə bir layihə də verdilər. Mən söz verdim ki, biz bu layihəni müzakirə edəcəyik. Sonra həmin layihə Ermənistan tərəfinə də verilmişdir.

Bundan bir az sonra bizim regiona səfir Ceyms Kollinzin rəhbərliyi altında Amerika Birləşmiş Ştatlarının çox böyük tərkibli nümayəndə heyəti gəldi. Onlar Azərbaycana gəlməzdən öncə Ermənistanda olmuşdular. Bu nümayəndə heyəti Ermənistanda və Azərbaycanda olarkən Amerika Birləşmiş Ştatlarının irəli sürdüyü layihə müzakirə edilmişdi. Bizə məlum oldu ki, Ermənistan Respublikasının rəhbərliyi həmin layihəni qəbul etməmişdir. Layihəyə dair bizim də tənqidi fikirlərimiz var idi. Ancaq biz yenə də əməli mövqe tutduq və hesab etdik ki, bu layihənin üzərində işləyib onu lazımi səviyyəyə qaldırmaq olar. Yəni, biz ondan imtina etmədik, onu rədd etmədik, əksinə, onun üzərində bərabər işləməyi təklif etdik. ABŞ nümayəndə heyəti bizim bu fikirlərimizi məmnuniyyətlə qəbul etdi və söz verdi ki, onlar da öz fəaliyyətlərini davam etdirəcəklər.



Nəhayət, Ermənistan ilə Azərbaycan arasında Bonn danışıqları ərəfəsində Amerika Birləşmiş Ştatları daha da təkmilləşdirilmiş bir layihə irəli sürmüşdü. Qeyri-rəsmi olaraq bizə demişdilər ki, onlar belə hesab edirlər: Əgər Ermənistan və Azərbaycan Budapeştdə, ATƏT üzvü olan ölkələrin xarici işlər nazirlərinin görüşündə birgə bəyanat versələr, bu, məsələnin sülh yolu ilə həll edilməsi üçün çox yaxşı şərait yaradacaqdır. Onlar birgə bəyanatın layihəsini də bizə qeyri-rəsmi olaraq vermişdilər.

Biz o layihəyə baxdıq. Ermənistan tərəfi də ona baxmışdı. Öz nümayəndə heyətimizi Bonna göndərməzdən öncə biz ona bu barədə təlimatlar verdik. Nəhayət, buraya gəlməyimizdən bir gün öncə Amerika Birləşmiş Ştatlarının səfirinə mən şəxsən məlumat verdim ki, Ermənistan və Azərbaycanın adından veriləcək bəyanatın layihəsini, bizim üçün uyğun olmayan bəzi müddəalarına baxmayaraq, əsasən qəbul edirik. Daha dəqiq desək, mən bildirdim ki, burada bizim razı olmadığımız bəzi cəhətlər var, ancaq ümumi işin irəli getməsi naminə və sülh əldə olunması naminə biz narazı qaldığımız cəhətlərin üstündən hələlik keçirik ki, Bonnda və sonra Budapeştdə Ermənistan və Azərbaycanın birgə bəyanatını verə bilək. Biz bu fikirlərimizi çatdırdıq, nümayəndə heyətimiz belə təlimatla Bonna yola düşdü və ona əlavə göstərişlər də verdik.

Bonnda danışıqlar başlanarkən, təəssüflər olsun ki, Ermənistan nümayəndə heyəti həmin layihəni, yəni Ermənistan və Azərbaycanın birgə bəyanatı haqqında Amerika Birləşmiş Ştatları tərəfindən bizə verilmiş layihəni tamamilə rədd etmiş, onu müzakirə etmək istəməmişdir. Bizim nümayəndə heyəti isə bəyan etmişdir ki, bu layihəni qəbul edirik və onu müzakirə etməyə hazırıq. Beləliklə, biz həqiqətən sülh yaratmaq məramımızı və həqiqətən əməli mövqedə olduğumuzu bir daha bildirdik və nümayiş etdirdik.

Belə olan halda, Ermənistan və Azərbaycan respublikalarının nümayəndə heyətləri arasında danışıqlar Minsk qrupu həmsədrlərinin iştirakı ilə getmişdir və əsasən xarici işlər nazirlərinin Budapeşt görüşünə Minsk qrupunun hesabatının hazırlanması ilə əlaqədar olmuşdur. Bu hesabatın layihəsi bir neçə gün müzakirə edilmişdir. O layihədə də bizim üçün uyğun olmayan müddəalar olmuşdur. Ona görə bizim nümayəndə heyəti orada Azərbaycanın mövqelərini müdafiə etmək və bizim üçün münasib bir sənədin qəbul olunmasından ötrü çox ciddi fə-

aliyyət göstərmişdir. Mən Bakıda olanda da və Londona gəldikdən sonra buradan da bizim nümayəndə heyəti ilə daim əlaqədə idim. Nümayəndə heyətinə Tofiq Zülfüqarov rəhbərlik edirdi. Vəfa Quluzadə də mənim xüsusi tapşırığımla oraya getmişdi, bu məsələlərə ümumi rəhbərlik edirdi və Ermənistan prezidentinin nümayəndəsi Liparidyan ilə də görüşlər keçirmişdir.

Bir cəhəti də qeyd etmək istəyirəm. Bonnda həqiqətən bir nailiyyət əldə etmək üçün mən buraya gəlməzdən bir gün öncə Ermənistan prezidenti cənab Levon Ter-Petrosyana telefonla zəng etdim və ona bildirdim ki, Vəfa Quluzadəni xüsusi səlahiyyətlə Bonna göndərirəm. Rica etdim ki, o da özünün xüsusi nümayəndəsi Liparidyana belə səlahiyyətlər, təlimatlar versin ki, onlar orada xüsusi danışıqlar apara bilsinlər. O mənim bu təklifimi məmnuniyyətlə qəbul etdi və bildirdi ki, o da belə hərəkət edəcəkdir. Doğrudan da, Bonnda Vəfa Quluzadə ilə Liparidyan arasında olan danışıqlar – şübhəsiz, bu hələ ki, danışıq xarakteri daşıyır, burada konkret bir nəticədən söhbət gedə bilməz – Vəfa Quluzadənin verdiyi məlumata görə, hesab edirəm ki, gələcəkdə bu prosesin davam etdirilməsi üçün yaxşı gedibdir.

Eyni zamanda qeyd edirəm ki, Bonnda Minsk qrupu həmsədrlərinin Budapeşt görüşü üçün hesabatının hazırlanmasında çox mübahisələr olmuşdur. Bu mübahisələrlə əlaqədar mən daim ora ilə telefon əlaqəsi saxlamışam. Nəhayət, bu mübahisələr qurtarmışdır və dünən həmin sənəd əsasən razılaşdırılmışdır. Vəfa Quluzadə dünən axşam bu məlumatı mənə verdi. Hazırlanmış sənəd Minsk qrupu həmsədrlərinin birillik fəaliyyətini əks etdirən sənəddir. Orada eyni zamanda göstərilir ki, bu bir il müddətində Böyük Siyasi Sazişin hazırlanması üçün hansı maddələr üzrə və yaxud hansı konkret məsələlər üzrə razılıq əldə olunubdur. Hansı məsələlər haqqında isə gələcəkdə hələ iş görülməlidir. Bir də qeyd edirəm, orada srağagün də, dünən səhər də bizi narahat edən bəzi məqamlar var idi və ona görə də mən Vəfa Quluzadəyə və Tofiq Zülfüqarova lazımi təlimatlar verdim. Nəhayət, dünən axşam onların verdiyi məlumat və sənədin layihəsi ilə tanışlığımız onu göstərir ki, bu sənəd bizim üçün də əsasən uyğundur. Həmsədrlər belə bir sənədlə Budapeşt görüşünə çıxacaq və orada bəyanat verəcəklər.

Şübhəsiz ki, bu, yenə də deyirəm, bir il müddətində bizim nəzərdə tutduğumuz nəticələrin əldə olunması demək deyildir. Güman edirəm ki, Budapeşt görüşündən sonra həmsədrlərin hesabatı bəyan ediləcək, dərc olunacaq, siz onunla tanış ola biləcəksiniz. Ancaq hesab edirəm ki, həmin sənəd danışıqların gələcəkdə davam etməsi üçün yaxşı əsas, yaxşı şərait yaradır. Məhz buna görə də mən deyirəm ki, xırda-xırda da olsa, biz irəliləyirik və bunlar hamısı ümid verir ki, məsələlərin sülh yolu ilə həll edilməsinə nail ola biləcəyik.



Beləliklə, mən Bonnda gedən son danışıqların nəticəsini ümumən müsbət qiymətləndirirəm. O mənada ki, danışıqlar davam edəcəkdir, müəyyən bir irəliləyiş var və ümidvar olduğumu bildirmək istəyirəm ki, ATƏT-in üzvü olan ölkələrin xarici işlər nazirlərinin Budapeşt görüşündən sonra danışıqlar prosesi daha da intensivləşəcəkdir. Həmsədrlər də Budapeşt görüşü üçün hazırladıqları birgə məruzədə göstərirlər ki, bundan sonra danışıqlar prosesi daha da intensivləşdiriləcək, sürətləndiriləcəkdir.

Dünən Bonnda Almaniyanın vitse-kansleri, xarici işlər naziri cənab Kinkel danışıqlarda iştirak edən Minsk qrupunun üzvləri ilə görüş keçirib, Bonnda aparılan danışıqlara yüksək qiymət verib və Minsk qrupunun üzvü kimi, Almaniyanın da bundan sonra bu prosesdə fəal iştirak edəcəyi barədə bəyanat veribdir. O bildirib ki, danışıqlar prosesi həm sürətləndirilməli, həm də qısa bir müddətdə yekun nəticəyə gətirib çıxarmalıdır. Güman edirəm ki, bu mərhələdə əldə olunan nailiyyət bizi hələlik qane etməlidir. Ancaq eyni zamanda biz işlərimizi bundan sonra da davam etdirəcəyik. Həmsədrlərin məruzəsində bildirilir ki, atəşkəs rejiminə bundan sonra da riayət olunmalı, bütün məsələlər yalnız danışıqlar, sülh yolu ilə həll edilməli və atəşin yenidən başlanmasına imkan verilməməlidir. Biz öz tərəfimizdən daim buna riayət etmişik və bundan sonra da riayət edəcəyik.

Bu məsələ barədə bu qədər. Mən bu məlumatları şəxsən özüm sizə çatdırıram ki, birincisi, düzgün məlumat alasınız, ikincisi isə, siz də biləsiniz və ictimaiyyətimiz də bilsin ki, bu danışıqlar nə qədər çətinliklə irəliləyir və bu çətinliklərə baxmayaraq, biz bunu aparır və bundan sonra da aparacağıq. Hesab edirəm ki, biz bu yolla bundan sonra da getməliyik.

**S u a l :** Nyu-Yorkda Ermənistan prezidenti Levon Ter-Petrosyanla görüşünüz zamanı hansı məsələlərə toxunulmuşdur?

**C a v a b :** Bu ilin oktyabrında Nyu-Yorkda Ermənistan prezidenti Levon Ter-Petrosyanla görüş zamanı hər ikimiz sülh prosesini davam etdirməyin zəruri olduğunu göstərmişik. Biz orada belə bir fikrə gəldik

ki, nümayəndə heyətlərinin Minsk qrupu çərçivəsində danışıqları ilə yanaşı, xüsusi nümayəndələrimiz birbaşa danışıqlar aparsınlar. Bu proseslər bir-birinə mane olmur, bir-birinə zidd deyildir. Əksinə, indiyə qədər gedən prosesi daha da gücləndirə bilər.

**S u a l :** Azərbaycan və Ermənistan respublikalarının birgə bəyanatı barədə ABŞ-ın təklif etdiyi layihə ilə bağlı fikrinizi deyə bilərsinizmi?

**C a v a b :** Həmin layihədə göstərilir ki, Ermənistan və Azərbaycan bir-birinin ərazi bütövlüyünü tanıyırlar. Bu, bizim üçün çox əhəmiyyətli müddəadır. Baxmayaraq ki, dünyada dövlətlərarası bütün hüquq normaları hər bir dövlətin ərazi bütövlüyünün tanınmasını tamamilə nəzərdə tutur. Nəzərə alsaq ki, yeddi il davam edən münaqişədə Ermənistan Azərbaycanın ərazi bütövlüyünü heç vaxt, heç bir sənəddə tanımayıbdır. Amerika Birləşmiş Ştatlarının təklif etdiyi layihədə belə bir müddəanın olması çox gərəklidir, çox əhəmiyyətlidir. Amma Ermənistan bu layihəni qəbul etməmişdir.



## RİTA-SÖTA-nın MÜXBİRİNƏ MÜSAHİBƏ

*London*
*1 dekabr 1995-ci il*

**S u a l :** Siz indiki səfərə necə qiymət verərdiniz?

**C a v a b :** Bilirsinizmi, indiki səfər, ən əvvəl, iqtisadi xarakter daşıyır və Böyük Britaniyanın dövlət strukturları ilə deyil, Adam Smit İnstitutu və burada yerləşən beynəlxalq maliyyə, bank mərkəzləri ilə daha çox bağlıdır. Lakin Adam Smit İnstitutunun bu konfransına işgüzar dairələrin olduqca çox nümayəndələrinin toplandığını nəzərə alaraq, mən konfransın özündə işlə yanaşı, maliyyə, bank dairələrinin və strukturlarının böyük qrupları ilə, şirkətlərin nümayəndələri ilə görüşlər keçirdim. Buna görə də hesab edirəm ki, səfər ərəfəsində özüm üçün qarşıya qoyduğum məqsəd əldə olunmuşdur. Mənim daha bir sıra görüşlərim nəzərdə tutulur. Məsələn, bu gün Avropa Yenidənqurma və İnkişaf Bankının vitse-prezidenti cənab Firman ilə görüşürəm. O, Fransadan gəlmişdir. Odur ki, mənim səfərim ölkəmizdə iqtisadi islahatların genişləndirilməsinin zəruriliyi ilə, iqtisadi münasibətlər yaradılması və özəl biznesin inkişaf etdirilməsi ilə bağlıdır.

Təbiidir ki, burada olduğuma görə, mənə Böyük Britaniya hökumətinin müvafiq orqanları maraq göstərmişlər. Mən nazir, ticarət-sənaye palatasının sədri cənab Lanq ilə görüşdüm, dünən baş nazirin müavini cənab Hezltaynla, xarici işlər naziri cənab Rifkindlə çox ətraflı söhbətlərimiz oldu. Bu görüşlər zamanı biz ikitərəfli münasibətlərlə, ən əvvəl, iqtisadi əməkdaşlıq sahəsində münasibətlərlə, onların hərtərəfli inkişafı ilə bağlı məsələləri müzakirə etdik. Əlbəttə, bununla bərabər biz dünya siyasəti ilə bağlı məsələləri də, xüsusən Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı məsələləri də nəzərdən keçirdik, bu problemin dincliklə həlli yollarını müzakirə etdik.

Mən bu görüşlərdən razıyam, onların hamısı müsbət xarakter daşıyır, Azərbaycanın Böyük Britaniya ilə, beynəlxalq və işgüzar dairələrlə, maliyyə və bank dairələri ilə münasibətlərinin daha da genişləndirilməsinə kömək edir.

**S u a l :** Cənab Prezident, bir çox maliyyə təsisatları, beynəlxalq təşkilatlar deyirlər ki, Bakı islahatlar yolu ilə, iqtisadi dəyişikliklər yolu ilə inamla gedir. Sizin fikrinizi öyrənmək istərdik. Azərbaycanın yaxın vaxtlarda və ya gələcəkdə dünya iqtisadiyyatına qoşulmaq imkanları necədir?

**C a v a b :** Bilirsinizmi, gələcəkdə nə olacağı barədə proqnoz vermək və bəri başdan müəyyən fikir söyləmək çətindir. Lakin götürdüyümüz xətt və yeritdiyimiz əzmkarlıq yaxın vaxtlarda konkret əməli nəticələrə nail olmağı nəzərdə tutur. Bu, bir də onunla bağlıdır ki, biz yeni konstitusiya qəbul etmişik və burada milli dövlət quruculuğu ilə insan hüquqları və ümumən demokratikləşdirmə ilə bağlı olduqca çox müddəalar var. Konstitusiya bütövlükdə və tamamilə Azərbaycanda demokratik hüquqi dövlət qurulmasına, onun həyatının bütün sahələrində, o cümlədən də iqtisadiyyat sahəsində demokratikləşdirməyə həsr olunmuşdur. Konstitusiyadakı müddəalar, maddələr Azərbaycanın dünya iqtisadiyyatına qovuşması, xüsusi sahibkarlığın inkişaf etdirilməsi üçün maksimum əlverişli şərait yaradır. Biz dövlət mülkiyyətini özəlləşdirmək proqramına başlamışıq. Bəzi sahələr artıq dövlətin tabeliyindən çıxarılmışdır. Bunlar ticarət, xidmət və bir sıra digər sahələrdir. Proqramı üç il ərzində həyata keçirmək nəzərdə tutulmuşdur. Biz aqrar sektorda islahatlar aparır, əcnəbi sərmayədarlar üçün əlverişli şərait yaratmışıq, xarici sərmayələrin idarə olunması üçün xüsusi milli agentlik təşkil etmişik, bəzi müəssisələrimizi xarici şirkətlərin idarəsinə vermək niyyətindəyik. Bütün bunlar birlikdə götürüldükdə məhz belə bir inam yaradır ki, biz yaxın vaxtlarda konkret nəticələr əldə edəcəyik.

Azərbaycanın neft yataqlarının birlikdə işlənməsi haqqında on bir iri transmilli şirkətlə bir il əvvəl imzalanmış böyük müqavilə və onun əməli surətdə həyata keçirilməsi də irəlilədiyimizə sübutdur. Noyabrın 10-da biz Rusiyanın «LUKoyl», İtaliyanın «ACİP», Amerikanın «Pennzoyl» şirkəti ilə daha bir müqavilə imzaladıq. Yeri gəlmişkən, deyim ki, Rusiyanın bu şirkəti böyük neft müqaviləsində də iştirak edir. Bizdə xarici şirkətlərlə yaradılmış mindən çox müştərək müəssisə var. Biz kiçik biznesi inkişaf etdiririk.

**S u a l :** Dağlıq Qarabağda münaqişə Azərbaycanın iqtisadi inkişafını ciddi şəkildə çətinləşdirir. Necə bilirsiniz, bu münaqişəni aradan qaldırmağın nə kimi üsulları var və bununla əlaqədar Rusiya nə edə bilər?



**C a v a b :** Ən əvvəl deyim ki, bu münaqişə yeddi ildir davam edir. Belə bir fakt mühüm nailiyyətdir ki, il yarımdır müharibə getmir, qan tökülmür. Biz atəşin müvəqqəti kəsilməsi, barışıq haqqında sazişə nail olmuşuq və bu rejimə əməl edirik. Ümumiyyətlə, bu bir il yarımda çox iş görmüşük. Məsələn, ötən ilin dekabrında Budapeştdə ATƏT dövlətləri başçılarının görüşü Azərbaycan üçün mühüm mərhələyə çevrilmişdir. Bu, onunla bağlıdır ki, orada Azərbaycanın Dağlıq Qarabağ bölgəsi üstündə Ermənistanla Azərbaycan arasında münaqişəyə dair xüsusi qətnamələr qəbul edilmişdir. Dünən Bonnda ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə Ermənistanın və Azərbaycanın nümayəndə heyətləri arasında danışıqlar başa çatmışdır. Siz bilirsiniz ki, Minsk qrupu Rusiya və Finlandiyanın həmsədrliyi ilə fəaliyyət göstərir. Əlbəttə ki, biz bu növbəti danışıqlarda böyük tərəqqiyə nail olmaq ümidində idik. Amma Ermənistan tərəfinin o qədər də konstruktiv olmayan mövqeyi üzündən biz buna müvəffəq olmadıq. Lakin həmsədrlər – Rusiyadan cənab Lozinski və Finlandiyadan cənab Talvitiye tərəfindən hazırlanmış və ATƏT-in üzvü olan ölkələrin xarici işlər nazirlərinin dekabrın 7-də Budapeştdə keçiriləcək görüşünə təqdim ediləcək məruzə məsələnin dincliklə nizama salınması sahəsində gələcək fəallığımız və birgə işimiz üçün zəmin yaradır. Mən bu məruzəni yaxşı sənəd hesab edirəm. Bir sözlə, biz münaqişənin dincliklə aradan qaldırılmasına tərəfdarıq, bu istiqamətdə konstruktiv mövqe tutmuşuq və fəal işləyirik.

Rusiyanın nə edəcəyi barədə sualınıza gəldikdə cavab verim ki, o, çox şey edə bilər. Əvvəla, Rusiya ATƏT-in Minsk qrupunun həmsədridir. İkincisi, açığını deyim, onun Ermənistana böyük təsiri var. Buna görə də Rusiya çox şey edə bilər. Ermənistanın konstruktiv mövqe tutması təqdirində münaqişənin dincliklə aradan qaldırılmasına nail ola bilər. Siz bilirsiniz ki, Ermənistanın silahlı qüvvələri bu münaqişə ərzində Azərbaycan ərazisinin 20 faizindən çoxunu işğal etmişdir.İşğal olunmuş torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı zorla qovulub didərgin salınmışdır. Onlar son dərəcə ağır şəraitdə, əksəriyyəti çadırlarda yaşayırlar. Odur ki, məsələnin dincliklə nizama salınmasına nail olmaqda Ermənistandan çox şey asılıdır. Rusiyanın Ermənistana təsiri isə böyükdür.

**S u a l :** Tez-tez bir çox ən iri neft şirkətləri əsrin müqaviləsindən danışır. Həmçinin deyirlər ki, Xəzərin Azərbaycan şelfindən neftin ixracı üçün boru kəməri çəkilməsi haqqında Rusiya ilə saziş imzalanma-

sı planlaşdırılır. Bunun1a əlaqədar olaraq Azərbaycanın Rusiya ilə iqtisadi əməkdaşlığının perspektivləri necədir?

**C a v a b:** Perspektivlər yaxşıdır, əvvəla, Azərbaycandan ilkin neftin ixracı üçün boru kəmərləri – onlardan biri Rusiya ərazisindən keçəcək – çəkilməsi haqqında oktyabrın 9-da bizim qərar qəbul etməyimiz artıq buna dəlalətdir ki, söhbət Rusiya ilə uzunmüddətli və kifayət qədər geniş əməkdaşlıqdan gedir. Yeri gəlmişkən, sənədlər yaxın vaxtlarda imzalanacaqdır və zənnimcə,biz neft kəmərinin çəkilişinə başlayacağıq. İkincisi, Rusiya müqavilədə iştirak edir. Neft müqaviləsində iştirak payının 10 faizi Rusiyanın «LUKoyl» şirkətinə məxsusdur. Bu şirkət noyabrın 10-da imzaladığımız müqavilədə sanballı paya malikdir. Həmin müqavilədə «Pennzoyl» və «ACİP» şirkətləri də iştirak edirlər. Odur ki, Rusiya ilə neft sənayesi sahəsində əməkdaşlıqdan danışmalı olsaq, deməliyəm ki, burada artıq kifayət qədər yaxşı baza, zəmin yaradılmışdır. Əlbəttə, bizim Rusiya ilə uzun müddət çox sıx əlaqələrimiz olmuşdur. Buna görə də biz bir çox digər istiqamətlərdə də əməkdaşlıq edə bilərik və edəcəyik. Mən yaxşı perspektivlər olduğunu görürəm.

***Müsahibəni apardı: Andrey Urban***



## «MOND DİPLOMATİK» QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ

*Paris*
*3 dekabr 1995-ci il*

**S u a l :** Müharibədə atəşkəs əldə edilməsinə baxmayaraq daimi sülh yaranmasına mane olan məsələlər, Sizcə nədən ibarətdir?

**C a v a b :** Siz deyirsiniz ki, atəşkəs var, ancaq nə üçün sülh yoxdur. Siz bu sualı Ermənistanın nümayəndələrinə vermisiniz, yoxsa yox? Onlar nə deyirlər?

**M ü x b i r :** Mən iki ay bundan əvvəl Levon Ter-Petrosyanla görüşmüşəm. Onun verdiyi cavab onu göstərdi ki, böyük dövlətlərin ümumi sülh layihəsi hələ hazır deyil.

**H e y d ə r Ə l i y e v :** Bu da ola bilər. Amma mənim cavabım bundan fərqli olacaq. Bizim məsələlərimizi böyük dövlətlər həll etməmədir. Öz məsələlərimizi birinci növbədə biz özümüz həll etməliyik. Ermənistanla Azərbaycan arasında yeddi ildir ki, hərbi münaqişə gedir. Bir jurnalist, Fransanın vətəndaşı, kökünüzə görə erməni olduğunuz üçün siz özünüz fikirləşin. Bu münaqişə nəyə lazımdır? Azərbaycanın bir parçası olan Dağlıq Qarabağı Ermənistan silah gücü ilə özünə bağlamaq istəyir. Bu, dünyada bütün hüquq normalarına zidd olan bir hərəkətdir.

Siz bilirsiniz ki, bir ölkənin başqa bir ölkənin ərazisini zəbt etməsi üçün əsrlər boyu nə qədər müharibələr gedib. Ancaq bunlar heç vaxt yaxşı nəticə verməyib. Eləcə də Ermənistan ilə Azərbaycan arasında gedən müharibə. Bu müharibəni Azərbaycan başlamayıb. Qeyd etdiyim kimi, Dağlıq Qarabağı öz ərazisinə bağlamaq üçün bu müharibəni Ermənistan başlayıb. Yeddi ildə nə qədər qan tökülüb, nə qədər insanlar həlak olub. Ermənistanla Azərbaycan arasında olan o dostluq, iqtisadi, insani əlaqələr pozulub. Ermənistan ağır iqtisadi vəziyyətə düşüb, Azərbaycan da ağır iqtisadi vəziyyətə düşüb. Ermənistan da, Azərbaycan da blokada şəraitindədir.

Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal edib. İşğal olunmuş ərazilərdən bir milyondan çox Azərbaycan vətən-

daşı Ermənistan işğalçılarının qəsbkarlıq hərəkətləri nəticəsində öz yerlərindən qovulubdur. Onlar üç ildir ki, Azərbaycanın başqa bölgələrində çadırlarda ağır vəziyyətdə yaşayırlar. Müharibədə 30 mindən çox azərbaycanlı həlak olub. Bir neçə min azərbaycanlı Ermənistanda əsirlikdədir. Şübhəsiz ki, Ermənistan tərəfindən də həlak olanlar az deyildir.

Qeyd etdiyim kimi, bu müharibə həm Ermənistana, həm də Azərbaycana çox böyük zərbələr vurub. Ancaq bunlara baxmayaraq biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Biz hesab edirik ki, müharibə yolunun gələcəyi yoxdur. Ermənistanda və Ermənistandan kənarda yaşayan, Ermənistana tərəfdar olan adamlardan heç kəs düşünməsin ki, silah işlətmək yolu ilə Azərbaycanın ərazisini qoparıb ələ keçirmək olar. Ona görə də biz məsələni sülh yolu ilə həll etmək istəyirik.

Artıq il yarımdır, 18 aydan çoxdur ki, atəşkəs rejimi yaranıbdır. Biz hesab edirik ki, bu, müsbət haldır. Çünki müharibə yeddi il idi ki, ara vermədən gedirdi. Ancaq indi atəş yoxdur, qan tökülmür, insanlar qırılmır. Bu müharibəyə son qoyulmalıdır.

Siz sual verirsiniz ki, bu məsələ nə üçün həll olunmur. Mən sizə deyirəm ki, Ermənistanın bu məsələlərdə qeyri-konstruktiv mövqeyinə görə.

**M ü x b i r :** Üzr istəyirəm, LevonTer-Petrosyan da eynilə bu ifadəni Azərbaycan barədə işlətdi.

**H e y d ə r Ə l i y e v :** Onun sübutu yoxdur. Bu sözü demək olar, ancaq onu sübut etmək lazımdır. Mənim sübutum ondan ibarətdir ki, Ermənistan Azərbaycan torpaqlarının 20 faizini işğal etmişdir. Əhalimizin bir milyondan çoxu qaçqın vəziyyətində çadırlarda yaşayır. Bunu ədalətli hesab etmək olarmı?

**M ü x b i r :** Yox.

**H e y d ə r Ə l i y e v :** Biz istəyirik ki, müharibə qurtarsın. Şərtimiz nədir? İşğal olunmuş torpaqlardan Ermənistan silahlı qüvvələri çıxsın. Azərbaycanlı vətəndaşlar öz yerlərinə qayıtsınlar. Azərbaycanın ərazi bütövlüyü təmin olunsun. Dağlıq Qarabağda yaşayan ermənilərin istəkləri odur ki, onlara status verilsin. Orada bəzi ağılsız adamlar belə hesab edirlər ki, Dağlıq Qarabağa dövlət müstəqilliyi statusu verilə bilər. Bunu unutmaq lazımdır. Bu heç vaxt ola bilməz və heç bir beynəlxalq təşkilat, heç bir böyük dövlət Dağlıq Qarabağa müstəqillik statusu verilməsinə razı ola bilməz.



Rusiya bir ildir ki, Çeçenistanda müharibə aparır. Çeçenlər istəyirlər ki, dövlət müstəqilliyi əldə etsinlər. Rusiya buna razı deyil və orada öz hakimiyyətini möhkəmləndirmək üçün müharibə aparır. Biz hesab edirik ki, Rusiyanın ərazisi toxunulmazdır. Onun ərazisinin heç bir hissəsini ayrı müstəqil dövlət etmək olmaz. Eləcə də Azərbaycanın ərazisi toxunulmazdır, heç kəs zorla Azərbaycanın ərazisinin bir hissəsini əlimizdən ala bilməz. Ermənistanın da ərazisi toxunulmazdır. Biz bu dəqiqə Ermənistanın ərazisinin hansısa bir hissəsini əlimizə keçirmək istəmirik. Amma tarixi araşdırsanız, o ərazilərin bir çox hissəsi vaxtilə Azərbaycanın olub. Artıq sərhədlər yaranıb. Ermənistan da, Azərbaycan da müstəqil dövlətdir. Ermənistan da, Azərbaycan da Birləşmiş Millətlər Təşkilatının üzvüdür. Bizim sərhədlərimiz beynəlxalq hüquq normalarına görə, BMT tərəfindən tanınıb, qəbul olunubdur. Bunları dəyişmək olmaz. Ona görə də mən deyirəm ki, Ermənistanın mövqeyi – qeyri konstruktivdir.

Biz Dağlıq Qarabağa status, özü də əvvəlkindən daha yüksək status verməyə etiraz etmirik. Amma bu status yalnız müstəqil Azərbaycan Respublikasının tərkibində verilə bilər. Biz Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyinə də tamamilə zəmanət veririk. Dağlıq Qarabağın Ermənistanla yolunun da təmin olunmasına zəmanət veririk. Dağlıq Qarabağın Ermənistana yolu Laçın rayonundan keçir. Biz hətta razı olmuşuq ki, o yol beynəlxalq qüvvələrin nəzarəti altında olsun. Ermənistanda və Dağlıq Qarabağda heç kəs narahat olmasın, bu yoldan rahat istifadə etmək olar. Bizim konstitusiyamızda qeyri-konstruktiv heç bir şey yoxdur. Amma Ermənistan bu məsələni güc işlətməklə, zorla həll etmək istəyir. Siz, düzdür, ermənisiniz, amma fransalısınız. Fransanın demokratiyası belə şeylərə yol verməz. Elədir, yoxsa yox?

**M ü x b i r :** İndi söylədikləriniz barədə Sizə bir neçə sualım var.

**H e y d ə r Ə l i y e v :** Buyurun.

**S u a l:** Siz deyəndə ki, Azərbaycan torpaqlarının 20 faizi işğal olunub, Dağlıq Qarabağı da bu 20 faizin içərisinə qatırsınız, yoxsa yox?

**C a v a b :** Bəli, oraya Dağlıq Qarabağı da qatıram. Amma mən sənə bir arayış verim. Azərbaycanın işğal olunmuş ərazisi 16 min kvadrat kilometrdir. Bunun 4 min kvadrat kilometri Dağlıq Qarabağdır. Deməli, Dağlıq Qarabağın ətrafında 12 min kvadrat kilometr ərazi işğal olunub. Yəni üç Dağlıq Qarabağın ərazisinə bərabər ərazimiz də işğal edilib.

**S u a l :** Ermənilər bəyan edirlər ki, onlar işğal olunmuş bütün torpaqları geri qaytarmağa hazırdırlar. Şuşa və Laçını çıxmaq şərti ilə. Sizcə, bu təklif qəbul edilə bilərmi?

**C a v a b :** Qəbul edilə bilməz. Nə üçün, nəyə görə qəbul edilə bilməz? Birincisi, Laçın rayonu haqqında. Laçın Dağlıq Qarabağa daxil deyil. Ona görə də Laçın haqqında bu fikirlər hüquqdan tamamilə kənar fikirlərdir. İkincisi, Şuşa haqqında. Şuşa Azərbaycanın ən qədim mədəniyyət mərkəzlərindən biridir. Yaxşı olardı ki, mən mövcud vəziyyəti xəritə üzərində sizə izah edim.

**S u a l :** Belə başa düşürəm ki, ermənilər Dağlıq Qarabağ da daxil olmaqla bütün torpaqlardan çıxıb getməlidirlər.

**C a v a b :** Yox. Biz razıyıq ki, ermənilər Dağlıq Qarabağda qalıb yaşasınlar. Amma Ermənistan silahlı qüvvələri Şuşadan, Laçından və işğal edilmiş digər rayonlarımızın hamısından çıxmalıdır. Xəritədə bu yolu görürsünüzmü? Biz razıyıq ki, bu yolu beynəlxalq qüvvələrin nəzarəti altına verək. Yəni Dağlıq Qarabağ bu yol vasitəsilə Ermənistanla normal əlaqə saxlaya bilər. Bir də ki, əgər o torpaqlar azad edilsə, Böyük Sülh Müqaviləsi əldə olunsa, bizim keçmiş əlaqələrimiz yenə də bərpa olunacaq. Dağlıq Qarabağa dəmir yolu var. Onlar bu dəmir yolu vasitəsilə də Ermənistanla əlaqə saxlaya bilərlər. Vaxtilə, 70-ci illərdə Azərbaycana rəhbərlik edəndə Xankəndinə dəmir yolunu mən çəkdirmişəm. Bu dəmir yolu vasitəsilə Dağlıq Qarabağ həm Azərbaycanla, həm Rusiya ilə, həm də Ermənistanla bağlanmışdı. İndi Dağlıq Qarabağ bunların hamısından məhrum olub. Belə vəziyyətdə nə qədər yaşamaq olar?

**S u a l :** Dağlıq Qarabağda ermənilər özlərini müstəqil dövlət elan ediblər. Siz Dağlıq Qarabağ respublikasının prezidenti Koçaryanla danışıqlar aparmağa hazırsınızmı?

**C a v a b :** Siz çox qəribə sual verirsiniz. Qeyri-qanuni bir qurumla mən necə danışıq apara bilərəm? Dağlıq Qarabağ Azərbaycanın torpağıdır. Koçaryan da Azərbaycan vətəndaşıdır. Mən də Azərbaycanın prezidentiyəm. Mən Azərbaycanın prezidenti kimi, Azərbaycanın hər bir vətəndaşı ilə görüşüb danışa bilərəm. Amma qeyri-qanuni özünü prezident elan edən adamla mən necə görüşüb danışa bilərəm?

**S u a l :** ATƏT bu münaqişədə Dağlıq Qarabağı tərəf kimi qəbul edib?

**C a v a b :** Xeyr. Dağlıq Qarabağ tərəf kimi tanınmayıb. Biz də onları tərəf kimi tanımırıq.



**S u a l :** Mən bildiyimə görə Ermənistan özü də Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımayıb. Ona görə ermənilər Dağlıq Qarabağa status istəyəndə, müstəqil olmasa da, müstəqilliyə yaxın bir status tələb edirlər.

**C a v a b :** Nə olsun ki, onlar tələb ediblər? Mən də çox şey istəyirəm. O demək deyil ki, bunların hamısı olmalıdır. Bəlkə sən də istəyirsən ki, Fransanın prezidenti olasan, amma bu mumkün deyil.

**M ü x b i r :** Fransanın prezidenti olmaq çox ağır bir vəzifədir, işdir. Mən ola bilmərəm.

**H e y d ə r Ə l i y e v :** Amma burada sənin kimi bəziləri prezident olmaq istəyirlər.

**M ü x b i r :** Bildiyimə görə, Azərbaycan Dağlıq Qarabağa mədəni hüquqları olan muxtariyyət vermək fikrindədir.

**H e y d ə r Ə l i y e v:** Yox, ondan yüksək muxtariyyət vermək fikrindəyik. Mən bunu Ter-Petrosyana demişəm və bir də deyirəm. Azərbaycanın tərkibində, dünya təcrübəsində mövcud olan yüksək statuslardan birini Dağlıq Qarabağa verməyə hazırıq.

**S u a l :** Bu o deməkdir ki, onların özlərinin ayrıca silahlı qüvvələri də olacaqdır?

**C a v a b :** Yox, ola bilməz. Münaqişə qurtarana qədər ola bilər.

**S u a l :** Bəs keçid dövründən sonra necə?

**C a v a b :** Keçid dövründən sonra onlar Azərbaycanın tərkibində olacaqlar. Silahlı qüvvələri neynirlər? Onların polisi olacaq. İctimai asayişi təmin etmək üçün müəyyən qüvvələr olacaq. Yenidən müharibə etmək istəyirlər? Silahlı qüvvələri nədən ötrü saxlamaq istəyirlər?

**S u a l :** Cənab Prezident, Dağlıq Qarabağda yaşayan erməniləri Ermənistanda yaşayan ermənilərdən ayrı xalq, ayrı adamlar kimi qəbul edirsiniz, yoxsa onları eyni ermənilər kimi qəbul edirsiniz?

**C a v a b :** Erməni elə hər yerdə ermənidir. Siz də ermənisiniz, burada, Fransada yaşayırsınız. Necə, bir neçə növ erməni var? Siz ermənisiniz, Fransanın vətəndaşısınız, Ermənistanda yaşayan ermənilər Ermənistanın vətəndaşlarıdır. Azərbaycanda yaşayan ermənilər Azərbaycanın vətəndaşlarıdır. Bakıda on beş min erməni yaşayır. Bu, bizim azərbaycanlıların arvadlarıdır. Bizim on beş min erməni gəlinimiz var. Bu on beş min kəbindən də gör nə qədər uşaqlar olub. Bilirsiniz də, bizdə ailədə çox uşaq olur. Orta hesabla hər ailədə dörd-beş uşaq olsa, demək, o ailələrdə 60 min – yarısı erməni, yarısı azərbaycanlı adamlar

var. İndi bunlar özlərini azərbaycanlı yazdırırlar, çünki ataları azərbaycanlıdır. Amma istəsələr, erməni də yazdıra bilərlər. O baxır ata güclüdür, yoxsa ana güclüdür.

**S u a l :** Hörmətli Prezident, burada Sizdən eşitdiklərimlə Ermənistanda söylənilənlər bir-biri ilə tamamilə ziddiyyət təşkil edir. Sizcə, bu ziddiyyətlərin olduğu bir dövrdə sülhə nail olmaq mümkündürmü? Qarşıdan ATƏT-in Moskva görüşü gəlir. Bu görüş də əvvəlki görüşləri bənzəyəcəkdir? Çünki hələ də görüşlər olur, amma heç bir nəticə əldə edilmir.

**C a v a b :** Bilirsiniz, nə qədər ziddiyətlər olsa da, sülh əldə etmək lazımdır. Erməniləri başa salmaq lazımdır ki, onlar reallığı anlasınlar. Siz də – Fransada yaşayan ermənilər bu münaqişənin həqiqətən həll olunmasını istəyirsinizsə, bu reallıqdan çıxış etməlisiniz. Siz Moskvada olacaq danışıqlardan söhbət açdınız. Moskvada yox, iki gün bundan əvvəl danışıqlar Bonnda başa çatmışdır.

**S u a l :** Bu danışıqların bir nəticəsi olubmu?

**C a v a b :** Biz istəyən nəticə olmayıbdır. Ancaq belə bir qərar qəbul edilibdir ki, bu danışıqlar davam etdirilməlidir. Əgər Ermənistan tərəfi müharibəyə başlamasa, biz müharibə etmək istəmirik. Ancaq indiki belə vəziyyətdə də daim yaşamaq olmaz. «Nə müharibə, nə sülh» vəziyyəti şübhəsiz ki, bizi qane edə bilməz.

**S u a l :** Azərbaycanın Rusiya ilə münasibətləri barədə nə deyə bilərsiniz? Bəziləri deyirlər ki, Rusiya Ermənistana kömək edir, amma Azərbaycana kömək etmir. Rusiya Azərbaycanın əleyhinə olaraq Ermənistana kömək edir ki, Azərbaycan Rusiya ordularının, qüvvələrinin Azərbaycanda yerləşdirilməsinə razı olsun. Bu doğrudurmu?

**H e y d ə r Ə l i y e v :** Bunları kim deyir?

**M ü x b i r :** Şərhçilər.

**H e y d ə r Ə l i y e v :** Bunun bir hissəsi doğrudur. Rusiya Ermənistana kömək edir. Siz bilirsiniz ki, Rusiyanın Ermənistanda çox böyük hərbi hissələri, bazaları var. Orada otuz min nəfərdən artıq ordusu var. Ermənistanın Türkiyə ilə, İran ilə sərhədlərini də Rusiyanın qoşunları qoruyur. Siz Ermənistanda olanda soruşmamısınızmı ki, bu onların müstəqilliyinə nə qədər uyğundur?

**M ü x b i r :** Soruşmuşam. Deyiblər ki, bu ona görədir ki, bizi Türkiyədən qorusunlar. Siz bilirsiniz ki, bizim Türkiyə ilə problemimiz var.



**H e y d ə r Ə l i y e v :** Bu, doğru deyil, Türkiyənin Ermənistanla nə işi var! Türkiyə demokratik bir ölkədir, heç kəslə müharibə etmək istəmir.

**S u a l :** Azərbaycan keçmiş sovet respublikaları arasında yeganə respublikadır ki, orada Rusiyanın qoşunları yoxdur. Niyə? Siz bunu necə izah edərdiniz?

**C a v a b :** Siz istəyirsiniz ki, olsun? Biz müstəqil bir dövlətik.

**M ü x b i r :** Siz müstəqil dövlətsiniz, amma axı MDB-nin bir hissəsisiniz.

**H e y d ə r Ə l i y e v :** Biz MDB-nin üzvüyük. MDB-nin üzvü olsaq da, hərənin öz müstəqil siyasəti var. MDB-nin üzvü olmaq o demək deyildir ki, gərək Rusiyanın qoşunları hər yerdə olsun.Ümidvaram ki, siz bunları yaxşı bilirsiniz. Demək, siz seçə bilərsiniz ki, hansı dövlət doğrudan da, həqiqətən də müstəqildir, hansı müstəqil deyil.

**S u a l :** Yəni siz Rusiya qoşunlarını heç vaxt, qətiyyətlə qəbul etməmək fikrindəsiniz?

**C a v a b :** Axı bu sənin nəyinə lazımdır?

**M ü x b i r :** Çünki həmin o şərhçilər onu da bəyan edirlər ki, Azərbaycan Rusiya qoşunlarını qəbul etməyə razılıq verdiyi gün Rusiya artıq Ermənistana kömək etməyi dayandıracaqdır.

**H e y d ə r Ə l i y e v :** Sən buna zəmanət verirsən?

**M ü x b i r :** Mən Sizin bu barədə mövqeyinizi bilmək istəyirəm.

**H e y d ə r Ə l i y e v :** Sənin bu barədə bir zəmanətin olsa, onda bu barədə danışa bilərik.

**M ü x b i r :** Başqa sözlə, belə çıxır ki, siz Rusiya qoşunlarının Azərbaycanda yerləşdirilməsinin tamamilə əleyhinə deyilsiniz, yalnız şərtiniz var. Əgər Rusiya Ermənistana kömək etməsə, bu, mümkün ola bilər.

**H e y d ə r Ə l i y e v :** Bunu siz deyirsiniz, mən demirəm.

**S u a l :** Rusiyanın öz hərbi bazalarını Azərbaycanda yerləşdirmək arzusunu bir kənara qoyaraq, Rusiya ilə Azərbaycan arasındakı münasibətlər barədə nə deyə bilərsiniz? Məsələn, iqtisadi münasibətlər.

**C a v a b :** Yaxşı münasibətlər var. Biz istəyirik ki, münasibətlərimiz daha da yaxşı olsun. Rusiya böyük dövlətdir. Tarixən bizim onlarla iqtisadi əlaqələrimiz çox sıx olub. İndi Rusiyada da demokratik proseslər gedir. Azərbaycanda da demokratik proseslər gedir. Ona görə də müstəqilliyimizə zərər dəymədən biz Rusiya ilə dostluq əlaqələrini bundan sonra da inkişaf etdirməyə çalışacağıq.

**S u a l :** Siz rus ordusunu istəmirsiniz, amma rus ordusundan başqa hər şey olar?

**C a v a b :** Sən bu sualdan niyə yapışmısan? Mən başa düşmürəm, ümumiyyətlə, Fransa demokratik bir ölkədir. Sən Fransanın vətəndaşısan. Amma elə ordudan danışırsan. Burada biz gərək mədəniyyətdən – Pikassodan, Jan Jak Russodan, Fransanın başqa demokratik ənənələrindən danışaq. Amma siz mənimlə ancaq ordu haqqında danışırsınız.

**S u a l :** Yaxşı, gəlin onda bu məsələni bitirək. Azərbaycan ilə Ermənistan arasında hər hansı kompromis güzəşt ola bilərmi ki, bu münaqişə sülh yolu ilə başa çatsın?

**C a v a b :** Mütləq olar.

**S u a l :** Hansı güzəştlər ola bilər?

**C a v a b :** Ermənistan işğal etdiyi Azərbaycan ərazilərinin hamısından öz silahlı qüvvələrini çıxartmalıdır. Azərbaycan Dağlıq Qarabağa yüksək səviyyəli status verə bilər. İşğal olunmuş torpaqlardan Ermənistan silahlı qüvvələri çıxandan sonra bir milyondan artıq Azərbaycan vətəndaşı öz yerlərinə, evlərinə qayıtmalıdır. Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır. Azərbaycanın pozulmuş sərhədləri bərpa olunmalı və sərhədlərimizin toxunulmazlığı təmin edilməlidir. O cümlədən Laçın və Şuşa rayonlarından da Ermənistanın silahlı qüvvələri çıxmalıdır.

**S u a l :** Bunlar sülh sazişindən sonra olmalıdır?

**C a v a b :** Yox. Sülh sazişi elə bunun əsasında bağlanmalıdır. Dediyim kimi, Laçın rayonunun ərazisindən beynəlxalq qüvvələrin nəzarəti altında Ermənistana yol təmin edilməlidir. Hesab edirəm ki, biz bu şərtlər əsasında Ermənistanla Azərbaycan arasında münasibətləri bərpa edib, yaxşı iqtisadi əlaqələr qura bilərik. Dağlıq Qarabağda yaşayan erməni əhalisi də Azərbaycanın tərkibində çox firavan həyat tərzi qura bilər. Ermənistanla Azərbaycan arasında ticarət əlaqələri genişlənə bilər.

Dağlıq Qarabağın əhalisinin bütün kişiləri ordudadır. Bu orduda, silah altında nə qədər olmaq olar? Axı bu insanlar rahat həyat keçirməlidirlər. Ona görə də bu münaqişə qurtarmalıdır. Dağlıq Qarabağın ərazisində böyük inkişaf meydana gələ bilər.

**S u a l :** Ermənistanda ermənilər bildirirlər ki, biz bu münaqişədə iştirak etmirik. Yalnız Dağlıq Qarabağın ordusu ilə Azərbaycan arasında müharibə gedir. Siz bu barədə nə deyə bilərsiniz?



**H e y d ə r Ə l i y e v :** Siz buna inanırsınız?

**M ü x b i r :** Xeyr.

**H e y d ə r Ə l i y e v :** Onda niyə sual verirsiniz? Əgər müharibədə Ermənistan iştirak etməsəydi, Dağlıq Qarabağın ordusu heç bir şey edə bilməzdi və Azərbaycan öz ərazi bütövlüyünü təmin edərdi. Orada tək Ermənistan yox, başqa ölkələrin də silahlı qüvvələri iştirak edir. Siz bunu yaxşı bilirsiniz.

**S u a l :** Hansı xarici ölkənin silahlı qüvvələri?

**C a v a b :** Siz özünüz bunu yaxşı bilirsiniz.

**M ü x b i r :** Rusiya?

**H e y d ə r Ə l i y e v :** Mən dedim ki, siz özünüz bilirsiniz.

**S u a l:** Bir dövlətin torpaqları tutulanda və danışıqlar yolu ilə onu geri qaytarmaq mümkün olmayanda həmin dövlət müharibəyə başlayır. Siz yenidən müharibəyə başlamağa hazırsınızmı?

**C a v a b :** Mən sizə dedim ki, biz məsələni sülh yolu ilə həll etməyə çalışırıq və ümidvaram ki, məsələni sülh yolu ilə həll edəcəyik. Əgər sizin kimi adamlar da bu işə kömək etsələr. Fransada çoxlu erməni yaşayır. Siz onları başa salın ki, müharibə ilə heç bir şey etmək olmaz. Hamınız çalışın Ermənistanda olan davakar qüvvələri başa salasınız ki, silah ilə heç bir şey əldə etmək olmaz.

**M ü x b i r :** Bunu başa düşüblər, ona görə də danışıqlar aparırlar.

**H e y d ə r Ə l i y e v :** Ona görə də danışıqlarda konstruktiv mövqe tutmaq lazımdır.

**S u a l :** Oktyabrın 23-də Levon Ter-Petrosyanla Nyu-Yorkda görüşmüsünüz. O Sizə nə dedi?

**C a v a b :** O dedi ki, gərək biz çalışaq, məsələni sülh yolu ilə həll edək. O da mən dediyimi deyir. O sizin kimi demir.

**S u a l :** Əgər danışıqlar yolu ilə bunu əldə etməsəniz, onda müharibə edəcəksinizmi?

**H e y d ə r Ə l i y e v :** Siz provakasiyalı sual verirsiniz.

**M ü x b i r :** Jurnalistin vəzifəsidir ki, provakasiya xarakterli sual versin.

**H e y d ə r Ə l i y e v :** Amma jurnalist də bilməlidir ki, kiminlə söhbət edir.

**M ü x b i r :** Mən Sizi yaxşı tanıyıram, tərcümeyi-halınıza da bələdəm. Bilirəm ki, bütün dünyada Siz nüfuzlu bir siyasətçisiniz.

Bircə sualım qaldı, o da boru kəməri barədə.

**H e y d ə r Ə l i y e v :** Buyurun. Çoxdandır, sənin kimi bir erməni ilə görüşməmişdim. Ona görə də mən sənin bütün suallarına cavab verəcəyəm. Keçmişdə mənim ermənilərdən çox dostum olubdur. Amma bu münaqişəyə başlayandan sonra çoxdandır görüşməmişəm. Cənab Ter-Petrosyanla hərdənbir görüşürük. Biz onunla bir-birimizi yaxşı başa düşürük. Ona görə də mən ümidvaram ki, biz bu məsələləri sülh yolu ilə həll edəcəyik. Axırıncı sualınızı verin.

**S u a l:** Mümkündürmü ki, boru kəməri Ermənistandan keçsin? Çünki bu, iqtisadi cəhətdən ən sərfəli variantdır.

**C a v a b:** Hansı şərtlərə əsasən?

**S u a l:** Hansı şərtləri deyəndə nəyi nəzərdə tutursunuz?

**C a v a b:** Əgər biz müharibə ediriksə, necə ola bilər ki, boru kəməri oradan keçsin?

**S u a l:** Əgər sülh əldə etsəniz?

**C a v a b:** Əgər sülh əldə olunsa, keçə bilər. Əgər siz Ermənistana kömək etmək istəyirsinizsə, çalışın ki, sülh olsun. Ondan sonra neft kəməri də oradan keçə bilər.

***Müsahibəni apardı: Jan Gera***
***«Azərbaycan» qəzetinin 20 dekabr 1995-ci il***
***tarixli nömrəsindən götürülmüşdür***



## İNGİLTƏRƏNİN «MİDDL İST MEQEZİN» JURNALININ MÜXBİRİNƏ MÜSAHİBƏ

*Paris*
*4 dekabr 1995-ci il*

**M ü x b i r :** İlk sualım belədir: Siz bu yaxınlarda Nyu-Yorkda Ermənistan prezidenti ilə görüşmüsünüz. Bilmək istərdim, bu görüşdə hansı nəticələr əldə edilib və Ermənistan ilə Azərbaycan arasında münasibətlərin yaxşılaşdırılması istiqamətində hansı əməli addımların atılması mümkündür?

**H e y d ə r Ə l i y e v :** Oktyabrın 23-də mən Nyu-Yorkda Ermənistan prezidenti cənab Levon Ter-Petrosyanla görüşdüm. Biz məsələlərin sülh yolu ilə həll olunmasına dair fikir mübadiləsi apardıq. O da, mən də bəyan etdik ki, biz atəşkəs rejiminin bundan sonra da saxlanmasını təmin edəcəyik. Eyni zamanda ikimiz də bu fikirdə olduq ki, biz yollar axtarmalıyıq ki, saziş əldə edək, müharibəyə tamamilə son qoyaq və bölgədə sülhü təmin edək. Bunun üçün biz razılaşdıq ki, Minsk qrupu çərçivəsində danışıqlar davam etdirilməlidir və fikirləşməliyik ki, daha hansı konkret yollar tapa bilək ki, müharibəyə son qoyaq. Razılaşdıq ki, Minsk qrupu çərçivəsindəki danışıqlarla yanaşı, Ter-Petrosyan və mən öz xüsusi nümayəndələrimizi ayıraq və onlar da bilavasitə danışıqlar aparsınlar. Yəni görüşümüzün əsas nəticəsi, mənası sülh danışıqları aparmaqdan və qarşılıqlı razılaşma əldə etmək üçün yeni imkanlardan istifadə etməkdən ibarətdir.

**M ü x b i r :** Sizin bölgədə neçə aydan sonra sülh əldə edilə bilər? Siz Azərbaycanda bizim öz gözümüzlə gördüyümüz qaçqınlara və köçkünlərə deyə biləcəksinizmi ki, tezliklə evinizə qayıtmaq mümkün olacaqdır?

**H e y d ə r Ə l i y e v :** Bilirsiniz, bunu demək, yəni nə vaxt tam sülh əldə olunacağını demək çox çətindir. Belə sülhün olması üçün bir neçə şərt lazımdır. Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş ərazilərindən tamamilə çıxmalıdır, sizin gördüyünüz qaçqınlar, çadırlarda ağır vəziyyətdə yaşayan Azərbaycan vətəndaşları, yerlərindən, yurdlarından zorla çıxarılmış insanlar öz yerlərinə qayıtmalıdırlar. Dağlıq Qarabağ-

da yaşayan ermənilərin də təhlükəsizliyi təmin edilməlidir. Böyük sülh bu prinsiplər əsasında olmalıdır. Biz çalışırıq ki, bu tezliklə olsun.

Gecikmənin səbəbkarı biz deyilik. Siz bilirsiniz ki, gecikmənin səbəbkarı Ermənistandır. Çünki ermənilər Azərbaycanın torpaqlarını işğal ediblər. Onların işğalçılığı nəticəsində bizim vətəndaşlarımız zorla öz yerlərindən qovulublar. Ona görə də ermənilər geri çəkilməli, beynəlxalq hüquq normalarına riayət etməlidirlər. Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır. Biz bu şərtlər daxilində bölgəmizdə sülh yaratmaq istəyirik. Əlbəttə, çadırlarda ağır şəraitdə yaşayan bir milyondan artıq Azərbaycan vətəndaşının vəziyyəti bizi üzür, çox narahat edir. Biz istəyirik ki, onlar tezliklə öz yerlərinə qayıtsınlar. Yenə deyirəm, bu məsələlərin hamısının vaxtında həll olunması Ermənistanın mövqeyindən asılıdır.

**M ü x b i r :** İcazənizlə, Sizə neftlə bağlı bir neçə sualla müraciət edim. Mən Bakıda «Qarabağ» neft yatağının birgə istismarı ilə əlaqədar müqavilənin imzalanması mərasimində iştirak edirdim və Sizin oradakı çıxışınızı da diqqətlə dinlədim. Həmin müqavilə imzalandıqdan sonra bir neçə sualla bəzi adamlara müraciət etdim, lakin heç kim mənə dəqiq cavablar verə bilmədi. Bu cavabları Sizdən ala bilərəmmi? Müqavilədə iştirak edən şirkətlər layihəyə xərc qoyurlar və çıxarılan neftdən də öz səhmlərinə müvafiq pay götürəcəklər. Əgər nəzərə alsaq ki, şirkətlər qoyduqları xərci neftlə götürəcəklər və pay kimi alacaqları nefti də bunun üzərinə əlavə etsək, onların bütünlükdə götürəcəkləri neftin həcmi nə qədər olacaqdır?

**H e y d ə r Ə l i y e v :** Bunu hesablamaq lazım deyil. Çıxarılacaq neft təxminən 150 milyon tondur. Şübhəsiz ki, bunun bir hissəsi qoyulan xərclərə gedəcək, bir hissəsi də şirkətlərin və Azərbaycanın payına düşəcəkdir.

**M ü x b i r :** 150 milyon ton neft çıxarılması nəzərdə tutulan axırıncı müqavilədən Azərbaycanın payına nə qədər neft düşəcəkdir?

**H e y d ə r Ə l i y e v :** Azərbaycanın nə qədər neft əldə edəcəyini mən indi demək istəmirəm. Ancaq bundan hər kəs öz gəlirini götürəcəkdir, özü də yaxşı götürəcəkdir. Əgər gəlirimiz olmasa, biz o müqaviləni nə üçün bağlayırıq? Yaxud da ki, o şirkətlər bundan mənfəət götürməsələr, nə üçün gəlib sərmayə qoysunlar?

**M ü x b i r :** Cənab prezident, siz bu rəqəmləri niyə sirr olaraq saxlayırsınız?



**H e y d ə r Ə l i y e v :** Bu, sirr deyil. Burada mənim müşavirim var, ona deyərəm, sizə məlumat verər. Mən hesab etmirəm ki, bu rəqəmləri prezident deməlidir.

**M ü x b i r :** Ümumi siyasətə qayıtsaq, Siz hansı siyasəti yeritmək istəyirsiniz? Elə etmək istəyirsiniz ki, neft şirkətləri nə qədər mümkündür və imkan daxilində tez bir zamanda, çox miqdarda neft çıxarsınlar, yoxsa neftin az-az, tədricən, uzun müddətə çıxarılmasının tərəfdarısınız?

**H e y d ə r Ə l i y e v :** Bu bizim istəyimizdən asılı deyildir. Bu prosesdə hər bir işin öz vaxtı var. Həmin vaxtı biz qısalda bilmərik və onu süni surətdə uzatmağa da ehtiyac yoxdur. Məsələn, birincisi, müqavilə 30 il üçün nəzərdə tutulmuşdur. Bu 30 il müddətində hər bir mərhələnin öz vaxtı var. Ola bilər ki, işin gedişində imkanlar genişlənsin, o cür olmasın, bu cür olsun.

**M ü x b i r :** Sizcə, ölkənin iqtisadiyyatına müsbət təsir göstərmək üçün əsas gəlirləri nə vaxtdan etibarən əldə edəcəksiniz?

**H e y d ə r Ə l i y e v :** İlkin neft çıxarılandan sonra, 1997-ci ildə biz artıq gəlir əldə edəcəyik.

**M ü x b i r :** Sizə belə bir sual verim: Sizcə, Azərbaycan nə vaxt Küveytə dönəcəkdir?

**H e y d ə r Ə l i y e v :** Bilirsiniz, bu sualı mənə tez-tez verirlər. «Küveyt» ifadəsini qanun kimi götürmək istəmirəm. Küveyt ayrı ölkədir, Azərbaycan başqa ölkədir. Ancaq hesab edirəm ki, 2000-ci ildən sonra Azərbaycan xalqı lazımi qədər təmin olunacaqdır.

**M ü x b i r :** Bir neçə kəlmə ilə izah edə bilərsinizmi Rusiya ilə sərhədlər nə üçün bağlanmışdır?

**H e y d ə r Ə l i y e v :** Rusiya belə hesab edir ki,öz sərhədlərini Çeçenistandakı müharibə ilə əlaqədar bağlamışdır.

**M ü x b i r :** Axı orada müharibə başa çatıb, sərhədləri nə üçün açmayıblar?

**H e y d ə r Ə l i y e v :** Orada müharibə hələ qurtarmayıbdır.

**M ü x b i r :** Siz sərhədlərin açılması üçün danışıqlar aparırsınızmı?

**H e y d ə r Ə l i y e v :** Aparırıq.

**M ü x b i r :** Nəticəsi varmı?

**H e y d ə r Ə l i y e v :** Söz verirlər, baxaq, görək. Bir az çətindir.

**M ü x b i r :** İki il ərzində Siz əsas neft ixracı üçün boru kəmərini çəkməlisiniz. Siz hansı marşruta üstünlük verirsiniz?

**H e y d ə r Ə l i y e v :** Üstünlük yoxdur, iki marşrut müəyyən etmişik, ikisindən də eyni səviyyədə istifadə edəcəyik. Əsas neftə isə hələ vaxt var.

**M ü x b i r :** Diplomatiya sahəsindəki istedadınız barədə mətbuatda çox oxumuşdum. Amma indi Sizin mətbuatla işinizdən də çox gözəl diplomat olmağınızın şahidi oldum.

**H e y d ə r Ə l i y e v :** Təşəkkür edirəm.

**M ü x b i r :** Cənab Prezident, Fransanın neft şirkətləri ilə Azərbaycan arasında əməkdaşlıq barədə nə deyə bilərsiniz? Burada fransızlar belə hesab edirlər ki, onlar da Azərbaycan neftindən istifadə olunmasında öz rolunu oynamalıdırlar. İndiki səfəriniz zamanı bu neft şirkətlərinin nümayəndələri ilə görüşünüz olubmu?

**H e y d ə r Ə l i y e v :** Bilirsiniz, mən istəyirəm ki, Fransa gəlib Azərbaycanla neft sahəsində əməkdaşlıq etsin. Fransanın «Elf Agiten» şirkətinin prezidenti ilə mən bir neçə dəfə görüşmüşəm, bu gün axşam da onunla görüşəcəyəm. Bu gün Fransanın baş naziri cənab Alen Jüppe ilə danışanda da bu barədə öz fikirlərimi ona dedim. Hesab edirəm ki, «Elf Agiten» şirkəti Azərbaycanda böyük bir neft yatağının – «Şahdəniz» yatağının işlənməsində konsorsiuma daxil olmaq istəyir.

**M ü x b i r :** Cənab Prezident, bilirəm ki, Sizin iş cədvəliniz çox gərgindir. Müsahibəyə görə çox sağ olun.

***Müsahibəni apardı: Pol Mobek***



## «İNTERNEŞNL HERALD TRİBYUN» QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ

*Paris*
*4 dekabr 1995-ci il*

**S u a l :** Səfərinizdən məqsəd nədir?

**C a v a b :** Mənim səfərimdən məqsəd sırf iqtisadi problemlərdir. Mən Adam Smit İnstitutunun dəvəti ilə Londonda oldum. Bu institut «Azərbaycanın sərmayə imkanları» mövzusunda Azərbaycana həsr olunmuş beynəlxalq konfrans təşkil etmişdi. İnstitut oraya dünyanın bir çox ölkələrindən işgüzar dairələrin, maliyyə mərkəzlərinin, müxtəlif şirkətlərin, bank strukturlarının nümayəndələrini dəvət etmişdi. Bu konfransdan başlıca məqsəd Azərbaycanı təqdim etmək, sərmayələr üçün onun bugünkü imkanları barədə məlumat vermək və təbii olaraq, ölkəmizin böyük potensial imkanlarını nəzərə alaraq Azərbaycana sərmayə qoyulmasını stimullaşdırmaq idi. Məqsəd, şübhəsiz, həm də budur ki, Azərbaycan həyatın bütün sahələrini demokratikləşdirmək yolu ilə gedir, iqtisadiyyat sahəsində strateji xəttə malikdir, bazar islahatları aparır, dövlət mülkiyyətini özəlləşdirir və Azərbaycan iqtisadiyyatını dünya iqtisadiyyatı ilə birləşdirmək üçün müxtəlif tədbirlər görür. Mən buna çox böyük əhəmiyyət verərək, Londona məhz bu məqsədlə getmişdim. Burada, Parisdə isə Ümumdünya Bankı Azərbaycanla əməkdaşlıq problemlərinə dair işgüzar dairələrin, maliyyə mərkəzlərinin təxminən bu cür görüşünü keçirir, lakin burada diqqət ən çox özəl sektorun inkişafına yönəldilir. Görüşdə işgüzar dairələrin olduqca çox nümayəndələri iştirak edir, Azərbaycandan geniş tərkibli böyük nümayəndə heyəti gəlib. Mən buraya məhz ona görə gəlmişəm ki, bu görüşdə şəxsən iştirak edim və toplaşanlar qarşısında çıxış edim. Bu, səfərimdən əsas məqsəddir. Bundan əlavə, hökumət nümayəndələri və rəsmi şəxslər ilə görüşmək imkanı yaranır. Bu gün mən baş nazir cənab Alen Jüppe ilə görüşəcəyəm.

**S u a l :** Siz Londonda Adam Smit İnstitutundan hər hansı xüsusi vədlər aldınızmı?

**C a v a b :** Bildiyiniz kimi, Adam Smit İnstitutunun özü heç nə vəd etmir. Şübhə yoxdur ki, Azərbaycan çox böyük maraq doğurmuşdur.

Bu konfransın iştirakçıları dedilər ki, onlar çox belə konfranslar keçiriblər, amma bu məclisə həddindən çox adam gəlmişdir. Bu, indi Azərbaycanın necə bir ölkə olduğunu, bizdə sərmayələr üçün, səmərəli əməkdaşlıq üçün nə kimi imkanlar olduğunu göstərmək baxımından kifayət qədər yaxşı fürsət idi. Lakin eyni zamanda bunu da nümayiş etdirmək üçün yaxşı imkan idi ki, Azərbaycan demokratikləşdirmə yolu ilə gedir, Azərbaycanda xarici sərmayələr üçün əlverişli şərait yaradılmışdır, sərmayədarlar üçün kifayət qədər yaxşı qanunvericilik bazası mövcuddur, yeni qanunlar qəbul olunmuşdur. Bu qanunlar istər xarici sərmayələr üçün, istərsə də Azərbaycanın və xarici şirkətlərin birgə fəaliyyəti üçün əlverişli şərait təmin edəcəkdir. Noyabrın 12-də biz Azərbaycanın yeni konstitusiyasını, yəni müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasını qəbul etdik. Konstitusiyada məhz iqtisadi əməkdaşlıq üçün lazım olan çox mühüm müddəalar var. Bütün bunlar kifayət qədər ətraflı məlumat verməyə imkan yaratdı.

**Sual:** Hazırda qonşularınız Rusiya və Ermənistan ilə münasibətləriniz necədir?

**Cavab:** Demək olar ki, Rusiya ilə münasibətlərimiz normal mehriban qonşuluq və dostluq münasibətləridir. Biz Ermənistan ilə yeddi ildən çoxdur hərbi münaqişə şəraitindəyik. O, Azərbaycana təcavüz etmişdir. Bu təcavüz, bu müharibə nəticəsində Azərbaycan ərazisinin 20 faizindən çoxu işğal olunmuş, işğal edilmiş torpaqların bir milyon nəfərdən çox sakini öz yaşayış yerlərindən zorakılıqla qovulub didərgin salınmışdır. İndi onlar Azərbaycanın başqa bölgələrində, çox ağır şəraitdə, əksəriyyəti də çadır şəhərciklərində yaşayırlar. Bu təcavüz Azərbaycan Respublikasına olduqca böyük maddi və mənəvi ziyan vurmuşdur. Hərbi əməliyyatlar zamanı 30 mindən çox azərbaycanlı həlak olmuşdur, respublikamızın minlərlə sakini tutulub Ermənistanda əsir saxlanılır.

Doğrudur, indi il yarımdan çoxdur, biz barışıq şəraitindəyik. İl yarım bundan əvvəl biz Ermənistan ilə Azərbaycan arasında atəşkəs haqqında saziş əldə etdik və bu rejimi yerinə yetiririk. Lakin bu, olsa-olsa fasilədir və Ermənistan-Azərbaycan münaqişəsi məsələsini sülh yolu ilə həll etmək üçün əsas etibarilə vasitə, imkandır.

Məsələnin sülh yolu ilə həlli isə yalnız bir şərtlə – Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan ərazisindən tamamilə çıxarılması, Azərbaycan vətəndaşlarının öz yaşayış yerlərinə qaytarılması, Azərbaycanın ərazi bütövlüyünün, Azərbaycan Respublikasının dövlət sərhədlərinin toxunulmazlığının təmin edilməsi şərti ilə mümkündür. Biz hesab edirik ki, bu münaqişənin aradan qaldırılmasına məhz bu şərtlərlə, sülh yolu ilə nail olmaq mümkündür. Ermənistan ilə Azərbaycan arasında münasibətlər, bax, bu cürdür.



**Sual:** Siz neft kəməri məsələsinin həllini ideal, yoxsa, güzəştli qərar sayırsınız?

**Cavab:** Bu, normal qərardır.

**Sual:** Cənab prezident Klinton şəxsən Sizdən xahiş etdimi ki, məhz bu cür qərar qəbul olunsun?

**Cavab:** Bəli, belə bir xahiş olub.

**Sual:** Mən bilirəm, Rusiya hökuməti məsələnin bu cür həllinə o qədər də müsbət yanaşmadı.

**Cavab:** Xeyr, normal yanaşdı.

**Sual:** Sizcə, yaxın gələcəkdə neft ixracının nəticələri necə olacaq? Ümumi milli məhsul necə olacaq? Bir sözlə, Siz neftdən konkret olaraq nə qədər pul qazanacaqsınız?

**Cavab:** Neft hələ yoxdur, siz isə pulu saymaq istəyirsiniz. Biz ilkin neftin hasilatını təmin etmək üçün hələlik tədbirlər görürük. Əgər proqram yerinə yetirilərsə, – bu 1996-cı ilin axırlarına yaxın mümkün olacaq, – neft hasilatı 1997-98-ci illərdə artırılacaqdır.

**Sual:** Belə hesab edirlər ki, Azərbaycanın neft ehtiyatları, mineral ehtiyatları Küveytin ehtiyatları qədərdir. Yəni bu o deməkdirmi ki, sizdə həyat şəraiti və gəlir çox yaxşı olacaq?

**Cavab:** Bəli, yaxşı olacaqdır.

**Sual:** Siz real gəliri, nəhayət, təxminən nə vaxt götürməyə başlayacaqsınız?

**Cavab:** Bizim proqramımız var. Təkrar edirəm, biz neft hasilatına artıq 1997-ci ildən başlayacağıq. Lakin onun həcmi tədricən artırılacaqdır. Mənə elə gəlir ki, bütün bunlardan ən yüksək səmərə təqribən 2003-cü ildə olacaqdır.

**Sual:** Çeçenistandakı hadisələrlə əlaqədar, İran kimi bir ölkə ilə qonşu olmağınızla əlaqədar respublikanıza vəsait qoymaq istəyən sərmayədarlara nə kimi təminatlar verdiniz, nə kimi dəlillər gətirdiniz? Siz buna necə nail oldunuz ki, sərmayədarlar Sizə inandılar, hər halda buna razılaşdılar?

**Cavab:** Bilirsinizmi, dünyada belə münaqişələr və mürəkkəb hadisələr müxtəlif bölgələrdə baş verir. Bax, siz Küveyti dediniz, yoxsa,

yadınızda deyil, Küveytdə necə bir müharibə getmişdir. Lakin sərmayədarlar bundan sonra da oraya vəsait qoymağı dayandırmadılar.

**M ü x b i r :** Cənab Prezident, çox sağ olun.



## «MOND» QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ

*Paris*
*4 dekabr 1995-ci il*

**H e y d ə r Ə l i y e v :** Mənə dedilər ki, siz bu yaxınlarda Bakıda olubsunuz.

**M a r i J e q o :** Bəli, olmuşam. Seçkilər zamanı, konstitusiya qəbul edilən zaman olmuşam. Mən belə düşünürəm ki, bu, demokratikləşdirməyə, vəziyyəti sabitləşdirməyə doğru yolda sizin üçün böyük addımdır. Amma seçkilər zamanı biz bəzi mənfi halları da gördük.

**H e y d ə r Ə l i y e v :** Yoxsa burada mənfi hallar olmur?

**M a r i J e q o :** Əlbəttə, burada da olur.

**H e y d ə r Ə l i y e v :** Mənə dedilər ki, siz bizim seçkiləri o qədər də obyektiv işıqlandırmadınız. Mənə belə çatdırdılar.

**M a r i J e q o :** Bəli, mən bu barədə kifayət qədər mənfi ruhda yazdım.

**H e y d ə r Ə l i y e v :** Bəs hesab etdinizmi ki, siz obyektiv yazdınız? Sizə elə gəlmirmi ki, hansısa təsir altına düşmüşdünüz?

**M a r i J e q o :** Xeyr.

**H e y d ə r Ə l i y e v :** Yoxsa, siz bizə qərəzkarlıqla yanaşırsınız?

**M a r i J e q o :** Xeyr.

**H e y d ə r Ə l i y e v :** Mən isə belə düşünürəm ki, əgər siz seçkiləri tamamilə mənfi ruhda işıqlandırmısınızsa, bu qeyri-obyektivlikdir. Siz ya Azərbaycana sadəcə olaraq qərəzkarlıqla yanaşırsınız, ya da sadəcə olaraq hansısa mənfi təsir altına düşmüşdünüz. Çünki seçkilər kimi böyük bir iş nöqsansız ola bilməz. Bu, təbiidir. Odur ki, jurnalist müsbət halları da, mənfi halları da görməlidir, nəyin çox olduğunu, nəyin isə az olduğunu götür-qoy etməlidir. Əgər adam diqqəti ancaq mənfi cəhətlər üzərində cəmləşdirirsə və müsbət halları görmək istəmirsə, onda, təbii olaraq, onun haqqında qeyri-obyektiv müəllif kimi bir təsəvvür yaranır. Bizim səfir Eleonora xanım Hüseynova mənə bildirəndə ki, siz mənimlə görüşmək istəyirsiniz və siz Bakıda olmusunuz və mənfi ruhlu material yazmısınız, mən dedim: nə olar, qoy gəlsin, məsələni aydınlaşdırarıq. Səfir şübhə edirdi ki, mən sizinlə görüşmə-

liyəmmi. Mən isə dedim ki, şəkk-şübhə lazım deyil. Müsbət ruhda yazan şəxslə görüşmək də olar, görüşməmək də. Amma bizim haqqımızda mənfi ruhda yazan şəxs qoy gəlsin və danışsın görək nə məsələdir.

**M a r i J e q o :** Mən bəzi müşahidəçilərlə görüşdüm. Dedilər ki, seçkilər prosesi ümumən normal keçdi. Nəticədə konstitusiya qəbul edildi, parlament seçildi. İndi parlament fəaliyyətə başlaya bilər. Bu, əlbəttə, bütün ölkə üçün, Azərbaycan üçün müsbət haldır. Sabitləşmə çox mühüm məsələdir.

**H e y d ə r Ə l i y e v :** Bax, indi təsəvvür edin: seçicilərin 86 faizi səsvermədə iştirak etdi. Onların 91,9 faizi, yəni 92 faizi konstitusiyaya səs verdi. Təqribən 8 faiz konstitusiyaya səs vermədi. İndi deyin görək, bu demokratiyadır, ya yox? Əgər iqtidar nəyi isə sadəcə olaraq təşkil etmək istəsəydi, onda bunu 99 faizə də çatdırmaq olardı. Amma konstitusiyaya, əsas qanuna səs verənlər 91 faiz təşkil etdilər. Söhbət heç də tək bir adamdan getmir. Deməli, seçicilər konstitusiyanın layihəsinə öz münasibətini müəyyənləşdirmək imkanına malik idilər və onların 91,9 faizi konstitusiyanın lehinə, 8 faizi isə əleyhinə səs verdi. Deməli, beləleri də var, eləleri də. Bu, artıq ona dəlalətdir ki, xalqın öz iradəsini demokratik surətdə, azad şəkildə ifadə etməsi üçün şərait var idi. Bir halda ki, noyabrın 12-də eyni zamanda həm referendum, həm seçkilər keçirilmişdir, onda bunu, təbii olaraq, seçkilər barəsində də söyləmək mümkündür.

Lakin siz bunu əsas tutmalısınız ki, Azərbaycanda ilk dəfə olaraq azad seçkilər keçirilirdi. Məhz ilk dəfə olaraq. Bizdə hələ heç vaxt azad seçkilər keçirilməmişdi. Bundan başqa, seçkilər ilk dəfə olaraq çoxpartiyalı əsasda keçirildi. Seçkilərdə səkkiz partiya iştirak etdi. Bizim partiya sistemi təcrübəmiz yoxdur. Bizdə ən yaşlı partiya üç yaşındadır. Bəs bu üç ildə partiya nə edə bilər? Lütfən deyin,bu müddət ərzində partiyalılıq prinsiplərinə və digər prinsiplərə yiyələnmək olarmı? Bəzi partiyalar isə bir il, iki il bundan əvvəl yaradılıbdır.

Biz istəyirik ki, demokratiya olsun. Buna görə də xalq partiyalar yaradılması yolu ilə getdi. Bizdə Ədliyyə Nazirliyi vasitəsilə 30-dan çox partiya qeydə alınıb. Lakin onlardan yalnız 18-i bildirdi ki, seçkilərdə iştirak edəcəkdir. Yaxşı, nə deyirik, qoy belə olsun. Amma bu partiyalardan ancaq 8-i, daha doğrusu, 12-si bu cür hüquq qazanmaq üçün lazımi miqdarda imza toplaya bildi. Bir fikir verin, bəs nə üçün qalan 18 partiya buna müvəffəq olmadı? Ona görə ki, onlar 50 min imza toplaya bilmədilər. Bəzilərinin, yəni dörd partiyanın topladığı 50 min imzanın



xeyli hissəsi, Mərkəzi Seçki Komissiyasının aşkara çıxardığı kimi, həqiqi deyildi. Onları seçkilərə buraxmadılar. Səkkiz partiyanı isə buraxdılar. Bax, məgər elə bu prosesin özü göstərmirmi ki, artıq demokratikləşdirmə prosesi gedir? Doğrudurmu?

Beləliklə, seçkilər keçirildi. Birinci turda 125 nəfərdən 96-sı seçildi. 25 adam partiya siyahısı üzrə keçdi. 100 nəfərdən 71 nəfər majoritar prinsip üzrə keçdi. Deməli, 29 nəfər üçün seçkilər baş tutmadı. Bu, məgər demokratiya deyilmi? Demokratiyadır. Majoritar prinsip üzrə qalan 20 dairədə təkrar səsvermə oldu. Orada bir dairədə 5-6-7-8, yaxud 10-12 namizəd var idi. Onların hərəsindən 2 namizəd daha çox səs topladı. Onlar təkrar səsverməyə getdilər. Noyabrın 26-da 20 dairədə təkrar səsvermə keçirildi. Bu, məgər demokratiya deyilmi?

Noyabrın 26-da 20 dairədən 13-də deputatlar seçildi. 7 dairədə isə seçkilər yenə də baş tutmadı. Ya yetərsay olmadı, ya da müəyyən pozuntulara yol verildi. Mərkəzi Seçki Komissiyası həmin dairələrdə seçkiləri baş tutmamış hesab etdi. Deməli, bu da demokratiyadır. Beləliklə, 15 dairədə seçkilər fevralın 4-nə keçirildi. Nə vaxt Azərbaycanda belə şey olub? Heç vaxt. Haradasa kimsə nədənsə şikayətlənir. Bu, təbiidir. Bunsuz olmur. Fransada da hər şey ideal deyildir. Burada tətil edirlər. Siz üç gündür, hətta üç gündən artıqdır ki, metrodan istifadə edə bilmirsiniz. Halbuki ölkə zəngin ənənələrə, demokratiyaya, yüksək səviyyədə inkişaf etmiş iqtisadiyyata malikdir. Bəs bizdə necə? Biz müstəqilliyimizi cəmi dörd il bundan əvvəl əldə etmişik. Yeddi ildir müharibə gedir. Ərazimizin 20 faizi işğal olunub. İşğal edilmiş torpaqlardan bir milyon nəfərdən çox sakin didərgin salınıb və onlar çadırlarda yaşayırlar. Yəqin ki, siz bunları bilirsiniz. Çox mürəkkəb bir şəraitdə seçkilər keçirilməsi və konstitusiya qəbul edilməsi faktının özü artıq böyük bir nailiyyətdir. Buna görə də inamla deyirəm və yəqin siz də mənim səmimiliyimə şübhə etməzsiniz ki, bu bizim tərəfimizdən göstərilmiş hünərdir. Biz bu işə girişdik.Gərək bütün bu şəraiti, bütün bu vəziyyəti nəzərə alasan. Hər hansı bir təsadüfi halı, faktı çıxarıb ortaya atmaq, şişirtmək və sonra da «Mond» qəzetində belə yazmaq olmaz ki, Azərbaycanda hər şey pis idi.

**M a r i J e q o :** Mən artıq ətraflı izah etdim ki, Siz nə kimi imkanlara maliksiniz.

**H e y d ə r Ə l i y e v :** Bilmirəm. Buna görə də sizə əlavə izahat verirəm ki, siz gələn dəfə daha obyektiv yazasınız. Sizinlə də məhz buna görə görüşürəm.

**M a r i J e q o :** Çox sağ olun. Fransaya səfərinizdən məqsəd nədir?

**H e y d ə r Ə l i y e v :** Mənim bu səfərim, xaricə səfərim ancaq iqtisadi məsələlərlə bağlıdır. Həm də bu, dövlətlər, rəhbərlər tərəfindən heç də hər hansı bir dəvətlə bağlı deyildir. Bu, beynəlxalq iqtisadi təsisatlarla, maliyyə mərkəzləri və bank strukturları ilə bağlıdır. Məsələn, Londonda məşhur Adam Smit İnstitutu Azərbaycana həsr edilmiş xüsusi konfransın hazırlanması ilə yarım ildən çox məşğul olmuşdur. Bu konfransdan məqsəd sərmayələr qoyulması üçün Azərbaycanın potensial imkanlarını göstərməkdir. Eyni zamanda bunu göstərməkdir ki, Azərbaycan iqtisadiyyatı hansı yolla gedir: bazar iqtisadiyyatı, bazar islahatları aparılması, özəlləşdirmə keçirilməsi, əcnəbi sərmayədarlar üçün maksimum əlverişli şərait yaradılması. Bütün bu məsələlər iki gün ərzində konfransda ətraflı işıqlandırıldı.

Konfransa dünyanın bir çox ölkələrindən işgüzar dairələrin, maliyyə mərkəzlərinin, bank strukturlarının üç yüzdən çox nümayəndəsi gəlmişdi.Sizə demək istəyirəm ki, mən bu səfərdən son dərəcə razıyam. Hər hansı bir ölkəyə səfər etdikdə bu ölkənin rəhbərləri ilə, müvafiq iqtisadi strukturlar ilə danışıqlar gedir. Londonda isə bütün dünyanın nümayəndələri toplaşmışdılar. Özü də çox görkəmli xadimlər toplaşmışdılar. Bu konfrans çərçivəsində də, ondan kənarda da ən iri banklarda, maliyyə mərkəzlərində, ən iri şirkətlərdə mənim çox görüşlərim oldu. Səfərimdən məqsəd də məhz bundan ibarət idi.

Bu, Ümumdünya Bankının sabah burada keçirəcəyi tədbirlərə təxminən bərabərdir. Lakin burada Azərbaycanda xüsusi sahibkarlığın, özəl biznesin inkişaf etdirilməsinə daha çox diqqət yetiriləcəkdir. Bizdən də işgüzar adamların bir qrupu gəlib, dünyanın müxtəlif ölkələrindən çoxlu biznesmen dəvət edilib. İndi hazırlıq görülür və sabah orada mənim çıxışım olacaqdır.

Səfərimdən əsas məqsəd budur. Burada görüşlərim oldu, yeni görüşlər də keçiriləcəkdir. Mən cənab Alen Juppe ilə də görüşdüm. Bu, qabaqcadan nəzərdə tutulmuş görüş deyildi. Prezident Jak Şirak cənabları burada yoxdur. O, xaricdədir. Mən isə sabah, konfransda çıxış etdikdən sonra Bakıya qayıdıram.

**M a r i J e q o :** Fransa Azərbaycanda neft layihələrində çox da fəal iştirak etmir.



**H e y d ə r Ə l i y e v :** Amerika Birləşmiş Ştatları ilə, Böyük Britaniya ilə müqayisədə – bəli. Amma mən belə düşünürəm ki, Fransa bu işlərdə iştirak edəcəkdir. Mən «Elf agiten»in prezidenti ilə görüşəcəyəm. Yeri gəlmişkən, mən onunla əvvəllər də görüşmüşəm. O, Bakıda olub. Mən onunla Parisdə də görüşmüşəm. Belə düşünürəm ki, «Elf agiten» Azərbaycanda çox geniş miqyasda təmsil olunacaqdır.

**M a r i J e q o :** Başqa bir sual. Sizin Rusiya ilə münasibətləriniz?

**H e y d ə r Ə l i y e v :** Yaxşıdır.

**M a r i J e q o :** Sizin İranla sərhədlərinizi Rusiyanın qoruyacağı barədə danışıqlar aparılırmı?

**H e y d ə r Ə l i y e v :** Rusiya artıq Ermənistanda və Gürcüstanda sərhəd qoruyur. Zənnimcə, bu bəsdir. Yoxsa, istəyirsiniz ki, hər yerdə qorusun?

**M a r i J e q o :** Sadəcə olaraq soruşuram.

**H e y d ə r Ə l i y e v :** Ortaya belə məsələlər çıxır. Amma indi bizdə problem yoxdur.

**M a r i J e q o :** Necə hesab edirsiniz, tezliklə Rusiyada seçkilər olacaq, bu, Rusiya ilə münasibətlərinizdə nəyisə dəyişdirə bilərmi?

**H e y d ə r Ə l i y e v :** Mən belə düşünürəm ki, dəyişdirə bilməz. Rusiyada seçkilər Rusiyanın daxili işidir.Məncə, bu, Rusiyanın strateji xəttinə, bizim onunla qarşılıqlı münasibətlərimizə təsir göstərməyəcəkdir.

**M a r i J e q o :** İndi sizin İranla münasibətləriniz necədir? İran konsorsiuma qəbul edilmədikdən sonra münasibətləriniz korlanmayıb ki?

**H e y d ə r Ə l i y e v :** Bəli, münasibətlərimiz bir az sərinləşib. Lakin hesab edirəm ki, düzələcəkdir.

**M a r i J e q o :** Sizcə, onlar hər hansı neft müqaviləsində iştirak edə bilərlərmi?

**H e y d ə r Ə l i y e v :** Şübhəsiz ki, iştirak edə bilərlər. Amma bizim digər müqavilələrdə.

**M a r i J e q o :** Bəs indi İranla sərhəd açıqdır, yoxsa bağlıdır?

**H e y d ə r Ə l i y e v :** Bəli, açıqdır. Orada problem yoxdur.

**M a r i J e q o :** Siz Azərbaycanın gələcəyini necə təsəvvür edirsiniz?

**H e y d ə r Ə l i y e v :** Azərbaycanın gələcəyi? Ən başlıcası budur ki, Azərbaycan bu hərbi münaqişədən xilas olsun, Azərbaycanın ərazi bütövlüyü, Azərbaycan sərhədlərinin toxunulmazlığı bərpa edilsin və

konstitusiyamıza görə, müəyyənləşdirdiyimiz xəttə görə Azərbaycan demokratik ölkə olsun, Azərbaycanda möhkəm dövlət quruluşu, demokratik hüquqi dövlət, Qərb demokratiyasından istifadə edərək, demokratiyanın daha da genişləndirilməsinə yönəldilmiş sivilizasiyalı dövlət bərqərar edilsin.

Yaxşı, bəs indi siz bizim haqqımızda obyektivmi yazacaqsınız? Yoxsa, hər şeyi yenə də əksinə təsvir edəcəksiniz?

**M a r i J e q o :** Belə hesab edirəm ki, obyektiv yazacağam.

***Müsahibəni apardı: xanım Mari Jeqo***



## AZƏRBAYCANA RƏSMİ SƏFƏRƏ GƏLƏN TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN BİNƏ HAVA LİMANINDA QARŞILANMASI MƏRASİMİNDƏ BƏYANAT

*7 dekabr 1995-ci il*

Hörmətli prezident, əziz dostumuz, qardaşımız, Süleyman Dəmirəl!

Hörmətli qonaqlar!

Qədim Azərbaycan torpağına–öz məmləkətinizə xoş gəlmisiniz. Mən sizi Azərbaycan xalqı adından, bütün Azərbaycan vətəndaşlarının adından ürəkdən salamlayıram və əmin olduğumu bildirmək istəyirəm ki, sizin bu səfəriniz Türkiyə ilə Azərbaycan arasında olan dostluq, qardaşlıq əlaqələrinin bundan sonra daha da inkişaf etdirilməsinə çox böyük xidmət edəcəkdir. Mən əminəm ki, siz burada Azərbaycan xalqının Türkiyəyə, türk xalqına olan sevgisini, məhəbbətini bir daha hiss edəcəksiniz və sizinlə burada aparacağımız danışıqlar, görüşlərimiz, sizin Azərbaycan xalqı ilə görüşləriniz gələcək əlaqələrimizi daha da inkişaf etdirəcəkdir. Siz bizə xoş gəlmisiniz, biz sizi qucaqlayırıq və sizi əziz dost, qardaş kimi qəbul edirik. Sizə burada xoş günlər arzulayıram.

# AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*8 dekabr 1995-ci il*

Hörmətli mətbuat nümayəndələri, jurnalistlər!

Hörmətli xanımlar və cənablar!

İki gündür ki, Türkiyə Respublikasının hörmətli prezidenti, əziz dostumuz və qardaşımız Süleyman Dəmirəl mənim dəvətimlə ölkəmizdə rəsmi səfərdədir. Hörmətli qonağımız Süleyman Dəmirəli hava limanında qarşılayandan indiyə qədər demək olar ki, gərgin iş gedibdir və bu qısa müddətdə bir çox nəticələr əldə edə bilmişik. Birincisi, əsas odur ki, müstəqil respublikamıza dostumuz, qardaşımız hörmətli Süleyman Dəmirəl Türkiyə Respublikasının prezidenti kimi, ilk dəfə gəlibdir. İkincisi, Azərbaycan Respublikasının həyatında tarixi hadisələr baş veribdir: respublikamızın, müstəqil Azərbaycanın ilk konstitusiyası qəbul olunubdur, ölkəmizin parlamentinə ilk demokratik seçkilər keçirilib və parlament öz fəaliyyətinə başlayıbdır. Bu hadisələrdən sonra müstəqil Azərbaycan Respublikasını ilk rəsmi ziyarət edən dövlət başçısı bizim hörmətli dostumuz, qonağımız prezident Süleyman Dəmirəldir. Hörmətli Süleyman Dəmirəl ölkəmizə gəldiyi ilk dəqiqələrdən indiyədək respublikamızın bugünkü həyatı ilə tanış olur, çoxlu görüşlər keçiribdir, müstəqil Azərbaycanın ilk parlamentində, yəni müstəqil dövlətimizin ilk demokratik seçkilərindən sonra yaranmış parlamentində çox parlaq, məzmunlu çıxış edibdir. Başqa görüşlər də olubdur. Dünən bizim aramızda təkbətək çox ətraflı danışıqlar, söhbətlər olub. Bundan sonra nümayəndə heyətlərimizin iştirakı ilə danışıqlar, görüşlər keçirilib. Bütün bu danışıqların, görüşlərin hamısı dostluq, mehribanlıq, səmimilik şəraitində olub və bunların hamısı Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinin sarsılmaz olduğunu bütün dünyaya nümayiş etdirir. Eyni zamanda əlaqələrimizin inkişaf etdirilməsi üçün böyük imkanların mövcüd olduğunu göstərir.

Hörmətli prezident Süleyman Dəmirəllə apardığımız danışıqlarda, söhbətlərdə məhz bu məsələlər diqqət mərkəzində olubdur. Hesab edirəm ki, bütün görüşlər, danışıqlar və hörmətli prezident Süleyman Dəmirəlin Azərbaycanın bir neçə sahələri ilə şəxsən tanış olması ölkəmizin bugünkü vəziyyəti haqqında Türkiyə ictimaiyyəti, dövləti üçün, xüsusən prezident Süleyman Dəmirəl üçün yeni bir mənzərə açır. Yəni ölkəmiz inkişafdadır, Azərbaycan müstəqilliyinin dördüncü ilini aşaraq irəliyə gedir.



Biz həm ikitərəfli münasibətlər, həm də beynəlxalq aləmdə gedən proseslər haqqında danışıqlar aparmışıq. Bütün bu danışıqlarımızın mərkəzində Ermənistanın Azərbaycana təcavüzünün qarşısının alınması və bu təcavüz nəticəsində ölkəmizin ərazisinin 20 faizindən çoxunun işğal olunması, işğal olunmuş torpaqlardan bir milyondan çox vətəndaşımızın yurdundan didərgin düşməsi məsələlərinin müzakirəsi durmuşdur. Biz eyni fikirdəyik ki, bu problem – Azərbaycan üçün ən ağır, çətin problem, eyni zamanda qardaş Türkiyə Respublikasını da həddindən artıq narahat edən problem sülh yolu ilə həll olunmalıdır və biz sülh yoluna üstünlük veririk. Ona görə də on doqquz ay bundan öncə Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında saziş əldə edilibdir. Biz atəşkəsə riayət edirik və bundan sonra da riayət edəcəyik. Ancaq bunlar yalnız danışıqları sürətləndirmək və sülh əldə etmək məqsədi daşıyır.

Böyük Sülh Sazişinin əldə olunması üçün şərtimiz də ondan ibarətdir ki, Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş torpaqlarından çıxarılmalı, ölkəmizin ərazi bütövlüyü təmin olunmalı, didərgin düşmüş bir milyondan artıq vətəndaşımız öz yerlərinə qayıtmalıdır. Şübhəsiz ki, Dağlıq Qarabağ problemini həll etmək üçün bununla yanaşı Azərbaycanın tərkibində, Azərbaycanın ayrılmaz hissəsi olaraq Dağlıq Qarabağa müəyyən status verilməsi məsələsinə də biz müsbət münasibət göstəririk. Bunlar da sülhün əldə olunması üçün aparılan danışıqların əsas şərtləridir. Biz bu barədə fikir mübadiləsi apardıq. Bir daha eyni fikrə gəlmişik ki, məsələlər bu yolla, yaxın zamanda həll edilməlidir. Bu danışıqlar sürətlə getməlidir ki, tezliklə nəticə versin. Çünki Azərbaycan «Nə sülh, nə müharibə» vəziyyətində uzun müddət qala bilməz.

İqtisadi əlaqələrimizin inkişaf etdirilməsi barədə bu gün artıq söhbət aparıldı və hər iki tərəfin buna münasibəti bildirildi. Fikrimiz eynidir ki, iqtisadi əlaqələr genişləndirilməlidir. Bütün sahələrdə – təhsil, mədəniyyət, insani əlaqələr və bütün başqa sahələrdə münasibətlərimiz yaxşıdır, ancaq bundan da yaxşı olmalıdır. Biz xeyli nailiyyətlər əl-

də etmişik, ancaq irəliyə getməliyik, yeni nailiyyətlər qazanmalıyıq. Bütün bunlar danışıqlarımızın əsas mövzusu olmuşdur.

**Sual:** Mənim sualım Prezident Heydər Əliyevədir. Demokratiya yolunda ciddi addımlar atdınız, konstitusiyanı dəyişdirdiniz. Demokratiyanın inkişafı üçün bundan sonra hansı addımları atacaqsınız?

**Heydər Əliyev:** Müstəqil Azərbaycanın ilk konstitusiyasının qəbul olunması konstitusiyanın dəyişdirilməsi demək deyil. Biz müstəqil Azərbaycanda ilk dəfə konstitusiya qəbul etmişik. Bu konstitusiyanın qəbul edilməsi Azərbaycanda bütün sahələrdə demokratiyanı bərqərar və inkişaf etdirmək üçün böyük bir əsas yaratmışdır. Eyni zamanda parlament seçkilərinin demokratik prinsiplər əsasında keçirilməsi və yeni parlamentin – müstəqil dövlətimizin parlamentinin yaranması Azərbaycanda demokratiyanın inkişaf etməsi üçün böyük bir addımdır. Biz bunları ilk addım hesab edirik. Hesab edirik ki, qarşımızda hələ böyük yol var. Demokratiya elə bir şey deyildir ki, onu bir gündə, bir ildə və yaxud bir neçə ildə tətbiq edib hər yedə bərqərar edəsən. Biz cəmi dörd ildir ki, müstəqil dövlət kimi yaşayırıq. Dörd il müddətində Azərbaycanın həyatında gedən proseslər məlumdur. Ona görə də bu konstitusiyanın qəbul edilməsi, həm də demokratik parlamentin seçilməsi demokratiya yolunda ilk addımdır və görəcəyimiz işlər hələ çoxdur.

Konstitusiyanın üçdə bir hissəsi insan azadlığına, insan, vətəndaş hüquqlarına həsr olunubdur. Vətəndaşlara, insanlara azadlıq şəraiti yaratmaq konstitusiyanın tələblərini həyata keçirməkdən ibarətdir. Siyasi plüralizm var və onun üçün imkanlar yaradılmışdır. Söz, mətbuat azadlığı Azərbaycanda artıq hökm sürür, hesab edirik ki, bundan sonra da geniş yayılmalıdır. Bizdə artıq bir çox partiyalar mövcuddur. Səkkiz partiya seçkilərdə iştirak etdi. Bir neçə partiya parlamentdə yer qazandı. Bu prosesi biz davam etdirəcəyik. Yəni partiyaların inkişaf etdirilməsi, güclənməsi üçün şərait yaradılacaqdır. Bu da demokratiyanın inkişafı yolunda atacağımız addımdır.

Təkcə ictimai sahədə deyil, həm də iqtisadiyyatın demokratikləşdirilməsi bizim əsas vəzifəmizdir. Bazar iqtisadiyyatının tətbiq olunması, özəlləşdirmənin, iqtisadi islahatların keçirilməsi, xarici ticarətin sərbəstləşdirilməsi, bank işində, valyuta sahəsində islahatların keçirilməsi – bunlar hamısı iqtisadiyyatda demokratiyanın tətbiq olunmasıdır. Bir sözlə, qarşımızda hələ görüləsi işlər çoxdur. Ancaq inana bilərsiniz ki,



biz bu işləri ardıcıl olaraq görəcəyik və tutduğumuz yolla irəliyə gedəcəyik.

**Sual:** İki dövlət arasında siyasi və iqtisadi əməkdaşlığı daha da möhkəmləndirmək üçün bu səfər zamanı hansı konkret tədbirlərin görülməsi razılaşdırılmışdır? İkinci sual Türkiyə prezidenti cənab Süleyman Dəmirələdir: İndiyədək Türkiyə Rusiyaya iki milyard dolladək, Türkmənistana təqribən 1,5 milyard dollar həcmində sərmayə qoymuşdur. Türkiyənin ən nüfuzlu şirkətləri Azərbaycandan daha çox keçmiş SSRİ-nin digər türk respublikalarına sərmayə qoymağı üstün tuturlar. Onlar Rusiyanı Azərbaycandan daha yaxın hesab edirlər, yoxsa Azərbaycandakı siyasi riskdən yan keçmək istəyirlər?

**Heydər Əliyev:** Hörmətli prezident Süleyman Dəmirəlin Azərbaycana rəsmi səfəri zamanı biz, – mən burada məlumat verdim, – çox böyük nailiyyətlər əldə etmişik. Yəni ölkələrimiz arasında olan dostluq və qardaşlıq əlaqələrinin bundan sonra daha da inkişaf etdirilməsi üçün əsas yaratmışıq. Biz burada birgə bəyanat imzaladıq, o, mətbuatda dərc olunacaqdır. Bütün bu prinsiplər bəyanatda öz əksini tapıbdır. Ölkələrimiz arasında indiyə qədər bütün sahələrdə olan əlaqələr bundan sonra daha sürətlə inkişaf edəcəkdir, o cümlədən siyasi əlaqələr, dövlətlərarası əlaqələr də inkişaf edəcəkdir. Güman edirəm ki, bu, çox böyük bir mərhələdir və mən bunu yüksək qiymətləndirirəm.

**Süleyman Dəmirəl:** Dəfələrlə demişəm və yenə deyirəm, bunu təkrar etməkdən zövq alır, qürur duyuram: Turkiyə ilə Azərbaycan arasındakı münasibətlər qardaşlıq, dostluq əlaqələri heç bir ölkə ilə müqayisə edilməyəcək qədər gözəldir. Ticarət, sərmayə məsələlərinin öz şərtləri var. Buraya Türkiyənin ən tanınmış dövlət qurumlarının başçıları da gəlmişlər. Biz Azərbaycanın yüksəlişini, zənginləşməsini çox istəyirik. Başqa ölkələrlə yaratdığımız münasibətlər bu istəyimizi azalda bilməz, əksinə, artırır.

**Sual:** Cənab Dəmirəl, Türkiyə Avropa Gömrük Birliyinə daxil ola biləcəkmi? İkinci sual cənab Prezidentimizədir. Siz Frans Press agentliyinə müsahibə verərkən belə bir fikir söyləmisiniz ki, biz Dağlıq Qarabağa yüksək status verməyə razıyıq. Bu yüksək status hansı səbəblərlə bağlıdır?

**Süleyman Dəmirəl:** Türkiyə Avropa Gömrük Birliyinə daxil olacaqdır. Avropa parlamentindəki siyasi partiyaların böyük bir qrupu Türkiyənin Gömrük Birliyinə daxil olmasına tərəfdardır. Hələlik

bir çətinlik görünmür. Beş gündən sonra, dekabrın 13-də bu məsələ müsbət həll olunacaqdır. Türkiyənin Avropa Gömrük Birliyinə daxil olması onun müqavilə hüququdur. Çünki Türkiyənin 1963-cü ildə imzaladığı sazişə əsasən 1973-cü ilədək davam edən protokol bundan 22 il sonra Gömrük Birliyinə daxil olmağı lazım bilir. O vaxtdan bəri Türkiyə iqtisadiyyatının Avropa iqtisadiyyatı ilə rəqabət edib-edə bilməyəcəyi və iqtisadiyyatımızın Gömrük Birliyinə girməyə hazır olub-olmaması uzun müddət araşdırılmış və məlum olmuşdur ki, Türkiyə iqtisadiyyatının rəqabət gücü var və Türkiyə Avropa Gömrük Birliyinə daxil ola bilər. 1996-cı ilin əvvəlindən etibarən Türkiyə Gömrük Birliyinin üzvü olacaqdır.

**Heydər Əliyev:** Dağlıq Qarabağa yüksək status verilməsi haqqında Frans Press agentliyinə verdiyim bəyanat ilk bəyanat deyildir. Mən bunu əvvəllər də bir neçə dəfə demişəm və bu gün də deyirəm ki, biz Azərbaycan Respublikasının tərkibində, onun ayrılmaz hissəsi kimi Dağlıq Qarabağa yüksək status verməyə hazırıq. Yüksək statusun nədən ibarət olması barədə, mənə belə gəlir ki, bu dediyim bəsdir. Yüksək status sözü artıq hər şeyi deyir.

**Sual:** İlk sualım hörmətli Heydər Əliyevədir. Dağlıq Qarabağ ermənilərinə verəcəyiniz status nədən ibarət olacaq? İkinci sualım hörmətli Dəmirələdir: Azərbaycanda siyasi həbslərin təkrarlandığını söyləyirlər. Belə şəxslərin buraxılması haqqında hörmətli Əliyevlə müzakirə olacaqmı?

**Süleyman Dəmirəl:** Təbii ki, Azərbaycandakı həbslər məsələsi onun daxili işidir. Biz iki qardaş ölkə olsaq da, iki ayrı dövlətik. Dövlətlərə aid məsələlərdə nəzakətin gözləndiyini bilməlisiniz. «Bir adamı həbs et» demək mənim üçün mümkün olmadığı kimi, «bir adamı azad et» deməyim də mümkün deyildir. Eyni şəkildə bu işlər hörmətli Heydər Əliyevin də əlində deyildir.

**Heydər Əliyev:** Mən bu suala cavab verdim. Yüksək status verməyə hazırıq, yəni Dağlıq Qarabağ Azərbaycan Respublikasının tərkibində, onun ayrılmaz hissəsi olaraq muxtariyyət statusu alacaq və bu da yüksək səviyyədə olacaqdır. Ancaq bunun təfsilatını indi demək mümkün deyildir. Əvvəl gərək biz bu barədə razılığa gələk, bundan sonra onun təfsilatı barədə danışıq aparaq, razılığa gələk.

**Sual:** Hörmətli Süleyman bəy, qaçqınlarla görüş zamanı dediniz ki, məsələ bu qışadək həll edilməli idi, lakin edilmədi, inşallah, gələn qışadək qaçqınlar öz yerlərinə qayıdacaqlar. Belə bəyanat verməyə hansı əsaslarınız var və nəyə inanırsınız?



**Süleyman Dəmirəl:** Mən hər şeydən əvvəl haqqa inanıram. Bir milyon insanın belə vəziyyətə düşməsi zülmdür və insanlığın qəlbini, ürəyini qanatmalıdır. Bir neçə il davam edən bu münaqişənin artıq qurtarması zamanı gəlmişdir. Bu, bitməlidir. Gələcək qışa qədər qalmamalıdır. Biz bunu dünyadan tələb edirik, hər kəs buna yardımçı olsun.

## FRANSA TELEVİZİYASININ MÜXBİRİ İLƏ MÜSAHİBƏ

*Paris*
*11 yanvar 1996-cı il*

**M ü x b i r:** Cənab Prezident, Sizinlə görüşməyimizi, Sizdən müsahibə almağımızı özümüzə şərəf hesab edirik, bizim üçün vaxt ayırdığınıza görə Sizə dərin minnətdarlığımızı bildiririk. Mənim adım Aluni de Polinidir. Mən bir neçə həftə bundan əvvəl Azərbaycanda olmuşam və Azərbaycana həsr edilən 300 dəqiqəlik film çəkmişəm. Sizdən indi alacağımız müsahibə «Evro-Nyus» kanalı ilə ingilis, fransız, alman və ispan dillərində efirə gedəcəkdir. Bu müsahibə dünyanın 80 ölkəsinə yayılacaqdır.

Cənab Prezident, Siz Bakıdan Parisə qədər uzaq bir məsafəni qət edərək, mərhum prezident Fransua Mitteranın dəfn mərasimində iştirak etmək üçün gəlmisiniz. Cənab Mitteranla Sizin əvvəllər dostluq əlaqələriniz olmuşdumu?

**C a v a b :** Bəli, olub. Mən cənab Mitteranı çox illərdir tanıyıram. Vaxtilə mən Moskvada işləyərkən, Sovetlər İttifaqının rəhbərlərindən biri – Siyasi Büronun üzvü, eyni zamanda Sovetlər İttifaqı Nazirlər Soveti sədrinin birinci müavini olduğum zaman cənab Mitteran Moskvaya səfərlər edərkən onunla görüşlərim olub, danışıqlarda iştirak etmişəm və onunla şəxsi tanışlığım olubdur. Sonra Azərbaycanda prezident seçkilərindən iki ay sonra, yəni 1993-cü ilin dekabrında cənab Mitteran məni Fransaya rəsmi səfərə dəvət etmişdi. Bu rəsmi səfər zamanı mən cənab Mitteranın Fransada qonağı olmuşam və o vaxt biz çox əhəmiyyətli danışıqlar aparmışıq, bir neçə sənədlər imzalamışıq. Müstəqil Azərbaycan Respublikası ilə Fransa arasında ilk yüksək səviyyəli əlaqələri biz mərhum cənab Mitteran ilə 1993-cü ilin dekabrında yaratmışıq. Sonra cənab Mitteran ilə mən beynəlxalq toplantılarda da görüşmüşəm. Keçən ilin may ayında mən burada faşizm üzərində qələbənin 50 illik yubiley mərasimlərində iştirak edərkən cənab Mitteranla da görüşlərim, söhbətlərim olubdur. Bunlara görə və cənab Mitteranın dünya siyasətində çox görkəmli xidmətləri olduğuna görə mən onun dəfn mərasiminə gəlmişəm.



**S u a l :** İkinci sualım siyasi xarakterli olacaqdır. Cənab Prezident Əliyev, Siz ölkənizdə yeni demokratiya yaratmısınız, onun əsasını qoymusunuz. Siz kommunistlərin Rusiyada yenidən hakimiyyətə qayıtmasından qorxmursunuzmu?

**C a v a b :** Bilirsiniz, biz doğrudan da, Azərbaycanda demokratik prinsiplər əsasında dövlət qurmuşuq. Müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasını qəbul etmişik. Demokratik prinsiplər əsasında yeni parlament seçmişik. Azərbaycan parlamentində, Azərbaycanın hakimiyyət orqanlarında kommunistlər yoxdur. Rusiyada kommunistlərin parlamentdə çox yer götürmələri, şübhəsiz ki, Rusiyada vəziyyətin müəyyən qədər dəyişməsinə gətirib çıxara bilər. Amma mən bunun böyük təhlükəsini görmürəm. Birincisi, parlamentdə çox yer götürmək hələ hakimiyyəti əldə etmək demək deyil. İkincisi, güman edirəm ki, o parlamentə seçilmiş kommunistlər də keçmiş kommunistlər kimi olmayacaqlar. Onlar demokratiya yolu ilə getməyə məcbur olacaqlar.

**S u a l :** Cənab Prezident, bayaq qeyd etdiyim kimi, bir ay bundan əvvəl mən Azərbaycanda olmuşam. Azərbaycanda çoxsaylı görüşlərim olub – adi insanlarla küçələrdə görüşmüşəm, biznesmenlərlə, yaşlı adamlarla, gənclərlə görüşlərim olub. Mən ölkənizdə olarkən, Azərbaycanın zəngin mədəniyyətinin şahidi olmuşam. Təəssüf ki, dünyanın bu bölgəsində Azərbaycan mədəniyyətinin zənginliyindən bizdə tam təfərrüatı ilə xəbərdar deyillər, Azərbaycana yalnız market, bazar kimi baxırlar. Azərbaycanın neft və qaz ilə zəngin bir dövlət olduğunu bilirlər. Sualım belədir: Siz nefti və qazı Avropaya satmaqdan başqa, Azərbaycan mədəniyyətini Avropaya ixrac etmək, çatdırmaq istiqamətində nələr etmək istəyirsiniz?

**C a v a b :** Biz bunu mütləq edəcəyik. Məsələ burasındadır ki, Azərbaycan keçmişdə müstəqil dövlət olmayıb. O, Sovetlər İttifaqının tərkibində olub. Ona görə də Azərbaycanın özünəməxsus zəngin mədəniyyəti Avropada, Qərbdə o qədər yaxşı tanınmayıbdır. Biz cəmi dörd ildir ki, müstəqil dövlət kimi yaşayırıq. Bu müddətdə Azərbaycanın tanınması üçün artıq çox işlər görülübdür. Mən çalışacağam ki, Azərbaycanda gördüyünüz zəngin, özünəməxsus milli mədəniyyəti Avropaya daha da geniş yayım. Biz baş qərargahı burada, Parisdə yerləşən YUNESKO-dan istifadə edirik.

**S u a l :** Cənab Prezident, son dəfə Bakıda olduğum dövrdə məni həddindən çox təəccüb bürüdü, yaxşı mənada çox heyrətləndim. Küçə-

lərdə gənclərdən, qocalardan, hərbçilərdən müsahibələr aldım, çoxsaylı adamlarla görüşdüm. Ömrümdə birinci dəfə idi ki, yüz nəfərdən eyni zamanda müsahibə aldım və hamı Sizə olan sevgisindən, məhəbbətindən danışdı. Bir nəfər tapmadım ki, prezidenti sevmədiyini, onun məşhur olmadığını söyləsin. Bu hal ilə ömrümdə birinci dəfə qarşılaşdığım üçün Sizə belə bir sualla müraciət edirəm: Siz özünüz məşhurluğunuzu, populyarlığınızı nə ilə izah edirsiniz?

**C a v a b :** Yəqin ki, həyatımda gördüyüm işlərlə. Mən öz xalqıma, millətimə, dövlətə həmişə sədaqətlə xidmət etmişəm. Bilirsiniz ki, mən keçmişdə də uzun müddət, çox illər Azərbaycanda rəhbər olmuşam. Bundan sonra mən Sovetlər İttifaqının rəhbərlərindən biri olmuşam. Ancaq sonra bir neçə il mən cəmiyyətdən təcrid olunmuşam. Hətta mənə qarşı repressiyalar da etmişdilər. Mən üç il Naxçıvanda, doğulduğum yerdə, blokada şəraitində olan xırda bir şəhərdə yaşamışam. Ancaq 1993-cü ilin iyun ayında Azərbaycanda vətəndaş müharibəsi başlayarkən xalq məni yenidən Azərbaycana tələb etdi.

Keçmiş illərdə də, indi də mən xalqa sədaqətlə xidmət edirəm. Mən məmnunam ki, xalq bunu qiymətləndirir. Bu barədə, xüsusən sizin bu fikriniz mənim üçün çox maraqlıdır. Çünki siz tamamilə kənar, neytral bir müşahidəçisiniz. Sizə bu sözləri deyən adamlar yəqin ki, yalan danışmayıblar. Çünki sizin Azərbaycan dövləti ilə heç bir əlaqəniz yoxdur. Neytral, xarici bir vətəndaşa hər kəs öz ürəyini açıb, istədiyini deyib. Buna görə sizin bu məlumatınız öz orqanlarımın mənə verdikləri məlumatlardan qiymətlidir.

**S u a l :** Cənab Prezident, məhz Sizə görə mən başda prezident Heydər Əliyev olmaqla Azərbaycan haqqında xüsusi bir film çəkmək istəyirəm. Əlavə iki sualım var: Bu suallarım Ermənistan ilə münaqişə, qaçqınlar problemi ilə əlaqədardır. Siz Dağlıq Qarabağla bağlı Ermənistanla Azərbaycan arasında olan münaqişənin həll edilməsi yollarını nədə görüşürsünüz və Ermənistanın təzyiqləri barədə nələr demək istərdiniz?

**C a v a b :** Bilirsiniz, mən bu münaqişənin başa çatmasını onun sülh yolu ilə həll olunmasında görürəm. Yeddi il davam etmiş müharibə nə Ermənistana, nə də Azərbaycana heç bir müsbət nəticə gətirməyib. Doğrudur, Azərbaycan çox böyük zərbələr alıb. Azərbaycanın ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İşğal olunmuş torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı qaçqın



düşüb. Bütün bunlara baxmayaraq mən hesab edirəm ki, bu münaqişə sülh yolu ilə həll olunmalıdır. Bu münaqişəni sülh yolu ilə həll etmək üçün bizim şərtlərimiz çox sadədir. Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş bütün ərazimizin hamısı azad edilməlidir.

Yurdlarından qaçqın düşmüş Azərbaycan vətəndaşları öz yerlərinə qayıtmalıdır. Bir müstəqil dövlət kimi, Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır, Azərbaycan Respublikasının, dövlətinin tərkibində Dağlıq Qarabağ yeni status almalıdır. Dağlıq Qarabağda yaşayan ermənilərin də təhlükəsizliyi təmin edilməlidir. Bax, biz bu prinsiplər əsasında danışıqlar aparırıq. Ümidvar olduğumu bildirmək istəyirəm ki, biz sülhə, böyük sülhə nail olacağıq. Ermənistanla Azərbaycan əsrlər boyu qonşu xalqlar kimi yaşayıblar. Mən arzu edirəm ki, bizim dövlətlərimiz arasında yenidən sülh, əmin-amanlıq yaransın. Mən bu gün Ermənistan prezidenti cənab Ter-Petrosyanla burada bu barədə qısa bir danışıq aparmışam.

**S u a l :** Cənab Prezident, Sizin ölkəniz «qara qızıl» ilə, neft və qaz ehtiyatları ilə çox zəngin bir ölkədir. Siz Azərbaycanın bu sərvətlərindən gələcəkdə necə istifadə etməyi planlaşdırırsınız və bu sərvətlərin gələcəyini necə görürsünüz?

**C a v a b :** Biz çalışacağıq ki, bu sərvətlərdən çox səmərəli istifadə edək. Çünki yeraltı sərvətlər, təbii sərvətlər tükənməz deyildir. Onlar da tükənir. Mənim məqsədim budur ki, bu sərvətlərdən elə istifadə edək ki, onlar həm bu günümüz, həm də Azərbaycanın gələcək nəsilləri üçün yararlı olsun. Bunun üçün biz Qərbin bir neçə böyük neft şirkətləri ilə əməkdaşlıq edirik. O cümlədən Fransanın «Elf agiten» şirkəti ilə də bu sahədə əməkdaşlıq etmək üçün danışıqlar aparırıq. Güman edirəm ki, ona elə bir əsas yaradacağıq ki, bizim bu sərvətlərimiz gələcəkdə çox illər Azərbaycan xalqının rifahına xidmət edəcəkdir.

**S u a l :** Cənab Prezident, bildiyiniz kimi, Sizinlə indi çəkdiyimiz bu müsahibəyə 80 milyon avropalı baxacaqdır. Artıq yeni ilin ilk günlərini yaşayırıq. Gənc və müstəqil Azərbaycan dövlətinin təmsilçisi, Azərbaycan Dövlətinin Prezidenti kimi, Siz bu yeni ilin ilk günlərində avropalılara nə demək istərdiniz? Öz dövlətiniz ilə Avropa arasında münasibətləri, o cümlədən Fransa ilə Azərbaycan arasında olan münasibətləri necə görürsünüz və bunların inkişaf etdirilməsi barədə nələri söyləmək istərdiniz?

**C a v a b :** Avropa dünyanın ən inkişaf etmiş bir hissəsidir. Dünyanın başqa regionlarının inkişaf etməsinə də əsrlər boyu Avropanın böyük tarixi təsiri olmuşdur. Mən Avropaya daim böyük hörmət və ehtiram bəsləmişəm. Fransanın böyük tarixi, zəngin mədəniyyəti və müasir nailiyyətləri bizi həmişə heyran edir. Mən bu gün Fransanın prezidenti cənab Jak Şirakla, xarici işlər naziri ilə görüşərkən, onları Azərbaycana dəvət etmişəm. Baş nazir cənab Alen Juppe mənim dəvətimi çoxdan alıbdır. Yeni ilin ilk günlərində mən bütün avropalılara, bütün fransızlara səadət, xoşbəxtlik, sülh və əmin-amanlıq arzı edirəm. Ümidvaram ki, bu il də, gələn illərdə də Avropa bəşəriyyətin tərəqqisinin ön sıralarında gedəcəkdir.

**M ü x b i r :** Çox sağ olun, cənab Prezident.



## MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN İŞTİRAKÇISI OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA İŞTİRAK ETMƏK ÜÇÜN MOSKVAYA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*17 yanvar 1996-cı il*

Biz 1993-cü ildə Müstəqil Dövlətlər Birliyinə daxil olandan heç bir şey itirməmişik, əksinə, udmuşuq. Keçmişdə Sovetlər İttifaqına mənsub olan və indiyə qədər sıx iqtisadi əlaqələr saxladığımız indiki müstəqil dövlətlərlə əməkdaşlığımızı – şübhəsiz ki, ikitərəfli əlaqələrlə bərabər – Müstəqil Dövlətlər Birliyi vasitəsilə daha da inkişaf etdirmişik. Biz bu birlikdə olduğumuz zaman onun Azərbaycan üçün, ümumiyyətlə, bizim birliyimiz üçün mənfəətli olan qərarlarından bəhrələnirik, istifadə edirik. Eyni zamanda Müstəqil Dövlətlər Birliyinin fəaliyyətinə Azərbaycan Respublikası öz təsirini göstərir. Ona görə də Müstəqil Dövlətlər Birliyində olduğumuz dövr, hesab edirəm ki, bizim üçün çox əhəmiyyətlidir, çox yaxşı nəticəlidir. İclasın gündəliyində bir çox məsələlər var, biz müzakirə edəcəyik, onların hansına nə münasibət göstərəcəyimiz barədə indidən heç bir şey deyə bilmərik. Moskvada Rusiya Federasiyasının prezidenti Boris Yeltsinlə, baş nazir Viktor Çernomırdinlə və digər rəsmi şəxslərlə ikitərəfli görüşlər keçirilməsi nəzərdə tutulur.

**S u a l :** İmzalanacaq dövlətlərarası sənədlər Azərbaycan-Rusiya münasibətlərinə necə təsir göstərəcəkdir?

**C a v a b :** Bir sıra çox mühüm sənədlər imzalanacaq və şübhəsiz ki, bunlar bizim münasibətlərimizin gələcəkdə daha intensiv inkişafını müəyyənləşdirəcəkdir. Məsələn, Şimal marşrutu üzrə neft kəmərinin çəkilməsi haqqında yanvarın 18-də mühüm sənəd imzalanacaqdır. Bu, Rusiya ilə Azərbaycanın əməkdaşlığında irəliyə doğru addım olacaq və bir çox iqtisadi problemlərimizin həllinə kömək göstərəcəkdir, axı biz Rusiya ilə sıx bağlıyıq.

**S u a l :** Çeçenistandakı hadisələrlə əlaqədar bu neft kəmərinin taleyi narahatlıq doğurmurmu?

**C a v a b :** Biz onsuz da narahat zəmanədə yaşayırıq və əgər maneələrdən qorxsaq, onda ümumiyyətlə iş görmək lazım deyildir. Əlbəttə, Çeçenistanda baş verən hadisələr bizi narahat edir, lakin biz öz işimizi görməliyik.



## AZƏRBAYCAN RESPUBLİKASI VƏ RUSİYA FEDERASİYASI HÖKUMƏTLƏRİ ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIĞIN ƏSAS PRİNSİPLƏRİ VƏ İSTİQAMƏTLƏRİ HAQQINDA SAZİŞLƏR İMZALANDIQDAN SONRA RUSİYANIN BAŞ NAZİRİ VİKTOR ÇERNOMIRDİNLƏ BİRGƏ MƏTBUAT KONFRANSI

*Moskva, Ağ Ev*
*18 yanvar 1996-cı il*

**S u a l:** Viktor Stepanoviç, Azərbaycan neftinin Rusiya ərazisi vasitəsi ilə nəql edilməsi haqqında saziş bu gün imzalanmış sənədlər arasında yəqin ki, ən mühüm sənəddir. Sizin nöqteyi-nəzərinizcə və Heydər Əliyevin nöqteyi-nəzərincə, bu, həyata keçirilməyə başlandıqda konkret surətdə nə verəcəkdir? Bu, həmin layihənin ətrafında getmiş mübahisələrə və şayiələrə son qoyacaqmı?

**V i k t o r Ç e r n o m ı r d i n :** Bu problemə onun istər ruhuna, istərsə də işlərə görə ən yaxın olan bir adam kimi demək istərdim ki, bunun ətrafında çoxlu söz-söhbət olmuşdur – cənub variantı, şimal variantı. Əgər mahiyyət, məzmun etibarı ilə götürsək, onda görərik ki, uzun illər ərzində işləmiş olan sxem bərpa edilir. Burada mütəxəssislər və ekspertlər var, bu sazişin hazırlanmasında iştirak etmiş olan mütəxəssislərin, neftçilərin hamısı buradadır. Saziş imzalandığı andan işləməyə başlayacaqdır və deyə bilərik ki, onun elə bu gün həm Azərbaycan üçün, həm də Rusiya üçün faydası olacaqdır. Biz hesab edirik ki, bu yol etibarlı, çoxillik təcrübə ilə sınaqdan çıxarılmış yoldur və işləyəcəkdir. Həm də onu genişləndirməyə və inkişaf etdirməyə imkan var. Zənnimcə, belə də olacaqdır. Odur ki, bütün mübahisələr əvvəl-axır bununla qurtarmalıdır. Əslinə qalsa, heç bir mübahisə olmayıbdır. O ki qaldı başqa variantların olmasına, burada pis nə var ki? Vaxt gələcək, hər şey ondan asılı olacaqdır ki, biz nə qədər neft çıxaracağıq, yəni Rusiyada nə qədər, Azərbaycanda nə qədər neft istehval olunacaqdır. Mən əminəm: iqtisadi qanunlar işləməlidir, ən əvvəl iqtisadi səmərə diqqət mərkəzində durmalıdır, burada hansı yolla getmək lazım oldu-

ğunu həmişə iqtisadi səmərə göstərəcəkdir. Bu, istər Rusiyanın mənafeyi üçün, istərsə də Azərbaycanın mənafeyi üçün gərəkdir. Bu sənədin iki dövlətin ilk növbədə və əsasən neft sahələrinin inkişafına aid olması, əlbəttə çox vacibdir. Bu, ən əvvəl və ən çox, hər şeydən tez fayda verən istiqamətdir. Mən belə düşünürəm ki, bu, indi iqtisadiyyatımız üçün, adamlarımız üçün olduqca lazımdır. Buna biz də olduqca böyük əhəmiyyət veririk. Odur ki, söz-söhbətlərə son qoyulmalıdır və işləməyə başlamalıyıq.

**Heydər Əliyev:** Mən hörmətli Viktor Stepanoviç Çernomırdinin dediklərinin hamısı ilə tamamilə razıyam. Zənnimcə, bu sazişin imzalanması Rusiya ilə Azərbaycan arasında əməkdaşlığın inkişaf etdirilməsi və möhkəmləndirilməsi üçün daha bir addımdır. Azərbaycanda biz bu əməkdaşlığa son dərəcə böyük əhəmiyyət veririk və hər şey edirik ki, bu əməkdaşlıq möhkəmlənsin və genişlənsin. Viktor Stepanoviç haqlıdır ki, bu bizim öz xeyrimizədir – Rusiyanın və Azərbaycanın mənafeyi xeyrinədir, neft sənayesi kimi sahənin inkişaf etməsinin xeyrinədir. Bu sənədin imzalanması hər cür söz-söhbətlərə həqiqətən son qoyacaqdır. Yeri gəlmişkən, bu söz-söhbətlər mətbuat orqanlarında tamamilə əsassız surətdə müxtəlif cür yozulur və s. İndi isə hər şey aydın və məlumdur. Rusiya ilə Azərbaycan arasında saziş imzalanmışdır.

**Sual:** Bu saziş Xəzərin statusu ilə bağlı fikir ayrılıqlarına son qoyacaqmı?

**Viktor Çernomırdin:** Bu, ayrıca məsələdir. Son vaxtlar nədənsə onu bu məsələ ilə bağlamağa başlamışlar. Əgər bunu bizim Xarici İşlər Nazirliyi edirsə, onda bu sual ona verilməlidir. Mənim belə problemlərim yoxdur. Bütövlükdə Xəzərlə bağlı problem var. İndi biz Heydər Əliyevlə danışdıq. Xəzərdən söhbət getdi. Xəzərdə suyun səviyyəsi qalxır. İndi hamı bundan ziyan çəkir. Bu problemi təklikdə həll etmək çətin ki mümkün olsun. Belə məsələlər çoxdur: Xəzərin səviyyəsinin qalxması məsələləri, ekologiya, balıq yetişdirilməsi məsələləri, gəmiçilikdə nəqliyyat məsələləri. Əgər dənizin təkindən danışmalı olsaq, onda bu, ayrıca məsələdir. Burada üzərində işlənməli məsələlər var. Zənnimcə, biz işləyəcəyik və artıq işləməyə başlamışıq. Biz indi bunun üzərində bəlkə də daha intensiv işləməliyik. Bu, Xəzəryanı dövlətlərin işidir. Bu, bizim, yəni Xəzərin ətrafında yaşayanların daxili işidir. Bu, bizim daxili sututarımızdır. Buna görə də bütün problemləri saf-çürük etməyə imkan tapacağıq və artıq bu işlə məşğul oluruq.



**Sual:** Neft-kimya sahəsinin mühüm problemlərinin araşdırılmasında Azərbaycanın həm keçmişdəki, həm də indiki xidmətlərini nəzərə alaraq, iqtisadi əməkdaşlığın Azərbaycan üçün nə kimi əhəmiyyəti ola bilər? Sovet İttifaqında «İkinci Bakı», «Üçüncü Bakı» olmuşdur.

**Viktor Çernomırdin:** Cari yüzillikdə hər şey, ehtiyatlarla,xüsusən də neft ehtiyatları, neft hasilatı, neft emalı ilə bağlı hər şey Bakıdan başlanmışdır. Bu sahədə dünyada nə olmuşdursa, hamısı Bakıdan başlanmışdır. Buraya mənim bir çox həmkarlarım gəlmişdir, əgər aramızda adi məktəbləri Azərbaycanda bitirməyənlər varsa, hər halda onların hər biri Azərbaycanın neft mədənlərində işləmişdir. Buna görə də Bakı biz mütəxəssislər, neftçilər, qaz işçiləri üçün universitetdir. Bu gün dünyada neft və qaz sənayesi sahəsində toplanmış nə varsa, onların çoxu məhz Bakıda başlanmışdır. Elə indi Azərbaycanda da, Rusiyada da və başqa ölkələrdə də işləyən neftçi kadrlar məhz Bakıdan çıxmışlar. Bundan sonra «İkinci Bakı» meydana gəlmişdir. Qərbi Sibirdə biz Azərbaycanda, Bakı mədənlərində görülmüş işlərdən və toplanmış təcrübədən çox istifadə etmişik.

Buna görə də bizim üçün, mütəxəssislərimiz üçün işdə əngəllər, maneələr yoxdur. Deyə bilərəm ki, Qərbi Sibirdə çoxlu bakılı işləyir. Elə bizim Ələkbərov («LUKoyl» neft şirkətinin prezidenti Vahid Ələkbərov nəzərdə tutulur) müəyyən dərəcədə Azərbaycana məxsusdur. Onun ən çox kimə məxsus olduğuna hələ baxmaq lazımdır.

**Heydər Əliyev:** Məncə, onun ən çox kimə – Rusiyaya, yaxud Azərbaycana məxsus olmasının əhəmiyyəti yoxdur.

**Sual:** Heydər Əliyeviç, istərdik ki, Siz bəzi agentliklərin belə bir xəbərini şərh edəsiniz ki, guya Azərbaycan Çeçenistana kömək göstərir.

**Heydər Əliyev:** Mən fürsətdən istifadə edərək, guya Azərbaycanın çeçen separatçılara onların döyüş əməliyyatlarında kömək göstərdiyi barədə hər cür uydurmaları qəti şəkildə təkzib etmək istəyirəm. Bu yalan və böhtandır. Yeri gəlmişkən, bu barədə mən bu gün Viktor Stepanoviç ilə görüşümüzdə dedim. Bütün bu yazıları müxtəlif qruplar – o cümlədən də Azərbaycandan olan qrup – təşkil edirlər. Bunlar Azərbaycandan qaçmış cinayətkarlardır və onlar məhkəmə qarşısında cavab verməlidirlər. Bunlar Azərbaycanın keçmiş prezidenti Mütəllibov, keçmiş baş nazir Hüseynov, keçmiş müdafiə naziri Qaziyev və onların, təəssüflər olsun, burada, Moskvada gizlənən qrupu-

dur. Hansısa strukturlar onlara kömək göstərirlər və onlar da hər cür məqalələr təşkil edirlər. Söz düşmüşkən, bu yaxınlarda «Obşaya qazeta»da bir məqalə dərc olunmuşdu. Məqalədə hər şey əvvəldən axıradək böhtan və yalandır. Bu məqalə gerçəkliyə uyğun deyildir. Biz hələ iyirmi gün bundan əvvəl bilirdik ki, burada, Moskvada gizlənmiş və burada qanunsuz yaşayan bir qrup azərbaycanlı şəxs bu cür məqaləni xüsusi olaraq təşkil etmişdir. Budur, bir neçə gün bundan əvvəl həmin məqalə dərc olunmuşdur.

**S u a l :** Siz özünüz bu məlumatı yoxladınızmı?

**H e y d ə r Ə l i y e v :** Nəyini yoxlayasan, bir halda ki, belə şey yoxdur. Bu, birincisi, ikincisi isə Azərbaycan ilə Rusiya arasında sərhəd Rusiya Sərhəd Qoşunları tərəfindən möhkəm qorunur, məhz möhkəm qorunur. Biz bundan zərər çəkirik. Biz Viktor Stepanoviçdən xaşih etdik, o bizə çox lazım olan bəzi yüklərin sərhəddən keçirilməsinə icazə verdi. Çünki sərhədimiz bağlıdır. Azərbaycan ilə Rusiya arasında sərhəd Dağıstanda tamamilə bağlanıb. Belə isə Azərbaycan hansısa separatçılara necə kömək göstərə bilər? Ümumiyyətlə, biz separatçılığın əleyhinəyik. Yeddi ildir ki, Azərbaycanın özü separatçılıqdan ziyan çəkir. Biz separatçılığın əleyhinəyik, ekstremizmin, terrorizmin əleyhinəyik. Bir daha təkrar edirəm, biz ozümüz də bundan ziyan çəkirik. Buna görə də mən belə uydurmaları qəti şəkildə rədd edirəm.

Şübhəsiz ki, bizdə cinayətkarlar var. Son iki ildə Azərbaycanda iki dəfə silahlı yolla dövlət çevrilişi etməyə cəhd göstərilmişdir. Bizdə, Azərbaycanda da belə cinayətkarlar var və onlar Çeçenistana da, Rusiyanın digər bölgələrinə də keçə bilərlər. Yeri gəlmişkən, Azərbaycanda dövlət çevrilişi etməyə cəhd göstərmiş cinayətkarlardan bəziləri Rusiyanın hüquq-mühafizə orqanlarının köməyi ilə Moskvada, Volqoqradda,Ryazanda həbs olunmuşlar. Cinayət törədən bu cinayətkarlar Rusiyada gizlənmişlər. Kim təminat verə bilər ki, belə cinayətkarlar gedib Çeçenistana çıxmayacaqlar. Lakin bir dövlət kimi, bir respublika kimi Azərbaycanın bununla heç bir əlaqəsi yoxdur və mən bunu qəti şəkildə bir daha təkrar edirəm.



## RUSİYA PREZİDENTİ APARATI İNFORMASİYA İDARƏSİ RƏİSİNİN MÜAVİNİ MARİNA NEKRASOVAYA MÜSAHİBƏ

*Moskva*
*18 yanvar 1996-cı il*

**S u a l :** Heydər Əliyeviç, ekspertlər yazırlar ki, hazırda Azərbaycan MDB ölkələri arasında əmin-amanlığın mövcud olduğu respublikalardan biridir. Bununla əlaqədar belə bir sual vermək istərdim: Parlaq gələcəyi olan, irəliləyən respublikanı Müstəqil Dövlətlər Birliyinə gətirib çıxaran nədir? Sizdən ötrü MDB nə deməkdir? Nəyə görə bu birlikdə iştirak etməyi qərara aldınız?

**C a v a b :** Əvvəla, Azərbaycanı daha çox əmin-amanlığa malik respublikalardan biri adlandırmaq olmaz. Çünki Azərbaycan yeddi ildir Ermənistan tərəfindən təcavüzə məruz qalır. Bunun nəticəsində Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuş, işğal edilmiş torpaqlardan bir milyondan artıq vətəndaşımız zorla qovulmuşdur və qaçqın kimi ağır şəraitdə, çoxları çadırlarda yaşayır.

Məhz bu, Azərbaycanın həyatını olduqca çətinləşdirən faktdır. Doğrudur, Ermənistanla gedən bu müharibədə il yarımdan artıqdır ki, atəşkəsə nail ola bilmişik. 1994-cü ilin mayında atəşkəs haqqında saziş imzalanmışdır. Yəni biz 20 aydır ki, barışıq, atəşkəs şəraitində yaşayırıq. Əgər bu baxımdan yanaşsaq, deyə bilərik ki, bəli əmin-amanlıqdır. Keçmişlə müqayisədə daha çox əmin-amanlıqdır. Bununla belə, müharibə və digər amillər bizim bütün həyatımızı çətinləşdirir. Məsələn, respublikamızın şimal hissəsində gediş-gəlişin məhdudlaşdırılmasını götürək. Bizim Rusiya ilə sərhədimiz – həm dəmir yolu, həm də avtomobil yolu bağlıdır. Bu, işlərimizə mənfi təsir göstərir. Eyni zamanda nəzərə alsaq ki, biz daxildə bir çox siyasi prosesləri aradan qaldıra, ictimai-siyasi sabitlik yaratmağa nail ola bilmişik, sizin dediyinizlə razıyam. İndi respublikada vəziyyət daha yaxşıdır. Əvvəlki illərdə belə deyildi.

Axı xarici amillərlə yanaşı, əvvəllər Azərbaycanda daxili siyasi vəzyyət də çox ağır idi. Bu mənada biz xeyli uğurlara nail olmuşuq və respublikada həqiqətən əmin-amanlıq yaranmışdır.

Sualınıza cavab verirəm ki, Azərbaycanı MDB-yə daxil olmağa gətirib çıxaran nədir. Bəli, Azərbaycan MDB-yə daxil deyildi, siz bunu bilirsiniz. 1993-cü ildə, vətəndaş müharibəsi vəziyyətində olanda da Azərbaycan MDB-yə daxil deyildi. Mən bir neçə ay respublikada ictimai rəyi, xalqı inandırmalı oldum ki, Azərbaycanın MDB-yə daxil olması zəruridir.

Müstəqil Dövlətlər Birliyinə daxil olmağımızın səbəbi nədir? Bizim ölkələrimiz, indi birliyə daxil olan müstəqil dövlətlər bir çox onilliklər ərzində bir yerdə olmuşlar. Biz 70 il ərzində bir dövlətin tərkibində olmuşuq, elə ondan əvvəl də bir dövlətin tərkibində idik, ona görə də bütün bu illərdə, xüsusən Sovetlər İttifaqının mövcud olduğu illərdə bizi çox şey möhkəm bağlayırdı. Sovetlər İttifaqı çərçivəsində məhsuldar qüvvələrin yerləşməsi, yaxud bunların harada yerləşdirilməsinin müəyyən edilməsi respublikaların iqtisadiyyatının, sənayesinin bir-biri ilə sıx bağlanmasına səbəb olmuşdu. Bir də ki, axı biz insanıq. Əvvəllər sərhədlər yox idi, insanlar bütün Sovetlər İttifaqını sərbəst gəzib dolaşırdılar, kim isə haradasa məskən salırdı, kim isə Azərbaycandan kənarda yaşamağa başlamışdı. Rusiyada, Moskvada belə azərbaycanlıların sayı çoxdur. Ona görə də bütün bu əlaqələri qırmaq, sərt dövlət sərhədləri ilə məhdudlaşdırmaq olmaz. Keçid dövrü ilə, bir sosial-iqtisadi sistemdən digərinə keçilməsi ilə əlaqədar iqtisadiyyatda, sosial-siyasi həyatda yaranmış çətinliklərin aradan qaldırılmasına olan ehtiyac bizim bir birlik daxilində olmağımızın zəruriliyini şərtləndirir.

Ona görə də biz Müstəqil Dövlətlər Birliyinə daxil olmuşuq və hesab edirəm ki, düz iş görmüşük. Ötən iki il ərzində biz heç nə itirməmişik, əksinə, qazanmışıq.

**S u a l :** Heydər Əliyeviç, yüksək səviyyədə görüşdən əvvəl Siz Rusiya prezidenti Boris Nikolayeviç Yeltsinlə, baş nazirlə görüşdünüz. Bu görüşlərin nəticələri necədir?

**C a v a b :** Mən bu görüşlərdən razıyam. Hesab edirəm ki, onlar çox səmərəli oldu. Nəticə də yaxşıdır. Prezident Boris Nikolayeviç Yeltsinlə biz bir neçə mühüm məsələni, ən əvvəl Dağlıq Qarabağla bağlı Ermənistan-Azərbaycan münaqişəsinin qəti olaraq aradan qaldırılması məsələsini müzakirə etdik. Biz həmin məsələ barəsində fikir mübadiləsi apardıq, məsələnin tənzimlənməsinin bəzi mümkün variantlarını nəzərdən keçirdik. Boris Nikolayeviç indi bu problemlə fəal məşğul olmağı qərara almışdır. Mən bunu düz hesab edirəm. Biz bəzi tədbirlər



barədə də razılığa gəldik. Bu tədbirlər həmin münaqişənin aradan qaldırılmasına nail olmaq üçün, hərbi əməliyyatların tez bir vaxtda tamamilə dayandırılması üçün görülməlidir. Mən bundan çox razıyam.

Biz bu məsələni Rusiya Federasiyası hökumətinin baş naziri Viktor Stepanoviç Çernomırdin ilə də müzakirə etdik. Boris Nikolayeviçlə Rusiya və Azərbaycan arasında ikitərəfli münasibətlərin bəzi məsələlərini də müzakirə etdik. Zənnimcə, biz bu problemlərin müzakirəsini qarşılıqlı anlaşma və razılıq şəraitində başa çatdıra bildik.

Viktor Stepanoviç Çernomırdin ilə biz ikitərəfli münasibətlərimizi, iqtisadi əməkdaşlığı, bir neçə belə mühüm məsələni müzakirə etdik. Mühüm məsələlərdən biri Azərbaycan neftinin Rusiya ərazisi ilə Qara dəniz sahilinə ixracı üçün neft kəməri çəkilməsi məsələsidir. Bu məsələ bir neçə ay ərzində işlənib hazırlanmışdı. Biz qəti qərara gəldik və saziş imzaladıq. Yeri gəlmişkən, bu, çox mühüm sazişdir. Boris Nikolayeviç də sazişi imzaladığımızı razılıq hissi ilə qarşıladı. Bundan əlavə, bizim baş nazir Fuad Quliyev və Viktor Stepanoviçin müavini Aleksey Bolşakov 2000-ci ilədək uzunmüddətli iqtisadi əməkdaşlıq haqqında saziş imzaladılar. Biz 1996-cı ildə ticarətə dair sənəd imzaladıq. Zənnimcə, çox iş gördük. Mən bu nəticələrdən razıyam.

**S u a l :** Mən bu sualı verməyə bilmərəm. Çünki o, indi rusiyalıları çox narahat edir. Bir də ona görə ki, Siz silahlı münaqişələrin aradan qaldırılması sahəsində nadir təcrübəyə maliksiniz. Hər halda hakimiyyətiniz dövründə Siz ona nail oldunuz ki, respublika artıq neçə vaxtdır sülh şəraitində yaşayır. Məhz bu mənə əsas verir ki, Sizə belə bir sual verim.

Çeçenistanda münaqişə ilə əlaqədar necə bir vəziyyət yarandığını bilirsiniz. Sizcə, onun həlli yolları necədir? Öz təcrübənizə əsasən nə deyərdiniz?

**C a v a b :** Çeçenistanda baş verən hadisələr Rusiyanı narahat edir, məncə, dünya ictimaiyyətini narahat edir, Azərbaycanı da narahat edir. Biz ondan ziyan çəkirik, ona görə ki, bu hadisələrlə əlaqədar Rusiya ilə Azərbaycan arasında sərhəd tamamilə bağlanıb, bu sərhəd Rusiya Federasiyasının Dağıstan Respublikasından keçir. Əlbəttə, buna görə biz istəyirik ki, Qafqazda, Şimali Qafqazda və Azərbaycanın bilavasitə yaxınlığında yerləşən bu bölgədə sülh olsun. Odur ki, biz bu münaqişənin aradan qaldırılmasını istəyirik. Amma mən bu məsələnin indi necə həll edilməli olduğunu söyləmək fikrində deyiləm. Bu, belə şəraitdə qeyri-

mümkündür. Lakin düşünürəm ki, Rusiya rəhbərliyi tədbirlər, özü də kifayət qədər səmərəli tədbirlər görür. Mən əminəm ki, Rusiya rəhbərliyi bu problemi həll edəcəkdir.

**S u a l :** Heydər Əliyeviç, axırıncı sual. Bizim proqramımızda Siz özünüz özünüzdən nə soruşardınız və özünüzə necə cavab verərdiniz?

**C a v a b :** Mən sizinlə birinci dəfədir görüşürəm. Görünür, bu çox yaxşı proqramdır. «Moskva-Kreml» proqramının Rusiya üçün də, Rusiya ilə, Azərbaycan ilə yaxşı, mehriban, yaxın, qarşılıqlı münasibətləri olan ölkələr üçün də əhəmiyyəti var. Mən sizin proqramınıza uğurlar, uzun ömür arzulayıram, qoy sizin proqram həmişə var olsun. Belə düşünürəm ki, o yaşayacaq və öz verilişləri ilə Rusiya Federasiyasının möhkəmlənməsinə, Rusiya və Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələr arasında, o cümlədən də Azərbaycanla münasibətlərin möhkəmlənməsinə kömək edəcəkdir. Sağ olun.



## MOSKVADAN VƏTƏNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL «VNUKOVO-2» AEROPORTUNDA JURNALİSTLƏRƏ BƏYANAT

*20 yanvar 1996-cı il*

Azərbaycan nümayəndə heyəti Moskvaya səfərindən çox razıdır. Ən əvvəl ona görə ki, müstəqil dövlətlərin başçılarının çox yaxşı görüşü oldu. Görüşdə biz olduqca mühüm məsələləri müzakirə etdik, Rusiya prezidenti Boris Nikolayeviç Yeltsini MDB Dövlət Başçıları Şurasının 1996-cı il üçün sədri seçdik.

Dövlət başçılarının işində hökm sürmüş mühit–həm MDB başçıları görüşən vaxtda da, həm nümayəndə heyətlərinin ümumi iclası keçirilən vaxtda da çox yaxşı, xeyirxah, mehriban bir mühit idi.

Bütün bunlar onu göstərir ki, birlik inkişaf edir, möhkəmlənir və Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin daha geniş inteqrasiyasının təmin olunması üçün çox mühüm bir təşkilata çevrilir.

Mən dövlət başçılarının işinin yekunlarını prinsipcə müsbət qiymətləndirir və buradan yaxşı əhval ilə gedirəm.

Bizim ikitərəfli görüşlərimiz oldu. Mən ən əvvəl Boris Nikolayeviç Yeltsin ilə görüşdüm. Mən bu görüşdən, söhbətdən çox razıyam. Onun gedişində biz bir sıra məsələləri müzakirə etdik. Əlbəttə, müzakirəmizin mövzusu Dağlıq Qarabağla əlaqədar Ermənistanla Azərbaycan arasında münaqişənin aradan qaldırılması ilə bağlı idi.

Boris Nikolayeviç indi bu məsələ ilə daha fəal məşğul olmaq, daha böyük səy göstərmək istədiyini bildirdi. Təbiidir ki, atəşin müvəqqəti olaraq dayandırılmasının böyük sülhə çevrilməsi üçün istər Ermənistan, istərsə də Azərbaycan tərəfindən səylər göstərilməlidir. Əlbəttə, burada Rusiya da öz mühüm rolunu oynaya bilər. Mən bu fikirdəyəm ki, Boris Nikolayeviç bu məsələ ilə ciddi məşğul olmaq niyyətindədir. Mən bunu hiss etdim.

Bu görüşlərin–həm Rusiya prezidenti ilə, həm də xarici işlər naziri Yevgeni Maksimoviç Primakov ilə görüşlərin nəticəsində MDB dövlətlərinin başçılarına müraciət qəbul edildi. Ən əvvəl Azərbaycan və Ermənistan prezidentlərinə, bütün dövlət başçılarına ünvanlanmış bu müraci-

ətdə tərəflər atəşkəs rejimini möhkəmlətməyə, Böyük Sülh Sazişi imzalanan vaxtadək həmin rejimin pozulmasına yol verməməyə, bu sazişin tezliklə imzalanması üçün səy göstərməyə çağırılır. Müraciətin mətni dərc ediləcəkdir. Özünüz görəcəksiniz, orada çox yaxşı fikirlər var.

Boris Nikolayeviçlə biz bütün sahələrdə Azərbaycan ilə Rusiya arasında münasibətlərin daha da genişləndirilməsi ilə bağlı digər mühüm məsələləri də müzakirə etdik. Söhbətimizin gedişində toxunulmuş bütün məsələlər barəsində aramızda yekdillik və qarşılıqlı anlaşma oldu. Bütün bunlar inam yaradır ki, biz fəal əməkdaşlıq edəcəyik. İndiki mərhələdə bizim üçün əsas isə 2000-ci ilədək Rusiya ilə Azərbaycan arasında uzunmüddətli əməkdaşlıq haqqında sazişdir. Onu Rusiya hökuməti sədrinin müavini Aleksey Alekseyeviç Bolşakov və bizim baş nazir Fuad Quliyev imzaladılar.

Biz 1996-cı ildə ticarət-iqtisadi əməkdaşlıq haqqında saziş də imzaladıq. Bununla əlaqədar mən Rusiya Federasiyası hökumətinin baş naziri Viktor Stepanoviç Çernomırdin ilə görüşə və danışıqlara çox böyük əhəmiyyət verirəm.

Biz onunla Azərbaycan və Rusiya arasında əməkdaşlığın daha da genişləndirilməsi problemləri ilə bağlı məsələlərin, demək olar, hamısını müzakirə etdik və Ermənistan ilə Azərbaycan arasında münaqişəyə, digər məsələlərə də toxunduq. Viktor Stepanoviç Çernomırdin ilə danışıqlarımızda Azərbaycandan neftin Rusiya ərazisi ilə nəql edilməsi məsələləri mühüm yer tutdu. Mən hesab edirəm ki, biz Rusiya ərazisi ilə Qara dəniz sahilinə gedəcək neft kəmərinin çəkilməsinə dair çox mühüm sənəd imzaladıq. Bu sənəd son vaxtlar Rusiyada da, Azərbaycanda da, başqa ölkələrdə də çox böyük maraq doğurmuşdur. Zənnimcə, onun imzalanması hər cür şayiələrə, söz-söhbətlərə və uydurmalara son qoyur, ən başlıcası isə, apardığımız böyük işə yekun vurur. Bu mühüm sənədi V.S.Çernomırdinlə mən imzaladıq.

Digər görüşlər də oldu. Mən yalnız əsas görüşlərdən danışdım. Buna görə də Moskvadan xoş duyğularla və yaxşı əhval ilə gedirəm. Burada bizə, dövlət başçılarına həmişəki kimi, yenə də böyük qonaqpərvərlik göstərildi. Biz hamımız özümüzü çox səmimi şəraitdə, dostluq şəraitində hiss edirik. Əslinə qalsa, həmişə belə olmuşdur və indi də belədir. Bu, çox böyük minnətdarlıq hissi doğurur.

Nəqliyyat kommunikasiyalarının açılması perspektivləri məsələsi də müzakirə edildi.



## RUSİYA FEDERAL SƏRHƏD XİDMƏTİNİN DİREKTORU ANDREY NİKOLAYEVLƏ GÖRÜŞDƏN SONRA MƏTBUAT ÜÇÜN BƏYANAT

*14 fevral 1996-cı il*

Bu gün biz Rusiya ilə Azərbaycan arasında sərhəd qoşunları xətti üzrə əməkdaşlığın çox mühüm məsələlərini müzakirə etdik və belə hesab edirəm ki, bu əməkdaşlığın inkişafına dair bəzi yeni addımlar barədə razılığa gəldik. Şəxsən mən söhbətimizdən və müzakirə olunan məsələlərə dair fikir mübadiləsindən məmnunam. Rusiya Federasiyası ilə Azərbaycan arasında əməkdaşlığın gələcək inkişafı haqqında saziş paraflandı. Şübhəsiz ki, sonra bu sənəd iki ölkənin rəhbərləri səviyyəsində imzalanacaqdır. Lakin ən başlıcası budur ki, çox açıq, səmimi fikir mübadiləsi oldu. Bütün bunlar onu göstərir ki, iki ölkə arasında əməkdaşlığın gələcək inkişafı üçün yaxşı perspektivlər var. Təbii ki, müstəqil dövlətlər kimi həm Rusiyanın, həm də Azərbaycanın bütün mənafeləri gözlənilmək şərtilə.

Bununla əlaqədar demək istəyirəm ki, Rusiya ilə Azərbaycan arasında dostluq və sıx əməkdaşlıq münasibətləri mövcuddur. Müxtəlif səbəblər üzündən son illər bu sahədə hər şey istənilən səviyyədə olmamışdır. Şübhəsiz, müəyyən obyektiv səbəblər olub və bunları aradan qaldırmalı idik və qaldırırıq. Başlıcası isə budur ki, ölkələrimiz arasında səmimi dostluq münasibətləri, qarşılıqlı anlaşma və bütün istiqamətlərdə, o cümlədən sərhəd xidməti sahəsində fəal əməkdaşlıq etmək istəyi var.

Sərhəd xidməti, sərhəd haqqında danışarkən, şübhəsiz, qarşıya elə məsələlər çıxır ki, bunlara cavab vermək lazımdır. Bununla əlaqədar demək istəyirəm ki, Rusiya ilə həm quru, həm də dəniz sərhədi olan Azərbaycan müstəqil dövlət kimi maraqlıdır ki, sərhəd etibarlı qorunsun. Lakin bununla yanaşı, əməkdaşlığımızın gələcək inkişafına, əlaqələrimizin bundan sonra da genişlənməsinə xidmət etsin və fəal əlaqələrə heç bir halda mane olmasın, əksinə, bu əlaqələri, geniş mal mübadiləsinin, nəqliyyatın və bütün digər kommunikasiyaların geniş fəaliyyətini təmin etsin. Hesab edirəm ki, bu baxımdan vəzifələrimizi

eyni dərəcədə başa düşür və bunları necə yerinə yetirmək barədə eyni cür düşünürük. Bununla yanaşı, biz bunu necə etmək lazım gəldiyini də başa düşür və bilirik. Müəyyən məsafə var və biz onu qət etməliyik.

Ancaq belə əməkdaşlığın etibarlı olması və daim həm Rusiyanın, həm də Azərbaycanın mənafeyini təmin etməsi üçün çox dəqiq, konkret mövqelər gərəkdir. Bununla əlaqədar demək istəyirəm ki, Rusiya ilə sərhədimiz olduğuna, onunla dostluq münasibətləri saxladığımıza görə, biz Azərbaycanda öz ərazimizdən Rusiya ərazisi, ümumən Rusiya barədə hər hansı düşmənçilik hərəkətlərinə heç vaxt yol verməyəcəyik. Son illər müxtəlif proseslərin və s. ayrı-ayrı terrorçu qrupların, cinayətkar ünsürlərin və sairənin müxtəlif hərəkətlərinin həm Rusiyada, həm də Azərbaycanda vəziyyəti mürəkkəbləşdirdiyini nəzərə alsaq, bunun prinsipial əhəmiyyəti var.

Biz Rusiya ilə Azərbaycan arasında sərhədin qorunmasını öz tərəfimizdən təmin etmək üçün bütün tədbirləri görəcəyik ki, Rusiya ərazisinə hər hansı şəxslərin, yaxud qrupların, hətta üçüncü ölkələrdən olan şəxslərin keçməsinə yol verməyək ki, onlar vəziyyəti mürəkkəbləşdirə və ya hansısa qanuna zidd əməllər, yaxud cinayətkar hərəkətlər törədə bilsinlər. Hesab edirəm ki, həm o, həm də bu tərəfdən qorunan sərhədin belə halların vaxtında qarşısını almaq vasitəsi ola bilməsi üçün Rusiya tərəfi də eyni cür hərəkət edəcəkdir. Bir daha təkrar edirəm, bu, çox mühüm məsələdir və bu gün, bu görüşdən, bu imkandan istifadə edərək bəyan etməyi zəruri sayıram ki, Azərbaycan ərazisindən Rusiyanın, Rusiya dövlətinin, onun vətəndaşlarının mənafelərinə qarşı yönəldilmiş hər hansı hərəkətə yol verməmək üçün biz hər şeyi edəcəyik.

Sərhəd xidməti sahəsində Azərbaycan ilə Rusiya arasında əməkdaşlığın böyük perspektivi var. Bilirsiniz ki, MDB çərçivəsində birliyin xarici sərhədlərinin qorunması haqqında müqavilə mövcuddur. Azərbaycan bu sənədə hələ qoşulmamışdır. Lakin hesab edirəm ki, biz Azərbaycan üçün məqbul şərtlərlə bu sazişə yaxınlaşmaq və gələcəkdə onun iştirakçısı olmaq üçün tədbirlər görməliyik. Şübhəsiz ki, MDB-yə daxil olan hər bir ölkənin öz xüsusiyyəti var və o bunu əsas tutaraq, bu və ya digər qərarları qəbul edir. Zənnimcə, MDB-nin müsbət xüsusiyyəti ondadır ki, sazişlər və ya sənədlər son dərəcə demokratik şəraitdə qəbul olunur. MDB-yə daxil olan ölkə hansısa sazişə qoşula bilər, bunu etməyə də bilər.Bunun həmin ölkə üçün heç bir mənfi



nəticəsi yoxdur. Bununla yanaşı, birliyimizin inkişaf prosesi göstərir ki, bu və ya digər ölkənin daxili problemləri ilə, yaxud MDB çərçivəsindəki qarşılıqlı münasibətlərlə bağlı olan müxtəlif maneələr tədricən aradan qaldırılır. Biz hesab edirik ki, bu çox müsbət haldır və həmin prosesin inkişafına kömək edəcəyik. Hesab edirəm ki, məhz bu prosesin inkişafı baxımından biz MDB-nin xarici sərhədləri haqqında sazişə Azərbaycanın qoşulmasının mümkünlüyü məsələsinə yaxınlaşacağıq.

Ümumən demək istəyirəm ki, danışıqlarımız, söhbətlərimiz dostluq, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət şəraitində, həm Rusiyanın, həm də Azərbaycanın mənafelərinə hörmət bəslənilməsi şəraitində keçdi. Məmnunam ki, general Andrey İvanoviç Nikolayev başda olmaqla böyük bir nümayəndə heyəti Azərbaycandadır. Bu məsələləri müzakirə etməyə və qərarlar qəbul etməyə imkanımız var.

## HƏŞTƏRXAN TELEVİZİYASININ MÜXBİRİ İLƏ MÜSAHİBƏ

*15 fevral 1996-cı il*

**Sual:** Heydər Əliyeviç, Sizin kimi siyasətçinin fəaliyyətinin məqsədi vətənin rifahına və öz xalqının tərəqqisinə nail olmaqdır. Siz Azərbaycan Respublikasındakı indiki iqtisadi şəraiti və həmvətənlərinizin vəziyyətini necə qiymətləndirirsiniz?

**Cavab:** Azərbaycanda iqtisadi şərait mürəkkəbdir, zənnimcə, keçmişdə Sovetlər İttifaqına daxil olan bütün respublikalarda, regionlarda da belədir. Lakin bu təbiidir, çünki Azərbaycan cəmi dörd il bundan öncə dövlət müstəqilliyi əldə edibdir. Bir çox illər,onilliklər ərzində bir dövlətin – Sovetlər İttifaqının tərkibində olan ölkə, şübhəsiz, dövlət müstəqilliyi qazandıqdan sonra bütün işi yenidən qurmalıdır. Digər tərəfdən, indi Azərbaycan bir ictimai-siyasi sistemdən başqasına keçid dövrünü yaşayır.

Azərbaycanda vəziyyəti mürəkkəbləşdirən bir də odur ki, ölkəmiz yeddi ildən artıqdır ki, Ermənistan Respublikası tərəfindən hərbi təcavüzə məruz qalıbdır. Bu illər ərzində çoxlu qurbanlar vermişik, qanlı müharibə getmişdir. 1994-cü ildə biz atəşkəsə nail ola bildik və 20 aydır ki, barışıq vəziyyətində yaşayırıq. Lakin müharibə qurtarmayıbdır. Azərbaycan ərazisinin təqribən 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunubdur. Azərbaycanın bir milyondan artıq vətəndaşı işğal edilmiş ərazilərdən zorla çıxarılıbdır və indi çox ağır şəraitdə, əksəriyyəti çadırlarda, çadır şəhərciklərində yaşayır.

Bütün bunlar Azərbaycanın sosial-iqtisadi vəziyyətini mürəkkəbləşdirir. Ümumən isə bu, təkrar edirəm, digər respublikalar üçün də səciyyəvidir. Keçmiş Sovetlər İttifaqının bütün regionları ilə bizim fəal iqtisadi inteqrasiyamız var idi. İndi bu əlaqələr əsasən qırılıbdır və bu na görə də iri sənaye müəssisələri tam gücü ilə işləmir, bəziləri isə hətta dayanmışdır. Bu, işsizlik doğurur, istehsalın azalmasına səbəb olur. Bunların hamısı birlikdə Azərbaycanda sosial-iqtisadi həyatı mürəkkəbləşdirir, bu vəziyyət təxminən iqtisadi və sosial böhran kimi səciyyələnir.



Lakin biz bu vəziyyətdən çıxırıq. Onun qarşısını almaq üçün tədbirlər görür və belə hesab edirik ki, bundan ötrü ən etibarlı imkan fəal iqtisadi islahatlar aparmaq, bazar iqtisadiyyatına keçmək, mülkiyyəti özəlləşdirməkdir. Biz belə hesab edirik ki, bu, iqtisadiyyatın yeni yüksəlişinə təkan verəcəkdir. Azərbaycan böyük iqtisadi potensiala malikdir, onun zəngin təbii ehtiyatları var. Lakin bütün bunları hərəkətə gətirmək, bunlardan istifadə etmək üçün yeni formalar, yeni üsullar gərəkdir.

**Sual:** Ən yaxın perspektiv üçün Azərbaycan Respublikasının siyasətdə və iqtisadiyyatda üstün yer verdiyi məsələlər hansılardır, bu mənafelərin həyata keçirilməsində Rusiya nə kimi rol oynaya bilər,Sizin üstün saydığınız məsələlərdə o, nə kimi yer tutur?

**Cavab:** Yalnız siyasi məsələlərə üstünlük veririk. Bu, Azərbaycanın dövlət müstəqilliyi, Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət quruculuğu, demokratiyanın, həm siyasət, həm ictimai həyat, həm də iqtisadiyyat sahəsində demokratiyanın geniş inkişaf etdirilməsidir. Siyasətdə üstünlük verdiyimiz bunlardır. Eyni zamanda bütün qonşu dövlətlərlə mehriban münasibətlərin yaradılması və inkişafı, dünyanın bütün ölkələri ilə ikitərəfli, qarşılıqlı surətdə faydalı münasibətlər yaradılması da bu üstünlüklər sırasına daxildir. İqtisadi sahədə üstünlük verilən məsələlərə gəldikdə isə, artıq qeyd etdiyim kimi, bu, iqtisadi islahatların, dövlət mülkiyyətinin özəlləşdirilməsinin fəal surətdə həyata keçirilməsi, bazar iqtisadiyyatının inkişaf etdirilməsidir.

Rusiyanın rolu çox böyükdür. Çünki Rusiya böyük ölkə, bizim Şimal qonşumuzdur. Azərbaycan Rusiya ilə bir çox onilliklər və hətta yüzilliklər ərzində bağlı olubdur. Keçmişdə iqtisadiyyatımız onilliklər boyu Rusiyanın iqtisadiyyatı, istehsal gücləri ilə sıx inteqrasiyada qurulub və yaradılıbdır. Ona görə də, şübhəsiz ki, Rusiya ilə yeni zəmində iqtisadi əlaqələrin yaradılması, inkişaf etdirilməsi ümumən Azərbaycan iqtisadiyyatının inkişafı üçün çox mühüm vasitə olacaqdır.

Bundan əlavə, Azərbaycanda çoxlu ruslar yaşadığı kimi, Rusiyada da çoxlu azərbaycanlı yaşayır. Mədəni əlaqələrin, insani əlaqələrin də çox böyük əhəmiyyəti var. Ona görə də biz dünya ölkələri ilə qarşılıqlı münasibətlərimizdə Rusiya ilə əlaqələrimizə üstün əhəmiyyət veririk.

**Sual:** Həştərxan vilayətinin qubernatoru Anatoli Qujvin ilə indiki görüş qonşu ərazilərin, regionların əməkdaşlığına (Həştərxan vilayəti və Azərbaycan Respublikası belə regionlardır) sadiq olduğunuzu təs-

diq etdi. Sizin proqnozunuz necədir: bəyannamədən, niyyət protokollarından, rəsmi məlumatdan – yəni kağız üzərində yazılanlardan, yaxın illərdə olduğu kimi, konkret işlərə – nəqliyyat əlaqələrinin bərpasına, gəmiqayırma müəssisələrində birgə sifarişlərin yerləşdirilməsinə, Xəzər dənizinin bioloji ehtiyatlarından birgə istifadə olunmasına tezmi keçiləcəkdir?

**C a v a b :** Bilirsiniz, başlıcası budur ki, artıq ilk addımlar atılmışdır. Axı dediniz ki, keçmişdə bizim sıx əlaqələrimiz, o cümlədən Azərbaycan ilə Həştərxan vilayəti arasında belə əlaqələrimiz olmuşdur. Biz fəal əməkdaşlıq edir, bir-birimizə kömək göstərirdik və bu, həm Azərbaycana, həm də Həştərxan vilayətinə fayda gətirirdi. Bu əlaqələr xeyli dərəcədə qırılıbdır və rəsmi zəmindəki əlaqələri nəzərə almasaq, əslində, dörd-beş ildir ki, ümumiyyətlə yoxdur. İndi Həştərxan vilayətinin qubernatoru Anatoli Petroviç Qujvin Azərbaycana gəldikdə, belə xeyirxah, yaxşı təşəbbüs göstərdikdə, burada görüşlərimiz, söhbətlərimiz, danışıqlarımız oldu, müvafiq sənədlər, rəsmi məlumat, digər sazişlər hazırlandı və bunlar imzalanacaqdır. Bunun özü əməkdaşlığın bərpası, bəlkə də bərpa etmək deyil, bu əməkdaşlığı keçmişdəkindən daha səmərəli etmək yolunda atılan addımdır. Çünki Həştərxan vilayəti Rusiya Federasiyasının subyekti, qonşu ölkələrlə, dövlətlərlə iqtisadi əlaqələr saxlamağa imkanı və hüquqları olan vilayətdir.

Azərbaycan müstəqil dövlətdir. Rusiya ilə sıx iqtisadi münasibətlər saxlayarkən və bunları inkişaf etdirərkən biz federasiyanın subyektləri ilə, o cümlədən bizimlə qonşu olan Həştərxan vilayəti kimi regionlarla Azərbaycanın bilavasitə səmərəli əlaqələr saxlamasını da zəruri sayırıq. Ona görə də, mənə belə gəlir ki, bu faktın özü əməkdaşlığımızın baş tutacağına ümid və hətta inam yaradır. Ümidvaram ki, əməkdaşlığımız baş tutacaq, çünki biz bunu istəyirik. Həştərxan vilayətinin rəhbərləri də bunu istəyirlər. Deməli, biz bu əməkdaşlığı təmin edə biləcəyik.

**S u a l :** Sizcə, Həştərxana səfəriniz tezmi olacaqdır?

**C a v a b :** Mən bunu çox istəyirəm. Bu gün Anatoli Petroviçə dedim, ilk imkan düşən kimi bu səfəri etməyə çalışacağam.

**S u a l :** Dövlət siyasətinin incə məsələsi olan milli münasibətlər barədə: bu gün Azərbaycanda müxtəlif millətlərin, xalqların qarşılıqlı əlaqələrində hansısa problemlər varmı?

**C a v a b :** Bilirsiniz, biz bu yaxınlarda Azərbaycanın Konstitusiyasını qəbul etdik. Bu, müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasıdır, onu ötən il noyabrın 12-də ümumxalq səsverməsi, referendum yolu ilə qəbul etmişik. Konstitusiyamızda yazılmışdır: Azərbaycanın bütün vətəndaşları bərabər hüquqlardan istifadə edirlər. Azərbaycan – milliyyətindən, irqindən, dilindən, dinindən, heç bir şeydən asılı olmayaraq bu torpaqda yaşayan bütün şəxslərin vətənidir. Bu, sadəcə bəyannamə deyildir, bütün Azərbaycan xalqının səs verdiyi qanundur.



Siz yəqin bilirsiniz, Azərbaycanın zəngin beynəlmiləlçilik ənənələri var. Burada həmişə bir çox millətlərin nümayəndələri yaşamışdır və bu gün də yaşayırlar. Biz bunu Azərbaycanın sərvəti sayırıq, bunu qiymətləndiririk və qoruyub saxlamaq istəyirik. İndi, yeni şəraitdə, Azərbaycanın müstəqil dövlət olduğu bir vaxtda biz buna böyük əhəmiyyət veririk. Hazırda ölkəmizdə millətlərarası münasibətlərdə hansısa ciddi problem yoxdur, baxmayaraq ki, yaxın keçmişdə olmuşdur. Xüsusən son iki il ərzində bu çətinlikləri aradan qaldıra bilməyimizi nailiyyətimiz hesab edirəm. Onu da çox böyük nailiyyət sayıram ki, hazırda Azərbaycanda bütün millətlərin nümayəndələri, o cümlədən rusdilli şəxslər, rus millətinə, rus xalqına mənsub olan şəxslər dostluq və həmrəylik, qarşılıqlı anlaşma şəraitində yaşayırlar.

**S u a l :** İcazə versəydiniz, müsahibəmizin sonunda Sizə şəxsi xarakterli iki sualla müraciət edərdim. Mən bilirəm ki, Siz burada Sergey Yeseninin yubileyi ilə əlaqədar geniş miqyaslı təntənələrin keçirilməsinin təşkilatçılarından, təşəbbüsçülərindən biri olmusunuz. Bu rus şairi Sizdən ötrü kimdir?

**C a v a b :** Bilirsiniz ki, vaxtilə, 70-ci illərdə mən respublikanın rəhbəri işləyərkən Yeseninin xatirəsini bərpa etmək üçün hər şey etmişəm. Yesenin iyirminci illərin əvvəllərində burada yaşamış, özünün məşhur şerlərini (müxbir: «Şahanə, mənim Şahanəm...»), bəli, «İran dəftərləri»ni və s. yazmışdır. Fikir verin, bu, 20-ci illərin əvvəlində olmuşdur. 70-ci illərin əvvəlində isə biz onun yaşadığı yeri tapdıq. Yeseninin xatirə müzeyini yaratdıq. Xatirimdədir, 1972-ci il idi, burada, Azərbaycanda Rusiyanın böyük yazıçılarının, mədəniyyət xadimlərinin iştirakı ilə Rusiya mədəniyyəti ongünlüyü keçirilirdi, o zaman həmin muzeyi açdıq. Mən təntənədə iştirak edirdim, orada şairin barelyefini qoyduq. Müstəsna istedadını və şübhəsiz ki, rus ədəbiyyatının, rus poeziyasının inkişafına verdiyi çox böyük töhfəni nəzərə alsaq, Yesenin təkcə Rusiya, rus xalqına deyil, bütün dünya sivilizasiyasına, o cümlədən də Azərbaycana məxsusdur. Ona görə də mən Yesenini çox sevi-

rəm, Azərbaycanda onu yüksək qiymətləndirirlər və bu yaxınlarda biz Yeseninin anadan olmasının 100 illiyini təntənəli şəkildə qeyd etmişik.

**S u a l :** Şərq uzunömürlü insanları ilə məşhurdur, qəlbən və cismən cavan qalmalarının səbəbini onlardan soruşanda belə deyirlər: zəhmət və əxlaqlı davranış nəticəsində. Heydər Əliyeviç, bəs siyasətdə uzunömürlülüyün sirri varmı?

**C a v a b :** Bilirsiniz, yəqin, elə həmin səbəblərdir, görünür, zəhmət və sizin dediyiniz kimi, əxlaqlı davranış da siyasətdə uzunömürlülüyü təmin edir.

**M ü x b i r :** Proqramımızda iştirak etdiyinizə, suallarımıza cavab verdiyinizə görə, təşəkkür edir və arzu edirəm ki, öz vətəninizin – Azərbaycan Respublikasının, bütün Azərbaycan xalqının rifahı naminə hələ uzun illər səmərəli fəaliyyət göstərəsiniz.

**H e y d ə r Ə l i y e v :** Sağ olun.

Bu imkandan istifadə edərək sizin televiziya vasitəsilə Həştərxan vilayətinin bütün sakinlərinə ən qızğın salamımı və xoş arzularımı çatdırmaq, bu torpağa, bu vilayətə, həmin torpaqda yaşayan adamlara dərin hörmət və ehtiramımı bildirmək istəyirəm. Azərbaycanı Həştərxan ilə – o cümlədən tarixi baxımdan – çox şey birləşdirir. Həştərxanı və Həştərxan vilayətini Azərbaycanda yaxşı tanıyırlar. Mənə o da məlumdur və bugün bir daha dəqiqləşdirdim ki, orada, sizin vilayətdə çoxlu azərbaycanlı yaşayır. Ona görə də mən Həştərxan vilayətinin bütün sakinlərinə, o cümlədən də, azərbaycanlılara salamımı göndərir, Azərbaycan xalqının görkəmli oğlu Nəriman Nərimanovun xatirəsinə əvvəllər də, indi də dərin ehtiramla yanaşdıqlarına görə həştərxanlılara təşəkkür edirəm. Sizin vilayətdə onun adını daşıyan şəhər, rayon var. Mən bunu çox yüksək qiymətləndirir və bütün bunlara görə həştərxanlılara təşəkkürümü bildirirəm.

**M ü x b i r :** Siz də sağ olun, Həştərxan torpağında görüşənədək, indi həm siyasi, həm də iqtisadi səbəblərə görə Sizin gəlişinizi çox gözləməli olmayacağıq.

**H e y d ə r Ə l i y e v :** Doğrudur, sizinlə razıyam. Sağ olun.



## AZƏRBAYCAN MİLLİ TELEVİZİYASININ 40 İLLİYİ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ YUBİLEY GECƏSİNDƏ ÇIXIŞ

*Respublika Sarayı*
*17 fevral 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Sizi – Azərbaycan Respublikası televiziyasının əməkdaşlarını, xalqımızı, respublikamızın bütün vətəndaşlarını milli televiziyanın 40-cı ildönümü münasibətilə ürəkdən təbrik edirəm.

40 il bundan əvvəl, 1956-cı il fevralın 14-də Azərbaycanda ilk televiziya verilişləri başlandı. Bu əlamətdar hadisə Azərbaycanın tarixində çox görkəmli yer tutur. 40 il bundan əvvəl Azərbaycan xalqının televiziya verilişlərindən istifadə etmək imkanı qazanması xalqımızın, respublikamızın həm iqtisadi, həm texniki, həm də mədəni, elmi nailiyyətlərinin nəticəsində mümkün olmuşdur. Azərbaycan milli televiziyası 40 il ərzində böyük yaradıcılıq yolu keçmiş və xalqımızın, respublikamızın həyatında əvəzsiz rol oynamışdır. Televiziya Azərbaycanda fəaliyyətə başlayan gündən tədricən genişlənmiş, bunun bir neçə mərhələsi olmuşdur. Nəhayət, 70 - ci illərdə milli televiziya Azərbaycanın bütün ərazisini əhatə etmiş və respublikamizin bütün vətəndaşlarının istifadəsinə verilmişdir. Bu, çox gərgin işin nəticəsi, dövlətin Azərbaycan xalqına, vətəndaşlarımıza göstərdiyi qayğının təzahürü olmuşdur. Bunlar hamısı respublikamızın həyatını canlandırmış, yeni-yeni kütləvi informasiya formalarının inkişaf etməsinə əsas yaratmışdır.

Televiziya bütün informasiya orqanlarından ən kütləvisidir. İndi heç kəs öz həyatını televiziyasız təsəvvür edə bilməz. Yəqin ki, televiziyasız yaşamaq da mümkün olmaz. Ötən 40 ildə xalqımızın iqtisadiyyatının, mədəniyyətinin, elminin inkişafında televiziya görkəmli rol oynamışdır, respublikamızın ictimai-siyasi həyatında televiziyanın fəaliyyəti əvəzsiz olmuşdur. Televiziya bir tərəfdən əhalini məlumatlandırmış və məlumatlandırır, dünyada baş verən hadisələri xalqa çatdırır, digər tərəfdən respublikamızda elm, mədəniyyət, iqtisadiyyat, təhsil və bütün başqa sahələrdə olan nailiyyətləri nümayiş etdirir, təbliğ edir, vətəndaşlarımıza çatdırır.

Televiziya xalq ilə, vətəndaşlarımızla kütləvi informasiya orqanları arasında əlaqə yaradır, eyni zamanda xalqın, vətəndaşların bir- biri ilə əlaqələrini daha da artırır. Teatrı biz vaxtilə çox yüksək qiymətləndirirdik və bu gün də yüksək qiymətləndiririk. Çünki insanların estetik tərbiyəsində, onların mədəni səviyyəsinin artmasında, insanların mənəvi cəhətdən formalaşmasında teatr həmişə çox böyük rol oynamışdır. Sonra teatrla bərabər kino bu rolu oynamağa başladı. Dünyada televiziya meydana gələndən sonra televiziya bu iki çox mühüm sahənin fəaliyyətini, ola bilər, bir qədər məhdudlaşdırsa da, eyni zamanda onların əldə etdiyi nailiyyətləri geniş kütlələrə çatdırmaq üçün ən gözəl, ən gərəkli bir vasitə oldu.

Televiziya böyük bir aləmdir. Yenə də deyirəm, indi heç birimiz özümüzü televiziyasız təsəvvür edə bilmərik. Ancaq televiziyanın hər bir yerdə, o cümlədən Azərbaycanda da bu günə çatması çox böyük və gərgin işin nəticəsində olmuşdur. Televiziyanın bugünkü səviyyəsi 40 il müddətində televiziya sahəsində çalışanların, eyni zamanda televiziya vasitəsilə, televiziyadan istifadə edərək öz nailiyyətlərini, xalqımızın nailiyyətlərini kütlələrə, vətəndaşlara çatdıran, ölkəmizin ayrı-ayrı sahələrində çalışan insanların fəaliyyətinin nəticəsi olmuşdur.

Beləliklə, televiziya hamıya mənsubdur. Bu gün televiziyanın 40 illik yubileyini qeyd edərkən düşünməliyik ki, biz bütün xalqımızın 40 illik böyük nailiyyətlərini qeyd edirik. Hər bir vətəndaşın həyatında baş vermiş nailiyyətlərin, dəyişikliklərin bayramını qeyd edirik. Televiziya belə bir vasitədir.

Eyni zamanda televiziyada bilavasitə çalışan insanlar da var. Televiziyanın əməkdaşlarının bir hissəsi onun maddi-texniki təminatı ilə məşğul olan mütəxəssislər – mühəndislər, texniklər və başqa sahədə fəaliyyət göstərən insanlardır. Bu texnikasız, bu cihazlar olmadan və onları idarə edə bilən mütəxəssislər olmadan televiziya fəaliyyət göstərə bilməz. Əməkdaşların digər hissəsi isə televiziya verilişlərini hazırlayıb insanlara, ictimaiyyətə çatdıranlardır.

Onlar da, bunlar da 40 il müddətində çox iş görüblər. Bu gün onların peşəsinin əhəmiyyətindən danışmalı olsaq, demək lazımdır ki, bu peşə xalqımız, millətimiz, insanlar üçün çox gərəkli peşədir və özünü bu peşəyə , sənətə həsr edən insanlar sözün həqiqi mənasında yüksək qiymətə layiqdirlər. Ona görə də mən bu bayram, yubiley günü, 40 il müddətində Azərbaycan televiziyasını yaradan, quran, yaşadan, inkişaf



etdirən, televiziyanın bütün sahələrində fəaliyyət göstərmiş və bu gün fəaliyyət göstərən vətəndaşlarımıza, dostlarımıza təşəkkürümü bildirmək istəyirəm.

Eyni zamanda əgər Azərbaycanın həyatının bütün sahələrində çalışan tanınmış adamlar, mütəxəssislər televiziya verilişlərinin hazırlanmasına cəlb olunmasaydı, televiziya istənilən səviyyədə fəaliyyət göstərə bilməzdi. Bu 40 il müddətində Azərbaycanın həyatının demək olar, bütün sahələrində çalışan insanlar öz sözlərini, öz fikirlərini xalqımıza çatdırmışlar,öz nailiyyətlərini nümayiş etdirmişlər, öz sənətlərini həm nümayiş, həm də təbliğ etmişlər. Azərbaycanın hər bir guşəsində, hər bir sahəsində meydana gələn yeni hadisələr televiziya vasitəsilə bütün Azərbaycan vətəndaşlarına çatdırılıbdır və çatdırılır.

Bu, böyük nailiyyətdir və bu gün biz bunların hamısını nəzərə alaraq tam qətiyyətlə deyə bilərik ki, Azərbaycanın milli televiziyası xalqımızın milli sərvətidir və Azərbaycan televiziyasının 40 illik həyat yolu Azərbaycan xalqının tarixinin böyük bir hissəsidir, ayrılmaz bir hissəsidir. Qeyd etdim ki, bu 40 il müddətində Azərbaycan televiziyası vasitəsilə Azərbaycanın bütün sahələrində çalışan insanlar öz fəaliyyətini bütün vətəndaşlara çatdırmağa imkan tapıblar. Alimlərimiz, mütəxəssislərimiz, iqtisadiyyatın bütün sahələrində çalışan mühəndislər, texniklər, əmək adamları, mədəniyyət xadimləri, elm xadimləri, gənclər, uşaqlar, yaşlı adamlar, orduda xidmət edənlər, başqa sahələrdə Azərbaycanın keşiyində duranlar – hamısı televiziya vasitəsilə öz nailiyyətlərini, öz fəaliyyətlərini xalqımıza çatdıra biliblər. Beləliklə, bir daha deyirəm, televiziya hər bir kəsin nailiyyətidir. Xalqımızın, millətimizin ümumi nailiyyətlərini həm bütün xalqa, həm də bütün dünyaya nümayiş etdiribdir.

İnsanların mənəvi tərbiyəsində, mənəvi inkişafında televiziyanın rolu çox böyükdür. Televiziya respublikanın həyatında gedən prosesləri əks etdirərək xalqımızda, vətəndaşlarda ictimai-siyasi fəallığı artırıbdır. Televiziya xalqımızın gözəl ənənələrini, milli ənənələrini, mənəvi ənənələrini təbliğ edərək insanlarımızı mənəvi cəhətdən daha da yüksəltməyə kömək edibdir. Televiziyamız tariximizin səhifələrini əyani surətdə təbliğ edərək hər bir vətəndaşın öz keçmişini, tarixini, millətinin aqibətini daha yaxından bilməsinə kömək edibdir. Televiziya çox işlər görübdür, bu gün də çox işlər görür. Bu barədə çox danışmaq olar. Ancaq bir-iki sahəni xüsusi qeyd etmək istəyirəm.

Televiziya respublikamızın son illərdə düşdüyü ağır vəziyyətdə xalqı məlumatlandırmaqda, xalqa düzgün məlumat verməkdə və gedən ictimai-siyasi prosesləri xalqa çatdırmaqda, xalqı daha da fəallaşdırmaqda respublikamıza çox xidmət edibdir. Yeddi ildən artıqdır ki, Azərbaycan Ermənistan tərəfindən hərbi təcavüz nəticəsində müharibə şəraitinə düşübdür. Xalqımızın qəhrəman övladları torpaqlarımızın keşiyində durub, torpaqlarımızı qoruyarkən şəhid olublar, qəhrəmanlıq nümunələri göstəriblər. Qanlı döyüşlər gedibdir. Qələbələr də olubdur, məğlubiyyətlər də. Bizim övladlarımızın qəhrəmanlıq nümunələri də olubdur, ayrı-ayrı şəxslərin xəyanətləri də olubdur, ayrı-ayrı şəxslərin öz vətəndaşlıq borclarını yerinə yetirə bilməməsi halları da olubdur. Hamısı olubdur. Bizim televiziyamız bunları xalqa, millətə, ictimaiyyətə çatdıraraq xalqımızın daha da səfərbər olmasına xidmət edibdir və xüsusilə, Azərbaycan torpaqlarının keşiyində duran, onların qorunması uğrunda döyüşən, çalışan, vuruşan insanların həyatının döyüş səhnələrinin televiziya ilə təbliğ edilməsi və əhaliyə çatdırılması bizim həyatımızda onların böyük xidmətidir.

Ermənistanın Azərbaycana etdiyi təcavüz, ədalətsizlik nəticəsində Azərbaycanda xalqın, xüsusən gənclərimizin bu ədalətsizliyə qarşı etiraz nümayişlərinə və Azərbaycanın müstəqilliyi uğrunda mitinqlərə çıxması məhz televiziya vasitəsilə xalqımıza çatdırılıb və bu, xalqımızda milli oyanış, milli dirçəliş ruhunu inkişaf etdirib, milli həmrəylik əhval-ruhiyyəsi yaradıbdır. Bu da televiziyanın çox böyük xidmətlərindən biridir.

Televiziya Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi, inkişaf etməsi üçün xidmətlər göstərir və onun bu sahədə böyük imkanları var. Biz televiziyanın 40 illik yubileyini qeyd edirik. Dörd il bundan öncə Azərbaycan xalqı, Azərbaycan Respublikası dövlət müstəqilliyini, milli azadlığını əldə edibdir və qarşımızda çox böyük vəzifələr durur. Bu dörd il müddətində televiziyanın böyük xidmətləri olubdur. Bu xidmətləri mən bu gün xüsusi qeyd edirəm. Bu dörd ildən öncə də Azərbaycanın müstəqillik əldə etməsi sahəsində Azərbaycan xalqının göstərdiyi fəaliyyətin nümayiş etdirilməsində, təbliğ edilməsində televiziyanın böyük xidmətləri olubdur. Məhz buna görə də o illərdə nəinki Azərbaycan xalqı böyük təcavüzə məruz qalıbdır, hətta televiziyaya da təcavüz edilibdir.

1990-cı ildə 20 Yanvar faciəsi Azərbaycan xalqı üçün böyük bir bəla olmuşdur. Eyni zamanda Azərbaycan xalqının qəhrəmanlığını, cəsurluğunu nümayiş etdirmişdir. Bu barədə danışılıbdır. O vaxt Sovetlər İttifaqının rəhbərliyi tərəfindən Azərbaycana hərbi təcavüz olmuşdur. Sovetlər İttifaqı rəhbərliyinin və Azərbaycan rəhbərliyinin xalqa qarşı ədalətsiz hərəkətlərinə etiraz edən yüz minlərlə insan etiraz hisslərini bildirmək üçün meydanlara, küçələrə çıxmış, öz haqlarını, öz hüquqlarını tələb etməyə çalışmışdır. O vaxt xalqın bu səsini, xalqın bu hərəkatını boğmaq üçün çox dəhşətli üsullara əl atılmışdır. Azərbaycana hərbi təcavüz edilmişdir və bu təcavüz əməliyyatları içərisində Azərbaycan televiziyasının enerji blokunun partladılması, həmin o ağır günlərdə, mübarizə günlərində Azərbaycan xalqının iradəsini sındırmaq üçün, onu məlumatsız qoymaq üçün belə bir cinayətin törədilməsi də Azərbaycan televiziyasının tarixində özünəməxsus yer tutur.



Mən bu hadisəni məhz ona görə xatırlayıram aydın olsun ki, televiziyanın nə qədər böyük imkanları var. Televiziya nə qədər lazımlı bir vasitədir. O vaxt Azərbaycana böyük qoşun hissələri yeridilərkən, yenə də deyirəm, xalqın iradəsini sındırmaq üçün, xalqa ağır bir zərbə vurmaq üçün o cinayətkar qüvvələr – tək Moskvadakı yox, həm də Azərbaycanın özündə, Azərbaycanın daxilində, rəhbərliyində olan cinayətkar qüvvələr Azərbaycan televiziyasının enerji blokunu partlatdılar və Azərbaycanda televiziya verilişləri bir neçə gün olmadı.

O günlər qara günlər idi. O günlər Azərbaycan xalqı dərd içində idi. Yanvar gecəsinin qanı içində idi. Ancaq o günlər Azərbaycan televiziyasının işləməməsi də xalqımız üçün böyük bir çətinlik yaratdı və əlavə bir dərd oldu. Azərbaycan televiziyasının tarixində belə səhifələr də var.

Eyni zamanda Azərbaycan televiziyasının xidmətlərindən danışarkən onun Azərbaycanın dövlətçiliyini, müstəqilliyini qorumaq üçün nə qədər böyük bir vasitə olduğunu siz yaxşı xatırlayırsınız. 1994-cü il okyabr ayının əvvəlində Azərbaycanda cinayətkar qruplar, dəstələr tərəfindən, şübhəsiz, xaricdən istiqamətləndirilən bu dəstələr tərəfindən Azərbaycanda dövlət çevrilişinə cəhd göstərildi. Bu dövlət çevrilişinə hazırlıq artıq müəyyən bir müddət idi ki, gedirdi. Biz buna nəzarət edirdik. Yəni biz bunu müşahidə edirdik və bu çevriliş cəhdinin nə vaxtsa başlanacağını nəzərə alırdıq. Xatirimdədir, o vaxt bir çox adamlar narahatlıq hissi keçirərək gəlib mənə cürbəcür məsləhətlər verirdilər ki, əgər çevriliş cəhdləri başlansa, nə etmək, nə kimi tədbirlər görmək lazımdır, hansı silahları işə salmaq, hansı silahlardan istifadə etmək lazımdır.

Lakin mən həmin o oktyabr gecəsi dövlət çevrilişi cəhdi başlanan zaman məhz bizim milli televiziyadan istifadə etdim. Bu nə qədər güclü bir silah imiş! Bu bütün silahlardan da güclü bir silah imiş!

Gecə vaxtı mən televiziya vasitəsilə xalqa müraciət etdim, xalqı Azərbaycan dövlətçiliyinin qorunmasına dəvət etdim. Məhz televiziya vasitəsilə biz buna nail ola bildik. Mən buna nail ola bildim. Qısa bir müddətdə – yarım saatdan, bir saatdan sonra Prezident sarayı önündəki meydana yüz minlərlə adam toplaşdı. Bakının ən ucqar yerlərindən insanlar nəqliyyat vasitələri olmadığı halda, hətta piyada, yüyürə-yüyürə həmin meydan gəldilər, Azərbaycanın dövlətçiliyinin keşiyində durdular. Bu, televiziya vasitəsilə mümkün oldu. Bundan sonra həmin meydandan televiziya vasitəsilə birbaşa veriliş başlandı və o meydana toplaşan, Azərbaycan dövlətçiliyini qorumağa gələn insanlar televiziya vasitəsilə öz etiraz səslərini ucaltdılar, öz hiddətlərini bildirdilər, öz fikirlərini söylədilər və beləliklə də, bütün Azərbaycan Respublikasının vətəndaşları ayağa qalxdılar, biz o həlledici gecədə böyük dövlət çevrilişinin qarşısını ala bildik.

Onun sabahısı günü Azadlıq meydanına bir milyondan artıq Azərbaycan vətəndaşı toplaşdı. Yenə də Azərbaycan televiziyası vasitəsilə həmin mitinqlər, verilişlər nəinki Azərbaycanın bütün guşələrinə, həm də bütün dünyaya çatdırıldı. Həmin gecə Prezident sarayının önündəki mitinqdən televiziya verilişləri, sabahısı günü Azadlıq meydanındakı mitinqdən aparılan televiziya verilişləri bütün dünyanın ən mötəbər televiziya stansiyaları vasitəsilə verildi. O televiziya kadrlarını bütün dünya seyr etdi, o kadrlar bütün dünyanı gəzdi. Bu da bir tərəfdən, televiziyanın nə qədər böyük imkanlara malik olduğunu göstərir, digər tərəfdən isə, televiziyanın Azərbaycan dövlətçiliyinin qorunmasında böyük xidmətlərini nümayiş etdirir. Mən həm televiziya əməkdaşlarına, həm də bütün Azərbaycan xalqına təşəkkür edirəm ki, Azərbaycanın dövlətçiliyi həmin o günlərdə qorunub saxlanıldı və bu gün biz respublikamızda tam istimai-siyasi sabitliyə nail olmuşuq.

Televiziyanın xidmətləri böyükdür. Ancaq şübhəsiz ki, həm 40 il ərzində, həm də bu günlərdə onun fəaliyyətində çatışmazlıqlar da, nöqsanlar da var. Bunlar da təbiidir. Güman edirəm ki, bu gün biz televiziyamızın 40 illik yubileyini belə təntənəli şəraitdə qeyd edərkən televiziya sahəsində çalışan vətəndaşlarımız dərk edəcəklər ki, bu, onların üzərinə daha çox məsuliyyət qoyur və onları işdə olan nöqsanların, çatışmazlıqların, səhvlərin aradan qaldırılmasına dəvət edir.



Lakin bunu da qeyd etmək lazımdır ki, televiziya hər bir vətəndaşın gözünün qabağındadır. Ona görə də televiziyanın fəaliyyətindəki nöqsanlar dərhal gözə çarpır, bəzən də televiziyanın verilişlərinə hərə öz fikri, öz ağlı, öz dünyagörüşü ilə qiymət verir. Buna görə də hesab edirəm ki, televiziyanın verilişlərinə heç vaxt birmənalı qiymət vermək mümkün deyil. Çünki hərə bu verilişləri bəlkə də öz istədiyi kimi görmək istəyir. Odur ki, televiziyanın verilişlərinə aid cürbəcür iradlar, cürbəcür tənqidlər ola bilər və bunlar da təbiidir. Televiziya işçiləri gərək öz işlərini elə qursunlar ki, belə tənqidlər az olsun və onların işində nailiyyətlər daha çox olsun.

40 il müddətində televiziya sahəsində bizim böyük təcrübəmiz var. Televiziya sahəsində çalışan insanlar yüksək səviyyəyə gəlib çatıblar. Professional imkanlara malik olan televiziya əməkdaşlarımız var. Ancaq bunlar da son hədd deyildir. Dünya televiziyasının böyük nailiyyətlərini Azərbaycan televiziyası hələ tamamilə mənimsəyə bilməyib, tətbiq edə bilməyibdir. Bu, indi Azərbaycan televiziyasının qarşısında duran vəzifələrdir. Bunları həyata keçirmək üçün televiziyanın maddi-texniki bazasını daha da gücləndirmək lazımdır. Bizim iqtisadi vəziyyətimiz nə qədər çətin olsa da, biz bu sahəyə vəsait əsirgəməyib son zamanlar televiziyanın maddi-texniki bazasını inkişaf etdirmək üçün lazımi tədbirlər görmüşük.

1982-83-cü illərdən inşasına başlanmış böyük televiziya qülləsi tikilib qurtarmaqdadır. Mən bu gün xatırlatmaq istəyirəm ki, hələ 70-ci illərdə biz televiziyanın maddi-texniki bazasını genişləndirmək üçün Bakıda yüksək bir televiziya qülləsi tikilməsi haqqında qərar qəbul etdik. O vaxt bir neçə layihəyə baxıldı və indi tikilməkdə olan həmin qüllənin layihəsi təsdiq olundu, tikinti işlərinə başlandı. O vaxt bizim nəzərdə tutduğumuz proqrama görə, o televiziya qülləsi 2-3 il müddətində tikilib başa çatdırılmalı idi. Onun tikintisinin əsasını qoyanlardan biri və təşəbbüsçüsü mən olmuşam. Ancaq təəssüf ki, on ildən çox bir vaxtda o televiziya qülləsi tikilib qurtarmayıbdır. Biz indi inşaat işlərini sürətləndirmişik və inşaatçılar söz verirlər ki, bu il televiziya qülləsi istifadəyə veriləcəkdir. Bu da Azərbaycan televiziyası verilişlərinin daha geniş yayılması üçün və daha da keyfiyyətli olması üçün çox yaxşı şərait yaradacaqdır.

Biz başqa tədbirlər də görürük və görəcəyik də. Ancaq bunlarla yanaşı, Azərbaycan televiziyası əməkdaşlarının öz professional səviyyə-

lərini yüksəltmək, həmçinin dünya təcrübəsindən səmərəli istifadə etmək, nailiyyətləri daha da artırmaq vəzifələri, şübhəsiz, qarşıda duran əsas vəzifələrdir. Vəzifələr böyükdür. Görüləsi işlərin həcmi də böyükdür və çoxşaxəli işlər görmək lazımdır. Lakin televiziyamızın qarşısında duran vəzifələrin bir-ikisi haqqında danışmaq istəyirəm.

Qeyd etdiyim kimi, televiziya insanların mənəvi tərbiyəsini yüksəltmək üçün çox gözəl bir vasitədir. Televiziya bu işi davam etdirməlidr. Bizim insanlarımızda milli vətənpərvərlik ruhu, milli qürur hissi daha da inkişaf etməlidir və televiziya bu sahəyə bundan sonra daha ciddi fikir verməlidir. Azərbaycan Respublikasının müstəqilliyinin qorunub saxlanması üçün lazım olan tədbirlərin görülməsinə və bu sahədə görülən işlərin təbliğinə Azərbaycan milli televiziyası çox geniş yer ayırmalıdır. Bu sahədə atılan hər bir addım bizim dövlət müstəqilliyimizi möhkəmləndirəcək və inkişaf etdirəcəkdir. Televiziyanın bu sahədə böyük imkanları var və ümidvar olduğumu bildirmək istəyirəm ki, televiziya bu imkanlardan istifadə edəcəkdir.

Biz müstəqil respublikamızda, müstəqil ölkəmizdə öz elmimizi, mədəniyyətimizi, tarixi nailiyyətimizi, tarixi keçmişləri daha geniş təbliğ etməliyik. İnsanlar, xüsusən gənc nəsil bunları yaxşı bilməlidir. Bunu da televiziya vasitəsilə çox məharətlə həyata keçirmək mümkündür.

Televiziya işçilərinə qarşı çox böyük tələblər də var. Onlar gərək ekranda hər bir vətəndaş üçün nümunə olsunlar – həm özlərinin danışığı ilə, həm görünüşü ilə, həm ekranda özlərini aparması ilə, ümumiyyətlə hər bir cəhətdən nümunə olsunlar. Bilirsinizmi, insanlar televizora baxarkən özləri üçün çox şey götürür, mənimsəyirlər. Amma bəzi şeylərdən də dərhal imtina edirlər. Əgər o verilişlər insanların əhval-ruhiyyəsinə uyğun deyildirsə, yaxud o verilişləri aparan adamlar onların əhval-ruhiyyəsinə uyğun hərəkət etmirlərsə, televiziya işçiləri bunu da bilməli və dərk etməlidirlər.

Müstəqil Azərbaycan Respublikasının gələcəyi üçün ən əsas vasitələrdən biri ana dilimizin, dövlət dilimizin inkişaf etdirilməsidir. Bu barədə biz dəfələrlə danışmışıq. Müstəqil Azərbaycan Respublikasının keçən il noyabrın 12-də qəbul olunmuş ilk Konstitusiyası Azərbaycan dilini Azərbaycanın dövlət dili elan etmişdir. Azərbaycan dilinin təbliği sahəsində televiziya çox iş görə bilər. Tamaşaçılar qarşısında çıxış edən televiziya işçiləri Azərbaycan dilində nə qədər səlis, gözəl, şirin, mədəni danışsalar, o qədər də hər bir Azərbaycan vətəndaşı öz dilini sevəcək, həmin televiziya verilişlərindən özləri üçün nümunələr götürəcək və öz dilini inkişaf etdirəcəkdir. Bu, televiziya işçiləri qarşısında duran çox böyük vəzifədir və mən bunu xüsusi qeyd edirəm.



Elm, mədəniyyət xadimlərimiz televiziya vasitəsilə çıxış edərkən, söhbətlər, mübahisələr apararkən Azərbaycan dilində nə qədər səlis danışsalar, o qədər də çox seviləcəklər və xalqımızın ana dilini, dövlət dilini mənimsəməsi, öyrənməsi üçün o qədər də kömək edəcəklər. Güman edirəm, televiziyamız bundan sonra da bu sahəyə fikir verəcəkdir.

40 il az müddət deyil, böyük bir dövrdür. 40 il müddətində Azərbaycan televiziyası böyük nailiyyətlər əldə edibdir. Ancaq Azərbaycan televiziyasının böyük gələcəyi irəlidədir. Müstəqil Azərbaycan Respublikası möhkəmləndikcə, ölkəmizin iqtisadiyyatı inkişaf etdikcə, Azərbaycan xalqının, vətəndaşlarının rifahı yüksəldikcə milli televiziyanın imkanları da artacaq, daha çox inkişaf edəcəkdir. Ancaq Azərbaycan televiziyası bu prosesin önündə getməlidir, bu prosesləri aparmaq üçün çox gərəkli, dəyərli vasitə olmalıdır və ümidvaram ki, belə olacaqdır.

Bu gün biz Azərbaycan televiziyasının 40 il ərzində qazandığı nailiyyətlərlə fəxr edirik. Bu nailiyyətlər münasibətilə sizi bir daha təbrik edirəm. Eyni zamanda Azərbaycan televiziyasının, Azərbaycan xalqının gələcəyinə böyük ümidlərlə, böyük nikbinliklə baxırıq. Gələcəyimiz gözəl olacaq. Azərbaycan televiziyası yaşayacaq və inkişaf edəcəkdir. Televiziyaya gələn yeni nəsillər Azərbaycan milli televiziyasını daha da yüksəklərə qaldıracaq və bunlar hamısı Azərbaycan Respublikasının dövlət müstəqilliyini inkişaf etdirəcək, xalqımızın mənəviyyatını, elmini, mədəniyyətini, bütün nailiyyətlərini dünyaya nümayiş etdirəcəkdir.

Bu salona çox adam toplaşıbdır. Bəlkə də Azərbaycanın bütün təbəqələrini bu qədər rəngarəng şəkildə təmsil edən adamların buraya toplaşdığı hallar çox az olur. Çünki hamı televiziyaya maraq göstərir. Bu salonda olanların əksəriyyəti televiziya vasitəsilə öz fəaliyyətlərini nümayiş etdirirlər, bu gün də öz bayramlarına gəliblər. Ona görə də bu bizim ümumi milli bayramımızdır, ümumi milli şadlığımızdır. Bu bayram münasibətilə sizi bir daha təbrik edirəm, televiziya işçilərinə, bu sahədə çalışan bütün əməkdaşlara cansağlığı, gələcək işlərində uğurlar arzulayır və hamımız üçün gələcəkdə yeni gözəl televiziya verilişlərinin hazırlanmasını arzu edirəm. Sağ olun.

## KALMIKİYA PREZİDENTİ KİRSAN İLYUMJİNOVUN BAKI SƏFƏRİ ZAMANI AZƏRBAYCAN İLƏ KALMIKİYA ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ İMZALANDIQDAN SONRA KALMIKİYA TELEVİZİYASININ MÜXBİRİNƏ MÜSAHİBƏ

*20 fevral 1996-cı il*

**S u a l :** Siz Azərbaycan ilə birbaşa əlaqələr yaradılması barədə Rusiya Federasiyası subyektlərinin təşəbbüsünə necə baxırsınız?

**C a v a b :** Bütövlükdə Rusiya Federasiyası ilə əlaqələrin genişləndirilməsi sahəsində atdığımız və təbii olaraq, müvafiq sənədlərdə əksini tapan addımlarla yanaşı, biz Rusiya Federasiyasının subyektləri ilə birbaşa münasibətlər yaradılmasını da məqsədəuyğun sayırıq. Yeri gəlmişkən, bu əsasən Federasiya subyektlərinin öz təşəbbüsü ilə edilir. Bunun üçün onlar müvafiq hüquqlara və statusa malikdirlər. Biz bu cür təşəbbüsü dəstəkləyir və bəyənirik, əlaqələr yaradırıq. Bu gün Kalmıkiya ilə Azərbaycan arasında saziş imzalandı. Düşünürəm ki, bundan sonra da belə olacaqdır.

**S u a l :** Cənab Əliyev, yəqin ki, bu cür muqavilələr bütün Şimali Qafqazda, ümumiyyətlə Qafqazda dostluğun, mehriban qonşuluğun möhkəmlənməsinə kömək edir. Üstəlik, Qafqazda vəziyyət çox mürəkkəbdir. Necə bilirsiniz, bu cür əlaqələr xalqlar arasında iqtisadi vasitələri, mehriban qonşuluğu və dostluğu nə dərəcədə real surətdə möhkəmləndirir?

**C a v a b :** Şübhə yoxdur ki, belə müqavilələr bu əlaqələri möhkəmləndirir. Lakin iqtisadi əməkdaşlıq dostluq, səmimi münasibətlər üçün yaxşı zəmindir, xüsusən də indi, ölkələrimiz çox mürəkkəb keçid dövrünü yaşadığı, bir çox sahələrdə isə böhran halları olduğu dövrdə. Buna görə də əminəm ki, Azərbaycan ilə Rusiya Federasiyasının subyektləri arasında sazişlər imzalanması ölkələrimizin xalqları arasında dostluğu möhkəmlətmək, bütövlükdə Rusiya Federasiyası ilə Azərbaycan arasında dostluğu və əməkdaşlığı inkişaf etdirmək üçün yaxşı vasitədir.

**S u a l :** Siz millətlərarası münasibətlər baxımından Qafqazda gələcəyi necə təsəvvür edirsiniz?



**C a v a b :** Gələcək dinc, firavan olmalıdır. Biz hamımız sülh istəyirik. Heç kəs münaqişə, qan tökülməsini, müharibə istəmir. Əgər indi qarşıdurma vəziyyəti yaradan toqquşmalara, hərbi əməliyyatlara gətirib çıxaran müəyyən qüvvələr varsa, zənnimcə, bu qüvvələr yox olacaqdır, hər halda bəşəriyyət sülh və əmin-amanlıq şəraitində yaşamalıdır. Ümudvaram ki, Qafqazda da sülh və əmin-amanlıq olacaqdır.

Bu fürsətdən istifadə edərək, xahiş edirəm, Kalmıkiyanın bütün sakinlərinə, onun bütün vətəndaşlarına milli bayram – yeni il münasibətilə ən xoş və səmimi təbriklərimi yetirəsiniz.

## ATƏT-in SƏDRİ, İSVEÇRƏNİN XARİCİ İŞLƏR NAZİRİ FLAVİO KOTTİ İLƏ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ ÜÇÜN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*29 fevral 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Hörmətli mətbuat nümayəndələri!

Siz bu gün ATƏT-in Azərbaycana gəlmiş indiki sədri, İsveçrənin xarici işlər naziri cənab Kotti ilə və nümayəndə heyətinin üzvləri ilə görüşümüzün çox hissəsində olmusunuz və danışıqlarımızdan xəbəriniz var. Buna baxmayaraq, əvvəldən nəzərdə tutulduğu kimi, sizin qarşınıza gəlmişik və suallarınıza cavab verməyə hazırıq. Ancaq öncə onu bildirmək istəyirəm ki, biz çox səmərəli söhbət apardıq. Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması barədə ətraflı müzakirələr oldu. ATƏT-in sədri sabah Ermənistana gedəcəkdir. O, Azərbaycana, ümumiyyətlə bizim regiona ilk dəfə gəlibdir. O, Ermənistanın rəhbərləri ilə də danışıqlar aparacaqdır. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu danışıqlar nəticəsində ATƏT və onun tərkibində olan Minsk qrupu məsələlərin sülh yolu ilə həlli üçün yeni bir addım atılması qərarına gələcəkdir.

Bu məsələnin həlli üçün bizim şərtlərimizi mən həm cənab sədrə, nazirə, həm də bütün nümayəndə heyətinə bildirmişəm. Sonra aparılan danışıqlarda və xüsusən ikimizin arasında gedən təkbətək söhbətdə bu məsələləri daha konkret, daha dəqiq araşdırmışıq və mən öz mövqelərimizi bildirmişəm. Bizim əsas mövqeyimiz ondan ibarətdir ki, bütün sazişlər, qərarlar Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında qəbul oluna bilər. Təəssüf ki, Ermənistan tərəfi indiyə qədər Azərbaycanın ərazi bütövlüyünü tanımaq istəmir. Şübhəsiz ki, belə halda istənilən sazişi əldə etmək çox çətindir. Ona görə də biz bu məsələlər üzərində çox ətraflı dayandıq. İşğal edilmiş ərazilərdən, o cümlədən Laçın və Şuşa rayonlarından Ermənistan silahlı qüvvələrinin çıxarılması bizim əsas şərtimizdir. Biz Dağlıq Qarabağın əhalisinə Ermənistanla əlaqə



üçün Laçın rayonu ərazisində beynəlxalq qüvvələrin nəzarəti altında tranzit zona verilməsinə də öz razılığımızı bildirdik. Ancaq şübhəsiz ki, Laçın rayonu işğalçılardan azad olunmalıdır.

Ermənistan tərəfini maraqlandıran əsas məsələlərdən biri – Dağlıq Qarabağda ermənilərin təhlükəsizliyinin təmin edilməsi barədə də biz prinsipial mövqeyimizi bildirmişik və buna zəmanət veririk. Dağlıq Qarabağa Azərbaycanın tərkibində, Azərbaycanın bir hissəsi olaraq yüksək status verilməsi haqqında əvvəl bəyan etdiyimiz mövqeyimizi təsdiq etdik.

Bunların nə cür, nə yolla həyata keçirilməsi haqqında cənab nazir, ATƏT-in sədri ilə bizim aramızda çox səmərəli, əhəmiyyətli söhbətlər olmuşdur.

**Sual:** Mənim sualım cənab Flavio Kottiyədir. Sizdən əvvəl burada səfərdə olan Amerika diplomatı Pressel və Siz bildirmisiniz ki, problemin həllinin açarı Sizin əlinizdə deyil, əsas məsələ tərəflərin siyasi iradəsindən asılıdır. Beləliklə, ATƏT əslində bu prosesin kənar, passiv müşahidəçisi mövqeyi tutur. Lakin bizə elə nümunələr məlumdur ki, beynəlxalq birlik istədikdə ən mürəkkəb problemləri həll edir. Məsələn, Yuqoslaviyada və İsraildə olduğu kimi. Sizin fikrinizi bilmək maraqlıdır: necə bilirsiniz, bu münaqişədə, indiki halda ATƏT nə üçün belə passiv mövqe tutur və Sizcə, tərəflərin bərabər məsuliyyət daşıması prinsipi – halbuki Ermənistanın təcavüzkar, Azərbaycanın isə təcavüzün qurbanı olması hamıya çoxdan bəllidir – məsələnin həlli yolunda irəliləməyə mane olmurmu? Beynəlxalq birlik bu faktı nə üçün qəbul etmir, buna nə mane olur?

**Flavio Kotti:** Əvvəlcə onu demək istəyirəm ki, mənim burada olmağım faktının özü ATƏT-in bu münaqişəyə çox ciddi yanaşdığını göstərir. Zənnimcə, Minsk qrupunun bir neçə il ərzindəki yaxşı işi də göstərir ki, ATƏT həqiqətən münaqişənin aradan qaldırılması ilə ciddi məşğul olmaq istəyir. Əvvəl dediyimi bir də təkrar edirəm: münaqişənin qəti şəkildə aradan qaldırılmasına kömək etmək üçün biz bundan sonra da xidmətimizi əsirgəməyəcəyik. Zənnimcə, mən cənab prezidenti buna inandıra bilmişəm, ümidvaram ki, sizi də əmin edə bilərəm. Bununla belə mən həqiqətən təsdiq etmək istəyirəm ki, dünyanın hansı nöqtəsində olursa-olsun, münaqişələrin aradan qaldırılmasında beynəlxalq ictimaiyyət öz rolunu oynaya bilər, lakin məsələnin qəti həllinə məhz tərəflər özləri gəlib çıxmalıdırlar. Bosniyadakı vəziyyət

məni çox narahat edir. Bilirəm ki, beynəlxalq birlik orada rol oynayır və bundan sonra da oynayacaqdır. Lakin orada da sülhə məhz tərəflər özləri nail olmalıdırlar.

**S u a l :** Mənim sualım həm Azərbaycan Prezidentinə, həm də cənab Kottiyədir. Cənab Kotti, Amerika diplomatı cənab Pressel cənab Prezidentlə görüşü zamanı bildirdi ki, əgər qarşıdakı aylar ərzində Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında mühüm irəliləyiş əldə olunmasa, biz ən azı bir-iki il itirmiş olarıq. Bu fikirlə razısınızmı və ümumiyyətlə, Sizin fikrinizcə, qarşıdakı aylar doğrudanmı bu qədər əhəmiyyətlidir?

**F l a v i o K o t t i :** Mən cənab Presselin fikri ilə razıyam. Zənnimcə, ümumiyyətlə bu məsələnin həll edilmədiyi hər ay itirilən vaxt deməkdir. Mən əminəm ki, bu məsələnin həllinə nail olmaq üçün qəti fikrə gəlməkdən ötrü zəmin var.

**S u a l :** Cənab Prezident, Presselin fikrinə münasibətinizdə Siz bildirdiniz ki, indiki şərait öz-özünə yaranmamışdır və qarşıdakı aylar ərzində biz qanunauyğun nəticəni əldə etməliyik. Bu nəticəni əldə etmək ehtimalı və Presselin narahatlığının, iraq olsun, uğursuzluğu ehtimalı nə qədər realdır?

**H e y d ə r Ə l i y e v :** Sizin sualınız bizə qaranlıqdır. Nəyin ehtimalı?

**M ü x b i r :** Qarşıdakı aylar ərzində uğursuzluğun ehtimalı.

**H e y d ə r Ə l i y e v :** Hansı uğursuzluğun?

**M ü x b i r :** Presselin dediyi kimi, birdən qarşıdakı aylar ərzində yaxşı nəticələr əldə olunmaya bilər.

**H e y d ə r Ə l i y e v :** Presselin dediyi sözlər, şübhəsiz ki, nəzərə alınmalıdır. Qarşıdan gələn aylar çox həlledici aylardır, biz də istəyirik ki, nəticə əldə edilsin. Ancaq mən onunla razı deyiləm ki, əgər qarşıdan gələn aylarda nəticə əldə etməsək, bu məsələ uzun müddət təxirə düşə bilər. Mən bununla razı deyiləm.

**S u a l :** Münaqişənin aradan qaldırılması ilə bağlı təkliflərin müəllifi kimdir? Laçın tranzit zonasını kim qoruyacaq? Orada Ermənistan silahlı qüvvələrinin olması mümkündürmü? Dünyada belə bir şey varmı ki, bir dövlətin daxilində iki milli ordunun qüvvələri olsun?

**F l a v i o K o t t i :** Mən həmin məsələyə indiki halda cavab verə bilmərəm. Bütün bunlar uzun müddət danışıqlarda müzakirə olunan siyasi sazişin məzmununu təşkil etməlidir. Biz xeyli vaxtdır ki, ATƏT-də bu prosesə kömək göstəririk. Burada da məhz beynəlxalq sülhü mühafizə qüvvələrinin yerləşdirilməsindən söhbət gedir. Yenə deyirəm, bütün bu məsələlər qəti qərarda əksini tapmalıdır.



**S u a l :** Cənab sədr, Siz bu gün bir neçə dəfə dediniz ki, münaqişənin aradan qaldırılmasının başlıca prinsipi Azərbaycanın ərazi bütövlüyünün tanınmasıdır. Azərbaycan öz tərkibində Dağlıq Qarabağa yüksək status verməyə hazırdır. Dediniz ki, ATƏT-in nümayəndə heyəti ona görə buradadır ki, problemin həllinə öz xidmətini göstərsin. Elə isə Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanımasında ATƏT-in və onun Minsk qrupunun xidməti nədən ibarət olacaqdır?

**F l a v i o K o t t i :** Bir kəlmə ilə deyə bilərəm ki, biz məhz bu istiqamətdə danışıqlar aparırıq. Cənab prezidentin indicə dediyi kimi, mən sabah Ermənistanda olacağam və məhz belə məsələləri Ermənistan tərəfi ilə müzakirə edəcəyəm. Burada da, Minsk qrupunda da işimizin məqsədi belə konkret məsələləri, o cümlədən Azərbaycanın ərazi bütövlüyü məsələsini müzakirə etməkdir.

**S u a l :** Yəni Ermənistan rəhbərliyi ilə görüş müzakirə xarakteri daşıyacaqdır. İki ildir ki, Ermənistanın belə mövqe tutması problemin həllinə mane olur. Siz hansı tədbirlər görmək niyyətindəsiniz? Mən müzakirələri deyil, konkret tədbirləri nəzərdə tuturam.

**F l a v i o K o t t i :** Mən yalnız təkrar edə bilərəm: bu məsələnin son dərəcə mühümlüyünü başa düşürəm. Lakin bilirsiniz ki, mən hələ Ermənistan rəhbərliyi ilə görüşməmişəm. Hesab edirəm ki, onlarla görüşməmiş indidən deyə bilmərəm ki, danışıqlarımızın məzmunu necə olacaqdır. ATƏT-ə gəldikdə isə, bu məsələ ilə bağlı onun özünün hansısa iri addımlar ata biləcəyi barədə xülyalara qapılmaq lazım deyildir. İstəyirəm, ATƏT-də qərarların qəbul olunması qaydasını sizə bir qədər aydınlaşdırım. Yəqin bilirsiniz ki, ATƏT-də hər hansı qərarın qəbul olunmasına onun bütün üzvləri razılıq verməlidirlər. Belə olan halda ATƏT-in səmərəliliyinin səviyyəsi bütünlüklə üzv ölkələrin buna nə dərəcədə hazır olmalarının səviyyəsindən asılıdır. Elə ATƏT-in də rolu, ilk növbədə, məhz siyasi diplomatik ünsiyyətlər yaratmaqdan, aradan qaldırılmasının vaxtı çoxdan yetişmiş münaqişələrə son qoyulmasında irəliləyişə nail olmaqdan ibarətdir.

**S u a l :** Mənim sualım cənab Prezidentə və cənab Kottiyədir. Siz qeyd etdiniz ki, 1996-cı il münaqişənin aradan qaldırılmasında həlledici

il olmalıdır. Bəs 1994-cü ildə ATƏT-in Zirvə görüşündə qəbul olunmuş qərar 1995-ci ildə niyə həyata keçirilmədi? Bu nə ilə bağlıdır – Ermənistanın tutduğu qeyri-konstruktiv mövqe ilə, yoxsa vasitəçilərin fəaliyyətinin zəifliyi ilə?

**H e y d ə r Ə l i y e v :** Həm Ermənistan tərəfin qeyri-konstruktiv mövqeyi ilə – mən bu gün qonağımızla danışıqlar zamanı da bunu demişəm, bir də deyirəm, əgər Ermənistan tərəfi normal, konstruktiv mövqe tutsa idi, məsələləri həll etmək olardı. Çünki bizim şərtlərimiz tam ədalətli şərtlərdir. Ermənistan təcavüzkardır, torpaqlarımızı işğal edib, bu torpaqlardan çıxmalıdır. Azərbaycanın ərazi bütövlüyünü tanımalıdır. Bunları etmədiyinə görə məsələ həll oluna bilmədi – həm də, şübhəsiz ki, vasitəçilik edən ölkələrin və ATƏT-in Minsk qrupunun bu sahədə lazımınca təsirli tədbirlər görə bilməməsi ilə bağlıdır.

**F l a v i o K o t t i :** Mən yalnız təkrar etmək istəyirəm: biz həqiqətən istəyirik ki, 1996-cı il bu prosesdə dönüş ili olsun. Əslində 1994, 1995-ci illərdə də istəyirdik ki, o illər həlledici olsun. Bunu sözlə demək asandır. Lakin belə arzuların qəti şəkildə reallaşması Minsk qrupu da daxil olmaqla bütün əlaqədar tərəflərin intensiv səylərindən asılı olacaqdır. Bu məsələdə Minsk qrupunun rolu mühümdür, daha doğrusu, bununla məşğul olmaq üçün onun mandatı var.

**S u a l :** Sualım cənab sədrədir. Minsk qrupu çərçivəsində Ermənistan-Azərbaycan münaqişəsinə dair hazırlanmaqda olan sazişə «qalib tərəflə məğlub tərəf arasında saziş» deyil, ATƏT-in prinsipləri əsasında bərabər hüquqları olan tərəflərin sazişi xarakteri vermək üçün hansı təshihlər edilə bilər?

**F l a v i o K o t t i :** Mən hər hansı gələcək sazişin konkret məzmununu indi burada müzakirə etmək imkanından məhrumam. Yalnız onu deyə bilərəm ki, istənilən konkret qərar münaqişəyə cəlb olunmuş bütün tərəflərin mənafeyini əks etdirməlidir. Belə təfərrüatlar isə təbütün tərəflər arasında real, əməli danışıqlar zamanı aydın olacaqdır. İndiki halda isə hansısa gələcək layihələrin cəhətlərini müzakirə etməyə sadəcə ixtiyarım yoxdur və müzakirə edə bilmərəm.

**H e y d ə r Ə l i y e v :** Mən əlavə edə bilərəm ki, Azərbaycan bütün bu danışıqlarda və hazırlanan sazişdə heç də özünü məğlub olmuş tərəf kimi hiss etmir. Biz bərabər hüquqlu ölkəyik. Beynəlxalq hüquq normaları əsasında öz hüquqlarımızın təmin olunmasını tələb edirik və bu cür də danışıqlar aparırıq.



**S u a l :** Mənim sualım cənab Kottiyədir. Siz birinci dəfədir ki, bizim gözəl vətənimizə gəlmisiniz. İcazə verin, Sizi torpağımızda salamlayım və bu işinizdə uğurlar arzulayım. Yəqin ki, bu az müddətdə xalqımızla tanış ola bilmisiniz. Xalqımız sülhsevərdir, öz vətənini, diyarını sevən xalqdır. Ona heç bir başqa torpaq lazım deyildir. Bizə məlumdur ki, Siz buradan birbaşa Yerevana gedirsininz. Bilmək istərdim, Azərbaycanda olan bir milyondan artıq qaçqınlarla görüşmək səfər proqramınıza daxildirmi? Əgər onlarla görüşsəniz, çadırlarda yaşayan bu adamlar Sizə çox şey danışarlar, onlar Sizdən çox şey gözləyirlər. Belə olan halda Siz daha ətraflı məlumat ala bilərsiniz.

**F l a v i o K o t t i :** Bilirsiniz, mənim vaxtım azdır, sabah axşam evdə olmalıyam. Təklifiniz yaxşıdır, lakin ATƏT-in indiki sədrinin taleyi belədir. O bu gün burada, sabah başqa ölkədə olur. Mənim həyatım bax, belədir. Əlbəttə, istərdim ki, burada 24 saat deyil, daha çox qalım. Lakin mümkün olmur. Qaçqınlara gəldikdə isə – hiss etdim ki, onlarla sizin əlaqəniz var – xahiş edirəm onlara çatdırasınız ki, onların vəziyyətinə ürəkdən acıyıram.

**H e y d ə r Ə l i y e v :** Sağ olun.

## GÜRCÜSTANA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALINA CAVAB

*8 mart 1996-cı il*

**S u a l :** Cənab Prezident, Siz bu yaxınlarda Moskvada Eduard Şevardnadze ilə görüşəndə o, qısa bəyanat verdi. Biz hiss etdik ki, Gürcüstan torpağında Sizi gözləyirlər və səfər uğurlu nəticələr verəcəkdir.

**C a v a b :** Əlbəttə, şübhəsiz, Gürcüstan bizim üçün yaxın qonşu və dost ölkədir. Çox böyük tarixi əlaqələrimiz var. Bu əlaqələri inkişaf etdirmək üçün mənim Gürcüstana səfərim çox əhəmiyyətlidir və güman edirəm ki, çox yaxşı nəticələr verəcəkdir. Gürcüstanda azərbaycanlılar da yaşayırlar. Onların vəziyyəti Azərbaycan üçün və şəxsən mənim üçün çox maraqlıdır. Mənim onlarla da görüşlərim olacaqdır. Səfərimin əsas məqsədi həm gürcü xalqı ilə Azərbaycan xalqı arasında dostluq əlaqələrini möhkəmləndirmək, inkişaf etdirmək, həm də Gürcüstanda yaşayan azərbaycanlıların vəziyyəti ilə bir daha tanış olmaq və onlara əlimdən gələn köməyi etməkdən ibarətdir.



## AZƏRBAYCAN VƏ GÜRCÜSTAN NÜMAYƏNDƏ HEYƏTLƏRİ ARASINDA DANIŞIQLAR BAŞA ÇATDIQDAN VƏ SƏNƏDLƏR İMZALANDIQDAN SONRA GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZE İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Tbilisi*
*8 mart 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Mənim dostum, Gürcüstan prezidenti cənab Eduard Amvrosiyeviç Şevardnadze görüşümüzün birinci günü imzalanmış sənədlər barədə sizə ətraflı məlumat verdi. Bu məni hansısa bir informasiya verməkdən azad edir. Mən Eduard Amvrosiyeviçin dedikləri ilə, verdiyi qiymətlərlə, şərhlərlə tamamilə razıyam.

Eyni zamanda Gürcüstan ilə Azərbaycan Respublikası arasında «Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında müqavilə»nin xüsusi əhəmiyyətini qeyd etmək istəyirəm. Gürcüstan ilə Azərbaycan respublikası arasında bir çox onilliklər, yüzilliklər ərzində mövcud olan ənənəvi dostluq münasibətlərini, qonşu və yaxın dost olduğumuz, bir çox məsələləri birlikdə, lakin hərənin öz ölkəsində, regionumuzda həll etdiyini və beynəlxalq sahələrdə fəal əməkdaşlıq etdiyimizi əsas götürsək, bunun müstəsna əhəmiyyəti var.

«Qafqaz regionunda sülh, təhlükəsizlik və əməkdaşlıq haqqında» imzaladığımız bəyannamə çox mühümdür. Mən deyərdim ki, bu həmin qəbildən olan ilk belə ciddi, mühüm siyasi sənəddir. Onun mühümlüyü və böyük əhəmiyyəti də bundadır ki, Qafqaz qeyri-sabitlikdən, münaqişələrdən əziyyət çəkir, bir çox millətlərarası toqquşmalardan və proseslərdən əziyyət çəkir. Ona görə də hər birimizin, xüsusən də Gürcüstan və Azərbaycan dövlət başçılarının vəzifəsi «Qafqazda sülhə, təhlükəsizliyə», əməkdaşlığa yol açmaqdır. İmzaladığımız sənəd məzmununa və xarakterinə görə belə bir əməkdaşlığa yol açır. O, başqalarının da qoşulması üçün açıqdır. Ona görə də ümidvar olmaq istəyirəm ki, regionumuzun digər dövlətləri, eləcə də başqa dövlətlər bu sənədə qoşulacaqlar.

Azərbaycanda ilkin neftin Gürcüstan ərazisi vasitəsilə Qara dəniz sahilinə nəqli barədə bu gün imzalanmış sənədlərin də çox mühüm əhəmiyyəti var. Həm Azərbaycanın, həm də Gürcüstanın iqtisadiyyatı üçün əhəmiyyəti həqiqətən böyükdür. Bu həm də dostluq, əməkdaşlıq xəttidir. Ümidvaram ki, gələcək nəsillərimiz indi bizim bu istiqamətdə gördüyümüz işləri layiqincə qiymətləndirəcəklər. Çünki, Gürcüstan ərazisindən keçməklə Azərbaycandan Qara dəniz sahilinə neft kəməri-nin çəkilməsi gələcəkdə iqtisadi, sosial xarakterli bir çox maraqları özünə cəlb edəcəkdir.

Şübhəsiz ki, imzaladığımız hər bir sənəd əhəmiyyətlidir. Ona görə də mən danışdıqlarımızdan və imzaladığımız sənədlərdən, bu gün bu-rada, Tbilisidə qarşılıqlı münasibətlərimizdə hökm sürən səmimi dost-luq şəraitindən son dərəcə məmnunam. Gürcüstana dəvət olunduğuma görə, mənə və nümayəndə heyətimizin butun üzvlərinə göstərilən sə-mimi münasibətə görə, – biz burada özümüzü evimizdəki kimi, qardaş-larımızın yanındakı kimi hiss edirik, buraya da bu hisslərlə gəlmişik və Tibilisidə, Gürcüstan torpağında keçirdiyimiz saatlar hisslərimizi və ümidlərimizi tamamilə doğruldur – cənab Eduard Şevardnadzeyə min-nətdarlığımı bildirirəm.

Hesab edirəm ki, ünsiyyət üçün hələ imkanımız olacaq, çünki mə-nim səfər proqramım kifayət qədər genişdir və yəqin ki, mətbuatla ye-nə görüşəcəyik. İndi isə dediklərimlə kifayətlənir, əlavə edirəm ki, mən Gürcüstan prezidenti cənab Eduard Şevardnadzeni Azərbaycana dəvət etmişdim və bu gün bu dəvəti bir daha təsdiq edirəm. Zənnimcə, burada gördüyümüz çoxlu işdən sonra belə səfər həyata keçiriləcəkdir.

Diqqətinizə görə sağ olun.

**S u a l :** Hər iki prezident dinc Qafqaz barədə danışdılar. Ona görə də sualım hər ikisinədir. İlkin neftin Gürcüstan ərazisi vasitəsilə nəqli haqqında müqavilənin imzalanması ilə əlaqədar Rusiya yəqin ki, Qaf-qazda özünün təsir dairəsini müəyyən qədər itirmişdir. Sizcə, o öz tə-sir dairəsini nə yolla – sülhyaratma rolu oynadığı Dağlıq Qarabağ və Abxaziya hesabına bərpa etməyə çalışacaq, yoxsa bunu nə isə başqa şeyə dəyişə bilərmi?

**E d u a r d Ş e v a r d n a d z e :** Zənnimcə, Xəzər neftinin Gür-cüstan ərazisi vasitəsilə, yəni Qərb istiqamətində nəqli məsələsində heç bir sualtı manea axtarmaq lazım deyildir. Bu, həm Gürcüstan, həm də bütün Qafqaz üçün tarixi əhəmiyyətə malik olsa da, mən deyərdim



ki, adi qərardır. Burada heç bir ziddiyyət, heç bir qarşıdurma, yaxud hansısa dövlətə qarşı qəbul edilmiş qərar yoxdur. Sizə məlumdur ki, bu məsələdə iki istiqamət – şimal və qərb istiqamətləri var. Korporasiya-ların paralel marşrutlara malik olmaq istəyi tamamilə təbii və qanuna-uyğundur. Başqa sözlə, burada digər ölkələrin, üçüncü ölkələrin məna-feyinə toxunulmamışdır. Əksinə, zənnimcə, bu mənafelər maksimum nəzərə alınmışdır.

**H e y d ə r Ə l i y e v :** Mən belə hesab edirəm ki, heç kim heç nə itirməmişdir, hamı qazanmışdır.

**S u a l :** Cənab prezidentlər, Siz Qafqazda sülh yaratmaq təşəbbüsü barədə danışdınız. «Qafqazda sülh» formulu nə dərəcədə real şəkildə işə düşəcək, bu regionun digər dövlətlərinin rəhbərlərinin Sizin təşəb-büsünüzü dəstəkləyəcəyinə nə dərəcədə əminsiniz? İkinci sualım cə-nab Əliyevədir.

Siz Çeçenistandakı vəziyyəti necə qiymətləndirirsiniz və bu baxım-dan neftin şimal istiqamətində nəqlini nə dərəcədə perspektivli sayırsı-nız?

**H e y d ə r Ə l i y e v :** Mən imzaladığımız bəyannamənin əhə-miyyəti barədə danışdım. Hesab edirəm ki, Eduard Şevardnadze və Heydər Əliyev çox mühüm təşəbbüs – Qafqazda sülhü möhkəmləndir-mək təşəbbüsü göstərmişlər. Bundan yüksək heç nə ola bilməz. Bu tə-şəbbüsün həyata keçirilməsinə necə çalışacağımıza gəldikdə isə, təbii ki, asan olmayacaqdır. Amma eyni zamanda Qafqazda sülhün bərqərar olmasına kimsə müqavimət göstərsə, təbii ki, Qafqazda da, dünya icti-maiyyəti gözündə də təcavüzkar, münaqişə tərəfdarı, qeyri-sabitlik tə-rəfdarı kimi görünəcəkdir. Ona görə də hesab edirəm ki, sağlam düşüncə üstün gələcəkdir. Qafqazda münaqişələr və qeyri-sabitlik uc-batından indiyədək çəkdiklərimizə baxmayaraq, Qafqazda sülhə doğru inamla irəliləməliyik. Qafqaz dinc, təhlükəsiz olmalı, dinc, mehriban qonşuluq və qarşılıqlı surətdə faydalı əməkdaşlıq regionu olmalıdır. Bu sualla əlaqədar bunu deyə bilərəm.

Çeçenistandakı vəziyyəti isə yəqin, məndən yaxşı billirsiniz, xüsu-sən də ona görə ki, Çeçenistanla sərhədiniz var, bizim isə yoxdur. Mən oradakı vəziyyəti qiymətləndirmək istəmirəm, şərait hər gün dəyişir. Lakin bir şeyi deyə bilərəm ki, həmişə separatçılığın, terrorçuluğun əleyhinə çıxmışıq və indi də əleyhinəyik. Bu barədə bəyanatım bundan ibarətdir. Bu vəziyyətin Azərbaycan neftinin şimala, Rusiya ərazisi va-

sitəsilə Qara dənizin sahilinə nəqlinə nə dərəcədə təsir göstərəcəyinə gəldikdə isə, hesab edirəm ki, Rusiyanın dövlət və hökumət rəhbərliyi bunun qayğısına qalacaqdır.

**Eduard Şevardnadze:** Mən Heydər Əliyeviçin dedikləri ilə razıyam. O bizim təşəbbüsümüz barədə ətraflı məlumat verdi. Təkcə bir şeyi əlavə etmək istəyirəm. Qafqazla Birləşmiş Millətlər Təşkilatı, Avropanın təhlükəsizlik strukturları, Təhlükəsizlik Şurası, MDB məşğul olurlar. Rusiya vasitəçilik vəzifələrini yerinə yetirir. Lakin indiyədək biz Qafqaz amilinin özünü işə sala bilməmişik. Mən son illər özünü göstərən və çox ağır nəticələri olan münaqişələri nəzərdə tuturam. Zənnimcə, təşəbbüsümüzün bütün dəyəri bundadır ki, məhz Qafqaz amili işə salınacaqdır – mən Qafqaz dövlətlərini və Qafqaz xalqlarını deyirəm.

**Sual:** Dağlıq Qarabağda, Abxaziyada və Çeçenistandakı münaqişələrin ümumi və fərqli cəhətləri haqqında rəyinizi bilmək istərdim.

**Heydər Əliyev:** Bunların üçü də çox dəhşətli münaqişələrdir. Ancaq ən dəhşətli və tarixcə, zamanca ən köhnəsi Ermənistan ilə Azərbaycan arasında olan münaqişədir. Bunun səkkiz illik tarixi var. Səkkiz il öncə Ermənistan silahlı qüvvələri Azərbaycana hərbi təcavüz ediblər və Azərbaycan ərazisinin 20 faizini işğal ediblər. İşğal olunmuş ərazilərdən bir milyondan artıq vətəndaşımız qaçqın düşüb. Bu, şübhəsiz ki, nə Abxaziya-Gürcüstan münaqişəsinə, nə də Çeçenistan münaqişəsinə bənzəyir. Ona görə hesab edirəm ki, bunların hər biri xalqlar, ölkələr üçün həm dəhşətli, həm də faciəlidir. Ancaq hərəsinin özünə görə xüsusiyyətləri var.



## GÜRCÜSTAN TELEVİZİYASININ MÜXBİRİ İLƏ MÜSAHİBƏ

*Tbilisi*
*10 mart 1996-cı il*

**Müxbir:** Cənab Prezident, səfəriniz başa çatır, Siz vətənə yola düşürsünüz. Sizin Gürcüstana gəlməyiniz ərəfəsində bir çoxları bu səfəri Xəzərdən çıxarılacaq ilkin neftin nəqli məsələsinin həlli ilə əlaqələndirirdilər. Lakin bu günün reallıqları göstərdi ki, Sizin Gürcüstanda olduğunuz müddətdə ən mühüm məsələ təkcə bu olmayıb, həm də çoxcəhətli xarakter daşıyan sənədlər imzalanıbdır. Əgər imzalanmış bəyannaməni də nəzərə alsaq, Xəzər nefti ilə bağlı mövzu bir qədər arxa plana keçdi.

**Heydər Əliyev:** Xəzər neftinin nəqli məsələsini biz prinsipcə ötən ilin oktyabrında həll etmişdik. Lakin Gürcüstan ilə Azərbaycan arasında sazişi imzalamaq lazım idi. Ötən müddətdə biz bununla məşğul olduq, mən buraya tam hazırlanmış sənədlərlə gəldim və sazişi imzaladıq. Digər mühüm sənədləri imzalamağımız isə heç də həmin sazişin əhəmiyyətini azaltmır. Bununla yanaşı, biz Gürcüstanla Azərbaycan Respublikası arasında dostluq, əməkdaşlıq və təhlükəsizlik haqqında çox mühüm müqavilə də imzaladıq. Eduard Amvrosiyeviç Şevardnadze və mən Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq haqqında mühüm bəyannamə də imzaladıq. Digər əhəmiyyətli sənədlər də imzalanmışdır. Bütün bunlar hamısı gələcək fəal əməkdaşlığımız üçün hüquqi baza yaradan sənədlər toplusunu təşkil edir.

**Müxbir:** Demək olarmı ki, həmin bəyannamənin təşəbbüsçüləri Gürcüstan və Azərbaycandır?

**Heydər Əliyev:** Nəinki demək olar, əslində də belədir, təşəbbüsçü bizik. Bu fikri kənardan bizə heç kim deməyib. Mən özüm bu məsələ barədə çox düşünmüşəm. Eduard Amvrosiyeviçlə fikir mübadiləsi etmişik, o da bu haqda düşünürdü. Məhz Qafqazın qayğısına qalaraq, birlikdə bu fikrə gəldik. Qafqaz dünyanın mühüm regionudur. Burada çox ciddi hadisələr baş verir, münaqişələr gedir, çox qan tökülür. Qafqaz təkcə burada yaşayan xalqlar, Qafqazı təşkil edən ölkə-

lər üçün deyil, həm də ətrafdakı ölkələr, habelə dünyanın bir çox digər ölkələri üçün böyük əhəmiyyət kəsb edir. Ona görə də biz bu məsələ barədə düşünürdük və ümumi səylərimiz, problemə ümumi baxışımız bəyannamə imzalamağımızla nəticələndi. Şübhəsiz ki, bu bizim təşəbbüsümüz, Şevardnadze və Əliyevin təşəbbüsüdür.

**M ü x b i r :** Bəyannamənin gələcək taleyini, perspektivini necə görürsünüz? Yəqin belə bir fikirlə razılaşmaq olar ki, Qafqazda sülh olmasını istəməyən qüvvələr var.

**H e y d ə r  Ə l i y e v :** Bilirsiniz, bu bəyannamə məhz belə qüvvələrə qarşı yönəldilib. Əlbəttə, kimin Qafqazda sülh, əmin-amanlıq, sabitlik olmasını istəməsini, kimin istəməməsini zaman göstərəcək. Biz bu bəyannamədə Qafqazın hər hansı ölkəsinin, yaxud Qafqaza maraq göstərən başqa ölkələrin hüquqlarını, mənafelərini tapdalayan heç bir şey təklif etmirik.

**M ü x b i r :** Zaman məsələsi barədə dediyiniz çox maraqlıdır. Bütün bunlar Qafqazla bağlı məsələlərin siyasi cəhətidir. Xəzər neftinə gəldikdə isə, bu məsələnin həlli göstərir ki, indi Qafqazın iqtisadi baxımdan dirçəldilməsi də siyasi problemlərin nizamlanması kimi reallıqdır.

**H e y d ə r  Ə l i y e v :** Əlbəttə, bunlar bir-biri ilə əlaqəlidir. Çünki iqtisadi dirçəliş, Qafqazın böyük iqtisadi potensialından istifadə edilməsi üçün imkanlar yaradılması siyasi məsələlərin həllinə də fəal təsir göstərəcəkdir.

**M ü x b i r :** Deyirlər ki, Siz, indi jurnalistlərin xoşladıqları ifadə ilə desək, «durğunluq illərinin» siyasi lideri olarkən Eduard Şevardnadze ilə bir növ rəqabətiniz olub, özü də bu, təkcə regionda liderlik üstündə getməyib. Bu, nə dərəcədə doğrudur və indi Gürcüstan prezidenti ilə münasibətləriniz necə inkişaf edir?

**H e y d ə r  Ə l i y e v :** Bilirsiniz, rəqabətin olması barədəki fikirlə razı deyiləm. Burada, Tbilisidə birinci gün biz məsələlərimizi həll edərkən dedim ki, ölkələrimiz, xalqlarımız bir-birinə yaxındırlar. Onların qonşuluqda yaşamalarını, deməli, həm də dostluq etmələrini tale özü müəyyən etmişdir. Lakin iş elə gətirmişdir ki, Gürcüstan və Azərbaycanın rəhbərləri kimi bizim keçdiyimiz yollar çox oxşar olmuşdur. Biz zaman, vaxt etibarilə az fərqlə, təxminən eyni vaxtda Azərbaycan və Gürcüstana rəhbərlik etməyə başlamış, eyni vaxtda da Moskvada, keçmiş Sovetlər İttifaqının rəhbərliyində olmuşuq.



Şübhəsiz ki, mən «durğunluq illəri» ifadəsi ilə razı deyiləm, tarix özü bunu təkzib etmişdir. O dövr əsla durğunluq illəri deyildi.

**M ü x b i r :** Mən bu fikri jurnalistlərin adına çıxıram.

**H e y d ə r  Ə l i y e v :** Bu, jurnalistlərin deyil, Qorbaçovun uydurması idi. Hesab edirəm ki, o özü də həyatının ən yaxşı illərini həmin dövrdə, Stavropolda işləyərkən yaşamışdır. Sonra isə bütün bu illəri pisləməyə, «durğunluq illəri» adlandırmağa başladı və müvəffəqiyyətsizliyə uğradı. Həmin dövrdə biz çox şeyə nail olmuşduq. Gürcüstanda da, Azərbaycan da belə idi. Bu, keçmiş Sovetlər İttifaqında da, dünyada da məlum idi. Görünür, dediyiniz fikir başqa şeylə – Eduard Amvrosiyeviç Şevardnadzenin də, mənim də digər respublikaların liderləri arasında seçilməyimizlə bağlıdır, deyə bilərəm ki, məşhurluğumuzla bağlı idi. Yəqin, bu, ondan irəli gəlirdi ki, Qafqazdan, Zaqafqaziyadan olan hər ikimiz Sovetlər İttifaqının rəhbərliyinə gəlib çıxmışdıq. Rəqabət yox idi, xeyirxah münasibət, yaxşı dostluq əlaqələri vardı. Biz bir-birimizdən yaxşı cəhətləri götürməyə çalışırdıq. Bu mənada rəqabət demək olardı – Gürcüstanda yaxşı bir şey görəndə biz onu Azərbaycanda tətbiq etməyə çalışırdıq. Azərbaycanda da müəyyən bir yenilik olanda hiss edirdim ki, bir müddət sonra təxminən eyni şey Gürcüstanda da meydana gəlir. Vəziyyət təxminən belə idi.

İndiki münasibətlərimizə gəldikdə isə, zənnimcə, Tbilisidə olduğum bu üç gün bunların xarakterini kifayət qədər əyani şəkildə nümayiş etdirir. Eduard Amvrosiyeviç Şevardnadze də, mən də bunu çox demişik: bizim münasibətlərimiz mehriban dostluq xarakteri daşıyır. Hesab edirəm, bu sadə adamlar kimi bizdən daha çox, xalqlarımızdan ötrü lazımdır ki, həm hərbi münaqişələrlə bağlı, həm də, şübhəsiz sosial-iqtisadi xarakterli problemlərlə bağlı olan indiki mürəkkəb dövrü yaşaya, ağır vəziyyətdən çıxa bilsinlər.

**M ü x b i r :** Cənab Prezident, bütün sivilizasiyalı dövlətlərdə milli hərəkatı prezidentin adı ilə bağlayırlar. Sovet İttifaqı dağıldıqdan sonra yaranmış dövlətlərdə vəziyyət bir qədər başqadır. İş belə gətirmişdir ki, bir qayda olaraq, prezident və milli hərəkat bir-birinə qarşı duran iki qüvvədir. Bunu Sizin barənizdə deməyə çətinlik çəkirəm. Hər halda bu vəziyyət bəzi dövlətlər üçün xarakterikdir. Siz bunu nə ilə izah edirsiniz?

**H e y d ə r  Ə l i y e v :** Bilirsiniz, müxtəlif respublikalarda vəziyyət eyni olmamışdır. Bu vəziyyət Sovetlər İttifaqının dağıldığı dövrdə və

xüsusən də o dağıldıqdan sonra xarakterik olmuşdur. Əvvələn, vaxt keçdikdən sonra bütün bu proseslər təhlil edilmişdir. İkincisi, hər bir respublikanın özünəməxsus cəhətləri, xüsusiyyətləri var, ona görə də hər birində vəziyyət də müxtəlif olmuşdur.

Məsələn, mən hesab etmirəm ki, Gürcüstanda Eduard Şevardnadze ilə hərəkat arasında hansısa qarşıdurma var. Milli hərəkat nə deməkdir? Əgər o, həqiqi, xalqın mənafeyini, milli mənafeyi ifadə edən hərəkatdırsa, eyni mənafeləri ifadə edən, amma, necə deyərlər, küçədə qışqırmayan, böyük siyasi təcrübəsinə əsaslanaraq məsələləri həll edən siyasi liderə qarşı çıxmaz.

Bu, Azərbaycana da aiddir. Azərbaycanda milli hərəkatın başlanması ən çox Dağlıq Qarabağdakı hadisələrlə və mərkəzin, Moskvanın bu problemin həllinə ədalətsiz yanaşması ilə bağlı idi. Əslində bu, xalqın Azərbaycandakı və Moskvadakı kommunist rejiminə qarşı coşqun etirazının mayasını təşkil edirdi. 20 Yanvar faciəsinə gətirib çıxaran hadisələri də bilirsiniz.

Sonra milli hərəkatın özündə də müəyyən fərqlər əmələ gəldi. Milli inkişaf uğrunda real şəkildə, həqiqətən mübarizə aparmış və aparan qüvvələr, milli hərəkatda iştirak etmiş qüvvələr bu gün də fəaliyyət göstərirlər. Hərəkata yalnız özlərinin şəxsi mənafeləri üçün qoşulanlar, populistlər, yaxud siyasi cəhətdən səriştəsiz olanlar isə tədricən sıradan çıxdılar. Zənnimcə, Gürcüstanda da belə olmuşdur.

**M ü x b i r :** Bəli. Mən ayrılıqda konkret bir dövləti deyil, ümumi meyli nəzərdə tuturdum.

**H e y d ə r Ə l i y e v :** Bilirsiniz, bu meylləri birmənalı qiymətləndirmək, ümumi meyllər hesab etmək olmaz. Tarixi, milli xüsusiyyətlərdən, konkret regionla bağlı şəraitdən asılı olaraq, – məsələn, burada, sizdə Abxaziya-Gürcüstan, Cənubi Osetiya-Gürcüstan münaqişələri; bizdə Dağlıq Qarabağ üstündə gedən Ermənistan-Azərbaycan münaqişəsi, münaqişə olmayan yerlərdə isə nəsə başqa şey vardı – keçmiş Sovetlər İttifaqının ayrı-ayrı regionlarında vəziyyət müxtəlif olmuşdur.

**M ü x b i r :** Bilirəm, çox tələsirsiniz. Sonuncu sualımdır. Cənab Prezident, səhv etmirəmsə, on beş il olar Gürcüstana gəlmirdiniz. İş elə gətirib ki, indiki səfəriniz martın 8-nə düşüb. Xüsusi olaraq bu vaxtı seçmisiniz, yoxsa təsadüfdür? 8 mart münasibətilə Gürcüstanda ilk təbrik etdiyiniz qadın kimdir?



**H e y d ə r Ə l i y e v :** Şübhəsiz, bu vaxt xüsusi olaraq seçilməmişdir. Təxminən bir il idi ki, təkcə danışıqlar aparmır, həm də görüşümüzlə bağlı məsələləri müzakirə edirdik. Mən Eduard Amvrosiyeviçi səfərə dəvət edirdim, o da məni dəvət edirdi. İş belə gətirdi ki, əvvəlcə mənim Gürcüstana səfərim barədə razılığa gəldik. Biz bir neçə dəfə səfərin vaxtını nəzərdə tutmuş, lakin müxtəlif səbəblər üzündən təxirə salmışdıq. Amma bütün məsələlər, xüsusən Qərb marşrutu ilə neftin nəqli məsələsi həll edildikdən – sonuncu ilə əlaqədar çox şeyi həll etmək lazım idi, – sonra qərara gəldim ki, səfəri daha təxirə salmaq olmaz, getmək lazımdır. Bu da təsadüfən martın 8-nə düşdü.

8 marta gəldikdə isə, mən bilirəm ki, bu, Gürcüstanda bayram günü deyil, Azərbaycanda isə bayram günüdür. Ona görə də səfərimin qadınlar bayramı ilə bir vaxta düşməsi barədə fikir özünü doğrultmur. O ki qaldı 8 mart münasibətilə Gürcüstanda kimi təbrik etməyimə, mən çox gözəl qadını – kinorejissor Lana Qoqoberidzeni təbrik etmişəm. O, Parlamentdə Eduard Amvrosiyeviç Şevardnadzenin partiyasının fraksiyasına başçılıq edir. Buraya, Tbilisiyə gələndə onunla görüşdük, həm də o mənim çox xoşuma gəldi.

**M ü x b i r :** Parlamentin iclasında deputatlara və ümumiyyətlə Gürcüstan ictimaiyyətinə müraciət etmək imkanınız olub, indi vətənə yola düşürsünüz, əgər istəyirsinizsə, Gürcüstan milli televiziyası vasitəsilə Gürcüstan ictimaiyyətinə müraciət edə bilərsiniz.

**H e y d ə r Ə l i y e v :** Hesab edirəm ki, biz burada böyük iş görmüşük. Buraya səfərim ərəfəsində və Gürcüstanda olduğum müddətdə Eduard Amvrosiyeviçlə gördüyümüz birgə işlər çox yaxşı nəticələr vermiş, gələcək əməkdaşlığımızın və dostluğumuzun daha da möhkəmlənməsi üçün yaxşı zəmin yaratmışdır. Gürcüstanda əvvəllər də və indi də gedən proseslərə biganə qala bilmərəm. Çünki Gürcüstan dost ölkə, gürcülər dost xalqdır. Mən Gürcüstana, gürcü xalqına həmişə böyük hörmət bəsləmişəm. On beş ildən sonra yenidən buraya gələndə, şübhəsiz ki, keçmiş vaxtları da xatırladım və ona da sevindim ki, indi Tbilisidə, Gürcüstanda istimai-siyasi sabitlik var. Bu, həm Gürcüstanın, həm də Azərbaycanın düşdükləri ağır vəziyyətdən çıxmaq üçün çox mühümdür. Mən bu zərurəti Azərbaycanda hiss edirəm. Ona görə də bunun Gürcüstan üçün nə dərəcədə mühüm olduğunu bilirəm. Çünki hər iki ölkədə vəziyyət hər baxımdan oxşar, demək olar, eynidir.

Mən gürcü xalqına, Gürcüstan vətəndaşlarına səmimi salamlarımı və xoş arzularımı yetirmək, onlara xoşbəxtlik və səadət diləmək istərdim. Onlara demək istərdim ki, bu vəziyyətdən çıxmaq üçün dözüm, dözüm və yenə də dözüm, son dərəcə mətinlik lazımdır. Mən Azərbaycan xalqına bunu deyirəm, bir dost kimi gürcü xalqına da deyirəm, xoşbəxtlik və səadət arzulayıram.

**M ü x b i r :** Çox sağ olun. Sizə yaxşı yol və gələcək həyatınızda uğurlar diləyirəm.

**H e y d ə r Ə l i y e v :** Sağ olun, təşəkkür edirəm.



# BAKIDA BEYNƏLXALQ VALYUTA FONDUNUN SƏRƏNCAMÇI DİREKTORU MİŞEL KAMDESSÜ İLƏ DANIŞIQLAR BAŞA ÇATDIQDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSI

*12 mart 1996-cı il*

Hörmətli xanımlar və cənablar, hörmətli mətbuat işçiləri!

Bilirsiniz ki, Beynəlxalq Valyuta Fondunun direktoru cənab Kamdessü Bakıya gəlibdir. Bu gün səhərdən bir çox görüşlər keçirilibdir. İndi isə biz çox uzunsürən danışıqlar apardıq. Bu danışıqlar Azərbaycan Respublikası ilə Beynəlxalq Valyuta Fondunun gələcək əməkdaşlığına həsr olunmuşdur.

Beynəlxalq Valyuta Fondu dünyanın ən böyük maliyyə mərkəzidir, 180-dən artıq ölkə bu fondun üzvüdür. Onun əsas vəzifələrindən biri dünyanın iqtisadi cəhətdən geridə qalmış ölkələrinə kömək etmək və xüsusən bu ölkələrdə müasir iqtisadi islahatların həyata keçirilməsinə yardım göstərməkdən ibarətdir.

Azərbaycan Beynəlxalq Valyuta Fondunun üzvüdür və qeyd edə bilərəm ki, bizim əməkdaşlığımız müvəffəqiyyətlə gedir. Beynəlxalq Valyuta Fondu Azərbaycanda iqtisadi islahatların aparılmasında, ölkəmizin bazar iqtisadiyyatı yolu ilə getməsi sahəsində çox dəyərli məsləhətlər verir və biz bu məsləhətlərdən istifadə etməyə çalışırıq. Eyni zamanda fond Azərbaycanda iqtisadi islahatların keçirilməsi, iqtisadiyyatda struktur dəyişikliklərinin aparılması, özəlləşdirmə və başqa bu cür tədbirlər üçün respublikamıza kreditlərlə maliyyə yardımı edir. Biz Beynəlxalq Valyuta Fondundan 100 milyon dollaradək kredit almışıq. Bu, çox güzəştli, uzunmüddətli kreditdir və gələcəkdə çox az faizlə ödəniləcəkdir.

Bu ayın axırında kreditin–buna stend-bay krediti deyirlər–təxminən 75 milyon dollar məbləğində ikinci hissəsi yəqin ki, Azərbaycana veriləcəkdir. İndi böyük bir proqram hazırlanır və gələcəkdə iqtisadi islahatların keçirilməsi üçün onun əsasında Beynəlxalq Valyuta Fondu bizimlə əməkdaşlıq edəcəkdir. Bu əməkdaşlıq da uzunmüddətli kreditlərlə təmin olunacaqdır. Bunlar hamısı Azərbaycanda bütün sahələrin,

o cümlədən iqtisadiyyatın demokratiya yolu ilə getməsini bir daha sübut edir və gələcəkdə də bu yolla getməyimizə imkanlar yaradır.

Cənab Kamdessü on ilə yaxındır ki, Beynəlxalq Valyuta Fonduna rəhbərlik edir, dünyanın tanınmış iqtisadçılarından, maliyyəçilərindən biridir. Bu vəzifədə dünyanın bir çox ölkələri qarşısında böyük xidmətlər göstəribdir. Azərbaycana ilk dəfə gəlib, biz onu böyük hörmət və ehtiramla qarşılamışıq. Mən apardığımız danışıqlardan və bunların nəticələrindən məmnunam. Ümidvaram ki, bu danışıqlar, görüşlər əsasında Azərbaycan ilə Beynəlxalq Valyuta Fondu arasında əməkdaşlıq bundan sonra daha sürətlə inkişaf edəcəkdir.

**S u a l :** Cənab Kamdessü, bizə səxavətlə vaxt ayırdığınız üçün təşəkkür edirik. Əgər Azərbaycana maliyyə vəsaitini də belə səxavətlə ayırsanız, respublikamızın işləri çox yaxşı olacaq. Dediniz ki, Beynəlxalq Valyuta Fondunun nizamnaməsinin ilk maddəsinə görə ehtiyacı olan üzv ölkələrə özlərinə inam yaratmağı, habelə başqa ölkələrdə onlara inam yaratmağı nəzərdə tutursunuz. Azərbaycana inam yaratmaq istəyinizi buraya səfərinizdən və ölkəmizdə keçirilən islahatlar haqqında dediklərinizdən başa düşdük. Başqa ölkələrdə Azərbaycana qarşı inam yaratmaq üçün nə işlər görmüsünüz, görürsünüz və görəcəksiniz?

**M i ş e l K a m d e s s ü :** Mən başqa ölkələri əmin etmək istəyirəm ki, Azərbaycan inama, etimada layiqdir. Bundan ötrü ən münasib məclisdən – 181 dövləti təmsil edən Beynəlxalq Valyuta Fondunun İcraiyyə Şurasından istifadə edirəm. Onlar ölkənin vəziyyəti, uğurları barədə bizim verdiyimiz qiyməti nəzərə alırlar. Əgər müsbət qiymət veririksə – bu dəfə də belə fikirdəyik – həmin ölkənin maliyyələşdirilməsi təsdiq olunur. Əks halda belə qərar qəbul edilmir. Demək istəyirəm ki, biz başqa beynəlxalq məclislərdə də sizin nailiyyətlərinizə müsbət qiymət verəcəyik. Əgər siz ən yaxın gələcəkdə bu qiymətin nəticələrini görməsəniz, bu, məni çox təəccübləndirər.

Ölkəyə inamı gücləndirməyin çox mühüm cəhəti onun ətraf dünya ilə, o cümlədən qonşularla əməkdaşlığa hazır olması, regional səviyyədə ümumi məqsədlər irəli sürə bilməsi və bunu istəməsidir. Bununla əlaqədar bu günlərdə sizin prezidentin və Gürcüstan prezidenti cənab Şevardnadzenin Qafqaz təşəbbüsü haqqında imzaladıqları bəyannamənin–regionda sabitliyə və tərəqqiyə nail olmağa yönəldilmiş sənədin əhəmiyyətini qeyd etmək istəyirəm. Məsələyə belə ümumi baxışın regionda geniş yayılması çox mühümdür. Xüsusən ona görə ki, Qafqaz regionunun digər ölkələrinin də bu bəyannaməyə qoşulması üçün imkan var. Beynəlxalq birlik məhz belə təşəbbüsləri dəstəkləməyə hazır olacaqdır.



**S u a l :** Azərbaycan Prezidenti ilə hansı konkret razılaşmalar əldə olunmuşdur? Məsələn, siz üçüncü kreditin verilməsini respublikada özəlləşdirmənin keçirilməsi ilə bağlayırsınızmı?

**M i ş e l K a m d e s s ü :** Bizim hansısa konkret danışıqlar apardığımıza əmin deyiləm, çünki bir çox məsələlərdə eyni fikirdə idik. Söhbətimiz əsasən ona həsr olunmuşdu ki, baxışlarımızı aydınlaşdıraq və həm də görək Azərbaycan öz gələcəyini necə təsəvvür edir. Stend-bay mexanizmi çərçivəsində razılaşmalara gəldikdə isə, deyə bilərəm ki, bu proqramın uğurla yerinə yetiriləcəyi təqdirdə biz dərhal struktur dəyişikliklərinin geniş maliyyələşdirilməsinin üçillik proqramına keçməyə hazırıq. Özü də bu kreditlər daha güzəştli şərtlərlə, yəni daha az faizlə və daha uzun müddətə verilir. Şübhəsiz ki, özəlləşdirmə bu proqramın mərkəzində dayanacaqdır. Ona görə ki, sizin ölkəniz bazar iqtisadiyyatına, iqtisadi demokratiyaya keçmək istəyir. Biz də, sizin rəhbərlik və hökumət də gələcəyə bu cür baxırıq. Belə razılığa gəlmişik ki, stend-bay kreditləri üzrə nəzərdə tutulduğu kimi, əvvəlcə tam miqyasda kiçik özəlləşdirmə keçirilməlidir. İndiki halda təxminən səkkiz min kiçik müəssisədən söhbət gedir. Özəlləşdirmənin sonrakı mərhələsini isə biz hələlik konkret olaraq müzakirə etməmişik.

**S u a l :** Cənab direktor, qeyd etdiniz ki, respublikada makroiqtisadi sabitlik yaradılması sahəsində böyük nailiyyətlər əldə olunubdur. Buna baxmayaraq, əhalinin sosial vəziyyəti olduqca ağırlaşır və bəzi qüvvələr bunu Azərbaycan hökumətinin Beynəlxalq Valyuta Fondunun şərtlərinə əməl etməsi ilə əlaqələndirirlər. Siz dediniz ki, əhalinin vəziyyətinin yaxşılaşdırılması, sosial təsisatların yaradılması üçün Azərbaycan hökumətinə kömək göstərəcəksiniz. Bu kömək nədən ibarət olacaqdır?

**M i ş e l K a m d e s s ü :** Sabitləşdirmə proqramı yerinə yetirilərkən çox vaxt adamlar iddia edirlər ki, onların bütün məhrumiyyətləri və məşəqqətləri məhz bu proqramdan irəli gəlir. Biz belə iradları tez-tez eşidirik. Bu, xəstəxanada müalicə olunan xəstənin vəziyyətini xatırladır. O, öz əzablarına görə dərmanlardan, yaxud müalicə kursundan şikayətlənir, xəstəxanaya nə səbəbdən düşməsini isə unudur. Lakin dərman gələcək sağlamlığın təməlidir. Bizim vəzifəmiz ölkənizi bu vəziy-

yətdən çıxaracaq və tərəqqiyə çatdıracaq yolu qısa bir müddətdə tapmaqdır. Ona görə də sizi tezliklə sağalmaq və tərəqqiyə nail olmaq naminə ağrılı hisslərdən qorxmamağa çağırıram.

**S u a l :** Siz 1993-cü ildə Türkmənistanda olarkən, səhv etmirəmsə, belə bir bəyanat vermisiniz ki, əgər Ermənistan və Azərbaycan sülhə gələrlərsə, Beynəlxalq Valyuta Fondu dağıdılmış ərazilərin bərpasının maliyyələşdirilməsini öz üzərinə götürə bilər. Bu gün də həmin fikrinizdə qalırsınızmı?

**M i ş e l K a m d e s s ü :** Həmişəkindən daha çox. Biz sizə kömək göstərməyə başlamışıq, Ermənistana da yardım edirik. Hər iki tərəfin öz ölkəsinin iqtisadiyyatını düzgün yola çıxarmağa səy göstərdiyini görürük. İqtisadiyyatı, onun sağlamlığını bərpa edərkən biz düşünürük ki, bu prosesin ən mühüm labüd, ilkin şərti, onun uğurla getməsinin rəhni sülh prosesinin sürətlənməsidir. Bu proses konkret nəticələrə gətirib çıxardıqda, biz beynəlxalq aləmdə katalizator, səfərbəredici vasitə rolunu yerinə yetirməyə şad olacağıq. Bu isə müharibənin dağıtdığı ərazilərin bərpası üçün zəruridir.



## AZƏRBAYCAN-TÜRKMƏNİSTAN SƏNƏDLƏRİNİN İMZALANMASINDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSI

*Prezident Sarayı*
*18 mart 1996-cı il*

Hörmətli xanımlar və cənablar, informasiya orqanlarının nümayəndələri! Bir az əvvəl Türkmənistan və Azərbaycan arasında çox mühüm dövlət sənədləri imzalandı. Bu müstəqil Türkmənistan ilə müstəqil Azərbaycan Respublikası arasında münasibətləri daha möhkəm müqavilə-hüquqi əsas üzərində qurmaq üçün həm Türkmənistan tərəfindən, həm Azərbaycan tərəfindən, həm də iki prezident tərəfindən göstərilmiş səylər nəticəsində mümkün olmuşdur. İndicə imzaladığımız bütün sənədlər son aylar, Türkmənistan prezidenti hörmətli Saparmurat Niyazovun Azərbaycana rəsmi səfəri ərəfəsində aparılmış böyük səmərəli işin nəticəsidir. Bunlar çox mühüm sənədlərdir və Türkmənistan ilə Azərbaycan arasında bütün sahələrdə dostluq, mehriban qonşuluq münasibətlərinin daha uğurlu inkişafını təmin edəcəkdir. Dostluq və əməkdaşlıq haqqında sənəd çox böyük əhəmiyyətə malikdir və əvvəlki dövr ərzində xalqlarımız və ölkələrimiz arasında mövcud olmuş xoş münasibətləri, dostluq və qardaşlıq münasibətlərini möhkəmləndirir.

Xalqlarımız və ölkələrimiz arasında münasibətlər yaxşı məlumdur və zəngin, çoxəsrlik tarixə malikdir. İndi onlar yeni hüquqi forma və zəmin, yeni məzmun kəsb edir. Bu ondan ibarətdir ki, suveren, müstəqil dövlətlər olan Azərbaycan və Türkmənistan öz aralarında münasibətləri beynəlxalq hüquq normaları əsasında, xalqlarımızın nəsillərdən-nəsillərə keçmiş səmimi dostluq ənənələri əsasında qururlar.

Mən dostumuz, Türkmənistan prezidenti Saparmurat Niyazovun Azərbaycana səfərinin başlanğıcından, bu bir neçə saatda gördüyümüz işdən çox məmnunam. Əminəm ki, biz bundan sonra da səmərəli işləyəcəyik. Bütün bunlar nəinki Türkmənistan ilə Azərbaycan arasında münasibətlərin daha da möhkəmlənməsinə, həm də ölkələr, müstəqil dövlətlər arasında sülhün, əməkdaşlığın, mehriban qonşuluğun və xoş münasibətlərin möhkəmlənməsinə böyük töhfə olacaqdır.

Möhtərəm Saparmurat Atayeviç, Sizi Azərbaycana səfərin uğurla başa çatması münasibətilə təbrik edirəm. Bugünkü gün ərzində müşahidə etdiklərimizdən, imzalanmış sənədlərdən çox məmnun qaldığımı və əmin olduğumu bildirirəm ki, bu sənədlər əməli surətdə həyata keçiriləcəkdir. Bildirirəm ki, Azərbaycan əməkdaşlığımızın dərinləşməsi və genişlənməsi üçün bütün bu sənədlərin yerinə yetirilməsini təmin etmək əzmindədir. Əməkdaşlığımızın dərinləşməsi və genişlənməsi üçün isə ehtiyat mənbələri və imkanları var. Qarşıda hələ çox böyük imkanlar durur. Ümidvaram ki, biz onlardan istifadə edəcəyik.

Vaxtı çox almaq istəmirəm. Sənədlərin məzmunu məlumdur. Burada kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edirlər. Biz onların suallarına cavab verə bilərik.

**S u a l :** Hörmətli Saparmurat Atayeviç, mən Sizin həmyerlinizəm, Aşqabadda doğulmuşam. İndi mənə «Bakinski raboçi» qəzetinə başçılıq etmək etibar olunub. Azərbaycan ilə Gürcüstan arasında nəqliyyat əlaqələrini təkmilləşdirmək üçün bu yaxınlarda Poylu körpüsü yenidən quruldu. İndi Azərbaycan Avropaya çıxmaq imkanına malikdir. Sizə elə gəlmirmi ki, körpüdən sağ əli uzatmaqla bərabər Xəzərə tərəf sol əli də uzatmaq olar. Belə olan halda Türkmənistan da, bütövlükdə Orta Asiya da Avropaya və dünya okeanına çıxmaq üçün daha qısa yola malik ola bilər.

**S a p a r m u r a t  N i y a z o v :** Həmyerlimizə təşəkkür edirəm. Biz Heydər Əliyeviçlə dedik ki, Türkmənistanda təxminən 100 min azərbaycanlı yaşayır. Onlar türkmənlərlə bərabər hüquqlara malikdirlər. Biz onları öz qardaş-bacılarımız sayırıq. Biz hər şeyi edəcəyik ki, bundan sonra da etnik əlaqələr, gediş-gəliş azad, sərbəst olsun.

«Bakinski raboçi» qəzeti barəsində demək istəyirəm ki, biz bu qəzeti SSRİ dövründə həmişə oxuyurduq. Lakin SSRİ parçalandıqdan sonra əlaqələr qırıldı. Belə düşünürəm ki, sizin qəzeti Türkmənistanda da yaymaq olar.

O ki qaldı Eduard Amvrosiyeviç Şevardnadze tərəfindən də imzalanmış regionda sülh haqqında bəyannamənin Heydər Əliyeviçin təşəbbüsü ilə imzalanmasına, biz bu sənədi dəstəkləyirik. Biz Heydər Əliyeviçlə Xəzər dənizi vasitəsilə nəqliyyat əlaqələrindən danışdıq. Bizim limanımız texniki təchizat baxımından geri qalır. Bununla əlaqədar yaxın vaxtlarda burada aparacağımız işlər iki xalqın mənafeyi naminə dənizdə nəqliyyatın gecə-gündüz səmərəli işləməsinə imkan verəcəkdir.



Gələcəkdə bizim Krasnovodsk dəniz limanını da yenidən qurmaq fikrindəyik. Artıq bundan sonra Mərkəzi Asiyaya Azərbaycan üçün yol tamamilə açılacaqdır. Bu məsələdə də Heydər Əliyeviçlə mövqelərimiz tamamilə uyğun gəlir.

**H e y d ə r  Ə l i y e v :** Saparmurat Atayeviç, doğru deyirsiniz, mövqelərimiz tamamilə uyğun gəlir. İradə Vəkilova nəqliyyat xəttini nəzərdə tutur. Elə nəqliyyat xəttini ki, onu Türkmənistandan, sizin Türkmənbaşı limanınızdan başlayıb Bakı limanından keçərək dəmir yolu ilə Gürcüstana, Qara dənizə yönəltmək olar. Zənnimcə, burada da perspektivlər var.

**S a p a r m u r a t  N i y a z o v :** Biz bu sahədə əməkdaşlıq edəcəyik. Bu nəqliyyat yolu bizim üçün çox sərfəlidir.

**S u a l :** Xəzər dənizinin Türkmənistan sektoru onun beşdə bir hissəsini əhatə edir. Bir vaxtlar Azərbaycan neftçiləri Xəzərin sizə aid hissəsində təxminən 60 perspektivli struktur aşkara çıxarmışlar. Biz bilirik ki, bir sıra xarici şirkətlər Xəzərin Türkmənistan sektorunda axtarış-kəşfiyyat işləri aparılması barədə təkliflə Türkmənistan rəhbərliyinə müraciət etmişlər. Lütfən deyin, Siz həmin şirkətlərdən hər hansı konkret təkliflər almısınızmı, Xəzərdəki öz hissənizi kimlə və hansı prinsiplərlə işlətmək niyyətindəsiniz? İkinci sual: Belovejsk sazişlərinin ləğv edilməsi haqqında Rusiya Federasiyası Dövlət Dumasının məlum qərarına münasibətiniz necədir? Bəlkə Heydər Əliyeviç də bu barədə öz fikrini bir daha bildirdi?

**S a p a r m u r a t  N i y a z o v :** Biz Heydər Əliyeviçlə Xəzər dənizindən istifadə edilməsi barədə fikir mübadiləsinə yenicə başlamışıq. Sənədlərin imzalanmasından sonra bu söhbəti davam etdirmək haqqında razılığa gəlmişik. Hollandiya və Amerika şirkətlərindən biri ilə Xəzər dənizinin bizə aid şelfində seysmika, hasilat sahəsində iş görürük. Bizim Xəzərdəki şelfimizdən istifadə olunması haqqında Amerikanın bir sıra iri şirkətləri ilə, Avropa şirkətləri, o cümlədən Rusiyanın «Rosqazprom» səhmdar şirkəti ilə danışıqlar aparılır. Biz Bakı neftçiləri və qaz işçiləri ilə əməkdaşlığı istisna etmirik. Onların təcrübəsi dünyada diqqətəlayiqdir. Düşünürəm ki, bu məsələ barəsində yaxın vaxtlarda məsləhətləşmələrə başlanacaqdır. Ölkələrlə, xüsusən də Azərbaycanla əməkdaşlıqda bizim tərəfimizdən məhdudiyyət yoxdur. Bizim şelfdən birgə istifadə olunmasında Azərbaycan neftçiləri, neft şirkətləri ilə əməkdaşlığa hazırıq.

O ki qaldı Xəzərin problemlərinə, biz Heydər Əliyeviçlə bu barədə danışacağıq. Biz müxtəlif fikirlərdə idik. Lakin düşünürəm ki, ümumi rəyə gələcəyik. Rəylərimiz bir-birinə zidd deyildir və üçüncü ölkələrə toxunmur. Zənnimcə, bu barədə Heydər Əliyeviçin özü daha yaxşı danışar.

Rusiya Dövlət Dumasının qərarına gəldikdə, məncə, bu, daxili siyasi, seçkiqabağı bir işdir. 1991-ci il oktyabrın 27-də Türkmənistan müstəqillik statusu haqqında referendum keçirdi və xalq elliklə öz iradəsini bildirdi və həmin gün, yəni 27 oktyabr Milli Müstəqillik günü elan edildi. Bu, heç cür dəyişdirilə bilməz. Qərar qəbul edərkən bizimlə məsləhətləşmədilər. Buna görə də belə düşünürük ki, bu qərarın həyata keçirilməsi mümkün deyildir.

**H e y d ə r Ə l i y e v :** Neft və qaz kəşfiyyatı, hasilatı sahəsində Xəzər dənizində əməkdaşlığımıza dair məsələ barəsində. Bu məsələ dünyanın müxtəlif ölkələrində bir çox dairələrin müzakirə mövzusu olmuşdur. Lakin biz bildirmişik və bir daha bildiririk ki, Azərbaycan Respublikası neft və qazın kəşfiyyatı və hasilatı sahəsində işi Xəzər dənizinin Azərbaycan sektorunda aparır. Bundan ötrü biz dünyanın iri şirkətləri ilə – həm Amerika, həm Avropa, həm də Rusiya şirkətləri ilə əməkdaşlıq edirik. Bunu olduqca perspektivli sayırıq. 1994-cü ildə imzalanan birinci müqavilə 30 il üçün nəzərdə tutulub. Bu əməkdaşlığı daha da genişləndirməyə hələ ehtiyat mənbələri var.

Xəzər dənizində neft və qaz ehtiyatlarının hasilatı və onlardan istifadə edilməsi üçün keçmişdə Türkmənistanla Azərbaycan arasında çox sıx əlaqələr var idi. Azərbaycan neftçiləri Türkmənistan sektorunda çoxlu kəşfiyyat və qazma işləri aparmışlar. Azərbaycan geoloqları, alimləri, neftçiləri Xəzərin Türkmənistan sektorunda nə varsa, hamısını yaxşı bilirlər. Bu, gələcək əməkdaşlığımız üçün şərait və əsas yaradır. Yeri gəlmişkən, mənə məlumdur ki, hazırda Türkmənistanda seysmik-kəşfiyyat işlərini bizim neft şirkətinin gəmisi aparır.

Lakin elə məsələlər var ki, onları hələ müzakirə etmək və onlarla bağlı mövqeləri müəyyənləşdirmək gərəkdir. Saparmurat Atayeviç dedi ki, bu gün biz həmin məsələ barəsində fikir mübadiləsi etdik. Mən onunla razıyam. Düşünürəm ki, ümumi və ya bir-birinə yaxın olan mövqeləri müəyyən etmək üçün gün ərzində biz yenə də fikir mübadiləsi aparacağıq.



O ki qaldı ikinci suala – Rusiya Federasiyası Dumasının qərarına münasibət barədə suala, mən bu haqda öz fikrimi söyləmişəm. Bir daha demək istəyirəm ki, bu, faydasız işdir. Sovet İttifaqının varlığına son qoyulduğu vaxtdan beş il keçmişdir. Onun süquta uğraması o dövrdə bütün dünyada və keçmiş Sovet İttifaqında getmiş obyektiv ictimai-siyasi və tarixi proseslərin nəticəsidir. Bu proseslər Sovet İttifaqının süqutuna gətirib çıxarmalı idi və gətirib çıxartdı. Bundan sonra müstəqil dövlətlər meydana gəldi. Onlar keçmişdə Sovet İttifaqının tərkibinə daxil idi. Ötən illər ərzində bu dövlətlərdən hər biri müstəqillik, öz iqtisadiyyatının, həyatının təşəkkülü sahəsində böyük yol keçmişdir. Zənnimcə, bütün bunlar dönməz hal almışdır, hər halda Azərbaycan üçün. Azərbaycan Respublikası müstəqillik əldə olunmasını tarixi nailiyyət sayır. Biz bu müstəqilliyi əziz tutur, onu qoruyub saxlayır və heç vaxt ondan üz döndərməyəcəyik.

Hesab edildiyinə görə, Sovet İttifaqının süqutuna gətirib çıxaran Belovejsk sazişini ləğv etmək cəhdlərinə gəldikdə, zənnimcə, bu cəhdlər əbəsdir. Məsələ heç də təkcə Belovejsk sazişində deyildir. Bu saziş Sovet İttifaqının süqutu faktını sadəcə olaraq müəyyən dərəcədə qeydə aldı və Sovet İttifaqının ali orqanı – Ali Sovet o vaxtlar Sovet İttifaqının buraxılması haqqında qərar qəbul etdi. Buna görə də həmin məsələyə qayıtmaq cəhdləri tamamilə mənasız və faydasızdır. Bəs nə üçün belə cəhdlər göstərilir? Bu, təbii olaraq, həmin qərarı qəbul edənlərin işidir. Lakin bunun Azərbaycan Respublikasına, onun müstəqilliyinə heç vəchlə dəxli ola bilməz.

Yeri gəlmişkən demək istəyirəm ki, bu qərar Rusiyanın özünə də xeyir gətirməyəcəkdir. Çünki Sovet İttifaqının süqutundan sonra Rusiya Federasiyası öz müstəqilliyini möhkəmlətmək, iqtisadi, sosial islahatlar aparmaq sahəsində böyük yol keçmişdir. Keçmişə qayıtmaq isə Rusiyada indiyədək həyata keçirilmiş nə varsa, hamısının üstündən, təbii olaraq xətt çəkəcəkdir. Zənnimcə, keçmişə qayıdış ola bilməz. Həqiqətən, ola bilsin ki, bu, hansısa daxili siyasi mübarizənin nəticəsidir. Lakin zənnimcə, bu səylər həmin qərarı qəbul edən qüvvələrə arzu olunan nəticələri verməyəcəkdir.

**S u a l :** Mənim sualım Türkmənistan prezidentinədir. Siz türkdilli ölkələrin ümumi bazarını yaratmağın faydalı olduğunu qeyd etdiniz. Bəs bu ölkələrin lap mərkəzində yerləşən Türkmənistan bununla əlaqədar nə kimi tədbirlər görmək niyyətindədir? Siz belə bir bazarın yaradılmasında Xəzərin rolunu necə qiymətləndirirsiniz?

**S a p a r m u r a t  N i y a z o v :** Mən həmişə belə hesab etmişəm ki, milli, dini əsasda dövlət qurumları yaratmaq çətindir, çünki hər dövlətin öz təfəkkürü, öz iqtisadi bazası, öz etnik, mənəvi adətləri var. O ki qaldı mədəniyyətə, iqtisadiyyata, malların ümumi hərəkətinə, burada türkdilli ölkələrin oxşar cəhətləri çoxdur, o cümlədən də xalq istehlakı malları, adət-ənənələr, sənətlər sahəsində. Buna görə də mən demişəm ki, türkdilli ölkələrin açıq ümumiqtisadi bazarı olmalıdır. Bizə deyirlər ki, gəlin, keçmiş Sovet İttifaqı çərçivəsində birləşək. Bu, bəzi dövlətlərlə mümkün olan iş deyildir. Ümumi çərçivə sazişi qəbul etmək olar, amma birləşmək çox çətindir. Biz Türkiyə ilə toxuculuq sənayesi sahəsində əməkdaşlıq edirik. Türkiyə qabaqcıl toxuculuq texnologiyasına malikdir, bizdə isə pambıq var. Buna görə də burada inteqrasiya çox yaxşı getdi. Mən nəqliyyat kommunikasiyaları, istilik-energetika əlaqələri yaradılmasından danışarkən bundan türkdilli xalqların və millətlərin ayrılması üçün və fövqəldövlət strukturları yaradılması üçün deyil, iqtisadi, mədəni, mənəvi həyatda sərbəst ünsiyyət, azad əməkdaşlıq üçün istifadə edilməsini nəzərdə tuturdum.

**S u a l :** Danışıqlar zamanı Türkmənistan neftinin tranzitlə Azərbaycan vasitəsilə ixracının mümkünlüyü məsələsi müzakirə edildimi? Məlum olduğu kimi, dörd alternativi olan bu varianta Sizin şəxsi münasibətiniz necədir?

**S a p a r m u r a t  N i y a z o v :** Biz Heydər Əliyeviçlə bu məsələyə yenicə baxmağa başlamışıq. Mən nəqliyyat, istilik-energetika yollarının çoxvariantlılığına tamamilə tərəfdaram. Türkmənistan, İran, Türkiyə vasitəsilə Avropaya qaz kəməri çəkilməsi layihəsi bizdə müxtəlif siyasi və digər səbəblərə görə ləngidikdə, biz alternativ yollar axtarmağa başladıq və sizdə də işləyən Amerikanın «Yunokal» şirkəti ilə indi Əfqanıstan vasitəsilə Pakistana qaz kəməri çəkilməsini layihələşdiririk. İki il bundan əvvəl bir çox ölkələr Türkmənistan qazının Xəzər dənizindən, Bakıdan keçərək Qafqaz və ya Rusiyanın Avropa hissəsi ilə Qara dəniz sahillərinə nəql olunması variantına fəal qoşulmuşdular. Düşünürəm ki, biz Heydər Əliyeviçlə bunun üzərində hələ işləyəcəyik. Biz neft kəmərlərinin Gürcüstan və Rusiya ərazisindən çəkilməsi haqqında sizin imzaladığınız sazişləri dəstəkləyirik. Əgər bu, bizim üçün iqtisadi cəhətdən sərfəli olarsa, əlbəttə, burada iştirak edəcəyik. Biz bunun üzərində işləyirik.



**S u a l :** Cənab Niyazov, bəzi Xəzəryanı ölkələrin müəyyən siyasi dairələri 1994-cü il sentyabrın 20-də Bakıda imzalanmış «Əsrin müqaviləsi»ni qeyri-legitim sayırlar. Onlar hesab edirlər ki, bu müqavilə digər Xəzəryanı ölkələrin dövlət mənafelərinə ziddir. Xahiş edirəm deyəsiniz, həmin müqavilə Türkmənistanın mənafelərinə ziddirmi?

**S a p a r m u r a t  N i y a z o v :** Xeyr, o bizim mənafelərimizə zidd deyildir. Buna görə də burada aramızda mübahisəli məsələlər yoxdur. Əgər sizin müqavilə Xəzərin statusu haqqında bizim normalarımıza uyğun olaraq digərlərinin mənafelərinə toxunmursa, biz bunu alqışlayırıq. Xəzər ümumi sərvətdir. Sizin müqavilə də bunu nəzərə alaraq bağlanmışdır. Odur ki, Türkmənistan heç vaxt bu müqavilənin əleyhinə çıxmamışdır. Allah eləsin ki, siz onu Azərbaycan xalqının rifahı naminə həyata keçirə biləsiniz. Mən heç vaxt bu müqavilənin əleyhinə çıxmamışam, yalnız onun çətinliklərindən danışmışam.

**S u a l :** Cənab Niyazov, mən bilən, Azərbaycandan sonra Siz Ermənistana gedəcəksiniz. Bu təsadüfdür yoxsa səfərlərin növbəliliyi müəyyən məntiqə malikdir? Siz prezidentlər Heydər Əliyevin və Eduard Şevardnadzenin imzaladıqları və digərləri tərəfindən imzalanmaq üçün açıq olan Qafqaz bəyannaməsini imzalamaq niyyətindəsinizmi?

**S a p a r m u r a t  N i y a z o v :** Biz Heydər Əliyevin dəvətindən həqiqətən istifadə etdik və eyni zamanda Ermənistanın və Gürcüstanın da dəvətlərini qəbul etməyi qərara aldıq. Bizim onlarla iqtisadi əlaqələrimiz var və bu əlaqələr hələ Sovet hakimiyyəti dövründə yaranmışdır. Məsələ burasındadır ki, Türkmənistandan çəkilən qaz kəməri Gürcüstana da gedir, Ermənistana da. İndiki halda da bizim həll edilməli olan bir çox məsələlərimiz var. Ermənistana səfərimiz Azərbaycana səfərimizlə əsla bağlı deyildir. Bitərəf ölkə olan Türkmənistan Heydər Əliyevin və Eduard Şevardnadzenin regionu sülh və əməkdaşlıq bölgəsinə çevirməyə yönəldilmiş addımlarını alqışlayır. Biz Dağlıq Qarabağ məsələsinin dincliklə aradan qaldırılması və işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi üçün sizin prezidentiniz, bizim dostumuz Heydər Əliyeviçin səylərini alqışlayırıq. Sizin və beynəlxalq birliyin səyləri sayəsində atəşkəs 22 aydır davam edir. Bu məsələni beynəlxalq birliyin köməyi ilə ədalətlə həll etmək olar. Bu, ən yaxşı yoldur. Ona görə də beynəlxalq təşkilatlar vasitəsilə çalışacağıq ki, Qafqazda sülh əbədi bərqərar olsun. Heydər Əliyeviç mənimlə söhbətdə dedi ki, qonşuları seçmirlər, qonşularla sülh və həmrəylik axtarıb tapmaq, bütün

mübahisəli məsələləri həll etmək lazımdır. Mən əminəm ki, bunu ATƏT, onun Minsk qrupu, Birləşmiş Millətlər Təşkilatı vasitəsilə və Amerika Birləşmiş Ştatları, Rusiya kimi böyük dövlətlərlə intensiv danışıqlar vasitəsilə etmək mümkün olacaqdır. Biz buna həmişə kömək göstərəcəyik.

O ki qaldı Qafqaz bəyannaməsinin imzalanmasına, biz Qafqaz zonasında deyilik. Biz öz Mərkəzi Asiya bəyannaməmizi yaratmalıyıq.



## AZƏRBAYCAN-RUMINİYA DÖVLƏTLƏRARASI VƏ HÖKUMƏTLƏRARASI SƏNƏDLƏR İMZALANDIQDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Prezident Sarayı*
*27 mart 1996-cı il*

Hörmətli prezident! Hörmətli rumıniyalı qonaqlar, möhtərəm xanımlar və cənablar!

Sizi mühüm hadisə – sənədlərin imzalanması münasibətilə təbrik edirəm. Bu sənədlər Rumıniya ilə Azərbaycan arasında dostluq və əməkdaşlığın daha da inkişaf etməsi üçün yaxşı əsas olacaqdır.

Ötən ilin iyun ayında, prezident İon İliyeskunun dəvəti ilə Rumıniyaya rəsmi səfərim zamanı biz bir çox məsələləri müzakirə etdik və bəzi dövlətlərarası, hökumətlərarası sənədləri imzaladıq. Bu gün Rumıniya prezidenti İon İliyesku cənablarının Azərbaycana rəsmi səfəri başlanmışdır. Biz danışıqlar apardıq, bir çox məsələləri ətraflı müzakirə etdik və bir az əvvəl çox mühüm dövlətlərarası, hökumətlərarası sənədlər imzaladıq. Mənim və Rumıniya prezidentinin imzaladığımız dostluq münasibətləri və əməkdaşlıq haqqında müqavilə böyük tarixi əhəmiyyətə malikdir. Bu, Rumıniya ilə müstəqil Azərbaycan Respublikası arasında ilk belə sənəddir və dostluq münasibətlərimizin, ölkələrimiz, xalqlarımız arasında bütün istiqamətlərdə əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün zəmindir.

Nazirlərin imzaladıqları sənədlər də böyük əhəmiyyətə malikdir, çünki prezidentlərin imzaladıqları müqaviləni konkretləşdirir və inkişaf etdirir. Beləliklə, Rumıniya ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərdə kifayət qədər yaxşı müqavilə-hüquqi əsas yaradılmışdır. Bu, indiyədək etdiyimiz əməkdaşlığın nəticəsidir. Bu, həm Rumıniyanın, həm də Azərbaycanın müstəqilliyinə, suverenliyinə, milli azadlığına sübutdur. Bu, ölkələrimiz və xalqlarımız arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün də yaxşı zəmindir.

Bu, müstəqil Azərbaycan üçün xüsusilə böyük əhəmiyyətə malikdir. Azərbaycan dövlət müstəqilliyini 1991-ci ildə qazanmış və ötən il-

lər ərzində bu müstəqilliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi üçün çox mürəkkəb yol keçmişdir. Bu yolun mürəkkəbliyi xaricdən hərbi təcavüzlə, həmin dövrdə Azərbaycanın özündə baş vermiş siyasi proseslərlə, iqtisadiyyat sahəsində, sosial həyatda qarşılaşmış olduğumuz və qarşılaşdığımız çətinliklərlə bağlıdır. Buna görə də ölkələrlə möhkəm, səmimi dostluq münasibətləri yaradılması bizim üçün çox vacibdir və bu cür hər bir addım dövlət müstəqilliyimizin bərqərar olduğuna, Azərbaycanın suverenliyinin möhkəmləndiyinə sübutdur.

Bununla əlaqədar biz ölkəmizin Rumıniya ilə münasibətlərinə böyük əhəmiyyət veririk. Burada, Bakıda baş verən hadisə ölkələrimiz arasında qarşılıqlı münasibətlərin tarixində mühüm mərhələdir.

Cənab prezident, hörmətli qonaqlar, sizi əmin edə bilərəm ki, bütün razılaşmaların, imzalanmış sazişlərin əməli surətdə həyata keçməsini təmin etmək üçün biz var qüvvə ilə səy göstərəcəyik. Biz bunu əsas tuturuq ki, bu sənədlər əməkdaşlığımızın inkişafı üçün əlverişli şərait və müqavilə-hüquqi əsas yaradır. Əməkdaşlığımız çoxplanlı, çoxsahəli olmalıdır. Əməkdaşlığın məhz bu cür inkişafının təmin olunması üçün biz Azərbaycanda hər şeyi edəcəyik.

Azərbaycan Respublikası öz dövlət müstəqilliyini, milli azadlığını yüksək qiymətləndirir. Odur ki, bunların möhkəmlənməsinə yönəldilmiş hər bir addım bizim üçün xüsusi əhəmiyyət kəsb edir. Biz hüquqi, demokratik, sivilizasiyalı dövlət, cəmiyyət quruculuğu yolu ilə gedirik və bu yolda Azərbaycanın inkişaf etmiş demokratik ölkələr səviyyəsinə qalxa bilməsi üçün hər şeyi edirik. Biz iqtisadi islahatlar aparır, dövlət əmlakını geniş miqyasda özəlləşdirir və bütün sahələrdə bazar iqtisadiyyatı prinsiplərini bərqərar edirik. Azərbaycan bütün ölkələrlə əməkdaşlıq üçün açıqdır. Biz iqtisadiyyatın inkişafı və əhalinin həyat səviyyəsinin yaxşılaşması üçün, ölkəmizə xarici investisiyalar axınını təmin etmək üçün bütün tədbirləri görürük.

Azərbaycan təbii ehtiyatlarla zəngindir. Onun böyük iqtisadi, sənaye, intellektual potensialı var. Lakin bütün bu potensialdan keçid dövründə istifadə etmək üçün biz digər ölkələrlə, beynəlxalq birliklə əməkdaşlıq etməliyik, bizə xarici investisiyalar gərəkdir. Biz buna doğru gedirik və bunu iqtisadiyyat, dövlət quruculuğu, ictimai-siyasi həyat sahələrində Azərbaycanın inkişafının strateji xətti sayırıq.

Lakin Azərbaycan bu genişmiqyaslı proqramın həyata keçirilməsində çox çətinliklərlə qarşılaşır. Onlardan ən böyük çətinlik budur ki, biz



müharibə vəziyyətində olmağa məcburuq. Məlumdur ki, Dağlıq Qarabağın ilhaq edilməsi, yəni onun Azərbaycandan qoparılıb Ermənistana birləşdirilməsi məqsədilə səkkiz il əvvəl Ermənistan Respublikası tərəfindən Azərbaycana qarşı hərbi təcavüz başlanmışdır. Bu, Ermənistan ilə Azərbaycan arasında hərbi münaqişəyə səbəb olmuşdur.

Səkkiz il ərzində döyüşlər getmiş, qan tökülmüş, çoxlu insan tələf olmuş, respublikamıza çox böyük maddi və mənəvi ziyan vurulmuşdur. Hərbi təcavüzə məruz qalan Azərbaycan obyektiv və subyektiv səbəblərə görə, ağır vəziyyətə düşmüşdür, çünki onun ərazisinin 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilmişdir. İşğal olunmuş torpaqlardan, şəhərlərdən, rayon və kəndlərdən Azərbaycanın bir milyon nəfərdən artıq sakini zorakılıqla qovulub didərgin salınmışdır. Onlar respublikamızın müxtəlif bölgələrində olduqca ağır şəraitdə, əksəriyyəti də çadırlarda yaşayırlar. Bu adamlar malik olduqları hər şeyi, qohum-əqrəbalarını itirmişlər.

Bütün bu itkilərə, Azərbaycana vurulmuş çox böyük zərərə, mənəvi zədəyə baxmayaraq, biz münaqişənin dincliklə aradan qaldırılmasına tərəfdarıq, həmişə Yer kürəsinin istənilən hissəsində müharibənin əleyhinə, hərbi təcavüzün əleyhinə, hər cür separatçılıq, terrorçuluq əməllərinin əleyhinə çıxmışıq.

Azərbaycan sülh mövqeyində durmuşdur. Bunu əsas tutaraq və beynəlxalq təşkilatların, xüsusən ATƏT-in Minsk qrupunun, bu təşkilata daxil olan ölkələrin, ABŞ, Rusiya, Türkiyə kimi iri dövlətlərin imkanlarından istifadə edərək, biz münaqişənin dincliklə aradan qaldırılmasına çalışırıq.

Məhz bu məqsədlə təxminən iki il əvvəl 1994-cü ilin mayında biz razılıq əldə etdik və atəşin dayandırılması haqqında saziş imzaladıq. İki ilə yaxındır ki, döyüş əməliyyatları aparılmır, qan tökülmür. Biz barışıq vəziyyətindəyik. Çox vacibdir ki, barışığa həm Azərbaycan, həm də Ermənistan əməl edir, özü də heç bir xarici kömək olmadan, sülhyaratma qüvvələrinin, aralaşdırıcı qüvvələrin iştirakı olmadan. Bu, ona dəlalətdir ki, biz sülhə nail olmağa, səkkizillik münaqişə ərzində əmələ gəlmiş düşmənçiliyi və qarşıdurmanı aradan qaldırmağa qadirik. Buna görə də biz tam sülhə nail olmağa çalışırıq.

Biz konstruktiv mövqelərdən çıxış edərək, bir çox güzəştlərə gedərək öz təkliflərimizi irəli sürmüşük və sürürük. Bəyan edirəm ki, biz atəşkəs rejiminə sadiqiq, hərbi əməliyyatlara Azərbaycan tərəfindən

yenidən başlanmasına yol verməyəcəyik. Biz hər şeyi edəcəyik ki, atəşkəs rejimi tam sülh sazişi bağlanılana qədər saxlansın.

Bununla bərabər, biz bundan sonra da indiki vəziyyətdə, torpaqlarımızın işğalı vəziyyətində qala bilmərik. Buna görə də Böyük Sülh Sazişi bağlanmasına çalışırıq. Bununla əlaqədar şərtləri irəli sürürük və bu şərtlər beynəlxalq hüquq normalarına tam uyğundur. Onlar bundan ibarətdir ki, tam sülhə nail olmaq üçün Azərbaycanın ərazi bütövlüyü bərpa və təmin edilməli, beynəlxalq hüquq normalarının mühüm prinsipi kimi Azərbaycanın ərazi bütövlüyü hamı tərəfindən tanınmalı, işğalçı qoşunlar tutulmuş ərazilərdən çıxmalı, işğal olunmuş ərazilərin sakinləri doğma yerlərinə qayıtmalı, Ermənistan ilə Azərbaycan arasında möhkəm sülh yaradılmalıdır. Bu zaman biz erməni tərəfinin tələbinin də ödənilməsinin zəruriliyini nəzərə alırıq və bizim şərtlərimiz əsasında Dağlıq Qarabağa Azərbaycan dövlətinin hüdudları daxilində yüksək muxtariyyət statusu verməyə, Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağın erməni əhalisinin təhlükəsizliyinə tam təminat verməyə hazırıq. Biz bu prinsiplər əsasında möhkəm və uzunmüddətli sülh təklif edirik. Bu prinsiplər beynəlxalq hüquq normalarına, həm Azərbaycanın, həm də Ermənistanın və Dağlıq Qarabağın erməni əhalisinin mənafelərinə tam uyğundur. Bunlar ədalətli prinsiplərdir.

Ümidvaram ki, ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə Ermənistan və Azərbaycan nümayəndələrinin hazırda Moskvada apardıqları danışıqlar və Birləşmiş Ştatların prezidenti Bill Klinton cənablarının, Rusiya prezidenti Boris Yeltsin cənablarının atdıqları addımlar müsbət nəticələrə, yəni həm sülh prinsipləri haqqında sazişə, həm də sülhün özünə gətirib çıxara bilər. Biz bunu istəyirik və bu mövqelərdə möhkəm dayanmışıq.

Azərbaycan öz xarici siyasətində bütün planetdə sülh və təhlükəsizlik uğrunda, bütün ölkələrlə ikitərəfli və qarşılıqlı surətdə faydalı əməkdaşlıq uğrunda çıxış edir. Biz bütün beynəlxalq təşkilatların fəaliyyətində yaxından iştirak edir və əməkdaşlıq, mehriban qonşuluq mövqeyində, bütün mübahisəli məsələlərin, münaqişələrin dinclikla həll olunması mövqeyində dururuq, biz dövlətlər arasında mübahisəli məsələlərin həllində güc işlədilməsinin əleyhinə çıxmışıq və çıxırıq. Hesab edirik ki, onlar danışıqlar yolu ilə, bərabərlik əsasında həll olunmalıdır. Dünyada heç kəs heç kimə öz prinsiplərini, öz iradəsini zorla qəbul etdirməməlidir, heç bir dövlət digər ölkələrin hüquq və mənafelərini pozmamalıdır. Biz bunu əsas tutaraq MDB çərçivəsində, Birləşmiş Millətlər Təşkilatı, ATƏT ilə, bütün digər beynəlxalq təşkilatlarla əməkdaşlıq edirik.



Azərbaycan ilə Rumıniya arasında əməkdaşlıq və ölkələrimiz arasında yaranmış münasibətlər, imzalanmış sənədlər Azərbaycanın və Rumıniyanın məhz belə mövqe tutduqlarına inandırıcı sübutdur. Cənab prezident, sizi və rumıniyalı qonaqlarımızı, burada olanların hamısını əmin etmək istəyirəm ki, biz bu prinsipləri bundan sonra da öz əməli fəaliyyətimizdə, beynəlxalq münasibətlərdə əsas tutacağıq. Diqqətinizə görə sağ olun.

**S u a l :** Cənab İliyesku, Siz Ermənistandan getdikdən sonra Snark agentliyi xəbər verdi ki, Siz «Dağlıq Qarabağın müstəqilliyinin» Rumıniya tərəfindən prinsipcə tanınmasının mümkün olduğunu bildirmisiniz. Bu xəbəri şərh etməzsinizmi?

**İ o n İ l i y e s k u :** Bunun necə şərh olunduğunu bilmirəm, amma mən bunu deməmişəm. Məndən bu barədə soruşdular, cavab verdim ki, bu həyat məsələsidir. Dağlıq Qarabağın müstəqil olub-olmayacağı siyasi praktika işidir. İndi məsələ tamam başqa cür qoyulur və biz dedik ki, müstəqil dövlətlər arasında beynəlxalq münasibətlərin prinsiplərinə müvafiq surətdə münaqişənin dinclikla aradan qaldırılması sahəsində səyləri böyük diqqətlə izləyirik. Mən başqa heç nə deməmişəm.

**S u a l :** Cənab İliyesku, Dağlıq Qarabağ münaqişəsi, Sizcə, hansı prinsiplərlə aradan qaldırıla bilər?

**İ o n İ l i y e s k u :** Prezident Heydər Əliyevin göstərdiyi prinsiplər əsasında. Qonşu dövlətlərin suverenliyi, müstəqilliyi prinsipləri əsasında.

**S u a l :** Cənab Əliyev, bu yaxınlarda Gürcüstan prezidenti Eduard Şevardnadze Belovejsk sazişlərinin ləğv olunması haqqında Rusiya Dövlət Dumasının qərarını müzakirə etmək üçün MDB başçılarının növbədənkənar Zirvə toplantısını çağırmaq ideyası irəli sürmüşdür. Siz bu ideyaya necə baxırsınız?

**H e y d ə r Ə l i y e v :** Cənab Şevardnadzenin ideyasından xəbərim yoxdur, bu barədə eşitməmişəm. Bilirsinizmi, belə suallara mətbuat vasitəsilə cavab vermirlər. Əgər belə təşəbbüs olarsa və o, rəsmən elan edilərsə, onda mən buna öz münasibətimi bildirərəm.

**S u a l :** Rumıniya Dağlıq Qarabağ məsələsinin həllində necə iştirak edə bilər? Bu prosesdə onun rolu nədən ibarət ola bilər?

**İ o n  İ l i y e s k u :** Rumıniyanın imkanları çox azdır. Biz yalnız onunla kömək edə bilərik ki, bu sülh prosesinə kömək məqsədilə, əlaqədar dövlətlərin və beynəlxalq təşkilatların irəli sürdükləri təşəbbüsləri dəstəkləmək üçün var qüvvə ilə səy göstərək. Biz prezident Əliyevin qeyd etdiyi prinsiplərlə tam razıyıq. Bu prinsiplərin əsasını həmin məsələnin dincliklə həlli təşkil edir. Aydındır ki, o, hərbi yolla həll edilə bilməz.

**S u a l :** Rumıniyanın Azərbaycanla oxşar problemləri var. İndiki halda söhbət Transilvaniyadan gedir. Bununla əlaqədar separatçılığa və Dağlıq Qarabağ probleminə münasibətinizi bilmək istərdik.

**İ o n  İ l i y e s k u :** Mən belə düşünmürəm ki, Transilvaniya ilə Dağlıq Qarabağ arasında hansısa bir paralel var. Transilvaniya Macarıstanın deyil, Rumıniyanın qədim ərazisidir. Orada bizim ulu babalarımız yaşamışlar. Roma imperiyası hələ meydana gəlməzdən əvvəl orada bizim ulu babalarımızın – dakların dövləti olmuşdur. Bu dövlətin siyasi mərkəzi Transilvaniyada idi. Macarlar Avropada yalnız min il bundan əvvəl peyda olmuşlar. Bizim əcdadlarımız orada min illər boyu yaşamışlar. Transilvaniyanın Avstriya və Avstriya-Macarıstan imperiyası tərəfindən işğalı dövründə Transilvaniya əhalisinin əksəriyyətini həmişə rumınlar təşkil etmişlər, macarlar azlıqda olmuşlar.

Birinci dünya müharibəsindən sonra millətlərin öz müqəddəratını təyin etməsi prinsipinə əsasən Transilvaniya əhalisinin əksəriyyəti, yəni rumınlar digər əyalətlərlə birləşməyi və bir milli dövlətdə – Rumıniya dövlətində qaynayıb-qarışmağı qərara aldılar. Bu, 1918-ci ildə olmuşdur. 1940-ci ildə Molotov-Ribbentrop paktına əsasən Sovet İttifaqı Rumıniya ərazisi olan Bessarabiyanı işğal etdi, Hitlerin və Mussolininin hökmü ilə isə Transilvaniyanın yarısı Macarıstana verildi. İkinci dünya müharibəsindən sonra Transilvaniya yenidən Rumıniyanın tərkibinə daxil oldu. Orada macarlar da yaşayırlar. Lakin onlar azlıq təşkil edirlər. Rumıniyada 23 milyon adam yaşayır, onların 1 milyon 700 min nəfəri macarlardır. Transilvaniyada 9 milyondan çox adam var. Beləliklə, bütün göstəricilərə görə macarlar azlıq – Rumıniya əhalisinin 7 faizini təşkil edirlər. Lakin onlar Rumıniya vətəndaşlarıdır və bütün vətəndaş hüquqlarına, siyasi hüquqlara malikdirlər, Rumıniya parlamentində, yerli idarəetmə orqanlarında təmsil olunmuşlar, onların öz məktəbləri var. Orada anklav məsələsi heç vaxt ortaya atıla bilməz.



Dünyanın heç bir yerində – nə Avropada, nə də Zaqafqaziyada sırf milli dövlət yoxdur. Məsələ insan hüquqlarındadır, dövlətin demokratik həyatındadır. Elə ölkələr var ki, orada milli azlıqlar barədə söhbət getmir. Məsələn, Fransada yalnız bir məfhum – vətəndaş məfhumu var. Hətta o, Seneqaldan gəlmiş zənci və ya məğribli ərəb də olsa, fransız sayılır, pasportunda da beləcə yazılır. Avropanın digər ölkələrində başqa tarixi şərait yaranmışdır, ona görə də onlar milli azlıqların hüquqları sahəsində siyasət yeridirlər. Sizin zonada da millətlərarası münasibətlərdə mürəkkəb məsələlər mövcuddur. Hər bir ölkənin öz tarixi təcrübəsi var.

Biz separatçılığın və ayrı-seçkiliyin əleyhinəyik, ona görə ki, bu, böyük faciədir. Əsrlər boyu bir yerdə yaşamış, xarici basqınlara qarşı birgə mübarizə aparmış insanlar indi bir yerdə yaşaya bilmirlər. Belə hesab edirəm ki, hər bir ölkənin yalnız demokratik inkişafı insanlar arasında humanist münasibətləri normal hala salmağa imkan verəcəkdir. Bizdə də etnik təmizləmə aparmaq, xalqı macarlara və rumınlara bölmək istəyən millətçilər, ekstremistlər, separatçılar, ayrı-seçkilik tərəfdarları var. Lakin onların niyyətləri baş tuta bilməz. Bizdə yüz minlərlə qarışıq nikah var. Onların uşaqları hansı millətdəndir? Yəqin ki, sizdə də belə məsələlər var.

**H e y d ə r  Ə l i y e v :** Cənab prezident, nəzərinizə çatdırım ki, Bakıda təxminən 50-60 min erməni qadını yaşayır. Onların ərləri azərbaycanlıdır.

**İ o n  İ l i y e s k u :** Bir sözlə, həyat bizi normal insani münasibətlər şəraitində yaşamağa öyrədəcəkdir.

**S u a l :** Cənab İliyesku, Qara dəniz və Xəzər dənizi regionlarını birləşdirmək üçün Rumıniya ilə Azərbaycan arasında nəqliyyat dəhlizinin layihəsi nə vaxt reallaşdırılacaqdır?

**İ o n  İ l i y e s k u :** Türkiyə ilə bizim daimi dəniz əlaqəmiz var. Tbilisidə də, Bakıda da danışdıq ki, Samsundan və Trabzondan Gürcüstan sahillərinədək gələn bu xətti uzadaq. Qara dəniz yolunu Azərbaycandan Gürcüstana gələn dəmir yolu vasitəsilə də uzatmaq olar. Sizin Türkmənistanla şəxsi təcrübəniz var. Ona görə də bu yolu Xəzər dənizi vasitəsilə də uzatmaq mümkündür.

Biz bu ilin axırınadək nəqliyyat xətlərini Poti və Batumiyədək uzatmaq barədə razılığa gəlmişik.

**S u a l :** Mənim sualım hər iki prezidentədir. Azərbaycan və Rumıniya neft sənayesi sahəsində əməkdaşlıq edəcəklərmi və bu, təkcə neftin nəqli ilə məhdudlaşmayacaq ki?

**İ o n İ l i y e s k u :** Ölkələrimiz arasında neft sənayesi və ondan ötrü avadanlıq istehsalı sahəsində əməkdaşlıq təcrübəsi var. Prezident Əliyev bu barədə danışdı. Lakin indi əməkdaşlığımız yeni zəmin üzərində, yeni siyasi reallıqlar nəzərə alınmaqla qurulmalıdır. Biz bu əməkdaşlığı bazar iqtisadiyyatı əsasında modernləşdirməliyik.

**H e y d ə r Ə l i y e v :** Cənab İliyeskunun fikrinə tamamilə şərikəm. Neft sənayesində əməkdaşlıq sahəsində həqiqətən böyük təcrübəmiz var. Ancaq yeni şəraitdə bundan ötrü daha böyük imkanlar yaranmışdır və biz onlardan istifadə etməyə çalışacağıq.



## PAKİSTAN İSLAM RESPUBLİKASINA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*9 aprel 1996-cı il*

Pakistan ilə Azərbaycan arasında çox yaxşı əlaqələr, dostluq əlaqələri var. Bu əlaqələr keçmiş tarixi ənənələrimiz üzərində qurulur. Təsadüfi deyil ki, Azərbaycan müstəqillik haqqında bəyanat verdikdən sonra Pakistan ölkəmizin müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. Sonrakı dövrdə, xüsusən axırıncı illərdə də Pakistanla Azərbaycan arasında çox yaxşı əlaqələr yaranıbdır.

Bilirsiniz ki, mən bir neçə dəfə xarici ölkələrdə beynəlxalq təşkilatların toplantılarında olarkən Pakistanın baş naziri xanım Bənəzir Bhutto ilə görüşüb danışıqlar aparmışam. Pakistanın prezidenti Azərbaycanda rəsmi səfərdə olubdur, xarici işlər naziri də iki dəfə buraya gəlibdir. Onlar məni səfərə dəvət eləyiblər, mən də bu dəvəti qəbul etmişəm. Bu, çox mühümdür, çünki Pakistan dünyanın, Asiya qitəsinin böyük ölkəsidir. Dinimiz eynidir, ənənələrimiz bir-biri ilə çox bağlıdır. Əlaqələrimizin inkişaf etdirilməsi həm bizim üçün, həm də Pakistan üçün çox əlverişlidir. Bunları nəzərə alaraq, mən dəvəti qəbul etmişəm. Ümidvaram ki, oradakı görüşlərimiz çox yaxşı keçəcəkdir.

Səfər zamanı dövlətlərarası müqavilə, ticarət, vergi, səhiyyə, turizm sahəsində sazişlər imzalanacaqdır. Eyni zamanda dünya siyasəti ilə, regional siyasətlə bağlı mövqelərimizin bir-birinə daha da yaxınlaşdırılması məsələlərini müzakirə edəcəyik. Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə əlaqədar Pakistan bizim haqq işimizi qəti şəkildə müdafiə edir. Yəqin ki, danışıqlar zamanı bu məsələyə də toxunulacaqdır.

# AZƏRBAYCAN-PAKİSTAN SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA PAKİSTANIN BAŞ NAZİRİ BƏNƏZİR BHUTTO İLƏ BİRGƏ MƏTBUAT KONFRANSI

*9 aprel 1996-cı il*

**Heydər Əliyev:** Mən Pakistan İslam Respublikasının baş naziri hörmətli xanım Bənəzir Bhuttonun Azərbaycanın qarşılaşdığı təcavüz nəticəsində yurdlarından didərgin düşmüş 1 milyondan çox qaçqının əzab-əziyyətlərinin və çətinliklərinin aradan qaldırılması məqsədi ilə bu adamlarla həmrəyliyinin ifadəsi kimi, onlara 1 milyon dollar həcmində yardım göstərmək haqqında qərarına görə təşəkkürümü bildirirəm və Ermənistanın hərbi təcavüzü nəticəsində yurd-yuvasından qaçqın düşmüş Azərbaycan vətəndaşları da bu humanistliyiniz üçün Sizə, Pakistan hökumətinə minnətdar olacaqdır.

**Sual:** Cənab Prezident, Siz Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar Pakistanın mövqeyi barədə nə demək istərdiniz?

**Heydər Əliyev:** Mən məmnuniyyətlə bildirmək istəyirəm ki, Pakistan dövləti, hökuməti, bu ölkənin rəhbərləri həmin təcavüzlə əlaqədar daim Ermənistanı pisləmiş, bəyanatlar vermişlər. 1993-cü ilin aprelində Ermənistan Azərbaycanın Kəlbəcər rayonunu işğal edəndən sonra bu məsələ Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında müzakirə olunarkən, Pakistanın nümayəndəsi Şuraya sədrlik edirdi və onun köməyi, Pakistanın tutduğu prinsipial mövqeyi nəticəsində həmin təcavüzlə əlaqədar böyük bir qətnamə qəbul olunmuşdur. Son illərdə bütün beynəlxalq təşkilatlarda, o cümlədən İslam Konfransı Təşkilatının Kasablankada keçirilmiş toplantısında da Pakistan Ermənistanın Azərbaycana təcavüzü barədə prinsipial mövqeyini bildirmişdir.

**Sual:** Pakistan-Azərbaycan münasibətlərində başlıca rol oynayan amil hansıdır – iqtisadi əlaqələr, yoxsa siyasi əlaqələr?

**Bənəzir Bhutto:** Bizim münasibətlərimiz bunların hər ikisindən irəli gəlir. Çünki Azərbaycanı əhəmiyyətli bir ölkə sayır, ona iqtisadi, siyasi dəstək veririk. Biz EKO təşkilatının üzvləriyik, Azərbaycanla regional əməkdaşlıq edirik. Bu gün doqquz saziş imzalamışıq. Azərbaycanla əlaqələrimizə siyasi əməkdaşlıq kimi də baxırıq. Biz Azərbaycanın öz regionunda və Mərkəzi Asiya regionundakı fəaliyyətini yüksək qiymətləndiririk.



**Sual:** Pakistanın verdiyi dəstəyin əvəzində Azərbaycan Pakistanın neft sənayesinin inkişafına kömək etmək fikrindədirmi?

**Bənəzir Bhutto:** Ümumiyyətlə, biz Azərbaycanla münasibətlərimizə xüsusi münasibətlər kimi baxırıq və bunu hər hansı neft məsələsi ilə bağlamaq fikrində deyilik. Biz təcavüzün əleyhinəyik. Ermənistanın beynəlxalq prinsipləri pozaraq, Azərbaycanın torpaqlarını işğal etməsini heç vaxt qəbul edə bilmərik. Harada təcavüz baş versə, bizim səsimiz eşidiləcəkdir. Bu bizim xarici siyasətimizin bir hissəsidir.

**Sual:** Zati-aliləri, Kəşmir problemi ilə bağlı Sizin mövqeyiniz necədir? Bilirsiniz ki, Hindistan ordusu Kəsmirdə qırğınlar törədibdir.

**Heydər Əliyev:** Kəşmir problemi ilə əlaqədar Azərbaycan həmişə Pakistanın mövqeyini dəstəkləyib və bu gün də dəstəkləyir. Bu məsələ Kasablankada İslam Konfransı Təşkilatının toplantısında müzakirə olunarkən cürbəcür fikirlər vardı, ancaq Azərbaycan nümayəndə heyəti və şəxsən mən, Azərbaycanın prezidenti Pakistanın mövqeyini nəinki müdafiə etdik, hətta Kəsmir problemi ilə əlaqədar Hindistanın pislənməsi və Pakistanın dəstəklənməsi haqqında qətnamənin qəbul olunmasında müəllif kimi iştirak etdik.

**Sual:** Cənab Prezident, bu regionda iqtisadi əməkdaşlıqdan danışarkən Əfqanıstanda olan qeyri-sabitliyi unuda bilmərik. Regionda iqtisadi əməkdaşlığın genişlənməsi üçün Sizin ölkəniz Əfqanıstanda sülhün bərqərar edilməsindən ötrü nə kimi rol oynaya, necə yardımçı ola bilər?

**Heydər Əliyev:** Azərbaycan Əfqanıstanda sülhün bərqərar edilməsinin daim tərəfdarı olub və bu gün də həmin mövqedəyik. Mövqeyimizi həmişə bildirmişik və indi də bəyan edirəm. Güman edirəm ki, bu məsələ ilə məşğul olan böyük dövlətlər problemin sülh yolu ilə həlli istiqamətində daha çox səy göstərə bilərlər.

**Sual:** Xanım Bhutto, indi bəyan etdiniz ki, Pakistan ATƏT-in Dağlıq Qarabağda yerləşdiriləcək sülhyaratma qüvvələrinin tərkibində iştirak etmək istəyir. Pakistan bu qüvvələrin tərkibində necə iştirak

edəcək və həmin qüvvələrin yaradılmasına ölkənizinköməyi nədən ibarət ola bilər? Pakistan regional əməkdaşlığın inkişafına xüsusi əhəmiyyət verir. Bu baxımdan EKO təşkilatının üzv dövlətlər arasında həqiqətən işlək mexanizmə çevrilməsi üçün Pakistan hansı konkret tədbirlərin həyata keçirilməsini təklif edir?

**B ə n ə z i r B h u t t o :** Pakistan ATƏT-in Ermənistan ilə Azərbaycan arasındakı münaqişəyə dinc yolla son qoyulmasına yönəldilmiş səylərini həmişə diqqətlə izləyib və dəstəkləyibdir. Biz arzumuzu bildirmişik ki, ATƏT necə məsləhət bilsə, sülhyaratma əməliyyatlarında o cür iştirak etməyə hazırıq. Şübhəsiz ki, bunun təfərrüatı ATƏT-dən asılıdır.

Avropa Birliyinin nümunəsi göstərir ki, regional iqtisadi əməkdaşlığın uğurlu olması vaxtdan asılıdır. Ayrı-ayrı iqtisadi layihələrin həyata keçirilməsindən ötrü vaxt gərəkdir. Bunun üçün müəyyən maddi-texniki baza hazırlanmalı, ayrı-ayrı layihələr bütün təfərrüatı ilə işlənməlidir. Bu baxımdan EKO təşkilatı çərçivəsində konkret layihələrin reallaşdırılması barədə təkliflər irəli sürmüşük. Məsələn, ümumi hava xətlərinin, gəmiçiliyin, ümumi sığorta, bank sistemlərinin yaradılması barədə fikrimizi bildirmişik və Pakistan hökuməti həmin layihələrin həyata keçirilməsi üçün vəsait də ayırıbdır.

Azərbaycanın Prezidentinə bizim dərin hörmətimiz var, onun siyasi karyerasını çox diqqətlə izləyirik və Azərbaycanda demokratik dəyişikliklərin aparılması, ölkənizin bazar iqtisadiyyatına doğru addımlamasından ötrü islahatlar keçirilməsi yolunda göstərdiyi səyləri alqışlayırıq. Bu proseslər – həm demokratik cəmiyyətin qurulması, həm də azad bazar münasibətlərinin yaradılması asan iş deyildir. Bundan ötrü vaxt gərəkdir. Biz bu işdə Azərbaycan prezidentini dəstəkləyirik və əminəm ki, Azərbaycan xalqı onun müdrik rəhbərliyi altında bu dəyişikliklərin bəhrələrini görəcəkdir.



## PAKİSTAN TELEVİZİYASININ MÜXBİRİ İLƏ MÜSAHİBƏ

*11 aprel 1996-cı il*

**M ü x b i r :** Biz Azərbaycan Respublikasının Prezidenti hörmətli Heydər Əliyev cənablarını dövlət televiziyasında salamlamağı özümüzə böyük şərəf bilirik. Azərbaycan Respublikasının Prezidenti zatı-aliləri Heydər Əliyev, Pakistana rəsmi səfərinizi məmnuniyyətlə qarşıladıq və bunu özümüzə şərəf hesab edirik. Sovet İttifaqı dağıldıqdan sonra Mərkəzi Asiya dövlətləri müstəqillik əldə etdilər. Pakistan həmin dövlətlərlə öz tarixi, mədəni, elmi köklərini əsas götürərək, bu dövlətlərin müstəqilliyini dərhal tanıdı. Məhz bu baxımdan Pakistan İqtisadi Əməkdaşlıq Təşkilatının yaradılmasında mühüm rol oynadı, Mərkəzi Asiyanın müstəqil dövlətləri ilə iqtisadi, siyasi münasibətlər yaratmağa başladı və bu münasibətləri indi daha da genişləndirir. Siz ölkəmizə səfəriniz zamanı doqquz saziş imzaladınız. Bu sazişləri necə qiymətləndirirsiniz və Pakistan-Azərbaycan münasibətləri barədə nə deyə bilərsiniz?

**H e y d ə r Ə l i y e v :** Azərbaycan keçmiş Sovet İttifaqına mənsub olmuş bir respublikadır. Ölkəmiz Qafqazda yerləşir. Məhz Sovet İttifaqının dağılması ilə əlaqədar olaraq, Azərbaycan öz dövlət müstəqilliyini əldə etdi. Artıq beş ildir müstəqil bir dövlət kimi yaşayırıq. Bu dövrdə Azərbaycan beynəlxalq aləmdə öz mövqelərini möhkəmləndirməyə çalışıb və dünyanın bir çox ölkələri ilə ikitərəfli və qarşılıqlı surətdə faydalı əlaqələr yaradıbdır. Bu baxımdan Azərbaycan üçün mühüm ölkələrdən biri də Pakistandır. Keçmişdə Azərbaycanın Pakistanla tarixi əlaqələri çox geniş olubdur və xalqlarımızın eyni dinə mənsub olması, keçmiş adət-ənənələrimizin bir çox cəhətdən oxşarlığı bizim indiki zamanda da geniş əlaqələr saxlamağımıza əsas verir.

Azərbaycan dövlət müstəqilliyini əldə edən kimi, onun müstəqilliyini tanıyan ilk dövlətlərdən biri də Pakistan olmuşdur. İndi bizim əlaqələrimiz yaxşı bir səviyyədədir. Azərbaycanda Pakistanın səfirliyi fəaliyyət göstərir. Keçən il Pakistan prezidenti Fərrux Əhməd xan Leqari Azərbaycana rəsmi səfər etmişdir. İndi isə mən onun dəvəti ilə Pakistana rəsmi səfərə gəlmişəm. Bu səfər zamanı bizim çox əhəmiyyət-

li danışıqlarımız oldu. Prezident Fərrux Əhməd xan Leqari, baş nazir xanım Bənəzir Bhutto ilə və başqa şəxslərlə yaxşı danışıqlar apardıq.

Baş nazir ilə apardığımız danışıqlar nəticəsində Pakistanla Azərbaycan arasında əlaqələrin daha sürətlə inkişaf etməsi üçün doqquz çox mühüm saziş imzaladıq. Keçən il oktyabr ayında Bakıda Pakistan prezidenti ilə imzaladığımız sazişlər və dünən burada baş nazir və digər rəhbər vəzifəli şəxslərlə imzaladığımız sənədlər Pakistan-Azərbaycan əlaqələrinin gələcək inkişafı üçün çox böyük yollar açır və gözəl şərait yaradır.

**Müxbir:** Cənab Prezident, Pakistan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Azərbaycanın mövqeyini dəstəklədiyini bəyan edibdir. Biz istərdik ki, insan hüquqlarının kütləvi surətdə pozulduğu Kəşmirin məsələsi ilə bağlı Sizin fikirlərinizi bilək.

**Heydər Əliyev:** Mən fürsətdən istifadə edərək təşəkkürümü bildirmək istəyirəm ki, Pakistan Azərbaycana Ermənistan tərəfindən edilən hərbi təcavüzü daim pisləyibdir və dünən, srağagün apardığımız danışıqlarda da Pakistanın prezidenti, baş naziri öz bəyanatlarında Ermənistanın təcavüzkar olduğunu, Azərbaycana təcavüz etdiyini bir daha bildirdilər və bu təcavüzü pislədilər. Mən buna görə onlara çox minnətdaram.

Pakistan üçün çox mühüm olan Kəşmir problemi haqqında Azərbaycan Respublikası öz mövqeyini daim bildiribdir, yəni biz beynəlxalq təşkilatlarda, başqa lazımi səviyyələrdə Pakistanın bu barədə haqq-ədalət işini, Kəşmir problemi ilə əlaqədar olaraq, onun mövqelərini daim müdafiə etmişik və bu gün də müdafiə edirik. Mən həm cənab prezidentlə görüşəndə, həm də hörmətli baş nazir ilə görüşəndə bu barədə öz bəyanatlarımı vermişəm. Kəşmirdə insan hüquqlarının pozulmasını biz qətiyyətlə pisləyirik və buna öz etirazımızı bildiririk.

**Müxbir:** Cənab prezident, İqtisadi Əməkdaşlıq Təşkilatı bir müddətdir ki, fəaliyyət göstərir. Bu təşkilatın gələcəyi barədə fikirlərinizi bizimlə bölüşməyi xahiş edirik.

**Heydər Əliyev:** İqtisadi Əməkdaşlıq Təşkilatı çox lazımi bir təşkilatdır. Biz onun fəaliyyətini bəyənir və dəstəkləyirik. Azərbaycan bu təşkilatın üzvüdür. Mən hesab edirəm ki, bu təşkilat daha səmərəli fəaliyyət göstərə bilər. May ayında bu təşkilatın Zirvə görüşü olacaqdır. Mən ümidvar olduğumu bildirmək istəyirəm ki, bu Zirvə görüşündə təşkilatın işinin sürətləndirilməsi və iqtisadi əməkdaşlığın daha da səmərələşdirilməsi üçün lazımı tədbirlər görüləcəkdir.

**Müxbir:** Zati-aliləri, Azərbaycan öz müstəqilliyini yenicə elan edib, öz müstəqil dövlətini yaradıbdır. Azərbaycan zəngin potensiala malikdir. Bilmək istərdik, Azərbaycanda daxili proseslər hansı məcrada inkişaf edəcək, Azərbaycanın siyasi sisteminin təkamülü hansı yollarla gedəcəkdir? Azərbaycanda, ümumiyyətlə, cəmiyyətdə baş verəcək dəyişikliklər barədə, ölkənizin gələcək inkişafı barədə fikirlərinizi öyrənmək istərdik.



**Heydər Əliyev:** Bəli, Azərbaycan müstəqilliyini əldə etdikdən sonra az bir müddət keçibdir. Azərbaycan həqiqətən böyük potensiala malikdir. Onun təbii sərvətləri, ümumiyyətlə, intellektual, elmi potensialı, iqtisadi potensialı böyükdür. Məqsədimiz bunlardan Azərbaycan xalqının rifahını yüksəltmək üçün istifadə etməkdir. Azərbaycan bir müstəqil dövlət kimi demokratiya yolu ilə getmək qərarı qəbul edibdir. Azərbaycanda demokratik, sivilizasiyalı, hüquqi dövlət qurulur. Doğrudur, son illər ölkənin daxilində ictimai-siyasi vəziyyət o qədər sabit olmayıbdır. Bu, bir tərəfdən, Ermənistanın təcavüzü ilə əlaqədar olubsa, ikinci tərəfdən də daxildəki ayrı-ayrı qrupların, ayrı-ayrı dəstələrin hakimiyyət uğrunda mübarizəsi ilə bağlı olubdur. Daxildə gedən proseslər bəzi hallarda, xüsusən keçmişdə Azərbaycanda silah gücünə, zor gücünə dövlət çevrilişi etmək cəhdlərinə də gətirib çıxarıbdır. Ancaq xalqın dövlətlə həmrəyliyi sayəsində bu proseslərin qarşısı alınıbdır.

1995-ci ilin noyabr ayında müstəqil Azərbaycanın ilk konstitusiyası qəbul olundu və azad, demokratik seçkilər nəticəsində Azərbaycan Respublikasının ilk parlamenti seçildi. İndi Azərbaycanın demokratiya yolu ilə getməsi üçün bir çox əsaslar yaranıbdır. Biz bazar iqtisadiyyatı yolu ilə gedirik, özəlləşdirməni həyata keçirir, iqtisadi islahatlar aparırıq. Bütün demokratik prinsiplər Azərbaycanda bərqərar olunubdur və sürətlə inkişaf edir. Güman edirəm ki, biz Ermənistanın hərbi təcavüzündən xilas olduqdan sonra Azərbaycanın müstəqil bir dövlət kimi çox gözəl və xoşbəxt gələcəyi var.

**Müxbir:** Cənab Prezident, Siz ölkənizdəki dəyişikliklər barədə, ölkənizin gələcəyi, tutduğu yol barədə bizə ətraflı məlumat verdiniz. Eyni zamanda Pakistanla Azərbaycan arasında ümumi oxşarlıqlar barədə və münasibətlərin gələcək inkişafı barədə fikirlərinizi bizimlə bölüşdürdünüz. Biz hesab edirik ki, Sizin bu səfəriniz Pakistan ilə Azərbaycan arasında münasibətlərin daha da inkişaf etməsi üçün bir təkan olacaqdır. Vaxt ayırıb bizə müsahibə verdiyiniz üçün Sizə təşəkkürümüzü bildiririk. Çox sağ olun.

**Heydər Əliyev:** Sağ olun.

# VƏTƏNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL LAHOR HAVA LİMANINDA PAKİSTAN JURNALİSTLƏRİNƏ MÜSAHİBƏ

*11 aprel 1996-cı il*

**S u a l :** Cənab Prezident, xahiş edirik səfər barədə təəssüratlarınızı bizimlə bölüşəsiniz.

**C a v a b :** Mən Pakistana prezident Fərrux Əhməd xan Leqarinin dəvəti ilə rəsmi səfərə gəlmişəm. Üçüncü gündür ki, Pakistan torpağındayam, bir neçə dəqiqədən sonra vətənimə yola düşürəm. Mən bu səfərdən çox məmnunam. Pakistan prezidenti Fərrux Əhməd xan Leqari ilə, baş nazir hörmətli xanım Bənəzir Bhutto ilə, digər dövlət və hökumət rəhbərləri ilə, Pəncab əyalətinin rəhbərləri ilə bizim çox səmərəli, işgüzar, əhəmiyyətli danışıqlarımız olmuşdur.

Dünən Pakistanın baş naziri hörmətli xanım Bənəzir Bhutto ilə apardığımız danışıqlar nəticəsində Pakistan ilə Azərbaycan arasında bir çox əhəmiyyətli müqavilələr, sazişlər imzalandı. İmzalanmış sənədlər Pakistan-Azərbaycan münasibətlərinin, iqtisadi və bütün başqa sahələrdə əlaqələrin sürətlə inkişaf etməsi üçün çox gözəl yollar açır.

Bu danışıqlar, görüşlər, imzalanmış sənədlər, Pakistanın bugünkü həyatı ilə, İslamabad, qədim Lahor şəhərləri ilə və Lahorun qədim memarlıq və dini abidələri ilə tanışlıq mənə çox böyük təsir göstərdi. Mən bu günlər bir daha hiss etdim ki, Azərbaycan və Pakistan xalqları bir-birinə çox yaxın, dost və doğma xalqlardır. Bizim adət-ənənələrimiz, Azərbaycan dili ilə urdu dili bir-birinə çox oxşayır. Güman edirəm ki, mən danışarkən siz bəzi Azərbaycan sözlərini anlayırsınız. Tarixi abidələrimiz də bir-birinə çox oxşayır. Bizi ən çox birləşdirən həm Pakistanın, həm də Azərbaycanın islam dininə mənsub olmasıdır.

Bu səfər zamanı mən belə gözəl təəssüratlar əldə etmişəm. Ölkənizdə olduğumuz günlərdə biz pakistanlı qardaşlarımızın, bacılarımızın böyük qonaqpərvərliyini hiss etdik. Bu qonaqpərvərliyə və səfərimin müvəffəqiyyətlə başa çatmasına görə, mən Pakistanın rəhbərlərinə – prezident hörmətli cənab Fərrux xan Leqariyə, baş nazir hörmətli xanım Bənəzir Bhuttoya, Pəncab əyalətinin valisinə, Pəncabın baş nazirinə, səfərdə məni daim müşayiət edən Pakistanın informasiya nazirinə və bütün başqa pakistanlılara öz minnətdarlığımı, təşəkkürümü bildirirəm.



# TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ MƏSUD YILMAZIN BİNƏ HAVA LİMANINDA QARŞILANMA MƏRASİMİNDƏ BƏYANAT

*14 aprel 1996-cı il*

Hörmətli baş nazir! Hörmətli qonaqlar!

Bu gün Türkiyə Cümhuriyyətinin baş naziri hörmətli dostumuz Məsud Yılmaz mənim dəvətimlə Azərbaycan Respublikasına rəsmi səfərə gəlmişdir. Bu səfər Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələrinin yeni parlaq təzahürüdür. Bu, təbii bir haldır. Bizim ölkələrimiz arasında çox dərin, sıx dostluq, qardaşlıq əlaqələri var. Ona görə də bizim bir-birimizlə görüşməyimiz, bir-birimizin ölkələrinə səfərlərimiz bu əlaqələrin daha da inkişaf etdirilməsi üçün çox lazımdır.

Hörmətli baş nazir! Mən Sizə təşəkkür edirəm ki, Siz mənim dəvətimi qəbul edib, Azərbaycana rəsmi səfərə gəlmisiniz. Əminəm ki, burada olduğunuz zaman Azərbaycan xalqının, Azərbaycan vətəndaşlarının Sizə olan hörmət və ehtiramını hiss edəcəksiniz. Özünüzü öz evinizdə hiss edəcək, Azərbaycanın qonaqpərvərliyini duyacaqsınız. Sizin buraya gəlməyiniz, danışıqlarımız, söhbətlərimiz, Azərbaycanla tanışlığınız əlaqələrimizin inkişafını daha da yüksəklərə qaldıracaqdır.

Bildiyimə görə Siz birinci dəfədir ki, Azərbaycana səfər edirsiniz. Bakı – Azərbaycanın paytaxtı Sizi bir əziz qonaq kimi qəbul edir və əminəm ki, Siz də Bakıda olmağınızdan məmnun qalacaqsınız.

Bir daha xoş gəlmisiniz, səfa gətirmisiniz, Azərbaycanın bütün evləri, bütün ailələri sizi səmimiyyətlə qarşılayır və sizin üzünüzə açıqdır.

# AZƏRBAYCAN-TÜRKİYƏ SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA TÜRKİYƏNİN BAŞ NAZİRİ MƏSUD YILMAZLA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Prezident Sarayı*
*14 aprel 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Bildiyiniz kimi, bu gün Türkiyənin baş naziri, hörmətli dostumuz Məsud Yılmaz Azərbaycana ilk rəsmi səfərə gəlibdir. Biz Azərbaycan-Türkiyə münasibətləri ilə əlaqədar danışıqlar aparmışıq. Bildirmək istəyirəm ki, danışıqlarımız dostluq, qarşılıqlı anlaşma, mehribanlıq şəraitində keçibdir. Bu danışıqlar Türkiyə ilə Azərbaycan arasında olan dostluq və qardaşlıq əlaqələrinin təzahürüdür, bu dostluğu dünyaya bir daha nümayiş etdirir.

Biz bir çox məsələləri müzakirə etmişik. Birinci növbədə Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsi və genişləndirilməsi haqqında müzakirələr apardıq. Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti Türkiyə-Azərbaycan iqtisadi əlaqələrinin inkişaf etdirilməsi üçün müştərək komissiya yaradıblar. Bu komissiyanın sədrləri Azərbaycan tərəfindən baş nazirin müavini Abid Şərifovdur, Türkiyə tərəfindən isə enerji naziri cənab Hüsni bəydir. Onlar artıq işə başlayıblar və bir çox müzakirələr də aparırlar.

Biz ümumiyyətlə, Türkiyə-Azərbaycan iqtisadi əlaqələrinin bütün sahələrinə nəzər saldıq və eyni fikirdə olduq ki, bu əlaqələr inkişaf etdirilməli, genişləndirilməlidir. Mən güman edirəm ki, hörmətli baş nazirin Azərbaycana bu səfərindən sonra hər iki ölkə tərəfindən bu barədə lazımi addımlar atılacaqdır.

Türkiyə və Azərbaycan üçün çox mühüm məsələ olan Ermənistan-Azərbaycan hərbi münaqişəsi bizim danışıqlarımızın, müzakirələrimizin mərkəzində oldu. Bildirmək istəyirəm ki, bu barədə biz eyni fikirdəyik. Türkiyə Azərbaycan Respublikasının haqq və ədalətli işini müdafiə edir. Baş nazir Məsud Yılmaz tərəfindən bu fikirlərin bir daha bəyan edilməsi bizim üçün çox əhəmiyyətli oldu.



Həm Türkiyə tərəfi, həm də Azərbaycan tərəfi eyni fikirdədir ki, sülh danışıqları Minsk qrupu çərçivəsində və ayrı-ayrı böyük dövlətlərin – ABŞ-ın, Rusiyanın, Türkiyənin vasitəçiliyi ilə davam etdirilməlidir. Bu məsələ sülh yolu ilə həll olunmalıdır.

Məsələnin sülh yolu ilə həll olunması üçün Azərbaycan Respublikasının irəli sürdüyü təkliflər məlumdur. Ermənistan silahlı qüvvələri işğal olunmuş Azərbaycan torpaqlarından çıxmalıdır, torpaqlarımız azad edilməlidir və bu torpaqlardan didərgin düşmüş Azərbaycan vətəndaşları öz yerlərinə, yurdlarına qayıtmalıdırlar. Respublikamızın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin olunmalıdır. Belə bir şəraitdə Azərbaycanın tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət statusu verilə bilər. Azərbaycan tərəfi bunu bəyan etmişdir. Bu məsələlər barədə bizim fikirlərimiz Türkiyə ilə eynidir.

Bütün bunlarla yanaşı, hörmətli baş nazir və onun başçılıq etdiyi nümayəndə heyəti ilə biz beynəlxalq məsələləri də gözdən keçirdik. Bölgəmizdə, ümumiyyətlə, dünyada olan vəziyyəti də müzakirə etdik. Bu məsələlər barədə də bizim fikirlərimiz eynidir, yaxud bir-birinə bənzərdir.

Türkiyə ilə Azərbaycan arasında dostluq əlaqələrinin ən mühüm cəhəti ondan ibarətdir ki, bir çox beynəlxalq məsələlərə də biz eyni münasibət göstəririk. Biz beynəlxalq aləmdə də əməkdaşlıq edirik və beynəlxalq məsələlərin həll olunmasında bir-birimizə yardım edir, dəstək veririk.

Güman edirəm ki, baş nazir Məsud Yılmazın respublikamıza səfəri Azərbaycan-Türkiyə münasibətlərində yeni bir mərhələ olacaqdır. Əmin olduğumu bildirmək istəyirəm ki, hər iki tərəf bu münasibətlərin daha da inkişaf etməsi üçün səylər göstərəcəkdir. Mən hörmətli baş nazir cənab Məsud Yılmaza Azərbaycana rəsmi səfər etdiyinə görə, bir daha təşəkkürümü bildirirəm. Sağ olun.

**S u a l :** Azərbaycan və Türkiyə qardaş olmaları barədə dəfələrlə bəyanat vermişlər. Türkiyə ötən il Ermənistanla hava sərhədlərini açdı və ümid edirdi ki, Ermənistan Dağlıq Qarabağ münaqişəsinin həllində əməli addımlar atacaqdır. Ermənistan heç bir addım atmadı. Məndə olan məlumata görə, Azərbaycanla Ermənistan arasında protokol imzalandıqdan sonra Türkiyə Ermənistanla sərhədləri açmağa hazırdır. Belə bir şəraitdə Türkiyə Ermənistanla sərhədləri açarsa, bu, qardaşlıq haqqında bəyanatlara zidd deyilmi?

İkinci sualım Azərbaycan Prezidentinədir. Əgər sərhədlər indiki şəraitdə açılarsa, bu bizim Türkiyə ilə münasibətlərimizə necə təsir edə bilər?

**Məsud Yılmaz:** Türkiyə Ermənistan üçün hava dəhlizi açandan sonra Ermənistanın sülh istiqamətində Türkiyənin gözlədiyi addımları atmadığı barədəki fikirlər doğrudur. Biz də bunu müəyyən etmişik. Ermənistanla bizim aramızda olan sərhəd keçid məntəqəsinin – Əlican qapısının açılması ilə əlaqədar bəyanatımızın şərtləri məlumdur. Ermənistan Azərbaycanla apardığı ikitərəfli danışıqlarda razılığa gəlmədikcə və Azərbaycanın ərazi bütövlüyünü tanıması və hazırda işğal etdiyi Azərbaycan torpaqlarından geri çəkilməyi öhdəsinə götürməsi haqqında prinsiplər bəyannaməsini imzalamadıqca, Türkiyənin bu sərhəd qapısını açmasından bəhs edilə bilməz. Türkiyə bu addımı atarkən qardaş Azərbaycanın mənafeyini öz mənafeyi hesab edir, bunu Azərbaycan torpaqlarının Ermənistanın işğalından azad edilməsinə bir töhfə kimi qiymətləndirir. Türkiyədən bunun əksi olan başqa bir hərəkət gözləmək olmaz və bu günə kimi Azərbaycanla birlikdə göstərdiyimiz nümunəvi həmrəylik bizə başqa cür hərəkət etməyə izn verməz.

**Heydər Əliyev:** Hesab edirəm ki, hörmətli baş nazirin bu cavabından sonra həmin suala mənim cavab verməyimə ehtiyac yoxdur. Bir halda ki, belə olacaq, demək, bizim münasibətlərimiz də elə indiki kimi olacaqdır.

**Sual:** Dağlıq Qarabağ münaqişəsinin həllində ABŞ və Rusiya diplomatiyasının fəallaşdığı bir vaxtda bu danışıqlarda Türkiyənin mövqeyi və rolu haqqında məlumat verməyinizi xahiş edirəm.

**Məsud Yılmaz:** Dağlıq Qarabağ probleminin həlli üçün ABŞ ilə Rusiya Federasiyası arasında aparılan məsləhətləşmələrdən, bu istiqamətdəki sülh səylərindən biz məmnunuq. Azərbaycan və Ermənistan arasında ikitərəfli müzakirələrə əlavə olaraq, Rusiya ilə Amerikanın məsələyə bu şəkildə münasibəti bizim üçün problemin həllini asanlaşdıran bir amildir. Biz bu prosesdə necə iştirak edəcəyimiz barədə düşünürük. Bizim bu ixtilafdakı yerimiz Azərbaycanın yanındadır. Biz hər baxımdan Azərbaycanın yanında olmağa məcburuq. Əvvəla, Azərbaycan zərərçəkən, torpaqları işğal edilən, təcavüzə məruz qalan ölkə olduğu üçün biz onun yanındayıq. Azərbaycanla aramızda olan qardaşlıq əlaqələri tələb etdiyi üçün də biz Azərbaycanın yanındayıq. Lakin bu mövqeyimizə baxmayaraq, bu münaqişənin həllinə, bu işğalın qurtarmasına necə kömək edə bilərik – biz bu barədə düşünürük. Bu sahədə Ermənistana təsir edə biləcək bütün vasitələrdən istifadə etməyə hazırıq.



**Sual:** Hörmətli baş nazir, Bakıya səfərinizdən əvvəl Ermənistan prezidenti Levon Ter-Petrosyanın nümayəndəsi Libaridyanla görüşünüz barədə xəbərlər yayılmışdır. Bu görüşdə nə barədə söhbət apardınız, Ermənistan nə istəyir?

**Məsud Yılmaz:** Ermənistan prezidenti Levon Ter-Petrosyanın nümayəndəsi Libaridyanla görüşümdən əvvəl, mən Azərbaycan Prezidenti hörmətli Heydər Əliyevin xüsusi nümayəndəsi Vəfa Quluzadə ilə görüşmüşdüm. Hər iki görüşdə toxunduğumuz məsələ iki ölkə arasındakı müzakirələrin gedişi ilə əlaqədardır. Bizim müəyyən etdiyimizə görə, iki ölkə arasında razılıq əldə edilməməsinin əsas səbəbi ermənilərin Dağlıq Qarabağa əslində muxtariyyəti aşan, müstəqilliyi nəzərdə tutan status verilməsində israr etməsidir. Biz Azərbaycanın bu barədəki şərtlərinin daha doğru olduğuna inanırıq. Bizim fikrimizcə, Ermənistanın bu məsələdə irəli sürdüyü şərtlər qəbul edilə bilməz. Bu fikrimizi Ter-Petrosyanın nümayəndəsinə açıq şəkildə bildirdik.

**Sual:** Hörmətli baş nazir, Bakı-Supsa neft kəməri ilə əlaqədar olaraq təkliflərinizin qəbul edilməsində Türkiyə israr edəcəkmi? Türkiyə bu təkliflərində hansı güzəştlərə gedə bilər?

**Məsud Yılmaz:** Bakı-Supsa boru xətti ilə əlaqədar Türkiyənin fikirləri aydındır, ictimaiyyətə məlumdur. Türkiyənin israr etdiyi əsas məsələ Xəzər neftinin Türkiyənin Aralıq dənizi sahilinə axıdılmasıdır. Bu boru xəttinin Ceyhana doğru uzadılmasıdır. Bu həm iqtisadi baxımdan, həm də Qara dəniz boğazlarının təhlükəsizliyi baxımından əhəmiyyətlidir. Türkiyə bu məsələdə israr edəcəkdir. Bunu Azərbaycanın rəhbərliyi də yaxşı bilir və bu fikrimizə tərəfdar çıxanların getdikcə daha çox olduğunu görməkdən məmnunluq duyuruq.

# QƏRBİ AVROPA ÖLKƏLƏRİNƏ İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA MÜXBİRLƏRİN SUALLARINA CAVAB

*21 aprel 1996-cı il*

Avropa Birliyi ilə Azərbaycan arasında əməkdaşlıq artıq başlanıbdır. Biz xeyli zamandır ki, bu əməkdaşlığı yaratmaq üçün addımlar atmışıq, danışıqlar aparmışıq və nəhayət, indi Avropa Birliyi qərara alıbdır ki, aprelin 22-də Lüksemburqda Avropa Birliyinin üzvü olan ölkələrin xarici işlər nazirlərinin toplantısında Azərbaycan, eləcə də Gürcüstan və Ermənistan Avropa Birliyinə qəbul olunmaq üçün saziş imzalayacaqlar. Bu, şübhəsiz ki, ilkin sazişdir, amma çox mühüm bir sazişdir və bunun tarixi əhəmiyyəti var. Çünki bu saziş Azərbaycanın Avropa Birliyinə qoşulmasında böyük bir addımdır. Bunun həm iqtisadi, həm də siyasi əhəmiyyəti var. Bu, Azərbaycanda demokratiyanın inkişafı, Azərbaycanın demokratiya yolu ilə, bazar iqtisadiyyatı yolu ilə getməsi prinsiplərinin Azərbaycanda daha da inkişaf etməsi üçün yeni bir mərhələdir. Ona görə mən buna çox böyük əhəmiyyət verirəm və bir də qeyd edirəm ki, mən yola düşməzdən öncə biz burada, Azərbaycanda bu məsələni müzakirə etdik. Hesab edirəm ki, bu, Azərbaycanın həyatında tarixi hadisədir.

Eyni zamanda mən Brüsseldə olarkən NATO-nun Baş Qərargahına gedəcəyəm. Bildiyiniz kimi, 1994-cü il mayın 4-də Azərbaycan NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulubdur və o zaman mən bu barədə sənədi imzalamışam. İndi o sənədin imzalanması ilə əlaqədar bu qoşulmanın prezentasiya sənədi təqdim ediləcəkdir. Burada da görüşlərimiz olacaqdır.

Ondan sonra isə mən Norveçə yola düşəcəyəm. Norveç ilə Azərbaycan arasındakı əlaqələr son zamanlar çox sürətlə inkişaf edir. Bilirsiniz ki, Norveçin böyük neft şirkəti «Statoyl» Xəzər dənizinin Azərbaycan sektorunda neft yataqlarının istifadə olunmasında iştirak edir və konsorsiumun üzvüdür. Biz onlarla çox sıx əməkdaşlıq edirik və Norveç hökumətinin dəvəti ilə mən bu ölkəyə rəsmi səfərə gedirəm. Orada Norveçlə Azərbaycan arasında əlaqələrin inkişaf etdirilməsi üçün



danışıqlar aparılacaq və bir çox sənədlər imzalanacaqdır.

Hesab edirəm ki, bunların hamısı Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirən və onu dünyada bir daha nümayiş etdirən addımlardır, hadisələrdir və eyni zamanda Azərbaycanın dünya birliyində tutduğu özünəməxsus yeri bir daha əyani surətdə nümayiş etdirir.

**S u a l :** Ayaz Mütəllibovun Azərbaycana verilməsi məsələsinə necə baxırsınız?

**C a v a b :** Adamlar öz vətənindən qaçmamalıdırlar. Hətta hüquqa, qanuna zidd hansısa əməllər törətmiş olsalar da, öz xalqı, öz hakimiyyət orqanları qarşısında bunu etiraf etmək yaxşıdır, nəinki hansısa başqa bir ölkədə sığınacaq tapmaq. İndiki halda Mütəllibov da, Rəhim Qazıyev də cinayət etmişlər. Əslində elə buna görə də uzun müddətdir ki, Azərbaycanın hüdudlarından kənarda gizlənirdilər. Bilirsiniz ki, Rəhim Qazıyev Rusiyanın hüquq-mühafizə orqanları tərəfindən həbs edilmiş və respublikamıza verilmişdir. Azərbaycanın hüquq-mühafizə orqanlarının sərəncamındadır. Mütəllibov da həbs olunub və Rusiyanın hüquq-mühafizə orqanlarının sərəncamındadır.

Zənnimcə, bunun özü Rusiya ilə Azərbaycan arasında, o cümlədən hüquq-mühafizə orqanlarımız arasında mehriban əməkdaşlığın olmasına inandırıcı sübutdur. Bu fakt göstərir ki, Rusiya ilə Azərbaycan arasında münasibətlər dostluq xarakteri daşıyır və biz bu münasibətləri çox yüksək qiymətləndirir, bunları bütün sahələrdə – iqtisadiyyatda da, elm-texnika sahəsində də inkişaf etdirmək, dərinləşdirmək üçün hər şeyi edirik. Yeri gəlmişkən, deyim ki, aprelin 23-də Moskvada Azərbaycan mədəniyyəti günləri başlanacaqdır. Biz Rusiya ilə dostluğu Azərbaycanın xarici siyasət sahəsində əməkdaşlığının çox mühüm amili sayırıq.

Rəhim Qazıyevə gəldikdə isə, bilirsiniz ki, o, Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasından qaçmış və qanunsuz yolla Azərbaycanın hüdudlarını tərk edərək, Moskvada gizlənirdi. Şübhəsiz ki, buna görə cavab verməlidir. O ki qaldı bağışlanma haqqında müraciətə, bizim məhkəməmiz ədalətlidir, əgər insan öz günahını başa düşürsə, əməllərindən peşman olursa, ona həmişə rəhm edilir. Ona da belə münasibət ola bilər.

Mənə məlum olduğuna görə, Mütəllibov ən yüksək cəza – ölüm cəzası nəzərdə tutulan maddə ilə ittiham edilmir. Buna görə də hesab edirəm ki, onun barəsində belə cəza tətbiq oluna bilməz. Ümumən onun

məsuliyyət daşımasına gəldikdə isə, hesab edirəm ki, o, vətəninə qayıtmalı və ədalət məhkəməsi qarşısında dayanmalıdır. Məhkəmə ona ədalətlə və mərhəmətlə yanaşacaqdır.

**Sual:** Axtarışda olan adamların verilməsi müqabilində Azərbaycanın müəyyən güzəştlərə gedə biləcəyi barədə şayiələrlə əlaqədar fikrinizi bilmək olarmı?

**Cavab:** Bilirsiniz, bunlar çox bəsit uydurmalardır. Dövlətlərarası münasibətlər, xüsusən də Azərbaycan üçün çox yaxın, dost dövlət olan Rusiya kimi böyük bir ölkə ilə münasibətlərimiz hansısa təsadüfi amillər əsas götürülməklə qurula bilməz. Bu şayiələr olduqca bəsit uydurmadır. Mən də fikir vermişəm, Moskva mətbuatında belə mülahizələr, ehtimallar artıq dərc olunur. Mən buna hətta təəccüb edirəm. Bilirsiniz, biz Rusiya ilə çox mehriban əməkdaşlıq edirik, bu əməkdaşlıq konyunktura xarakteri daşımır və hansısa cinayətkarın Azərbaycana verilib-verilməməsindən asılı ola bilməz. Əgər biz dövlətlərarası münasibətlərimizi həmin prinsiplər əsasında qursaydıq, bu bizim də, Rusiyanın da səviyyəsini aşağı salmış olardı. Hesab edirəm ki, Rusiya Federasiyası dövləti də, Azərbaycan dövləti də bu təsadüfi hallardan çox-çox yüksəkdə dayanır.

Biz Rusiya ilə fəal əməkdaşlıq edirik. Biz MDB-yə daxilik, onun tərkibində də əməkdaşlığımız uğurla gedir. Xəzərdəki neft yataqlarının birgə işlənməsində də Rusiya Federasiyası ilə çox fəal əməkdaşlıq edirik. Rusiyanın «LUKoyl» şirkəti beynəlxalq konsorsiumda böyük yer tutur. Bu ilin yanvarında Moskvada mən və Rusiyanın baş naziri cənab Çernomırdin Azərbaycandan ilkin neftin Rusiyanın Novorossiysk limanına və oradan Qara dəniz vasitəsilə ixracına dair böyük saziş imzalamışıq. Əməkdaşlığa dair çoxlu başqa layihələrimiz də var, bunlar iri-miqyaslı, dövlətlərarası xarakter daşıyır. Rəhim Qazıyevin, yaxud Mütəllibovun şəxsiyyəti bununla müqayisədə əhəmiyyətsiz şeydir.



## AVROPA KONFRANS MƏRKƏZİNDƏ ZAQAFQAZİYANIN ÜÇ RESPUBLİKASI PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI

*Lüksemburq*
*22 aprel 1996-cı il*

**Sual:** Cənab Ter-Petrosyan, Ermənistanın da üzv olduğu BMT və ATƏT-in prinsiplərinə uyğun olaraq, Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanımaqda nə üçün çətinlik çəkirsiniz? Axı məlum olduğu kimi, Zaqafqaziyanın üç dövlət liderlərinin bəyannamə imzalaması yolunda əngəl məhz budur. Koçaryanın Dağlıq Qarabağa müstəqillik verilməsinin zəruriliyi barədə verdiyi, əslində ikinci erməni dövləti yaratmaq demək olan bəyanatlara münasibətiniz necədir?

**Levon Ter-Petrosyan:** Birinci sualınıza – Azərbaycanın ərazi bütövlüyünü Ermənistanın nə üçün tanımaması haqqında suala cavab verim. Sizə əks sualım var – Azərbaycan Dağlıq Qarabağın öz müqəddəratını təyin etmək hüququnu nə üçün tanımır?

**Jurnalistin cavabı:** Azərbaycan BMT-nin prinsiplərinə uyğun olaraq, Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağın öz müqəddəratını təyin etmək hüququnu tanıyır.

**Sual:** Cənab Ter-Petrosyan, Ermənistan birliyin iştirakçısı olan dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına əməl edilməsi haqqında bəyannaməni imzalamaqdan boyun qaçırmışdır. Azərbaycan da daxil olmaqla MDB dövlətlərinin ərazi bütövlüyü məsələsində Ermənistanın mövqeyini necə izah edərdiniz? Bildiyiniz kimi, vasitəçilər belə hesab edirlər ki, Ermənistan ilə Azərbaycan arasındakı münaqişəyə son qoymaq üçün tərəflər qarşılıqlı güzəştə getməlidirlər. Azərbaycan Prezidenti dəfələrlə bəyan etmişdir ki, onun ölkəsi güzəştə getməyə hazırdır və Azərbaycan Dağlıq Qarabağa ən yüksək muxtariyyət statusu verir. BMT-nin üzvü kimi, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımağa hazırdırmı? Sonrakı sualım Prezident Heydər Əliyevə və Ermənistan prezidentinədir: dünənki rəsmi məlumatda qeyd olunmuşdur ki, münaqişənin aradan qaldırılması

beynəlxalq prinsiplərə əməl edilməsinə əsaslanmalıdır. Bunu deyərkən nəyi nəzərdə tutursunuz?

**L e v o n T e r - P e t r o s y a n :** Birinci suala cavab vermişəm. İkinci sual barədə onu deyə bilərəm ki, beynəlxalq hüquqlar deyərkən hamımızın hörmət etdiyimiz on prinsipi nəzərdə tuturuq. Bunların hamısının eyni qüvvəsi var. O ki qaldı Dağlıq Qarabağın statusuna, bu məsələni Dağlıq Qarabağın əhalisi həll etməlidir.

**H e y d ə r Ə l i y e v :** Beynəlxalq hüquq normalarına əməl edilməsi ifadəsi altında, şübhəsiz ki, bütün beynəlxalq hüquq normalarını nəzərdə tuturuq. Buraya çox anlayışlar daxildir və onlardan heç biri istisna edilmir.

**S u a l :** Sovet İttifaqını keçmiş sərhədləri daxilində bərpa etmək barədə Moskvada göstərilən cəhdlərə necə baxırsınız?

**E d u a r d Ş e v a r d n a d z e :** Mən bunu yolverilməz sayıram. Yəqin ki, siz Dövlət Dumasının prezident Yeltsin tərəfindən «rüsvayçı qərar» adlandırılan qərarını nəzərdə tutursunuz. Zənnimcə, bu, çox dəqiq qiymətdir. Onu da əlavə edim ki, Dövlət Duması özünün bu qərarı ilə NATO-nun şərqə doğru genişlənməsi prosesinin sürətlənməsinə kömək edir.

**L e v o n T e r - P e t r o s y a n :** Bilirsiniz, keçmiş Sovet İttifaqında, məhz Rusiyada kommunistlərin qayıtmaq təhlükəsi var. Ölkəmin adından əmin etmək istəyirəm ki, Ermənistan heç vaxt öz suverenliyindən imtina etməyəcək və keçmiş Sovet İttifaqı hüdudlarında heç bir yeni ittifaqa daxil olmayacaqdır. Lakin kommunistlərin qayıtması təkcə keçmiş Sovet İttifaqı respublikaları üçün deyil, zənnimcə, həm də Avropa və bütün dünya üçün böyük təhlükədir. Cənab Şevardnadzenin dediyi məsələyə toxunaraq qeyd etmək istəyirəm ki, Rusiyada demokratiyanın qorunub saxlanması Avropanın təhlükəsizliyi, dünyanın təhlükəsizliyi üçün NATO-nun genişlənməsindən daha mühümdür. İndi dünyanın təhlükəsizliyi üçün başlıca məsələ Rusiyada kommunistlərin qayıtmasına yol verməməkdən ibarətdir.

**H e y d ə r Ə l i y e v :** Açıq deyirəm və hesab edirəm ki, bununla bütün Azərbaycan xalqının rəyini ifadə etmiş oluram. Bir prezident kimi mən, Sovetlər İttifaqının bərpasına və şübhəsiz ki, kommunist rejiminin bərpasına dair Rusiyada özünü göstərən meyllərə qəti şəkildə mənfi münasibət bəsləyirəm. Azərbaycan öz müstəqilliyindən heç vaxt geri çəkilməyəcəkdir. Azərbaycanın müstəqilliyi onun tarixi nailiyyə-



tidir və biz keçmiş Sovetlər İttifaqı kimi hər hansı bir ittifaqa daxil olmağı özümüzə heç vaxt rəva bilməyəcəyik. Hesab edirəm ki, bu niyyətin müəllifləri nəyəsə nail olmağa ümid bəsləyirlərsə, son dərəcə yanılırlar. Rusiyada kommunistlərin qayıtması təhlükəsi var və zənnimcə, demokratik qüvvələr bunun qarşısına sipər çəkməlidirlər. Rusiyada demokratik proseslərin inkişaf etməsinin təkcə onun özü üçün deyil, həm də keçmişdə Sovetlər İttifaqının tərkibində olub indi demokratiya yolu ilə gedən ölkələrin hamısı üçün böyük əhəmiyyəti var.

**S u a l :** Cənab Əliyev, Siz bəyan etdiniz ki, Azərbaycanda demokratik seçkilər keçirilib, 30 partiya və azad mətbuat var. ATƏT-in beynəlxalq müşahidəçiləri Azərbaycanda keçirilmiş parlament seçkilərini qeyri-demokratik və qeyri-azad seçkilər kimi səciyyələndirmişlər. Siyasi partiyalar qadağan olunub, azad mətbuat yoxdur. Burada ziddiyyət nədən ibarətdir?

**H e y d ə r Ə l i y e v :** Sizin sualınız qərəzli xarakter daşıyır. Mən dedim ki, qeydiyyatdan keçmiş 30 partiya sərbəst fəaliyyət göstərir, demokratik yolla seçilmiş parlamentdə 9 partiya təmsil olunub və bunlardan bəziləri müxalifət partiyalarıdır. Azərbaycanda bütün sahələrdə demokratiya bərqərar olur. İstinad etdiyiniz mənbələrdən xəbər alın ki, onlar nə üçün belə bəyanatlar verirlər.

**S u a l :** Bu gün imzalanmış saziş Avropa ilə əməkdaşlığı və inteqrasiyanı nəzərdə tutur. Lakin mənə elə gəlir ki, indi Zaqafqaziyanın özündə inteqrasiya bundan heç də az əhəmiyyətli deyildir. Siz Zaqafqaziyada inteqrasiyanın mümkünlüyünə inanırsınızmı? Bu gün imzalanmış saziş ona necə kömək edə bilər?

**L e v o n T e r - P e t r o s y a n :** Zənnimcə, bu suala əvvəlcə «Qafqaz evi» yaratmağın təşəbbüsçüləri cavab verəcəklər, sonra mən onların fikrinə qoşularam.

**E d u a r d Ş e v a r d n a d z e :** Biz hesab edirik ki,bugünkü gün Gürcüstan üçün, Zaqafqaziyanın bütün dövlətləri üçün tarixi bir gündür. Əvvəla, ona görə ki, biz Avropa ilə inteqrasiyaya başlayırıq; ikincisi, Avropa özü Qafqazın həm Avropa, həm də bütün dünya üçün əhəmiyyətini dərk etməyə başlayır. Avropa Birliyi müasir dünyada dövlətlər arasında inteqrasiya proseslərinin həyata keçirilməsinə ən yaxşı nümunədir. Bu, on illərlə toplanmış təcrübədir. Ona görə də Avropa Birliyi ilə saziş imzalayarkən, şübhəsiz ki, biz nəzərdə tuturuq ki, Zaqafqaziya regionu daxilində, bu əsasda da Avropa ilə inteqrasiya mümkündür. Yeri gəlmişkən, onu

da əlavə etmək istəyirəm ki, Avropa Birliyi ilə imzaladığımız saziş MDB çərçivəsində və Qara dəniz iqtisadi regionu ölkələrinin əməkdaşlığı çərçivəsində üzərimizə götürdüyümüz öhdəliklərə əsla zidd deyildir.

**Heydər Əliyev:** Söz yoxdur ki, bugünkü hadisə tarixi əhəmiyyətə malikdir. Avropa ilə inteqrasiya bütün Zaqafqaziya respublikaları üçün bütövlükdə dünya iqtisadi sistemi ilə inteqrasiyadan, demokratik proseslərin inkişafından, demokratik islahatların həyata keçirilməsindən ötrü çox mühüm vasitədir. Artıq Avropa Birliyindən aldığımız kömək, humanitar yardım, habelə müxtəlif bazar islahatlarının aparılması üçün göstərilən kömək ona dəlalət edir ki, inteqrasiya səmərəli və faydalı olacaqdır. Təbiidir ki, bu inteqrasiya Zaqafqaziya bölgəsində də inteqrasiya həyata keçirilməsini nəzərdə tutur.

Zaqafqaziya respublikaları arasında inteqrasiyanın mümkünlüyü barədə konkret suala cavab vermək istəyirəm. Əlbəttə, Zaqafqaziya respublikaları arasında inteqrasiya mümkündür. Məsələn, Azərbaycanla Gürcüstan arasında çox sıx inteqrasiya mövcuddur. Bu yaxınlarda biz Tbilisidə bir sıra sənədlər imzaladıq. Cənab prezident Şevardnadze və mən, Gürcüstanın və Azərbaycanın digər nümayəndələri inteqrasiyaya dair böyük bir proqram nəzərdə tutmuşuq. Şübhəsiz ki, Azərbaycan ilə Ermənistan arasında da çox sıx inteqrasiya mümkündür. Bununla əlaqədar dünən axşamdan xeyli keçmiş biz cənab prezident Ter-Petrosyan ilə görüşdükdə dedik ki, biz münaqişənin aradan qaldırılmasına, sülh yaranmasına, sülh sazişi bağlanmasına nail olmalıyıq. Mənim heç bir şübhəm yoxdur ki, bunun ardınca iqtisadi əlaqələr yüksək sürətlə inkişaf edəcəkdir. Mən buna inanıram.

**Levon Ter-Petrosyan:** Mən də əlavə etmək istəyirəm ki, Zaqafqaziya dövlətlərinin sıx əməkdaşlığına inanıram. Bir tarixçi kimi deməliyəm ki, bu, labüddür. Zaqafqaziya üç xalqın tarixən təşəkkül tapmış regionudur, bu xalqların taleləri əsrlər ərzində qaynayıb qarışıbdır. İndi regionda birliyin olmaması bizim bəlamızdır. Amma Allaha şükür ki, məsələ, məncə kiçik bir işdən asılıdır. Heydər Əliyeviç dedi ki, Azərbaycan ilə Gürcüstan arasında gözəl münasibətlər var. Mən bunu Gürcüstan ilə Ermənistan arasında münasibətlər barəsində də deyə bilərəm. Kiçik bir məsələ – Azərbaycan ilə Ermənistan arasında münasibətləri tənzimləmək məsələsi qalır. Bundan ötrü isə yalnız Qarabağ problemini həll etmək lazımdır. Burada hələlik yeganə bir maneə var. Hətta Abxaziya münaqişəsi – Gürcüstan üçün ağır problem olan bu münaqişə, şükürlər olsun, Zaqafqaziya dövlətləri arasında münasibətlərə xələl gətirmir. Biz Qarabağ probleminin həll olunacağı xoşbəxt günə gəlib çıxdıqda hesab edə bilərsiniz ki, həmin gündən bu inteqrasiya da olacaqdır. Çünki onsuz biz mövcud ola bilmərik. Bu yaxınlarda mən Ermənistanda öz çıxışlarımdan birində dedim ki, istər Azərbaycan, istərsə də Ermənistan özü üçün ən təbii iqtisadi tərəfdaşdan əslində məhrum olmuşdur. Bir iqtisadi tərəfdaş kimi, Ermənistan Azərbaycanı itirmişdir. Azərbaycan isə Ermənistanı itirmişdir. Onlar ən təbii iqtisadi tərəfdaşdırlar. Bu tərəfdaşlığın zəruriliyi bütün tarix ərzində sübuta yetirilmişdir. Bu tərəfdaşlığın bərpasından sonra hər iki dövlətimiz iqtisadi yüksəliş üçün böyük ehtiyat mənbəyi əldə edəcəkdir. Bir sözlə, mən buna nəinki inanıram, həm də hesab edirəm ki, biz bu məqsəd uğrunda mübarizə aparmalıyıq.



**Heydər Əliyev:** Əlavə edim ki, Dağlıq Qarabağ məsələsinin həlli üçün hərbi münaqişəyə son qoymaq, Azərbaycanın işğal olunmuş torpaqlarından silahlı qüvvələri çıxarmaq, bir milyon qaçqını öz yaşayış yerlərinə qaytarmaq lazımdır. Qarabağ məsələsinin həllinin açarı məhz bundan ibarətdir. Mən bir daha bəyan edirəm ki, Azərbaycan Dağlıq Qarabağa Azərbaycan Respublikası çərçivəsində, Azərbaycanın ərazi bütövlüyü şərti ilə ən yüksək status verməyə hazırdır.

**Sual:** Cənab prezidentlər, çeçen münaqişəsinə münasibətiniz necədir? Sizin fikrinizcə, bu münaqişəni necə aradan qaldırmaq olar?

**Eduard Şevardnadze:** Zənnimcə, cavab sadədir. Çeçenistan Rusiya dövlətinin tərkib hissəsidir. Biz hamımız həm öz ölkələrimizin, həm də Rusiyanın ərazi bütövlüyünə tərəfdarıq. Bilavasitə münaqişəyə gəldikdə, biz, o cümlədən də mən onun dinc vasitələrlə tezliklə aradan qaldırılmasına həmişə tərəfdar olmuşuq. Belə düşünürəm ki, Rusiya prezidentinin axırıncı təşəbbüslərində münaqişənin məhz dincliklə aradan qaldırılması nəzərdə tutulur.

**Levon Ter-Petrosyan:** Bu suala cavabım standartdır. Qarabağ problemini indiyədək həll etməyə qadir olmadığımdan, bu suala cavab verməyi özüm üçün mənəviyyatsızlıq və ya etikaya zidd sayıram. Biz bu problemi həll etdikdən sonra çeçen probleminin həlli barədə məsləhətlər verə bilərəm.

**Heydər Əliyev:** Biz həmişə separatizmin əleyhinə çıxmışıq və çıxırıq, hər hansı bir dövlətin ərazi bütövlüyünə, sərhədlərinin pozulmazlığına, indiki halda Rusiyanın ərazi bütövlüyünə və suverenliyinə tərəfdarıq. Çeçenistanda nə baş verirsə, bunların hamısı bizim keçmişdə də, bu

gün də pislədiyimiz separatizmin nəticəsidir. Aydındır ki, müharibə gedir, qan tökülür. Bunların hamısı böyük narahatlıq doğurur. Hesab edirəm ki, Rusiya hökuməti öz ölkəsinin ərazi bütövlüyü prinsipini əsas tutaraq, bu məsələnin həllinin ən məqbul yolunu axtarıb tapmağa qadirdir.

**S u a l :** Cənab Şevardnadze, Avropa strukturları, Rusiya Qafqazda münaqişələrin aradan qaldırılması proseslərinə necə təsir göstərə bilərlər?

**E d u a r d  Ş e v a r d n a d z e :** Bu gün mən öz çıxışımda dedim ki, gürcü-osetin münaqişəsinin həllində müəyyən tərəqqi yaranmışdır. Özü də burada Avropanın təhlükəsizlik strukturları, xüsusən Avropa Birliyi böyük rol oynayırlar. Rusiya ilə birlikdə onlar vasitəçilik yerinə yetirir və bu, ona əyani misaldır ki, xüsusən belə mühüm saziş imzalandıqdan sonra Avropa Birliyi Zaqafqaziyada və bütövlükdə Qafqazda münaqişələrin hamısının aradan qaldırılmasında daha mühüm rol oynaya bilər.

**S u a l :** Cənab prezidentlər, bu gün siz Almaniyanın xarici işlər naziri Klaus Kinkel ilə görüşdünüz. Bununla siz Qafqazda Almaniyanın xüsusi bir rolu olduğunu nəzərə çarpdırmaq istəyirsiniz?

**L e v o n  T e r - P e t r o s y a n :** Əgər bizi başqa bir ölkənin xarici işlər naziri səhər yeməyinə dəvət etsəydi, siz bu ölkənin xüsusi rolundan danışardınız? Bu, sadəcə olaraq təsadüfdür.

**E d u a r d  Ş e v a r d n a d z e :** Mən xoşbəxtəm ki, bütün dövlətlərin, o cümlədən Avropa ölkələrinin rəhbərləri ilə şəxsən mənim aramda çox səmimi və yaxşı münasibətlər yaranıbdır. O ki qaldı Almaniyaya, o cümlədən cənab Kinkelə, bəlkə də burada hansısa xüsusiyyətlər, Gürcüstan dövlətinin təşəkkül tapmasına, xüsusən iqtisadi sahədə dirçəlməsinə bu ölkənin göstərdiyi xüsusi bir yardımın, xüsusi bir köməyin rolu var.

**H e y d ə r  Ə l i y e v :** Biz Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılmasında və Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpa edilməsində bizə real kömək göstərə bilən hər hansı dövləti alqışlayırıq. Almaniya Avropanın ən böyük dövlətlərindən biridir. Almaniyaya və ya onun xarici işlər nazirinə böyük hörmət və rəğbətim var.

**S u a l :** Cənab Əliyev, Qarabağa vəd etdiyiniz geniş muxtariyyət dedikdə nəyi nəzərdə tutursunuz?

**H e y d ə r  Ə l i y e v :** Dünya praktikasında mövcud olan ən yüksək muxtariyyət statusunu. Müxtəlif ölkələrdə öz dövlətçilik atributları olan muxtar qurumlar var, amma həmin atributlar bu muxtar qurumun daxil olduğu dövlətin atributlarına tam uyğun olmalıdır. Mən bunu nəzərdə tuturam. Lakin aydın və konkret olsun deyə, dünya praktikasında



mövcud olan ən yüksək muxtariyyət statusunu nəzərdə tuturam. Dünya praktikasında hər hansı muxtariyyəti tapıb mənə xəritədə göstərin, mən ona razılıq verərəm.

**S u a l :** Bu sual Ermənistan prezidentinədir. Ermənistan dinc Qafqaz uğrunda Tbilisi bəyannaməsinə qoşulmağa hazırlaşırmı? Bu sual isə prezident Şevardnadzeyədir: NATO-nun şərqə tərəf genişlənməsi ilə müqayisədə Avropa Birliyinin genişlənməsinə regional təhlükəsizlik üçün daha möhkəm zəmin kimi baxmaq olarmı?

**L e v o n  T e r - P e t r o s y a n :** Sizin sualınıza mən demək olar, cavab vermişəm. Çünki Zaqafqaziya dövlətlərinin inteqrasiyası ideyasını dəstəkləyir və tarixi zərurilik sayıram. O ki qaldı Ermənistanın Tbilisi bəyannaməsinə formal surətdə qoşulmasına, burada iki məqam var: əvvəla, biz bu sənədin hazırlanmasında iştirak etməmişik. İkincisi, Ermənistan bu məsələyə Qarabağ probleminin həllindən sonra baxacaqdır.

**E d u a r d  Ş e v a r d n a d z e :** Zənnimcə, NATO-nun şərqə tərəf genişlənməsi ilə Avropa Birliyinin genişlənməsini bu cür qarşı-qarşıya qoymaq əsla qanunauyğun deyildir. Onların müxtəlif funksiyaları, müxtəlif məqsədləri var. Mən bayaq dedim ki, Avropa Birliyinin şərqə tərəf genişlənməsi nə MDB-nin, nə də Qara Dəniz İqtisadi Birliyi ölkələrinin və digər regional təşkilatların maraqlarına zidd deyildir. Buna görə də mənə elə gəlir ki, Avropa Birliyinin şərqə tərəf genişlənməsi bütün regionlarda, o cümlədən Zaqafqaziyada sabitlik üçün mühüm təminatdır.

**S u a l :** Cənab prezidentlər, siz Qafqazda münaqişələrin aradan qaldırılmasında Rusiyanın istər keçmişdə, istərsə də gələcəkdə rolunu necə qiymətləndirirsiniz?

**E d u a r d  Ş e v a r d n a d z e :** Rusiya-abxaz münaqişəsinin, eləcə də gürcü -osetin münaqişəsinin aradan qaldırılmasında çox yaxından iştirak edir. Zənnimcə, Rusiyanın bu cür iştirakı, vasitəçiliyi və müəyyən dərəcədə sülhpərvərliyi, şübhəsiz, faydalı, bəlkə də hətta həlledici olacaqdır. Amma bir şərtlə ki, bunlar BMT Təhlükəsizlik Şurasının və birlik ölkələrinin məlum qətnamələrində göstərilmiş prinsiplər əsasında həyata keçirilsin. Bizim xüsusi coğrafi mövqeyimiz sizə məlumdur. Rusiya istəsə, abxaz münaqişəsi çox sürətlə aradan qaldırılar. Amma bəla burasındadır ki, Rusiyada müxtəlif qüvvələr, müxtəlif cərəyanlar var. Bəzən siyasi spektrin bu cür tərkibi nizamasalma prosesini, o cümlədən abxaz münaqişəsinin aradan qaldırılmasını sürətləndirməyə mane olur.

**Levon Ter-Petrosyan:** Keçmiş Sovet İttifaqının ərazisindəki bütün münaqişələrin aradan qaldırılmasında Rusiyanın çox yaxından iştirakı onların müvəffəqiyyətlə həlli üçün zəruri şərtdir. Yəni Rusiyanın fəal iştirakı olmadan bu münaqişələr heç vaxt aradan qaldırılmayacaqdır.

**Heydər Əliyev:** Rusiya Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılmasında fəal iştirak edir. O, ATƏT-in Minsk qrupunun həmsədridir. Biz onun fəaliyyətinə böyük ümid bəsləyirik. Bu baxımdan biz Rusiya ilə uzun illərdir əməkdaşlıq edirik və bu əməkdaşlığı indən sonra da davam etdirməyi lazım bilirik. Zənnimcə, Qafqazda bu münaqişələrə, xüsusən Dağlıq Qarabağ üstündə Ermənistan ilə Azərbaycan arasındakı münaqişəyə son qoymaq üçün Rusiya böyük potensial imkanlara malikdir. Ümidvaram ki, Rusiya özünün bu imkanlarından istifadə edəcəkdir.

**Sual:** Ermənistan və Azərbaycan prezidentləri görüşərək, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması məsələlərinin müzakirəsi üçün bu səfərdən niyə istifadə etmədilər?

**Levon Ter-Petrosyan:** Azərbaycan və Ermənistan prezidentləri Lüksemburqda olduqlarından istifadə etdilər və dünən gecədən xeyli keçmiş görüşdülər. Bu görüş bir saatdan çox çəkdi. Demək olar ki, dünən biz münaqişənin aradan qaldırılması məsələsində indiki vəziyyətə yekun vurduq və yaxın aylarda görəcəyimiz tədbirləri razılaşdırdıq. İndiki atəşkəsi qəti olaraq saxlamaq, Azərbaycan ilə Ermənistan arasında dialoqu intensiv surətdə davam etdirmək, humanitar problemləri həll etmək, ən əvvəl, tərəflərin bütün hərbi əsirləri və girovları azad etməsi nəzərdə tutulmuşdur. Belə düşünürəm ki, bu, bir görüş üçün böyük nailiyyətdir. Biz onun yekunlarına əsasən birgə rəsmi məlumat yaydıq, buraya sadaladığım həmin bəndlər daxildir.

**Heydər Əliyev:** Cənab prezident Ter-Petrosyanın verdiyi məlumatla tamamilə razıyam, ona görə də təkrar etməyəcəyəm. Yalnız onu əlavə etmək istəyirəm ki, dünən mən Lüksemburqa gələn kimi cənab Ter-Petrosyanın burada olub-olmamasını xəbər aldım. O, Lüksemburqa gələn kimi mən öz müşavirim Vəfa Quluzadəni onun yanına göndərdim. Onlar razılığa gəldilər və cənab Ter-Petrosyanın dediyi kimi, biz gecədən xeyli keçmiş görüşdük, çox uzun çəkən bir söhbət keçirdik. Görüşün nəticələri, razılaşmalarımız elə dünən elan etdiyimiz birgə bəyanatda öz əksini tapmışdı. Bəyanatın məzmunu barədə Levon Akopoviç danışdı.



# AZƏRBAYCAN PREZİDENTİNİN VƏ NATO-nun BAŞ KATİBİ HAVYER SOLANANIN JURNALİSTLƏRLƏ GÖRÜŞÜNDƏ ÇIXIŞ

*Brüssel, 23 aprel 1996-cı il*

Hörmətli cənab Baş katib!

Mən burada, NATO-nun baş qərargahında olmağımdan, sizinlə apardığım söhbətlərdən çox məmnun olduğumu bildirmək istəyirəm. Siz qeyd etdiniz, mən bura artıq birinci dəfə deyil gəlirəm. 1994-cü ilin mayında mən buraya gəlib NATO-nun «Sülh naminə əməkdaşlıq» proqramına imza atmışam. 1994-cü ilin yanvarında NATO-nun belə bir proqramı qəbul etməsini, onu bəyan etməsini və ölkələrin bu proqrama qoşulması haqqında çağırışını biz məmnuniyyətlə qəbul etdik və bunu çox yüksək qiymətləndiririk. Bu proqram, həqiqətən Avropada, eyni zamanda dünyada sülhün, əmin-amanlığın bərqərar olması üçün çox yaxşı bir əsas yaradır. Ona görə də Azərbaycan iki il bundan əvvəl bu proqrama qoşulub. Mən bu proqrama imza atmışam.

Cənab baş katib, bu gün bu proqramla əlaqədar olaraq Azərbaycanın prezentasiya sənədini mən sizə təqdim etdim. Sizinlə apardığımız söhbətlərdən, fikir mübadiləsindən mən çox razıyam, məmnunam. Onlar bizim ikitərəfli əlaqələrimiz üçün, o cümlədən Qafqazda, Zaqafqaziyada sülhün, əmin-amanlığın yaranması üçün çox əhəmiyyətlidir. Fikir mübadiləmizdə Zaqafqaziyada Ermənistan – Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması məsələlərinə də toxunduq.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu məsələnin sülh yolu ilə həll olunması üçün NATO öz səylərini əsirgəməyəcəkdir. Ermənistan prezidenti Levon Ter-Petrosyanla mən bu məsələlərin sülh yolu ilə həll olunması üçün Lüksemburqda apardığımız danışıqlar nəticəsində birgə bəyanat verdik və mən bu barədə sizə geniş məlumat verdim.

Artıq iki ildir ki, bu münaqişədə atəşkəs rejimi yaranıbdır və prezident Ter-Petrosyan ilə mən bəyan etdik ki, biz bundan sonra da bu atəşkəs rejiminə riayət edəcəyik. Eyni zamanda biz sülh danışıqlarını davam etdiririk və münaqişəyə sülh yolu ilə tamamilə son qoymaq istəyirik. Mən bu gün sizə bir daha bildirdim ki, bunun üçün Ermənistan si-

lahlı qüvvələri Azərbaycanın işğal olunmuş torpaqlarından çıxmalıdır, işğal edilmiş torpaqlardan didərgin düşmüş bir milyondan artıq Azərbaycan vətəndaşı öz yerinə, yurduna qayıtmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət statusu verilə bilər.

Bir daha ümidvar olduğumu bildirmək istəyirəm ki, Ermənistan-Azərbaycan münaqişəsinin bu şərtlər əsasında, sülh yolu ilə həll edilməsində NATO da öz səylərini göstərəcəkdir. NATO-nun fəaliyyətini biz sülhsevər fəaliyyət hesab edirik. NATO-nun mövcudluğunu və onun fəaliyyətini Avropada, dünyada sülhün, əmin-amanlığın bərqərar olunması üçün çox mühüm bir amil hesab edirik. NATO-ya və NATO-nun üzvü olan ölkələrə bu sahədə yeni uğurlar diləyirəm.

Cənab baş katib, mən sizi Azərbaycana rəsmi səfərə dəvət etmişəm. Siz bu dəvəti qəbul etmisiniz və ümidvar olduğumu bildirmək istəyirəm ki, onu yaxın vaxtlarda həyata keçirəcəksiniz.

Bu böyük vəzifəni siz qısa bir vaxtdır ki, öz üzərinizə götürmüsünüz. Bilirəm ki, siz bu sahədə çox iş görürsünüz. Şəxsən sizə bu işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Azərbaycan öz dövlət müstəqilliyini qoruyub saxlayacaqdır. Bir prezident kimi mənim bu sahədə apardığım siyasətə və əməli işlərimə yüksək qiymət verdiyinizə görə sizə təşəkkür edirəm. Bugünkü söhbətimizə görə və mənə göstərdiyiniz diqqətə, mehribanlığa görə sizə təşəkkür edirəm. Sizə bir daha yeni müvəffəqiyyətlər arzulayıram.



## BRÜSSELDƏN NORVEÇƏ RƏSMİ SƏFƏRƏ GƏLƏRKƏN OSLO HAVA LİMANINDA NORVEÇ JURNALİSTİNİN SUALINA CAVAB

*24 aprel 1996-cı il*

Mən baş nazir xanım Brundtlandın dəvəti ilə Norveçə rəsmi səfərə gəlmişəm. Hər şeydən öncə Norveç torpağına gəlməyimdən çox məmnun olduğumu bildirir və ümidvaram ki, Norveç və Azərbaycan dövlətləri arasında münasibətlərin gələcək inkişafı üçün uğurlu danışıqlar aparacağıq.

Ölkələrimiz arasında yaxşı iqtisadi əməkdaşlıq yaranmışdır. Bilirsiniz ki, dünyanın ən iri şirkətlərindən olan «Statoyl» Dövlət Neft Şirkəti Xəzər dənizinin Azərbaycan sektorunda neft yataqlarının işlənməsinə dair konsorsiumun üzvüdür. Yəni biz əməkdaşlıq edirik, lakin biz bunu daha da inkişaf etdirmək istəyirik. Şimal ölkəsi olan Norveç iqtisadiyyatda böyük nailiyyətlər əldə etmişdir, ona görə də biz birgə əməkdaşlığımızdan çox şey gözləyirik. Mən ilk öncə Oslo sakinlərinə, Norveç vətəndaşlarına salamımı və ən xoş arzularımı çatdırmaq istərdim.

Sizi görməyimə şadam. Mən sizi 1990-cı ilin yanvarından, xalq hərəkatını yatırtmaq üçün sovet silahlı qüvvələrinin böyük qoşun hissəsinin yeridilməsi ilə əlaqədar Bakıda faciə baş verən vaxtdan xatırlayıram. Mən Moskvada mitinqdə çıxış edərək, Sovet hökumətinin konstitusiyaya zidd olan bu hərəkətlərinə qarşı etirazımı bildirmişdim. O zaman biz sizinlə görüşdük və mən sizin suallarınıza cavab verdim. Hətta o da yadımdadır ki, sonra siz Moskvada mənim mənzilimə telefonla zəng etmişdiniz. O vaxt mən əslində təcrid olunmuş vəziyyətdə idim. Ona görə də sizi görməyimə şadam.

# MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Oslo*
*25 aprel 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Mən Norveçin baş naziri hörmətli xanım Brundtlandın dəvəti ilə dost ölkəyə rəsmi səfərə gəlmişəm. Mənimlə birlikdə bizim nümayəndə heyəti də buradadır. Biz dünən danışıqlar aparmışıq. Qeyd etməliyəm ki, danışıqlarımız çox səmərəli keçdi. Danışıqlar nəticəsində Norveç ilə Azərbaycan arasında əməkdaşlığın inkişaf etdirilməsi üçün bir neçə sənəd imzalamışıq.

Azərbaycanda Norveç ilə əlaqələrimizə xüsusi əhəmiyyət veririk. Norveç Azərbaycanın müstəqilliyini tanıyan dünya dövlətlərindən biridir. O vaxtdan bəri də Norveç Azərbaycanla iqtisadi əməkdaşlıq etməyə maraq göstəribdir. Norveçin «Statoyl» şirkəti və digər şirkətləri Azərbaycana gəlib və artıq bizimlə əməkdaşlığa başlayıblar.

Bununla bərabər bizi Norveçlə sıx əməkdaşlığa cəlb edən amil budur ki, Norveç Avropanın inkişaf etmiş dövlətlərindən biridir, iqtisadiyyat sahəsində böyük nailiyyətlər qazanıb. Norveç demokratik islahatlar aparılması sahəsində də çox böyük nailiyyətlərə malikdir. Norveç tam demokratik prinsiplər əsasında öz dövlətini qurub və cəmiyyətini formalaşdırıbdır. Bunların hamısı bizim üçün çox cəzbedici hallardır, bizim üçün çox maraqlıdır. Bunlar həm də müstəqil Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət qurmaq üçün təcrübədir. Bu amillər Norveçlə əlaqələrimizin daha sıx olması və indən sonra da inkişaf etməsi baxımından bizim üçün əhəmiyyətə malikdir.

Biz dünən baş nazir xanım Brundtland ilə bu məsələlər ətrafında geniş fikir mübadiləsi, danışıqlar aparmışıq. Bu danışıqların nəticəsində, bir tərəfdən, Norveç ilə Azərbaycan arasında əlaqələrin daha sürətlə inkişaf etdirilməsi haqqında ümumi rəyə gəldik və bununla bərabər, danışıqlarımız zamanı beynəlxalq aləmdə gedən proseslər, dünya prosesləri haqqında, o cümlədən dünyanın ayrı-ayrı regionlarında gedən proseslər, baş vermiş və uzun müddət davam edən hərbi münaqişələr, bu münaqişələrin aradan qaldırılması haqqında fikir mübadiləsi apardıq



və fikirlərimiz uyğun gəldi. Bundan başqa bir çox digər məsələlər barəsində də fikirlərimiz və dünyagörüşlərimiz üst-üstə düşür. Bu isə gələcək əməkdaşlığımız üçün yaxşı əsasdır.

Azərbaycan Qafqazda yerləşir. Təəssüflər olsun ki, Qafqazda bir neçə hərbi münaqişə mövcuddur, o cümlədən Dağlıq Qarabağ ilə əlaqədar Ermənistanla Azərbaycan arasında münaqişə dünyanın ən ağır, eyni zamanda təhlükəli münaqişələrindən biridir. Bu münaqişə Azərbaycan Respublikasına, Azərbaycan xalqına çox böyük zərər və zərbələr vurmuşdur. Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur, işğal edilən bu ərazilərdən Azərbaycanın bir milyon nəfərdən artıq vətəndaşı öz yer-yurdlarından zorla çıxarılmışdır. Onlar didərgin düşmüş və çox ağır vəziyyətdə çadırlarda yaşayırlar. Bu bizim həm iqtisadi vəziyyətimizi, həm də ümumi vəziyyətimizi olduqca gərginləşdirmişdir. Mən xanım Brundtlandla bu barədə çox geniş fikir mübadiləsi aparmışam və ona bildirmişəm, sizə də bəyan edirəm ki, Azərbaycan Ermənistanla münaqişəni sülh yolu ilə aradan qaldırmaq istəyir, məhz buna görə də biz iki il bundan öncə Ermənistanla Azərbaycan arasında atəşin kəsilməsi haqqında saziş imzalamışıq. Biz bu sazişə indiyədək əməl edirik və onun bundan sonra da saxlanmasına çalışacağıq. Biz bu atəşkəs rejiminin davam etdiyi vaxtda danışıqlar aparırıq. Danışıqlar nəticəsində hərbi əməliyyatlara və ümumiyyətlə münaqişəyə son qoymaq istəyirik. Biz Azərbaycanla Ermənistan arasında daimi sülh olmasına tərəfdarıq.

Sülhə nail olmaq üçün isə hər bir ölkə, o cümlədən Ermənistan da beynəlxalq hüquq normalarına əməl etməlidir. Bu baxımdan biz sülh əldə etmək üçün çox güzəştli, konstruktiv təkliflər irəli sürmüşük. Təkliflər ondan ibarətdir ki, Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindən Ermənistan silahlı qüvvələri çıxmalıdır, Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin olunmalıdır, işğal edilmiş torpaqlardan didərgin düşmüş, zorla çıxarılmış Azərbaycan vətəndaşları o torpaqlara, öz yurd-yuvalarına qayıtmalıdırlar. Dağlıq Qarabağ probleminin həll olunmasının əsas prinsipi, əsas yolu bundan ibarətdir ki, Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir və biz Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağa, burada yaşayan təxminən 100 min erməniyə yüksək muxtariyyət statusu verməyə hazırıq. Bu yüksək muxtariyyət statusu yalnız və yalnız Azərbaycan dövlətinin tərkibində ola bilər və heç zaman bu sta-

tus Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə zərər vurmamalıdır.

Azərbaycan öz müstəqilliyinin beşinci ilini yaşayır. Dövlət müstəqilliyi Azərbaycan xalqı üçün tarixi bir hadisədir. Bu, bizim üçün əbədidir. Müstəqil Azərbaycan dövləti öz həyatını demokratik prinsiplər əsasında qurur. Azərbaycanda demokratik hüquqi dövlət qurulur və bütün demokratik prinsiplər ölkəmizdə bərqərar edilir. Azərbaycan ötən ilin noyabr ayında referendum yolu ilə ilk demokratik konstitusiyasını qəbul edib və eyni zamanda ilk dəfə Azərbaycan parlamentində çoxpartiyalı sistem əsasında demokratik seçkilər keçirilibdir. Bunların hamısı Azərbaycanın demokratiya yolu ilə getməsi üçün çox yaxşı əsaslar yaradıbdır. Biz demokratiya yolu ilə gedirik. İqtisadiyyatımız dünyaya açıqdır. İqtisadiyyatda bazar iqtisadiyyatı prinsipləri əsasında islahatlar aparırıq. Özəlləşdirmə proqramı qəbul edilib və həyata keçirilir. Bunların hamısı zəngin təbii sərvətləri olan Azərbaycanı qısa müddətdə dünyanın ən yüksək inkişaf etmiş dövlətlərindən birinə çevirəcəkdir.

Sizin gözəl ölkənizdə, gözəl Oslo şəhərində biz özümüzü çox yaxşı hiss edirik. Bizə böyük qonaqpərvərlik göstərilir. Bizim görüşlərimiz, danışıqlarımız səmimilik və mehribanlıq şəraitində keçir. Bütün bunlar onu göstərir ki, Norveç- Azərbaycan əlaqələrinin çox gözəl gələcəyi var və biz bu gələcəyə nail olmaq üçün əlimizdən gələni edəcəyik. Təşəkkür edirəm.

**S u a l :** Prezident Heydər Əliyev indi öz bəyanatında «Statoyl» ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında əməkdaşlığın genişləndiyini qeyd etdi. Bununla əlaqədar belə bir sual: Xəzər dənizi şelfində yeni neft yataqlarının, o cümlədən «Şahdəniz» yatağının işlənməsində «Statoyl» şirkətinin iştirakı nəzərdə tutulurmu?

**H e y d ə r Ə l i y e v :** Bəli, nəzərdə tutulur. Bu məsələ ilə əlaqədar indi biz fəal danışıqlar aparırıq.

**S u a l :** Neft hasilatının artırılması onun nəqlinin genişləndirilməsini nəzərdə tutur. Məlum olduğu kimi, Azərbaycan nefti xaricə Rusiya və Gürcüstan ərazisi ilə nəql ediləcəkdir. Neft kəmərlərinin və Norveç təşkilatları ilə əməkdaşlığın başqa variantları da hazırlanırmı?

**H e y d ə r Ə l i y e v :** Bəli, siz düz deyirsiniz ki, ilkin neftin Rusiya ərazisi ilə Qara dəniz sahilindəki Novorossiysk limanına və Gürcüstan ərazisi ilə yenə də Qara dəniz sahilindəki Supsa limanına ixracı



üçün boru kəmərləri çəkilməsi haqqında Rusiya və Gürcüstan ilə sazişlər bağlamışıq. Lakin bununla eyni zamanda konsorsiumun layihəsində Azərbaycan neftinin ixracı üçün böyük bir neft kəmərinin çəkilməsi nəzərdə tutulur. Biz bu məsələdə Norveç təşkilatları ilə əməkdaşlıq edirik və edəcəyik.

**S u a l :** Bilmək istərdik ki, Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində ATƏT-in və BMT-nin rolunu nədə görür və Sizin Norveçin baş naziri ilə apardığınız danışıqlar zamanı ATƏT-in sülhyaratma qüvvələrində Norveç əskərlərinin iştirakı məsələsi müzakirə edildimi?

**H e y d ə r Ə l i y e v :** Biz Ermənistanla Azərbaycan arasında münaqişənin aradan qaldırılması üçün ATƏT-in Minsk qrupunun imkanlarından istifadə edirik və bundan sonra da edəcəyik. ATƏT-in Minsk qrupu məhz bu münaqişənin sülh yolu ilə həll edilməsi üçün yaradılmışdır. Doğrudur, Minsk qrupu və onun vasitəsilə apardığımız işlər istənilən nəticəni indiyədək verməyib. Ancaq biz bu vasitədən indən sonra da istifadə edəcəyik. Böyük Sülh Sazişinin əldə olunması və onun həyata keçirilməsi bölgəmizə beynəlxalq sülhü mühafizə qüvvələri gətirilməsini nəzərdə tutur. Baş nazir xanım Brundtland ilə görüş zamanı o, Azərbaycan jurnalistlərinin suallarına cavab verərək bildirdi ki, hələ 1994-cü ilin dekabrında Budapeştdə ATƏT-in Zirvə toplantısında Norveç bəyan etmişdi ki, əgər sülh müqaviləsi əldə olunarsa və bizim bölgəyə ATƏT-in sülhməramlı qüvvələri göndərilərsə, onda Norveç bu qüvvələrin tərkibinə qoşun hissələri göndərməyə hazırdır.

**S u a l :** Siz artıq xatırlatdınız ki, neft konsorsiumunun layihəsində böyük neftin ixracı üçün neft kəməri çəkilməsi nəzərdə tutulur. Lakin Siz demədiniz ki, bu neft kəməri haradan keçəcək və onun son məntəqəsi harada olacaqdır? Bu, birinci sualımdır. İkinci sualım: şübhə yoxdur ki, konsorsium öz fəaliyyətində Qafqazda, o cümlədən də Çeçenistandakı narahat vəziyyəti nəzərə alır. Bu, nə dərəcədə nəzərə alınır?

**H e y d ə r Ə l i y e v :** Əvvəlcə, böyük neft kəməri barədə. Təbii ki, bütün variantlar nəzərdən keçirilib öyrənilir. Bu məsələ barəsində indi qəti qərar yoxdur. Buna görə də müəyyən fikir söyləmək hələ tezdir. Hər halda konsorsiumun layihəsində böyük neft kəmərinin çəkilişi nəzərdə tutulur. Biz bu kəmərin çəkilişinə və istismarına nail olmağa çalışacağıq.

O ki qaldı Şimali Qafqazda vəziyyətə, biz Şimal istiqamətində neft kəməri çəkilməsi haqqında Rusiya ilə danışıqlar aparıb bu barədə saziş bağladıqda bu neft kəmərinin marşrutunda mümkün ola biləcək çətinlikləri nəzərə almışdıq. Lakin bununla yanaşı, onu da nəzərə almışdıq ki, bu çətinlikləri aradan qaldırmaq mümkündür.

**S u a l :** Cənab Prezident, bilmək istərdim ki, «Şahdəniz» yatağı haqqında bağlanacaq müqavilə ilə əlaqədar vəziyyət necədir, bu sahədə danışıqlar başa çatmaqdadırmı? «Şahdəniz» yatağının istismarında iştirak edəcək şirkətlərin siyahısı müəyyənləşdirilibmi? Əgər müəyyənləşdirilibsə, bunlar hansı şirkətlərdir? «Şahdəniz» layihəsinin maliyyələşdirilməsində Ümumdünya Bankının və Avropa Yenidənqurma və İnkişaf Bankının hər hansı iştirakı gözlənilirmi?

**H e y d ə r Ə l i y e v :** «Şahdəniz» yatağının müştərək işlənməsi haqqında danışıqlar sona çatır. Güman edirəm ki, yaxın vaxtlarda bu barədə müqavilə imzalanacaqdır. Bu neft yatağına dünyanın bir sıra şirkətləri böyük maraq göstərirlər. Biz onlarla danışıqlar aparırıq. Lakin mən danışıqlar nəticəsində bu layihədə hansı şirkətlərin iştirak edəcəyi barədə məlumat vermək istəmirəm. Sadəcə olaraq bildirmək istəyirəm ki, bu neft yatağında lap əvvəldən «Statoyl» və «Britiş Petroleum» çox zəhmət çəkmişlər və təbii ki, bu layihədə iştirak edirlər.

Layihənin maliyyələşdirilməsinə gəldikdə isə, bu məsələni adətən konsorsiuma daxil olan şirkətlərin özləri həll edirlər. Əgər onlar gəlib hər hansı layihəyə daxil olurlarsa, deməli, maliyyə problemlərini əvvəlcədən nəzərə alır və həll edirlər. Ola bilər ki, onlar Ümumdünya Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının, digər bankların köməyindən istifadə etsinlər. Təşəkkür edirəm.



## NORVEÇDƏ DƏNİZ NEFT PLATFORMASI İLƏ TANIŞLIQDAN SONRA RESPUBLİKA TELEVİZİYASINA MÜSAHİBƏ

*26 aprel 1996-cı il*

**S u a l :** Cənab Prezident, platforma ilə tanışlıq səfər içində bir səfərdir. İstəyirik təəssüratlarınızı öyrənək.

**C a v a b :** Çox gözəl təəssüratlarımız var. Şimal dənizindəki bu platforma müasir texnologiya ilə təmin edilmiş çox mükəmməl bir qurğudur. Mən Azərbaycanda, Xəzər dənizində, başqa ölkələrdə də platformalar görmüşəm. Ancaq bu platforma həm texnikasına, həm də texnologiyasına, avadanlığına görə ən müasir platformadır. Bu platformalardan neft, qaz çıxarırlar. Onları görmək, tanış olmaq maraqlı idi. Biz orada işləyənlərlə söhbət etdik. Onlar öz işləri barədə ətraflı məlumat verdilər. Bu, bizim üçün çox əhəmiyyətlidir. Çünki «Əsrin müqaviləsini»nin həyata keçirilməsi ilə əlaqədar biz də belə platformalar tikəcəyik.

**S u a l :** Bu platformada öyrəniləsi və tətbiq olunası çox şey var?

**C a v a b :** Bəli. Ümumiyyətlə, görünür ki, «Statoyl» şirkəti həqiqətən, çox qısa bir müddətdə böyük nailiyyətlər əldə etmişdir. Buraya gələn gündən onların işi ilə tanış oluram və bu gün Şimal dənizindəki platforma ilə tanışlıq da məni bu qənaətə gətirdi.

# «STATOYL» ŞİRKƏTİNİN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ VERDİYİ RƏSMİ ZİYAFƏTDƏ NİTQ

*Stavanger, 26 aprel 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Mən bu gün artıq sizin qarşınızda nitq söyləmişəm. Ona görə də vaxtınızı almaq istəmirəm. Mərasim qayda-qanununa uyğun olaraq bizi buraya qonaq çağıran tərəfin nümayəndəsi çıxış etdiyinə görə mən də bir neçə söz demək istəyirəm. Bu gün biz sizinlə burada axırıncı dəfə nahar edirik. Yəqin ki, növbəti dəfə bu mərasim Bakıda olacaqdır. Sabah səhər biz Vətənə qayıdacağıq. Mən bu gün buradakı təəssüratlarım haqqında danışacağam.

Norveç böyük ərazisi olan bir ölkədir, əhalisi isə ərazisinə nisbətən o qədər də çox deyil. Norveçlilərin istedadı və ən böyük üstünlüyü ondan ibarətdir ki, ərazisi böyük olan ölkəni azsaylı əhali ilə yüksək səviyyələrə qaldırmışlar. Biz bu günlər Norveçin tarixi ilə bir daha yaxından tanışlıq zamanı xalqınızın nə qədər zəngin tarixi və bu tarixin nə qədər parlaq səhifələri olduğunu gördük. Ancaq bütün bunlarla bərabər, Norveç xalqının ən böyük nailiyyəti demokratiyanın, iqtisadiyyatın və xalqın rifah halının ən yüksək səviyyədə olmasıdır. Siz buna öz istedadınız, fədakar əməyinizlə nail olmusunuz. Bu nailiyyətlər münasibətilə mən sizi təbrik edirəm. Belə bir xalq ilə, dövlət ilə dostluq, əməkdaşlıq yaratmaq Azərbaycan üçün çox əlverişlidir və mən bunu ürəkdən istəyirəm.

Hesab edirəm ki, belə bir dostluq, əməkdaşlıq yaranıbdır. Bu günlər bizim burada keçirdiyimiz görüşlər və xüsusən Norveçin iş adamları, şirkət rəhbərləri ilə bu axşamkı görüşüm mənə bir daha əsas verir deyim ki, biz doğrudan da artıq çox yaxınlaşmışıq.

Norveçin bir sıra şirkətlərinin Azərbaycanda işləməsi barədə həmin şirkətlərin başçıları bu gün mənə çox maraqlı məlumatlar verdilər. Doğrusunu deyim ki, mən əməkdaşlığımızın bu qədər geniş olduğunu bilmirdim. Xüsusən bu axşam sizinlə, yəni iş adamları, ayrı-ayrı şirkətlərin rəhbərləri, nümayəndələri ilə söhbətlərim məni daha da sevindirdi. Mən sizi Azərbaycana dəvət edirəm. Amma gördüm ki, sizin çoxunuz artıq Azərbaycanda möhkəm yer tutmusunuz. Mən də sizə deyirəm: Azərbaycanda daha möhkəm yer tutun. Sizə kim mane olsa, mən sizin tərəfinizdəyəm və sizə kömək edəcəyəm. Buna arxayın ola bilərsiniz.



Bu görüşlər məni bir daha əmin edir ki, bizim əməkdaşlıq imkanlarımız çox böyükdür. Bu imkanları yaradan bizimlə bərabər «Statoyl» şirkətidir. Bir çox şirkətlər Azərbaycana məhz «Statoyl» şirkətindən sonra gəliblər və artıq respublikamızda iş görürlər. Gəlin bundan sonra da belə işləyək.

Biz buradan çox gözəl təəssüratlarla gedirik. Mən səmimi deyirəm, hər şey xoşumuza gəlir. Məni də, məni müşayiət edənləri də ən çox sevindirən odur ki, siz ürəyi çox açıq, sadə adamlarsınız, təkəbbürlü deyilsiniz. Bunlar çox yüksək keyfiyyətlərdir.

Məlumdur ki, siz öz müstəqilliyinizi 90 il bundan əvvəl əldə etmisiniz. Ondan əvvəlki dövrdə uzun illər sizin xalqınız müstəqil olmayıb, başqa xalqların tabeliyində olub. Siz müstəqilliyin dadını yaxşı bilirsiniz və ötən 90 ildə çox işlər görmüsünüz. Ona görə də mənim ən birinci təəssüratım ondan ibarətdir ki, siz öz müstəqilliyinizi möhkəm qorumusunuz. Bu məni çox sevindirir.

Azərbaycan öz müstəqilliyinin beşinci ilini yaşayır. Təsəvvür edin, bu müstəqillikdən ötrü biz nə qədər həsrət çəkmişik, nə qədər həsrətlə, intizarla bunu gözləmişik. Fəxr edirik ki, nəhayət, buna nail olmuşuq və müstəqilliyimizi hər şeydən üstün tuturuq, hər şeydən yüksək qiymətləndiririk. Ola bilər ki, gələcəkdə biz müxtəlif çətinliklərlə qarşılaşaq, nəyi isə itirək, nəyi isə əldə edək. Amma müstəqilliyimizi heç vaxt əldən verməyəcəyik. Biz müstəqilliyimizi sizin kimi, bəlkə sizdən də çox əzmlə qoruyub saxlayacağıq. Bu amil də bizi çox doğmalaşdırır və bu, bütün sahələrdə – həm iqtisadiyyat, həm də digər sahələrdə bərabərhüquqlu əməkdaşlıq etməyimiz üçün çox gözəl əsasdır.

Burada biz özümüzü çox sərbəst hiss edirik. Sizin qonaqpərvər münasibətiniz özümüzü belə sərbəst hiss etməyimizə şərait yaradır. Biz buradan çox gözəl hissiyyatlarla Azərbaycana dönürük. Ölkənizi tərk edərkən mən sizin xalqınıza, ölkənizə, şəxsən sizlərə səadət və xoşbəxtlik arzu edirəm. Norveç xalqının xoşbəxt gələcəyi naminə badə qaldırmağınızı rica edirəm.

## QƏRBİ AVROPA ÖLKƏLƏRİNƏ SƏFƏRDƏN QAYITDIQDAN SONRA RESPUBLİKA MİLLİ TELEVİZİYASINA MÜSAHİBƏ

*27 aprel 1996-cı il*

**H e y d ə r  Ə l i y e v :** Bu səfər çox vaxt alsa da, hesab edirəm ki, səfər zamanı görülən işlər həqiqətən çox dəyərlidir. Bilirsiniz ki, aprelin 21-dən, yəni Bakıdan yola düşəndən bəri bu səfər zamanı çox gərgin iş olub. Bu da birinci növbədə hər bir imkandan istifadə edib Azərbaycanın mənafelərini təmin etmək üçün lazımi tədbirlər görməklə əlaqədar idi. Bu səfərin birinci hissəsi Azərbaycan Respublikasının Avropa Birliyi ilə əməkdaşlıq və tərəfdaşlıq haqqında sazişi imzalaması ilə bağlı idi. Biz bu sazişi imzaladıq. İmzalanma mərasimi çox böyük hadisə idi.

Bilirsiniz ki, Avropa Birliyinə daxil olan dövlətlərin xarici işlər nazirləri orada idi. Bu, həm də məhz Azərbaycanın və digər Zaqafqaziya respublikaları – Gürcüstanın, Ermənistanın Avropa Birliyi ilə saziş imzalaması mərasimi ilə əlaqədar idi. Bir daha deyirəm, bu, tarixi hadisədir. Hesab edirəm ki, bu sazişin imzalanması müstəqil dövlət kimi, Azərbaycanın mövqelərini daha da möhkəmləndirir, eyni zamanda respublikamızın daxili, ictimai-siyasi həyatında, iqtisadiyyatında və başqa sahələrdə Avropa demokratiyasına uyğun tədbirlərin həyata keçirilməsinin təzahürüdür. Xatirinizdədir ki, orada olan çıxışlarda Avropa Birliyinin nümayəndələri, üzvləri də bunu qeyd edirdilər. Mən bunu çox yüksək qiymətləndirirəm. Hesab edirəm ki, bu, Azərbaycanın həyatında böyük hadisədir. Avropa Birliyi ilə əməkdaşlıq etməyimiz üçün çox dəyərli bir addımdır. Şübhəsiz ki, bunun müsbət nəticələri olacaqdır. Bununla yanaşı, biz Lüksemburqda bir neçə başqa görüş də keçirdik. Əməkdaşlığımızın bugünkü vəziyyəti və gələcək perspektivləri haqqında Brüsseldə Avropa Birliyinin iqtisadi komissiyasının sədri Jak Santerlə, ali komissar Van-Den Brukla danışıqlar apardıq. Bunlar da çox əhəmiyyətlidir. Çünki bunların hamısı Avropa Birliyi ilə çoxsahəli əməkdaşlıq aparmaq üçün lazım olan tədbirlərdir. Xüsusən Jak Santerlə və Van-Den Brukla apardığımız danışıqlarda iqtisadi əməkdaşlığımız, yəni Avropa Birliyinin TASİS, Traseka Proqramı, Humanitar yardım proqramı ilə nəzərdə tutulan tədbirlər və onların həyata keçirilməsi məsələsi müzakirə olundu. Bu da çox əhəmiyyətlidir. Hesab edirəm ki, bunlar hamısı bir yerdə, kompleks halda Azərbaycan ilə Avropa Birliyi arasında əməkdaşlığın irəli getməsini nümayiş etdirir.



Mən Brüsseldə NATO-nun baş qərargahında oldum, NATO-nun Baş katibi ilə görüşdüm. 1994-cü ilin may ayında orada olmuşdum və NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramını imzalamışdım. Ancaq biz bundan sonra da əməkdaşlığımızı davam etdirmişdik. Bu əməkdaşlığı daha da təsdiq etmək üçün həmin proqram çərçivəsində respublikamızın prezentasiya sənədini mən onlara təqdim etdim.

Hesab edirəm ki, NATO-nun baş katibi ilə danışığımız da çox məzmunlu, əhəmiyyətli oldu. Azərbaycanın müstəqilliyinin qorunub saxlanması üçün fikirlərimi mən ona bildirdim. Biz geniş fikir mübadiləsi apardıq. Bu da bizim üçün çox əhəmiyyətlidir.

**M ü x b i r :** Cənab Prezident, NATO ilə respublikamızın münasibətləri bəzən çoxlarında belə təsəvvür yaradır ki, – bu, müəyyən istəkdən də irəli gəlir, – NATO ilə Azərbaycan arasında sıx əməkdaşlıq yaranıb. Amma yəqin ki, əslində, bunlar ilk təmaslardır, əməkdaşlığın bünövrəsi qoyulur.

**H e y d ə r  Ə l i y e v :** Bəli, əməkdaşlığın bünövrəsi qoyulur. Çünki NATO-nun 1994-cü ildə elan etdiyi «Sülh naminə tərəfdaşlığ»a çağırış, sülh naminə çağırışdır. NATO-nun Baş katibi ilə danışıqlarımızın da məzmunu, mənası ondan ibarətdir ki, Azərbaycanın NATO-nun bu proqramına qoşulması və əməkdaşlıq etməsi Avropada, o cümlədən bizim regionda sülhün daha da möhkəmləndirilməsinə nail olmaq məqsədi daşıyır. Bunlar sülh məramlı danışıqlardır. Mən hesab edirəm, bunu belə də qəbul etmək lazımdır. Şübhəsiz ki, əməkdaşlığımızı bu istiqamətdə bundan sonra da davam etdirəcəyik.

Lüksemburqda, Brüsseldə mənim ikitərəfli görüşlərim də oldu. Almaniyanın xarici işlər naziri cənab Kinkel ilə danışıqlarımız çox əhəmiyyətli, maraqlı oldu. Ermənistan prezidenti Levon Ter-Petrosyan ilə mənim Lüksemburqdakı görüşüm çox lazımlı bir görüş idi. Bu görüş hər iki tərəfin – həm Ermənistanın, həm də Azərbaycanın təşəbbüsü ilə oldu. Bu görüş və danışıqlar – münaqişədə olan iki ölkənin prezidentləri arasında birbaşa danışıqlar, – nəticəsində biz ilk dəfə olaraq birgə bəyanat elan etdik. Bu bəyanat çox əhəmiyyətlidir. Ona görə əhə-

miyyətlidir ki, birincisi, biz bəyan etdik ki, hər iki tərəf atəşkəs rejiminin qorunub saxlanmasını bundan sonra da təmin edəcəkdir. Bilirsiniz ki, mayın 12-də bu sazişin imzalanmasının iki ili tamam olur. Bu çox vacibdir ki, biz atəşkəsin qorunub saxlanmasını bir daha bəyan edək və biz də arxayın olaq ki, Ermənistan da buna riayət edəcəkdir. Şübhəsiz, Ermənistan da narahatdır və onlar da istəyirlər bilsinlər ki, biz bu atəşkəsə riayət edəcəyik, yoxsa yox.

İkincisi, biz bəyan etdik ki, ikitərəfli danışıqlar davam edəcəkdir və bu məsələnin həll edilməsi yalnız sülh yolu ilə ola bilər. Bu da çox əhəmiyyətlidir. Biz bəyan etdik ki, bunun üçün danışıqları həm ATƏT-in Minsk qrupu çərçivəsində, həm də birbaşa davam etdirəcəyik. Bilirsiniz ki, Ermənistan ilə Azərbaycan arasında birbaşa danışıqlar da var və bu da davam edəcəkdir.

Sonra biz qərara gəldik ki, əsirlər iki tərəfdən də – onlarda da, bizdə də olanlar azad olunmalıdır. Əsirlər sayına görə yox, kimdə nə qədər var – «Hamını hamıya» prinsipi ilə verilməlidir. Bu da çox əhəmiyyətlidir. Mən hesab edirəm ki, bu görüş və bu birgə bəyanat indiki mərhələdə bizim üçün lazımdır. Bu, dünyaya bir daha nümayiş etdirir ki, ağır zərbələr almasına baxmayaraq, Azərbaycan yenə də sülhsevər siyasət aparır, sülh yolu ilə gedir, məsələni sülh yolu ilə həll etmək istəyir.

Mənim Brüsseldə Gürcüstan prezidenti Eduard Şevardnadze ilə də görüşüm oldu. Bu görüş Gürcüstan ilə Azərbaycan arasında olan dostluq əlaqələrinin yeni bir təzahürüdür. Mən mart ayında Gürcüstanda səfərdə olmuşdum, biz çox əhəmiyyətli danışıqlar aparmışdıq və dəyərli sazişlər imzalamışdıq. Biz bunları bir daha nəzərdən keçirdik. Görüşdə təkcə Gürcüstan-Azərbaycan əlaqələri yox, bütün regionda olan vəziyyət, o cümlədən dünyanın və Müstəqil Dövlətlər Birliyinin problemləri ilə əlaqədar geniş danışıqlar apardıq. Mən bunu da çox əhəmiyyətli hesab edirəm.

Şübhəsiz ki, Brüsseldə başqa görüşlər də olub. Bilirsiniz ki, mən Brüsseldə ticarət mərkəzinə, o cümlədən ABŞ-ın oradakı ticarət mərkəzinə də getdim. Digər görüşlərim də oldu. Mən bunların hamısını çox əhəmiyyətli hesab edirəm. Ancaq bir neçə məqam üzərində dayandım.

Norveçə isə rəsmi səfərə getmişdim. Bu səfər Norveçin baş naziri xanım Brundtlandın dəvəti ilə idi. Mən bu dəvəti çoxdan almışdım, onun vaxtını elə müəyyənləşdirdim ki, Avropa Birliyinə səfərimlə eyni zamanda olsun ki, vaxta qənaət edə bilim. Mən hesab edirəm ki, bu səfər də çox uğurludur.



Bizim Norveç ilə əməkdaşlığımız çox səmərəlidir. Deyə bilərəm ki, Norveçdə olarkən apardığım danışıqlar, keçirdiyim görüşlər nəticəsində belə qənaətə gəldim ki, bu əməkdaşlıq, ola bilər, Azərbaycanda hələ təsəvvür edilməyən qədər səmərəlidir. Ola bilsin ki, bu əməkdaşlığın bu gün və gələcək üçün nə qədər əhəmiyyətli olduğunu ictimaiyyətimiz hələ o qədər də bilmir. Yəqin ki, siz bu görüşlər, danışıqlar haqqında məlumat verdikdən sonra ictimaiyyətimiz bunu biləcək və hesab edirəm, bunun nə qədər əhəmiyyətli olduğunu dərk edəcəkdir. Mən bunu xüsusi qeyd etmək istəyirəm.

İlk dəfədir ki, Norveçlə Azərbaycan arasında birbaşa sazişlər imzalanıb. Biz baş nazir xanım Brundtland ilə Norveç və Azərbaycan arasında əməkdaşlıq haqqında bəyanat imzaladıq. Bu, çox mühüm bir bəyanatdır. Başqa sazişlər də imzalandı. Yəni Norveç ilə Azərbaycan arasında əlaqələr indiyədək sadəcə iqtisadi əlaqələr səviyyəsində idisə, indi isə dövlətlər arasındakı əlaqələr səviyyəsinə qaldırıldı. Əgər indiyədək bizim əməkdaşlığımız iki ölkənin ayrı-ayrı şirkətləri ilə əlaqələr səviyyəsində idisə, indi bu, dövlətlərarası səviyyəyə qalxdı. Bu, çox əhəmiyyətlidir.

Bilirsiniz ki, Norveç Avropanın həm iqtisadi cəhətdən inkişaf etmiş, həm də iqtisadiyyatın demokratiya prinsipləri əsasında qurulması sahəsində çox nailiyyətlər əldə etmiş bir ölkəsidir. Norveçin xüsusiyyətlərindən biri də budur ki, bu dövlətdə bazar iqtisadiyyatı prinsipi ölkənin əhalisinin sosial vəziyyətinin inkişafı ilə çox sıx bağlıdır. Bu, Avropanın başqa ölkələrindən fərqlidir. Burada sosial problemlərə çox böyük qayğı, diqqət göstərilir və nailiyyətlər çoxdur. Ona görə də indiki mərhələmizdə biz respublika əhalisinin sosial problemləri ilə ciddi məşğul olarkən mən bu təcrübənin çox əhəmiyyətli olduğunu qeyd etmək istəyirəm.

Şübhəsiz ki, Norveçdə neft-qaz sənayesi sahəsində əldə olunan nailiyyətlər çox maraqlıdır. Stavanger şəhərində, Stavangerdən 240 kilometr məsafədə dənizin ortasındakı platformada gördüklərimiz məni çox heyran etdi. Bu, çox əhəmiyyətlidir. Çünki 25-30 il ərzində neft və qaz istehsalı sahəsində, dənizin dərinliyindən neftin, qazın çıxarılması və ondan istifadə edilməsi sahəsində əldə olunmuş nailiyyətlər çox yüksək qiymətə layiqdir.

**M ü x b i r :** Cənab Prezident, Siz Norveçdə olarkən bu platformanı möcüzə adlandırdınız. Azərbaycan Prezidenti, yəni neft sənayesi ilə çox bağlı olan bir adam bunu möcüzə adlandırır. Bunun möcüzəliyi nədən ibarətdir?

**H e y d ə r Ə l i y e v :** Bunun möcüzəliyi ondadır ki, birincisi, bu, suyun dərinliyi çox olan sahədə yerləşən bir platformadır. İkincisi, bu platforma elə bir qurğudur ki, orada hər bir şey yaradılmışdır. Üçüncüsü, orada çox yüksək texnika, texnologiya tətbiq edilib, hər şey elektronika vasitəsilə idarə olunur. Məsələn, təsəvvür edin ki, ildə altı milyard kubmetr qaz istehsal olunan bir platformada onu idarə edən cəmisi 51 adam işləyir. Bilirsiniz, bu çox yüksək nailiyyətdir.

**M ü x b i r :** Deməli, həm də öyrənməyə çox şey var.

**H e y d ə r Ə l i y e v :** Bəli, öyrənməli çox gözəl şeylər var. İndi biz imzaladığımız müqavilələr əsasında quracağımız platformalar məhz belə platformalar olacaqdır. Ola bilər, biz onu təkrar etməliyik, o cür qurğu qurmalıyıq. «Statoyl» şirkəti ilə yanaşı, o platformanı quran şirkətlərin hamısı məhz Norveçdə yerləşir. Mən onlarla da görüşdüm. Yəni bu platformanı təkcə neft istehsal edən şirkət qurmur. Bu platforma bir çox şirkətlərin birgə əməyinin nəticəsində yaranıb. Bu, kompleks inteqrasiyadır. Ona görə də bu, mənim üçün çox maraqlıdır, ona görə də, bu, möcüzədir.

Vaxtilə biz də möcüzələr yaratmışıq. Məsələn 20-30 il bundan əvvəl Neft Daşlarına dünyada möcüzə deyirdilər. Amma indi onlar Neft Daşlarında olan nailiyyətləri çoxdan ötüb keçiblər. Təkcə Neft Daşları deyil. Bizdə də platformalar qurulubdur. Amma biz bu səviyyəyə hələ gəlib çatmamışıq. Mən belə platformaları 15 il bundan əvvəl Meksika körfəzində görmüşdüm. Ancaq bu ondan da yüksəkdir, üstündür. Ona görə də möcüzədir.

Ola bilər, gələcəkdə Xəzər dənizində biz bundan da möcüzəli bir şey yaradaq. Ancaq bu gün biz sadəcə olaraq bu təcrübədən istifadə etməliyik. Ona görə də Norveçdəki görüşlərimiz çox əhəmiyyətlidir. Həm baş nazir, həm parlament sədri, həm kral ilə, həm də nazirlərlə görüşlərim çox maraqlı, məzmunlu, əhəmiyyətli oldu. O cümlədən Oslo şəhəri ilə yanaşı, Stavangerdə bir çox şirkətlərlə görüşlərim oldu. Mən dünən iş adamları ilə çox ətraflı söhbət etdim, onların qarşısında çıxış etdim. Azərbaycanın bugünkü iqtisadi imkanları haqqında geniş məlumat verdim, onları respublikamıza sərmayə qoymağa dəvət etdim.



Mən onlarda Azərbaycana olan çox böyük marağı hiss etdim. Bu, onu göstərir ki, Azərbaycan ilə Norveç arasındakı əlaqələrin geniş imkanları və böyük perspektivləri var.

Ümumiyyətlə, bu ölkə mənim çox xoşuma gəldi. Ərazisi böyük, amma əhalisi az olan bir ölkədir. Eyni zamanda Avropada yerləşən, keçmişdə çox kasıb, bu gün isə çox zəngin olan bir ölkədir. Yəni qısa müddətdə kasıblıqdan zənginliyə keçmək, demokratiyanı inkişaf etdirmək, yüksək texnologiyanı mənimsəmək və ondan istifadə etmək çox maraqlıdır. Təsəvvür edin, burada 800-ə qədər su elektrik stansiyası var. Ölkədə istifadə edilən elektrik enerjisi bu stansiyalarda istehsal olunur. Şübhəsiz ki, bizdə bu qədər çaylar və bu qədər su elektrik stansiyası tikmək imkanı yoxdur. Biz Kür üzərində «Yenikənd» Su Elektrik Stansiyasını tikmək istəyirik. Bunun üçün Avropa Yenidənqurma və İnkişaf Bankından kredit almışıq. Norveç şirkətləri platformanın tikilməsində bizə çox kömək edə bilərlər. Onlar belə bir əməkdaşlığa maraq göstərirlər. Yəni demək istəyirəm ki, biz onlarla həm iqtisadi, həm də ümumxalqlar, millətlər, dövlətlər arasında əməkdaşlıq edə bilərik və bu, bizim üçün çox əhəmiyyətli olar.

Bütün bu səfərimin, görüşlərimin müsbət nəticələrindən biri ondan ibarətdir ki, Avropanın inkişaf etmiş bu dövlətlərində – həm Lüksemburqda, həm Belçikada, həm də Norveçdə Azərbaycanın demokratiya sahəsində əldə etdiyi nailiyyətləri qiymətləndirirlər. Bütün çıxışlarda, məsələn, xanım Brundtlandın, yaxud Jak Santerin çıxışlarında və başqa çıxışlarda Azərbaycana olan münasibət, respublikamızda demokratik dövlətin qurulması və demokratiyanın inkişaf etdirilməsi qeyd olundu. Nailiyyətlərimiz, iqtisadiyyat sahəsindəki potensial imkanlarımız onları cəlb edir və onlar bu sahədə əldə etdiyimiz nailiyyətləri yüksək qiymətləndirirlər. Bu da həm Avropa Birliyi ilə, həm də Avropanın demokratik dövlətləri ilə Azərbaycan arasında münasibətlərin inkişaf etdirilməsi üçün çox yaxşı əsasdır.

Ümumiyyətlə, mən bu səfərimdən və görüşlərimdən çox məmnunam. Hesab edirəm ki, Azərbaycanın dünya miqyasında, xüsusən Avropa qitəsində mövqelərinin möhkəmləndirilməsi, respublikamızın geniş miqyasda tanınması üçün lazımi qədər iş görülübdür və bunlar da hamısı dövlət müstəqilliyimizin möhkəmlənməsinə kömək edə bilər. Sağ olun.

## MƏŞHƏD HAVA LİMANINDA İRAN MİLLİ TELEVİZİYASININ MÜXBİRİNƏ MÜSAHİBƏ

*12 may 1996-cı il*

**S u a l :** Cənab Prezident, İran ilə Türkmənistanı birləşdirən dəmiryolunun çəkilməsi qədim İpək Yolunun yenidən bərpası deməkdir. Siz bu hadisəni necə qiymətləndirirsiniz?

**C a v a b :** Mən bu hadisəni, bu işdə əməyi olan şəxslərin göstərdikləri hünəri çox yüksək qiymətləndirir, onlara hörmət və ehtiramımı bildirirəm. Hesab edirəm ki, yenidən dirçəldilən İpək Yolu hökmən Azərbaycandan da keçməlidir. Çünki, qədim İpək Yolu həm də Azərbaycandan keçirdi. Biz İpək Yoluna yeni əməkdaşlıq kimi baxırıq. Bu yol ölkələrimiz arasında iqtisadi inteqrasiyanın daha da dərinləşməsinə xidmət edəcəkdir.

**S u a l :** Bu layihədə Azərbaycanın xeyri nədən ibarət olacaqdır?

**C a v a b :** Birincisi, o, xalqlarımız, ölkələrimiz arasında ticarət, nəqliyyat əlaqələrini daha da ğücləndirəcəkdir. İkincisi, Azərbaycanın, Qafqazın İranla, Orta Asiya ölkələri və başqa ölkələrlə əlaqələrini daha da genişləndirəcəkdir. Bu da ölkələrimizin iqtisadi inkşafına kömək edəcəkdir.

**S u a l :** İran-Azərbaycan münasibətlərinin hazırkı vəziyyətini necə qiymətləndirirsiniz? Prezident Rəfsəncani ilə ayrıca görüşünüz olacaqmı?

**C a v a b :** Mən İran ilə Azərbaycan arasındakı münasibətlərin indiki vəziyyətini çox müsbət qiymətləndirirəm. O mənada ki, İran və Azərbaycan qonşu, dost dövlətlərdir, xalqlarımız da dost və qonşudurlar, qardaş xalqlardır. Eyni ənənələrə, eyni dinə mənsub olan xalqlarıq. Bunlar hamısı bizim münasibətlərimizin daim müsbət olmasını tələb edir və Allaha şükürlər olsun ki, bu, belədir. Ancaq mənim arzum, istəyim ondan ibarətdir ki, bu əlaqələr daha da geniş, dərin və daha da yüksək səviyyədə olsun. Hesab edirəm ki, coğrafi mövqeyimizə, tarixi ənənələrimizə görə və başqa səbəblərə görə İran ilə Azərbaycan arasında əlaqələr bundan da yaxşı olmalıdır.

İran İslam Respublikasının prezidenti, dostum ağayi Haşimi Rəfsəncani ilə çoxdandır görüşməmişəm, darıxmışam. Şübhəsiz ki, onunla xüsusi görüşməyə ehtiyacım var.



## MDB ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ TOPLANTISINDA İŞTİRAK ETMƏK ÜÇÜN MOSKVAYA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*16 may 1996-cı il*

**S u a l :** Cənab Prezident, MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının qarşıdakı Zirvə toplantısında hansı məsələlər müzakirə olunacaqdır?

**C a v a b :** İnteqrasiya proseslərinin inkişaf etdirilməsi ilə əlaqədar məsələ orada müzakirə ediləcək ən böyük məsələlərdən biridir. Zirvə toplantısında, bundan əlavə, daxili işlər nazirliklərinin təşkilatını yaratmaq, cinayətkarlığa qarşı mübarizəni gücləndirmək və digər məsələlər müzakirə ediləcəkdir. Belə məsələlərdən biri də Rusiyada demokratik islahatların müdafiə edilməsi barədə MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının qəbul edəcəyi bəyanatdır. Başqa məsələlər də var. Hesab edirəm ki, bu görüş çox əhəmiyyətli olacaqdır.

**S u a l :** Cənab Prezident, respublikamız təklif edilən inteqrasiya prosesinə qoşulacaqdırmı?

**C a v a b:** Biz umumiyyətlə, inteqrasiyanın tərəfdarıyıq. Ancaq bu inteqrasiyanın hansı hissəsini qəbul etməyimiz, hansı hissəsini qəbul etməməyimiz başqa məsələdir. Əlbəttə, inteqrasiya olmalıdır və bunsuz yaşamaq mümkün deyil. MDB üzvü olan ölkələr arasında inteqrasiya bizim üçün çox əhəmiyyətlidir. Amma inteqrasiyanın iqtisadi tərəfi və bunun da bəzi sahələri – hansına biz qoşula bilərik, hansına qoşula bilmərik – var. Biz bu məsələlərə fərdi baxırıq.

**S u a l :** Cənab Prezident, Sizin göstərişinizə əsasən «Mayak» radiostansiyasının verilişləri Azərbaycan ərazisində yenidən yayılır. Buna görə radiostansiyanın dinləyiciləri adından Sizə təşəkkürümü bildirirəm. Siz Azərbaycanın digər dövlətlərlə inteqrasiyası yolunda atılmış son addımları necə qiymətləndirirsiniz? Məlumdur ki, artıq bir neçə hökumətlərarası saziş imzalanmışdır.

**C a v a b :** Ümumiyyətlə, ikitərəfli sazişlər çox əhəmiyyətlidir. Biz belə sənədləri imzalamışıq və imzalayırıq. Bir daha deyirəm ki, biz MDB çərçivəsində həm də inteqrasiya prosesləri ilə bağlı olan bir çox proqramlarda fəal iştirak edirik.

## «OQONYOK» JURNALI MÜXBİRLƏRİ İLƏ MÜSAHİBƏ

**– Cənab Prezident, Siz Azərbaycanda hakimiyyətə gələndə müharibə aparan, iqtisadiyyatı dağılmış, separatçılığın hökm sürdüyü, Rusiya ilə əslində düşmənçilik münasibətləri olan bir respublikanı qəbul etmişdiniz. İndi bu problemlər ya həll edilmişdir, ya da əvvəlki kimi böhranlı vəziyyətdə deyildir. Buna necə nail olmağın siyasi yolları barədə fikirlərinizi bölüşdürün.**

– Burada hansısa bir konkret yol yoxdur. Respublikamız yaxşı respublikadır, xalqımız yaxşı xalqdır və təxminən səksəninci illərin ortalarından 1993-cü ilə qədər, mənim yenidən qayıdıb hakimiyyətin yüksək məsuliyyətini öz üzərimə götürdüyüm vaxtadək olanların hamısına yol verməmək olardı. Deməliyəm ki, üzərimə çox yüksək məsuliyyət götürmüşəm. Axı, mən 1982-ci ildə Azərbaycandan getdiyim dövrdən çox vaxt keçibdir.

Mən respublikanı çox yaxşı vəziyyətdə qoyub getmişdim. Həmin o 70-ci illərdə Azərbaycan bütün müttəfiq respublikalar arasında hər cəhətdən yaxşı olması ilə seçilirdi, özü də təkcə iqtisadi göstəricilərə görə yox. Burada vəziyyət də, mühit də yaxşı idi. Məsələn, indi korrupsiya ilə hamı mübarizə aparır. İndi heç kim demir ki, korrupsiya yoxdur. Ancaq o vaxtlar Sovetlər İttifaqında belə halın olduğunu etiraf etməyə qorxurdular. Mən isə bəyan etdim ki, Azərbaycanda rüşvətxorluq, korrupsiya var və bunlara qarşı mübarizə aparmaq lazımdır. Yəni, Azərbaycan açıqlıq baxımından, aşkarlıq baxımından müsbət mənada fərqlənirdi.

Respublika yaxşı vəziyyətdə idi...

Buyurun, bu da sizə birinci yol, ancaq kollektivi də, ailəni də, respublikanı da, ölkəni və xalqı da idarə etməkdən çox şey asılıdır.

Sonralar bizdə proseslər o qədər mənfi getdi ki, Azərbaycan son dərəcə böhranlı vəziyyətə düşdü.

1993-cü il üçün iqtisadiyyat dağılmışdı, xalq çox ağır vəziyyətdə idi. Respublika müharibə vəziyyətində idi, ərazimizin bir hissəsi işğal olunmuşdu, hərc-mərclik, özbaşınalıq, parçalanma hökm sürürdü. Bunları siz bilirsiniz.

Bunun qarşısını necə almaq mümkün oldu?

Hesab edirəm ki, birincisi, xalqın etimadıdır. O etimad ki, məni gözdən salmaq üçün bir çox illər edilən cəhdlərə baxmayaraq, xalq bu etimadı daim mənə göstərirdi. Məlum oldu ki, yalnız az bir qism adam öz şəxsi hikkələrinə görə mənə mənfi münasibət bəsləyirmiş. Xalqın böyük əksəriyyəti, hətta deyərdim ki, hamısı həmin ədalətsiz münasibətlə razı deyildi. Hətta mən Moskvada yaşayan illərdə də yanıma çox adamlar gəlirdi, mənə müraciət edir, məktub yazırdılar.



Yəni, öz əməyimlə, öz işimlə və insanlara qarşı münasibətimlə qazana bildiyim məhz həmin etimad qısa müddətdə respublikanı böhrandan çıxara bilməyimin əsası olmuşdur.

İkinci cəhət isə, şübhəsiz ki, təcrübədir.

Kim deyirsə ki, küçədən gələn hər kəs dövləti idarə edə bilər, səhv edir. İdarəetmə təcrübəsi prinsip etibarilə eynidir. Vaxtilə həmin müttəfiq respublikanı, indi də müstəqil ölkəni idarə etməyim – bunlar bir çox cəhətdən oxşar şeylərdir. Ona görə də uzun həyatım dövründə həm Azərbaycanda, respublikaya rəhbərlik etdiyim dövrdə, həm də Moskvada, Sovetlər İttifaqının rəhbərlərindən biri olduğum dövrdə topladığım təcrübə, çox böyük məktəb, çox böyük təcrübə idi. Şübhəsiz ki, bu, indi məsələlərin həllində mənə kömək edibdir.

Daha bir amil də var. Mən bunu müxtəlif ölkələrdə olanda hiss edirəm: məni tanıyırlar, vaxtilə görüşdüyüm, nə vaxtsa danışıqlar apardığım adamlar məni xatırlayırlar. Bəziləri isə məlumat kitablarına baxırlar ki, Əliyev Siyasi Büronun üzvü, SSRİ-nin rəhbərliyində olubdur, açıq deyirəm, hətta o ölkələrdə də, hansı ki, vaxtilə Sovetlər İttifaqı onlarla müxtəlif ideoloji cəbhədə idi, keçmişdəki münasibətdən asılı olmayaraq, fövqəldövlət kimi onun haqqında rəy indi də qalır. İnsanlar arasındakı münasibətlər dövlətlər parçalandıqdan sonra da qalır. Ona görə mənə də nəzərə çarpdırılan ehtiram bəsləyirlər. Məsələn, Rusiya ilə münasibətləri bərpa etmək məndən ötrü heç bir çətinlik törətmədi. O vaxtlar Sovetlər İttifaqında işləyən adamların tam əksəriyyəti indi də Rusiyada müxtəlif sahələrdə işləyir. Ona görə mənim onlarla indi də əlaqələrim var.

**– Sizin sözlərinizdə sanki SSRİ barədə həsrət səsləndi?**

– SSRİ barədə həsrət yoxdur. Mən hesab edirəm ki, Sovetlər İttifaqının dağılması qanunauyğun proses idi. Bu, reallıq idi. Bu, labüd idi. Bu prosesin qarşısını almaq çətin idi.

Ancaq birlikdə işlədiyimiz adamlar, şərait, görüşlər barədə həsrət var... Şübhəsiz ki, mən bunların hamısını xatırlayıram. Böyük səmimiyyətlə, böyük hörmətlə xatırlayıram. Hər halda, bu mənim də həyatımdır.

Lakin Azərbaycanın müstəqilliyi heç vaxt sual altına alınmayacaq, biz heç vaxt başqa dövlətə birləşməyəcəyik.

**– MDB-nin üzvü olan bəzi dövlətlər başqa cür düşünürlər...**

– Bilirsiniz ki, Azərbaycan əvvəllər MDB-yə daxil deyildi.

Mən bir neçə ay inandırmalı və ümumiyyətlə, möhkəm iş aparmalı oldum ki, təkcə parlamentin deyil, həm də ictimai rəyin razılığına nail olum. İnsanları inandırmaq lazım idi ki, Azərbaycan MDB-yə daxil olmalıdır. Mən də bunu etdim, buna nail oldum.

Mən bu ittifaqı, bu birliyi çox vacib hesab edirəm. Ancaq bu, məhz birlik, müstəqil dövlətlərin birliyi olmalıdır. Öz adına tam uyğun olmalıdır. Mən MDB çərçivəsindəki görüşlərimizdə demişəm: yalnız yaxşı mexanizm, məhz birliyə lazım olan, ancaq bir-birinin müstəqilliyinə toxunmayan səmərəli fəaliyyət mexanizmi işləyib hazırlamaq lazımdır. Mən belə MDB-yə tərəfdaram.

İndi isə birliyin nə üçün belə vacib olması barədə. İş bundadır ki, MDB tərkibində olan ölkələrin hamısı eyni bir yolu keçir. Bəziləri bir qədər irəlidə, başqaları geridədir, lakin biz hamımız keçid dövrünün eyni yolundayıq. Çünki biz hamımız iqtisadi cəhətdən bir-birimizlə çox sıx bağlı olmuşuq. Əgər Sovetlər İttifaqının həmin inteqrasiyasını, iqtisadi inteqrasiyasını Müstəqil Dövlətlər Birliyinə keçirmək mümkün olsaydı, bu, çox gözəl olardı. Mən belə MDB-yə və belə prosesə tərəfdaram.

**– Bu prosesdə Rusiyanın rolunu necə görürsünüz?**

– Siz bilirsiniz, mən hər şeydən öncə ölkələr arasında, o cümlədən MDB tərkibindəki ölkələr arasında ikitərəfli münasibətlərin olmasını zəruri və vacib hesab edirəm. Yəni MDB-yə daxil olmaq dövlətlər arasındakı ikitərəfli münasibətlərin inkişafını istisna etmir, əksinə, nəzərdə tutur. Ona görə də mən Rusiya ilə Azərbaycan arasındakı ikitərəfli münasibətlərə çox böyük əhəmiyyət verirəm, şübhəsiz, mən hesab etmirəm ki, bizim münasibətlərimizin səviyyəsi ehtiyaclarımıza – həm də təkcə Azərbaycanın deyil, Rusiyanın da ehtiyaclarına cavab verir. İkitərəfli münasibətlərimizi daha intensiv inkişaf etdirmək üçün tədbirlər görülməsini zəruri sayıram. Rusiya Azərbaycanın əsrlər boyu bağlı olduğu, həm iqtisadi cəhətdən, həm də elm, mədəniyyət, təhsil, humanitar əlaqələr, insani əlaqələr sahəsində bağlı olduğu ən böyük tərəfdaş, ən böyük ölkədir. Biz Sovetlər İttifaqının tərkibində olarkən fərqi yox idi, sən haradansan – Moskvadan, Leninqraddan, Omskdan, Novosibirskdən, yaxud Bakıdan. Hamısı vahid ölkə idi. Neçə illər, neçə onilliklər birlikdə yaşamışdıq... İndi bütün bunları kəsmək, qırmaq, Rusiyanı da, Azərbaycanı da, – eləcə də digər ölkələri, – heç vaxt birlikdə ittifaqda olmayanlar arasında mövcud olan münasibətlərə gətirib çıxarmaq, – bu, mümkün deyildir. Biz iki yüz il Rusiyanın tərkibində, bir dövlətin tərkibində olmuşuq və bu iki yüz il ərzində əlaqələr o qədər çulğaşmışdır ki, bunları qırmaq mümkün deyildir. Heç lazım da deyildir. Əksinə, bir çox başqa ölkələrlə belə əlaqələr yaratmaq mümkün olsaydı, çox yaxşı olardı.



Rusiya ilə münasibətlər – xüsusi münasibətlərdir. İstər iqtisadi əməkdaşlıq baxımından, istərsə də elmi və mədəni dəyərlərin mübadiləsi baxımından, sadəcə olaraq, insanlar arasında münasibətlər saxlamaq baxımından xüsusi münasibətlərdir. Bu, çox mühümdür.

**– Həyatınızda ən ağır məqam hansı olmuşdur?**

– Həyatımın ən ağır dövrü Naxçıvanda olmuşdur. Azərbaycana qayıtmağım qeyri-adi xarakter daşıyırdı. Mənim qayıtmağıma Azərbaycanda da mane olurdular, Moskvada Sovetlər İttifaqının rəhbərləri də mane olurdular. Moskvada məndən ötrü ümumiyyətlə, dözülməz şərait yaradılmışdı – mən əslində, cəmiyyətdən təcrid edilmişdim, ciddi nəzarət altında idim, ev dustağı idim.

Mənə Bakıda da çətin idi. Naxçıvana getməli oldum. Orada da asan deyildi. Birincisi, bu respublika özü blokada vəziyyətində idi. Paytaxtla və Azərbaycanın digər bölgələri ilə normal əlaqə yox idi. Blokada vəziyyəti bir çox mühüm həyati amillərin olmamasını da şərtləndirmişdi – elektrik enerjisi yox idi, su, qaz çatışmırdı. Vaxtilə Naxçıvana da, Dağlıq Qarabağa da qazı mən çəkdirmişdim.

İlk vaxtlar yaşamağa yerim də yox idi, qohumlarımın yanında qalırdım, mənzil şəraiti çox çətin idi. Mən orada bir ildən çox adi sakin kimi yaşadım. 1991-ci ilin sentyabrında isə xalq qalxdı və tələb etdi ki, mən Naxçıvan Respublikasının Ali Sovetinə başçılıq edim. Yəni əslində, respublikanın başçısı olum. Düzünü deyirəm, mən bunu heç də istəmirdim. Lakin bir neçə gün böyük mitinqlər keçirildi, məni razı salmaq istəyirdilər. Sonra hiss etdim ki, Naxçıvan xalqı üçün həyatın ən ağır dövründə bu yükü öz üzərimə götürməliyəm.

Lakin hətta bu ağır həyatda da mən özüm üçün maraqlı və sevindirici olan çox şey tapırdım, yenə də keçmiş əlaqələrimdən istifadə edirdim. İran və Türkiyə ilə əlaqə yarada bilmişdim. Biz Araz çayı üzərində körpü tikdik, bu, böyük hadisə idi, çünki qısa bir müddətdə, əslində, həyat yolu yaratmışdıq. İrandan elektrik xətti çəkdik, mən bir çox başqa işlər də görə bildim.

Sonra məni Bakıya çağırdılar. Burada artıq vətəndaş müharibəsi gedirdi, bir-birinə atəş açırdılar, hərənin öz silahlı dəstəsi var idi. Qayda-qanun yaratmaq üçün mənə iki il yarım vaxt lazım gəldi.

İndi iki ilə yaxındır ki, xalq əmin-amanlıqla yaşayır. Bəli, insanlar

dörd ildir, çadırlarda yaşayırlar. Siz həmin düşərgələrdə olmuş, qaçqınların vəziyyətini görmüsünüz. Bəli, ağırdır, son dərəcə ağırdır. Lakin bir var, müharibə gedir, bir də var ki, müharibə yoxdur. Tabutlar gətirmirlər, qalan işlərin öhdəsindən gələ bilərik.

**– Siz həyatda nədənsə qorxursunuzmu?**

– Mən indi heç nədən qorxmuram, o zaman da heç nədən qorxmamışam. Buraya gələndə başa düşürdüm ki, ölüm təhlükəsi var. Bu məni qorxutmadı.

**– Siz ən çox nəyi sevirsiniz?**

– Bilirsiniz, mən özümü siyasi fəaliyyətə, öz xalqıma, respublikama həsr etmiş adamam. Respublikamı çox sevirəm. Nə qədər təmtəraqlı səslənsə də, mən hər şeydən çox torpağımı, xalqımı sevirəm. Öz Azərbaycan respublikamı sevirəm. Axıra qədər də onunla bir yerdə olacağam.

O ki qaldı şəxsi həyatıma, hər bir adam kimi, mənim də bağlı olduğum şeylər var. Lakin bu, təkcə mənə və yaxın adamlarıma aiddir.

**– İndiyədək yaşadığınız həyata yekun vurularsa, başlıca hadisə nə olardı?**

– Bilirsiniz, mən bu sual barədə heç vaxt düşünməmişəm, ona görə cavabım o qədər də dəqiq görünməyə bilər. Başlıca hadisə...Buna da müxtəlif cür yanaşmaq olar.

Şəxsi həyatımda evlənməyim, qızımın, oğlumun dünyaya gəlmələri başlıca hadisə olubdur.

Siyasi fəaliyyətimdə isə həyatımda olanlar mənim iradəmdən asılı olmayaraq baş veribdir. Məsələn, məni Siyasi Büronun üzvü, Azərbaycanın rəhbəri seçmiş, o cür böyük ölkənin Nazirlər Soveti sədrinin birinci müavini təyin etmişdilər. Azərbaycanın tarixində belə şey olmamışdı. Ona görə də bu, xalqım üçün tarixi hadisə idi ki, onun övladı belə yüksəyə qalxmışdı. Lakin deyə bilmərəm ki, bu o zaman məndən ötrü böyük sevindirici hadisə idi. Mən hətta oraya getmək istəmir, müqavimət göstərirdim. Respublikadan ayrılmaq məndən ötrü çətin idi. İndi bunların hamısını, bütün həyatımı təhlil edəndə görürəm ki, hər halda bir başlıca hadisə var, o da budur ki, mən Azərbaycanın müstəqilliyini təmin edə bilmişəm. Onu daxili çəkişmələr alovunda, dağıntılar və qan içində məhv olmağa qoymamışam.

***Söhbəti Vasif Səmədov və Aleksandr Sıqanov aparmışlar***
***«Oqonyok» jurnalı, may 1996-cı il***



# AZƏRBAYCAN-ÖZBƏKİSTAN SƏNƏDLƏRİNİN İMZALANMASINDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Prezident Sarayı*
*27 may 1996-cı il*

Hörmətli xanımlar və cənablar! Bu gün səhər Özbəkistan Respublikasının prezidenti hörmətli İslam Kərimovun Azərbaycana rəsmi dövlət səfəri başlanıbdır. Biz səhərdən böyük və səmərəli iş görmüşük, danışıqlar aparılmış, ölkələrimiz arasında əməkdaşlığın gələcək inkişafı məsələləri müzakirə olunmuş, bir çox məsələlərə dair fikir mübadiləsi etmiş və belə bir yekdil rəyə gəlmişik ki, Özbəkistan ilə Azərbaycan arasında əməkdaşlığın inkişafı, müstəqil respublikalarımız arasında, özbək və Azərbaycan xalqları arasında qardaşcasına dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi üçün böyük ehtiyatlar və imkanlar mövcuddur. Biz həmçinin Özbəkistana və Azərbaycana aid olan bir çox məsələlər barədə, o cümlədən regionumuzun problemləri, Özbəkistan, Türkmənistan, Azərbaycan və Gürcüstanın nəqliyyat kommunikasiyalarından fəal istifadə edilməsi barədə, regionlarımızın həyatı və vəziyyəti ilə əlaqədar bir çox digər məsələlərə dair fikir mübadiləsi etdik. Biz beynəlxalq həyat məsələləri, o cümlədən həm Özbəkistanın, həm də Azərbaycanın daxil olduqları MDB-nin fəaliyyəti ilə bağlı məsələlər barədə fikir mübadiləsi apardıq. Müzakirə edilən bütün məsələlərdə baxışlarımızın eyniliyi, bir çox məsələlərdə yekdillik aşkar oldu ki, bu da əməkdaşlığımızın bundan sonra da inkişaf etməsi və möhkəmləndirilməsi üçün yaxşı əsas yaradır.

Danışıqlarımız, söhbətlərimiz zamanı, o cümlədən İslam Abduqəniyeviçlə təkbətək görüşümüz zamanı belə bir yekdil fikrə gəldik ki, əcdadlarımızın, bizdən əvvəlki nəsillərin topladıqları və bizə çatdırdıqları hər nə varsa, bunların əsasında xalqlarımız arasında dostluğu daha da möhkəmləndirmək üçün çox böyük imkanlar mövcuddur. Bütün bu söhbətlər və danışıqlar nəticəsində belə qənaətə gəldik ki, çoxlu sayda dövlətlərarası sənədlərin imzalanması mümkündür. Biz belə hesab edirik ki, bu sənədlər iqtisadiyyatın, elmin, mədəniyyətin müxtəlif sahələrində, həyatın bütün başqa sahələrində əməkdaşlığı təmin etmək üçün yaxşı hüquqi-qa-

nuni əsas yaradır. Hesab edirəm ki, Özbəkistan və Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında müqavilə çox mühüm sənəddir.

Prezident İslam Kərimovun Azərbaycana səfəri müstəqil Özbəkistan Respublikası rəhbərinin Azərbaycana ilk səfəri, iki müstəqil dövlətin prezidentlərinin Azərbaycan torpağında ilk görüşüdür. Ona görə də söhbətlərimiz, danışıqlarımız zamanı belə bir məsələdə tam yekdil idik ki, ölkələrimizin dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkişaf etdirilməsi ən mühüm vəzifədir və bu məsələdə baxışlarımız və fikirlərimiz tamamilə üst-üstə düşür. Biz hesab edirik ki, Özbəkistanın və Azərbaycanın müstəqilliyinin bundan sonra da möhkəmləndirilməsi və inkişafı gələcək əməkdaşlığımızın əsası və etibarlı təminatıdır. Biz bu işdə bir-birimizə kömək göstərməyə söz verdik və imzaladığımız sənədlər bundan ötrü yaxşı əsas yaradır. Bu baxımdan Özbəkistan ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında müqavilədə çox mühüm müddəa var. Şəxsən mən bunu yüksək qiymətləndirir və bəyan edirəm ki, Azərbaycan bu sazişlərə, dostluq və əməkdaşlıq haqqında müqaviləyə sadiq qalacaqdır. Bizim aramızda həll edilməmiş hansısa problem yoxdur və mən gördüyümüz işdən məmnunam. Lakin biz hələ bu gün və sabah da, prezident İslam Kərimov respublikamızdan yola düşənədək işləməliyik. Diqqətinizə görə təşəkkür edirəm.

**S u a l :** Azərbaycan xarici neft şirkətləri ilə müqaviləyə daxil edilən yataqlardan çıxaracağı öz neftini Özbəkistana göndərəcəkmi? Qarabağ probleminin tənzimlənməsində ATƏT-in nə kimi rolu var? Sual İslam Kərimovadır: Özbəkistan ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında müqaviləni Özbəkistan necə həyata keçirmək niyyətindədir, bu sənəd iki dövlət arasında əməkdaşlığın inkişafına nə kimi təkan verəcəkdir? Azərbaycanın problemlərinin həllində ona köməkdən danışarkən Siz nəyi nəzərdə tuturdunuz?

**H e y d ə r Ə l i y e v :** Birinci suala cavab verim. 1994-cü ilin sentyabrında ölkəmiz Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının birgə işlənməsi haqqında böyük müqavilə imzaladı. Müqavilə dünyanın on bir iri şirkətinin – ABŞ, Böyük Britaniya, Norveç, Türkiyə, Rusiya və Səudiyyə Ərəbistanı şirkətlərinin – daxil olduğu konsorsiumla imzalanmışdır. Biz bu müqavilənin həyata keçirilməsi sayəsində çoxlu neft çıxarılacağını gözləyirik. Ona təxminən 8 milyard dollar əsaslı vəsait qoyulacaqdır. Neft çıxarmağa başladıqda Özbəkistanı unutmayacağıq, əlbəttə, onun neftə ehtiyacı olarsa, neftimizi ondan əsirgəməyəcəyik.



O ki qaldı Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması barədə ikinci suala, bilirsiniz ki, bu münaqişə səkkiz ildir davam edir. İki il bundan əvvəl biz barışıq haqqında saziş bağladıq. O vaxtdan bəri döyüş əməliyyatları aparılmır, biz atəşkəs rejimi şəraitində yaşayırıq. Biz bütün bu dövrü məsələnin dincliklə tənzimlənməsinə nail olmaq üçün danışıqlara həsr etmişik. Biz bu gün də məsələnin sülh yolu ilə tənzimlənməsi mövqeyində durmuşuq, hərbi əməliyyatlara yenidən başlanmasının əleyhinəyik. Lakin məsələnin dincliklə nizama salınması Azərbaycanın ərazi bütövlüyünü tamamilə bərpa etməyi nəzərdə tutur. Bildiyiniz kimi, təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizi erməni silahlı birləşmələrinin işğalı altındadır, bu torpaqlardan bir milyon nəfərdən çox Azərbaycan sakini didərgin salınmışdır, onlar çox ağır şəraitdə, əksəriyyəti də çadırlarda yaşayır. Buna görə də məsələnin dincliklə nizama salınmasının əsas şərti erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan rayonlarından çıxarılmasından, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsindən, Azərbaycan vətəndaşlarının öz əvvəlki yaşayış yerlərinə qayıtmasından ibarətdir. Bu zaman biz digər tərəfin də, yəni Ermənistanın, habelə Dağlıq Qarabağın da mənafelərini nəzərə alırıq. Burada erməni millətindən təxminən yüz min adam yaşayır. Dağlıq Qarabağ Azərbaycan ərazisinin bir hissəsidir və Azərbaycanın tərkibində olmalıdır. Buna görə də ərazi bütövlüyündən danışarkən bildiririk ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibindədir və bu məsələ nizama salınarkən biz Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində müasir dünya praktikasında mövcud olan ən yüksək muxtariyyət statusu verməyə hazırıq.

Bu məsələ ilə ATƏT və onun münaqişənin aradan qaldırılması üçün xüsusi olaraq yaradılmış Minsk qrupu məşğul olurlar. Təbii ki, prosesdə digər ölkələr də iştirak edərək, vasitəçilik funksiyalarını həyata keçirirlər. Biz bundan da istifadə edirik, amma ATƏT-in Minsk qrupu bu münaqişənin aradan qaldırılmasında aparıcı rol oynayır. İnanırıq ki, münaqişə dinc yolla aradan qaldırılacaqdır və biz öz tərəfimizdən, buna nail olmağa var qüvvə ilə səy göstəririk.

**İ s l a m K ə r i m o v :** Özbəkistan ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında müqaviləyə gəldikdə, əslinə qalsa, bu, əsas sənəddir və əməkdaşlığımızın prinsipial və başlıca istiqamətlərini göstərir. Zənnimcə, bu sənədi, habelə onun əsasında qəbul ediləcək sənədləri həyata keçirmək üçün hökumətlərarası komissiya yaradacağıq. Komissiya bu sənədin yerinə yetirilməsinə operativ nəzarət edəcək və bu za-

man ortaya çıxan məsələləri operativ həll edəcəkdir. Mənə elə gəlir ki, bütün dövlətlərlə əlaqələrimizdə istifadə etdiyimiz beynəlxalq praktika məqbuldur. Ümidvaram ki, bu, Azərbaycan üçün də məqbul olacaqdır.

O ki qaldı Azərbaycanın qarşılaşdığı problemlərin həllinə maraq göstərməyimizlə bağlı məsələlərə, indi biz münasibətlərimizi möhkəmlətməkdən danışarkən təbiidir ki, Özbəkistan Azərbaycanda sabitlik olmasını, ona Qarabağ problemi nəticəsində vurulmuş yaraların tezliklə sağalmasını ürəkdən istəyir. Biz həmçinin istəyirik ki, Azərbaycan özünün olduqca böyük ehtiyat və insan potensialından, bütün imkanlarından istifadə etsin, inkişaf etmiş, qabaqcıl ölkələr sırasında tezliklə öz yerini tutsun, öz xalqına layiqli şərait yaratsın.

Transqafqaz kommunikasiyası haqqında sənədə, yaxud «Traseka» layihəsi adlandırılan layihəyə gəldikdə, Avropa İttifaqının bunda marağı var ki, Avropadan Mərkəzi Asiyaya və geriyə yüklər məhz bu dəhliz ilə daşınsın. Biz bilən, Avropa İttifaqı, onun strukturları bu layihənin həyata keçirilməsi üçün böyük məbləğdə vəsait ayırmaq niyyətindədirlər. Aydındır ki, bu yol istifadəyə verildikdən sonra Özbəkistan, eləcə də həmin nəqliyyat dəhlizindən istifadə edəcək digər dövlətlər Azərbaycanda sabitliyin qorunub saxlanmasını, onun çətin problemlərinin həllini eyni dərəcədə hiss edəcəklər. Ümidvarıq ki, Azərbaycan bu problemləri yaxın vaxtlarda aradan qaldıracaqdır.

**Sual:** Cənab Kərimov, Özbəkistan Transqafqaz dəhlizi vasitəsilə hansı layihələri həyata keçirmək niyyətindədir? Siz MDB çərçivəsində yeni ittifaqlar yaradılmasını necə qiymətləndirirsiniz?

**İslam Kərimov:** Əgər bu dəhliz bizim bütün yük axınını təmin etsə, biz bundan ancaq razı qalarıq. Onu nəzərdə tuturam ki, Özbəkistanın xarici ticarətdə əmtəə dövriyyəsi 6,5 milyard dollardır. Bunun nə demək olduğuna özünüz diqqət yetirin. Bu gün Özbəkistan bir çox Asiya, Avropa və Amerika ölkələri ilə sıx əlaqələrə malikdir. Odur ki, kommunikasiya məsələsi bizim ən zəif, necə deyərlər, yaralı yerimizdir. Bizim dənizə çıxışımız yoxdur. Belə çıxışı olan ölkələrə həsəd aparırıq. Çünki onlar bu cür imkanı olmayan ölkələrlə müqayisədə böyük üstünlüyə malikdirlər. Buna görə də biz bu gün Avropaya və digər ölkələrə pambıq, böyük həcmdə məhsul göndərmək, oradan isə boş dayanan müəssisələrimiz üçün dəzgahlar, avadanlıq gətirmək istəyirik. Bu dəhliz istifadəyə verildikdən sonra biz nəinki yükləri Azərbaycan vasitəsi ilə aparıb-gətirəcək, həm də öz məmulatımızı buraya gətirəcək, sizin məhsulunuzu da aparacağıq. Bunu bildirməyə şadam ki, Özbəkistandan ilk yük – 2 min ton pambıq Türkmənistan, Bakı və Gürcüstan yolları ilə mənzil başına, Poti limanına gətirilmişdir. Burada həmin yük gəmiyə vurulub, son ünvanına göndəriləcəkdir. Ümumiyyətlə, biz milyonlarla ton yük göndərmək fikrindəyik. Həm də Azərbaycan bu yüklərin tranziti üçün beynəlxalq normalar üzrə gəlir əldə edəcəkdir. Zənnimcə, bu, Azərbaycanı nəinki Avropa, dünya ölkələri ilə, həm də Mərkəzi Asiya ölkələri ilə birləşdirəcək. Yük axınına respublikanızı da cəlb edəcəkdir. Ümidvaram ki, bu, əməkdaşlığımızı möhkəmlətmək, əmtəə dövriyyəmizi genişləndirmək üçün yeni stimul və təkan olacaqdır.



O ki qaldı ikinci sualınıza, demək istəyirəm ki, dördlər ittifaqının, dördlər sazişinin, – ona müxtəlif adlar verirlər – onu imzalamış dövlətlərin, yəni Belarus, Rusiya, Qazaxıstan və Qırğızıstanın daxili işidir. Hər dövlət öz taleyini özü təyin edir və kimsənin haqqı yoxdur ki, bu prosesləri qiymətləndirsin və ya onlara qarışsın. Əlbəttə, əgər bu proseslər həmin ölkələrə bilavasitə aid deyildirsə, Özbəkistan birmənalı şəkildə bildirmişdir ki, o, heç bir ittifaqa daxil olmayacaqdır.

Fürsətdən istifadə edib demək istəyirəm ki, biz dördlərin gömrük ittifaqına da daxil olmaq fikrində deyilik. Səbəb budur ki, dördlərin müqaviləsi, təsisçilərin bəyan etdikləri kimi, heç də dərinləşdirilmiş iqtisadi və humanitar inteqrasiya müqaviləsi deyildir. Mən qəti əminəm ki, bu, coğrafi-siyasi müqavilədir və fövqəldövlət vəzifələrinin həyata keçirilməsini nəzərdə tutur. Yəni elə fövqəldövlət strukturları yaradılır ki, onlar heç də təkcə iqtisadi xarakterli deyil, başqa səpkili bir çox məsələləri həll edəcəklər. Biz isə bunun qəti əleyhinəyik ki, suveren dövlətlər öz funksiyalarının bir qismini fövqəldövlət strukturlarına versin və bununla da öz suverenliyinin bir hissəsindən məhrum olsunlar. Bu, bir növ qovuşdurucu damarlardır. Fövqəldövlət strukturu yaradılmışdır və bu müqaviləyə daxil olan hər bir dövlət öz suverenliyinin bir hissəsini həmin fövqəldövlət strukturlarına verməlidir. Onlar öz üzərlərinə nə qədər səlahiyyət götürürlər, bu dövlətlər nə qədər itirirlər – məlum deyildir. Buna görə də bu müqavilədə suverenliyin tamamilə saxlandığına bizi nə qədər əmin etsələr də, bu, adicə tənqid əndazəsinə sığmır. Belə isə fövqəldövlət strukturlarını yaratmaq nəyə gərəkdir? MDB çərçivəsində qəbul olunmuş sənədlərin nə üçün yerinə yetirilmədiyini həll etməkdə kim bizə maneçilik törədir? Kim təminat verir ki, bu dörd dövlətin imzaladığı sənədlər yerinə yetiriləcəkdir? Məsələ bunda deyildir. Məsələ bundadır ki, MDB çərçivə-

sində elə strukturlar yaratmaq istəyirlər ki, onlar öz nizamnaməsinə və istiqamətinə, məqsədlərinə uyğun MDB çərçivəsindən kənara çıxırlar. Buna görə də biz bu məsələyə birmənalı yanaşırıq – biz fövqəldövlət, fövqəlmilli strukturların əleyhinəyik. Hesab edirik ki, MDB-nin ehtiyatlarından və potensialından hələ büsbütün istifadə olunmayıbdır. Buna görə də biz ona tərəfdarıq ki, MDB çərçivəsində proseslər fəallaşdırılsın.

**S u a l :** Cənab Kərimov, Özbəkistanın Ermənistanla nə kimi əlaqələri var? Siz islam təməlçiliyi meyllərinə necə baxırsınız?

**İ s l a m  K ə r i m o v :** Bizim Ermənistanla heç bir əlaqəmiz yoxdur. Bizim yalnız səfirliklər səviyyəsində rəsmi münasibətlərimiz var.

İslam təməlçiliyinə gəldikdə, zənnimcə, Özbəkistan öz xəttini, proqramını, perspektivini birdəfəlik müəyyənləşdirərək, birmənalı şəkildə bildirmişdir ki, o, hər hansı təməlçiliyin – dini təməlçiliyin də, kommunist təməlçiliyinin də əleyhinədir. Təməlçiliyin hər iki forması bizim üçün eyni dərəcədə qeyri-məqbuldur.

Bilirsinizmi, çoxları islamı səhv şərh edir və yeni problemlər yaratmaq və onları islam təməlçiliyi ilə bağlamaq üçün islamdan bir vasitə kimi istifadə edirlər.Biz hesab edirik ki, islam dini də hər hansı başqa bir din kimidir. Mən Quranı, digər dini kitabları oxumuşam. Özbəkistan İmam əl-Buxarinin, İmam əl-Termezinin vətənidir. Onlar Məhəmməd peyğəmbərin hədislərinin toplanmasında ən görkəmli din xadimləri sayılırlar. Bir vaxtlar onlar bu hədisləri toplayaraq çox böyük iş görmüşlər. Biz bu hədisləri indiyədək bərpa etməyə çalışırıq. Onlar İslam dünyasının olduqca böyük əhəmiyyətli və dəyərli sərvətidir. Bu hədisləri, Quranı diqqətlə oxusanız, görərsiniz ki, islam ən demokratik dindir. Mən fəxr edirəm ki, ata-babalarımız bu dinə inanmış, ona etiqad etmişlər. Biz isə atalarımızın dininə böyük hörmət bəsləyirik.

**S u a l :** Zəhmət olmasa, gələcək mədəni əlaqələriniz haqqında danışın, Rusiyada seçkiqabağı kampaniyaya münasibətinizi də bildirin.

**H e y d ə r  Ə l i y e v :** Özbək və Azərbaycan xalqları arasında mədəni əlaqələrin qədim tarixi var. Xalqlarımızın mədəni, ədəbi əlaqələrindən danışarkən çoxlu misallar və adlar çəkmək olar. Lakin bizim əsrimizdən, son onilliklərdən söhbət gedərsə, deyə bilərik ki, biz Azərbaycanda özbək mədəniyyəti günlərini uğurla keçirmişik. O zaman ongünlük ərzində özbək mədəniyyətinin bütün məşhur nümayəndələri Azərbaycanda idilər, respublikamızın sakinləri artistləri də, musiqiçiləri də, müğənniləri də, şairləri və yazıçıları da salamlayırdılar. Özbəkistanda



Azərbaycan mədəniyyəti günləri də eynilə bu cür keçmişdir. Bizim rəssamlarımız, bəstəkarlarımız, artistlərimiz, şairlərimiz, yazıçılarımız tez-tez bir-birlərinə qonaq gedirdilər. Əlişir Nəvaidən tutmuş müasir özbək yazıçılarına,şairlərinə qədər bir çoxlarının külli miqdarda əsəri ölkəmizdə Azərbaycan dilinə tərcümə edilmişdir. Mən bilirəm ki, Özbəkistanda da belədir. Bir sözlə, bu baxımdan bizim çox böyük potensialımız, böyük zəminimiz var. Şübhə etməmək olar ki, indi Özbəkistan prezidentinin buraya gəlişindən, sənədlərin imzalanmasından sonra mədəni əlaqələrimiz genişlənəcəkdir, xüsusən də ona görə ki, bu sənədlərdən biri mədəniyyət sahəsində əməkdaşlığın inkişafına aiddir. Yəni demək istəyirəm ki, bu məsələdə heç bir problem olmayacaqdır. Bunlar xalqlarımız arasında dostluğun daha da möhkəmləndirilməsinə xidmət edəcəkdir. Bu baxımdan mədəniyyət həmişə son dərəcə mühüm rol oynayır.

Rusiyada seçkilərə gəldikdə isə, şəxsən mən arzu edirəm ki, bu seçkilər demokratik əsasda keçsin, orada demokratiya, islahatlar prinsipləri bərqərar olsun.

**İ s l a m  K ə r i m o v :** Heydər Əliyeviç mədəniyyət barədə çox tutarlı danışdı və mən deyilənlərə elə bir şey əlavə edə bilmərəm. Lakin Nizami Gəncəvi, Füzuli kimi böyük azərbaycanlıların adlarını çəkmək istərdim, onlar bəlkə də Özbəkistanda sizdə olduğundan daha məşhurdurlar. Ona görə belə deyirəm ki, Füzulinin özbək dilinə tərcümə edilmiş şerləri bizdə bütün dövrlərdə məşhurdur. Adamlar bu şerləri dinləyir və bunlardakı ecazkarlıq sayəsində həyatı yeni şəkildə dərk edirlər. Daha sonrakı dövrlərdə yaşamış müəlliflər, məsələn, Səməd Vurğun da çox məşhurdur. Mən bu siyahını artıra bilərdim. Demək istəyirəm ki, özbəklər sizin yazıçıları və şairləri özbək dilində oxuyurlar, bu fakt isə çox şey deyir. Rus dilində oxumurlar. Füzulini rus dilində oxumaq mümkün deyil. Füzulinin rus dilinə tərcümə edilmiş şerlərinə necə mahnı bəstələmək olar, təsəvvür etmirəm. Axı onun qəzəllərini yalnız milli, dərindən bildiyin dildə oxumaq mümkündür, əks halda başlıca gözəlliyi, mənası itir.

Müasir ədiblərdən, məsələn, milliyyətcə azərbaycanlı olan yazıçımız Şeyxzadədən danışsaq, o, Özbəkistanın ən nüfuzlu yazıçılarından biridir. Doğrudur, indi o, həyatdan getmişdir, lakin bu insan Azərbaycanın Özbəkistan tarixinə əbədi daxil olması üçün çox böyük töhfə vermişdir. O, Özbəkistanın tarixini elə dərindən bilirdi ki, Uluqbəyin, Teymurilərin həyatı haqqında klassik, tarixi əsərlər yazmışdır. Şeyxzadə azərbaycanlı olsa da, artıq bu gün özbək ədəbiyyatının klassiki sayılır.

Bu barədə çox danışmayacağam. Lakin sizin dərin lirik, sırf milli musiqinizi biz çox gözəl duyuruq. Ən ucqar qışlaqda yaşayan hər hansı özbək Azərbaycan musiqisini məmnuniyyətlə dinləyir. Ona görə də biz günahkarıq ki, qəlbləri sevindirən və ilhama gətirən, ruhu sakitləşdirən, harmoniya yaradan və eyni kökdən olduğumuzu xəbər verən bu xəzinədən müəyyən bir müddət uzaqlaşmışıq. Əgər eyni kökdən olmasaydıq, musiqini və klassik şeri başa düşməzdik.

Bu mövzuda çox danışa bilərdim, çünki siyasət məni bezikdirir və bu məsələlərdən daha çox danışmağı üstün tuturam, ona görə ki, bunlar insana, onun qəlbinə yaxındır.Gündəlik siyasət arxasında bu həyatın bütün gözəlliyini, mənasını itirir, çox böyük kasadlıq duyuruq.

O ki qaldı ikinci suala, bu barədə Heydər Əliyeviçdən bir qədər çox danışacağam, çünki o məndən təcrübəlidir, mənə nisbətən daha böyük diplomatdır. Demək istəyirəm ki, hazırda Rusiyanın seçkiqabağı meydanında çox sərt qarşıdurma gedir. Əgər mən rusiyalı seçici olsaydım,Yeltsinə səs verərdim. Ona görə yox ki, çox xoşuma gəlir, ona görə ki, digər namizədlərin arasında ondan yaxşısını görmürəm. Bu da sizə konkret cavab. Lakin başa düşürəm ki, səs verən yalnız Rusiya, yalnız onun insanları olacaqdır. Bununla belə, biz həmin seçkilərə biganə deyilik. Bu yaxınlarda, MDB-nin iclasında da hamımız bu barədə danışmışıq. Çünki sabah, məsələn, vətənpərvər-kommunist adlandırılanları seçsələr, qəti əminəm ki, qarşıdurma təkcə Rusiyanın özü ilə qurtarmayacaq. Geriyə qayıtma təkcə orada olmayacaq, ehtimal ki, bu, hazırda MDB çərçivəsində birləşmiş ölkələrin həyatına da təsir edəcəkdir. Belə nəticəyə gəlmək üçün ciddi əsaslar var.

Biz geriyə qayıtmağın əleyhinəyik, biz Rusiyanın demokratik ölkə olmasını istəyirik, onunla bərabər səviyyəli, qardaşlıq münasibətlərimizin olmasını istəyirik, bizi müstəqil, suveren dövlətlər kimi tanımasını, gələcək üçün bizimlə bərabər səviyyəli münasibətlər yaratmasını istəyirik. Rusiyanın demokratik ölkə olmasının mənasını yalnız bunda görürük.

Əgər qısaca desək, iyunun 16-sı çox şeyi müəyyən edəcəkdir. Rusiyanın seçdiyi yol təkcə MDB-yə, Avropaya, Asiyaya deyil, həm də ümumən bütün dünyaya təsir edəcəkdir. Mən buna əminəm. Ona görə də Özbəkistanın rəhbəri kimi bir daha bəyan etmək istəyirəm ki, mən Rusiyanın demokratik yol seçməsinin, onu bundan sonra da demokratiya yolu ilə aparacaq adamı seçməsinin tərəfdarıyam.



## «OQONYOK» JURNALININ AZƏRBAYCANA HƏSR OLUNMUŞ XÜSUSİ NÖMRƏSİNİN TƏNTƏNƏLİ TƏQDİMAT MƏRASİMİNDƏ NİTQ

*Azərbaycan Tarixi Muzeyi*
*1 iyun 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Bu gün biz qeyri-adi bir hadisənin iştirakçısıyıq: «Oqonyok» jurnalı nömrəsinin təqdimat mərasimi keçirilir. Bu hadisə ona görə qeyri-adidir ki, bizim praktikamızda, hər halda, Azərbaycanda jurnal nömrəsinin təqdimat mərasimi heç vaxt keçirilməyib. Mən bilmirəm, bu, bəlkə də Rusiyanın təcrübəsində, başqa ölkələrin təcrübəsində var, amma bu hadisə bizim üçün tamam yenidir. Lakin belə düşünürəm ki, təkcə bizim üçün yox, başqaları üçün də yeni bir hadisədir. Bununla belə, bu, tamamilə qanunauyğun təzahürdür, çünki «Oqonyok» jurnalının Azərbaycana, müstəqil Azərbaycan Respublikasına həsr edilmiş nömrəsi Azərbaycan üçün olduqcaböyük əhəmiyyətə malikdir.

Hesab edirəm ki, bu, sadəcə olaraq jurnalın bir nömrəsi deyil, Azərbaycan haqqında kitabdır, həm də çox yaxşı kitabdır. Keyfiyyətli, doğru-düzgün və səmimi yazılmış kitabdır. Buna görə də bu gün bu hadisəni respublikamızın həyatında, xalqımızın həyatında əlamətdar bir hadisə kimi böyük məmnunluq hissi ilə qeyd etməyə tam mənəvi haqqımız var.

Mən jurnalın bu nömrəsini alqışlayıram. Mən «Oqonyok» jurnalının baş redaktoru, bizim hörmətli Lev Nikitoviç Quşşini alqışlayıram.

«Oqonyok» jurnalının böyük tarixi var. Burada dedilər ki, o, yüzillik tarixə malikdir. Əlbəttə, bütün yüz ilin hamısı yadımızda deyil, amma şəxsən mən özüm bu jurnalı ümumiyyətlə, xatırlayıram, təxminən 50 ildən çoxdur, onun oxucusuyam. Jurnal çox məşhur və hamıya tanışdır. Lakin indiki halda mən öz hisslərimdən danışıram. O, mənə də yaxşı məlumdur. Hamıya məlum olanlar da, mənə məlum olanlar da onu göstərir ki, jurnal özünün bütün tarixi ərzində adamların tərbiyəsində, mətərir ki, jurnal özünün bütün tarixi ərzində adamların tərbiyəsində, mədəniyyətin yayılmasında, insanlar arasında əlaqələr yaranmasında, xüsusən elmin, incəsənətin təbliğində çox böyük rol oynamışdır. Buna görə də bizim haqqımız var ki, bu jurnal barəsində, onun tarixi barəsində ən xoş sözlər söyləyək.

Lakin bununla yanaşı, bu jurnal öz tarixi ərzində zamana müvafiq olaraq, Rusiyada, keçmiş Sovet İttifaqında ictimai-siyasi şəraitə müvafiq olaraq öz üslubunu, xarakterini, məzmun və münasibətini dəyişmişdir. Bu gün mən jurnalın hər hansı dövrü barədə tənqidi baxımdan heç nə demək istəmirəm. Tənqid etmək həmişə olar, tənqid etmək asandır, amma bir iş görmək, yaratmaq, qurmaq tənqid etməkdən qat-qat çətindir. Buna görə də bu jurnal Sovet İttifaqında ən çox yayılan nəşr olduğu illərdə milyonlarla adam onu böyük həvəslə oxuyurdu. Biz jurnalın səhifələrində dünyanın, Rusiyanın, bütün xalqların, o cümlədən də ölkəmizin, xalqımızın sənət ustalarının, rəssamlarının misilsiz əsərlərinin əla reproduksiyaları, illüstrasiyaları ilə böyük məmnunluqla tanış olurduq.

Jurnalın həyatındakı mərhələlərdən çox danışmaq olar. Mən tarixə öz ehtiramımı bildirmək üçün yalnız bir neçə kəlmə dedim. Biz tarixi qiymətləndirməli və tarixə vicdanla və obyektiv yanaşmalı, heç nəyə bəzək-düzək vurmamalıyıq. Lakin bununla bərabər, heç nəyə də qara yaxmamalıyıq.

O ki qaldı bu jurnalın həyat və fəaliyyətinin son mərhələsinə, mən bunu, əlbəttə, ən yüksək pillə sayıram. Təbii ki, bu da əvvəlki ənənələrə, o gözəl keçmişə və ötən tarix ərzində toplanmış nəhəng intellektual jurnalist potensialına əsaslanır. Bu jurnal on il əvvəl olduğuna nisbətən indi bəlkə də daha az tirajla çıxır, amma öz şöhrəti, xüsusən öz məzmunu, üslubu və bədii tərtibi ilə bütün əvvəlki illərdə olduğundan, əlbəttə, üstündür.

Mən ürəkdən şadam ki, «Oqonyok» jurnalı məhz belə, bugünkü kimi olmuşdur. Təkrar edirəm, mən bu jurnala bələdəm, çox onillərdir onun pərəstişkarıyam. Buna görə də bir oxucu kimi mənim üçün xoş və sevindirici haldır ki, jurnal indi də məhz belədir. O, bütün dünya standartlarına, beynəlxalq standartlara uyğundur, təkcə öz ölkəsində deyil, həm də bütün dünyada oxunur, qiymətləndirilir və böyük nüfuza malikdir. Söz yox ki, o, nəinki Rusiya vətəndaşları, eləcə də dünyanın bir çox digər ölkələrinin, o cümlədən ölkəmizin vətəndaşları üçün həm təbliğat, həm təşviqat, həm də maarif sahəsində mühüm vasitədir.

Təkrar edirəm, mən bu jurnalı bir çox illər oxumuşam. Çox-çox illər əvvəl bu jurnalda mənim xatirələrim, məqalələrim, mənimlə müsahibələr dərc edilmişdir. Onlar mənim arxivimdə qalmaqdadır. Əlbəttə, haradasa, nəsə itib batmayıbsa. Hər halda, «Oqonyok»un arxivində onların hamısı yəqin ki, saxlanır. Mən bu jurnal ilə bağlıyam. Təkrar edirəm, bir çox illər artıq bəzi məqalələrin, müsahibələrin və digər yazıların müəllifi olmuşam.



Amma elə hallar da olub ki, bu jurnalda mənim barəmdə ədalətsiz qeydlər də verilib. Bu da olub, ancaq bunların hamısı, zənnimcə, jurnalın məhz simasını müəyyənləşdirən zəngin tarixdir. O ki qaldı jurnalın bu gün belə olmasına, yəni demokratik olmasına, o, açıq və səmimi yazan, bununla yanaşı, çox məzmunlu, maraqlı nəşrdir. Bu isə olduqca böyük məmnunluq hissi doğurur. Mən jurnalın baş redaktorunu da, bütün kollektivini də bu böyük nailiyyət münasibətilə ürəkdən təbrik edirəm, bu jurnala yeni qələbələr və yeni yaradıcılıq uğurları arzulayıram.

Mən Azərbaycanda uzun illər rəhbər işləyərkən həmişə çalışırdım ki, respublikamız haqqında, xalqımız, mədəniyyətimiz, həyatımız haqqında, o vaxtlar dediyimiz kimi, mərkəzi mətbuatda, ittifaq mətbuatında, o cümlədən «Oqonyok» jurnalında bacardıqca daha çox məlumat, daha çox yazılar dərc edilsin. Biz bunu etməyə çalışır, buna nail olurduq. Lakin demək istəyirəm ki, jurnalın ümumittifaq nəşri olduğu, hamımızın bir dövlətin, yəni Sovet İttifaqının tərkibində bərabər hüquqlu respublikalar olduğu əvvəlki dövrlərdə biz heç vaxt belə imkana malik deyildik.

Bir diqqət yetirin nə baş verir: bu jurnal Rusiyaya mənsub olduğu, Azərbaycan başqa ölkə, müstəqil dövlət olduğu halda, Rusiyanın «Oqonyok» jurnalı bütöv bir nömrəsini Azərbaycan Respublikasına, Azərbaycan xalqına həsr edir. Bu, olduqca böyük hadisədir. Mən bunu çox yüksək qiymətləndirirəm və buna görə də xüsusi minnətdarlığımı bildirirəm. Məsələ heç də onda deyil ki, jurnalın bir nömrəsi bütünlüklə və tamamilə Azərbaycana həsr olunmuşdur. Məsələ burasındadır ki, bu, necə xeyirxahlıq hissi ilə, necə demokratizm hissi ilə edilmişdir. Bunların hamısı jurnalın səhifələrində, jurnala çox gözəl rövnəq verən reproduksiyalarda, fotoşəkillərdə öz əksini tapmışdır.

Buna görə də hesab edirəm ki, bu, bizim üçün hadisədir. Bu, Azərbaycan haqqında kitabdır. Bilirsinizmi, indi biz istəyirik ki, Azərbaycanda baş verən bütün hadisələr başqa ölkələrdə, o cümlədən Rusiyada hər yerdə və hamıya məlum olsun. Bizim buna ehtiyacımız var. Lakin buna hər bir xalqın, hər bir ölkənin də ehtiyacı var. Bu, təbii haldır. Lakin bizim buna xüsusən ona görə ehtiyacımız var ki, təəssüflər olsun, müəyyən səbəblərə görə, Rusiyada da, digər ölkələrdə də,

Qərbdə də, Şərqdə də müxtəlif dairələrdə Azərbaycan barəsində ədalətsizliyə yol verilmişdir və indiyədək yol verilir. Odur ki, xalqımızın müasir həyatı barədə, vəziyyət və şərait barədə, Azərbaycanda, müstəqil bir dövlətdə baş verən proseslər barədə doğru-düzgün məlumatın yayılması bizim üçün olduqca böyük əhəmiyyətə malikdir, bu, bizim üçün çox mühüm məsələdir.

Mən açıq deyirəm, Rusiyada hansısa qəzetdə, hansısa jurnalda respublikamızın həyatının bu və ya başqa cəhətini doğru-düzgün əks etdirən bir məqalə dərc ediləndə biz buna sevinirik. Eyni zamanda istər Rusiyada, istərsə də başqa ölkələrdə qəzet və jurnallarda böhtan xarakterli, qərəzli məqalə və materiallar dərc olunanda kədərlənir və gizlətmirəm, bundan hiddətlənirik.

İndiki halda jurnalın bütöv bir nömrəsinin Azərbaycana həsr edilməsi və burada Azərbaycanın bu günü və tarixi barədə, hazırda Azərbaycanda nə kimi işlər görülməsi barədə düzgün, açıq yazılması bizim üçün çox böyük kömək, dəstəkdir.

Bildiyiniz kimi, mətbuat – jurnallar, qəzetlər, kütləvi informasiya vasitələri insanlara, cəmiyyətə, siyasi xadimlərə və dövlət xadimlərinə çox güclü təsir göstərir. Əlbəttə, bu mənada, bir daha təkrar edirəm, bu nömrənin buraxılması bizdən ötrü çox böyük kömək və dəstəkdir.

Şübhəsiz ki, Azərbaycan haqqında – onun tarixi və bugünkü həyatı barədə çox yazmaq olar. Fikir verin, jurnalın həcmcə çox da böyük olmayan bir nömrəsində ölkəmizin həyatının, demək olar, bütün sahələri, tariximizi, keçmişimizi səciyyələndirən müəyyən epizodlar da, bugünkü həyatımızı xarakterizə edən bir çox cəhətlər də, həyatımızın faciəli dövrü də, müstəqil, demokratik, hüquqi dövlət qurmaq, demokratik cəmiyyət formalaşdırmaq, respublikada həyatı yenidən qurmaq, iqtisadiyyatı inkişaf etdirmək, insanların yaşayışını yaxşılaşdırmaq üçün atdığımız ilk addımlar da əksini tapmışdır.

Şübhəsiz ki, Ermənistan Respublikasının Azərbaycana qarşı artıq səkkiz il davam edən hərbi təcavüzü və bu təcavüzün ağır nəticələri barədə faktları əks etdirən materialların dərc olunması xüsusilə sevindiricidir. Bu materiallarda ərazimizin 20 faizinin Ermənistan silahlı birləşmələri tərəfinden işğal edilməsi, Azərbaycanın bir milyon vətəndaşının qaçqın vəziyyətinə düşməsi və onların əksəriyyətinin çadır şəhərciklərində yaşaması, xalqımızın bu təcavüzdən əziyyət çəkməsi, Azərbaycanın ərazi bütövlüyünün pozulması, Azərbaycan barəsində ədalətsizlik edilməsi və bunun indiyədək beynəlxalq təşkilatlar, beynəlxalq ictimaiyyət tərəfindən tam qiymətləndirilməməsi, müəyyənləşdirilməməsi ifadəsini tapmışdır. Özü də təkcə məqalələrdə, söhbətlərdə deyil, həm də fotoşəkillərdə əksini tapmışdır və bunlar çox dəqiq, yaxşı və inandırıcı surətdə göstərir ki, bax, qaçqınlar bunlardır, onların yaşadıqları çadırlar bunlardır, uşaqlar, qadınlar, qocalar bax belə vəziyyətdə yaşayırlar, həmin təcavüzün qurbanları bunlardır. Bütün bunlar jurnalın səhifələrində əksini tapmışdır.



Bunların hamısı bizdən ötrü çox mühüm, olduqca mühümdür. Lakin bununla yanaşı, belə bir cəhət də bizi sevindirir ki, iqtisadiyyatı inkişaf etdirmək, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası üçün gördüyümüz tədbirlər, iqtisadiyyatımızı demokratikləşdirməyimiz və sərbəstləşdirməyimiz, Azərbaycan iqtisadiyyatını və ümumiyyətlə, Azərbaycanın təbii sərvətlərini xarici investisiyalar üçün açmağımız, bizim çox böyük təbii sərvətlərimizdən hazırda xarici şirkətlərin, o cümlədən Rusiya şirkətlərinin birgə səyləri ilə istifadə olunması və gələcəkdə də istifadə ediləcəyi jurnalın səhifələrində öz əksini tapmışdır.

Bir daha təkrar edirəm, məni xüsusilə sevindirir ki, jurnal bu gün Azərbaycanda, demokratiya, plüralizm yolu ilə, hüquqi demokratik cəmiyyət və dövlət quruculuğu yolu ilə gedən Azərbaycanda mövcud real vəziyyəti obyektiv əks etdirir. Bununla əlaqədar jurnalistlərin böyük və dəyərli zəhmətindən danışmaq istəyirəm.

«Oqonyok» jurnalı redaksiyasının kollektivi təcrübəli jurnalistlərdən ibarətdir və onların arasında ən təcrübəli jurnalist baş redaktor Lev Nikitoviç Quşşindir. Mən onu çoxdan, hələ Moskvada işlədiyim vaxtlardan tanıyıram, özü də təcrübəli jurnalist kimi tanıyıram. Buna görə də şadam ki, o, jurnalist fəaliyyətində və «Oqonyok» redaksiyasında böyük yol keçərək (mən onu «Oqonyok»da başqa rollarda da xatırlayıram) indi bu jurnala başçılıq edir. Əminəm ki, jurnal öz baş redaktorunun, hörmətli Lev Nikitoviç Quşşinin məhz şəxsiyyəti, xarakteri, jurnalist peşəkarlığı və əlbəttə, vicdanlılığı və alicənablığı, demokratikliyi sayəsində məhz indiki kimi olmuş, Azərbaycana həsr edilmiş nömrədəki kimi belə demokratik, xeyirxah, səmimi olmuşdur.

Mən bu fürsətdən istifadə edərək, jurnalist əməyinə böyük hörmət etdiyimi bildirmək istəyirəm. Jurnalistlərin əməyi qeyri-adi əməkdir, olduqca böyük, zəhmətli əməkdir, çox səylər göstərilməsini, hətta cə-

surluq, hünər, fədakarlıq tələb edən əməkdir, öz peşəsinə vurğunluq tələb edən əməkdir. İnsanın daxilində bu peşəyə xüsusi bir meyl, ehtiras olmasa, o, jurnalist peşəsinin öhdəsindən gələ bilməz.

Siz dünya təcrübəsindən bilirsiniz ki, Yer kürəsinin qaynar nöqtələrində olan jurnalistlər bəzən necə həlak olurlar. Jurnalistlər bizdə, Azərbaycanda da həlak olmuşlar. Cəbhə zolağında, Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüz ilə bağlı döyüş əməliyyatları gedən zaman bizim neçə-neçə istedadlı jurnalistimiz həlak olmuşdur. İndi jurnalistlər Çeçenistanda da, Rusiyanın digər qaynar nöqtələrində də həlak olurlar. Onlar dünyanın başqa ölkələrində də həlak olurlar. Bəli, həlak olurlar, amma bununla belə, əsl jurnalistlər öz jurnalist peşəsindən imtina etmirlər. Buna görə də jurnalist peşəsi hünər tələb edən peşədir.

Əlbəttə, bizim hər birimiz jurnalistdən obyektivlik, düzlük, səmimilik gözləyirik. Lakin jurnalistlər bu və ya digər qüsurları aşkara çıxararaq, nöqsanları aşkara çıxararaq, qanuna, konstitusiyaya zidd faktları aşkara çıxararaq, bəlkə də başqalarına nisbətən sözü üzə daha şax və açıq deyir, bəzən də xoşagəlməz olurlar. Bununla bərabər, onlar cəmiyyətin demokratikləşdirilməsi işinə, siyasi plüralizm prinsipinin bərqərar edilməsinə və dərinləşməsinə olduqca böyük kömək göstərirlər.

Hərçənd bəzən onlar da ifrata varırlar, elə vicdansız jurnalistlər də olur ki, onlar tamahkarlıq məqsədi ilə və ya başqa məqsədlərlə qeyri-səmimi, qeyri-obyektiv yol tutur və bütövlükdə jurnalist peşəsinə böyük xələl gətirir və təbii olaraq, həyatın və cəmiyyətin bu və ya digər sahəsinə düzəldilməsi mümkün olmayan zərər vururlar. Lakin mən bunu müəyyən dərəcədə təbii hal sayıram: dünyada ideal heç nə yoxdur və heç kəs iddia edib deyə bilməz ki, o, hər şeyi ideal surətdə edir. Bu nöqsanlar, bu qüsurlar, bu çatışmazlıqlar jurnalistlərin gördükləri çox böyük işlə müqayisədə cüzi bir şeydir.

Mən jurnalist peşəsinə həmişə çox hörmətlə yanaşmışam. Biz Sovet İttifaqında olduğumuz illərdə, hamımız kommunist ideologiyasına xidmət etdiyimiz dövrlərdə çalışırdım ki, jurnalistlər hadisələrin fövqündə olsunlar, jurnalistlərə daha böyük imkanlar verilsin. Mən çalışırdım ki, jurnalistlər bacardıqca daha açıq yazsınlar, hərçənd o vaxtlar bu, dövlətdə və cəmiyyətdə mövcud olmuş ümumi konsepsiyaya görə çox çətin idi. Sözün düzü, bu gün iftixar hissi ilə deyə bilərəm ki, 1969-cu ildən Azərbaycan KP MK-nın birinci katibi, yəni Azərbaycanın rəhbəri seçildikdə ilk addımlarım məhz aşkarlıqla, açıqlıqla əlaqədar olmuşdur. İstəyirdim ki, heç nə gizlədilməsin, hər şey mətbuatda dərc edilsin və adamlara cəmiyyətimizdə nə varsa hamısını – yaxşını da, pisi də, qiymətli olanı da, mənfi olanı da bilməyə imkan verilsin.



Yeri gəlmişkən, deyim ki, «Oqonyok»un nömrələrində dərc edilən məqalələrimdən, müsahibələrimdən danışarkən (bunları qaldırıb baxmaq olar) bildirmək istəyirəm ki, öz yazdıqlarımın və ya müxbirlərlə söhbətlərimin hamısını o dövrün mənfi hallarına, bu halların, korrupsiyanın, rüşvətxorluğun, qəyyumçuluğun və əslində həmin quruluşun dağılmasına gətirib çıxaran bir çox digər mənfi halların kökünü kəsməyin zəruriliyinə həsr etmişəm. Mən bu barədə açıq danışır və açıq yazırdım. Ona görə bu gün də o zaman yazdıqlarım barədə, o cümlədən «Oqonyok» jurnalının səhifələrində yazdıqlarım haqqında təmiz vicdanla danışıram.

Mən bunu məhz ona görə deyirəm ki, jurnalist əməyinə uzun illər bəslədiyim dərin hörməti təsdiq edim. İndi belə deyirlər ki, jurnalistlər dördüncü hakimiyyətdir və mən istəyirəm ki, bu dördüncü hakimiyyət həmişə möhkəm olsun, lakin eyni zamanda ölkəmizdə və xüsusən demokratiya yolu, iqtisadiyyatını bazar prinsipləri əsasında inkişaf etdirmək yolu keçən ölkələrdə hakimiyyətin bütün qollarının möhkəmlənməsinə həmişə kömək etsin.

Bilirəm ki, «Oqonyok» jurnalı bu istiqamətdə çox iş görür və onun Azərbaycana həsr edilmiş nömrəsində də məhz belə materiallar çoxdur. Bir daha demək istəyirəm ki, Azərbaycan haqqında çox kitablar yazılıbdır və bu gün də çox yazılır, gələcəkdə də çox yazılacaqdır. Lakin jurnalın bu gün təqdimatını keçirdiyimiz nömrəsi Azərbaycanın tarixində, Azərbaycan tarixşünaslığında xüsusi yer tutur və tutacaqdır.

Jurnalın bu nömrəsini yaratmaq üçün səy göstərənlərin hamısını, bu nömrənin ərsəyə gəlməsi üçün əmək sərf etmiş jurnalistlərin, müxbirlərin hamısını—həm Azərbaycan jurnalistlərini, müxbirlərini, həm də Rusiya jurnalistlərini, müxbirlərini bu hisslərlə təbrik edirəm.

Sözümün sonunda daha bir mühüm cəhəti, mühüm amili qeyd etmək istəyirəm. Bu da ondan ibarətdir ki, jurnalın həmin nömrəsi Rusiya ilə Azərbaycan arasında münasibətlərin möhkəmlənməsinə və inkişafına mühüm töhfədir.

Rusiya böyük ölkədir, bizim şimal qonşumuzdur. Azərbaycanı Rusiya ilə çoxəsrlik tarix bağlayır. Hazırda Rusiyada demokratikləşdirmə prosesləri, çox qızğın ictimai-siyasi proseslər baş verir. Biz bu proses-

ləri diqqətlə izləyir və Rusiyada demokratiyanın qələbəsini arzulayırıq. Biz bütünlüklə və tamamilə Rusiyadakı demokratik qüvvələrin, siyasi və iqtisadi islahatları həyata keçirən islahatçı qüvvələrin tərəfindəyik. İndi Rusiya mühüm tarixi hadisə – prezident seçkiləri qarşısındadır. Biz burada, Azərbaycanda arzu edirik ki, Rusiyada demokratiya, islahatlar uğrunda hərəkat qalib gəlsin, islahatları beş ildən bəri həyata keçirən qüvvələr qalib gəlsin ki, bu xətti gələcəkdə də davam etdirmək mümkün olsun, bu xətt dəyişməsin, nəzərdə tutulan bütün planlar başa çatdırılsın.

Şübhəsiz ki, bununla əlaqədar Rusiya prezidenti, hörmətli Boris Yeltsinin rolu böyükdür. Biz burada, Azərbaycanda deyəndə ki, Rusiyada demokratiyanı, islahatlar xəttini tam dəstəkləyirik, bu zaman prezident seçkilərində Boris Yeltsini dəstəklədiyimizi nəzərdə tuturuq.

Rusiyanın həyatının və bizim həyatımızın bu çox mühüm dövründə çap edilən bu jurnal da Rusiya ilə Azərbaycan arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi, Rusiya ilə Azərbaycan arasında əməkdaşlığın möhkəmləndirilməsi üçün çox böyük rol oynayır.

Bu gün bəyan edirəm ki, Rusiya ilə dostluğumuzun və əməkdaşlığımızın bizim üçün bu gün də, gələcəkdə də çox böyük əhəmiyyəti var. Rusiya ilə dostluq və əməkdaşlığı möhkəmləndirmək xəttini inkişaf etdirmək və genişləndirmək üçün əlimizdən gələni edəcəyik. «Oqonyok» jurnalı da bu işdə bizə kömək edir.

Jurnalın redaksiyasına bir daha sağ ol deyirəm, baş redaktor Lev Nikitoviç Quşşinə və jurnalın bu nömrəsini yaradan bütün müəlliflərə, jurnalistlərə bir daha minnətdarlığımı bildirirəm.



## «AZƏRBAYCAN RESPUBLİKASINDA İNSAN İNKİŞAFINA DAİR HESABAT» KİTABININ TƏQDİMAT MƏRASİMİNDƏN SONRA BİRGƏ MƏTBUAT KONFRANSI

*2 iyun 1996-cı il*

**S u a l :** Sumqayıt layihəsi Azərbaycanda və bütövlükdə regionda vəziyyətə nə kimi təsir göstərəcəkdir?

**H e y d ə r Ə l i y e v :** Hesab edirəm ki, Sumqayıtda xüsusi iqtisadi zona yaradılması Azərbaycanın həyatına, iqtisadiyyatına təsir göstərəcəkdir. Azərbaycanda da, keçmiş Sovet İttifaqının indi müstəqil dövlətlər olan ayrı-ayrı regionlarında da çox danışıqlar, çox söhbətlər gedibdir. Ancaq hələ indiyədək Azərbaycanda heç bir yerdə azad iqtisadi zona yaradılmayıbdır. Artıq dərk olunubdur ki, azad iqtisadi zona elan etməklə onun yaradılması arasında çox böyük məsafə var. Bunu elan etmək asandır, amma yaratmaq çox çətindir. Buna görə də biz Birləşmiş Millətlər Təşkilatı ilə birlikdə azad iqtisadi zona yaratmaq üçün çox vaxt sərf etmişik, çox iş görmüşük.

Hesab edirəm ki, hazırlanmış olan proqram əsaslıdır. Təsəvvürə gətirmək çətin deyil ki, əgər Sumqayıtda azad iqtisadi zona həqiqətən mövcud olsa, yəni fəaliyyətə başlasa, bu, Azərbaycan iqtisadiyyatının bütün sahələrinə təsir göstərəcək və ölkəmizdə sərbəst iqtisadi sistem, bazar iqtisadiyyatı yaratmağa çox kömək edəcəkdir. Bu, eyni zamanda, bizim qonşu dövlətlərə də təsir göstərəcəkdir. Məsələn, bilirsiniz ki, biz may ayının əvvəlində Sərəxsdə – Türkmənistanla İran arasındakı yaşayış məntəqəsində olarkən Özbəkistan, Türkmənistan, Azərbaycan, Gürcüstan mühüm bir müqavilə imzalamışlar ki, Özbəkistandan və Türkmənistandan Avropaya gedən yüklər Azərbaycan və Gürcüstan ərazisindən keçib Qara dənizə çıxarılsın və eyni zamanda əks istiqamətdə də yüklər daşınsın. Bu, Transqafqaz magistralının yaradılması deməkdir və hesab edirəm ki, çox səmərəli nəticələr verəcəkdir. Belə bir magistral yarandıqdan sonra Sumqayıtda azad iqtisadi zonanın olması, təsəvvür edin, nə qədər əhəmiyyətli olacaqdır. Sumqayıt azad iqtisadi zonası həm də Şərq ilə Qərb arasında çox mühüm bir vasitə olacaq və ticarət əlaqələrinin yaranmasına, inkişafına çox kömək edəcəkdir. Bütün bunlar onu göstərir ki,

bu, təkcə Azərbaycan üçün yox, Azərbaycanı əhatə edən ölkələr üçün və onlarla həmsərhəd dövlətlər üçün də çox əhəmiyyətli olacaqdır.

**Paolo Lembo:** Başlıca vəzifə şəhərin sənaye kompleksinin səviyyəsini dünya standartlarınadək yüksəltməkdir. Xatırladım ki, bu iş ərazisinin 20 faizi işğal edilmiş, bir milyondan çox qaçqını olan və demokratik dəyişikliklər aparılan, bazar münasibətlərinə keçilən bir ölkədə görülür. Bununla yanaşı, burada bütün sahələrdə islahatlar aparılması üçün yaxşı zəmin yaradılıb. Elə Sumqayıt layihəsinin həyata keçirilməsi də buna kömək edəcəkdir. Layihənin yaradılmasının başlanğıc mərhələsindəki çətinliklərə baxmayaraq, Prezident Heydər Əliyev və BMTİP hesab edirlər ki, bu layihənin bütün region üçün əhəmiyyəti olacaqdır. O, Zaqafqaziya ölkələri arasında hərtərəfli əlaqələrin; əməkdaşlığın inkişafına, regionda sülh yaranmasına kömək edəcəkdir. Layihəyə Azərbaycanla həmsərhəd dövlətlər, xüsusən Gürcüstanda maraq göstərmişlər. Biz Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən bu layihənin dəstəklənməsini xüsusi qiymətləndiririk.

**Sual:** Cənab Lembo, bu cür layihələr müharibə gedən başqa dövlətlərdə də həyata keçirilirmi?

**Paolo Lembo:** Azərbaycanın müharibə şəraitində olması faktını nəzərə alaraq, biz Prezident Heydər Əliyevin şəxsən özü ilə dəfələrlə görüşdük və layihənin reallaşdırılması perspektivlərini, müddətlərini müzakirə etdik. Biz bir dilemma qarşısında qalmışıq – layihənin həyata keçirilməsinə ya indi, ya da müharibə qurtardıqdan sonra başlamalı. Biz layihəni hazırlamağa başladıqda çox şəkk-şübhə gətirənlər var idi, elə Azərbaycanın özündə də. Onlar layihənin həyata keçirilməsinin mümkünlüyünü şübhə altına alırdılar. Buna baxmayaraq, ilkin danışıqlar aparmaq üçün 1994-cü ildə BMT ekspertlərinin böyük bir nümayəndə heyəti Azərbaycana gəldi. Prezident Heydər Əliyev onlarla görüşərək, Sumqayıt layihəsinin yaradılmasının zəruriliyi barədə öz qəti fikrini söylədi. Bu layihə regionda sülh və sabitlik yaranmasına da kömək edəcəkdir. İndi biz şadıq ki, layihə həyata keçirilir. Bildirmək istəyirəm ki, bu layihə artıq bütün dünyada məlumdur, onu bir çox ölkələrdə bəyənirlər. Layihə Azərbaycan parlamenti tərəfindən müzakirə olunmaq və ona hüquqi status verilmək üçün Milli Məclisin sədri Rəsul Quliyevə təqdim edilibdir.

Demək istəyirəm ki, layihədə şəhərin infrastrukturunu tamamilə təkmilləşdirmək, müəssisələri modernləşdirmək, biznes, tibb, maarif



mərkəzləri yaratmaq nəzərdə tutulur. Başlıcası, tələsmək lazım deyil, axı, iş yenicə başlanır və biz doğru yoldayıq.

**Sual:** İndi Azərbaycana nisbətən digər MDB ölkələrinə daha çox xarici sərmayələr qoyulur. Sumqayıt layihəsi bu sərmayələrin ölkəmizə axınını artıracaqmı?

**Paolo Lembo:** Heç bir MDB dövlətində ərazisinin 20 faizi işğal edilməyib, bir milyon qaçqın yoxdur. Buna görə də sizi digər MDB ölkələri ilə müqayisə etməyə lüzum yoxdur. Lakin hər halda mənim məlumatıma görə, Azərbaycana digər MDB ölkələrinə olduğundan heç də az sərmayə gəlmir. Təkcə son dörd ayda 75 iri xarici korporasiya və şirkətin nümayəndələri Sumqayıtda olmuşlar. Onlar bu layihəyə sərmayə qoymaq istədiklərini bildirmişlər. Zənnimcə, bu məsələyə nikbin yanaşmaq lazımdır. Biz Sumqayıt üçün xüsusi özəlləşdirmə proqramı hazırlamaqdan ötrü şura yaradılması, habelə şəhərin bir sıra müəssisələrinin özəlləşdirilməsi və onların xarici şirkətlərin idarəsinə verilməsi haqqında qərarları yüksək qiymətləndiririk. Başa düşürük ki, Azərbaycanda müəyyən çətinliklər var, lakin layihənin həyata keçirilməsi üçün var qüvvə ilə səy göstərmək lazımdır.

**Sual:** Sualım Prezident Heydər Əliyevədir, Sumqayıt layihəsini Azərbaycanın başqa bölgələrində də həyata keçirmək mümkündürmü?

**Heydər Əliyev:** Mümkündür. Amma, gəlin ilk növbədə bu böyük proqramın həyata keçirilməsinə başlayaraq, onun nəticələrini görək, təcrübəsini mənimsəyək. Bundan sonra onu Azərbaycanın başqa bölgələrinə keçirək. Məsələn, bildiyiniz kimi, Naxçıvan Muxtar Respublikası blokada şəraitindədir və eyni zamanda İran və Türkiyə ilə həmsərhəddir. Onun bu ölkələrlə giriş-çıxışı var. Orada azad iqtisadi zona yaradılması fikri məndə hələ Naxçıvanda olarkən – 90-cı və 91-ci illərdə var idi. Mən o vaxtlar müəyyən addımlar atırdım, amma o zaman bizim həm təcrübəmiz yox idi, həm də sizə məlum olan bəzi səbəblərə görə, biz bunu həyata keçirə bilmədik. Güman edirəm ki, bizim orada gördüyümüz iş, əldə etdiyimiz təcrübə və nəticələr bu təcrübəmizi Azərbaycanın başqa regionlarına yaymağa imkan verəcəkdir.

**Sual:** Cənab Spet, dünən Azərbaycan Prezidenti ilə görüş zamanı siz bildirdiniz ki, BMTİP-nin Azərbaycan üçün yeni layihələrini müzakirə etməyə hazırsınız. Söhbət hansı layihələrdən gedir?

**Ceyms Spet:** Hesab edirəm ki, indiki vaxtda Azərbaycanda BMTİP layihələrinin həyata keçirilməsi üçün başqa sahələr də var.

BMTİP özünün əsas vəzifəsini çox böyük sayda qaçqın və köçkünlərin yerləşdirilməsi, onların problemlərinin həlli işində, bu işin görülməsi üçün geniş proqram hazırlanmasında Azərbaycan rəhbərliyi və hökuməti ilə səyləri birləşdirməkdə görür. 1996-cı ildə Azərbaycanda insan inkişafına dair hesabatın 7-ci bölməsində BMT-nin və BMTİP-nin sizin ölkədə həyata keçirməyi planlaşdırdığı səkkiz layihədən danışılır. Bu layihələrin maliyyələşdirilməsi məsələsi həll edilən kimi, biz işə başlayacağıq. Hesabatda səkkiz layihənin olması onu göstərir ki, biz Azərbaycan hökuməti ilə danışıqlara başlayırıq. Layihələrdə yoxsulluğun aradan qaldırılması, qaçqın və köçkünlərin yerləşdirilməsi, həyat səviyyəsinin yüksəldilməsi nəzərdə tutulur. BMTİP Xəzəryanı ölkələr üçün qlobal layihələr yaradılmasını planlaşdırır ki, bundan da məqsəd regionda ekoloji vəziyyəti yaxşılaşdırmaq, ətraf mühiti mühafizə etməkdir.



## AZƏRBAYCAN, ERMƏNİSTAN, GÜRCÜSTAN VƏ RUSİYANIN DÖVLƏT BAŞÇILARININ, HABELƏ ŞİMALİ QAFQAZ RESPUBLİKALARI, DİYAR VƏ VİLAYƏTLƏRİ RƏHBƏRLƏRİNİN GÖRÜŞÜNDƏN QAYITDIQDAN SONRA BİNƏ HAVA LİMANINDA «MİR» DÖVLƏTLƏRARASI TELERADİO ŞİRKƏTİNİN MÜXBİRİ İLƏ MÜSAHİBƏ

*3 iyun 1996-cı il*

**Sual:** Xahiş edirəm, bu görüş barədə öz təəssüratınızı bölüşəsiniz.

**Heydər Əliyev:** Təəssüratlarım yaxşıdır. Bu, ilk görüşdür ki, Rusiya, Azərbaycan, Ermənistan və Gürcüstan prezidentləri, Rusiya Federasiyasının subyektləri olan Şimali Qafqaz respublikalarının, diyar və vilayətlərinin rəhbərləri bir yerə toplaşmışdılar. Hələ heç vaxt belə olmayıbdır. Biz Qafqazda sabitliyin, demək olar, bütün sahələrdə əməkdaşlığın daha da möhkəmlənməsi ilə bağlı məsələləri müzakirə etdik, bəyannamə imzaladıq. Hesab edirəm ki, bu mühüm sənəddir. Bu görüşün keçirilməsi faktının özü böyük əhəmiyyətə malikdir. Lakin bundan başqa, biz hamımız belə bir yekdil fikirdə olduq ki, Qafqazın istər Rusiya, Azərbaycan, Ermənistan və Gürcüstan kimi müstəqil ölkələr üçün, istərsə də müxtəlif millətlərdən çoxlu insanın yaşadığı bu regionun respublikaları, diyarları, vilayətləri üçün misilsiz əhəmiyyəti var. Təəssüf ki, burada silahlı münaqişələr gedir. Əlbəttə, bu baxımdan da görüş çox vacib bir görüş idi. Mən məmnunam.

**Sual:** Lütfən deyin, bu görüş Rusiyada qarşıdakı prezident seçkilərinə hər hansı dərəcədə təsir göstərəcəkmi?

**Heydər Əliyev:** Təbii ki, təsir göstərəcəkdir. Orada bu barədə də söhbət getdi və Şimali Qafqaz respublikalarının, diyar və vilayətlərinin rəhbərləri indiki prezident Boris Yeltsinin qarşıdakı seçkilərdə dəstəklənməsi haqqında xüsusi bəyanat qəbul etdilər. Təbii ki, Rusiyada seçkilər barəsində biz də öz fikrimizi söylədik, o cümlədən mən də öz çıxışımda dedim ki, əlbəttə, biz Rusiya ilə maraqlanırıq, axı bizi Rusiya ilə çox şey bağlayır. Buna görə də biz seçkilərin necə ke-

çəcəyinə və xalqın kimi seçəcəyinə biganə deyilik. Mən, məsələn, dedim ki, Azərbaycan demokratiyanı, demokratik islahatları, islahatlar xəttini dəstəkləyir və təbii olaraq, bununla əlaqədar biz Yeltsinə rəğbət bəsləyirik, onu dəstəkləyirik.

**S u a l :** Əgər hamısına birlikdə yekun vursaq, şəxsən Siz bu görüşdən razı qaldınızmı?

**H e y d ə r Ə l i y e v :** Bilirsinizmi, mən əvvəlcə bu təklifi o qədər də həvəslə dəstəkləmirdim. Çünki burada bizim üçün məsələlər, problemlər var, misal üçün, sülh haqqında Ermənistan prezidenti ilə bəyannamə imzalamalı idik. Biz tez-tez görüşsək də, Ermənistan tərəfindən hərbi təcavüzü, hərbi münaqişəni nəzərə alsaq görərik ki, bu sənədi imzalamaq o qədər də yerinə düşmür. Buna baxmayaraq, hesab edirəm ki, bu, faydalıdır.

**M ü x b i r :** Çox sağ olun.



## ALMANİYA FEDERATİV RESPUBLİKASINA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*1 iyul 1996-cı il*

Almaniya ilə ölkəmiz arasında münasibətlər yaxşıdır. Mən Almaniya rəhbərləri ilə – həm prezident Roman Hersoq, həm də federal kansler Helmut Kol ilə beynəlxalq təşkilatlarda, ayrı-ayrı ölkələrdə görüşmüşəm. Almaniyanın xarici işlər naziri cənab Klaus Kinkel ilə xarici ölkələrdə bir neçə dəfə görüşümüz olub. Onun Azərbaycana rəsmi səfəri zamanı bir çox geniş danışıqlar aparmışıq.

Almaniya təkcə Azərbaycana deyil, ümumiyyətlə, regionumuza, keçmiş Sovet İttifaqına mənsub olmuş ölkələrə böyük diqqət yetirir, onların barəsində çox prinsipial mövqe tutur. Xüsusən Ermənistan-Azərbaycan münaqişəsində də Almaniyanın mövqeyi birmənalıdır. Belə ki, onlar Azərbaycanın ərazi bütövlüyünü tanıdıqlarını qəti şəkildə elan ediblər, məsələnin ədalətlə həll olunmasına tərəfdardırlar. İndi Minsk qrupunun həmsədrlərindən biri, Finlandiya nümayəndəsi dəyişdiriləcəkdir. Buna görə də Almaniya həmsədrlərdən biri olmaq istəyir. Bizim bu barədə də söhbətlərimiz olacaqdır.

O ki qaldı Almaniya ilə iqtisadi əlaqələrimizə, bu əlaqələr də inkişaf edir. Bildiyiniz kimi, Almaniyanın 45 şirkət və firmasının Azərbaycanda nümayəndəlikləri var. Güman edirəm ki, mənim səfərim zamanı keçirəcəyimiz görüşlərin əsas mövzusu iqtisadi əlaqələrin genişlənməsi ilə, Almaniyanın Azərbaycana daha çox sərmayə qoyması ilə bağlı olacaqdır. Biz bu məsələlər barəsində həm federal kansler cənab Helmut Kol ilə, həm də ölkənin işgüzar dairələrinin nümayəndələri ilə ətraflı söhbət edəcəyik. Buna görə də bu səfər çox əhəmiyyətli səfərdir. İndi Almaniya dünyanın böyük ölkələrindən biridir. Avropada çox mühüm yer tutur. Mən bunları nəzərə alaraq bu səfərə xüsusi qiymət verirəm.

– Cənab Prezident, Almaniya kimi nüfuzlu və güclü bir dövlət tərəfdaşlarını özü müəyyənləşdirir. Bu mənada Azərbaycanla Almaniya

arasında iqtisadi əməkdaşlıqda ən sox hansı sahələr üstünlük təşkil edir?

–Bilirsinizmi, onlar ən çox energetika, metallurgiya sahələrimizə maraq göstərirlər. İndi onların bizim neft və qaz sahəsinə də marağı artmışdır. Sözlərim eləcə də kimya, maşınqayırma sahələrinə aiddir. Almaniya bu sahələrdə çox yüksək nailiyyətlərə, çox güclü şirkətlərə, ümumiyyətlə böyük imkanlara malikdir. Əgər həmin sahələrdə, eləcə də başqa sahələrdə biz onlarla əməkdaşlığı yaxşı qura bilsək, onda hər iki tərəf, yəni həm Almaniya, həm də Azərbaycan mənfəət götürə biləcəkdir.



# ALMANİYA FEDERATİV RESPUBLİKASINA RƏSMİ SƏFƏRƏ HƏSR OLUNMUŞ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Bonn*
*3 iyul 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Bu gün məni buraya, sizin şəhərin mətbuat mərkəzinə, jurnalistlər evinə dəvət etdiyinizə görə təşəkkür edirəm.

Bildiyiniz kimi, mən Almaniya Federativ Resrublikası hökumətinin dəvəti ilə iyulun 1-də Almaniyaya rəsmi səfərə gəlmişəm. Bu, müstəqil Azərbaycan Respublikasının dövlət başçısının, Prezidentinin Almaniyaya ilk səfəridir.

Dünən səhər tezdən burada, Almaniyada bizim görüşlərimiz başlayıbdır. Mən Almaniyanın federal prezidenti cənab Roman Hersoq, federal kansler cənab Helmut Kol və Almaniyanın digər hökumət nümayəndələri ilə, eyni zamanda Bundestaqın rəhbərliyi və deputatları ilə görüşlər keçirmişəm. Çox ətraflı müzakirələrimiz, danışıqlarımız olubdur. Hesab edirəm ki, bu görüşlər, danışıqlar nəticəsində Azərbaycan – Almaniya əlaqələrinin inkişaf etdirilməsi üçün səmərəli iş görmüşük.

Azərbaycan Respublikası gənc, müstəqil dövlətdir, öz müstəqilliyinin beşinci ilini yaşayır və müstəqil dövlət kimi Dünya Birliyində özünə layiq yer tutmaq istəyir. Bu məqsədlə Azərbaycan Respublikası dünyanın bütün ölkələri ilə ikitərəfli, qarşılıqlı surətdə faydalı əlaqələr qurur.

Həmin ölkələr içərisində Almaniya Federativ Respublikası Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edir. Almaniya iqtisadiyyat sahəsində böyük nailiyyətlər əldə etdiyinə, demokratik ölkə, dövlət və demokratik cəmiyyət olduğuna görə, dünya siyasətində və iqtisadiyyatında görkəmli yer tutduğuna, dünyanın böyük dövlətlərindən biri olduğuna görə Azərbaycan Almaniya ilə münasibətlərinə və əlaqələrinə xüsusi fikir verir. Son illərdə bu əlaqələr yaranıb, biz bunları inkişaf etdirməyə çalışmışıq. Almaniya səfərimdən məqsədim bu əlaqələri daha yüksək səviyyəyə qaldırmaq və onların daha da dərinləşməsi və genişlənməsi, inkişaf etməsi üçün yeni tədbirlər görməkdir.

Dünən Almaniyanın dövlət, hökumət başçıları və rəsmi dairələri ilə apardığımız söhbətlərdə, hesab edirəm ki, Azərbaycan-Almaniya əlaqələrinin inkişaf etməsi üçün yaxşı əsas yaranıbdır. Mən bu görüşlərdən və danışıqlardan məmnun olduğumu söyləmək və bildirmək istəyirəm ki, bizə – mənə və məni müşayiət edənlərə çox yüksək qonaqpərvərlik, diqqət və qayğı göstərilir. Bunlara görə də alman xalqına, Almaniya hökumətinə təşəkkür edirəm.

Apardığımız danışıqlarda iqtisadi əlaqələrin genişləndirilməsi, iqtisadiyyat sahəsində əməkdaşlığın daha da sürətləndirilməsi problemi mərkəzi yer tutur. Bu sahədə böyük imkanlar var və biz çalışırıq ki, bunlardan səmərəli istifadə edək. Bu gün səhər Köln şəhərində – ölkənin iqtisadiyyat, sənaye mərkəzində Almaniyanın iş adamlarının çoxsaylı nümayəndələri, şirkətlərin rəhbərləri və nümayəndələri ilə görüşmüşəm. Hesab edirəm ki, bu görüş zamanı Azərbaycanın Almaniya ilə əməkdaşlıq etmək imkanlarını geniş açıb söyləyə bilmişəm.

Bilirsiniz ki, Azərbaycan Avropaya daxildir. Avropanın Asiya ilə birləşdiyi bölgədə yerləşir. Azərbaycanın çox əhəmiyyətli coğrafi-siyasi mövqeyi var. Ölkəmizin təbii sərvətləri, Qafqazda tutduğu mövqe, Avropa ilə Asiya arasındakı yolların kəsişdiyi yerdə olması, ümumiyyətlə, Avropa ölkələrinin marağını cəlb edir, o cümlədən bütün bunlar Almaniya üçün də maraqlıdır. Güman edirəm ki, indiyədək keçirdiyimiz görüşlər və bu gün, sabah da nəzərdə tutulan görüşlərimiz Azərbaycan-Almaniya əlaqələrini, xüsusən iqtisadi əlaqələrimizi genişləndirəcək. Biz bu əməkdaşlığın daha da yüksəklərə qaldırılmasına tərəfdarıq.

Mən sizə təşəkkür edirəm və suallarınıza cavab verməyə hazıram.

**S u a l:** Cənab Prezident, Siz görüşlərinizdə deyirsiniz ki, Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması çox çətin məsələlərdən biridir və beynəlxalq təşkilatlar, qurumlar bu işdə yardımçı ola bilərlər. Siz həmin yardımı nədə görürsünüz və bu çətin məsələnin həll olunması perspektivinə necə baxırsınız?

**H e y d ə r Ə l i y e v:** Bəli, Ermənistan-Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ ilə əlaqədar olan münaqişənin aradan qaldırılması çətin məsələdir. Bu münaqişə səkkiz il öncə, 1988-ci ildə başlayıbdır və deyə bilərəm ki, dünyada olan bütün münaqişələr arasında həm ən uzun çəkən, həm də çox mürəkkəb münaqişədir. Bu münaqişə Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində başlayıbdır. Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsini ələ keçirmək məqsədi ilə hərbi təcavüz etmiş və bunun nəticəsində döyüşlər başlanmışdır. Həmin döyüşlər nəticəsində müəyyən səbəblərə görə Ermənistan silahlı qüvvələri Azərbaycan Respublikası ərazisinin 20 faizini işğal edə bilibdir. Bu ərazilərdən bir milyondan artıq Azərbaycan vətəndaşı zorla çıxarılıb, yerindən-yurdundan didərgin düşərək, Azərbaycanın başqa bölgələrində ağır vəziyyətdə, qaçqın vəziyyətində, əksəriyyəti çadırlarda yaşayır.



Münaqişə nəticəsində Azərbaycana böyük zərbələr dəyib, ölkəmiz böyük itkilər veribdir, insanlar tələf olubdur. Azərbaycan xalqının indi işğal olunmuş torpaqlarda əsrlər boyu qurduğu,yaratdığı hər şey – yaşayış evləri, tarixi abidələr, istehsal müəssisələri – fabriklər, zavodlar, elektrik stansiyaları, eləcə də xəstəxanalar, məktəblər, mədəniyyət ocaqları dağıdılıb, viran edilibdir. Bütün bu zərbələrə, itkilərə baxmayaraq, Azərbaycan respublikası, onun dövləti məsələnin sülh yolu ilə həll olunmasının tərəfdarıdır. Məhz buna görə də iki il öncə Ermənistan ilə Azərbaycan arasında hərbi əməliyyatların, atəşin dayandırılması haqqında saziş imzalanıbdır. İki ildir ki, atəş yoxdur, biz atəşkəs rejimində yaşayırıq. Ancaq eyni zamanda tam sülh də yoxdur.

Biz sülh istəyirik, yenidən döyüşlərin, atəşin başlanmasının tərəfdarı deyilik. Ona görə də sülhə nail olmaq üçün öz tərəfimizdən çox ciddi və konstruktiv addımlar atırıq. Siz dediniz, mən də təsdiq etdim ki, bu məsələnin həll olunması çətindir. Ancaq məsələni həll etmək üçün sadəcə şərtlər var. Şərtlər də ondan ibarətdir ki, Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş torpaqlarından çıxmalı, Azərbaycan Respublikasının ərazi bütövlüyü, beynəlxalq təşkilatlar tərəfindən tanınmış sərhədlərinin toxunulmazlığı təmin edilməlidir. Belə olan şəraitdə Azərbaycan Dağlıq Qarabağda yaşayan ermənilərin – orada yüz minədək erməni yaşayır – təhlükəsizliyinin təmin olunmasını öz üzərinə götürür, eyni zamanda Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağa müasir dünya təcrübəsində mövcud olan ən yüksək muxtariyyət statusu verməyə hazırdır.

Bu şərtlər sadədir, ədalətlidir. Əgər bu şərtlər mövcud olduğu halda məsələ indiyə qədər həll edilmirsə, buna Ermənistan tərəfi maneçilik törədir. Təəssüf ki, Ermənistan tərəfi məsələnin həllinə ədalətsiz yanaşır. Dağlıq Qarabağı müstəqil etmək, yəni ona «dövlət müstəqilliyi» statusu almaq istəyir. Ona görə də bu şərtlər həyata keçirilmir. Mən isə bəyan edirəm ki, Dağlıq Qarabağa heç vaxt «dövlət müstəqilliyi» statusu verilə bilməz. Azərbaycanın ərazi bütövlüyünün saxlanması beynəlxalq hüquq

normalarına uyğun tələbdir. Hər bir ölkə öz ərazisinin bütövlüyünü qorumalıdır. İndiki halda isə məsələnin həll edilməsi, sübhəsiz ki, ləngiyir.

Məsələnin həlli ilə ATƏT-in Minsk qrupu məşğuldur. Minsk qrupu çox danışıqlar aparır, görüşlər keçirir. Biz bütün bu təkliflərimizi Minsk qrupuna veririk. Ancaq güman edirəm ki, Minsk qrupu da məsələnin ədalətlə həll olunması üçün hələ lazımi qərar qəbul edə bilməyibdir. Minsk qrupunun fəaliyyətinin gücləndirilməsi lazımdır, biz bunu istəyirik. Eyni zamanda dünyanın böyük dövlətləri – Minsk qrupunun üzvü olan və olmayan dövlətlər də bu məsələnin həlli üçün səylərini artırmalıdır. Minsk qrupuna daxil olan ölkələrdən biri kimi Almaniya da bu məsələnin həll edilməsində çox təsirli iş görə bilər. Ümidvaram ki, bu məsələ sülh yolu ilə həll olunacaqdır. Biz yenə də, yenə də sülh istəyir, məsələnin sülh yolu ilə həll edilməsini istəyirik.

**S u a l:** Cənab Prezident, Siz Azərbaycanda hüquqi demokratik dövlətin qurulmasından danışdınız. Lakin seçkiləri müşahidə edən ekspertlərin fikrincə, Azərbaycanda seçkilər demokratik keçirilməyib, müxalifət partiyaları qadağan olunub, qəzetlərin hamısı bağlanıb, jurnalistlər dustaqxanalarda yatırlar. Belə bir ölkədə demokratiyadan necə danışmaq olar?

**H e y d ə r Ə l i y e v:** Güman edirəm ki, cənab Manuçaryanın sualı onun Azərbaycana qarşı nə qədər qərəzli olduğunu göstərir. Birincisi, onu demək istəyirəm ki, cənab Manuçaryanın dediyi sözlərin hamısı yalandır, heç biri həqiqətə uyğun deyildir. Güman edirəm ki, o, bunların hamısını özü uydurur.

Həqiqət isə bundan ibarətdir: Azərbaycanda 30-dan çox siyasi partiya rəsmi qeydiyyatdan keçibdir. Bu partiyalar sərbəst fəaliyyət göstərir və onların əksəriyyəti müxalifətdə olan partiyalardır. Ötən ilin noyabrındakı parlament seçkiləri həm majoritar, həm də proporsional sistem əsasında keçirilirdi və seçkilərdə 8 siyasi partiya iştirak edirdi. Bu seçkilər nəticəsində parlamentə müxalifət partiyalarından həm proporsional sistem əsasında, yəni partiyaların siyahıları ilə, həm də majoritar sistem əsasında deputatlar seçilibdir. İndi Azərbaycan parlamentində 8 partiyanın nümayəndələri təmsil olunubdur. Bəzi deputatlar barışmaz müxalifət partiyalarının nümayəndələridir.

Azərbaycanda siyasi plüralizm, mətbuat azadlığı tamamilə təmin olunubdur. Mən qəzetlərin sayını-hesabını deyə bilmərəm, bir neçə yüzdən artıq qəzet buraxılır. Budur, deyirlər ki, 560 qəzet çıxır. Bunların böyük əksəriyyəti müxalifət partiyalarına, siyasi təşkilatlara məxsus



olan qəzetlərdir. Heç bir senzura yoxdur. Hansı jurnalist nə istəyirsə, onu da yazır. O cümlədən Azərbaycandakı iqtidar da çox ciddi tənqid olunub və məqalələrdə bəzən cənab Manuçaryan kimi, iqtidarın adına yalanlar, uydurmalar da söylənilir. Mən bunların hamısını normal hesab edirəm. Cənab Manuçaryanın sualını da, ümumiyyətlə, sual kimi normal hesab edirəm, əgər yalan danışmasaydı. Mən açıq deyirəm ki, Azərbaycanın həbsxanalarında bir nəfər də olsun jurnalist yoxdur. Bir il bundan öncə bir neçə gənc jurnalist yazılarında Azərbaycan prezidentini təhqir etdiyinə görə həbs olunmuşdu. Bundan sonra onlar mənə müraciət etmişdilər ki, əfv edim. Bu hadisəni biləndən sonra mən onları əfv etdim və həbsxanadan azad olundular.

Aprel ayında Bakıda Türkiyədən gəlmiş bir jurnalist həbs olunmuşdu. O, jurnalistliyinə görə yox, gecə vaxtı cinayətkarlarla birlikdə tutulduğuna görə həbs edilmişdi. Ancaq baxmayaraq ki, o, həqiqətən cinayət etmişdi, Türkiyənin İqdır vilayəti nümayəndələrinin mənə müraciətindən sonra onu da əfv etdim, həbsxanadan azad olundu, öz vətəninə – Türkiyəyə qayıtdı.

Azərbaycanda həqiqətən demokratik hüquqi dövlət qurulur, insan hüquqları qorunur. Keçən ilin noyabrında qəbul olunmuş ilk demokratik konstitusiyanın maddələrinin üçdə biri insan haqlarının qorunmasına həsr edilibdir. Mən sizin sualınıza ümumi sözlərlə yox, faktlarla cavab verdim. Amma eyni zamanda mənə bu sualı verdiyinizə görə təşəkkür edirəm. Çünki bu, mənə imkan yaratdı ki, Azərbaycanda gedən demokratik proseslər haqqında burada olan jurnalistlərə ətraflı məlumat verim.

**S u a l:** Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması ilə əlaqədar bir neçə vasitəçilik missiyası cəhdləri olmuşdur. Siz Rusiyanın indiki rəhbərliyinin bu işə köməyini necə qiymətləndirirsiniz və vəziyyətin normal hala salınması üçün Moskva daha nə edə bilər?

**H e y d ə r Ə l i y e v:** Məsələnin sülh yolu ilə həll edilməsi üçün səkkiz il müddətində vasitəçilik rolu oynayan dövlətlər, ayrı-ayrı siyasi qurumlar həqiqətən olubdur. Şübhəsiz ki, hər bir vasitəçilik təşəbbüsü müəyyən mərhələdə bu məsələnin həll olunmasına müəyyən kömək edibdir. Amma ümumən məsələnin həllinə nail olmaq mümkün olmayıbdır.

Mən dedim ki, artıq dörd ildən çoxdur, məsələnin həlli ilə bilavasitə ATƏT-in Minsk qrupu məşğul olur. 1994-cü ilin dekabrından Minsk qrupuna iki ölkə – Rusiya və Finlandiya həmsədrlik edir. Minsk qrupu

çərçivəsindən əlavə, Rusiya dövləti müstəqil vasitəçilik təşəbbüsləri də göstəribdir. Eyni zamanda dünyanın böyük ölkələri – Amerika Birləşmiş Ştatları, Türkiyə və başqa ölkələr də müstəqil təşəbbüslər edibər və vasitəçilik təklifləri veriblər. Rusiya və onun dövlət başçısı cənab Boris Yeltsin bu məsələni mənimlə bir neçə dəfə müzakirə edib və məsələnin həlli üçün bindan sonra da təşəbbüs, lazımi səylər göstərəcəkləri haqqında bəyanatlar veribdir.

Amerika Birləşmiş Ştatları da bu sahədə təşəbbüslər göstərir. Bu barədə ABŞ prezidenti cənab Bill Klintonla da görüşlərim, danışıqlarım olubdur.

Əgər sualınıza konkret cavab istəyirsinizsə ki, Rusiya bu sahədə nə edə bilər – deyirəm ki, çox şey edə bilər və bu məsələnin həll olunmasına çox güclü təsir göstərə bilər. Prezident seçkilərindən sonra Rusiya bu məsələyə bəlkə daha da fəal qoşulaçaqdır.

«**R İ A-N o v o s t i**»: Mən də Sizə bir sual vermək istəyirəm: Rusiyada prezident seçkiləri haqqında nə məlumatınız var?

**M ü x b i r**: Zənnimcə, seçkilər sakit keçir.

**H e y d ə r Ə l i y e v**: Sakit keçir? Çox gözəl.

**S u a l**: Cənab Prezident, deyə bilərsinizmi, Almaniyada görüşləriniz zamanı konkret olaraq hansı müqavilələri imzalamısınız?

**H e y d ə r Ə l i y e v**: Keçən ilin dekabrında Almaniyanın xarici işlər naziri, federal kanslerin müavini cənab Kinkel Azərbaycanda olarkən, Almaniya ilə Azərbaycan arasında bir neçə müqavilə imzalanıbdır. Dünən də Azərbaycanın nümayəndələri cənab Kinkel ilə və iqtisadiyyat naziri ilə bir neçə müqavilə imzalayıblar. Bu müqavilələrin hamısı Azərbaycan ilə Almaniya arasında iqtisadi məsələlərin həllinə həsr olunubdur. Hesab edirəm ki, bu sənədlər iqtisadi sahədə əməkdaşlıq etməyimiz üçün yaxşı hüquqi-müqavilə əsasları yaradır.

**S u a l**: Cənab Prezident, federal kansler ilə görüşünüz zamanı Azərbaycan üçün hansı üstün məsələlər müzakirə olunmuşdur?

**H e y d ə r Ə l i y e v**: Dünən cənab Helmut Kol ilə danışıqlarımız əvvəldən axıra qədər üstünlük verdiyimiz məsələlərlə əlaqədar olmuşdur. Çünki danışıqlarda üstünlük daşımayan heç bir məsələ müzakirə edilməyibdir. Şübhəsiz ki, danışıqlarda əsas diqqətimiz və müzakirəmiz iqtisadi əlaqələrin inkisaf etdirilməsinə yönəldilmişdi.

Almaniyanın şirkətləri, konsernləri Azərbaycanda hələlik zəif təmsil olunublar. Eyni zamanda dünən və bu gün də qeyd etdik ki, Almaniyanın



«Siemens» və «Mannesmann» şirkətləri XX əsrin birinci illərindən Azərbaycanda fəaliyyət göstəriblər. İndi Almaniyanın iş adamlarının, şirkətlərinin Azərbaycanda iş görmələri üçün böyük imkanlar açılıbdır, xüsusən neft sənayesi, metallurqiya, energetika, maşınqayırma, kimya sənayesi və bir çox başqa sahələrdə. Biz bu məsələləri cənab Helmut Kol ilə müzakirə etdik və belə fikrə gəldik ki, konkret layihələr təqdim edilərkən federal kansler bunların həyata keçirilməsinə kömək edəcəkdir.

Federal kansler ilə Transqafqaz nəqliyyat magistralı haqqında da çox geniş danışıqlar apardıq. Artıq dörd ölkə – Özbəkistan, Türkmənistan, Gürcüstan və Azərbaycan belə bir maqistralın yaranması üçün saziş imzalayıbdır. Transqafqaz magistralı Orta, Mərkəzi Asiyanı Avropa ilə birləşdirir, Orta Asiyadan, Xəzər dənizindən, Azərbaycandan, Gürcüstandan Qara dənizə, oradan isə Avropaya, xüsusən Dunay çayı ilə Almaniyaya qədər uzana biləcək maqistraldır. Bu da üstün məsələ kimi müzakirə olunmuşdur.

Şübhəsiz ki, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələsi danışıqlarımızın mərkəzində durmuşdu. Qafqaz regionu, bu regionda olan ölkələr, Almaniyanın onlarla əlaqələri də üstün məsələlər kimi müzakirə edilmişdir. Görürsünüz, üstünlük daşımayan məsələlər yoxdur.

**S u a l**: Cənab Prezident, Rusiya barədə sual vermək istəyirəm. Boris Yeltsinin xəstələnməsi ilə bağlı qayğılarınız varmı?

**H e y d ə r Ə l i y e v**: Mən bilmirəm, Boris Yeltsin xəstələnib, yaxud xəstələnməyib. Mənə belə gəlir ki, xəstələnməyib. Əgər xəstələnmiş olsa, Moskvada çox yüksək səviyyəli həkimlər, tibb xidməti var. Vaxtilə Moskvada bir çox illər yaşamiş və işləmişəm. Oradakı həkimlərin və tibb xidmətinin çox yüksək səviyyədə olduğunu bilirəm. Əgər Boris Yeltsin xəstələnmiş olsa, ona mütləq lazımi yardım göstərərlər və mənim qayğıma ehtiyac yoxdur.

**S u a l**: Cənab Prezident, biz bilirik ki, Azərbaycanda demokratiya inkişaf edir, ancaq İslam Partiyası adı altında ölkənin müstəqilliyinə qarşı fəaliyyət göstərənlər də var. Siz buna necə baxırsınız?

**H e y d ə r Ə l i y e v**: Hesab edirəm ki, bütün ölkələrdə demokratiya bərqərar olmalıdır. Son illərdə dünyada gedən ictimai-siyasi proseslər bunu sübut edir. Bizim müstəqilliyimizi isə heç kəs əlimizdən ala bilməz, bundan narahat olmayın.

Sağ olun, diqqətinizə görə təşəkkür edirəm.

# KİTABIN İÇİNDƏKİLƏR

BÖYÜK SİYASƏT VƏ DEMOKRATİK MƏTBUAT ... 5

1990-cı İL 20 YANVAR FACİƏSİ İLƏ ƏLAQƏDAR AZƏRBAYCANIN MOSKVADAKI DAİMİ NÜMAYƏNDƏLİYİNDƏ KEÇİRİLMİŞ YIĞINCAQDA HEYDƏR ƏLİYEVİN ÇIXIŞI
*21 yanvar 1990-cı il* ... 30

«VAŞİNQTON POST»un MÜXBİRİ DAVİD REMNİKLƏ MÜSAHİBƏ ... 33

DAHA SUSA BİLMƏZDİM «ŞƏRQ QAPISI»nın MÜXBİRİ İLƏ MÜSAHİBƏ
*26 iyul 1990-cı il* ... 37

«NAÇALO»nun MÜXBİRLƏRİ ALEKSANDR ŞUMSKİ VƏ ALEKSEY MİTROFANOVLA MÜSAHİBƏ ... 46

«NƏ HƏDƏLƏRDƏN, NƏ RƏZİL NİYYƏTLƏRDƏN QORXURAM» «NEZAVİSİMAYA QAZETA»nın MÜXBİRİ İLƏ MÜSAHİBƏ ... 55

«ALLAH ƏLİYEVİ XALQI XİLAS ETMƏK ÜÇÜN GÖNDƏRİB» «MOSKOVSKİYE NOVOSTİ»nin İCMALÇISI VLADİMİR YEMELYANENKO İLƏ MÜSAHİBƏ
*2 may 1993-cü il* ... 61

«OSTANKİNO» DÖVLƏTLƏRARASI TELEVİZİYA ŞİRKƏTİNƏ MÜSAHİBƏ ... 66

«MƏN XALQA MİNNƏTDARAM» «ROSSİYSKİ FERMER» QƏZETİNİN MÜXBİRİ İLƏ SÖHBƏT
*3 avqust 1993-cü il* ... 77

«MƏN SİZƏ HEÇ NƏ VƏD ETMİRƏM» «SOBESEDNİK»in MÜXBİRİ MİXAİL SERDYUKOVLA MÜSAHİBƏ ... 82



YAZIÇI ALEKSANDR PROXANOVLA MÜSAHİBƏ ... 89

«NEZAVİSİMAYA QAZETA»nın MÜXBİRİ VİTALİ TRETYAKOVLA MÜSAHİBƏ
*24 avqust 1993-cü il* ... 95

MARQARET AF UQLAS İLƏ DANIŞIQLAR BAŞA ÇATDIQDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT
*26 oktyabr 1993-cü il* ... 103

TÜRKİYƏYƏ RƏSMİ SƏFƏRƏ YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*8 fevral 1994-cü il* ... 108

AZƏRBAYCAN TELEQRAF AGENTLİYİNİN – AzərTAc-ın KOLLEKTİVİNƏ
*3 mart 1994-cü il* ... 109

ÇİN XALQ RESPUBLİKASINA RƏSMİ SƏFƏR ZAMANI PEKİNDƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT
*8 mart 1994-cü il* ... 110

ÇİN XALQ RESPUBLİKASINDAN BAKIYA QAYIDARKƏN ALMATIDA SƏFƏRİN YEKUNLARI BARƏDƏ JURNALİSTLƏR QARŞISINDA ÇIXIŞ
*10 mart 1994-cü il* ... 120

AĞCABƏDİ RAYONUNDA JURNALİSTİN SUALINA CAVAB VƏ DÖYÜŞÇÜLƏR QARŞISINDA ÇIXIŞ ... 122

ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI TƏCAVÜZÜNÜN GÜCLƏNMƏSİ İLƏ ƏLAQƏDAR RESPUBLİKA MİLLİ TELEVİZİYA VƏ RADİOSU İLƏ XALQA MÜRACİƏT
*12 aprel 1994-cü il* ... 124

BRÜSSELƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ BƏYANAT
*3 may 1994-cü il* ... 134

BRÜSSELDƏKİ BEYNƏLXALQ MƏTBUAT MƏRKƏZİNDƏ XARİCİ ÖLKƏ JURNALİSTLƏRİ ÜÇÜN MƏTBUAT KONFRANSI
*4 may 1994-cü il* ... 136

TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ QISAMÜDDƏTLİ İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*9 iyun 1994-cü il* ........ 144

İSTANBULUN ATATÜRK HAVA LİMANINDA RƏSMİ QARŞILANMA MƏRASİMİNDƏN SONRA JURNALİSTLƏR QARŞISINDA BƏYANAT
*9 iyun 1994-cü il* ........ 146

TÜRKİYƏDƏN VƏTƏNƏ QAYIDARKƏN İSTANBULUN ATATÜRK HAVA LİMANINDA JURNALİSTLƏR ÜÇÜN BRİFİNQDƏ BƏYANAT
*10 iyun 1994-cü il* ........ 148

«ROSSİYSKAYA QAZETA»nın MÜXBİRİNƏ MÜSAHİBƏ ........ 151

TEHRANDA MƏTBUAT KONFRANSINDA BƏYANAT
*2 iyul 1994-cü il* ........ 157

İRAN İSLAM RESPUBLİKASINDAN VƏTƏNƏ YOLA DÜŞƏRKƏN «MEHRABAD» HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*2 iyul 1994-cü il* ........ 161

«UTRO ROSSİİ» QƏZETİNƏ MÜSAHİBƏ ........ 162

SƏUDİYYƏ ƏRƏBİSTANINA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA MÜXBİRİN SUALINA CAVAB
*9 iyul 1994-cü il* ........ 168

SƏUDİYYƏ ƏRƏBİSTANININ CİDDƏ ŞƏHƏRİNDƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT
*11 iyul 1994-cü il* ........ 169

MƏSCİDLƏ TANIŞLIQDAN SONRA JURNALİSTLƏRLƏ GÖRÜŞDƏ BƏYANAT
*12 iyul 1994-cü il* ........ 180

SƏUDİYYƏ ƏRƏBİSTANINDAN VƏTƏNƏ YOLA DÜŞƏRKƏN MƏDİNƏ HAVA LİMANINDA ÇIXIŞ
*13 iyul 1994-cü il* ........ 181

SƏUDİYYƏ ƏRƏBİSTANINDAN VƏTƏNƏ YOLA DÜŞƏRKƏN JURNALİSTLƏRLƏ GÖRÜŞDƏ BƏYANAT ........ 182



22 İYUL – MİLLİ MƏTBUAT GÜNÜ MÜNASİBƏTİLƏ TƏBRİK
*21 iyul 1994-cü il* ........ 184

«NEDELYA»nın XÜSUSİ MÜXBİRİNƏ MÜSAHİBƏ ........ 185

«XALQ QƏZETİ» REDAKSİYASININ KOLLEKTİVİNƏ
*25 avqust 1994-cü il* ........ 187

QAHİRƏDƏ «DÜNYA ƏHALİSİ VƏ İNKİŞAF» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK ETMƏK ÜÇÜN MİSİR ƏRƏB RESPUBLİKASINA YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA MÜXBİRİN SUALINA CAVAB
*4 sentyabr 1994-cü il* ........ 188

QAHİRƏDƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT
*6 sentyabr 1994-cü il* ........ 189

MOSKVAYA MDB ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ GÖRÜŞÜNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*8 sentyabr 1994-cü il* ........ 198

MOSKVAYA UÇARKƏN TƏYYARƏDƏ «DELOVOY MİR» QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ
*20 sentyabr 1994-cü il* ........ 199

MÜQAVİLƏNİN İMZALANMASI MƏRASİMİ BAŞA ÇATDIQDAN SONRA MƏTBUAT KONFRANSINDA BƏYANAT ........ 208

AZƏRBAYCAN MİLLİ TELEVİZİYASI VƏ RADİOSU İLƏ ÇIXIŞ
*22 sentyabr 1994-cü il* ........ 213

BMT BAŞ MƏCLİSİNİN 49-cu SESSİYASINDA MİLLƏTLƏR BİRLİYİNİN XÜSUSİ SALONUNDA MƏTBUAT KONFRANSINDA BƏYANAT
*29 sentyabr 1994-cü il* ........ 227

ABŞ-ın Sİ-EN-EN TELEVİZİYA ŞİRKƏTİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ
*29 sentyabr 1994-cü il* ........ 232

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN BƏYANATI
*30 sentyabr 1994-cü il* ........ 235

ABŞ-a SƏFƏRDƏN VƏTƏNƏ QAYIDARKƏN İSTANBULDA TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLLƏ GÖRÜŞDƏN SONRA JURNALİSTLƏRƏ BƏYANAT
*1 oktyabr 1994-cü il* ..... 236

RESPUBLİKA MİLLİ TELEVİZİYASI VƏ RADİOSU İLƏ ÇIXIŞ
*3 oktyabr 1994-cü il* ..... 239

RESPUBLİKA MİLLİ TELEVİZİYASI VƏ RADİOSU İLƏ XALQA MÜRACİƏT
*4 oktyabr 1994-cü il* ..... 262

TÜRK DÖVLƏTLƏRİ BAŞÇILARININ 2-ci ZİRVƏ TOPLANTISINDA İŞTİRAK ETMƏK ÜÇÜN İSTANBULA YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*18 oktyabr 1994-cü il* ..... 269

İSTANBULDA TÜRK DÖVLƏTLƏRİ BAŞÇILARININ 2-ci ZİRVƏ TOPLANTISININ İŞİ BAŞA ÇATDIQDAN SONRA MƏTBUAT KONFRANSI
*19 oktyabr 1994-cü il* ..... 270

TÜRKMƏNİSTANIN MÜSTƏQİLLİK QAZANMASININ 3-cü İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ ŞƏNLİKLƏRDƏ İŞTİRAK ETMƏK ÜÇÜN AŞQABADA YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ QISA MÜSAHİBƏ
*26 oktyabr 1994-cü il* ..... 278

AŞQABADDA PAKİSTANIN BAŞ NAZİRİ BƏNƏZİR BHUTTO İLƏ GÖRÜŞDƏN SONRA JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*26 oktyabr 1994-cü il* ..... 279

«AZƏRBAYCAN GƏNCLƏRİ» QƏZETİNİN KOLLEKTİVİNƏ
*27 oktyabr 1994-cü il* ..... 282

AŞQABADDAN BAKIYA YOLA DÜŞƏRKƏN TƏYYARƏDƏ İRAN İSLAM RESPUBLİKASI VƏ TÜRKMƏNİSTAN PREZİDENTLƏRİ İLƏ GÖRÜŞLƏR BARƏDƏ JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*27 oktyabr 1994-cü il* ..... 283

BMT-nin BAŞ KATİBİ BUTROS BUTROS-QALİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ ZAMANI BAKIDA BİNƏ HAVA LİMANINDA QARŞILANMASI MƏRASİMİNDƏ ÇIXIŞ
*29 oktyabr 1994-cü il* ..... 287



BMT-nin BAŞ KATİBİ BUTROS BUTROS-QALİ İLƏ DANIŞIQLAR BAŞA ÇATDIQDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT
*30 oktyabr 1994-cü il* ..... 288

DAHİ AZƏRBAYCAN ŞAİRİ MƏHƏMMƏD FÜZULİNİN ANADAN OLMASININ 500 İLLİYİ MÜNASİBƏTİLƏ TÜRKİYƏDƏ KEÇİRİLƏN YUBİLEY TƏDBİRLƏRİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ QISA MÜSAHİBƏ
*1 noyabr 1994-cü il* ..... 294

ANKARADA «HİLTON» MEHMANXANASINDAKI İQAMƏTGAHDA TÜRKİYƏ VƏ AZƏRBAYCANDAKI XARİCİ ÖLKƏ SƏFİRLƏRİNİN QƏBULU ZAMANI ÇIXIŞ
*1 noyabr 1994-cü il* ..... 295

ANKARADA TÜRKİYƏ, AZƏRBAYCAN VƏ XARİCİ ÖLKƏ JURNALİSTLƏRİ ÜÇÜN MƏTBUAT KONFRANSINDA BƏYANAT
*1 noyabr 1994-cü il* ..... 300

MOSKVAYA İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*17 noyabr 1994-cü il* ..... 304

«AZƏRBAYCAN MÜƏLLİMİ» QƏZETİNİN KOLLEKTİVİNƏ TƏBRİK
*18 noyabr 1994-cü il* ..... 307

«AZƏRBAYCAN» QƏZETİNİN KOLLEKTİVİNƏ
*4 dekabr 1994-cü il* ..... 308

ATƏM-in ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ TOPLANTISINDA İŞTİRAK ETMƏK ÜÇÜN BUDAPEŞT ŞƏHƏRİNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*4 dekabr 1994-cü il* ..... 309

BUDAPEŞTDƏN VƏTƏNƏ QAYIDARKƏN ZİRVƏ TOPLANTISININ YEKUNLARI BARƏDƏ TƏYYARƏDƏ JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*7 dekabr 1994-cü il* ..... 310

MƏRAKEŞƏ – İSLAM KONFRANSI TƏŞKİLATININ KASABLANKA ZİRVƏ TOPLANTISINA YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*12 dekabr 1994-cü il* ..... 316

İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ KASABLANKA ZİRVƏ TOPLANTISINA GEDƏRKƏN İSTANBULUN ATATÜRK HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*12 dekabr 1994-cü il* ........ 318

KASABLANKA ZİRVƏ TOPLANTISI BAŞA ÇATDIQDAN SONRA MƏTBUAT ÜÇÜN BƏYANAT
*15 dekabr 1994-cü il* ........ 320

KASABLANKADAN VƏTƏNƏ QAYIDARKƏN İSTANBULUN ATATÜRK HAVA LİMANINDA MƏTBUAT ÜÇÜN BƏYANAT
*16 dekabr 1994-cü il* ........ 322

KASABLANKA ZİRVƏ TOPLANTISINDAN BAKIYA QAYIDARKƏN TƏYYARƏDƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*16 dekabr 1994-cü il* ........ 324

«REKLAMNIY VESTNİK»in MÜXBİRİNƏ MÜSAHİBƏ
*Dekabr 1994-cü il* ........ 333

QANLI YANVAR FACİƏSİNİN 5-ci İLDÖNÜMÜ İLƏ BAĞLI ŞƏHİDLƏR XİYABANINDA JURNALİSTLƏRİN SUALINA CAVAB
*20 yanvar 1995-ci il* ........ 337

«AZƏRBAYCAN QADINI» JURNALININ BAŞ REDAKTORU XALİDƏ XANIM HASİLOVAYA
*18 aprel 1995-ci il* ........ 339

YAPON JURNALİSTİ İLƏ MÜSAHİBƏ
*11 mart 1995-ci il* ........ 340

AVROPA BİRLİYİ RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞMƏK ÜÇÜN BELÇİKAYA YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*17 aprel 1995-ci il* ........ 342

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BELÇİKA RADİO VƏ TELEVİZİYASINA MÜSAHİBƏSİ
*17 aprel 1995-ci il* ........ 343

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ JELYU JELEVLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA ÇIXIŞ
*29 iyun 1995-ci il* ........ 346



RUMINİYA PREZİDENTİ İON İLİYESKU İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT
*2 iyul 1995-ci il* ........ 354

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ XANIM TANSU ÇİLLƏRLƏ BİRGƏ MƏTBUAT KONFRANSI
*11 iyul 1995-ci il* ........ 358

22 İYUL – MİLLİ MƏTBUAT GÜNÜ MÜNASİBƏTİLƏ TƏBRİK
*21 iyul 1995-ci il* ........ 364

UKRAYNA PREZİDENTİ LEONİD KUÇMA İLƏ BİRGƏ MƏTBUAT KONFRANSI
*28 iyul 1995-ci il* ........ 365

BOLQARISTANA VƏ RUMINİYAYA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA MƏTBUAT ÜÇÜN BƏYANAT
*29 iyul 1995-ci il* ........ 373

TÜRKDİLLİ DÖVLƏTLƏR BAŞÇILARININ ZİRVƏ TOPLANTISINDA MƏTBUAT KONFRANSINDA BƏYANAT
*28 avqust 1995-ci il* ........ 374

BİŞKEKDƏN ZİRVƏ TOPLANTISINDAN BAKIYA QAYIDARKƏN TƏYYARƏDƏ JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*29 avqust 1995-ci il* ........ 375

AVROPA BİRLİYİ KOMİSSİYASININ KOMİSSARI HANS VAN DEN BRUKLA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT
*4 oktyabr 1995-ci il* ........ 378

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ PAKİSTAN İSLAM RESPUBLİKASI ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏ MƏTBUAT ÜÇÜN BƏYANAT
*9 oktyabr 1995-ci il* ........ 380

BMT-nin 50 İLLİK YUBİLEYİ İLƏ ƏLAQƏDAR BMT BAŞ MƏCLİSİNİN XÜSUSİ TƏNTƏNƏLİ İCLASINDA İŞTİRAK ETMƏK ÜÇÜN ABŞ-a YOLA DÜŞƏRKƏN İSTANBULUN ATATÜRK HAVA LİMANINDA MƏTBUAT KONFRANSINDA BƏYANAT
*20 oktyabr 1995-ci il* ........ 382

BMT-nin 50 İLLİYİ İLƏ ƏLAQƏDAR YUBİLEY TƏNTƏNƏLƏRİ ZAMANI ABŞ-ın NÜFUZLU MƏTBUAT ORQANLARI VƏ İNFORMASİYA AGENTLİKLƏRİNİN MÜXBİRLƏRİNƏ MÜSAHİBƏ
*24 oktyabr 1995-ci il* ..... 389

Sİ-EN-EN TELEŞİRKƏTİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ
*25 oktyabr 1995-ci il* ..... 398

28 SAYLI SƏBAİL SEÇKİ DAİRƏSİNİN 17 SAYLI SEÇKİ MƏNTƏQƏSİNDƏ SƏS VERDİKDƏN SONRA JURNALİSTLƏRLƏ GÖRÜŞDƏ BƏYANAT
*12 noyabr 1995-ci il* ..... 402

LONDONDA ADAM SMİT ADINA İNSTİTUTUN VƏ AZƏRBAYCAN HÖKUMƏTİNİN BİRGƏ HAZIRLADIQLARI «AZƏRBAYCANDA İNVESTİSİYA İMKANLARI» BEYNƏLXALQ KONFRANSINA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA AZƏRBAYCAN TELEVİZİYASININ MÜXBİRİNƏ MÜSAHİBƏ
*28 noyabr 1995-ci il* ..... 411

«AZƏRBAYCANDA İNVESTİSİYA İMKANLARI» BEYNƏLXALQ KONFRANSINA HƏSR OLUNMUŞ MƏTBUAT KONFRANSI
*29 noyabr 1995-ci il* ..... 414

Bİ-Bİ-Sİ KORPORASİYASINDAKI GÖRÜŞDƏ Bİ-Bİ-Sİ-nin MÜXBİRİ İLƏ MÜSAHİBƏ
*30 noyabr 1995-ci il* ..... 421

BÖYÜK BRİTANİYANIN «EKONOMİST» JURNALININ MÜXBİRİNƏ MÜSAHİBƏ
*1 dekabr 1995-ci il* ..... 425

AZƏRBAYCAN JURNALİSTLƏRİNƏ MÜSAHİBƏ
*1 dekabr 1995-ci il* ..... 431

RİTA-SÖTA-nın MÜXBİRİNƏ MÜSAHİBƏ
*1 dekabr 1995-ci il* ..... 439

«MOND DİPLOMATİK» QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ
*3 dekabr 1995-ci il* ..... 443

İNGİLTƏRƏNİN «MİDDL İST MEQEZİN» JURNALININ MÜXBİRİNƏ MÜSAHİBƏ
*4 dekabr 1995-ci il* ..... 453



«İNTERNEŞNL HERALD TRİBYUN» QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ
*4 dekabr 1995-ci il* ..... 457

«MOND» QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ
*4 dekabr 1995-ci il* ..... 461

AZƏRBAYCANA RƏSMİ SƏFƏRƏ GƏLƏN TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN BİNƏ HAVA LİMANINDA QARŞILANMASI MƏRASİMİNDƏ BƏYANAT
*7 dekabr 1995-ci il* ..... 467

AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT
*8 dekabr 1995-ci il* ..... 468

FRANSA TELEVİZİYASININ MÜXBİRİ İLƏ MÜSAHİBƏ
*11 yanvar 1996-cı il* ..... 474

MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN İŞTİRAKÇISI OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA İŞTİRAK ETMƏK ÜÇÜN MOSKVAYA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*17 yanvar 1996-cı il* ..... 479

AZƏRBAYCAN RESPUBLİKASI VƏ RUSİYA FEDERASİYASI HÖKUMƏTLƏRİ ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIĞIN ƏSAS PRİNSİPLƏRİ VƏ İSTİQAMƏTLƏRİ HAQQINDA SAZİŞLƏR İMZALANDIQDAN SONRA RUSİYANIN BAŞ NAZİRİ VİKTOR ÇERNOMIRDİNLƏ BİRGƏ MƏTBUAT KONFRANSI
*18 yanvar 1996-cı il* ..... 481

RUSİYA PREZİDENTİ APARATI İNFORMASİYA İDARƏSİ RƏİSİNİN MÜAVİNİ MARİNA NEKRASOVAYA MÜSAHİBƏ
*18 yanvar 1996-cı il* ..... 485

MOSKVADAN VƏTƏNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL «VNUKOVO-2» AEROPORTUNDA JURNALİSTLƏRƏ BƏYANAT
*20 yanvar 1996-cı il* ..... 489

RUSİYA FEDERAL SƏRHƏD XİDMƏTİNİN DİREKTORU ANDREY NİKOLAYEVLƏ GÖRÜŞDƏN SONRA MƏTBUAT ÜÇÜN BƏYANAT
*14 fevral 1996-cı il* ..... 491

HƏŞTƏRXAN TELEVİZİYASININ MÜXBİRİ İLƏ MÜSAHİBƏ
*15 fevral 1996-cı il* .......... 494

AZƏRBAYCAN MİLLİ TELEVİZİYASININ 40 İLLİYİ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ YUBİLEY GECƏSİNDƏ ÇIXIŞ
*17 fevral 1996-cı il* .......... 499

KALMIKİYA PREZİDENTİ KİRSAN İLYUMJİNOVUN BAKI SƏFƏRİ ZAMANI AZƏRBAYCAN İLƏ KALMIKİYA ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ İMZALANDIQDAN SONRA KALMIKİYA TELEVİZİYASININ MÜXBİRİNƏ MÜSAHİBƏ
*20 fevral 1996-cı il* .......... 508

ATƏT-in SƏDRİ, İSVEÇRƏNİN XARİCİ İŞLƏR NAZİRİ FLAVİO KOTTİ İLƏ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ ÜÇÜN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT
*29 fevral 1996-cı il* .......... 510

GÜRCÜSTANA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALINA CAVAB
*8 mart 1996-cı il* .......... 516

AZƏRBAYCAN VƏ GÜRCÜSTAN NÜMAYƏNDƏ HEYƏTLƏRİ ARASINDA DANIŞIQLAR BAŞA ÇATDIQDAN VƏ SƏNƏDLƏR İMZALANDIQDAN SONRA GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZE İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT
*8 mart 1996-cı il* .......... 517

GÜRCÜSTAN TELEVİZİYASININ MÜXBİRİ İLƏ MÜSAHİBƏ
*10 mart 1996-cı il* .......... 521

BAKIDA BEYNƏLXALQ VALYUTA FONDUNUN SƏRƏNCAMÇI DİREKTORU MİŞEL KAMDESSÜ İLƏ DANIŞIQLAR BAŞA ÇATDIQDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSI
*12 mart 1996-cı il* .......... 527

AZƏRBAYCAN-TÜRKMƏNİSTAN SƏNƏDLƏRİNİN İMZALANMASINDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSI
*18 mart 1996-cı il* .......... 531

AZƏRBAYCAN-RUMINİYA DÖVLƏTLƏRARASI VƏ HÖKUMƏTLƏRARASI SƏNƏDLƏR İMZALANDIQDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT
*27 mart 1996-cı il* .......... 539



PAKİSTAN İSLAM RESPUBLİKASINA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*9 aprel 1996-cı il* .......... 547

AZƏRBAYCAN-PAKİSTAN SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA PAKİSTANIN BAŞ NAZİRİ BƏNƏZİR BHUTTO İLƏ BİRGƏ MƏTBUAT KONFRANSI
*9 aprel 1996-cı il* .......... 548

PAKİSTAN TELEVİZİYASININ MÜXBİRİ İLƏ MÜSAHİBƏ
*11 aprel 1996-cı il* .......... 551

VƏTƏNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL LAHOR HAVA LİMANINDA PAKİSTAN JURNALİSTLƏRİNƏ MÜSAHİBƏ
*11 aprel 1996-cı il* .......... 554

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ MƏSUD YILMAZIN BİNƏ HAVA LİMANINDA QARŞILANMA MƏRASİMİNDƏ BƏYANAT
*14 aprel 1996-cı il* .......... 555

AZƏRBAYCAN-TÜRKİYƏ SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA TÜRKİYƏNİN BAŞ NAZİRİ MƏSUD YILMAZLA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT
*14 aprel 1996-cı il* .......... 556

QƏRBİ AVROPA ÖLKƏLƏRİNƏ İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA MÜXBİRLƏRİN SUALLARINA CAVAB
*21 aprel 1996-cı il* .......... 560

AVROPA KONFRANS MƏRKƏZİNDƏ ZAQAFQAZİYANIN ÜÇ RESPUBLİKASI PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI
*22 aprel 1996-cı il* .......... 563

AZƏRBAYCAN PREZİDENTİNİN VƏ NATO-nun BAŞ KATİBİ HAVYER SOLANANIN JURNALİSTLƏRLƏ GÖRÜŞÜNDƏ ÇIXIŞ
*23 aprel 1996-cı il* .......... 571

BRÜSSELDƏN NORVEÇƏ RƏSMİ SƏFƏRƏ GƏLƏRKƏN OSLO HAVA LİMANINDA NORVEÇ JURNALİSTİNİN SUALINA CAVAB
*24 aprel 1996-cı il* .......... 573

MƏTBUAT KONFRANSINDA BƏYANAT
*25 aprel 1996-cı il* ........ 574

NORVEÇDƏ DƏNİZ NEFT PLATFORMASI İLƏ TANIŞLIQDAN SONRA RESPUBLİKA TELEVİZİYASINA MÜSAHİBƏ
*26 aprel 1996-cı il* ........ 579

«STATOYL» ŞİRKƏTİNİN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ VERDİYİ RƏSMİ ZİYAFƏTDƏ NİTQ
*26 aprel 1996-cı il* ........ 580

QƏRBİ AVROPA ÖLKƏLƏRİNƏ SƏFƏRDƏN QAYITDIQDAN SONRA RESPUBLİKA MİLLİ TELEVİZİYASINA MÜSAHİBƏ
*27 aprel 1996-cı il* ........ 582

MƏŞHƏD HAVA LİMANINDA İRAN MİLLİ TELEVİZİYASININ MÜXBİRİNƏ MÜSAHİBƏ
*12 may 1996-cı il* ........ 588

MDB ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ TOPLANTISINDA İŞTİRAK ETMƏK ÜÇÜN MOSKVAYA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*16 may 1996-cı il* ........ 589

«OQONYOK» JURNALI MÜXBİRLƏRİ İLƏ MÜSAHİBƏ ........ 590

AZƏRBAYCAN-ÖZBƏKİSTAN SƏNƏDLƏRİNİN İMZALANMASINDAN SONRA BİRGƏMƏTBUAT KONFRANSINDA BƏYANAT
*27 may 1996-cı il* ........ 595

«OQONYOK» JURNALININ AZƏRBAYCANA HƏSR OLUNMUŞ XÜSUSİ NÖMRƏSİNİN TƏNTƏNƏLİ TƏQDİMAT MƏRASİMİNDƏ NİTQ
*1 iyun 1996-cı il* ........ 603

«AZƏRBAYCAN RESPUBLİKASINDA İNSAN İNKİŞAFINA DAİR HESABAT» KİTABININ TƏQDİMAT MƏRASİMİNDƏN SONRA BİRGƏ MƏTBUAT KONFRANSI
*2 iyun 1996-cı il* ........ 611



AZƏRBAYCAN, ERMƏNİSTAN, GÜRCÜSTAN VƏ RUSİYANIN DÖVLƏT BAŞÇILARININ, HABELƏ ŞİMALİ QAFQAZ RESPUBLİKALARI, DİYAR VƏ VİLAYƏTLƏRİ RƏHBƏRLƏRİNİN GÖRÜŞÜNDƏN QAYITDIQDAN SONRA BİNƏ HAVA LİMANINDA «MİR» DÖVLƏTLƏRARASI TELERADİO ŞİRKƏTİNİN MÜXBİRİ İLƏ MÜSAHİBƏ
*3 iyun 1996-cı il* ........ 615

ALMANİYA FEDERATİV RESPUBLİKASINA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*1 iyul 1996-cı il* ........ 617

ALMANİYA FEDERATİV RESPUBLİKASINA RƏSMİ SƏFƏRƏ HƏSR OLUNMUŞ MƏTBUAT KONFRANSINDA BƏYANAT
*3 iyul 1996-cı il* ........ 619

**HEYDƏR ƏLİYEV və MƏTBUAT**


Nəşriyyat redaktorları: Nərgiz Rüstəmli, Xəlil Talıbov
Bədii redaktor: İntizar Əliyeva
Rəssam: Azər Ələkbərov
Texniki redaktor: Hümbət Musayev
Korrektorlar: Ofeliya Bayramlı, Suğra Osmanova

Yığılmağa verilmişdir: 05. 10. 2002. Çapa imzalanmışdır: 10. 03. 2003. Nəşrin ölçüsü: 70x90 1/16. Ofset kağızı №1. Tayms qarnituru. Ofset çapı. Fiziki çap vərəqi: 40,0. Sifariş: 18. Sayı: 500 ədəd. Müqavilə qiyməti ilə.

NURLAR
NƏŞRİYYAT-POLİQRAFİYA-MƏRKƏZİ

Bakı–370122, H.Zərdabi pr.-78. Tel: 977021, 971362.
Faks: 971295. E-mail: nurlar @ azdata.net

ऋ3(2R)
765